**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**
***«ORTAQ TÜRK KEÇMİŞİNDƏN***
***ORTAQ TÜRK GƏLƏCƏYİNƏ»***
**V ULUSLARARASI FOLKLOR KONFRANSI**
**BAKI - AZƏRBAYCAN**
**(17-19 OKTYABR 2007)**

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**
**V МЕЖДУНАРОДНАЯ ФОЛЬКЛОРНАЯ КОНФЕРЕНЦИЯ**
***«ОТ ОБЩЕГО ТЮРКСКОГО ПРОШЛОГО***
***К ОБЩЕМУ ТЮРКСКОМУ БУДУЩЕМУ»***
**БАКУ - АЗЕРБАЙДЖАН**
**(17-19 ОКТЯБРЬ 2007)**

**AZERBAYCAN MİLLİ İLİMLER AKADEMİSİ**
**FOLKLOR ENSTİTÜSÜ**
***«ORTAK TÜRK GEÇMİŞİNDEN***
***ORTAK TÜRK GELECEYİNE»***
**V ULUSLARARASI FOLKLOR SEMPOZYUMU**
**BAKÜ - AZERBAYCAN**
**(17-19 EKİM 2007)**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Konfransın Təşkilat Komitəsi / Организационный Комитет Конференции / Sempozyumun Düzenleme Kurulu**

**Sədr/Председатель:** Akad. M.Kərimov
**Sədr müavini/ Зам. пред:** Prof.Dr. H.İsmayılov
**Üzvlər/ Члены:** fil.e.n. O.Əliyev
fil.e.n.S.Rzasoy
fil.e.n.A.Xəlil

**Baş Katib / Главный Секретарь /Genel Sekreter**

fil.e.n. Afaq Xürrəmqızı

**Tərtib edəni: f.e.n.*Afaq Xürrəmqızı***

**Elmi redaktoru: f.e.d. *Hüseyn İsmayılov***
**Texniki redaktoru: *Ruhəngiz Əlihüseynova***
**Operator: *Şəfa Mürsəlova***

**ISBN-587066-138-6**

© «Səda» nəşriyyatı, 2007



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «ORTAQ TÜRK KEÇMİŞİNDƏN ORTAQ TÜRK GƏLƏCƏYİNƏ» ULUSLARARASI FOLKLOR KONFRANSINDA AMEA-nın PREZİDENTİ AKADEMİK MAHMUD KƏRİMOVUN KONFRANSI AÇILIŞ NİTQİ

**Əziz qonaqlar!**
**Hörmətli konfrans iştirakçıları!**

Artıq beş ildir ki, AMEA-nın İctimai-humanitar elmlər bölməsinin əsas intellektual ağırlıq mərkəzlərindən olan Folklor İnstitutu türk dünyasının bütövləşməsi, etnik-mədəni dəyərlərin ortaqlaşması missiyasına xidmət edən «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» adlı beynəlxalq konfransda türk dünyasının elmi elitasını Bakıya toplayır, onları birlikdə salamlamaq şərəfini bizlərə növbəti beşinci dəfə nəsib edir. Hər bir ümummilli missiyanın həyata keçirilməsinə yönələn ziyalı işinin faydalılıq əmsalı onun aydın müəyyənləşdirilmiş məqsəd və proqramı ilə yanaşı, bu işin davamlılığı, fasiləsizliyi ilə də müəyyənləşir. «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» beynəlxalq folklor konfransının beş il müddətində fasiləsiz və davamlı olaraq keçirilməsi bir daha onu sübut edir ki, konfransın adında ifadə olunan məqsəd Azərbaycan folklorşünasları, eləcə də bu konfransın ətrafına topladığı türk elmi elitası üçün, həqiqətən də, ümummilli səviyyədə dərk olunmuş missiya və uzaq hədəflərə hesablanmış uzunmüddətli strategiyadır. Bir daha konfransın 5 illik yubiley görüşündə hamınızı salamlayır və konfransın işində Sizə uğurlar arzulayıram!

İndi dünyada gedən ictimai-siyasi proseslər Avrasiya məkanında tamamilə yeni, sivil dünyanın qəbul etdiyi mənəvi-mədəni və sosial-siyasi modeldə türk etnik arealının bütövləşməsi üçün son dərəcə əlverişli şərait yaratmışdır. Qərbli mütəfəkkirlərin və sosioloqların proqnozlarına görə, elmi-texniki tərəqqinin nəticəsi olaraq fərqli mədəniyyətlərin bir-birinə yaxınlaşması, «kontinentlərarası dialoqlar» son nəticədə tamamilə yeni keyfiyyətli «sintez sivilizasiyası»nın yaranmasına aparıb çıxarır. Etnik-milli «Mən»imizin bu sintez proseslərində məhv olunmasının qarşısını almaq, türk xalqlarının tarix boyu yaratdığı mədəni dəyərlərin müasir sivil dünyanın təşkilində iştirakına nail olmaq üçün qloballaşma prosesesinə ayrı-ayrı etnik qəlpələr və hissələr kimi deyil, ortaq türk bütövü kimi daxil olmaq lazımdır. Bu, zamanın türk xalqları qarşısına qoyduğu, həyata keçirilməsi son dərəcə zəruri olan bir missiyadır. Bu baxımdan «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» devizi altında keçirilən bu konfransın əhəmiyyətini ümumtürk və beynəlxalq miqyasda yalnız elmi-mədəni baxımdan deyil, qloballaşan müasir dünyada türk etnosunun sosial-siyasi baxımdan da bütövləşməsində göstərə biləcəyi xidmətlə izah etmək lazımdır.

Bir məsələni də xüsusi vurğulamaq istərdim ki, həm etnik-mədəni, həm də sosial-siyasi baxımdan türk dünyasının birləşməsi, ortaqlaşması ideyası Azərbaycanda humanitar elmi elitanın romantik duyğuları, arzu və istəkləri deyildi. Humanitar elmi düşüncəmizdəki bu tendensiyanın əsası hələ on il bundan əvvəl Ümummilli lider, müstəqil Azərbaycanın qurucusu H.Əliyev tərəfindən qoyulmuş dövlətimizin strateji siyasət kursunun elmdə və mədəniyyətdə əks-sədasıdır. H.Əliyev türk dövlətlərinin bütövləşməsini bu dövlətlərdən yalnız ikisinin - Türkiyə ilə Azərbaycanın münasibətləri timsalında **«Bir millət, iki dövlət»** kimi formulə etmişdir. Əslində dahi öndərin bu formulu dünyanın dövlət strukturu olan və olmayan neçə-neçə türk qövmlərinin hamısının bütövləşmə modelini ifadə edir.

Türk xalqlarının ortaqlaşması etnik-milli özünüdərk aktının elmi müstəvidə nəzəri baxımdan əsaslandırılmış ifadəsidir. XIX əsrin ortalarında Azərbaycanın, Türkiyənin, həmçinin Şərqin mütəfəkkir şəxsiyyətləri tərəfindən nəzəri əsasları işlənilmiş, dəfələrlə gerkəçləşdirilməsinə cəhd olunan Vahid Türk dünyası ideyası XX əsrdə məhz H.Əliyevin əməli fəaliyyəti nəticəsində nəzəri müstəvidən real sosial-tarixi müstəviyə keçid ərəfəsindədir. Hələ əsrin ortalarında Azərbaycanın qırmızı imperiyanın tərkibində olduğu dövrlərdə H.Əliyev həmin ideoloji çərçivələrin imkan verdiyi şəraitdə, hətta bəzən bu çərçivələri aşaraq, ümumtürk ideologiyasının təməl prinsiplərinin əməli tətbiqi və bu ideyaların kütləviləşərək müxtəlif mədəniyyət sahələrində yaşaması istiqamətində xeyli iş görmüşdür. Azərbaycan dilinin dövlət dili elan olunması, bu qanunun tətbiqi, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması istiqamətində mühüm addımlar, ictimai-humanitar düşüncədə milli müstəqillik ideyalarının formalaşması, hakim ideologiya ilə müqayisədə mərkəzdənqaçma meyllərinin incəsənətin bütün sahələrində güclənməsi və sairəni özündə əks



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

etdirən məşhur Azərbaycan-türk fikir hərəkatı birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Artıq müstəqillik illərində, ötən əsrin 90-cı illərdən etibarən H. Əliyev türkçülük ideyalarını dövlət ideologiyasının tərkib hissəsinə çevirməyə başladı. Bu baxımdan dövlətimizin ideoloji maraqlarını özünün əsas fəaliyyət istiqamətinə çevirən Folklor İnstitutunun bu konfransı mütəmadi olaraq keçirməsi dövlətimizin milli-ideoloji maraqlarını da təmin olunması deməkdir.

Türk xalqlarının vahid etnik arealda bütövləşməsi sosial-siyasi proses olaraq mürəkkəb təşkil mexanizminə malikdir. Bu mürəkkəblik daha çox qloballaşan müasir dünyada etnik maraqlarla ümumbəşəri maraqlar arasındakı ziddiyyətdə özünü göstərir. Bu mənada ortaq türk gələcəyinə nail olunması türk etnik mentalı ilə planetar demokratik universum arasında nizama əsaslanan münasibətlərin müəyyənləşdirilməsindən də asılıdır. Elə buradaca onu da qeyd etmək yerinə düşərdi ki, türk etnik mentalında müasir demokratik dünyaya verilə biləcək dəyərlər kifayət qədərdir. Bəşəriyyət müasir sivilizasiyaya uzun əsrlər boyu türkün bu dəyərləri vasitəsilə gəlib çıxıbdır. Tarixən türklüyün əldə etdiyi bu dəyərlərin planetar mənəvi universuma daxil edilməsinin indi daha çox önəmi vardır.

Son dərəcə mürəkkəb iqtisadi, sosial-siyasi, dini-ideoloji və etnik-regional münasibətlər şəbəkəsinə malik olan müasir dünyada etnik bir bütöv olaraq mövcud olmaq üçün tarixən qazanılmış etnik potensialdan istifadə etmək, daha çox o potensiala istinad etməyi bacarmaq lazımdır. Etnik potensiala əsaslanmanın isə bir-birindən fərqli müxtəlif üsulları vardır. Bu üsulların içərisində isə ən effektivi folklora müraciətdir. Təbii ki, hər bir millətin etnik kimliyi, tarixən əldə etdiyi mənəvi-əxlaqi resursları heç bir milli-ictimai təsisatda olmadığı səviyyədə folklorda qorunub saxlanılmışdır. Xalqın tarixi, genezisi, etnik xarakteri, fəlsəfi dünyagörüşü, etik-estetik görüşləri, milli psixologiyası, mentaliteti folklorda bir mənəvi sistem olaraq mövcuddur.

Türk folklorunun təbliğ etdiyi dəyərlər bir tərəfdən etnik-milli, digər tərəfdən də ümumbəşəridir. Bütün texnogen nailiyyətlərinə baxmayaraq mənəvi vakuumda olan müasir dünya türk folklorundan mənəvi-əxlaqi dəyərləri əxz etməlidir.

Mən əminəm ki, dünyanın türk xalqlarının görkəmli türkoloq alimlərinin, folklorşünaslarının iştirak etdiyi bu konfransda bir-birindən maraqlı elmi məruzələr dinləniləcək, həm elmi baxımdan, həm də sosial-siyasi baxımdan gərəkli elmi nəticələr əldə ediləcəkdir.

Bir daha konfrans iştirakçılarını təbrik edir, hər birinizə uğurlar arzulayır və konfransı açıq elan edirəm!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**AMEA FOLKLOR İNSTİTUTUNUN DİREKTORU,**
**f.e.d. HÜSEYN İSMAYILOVUN**
**KONFRANS İŞTİRAKÇILARINA MÜRACİƏTİ**

**Əziz qonaqlar!**

**Hörmətli konfrans iştirakçıları!**

**Sizi, dünya türklərinin mədəni ortaqlaşması işində mühüm əhəmiyyət kəsb edən, xalqlarımızın tarixi keçmişinin, etnik əxlaqının və mənəviyyatının vahidliyini özündə ən bariz şəkildə təcəssüm etdirən «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» V Uluslararası Konfransda iştirak etməniz münasibəti ilə təbrik edir və salamlayıram!**

**Çıxışıma başlamazdan əvvəl qeyd edim ki, bu konfrans həm də AMEA Folklor İnstitutunun yaranmasının 5 illik ildönümünə təsadüf etməsi ilə də bizim üçün xüsusi əlamətdar hadisəyə çevrilmişdir.**

**Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu yarandığı tarixdən Azərbaycan folklorunun qardaş türk xalqları folkloru ilə qarşılıqlı əlaqədə öyrənilməsi üçün elmi və təşkilati işlərlə müntəzəm məşğul olur. Bu baxımdan 2003-cü ildən ardıcıl olaraq müntəzəm keçirilən «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» Uluslararası Folklor Konfransının türk xalqlarının mənəvi-mədəni, elmi-intellektual inteqrasiyasında öz payı, öz rolu vardır.**

**Artıq beşinci ildir ki, ardıcıl keçirilən bu beynəlxalq tədbir milli və siyasi coğrafiyası, beynəlxalq tərkibi, elmi sanbalı, mədəni-siyasi əhəmiyyəti və s. baxımdan yalnız Azərbaycanın elmi həyatının deyil, mədəni-siyasi həyatının da əlamətdar hadisələrindən birinə çevrilmişdir. Bu tədbirə Almaniya, Türkiyə Cumhuriyyəti, Özbəkistan, İran İslam Respublikası, Polşa, Şimali Kipr Türk Respublikası, Qazaxıstan, Türkmənistan, Gürcüstan, Dağıstan, Başqırdıstan, Tatarıstan, Qaraçay-Çərkəz, Kabardin-Balkar və Tuva respublikalarından 50-dən artıq folklor tədqiqatçıları qatılmışdır. Bütövlükdə götürüldükdə «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» Uluslararası Folklor Konfransı elmi, mənəvi, mədəni baxımdan olduqca möhtəşəm bir konfransdır.**

**Etnik-milli mədəniyyət sistemində mühüm struktur vahidlərindən birini folklor təşkil edir. Bunu şərtləndlirən başlıca səbəb odur ki, folklor yazılı ədəbiyyatdan fərqli olaraq, dolayısı ilə deyil, birbaşa, bilavasitə onu yaradan mədəni subyektin - etnosun təfəkkürünün etik-estetik təzahürü kimi meydana çıxır. Məhz bu xüsusiyyətinə görə, folklor etnik-milli mədəniyyətdə o mədəniyyətin müxtəlif təzahür formalarının genezisini təşkil edir, bu təzahür formalarının millilik keyfiyyətinin səviyyəsi folklora münasibətdə formalaşır.**

**Etnik-milli mədəniyyət sistemində istənilən kulturoloji təmayül digər etnik mədəniyyətlərin təsirinə də məruz qala bilər, kosmopolitizmə qədər millilikdən uzaqlaşa bilər. Lakin əgər bu uzaqlaşmaların kökündə folklor təfəkkürünə söykənmə, genezis etibarilə ona dayanma varsa, onda yenə də bu təzahürlər istər-istəməz milli keyfiyyətə malik olmalıdır. Beləliklə, etnik-milli mədəniyyətdə folklorun statusu keyfiyyət göstəricisi, milliliyin meyar və etalonu statusundadır.**

**Dünya xalqlarının qabaqcıl hissəsi öz folklor materiallarını, əsasən, son iki əsrdə elmi prinsiplərlə toplayıb nəşr etdiriblər. Bu çağdaş milli-mədəni tərəqqi dövründə bizim müstəqil dövlətimiz olmadığından bu nəhəng və möhtəşəm iş bizim nəslin payına düşüb.**

**Zəngin folklor irsimizin müasir dünya standartlarına uyğun elmi meyar və prinsiplərlə tədqiqi onun toplanma və nəşrindən heç də az əhəmiyyət daşımır. Son dövrlər bu sahədə görülən işlərin keyfiyyətində müsbət dəyişikliklər nəzərə çarpmaqdadır.**

**Dövlət müstəqilliyimizin bərpasınadək olan dövrdə Azərbaycan yad rejimə və yabançı ideologiyaya tabe edildiyindən Azərbaycan folklor işi də siyasi şəraitə uyğun olaraq keyfiyyətsiz şəkildə aparılıb. Bütövlükdə Sovet dönəmində görülən işin daha çox və həm də bütün hallarda tam sağlam olmayan kəmiyyət göstəricisindən danışmaq olar. Bir çox hallarda saxta ideologiya şəraitində işləyən folklorçular külli miqdarda xalqın folklor yaddaşında olmayan saxta mətnlər düzəldib və ya folklor üslubunda yazdıqları əsərlərini folklor adı ilə təqdim ediblər. Saxta mətnlərdən təşkil olunmuş folklor materialları üzərində aparılan tədqiqatların da, hətta professional səviyyədə hazırlansa belə, elmi dəyərindən və əhəmiyyətindən danışmaq mümkün deyil.**

**Əlbəttə, bizim tənqidlərimiz XX əsrin əvvəllərində fəaliyyət göstərmiş fədakar folklorçu nəslinin Firidun bəy Köçərli, Salman Mümtaz, Hümmət Əlizadə, Vəli Xuluflu, Əmin Abid, Hənəfi Zeynallı kimi nümayəndələrini nəzərdə tutmur. Biz, əsasən, zümrəvi represiyadan (1937-1938), kütləvi deportasiyaya (1988) qədər olan dövrü nəzərdə tuturuq. Represiyada milli ruhu elmi dövriyyəyə daxil edən ziyalılar məhv edildi, deportasiyada isə milli ruhun mühafizəkar şəkildə saxlandığı etnik-milli**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**(xalis türk) kütlə öz ilkin və təbii məkanından, doğma yurdundan itkin salınmaqla ciddi deformasiyaya məruz qaldı. Türk ruhuna və özgürlüyünə yönəlmiş terror aktı nəticəsində kütlə mənəvi deqradasiyaya uğradıldı. Əski dünyanın sahibinə öz, sahiblik hüququnu və haqqını bərpa etməyə heç zaman dost olmayan qarı düşmənlər tərəfindən imkan verilmədi. Çünki o düşmən bilir ki, ruhunu özünə qaytaran Türk milləti yenilməzdir. Bizim ruhumuz isə zaman-zaman sözə köçürülüb, onda köçəri cisimdən fərqli olaraq əbədi həyat qazanıb.**

**Əvvəlcə çar Rusiyası, sonra imperiyası – zaman-zaman bizi öz kökümüzdən uzaqlaşdırdı. Böyük dəyərlərlə silahlanmış ulu babalarımızın, əcdadlarımızın böyük mənəvi dünyasından bizi uzaq saldılar. Mənəvi səfalət yavaş-yavaş qanımıza işlədi. Bir tərəfdən, deyək ki, islam dinindən istifadə edən hakim dairələr yavaş-yavaş xalqın şüuruna fanatizmi, mövhumatı yeritdilər. Fanatizm insanın əl-qolunu bağlayan, onu köləyə çevirən vasitədir. İnsanın şüurunu iflic edir. İnam yaxşı şeydir. Biz Allaha inanırıq, dinimizə inanırıq. Yuxarıda qeyd etdiyim faktların təsiri idi ki, biz əxlaqımızdan, öz mənəvi dəyərlərimizdən, öz dünyamızdan qopduq və ayrıldıq. Mənəvi faciələrimizin başlanğıcını bunlarla hesablamaq lazımdır. Çar Rusiyası bizi yavaş-yavaş keçmişimizdən qırmağa başladı. Mollaxanalarda iki-üç il təhsil almaq, savad qazanmaq mümkün deyildi. Kənar ölkələrdə oxuyan ziyalıları isə barmaqla sadalamaq olardı. Milli ətalət, milli intelektual səviyyənin dəyərlərdən uzaqlaşması dünyaya meydan oxuyan şərin qələbəsi idi.**

**Bizi mənəvi dəyərlərimizdən uzaq salmaq, yəni keçmişimizdən iraq salmaqla, bunları xalqdan gizlətməklə içimizdə boşluq yaranmağa başladılar. Bu boşluq bizi mənəvi süquta, mənəvi deformasiyaya aparan bir yolun başlanğıcıdır. Nəticədə, Azərbaycanın Rusiyaya ilhaqından sonra sovetlər dönəmində bolşeviklərin Azərbaycana, Şərq qapılarına böyük təsiri ilə sonuclandı. Bunun nəticəsində insanları milli ruhdan məhrum edən adi robota, manqurtlara çevrilmə prosesinə başlandı.**

**Tarixi gerçəklikdir ki, Avropa Şərq dəyərləri üzərində öz dövlətini qurdu, öz mədəniyyətini formalaşdırdı, öz əxlaqi-mənəvi dəyərlərinə buradan nələri isə götürdü – beləliklə, inkişaf və tərəqqiyə başladı. Şərq tərəqqinin əsas mərhələlərini keçib. Dünya bir-beş illə ölçülmür. Bəşəriyyətin tərəqqisi min illərlə ölçülür. Bu min illərin arxasında Şərqin hansı yüksəlişlər keçdiyi məlumdur. Amma hakim dairələr, dövlət başçıları öz imperiyasını qorumaq üçün elə şərait yaratmağa başladılar ki, insanların milli şüurunu, milli-mənəvi əxlaqi dəyərlərini, qüdrətini təmin edən vasitələr arasından çıxsın. Və bu günkü «Qarabağ söhbəti» sübutdur ki, buna nail oldular. Xalq isə öz keçmişinə məhəbbətini, ünsiyyətini yalnız folklorunda saxladı.**

**Xalqın, ulu babalarımızın yaratmış olduğu ən ciddi mənəvi-əxlaqi dəyərlər, mədəniyyət, yaxud dövlət, yaxud həyat, ictimai aləmin dərk edilməsi ilə bağlı təsəvvürlər folklor elementlərində, folklor örnəklərində yaşayan informasiyalarda, xalqın hafizəsinə, qan yaddaşında yaşaya-yaşaya bu günümüzə gəlib çatıb.**

**Məlumdur ki, Azərbaycan folklor arealı həmişə onun siyasi sınırlarından çox geniş olub. Azərbaycanın özündən qoparılan, əslində isə bütün mədəni-mənəvi keyfiyyətləri ilə onun özü olan, özünü, ruhunu, qəlbini, könlünü, canını və qanını təşkil edən Qərbi Azərbaycan əhalisinin geniş kütləsinin söz, inam və sənət yaddaşında yaşayan Azərbaycan folkloru da təkcə biganəliyin və laqeydliyin qurbanı olmayıb, o həm də folklor maarifçiliyinin çox aşağı səviyyədə olması ilə böyük mənada indiyədək isə heç kiçik mənada da aparılmayan funksional mahiyyətinə görə müqəddəs folklor işindən kənarda qalıb. Qərbi Azərbaycan folklorunun öyrənilməməsi Qərbi Azərbaycanın torpaqlarının itirilməsinin səbəblərindən biri kimi çıxış edib. Biz Milli Ruh kateqoriyasını təsadüfən işlətmirik. Milli Ruh məhz milli duyğu və düşüncələrdən keçən, işlənən, daşlaşan, sabitləşən, yaddaşlaşan informasiya minimumu – folklor yaddaşı sakral enerji ilə təmin edir. Tanrı ilə mistik və estetik təmas, insanın və təbiətin poetik semantikası, toplumal emosiyalar, kodlaşmış zövqlər yalnız folklorda və onun vasitəsilə reallaşır. Folklor qorunanda Vətən də, vətəndaş da qorunur, folklor unudulanda Vətən itirilir, insan hörmətdən düşür, dövlət dağılır, mədəni institutlar sıradan çıxır. Dünyanın sayılan millətlərindən biri olan ingilislərin folklora hətta dövlətdən də yüksək bir dəyər verdikləri, folkloru qorumaq üçün dövlət səviyyəsində bütün zəruri tədbirləri həyata keçirdikləri məlumdur. Bu, optimal təcrübədir. İngilis millətinin müasir dünyadakı mövqeyi və statusu da bu münasibətin nəticəsi kimi örnək olaraq göstərilə bilər. Qeyd edim ki, vaxtilə M.Kaşqarlının yazıya aldığı folklor örnəklərindən birində "El qalır, törü qalmaz" atalar sözündə çox geniş məna ifadə olunub. Çağdaş türkcədə bu xalq deyiminin mümkün mənalarından biri və başlıcası "dövlət dağılar, ənənə dağılmaz"dır. Çünki dövlətçilik ənənəsi varsa, dövləti yenidən qurmaq, bərpa etmək olar. Amma ənənə dağılanda, folklor unudulanda onu heç kəs, heç nə əvəz edə bilməz. Bu, milli-mənəvi varlığın məhvi deməkdir.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Türk etnokulturoloji sisteminin mühüm tərkib hissəsi olan folklorun regional öyrənilməsi də olduqca böyük əhəmiyyətə malikdir. Bu əhəmiyyət özünü yalnız folklor irsinin hər hansı müasir türk övladının şüuruna inteqrasiyası kimi olduqca zəruri bir missiya ilə məhdudlaşmayıb, bütövlükdə türk etnik-mədəni sisteminin genezisini, digər mədəni təzahürlərə nə dərəcədə aidliyini də müəyyənləşdirməyə yardım edir.**

**Xalqın mənəvi və mədəni varlığını ən mükəmməl şəkildə özündə cəmləşdirən folklorun öyrənilməsi, bu dəyərləri daşıyan mətn materiallarının toplanıb nəşr edilməsindən başlanır. Nəzərə alsaq ki, cəmiyyətin bütün mədəni fəaliyyəti folklorda öz əksini tapır, tarix də, ədəbiyyat da, etnoqrafiya da, inam və din də öz nikbin ifadəsini onda, onun epoxal zaman qəliblərində və sosial emosiyaları ifadə edən motivlərində reallaşdırır, onda bu materialın əhəmiyyəti haqqında bir qədər də ciddi düşünməliyik. Folklor mətnlərinin toplanmasını operativ və intensiv şəkildə aparılmasını hazırkı sosial-siyasi situasiya da diqtə edir.**

**Folklor bütövlükdə xalqın özüdür və həm də təkcə özü deyildir. Görkəmli ədəbiyyatşünas Baxtinin bir ifadəsində deyilir ki, poeziya dilin bütün şirələrin sıxıb özündə cəmləşdirir və yalnız poeziyada dil özü-özündən böyük olar. Bu fikir eynilə folklora da aiddir. Çünki folklor xalqın bütün mədəni-mənəvi keyfiyyətlərini (həm də bütün zamanların) özündə cəmləşdirir və yalnız folklorda xalq özü-özündən böyük olur. Özünə qayıdış, özündən istifadə, özünüdərk yalnız folklora qayıdışla, ondan faydalanmaqla mümkündür. Cəmiyyətdə hər hansı bir ideyanın aşılanmasında, ictimai rəyin formalaşmasında folklorun funksional imkanlarının reallaşdırılması effektliyinə görə kommunikasiyanın heç bir başqa vasitəsi ilə müqayisə oluna bilməz. Çünki folklorun yaddaşda hazır kodları mövcuddur, sadəcə olaraq informativ siqnalların göndərilməsi onların funksionallığını təmin etmiş olur.**

**Müasir dövrü xarakterizə edən başlıca xüsusiyyətlərdən biri də milli-mənəvi, sosial-mədəni və ədəbi-estetik ehtiyatların səfərbər edilməsiylə cəmiyyətin mənəvi əsaslarını gücləndirmək, etnik-mədəni sistemin konstruktiv davranış stereotiplərini qlobal sivilizasiyaya inteqrasiya etməkdir. Müdriklik və zəka, harmoniya və informasiya əsri kimi səciyyələndirilən XXI əsr dünya xalqlarının qarşısına məhz etnik-milli müdriklikdən, harmoniyaya xidmət edən zəkadan gələn informasiya arsenalının müəyyənləşdirilməsi tələbini qoyur. Xalqın mənəvi varlığının ən optimal ifadəsi olan folklorda qorunan bu tipli informasiya həm də konkret xalqın tarixi-mədəni səviyyəsinin göstəricisi kimi çıxış edir. Ona görə də xalqın həm özünü özünə, həm də dünyaya tanıtması folklor irsinin öyrənilməsindən kənarda baş vermir.**

**Professor Yaşar Qarayevin dediyi kimi, qədim, poetik, ədəbi Azərbaycanı oğuz əcdadına, bütövlükdə türk dünyasına qaynadıb qovuşduran tellər çoxdur... Lakin onların ən sabiti və müqəddəsi dil faktıdır, vahid ana dili, azəri türkcəsidir, türk ruhu, mənliyi, özgürlüyüdür. Azərbaycanın söz, saz və sənət tarixindən bütövlükdə türk-turan aləminin çox aydın və sabit xəritəsi görünür. Dünyada türklərin yaşadığı ərazilər, türklərin saldığı izlər hamısı burada kəsişir və qovuşur.**

**Türk xalqlarının bir çoxu zaman-zaman əsarət altına düşsələr də, müstəqil dövlətiçilik şüurunun konservativ şəkildə qorunduğu folklor fondu ən ağır zamanlarda belə bu ideyalardan imtina etməyib. XI yüzildə Rumdan Çinədək olan geniş türk arealında folklor materiallarını toplayan Mahmud Hüseynoğlu Kaşqarlı «el qalır, törü qalmas» deyimini «dövlət itirilər, adət-ənənə itirilməz» şəklində təqdim etməklə, məhz dövlətçilik vərdişləri ənənəsinin folklorda yaşamasını, fasiləsizliyini bildirən həmin ata sözüylə özü də dövlətçiliyə xidmət edib. Türkoloji dilçiliyin və türk folkorşünaslığının banisi olan bu böyük bilgin xalq yaradıcılığının zəngin nümunələrini yazıya almaqla folkora ikinci bir həyat – kitab həyatı verib; dövlətçilik şüurunun möhkəmləndirilməsi, türk dövlətçiliyinin təbliği və tərənnümü ilə bağlı misilsiz xidmət göstərib.**

**Folklor İnstitutunun son bir neçə ildə folklorun toplanması, tədqiqi və nəşri ilə bağlı gördüyü işlər, əldə etdiyi uğurlar elmi ictimaiyyətə də, folklorsevərlərə də yaxşı məlumdur. Xüsusilə, ölkəmizin bütün bölgələrini əhatə edən «Azərbaycan folklor antologiyası» çoxcildliyi, «Azərbaycan folklorunun ilkin nəşrləri» seriyası, nəşrinə yeni başladığımız 100 cildlik «Azərbaycan folkloru külliyatı», «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər» və «Dədə Qorqud» beynəlxalq elmi-ədəbi dərgisi, çoxlu sayda folklor abidələri və folklorun tədqiqinə həsr olunmuş elmi araşdırmaların mütəmadi və yüksək səviyyədə çapı həm respublikamızda, həm də onun hüdudlarından kənarda nəşr olunmuşdur. Müntəzəm olaraq elmi seminarlar, konfranslar və başqa tədbirlər keçirilir, folklorun öyrənilməsinin mükəmməl metod və prinsipləri müzakirə olunur.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Folklor İnstitutunun peşəkar elmi kadrların işə cəlb olunması və gənc kadrların hazırlanması sahəsində də uğurlu fəaliyyət göstərməkdədir. Amma Folklor İnstitutunda folklor janrlarının öyrənilməsi, araşdırılması, təhlili, onlarda işarələnmiş əski milli-mədəni dəyərlərin rekonduksiyası üçün xüsusi nəzəri modellər və onların tətbiqi metodları, prinsipləri işlənib hazırlanmışdır; tətbiqi folkorşünaslıq istiqaməti inkişaf etdirilməkdədir. Hesab edirik ki, riyazi – kibernetik üsulların və kompüter texnikasının imkanlarından istifadə etməklə proqramlaşdırma əməliyyatlarının da vaxtı çoxdan çatmışdır.**

**Hər bir türk xalqının folklorunun öyrənilməsi ümumtürk kontekstində getməlidir. Çünki folklorun variantlaşma və variasiyalaşma meylləri bir milli toplum çevrəsində total folklor fondunu bərpa etməyə, folklor informasiyasının aktual üzvləşməsi və mətn differensiallaşmasını da nəzərə almaqla bir bütöv halında araşdırmağa imkan vermir.**

**Folklor mətninin variant və versiyalılığı şifahi ənənədə canlı olaraq mövcud olmasından irəli gəlir. Şifahi ənənə etnosun yaddaşıdır. Etnosun yaddaşı etnosun həyat təcrübəsi nəticəsində əldə etdiyi biliklərin şifahi ənənə vasitəsilə qorunan və nəsildən-nəsilə ötürülən bank sistemidir. Folklor mətninin variant və versiya törədiciliyi bu qorunma və nəsildən-nəsilə ötürülmə prosesində improvizasiya müdaxilələri nəticəsində yaranır. Etnosun tarix səhnəsində həyatı, ilk növbədə, öz daxili inkişaf qanunauyğunluğu ilə, bundan əlavə ictimai-siyasi hadisələrlə, əlaqədə olduğu etnik-mədəni sistemlərlə, sivilizasiya tipləri, dini dünyagörüşlərlə şərtlənərək daim dəyişir. Bu dəyişmə prosesi etnosun yaddaşında daşıdığı folklor mətn tiplərinin variant və versiya törədiciliyinin əsas səbəblərindəndir. Arxetip statusunda olan mətn yuxarıda göstərilən amillərlə şərtlənərək yeni variant törətdikdən sonra öz mövcudluğunu da davam etdirir və zaman keçdikcə törətdiyi mətnlə bərabərhüquqlu variantlara çevrilir. Yaxud mətn variantlaşmasının aktiv göstərən digər üsulu regional-məhəlli spesifika ilə şərtlənir. Məlum olduğu kimi, folklor etnik-milli sistem hüdudları daxilində universal xarakter daşımaqla yanaşı, lokal-regional səciyyəyə də malikdir.**

**Folklorun regional spesifikası da mühüm əhəmiyyətə malikdir və bu istiqamətdə araşdırmalar da xüsusi əhəmiyyət daşıyır. Folklorun bədii yaradıcılıq istiqaməti ənənəvilik, şifahilik, kollektivlik kimi dominant atributiv keyfiyyətlərlə səciyyələnir; folklor mətninin dil kollektivində ya ümumilikdə, ya da ən azı regional konteksdə toplum üçün anlaşıla bilən semantik kodu və şifrəsinin mövcudluğu folklor faktının mövcudluğunu təsdiqləyən zəruri hadisədir.**

**Folklorda semantik kod və şifrə yalnız mətnin poetik strukturunun elementi kimi qavranılmamalıdır. Folklorda semantik kod və şifrələr poetik strukturun elementi kimi özünü göstərsə də, mətnin semantik strukturu vasitəsilə etnik-milli düşüncə potensiyasını təzahür etdirir, onun xarakteri ilə şərtlənir. Yəni Gerçəklik – Şüur – Mətn münasibətlərində gerçəkliyin şüurda proyeksiyası etnik-milli xarakter daşıyır. Folklor təfəkkürünün özünün xarakteri etnik-milli olduğu üçün proyeksiyanın verdiyi mətn də milli məzmun kəsb edir. Konservativ folklor mühitlərində regional spesifikadan başqa, həm də əski ənənə yaxşı qorunur, arxaik elementlərin iştirakı intensiv xarakter daşıyır.**

**Qədim və orta əsrlər bəşər sivilizasiyasının inkişafında, sosial və mədəni tərəqqisində əhəmiyyətli rol oynamış türk mədəniyyəti onun öz tarixinin mürəkkəbliyi ilə şərtlənərək olduqca mürəkkəb xarakterə və inkişaf dinamikasına malik olmuşdur. Zaman-zaman türklər Çin, monqol, İran, german, slavyan, ərəb mədəniyyətləri ilə etnokulturoloji əlaqələrdə olmuş və bu əlaqələrin xarakterindən asılı olaraq mədəniyyətlərin tipoloji xarakteri müəyyənləşmişdir. Qədim və orta əsrlər türk mədəniyyətinin daxili diferensasiyası, başqa sözlə ifadə etsək, vahid struktur bütövlüyünü təşkil edən mikrostrukturlarının ayrı-ayrı etnik-mədəni sistemlərin yaranması bir tərəfdən ictimai-siyasi hadisələrlə şərtlənirsə, digər tərəfdən də digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrdən irəli gəlirdi. Ümumtürk mədəniyyətinin ayrılmaz tərkib hissəsi – struktur vahidi olan Azərbaycan etnik-mədəni sistemi yad etnik mədəniyyətlərlə (xüsusən İran) daha sıx qarşılıqlı münasibətlərdə olsa da, öz inkişafının istər təşəkkül, istər təkamül, istərsə də intibah mərhələlərində türkçülük keyfiyyətini həmişə yüksək səviyyədə mühafizə etmiş, müasir günümüzə qədər böyük türk dünyasının ayrılmaz bir parçası kimi qoruyub saxlamışdır. Nə ən qədim dövrlərin aborigen türk tayfaları ilə Qafqaz mənşəli xalqların etnokulturoloji münasibətləri, nə eramızın I minilliyinin ortaları qıpçaq-Qafqaz xalqları və İran əlaqələri, nə orta əsrlərin türk-ərəb və türk-İran əlaqələri, nə də XIX əsrin əvvəllərindən XX əsrin sonlarınadək türk-rus əlaqələri bu ərazidə – Azərbaycanda nisbəti heç vaxt etnik-mədəni sistemdə türklüyün zərərinə dəyişə bilməmişdir. Bu nisbət Azərbaycanın hər yerində, o cümlədən, Aranda – Albaniyada da belə olmuşdur. Bütün bu əlaqələr Azərbaycan etnik-mədəni sistemində tipologiyası etibarilə türk olan mədəniyyətin daha unikal təzahür çalarlarını meydana gətirmişdir. XII əsrdə Gəncəli Nizaminin fars dilində türk epik**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**təfəkkür imkanlarını daha unikal bir formada, yüksək bədii-estetik səviyyə əks etdirməsi, XVI əsrdə Füzulinin İslam mədəniyyətinin digər iki (ərəb və fars) komponentlərinin imkanlarını da türk dilinin rəsmi elitar dil səviyyəsinə yüksəldilməsi işinə səfərbər etməsi bunun bariz nümunəsidir. Orta əsr Azərbaycan-türk dövlətlərinin (Hülakülər, Ağqoyunlular, Səfəvilər və s.) əksəriyyətinin sınırları, Azərbaycan hüdüdlarından çox kənara çıxmış və əksər hallarda, bütün Cənubi Qafqazı, İranı, İraqı, Şərqi Anadolunu əhatə etmişdir. Göstərilən səbəblərdən indiki sərhədlərimiz xaricində yaşamış, yaxud ərəb-fars dillərində yazıb-yaratmış sənətkarlarımızı Azərbaycan mədəniyyəti (ədəbiyyatı) kənar hesab edilməsi kimi, son zamanlar ortaya çıxan meyllər qətiyyən yolverilməzdir.**

**AMEA Folklor İnstitutu yarandığı tarixdən etibarən mənəvi dəyərlərin milli və dövlət maraqlarının müdafiəsi və müstəqil dövlət quruculuğu işinə səfərbər edilməsi istiqamətində gərgin və səmərəli fəaliyyət göstərir.**

**Bu tipli konfranslar türk xalqlarının və türk dövlətlərinin həm də siyasi yekdillik və iş birliyi üçün bir ortam yaradılmasına xidmət etməlidir. Bildiyiniz kimi, Ermənistan Respulikası 15 ildir ki, Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ərazilərini işğal altında saxlayır. Bu işə haqq donu geydirmək üçün üzdəniraq qonşularımız bu ərazilərin qədim erməni məskəni olması barədə təbliğat aparır. Buradakı bütün maddi-mənəvi abidələr məhv edilir, tarixi Alban abidələrinin «erməniləşdirilməsi» işi aparılır.**

**Tarixən nə bugünki şimali Azərbaycanda, nə də indi Ermənistan adlandırılan qərbi Azərbaycanda xristian əhalisi sayca tanrıçı və şamanist, sonra müsəlman türklərdən çox olmamışdır. Bu gün Cənubi Qafqazda əsas xristian çoxluğu təmsil edən erməni-hayların bu bölgəyə yerləşməsinin isə məlum, çox uzağa getməyən tarixi vardır. XVIII yüzilin 1-ci rübündən – I Pyotrun vaxtından etibarən Rusiya imperiyasının Qafqaza, o cümlədən Cənubi Qafqaza artan xüsusi marağı, tezliklə açıq təcavüz və işğalçılıq xarakteri alaraq XIX yüzilin əvvəllərində bu bölgəni qanlı müharibələr meydanına çevirir. Cənubi Qafqaza uzanan rus süngüsü təkcə sərhədlərimizdən keçmir, təkcə torpaqlarımızı kəsib doğramır, həm də Qafqazın ən qədim, əzəli və ədəbi sakinləri və sahibləri olan xalqımızın milli mənəviyyatına, milli qürur və qəhrəmanlıq hisslərinə sarsıdıcı zərbə endirir. Rusların Qafqaz siyasətinin aləti olan, onlara Azərbaycana, İran və Türkiyəyə qarşı hərbi əməliyyatlarda daim cəsusluq edən ermənilər rus süngüsünün ucunda Qafqaza daxil olaraq, burada yallanmağa və yararlanmağa başlayır, Azərbaycan torpaqları hesabına özlərinə ev, kənd, sonra dövlət yaratmaq eşqinə düşür və XX yüzilin 1-ci rübündə buna nail olurlar.**

**Rusların Cənubi Qafqaza hücumundan və onu işğalından az sonra rus-erməni müttəfiqliyinin bu regionda Azərbaycan-türk mədəniyyətinə və mənəviyyatına daha sərt hücumu başlayır. Qarşısına Cənubi Qafqazı və onun xalqlarını "öyrənmək" vəzifəsi qoyulan bir sıra komissiya, cəmiyyət, ekspedisiya, jurnal və məcmuələr Azərbaycan xalqına məxsus tarixi abidə, dini ocaq, ziyarətgah, toponim və s.-ni məhv etmək, məhv edə bilməyəndə saxtalaşdırmaq, erməniləşdirmək istiqamətində irimiqyaslı işlər görürlər. Azərbaycan-türk folklorunun ən kütləvi nümunələri belə sətri və ya bədii tərcümələrə məruz qalaraq "erməni folklor nümunəsi" kimi çap edilir. Folklor, xüsusilə, nağıl və dastan qəhrəmanlarımızın "erməni mənşəyi" "kəşf" edilir. Qul koloniyalarında dünyaya gəlib, qul bazarında satılıb, bütün dünyaya aparılıb yayılan, ata-babasından dürüst xəbəri olmayan erməni törəmələri bu yolla özlərinə ata-baba, ana-nənələrinə ər-kişi təmin etmiş olurlar. Görkəmli qafqazşünas V.L.Veliçko ermənilərin bu cəhətini xüsusilə dəqiq müşahidə edərək yazmışdır: "Ermənilərdə başqa xalqlarla məcburi, zorakı cütləşmə də olub. İran qoşunları da, Azərbaycan tatarları da, türklər də, gürcülər də, dağlılar da (şübhəsiz rusların özü də! – H.İ.) ehtimal ki, dövlət quruluşunu və bu səbəbdən də özünü müdafiə qabiliyyətini çoxdan itirən bir xalqın qadınlarının nazı ilə oynamırdılar. Və belə əyləncələrdən aydın olur ki, ermənilərin damarlarında hər cür qan var. Qorxaqlığı Ön Asiyada zərb-məsələ çevrilmiş xalqdan vaxtaşırı qaranlıq fonda parlaq istisna kimi istedadlı və igid sərkərdələrin yetişməsi bununla izah olunur. Aydındır ki, onlarda başqa cəngavər xalqların qanı qaynayır, normal, əsl erməni isə bir neçə yerli dildə olan ümumqafqaz zərb-məsəlində deyildiyi kimi, "dovşandan qorxandır". Ermənilərin özünün "erməni tarixinin babası" adlandırdıqları Moisey Xorenli özü də etiraf etmişdir ki, "indi olduğu kimi, keçmişdə də qədim ermənilərin elmə və şifahi xalq mahnılarına sevgisi olmayıb. Ona görə də bu şüursuz, kəmağıl və vəhşi adamlar haqqında danışmaq mənasızdır".**

**Millətin taleyini düşünən, onunla yaşayan və bütün fəaliyyətini ona həsr edən Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gələndə dağılmış bir ölkəyə, nizamsız bir cəmiyyətə yiyə durdu. Böyük şəxsiyyətin uzaqgörən və təmkinli siyasəti nəticəsində cəmiyyət yavaş-yavaş dirçəldi, çökmüş və məhvə sürüklənən yarımcan ölkə ayağa qalxdı.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Xalqımızın Oğuz Xaqandan, Xızırdan və Həzrət Əlidən keçib gələn xilaskar Tanrıya olan inamı adında və əməlində bu qutsal mahiyyəti gercəkləşdirən Heydər Əliyev şəxsiyyətində zühur etdi, öz əski formasını və müasir məzmununu bir daha öndər və cəmiyyət münasibətləri sferasının aktual ruhani ünsiyyət və mistik təmasını bərpa etdi, əxlaq, adət-ənənə və milli davranışın mənəvi arsenalını özünə qaytardı. Heç vaxt, heç bir dövrdə xalqın belə etibarlı və sakral dəyərlərə söykənən inamını qazanmaq Tanrı iradəsindən kənarda baş verməyib, əksinə, onun istəyi ilə reallaşıb. Heydər Əliyev şəxsiyyətinə inam da Oğuz Xana, İstəmi və Bilgə Kağana, Toğrul bəyə, Böyük Türkiyəni dünyəvi dövlətə çevirən Mustafa Kamal Paşa Atatürkə olan inamın, milli yaddaşdakı öndər şəxsiyyət idealına bəslənən sevginin aydın və parlaq şəkildə sezilən kamil nümunəsi kimi real və konkret tarixi situasiyada təzahür etdi. Milli toplumu sosial-siyasi təlatümlərdə tərk etməkdə olan Milli Ruh onun qayıdışından başlanan qayğı ilə könül dünyasının dışından içərisinə daxil oldu.**

**Dünya xalqlarının tarixi taleyinə və sosial-siyasi təcrübəsinə nəzər salsaq, onda hökmən öndərin rolu və mövqeyini aydın şəkildə müşahidə edə bilərik. Məhz oyanış milli şüurun milli təşkilatlanmaya, milli dirçəlişə və istiqlala yönəldilməsi öndər missiyası və yerdə tanrının kölgəsi sayılan başçının xilaskar funksiyası ilə gerçəkləşir; azad insan da, demokratik dövlət də, təhlükəsiz vətən də bu zaman xəyal və arzu olaraq qalmır, sürətlə gerçəkləşir və konkret tarixi reallığa çevrilir. Bizim milli tariximizdə Xətaidən Azərbaycan Xalq Cümhuriyyətini quran milli ziyalılarımıza qədər zəngin və şərəfli səhifələr yazan böyük şəxsiyyətlərimiz olub. Bütün bu şərəfli tarixlə yanaşı Sovet dönəmi də daxil olmaqla bizim milli dövlətçilik təcrübəmizin ən nikbin ifadəsi özünü cənab Heydər Əliyev şəxsiyyətində tapdı. Xalqın həyatında mənəvi yüksəliş də bu böyük şəxsiyyətin başçılığı ilə başlandı. AMEA Folklor İnstitutu da məhz böyük öndərin yaratdığı bir elm-mədəniyyət ocağı olduğundan bu yubiley konfransında onu dərin hörmətlə yad etməyi özümə borc bilirəm.**

**Bu gün Türk xalqları öz dövlətçiliyinin möhəkəmlənməsi üçün onun folklorunu, milli tarixini, adət-ənənələrini qurmalı, saxlamalı və onlara sadiq olmalıdır (millətin yaşaması üçün bütün dünyada belə belə bir proses gedir). Bunu etməyən millət necə inkişaf edirsə-etsin, dövlətdə iqtisadi vəziyyət necə olursa-olsun məhvə məhkumdur. Hər bir dövlət milli-mənəvi dəyərləri ilə qurulanda güclü olur.**

**İnanıram ki, bu konfrans türk dünyasının müxtəlif bölgələrindən gəlmiş alimlərin elmi ünsiyyətini təşkil etməklə yanaşı, türk alimlərinin simasında türk xalqlarının mənəvi birliyini yaradılması, şanlı keçmişə malik türkün eyni işarəli gələcəyinin real olduğunun anılması işində irəliyə bir addım olacaq, ona doğru gedən yolları göstərəcək.**

**Sizin hamınızı bir daha salamlayır, konfransın işinə uğurlar diləyirəm!**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AĞIZ ƏDƏBİYYATINDA FOLKLOR ƏNƏNƏLƏRİ (AZƏRBAYCAN TÜRKLƏRİNİN ŞİFAHİ ƏDƏBİYYAT MATERİALLARI ƏSASINDA)

***AMEA-nın müxbir üzvü, Prof.Dr. Azad Nəbiyev***
***Bakı Dövlət Universiteti***
***Azərbaycan***

Söz sənətinin başlanğıcı olan ağız ədəbiyyatı incəsənətin xüsusi bir formasıdır. O, yarandığı erkən çağlardan etnopsixoloji düşüncə ilə bağlı olub söz-musiqi-rəqs sinkretizmində formalaşaraq tarixə yoldaşlıq etmişdir. Onun özünəməxsus spesifik təbiəti, zəngin yaradıcılıq ənənələri, sadədən mürəkkəbə, həmçinin mürəkkəbdən sadəyə istiqamətlənən, daimi yüksəliş və enişdə olan poetik strukturu, bir-biri ilə qarşılıqlı əlaqə, təmas və zənginləşmədə yaranan janrlaşma prosesi vardır. O, eyni zamanda özünəməxsus elmi istiqamətə malik olmaqla, bir sıra məqamlarda etnoqrafiya, kulturaloqiya, sosialogiya, psixologiya, musiqişünaslıq, xoreoqrafiya və daha bir neçə başqa elmlərin qovşağında fundamental düşüncənin formalaşmasında iştirak edir. Folklorla sıx bağlı olan bütün bu qarışıq elm sahələrinin özünəməxsus predmeti olduğu kimi, hər birinin fərdi araşdırılma metodu və prinsipləri, öyrənilmə çevrəsi və sərhədləri mövcuddur. Bütün bunlar isə folkloru filoloji kontekstdə araşdırmalardan kənarda qoymağa əsas vermir. Ancaq onu ədəbiyyatşünaslığın ölçü və qəliblərindən əsaslı şəkildə fərqlənən folklorşünaslığın elmi-nəzəri prinsipləri əsasında öyrənmək zərurətini müasir mərhələdə daha aktual şəkildə gündəmə gətirir. Ədəbiyyatşünaslıqdan fərqli olaraq folklorşünaslığın yaranma tarixi sonrakı yüzilliklərlə, xüsusilə XIX yüzilliyin sonuncu qərinələri ilə daha çox bağlıdır. Həm də Avropada yaranan bu elmin türk xalqlarının ağız ədəbiyyatını əhatə etdiyini, yaxud onun sayəsində ayrı-ayrı türk xaqlarının, eləcə də ortaq türk keçmişi qaynaqlarından süzülüb gələn folklor yaradıcılığının qlobal dünyaya yayıldığını söyləmək təəssüf ki, hələ həqiqətə uyğun olmazdı.Türk xalqları folklorunun, o cümlədən türk, Azərbaycan, özbək, türkmən, qazax, qırğız, kunuk, qaraqalpaq və digər xalqların folkloru barədə bir sıra dəyərli tədqiqatların aparılmasına, monoqrafiyaların, toplama və tərtib işlərinin geniş qeyd və şərhlərlə nəşrinə baxmayaraq ümumtürk folklorşünaslığı hələ dünya standartları səviyyəsinə yüksələ bilmədiyi kimi, bütövlükdə ümumtürk kontekstində qlobal dünyaya da təqdim oluna bilməmişdir. Bu xalqların mifologiyası, tarixi, epik-romantik və qəhrəmanlıq eposu, çoxşaxəli və milli həyat detallarını geniş bədii çalarlarda əks etdirən janrları dünya dillərinə tərcümə edilib kifayət qədər yayılmamışdır. Şübhəsiz ki, bunun bir sıra obyektiv və subyektiv səbəbləri olmuşdur. Keçmiş postsovet məkanında yaşayan türk xalqları müstəqillik əldə etdikdən sonra milli kökə, mənəviyyata qayıtmağa başlamaları ilə bağlı ağız ədəbiyyatlarının öyrənilmə şərtlərinə yenidən baxmış, milli-mənəvi və əxlaqi dəyərlərin tədqiqinin yeni sərhədləri müəyyən olunmuşdur. Ortaq türk folklor qaynaqları müxtəlif istiqamətlərdə araşdırılmağa başladığı kimi, türk xalqları folklorunun nəzəri əsaslarının tədqiqinin zəruriliyi də gündəmə gəlmişdir.

Bir sıra başqa xalqlar folklor yaradıcılıqlarını geniş nəzəri ölçülərdə öyrənməkdə xeyli irəliyə gedə bilmişlər. Bu sahədə dünya folklor nəzəriyyəsinin yaradılma prosesinə qoşulan V.V.Vladimirovun, F.İ.Busulayevin, A.A.Potebnyanın, Maks Millerin, V.Y.Proppun, M.K.Azadovskinin və onlarla başqalarının xidmətləri əvəzsizdir. Türk xalqları folkloru tədqiqatçıları içərisində də belə şöhrətli araşdırıcılar az deyildir, V.M.Jirmunski, H.T.Zərifov, Qirzıoğlu, M.Ergin, O.Şaiq, D.Atsız, Ə.Abid, H.Araslı, M.H.Təhmasib, B.A.Qarrıyev, X.H.Koroğlu, T.Mirzayev və başqaları ümumtürk ağız ədəbiyyatının öyrənilməsinə böyük əmək sərf etmişlər. Bütün bunlara baxmayaraq türk xalqları folklorşünaslığının bir çox nəzəri məsələlərinin öyrənilməsi hələ gündəmdə qalmaqdadır.

Azərbaycan ağız ədəbiyyatının mühüm nəzəri məsələlərindən biri də folklor ənənəsidir. "Ənənə" anlayışı filoloji elmin ayrı-ayrı sahələrində müxtəlif mənalarda işlənir. Ədəbiyyatşünaslıq və folklorşünaslıqda isə janrın tələbinə uyğun hamı tərəfindən poetik tələb, struktur ölçü kimi başa düşülür. Klassik poeziyada, epik poemalarda Allahın, Peyğəmbər əleyhissalamın və hökmdarın tərifi şərq poeziyasında pozulmaz ənənə hesab edildiyi kimi, Azərbaycan türklərinin ağız ədəbiyyatında da mətnin struktur təkibinə vahid forma verən, onu pozulmaz qəlibə salan, bütün improvizatorçu sənətkarlar tərəfindən gözlənilməsini zəruri edən tələblər-ənənələr mövcuddur. Əgər klassik poeziyada bu ənənə, məsələn N.Gəncəvinin "Sirlər xəzinəsi"(1), yaxud "İskəndərnamə"nin(2) əvvəlində danışılan hadisədən əvvəl gözlənilirsə, hər üçünün tərifi biri-birinin ardınca verilir və şair yalnız bundan sonra qələmə aldığı mövzuya keçirsə, Azərbaycan türklərinin ağız ədəbiyyatının müxtəlif janrlarında folklor ənənəsi janrlar üzrə fərdiləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Folklor ənənəsi bir çox halda janra həyat verir, onu yaşadır və başqa janrlardan fərqləndirir. Bundan əlavə, onun daha bir mühüm xüsusiyyəti janra verilən tələbi qətiləşdirməsidir. Məsələn, əfsanə barədə danışanda deyirik ki, "Əfsanə deyirlər", "əfsanə edirlər", "söyləyirlər" formal kəlmələri ilə başlayır, olmuş və ya olması mümkün edilən hadisə məzmununu əhatə edir. Demək, bu janrın ənənəvi tələbidir.(3) O, bu və ya digər şəkildə pozulanda janr öz qəlibindən çıxıb həm struktur-poetik məzmununu itirir, həm də janr tələblərindən uzaqlaşır. Ənənənin pozulması mətni dəyərdən salır, onu janr sisteminin başqa oxşar prinsiplər əsasında yaranan nümunələrdən fərqləndirməyi çətinləşdirir.

Əfsanə ilə rəvayət arasındakı ölçü amplitudasını müəyyən edən başlıca meyar yenə folklor ənənəsidir. Janrı müəyyənləşdirməkdə ən dürüst göstəricidir. Epik üslubun rəvayət janrı ilə əfsanə arasında ümumi cəhətlərlə yanaşı, fərqlər də mövcuddur. Ümumi cəhətlər üslubda, təhkiyədə, repertuar statusunda və s. daha çox mühafizə edilir, zahiri əlamətlərdə oxşarlıqlar yaradır, janrın fərqli cəhətləri də yenə yaradıcılıq ənənəsinə söykənir. Rəvayətlər "nəql edirlər "söyləyirlər", "rəvayət edirlər" formal kəlmələri ilə başlayır və ibrətamiz həyat faktını əhatə edir. Onlardakı ənənə mətnin ibrətamizliyini təlqin edir, insanları cəmiyyətdə nə vaxtsa baş vermiş bir həyat həqiqətindən ibrət götürməyə çağırır. Məsələn aşağıdakı mətnə diqqət yetirək:

Bir gün padişah fərman verirb bütün ahıl, qoca adamları ölkədən çıxarmışdı. Bunu görən düşmən ölkəyə hücum edib, şah sarayı meydanında çevrə çəkir və buna cavab istəyir. Heç kəs düşmənə cavab verə bilmir. Bir çoban oğlu padişahdan xəbərsiz atasını gizlətmişdi. Çoban əhvalatı atasına danışır. Müdrik qoca deyir ki, kömür götür get, çevrəni iki yerə böl. Düşmənin ikinci və üçüncü sualının cavabını da qocadan öyrənirlər. Düşmən təslim olub gedir.(4) Padişah əhvalatdan ibrət götürür, verdiyi fərmanı geri oxuyur, görür ki, ölkəni ağıllı, elmli, təcrübəli adamlar olmadan idarə etmək mümkün deyildir. Bu ibrətamizlik rəvayətin məzmununa keçir, ənənəvi sujetə çevrilib folklor yaradıcılığına düşür. İbrətamiz düşüncə eyni zamanda janrın məzmununda onun aparıcı xüsusiyyətlərindən biri kimi funksiyalaşır.(5)

Demək, əgər əfsanə yaradıcılığında olmuş və ya olması mümkün olan həyat faktının təhkiyəsi yolu ilə insana müxtəlif dünya həqiqətlərinin informasiyası ötürülürsə, eyni zamanda o, estetik dəyər funksiyasında çıxış edir. Rəvayət isə əksklikləri və qanunauyğunluqları ifadə edir, daha çox tərbiyəedicilik mövqeyində dayanır, nüfuzedicilik, ibrətamizlik əlamətlərinin daşıyıcısı funksiyaları ilə fərqlənir.

Ağız ədəbiyyatı janrlarının böyük və kiçikliyindən, folklor janrının qədim dövr, orta əsr, yaxud yeni dövr yaradıcılığında meydana çıxıb formalaşmasından aslı olmayaraq folklor ənənəsi janrın başlıca mahiyyətini əhatə edir. Əslində ənənə janrın, paremik vahidin, deyim və ya söyləmənin poetik strukturunu müəyyən edir, onun janr tərkibindəki yerini qəti şəkildə dürüstləşdirir. Bu baxımdan epik üslubun lətifə janrı maraqlı funksiyalara malikdir. O əfsanə və rəvayətə yaxın olmasına baxmayaraq struktur tərkibində folklor ənənəsinin yeni məzmun çevrısini yaradır. Zahiri müşahidə hər üç janrda oxşarlıqlar formalaşdırır. Ancaq lətifədə nəzərə çarpan folklor ənənəsi bütün janrlararası oxşarlıqları arxa plana keçirir. Lətifənin təsnifat qruplarından aslı olmayaraq başlıca yaradıcılıq ənənəsi kimi gülüşü önə çıxarır, məzmunun tərkibində onun funksiyasını fərdiləşdirir. Bu, onu xalq nəsrinin bütün başqa nümunələrindən ayırır, janr sistemində ki, yerini möhkəmlədir, neqativ cəmiyyət hadisələrinin ifşa simvoluna çevirir. Molla Nəsrəddinin adı ilə bağlı bir lətifəyə diqqət yetirək: "Molla Nəsrəddin təzə çəkmə almışdı. Yolda quldurlara rast gəldi. Onu saxladılar "Bu ağacı çıxa bilərsənmi?" deyə soruşdular.

Molla:

-Bəli çıxaram-dedi.

Sonra çəkmələrini çıxarıb qoltuğuna vurdu.

Quldurlar soruşdular:

-Çəkmələrini niyə çıxardın?

Molla dedi:

-Bəlkə yolum ağacdan o yana düşdü".(6)

Bu kiçik lətifədə ölkədəki soyğunçuluğa və dərəbəyliyə etiraz vardır. Bu etiraz təkcə lətifəçidən, yaxud söylənən mətnin məzmunundan irəli gəlmir, lətifənin məna dolğunluğunu janrın baş tələbi olan foklor ənənəsində axtarmaq gərəkdir. Həm də bu ənənə lətifələrin demək olar ki,bütün təsnifat qrupları üçün eynidir. Həmin qruplar dəyişdikcə, lətifənin müxtəlif məzmunlu tipləri yarandıqca yaradıcılıq ənənəsi özü də dəyişir, məzmunca fərqli variantlara düşür. Gülüşün həm yumoristik, həm satirik, həm də kəskin ictimai məzmun dəyəri lətifə mətnində iştrak edir, cəmiyyət idarəçiliyinin müxtəlif formalarda tənqidi diqqəti cəlb edir. Lətifədəki yumoristik gülüş folklor ənənəsinin xalqla bağlı psixologiyasından süzülüb gəlir. Gülüşün cəmiyyətə yönələn tənqidi fərqli modellər yaratmaqla folklor ənənəsi məzmunca dəyişir, mövzu baxımından zənginləşir, lətifənin poetik üslubuna möhtəşəmlik verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Folklor ənənəsi nağıl yaradıcılığında isə janrın həm poetik strukturunun formalaşmasında, həm də şər üzərində qələbənin saxlanılmasında özünü göstərir. Bütün nağıllar məzmunundan aslı olmayaraq xeyrin təntənəsinə xidmət edir. Bu nağılçılıq ənənəsinin pozulmaz ana xəttidir. Peşəkar nağılçılığın qədimdən yaranıb formalaşan ənənələri nağılı struktur zənginliyi baxımından xalq nəsrinin ən aparıcı janrlarından birinə çevirdiyi kimi, onun eyni zamanda müxtəlif təhkiyə qəliblərini müəyyən edir. "Biri var idi, biri yox idi" həqiqətinə əsaslana sujet "göydən üç alma düşdü" ənənəsinə uyğun tamamlanır.

V.Y.Proppa görə "peşəkar nağılçılıq hadisəsi milli repertuarda yaranan folklor ənənələri zəminində baş verir. O, peşəkar təhkiyədə nağılı formalaşdırdı, pozulmaz ölçü və qəliblər yaradır."(7)

Folklor ənənəsi ağız ədəbiyyatının janr sisteminin müəyyənləşməsində başlıca funksiyalara malik olduğu kimi, onun özünün də maraqlı inkişaf dinamikası mövcuddur. Sadədən mürəkkəbə doğru daimi inkişafda olan bu yaradıcılıq ənənəsi "Kül təpəcik olmaz", " Çıxan can geri dönməz", "Qarı düşmən dost olmaz" və s. kimi paremik vahidlərdən başlayaraq ağız ədəbiyyatı üslublarının bütün forma və şəkillərinin yaranmasında yüksələn xətt üzrə dinamikada olmuşdur.

X.Koroğluya görə, folklor ənənəsi kiçik paremik vahidlərdən Oğuz epik ənənəsinin formalaşmasına qədərki inkişafda aparıcı rol oynamışdır.(8) O, Oğuz eposunu, ondan sonrakı milli dastançılıq ənənələrini yaratmış, eləcə də xalq şeri və aşıq poeziyasının ölçü və qəliblərinin pozulmazlığını şərtləndirmişdir.

Poetik və epik təhkiyə pərakəndəlik sevmir. O, sistemli, müəyyən ölçü və qəliblərə tabe, səs, söz komplekslərinin vahid hormoniyasını əks etdirən ənənələr üzərində qurulur. Həmin ənənələrə uyğun yaranan sujet, motiv və obrazları milli epik düşüncənin yaddaşına ötürür, bütün sonrakı repertuar həyatında peşəkar improvizatorçular yaranan bu söz "cəbbəxanası"ndan istifadə etməklə peşəkar nağılçılığın, Oğuz eposu milli dastançılıq və aşıq ifaçılığının estetik dəyərlər çevrəsini üzə gətirir. "Kitabi-Dədə Qorqud" poetik srukturu yeni çalarlarda "Koroğlu"ya transfer olunur, məhəbbət dastanlarının ustadnamə-duvaqqapma qəlibi yaranır, aşıq şerinin möhürbəndi formalaşır.

"Kitabi-Dədə Qorqud"dan türk epik yaddaşına səpələnən yaradıcılıq ənənəsi qıpcaq və oğuz eposunun, orta əsrlərin epik-romantik və məhəbbət dastanlarının forma, məzmun və struktur sxeminin formatında mühüm funksiyalarda çıxış edir.

Folklor ənənəsi çoxvariantlı və çoxmərhələli sujetləri əhatə edir, onu janrları üzrə qruplaşır. Məsələn, folklor mətni variantlarında bəzən ənənəvi mətndən fərqli variant üzə çıxır. M.K.Azadovski yazır ki, belə hallarda son informatorçudan alınan sujetlə daha əvvəl məlum olanı müqayisə etmək gərəkdir. Həmin müqayisədə folklor ənənəsinin ikinci mətnin alt məzmun qatında qorunub saxlandığı aşkarlanır.(9) Bu hal bütövlükdə Azərbaycan folklorunun həm müxtəlif janr variantları mətnində, həm də peşəkar nağılçılıq və Oğuz eposunun repertuar həyatında ənənəvi xüsusiyyət kimi nəzəri cəlb edir. Bununla belə, variantların mövcudluğu heç də deməyə əsas vermir ki, onların hamısı bir-birinə oxşayır, yaxud məzmunu tamamlayır. Bənzəməyən variant da ola bilər.Variantlar konkretliyi ilə seçilir. Əsas variatda isə məzmun steriotipini qoruyan mətində-invariantda ənənə pozulmaz şəkildə qorunub saxlanır. B.E.Qusyevin yazdığı kimi, real variantlardan bəhs edəndə onlar arasında oxşarlıqlarla yanaşı, hansı cəhətləsə onları bir-birindən fərqləndirən xüsusiyyətlərin olması şübhəsiz ki, labüd hesab edilməlidir.(10)

Deməк, folklor mətninin ənənəvi tipi onun variantları arasındakı ümumi məzmun oxşarlığı ilə bilavasitə bağlıdır. Ancaq bu oxşarlıq ənənəvi sxemlərlə deyil, varintların konkret məzmunu və oxşar atributları ilə bağlıdır. Bu isə folklor ənənəsinin ağız ədəbiyyatında daimi dinamikada olduğunu göstərməklə, onun fərd-kollektiv-fərd-kollektiv yaradıcılıq prosesindəki hərəkət pozulmazlığını təsdiqləyir.

Folklor ənənəsi ağız ədəbiyyatının elə zəngin cəbbəxanasıdır ki, hər kəs orada istədiyini görə, lazım olanı götürə bilir. Ona görə də folklor ənənəsinin müxtəlif səviyyələrdə işlənməsinə ehtiyac vardır.(10) Onun ilk növbədə **danışıq dili** materialı kimi tədqiqata cəlb etmək zəruridir. Müxtəlif variantların müqayisəsi hər şeydən əvvəl mətnin dil baxımından öyrənilmə zərurətini qarşıya qoyur. Çünki folklor mətnlərində ənənəvi folklor elementləri dil vahidlərində daha fəal qorunub saxlanır.

**İkincisi,** dövrü süjet göstəricilərində ənənəvi süjet detallarının sıralanması sistemi tarixi-xronoloji prinsiplər üzrədir. İstər N.B. Vasilyevin, istərsə də A.F.Qilferdinqin süjet göstəricilərində folklor ənənəsi motiv və süjetlərinin xronoloji sisteminin təsviri vahid prinsipə əsaslnır. Elə bu əsasda da Azərbaycan türklərinin ənənəvi süjetlərinin sxemini açıqlamaq imkanı reallaşır.

**Üçüncüsü**, folklor ənənələrinin daşıyıcı sujetləri kompazisiya quruluşu baxımından tədqiqata möhtacdır. Çünki Azərbaycan folklorşünaslığında ayrı-ayrı mətnlərin süjet və kompozisiya baxımından tək-tək hallarda araşdırmalara cəlb edilməsinə baxmayaraq, folklor ənənələrinin daşıyıcısı olan paremik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vahidlərindən – atalar sözü, məsəl, and, inanc, alqış, qarğış və s. tutmuş xalq nəsri nümunələrinə qədər heç bir janrın süjet-kompozisiya sistemi ayrıca tədqiqat obyekti olmamışdır.

**Dördüncüsü**, folklor ənənələrinin ideya-məzmun baxımından araşdırılması da günümüz üçün aktualdır. Bu, hər şeydən əvvəl bayağı foklor yaradıcılığı axınının qarşısını almağa imkan yaradır, foklor yaradıcılığı məzmununun saflığını qorumaq imkanını genişləndirir.

Nəhayət, **altıncısı**-foklor ənənələrinin janr-struktur, quruluş və məzmun etibarı ilə araşdırılması da öz aktuallığı ilə diqqəti cəlb edir. V.Y.Propp, eləcə də strukturalist nəzəriyyə tərəfdarları folklor mətnlərinin ayrı-ayrı struktur tərkib üzrə araşdırılma imkanlarından bəhs edərkən göstərirdilər ki, bu metod janr tərkibini bütün detalları ilə açıqlamaq imkanını reallaşdırır. M.Y.Propp göstərirdi ki, ənənəvi folklor janrlarının, o cümlədən nağıl və bılinalarda folklor ənənələrinin struktur istiqamətdə araşdırılması janrın tərkibini, ənənəvi struktur xüsusiyyətlərini açmağa imkanlar yaratdığı kimi, folklor nəzəri fikrinidə yeni inkişaf istiqamətlərini müəyyənləşdirmək yolunu işıqlandırır.

Azərbaycan folklorşünaslığını və bütövlükdə ümumtürk folklor nəzəri fikrini məhz bu istiqamətlərə yönəltməyin vacibliyi isə artıq gündəm də durmaqdadır.

**ƏDƏBIYYAT**

1. Nizami Gəncəvi. “Sirlər xəzinəsi”, Bakı,1983, s. 17-101
2. Nizami Gəncəvi. “İskəndərnamə”, Bakı,1985, s. 31-89
3. Azad Nebiyev. Azərbaycan folklorunun janrları, Bakı, 1983, s.47
4. Rəvayətlər, Bakı, 1956, s.117
5. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı, II hissə Bakı, 2004.
6. Molla Nəsrəddin lətifələri, Bakı, 1956, s.112
7. V.P.Propp, Russkaya skazka, M, 1981, s.142
8. X.Q.Koroğlu, Oğuzskaya epiçeskaya traditsya, “Drujba norodov” jurnalı, M. 1983,№2, s.47-51
9. M.K.Azadovski. İstoriya russkoy folkloristiki, I c., M. 1981, s.186
10. B.E.Qusyev. Estetika folklora, M. 1987, s.142
11. B.P.Anikin. Teoriya folklora. M. 2004, s.41-42



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# DƏDƏ QORQUDUN MƏZAR YERİ HAQQINDA ƏLİHÜSEYN DAĞLININ «OZAN QARAVƏLİ» ƏSƏRİNDƏ MÜLAHİZƏLƏR

**_Sən. nam. Abbasqulu Nəcəfzadə_**
**_Azərbaycan Milli Konservatoriyası_**
**_Azərbaycan_**

Öncə bu günki nəslin az tanıdığı Əlihüseyn Dağlı və istinad etdiyimiz əlyazması haqqında məlumat vermək istəyirəm.

Ə.Dağlı həyat kitabına çevrilən «Ozan Qaravəli» əsərinin əlyazmaları üzərində ömrü boyu işləyib. Bu əsəri elmi üslubda deyil, hamının oxuması üçün elmi-kütləvi səpkidə yazmağı üstün tutduğundan, əsər bir elmi mövzu kimi rəsmiləşdirilməmiş, uzun illər Azərbaycan Elmlər Akademiyasının İncəsənət İnstitunun elmi arxivində **«inv. 30561»** şifrəsilə mühafizə edilib. Sonralar musiqişünas alimlərin diqqətini çəkdiyi və ona daha çox müraciət olunduğu üçün «Ozan Qaravəli» adlı əlyazma Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmaları İnstitutunda **(C-1021/9974 şifrəsilə)** mühafizəyə götürülüb.

Əlyazma 1924-1958-cu illərdə müəllif tərəfindən ərəb qrafikası ilə yazılıb, 1969-cu ildə isə üzü kirill qrafikalı Azərbaycan əlifbası ilə köçürülüb. İndiyədək dərc olunmamış əsər 5 hissədən ibarətdir. «Ozan Qaravəli» əsərinin I hissəsini 2006-cı ildə yüngül redaktə ilə nəşrə hazırlayıb oxuculara təqdim etmişik. Keçən əsrin 50-ci illərində makinadan çıxan əsas və əlavə nüsxələrdə, öz əlyazmaları olan vərəqlərdə müəllif çoxsaylı əlavə qeydlər edib.

«Ozan Qaravəli»nin adına bir sıra tədqiqatçıların, xüsusən sənətşünaslıq doktoru Səadət Abdullayevanın əsərlərində tez-tez rast gəlirik.

Əlihüseyn Dağlı kimdir və nə üçün indiyə qədər geniş ictimaiyyətə az tanınır? – sualına cavab vermək üçün onun tərcümeyi-halına nəzər yetirək…

Əlihüseyn Əbdülhəmid oğlu Həmidov (partiya təxəllüsü Dağlı) 2 sentyabr 1898-ci ildə Bakı quberniyası Quba qəzası, Bərmək mahalının Xızı kəndində ziyalı ailəsində doğulub.

1906-cı ildə Əlihüseyngilin ailəsi Xızıdan Bakıya köçüb. O, 15 yaşından daş karxanasında fəhləlik edib, Bakı konkasında[1] arabaçı və konduktor, «Bakı-Kaspi» qəzetinin yayıcısı işləyib.

Bakı kommunasının hakimiyyəti dövründə paytaxt rayonlarından birinin ərzaq komitəsinin sədri olub.

Ə.Dağlı Partiya Məktəbinin ilk məzunlarından biri idi. Məktəbi əla qiymətlərlə bitirdikdən sonra həmin təhsil ocağında müəllim vəzifəsində çalışıb. O, Peterburqda Hərbi Akademiyanı bitirib.

1920-23-cü illərdə Bakı qarnizonunun hərbi komissarı, Azərbaycan SSR Ali İnqilabı tribunalı kollegiyasının üzvü olub. Sərhəd briqadasının hərbi komissarı vəzifəsində işləyəndə Azərbaycanın dövlət sərhədlərinin möhkəmləndirilməsi və qorunması sahəsində çox işlər görüb.

Gəncədə, Ağdamda ilk musiqi məktəbləri Ə.Dağlının təşəbbüsü ilə yaradılıb.

1924-cü ildən 1932-ci ilədək Ə.Həmidov respublika Ali Məhkəməsi kollegiyasının üzvü, Gəncə qəza məhkəməsinin sədri, hərbi hissələrin və Xəzər hərbi gəmiçiliyinin hərbi prokuroru, Azərbaycan SSR Baş Milis İdarəsinin rəisi, Azərittifaqın idarə heyətinin sədri vəzifələrində çalışıb.

Ə.Həmidov bu illərdə paralel olaraq elmi, ədəbi-bədii yaradıcılıqda və curnalistika sahəsində qələmini sınayıb. 1930-cu illərdə nəşr etdirdiyi «Qaragöz kəl» və «Xalçaçı Pəri» (bu əsər M.F.Axundov adına kitabxanada qorunur) adlı kitabları uşaq və gənclər üçün nəzərdə tutulub. Kitablardakı hekayələrdə müəllif yeni quruluşa uyğunlaşan insanların iç dünyasını sadə dillə, incə, bədii boyalarla təsvir edib.

1932-1937-ci illərdə Balakən, daha sonra Ağdaş rayon İcraiyyə Komitəsinin sədri olub. Dəfələrlə Bakı Sovetinin, Azərbaycan SSR MİK və AK(b)P MK təftiş komissiyasının üzvü seçilib.

Azərbaycan xalqının görkəmli şairi Mikayıl Müşfiqin başqa yaxın qohumları kimi, o da, təqiblərə məruz qalmış, izlənmiş, şərlənmiş, tutduğu vəzifələrdən azad edilərək həbs və sürgünlərə göndərilmişdir. 1937-ci ildən 1946-cı ilədək Ə.Dağlı həbs və sürgün həyatı yaşayıb.

Ə.Dağlı «Qırmızı Əmək Bayrağı» ordeni və «Əmək igidliyinə görə» medalı ilə təltif edilib.

Ə.Dağlı 28 yanvar 1981-ci ildə, Bakıda 83 yaşında əbədiyyətə qovuşub.

* * *

Əlihüseyn Dağlının «Ozan Qaravəli» adlı əlyazmasında (xüsusən II-III hissələrdə) qorqudşünaslıq üçün maraqlı məqamlar vardır. Mənbədə bilidirilir ki, Dədə Qorqudun qəbrinin 4 müxtəlif məkanda olduğu ehtimal edilir: Türkiyənin Bayburt şəhərində, İraq torpağı (Mosul), Özbəkistanın Sır-dərya vilayəti və Azərbaycan ərazisi.

---

[1] Ötən əsrin əvvəlində Bakı küçələrində işləyən nəqliyyat vasitəsi, relslər üzərində atların çəkib apardığı vaqon.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu versiyalar tarixi məxəzlərdə öz əksini tapıb. Biz o fikirdəyik ki, bunlardan ən inandırıcısı Azərbaycan variantıdır. Çünki Azərbaycanda Dədə Qorqudun bir sıra digər izləri də qalmaqdadır. Bu izlər hansılardır?

Ə.Dağlı sovet şərqşünası, «Kitabi Dədə Qorqud» dastanını rus dilinə tərcümə edərək nəşrə hazırlayan akademik Vasili Vladimiroviç Bartolda (1869-1930) istinadən Dədə Qorqudun qəbrinin Dərbənd yolunda olduğunu bildirir. O, Azərbaycan Elmlər Akademiyasında çıxışı zamanı bu haqda məlumat verir. Əlyazmada bununla bağlı Krım-tatar və Azərbaycan sovet dilçisi, ədəbiyyatşünas və şair, professor Bəkir Çobanzadə (1893-1938) ilə dialoq təqdim edilir.

B.Çobanzadə Dədə Qorqudun qəbrinin Dərbənddə olduğunu deyir. Ə. Dağlı isə bildirir ki, «qəbri Dərbənd yolunda axtarmaq lazımdır». Orta əsr mənbələrində Təbriz yolu, Məkkə yolu, Saman yolu (səmavi yol), İpək yolu deyimləri kimi, Dərbənd yolu ifadəsi də tez-tez işlədilirdi. Bu yol – Dərbənddən Xəzərətrafı ərazidən və Xızı-Bərmək mahalının Altıağac kəndindən keçərək Şamaxıya qədər uzanır. Ə.Dağlı Dədə Qorqudun qəbrini məhz bu yerlərdə axtarır. Xızı-Bərmək mahalının Cığatay düzündə Giləzi kənd sakini Çoban Allahverdidən bəlkə bu tərəflərdə adi qəbirlərdən xeyli uzun məzara rast gəlib-gəlmədiyini soruşur.

Rəvayətə görə Dədə Qorqud ucaboylu (3 metrə yaxın) olub.

Çoban bir az fikirləşəndən sonra Aşağı Baxşılı kəndinin qəbirstanlığında belə bir qəbir olduğunu deyir. Ə.Dağlı bu qəbri tapır və mənbədə həmin yerin şərti «xəritəsi»ni çəkir.



Bu qəbirin həqiqətən Dədə Qorqudun olub-olmamasını qoy mütəxəssilər müəyyənləşdirsin.

Ə.Dağlının yazdığına görə elmin sirlərinə yiyələnmək üçün Musa peyğəmbər dirilik suyu içmək üçün Makedoniyalı İsgəndər kimi, Dədə Qorqud da Xızır peyğəmbərin yanına gəlibmiş.

**Haşiyə:** Ədalət Rzayev «El-oba yerlərimiz» (Bakı, 2004, səh.6) adlı kitabında yazır: «Bu dağ yüksəklikləri arasında Xızı-Bərmək mahalında Baş Bərmək dağı, Xızır-zində piri kimi məşhur olan qədim bir ibadətgah da vardır ki, bu ərazidə Xızır və Musa peyğəmbərlərin görüşü haqda «Qurani Kərim»in «Kəhf» surəsində 60-cı ayədən başlayaraq sonrakı ayələrində məlumat verilir. Buna da əsasalanaraq bəzi tarixi mənbələrdə bu dağa Musa və Xızır peyğəmbərlərin dağı da deyirlər.

Tanrı Musa peyğəmbərə vəhy göndərdi: Elm elə böyük nemətdir ki, bir nəfərin onu öyrənməsi kifayət deyil. Yer üzündə elə bir şəxs var ki, Tanrı onun elmini və ilhamına düşən payı səndən artıq edibdir.

Musa dedi: Pərvərdigara, onun yerini mənə göstər ki, görüşündən faydalanım və elminin, ilhamının nurundan bir çıraq yandırım.

Tanrı Musaya xəbər göndərdi ki, «Məcməul-Bəhreyn»də onunla görüşəcəksən».

«Məcməul-Bəhreyn» sözünün mənası iki dənizin qovuşduğu yer deməkdir. Ə.Rzayev Xəzərin qədim zamanlarda iki dənizdən ibarət olduğunu qeyd edir. Bu dənizlərin arasında Türkmən sahillərinə qədər bərzəx, yəni ensiz quru zolağ olubmuş. Sonralar dənizlərin səviyyəsinin qalxması nəticəsində quru zolağ yuyulub getmiş, iki dəniz bir-birinə qovuşmuşdur. Bu ərazi – Xəzərin Xızır-zində piri yaxınlığındakı sahilləri «Məcməul-Bəhreyn» adlandırılıb. Görünür Musa peyğəmbər Xızır peyğəmbərlə burada görüşüblər…

Dədə Qorqud da ömrünün son illərini Xızır-zində ziyarətgahı ətrafında keçirir ki, peyğəmbərlə rastlaşıb, ondan dirilik suyunun yerini soruşsun. Görünür bu, Dədə Qorquda nəsib olmayıb. O, xəstələnir, dünyasını bu dağlarda dəyişir və orada da dəfn edilir. Sonralar onu müşayiət edənlərin bir hissəsi qəbirin ətrafında məskən salıb.

Orta əsrlərdə ozanlara bəzən baxşı da deyiblər. Türkmənistanda indi də ozanı baxşı adlandırırlar. Bütün türk ellərindən baxşılar Dədə Qorqudun qəbrini ziyarətə gələrmiş və onların da bir çoxu geri dönməyib, burada yurd salıblar. Beləliklə, bu yaşayış məntəqəsi onların şərəfinə Baxşılı adlandırılıb. Sonralar təbii fəlakət nəticəsində həmin kənd dağılıb, sakinləri isə Xızı-Altıağac yolunun üstündə məskunlaşıblar və bura Yuxarı Baxşılı adlanıb. Ə.Dağlıya görə Baxşılı kəndinin sakinləri Dədə Qorqud yadigarlarıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dədə Qorqudun Xızı-Bərmək mahalında olması barədə tarix elmləri namizədi, professor Tərlan Ağayev də «Azərbaycanın Xızı-Bərmək mahalının tarixi» (II hissə) adlı əsərində (Bakı, «Mütərcim», 2006, səh. 3, 20-21) geniş məlumat verir. Kitabda bu mahalda olmuş alman alimi və səyyahı Adam Olearinin (1603-1671) 1643-cü ildə qələmə aldığı xatirələri, yəni yerli camaatdan eşitdiyi Dədə Qorqudun Xızı-Bərmək mahalına gəlişi haqda qeydləri verilir: «İmam Qorqudun qəbri dağda idi. Qorqud haqqında söyləyirlər ki, o, Məhəmmədin (s.ə.) dostu olmuş, həmişə onun ayaqları yanında oturmuş, ondan dərs almış və onun ölümündən sonra 300 il yaşamışdır. Onun qəbri qayalıq bir dağda olmuş böyük bir mağara içindədir. Tabutun yanında bir qarı oturub gözətçilik edirdi. Şəhərdən və uzaq yerlərdən çox-lu qadın və qızlar gəlmişdilər. Dua etdikdən sonra onlar qarıya bir para pay verirdilər. O da müqəddəs bir adam sayılırdı və gecələr tabutun yanında söndürmədən çıraq yandırırdı» («Opisaniye puteşestviə v Moskoviö i çerez Moskoviö v Persiö i obratno», alman dilindən ruscaya tərcümə, SPB, 1906).

Xatırladaq ki, A.Oleari 1636-cı ildə Şlezviq-Holşteyn səfirliyi nümayəndə heyətinin tərkibində katib və daha sonra məsləhətçi kimi çalışmış, Şamaxı, Xızı-Bərmək və Ərdəbildə olmuşdur.



Ə.Dağlı əlyazmada Baş Bərməkin müxtəlif əsrlərə aid şəklini təqdim edir: Solda 1683-cü ildə Engelbert Kempferin (1651-1716) çəkdiyi, ortada 1770-ci ildə Samuel Qotlib Qmelinin (1745-1774) və sağda Baş Bərməkin müasir günlərdəki fotosu.

Bu şəkillər alman səyyahları E.Kempferin («Amoenitatum exoticarum politico-physico medicarum», Fasciculus V.Lemgoviae, 1712 S. 740-745) yol qeydlərində və S.Qmelinin «Üç təbii aləmi tədqiq etmək üçün Rusiyaya səyahət» («Puteşestviye po Rossii dlya issledovaniya trex çarstv yestestva», almancadan rus dilinə tərcümə, 3 hissəli, SPB, 1771-85) adlı xatirəsində öz əksini tapır.

E.Kempferin çəkdiyi Xızır-zində (Baş Bərmək) pirinin rəsmi də tarixi baxımdan çox maraqlıdır. Bildiyimiz kimi, E.Kempfer 1683-84-cü illərdə Azərbaycanda olmuşdur. Ə.Dağlının yazdığına görə bu rəsmdə Dədə Qorqudun qəbri görünür.

Ə.Dağlı Siyəzən sözünün etimologiyası barədə də maraqlı fikirlər irəli sürür. Siyəzən sözünü bir çoxları «siyə» – qara, «zən» – arvad mənasında açırlar. Ə.Dağlı bu fikirlərlə razılaşmır. Xızı-Bərmək mahalında qadın, arvad adıyla bağlı heç bir yaşayış məntəqəsi yoxdur. Əslində ciddi dağlı mentaliteti buna heç cür yol vermir. Ə.Dağlı Siyəzən sözünün də Dədə Qorqudla bağlı yarandığını izah edir. Onun fikrincə Siyəzən – «saya» (daha doğrusu, «sayaçı») və «ozan» sözlərinin birləşməsindən yaranıb. Siyəzən kəndi vaxtilə Aşağı Baxşılı kəndinin bir neçə kilometrliyində olub. Ə.Dağlıya görə Dədə Qorqudun qəbrini ziyarətə gələn ozanların bir hissəsi də burada məskunlaşıb və kəndi Sayaozan adlandırıblar. Sonralar «Sayaozan» «Siyəzən»ə çevrilib.

Maraqlıdır ki, Xızı-Bərmək mahalında «qorqud» adlı xörək də vardır. Bu xörəyi Baxşılılar xüsusi usta-lıqla, çox ləzzətli bişirirlər. Ə.Dağlı mənbədə bu xörəyin reseptini təqdim edir. Görünür «qorqud» xörəyini Dədə Qorqud icad edib, ya da xoşladığı xörəklərdən biri olduğundan onun şərəfinə belə adlandırılıb.

Nəticə olaraq deyə bilərik ki, Ə.Dağlının olduqca qiymətli əlyazmasına istinadən Dədə Qorqudun qəbrinin yerini müəyyənləşdirmək mümkündür. Həmçinin A.Olearinin qeydlərinə əsasən Dədə Qorqudun yaşı 300 il deyil, daha çox olduğu müəyyənləşir. Bildiyimiz kimi, həzrət Məhəmməd (təq-ribən 17.08.570-08.06.632) peyğəmbər 632-ci ildə dünyasını dəyişib. Deməli, Dədə Qorqud 932-ci ilə qədər yaşayıb. Hər halda Dədə Qorqud Məhəmməd (s.ə.) peyğəmbərlə görüşəndə də müdrik ağsaqqal olub. Bu faktlara əsaslansaq Dədə Qorqudun ən azı 340-350 il ömür sürdüyünü söyləyə bilərik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## «DƏDƏ QORQUD» DASTANINDA İNSAN HAQLARI

***Abbas Hüseynli***
***Azərbaycan***

Türk Dünyasının qədim inçilərindən olan KDQ-un yaşını və konkret hansı ərazidə yaranmasını müəyyən etmək sahəsində dünya türkoloq alimləri çox yazmışlar. Buna baxmyaraq KDQ-un yaşını və yarandığı konkret ərazini müəyyən etmək mükün olmamışdır. Bunun bir çox obyektiv və subyektiv səbəbləri olmuşdur ki, bu səbəblərdə imkan verməmişdir ki, obyektiv keçrçəklik üzə çıxsın.Mənə elə gəlir ki, KDQ-n ərazisi Sbirdən, Altaya, Asiyadan, Avropaya qədər olan böyük bir ərazidir.Harada Türklər yaşamışlar və yaşayırlar o, ərazi KDQ-n yaranma yeridir.

Azərbaycan Respublikasında KDQ-un 7-ci əsrin yadigarı olduğu və bu əsrdə yaranması barədə alimlərin irəli sürdükləri mülahizələr dövlət səviyyəsində KDQ-un il günü kimi təntənəli surətdə qeyd edildi. Hələ o, zamanlar KDQ barədə müəyyən edilmiş 7-ci əsrin səhv olmasını irəli sürsəkdə buna məhəl qoyan olmamışdır.Buna baxmayaraq KDQ-un ilinin müəyyən edilməsi özlüyündə təqdirəlayiq bir hal kimi qiymətləndirilməlidir. Ona görə ki, KDQ-un hansı xalqa məxsus olması barədə də ziddiyyətli fikirlər ortaya çıxmışdır.

KDQ yuxarıda qeyd edildiyi kimi Turk dünyasının incisidir. Bunu Türk ədəbiyyatşunaslığından kənarda öyrənmək mümkün deyildir. Bu dastan həm Anadolu türkünün, həm Azəri türkünün, həm Özbək türkünün, həm Kərkük türkünün, həm Türkmən türkünün, həm Tatar türkünün, həm Qazax türkünün, həm də adları qeyd edilməyən başqa türklərin dastanıdır. KDQ un yaşı barədə danışanda onu yaddan çıxarmaq olmaz ki, bu dastan türk xalqının adət və ənənələrini, onun içtimai siyası və sosial mühütini özündə əks etdirir. Hətta mən bu dastanın tarixini Türkün yarandığı tarixə aid etsəm bəlkədə səhv etmərəm.

KDQ uzun əsrlər ərzində demək olar ki, hər bir millətin alimi tərəfindən özünəməxsus tərzdə öyrənildiyi üçü onda bir çox ziddiyyətli hallar ortaya çıxmışdır. Elmə məlum olan KDQ-un yazılma nüsxələri Drezden və Vatikanda saxlanılan nüsxələrdir. Bu nüsxələrin həqiqətən ilk yazı nüsxəsi olmadığı alimlər tərəfindən tam şəkildə təsdiq edilmişdir. Bu qeyd edilən hər iki nüsxə sonradan üzü köçürülmüş nüsxələrdir. KDQ boylarının hər birisi bir tarixi hadisədir. Bu tarixi hadisə konkret olmuş tarixi hadisələri özündə əks etdirir. Boylarda adı çəkilən şəxslərin hamısı türk adlarıdır. Aparılan danışıqlar, atalar misalları ,ailə-məişət məsələləri türklərin keçmişini əks etdirir. Orada olan adətlər hal-hazırda da türklər tərəfində icra edilir.

KDQ-da olan adətlər sonrakı vaxtları sanksiyalaşdırılmış adətlər şəklində özünü göstərir. Bu adətlərin qədimliyi onların ibtidai-icma qurluşuna aid olması heç kimdə şübhə yaratmamalıdır. Ona görə ki, KDQ-un hər bir boyu ayrılıqda götürüldükdə orada qəbilə -tayfa münasibətləri özünü göstərir. Burada biz nə dövləti, nə qəbul edilmiş qanunları, nə də hər-hansı bir qoşun hissəsinin olmasını görmürük. Belə ki, dövlət mexanizminin olmadığı tayfada idarəçilik məsələsi tayfanın ağsaqqalı tərəfindən həyata keçirilir. Ağsaqqaldan sonra hakimiyyətə onun oğlunun gəlməsi özünü göstərir. Bütün münasibətlər ağsaqqal taya başçısı tərəfindən müəyyən edilir. Hər bir tayafanın kişi üzvü həmin tayfanın əskəri, tayfanı yadellilərdən qorumaq üçün həmişə hazır olan əskərdir. Tayfanın qadın və kişi üzvüləri arasında heç bir fərq yoxdur. At minmək, ov etmək yadellilərlə davaya getməkdə də qadınlar sərbəst-dirlər.Qadın hüquqi, qadına hörmət, qadın namusunu qorumaq şərəfli bir hal kimi KDQ boylarında özünü çılpaqlığı ilə göstərir. Hətta boyun bir yerində Qazan xanın öz ailəsini yadellilərdən qorumaq üçün döyüşə gedərkən «Qaraca Çobanın» ona kömək durmasına öz etirazını bildirir və öz ailəsini, öz namusunu yadellilərlə təkbaşına döyüşüb xilas edəcəyini göstərir.

Dünyada çox millətlər var ki, özlərinin tarixini əks etdirə bilən dastanlara malikdirlər. Rusiya şifahi xalq ədəbiyyatında qəhramanlıq dastanı kimi özünü göstərən dastan «İqor polku haqqında» dastandır. Bu dastanın tarixini Rus alimləri 12-ci əsrə aid edirlər. Dastan Rusiya şifahi xalq ədəbiyyatının ilk dastanı kimi özünü göstərir. Dastanda İqor polkunun əskərlərinin şücayətlərindən, onların göstərdiyi qəhramanlıqlardan bəhs edilir.Bu dastan Rusiya tarixində sevilə-sevilə oxunulan və Rus xalqının mənliyini özündə əks etdirən bir dastan kimi təcəssüm etdirilir.Bütün bunlara baxmayaraq bu dastanında əslən hansı xalqa məxsus olması sahəsində də alimlər arasında fikir müxtəlifliyi vardır.

Türk dünyasının qəhramanlıq dastanı olan KDQ dastanı bütöv türk dünyasını birləşdirməyə qadir bir dastan olsada bu dastan türk dünyasında öz layiqli yerini tapmamışdır. Bunun bir çox səbəbləri vardır. Bunlardan birincisi Türk dünyasına daxil olan miillətlərin daima yabançı və manqurtlaşmış şəxslər tərəfindən idarə olunmaları olmuşdur. Heç kimə gizli deyil ki, Türk sözü, türk məfhumu hal-hazırda da Rus və Fars şovunistləri tərəfindən lənətlənən, sevilməyən sözlərdir. Türk millətinə mənsub olduğu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üçün hər bir istedadlı şəxs qeyd edilən dövlətlərdə heç bir yüksək mənsəb tuta bilməz və həmin dövlətlərdə sevilə bilməz.

Dünyada insan haqlarından söz açan Avropa Şurası və Avropa birliyi belə türk dünyasına qarşı həmişə qısqanc olmuş və türk dünyasında pozulmuş hüquqların bərpasına heç bir köməklik etməmişlər. Uzun müddət Avropa birliyinə daxil olmaq istəyən Türkiyə dövlətinin qarşısını müxtəlif yollarla xristian Avropa dövlətləri almışlar və alırlar. Azərbaycan ərazilərinin 20 faizdən artıq hissəsinin işxalı da buna misal ola bilər. Azərbaycan və Ermənistan Respublikaları AŞ-nın üzvü olsalarda onların birinin işxalçı, digərinin isə işxala məruz qalan dövlət kimi tam şəkildə tanınması olmamış nə AŞ-si, nədə ki, dünyada xalqların və dövlətlərin mənafeyini qorumalı olan BMT-ı Azərbaycanının ərazi bütövlüyünün qorunması sahəsində əməli işlər görməmişlər. Burada əsas amil Azərbaycanın türk, müsəlman Respublikası olmasıdır.

KDQ dastanı əsrin ortalarında öz inkişafının yüksək zirvəsinə catsada son vaxlar onun geniş şəkildə öyrənilməsi demək olar ki, dayanmışdır. Bu sahədə fəaliyyət göstərən alimlər isə yalnız bu dastanını poetik hissəsinə daha çox fikir verir. Bu dastanını qədimliyi və Türk dünyasını birləşdirmək yolunda ata biləcəyi elmi hisəsinə demək olar ki, toxunmurlar.

Dünyanı gözəllik xilas edəcəkdir fikri mənə elə gəlir ki, tam döğru fikir deyildir. Dünyanı adil şəxsiyyətlər xilas edəcəkdir demək mənə elə gəlir ki, daha inandırıcı olardı. Dünyada çoxlu şəxsiyyətlər olmuş və onlar çox böyük işlər görmüşlər. Bu şəxsiyyətlər içərisində Qorqud Atanını rolu türk dünyasında əvəzedilməz sayılmalıdır. Bütün bunları nəzərə alaraq Qorqud Atanını şəxsityyətini, onun xidmətlərini onun türk dünyasının ağsaqqqalı olduğunu bütün dünyaya, əsasəndə türk xalqlarına çatdırmaq sahəsində əməli işlər görülməlidir. Biz türklər başa düşməliyik ki, bizim dədəmiz birdir, o da Qorqud dədədir.

Dünya ərazisi ayrı-ayrı dövlətlər tərəfindən artıq bölüşdürülmüşdür. Hər bir böyük dövlət özündən kiçik olan dövlətin ərazisi və xam malı üzərində hegomonluq siyasəti yeridir. Bu gün böyük dövlətlər öz məqsədlərinə nail olmaq üçün ayrı-ayrı hissələrə parçalanmış millətlərdən geniş şəkildə istifadə edirlər. Buna misal olaraq Rusiya dövlətinin Qafqazda ermənilərdən, ABŞ-nin İraqda kürdlərdən istifadə etməsi göz qabağındadır. Türk dünyası İraqın qədim türk ərazisi olduğunu dünyaya çatdıra bilməmiş və həmin ərazidə yaşayan 3 milyondan artıq soydaşımız olan türkmənlərin mənafeyini qorumaq sahəsində heç bir əməli addım atmamışlar. Bunun əsil səbəbi İraq barədə, İraqda yaşayan türkmənlər barədə öz dövlətlərində heç bir maarifləndirmə işinin aparılmamasıdır. Bu gün Qazağıstan, Özbəgistan, Türkmənistan, Qırğızıstan, Azərbaycan və Türkiyə Respublikası İraqda baş verən hadisələrə laqeyid qalır və həmin ərazilərin parçalanmasına, orada türk dünyasına qarşı çevirləcək Küd dövlətinin yaranmasına heç bir maneçilik göstərmirlər. Açınacaqlı hal ondadır ki, həm Rusiya, həm Amerika, həm də Avropv dövlətlərində türk dünyasını öyrənən institutlar, elmi mərkəzlər fəaliyyət göstərdiyi halda Türk dövlətləri bir millət müxtəlif dövlətlər olduqlarını tam şəkildə dərk edə bilmirlər. Onların arasında müxtəlif formada ayrıseçkilik toxumları səpilir, onları bir araya gətirə biləcək nələr vasa onların geniş şəkildə təbliğinin qarşısı alınır. Buna misal olaraq KDQ-dastanının türk dünyasında lazımınca təbliğ olunmamasıdır.

KDQ dastanını oxuduqca insanın şərəf və ləyaqətinin, onun haqlarının yüksək səfiyyədə qorunmasının şahidi oluruq. Cəmiyyətdə yaşayan şəxslərin azad olmalarını, öz qabiliyyət və istedadlarına görə yer tutmalarını görürük. Qorqud Atanını ağsaqqal kimi hər bir şəxsə əməllərinə görə ad qoyması buna misaldır.

Uzun əsrlər boyu qadın hüquqları kobud şəkildə pozulmuş, qadına, anaya hörmət aşağı səviyyədə özünü göstərmişdir.KDQ-da isə qadına, anaya hörmət ona sitayiş etmək hər bir kişinin müqəddəs borcu saylırdı.Ana haqqını itirmək ən böyük günah hesab edilirdi.Ata,ana nəsihəti, kiçiyin böyüyə ehtiram və sayğısı övlad üçün hər şeydən üstün hesab edilirdi.Biz dastanda kişi, qadın ayrıseçkiliyinə rast gəlmirik. Dastanın heç bir yerində qul əməyi və ya kiminsə hər-hansı bir formada alçaldılmasını, işgəncəyə məruz qalmasını görmür və belə hallara rast gəlmirik.

1949-cu ildə yaranmış Avropa Şurası «İnsan hüquqları və əsəs azadlıqların müdafiəsi haqqında» Konvensiya qəbul etmişdir. Həmin Konvensiyada olan 59 maddə Avropa Şurasına daxild olan dövlətlər tərəfindən yerinə yetirilməsi vacib olan maddələrdir.Cox təssüv ki, bu maddələr tam şəkildə yerinə yetirilmir və insan hüquq və azadlıqları bəzi hallarda kobud şəkildə pozulur.Bütün bunların qarşısını almaq üçün yenə də KDQ dastanından isifadə edilməlidir.

Respublikamızda cinayət hadisələrinin təhlili göstərir ki, baş vermiş hadisələrin əksəriyyəti ailə məişət zəmnində baş verən hadisələrdir. Bu hadisələrdə böyüyə, ağsaqqala hörmət, qadın müqəddəsliyi, qardaş- bacı münasibəti demək olar ki, pozulmuş və nəticədə ağır cinayət hadisələri baş vermişdir. Baş vermiş cinayət hadisələrinin əksəriyyəti əmlakın bölüşdürülməsi və əmlakın ələ keçirilməsinə yönəlmiş tamah hissləri olmuşdur.Təkcə qanunların gücü ilə bu hadisələrin qarşsını almaq mümkün deyildir. Bunun üçün orta və ali məktəblərdə KDQ-un bir müqəddəs kitab kimi öyrənilməsi vaçibdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycanda yaşayan türklərin demək olar ki, hamısı müsəlmandır. İslam dini Azərbaycanda yaşayan türklərin dinidir. Bu dinin müqəddəsliyini hər bir türk başa düşür və ona etiqad edir. İslam dini insanların mənəviyyatınının kamilləşməsində böyük rol oynayı. Buna baxmayaraq bu dindən öz çirkin məqsədlərini həyata keçirməyə və bu dini olduğundan başqa formada göstərməyə çalışan fars şovunizmi hələ də fəaliyyət göstərir. Fars milllətçiləri islam dinini parçalamaqla türk dünyasına qarşı istifadə etmişlər. Müsəlman aləmində şiə, sünüü deyərək xalqları bir-birinə qoyanlarda məhz farslardır. Hal-hazırda onların birindən soruşulsa ki, Müəhəmməd pyğəmbər /ə.s/ şiədir ya sünii. Onlar bunu susmaqla qarşılayacaqlar. Mən din sahəsinin mütəxəssisi olmasamda onu göstərə bilərəm ki, islam dininin yayılmasında türklərin xidmətləri ərəblərin xidmətlərindən də qat-qat üstündür. Dünyanının çox yerlərində Türklər tərfindən məsçidlərin, mədrəsələrin tikilməsi olduğu halda biz farslar tərəfindən bunun edilməsini görmürük.Fars millətcilәri elə bir çirkin siyasət yeridiblər ki, indinin özündə belə İranda öz doğma el-obasında yaşayan türklərdən bəzilərindən soruşanda ki, millətin nədir onlar müsəlmanam deyirlər.KDQ dastanı İran deyilən ərazinin əhalisinin 80 faizini təşkil edən Türkmən, Qazax və Azəri Türklərini özündə birləşdirə bilən bir dastandır.

Yaşadığımış kommunst rejimində hakimyyətdə olan erməni, gürcü və rusların KDQ dastanına qisqanclıqla yanaşmasının şahidi olmuşuq. Onlar bu dastanı biz türklərin gözündən salmaq üçün öz manqurtlarımızdan da geniş şəkildə istifadə etmişlər. Həmin şəxslərin adı millətimiz tərəfindən bilinsədə onlar üzə çıxmamış və xalq tərəfindən lənətlənməmişlər. Buna görədə bu günün özün də belə KDQ haqqında lazımı elmi araşdırmalar xalqın öz daxilində geniş şəkildə aparılmalıdır.Xalqa alimlər tərəfindən real gercəkliklər izah edilməlidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ORTAQ TÜRK KEÇMİŞİ VƏ «MANAS»

***F.e.n. Adil Cəmil***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

«Manas» eposu ulu türk mədəniyyətinin və mənəviyyatının qədim izlərini saxlamaq, eləjə də digər eposlarımızın ənənəvi motivlərini, səciyyəvi xüsusiyyətlərini əxz edərək yaşatmaq baxımından çox dəyərli tədqiqat obyektidir.

Bu dastanı türk xalqlarının digər eposları ilə müqayisə etməzdən öncə daha qədim adət-ənənəmizin - şaman deyimlərimizin, eləcə də qəbirüstü yazılarımızın «Manas» ruhuna qohumluğunu arayaq: «Manasda şamanizmdən qalan ünsürlər bir çox iz buraxıb. Belə ibtidai izlər Yakut, Altay, Xakas dastanlarında da mühafizə edilib. Məsələn, Altayların şaman ayinlərində aşağıdakı kimi qədim deyimlər mühafizə edilmişdir: Qopanı necə birləşdirmək olar? Bu qədim deyimin bir az dəyişik biçimi qırğız dastanında da görünür. Məharətli Kanıkeyin «qopanı birləşdirən, dağılanı toplayan» deyiminə bütün variantlarda rast gəlirik» [1. 23].

Türk tarixinin, türk mənəviyyatının, eləcə də türk dastançılığının əsasında dayanan, ilk yazı mədəniyyətimiz, ilk ədəbi nümunəmiz Orxon-Yenisey abidələri ilə «Manas» eposu arasındakı ruhi doğmalıq, «qan qohumluğu» nə qədər heyrətamizdir.

M.Erkinin «türk qürurunun ilahi yüksəkliyi, türk fədakarlığı və ləyaqətinin böyük örnəyi, türk ictimai həyatının ülvi tablosu, türk ədəbiyyatının ilk şah əsəri» [2. 328] adlandırdığı Orxon-Yenisey mətnləri sadəcə epitafiya deyil, bir millətin yaxın və uzaq gələcəyinə işıqlı yol göstərən müdrik nəsihətlər və ölməz vəsiyyətlər toplusu, tale kitabəsidir. Orxon-Yenisey mətnlərindəki deyim, ifadə tərzi, motiv və üslub sonrakı türk dastan ədəbiyyatında öz inkişaf davamını tapır. Bilgə Xaqanın sal daşlardan «boylanan» vəsiyyətinə diqqət yetirək: «Ey türk milləti! Bəylər! Sözümü eşidin! Türk millətini toplayıb el-obanın vəsfini bu daşa yazdım. Millət yenə səhv edərsə, öləcəyini də bu daşa həkk elədim. Hər nə sözüm varsa yazdım. Ona baxaraq bilin, indiki türk bəyləri!» [2. 512] Bu motiv «Manas» eposundakı «Kökötöyün vəsiyyəti» boyu ilə səsləşir. Dastandan məlum olduğu kimi, Kökötöy vida mərasimində oğluna və xalqına vəsiyyət edir. Həmin vəsiyyətdən bir parçanı xatırlatmaqla qeyd etdiyim üslub və motiv qohumluğuna «güzgü tutmaq» istərdim:

«Ey obam, çalışqan ol!
Bundan başqa diləyim yox, oğlum.
Bundan başqa sözüm yox, obam...
On iki boyu yığıb el qıldım...» [1. 26]

Qeyd edək ki, «Manas» trilogiyasını ilk dəfə tam şəkildə yazıya alıb 1885-ci ildə qırğız və alman dillərində nəşr etdirən görkəmli türkoloq akademik V.V.Radlova görə də bu eposla Orxon-Yenisey mətnləri arasında ruhi-mənəvi bağlantılar mövcuddur. Bu mövcudluq ona görə inkarolunmazdır ki, ibtidai epik təfəkkürdən dastan ədəbiyyatı sivilizasiyasına qədər ədəbi mərhələlərdən keçən türk qövmü özü-özündən ayrı düşə bilməzdi... Epitafiyadan dastana, kitabədən kitaba gedən yolda türk qövmü türk olaraq qalmışdır!

Görkəmli Azərbaycan alimi, professor Yaşar Qarayev türk xalqlarının dastan yaradıcılığını haqlı olaraq belə dəyərləndirir: «Etnik-milli və əxlaqi dəyərləri ölümün əlindən Bilqamıs, Manas və Qorqud alır. Təməli və tağı daşdan yox, sözdən tikilən mənəvi ehramın - piramidanın adı Şərqdə dastandır. Üstəlik, türk mifi və eposu türk üçün həmişə təkcə amansız Zamanın yox, həm də yabançı məkanın, yad etnik mühitin hücumundan müdafiənin silahı və qarantı olub» [3. 299, 300].

Milli və əxlaqi dəyərlərimizi, tarixi yaşantılarımızı «ölümün əlindən alan» türk dastanlarında həm də ölümlə mübarizə, ölümü öldürmək meyli, əbədiyyət eşqi çox güclüdür. Başqırd dastanı «Ural Batır»da «ölümü öldürmək» meyli «Dədə Qorqud»un «Duxa qoca oğlu Dəli Domrul» boyundakı ölümü (əzrayılı) öldürmək istəyi ilə tam səsləşir. «Ural Batır»da «ölümün adamları öldürdüyünü görən qaçqın ərlə arvad ölümü öldürməyi oğlanlarına tapşırır» [4. 38].

«Dədə Qorqud»da isə Dəli Domrul ölüm mələyi Əzrayılı öldürməyi öz öhdəsinə götürür. Obanın adlı-sanlı, sayılıb-seçilən bir igidi ölərkən bundan təsirlənən Dəli Domrul Allaha yalvarıb belə söyləyir: «Ya qadir Allah, birligin, varlığın, haqıçün. Əzrayili mənim gözümə göstərgil, savaşayım, çəkişəyim - yaxşı yigidin canın qurtarayım. Bir dəxi yaxşı yigidin canın almıya».

Günlərin birində Dəli Domrul qırx igidlə yeyib-içib, əyləndiyi saraya Əzrayıl daxil olur. O, heç kəsin yox, yalnız Dəli Domrulun gözlərinə görünür. Bu «heybətli qoca» mənəm-mənəm deyən igidi vahiməyə salır. Lakin Dəli Domrul özündə qətiyyət taparaq qılıncını sıyırıb Əzrayillə savaşa girir. Dastanda həmin məqam belə təsvir olunur: «Mərə Əzrayil, mən səni gen yerdə istərdim, tar yerdə eyü əlümə girdin, olamı? - dedi. Mən səni öldürəyim, yaxşı yigidin canını qurtarayım - dedi. Qara qılıcın sıyırdı, əlinə aldı; Əzrayili çalmağa həmlə qıldı. Əzrayıl bir gögərçin oldı; pəncərədən uçdı-getdi».

Kumıkların «Cavat haqqında nəğmə» folklor nümunəsində də qəhrəman ölüm mələyi əzrayılla dö-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yüşə girir. Bu paralellər qohum köklərdən xəbər verir.

Əgər Dəli Domrul obanın adlı-sanlı bir igidinin ölümünə dözməyib Əzrayili öldürmək qərarına gəlirsə, Bilqamıs da dostu, silahdaşı igid Enkidünün ölümünü ağır kədər və üzüntü ilə qarşılayır və öz aləmində bu suala cavab axtarır:

«Görən bir də ölülər
Günəşi görə bilər?» [5. 54]

Enkidünün ölümü Bilqamısı sanki yuxudan oyadır. Bu gerçəklik onu həyatın əbədiliyinə yox, ötəriliyinə yavaş-yavaş inandırmağa başlayır. O, nə zamansa beləcə öləcəyini, həyatla, işıqlı dünya ilə vidalaşmaq məcburiyyətində qalacağını düşünüb qorxu hissi keçirir:

«Bilqamıs əziz dostu Enkidüdən ötəri
Acı-acı ağlayıb, gəzir çölü, düzəni:
- Mən də öləcəyəmmi bir gün Enkidü kimi
Qorxu canımı alır, qüssə yeyir içimi» [5. 55].

Məhz bu andan Bilqamıs əbədi həyat, ölməzlik sorağı ilə yollar yorub Dədə Utnapiştinin nişan verdiyi «dirilik çiçəyini» dəryanın dibindən dərməyə müvəffəq olsa da onu ilan oğurlayır, həmin çiçəyi öz elinə, obasına - Uruka çatdırmaq niyyəti puça çıxan qəhrəmanın psixoloji sarsıntıları fonunda insan ömrünün müvəqqəti, dünyanın fani olması həqiqəti bir daha vurğulanır.

Göründüyü kimi «Bilqamıs ölmək istəmir, çünki əməldən doymayıb, doysaydı ölərdi. Əsl qəhrəmanlar belədir, əməl, amal onlarda əbədi eşqə, vurğunluğa çevrilir. Bilqamısın ölüm qorxusu, «əbədi həyat» çırpıntıları da bununla bağlıdır» [2. 111].

Ümumtürk epik təfəkküründəki paralellər isbat edir ki, Bilqamıs tək deyil. Başqırd dastanı «Ural Batır»da qoca Yanbirdə bütün yer üzündəki canlıları məhv edən ölüm haqqında bahadır oğlanlarına - Ural və Şulgenə məlumat verir. Sonra onlara ölümdən qurtuluş yolunu da nişan verir. Bu yol həyat bulağı olan Yanşişmana gedən yoldur. Ölməzlik, əbədilik üçün o bulağı axtarıb tapmaq gərəkdir.

Bu motivə Azərbaycan aşıq yaradıcılığının şah əsərlərindən olan «Koroğlu» eposunda da rast gəlirik. Gözü tutulmuş Alı kişi işıqlı dünyaya baxmağın nicatını yeddi ildən bir çağlayıb-köpükləyən Qoşabulaqda görür. İnsana şəfa və qəhrəmanlıq verən bu sehrli bulağın suyu Alı kişinin gözlərini açmağa qismət olmasa da, heç kəsin tanımadığı Rövşənin Koroğlu kimi məşhurlaşmasına rəvac verir. Çünki Rövşən Qoşabulağın köpüklü suyundan içmək səadətinə qovuşa bilir, lakin bu sudan atasına aparmağı unutduğu üçün əzab çəkir:

«Dirilik çiçəyi» axtaran və onu min bir əzabla tapandan sonra ilana oğurladan Bilqamısla atası Alı kişinin gözlərinin açılması ümidini Qoşabulağa bağlayan, lazımi məqamda isə ikicə damlasını ələ keçirə bilməyən Koroğlunun təəssüfü paralellik təşkil edir. «Bilqamıs və Koroğlu obrazlarını başqa epik qəhrəmanlardan fərqləndirən cəhətlərdən biri də budur ki, hər iki bahadır özündən güclüyə basılanda rəqibini alqışlayır, onun hünərini etiraf etməyə utanmır. Bilqamıs Enkidüyə, Koroğlu isə Giziroğluna yenildiyini kişi kimi boynuna alır» [5. 88].Türk xalqlarının mifik təfəkküründə özünə geniş yer almış «su» kultunun izləri günümüzəcən gəlmişdir. Onu da qeyd edək ki, su və yaşıllıq ilahəsi eyni olmuşdur. Bunu Bilqamıs dastanındakı «dirilik çiçəyi»nin, «Ural Batır»dakı Yanşişmanın, «Koroğlu»dakı Qoşabulağın timsalında görürük. Mərhum professor Mirəli Seyidova görə «Suya, su tanrısına tapınma türkdilli xalqlarda o qədər geniş yayılmışdır ki, hətta uşağı olmayan qadınlar sudan uşaq da diləmişlər. Qırğızlarda və qazaxlarda doğmayan qadın övladı olması üçün tək bitən ağaca, bulağa, suya qurban kəsib orada gecələrmiş» [6. 218].Türk xalqlarının folklor yaddaşında, mifik təfəkküründə su onqonu ilə bağlı maraqlı məqamlar və ənənələr çoxdur. Bu məqamlara Dədə Qorqudla bağlı əfsanələrdə də rast gəlirik. Rəvayət olunur ki, Dədə Qorqud gedərkən qəbir qazanları görür və bunu kimin üçün qazdıqlarını soruşanda onlar «Qorqud üçün» cavabını verirlər. Başqa bir yerdə də eyni əhvalat baş verir və ölümdən qaçmaq istəyən qoca Qorqud bir çayın üstündə xalça salıb qopuz çalır. Lakin burada da ölümdən yaxa qurtara bilmir...

Epik təfəkkürümüzdə dərin iz salan əbədi həyat, ölməzlik, dirilik çeşməsi axtarışı bəzi dastanlarımızda «ölüb-dirilmək» motivi ilə sonuclanır ki, bunlardan biri də «Manas»dır. «Manas» eposunun bir neçə variantında Manasın öləndən sonra dirilməsi təsvir olunur. Bu olay üç dəfə baş verir. İki dəfə Manas zəhərlənmədən ölür. Lakin Manas boyda qəhrəmanın xəyanət qurbanı olaraq dünyasını dəyişməsini, görünür, dastan yaradıcıları bağışlaya bilmir və «döyüşçü döyüşdə ölməlidir» epik ənənəsinə üstünlük verir.Eposda Manasın öldüyü epizodlardan ən təsirlisi Kanıkeyi toy edib gəlin apardığı gündür. Həmin gün xəyanətkar Mendibay Manası zəhərləyir, Manas ölür. Toy yasa çevrilir. Adamlar dağılışıb gedir. «Dastanın davamında dirildikdən sonra Manas çorolarıyla birlikdə qayınatasının öydüyü Kanıkeyi sevindirmək üçün yanına gedir, Kanıkey Manası, çoroları ağırlayıb hədiyyələr verir» [7. 391].

Türk boylarının şifahi ədəbiyyatında, xüsusən dastan yaradıcılığında yer tutan «ölüb-dirilmə» motivi qəhrəmanın ölməzliyi və buna rəğmən xalq iradəsinin yenilməzliyi kimi təqdim olunur. Ümumtürk dastançılığı üçün səciyyəvi olan bu epik ənənə türk-tatar folklorunun qiymətli incilərindən olan «Çora Ba-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tır» eposunda da diqqəti cəlb edir. «Çora Batır» dastanının Türkiyədə yaşayan Krım türkləri arasında yayılan variantında dastanın sonu Çora Batırın atı ilə dənizdə qeyb olması, onun ölümünə inanmayan rus əsgərlərinin qırx gün-qırx gecə orada gözləmələri və onun diriləcəyinə inamla bitir. Krım türkləri Çora Batırın onları rus zülmündən qurtarmaq üçün diriləcəyinə inam bəsləyirlər [8. 257].

Onu da qeyd edək ki, «ölüb-dirilmə» motivi şamanizm ilə sıx bağlı olduğundan «Manas» eposunda şamanist dünyagörüşün də izlərini görməmək mümkün deyildir. Tarixən Altay, Türküstan və Yakutstanda məskunlaşmış şamanların fövqəladə həyat tərzinin bəzi elementləri istər-istəməz bu mühitdən «göyərib çıxan» xalq yaradıcılığı nümunələrinə - o cümlədən «Manas»a hopmalı idi.

Dünya xalqlarının mifik təfəkküründən və bu təfəkkürdə özünə yer almış «həyat ağacı»ndan bəhs edən tarixçi alim V.V.Yevsükov yazır ki: «Həyat ağacı əski şaman dinində çox mühüm rol oynayır. Məhz orada (şamanizmdə - *A.C.*) bu obraz bütün detalları ilə verilib. Şamanlar fövqəladə qabiliyyət sahibi olaraq istədikləri vaxt başqa aləmə, Allahın və ruhların yanına gedə bilirlər». Ruh birləşdiriciləri, insanı öləndən sonra diriltməyi bacaran qam-şamanlar haqqında əski rəvayətlər türk xalqlarının hafizəsində və yazıya alınmış folklorunda yaşamaqdadır. Rəvayətə görə şamanlar qamlığa başlayanda ölmüş adamın ruhu bədəninə qayıdır. Yəni ölü dirilir: «Şaman qamlıq etdiyi vaxt ölü dirildi və süd istədi. Ona süd verdilər. Ölü süddən bir qədər dadıb dedi:

- Başa düşə bilmirəm, ölmüşdüm, ya özümdən getmişdim?» [9. 111]

Görkəmli qazax ziyalısı, məşhur şair, alim və ictimai xadim Oljas Süleymenov türk xalqlarının dirilməyə olan inamı haqqında bu fikirləri söyləyir: «İslam dini tenqrilik ideyasının son qalıqlarını həmişəlik dəfn etdi. İslam dinində heç kəs, hətta Allahın özü də dirilmir. Çünki allah ölməzdir. Buna uyğun olaraq dəfn mərasimləri də dəyişilir. Yalnız türklər və monqollar bəşəriyyətin körpəlik çağının ilk sadəlövh arzusunu yeni və döyüşkən dinlərin sayrım qılıncları arasından keçirib cismani dirilməyə olan müqəddəs inamı bu günə qədər qoruyub saxlaya bildilər» [10. 238].

Yeri gəlmişkən xatırladırıq ki, islam inancları «Manas»da çox zəif görünür və bu din epos üçün xarakterik aktivlik təşkil etmir. Lakin şamanizm elementləri demək olar ki, eposun bütün versiyalarında özünü qabarıq göstərir. Bu izlər «Manas»ın tarixini daha qədimlərə bağlayır. Dediklərimizə əyani sübut üçün «Manas» trilogiyasından bir parçanı təhlilə cəlb edək. S.Orozbəyov variantının lap əvvəlində oxuyuruq:

«...Cakıb qara bağladı,
Bala deyib ağladı.
Oğul-uşaq görəndə
Ürəyi düşdü bəndə.
Gözündən yaş töküldü,
Yanıq bağrı söküldü.
Çağırdı Allahı o -
Eşitsin bu ahı o.
Qurban dedi hər dəfə -
Qurbanlığı nər dəvə...
Bax beləcə bəy Cakıb
Boynundan xurcun asıb
Məzarlığa üz tutur.
Dua edib köz tutur» [11. 197, 198].

Övlad həsrətilə alışıb-yanan Cakıb - gələcək Manasın atası arzularının həyata keçməsi naminə boynundan xurcun asaraq məzarıstana üz tutur. Niyə məhz məzarıstana? Çünki məzarıstan ruhlar aləmidir. Cakıb ürəyindən keçənləri, arzu və diləyini bu ruhların vasitəsilə Tanrıya eşitdirmək istəyir. Ruhlarla söhbət, məzara etiqad isə ibtidai dini təsəvvürləri yaşadan şamanizmlə bağlıdır. Bu və buna bənzər epizodlar islamaqədərki dövrlərin şaman inanclarından xəbər verir. Ümumtürk folklorunda belə inancların silinməz izlərini görürük.

Tarixi hadisələrin bədii inikasını verən eposlarımızda türk xalqlarının müxtəlif boylarına məxsus eyni adət-ənənələri, yaşam tərzini, savaş səhnələrini sözün obrazlı və poetik deyimində görürük. Etnik qohumluq ədəbi-mədəni qohumluğun kökündə dayandığı üçün türk dastanlarından bəzən təbii olaraq eyni motivli süjet xətti keçir.

**QAYNAQLAR**

1. Kıdırbayeva R. «Manas və əski türklərin dastan gələnəyi», Ankara, 1995.
2. Əlibəyzadə E. «Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi», «Gənclik», B., 1998.
3. Qarayev Y. «Kitabi-Dədə Qorqud» məqalələr toplusu, «Elm», B., 1999.
4. Xəlilov P. «Dədə Qorqud» kitabı və qədim türk dastan ənənələri, «Elm», B., 1999.
5. Bilqamıs dastanı. AE NRB, B., 1999.
6. Seyidov M. «Azərbaycan xalqının soykökünü düşünərkən», «Yazıçı», B., 1989.
7. Yıldız N. «Manas dastanı və qırğız kültünü ilə ilgili təsbit və təhlillər». Ankara, 1995.
8. Tural G. «Çora Batır dastanı ilə Manas dastanı arasındakı bənzərlik». Ankara, 1995.
9. Şaman əfsanələri və söyləmələri. «Yazıçı», B., 1993.
10. Süleymenov O. «Az-Ya», «Azərnəşr», B., 1993.
11. Adil Cəmil. «El üçün ağlayan gözüm». «Azərnəşr», B., 1997.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ARXAİK RİTUALIN JANRA TRANSFORMASİYASINDA MOTİV SƏVİYYƏSİ
### ("Kitabi-Dədə Qorqud" eposunun materialları əsasında)

***f.e.n.Ağaverdi Xəlil***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Öncə qeyd edim ki, oğuz eposu bir neçə mənada işlədilə bilər. Bunu geniş və dar mənalara ayırsaq o zaman birincidə oğuz türklərinin epik yaradıcılığını, ikincidə isə bu yaradıcılığın konkret bir növünü, dastan janrını nəzərdə tutmuş olacağıq. Məsələyə bu şəkildə yanaşma sinxron planda özünü doğruldur.

Diaxron planda isə məsələyə bir də aydınlıq gətirmək zərurəti yaranır.Bu hər şeydən öncə eposun bütün termin dolğunluğu ilə yanaşı mənsubiyyətini müəyyənləşdirən etnonimin tarixi-mədəni əhatəsinin dəqiqləşdirilməsi ilə bağlıdır. Məlumdur ki, oğuzlar tarixdə öz izlərini qoymuş qədim bir xalqdır. Bu xalqın adına "oğuz budun" şəklində əski türk yazılı abidələrində rast gəlinir. Orta əsrlərdə bu xalq şərqin ən böyük imperatorluğundan birini qurur. Beləliklə, biz oğuz xalqı deyəndə ilk növbədə VIII-XV əsrlərdə böyük bir mədəniyyətə, o cümlədən zəngin xalq yaradıcılığına malik olan konkret bir türk xalqını nəzərdə tuturuq.

Bu baxış prizmasından oğuz türk xalqlarından həm birinin, həm də bir qrupunun adıdır. Yeni dövrdə oğuz türkləri adı altında azərbaycanlılar, qaqauzlar, türklər və türkmənlər tanınır. Dilçilikdə məsələ bir qədər fərqli ifadə olunur: oğuz qrupu türk dilləri şəklində. Bu oğuz türklərinin dilləri deməkdir. Bu qrupa yuxarıda adı keçən xalqlar daxildir. Folklorşünaslıqda isə məsələ bir qədər başqadır. Çünki folklorşünaslıq üçün xalq ciddi kateqoriyadır və əslində tədqiqatın mərkəzi problemidir.

**"Dədə Qorqud kitabı" əski oğuz cəmiyyətini bütöv bir etnik-mədəni sistem kimi təqdim edə bilən möhtəşəm bir abidə olduğundan onda bu sistemin struktur elementləri və səviyyələri bu və ya başqa şəkildə öz ifadəsini tapır. Kitabda əski oğuzların mifoloji düşüncəsi, müxtəlif tipli ritualları dil, fikir, sənət və mədəniyyət hadisələrinin simvollaşmış, toplumsal xarakter daşıyaraq folklor mətninə çevrilmiş, kodlaşmış, qəlibləşmiş işarələr sistemi realizə olunmuşdur. Bu semiosistem oğuzu bir mədəni fenomen kimi tam şəkildə təqdim edə bilir. Ona görə də oğuzun keçmişi və mədəni həyatının bütün zəruri minimumları ilə bağlı mətndən mə'lumat almaq mümkündür. Bu, təbii ki, mətndə intensiv şəkildə işlənən arxaik ritualla bağlı motivlərə də aiddir. Oğuz boylarının yaşamının, həyat tərzinin sosial-mədəni ritmini tə'min edən rituallar və ya onların bə'zi elementləri mətnin (boyların) arxestrukturu olaraq aktual funksiya daşıyır. Bu mə'nada, mətnin ritual səviyyəsinin öyrənilməsi, təsviri və təhlili mətn strukturunun və süjetin arxetiplərinin müəyyənləşdirilməsi deməkdir. Ritual – jestləri, sözləri və obyektləri əhatə edən hərəkətin stereotip ardıcıllığıdır. Xüsusi hazırlanmış yerdə icra olunur. İcraçının marağı və məqsədi çevrəsində fövqəlqüvvələrə və ya varlıqlara tə'sir etmək üçün nəzərdə tutulur. Rituallar iqlim dəyişməsi ilə bağlı olaraq mövsümi (məsələn, yazın qarşılanması, qışlaqdan yaylağa köç etmə və s.) və şəraitdən asılı olaraq fərdin və ya kollektivin həyatında baş verən kritik dövrlə əlaqəli ola bilər. Eyni zamanda, insan həyatının müxtəlif dönəmlərində: doğulma, həddi-büluğa çatma, evlənmə, ölüm və s-lə bağlı da rituallar mövcuddur. Fərdi həyatın bir fazadan digərinə keçməsi dövrəsi, müxtəlif bədbəxtliklərin (xəstəlik, uğursuzluq, sonsuzluq, ciddi tale zədələri və s.) aradan qaldırılması üçün də rituallar keçirilib. Fal və ziyafət ritualları da vardır. İkincini, əsasən, siyasi rəhbərlər insanların sağlamlığı və nəsil artımını tə'min etmək üçün keçirirlər. Əcdad ruhlarına, müxtəlif müqəddəslərin şərəfinə, pirə, ocağa və s. verilən qurban ritualları da vardır (1,32). Yə'ni ritualın növləri çoxdur, elementləri də müxtəlifdir, simvolik referensiyası isə xüsusi araşdırma tələb edir.**

**Arxaik ritualın əsas funksiyası keçidi tə'min etməkdir. Bu keçid zamanla, məkanla, şərait və vəziyyətlə bağlı ola bilər. Amma bütün hallarda ritual fərdi və ya kollektiv problemin həllinə xidmət edir. İstər neofitin status alması olsun, istərsə də sosial xarakterli digər problem olsun, ritual magik, mistik və dini yollarla onu həll etmək üçün keçirilir.**

**Ritual prosesi üç fazadan ibarət olur: bölünmə (separation), astana (marqo və ya limen) və bərpa (reaqqreqation). Birinci faza şəxsin və ya kollektivin əvvəl olduğu sosial strukturda, müəyyən mədəni şəraitdə möhkəmlənməsi deməkdir. İkinci faza "liminal" dövrüdür, "aralıq" dövrüdür. Ondan keçən subyekt ikili əlamət qazanır. Onda keçmiş və ya gələcək vəziyyətin xassələri ya azdır, ya da heç yoxdur. Üçüncü faza bərpadır, burada keçid tamamlanır. Ritualdan**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**keçən subyekt sabit vəziyyət alır və bunun nəticəsində "struktur tip" vəzifəsi və hüququ qazanır. Bununla da o, adi normalara və etik standartlara uyğun öz davranışlarını qurur (1,17).**

**Ritualın folklorlaşması və tədricən folklorda arxaikləşməsi magik funksiyanın itirilməsi ilə bağlıdır (2,145). Ritualın söz hissəsi ondan üzvlənir, funksional olduğu zamanda onu təfsir edir, kult konstruksiyasının dinamikasına uyğun olaraq ətalət gücü ilə mexaniki şəkildə təkrarlanır və tədricən funksionallığını itirir. Bundan sonra ritual söz və ya tamaşa kimi yalnız sənət hadisəsi olaraq qalır.**

**"KDQ mətnindəki törənlər onun poetik qurumunun müxtəlif qatlarında gerçəkləşmişdir. Bu qatlardan birincisini süjetin tərkibində özünə üzvi yer alan və bizim (S.R.) tərəfimizdən şərti olaraq təsviri törənlər adlandırılan törənlər sırası təşkil edir. Başqa sözlə, eposun mətnində biz müxtəlif törənlərin təsviri ilə rastlaşırıq. Məsələn, toy, yas, adqoyma törənləri, eləcə də funksiyası bir qədər gec başa düşülən, ilk baxışda qavranışı adi oxucu üçün aydın olmayan törənlər. Bu törənlərin boyların bütöv süjetində yeri, funksiyası var. KDQ mətnindəki ikinci törən qatını süjetin konkret formulunun, hər hansı mə'nalı kəsiyinin məzmununu əhatə edən törənlər təşkil edir. Üçüncü törən qatı isə eposun bütöv boylarının, yaxud boy süjetlərinin müstəqil qollarının məzmunu təşkil edən törənlər sırasıdır" (3,84).**

**"Sığır" deyilən milli ov ayinləri, şölən – yə'ni ümumi ziyafətlər, yuğ – yə'ni matəm mərasimləri (4,11) haqqında mə'lumatlara digər mənbələrdə də rast gəlinir. Amma DQK-də Oğuzun ritual gerçəkliyi başqa heç bir mənbə ilə müqayisə olunmayacaq dərəcədə zəngindir. Ona görə də biz yalnız birinci boyun ritual səviyyəsini təsvir etməklə kifayətlənirik.**

**"Dirsə xan oğlı Buğac xan boyu"nda mətn "toy" ritualının təsviri ilə başlanır:**

**1) ritualın dekorasiyası verilir;**
**2) ritualın icraçısı təqdim olunur (Qamğan oğlı xan Bayındır);**
**3) ritualın dövriliyi, periodikliyi bildirilir (ildə bir dəfə);**
**4) ritualın məkanı təsvir olunur;**
**5) ritualın kanonları və törə prinsipləri bəyan edilir (övladı olmayan öncədən qarğanır);**

**Bununla ritualın hazırlıq mərhələsi bitir. Ritualın vaxtı müəyyənləşdirilir. Zaman qəlibi rolunda "soylama" mətni verilir. "Soylama"dan anlaşılır ki, ritual səhər tezdən başlanır.**

**Ritual Dirsə xanın simasında təqdim olunur. Personajın ritual məkanına daxil olması üç mərhələlidir:**

**1) gəliş;**
**2) qarşılanma;**
**3) yerləşdirmə.**

**Bayındır xan ritualı təşkil edir. Amma o, birbaşa ritual icraçısı deyildir. Ritual onun tapşırığı əsasında gerçəkləşdirilir. "Hökm – cəza – nəticə" formulunda "toy" ritualı tamamlanır.**

**Mətndə növbəti ritual dövrəsi – ulu toy ritualı başlanır. Ritual "qurban – dilək – nəticə" formulu üzrə reallaşır. Bütöv proses üç aktdan ibarət olur: I-də qurban verilir, II-də hacət dilənir, III-də "bir ağzı dualının alqışı ilə Allah-Taala bir əyal" verir.**

**Çağdaş prizmadan yanaşılsa, birinci "toy" üst qatda "şölən"dir, alt qatda isə "soy" törənidir. II "ulu toy" isə üst qatda "şölən" mə'nasında "toy"dur, alt qatda isə "qurban" törənidir. Mətndə verilmiş bu iki ritual qəhrəmanın qeyri-adi doğuluş motivini işarələyir. Növbəti ritual "buğa savaşdırma"dır. Advermə motivinin əsasında dayanan bu törənin ildə iki dəfə keçirildiyi bildirilir. Buradan bilinir ki, oğuzlar yazda və küzdə (payızda) yeniyetmələrə ad verib, onlara sosial status qazandırırlar.**

**Bu ritualda Oğuz bəyləri iştirak edir, ritualı Dədə Qorqud icra edir. Müsabiqədə 4 gənc iştirak etsə də, bunlardan yalnız biri – Dirsə xanın oğlu Buğac ad alır. Dədə Qorqudun dilindən verilən "soylama"da ritualda təqdim olunan şəxsin əsas keyfiyyət minimumu kimi "ərdəm" və "hünər" göstərilir. Görünür, Oğuz toplumunun alplıq dönəmi üçün bu iki mə'nəvi keyfiyyət daha zəruri sayılmışdır. Amma adverməyə təqdim olunmuş şəxs üçün təklif edilən ən'amların hamısı maddidir: bəylik, taxt, at, qoyun, dəvə, ev, xüsusi geyim (paltar).**

**Epik təqdimatda Dədə Qorqud ad verir və neofiti yeni statusa (bəyliyə) keçirərək qutlayır. Dirsə xan tələbləri gerçəkləşdirir. Deməli, əski oğuz cəmiyyətində "advermə" təklifini bəylər verir, Qorqud dədə reallaşdırır, xan bəylik (sosial status), hakimiyyət (Oğuz hərbi-siyasi administrasiyasında rəsmi mövqe) və maddi tə'minat verir.**

**Bunun üçün:**

**1) hərbi səviyyədə – hünər və ərdəm faktı olmalıdır (fiziki və əqli yetkinlik);**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**2) sosial səviyyədə – Oğuz bəyləri bunu təsdiq etməlidir (manifestasiya olunmalıdır);**
**3) mə'nəvi səviyyədə – Dədə (Qorqud) e'lan edib legitimləşdirməli və populyarlaşdırmalıdır;**
**4) siyasi səviyyədə – xan rəsmiləşdirməlidir.**

**Beləliklə, qəhrəmanın ad alması motivi özündə qeyd etdiyimiz ritual elementlərini daşıyır. Mətndə növbəti ritual "Qanlı toy"dur. Bu ovu qutlama, ovu mübarək etmə mərasimidir. Bu mərasim Buğac atası Dirsə xanla birgə ovda olarkən anası tərəfindən hazırlanır. Ana oğlunun ilk ovunu mərasimdən keçirmək istəyir. Folklor motivi kimi bu, qəhrəmanın səfərə çıxması, ova getməsi kanonik formuludur. Amma onun əsasında dayanan ritual Buğacın atası tərəfindən yaralanaraq qayıtmaması səbəbindən gerçəkləşmir.**

**Zəif şəkildə müşahidə olunsa da, mətndə daha bir ritual vardır. Bu, "boy" ritualıdır. Buğacın 40 namərdin dustaq etdiyi Dirsə xanı xilas etməsindən sonra bu ritual keçirilir. Bu mərasimdə xanlar xanı iştirak edir, "oğlana bəylik və taxt verir". Dədə Qorqud məhz bu zaman Buğacın mənsub olduğu boyu boylayır, öyür. Bu boyda verilən "soylama"ların heç birində "boy boyladı" ifadəsi işlənməyib. Yalnız sonuncu soylamada həm boy boylanır, həm soy soylanır, həm də oğuznamə düzülüb qoşulur. Təbii ki, bunun oğuzun sosial strukturu ilə əlaqəsi vardır. Sosial struktur ritualda və folklorda öz ifadəsini tapır, ona proyeksiya olunur. Bir nəslin öygüsü – soylama, bir qəbilənin öygüsü – boylama, bütün oğuzun (Qalın oğuzun) öygü-sü – oğuznamə (ehtimal ki, bunun bir oğuzlama variantı da olmuşdur).**

**Sonuncu və zəif görünən ritual qəhrəmanın qələbəsi motivinin əsasında dayanır.**

**Bütövlükdə I boy Oğuzun soy problemini özündə əks etdirir, toy (əslində soy) ritualı ilə başlanır və boy ritualı ilə tamamlanır.**

**Sonuncu element "yum"dur. "Yum" nədir? R. Kamala (5,40) və S. Rzasoya görə, ritualdır; ikinci onu, sadəcə olaraq, ritual, birinci isə "arxaik şaman ritualı və janrı" adlandırır. Əgər "yum" ritualdırsa, onda o, hansı ritualdır, funksiyası nədir və s.**

**Yas mərasiminin arxaik adı "yuq"dur, onda söylənən mətnin janrı saqu (ağı)-dır. Toy – düyündür. Arxaik toy – el bayramıdır. Yağma, sığır, şölən kimi törənlər də mövcud olub. Amma bunların heç biri yum deyil. "Yum" adı altında verilən mətnin janrı (R. Kamalın fikrinin əksinə olaraq), sadəcə olaraq, alqışdır. Bizə görə, "yum" boyu, dastanı, məclisi qapamaq, bağlamaq, yummaq anlamında bir sözdür. Ola bilər ki, ozan ağzında qəlibləşmiş bir söz olsun. Amma onun islam öncəsi, tanrıçılıq epoxasından gəlmə bir kəlmə olmasına şübhə yoxdur. Çünki islam ən'ənəsində məclisə "fatihə" ilə xitam verilib. Ola bilər ki, "yum" əski oğuzlarda xətm eləmək, bitirmək, tamamlamaq anlamında işlənib. DQK-də də bu funksiyada müşahidə olunur.**

## ƏDƏBİYYAT

**1. Terner V. Simvol i ritual. M., 1983**
**2. Bayburin A.K. Folğklor obrədovıy. – Narodnıe znaniy, folğklor, narodnoe iskusstvo. M., 1991**
**3. Rzasoy S. "Kitabi-Dədə Qorqud" süjetlərinin ritual-mifoloji semantikasından (Eposun ilk boyu əsasında) – Kitabi-Dədə Qorqud – 1300. B., 1999**
**4. Köprülü M.F. Türk edebiyatında ilk mütasavvıflar. Ankara, 1991**
**5. Kamal R. Kitabi-Dədə Qorqud: arxaik ritual semantikası. B., 1999**
**6. Hacıyev T. Dədə Qorqud: dilimiz, düşüncəmiz. B., 1999**
**7. Kitabi-Dədə Qorqud. B., 1988**

## TRANSFORMASION ARCHAIC RITUALS TO STRUCTURE JANRE

**Summary**

**Ritual stage containing of archetype of text structure in the first part of "The book of Dede Gorgud" is reconstructed in the article. In the context of ritual-folklore relationship, the specific of ritual, its transformation into folklore and main motives are determined.**

## УРОВЕН МОТИВОВ ТРАНСФОРМАЦИИ АРХАИЧЕСКОГО РИТУАЛА В СТРУКТУРУ ЖАНРА

**РЕЗЮМЕ**

В статье реконструируется ритуальный ярус, образующий архетип структуру эпического текста. В контексте ритуально-фольклорных отношений определяется специфика ритуала, его трансформация в фольклорные мотивы.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ŞİRVAN FOLKLORUNUN COĞRAFİ, TARİXİ, VƏ ETNOQRAFİK ƏSASLARI

***Ataş Əhmədli***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Əlverişli iqlim şəraiti və geo-siyasi mövqeyinin üstünlüyü Şirvanı (əsasən çağdaş dönəmədək) Azərbaycanın dövlətçilik (siyasi-iqtisadi, iqtisadi, sosial-mədəni) həyatında zaman –zaman strateji önəmi olan bir məkana çevrilməyə imkan vermişdir. Tarixi-coğrafiyasına görə A.Bakıxanovun «Gülüstani-İrəm» əsərində təsvir olunmuş Şirvanın ərazi hüdudları hazırkı inzibati-ərazi bölgüsündə yer almış miqyasından kəsgin sürətdə fərqlənir. Şamaxı, İsmayıllı, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Göyçay və bir də bölgüdən qıraqda qalıb, qismən bura aid edilən Zərdab, Əli-Bayramlı, Qobustan rayonlarından ibarət indiki Şirvanın «Gülüstani-İrəm»dəki təsviri belədir: «....İndiki Şirvan məmləkəti Səlyan, Şəki, Bakı, Quba, Dərbənd, Təbərsəran, Kürə, Samur nahiyəsi və İlisunun aşağı bir qismindən ibarətdir. Bunlar ölkənin gözəl və ən geniş vilayətlərindəndir» (1, 13). Əmin-Əhməd «həft-iqlim» (1593) adlı əsərində Şirvanın əvvəllər bir şəhər, sonra isə bir ölkə adı olduğunu qeyd edir (1, 14). Ərazisinin bu cür genişliyi hələ o dövrə qədər vilayətin hansı zəngin və mürəkkəb tarixi-siyasi olaylardan keçdiyini bəlli edir. Əlbəttə böyük şəhərləri və yaşayış məskənlərini özündə cəmləşdirən nəhəng ərazini asudə idarə etmək o qədər də sadə məsələ deyildi. Bunun üçün birinci növbədə nüfuzlu siyasi və inzibati amirliyə yiyələnmək tələb olunurdu. Hərbi və iqtisadi baxımdan üstünlüyü mərkəzi Şirvana (Şamaxı, Bakı, Dərbənd) vilayətin ucqar və qeyri-bərabər ölçülü ərazilərinə də mütləq nəzarəti özündə saxlamağa imkan yaradırdı. O zaman ölkədəki iri ticarət və mədəni mərkəzlərin mühüm bir qisminin də vilayətdə cəmləşdiyini bir daha vurğulasaq onda arealın qüdrət və miqyası haqda digər arqumentləri sadalamağa ehtiyac qalmaz. Adı çəkilən vilayətlərin çoxu həm də səhər statusunda nüfuz qazanmışdı.

Fiziki coğrafiyasına görə Şirvan (müstəqil ) Azərbaycanın dörddən biri qədər geniş ərazisini tutan Kür-Araz ovalığının (Mil, Qarabağ və Muğan da daxil oliaqla) əsas düzlərindən sayılır (2, 11). Əsasən orta dağlıq (İsmayıllı, Şamaxı), dağətəyi (Axsu, Göyçay) və düzənliklərdə (Kürdəmir, Ucar, Ağdaş) yerləşməsi, bölgənin hələ erkən zamanlardan məskunlaşmasını təmin etmişdir. İqlim şəraitinin əlverişli olması isə bu yerlərdən təsərrüfat məqsədləri üçün istifadəni xeyli asanlaşdırır. «Aqroiqlim şəraiti burada üzümçülüyün, bağçılığın, taxılçılığın, heyvandarlığın inkişafı üçün çox əlverişlidir. Respublikanın bir sıra böyük tarixi əhəmiyyətə malik olan qədim və müasir şəhərləri və yüzlərlə böyük kəndələri bu zonada yerləşir. Bura (Aran zonası A.Ə.)qədimlərdən gözəl qışlaq kimi şöhrət qazanmışdır» (3, 9). Uca Tanrının bəxş etdiyi əsrarəngiz təbiət, bərəkətli zəmilər, bol sulu çeşmələr və s. nemətlərə insanlarındakı yaradıcılıq şövqü də əlavə olunsa, o zaman Şirvanın mənəvi sənət dünyasının sanballılığı heç vəchlə şöbhə doğurmaz. Görkəmli yazıçı, folklorşunas alim Y.V.Çəmənzəminliyə görə, Azərbaycan ərazisində Qarabağ, Şirvan, Qazax tərəflərdə coğrafi mühit, təbiət zəngin, rəngarəng olduğu üçün buralarda dil, ədəbiyyat daha zəngindir. «Dağlı, meşəli, çeşməli yerin xalqı daha incə dilə, şairanə tərkiblərə malik olur» qənaətinə gələn Çəmənzəminli burada Şirvanın adını təsadüfən çəkmir. Ardıcıl apardığımız müşahidələr və ərazidən topladığımız folklor örnəklərinin sanbalı müəllifin qənaətini bir daha təsdiq edir» (4, 97). Bütövlükdə götürsək, insanların həyat əv yaşayış normalarında (bura təsərrüfat, maddi və mənəvi yaradıcılıq və s. daxildir) coğrafiyanın doğurduğu qütblü (mənfi və müsbət) təsirləri inkar etmək olmaz. Folklor mətnlərində özünə yer almış bu təsirlər (əlamətlər) bəzən nümunənin hansı coğrafiyadan (arealdan, bölgədən, məhəllədən) boy verdiyini təmin etməyə imkan verir. Lakin folklor nümunələri fərdi situasiyalarda yaranıb inkişaf etdiyindən çox vaxt qeyd olunan əlamətlər də dəyişikliyə məruz qalmış nümunələrin coğrafiyası haqqında aydın təsəvvür yaratmır. Psixoloji faktorlara da bağlılığını nəzərə alaraq, biz burada məsələni başlıca üç səviyyədə dəyərləndirməyi lazım bildik. Həmin səviyyələr aşağıdakılardır :

1.Tarixi-toponimik səviyyə
2.Milli- etnik səviyyə
3.Gen-yaddaş səviyyəsi

Tarixi toponimiya əsasən, qədim yaşayış məskəni, tayfa, qəbilə, şəxs və s. adlarının folklor mətnlərində aşkarlanması ilə şərtlənir. «Qeyd edilməlidir ki, regionun toponimiyasının əsasını türk (Azərbaycan) təbəqəsi təşkil edir. Özlüyündə isə bu təbəqəyə aid toponimlər iki yerə ayrıla bilər. Etnotoponimlər və müxtəlif coğrafi terminlərdən təşkil olunmuş adlar» (5, 64).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hələ birinci minilliyin əvvəllərində Zaqafqaziya torpaqlarının tabe edilməsi uğrunda İranla Bizans arasında baş verən siyasi toqquşmalar zəminində ətraf yerlərdən Azərbaycana müxtəlif xalqların (əsasən irandillilərin) axını başlandı. V-VI əsrlərdə bu axın yeni məzmun kəsb etməyə başladı. Artıq köçürülənlərin içərisində türk soylular üstünlük təşkil edirdi. Bu andan «Azərbaycanda türk dili elementi tədricən güclənərək böyük əhəmiyyət kəsb etməyə başladı» (6, 25). Bunun nəticəsində sonrakı dövrlərdə (VI-VIII əsr) Azərbaycanda mövcud siyasi rejimlərə (xüsusən ərəb xilafətinə) qarşı mübarizəyə qalxmış aparıcı etnosla (oğuz türkü) digər azlıqda qalan türk və irandilli tayfaların vahid cəbhədə birləşməsi mümkün olmuşdu. Beləliklə etnik konselidasiyanın (birliyin) əsasən başa çatdırıldığı «erkən orta əsrlər dövründə (VIII-IX) Azərbaycan xalqı və Azərbaycan dili qəti olaraq formalaşdı» (6, 26-27)

Bu dövrdə əldə olunmuş belə qeyri-rəsmi ittifaqlar nəinki milli-etnik münaqişələri zəiflətdi, həm də mərkəzi hakimiyyətin güclənməsinə təkan verdi. İslami dəyərlərə mənsub olduqlarından bu xalqların (yerli və gəlmələrin) təması bir qədər də asan başa gəlirdi. Siyasi birliyin əldə olunması digər təsərrüfat, mədəniyyət və hətta qohumluq münasibətlərinin də yaradılmasında geniş imkanlar açırdı. Əslində bu tarixi mərhələ aparıcı etnosun rolunu daha da genişləndirməklə sonrakı mərhələdə milli dövlətçiliyin təşəkkül tapmasına zəmin hazırlayırdı.

O zamanlardan məskunlaşmış belə azsaylı xalqların sonrakı nəsilləri də, hazırda Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şirvanda (bəzi kompakt yerləri nəzərə almasaq) yerli əhaliyə qarışmış şəkildə rahat güzəran sürməkdədirlər. Şirvanda əsasən, Şamaxı (Zarat, Xeybəri Zarat, Mərhəm və s.) və İsmayıllı (Lahıc və ona bitişik kəndlərdə) rayonlarında oturaqlaşmış bu irandilli əhali əksər etnoqrafik mənbələrdə «tat» adlandırılır.

Fikrimizcə, Azərbaycanda məskunlaşmış digər azsaylılardan fərqli olaraq, Şirvan (xüsusilə Lahıc) tatları folklorumuzun müxtəlif ölçülü janrlarnı ciddi dəyişikliyə uğratmadan bu günədək yaddaşlarında yaşatmaqdadırlar.

Bir bioloji və şüur qavramı olaraq gen və yaddaş kateqoryalarını da folklorun təməl prinsiplərindən saymaq olar. Bu kateqoriyalar (vasitələr) insan psixikasının gerçək aləmlə bir başa (şüurlu) və dolayısı ilə olan (hissi) instiki təmasını real zəmində (işarə, mətn və s-də) bərpa etməyə imkan verir. Çox vaxt yanaşı (bəzən qan yaddaşı, gen yaddaşı kimi də) işlədilən bu anlayış - kateqoryaların fərqləndirilməsi zəruridir. Genetika iqlim , sosial şərait, xarakter və s. ilə daha çox əlaqısi olan bir kateqoriyadır. Məs: uzun illər dağ şəraitində güzəran sürmüş və sonradan hansısa məcburiyyətdən aranda məskunlaşmış bir obanın, ailənin, şəxsin davranışlarında hətta nəsil əvəzlənməsi olsa belə əvvəlki normaların saxlanıldığının (sərt davranış, ucadan danışmaq və s.) şahidi olursan.

Bir şüur hadisəsi kimi yaddaşda daima təbii təsirlərə məruz qalır. Məhz yaddaşın köməyi ilə ətraf aləmdə olan bilgilər fasiləsiz və assosiativ olaraq insan beynində sistemləşdirilir. Bununla da yaddaş mürkkəb beyin aparatının mühüm bir funksiyasını yerinə yetirmiş olur.

Folklorun tarixi əsasları dedikdə ilk baxışdan elə görünə bilər ki, folklorun daha çox tarixi əks elətdirdiyindən söhbət açılacaq. Əslində isə məsələnin qoyuluşu fərqlidir. Biz folklor düşüncəsində tarixin necə əks olunduğu haqda fikirlərimizi sizinlə bölüşmək istəyirik.Bildiyimiz kimi , bir düşüncə hadisəsi olan folklor zamana (şərti tarixə) qovuşuq halında yaranmış, inkişaf etmiş və var olmaqdadır. Bütövlükdə tarixi əks etdirməsədə, folklorda tarixin izlərinin saxlanılmamasını da söyləmək mümkünsüzdür. Bunu əsaslandırmaqdan ötrü bəzi folklor janrlarını (dastan, əfsanə, rəvayət və s.) misal gətirmək olar. «......Arxeoloji abidələr, tapılmış sikkələr,bəzi hallarda xalq arasında qalan rəvayətlər keçmişimiz haqqında bizə faydalı məlumat verir» (7, 5) . Lakin tarix folklorda fakt kimi deyil, hansısa əlamətləri ilə yaşayır. Məs: Belə bir tarixi fakt var ki Fit dağı (Lahıc ərazisində sıldırım dağdır ) Şamaxı xanlarından olan Mustafa xanın (1791-1844) yadellilərin hücumlarından qorunmaq üçün sığınacaq-istehkam yeri olub. Bu tarixə Manaf Süleymanovun «Lahıc » kitabında belə bir müraciət var: «Mustafa xanın zindanı və cəza yeri Fit dağında yerləşirdi. Günahkarları adətən Fit dağının sıldırımlı zirvəsindən Sulut çayına atırdılar. Rəvayətə görə bir müqəssir arvadı bu dağdan atanda tumanı geniş açılır, arvad sağ-salamat çaya düşür. Hamı məəttəl qalır. Əhvalatı xana xəbər verirlər, tədbir soruşurlar. Mustafa xan deyir ki, «Allahtəala özü günahkarları yaxşı tanıyır.» O, arvadı müqəssir olmadığı üçün bağışlayır və əmr edir ki, « Aparın o arvada ianə verin» » (8, 14-15). Bizdən o qədər də uzaq görünməyən bir tarixi dövrün təfərrüatının sonradan xalq tərəfindən yaradılmış mətnlərinin leytmotivində daşındığını izlədik. Təkcə Fit dağı ilə bağlı «Şirvan folkloru antologiyası»nda yeddi əfsanə təqdim olunub (9, 81-85) lakin nəzərə alınmalıdır ki, Şirvanda rəvayətlərin yaşaması daha qədim ənənə ilə bağlıdır. Məsələn: «Sasani hökmdarlarını, ərəb



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istilaçılarını, Əmir Teymuru, Nadir və Qacar şahları yola salmış Girdiman» çayı ilə əlaqəli (hələ Girdiman dövlətini demirik - A.Ə.) Şirvanda çoxlu sayda folklor mətnləri dolaşmaqdadır.

Folklorun etnoqrafik əsaslarını əslində folklorun təməl bilgiləri təşkil edir. Ümumiyyətlə, xalq həyatının elə bir təcrübi sahəsi yoxdur ki, (xüsusən folklorda ) orada etnoqrafik bilgilərdən söhbət açılmasın. Məhz bu cəhətlərinə görə Dünya folklorşunaslığında əksər hallarda bu sahələr qovuşuq halında araşdırılır. Mövsümi (Novruz, holavar,saya ) və məişət (toy, yas və s.) mərasimləri ilə bağlı folklorumuzda istənilən qədər nümunələr vardır. Bu eyni zamanda həmin mərasimlərin xalqımız arasında çox qədim zamanlardan icra olunmasının göstəricisidir. Azərbaycanın dahi şairi Xəqani Şirvani XI-XII əsrlərdə Şirvan elmi-ədəbi mühitində ən hörmətli nümayəndələrdən biri olmuş İmam Şəmsəddin Şirvaninin nüfuzunu Əcəmdə Novruzun gələnəkli və möhtəşəmliliyi ilə müqayisəyə gətirərkən belə bir fikir söyləyib: «Şəmsəddin ən yüksək zirvədəndə daha çox üstündür. Necə ki, Əcəmdə Novruz Şirvana xasdır» (7, 46). Folklorun bütün janrlarında etnoqrafik bilgilərin yaşandığını söyləmək olar. Bu bilgilərin daha çox yer aldığı tapmaca janrının bir nümunəsinə baxaq:

Altı taxta, üstü daş
Səkkiz ayaq, iki baş

Tapmacadakı bilgilərin hansı təsərrüfat sahəsinə aid olduğunu çətinlik çəkmədən tapmaq mümkündür. Təsəvvürü olanlar yaxşı bilir ki, vəl iki öküz qoşulmuş (səkkiz ayaq, iki baş), taxta və daş təbəqələri təşkil edən bir təsərrüfat alətidir (Ayrı-ayrı növlərin hesabına misalların sayını artırmaqda olardı).

Beləliklə, Azərbaycanın bir parçası olan Şirvan bölgəsinin folklor sferasının coğrafi, tarixi və etnoqrafik əsaslarına mümkün səviyyələrdə nüfuz etməyə çalışdıq. Məlum oldu ki, bu folklor tarixən çox ciddi əsaslar üzərində boy atıb, ərsəyə gəlmişdir. Bu isə bölgənin folklor ənənəsinin daha qədim köklərlə bağlılığı haqda, bizlərdə ciddi təssurat yaradır.

## ƏDƏBİYYAT

1. A. Bakıxanov «Gülüstəni-İrəm» Azərbaycan EA. Nəş. Bakı-1951.
2. Azərbaycan etnoqrafiyası. 3 cilddə 1 cild. Bakı, Elm 1988.
3. M.Müseyibov «Azərbaycanın fiziki coğrafiyası» Bakı , Maarif 1998.
4. Dədə Qorqud toplusu III, Bakı 2005. Ataş Əhmədli «Folklorda söyləyicilik statusu».
5. Böyük Qafqazın Cənub-Şərq hissəsinin toponimiyası. Bakı, Elm, 1993.
6. Həvilov. N.A. Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1991.
7. E. Mehrəliyev «Şirvan Elmlər Akademiyası» Bakı, «Çaşoğlu» 2000.
8. M.Süleymanov «Azərbaycan diyarı Lahıc» Bakı, «Vətən», 1994
9. Azərbaycan Folkloru Antologiyası. XI «Şirvan folkloru». Bakı, «Səda», 2005



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ОБЩЕТЮРКСКИЕ ХУДОЖЕСТВЕННЫЕ ТРАДИЦИИ В ДУХОВНОЙ ЛИТЕРАТУРЕ КУМЫКОВ (НА ПРИМЕРЕ ТВОРЧЕСТВА АБДУРАХМАНА ИЗ КАКАШУРЫ)

***Акамов А.Т.,***
***Россия***

Одним из выдающихся представителей кумыкской литературы рубежа XVIII – середины XIX веков является Абдурахман из Какашуры (ум. в 1841), чье художественное наследие было возвращено читателю совсем недавно. С высокой художественностью и достоверностью поэт отобразил свою эпоху, в его эстетической системе ярко выражено философское начало. В мировоззрении Абдурахмана отразились социально- исторические, политические и духовные процессы того времени, нашли своеобразное преломление элементы многих философских учений. В центре его философских и художественных исканий - человек и проблемы нравственности.

В действительности, когда знакомишься с творческим наследием Абдуррахмана из Какашуры, убеждаешься в том, что его «тюрки» в основном однотипны, схожи друг с другом и весьма проблематично провести между ними, содержательную или формальную грань. Но следует подчеркнуть, что эта однотипность произведений, их схожесть друг с другом и в содержательном и в формальном плане, рассматриваются нами не как изъян в поэзии Абдурахмана из Какашуры. Это явление было характерно для всех литератур средневекового мусульманского Востока. «Литературное сочинение на средневековом мусульманском Востоке, в частности, в Средневековой Анатолии, чтобы иметь успех у читателей и слушателей, не должно было порывать ни с литературной традицией, ни с традиционной моралью. Новаторство мало занимало как самих писателей, так и их читателей. В этом можно видеть одно из качественных различий в авторских устремлениях и читательском восприятии людей средневековья и нашего времени»[1,122]. Это положение подтверждается, в частности, и на материале персо и тюркоязычных историографиических сочинений эпохи средневековья [7,71-80].Дополнительное подтверждение тому, что одним из условий популярности поэзии на средневековом Востоке является её традиционность, привычность, можно найти в сочинении Абдурахмана Джами «Бахаристан» («Весенний сад»), написанном в 892/1487 г. Характеризуя поэзию Амира Хосрова Дехлеви, Джами пишет: «Его газели нравятся всем, поскольку он использует в них образы, которые уже знакомы влюбленным и воспринимаются каждым из них сообразно своему вкусу и нраву»[2,180].

Изложенные факты дают основание предположить, что поэзия Абдурахмана из Какашуры была скорее всего традиционна, т.е. эти стихи были созданы в соответствии с эстетическими нормами тюркской средневековой поэзии. В вызванной к жизни общими задачами и целями воспитания благочестивого и верного идеям ислама мусульманина, в поэзии Абдурахмана из Какашуры представлены едва ли не все жанровые виды и подвиды религиозной литературы – проповеди и покаяния, религиозные гимны и элегии на смерть Пророка, святых – шахидов, погибших за веру и т.д.Значительное место в его поэзии занимают «тюрки», мысли и идеи которых в полной мере определяются исламскими канонами и носят ярко выраженный функциональный характер: обучение мусульманскому богослужению, положениям Корана, ознакомление с основами ислама и его историей, с жизнью пророков и святых. Эта богатая и разнообразная по форме, интонации и оттенкам литература, вобравшая в себя одновременно и особенности своего времени, его взгляды, представления, противоречия.Религиозные песнопения, элегии-плачи, проповеди и наставления создавали особый духовный климат, пропитывали сознание характерными настроениями, чувствами и идеалами, строили образ возвышенного человека, сумевшего подняться выше благ и соблазнов «бренного» мира и служить высокому и вечному – Аллаху, вере. Поэтизация борцов за идеалы ислама, естественно, начинается с образа пророка Мухаммада как высшего проявления человеческого духа и идеала каждого мусульманина. Особенно многосложно и проникновенно открылись эти стороны духовной поэзии в творчестве Абдурахмана из Какашуры. Последовательно и обстоятельно, путем внушения и назидания, увещеваний, советов и предостережений, описаний страшной кары, ожидающей отступников, и вознаграждения на том свете праведных, на достойных примерах и добрых поступках идет утверждение и пропаганда основ мусульманской религии в произведениях: «Иман булан ислам эки къардашдыр» («Вера с исламом – два родственника»), «Ла илягьа иллаллагь» («Нет Бога кроме Аллаха»), «Не къадар яшасанг къапул ятасан» («Сколько ни живи – живешь в беспечности»), «Азирейил къатылгъынча» («Пока не пришел Азраил»), «Гьар къуллукъну башыдыр ол беш намаз» («Начало любых дел – пять молитв»), «Вай аман, къабур азабы»



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(«Ах, эти муки загробной жизни») и др. Буквально по пальцам поэт перечисляет азы веры: вера во Всемогущего и Милостивого Аллаха; в его архангелов – Джабраила, Микаила, Азраила и Исрапила; в священное писание, ниспосланное Аллахом через своих посланников – Ибрахима («Откровение»), Мусу («Тора»), Дауда («Псалмы»), Ису («Евангелие»), Мухаммада («Коран»); в пророков Нуха, Ибрахима, Мусу, Ису и Мухаммада – последнего из пророков; в Судный день; в предначертания Аллаха. Большое место в своих «тюрки» Абдуррахман из Какашуры отводит разъяснению и укреплению в сознании людей пяти столпов ислама: признания формулы «Нет Бога кроме Аллаха и Мухаммад пророк его», обязательности своевременного выполнения пятикратной ежедневной молитвы, давать закат – налог в пользу неимущих со своего имущества, тридцатидневного обязательного поста в месяце Рамазан, хаджа – святого паломничества в Мекку. Абдурахман из Какашуры особо подчеркивает значение пяти своевременно выполненных молитв, считая их основой основ ислама. В стихотворении «Гьар къуллукъну башыдыр ол беш намаз» («Начало любого дела – пять молитв») поэт пишет:

| | |
|---|---|
| Ислам ёлда беш намаз дин терекдир, | *На пути к исламу пять молитв – дерево веры,* |
| Аны къылгъан жагъаннемден арекдир, | *Кто их выполняет, тот далёк от ада,* |
| Ахырат уьюне ёлдаш герекдир, | *На тот свет нам нужен спутник,* |
| Гьар ерде де ёлдашдыр ол беш намаз. | *Всюду твой спутник – эти пять молитв.* |

В поэзии Абдурахмана из Какашуры освещаются многие значительные вопросы сотворения мира, взаимоотношений народов, истории ислама, начиная с его возникновения до современного ему состояния, религиозных воззрений, норм человеческого поведения, нравственности, этики. В ней открывается большой комплекс сведений и знаний, библейская, евангелическая и кораническая мифология, легенды, предания. Творчество Абдурахмана из Какашуры представляет собой одну из попыток популярно, масштабно изложить суфийское учение на общетюркском языке «тюрки» с учётом тюркских поэтических традиций. Поэтому образно-поэтическая интерпретация идей суфизма, осуществленная поэтом, представляет особый интерес с точки зрения исследования малоизученной (как это подчеркивает И.В. Стеблева[8,5]) образной системы классической тюркоязычной поэзии. Одна из задач изучения названной поэзии состоит в том, чтобы выявить в ней систему традиционных образов и установить их возможное философское содержание[5,154-156]. Однако такое исследование, вследствие тесной связи этой поэзии с философией и эстетикой суфизма, невозможно без знания специфической суфийской символики, которая требует, в свою очередь, специального изучения[6,20-22].

В образно-семантической структуре текстов, в общем контексте всех стихов Абдурахмана из Какашуры по своей употребительности и функциональной значимости выделяются такие слова-образы и словосочетания, как: бели къысгъа бойлу узун ат (конь с талией короткой, шеей длинной); ажжал огъу (стрела смерти); сегиз аякълы он гёзлю ат (восьминогий и десятиглазый конь); къылдан инче, къылычдан итти кёпюр (мост, который тоньше волосинки и острее меча); дин терек (дерево религии); мусапир (путник); манзил (стоянка); юлдуз йимик созулгъан гёзюм (подобные сверкающей звезде глаза); къалам йимик къыйылгъан къашым (брови подобные перу); мигьманхана (помещение для гостей); къапасда къуш теки жаным (душа подобна птице в клетке); тамурсуз терек (дерево без корней); зулмат уьй (комната мрака); къанатлы къуш (птица с крыльями); авчу (охотник); пана дюнья (бренный мир); жансыз ат (неживой конь: носилки) и т.д.

Естественно, что в художественной системе Абдурахмана из Какашуры значительное место занимают суфийские элементы. Разумеется, поэт употребляет множество суфийских терминов и выражений, сугубо специфичных для суфийского художественного мира. Эти, можно сказать, общие для суфиев выражения обладали не только чисто смысловыми и терминологическими значениями, но они, видимо, несли на себе и художественную нагрузку, пробуждая тем самым в читателе определенные эстетические эмоции. Эти различные по семантике слова, каждое из которых в «естественном» языке является практически однозначным понятием, в поэтическом языке Абдурахмана меняют свои характеристики и характер своих отношений. Например, в стихотворении «Ата дедим, ана дедим къалмады» («Ни отец, ни мать моя не остались»):

Гъавчу сагъа: «Кимсан?» – деюп сорамас,
Урар, йыгъар, «Къой», – дияна къарамас.

*Охотник (Азраил) у тебя не спросит, кто ты,*
*Побьет, повалит, несмотря на твои мольбы.*

Здесь эти слова-образы, сохраняя свою самостоятельную семантику, выступают в функции



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

изобразительно-выразительных средств, в частности, в качестве сравнений и метафор.

Для произведений Абдурахмана из Какашуры характерен наплыв чувств, эмоциональность их выражения, взволнованность. Весь свой талант автор использует для создания произведений, могущих вызвать отклик в душе читателя и слушателя, воздействовать на них, воспитать их в набожности. В «тюрках» поэта не столь важна информация, заложенная в них, как её эмоциональность, экспрессивность, способность воздействовать на разум и чувства, в большей степени на чувства. Поэзия Абдурахмана из Какашуры отличается образностью, метафоричностью, лаконичностью и поэтому его «тюрки» разворачиваются широким полотном поэтического излияния, выражения. Многословия, повторы, подробности, детали оцениваются нами в этих «тюрках» не как недостаток, а наоборот: чем больше перекликаются, повторяются темы и содержание стихов, тем больше усиливается сила их эмоционального воздействия на слушателей.

| | |
|---|---|
| Къара ер къарнында ятаниям мен, | *В чреве земли буду лежать я,* |
| Къара ерде ватан тутаниям мен, | *В чреве земли найду обитель я,* |
| Къабур азапларын кютаниям мен – | *Муки загробной жизни сполна испытаю я,* |
| Аман, Мункар-Накир, къоркъувум сенден. | *Ох, Мункар и Накир, страшусь вас!* |
| («Бу пана дюньядан гёчаниям мен») | («Я покидаю этот бренный мир») |

Композиция рассматриваемого произведения, основанная на двух синтаксических приемах – повторения и параллелизма, представляется не случайной, а обусловленной, определяемой художественным заданием. «Тюрки» Абдурахмана из Какашуры предназначались прежде всего для пения во время мавлидов, зикров и представляли собой своеобразные назмы – религиозные песнопения. Их структура должна была отвечать условиям, при которых эти тексты могли бы легко петься и оказывать эмоциональное воздействие. Хорошие условия для этого создают синтаксические повторения и параллелизмы. «Синтаксическое единство есть вместе с тем единство интонационное, и синтаксический параллелизм дает известное направление развитию мелодии. Этот факт является особенно существенным для понимания связи между композиционными построениями как бы песенного характера столь обычными в романтической лирике, и тем стремлением к звуковому, эмоционально-лирическому воздействию, которое отличает такую лирику»[3,461]. Это положение о связи синтаксиса, интонации, мелодии и их следствия – эмоционального впечатления целиком приложимо ко многим произведениям Абдурахмана из Какашуры. Можно предположить, что их композиция, выбор композиционных приемов обусловлены стремлением поэта придать тексту песенный характер с ярко выраженным ритмом и эмоциональным воздействием.

Важно также отметить, что указанные приемы – синтаксический параллелизм и повторы являются основой архаического тюркского народного стиха, основным выразительным признаком эмоционально-приподнятой поэтической речи, характерным для народной тюркской поэзии[4,28].

Таким образом, основу поэтического строя «тюрки» Абдурахмана из Какашуры составляет идущая с глубины веков тюркская поэтическая традиция с её собственными художественными представлениями.

**ЛИТЕРАТУРА*:***

1. Гуревич А.Я. Категории средневековой культуры. – М., 1972. – С. 122.
2. Джами А. Весенний сад (Бахаристан). – М., 1987. – С. 180.
3. Жирмунский В.М. Теория стиха. – Л., 1975. – С. 461.
4. Жирмунский В.М. О некоторых проблемах теории тюркского народного стиха //Вопр. языкознания. – 1968. – № 1. – С. 28.
5. Иванов С.Н. К изучению жанра газели в староузбекской поэзии //Тюркологический сб. – М., 1978. – С. 154-156.
6. Иванов С.Н. Пять веков узбекской газели //В красе нетленной предстаёт: Узбекская классическая лирика XV-XX вв. – М., 1977. – С. 20-22.
7. Султанов Г.И. Рукописная историческая книга и её читатели в странах средневекового мусульманского Востока //Народы Азии и Африки. – 1984. – № 2. – С. 71-80.
8. См.: Стеблева И.В. Семантика газелей Бабура. – М., 1982. – С. 5.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# К ВОПРОСУ О КУЛЬТУРНО-ИСТОРИЧЕСКИХ ВЗАИМОСВЯЗЯХ АЗЕРБАЙДЖАНА И ДАГЕСТАНА

***А.М.Аджиев,***
***М.А. Аджиев***
***Россия***

Население территорий, где расположены современные Азербайджан и Дагестан, издревле жило в тесной взаимосвязи. Так, известный азербайджанский ученый Ю.Б. Юсифов в клинообразных надписях Древней Месопотамии показывает, что еще до начала II тысячелетия до н.э. на Кавказе обитали и активно мигрировали племена, являющиеся носителями иберийско-кавказских, тюркских и других языков [I,47 -54], и в частности пишет: «В клинописных источниках встречаются названия ряда стран, которые, по-видимому, образованы от соответствующих этнонимов. Это Кумману/Куммани…, Куммухи…, Лаке…, которые соответственно могут быть сравнимы с поздними этническими названиями коман (тюркское племя), кумук (тюркское племя), лак (нахско-дагестанский этнос)» [II, 51].

Известно также, что части Дагестана и Азербайджана входили в древнейшее на Восточном Кавказе государственное образование - в Кавказскую Албанию.

Не менее тесно переплелись историко-культурные взаимосвязи Дагестана и Азербайджана в гуннский, хазарский, огузский, кипчакский периоды истории, и эти взаимосвязи, по сути дела во многом общие исторические судьбы, имели место и в более поздние эпохи.

Все это, так или иначе, отразилось и в культуре, в частности в фольклоре и этнографии.

Так, у многих народов Дагестана обнаруживаются элементы огнепоклонничества, проводится по настоящее время праздник "Навруз", много общего у наших народов в обрядах вызывания дождя, сбора урожая, в причитаниях, мифах, легендах, пословицах и поговорках, сказках и др.

Для примера назовем мифологическую легенду о Джюмджюме. В 1841 юду известный азербайджанский ученый А.-К. Бакиханов писал: "...в незавидных стихах на персидском языке от неизвестного писателя говорится, что Иисус Христос, увидев однажды человеческий череп, пожелал узнать, кому оный принадлежал, и поэтому попросил Бога воскресить его; когда же это было исполнено, то воскресший сказал, что он был могущественный царь язычников, и за грехи свои перед Богом страдает в аду; чтобы загладить молитвами и добродетелью прежние свои заблуждения, он просил Христа дать ему снова жизнь и дозволить прожить второй период оной на земле, что и было исполнено; после чего он умер с теплою верою в Бога и с благочестием".

Азербайджанско-дагестанские фольклорно-литературные взаимосвязи наблюдаются в замечательном тюркоязычном эпосе "Книга моего деда Коркута". Исследователи справедливо отмечают, что этот эпос, прежде всего, связан с фольклором и историей азербайджанцев, туркменов, турок и что, кроме этих народов, к его созданию имеют определенное отношение также узбеки, казахи, ногайцы и др. Целый ряд событий, описанных в "Книге моего деда Коркута", легенды и предания, связанные с Коркутом, имеют непосредственное отношение к Дагестану: речь идет о Дербенте, о войне с язычниками Дагестана, о шамхале и др., а согласно одному преданию, Коркут и похоронен в Дербенте. У кумыков есть песня о Джаватбие, где содержится мотив битвы героя с ангелом смерти Азраилом, во многом сходный со сказанием о Дели Домруле из "Книги о моем деде Коркуте" [IV].

Другой известный памятник фольклора - эпос о Кёр-оглу тоже имеет достаточно тесные связи с Дагестаном. Достаточно было бы назвать часть эпоса о походе Кёр-оглу в Дербент, дастан "Бильгадинский поход Кёр-оглу" [V], где, как видно уже из названий сюжетов, повествуется о непосредственных связях героя с Южным Дагестаном, однако у кумыков зафиксирован поздний трансформированный сюжет всего эпоса [VI], а у даргинцев "возле аула Мекеги есть памятники, связанные с именем Куругли, хотя собственно о самом герое сказители уже не помнят, - "скала, отсеченная саблей Куругли," и четыре большие выбоины, называемые в народе "следами коня Куругли." [VII].

Дагестан в определенной мере связан также с жизнью и творчеством великого Низами. Поэт обратил на себя внимание правителя Дербенда. Правитель прислал ему в подарок молодую кипчакскую рабыню по имени Афак, которая стала первой и горячо любимой женой Низами. Она умерла рано, утрата оставила глубокий след в душе поэта, о чем свидетельствует авторское вступление к поэме "Хосров и Ширин".



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Являясь уроженцем Гянджи, расположенной в относительной близости к Дагестану, будучи женат на кипчачке, находившейся в рабстве в Дербенте и как широкообразованный человек, Низами, очевидно, неплохо знал Дагестан, что в определенной мере отразилось и на его творчестве, в частности, в "Искандар-наме".

Дербент является своеобразным центром ашугского искусства Северного Азербайджана и Южного Дагестана, что хорошо отражено, в частности, в лезгинском произведении "Ашуг Лукман Худатский".

Начало произведения сказочное: "У дербентского хана была дочь-красавица, Бике-ханум. Была она хитроумной загадчицей-ашугшей. Она приглашала на состязания с собой молодых ашугов из чужих ханств, обещая выйти замуж за того, кто ее победит, разгадав три ее загадки. Если ашуг не оказывался победителем, он становился ее узником".

Уже двадцать ашугов кубинского хана Амраха не вернулись с состязаний. Разгневался кубинский хан Амрах - и объявил клич: "найти такого ашуга, который поедет на соревнования с Бике-ханум, победит ее в словесном поединке, привезет в знак победы ее саз и освободит всех моих ашугов из ее темницы! Ханским словом заверяю, что в награду победителю выдам чистого золота столько, сколько сам он весит!"[VIII].

В городе Худат жил молодой и искусный лезгинский ашуг Лукман, он едет на поэтический турнир с Бике-ханум. Как и следовало ожидать согласно законам жанра сказки, Лукман побеждает Бике-ханум, она и влюбляется в него. Преодолев ряд других испытаний, дербентская красавица и худатский ашуг соединяются.

Когда Россия и Азербайджан стали отдельными государствами, в плане взаимосвязей народов этих стран возникли определенные проблемы, что в принципе вполне естественно, ибо между государствами существуют границы и все, что связано с ними. По-видимому, было бы целесообразно обратиться с просьбой в соответствующие инстанции предоставить деятелям науки и искусства режим наибольшего благоприятствования, облегчения процедур пересечения границы, если говорить о России, особенно в отношении дагестанцев, которые традиционно тесно связаны с Азербайджаном, а некоторые народы, такие как дагестанские азербайджанцы, лезгины, аварцы и некоторые другие оказались разделенными этносами.

Надо отметить, что подобные границы между Дагестаном и Закавказьем существовали испокон веков - напомню, что названия нашего древнейшего города Дербента, так или иначе, связывались с пограничным его расположением: "Каспийский проход", проход "Албанские ворота", "Гуннский проход", "Хазарские ворота", "Морские ворота", "Ворота ворот", и закрепившееся за городом доныне название состоит из двух персидских слов: "Дер" - дверь, и "бенд" - застава.

Однако известно, что помимо своего основного предназначения "не впускать" нежеланных людей, ворота, двери имеют и предназначение выборочно впускать желанных, каковыми в этом регионе являются взаимно азербайджанцы и дагестанцы. В исторически обозримое время это так и происходило, особенно в отношении культурных взаимосвязей Юг и Север и Восток и Запад в евразийском диалоге культур общались через важнейший узловой пункт на Восточном Кавказе - через Дербент.

В наше время благодаря плодотворным стараниям президентов России В.В.Путина, Азербайджана И.Г.Алиева и Дагестана М.Г.Алиева, энтузиастов взаимосвязи народов Азербайджана и России, в частности Дагестана, активизировались. Однако здесь, кажется, приоритетную роль играют сферы политические и экономические, хотя и культурные, разумеется, не забыты (напомню проведенные дни культуры Азербайджана в России и России в Азербайджане).

В этой связи приведем азербайджанскую пословицу: один сын-это не сын, два сына-это полсына, три сына-это настоящий полноценный сын. Если уместно этот образный афоризм перенести на сюжет данной статьи, одни политические взаимосвязи между государствами - это мало. Если к ним добавить и экономические - это уже кое-что, а если еще и культурные - это все, это "полноценный сын", это один кит из "трех китов", только на спинах которых и могут полноценно, масштабно функционировать межгосударственные, межэтнические взаимосвязи.

Культурные традиции азербайджанцев, а также опосредованно через Азербайджан традиции иранцев, турок, арабов в течение многих веков проникали в Дагестан (особенно интенсивно - в Южный), причем самых различных видов и жанров творчества: ашугское искусство, поэзия и проза, танец, театр и т.д. и т.п., каждый из которых заслуживает специального исследования, и надо отметить, что в этой области уже проделана определенная работа. При этом следует подчерк-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

нуть, что процесс культурных влияний, при всем превалировании азербайджанского влияния, в целом был двусторонний: немало фактов, свидетельствующих о вкладе этнических дагестанцев в культурную и политическую жизнь Азербайджана (даже простое перечисление их заняло бы слишком много места).

Существенно и то, что во многих случаях мы имеем перед собой не просто процесс влияния, а сотворчество. На наш взгляд, ныне и научный потенциал ученых Азербайджана и Дагестана, и накопленный ими исследовательский опыт в изучении культурных взаимосвязей между нашими народами, и собранный базовый материал позволяют организовать системное и комплексное исследование названных выше проблем с привлечением научных сил обеих стран.

Нынешняя конференция тоже свидетельствует о том, что в этом направлении есть серьезные подвижки и хотелось бы, чтобы в дальнейшем проводились совместные азербайджанско - дагестанские и конференции, и фестивали, и праздники. В этом мы не будем оригинальными - будем верными нашим традициям, заветам наших предков.

**ЛИТЕРАТУРА**

1. Юсифов Ю.Б. О некоторых этнонимах клинообразных надписей Древней Месопотамии. // Источниковедение истории и культуры народов Дагестана и Северного Кавказа. Махачкала. 1991.
2. Там же.
3. Бакиханов А.-К. Гюлистан-и Ирам. Баку. 1991. С.87.
4. Аджиев А.М. Кумыкский йыр о Джавате и сказание о Дели Домруле из "Книги моего деда Коркута".// "Советская Тюркология". 1975. №6.
5. Хурдамиева С.Х. Дастаны и ашугская поэзия дагестанских азербайджанцев. Автореферат диссертации на соискание ученой степени канд. филолог, наук. Махачкала. 2000.
6. Аджиев А.*М.* Кумыкская версия сюжета о Кёр-оглу и некоторые закономерности трансформации заимствованного сюжета./Вопрос советской тюркологии, ч.2. Ашхабад. 1988.
7. Традиционный фольклор народов Дагестана. М.. 1991. С.38.
8. Антология дагестанской поэзии. Т.I. Махачкала. 1986. С. 246.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TƏBRIZDƏ QORXU GÖTÜRMƏ DƏBLƏRINDƏ ŞAMAN IZLƏRI

***Ali Bərazəndə Türk***
***Iran***

Qorxu insanla yaranıb, yaşayıb, yaşayacaq. Qorxu insan üçün dərdlər törətmiş, yaşam boyu insanı çətinliklərə uğratmış. Insanlar qorxunu aradan qaldırmaq üçün zaman-zaman özlərinin keçmişdən qalan dəblərinə dayanaraq yaşamlarında bu soruna qəlbə çalmışlar.

Bu arada türk xalqının dünya görüşündə şamanizm düşüncəsi təbiətin yaşamda önəmli olduğu üçün, hər şeyin, kökü doğadan olduğunu bilmişlər. Ulu babalarımızın yaşamlarında təbiət elemanları önəmli yer tutub bu günə kimi gəlib çatan dəblərimizdə, gələnəklərimiz,doğayla bağlı olan elemanla sayğı ilə ad aparılıb. Nağıllarımızda, dünya görüşlərimizdə, təbiətin xalqımızla sıx-sıx bağlılığı var. Şaman düşüncəsinə dayanaraq türk xalqı qorxunun qaynağı sayılan doğadan yararlanaraq "türkə sayaq" dərmanlarla üz gətirmiş şamançılıq inancına bağlı olan qorxu götürmələr tarix sürəsində keçmiş gələnəklər üzü ilə bu günə çatdırmış, bu gün modernləşmiş, bir az islami bəzək götürərək xalqımızın yaşamında işlənilməkdədir.

Örnək olaraq təbrizdə ***bəndçi***[2] adlanan özəl bir tayfa, şamanlara tay Onlarda *qan bağı*[3] olmalıdır. Bəndçi olmaq üçün hər kəsə izin verilməz. Təkcə öz içərilərində olan adamlar bu işin davamçısı ola bilər. şamanlara tay özəl xüsusiyətlərə sahib olan və ailədən birisi olmalıdır.

Başqa bir iz bəndçilərin içərisində olan paltarlarına taxılan muncuqlar və ya qorxan kişilərə verilən taxmalardir ki demək olar buda şaman inancının geyim və giysilərinə bağlıdır.

Təbrizdə qorxu götürmə yöntəmlərinin bir çoxu şaman inancıları ilə yaxınlığı və bağlı olduğu aydın şəkildə görünməkdədir, örnək olaraq şamanların cübbələrinin parça-parça olduğu kimi bir qorxu götürmə yöntəmində yeddi nəfər adaşdan[4] parça alınıb qorxana paltar tikilməsi də bağlılıq yaradır. Xatırlatmaq gərəkir başqa bir inanca görə həkimin uşağı olub bir az zamandan sonra ölsə, belə bir nəzr edələr ki adları Fatimə olan qırx bir nəfərdən parça alib onlardan gələcəkdə olacaq uşağına köynək tikdirsinlər. Beləliklə o uşağa heç bir zəfər toxunmaz, uşaq diri qalar. Bu paltarı saxlayıb bir ayrı adamın da belə bir istəyi olsa bu köynəyi onun uşağına verəllər. göründüyü kimi geysi və üst paltarı şamanların cübbələrinin eyni olub onlara tay sayılır.

Qorxu götürmə işində ən önəmli şeylərdən birdə oxunan ovsunlar və dualardır ki bu dua və ovsunların sözləri çox dəyərli, düşündürücü sözlər içərisindədir. Sözün və adların keçdiyi ovsunlar sankı bir güçə bağlı olub şamanız də olan göy, yer alti dünyalar ilə ilgilidir. Hətta rənglərin də bu ovsunların içərisində özəl bir yeri vardır.Qırx sayısı şaman düşüncəsində önəmli, qutsal olduğu kimi, qorxu qötürmədə də izin sürdürmüşdür. qorxu götürmə işləmində qırx ya qırx bir kişinin adı, qırx qoza pambıq, qırx bir parça tikəsi, yöntəmlərdə qırx sayısını görmək olar. birisinin qırxın qötürmək, qırxlığın tökmək yenədə şaman inanclarına bağlıdır.Şaman inancında qurban kəsmək[5] olduğu halda, qansız qurbanlarda[6] varımış. Saç, dırnaq, odda yandırmaq kimi mərasimlər şamanizmidə olduğu halda indisə qorxu götürmə dəbində qorxan adamın saçın, dırnağın, paltarlarından bir parçasın yandırmaq ya xoş qoxulu bitgilər özəlliklə özəylikdən faydalanmaq əski dönəmlərdən qalan izlərdir.

Yuxarıda yazdıqlarım keçmişdən qalan dolğun türk inancının bir kiçik bölümüdür. Bu zəngin varlığımızın özəlliyi yurdumuzun hər bölgəsində dəblərin çeşitli olduğudur. əski dən qalan gələnəklərimizlə bənzənmiş folklorumuz qorxu götürmə Təbriz və çevrəsindəki şəhərlərdə özünə görə özəlliyi var. İndisə Təbriz şəhərində qorxu götürmələrdən neçəsin izah edirik:

**1. Dua pulu**

Bir sikkə( dəmir para) götürüb qorxan adamın baş- gözünə sürtüb sonra bu duanı oxuyarlar,

*Hər kitabın*
*Çay*[7] *kitabın*
*Qərə seyid kitabına*
*Molla əşrəf kitabın*
*Göy malla, ağ malla kitabın*

---

[2] Təbriz deyimində, bətçi deyilir.
[3] Qan bağı= yaxın ailədən olmaq örnək ata, ana, qardaş, bacı kimi.
[4] Adaş= adlari bir olan
[5] Qurbanlar at, qoyun, inək kimi heyvanlar olardi
[6] Qansız qurban= insan əzalarından olan ya doğada olan şeyler örnək dırnaq, saç, ağaclara , daşlara
[7] Çay= çar=çahar kitab ,ki ibarətdir Zəbur , Tovrat,İncil,Quran



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sonra pulu verələr qorxan adam bu pul ilə bir yeməli alsın. Əyər kiçik olsa yeməlini böyükləri ona alarlar.

**1. Açar**

Qorxan adamın qörxusun götürən bir açar götürüb açarı qorxanın bütün bədəninin bərk yerlərinə sürtər, açarı surtən halda "yasın" surəsin oxuyar. Sonunda açarı qörxanın dislərinin arasına qoyub dişləməsin istər. Açarı dişlədikdən sonra, qorxu götürən açarı tolazlayıb deyər: qorxunu atdim qetdi.

**2. Pambıq**

Qorxan adamı kürəyi üstə uzaldıb bir örtük üstünə çəkələr. Pambığları qoza-qoza eyləyib. örtüyün üstünədən adamın başından ayaqlarına qədər düzəllər. Sonra pambıqları ayaq başdan başa kimi yandıralar.

**3. Pambıq**

Qırx bir adamın adına Pambıqları qoza-qoza eləyib adların deyə-deyə pambuğlari dorayallar. Sonra qorxan adamın başı üstündə pambuğları bir qaba töküb, pambuğlari dolayarlar.

**4. Zəy**

Gəcə zəyi qorxan adamının yasdığının altına qoyarlar. Sonra sabahısı bir mis məjmeyini dağlayıb, zəyi onun içəridsinə atarlar. zəy əriyib şəkil tutar. Zəyin əriyib şəkilindən bilərlər ki nədən qorxub. Zəy soyudugdan sonra bir parçasın qprxan adama verıklər ta aparsin qorxduğu yerdə dabanının altına qoysun. Zəyi dabanının altında əzən zaman deyər: qorxumu burda qoydum,qada-bala (bəla) məndən getsin.

**5. Zəy**[8]

«Dastan»ı düzüb-qoşanların qəhrəmanları azacıq şişirtmək istəyi olsaydı, Beyrəyin Bayburd qalasını almasından və ya dağıtmasından danışardı. Bayburd qalası doğrudan da işğal olunur, ancaq bunu Beyrək təkbaşına eləmir – Qazan xanın başçılığı ilə bütün Oğuz elinin tayfa başçıları basqında iştirak edirlər və bu səbəb Bayburd qalasının alınması epitetini Beyrəyin təqdimatına yazmamaq üçün kifayət edir.

«Qaradarə ağzında qara buğa dərisindən beşiginin yapuğu olan, acığı tutanda qara taşı kül eyləyən, bığın ənsəsində yedi yerdə dügən, ərənlər əvrəni, Qazan bəgin qartaşı Qaragünə»nin (1, 49) təqdimatında da qeyri-adi sayılacaq bir «qara taşı kül eləmək»dir ki, igidlərin gücünü yoxlamaq üçün keçirilən qədim yarışlardandır və burada heç bir qeyri-adilik yoxdur; ikincisi isə «ərənlər əvrəni» olmasına işarədir ki, bunun açımını da ikinci boyda görürük. Qazan xan gördüyü qara duşu-yuxunu yozmaq üçün qardaşı Qaragünəyə müraciət eləyir (1, 44). Qaragünənin yuxu yozmağı bacarmasına işarə onun «ərənlər əvrəni» (Qədim türlər əri igid, ulu; əvrəni isə göylər aləmi mənasında işlətmişlər (2, 176, 190). Beləliklə, «ərənlər əvrəni» - ərlərin ruhlar aləmi, fikrimizi konkretləşdirsək, «ərlərin ruhlar aləminin bilicisi» kimi başa düşülər) olmasını təsdiqləyən fakt kimi yetərli sayıla bilər.

Bu siyahını uzatmadan qeyd edək ki, «Dastan»ın bütün qəhrəmanlarının təqdimatındakı sözləri təhlil edərkən epitetlərdə xüsusi şişirtməyə rast gəlmək olmur. Qəhrəmanlara aid edilən faktlar istər-istəməz həqiqət təsiri bağışlayır.

Ona görə də Dış Oğuzun rəhbəri Aruzun təqdimatını diqqətlə incələməyə ehtiyac duyulur: «Altmış ərgəc dərisindən kürk eləsə, topuqlarını örtmiyən, altı ögəc dərisindən külah etsə, qulağlarını örtmiyən, qolu-budı xırancə, uzun baldırları incə, Qazan bəgün tayısı At ağızlu Aruz qoca çapar yetdi: «Çal qılıcın, bəgüm Qazan, yetdim!» - dedi» (1, 49-50).

Bu epitetlərə ayrı-ayrılıqda nəzər yetirək.

Dastan boyu Aruzun qəhrəmanlıqları barədə bir kəlmə söz deyilmir. Əlbəttə, bunu dastan yaradanların Aruza münasibəti kimi qələmə vermək mümkündür, çünki Aruz İç Oğuza qarşı mübarizənin önündə dayanır. Ancaq nəzərə almaq lazımdır ki, dastanda Dış Oğuz bəylərinə münasibət digər qəhrəmanlara münasibətdən qətiyyən fərqlənmir – hamısı öyülür, təqdir edilir. Aruz hətta İç Oğuza qarşı açıq döyüşə gedərkən də onun haqqında alçaldıcı bir ifadə və ya fikrə rast gəlmək mümkün deyil. İkinci tərəfdən, Aruzun oğlanları Basat və Qıyan Selcukun, o cümlədən Alp Rüstəmin, Bəgdüz Əmənin və digər Daş Oğuz bəylərinin qəhrəmanlıqları ətraflı qeyd olunur. Üçüncüsü: Aruz qəhrəmanlıqları haqqında heç bir söz deyilməyən, sadəcə, ümumi görünüşü təsvir olunan nadir qəhrəman deyil.

Deməli, əsas məsələni Aruzun sonda İç Oğuza «asi olması» səbəbindən ona qarşı yaranan münasibətdə axtarmaq düzgün olmazdı. «Dastan»da bəylər tutduqları mövqeləri və onları fərqləndirən xüsusiyyətlərilə təqdim olunurlar. Belədə, «altmış ərgəc dərisindən kürk eləsə, topuqlarını ört-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

miyən, altı ögəc dərisindən külah etsə, qulağlarını örtmiyən» sözləri qəhrəmanları olduğu kimi təsvir edən oğuzların dilindən niyə Aruza şamil edilir?

Oğuzların azman və ucaboy olmaları indinin özündə belə xalq yaddaşında yaşamaqdadır. Azərbaycanın müxtəlif bölgələrində 6 metrdən uzun kurqan-qəbirlərə el arasında «oğuz qəbirləri» deyirlər və həmin qəbirlərdən tapılan sümüklərə görə bu insanların çox ucaboy olmalarıyla bağlı elmi faktlar var. Ancaq ucaboy oğuzlar özləri-özlərinə bu epitetlərlə müraciət edə bilməzdilər və təbii ki, oğuzlar bu ifadə ilə Aruzun azmanlığını və ya nəhəngliyini göstərmək niyyətində olmayıblar. Bəs onda bu ifadəni doğuran səbəb nədir?

Fikrimizcə, qam/şamanların geyimləri haqqında tədqiqatçıların açıqlamaları suala aydınlıq gətirməkdə və Aruzun kimliyini müəyyənləşdirməkdə bizə yardımçı ola bilər. Şaman geyimləri eyni cür olmayıb, müxtəlif tayfa və ya birliklərdə, həm də yerinə görə fərqləndirilirdi və bu barədə çoxsaylı tədqiqatlar yazılıb. Ancaq bizimçün maraqlı olan şaman cübbəsinin 60 (30 dərinin hissələrindən hazırlanır, 30 dərinin hissələrindən isə əlavələr edilir) və ya 600, börkünün isə 6 müxtəlif dəridən hazırlanması (üç dəri hissəsindən hazırlanır, üç dərinin hissəsindən üsə saçaqlar əlavə edilir) barədə tədqiqlərdir (3, 92; 4, 24; 5, 38 və sair).

Bu şaman geyimi eynilə Aruzun təsvirindəki geyimlə üst-üstə düşür.

Şamanların cübbəsinin altmış dəridən hazırlanması heç də təsadüfü deyil. Ümumiyyətlə, «altı» rəqəminə «Dastan»da xüsusi önəm verilir. Köndəri «altmış tutamdır», Bamsı Beyrək, Qazılıq Qoca əsirlikdə on altı il yatırlar, Bamsı Beyrək on altı yaşında igidlik göstərir və ad alır, bəzirganlar Beyrəyə 6 pərli gürz alıb gətirirlər, igidlər 6 pərli çomaqla vuruşur, Uruzun on altı yaşına girməsinə baxmayaraq, «baş kəsib, qan tökməməsi» atası Qazan xanın qanını qaraldır, yağılar Oğuz igidlərinə əsasən, altımış, altı yüz, on altı min, altmış min kafərlə hücum edirlər, Qanturalı dəvənin ilk zərbəsinə dözməyib yerə yıxılanda başına 6 cəllad yığışır, Aya Sofyanın qapısına gürz vurmaq üçün 16 igid atdan enir, Bəgdüz Əmən Qazılıq Qocanı xilas etmək üçün Düzmürd qalasına 6 dəfə hücum edir, Qazan xan 6 igidlə 6 günə Sancıdan bəylərinin qalasını alır, düşmən qoşunu 6 bölük toz kimi görünür, Qazan oğlunun döyüşdən qaçması barədə yağı sözlərini eşidəndən sonra Uruzu altı bölük eləyib altı yol ayrıcına atmaq istəyir və sair. Təsadüf, ya düşünülmüş olması barədə qəti fikir söyləmək mümkün olmasa da, hər halda, «Kitabi-Dədə Qorqud»da məhz 66 obraz yaradılmasını bu məqamda qeyd eləməyi gərəkli sayırıq.

Müqayisə üçünsə yalnız onu deyə bilərik ki, V.Verbitskiy Altay şamanlarında ruhun formaları, şəkilləri qismində 6 ad göstərir: tın, suzı (suz), kut, tüla (yula), sür, süne. (6, 77). Həmçinin altaylılar özlərinin və yurdlarının qoruyucu ruhları sırasında olan Aru Körmöslərə (Körmös yeralı ruhların ümumi adı kimi qeyd olunur və iki yerə bölünür: aru kormöslər, qara körmöslər) – «alançıktınq sakqızı»lara (straj yurta) – dua edərkən onları «çiyinlərində 60 davul olanlar» kimi xarakterizə edirlər (5, 28). Bir Yakut əfsanəsində də Ülkər ulduzunun açdığı dəliyi qapamaq üçün göyə qalxan qahadır əlləri donmasın deyə «30 cüt qurd dərisindən» özünə əlcək düzəldir (7, 62).

Maraqlıdı ki, 6 və 60 rəqəmləri monqol mifologiyasında uğurlu və müqəddəs hesab olunur (7, 76), türklərdə isə daha çox 7 (70) və 9 (90) saylarına uğur baxımından üstünlük verilirdi. 6 (60, 600, 6000 və sair) rəqəminin uğurlu və müqəddəsliyinin monqol mifologiyasının təsiriylə bağlı ehtimal irəli sürmək risklidir. «Ər Soqotox» əfsanəsində Soqotoxun sümükdən düzəldilmiş yayını «6 adamın» çəkə bilməyəcəyi qədər qatı olmasın işarə (7, 120) göstərir ki, tarixin hansısa qatında türklərdə 6 rəqəminin sakrallığına inamın mövcud olması versiyasını söyləmək daha məqbuldur. Əks halda altı rəqəminin müqəddəslik baxımından işlənmə əhatəsinə bu qədər geniş arealda - həm oğuzlar, həm də yakut türkləri arasında - təsadüf edilməzdi. Digər tərəfdən, monqolların qonşularına təsir edəcək qədər güclənməsi daha sonrakı əsrlərə təsadüf eləyir. Üçüncüsü, bu təsirin birbaşa Dastanın yarandığı ərazidə özünü göstərməsiylə bağlı ehtimal da ona görə sıradan çıxır ki, Qızıl Ordanın Qafqaza gəlişi 13-cü əsrə, «KDQ» dastanının yarandığı deyil, hətta yazıya köçürüldüyü tarix 1044-cü ilə aiddir. Deməli, oğuzların 6 rəqəminin müqəddəsliyilə bağlı Altaydakı daha əski dünyagörüşlərini və yaşantılarını obrazlı formada Dastanda əks etdirmələri barədə düşünmək lazım gəlir ki, bu düşüncələrə aşağıda bir daha qayıdacağıq.

**At Ağuzlu.** Qəhrəmanlıq dastanlarımızın heç birində indiyə qədər qəhrəmanın «At ağuzlu» kimi epitetinə rast gəlinməyib. Bu ifadə ətrafında «Dastan» haqqında yazılan saysız-hesabsız tədqiqatlardakı mülahizələri sadalamaqla uzunçuluğa yol vermədən birbaşa mətləbə keçək. Fikrimizcə, «At ağuzlu» sözü «Kitabi-Dədə Qorqud» dastanını yazıya köçürən müəllif tərəfindən təhrif olunmuş «Ot azi» sözüdür.

«Dastan»ı yazıya köçürən xəttatın bu sözün mənasını bilməməsi səbəbindən onu özü anladığı formada təqdim etmək məcburiyyəti qarşısında qalması normal sayıla bilər. Çünki şaman



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

terminologiyası bu aləmə aid olmayanlar üçün gizli saxlanılırdı və bu söz də qamların mənasını gizli saxladıqları leksikonlarına – TUYUK SÖSlərinə (Potapov M.Kaşğarlıya istinadən, «tuyuk» sözünü «bağlı» kimi tərcümə edir) daxildir. Hesab edirik ki, sonradan İslam dinində şamanizmin böyük təsiriylə yaranan xalq sufizminin simvol və gizli terminlərdən (Nəsiminin təbirincə desək, «quş dilindən») istifadəsinin köklərini də burada axtarmaq lazımdır...

«Ot azi/ezi» ifadəsi də şaman termini kimi işlənib və «od sahibi», başqa sözlə desək, od və ya ocaq yiyəsi anlamındadır. Bu ifadə ilə bağlı qamlama mərasimlərindən biri haqqında verilən məlumata baxaq: «Uşaqsız ər və ya arvadın istəyi ilə icra olunan qamlama mərasimi yurtda – ocaq başında həyata keçirilirdi. Qam həmin ocağın başında («ot pajında»), sağda, adətən, yurd sahibi oturan yerdə əyləşirdi. Yurdun sahibi isə ocaq başının solunda otururdu. Ocağın başında yurdun torpaq döşəməsinə başı - uc hissəsi yarpaqlı tozağacı sancılır və ona bacadan bayıra çıxarılmış ağ lent bənd olunur. Həmin tozağacının altına, ocağın ətrafına keçə döşənir. Ağacın budağından kiçik modeldə tozağacı qabığından hazırlanmış beşik asılır. Şamanın üfürdüyü kut (ruhun adlarından biri – A.N.) bacadan tozağacından asılmış beşiyə düşür. Başqa bir variantda isə kut ocaq sahibinin («ot eezi»nin) keçəsinə düşürdü və şaman simvolik olaraq onu götürüb beşiyə qoyurdu. Mənə söyləmişdilər ki, qamlama mərasimi zamanı bəzi kişilər kutdan xahiş edib nəzərə çarpmadan öz papaqlarını bir yerə qoyurdular və bununla da onlar körpə kutu qazanmağa ümid edirdilər (9, 19).

Od-ocaq qədim türklər arasında xüsusi önəm daşıyırdı. Qamlama mərasimləri ocağın başında keçirilirdi, eyni zamanda od-ocaqdan qara qüvvələrdən və insana bədbəxtlik gətirən ruhlardan təmizlənmə, mənfi enerjidən qurtulma vasitəsi kimi istifadə olunurdu. Tarixi mənbələrdən məlumdur ki, yadelli elçilər qam-şamanların müşayiəti ilə od üstündən keçirildikdən (yəni qara qüvvələrdən təmizləndikdən, arılandıqdan) sonra türk xaqanının qəbuluna aparılırdı. Hazırda «ev», «yurd» mənasında «ocaq» sözü də işlənir ki, bu da yurdun müqəddəsliyinə (yurd - qamlama mərasimlərinin məskəni olduğu səbəbindən həm də «ocaq» sinonimi ilə müqəddəsləşdirilir) edilən işarə kimi xalq yaddaşının yüzillərin sınağından keçirib gətirdiyi deyimdir.

Yurd indiki anlamından fərqli olaraq, bir ailənin yaşadığı yer (çadır) mənasında başa düşülməlidir. Və qeyd edək ki, boyun, qəbilənin taleyi ilə bağlı qamlama mərasimləri hər yurdda və ya ocaqda aparılmırdı. Bunun üçün, əsasən, hər obada bir yurd və bir ocaq mövcud idi ki, həmin yurd və ocaq müqəddəs, onun sahibi də dini rəhbər statusunda idi. Ümumiyyətlə, qədim türklərdə tayfa başçıları eyni zamanda elin dini rəhbərləri sayılırdı. «Kitabi-Dədə Qorqud»da Oğuz elinin başçısı Bayandır xan Qam Kağanın oğlu (Qam Ğan oğlu xan Bayandur – 1, 34 və s.) və deməli, həm də elin dini rəhbəridir. O cümlədən, Bayandır Kağanın ətrafında birləşən boy başçıları da hər biri öz tayfasının dini rəhbərləridir. Bu işarələrə də «Dastan» boyu rast gəlmək olur. Məsələn, Beyrək Qambörənin (mətn boyu «Baybörə» deyilsə də, boyun adında «Qambörə» kimi anılır: «Qambörənin oğlu Bamsı Beyrək boyını bəyan edər, xanım hey»), Yegnək Qazılıq qocanın («Qazılıq». Qam/şamanların qamlama zamanı səyahətə çıxan ruhlarının yardımçılarından birinə verilən bu adla bağlı geniş izahatımız olacaq, «qoca» sözünün daşıdığı məna yüküylə bağlı isə aşağıda danışılacaq), Qanturalı Qanlı qocanın oğludur, Banuçiçək Baybican bəyin qızıdır və sair...

Bay – şaman leksikonunda – tuyuq sözündə müqəddəs mənasında işlənirdi. Bu titulu yalnız ruhlarla birbaşa əlaqəsi olan, qam dünyagörüşünün daşıyıcıları ala bilirdilər. Hətta qam/şamanın qamlama mərasimi zamanı əsas yardımçısı sayılan davul, qopuz, kamança və sair alətlərin düzəldiyi müqəddəs ağaclar (məsələn, qayın ağacı), şamanın ruhlar dünyasına səyahəti naminə qurban verilən və ruhundan minik vasitəsi kimi istifadə edilən atın dərisi və sair bay adlandırılırdı (9, 54).

Qanlı sözü qanqlı, kanqlı və sair kimi araşdırmalara cəlb edilmişdir ki, bu araşdırmalar içərisində ən diqqətiçəkəni «kanlı»nın «xalqımızın yaranmasında iştirak etmiş qədim soykökləndən biri olan kəngərlilərin qədim adı» kimi göstərilməsidir. Amma bu izahat «xalqımızın yaranmasında iştirak edən» bir soykökün özünü niyə «kanlı» adlandırması sualına cavab vermir.

Abdulkadır İnan Çin və İslam qaynaqlarına əsaslanaraq, qırğızların öz şamanlarına Çin heroqlifləriylə «qan» (kam – A.İ.) dediyini bildirir. Güman edirik ki, qoca titulunu daşıyan Qanlı kişinin adını burada axtarmaq daha doğrudur...

Beləliklə, İç Oğuza tabe olan Dış Oğuz (Dastanda Dış Oğuzlara həm də «Boz Oğuz»lar deyilir – 1, 126 və s.) elinin rəhbəri Aruz/Əruzdur və məntiqlə, o da qamlama mərasimlərinin aparıldığı yurdun və ocağın sahibi, «Dış Oğuz»ların dini rəhbəri olmalıdır.

Bu izahatımızdan bir məntiqi sual da çıxır: Əgər hər boyun, tayfanın və qəbilənin başçısı qamdırsa, öz yurdunun, tayfasının müqəddəs ocağının sahibidirsə, niyə bu titulu yalnız Aruza şamil edirlər?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Diqqət edirsinizsə, digər boy başçılarının qam olması dastanda bir qədər arxa planda verilir. Nəzərə çarpacaq dərəcədə açıq mətnlə bildirilən yalnız Qalın Oğuz elinin başçısı Bayandır xanın Qam Ğan oğlu olmasıdır. (Yeri gəlmişkən bir məsələni də qeyd edək ki, qədim tükr təfəkkürünə görə, «qam sənəti öyrənilməklə başa gəlməz, qam olmaq üçün bəlli başlı bir qamın nəslindən olmaq gərəkir» (3, 76). Tuvinslərdə bu inam kamın əcdadı kimi simvollaşdırılan təsvirin qamlama mərasiminin əsas atributlarından olan davulun üstündə çəkilməsi və «xamnın eezi» (qamın sahibi) adlanmasında əksini tapır (9, 77). Bayandır xan da «bəlli başlı bir Kağan Qamın» nəslindəndir).

Aruz Doqquz Oğuzun başçısı və baş qamı olduğuna görə yox, Bayandır xanın rəhbərliyi ilə keçirilən mərasimlərdə tutduğu mövqeyinə görə «ot eezi» adını daşıyır. Belə ki, «dövlətin təşkil etdiyi böyük dövlət mərasimlərində pentifeks maksimum (böyük rahib) elə hökmdarın özü idi, şamanlar isə ona yalnız kömək edirdilər» (7, 33). Elin birliyi və bütövlüyü üçün oğuzların əsas özülü – İç Oğuza birləşdirilən Dış Oğuz başçısı xanın yanında xüsusi statusdadır, bəylərin qatıldığı mərasimlərdə od sahibi funksiyasını Aruz qoca yerinə yetirir.

Türklərdə igidlərin dini statusu ilə sosial-siyasi statusunun bir-birinin tamamladığını nəzərə alsaq, onda bir müqayisəni aparmaq yerinə düşür: Qədim türk adətinə görə, atanın taxtına böyük oğul çıxır, kiçik oğul isə ata ocağını davam etdirirdi. Ocaqda qalan kiçik oğula «Ot Təgin» - od şahzadəsi deyirdilər və ənənəyə görə, Ot Təgin hökmdar ola bilməzdi, ancaq atanın var-dövlətinin, mirasının sahibiydi.

Bu adət «Kitabi-Dədə Qorqud» dastanında sətiraltı olaraq əksini tapıb. Aruz qoca Dış Oğuz bəyləri olmadan evini yağmalatdığı üçün Qazan xana asi düşür. Qədim türk adətini nəzərə alsaq, hətta Qazan xan ocaq sahibini yağmalamaya dəvət etməməklə hakimiyyətin var-dövlətinə iddialı olası Aruzun haqqını tapdayıb. Və Dış Oğuz bəyləri həqiqətin Aruz tərəfində olduğu üçün onun ətrafında birləşib Qazana asi düşməyə razı olurlar (Bu barədə ilk dəfə olaraq çox geniş və dəyərli tədqiqat aparan Seyfəddin Rzasoyun elmi qənaətlərini bölüşürük. Bax: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. B – 2002. S.Rzasoy. «Kitadi-Dədə Qorqud»un sonuncu boy süjetinin kosmoloji strukturu və ritual-mifoloji semantikası).

Ancaq Aruz bir-birinin ardınca səhvlərə yol verir: əvvəla, Beyrəyi xəyanətlə aradan götürür; ikincisi və ən böyük günahı: Haqqı çatmadan Qazan xanla döyüşməyə, xaqanlığı ələ keçirməyə cəhd göstərir. Bu cəhd isə türk törəsinə qarşı çıxmaq deməkdir və fikrimizcə, böyük dini-sosial-siyasi mövqeyinə baxmayaraq, «boyun əvvəlində qəhrəman olan Aruzun sonda antiqəhrəmana çevrilməsinin» (S.Rzasoy) və ölümlə cəzalandırılmasının əsas səbəbini yalnız bununla izah etmək olar...

Aruzun «ot azi» - od sahibi olması onun Oğuz elində, xaqan yanında tutduğu yerə də uyğundur. «Ot eezi»nin ocağın sol tərəfdən başında dayandığını artıq nəzərinizə çatdırdıq. Dış Oğuz bəylərinin başçısı, «Ot eezi» Aruz bu məntiqlə Oğuz birliyinin başçısının – xaqanın solunda dayanmalıydı.

Bu incəliyə də «Dastan»ın 4-cü boyunda işarə vardır.

«Qazan aydır: Bərü gəlgil, qulunım oğul!
Sağım ələ baqduğumda
Qartaşım Qaragünəyi gördüm, -
Baş kəsübdür, qan tökübdür,
Çöndi alıbdır, ad qazanubdır.
Solum ələ baqduğumda
Tayım Uruzı gördim...» (1, 68).

Göründüyü kimi, Aruz öz mövqeyinə uyğun olaraq «At ağuzlu» deyil, «Ot eezi» kimi xaqanın sol tərəfində dayanır.

Bir məsələni də vurğulayaq ki, «KDQ»da Dış oğuzlar – Doqquz oğuzlar bir qayda olaraq xan yanında sol tərəfdə, İç Oğuz bəyləri isə sağ tərəfdə düzülürlər. Məsələn, üçüncü boyda (Qam börənin oğlı Bamsı Beyrək boyını bəyan edər, xanım hey!) Bayandır xanın sağ yanında Qazan oğlu Uruz, sol yanında isə Qazılıq qoca oğlı bəy Yeynəy, dördüncü boyda isə Qazan xanın sağında qardaşı Qaragünə, solunda isə Aruz dayanır.

Aruzun Dış Oğuz bəyi olduğu açıqca qeyd olunsa da, Yeynəy haqqında belə fikrə rast gəlinmir. Ancaq 7-ci boyda Qazılıq qocanın Bayandır xanın vəziri, Əmənin isə Yeynəyin dayısı olduğu məlum olur. O Əmən ki, sonuncu boyda Dış Oğuz bəyi kimi İç Oğuzdan özünə rəqib seçənlər sırasında adı çəkilir.

Qazılıq qocanın İç Oğuzdan olması və Dış Oğuzdan evlənməsi versiyasını ona görə irəli sürmək olmur ki, əvvəla, Aruz başına yığdığı bəylərə «Beyrək bizdən qız almışdır, güyəgimizdir. Əmma Qazanın inağıdır» (1, 124) deyib, Beyrəyin qohum olduğuna görə onlara qoşula biləcəyini ehtimal etsə də, Bayandır xanın vəziri Qazılıq qoca və oğlu Yeynəy haqqında analoji rəy işlətmir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İkincisi, Yeynəy atasını xilas etməyə gedərkən Bayandır xanın ona yardım etmək üçün verdiyi bəylərdən üçünün – Qıyan Səlcük oğlu Dəli Tondaz, İlək qoca oğlu Dülək Uran, Toğsun oğlu Alp Rüstəm – Dış Oğuz bəyi olduğu tam yəqindirsə, «Dastan»dan İç Oğuz bəyi kimi tanıdığımız igidlərin heç birinin adını bu siyahıda görmürük. Həmin boyda düşmən Arşun oğlu Dirək təkurla vuruşan üç bəydən ikisi – Dəli Tondaz və Dülək Uran Dış Oğuz bəyi, üçüncüsü Qazılıq qocanın oğlu Yeynəkdir.

Üçüncüsü, «Dastan»da İç Oğuz bəyləri bir qayda olaraq Gürcüstan civarına, indiki Türkiyənin şimalına yürüş edirlər, orada ov ovlayır, əsir düşürlərsə, Dış oğuzlardan olduğu ehtimal edilən bəylər Göycə gölü, Qara dənizin cənubu və Naxçıvan istiqamətində hərəkət edirlər. Məsələn, Qazan xan Tumanın qalasında, Qazan oğlu Uruz Başı Açıq Tətyəndə əsir düşürsə, Qazılıq qoca Düzmürd (Gəzmərd) qalasında, Əyrəy Əlincə qalasında dustaq olurlar. Bayandır xandan tapşırıq alaraq Oğuz elinə qarovul tutmaq üçün yollanan Bəkil «Toqquz tümən Gürcüstan ağzına varıb qonur» (1, 104). Boyun sonunda isə igidlik elədiyinə görə Bayandır xan Bəkil oğlu Əmraya Qazan xan oğlu Uruzun sağ yanında «yer göstərir» və «Gürcüstan ağzının» İç Oğuzun sərhədi, bu sərhədi qoruyanın isə İç Oğuz bəyi olduğu üzə çıxır.

«Qazan xanın evinin yağmalanması» boyunda ova çıxan Qazan xana Aruz qoca «sası dinli Gürcüstan ağzında oturarsan, ordun üstünə kimi qorsan?» deyə soruşmaqla həm xanın ov yerini, həm də İç Oğuza tabe olan əraziləri nişan verir.

Əslində, «Dastan»kı bu izlər İç Oğuzla Daş Oğuzun sınırlarını təqribi də olsa cızmağa yardım edir. Belə məlum olur ki, Qalın Oğuzun şimalı, Gürcüstan sərhədindən başlayaraq Böyük Qafqazla Kiçik Qafqazın arası Dərbəndə qədər İç Oğuz, Kiçik Qafqazdan aşağıda, Göyçə gölü ətrafından Naxçıvana qədər (sağ sınırları barədə bir söz söyləmək olmur) Daş Oğuz adlanır. Dəmir qapı Dərbəndi isə ona görə İç Oğuza aid etdik ki, buranı Qıyan Selcik oğlı Dəli Tondaz alsa da, onun Dəmir qapı Dərbəndin bəyi olması keçmişdə qalıb («Əvvəl Dəmir qapu Dərbəndində bəg olan...» (1, 95)), orada artıq Qazan xanın sürüsü yaylayır...

* * *

**Aruz.** Öncə qeyd edək ki, eezi/izi/azi – sahib, yiyə anlamlarıyla yanaşı, Tanrı mənasını da ifadə edirdi. (Bu sözün türk qövmlərindəki mövqeyi və işlənmə arealı barədə bax: «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər», XI cild, B-2002; C.Bəydili: «Əski türklərdə gizli təbiət qüvvələrinə inanma (İzi/iyi inancı»). Hətta Skandinav əsatirlərində Odin Tanrı «Baş Az Odin» adlandırılır. (Yenə orada, Asif Hacılı: «Mifopoetik ənənədə dünya ağacı»). Skandinav xalqlarının mifoloji dünyagörüşünə bu adın necə düşməsiylə bağlı məsələni həllini gözləyən problem olaraq işləyəcəyik. İndilik isə onu deyək ki, «az» sözünün özündə ehtiva etdiyi yiyə, sahib mənalarında ilahilik, tanrı məqamı var - el deyimində «yerin-göyün yiyəsi» deyərkən Tanrı nəzərdə tutulduğu kimi.

«Eezi» «Dastan»da iki formada işlənir.

**1. İs**. «İs» «Kitabi Dədə Qorqud»da açıq şəkildə 3 boyda əksini tapıb: III («Zira Dədə Qorqud vilayət **issi** idi, diləgi qəbul oldı» (1, 56), VII («İssüz yerin qurdı kimi ulaşdılar» (1, 97)) və VIII boylarda.

Hər üç məqamda «is» sözünün özündə yiyə anlamıyla bərabər, ilahilik daşıdığını sezmək mümkündür. Üçüncü boyda bu, açıq şəkildə özünü göstərirsə, yeddinci boyda bir qədər qapalıdır: yəni qurdun türk təfəkküründəki mövqeyini nəzərə alsaq, «yiyəsiz yerin qurdu» ifadəsinin təsadüfü seçilmədiyi anlaşılar.

Basatın, qardaşı Qıyan Səlcukun qısasını alıb Oğuzu dərddən qurtarmaq üçün getmək istəyinə qarşı çıxan Aruz qocanın (VIII boy) sözlərinə isə ayrıca diqqət edək: «Oğul, ocağım issüz qoma, kərəm eylə, varma!» (1, 101).

Dastanda Aruzun iki oğlunun olduğu bildirilir: Qıyan Selcuk və Basat. Qıyan Selcuk Təpəgözlə vuruşda şəhid olan Oğuz igidlərindən biri kimi göstərilir. Deməli, Basatın ölümü Aruz ocağının sonu demək olar.

Bəs niyə eyni situasiya ilə qarşılaşan igidlər barədə digər boylarda valideynlər analoji ifadəni işlətmirlər? Yəni dastanda əksər boylardakı səhnələrin təsvirində eyni ifadələrdən bol-bol istifadə edilir. Bayındır xan və ya Qazan xanın məclis qurması eyni cür təsvir olunur, Qazan xan və Qazılıq qocanın əsir olmasını oğlanları Uruz və Yegnəkdən, qardaşı Əgrəyin dustaqlığını Səgrəkdən gizlədirlər və qəhrəmanlar təsadüf nəticəsində həqiqəti bilərkən eyni cür əsəbiləşirlər, eyni ifadələrlə analarına qızırlar, bütün boyların sonunda Dədə Qorqud gəlib yum verir və sair...

Əsirlikdəki doğmalarını qurtarmağa gedənləri ağır yoldan qaytarmaq üçün də bənzər ifadələr işlədilir. Ancaq belə boyların heç birində valideynin oğluna müraciətlə «ocağımı yiyəsiz qoyma» sözünə rast gəlmirik. Halbuki Əgrəkdən sonra ocaqda Səgrək, Qazılıq qocadan sonra Yegnək və sair qalmalıydılar və onların ölümü «ocağın issiz qalması» demək olardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görünür, əsirlikdəkilərin nə zamansa dönəcəyi ümidi və ya onların dustaq olsalar belə, yaşamaları hələ ocağın sahibsiz olması demək deyil. Yeganə Basat idi ki, o, qardaşını xillas etməyə yox, ölümünə görə qisas almağa gedirdi və Oğuzun ən böyük bahadırlarının əlində «zəbun və ya şəhid» olduğu Təpəgözün Basatı öldürəcəyi qorxusu Ot eezi Aruzu bu sözləri deməyə vadar edir.

**2. Uz.** Bu söz bütün dastan boyu müstəqil olaraq «qara polad uz qılıc» ifadəsində işlənir. Əslində, «uz» və «is» eyni mənanı ifadə etdiyindən, «qara polad uz qılınc» heç də «qara polad üz qılınc» kimi yox, qara polada sahib, qara poladdan olan qılınc olaraq başa düşülməlidir. Eezi/is/uz sözünün ilahilik, Tanrı məqamı yükü daşıdığını nəzərə alanda isə bu yozum növbəti sual yaradır: qara poladdan olan qılıncı oğuzlar niyə ilahiləşdirməliydilər?

Bu suala aydınlıq gətirmək üçün ilk növbədə «Aşina ailəsinin» dəmir istehsal etdiyini yada salmaq lazım gəlir. Yəni sonradan Tu-kyu (Türk) adlandırılacaq Aşina xanları təbələrinin 439-cu ildən «jujanlar üçün dəmir emal etmələri» məlumdur (10, 31).

Dəmirçilik isə qədim türklərdə heç də adi sənət olmayıb. **Uus** adlandırılan dəmirçilər şamanlarla «eyni yuvadan» hesab edilir, onların ruhlarla bağlı olduqlarına inanırdılar. Yakutlarda «dəmirçinin alətləri də, tipki şamanın davulu kimi, kutlu sayılırdı» (3, 84).

Şaman libaslarında həddindən artıq dəmir lövhəciklərdən istifadə olunması bu məqamda diqqəti çəkir. Şaman cübbəsindəki dəmir lövhələr etnoqraflar tərəfindən «dəmir dövrünün xatirəsi kimi» xarakterizə edilsə də, fikrimizcə, bu, əhəmiyyətli izah sayıla bilməz. Çünki «bu lövhələr təkcə bəzək kimi istifadə edilmirdi, mərasimlərdə deyilən sözlərdən belə çıxır ki, bu dəmirlər insan və heyvanların istəklərini də təmsil edirdilər» (7, 53) və şaman əlcək, qolçaq və ayaq maskalarının başdan-ayağa qalın dəmirlə qəliblənməsi Altay və Sibir dininin təşəkkülündən, başqa sözlə, mahiyyətindən irəli gəlirdi.

Dəmirin istək həyata keçirəcək səviyyəyə qaldırılması və şaman atributlarından birinə çevrilməsi dəmirin və dəmirçilərin ruhlar aləmi ilə bağlılığına olan inamdan doğurdu. Qədim türk təfəkküründə dəmirin tutduğu yer müqəddəs dağlara, ulu xaqanlara «dəmir» adının verilməsi, Aşina nəslinin «müqəddəs dəmir dağda» yaşaması və sairdə də özünü göstərir. Türklər dəmiri «ulu və müqəddəs sayır», dəmirə «göy dəmir» deyir (7, 80), dəmirin göydən gəldiyinə inanırdılar.

Nə qədər qəribə də olsa, türklərin dəmiri (poladı) və dəmirçiləri Tanrı aləmi ilə əlaqələndirmələri hazırkı elmi qənaətlərlə də üst-üstə düşür. Belə ki, elmi dəlillərlə dəmirin heç də «Yer planetinin cismi olmadığı» sübut olunub və bunun izahını vermək üçün alimlər dəmiri müxtəlif planetlərdən qopub Yer üzünə düşən «yad cism» kimi izah etməyə meyllidirlər. Görünür, bizim dünya haqqında heç bir təsəvvürü olmayanlar kimi qəbul etdiyimiz qədim mədəniyyətin sahibləri ən azı 2 min il əvvəl dəmirin «yad cism» olduğunu bilirlərmiş və ona görə də dəmirçiləri, dəmir emal edənləri ruhlarla əlaqəli şəxslər – müqəddəslər sırasına aid edirlərmiş.

Əlavə edək ki, ruhlarla əlaqəli saydıqlarından türklər qılınca təkcə döyüş silahı kimi baxmamışlar. Qılınc türklərin and yeri, hakimiyyət rəmzi sayılırdı. Türk xaqanlarının qılıncları haqqında əfsanələrin yaranmasına səbəb də qılıncın müqəddəsliyinə inamla bağlıdır.

Qeyd etmək yerinə düşər ki, yakutların ən böyük dəmirçilərindən biri Ağlıs adını daşıyır. Yakutlar «ağl»ı - qoruyucu və mühafiz mənasında işlədirdilər və bu söz həm də «ailə ocağı», «müqəddəs atəş» mənalarını da ifadə edirdi. Başqa sözlə, Altay türklərinin ot eezi-si ilə yakutların ot ağl-ı eyni məna daşıyır və maraqlıdır ki, Aruzun epitetindəki At Ağuzlu ifadəsi də Ot Ağlıs(lu)-a daha çox uyğun gəlir.

Bu uyğunluq «issi» sözündə də özünü göstərir. Yakut türklərində «iççi» dəmirçilərin müqəddəs sayılan mühüm alətlərinin - kəlbətin, çəkic, örc və körüyün «qoruyucu mələklərinə və ruhlarına» verilən ad idi. «İççi» - yiyə, sahib mənasında işlənirdi (7, 81) və od-ocaqla bağlı olan söz idi. Bu qədər yaxınlığa baxmayaraq, biz sözün «eezi»dən qaynaqlandığı qənaətində olduğumuzdan, müqayisələrdə daha çox Altay şaman deyimlərinə üstünlük veririk.

Bu izahlar Dış Oğuzun rəhbərinin Aruz adını təsadüfü daşımadığını üzə çıxarır. Türklərin tutduğu mövqeyə uyğun ad aldıqlarını nəzərə alsaq, onda «Dastan»da Qazan xanın həm oğlu Uruzun, həm də dayısı Aruz/Uruzun adının mənasını ər sahibi, ər yiyəsi anlamında qəbul etməliyik. Hər iki şəxsin igidlərə, ərlərə başçı olması (Qazan xan ova çıxanda oğlu Uruz 300 igidlə yurdu qoruyur) onların Uruz/Aruz adını təsadüfü daşımadığının göstəricisidir.

Maraqlıdır ki, Oğuz xanın şəcərəsi barədə məlumatlarda Qazan Alpın oğlu «Od Gözlü Urus»un adı var (7, 266). Kononov Od Gözlü Urusu Otküzli Urus kimi təqdim edir. Qazan Alpın 5-ci babası Salurdu və bu informasiya Qazan Alpla Salur Qazanı eyniləşdirməyə əsas verir. «Dastan»la müqayisə etdikdə isə Od Gözlü, Otküzlü və At Ağuzlu ifadələrinin Ot eezi – Ot sahibindən başqa bir şey olmadığı üzə çıxır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Diqqəti çəkən isə odur ki, şəcərədə Qazan Alpın oğlu kimi təqdim edilən Uruz «Dastan»da Qazan xanın dayısıdır, xan oğlu Uruzun isə titulu yoxdur. Bu məlumat qəribə mülahizəyə yol açır:

Qədim türklər dövlətin idarəçiliyini iki qola ayırırdılar – dövlətin qərb budağını idarə edən şəxs yabqu, şərq budağını idarə edən şəxs isə şad adlanırdı. Bütün dövlətə xaqan rəhbərlik edirdi. Ötükən hakimiyyət rəmzi sayıldığından və şərq budağının ərazisində yerləşdiyindən, şad həm də vəliəhd sayılırdı.

«KDQ» dastanında da eyni model özünü göstərir. Bayandır xan Qalın Oğuzun xaqanıdır. Oğuz eli iki budaqla idarə olunur - İç Oğuza Qazan xan, Dış Oğuza Aruz qoca rəhbərlik edir. Aruz «Ot eezi» - Ot təgindir, hakimiyyətə gələ bilməz və deməli, dövlətin qərb budağının başçısıdır. Qazan xan isə şərq budağının xanı və həm də şad, yəni vəliəhddir.

«Qam börənin oğlı Bamsı Beyrək boyı»nda Bayandır xanın oğlu Qarabudaqdan söhbət gedir. Xatırladırıq ki, Qazan xanın qardaşı oğlu və kürəkəninin də adı Qarabudaqdır. Ancaq «Dastan»ın üslubundan bilirik ki, eyni ad daşıyan igidlərdən biri fərqləndirilmək üçün daim atasının adıyla anılır. Məsələn, Dəli Tondaz adını daşıyanlardan biri ozan, digəri isə Qıyan Səlcukun oğlu, Aruzun nəvəsidir. İkincidən söhbət gedərkən daim «Qıyan Səlcuk oğlı Dəli Tondaz» deyə nişan verilir və bu qəlib pozulmur. Aruz/Uruz adını da iki şəxs daşıyır və bunlar Qazan oğlu və Aruz qoca kimi fərqləndirilir. Eyni zamanda, Qazan xanın kürəkəninin adı çəkilərkən sistemli olaraq «Qaragünə oğlu Qarabudaq» deyə xatırladılır və bundan da görünür ki, Qarabudaq adını iki tanınmış şəxs daşıyır.

Bu müqayisələr, bütün yozumlara baxmayaraq, Bayandır xanın oğlunun varlığından xəbər verir. Bəs, niyə xaqan öz oğlunu deyil, Qazan xanı Qalın Oğuza vəliəhd edib?

Qədim türklərdə hakimiyyət əvəzlənməsi böyük qardaşdan sonra kiçik qardaşlara, daha sonra isə böyük qardaşın böyük oğluna keçməklə tənzimlənirdi. Zərurət olduqda isə qurultayın qərarı ilə digər qardaşlardan birinin daha layiqli böyük oğlu xaqan seçilə bilərdi.

Bu prinsipi əsas götürsək, iki ehtimal irəli sürə bilərik:

**Birinci versiya:** Qazan xan Bayandır xanın (həm də Aruzun) əmisi oğlu və kürəkəni olmuş xaqanın oğludur və hakimiyyətin rəsmi varisidir. Bayandır xan qan qohumu Qazan xanla daha yaxından qohum olub – qızı Burla Xatunu ona ərə verib. Ot eezi – Ot təgin Aruz isə bununla razılaşmadığından xırda bəhanədən istifadə edərək Dış Oğuzu – dövlətin qərb budağını müstəqil idarə etmək qərarına gəlib və Qazan xan Dış Oğuzu «Boz Ok» olaraq özünə tabe edir.

Əslində, Dış Oğuzun sonuncu – on ikinci boya qədər «Boz Ok» adlandığını müşahidə etmək mümkün deyil. Əgər Doqquz Oğuz və Dış Oğuzun qarşılığı kimi Boz Ok işlənirdisə, niyə bütün dastan boyu yalnız 12-ci boyda bu ifadəyə rast gəlirik?

Qədim türklər asılı etmək, tabe etmək mənasında «baz/boz» sözünü işlətmişlər. Məsələn, «Kültigin» abidəsinin şərq tərəfinin 30-cu sətrində oxuyuruq: «Tört bulundakı bodunığ kop baz kıldım, kop mana körti» (Dört tərəfdəki xalqı bütünlüklə tabe etdim, yağısız etdim, bütünlüklə mənə tabe oldu. 11, 74).

Bildiyiniz kimi, Göytürklər özlərinə tabe etdikləri doqquz oğuzların xaqanını «Baz Kağan» deyə adlandırmışlar. Doqquz oğuzların xaqanının «Baz» adlandırılması təbii ki, onun hərbi-siyasi mövqeyi, yəni imperiyaya tabe olması ilə bağlı idi.

«Boz/baz» Azərbaycan dilində bir qədər leksik mənasını dəyişərək hazırda da yaşamaqdadır. Belə ki, bir şəxsin nədənsə asılı olduğunu bildirmək üçün «baz» sonluğundan istifadə edilir. Məsələn, quşbaz, qumarbaz, arvadbaz və s.

Fikrimizcə, Dış Oğuzun sonuncu boyda – Aruz qocanın öldürüldüyü boyda «Boz Ok» kimi xatırlanmasının səbəbi idarəetmədəki dəyişiklik və dövlətin qərb budağının məhz bu boyda ləğv edilməsiylə bağlıdır. Belə olmadığı təqdirdə türk adətinə uyğun olaraq Aruz qocadan sonra Dış Oğuza yeni rəhbər təyin edilməliydi ki, bunu da dastanda görmürük.

**İkinci versiya.** Aruz Qazan xanın dayısı deyil, qardaşı və ya oğludur. Sadəcə, dastan yaradıcıları oğul Uruzun adını təmizləmək və ya tarixin hansısa qatında baş verən hadisəni ümumiləşdirərək Aruz qocanın üstünə transformasiya ediblər. Çünki Oğuz eli üz-üzə dayanarkən Aruz qocanın oğlanlarının, o cümlədən Basatın adına təsadüf edilmir. Halbuki Bamsı Beyrək son nəfəsində Qazan xana ismarıc göndərərkən «Aruz oğlı Basat gəlmədin, elim-günim çapılmadın, qaytabanda dəvələrim bozlatmadın, qaracuqda Qazlıq atım kişnətmədin, ağca qoyunlarım mənrişmədin, ağca yüzlü qızım-gəlünim əkşəşmədin, ağca yüzlü görklimi Aruz oğlı Basat gəlüb almadın, elim-günüm çapmadın Qazan mana yetişsün» (1, 125) deyir, Basatın elini talayacağından ehtiyat edir.

Ancaq Dədə Qorqud kitabına türk mifologiyası kontekstindən yanaşmaq daha diqqətiçəkəndir. Əvvəlcə informasiyaları sıralayaq:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Uyğurca Oğuz dastanı»nda Oğuz Kağanın yürüşlərindən biri də Urum elinə olur. Urum xaqan basılır, onun qardaşı Uruz bəy isə oğluna şəhəri qorumağı tapşırır. Uruz bəyin oğlu Oğuz Kağana itaət edir və qiymətli hədiyyələrlə onun görüşünə gələrkən: «Qutumuz sizin olsun, qutlu dövlətinizin; Soyunuzdandır bizim toxumu nəslimizin» - deyə qohumluqlarına işarə ilə bağışlanmasını diləyir. Oğuz xan şəhəri yaxşı qoruduğuna görə Uruz bəyin oğluna Saxlab adını verir, sonra isə ordusunu da götürüb İdil çayının sahilinə gəlir (7, 136-138).

Oğuz xan göydən halə (göyün, günəşin və işıqlı dünyanın təcəssümü - «ağl»), göylə işıqlı dünyanın, günəşin simvolu olan ataş içində düşən qızla evlənir və o qızdan üç oğlu olur – Gün, Ay və Ulduz xanlar.

Göy rəngli, yəni göydən enmiş (B.Ögəl), Yer-Su müqəddəs ruhlarının yetirdiyi ağac oyuğundakı qızla izdivacından isə Göy, Dağ və Dəniz xanlar doğulur. Oğuz xan gördüyü röyadan sonra göy oğullarını Şərq tərəfə göndərir və onlar qızıl yayı tapıb gətirirlər. Qərbə göndərilən yer oğulları isə üç qızıl oxla geri dönürlər. Və beləliklə, yay hakimiyyət rəmzi, oxlar isə qulluqda duranlar olaraq bölünür və hakimiyyətin şərq budağı (əsas qanad) Gün, Ay və Ulduza, qərb budağı isə göy oğullarına qulluq edəcək və hakimiyyətə iddia etməyəcək Göy, Dağ və Dəniz xanlara verilir. Rəşidəddin Oğuz xanın dilindən «daha böyük olduğu» üçün sağ qolu hökmdarlığın simvolu kimi böyük oğullarına verdiyini yazır: «Məndən sonra padşahlıq taxtım və mənim yerimə xan olaraq keçmək haqqı bozox ulusunun əlinə keçmişdir. Mən öləndən sonra ən böyük oğlum olan Gün xan, əgər həyatda olarsa, mənim yerimə keçəcəkdir. Yox, həyatda olmasa, o zaman xaqanlıq taxtım ikinci oğlum Ay xanın haqqıdır».

Türklərdə hakimiyyətin əvəzlənməsi – böyük qardaşdan kiçiyə – Ot Təgin istisna olmaqla – keçməsi və sonda böyük qardaşın böyük oğluna verilməsi burada ehtiva olunur.

Oğuz xanın məclisində, uyğurca «Oğuznamə»də ümumiləşdirildiyi kimi, bozoklar sağda, üçoklar solda əyləşirlər («Sağ yanında bozoklar, sol yanında da üçok; Oturub əyləndilər qırx gün, qırx gecədən çox» - 7, 145).

«Şəcəreyi-tərakimə»də Ə.Bahadır xan Oğuz Xaqanın mifik şəcərə informasiyalarını aşağıdakı şəkildə cəmləyir: Gün xan (böyük oğlu – hakimiyyətə yiyələnəsi Qayı, ikinci oğlu – Qayının xidmətində duran (əti doğrayan) Bayat); Ay xan (Böyük Yazır, onun xidmətində durası Yapar); Yıldız (Böyük Avşar, kiçik Qızıq).

Göy xan (Böyük – Bayındır, ikinci - Beçənə); Dağ xan (Böyük - Salur, ikinci Eymür); Dəniz xan (Böyük - İydir, kiçik Bükdüz).

Qayıdan sonra hakimiyyətə gələn Dib Yabqu Oğuz xanı görən, onun dövlət idarəçiliyini bilən adamı – Salur elindən Ulaşı özünə vəzir götürür.

Doylu Qayıya Bayat Qorqud vəzirlik eləyir, sonra isə oğlu Tuman balaca olduğu üçün hakimiyyətə Doylunun kiçik qardaşı Göl Ərki gəlir və hakimiyyətin varisi Tuman xaqan Göl Ərkinin qızı Tozuq Burlanla evlənir və sair...

(Ə.Bahadır xanın Şah Məlik obrazı və Oğuz elinin iki qütbə bölünməsi, sıxışdırılması və sair barədə dediklərini artıq tam çılpaqlığı ilə Dədə Qorqud oğuznamələrinin mifik informasiyasını izahlamağa çalışmaq kimi yozduğumuzdan, «Şəcəreyi-tərakimə» ilə paralelləri buradaca saxlayaq).

İndi bu mifik informasiyaları «Kitabi-Dədə Qorqud»la müqayisə eləyək:

Qalın Oğuzun xaqanı Qam Ğan oğlu Xan Bayandırdır. Bayandır xan Göy xanın oğlu və deməli, üçoxlardandır.

Yuxarıda qeyd etdiyimiz kimi, xaqan yanında sağ tərəfdə üçoxlar, sol tərəfdə isə bozoxlar dayanır və «sağ qolun daha böyük» və hakimiyyət rəmzi sayıldığını nəzərə alsaq, deməli, hakimiyyət üçoxların əlindədir - bunun məntiqi nəticəsi kimi də Bayandır xan Oğuz elinə rəhbərlik edir.

Ancaq coğrafi mövqe baxımından bozoxların yerləşdiyi ərazinin Qalın Oğuzun şərq sərhədlərini tamamladığını düşünmək olar. Çünki Aruz qocanın oğlu, dastanda xatırladıldığı kimi, Dəmirqapı Dərbənddə bəy olub və Dərbəndin İç Oğuzun yaylağına çevrilməsi sonrakı prosesdir. Üstəlik, İç Oğuzun – Üç Oxun sərhədlərini «Gürcüstan ağzından Dərbəndə qədər» əhatələmək mümkündürsə, Dış Oğuzun şərq sərhədlərini müəyyənləşdirmək olmur. Eyni zamanda, Oğuz elinə şərqdən heç bir təhlükə yoxdur – bütün basqınlar, talanlar, yürüşlər hamısı qərbə doğru baş verir. Bu, bir tərəfdən türklərin qərbə yürüşlərini ifadə edirsə, digər tərəfdən şərq sərhədlərindəki güvəncdən xəbər verir.

Bayandır xanın Qazan xana verdiyi qızı Burla xatunla Göl Ərkinin Tuman xana verdiyi Tozuq Burlan təkcə ad yox, həm də hadisə eyniliyi ilə diqqəti çəkir.

Aruzun epitetindəki At Ağuzlu ifadəsinin yakutlardakı Ot Ağl(ıs)-a bənzədiyini qeyd etdik. Bozoxlar da Oğuz xanın göydən «ağl» - «müqəddəs od», halə içində endiyi qızdan doğulan övladlarıdır. Ona görə Aruzun bu epitetini, sosial-siyasi-hərbi-dini mövqeyi ilə yanaşı, soyuna da bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

işarə olan mükəmməl təqdimat olduğunu qəbul etmək lazım gəlir. Belə çıxır ki, Ot eezi Aruz hakimiyyəti əsl sahiblərinə qaytarmaq üçün cəhd edir və bu cəhdi uğursuzluğa uğrayır.

Dastanın müqəddiməsində Qorqud Atanın dilindən verilən «Axır zəmanda xanlıq gerü – Qayıya dəgə, kimsənə əllərindən almıya» - sözü hazırda hakimiyyətin bozoxlarda olmadığını təsdiqləyən, ancaq sonda xanlığın halal sahibinə - Gün xanın oğlu Qayı nəslinə qayıtmasını arzulayan deyimdir. Nəzərə alsaq ki, mifik təfəkkürlə Bayat Qayıya xidmət etməlidir, onda «Bayat elindən qopan» Dədə Qorqudun bu arzusu başa düşüləndir.

Sonuncu boyda Aruzun «asiliyini» də bu kontekstdə hakimiyyəti yenidən bozoxlara qaytarmaq, tarixi ədaləti bərpa etmək (12, 93) istəyi kimi dəyərləndirmək lazım gəlir.

Uyğurca «Oğuznamə»dəki Saxlabla isə Basat obrazı arasında oxşarlıq tapmaq olar. Uruz bəy Oğuz xaqanın nəslindən olduğu kimi, Aruz da Qazan xanın qohumudur. Birincidə düşmən qohumun oğlu – Saxlab bağışlanılır, ikinci də isə Basat ümumiyyətlə, bu qarşıdurmadan kənarda saxlanılır...

Əslində, təhqiqat predmetimizə daxil olmayan, ancaq üstündən keçə bilmədiyimiz bu müqayisələri istənilən qədər böyütmək mümkündür. Hesab edirik ki, «Kitabi-Dədə Qorqud» oğuzların dini-mifik dünyagörüşünün və yaşantılarının obrazlı ifadəsidir və bu ifadələrdəki dini-tarixi informasiyaları əski inanclar və mifoloji mətnlərlə qarşılaşdırmaqla üzə çıxartmaq olar.

Mətləbə qayıdaraq «uz»la bağlı mülahizələrimizi davam etdirək.

«Uz» sözünə bir çox türk qövmlərinin adında da rast gəlmək olur. Daha doğrusu, şaman leksikonuna aid «uz» müqəddəs sözündən istifadə edilərək tayfa başçısına verilən titullar sonradan həmin tayfanın adına çevrilmişdir. Məsələn, Oğ-uz, Az-ər, kırk-ız, qaqa-uz, tunq-uz və sair...

Mifik mənbələrin günümüzə daşıdığı informasiyaya görə, oğuzların adı ilk xaqan Oğuzdan yaranmışdır. «Ok»u, demək olar ki, bütün tədqiqatçılar «boy» kimi təqdim edirlər. Ancaq qədim türklər dünyaya – dünyanı idarə edən tanrılara - «yerlər-sular» (Yer-sub) və ya «ok/ök» demişlər. Hesab edirik ki, Ok uz – «boy yiyəsi» mənasında deyil, daha geniş anlamda - «dünyanın yiyəsi» (və ya dünyanı idarə edən tanrıların sahibi) anlamında işlənmişdir. İlk yaranışlarını dünyanın yiyəsi – «Ok/ök Uz» xanla bağlayanlar isə sonradan bu adla da tanınmışlar.

Bəzi patriot tədqiqatçılar bu versiyadan narahat olaraq, Oğuz adının Öküzlə eyniləşdirilməsindən əndişəyə düşürlər. Ancaq burda narahatlıq üçün heç bir əsas yoxdur. Nağıllarımızda dünyanı buynuzu üstündə saxlayan heyvanı öküz adlandırırlar. Əski təfəkkürə görə, dünyanı buynuzları üstündə yalnız «dünyanın sahibi, yiyəsi, tanrısı» saxlaya bilər. Və belə heyvan təbii ki, Ök Üz adlanmalıdır! Mifiloji mətnlərdə Oğuz xanın övladlarının Günxan, Ayxan, Dənizxan, Yerxan və sair göstərilməsindən də görünür ki, qədim təfəkkürdə oğuzlar öz xanlarını bütün dünyanın yiyəsi, tanrısı kimi qəbul etmişlər.

Digər tərəfdən, «Xannamə»də Ozqan xanla Oğuz xanın eyni şəxs ola biləcəyi fikrini Orxan Şaiq Gökyay irəli sürür və Bahəddin Ögəl də qəti olaraq bu rəyi dəstəkləyir: «Ozqan yazılış şəkli bəlkə də belə bir tələffüzün nəticəsi olaraq meydana gəlmişdir: Ozqan/Uzqan, Oz-kan/Uz-kan... Oğuz xan» (7, 193).

Bizim düşüncəmizə görə, Oğuz adının həm də Ozqan/Uzqan kimi qıpçaq ləhcəsində yaşamasını səs dəyişməsiylə izah etməkdən daha çox, eyni mənanı ifadə etməsində axtarmaq lazımdır. Yəni Ok Uz – yerin sahibi, Oz Qan/Kan – sahib xaqandır və mahiyyət etibarilə, hər iki deyim eyni dini-mifik dünyagörüşün ifadəsidir.

«Azərbaycan» sözü də Az (sahib), ər, bay (bay –müqəddəs), qan (qam) şəklində və şəxs adı kimi başa düşülməlidir. «Müqəddəs ər sahibi olan qam» titulunu özündə ehtiva edən Azərbaycan sözünün sonundakı «qan/can» heç bir halda kan – məkan kimi götürülə bilməz. Əvvəla ona görə ki, müqayisə üçün ikinci belə faktı tükrdilli xalqlarda tapmaq olmur. İkincisi isə, «Azərbaycan» şəxs adı kimi yaşamasa da, Azər və Baycan adları hazırda da işlənir. (Elə «Dastan»ın özündə - Baybican və Aruz şəklində – bunu müşahidə etmək mümkündür). Hər halda, tayfa başçısı olan və deməli öz tayfasının şamanı olan Baybican adındakı ikinci tərkibin «məskən» kimi qəbul olunmasını düşünmək sadəlövhlük olardı.

Xəzərlərin adı üzərindəki düşüncələr dediklərimizi daha da qüvvətləndirir. Mahmud Kaşğarlı Xuzar və ya Xozar adlı türk ölkəsindən söz açır, C.Deni Xazar sözünü türkcə Kuz-ər, yəni qüzey əri kimi izah edir, H.Vamberi cağataycada xəzərlərə Ozar adı verildiyini bildirir və bütün bunları ümumiləşdirən B.Ögəl xəzərlərin xuzərlər kimi anılmasını normal hal sayır (7, 195).

Oz-ər/Uz-ər/Az-ər-i – sahib ər, Kuz-ər-i isə qüzey əri olaraq deyil, Quz/Oquz-əri kimi qəbul etmək məntiqə daha çox uyğun gəlir. Oz-ər və Kuz-ər arasındakı deyim fərqini isə yenə də səs düşməsiylə deyil, Oğuz/Ozqan adında olduğu kimi, mifik düşüncə ilə izah etmək lazımdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xəzərin Oz-ər/Kuz-ərin adıyla adlanması ona görə təsadüf deyil ki, analoji proses Azərbaycandakı digər etnonimlərdə də özünü göstərir. Məsələn, az qala Azərbaycanın atributlarından sayılan Kür və Araz çayları. Böyük ehtimalla söyləmək olar ki, Kür - türkcə böyük, qüvvətli, bahadır mənasını verən kür, ilkin orta əsrlərə qədər Ərəs kimi adı çəkilən Araz isə Ər-az sözüylə əlaqəlidir.

* * *

**Qoca.** «Qoca» titulu qədim türk təfəkküründə təkcə ixtiyar, yaşlı mənalarını ifadə etmir. Qoca - ocaq qoruyucusu, əcdadlar dünyasına yaxın şəxs, kollektiv ritualların icraçısı və hökmdar, ozan, şaman elementlərini özündə birləşdirəndir. Bu barədə geniş izahatdan yalnız ona görə çəkinirik ki, R.Kamalın (8, 24-29) fikirlərini xırda istisnalarla bölüşürük.

Beləliklə, Aruzun təqdimatındakı bütün epitetlərin onun Ot eezi olduğunu təsdiqlədiyi bəlli olur...

## QAYNAQLAR

1. «Kitabi-Dədə Qorqud» (Tərtib edəni F. Zeynalov, S. Əlizadə). Bakı – 1988.
2. Qədim Türk sözlüyü. Leninqrad – 1969
3. A.İnan: Tarixdə və bu gün Şamanizm. Ankara – 1954.
4. Cemal Şener: Türklərin müslümanlıqdan öncəki dini - Şamanizm. İstanbul – 1997.
5. А.В.Анохин. Материалы по шаманству у Алтайцев. Ленинград - 1924.
6. В.И.Вербицкий. «Алтайские инородцы. Москва - 1893.
7. B.Ögəl. Türk mifologiyası. Bakı - 2006.
8. R.Kamal. «Kitabi-Dədə Qorqud»: Arxaik ritual semantikası. Bakı - 1999.
9. Л.П.Потапов. Алтайский шаманизм. Ленинград -1991.
10. L.Qumilyov. Qədim türklər. Bakı - 1993
11. Ə.Rəcəbov, Y.Məmmədov. Orxon-Yenisey abidələri. Bakı – 1993.
12. Azərbaycan şifahi xalq ədəbiyyatın dair tədqiqlər. 11-ci cild. Bakı – 2002. S.Rzasoy. «Kitabi-Dədə Qorqud»un sonuncu boy süjetinin kosmoloji strukturu və ritual-mifoloji semantikası.
13. İmadəddin Nəsimi. İraq divanı. Bakı – 1987.
14. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XI cild, B-2002.
15. B.Ögəl. Türk Kültür Tarixinə Giriş. IX cild, Ankara – 1991.
16. Azərbaycan tarixi, 7 cilddə, III cild, Bakı – 1999.
17. Azərbaycan tarixi. Bakı – 1994.
18. Ə.Fərzəli. Dədə Qorqud yurdu. Bakı – 1989.
19. «Kitabi – Dədə Qorqud» ensiklopediyası. Bakı – 2000.
20. В.Н.Басилов. Избранники духов. Москва – 1984.
21. Е.С.Новик. Обряд и фолькьлор в Сибирском Шаманизме. Москва – 1984.
22. H.İsmayılov. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı – 2002.
23. Əbülqazi Bahadır Xan. Şəcəreyi-tərakimə. Bakı – 2002.
24. Енсиклопедия мистических терминов. Москва – 2001.
25. Л.Н.Гумилев. Тысячелетие вокруг Каспия. Баку – 1991.
26. Mahmud Kaşğarlı. Divani-lüğəti-it Türk. Bakı – 2006.

**Резюме**

В статье, представляюшей собой первую из серии исследований, автор обрашается к эпосу «Книга маего Деда Коркуда» как к шаманскому памятнику и находятся параллели с сюжетами и мотивами, имеющисия в тюрских мифологических текстах. К исследованию привликается, главным образом, один из героев эпоса – Аруз. Этимология названия «Аруз» впервые объясняется на основе шаманского лексикона. Также излачается смысль эпитетов, связанных с Арузом.

**Resume**

Lu the first article of the succession investigation the epos «Kitabi-Dede Gorgud» was taken as a shaman monument and some plots and expressions in the myfhological texts were carried out parallel. Especially one of epos heroes – Arus was investigated. The meaning of «Aruz» was explained with shaman lexicology for the first time and the epithets of Aruz were investigated.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞINDA ADQOYMA MOTİVİNİN TƏDQİQ TARİXİNƏ DAİR
### (M.Seyidovun araşdırmaları əsasında)

***Aynurə Səfərova***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Azərbaycan folklorunda adqoymanın tarixi çox qədim olsa da, mövzunun tədqiqi nisbətən daha sonrakı dövrə təsadüf edir. Ötən əsrdə Azərbaycan folklorşünaslığında adqoyma ilə bağlı bir çox tədqiqatçılar dəyərli elmi araşdırmalar aparmışlar. Onlardan M.Seyidovun, B.Abdullayevin, F.Bayatın, A.Nəbiyevin, E.Əlibəyzadənin və b. adlarını çəkmək olar. Tədqiqatçılar mövzuya bu və ya digər şəkildə toxunmuş, adın və adqoymanın mifdə, folklorda, etnoqrafiyadakı rolundan bəhs etmişlər. Məlumdur ki, advermə, adqoyma motivi ilə bağlı ən dəyərli mənbə olan «Dədə Qorqud kitabı»ndan üzü bəri bütün folklor örnəklərində adın, adlandırmanın, adqoymanın ən gözəl nümunələrinə rast gəlirik. İstər dastanlarda, nağıllarda, istərsə də əfsanələrdə ad və adqoymanın mənşəyi mifoloji düşüncə ilə bağlıdır. Bu sahədə görkəmli folklorşünas alim M.Seyidovun ad və adqoyma motivi ilə bağlı araşdırmaları xüsusilə diqqəti çəkir. Müəllif 1968-ci ildə «Azərbaycan» jurnalında nəşr etdirdiyi «Dədə Qorqud boylarının mənşəyinə dair» adlı məqaləsində qədim tarixi abidəmiz olan «Dədə Qorqud kitabı»nı tarixi-mifoloji aspektdən araşdırmış, eyni zamanda dastan qəhrəmanlarının adları ilə bağlı dəyərli, orijinal fikirlər söyləmişdir. O, Dəli Domrulun, Bəkil oğlu Əmranın adlarının mifoloji kökünü araşdıraraq bu qənaətə gəlmişdir ki, «burada qədim ozan, qədim yaradıcı sənətkar şüurlu hərəkət etmişdir. O, yaratdığı obrazların təbiətinə, peşəsinə, vəzifəsinə uyğun ad seçmişdir» (1, 205).

Müəllif Domrulun adının etimoloji izahını verərək göstərmişdir ki, «Domrulun adı onun əməli, xarakteri ilə sıx bağlıdır. Domrul sözü «Tomruk», «dom+anqir» sözləri ilə bir kökdəndir. Bir çox türk dillərində bu sözlərin mənası belədir: «Dom + anqir» özbəkcə narazı, incik, «Tomruk» isə türkcə tez özündən çıxan, acıqlı, kobud deməkdir. Doğrudan da, Domrul Əzrailin əməlindən incikdir, narazıdır» (1, 204). Bəkil

oğlu Əmranın adının da mənşəcə türkdilli xalqlara məxsus olduğunu göstərən alim yazır. «Amran əmin-amanlıqda yaşamaq deməkdir. Doğrudan da, boyda Bəkilin oğlu Amran əmin-amanlıqda yaşayır. Əmin-amanlığı, dincliyi qoruyan, uzaqgörən Bəkilin oğlu oğuzların adqoyma adətinə görə, yuxarıdakı əməlləri ifadə edən söz-adı daşımalı idi. Bu söz-ad «amran»dır» (1, 205).

M.Seyidovun türk xalqlarının adqoyma adəti haqqında yazdığı «Bəzi abidələrdə və xalq yaradıcılığı nümunələrində adqoyma adətinin qalıqları haqqında mülahizələr» məqaləsi isə sözügedən mövzunun tədqiq olunması baxımından əvəzsiz mənbədir. Məqalə 1977-ci ildə «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər» toplusunda nəşr edilmişdir. Müəllif göstərmişdir ki, «bir çox xalqlar Günəş, Ay, Ulduz kimi kosmik cisimləri, ildırım, bahar kimi təbii hadisələri, çiçək, gül kimi bitki adlarını insana ad qoyurlar. Belə adqoymanın tarixi, mifoloji səbəbləri vardır. Başqa sözlə, adların əksəriyyəti boybirləşməsi, xalqın ibtidai dünyagörüşü, həyat tərzi, məişəti ilə əlaqədardır» (2, 47). Sonra o, qədim türk yazılı abidələrindən bizə bəlli olan dövlət xadimlərinin, sərkərdələrin adları haqqında məlumat vermişdir. Göstərmişdir ki, «Bəzi dövlət xadimləri, sərkərdələri, qorxmaz, igid döyüşçüləri şöhrət, hörmət əlaməti olaraq ikinci ad qazanmışlar. Məsələn, Moqilyanın həm Moqilyan, həm də Bilgə qağan adı varmış. Şübhəsiz ki, Moqilyan onun ilkin adıdır. Müdrik, ağıllı, tədbirli dövlət xadimi olduğuna görə ona Bilqə – bilən, müdrik adını vermişlər (2, 51).

Məlumdur ki, adların yaranmasının tarixi onu daşıyan xalqın, millətin tarixi qədər qədimdir. Alimin gəldiyi qənaətə görə, insanlar hələ qəbilə, tayfa halında yaşadığı dövrlərdən başlayaraq «qəbilə üzvlərini fərqləndirmək üçün onlara əməllərinə, fəaliyyətlərinə görə ad qoyurdular. Fiziki və zehni cəhətdən fərqlənənlərə verilən adlar onun qəbilədəki mövqeyindən asılı olaraq qəbilənin adına çevrilirdi. Adətən isə lap fərqlənən qəbilənin onqonunun – toteminin, sonralar tanrısının adını daşıyırdı. Qəbilənin ad almış fərqlənən üzvlərindən başqa, qalanlar ehtimal ki, adsız yaşayırdılar» (2, 48).

Все народные эпические памятники, по свидетельству М. И. Умутбаева, раньше, во всяком случае, при его жизни, башкорты *обобщенно называли «улян»ом.* Сам он применял этот термин в двух значениях: *героической песни»* и *«эпоса»*, как это было принято в XIX в. в русской фольклористике и на Западе. В частности, он писал:*“Все башкирские батыры воспеваются в улянах: например, Мурадым, Заятуляк* (герои улянов “Идукай и Мурадым” ,“Заятуляк и Хыухылу”. – *А.С.*), *Сура батыр* (герой одноименного уляна. – *А.С.*) и многие другие батыры, еще не понюхавшие пороха. Эпоха уляна, т.е. башкирского эпоса, как и у всех европейцев завершается [по мере завершения] героической эпохи. У киргизов (т.е. казахов. *–А.С.)* и поныне (статья написана в 1876 году. – *А.С.*) улян занимет первое место. Однако они не различают простые песни от [настоящего] уляна. Поэтому всякие песни подряд называют уляном. А *у башкир улян обозначает хикаята, т.е. эпоса*”. Как бы предчувствуя, что в будущем башкирские фольклористы не будут считаться его высказыванием об уляне, и желая особо подчеркнуть его, в одном и том же очерке М. И. Умутбаев дважды повторил эту мысль. Еще в начале своей статьи он написал: *“Древние песни башкир называются уляном. Улян – есть хикаят, или эпос”*(11, 192–193, 189). Хотя из этих высказываний автора в какой-то мере веет европоцентризмом (Например, в проведении параллелей в содержаниях понятий “улян” и “эпос”, а также при применении терминов “эпоха башкирского эпоса” и “героическая эпоха”, хотя “героическая эпоха” у башкир, точно так же как и у кахзахов, не совпадая с европейской, фактически продолжалась до конца XVIII века. Именно по этой причине мы имеем уляны-эпосы “Восстание Акай-батыра”, “Карахакал”, “Баик Айдар-сэсэн”, “Юлай и Салават” о героических делах предводителей башкирских восстаний, состоявшихся в том веку), они еще не потеряли свое значение и вполне заслуживают того, чтобы исследователи обратили на них внимание и несправедливо забытый башкирскими фольклористами термин “улян” вновь ввели в научный оборот. В свое время некому было подхватить эту мысль нашего просветителя: тогда не было национальных кадров по фольклористике. Помимо этого в дело придания забвению определения эпоса уляном известную роль сыграло и категорическое высказывание А. Н. Киреева (Кирей Мэргэна) о том, что “был ли жанр улян или род творчества в башкирском народном творчестве или нет, нам неизестно”(7,18). Хотя он высказывание башкирского просветителя об уляне ошибочно принял за высказывание М.В. Лоссиевского, который, как выяснил умутбаевовед Г. С.Кунафин, просто использовал в своем очерке “Былое Башкирии и башкир по легендам. преданиям и хроникам” неопубликованную работу первого, и сомневался, видимо, в осведомленности этого



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

русского краеведа о тонкостях башкирского фольклора, вообще, эпоса, в частности. Это – во-первых. Во-вторых, М. И. Умутбаев, следовательно, и М. В. Лоссиевский вели разговор не о жанре или роде творчества, а о национальном термине, синониме термина “эпос”. Уважаемый А. Н. Киреев на это не обратил внимание и почему-то завел разговор об отсутствии жанра и рода творчества, обозначаемых термином “улян”. Последующие поколения исследователей башкирского эпоса тоже оставили это без внимания, по причине чего начиная с начала 60-х гг. прошлого века, т.е. в основном после опубликования монографии А. Н. Киреева, при определении жанра всех эпических памятников они стали пользоваться общепринятым термином «эпос», выделяя при этом такие его внутрижанровые разновидности как: *эпические кубаиры, иртэки, хикаяты и письменные дастаны* (7; 12, 14 – 18; 1, 89 – 90; 4, 48 – 50; 5, 243; 18, 62 – 63; 2, 382 – 443; 3, 6 – 14).

В составе многочисленных жанров башкирского фольклора есть, так называемый, поэтический жанр кубаир, относящийся к роду народной лирики, который делится на одаическую и назидательно-дидактическую разновидности, которым традиционно характерен размер стиха 7 на 7. А в одной строфе их могут быть от двух до тридцати и более строк. В них предпочтение отдается внутренному ритму, нежели рифмам. Эпические поэмы пользующиеся формой кубаира и называют ныне эпическими кубаирами. Классическими образцами эпических кубаиров считаются эпосы “Урал-батыр”, “Ак-бузат”, “Идеукай и Мурадым”, “Карахакал”, “Баик Айдар-сэсэн”,“Юлай и Салават”, “Узак и Тузак”.

Если же текст эпоса состоит из прозы и кубаира, идущих в перемешку, то мы имеем дело с иртэком. К иртэкам причисляют такие эпосы как “Заятуляк и Хыухылу”, “Акхак кула” (“Хромой саврасый”), “Кара юрга” (“Черный иноходец”), “Миняй-батыр и царь Шулгэн”, “Алпамыша и Барсынхылу”, “Кузыйкурпес и Маянхылу” и т.д.

К хикаятам до последнего времени относили литературные интерпретации сюжетов традиционных эпических памятников таких как “Башкирская повесть ...”, “Мои вечера”, написанные Т.С. Беляевым на сюжеты башкирской версии общтюркского эпоса “Кузыйкурпес и Маянхылу” и недошедшего до нас эпоса, условно названного учеными как “Алдар и Зугра”, а также поэтический вариант кипчакской версии эпоса Бабсак би и Кусяк би”, созданный известным в Башкортостане Сабирьян-сэсэном Мухаметкуловым.

Термин “письменные дастаны” введен в научный оборот недавно автором этих строк. К ним мы относим башкирские версии таких общетюркских дастанов как “Тагир и Зугра”, “Лёйля и Маджнун”, “Бузйегет”, “Сейфельмулюк”, а также созданные по их образцу современными сэсэнами-поэтами письменные версии и варианты на известные сюжеты башкирских эпосов, дошедших до нас лишь фрагментарно, а также критические письменные сводные варианты некоторых эпических сюжетов. Думается, что будет правомерно, если к их числу причислить те литературные варианты эпосов, которые до настоящего времени фактически лишь формально считались хикаятами, тем более, что арабский термин “хикаят” имеет не только значение “сказание”, но и другие значения, в том числе и значение “новелла”. Однако не все фольклористы восприняли такое нововведение с энтузиазмом. Академик Г.Б.Хусаинов, имея в виду поэму этнического башкира Куль-али о прекрасном Йусуфе и его возлюбленной Зулайхе “Кисса-и Йусуф” и подобные произведения [хотя и писал, как уже было отмечено, что они “не совсем вписываются в рамки кисс” и назвал их “киссами, содержащими традиции дастана”(17, 40)], все-таки не решился отойти от старой традиции и относит их к числу кисс (18,90). Башкирский фольклорист С.А.Галин же жанровую принадлежность не только этой поэмы, но и других популярных на Востоке поэм “Тагир и Зугра”, “Бузйегет” и др., определяет как кисса (4,113 - 115; 5, 243).

“Кисса-и Йусуф” , не говоря уже об остальных поэмах о любви, имеет лишь формальные признаки религиозного жанра, т.е. киссы. Автор его, судя по ряду сходств его поэмы с башкирскими иртеками, в частности, с иртеком “Заятуляк и Хыухылу”, был хорошо знаком с эпическими традициями родного народа. А пребывание его в течение 45 лет в Средней Азии дало ему, думается, в достаточной мере возможность познакомиться с традициями дастанотворчества. При создании своей знаменитой поэмы именно по этим причинам он не мог, конечно, избежать влияния традиций иртеков родного народа и дастанотворчества. А будучи сам религиозным деятелем, он не мог не учитывать и потребности своих религиозных читателей. Поэтому-то в соответствии с коранической киссой-первоисточником в поэме нашли отражение и религиозные мотивы, которые никак не противоречат светскому началу содержания произведения. Наоборот, они позволяют глубже раскрыть его, утверждая идею честности, верности любви, призывает



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

быть терпеливыми, чтобы достичь счастья и других благородных целей. А дастаны “Бузйегет”, “Сейфельмулюк”, “Тагир и Зугра”, “Лейла и Меджнун” , “Фархад и Ширин” как бы раскрывают новые аспекты темы любви, однажды разработанной в поэме о Йусуфе и Зулейхе. Но они, в отличие от поэмы о Йусуфе, отражают земные страсти, воспевают не божественную, а земную любовь, идеализируя ее до степени обожествления. Тем не менее, по традиции кисс решающее слово остается в них за роком, обозначенным на лбу каждого мусульманина Аллахом. Но и в этом вопросе, в отличие от поэмы о Йусуфе и Зулейхи, в подобных поэмах открыто не выступают ни ангелы, ни пророки, присутствие которых за кадром лишь ощущается. Божья воля все равно доводится до героев через них. Однако теперь чудесное начало, связанное с их закадровыми действиями, в редких случаях их непосредственным присутствием на авансцене, воспринимается как типичная сказочная фантастика.

Наконец, отметим, что башкирские версии и их варианты дастанов, устно или в списке заимствованных из репертуара Восточных народов, бытуют в репертуаре башкир по законам местного национального эпоса, в частности иртека: устно они не исполняются полностью в стихотворной форме, в них проза смешивается с поэтичесими строфами.

**ЛИТЕРАТУРА**

1. Ахметьянов Ким. Краткий словарь литературных терминов. – Уфа, 1965 (На башкирск. яз.).
2. Башкирское народное творчество. Т.6. Эпос: Киссы и дастаны/ Сост. Ахмет Сулейманов и др.– Уфа,2002 (На башкирск. яз.).
3. Башкирское народное творчество. Т.7. Письменные киссы и дастаны/ Сост. Ахмет Сулейманов и др. .– Уфа, 2004 (На башкирск яз.)..
4. Галин Салават. Народной мудрости источник. – Уфа, 1993 (На башкирск. яз.).
5. Галин Салават. Башкирский фольклор: Устно-поэтическое творчество башкирского народа. – Уфа, 2004 (На башкирск. яз.).
6. Жирмунский В.М., Зарифов Х.Т. Ўзбекский народный героический эпос. – М.: ОГИЗ, Госиздат. худ. лит., 1947.
7. Киреев А. Н. (Кирей Мэргэн). Башкирский народный эпос. – Уфа, 1961 (На башкирск. яз.).
8. Кул Гали. Кысса-и Йусуф /Подготовка к печати Ф.С.Фасеева. – Казань, 1983 (На татарск. яз.).
9. Короглы Х. Г.Турецкая народная повесть// Эмрах и Сельви: Необыкновен-ные приключения Караоглана и др. турецкие нродные повести. — М., 1979.
10.Мирзаев Туря. Дастаны// Узбекское устно-поэтическое творчество: Учеб-ник для студентов филологических факультетов вузов. – Ташкент, 1980 (На узбекском яз.).
11. Умутбаев М. И. Памятки/ Подгот. к печ. Гинията Кунафина – Уфа, 1984 (На башкирск. яз.).
12. Сагитов Мухтар. Древние башкирские кубаиры. – Уфа, 1987 (На башкирск. яз.).
13. Turk DunvasI ortak EdebivatI : Turk DunvasI Edebiyat KavramlarI ve Termleri Ansiklopedik Soslugu.Cilt 2.- Ankara: Ataturk Kultur Merkezi BaskanlIgI, 2003.
14. Turk DunvasI ortak EdebivatI : Turk DunvasI Edebiyat KavramlarI ve Termleri Ansiklopedik Soslugu.Cilt 4.- Ankara: Ataturk Kultur Merkezi BaskanlIgI, 2005.
15. Урманчеев Ф.И. Героический эпос татарского народа. — Казань, 1984.
16. Хисамов Н. Ш. Сюжет Йусуфа и Зулейхи в тюрко-татарской поэзии XIII – XV вв.:Проблема версий. – Казань, 2001.
17. Хусинов Гайса. Эхо веков. – 1984 (На башкирск. яз.).
18. Хусинов Гайса. Словарь литературоведческих терминов. –Уфа, 2006 (На башкирск яз.).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ŞİRVANDA İLKİN AŞIQ MÜHİTLƏRİNİN TİPOLOJİ VƏ REGİONAL XÜSUSİYYƏTLƏRİ
(DƏRBƏND-ŞABRAN)

***f.e.n. Ağalar Mirzə***
***Azerbaycan***

Azərbaycan aşıq sənətinin zəngin mühitlərindən olan Dərbənd-Şabran bu vaxta kimi əsaslı tədqiqatdan kənarda qalmışdır. Bu, hər şeydən əvvəl Dərbəndin 200 ildən bəri Azərbaycandan ayrı salınmış taleyi ilə bağlıdır. Təəssüflər olsun ki, sovetlər dönəmində - yəni fiziki sərhədlərin şəffaf olduğu vaxtlarda belə Dərbəndin ədəbi-mədəni taleyinə, soydaşlarımızın ana dili, təhsil, milli-mənəvi yaddaş sahəsindəki qayğılarına gözgörəsi biganəlik nümayiş etdirilmiş, Dərbənd şüurlu şəkildə unudulmuş, Azərbaycandan ayrı salınmışdır. Bu gün 120 mindən çox soydaşımızın yaşadığı və ana türkcəmizi məişət səviyyəsində qoruyub saxlayan Dərbəndin aşıq mühitini öyrmənmək üçün yüz illərin arxasından gələn Dədə Qorqud həqiqətinə üz tutmalıyıq. Rusiya Federasiyasının subyekti Dağıstan respublikasının ikinci böyük şəhəri olan Dərbənd öz türk-azərbaycanlı ruhu ilə min illərin o tayından yol gəlir. Dərbəndin 5000 illiyini rəsmiləşdirən YUNESKO-da Avropa ilə Asiyanın ən dar keçidində salınmış bu unikal insan məskəninin qədim türk şəhəri olduğunu etiraf edir. Bu gün şəhərin on bir qapısından salamat qalmış yeddisinin adında qorunan (Carçı qapı, Daş qapı, Orta qapı, Qırxlar qapı, Bayat qapı, Qala qapı, Dubarə qapı) türk ruhu bu şəhərin şəriksiz milli mənsubiyyəti haqqında təsəvvür yaradır. Bəlkə də Şimali Qafqazda türk dilinin və nüfuzunun uzun illər aparıcı, ortaq dilə çevrilməsində bu şəhərin tarixi xidmətləri olmuşdur. Dərbəndin 20 adından ən uzunömürlüləri də (Dəmirqapı, Hun qapıları) türk tarixindən, milli varlığından xəbər verir.

Türk mənşəli skiflərin bu yerlərdəki sahiblik haqqını Strabondan belə bütün tarixçilər etiraf etdikləri kimi, digər türk tayfaları massagetlərdən, xəzərlərdən, hunlardan, xaylantürk, buntürk, oğuz, qıpçaq, bulqar, alan, sabir, tərəkəmə, qaraçay, qumuk, tatar qəbilərini qoynuna almış bu şəhərin həmin xalq, tayfa, soyların etnik-mədəni birliyindən yarandığını da danmaq mümkün deyil. Düzdür, qədim və böyük şəhərlərin monoetnik tərkibindən danışmaq doğru olmaz. Dərbənd yer üzünə bina olandan qanlı qovğaların, əbədi mübarizələrin meydanına çevrilmiş, qüdrətli dövlətlər bu şəhərə sahib olmaqla öz gələcək iqtisadi, ticarət əlaqələrinin inkişafını görürdülər. Elə buna görə də şəhərin etnik tərkibi həm də imperiya dövlətlərinin süni miqrasiyaları hesabına genişləndirilirdi. Bu gün Dağıstanda, Dərbənd ərazilərində ləzgiləşmiş bir çox kəndlər: - Avşar-Ovsarlar-dan, Quruş-Qureyş ərəb tayfalarından, Misgincə - Cənubi Azərbaycandan, Xib-Xivə xanlığından, Tatarxanakənd - Tatar və monqol xanlarından, Aşağı Katrux - Şirvan xanlarından ləzgilərə qalmış yadigarlar-dır(1,s.5).

Bütün bu davamlı tarixi həqiqətlərə baxmayaraq nə qədər acı olsa da, Dərbənd 1806-cı ildən birdəfəlik Rusiyanın tabelyinə verilir, 1813-cü il Gülüstan müqaviləsində bu ilhaq aktı təsdiqlənir (2,s.575-577). Tarixi türk mədəniyyətinin ən qədim ocaqlarrından biri olan Dərbənd haqqında moskvalı müəllif - A.A.Kudryavtsevin qərəzli qeydlərində Dərbənddə türk nüfuzunu heçə endirmək cəhdi özünü göstərir. İnana bilmirsən ki, yüz illər ərzində türk, islam mədəniyyəti çevrəsində yaşamış bu şəhərin taleyindən bəhs edən müəllif XVI əsrdən aşıq yaradıcılığı, saz-söz sənəti çağlayan bir türk yurdunun varlığından necə sükutla ötüşür. Hətta 1830-1834-cü illərdə Dərbəndə sürgün olunmuş A.B.Marlinskinin tezliklə yerli xalqa isinişərək türkcəni öyrəndiyini, İskəndər bəy adı ilə yerlilərin sevimlisinə çevrilib çox əsərlər yazdığını dilə gətirərkən də saxtakarlığından əl çəkmir, aborigenlər haqqında bir kəlmə belə bəhs etmir (3,s.52). Lakin bu günün özündə belə Dərbənd və onun ətrafındakı türk toponimləri bu yerlərdə məskun olmuş insanların qoruyub saxladıqları Azərbaycan türkcəsi tarixi həqiqətlərə böyük inamla üz çevirmək, xalqın yaşı yüz illərlə ölçülən sənətləri, ədəbi-mədəni mühiti haqda fikir söyləmək imkanı verir.

Dağıstanda XVI yüzillikdən bəri yaranan aşıq sənətinin, türk dili hakimiyyətinin qorunmasında, yerli xırda xalqların bu dilə sonsuz sevgisi və qarşılıqlı inam, dostluq, qardaşlıq, mehribançılıq vasitəsi kimi baxmalarında böyük rolu olmuşdur. Uzun illər Dərbənd ərazisi daxil olmaqla indiki Şimalı Azərbaycanın Albaniya hakimiyyətində yaşaması, orta əsrlərdən Şirvan şahlığının bu yerlərdəki nüfuzu, Şabran-Quba-Dərbənd əlaqələrinin möhkəmliyi ədəbi mühitin formalaşmasına səbəb olmuş, xüsusən, aşıq sənətinin inkişafına böyük təkan vermişdir. Bəlkə də daha qədimlərdə yaranmış aşıq sənəti Dərbənddə XVI əsr aşığı Bayat Abbas kimi qüdrətli bir sənətkarı yetirmişdir. Adında daha bir türk tayfasının varlığını yaşadan Aşıq Abbas fitri istedada malik, bədahətən söz qoşan, qıfılbəndlər, ustadnamələr, təsniclər yaradan qüdrətli sənətkar olmuşdur. Doğulduğu Bayat kəndi Dərbəndin ən yaxın məskənlərindən olmuş Dərbənd müsəlmanları birmənalı qarşılanmamışdır. Lakin böyük söz, fikir daşıyıcısı olan Bayat Abbas öz fitri istedadıyla tezliklə şəhər camaatının hörmətini qazanmış, burada aşıq sənətinin əsasını qoya bilmişdir. Bayat Abbasın yaşadığı, yazıb-yaratdığı dövr Dərbənd ictimai-siyasi mühitində təlatümlü, kəskin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dəyişikliklər dövrü kimi səciyyələnir. Cənubdan Səfəvi sərkərdələrinin bu strateji şəhərə aramsız hücumları eyni zamanda Cənubi Azərbaycan mədəni mühitinin transformasiyası ilə müşahidə olunurdu. Həm yaxındakı Şabran, Şirvan ədəbi-mədəni mühitiylə könüllü əlaqələrin, eləcə də Səfəvi yürüşləri zamanı yaranan sənət çevrəsinin Dərbəndə təsiri ən fəal və dinamik təzahürünü aşıq yaradıcılığında, xalq sənəti örnəklərində, xüsusilə, xalçasılıq, dulusçuluq, bədii keramika sahəsində biruzə verirdi. Bayat Abbasın qələmə aldığı və bu günümüzə gəlib yetişən gəraylı, qoşmalarında məktəb, mühit ənənələri baxımından çoxvariantlı təhlil aparmaq fikrimiz olmasa da, deməliyik ki, bu nümunələr XVI əsr türk-islam şəhəri Dərbəndin sənət ab-havasını əks etdirir, sakinlərin gözəllik, sevgi duyğularının ifadəçisinə çevrilir:

Ruxun ətrafında nə xoş
Düzülüb danə xalların.
Olubdur atəşə məhrəm
Qorxmazsan yana xalların?!

Klassik şərq poetik ənənələrinin xalq şerində sadə və melodik əksi Bayat Abbas yaradıcılığı üçün də səciyyəvidir. Elə həmin gəraylının ikinci bəndində adamı heyrətə salan səs, söz sistemi, şah qafiyələrin kanonikliyini, fikrin yığcam, çoxmənalı və emosional təqdimatını müşahidə edirik:

Xan atlandı paraq kimi,
Gülşənə qondu zağ kimi.
Lalə bağrında dağ kimi
Qaldı nişanə xalların.

Sevən aşıq könlünün qanqırmızı lalə yarpağına, xallara olan sevginin izlərini lalə köksündə qara ləkə ilə müqayisəsi çox orijinal və təsirlidir. Ümumiyyətlə, gözəlin sifətindəki xalların bədii obraza çevrilməsi klassik ədəbiyyatda olduğu kimi aşıq yaradıcılığında da geniş yer tutur.

İnsan gözəlliyinə təbiət rənglərindən əlvan naxışlar vuran el sənətkarları bəzən də təbiət-insan qarşılaşdırılmasında Xaliqin yaratdıqlarını hər şeydən ucalarda gördüklərini sübut etmək istəyirlər. İnsana təbiət-insan formulu kimi baxan ustad aşıqlar onu bütün gözəlliklərdən üstün tutmaqla Tanrının şah əsəri hesab edir, bu qənirsiz gözəllik qarşısında hər şeyin aciz və xəcil olduğunu sübut etməyə çalışırlar. Bayat Abbas gözəllik haqqında təsəvvürlərini bölüşərkən insanı mütləq, şəriksiz ucalıqda görür, dəyərləndirir:

Göstər qamətini, ey sərvi-rəvan,
Tuba görsün səni rənalanmasın.
Gir bağa, rüxsarın ərz eylə gülə,
Xəcil olsun bülbül şeydalanmasın.

Təbiəti, külli-aləmi bu gözəllik qarşısında səcdəyə çağıran aşıq, görüb dəyərləndirə bilməyənlərin hamısının əvəzindən gözlərinə tor gəlməsini orijinal bir tərzdə arzulayır:

Arif olub bu imlaya irməsə,
Sənin tək canana canı verməsə,
Hər tərəf baxanda səni görməsə,
Kor olsun gözlərim, ziyalanmasın.

Bitkin obrazlar, qafiyə sistemi, bədii təsvir vasitələrindən gen-bol, yerli-yerində istifadə gözəllik duyğusunun etik-estetik tələblər səviyyəsində təqdimi göstərir ki, Bayat Abbas Dərbənddə ona qədər mövcud olmuş yetkin ədəbi mühitdə sənət dərsi almış, ustadlardan dövrünün təlimini mənimsəmişdir. Xüsusən, dini-dünyəvi biliklərin sintezində yaranan bədii obrazlar, gözəllik rəmzləri aşığın dövrünün savadlı, ziyalı insanı olduğunu sübut edir:

Kimin vardır səntək gül üzlü yarı,
Mən tək şikəstədir aşıqı-zarı.
Sən İismayıl kuyunun mina bazarı,
Bayat Abbas onda qurbana gəlir (4,s.60).

Şirvan şahı I İbrahimin (XIV əsr) vaxtından Şirvan inzibati çevrəsində adı anılan Dərbənd ədəbi mühitinə, sənət sahələrinə təsir özünü göstərməkdədir. Xüsusən, aşıq sənətinin Dərbənddə inkişafı Molla Qasım (XIII əsr) ənənələrinin oxşar mövzular, motivlər şəklində davamı ilə də bağlıdır. Dərbənd-Şabran, Dərbənd-Quba əlaqələri təkcə iqtisadi-ticari xarakter daşımır, el sənətkarlarının, şair və aşıqların birgə yarışmaları, saz-söz sınaqları ilə müşahidə olunurdu. Bu da Dərbənddə təkcə azərbaycanlıların deyil, ümumiyyətlə, indiki Dağıstan ərazisində yaşayan müxtəlif xalqların aşıq sənətinə vurğunluğu ilə bağlıdır. Buna görə də dilinin saflığı, koloriti, zənginliyi baxımından XIX əsr aşıqları Ehraqlı Rəcəbin, Xınalıqlı Əminin, Ləzgi Əhmədin yaradıcılığını Xaltanlı Tağının söz-sənət dünyasından fərqləndirmək mümkün deyil. Göründüyü kimi erkən orta əsrlərdə Dərbənddə aşıq sənətinin inkişafı coğrafi baxımdan qeyri-adi strateji əhəmiyyəti olan ərazinin həm də yaxın-uzaq qonşular üçün tranzit keçid məntəqəsi olması ilə bağlıdır. İlk orta əsrlərdən Dərbəndin gur ticarət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mərkəzlərində çalıb-çağıran, söz, sənət hünərini göstərən aşıqlar arasında Təbrizdən, Şirvandan gələn neçə-neçə ustadın adı xatırlanır. Abbas Tufarqanlının, Xəstə Qasımın, Aşıq Valehin, Xaltanlı Tağının yetkin aşıq mühiti olan Dərbəndə səfərləri, yerli aşıqlarla deyişmələri, sənət sınaqları barədə hekayətlər real faktlara əsaslanır. Lakin bir şeyi nəzərə almaq lazımdır ki, Dərbənd həm də Dədə Qorqudun məzarı qorunan yer kimi müqəddəsliyi ilə aşıqların qaynar mərkəzinə çevrilmişdir. Dərbəndlə yanaşı Müşkürün (indiki Məhərrəmkənd rayonunun qədim adı) aşıq sənəti ocağı kimi adı hörmətlə çəkilir. Təxminən Bayat Abbasla eyni dövrdə yaşamış Müşkürlü İbrahimin yaradıcılığı zəmanəsinin fəlsəfi, estetik görüşlərini əks etdirmək baxımından son dərəcə qiymətlidir. Aşıq İbrahimin yaradıcılığında sevən kəsin iradi keyfiyyətləri, eşqi yolunda dönməzliyi öz bədii ifadəsini tapır. Sözün qeyri-adi imkanlarından sənətkarlıqla istifadə edən İbrahim bircə bəndlə orijinal tablo yarada bilir:

Pərişan tellərin əssin, bad olsun,
Rəfiqin küyindən varsın, yad olsun,
Götür bürgə üzdən, könül şad olsun,
Günəşdir camalın, niqab istəməz.

Öz sevgisi yolundan dönməyəcəyinə qəti inam ifadə edən İbrahim həm də dövrünün övladı olaraq yeri gəlsə padşahından "imdad istəyəcəyini" dilə gətirərkən bir daha bu məhəbbətin ondan ötrü necə qiymətli olduğunu ifadə edir:

Müşkürlü İbrahim dönməz rahindən,
Hərdən imdad istər padşahından,
Ümidim kəsilməz haqq dərgahından,
Keçər dərgahından, hesab istəməz (5,s.112).

Müşkür ozan-aşıq ocağının başqa bir nümayəndəsi Əkbərin (XVI əsr) yaradıcılığı da dövrünün ədəbi ənənələri ilə zəngin, incə poetik ruhu ilə yadda qalır. Uğursuz sevgisindən, cəhalətin yaratdığı anlaqsız dünyanın zərbələrindən şikayət motivlərinə geniş yer verən Müşkürlü Əkbər yeri gələndə qarşı tərəfə qarğışlar yağdırmaqdan, bədii nidalardan da istifadə edir:

Bəni yara bildirən yox,
Göz yaşımı sildirən yox,
Dərd bilən yox, dil bilən yox
Ağlaram, hey, qan ağlaram: - (99,s.16)

deyən aşıq "Heç kəsin ağası cahil olmasın" həqiqətinə yetişəndə hissin daha kəskin, qatı formalarına keçir:

Əkbərəm, olmuşam dəli-divanə,
Məskənim olubdur belə viranə.
Yanaram şəminə necə pərvanə,
Yanasan, yanasan, yandırdın məni (99,s.17).

Dərbənd aşıq sənətinin dastançılıq ənənələri süjet, motiv zənginliyi, poetik incəlikləri ilə diqqəti cəlb edir. Xüsusən, məhəbbət dastanlarımızın ən orijinal nümunələrindən "Məsum və Diləfruz", "Valeh-Zərnigar", "Seydi və Pəri", "Səfilli Məmməd", "Yetim Aydın", "Bikəs", "Adıgözəl", "Ordubadlı Kərim"… (6,s.27) "Koroğlu" dastanının Bilhədi variantı, "Qaçaq Mayıl", "Molla Nur" kimi dastanlar Dərbənd aşıqlarının repertuarında həmişə geniş yer tutmuşdur. Bu dastan yaradıcılarının və obrazlarının Dərbənddə yaşaması faktı (Diləfruz Pəri, Dərbəndli Məsim, Zərnigar və s.) istər qəhrəmanlıq, istərsə də məhəbbət süjetlərində epik ənənələrin daha orijinal təqdimatına əsas yaradır.

İstər Diləfruz Pərinin (XVII), istərsə də bir əsr sonra yaşamış Zərnigarın (XVIII) yaradıcılığında saf sevgiyə sədaqət, öz arzuları uğrunda mübarizə hissi qüvvətli təsir bağışlayır. Varlı ailəsində doğulmalarına baxmayaraq həyatın gözəlliyini mərdlikdə, saflıq və sadəlikdə, sözünə, əhdinə sədaqətdə görən bu qadın sənətkarlar, iradi keyfiyyətləri ilə bəzən amazonkaları xatırladırlar. Daha çox Zərnigarın sevgi axtarışlarında məğlub etdiyi aşıqlara qarşı bu qətilik, amansızlıq hissi ifadə olunur. Diləfruz Pəri öz saflığı, ləyaqəti, namus, qeyrət kimi ali dəyərləriylə fəxr edir, dövrünün etik keyfiyyətlərini öz şəxsi taleyində yaşatmağa çalışır:

Narınc sənin, turunc sənin, nar sənin,
Namus sənin, qeyrət sənin, ar sənin,
Diləfruz tək gözəl yarın var sənin
Dur ayağa, tut, başına dolandır (1,s.19).

"Məsum və Diləfruz" dastanının digər qəhrəmanı Məsum Dərbəndi (XVII) də dövrünün yaradıcı aşıqlarından olmuş, istedadı, ağıl-zəkası, şəxsi ləyaqəti ilə əsil-nəcabətli Diləfruz Pərinin sevgi ünvanına çevrilmişdir. Diləfruza həsr etdiyi qoşmasında dünyanın faniliyini, fəndgirliyini, neçə aşiqləri öz toruna salıb məhv etdiyini ustakarcasına başa salır:

Puç dünyada nə şad olub güləsən,
Necə Salman ötdüyünü biləsən.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu fələyin ustalığın görəsən
Hər kimilən oynayıbdı, udubdu (1,s.20).

XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində yaşamış Dərbəndli Zərnigar başqa bir dastanın aşıq qəhrəmanı kimi bizə gəlib çatsa da, yerli sənət bilicilərinin tədqiqatlarında bu mübariz, yurdsevər qadının həm də qüdrətli söz ustadı olması təsdiqlənir. Zərnigarın dastanda qorunan qoşmalara da qadın ruhundan, incəliyindən, saf sevgisi, məhəbbəti, idealı uğrunda ardıcıl mübarizələrindən xəbər verir. O, sevgisini də Dərbəndin alınmaz qalası kimi Vətənin ən mərd, basılmaz oğluna təslim edəcəyinə and içir və bu vədinə sədaqətli qalır. Abdal Gülablı Aşıq Valehlə Zərnigarın Dərbənddəki qeyri-adi görüşləri əsil sənət sınağına çevrilib dillərə düşür. Sonralar xalq bu böyük, möhtəşəm məhəbbətin adına "Valeh və Zərnigar" dastanını yaradır. Zərnigar da kübar cəmiyyətinin zəngin ailəsində dünyaya göz açmış, könlünün səsisni ətrafındakı varlı, dövlətli əyanların bütün təklif və xahişlərdən ucada tutmuşdur. Söz-sənət tarixində ən mübariz, kəskin və iradəli qadın aşıqlardan biri kimi qalmış Zərnigar xalq şerinin bütün janrlarında dəyərli nümunələr yaratmış, dövrünün elmi, təcrübəsi əsasında qıfılbəndlər söyləmişdir. Valehlə deyişərkən otuz doqquz aşıq bağladığını, bütün sınaqlardan qalib çıxdığını fəxrlə deyən Zərnigar həm də könlünü yalnız qalib sözə təslim edəcəyini bildirir:

Dilimdən çıxıbdı bir belə ilqar,
Kim məni bağlasa, ollam ona yar.
Aşıqlar başından tikdirrəm minar
Əgər qıyar olsan şirin cana, gəl.

Zərnigarın çağırışı ilə Dərbəndə yollanan Aşıq Valeh həqiqi bir sənət sınağında imtahana çəkilir və bacarığı, qabiliyyəti ilə Dərbənd gözəli Zərnigarın rəğbətini qazanır. Bu dastandan doğan qənaətdi. Deyişmələrin kəskinliyi də bu məntiqi bir daha təsdiq edir:

- Zərnigaram, bilmək olmaz sanını,
O kim idi yumadılar qanını?
O kimdi alacaq özü öz canının,
O kim idi öldü, dirildi canı?

- Valehəm, ulduzun bilinməz sanı,
Şəhidlərin heç vaxt yumazlar qanın.
Əzrayıl alacaq özü öz canın
O Cərcizdi, öldü, dirildi canı.

Göründüyü kimi, Dərbənd tarixən aşıq sənətinin ən qaynar ocaqlarından olub və sənət meydanında qalib adı qazanan aşıqlar sonradan ustad sənətkar kimi xalqın dilində, yaddaşında əzbərə çevrilib, məhəbbət dastanlarının qəhrəmanı kimi şərəfləndiriliblər.

Bu aşıq mühiti xüsusilə, XVIII-XIX əsrlərdə intibah dövrünü yaşamış, hətta Dərbənd ətrafında bir çox kəndin sənət mərkəzinə çevrilməsi faktı ilə müşahidə olunmuşdur. Əgər ilk çağlarda Dərbənd, Müşkür aşıqlarından söhbət açılırdısa, XVIII-XIX əsrlərdə Səfillər, Vəlikənd, Hümeydi belə aşıq sənəti mərkəzlərinə çevrilir, Bayat Abbasdan başlayan ənənələr yeni fazada davam etdirilir. Təkcə XVIII yüzillikdən Səfillər kəndindən iki ustad aşığın bu günümüzə gəlib çıxması Dərbənd ətrafında saz sənətinin miqyasını müəyyənləşdirmək imkanı verdi: Səfillər Xəlil və Səfillər Məhəmməd. Sonralar bir çox aşığın, el şairinin seçmə misra kimi işlətdiyi "Mən dönərəm, könül dönməz" kimi poetik həqiqətin ilk dəfə XVIII əsr aşığı Səfillər Xəlil tərəfindən dilə gətirilməsi Dərbənddəki aşıq mühitinin sanbalı haqda vurğunluqla danışmaq imkanı verir:

Yükümüz yükləndi nardan
Mənsurtək asıldım dardan,
Xəlil der: bivəfa yardan
Mən dönərəm, könül dönməz.

Səfillər Məhəmmədin də yaradıcılığında dövrün ictimai ziddiyyətləri, düşməni dosta çevirə bilən qüdrətli sözün, yarı əğyara döndərən ehtiyatsız əməlin varlığından söhbət açılır. Maraqlıdır ki, sonralar, xüsusən, Aşıq Ələsgər və onun davamçılarının yaradıcılığında xoş, uğurlu məqam kimi anılan "Çərşənbə günü" Səfillər Məhəmmədin qoşmasında sözün əsil assosiativ anlamında yer almışdır:

Çərşənbə günündə, nə pis saatda
Heç bilmədim nə söylədim yara mən…

XVIII əsrin sonu, XIX əsrin əvvəllərində Dərbənd aşıq mühitində regional yerdəyişmələr diqqəti cəlb edir. Müxtəlif vaxtlarda Səfillər, Vəlikənd, Hümeydi adlarının diqqəti çəkməsi bu kəndlərdə aşıq ocaqlarının fəallığı ilə əlaqələndirilir. Dərbəndin Şimalında kompakt halında yaşayan tərəkəmə kəndləri aşıq sənətinin ən münbit məskənləri kimi yada düşür. Bu gün də aşıq ənənələrinə, ifa və



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

havacatına böyük qayğısı ilə seçilən Cimikənd, Bərəkey, Padar, Səlik, Vəlikənd, Ulutərəkəmə, Dəliçoban, Tatlar, Qaradağlı Dərbənd aşıq mühitinə Camal Dəliçobanlı (XIX əsr), Xalid Qaradağlı (XIX əsr), Gilas Vəlikəndli (XIX əsr), Gilas Gilasov kimi qüdrətli el sənətkarları bəxş etmişdir.

Aşıq sənətinin Dərbənd ocaqlarından sayılan Müşkür, Yersi, Hümeydi isə daha çox Cənubdan gələn türk axınlarının, xüsusən, Səfəvi, Şirvan hökmdarlarının Dərbəndə maraqları çevrəsində formalaşan ədəbi-mədəni mühit istiqamətində diqqəti cəlb edir. Səfəvilərin Nadir şaha kimi Dərbəndə yürüşləri həm də mədəni axınlar, saz, söz axınları, "mədəni deportasiyalar"la diqqəti cəlb edir. Müşkürün, Bayatın, Ovşarın bu mədəni axınlar zəminində yaranması, sufi görüşlü aşıqların, xüsusən, Şah Xətai təriqəti daşıyıcılarının Dərbənd ətrafında yerləşdirilməsi əvvəl siyasi, sonrakı mərhələlərdə isə öz milli-mənəvi əhəmiyyəti ilə yadda qaldı. (Xəstə Qasımın da bu mədəni köçlər zamanı Dərbəndə gəlməsi barədə fərziyyələr var). Lakin Dərbəndin cənubundakı aşıq ocaqlarında daha çox Şirvan aşıq ənənələrinin inkişaf tapmasını o dövrdəki Sabranın (Sabirlərin yurdu) daha böyük geosiyasi və mədəni nüfuz sahibi olması ilə əlaqələndirirlər. Şirvanın ilk rəsmi paytaxtı olan Şabran şimaldan gələn iber-qafqaz tayfaları tərəfindən xarabazara çevrilənə kimi təkcə ətraf ərazilərə deyil, hətta Dərbəndə də öz hakimiyyətini diqtə edirdi. (7,s.48-50) Bu ənənə, yəni Şirvan aşıqlarının Dərbəndə get-gəli sonrakı əsrlərdə də mənəvi tələbat zəminində davam etdirilmiş, saz sənətinin Şirvan üslubu bu qədim sənət diyarında möhkəmlənməyə başlamışdır. XVIII əsrin sonlarında Şabran-Quba etnocoğrafi mühitində yaşayıb-yaradan ustad aşıqlardan biri Aşıq Tağıdır. (1790-1890) Həyatı ilə bağlı müxtəlif versiyalar var: bəziləri belə hesab edirlər ki, o Təbrizdə doğulub Arazı keçib Şimali Azərbaycana səfər eləmiş, Qonaqkəndin 40 kilometrliyindəki Xaltan kəndində məskən salmışdır (8,s.12).

Başqa bir versiyada Cənubi Azərbaycandan Quba, Şabran tərəflərə bu haqq aşığını sevgilisi Güllü xanımın butası çəkib gətirdiyi göstərilir.

Aşığın ölümü, dəfn olunduğu yerlə bağlı da bir sıra mübahisəli fikirlər gəzib dolaşır ki, bütün bunlara aydınlıq gətirmək məqsədi ilə onun ömrünün son illərini, dini-fəlsəfi görüşlərinin ünvanını xatırlatmaq yerinə düşər. Xaltanlı Tağı ömrünün son çağları müqəddəs yerlərə səyahəti, ziyarəti ideala çevrildiyindən, Kərbəla və Həcc ziyarətinə yola düşür. Aşığın Kərbəla ziyarəti zamanı təxminən 1890-cı ildə vəfat etdiyini, Kərbəlada M.Füzulinin qəbrinə yaxın yerdə dəfn olunduğunu, başdaşında saz, əlində çıarq tutmuş qadın təsviri əks edildiyini, 1976-1977-ci illərdə folklor ensiklopediyası zamanı A.Nəbiyevə bu faktların şahidi, Hacı Allahverdiyev Kərbəla,Həcc ziyarəti xatirələrindən danışarkən deyib (9, s.13-14). Əslində isə Aşıq Tağı tarixi Şirvan əraziləri hesab olunan Qubanın Xaltan kəndində doğulmuş, Tağı, Aşıq Tağı, Qubalı Tağı, Xaltanlı Tağı təxəllüsü ilə ən müxtəlif xalq şeri şəkillərində zəngin irs qoyub getmiş, dini-dünyəvi elmlərə vaqif olan, el ağsaqqalı, müdrik bir şəxsiyyət olmuşdur. Xaltanlı Tağıda təbib istedadı olmuş, öncədəngörmə, hadisələri qabaqlamaq, bədahətən şer söyləmək kimi fitri qabiliyyət ona ətraf şəhər və qəsəbələrdə də inam və ehtiram hissi qazandırmışdır. O, Şirvan aşıq şerinin Molla Qasımla başlayan ənənələrini yeni mərhələyə qaldırmış, ictimai-fəlsəfi məzmunla xalq düşüncəsinin poetik birliyini yaratmış, təbiət, cəmiyyət, insan psixologizminin ən aktual mövzularında əsərlər yaratmışdır. Xaltanlı Tağı lirikası (təbiət, məhəbbət, didaktik-fəlsəfi şerlər) öz mövzu genişliyi və janr əlvanlığı ilə seçilir. Təbiətə animist münasibətdən, məcazi məhəbbətin ilahi qüdrətinə, olum-ölüm gerçəkliyinin tarixi tipoloji həqiqətlərini gəraylı, qoşma, müxəmməslərində son dərəcə dəqiq müşahidələr əsasında yaradır.

O təbiət şerlərində yazın, payızın rənglərini tabloya köçürən rəssamdırsa, bu rənglərin təsvirində insan ruhunun, düşüncəsinin yaşantılarını təsvir edərkən filosofa çevrilir, tale yazan qədim ozanları xatırladır:

O hilal qaşların bəndivanıyam,
Dü çeşmim məstanı üzdü canımı.
Əqlimi başımdan tarimar edən
Baxdı yanı-yanı, üzdü canımı.

Mən sevmişəm gözəllərin ağını,
Onunçun çəkirəm iştiyaqını,
Necə bulud kəsər ay qabağını,
Yar oldu pünhanı, üzdü canımı.

Xaltanlı Tağı Azərbaycanın çar Rusiyası tərəfindən işğalına qarşı çıxmış, bu yolda mübarizəyə qalxmış Qafqaz bahadırlarının qəhrəmanlığına, fəal ədəbi reaksiya göstərmiş, hətta işğalçı rus ordusuna qarşı 25 il aramsız döyüşən Şeyx Şamil ordusunda çalışaraq ona mənəvi dəstək göstərmiş, Azərbaycandan bu müqavimət ordusuna yardımın təşkilatçılarından biri olmuşdur. «Əfəndi» rədifli fəxriyyələrində ədalətli Şamilə həm də bir ozan məsləhətləri verən Xaltanlı Tağı sonralar «Güllü və Tağı» dastanında Şeyx Şamillə görüşünü xatırlamışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sahibi sərvətsən, əhli səxavət,
Qurbanı olduğum Şamil əfəndi.
Taxt-tacı vilayət, əsli nəcabət,
Nəcabətli sultan, Şamil əfəndi.

Xaltanlı Tağı Şamil ordugahına gələndə bir vaxt onun ədaləti haqqında eşitdiklərini öz gözləri ilə görür və bu basılmaz azadlıq aşiqinə sevgisini gizlətmir:

Dilim zikrdədir töhfi-taətdə,
Həmi mərifətdə, həm səxavətdə.
Səri şəriətdə, ürf-adətdə
Olmaz sənin kimi kamil əfəndim.

Xaltanlı Tağı uzun ömür yaşamış, dünyanın bərkindən-boşundan çıxmış, Tanrı tərəfindən insanın olumla ölüm arasında sınaqlara çəkildiyi qənaətinə gəlmiş, bu sınaqlarda insana nələrin gərək olduğunu poetiik lövhələrdə əks etdirməyə çalışmışdır. Aşıq sənətində bu tarixi-fəlsəfi suallara cavab olan ilk «vücudnamə»lərdən birini yaradan Xaltanlı Tağı «Ab-ataş, xak-bad»dan yaranan insanın bir vaxt torpağa qarışacağını, əməllərinə görə o dünyada qiymətləndiriləcəyini, günah və savabların sayılacağını bir ozan müdrikliyi ilə xəbər verir.

Ömrün yaş sırasını pilləvari inkişafda verən aşıq insanı ölümə yaxınlaşdıran qocalığı «uca dağ başında kola» bənzədərkən, ölümün qaçılmaz olduğunu da kədər hissi ilə yada salır:

Етыцасеас аепаелр эты тпеш езхекр
İnciyib dünyanın vəfasın gördüm.
Yüz tamam olacaq canımı verdim
Əzrayıl cəngində qaynağa gəldim.

Xaltanlı Tağı Şirvan aşıq məktəbinin dastançılıq ənənələrinin yeni mərhələdə inkişafında, xüsusən qəhrəmanlıq motivlərinin klassik üsluba uyğun variantlarının, XIX əsr xalq mübarizə hərəkatının epik səciyyəsini monumental düşüncə, xalq iradəsi fonunda əks etdirmək sahəsində xidmət göstərmiş «Molla Nur» qəhrəmanlıq dastanını yaratmışdır.

Sonralar Xaltanlı Tağının əfsanəyə çevrilmiş həyatı, yaradıcılığı özündən sonrakı aşıqlar tərəfindən «Güllü və Tağı» dastanında orijinal yurd və lirik lövhələrdə öz əksini tapmışdır. Şirvanın Şabran-Quba nayihəsində yaşamış-yaratmış bu ustad aşığın səsi-sorağı sağlığında ikən Dərbənd-Təbriz arasında eşidilmiş, yaradıcılığı sonrakı nəsil aşıqlarından ötrü örnəyə çevrilmişdir. Adı müxtəlif mənbələrdə Ehraqlı Rəcəb, Dağıstanlı Rəcəb, Kor Aşıq və s. kimi xatırlanan XIX əsr aşığı, Aşıq Rəcəb yaradıcılığı kifayət qədər öyrənilməmiş ustadlardandır (1825-1935). Aşıq Rəcəb yaradıcılığına da dövrünün bədii salnaməsi kimi baxmaq, konkret nümunələri bu ab-havanın bədii irsi kimi dəyərləndirmək ehtiyacı yaranır. Dünyaya gəldiyi coğrafi məkan (indiki Dağıstanın Samur qəzası – Rutul rayonu), XIX əsrin ziddiyyətli ictimai-siyasi, mədəni mühiti Qafqaz xalqlarının milli oyanış, özünüdərk, müstəqillik uğrunda mübarizələri sosial münasibətlərin doğurduğu real şərait Aşıq Rəcəbin sənətkar tərcümeyi-halını yazmış olurdu. Həyatının ən dəqiq konturlarını şerlərində çəkən aşıq uşaqlıqda mollaxanaya getdiyini, çiçək xəstəliyinə tutulduğunu, gözlərinin tor gətirdiyini, ictimai bərabərsizlik üzündən sevgilisi Hürüyə qovuşa bilmədiyini, nəhayətdə, hər şeyə asi olduğunu nişan verir. Xaltanlı Tağı poetik ənənələrinin aydın izlərini müşahidə etdiyimiz qoşmalarında sevgilisi Hürüyə olan saf məhəbbəti ilə «Dərbənd, Quba, Samur diyarında «Haqq aşığı», «Kor aşıq» kimi tanınan Rəcəbi Dərbənd aşıq məktəbinin kamil saz-söz ustadı kimi məşhurlaşdırır (10,s.346).

Bir xalın bənd edib aşığı bağlar,
Bir xalın sinəmə düyünlər, dağlar.
Bir xalın güldürər, biri ağladar,
Yetirər Rəcəbi kama bir xalın (11,s.89).

Aşıq Rəcəbin lirikasında təbiət gözəllikləri ilə yanaşı lirik duyğuların tərənnümü mühüm yer tutur. Molla Qasım və Xaltanlı Tağı ənənələrinin öz dövründə layiqli davamçısı olan Aşıq Rəcəbin fəlsəfi-didaktik şerləri məzmun dolğunluğu və poetik dəyəri ilə seçilir. Aşıq Rəcəb təbiət gözəllikləri ilə insan duyğuları arasında təzad yaradır, ziddiyyətlərin çarpazlanması arxasında özünün dərdli könlünün çırpıntılarını şerə çevirir.

Baxmamışam yarasına,
Əzəl dərdin çarasına.
Qızıl gülün arasına
Qanadını çalan bülbül (12,s.36).

Yaradıcılığının ilk çağlarında məhəbbət lirikasına üstünlük verən aşıq bir çox qoşma, gəraylı, təcnis qələmə almış, hətta avtobioqrafik «Aşıq Rəcəb və Hürü» adlı dastan yaratmışdır.(106,s.35) Sevgilisi Hürünün dilindən yazılmış qoşmaların da toplandığı irsi öyrənərkən dövrün sosial ziddiyyətləri, ictimai



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bəlaları, saf, azad sevgiyə buxov olan yasaqların Aşıq Rəcəb taleyində buraxdığı ağrılı izləri konkret misralardan oxuyub öyrənmək mümkün olur:

Kimisi içibdir eşqin camını,
Kiminə veribdir gül əndamını,
Kimisi Rəcəbdir, çəkər qəmini,
Kimisinə söhbət, saz olan dünya (11,s.90).

Cəmiyyətdəki ayrı-seçkiliyin yaratdığı ağrıların daha bir bədii lövhəsi:

Xeyir-şərdə kasıbı yana çəkərlər,
Qaydasıdır toya gedən bəzənər,
Əyri telə sığal verər, düzənər.
Axır gözəlliyin bir ad qazanar,
Gözlərindən qəmzələrin at, yeri.

Aşıq Fətəlinin sorağı (XVIII əsrin sonu, XIX əsrin əvvəlləri) Vəlikənddən gəlir. Dərbəndin 20 kilometrliyində (Şimalda) yerləşən Vəlikənddən tapılan qazıntılar arxeoloqlara maraqlı nəticələrə gəlmək imkanı verir. Bir çox mənbələrdə bu ərazidə 5000 il əvvəl insanların yaşayıb mədəniyyət qurduqları göstərilir. Aşıq Fətəli də belə qədim bir insan məskənində doğulub yaşadığından qürur hissi keçirdiyini öz əsərlərində dönə-dönə göstərmiş, dövrün yaşam tərzini, ictmai-siyasi ziddiyyətləri qələmə almışdır:

Əhmədxan alıbdır Qureyş dağını,
Döyüş ilə qurub hərb bayrağını
Həzrət Əli kimi saldı qırğını
Sinə tab eyləməz Xeybər, Əhməd xan (15,s.65).

Bu fəxriyyəsində yerli xanlardan Əhmədxan Mehtulinskinin Nadir şaha qarşı üsyanda iştirakından bəhs olunsa da, bizdən ötrü həmin hadisələri görüb mülahizə etmiş aşıq Fətəlinin məhz XVIII əsrin sonlarında yaşaması faktı kimi dəyərlidir.

Deyilənə görə Fətəli güclü yaddaşa, təkrarsız poetik təbə, xoş avaz və çılğın təbiətə malik insan olmuşdur. Bədii irsin şifahi şəkildə yayıldığı dövrdə aşıqdan həm də güclü yaddaş tələb olunurdu. Vəlikəndli Fətəli 100-dən artıq şeri, bir neçə dastanı, onlarla nağılı, rəvayəti məclislərdə birnəfəsə danışmağıyla ad-san qazanmışdı. Fətəli kasıb ailədə doğulsa da mollaxana təhsili ala bilmiş, ərəb, fars dillərini öyrənmişdi. Onun yaradıcılığı ilə eyni dövrdə yaşamış qüdrətli Azərbaycan şairi M.P.Vaqifin şerləri arasında paralellər aparmaq, oxşar motivlər, obrazlar tapmaq mümkündür. Bu, bir tərəfdən Vaqif yaradıcılığının Yaxın Şərqdə tanınması faktıdırsa, Fətəli yaradıcılığının da Dağıstan hüdudlarını çoxdan aşıb Qafqazın regionlarına yayıldığına sübutdur. Sevgilisinin xallarını gözəllik nişanəsi kimi mədh edən Aşıq Fətəli:

Bir xalı yaxşıdır, bir xalı yaman,
Bir xalı könlümə salıbdı talan.
Bir xalı yeridir dağlara duman,
Bir xalı söhbətdir, saz ilə gəlir, (15,s.66) -

deyərkən M.P.Vaqifin estetik görüşləri ilə ahəng təşkil edir:

Biri laçın gözlü, tərlan qəmzəli,
Biri qırğı başlı, sona cilvəli.
Biri şəkkər sözlü, şirin kəlməli,
Biri qənd ağızlı, qaymaq dodaqlı (16,s.67).

Keşməkeşli taleyi ilə yadda qalan, mübarizələrlə dolu ağrılı ömrünü xalqın xoş güzəranına, ədalətin qələbəsinə həsr eləmiş el sənətkarlarından biri də Qaradağlı Xaliddir. Qarabağ da tərəkəmə ellərindən biridir, sazın-sözün qüdrətiylə hökm, səlahiyyət əhlinin könlünə təsir etməyin mümkünlüyünə inam bəsləyən sadə adamlar Xalid Qaradağlıya təkcə poetik duyğular, düşüncələr tərcümanı kimi deyil, həm də insan hüquqlarının müdafiəçisi kimi baxırdılar. O, 1822-ci ildə Dərbənd yaxınlığındakı Qaradağlı kəndində Molla Əmirin ailəsində doğulub dini təhsil alsa da, dünyəvi maraqlar, biliklər meylinə düşmüş, xalqın haqq sözünü söyləməyi yaradıcılığının əsası hesab etmişdir. Taleyi elə gətirir ki, Xalid varlı Əmirin qızına vurulur. Zəmanəsi üçün baş tutmaz arzu onun taleyində çox acı izlər qoyur. Təzyiqlər altında Dağıstandan Türkiyəyə səfər etmək istərkən 1875-ci ildə Vəlikəndlə Padar arasında Əmir Çobanın qoçuları tərəfindən qətlə yetirilir.

Xalid Qaradağlı böyük xalq inamı, xalq dəstəyi qazanmış, el içində böyük nüfuza malik şəxsiyyət idi. Düşmənləri onun şərləyib Sibirə yollamaq niyyətinə düşsələr də, yerli divanxanalarda Xalidə olan xalq rəğbətini hiss edib bu fikirdən vaz keçmişlər. Dövrün klassik aşıq müraciəti "Ay ağalar" xitabı ilə zəmanədən şikayətini bildirən Xalid, həm də xəyal çaşqınlığı ilə, ümidsizliklə üz-üzə durduğunu bəyan edir:

Ay ağalar, çərxi-fələk dolandı,
Bu dünyamız əcəb hala düşübdür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zəbur tək etibar çəkilmiş ərşə,
Azğın könlüm yüz xəyala düşübdür (1,s.36).

Elə həmin klassik müraciət formalı başqa bir qoşmasında Xalidin daxili dünyasının işıqlı hücrələrindən süzülüb gələn poetik duyğuların şahidi oluruq. Vəlikənd yolunda onun ağlını başından alan gözəlin təsvirində orijinal bənzətmələrin, şah qafiyələr sisteminin yaratdığı assiasiativ incəliklər Xalidin həm də həyata, insanlığa sonsuz sevgilərlə yaşayan bir sənətkar olduğunu göstərir:

Bağçası, bostanı, barı yetişmiş,
Namusu, qeyrəti, arı yetişmiş.
Sinəsində bir cüt narı yetişmiş,
Açılıb laləzar güllərin gördüm.

Süzübən gözlərin bir mənə baxdı,
Qızıldan, gümüşdən vardı iraxtı… (1,s.35).

Xalid Qaradağlı bədii lövhə yaratmağın ustası idi. Zəmanədən şikayətlərin-də rənglərin tündlüyü, bozluğu gərginliyin ifadə faktı kimi diqqəti cəlb edirsə, məhəbbətdən bəhs edən qoşmalarında sakit, isti sözlərin harmoniyası könlü xoş duyğularla riqqətləndirir.

Bütün şərq söz adamları kimi Xalid Qaradağlı da fəlsəfi-didaktik mövzuda qoşmalar yazmış, zamanın ziddiyyətlərində məhz insanın dəyişkən xarakteri, sarsıntıları ilə dual təbiətini təsvir etməyə çalışmışdır.

Aşıq Xalid, özündən sonra böyük məktəb qoyub gedən sənətkarlardandır. Onun bədii irsi sonrakı nəsillər tərəfindən daim repertuarda saxlanılmış, ədəbi üslubu davam etdirilmişdir.

Mənim bu günümə şad olma, düşmən,
Bir gün olur qurtarmağım var mənim.
Baldır yoğunluqda dəmir barmağı
Döş vuruban qopartmağım var mənim (1,s.38).

Dağ təbiətli, dağ hünərli el sənətkarı bu mübarizədə qollarında epos qəhrəmanlarının gücünü hiss etdiyindəndir ki, onun qalib ruhu hər misrasında döyüş, cəng meydanında sınanan silahlar təsiri bağışlayır:

Nagahan bilsəydim burda qalanı,
Tanıyardım bizi dərdə salanı.
Dağıdıban bürcü, yıxıb qalanı
Qırx min dəli aparmağım var mənim.

Dərbəndətrafı kəndlərdən olan Hümeydi də ustad aşıqlar yetişdirməsi ilə öyünə bilər. XIX əsrin tanınmış aşığı Əhməd Hümeydili istər ictimai mövzularda, istərsə də fərdi lirik duyğuların ifasında özünəməxsus dəsti-xəttini təsdiq edə bilmişdir. Böyük mənada insan, onun arzu və düşüncələri, yaxşıya, pisə münasibəti aşıq Əhməd yaradıcılığının mövzu qaynağına çevrilir:

Bir adam ki sənlə dostluq eyləyə,
Bil ki onun səxavəti yaxşıdır.
Namərd sənə yağlı plov yedirtsə
Mərdin quru məhəbbəti yaxşıdır.

Yaxşılıq əxlaqi, mənəvi dəyər kimi Əhməd Hümeydilidən əvvəl, sonra gələn sənətkarları da həmişə düşündürmüş, bu söz-anlamın dəyişən zamanlarda əbədi məqamını göstərmək istəmişlər. Daha sonrakı bəndlərdə yaxşılığını fərdi dəyərdən milli, etnik keyfiyyətə çevirməyini müşahidə edirik:

Aşıq Əhməd sözü söyləyər sağdan,
Şam yanar, piltəsi çəkilər yağdan,
Görəksiz otaqdan, meyvəsiz bağdan
Bizim çəmənlərin otu yaxşıdır (1,s.41).

Aşıq Əhmədin yarızarafat dediyi ifadələr bu gün ibrətamiz məsəl kimi səslənir:

"Xatun var, arpa döyüb aş eylər,
Xatun da var, kişini külbaş eylər" (17,s.215).

XIX əsrin sonlarında XX əsrin əvvəllərində aşıq mühiti Dərbənddən Bilqədiyə keçmiş oldu. El arasında Bilqədiyə tənbəllər kəndi deyirlər.Bəlkə də bu ayama kənd camaatının təbiətindəki şadlığa, deyib-gülməyə, şən həyat tərzinə meylin güclü olması ilə bağlıdır. Bilqədi daha çox sənətkarlar, xüsusən aşıqlar kəndi kimi tanınmışdır. Əsasən Azərbaycanın Şimal bölgələrindən - Şirvan ərazilərindən bura gələn aşıqlar, sonradan məskunlaşıb öz sənət ənənələrini yaratdılar ki, yerli camaat da Aşıq Tahirbəy kimi istedadlı saz, söz ustalarını məclislərinin bəzəyi kimi qoruyub saxladı. Bilqədi aşıqları bədahətən söz deməkdə, qıfılbəndlər söyləməkdə mahir idilər. Aşıq Tahirbəyi 80-90 yaşlarında məclislərdə görən insanlar bu şux, sağlam qocanın fövqəladə yaddaşına, məclis manerasına heyran kəsildiklərini söyləyirlər. Xalq sevib ucaltdığı Aşıq Tahirbəy haqqında hələ sağlığında ikən əhvalatlar, rəvayətlər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söyləyirdi. Söz qabiliyyəti yüksək olan Bilqədi aşıqları deyişmə zamanı bir qayda olaraq qalib gəlir, ustalıq nümayiş etdirirdilər. Aşıq Tahirbəyin yadda qalan bayatı formalı bir qıfılbəndinə diqqət yetirmək kifayət edər ki, sözün min bir çalarından necə məharətlə istifadə olunduğu aşkara çıxsın:

Əzizim yana gördüm,
Qəlyanı yana gördüm.
Səksən oğul, qırx ata
Yüz əlli ana gördüm.

Burada gizli mətləb rəqəmlərin 40, qırxmaq, 150, əli üzmək kimi mənalarda işlətməklə qarşısındakını təəccübləndirməkdir.

Aşıq Tahirbəyin xoş, kövrək avazı insanları riqqətə gətirər, epos zamanının real aurasını yaradar, hər kəs özünü hadisələrin mərkəzində, obrazların ovqatında hiss edərək bəzən göz yaşları axıdar, sevinər, şadlanardılar. Sənətkar məharətinin belə affektiv əlamətləri barədə Bilqədidə onlarla şahidin təəssüratını dinləmək olar. Bilqədi saz-söz məclisləri ətraf kəndlərdən gələn özünə güvənən aşıqların iştirakı ilə daha da şux, qaynar keçərdi. Hacıqədir Eyyubovun xatirələrindən aydın olur ki, Bilqədi sənət sınaqlarında Ehraqlı Rəcəb, Yelsulu Emin, Ləzgi Əhməd, Hacı Səid Tabasaranlı, Təlitli Oruc, Novruz Sarıxanov, Fətəli Vəlikəndli, Xalid Qaradağlı da dəfələrlə iştirak etmişdir.

Aşıq Tahirbəyin sənət hünərini görən cavanlar ona şagird olmaq, aşıqlığın sirlərini öyrənmək istəyirlər. Qara Qərib, Aslan Zidyanlı, Dadaş Hümeydili, Həsən Pəncəkli aşıqlıq dərsini məhz Tahirbəydən almışlar. Öz parlaq istedadı, aşıq məharəti ilə Bilqədi sənət ocağını yaxın-uzaq ellərdə tanıdan Aslan Zidyanlının (1860-1914) adı da çox hallanır. Sarışın saçlı, boy-buxunlu bu aşığın çox incə, kövrək səsi məclisinə toplaşanları həmişə riqqətə gətirir, aşığın incə yumorlu söyləmələrindən hər kəs özünə nəticələr çıxarardı. Aşıq Aslan sənətə peşəkar münasibətin tərəfdarı olduğuna görə istedadı, qabiliyyəti, fitri xüsusiyyətləri yüksək dəyərləndirir, "anadan sənətkar doğulmalıdır" formuluna üstünlük verirdi. Lirik, kövrək duyğuların emosional təqdimatı ilə yanaşı, didaktik səciyyəli qoşquları ilə insanlarda elmə, maarifə, təhsilə maraq hissi oyadırdı. Tənbəlliyə, ətalətə, hiylə və məkrə ünvanlanan satirik qoşqularında Aslan Zidyanlı sərt boyalardan yan ötüşür, təsirli xalq yumoruna üstünlük verməklə cəmiyyətdəki çatışmazlıqları tənqid etməyə çalışırdı. Daha kamil ədəbi mətnlər olan ustadnamələrində isə Aşıq Aslanın fəlsəfi görüşləri, həyat, insan xarakterləri haqqında düşüncələri toplamışdır:

Sazı alıb oba-oba gəzənin
Qəlbi məclislərdən şad olsun gərək.
Kamil ustadlardan alsın dərsini
Söhbətində şirin dad olsun gərək.

Həm şer texnikası, söz, fikir düzümü baxımından Dədə Ələsgəri imitasiya təsiri bağışlasa da, bu qoşma aşığın sənət idealı kimi maraq doğurur:

Ürəyim açılar toyda-nişanda,
Hər incə gözələ mahnı qoşanda
Aslan eşqə gəlib sazla coşanda
Sinəsində sönməz od olsun gərək.

Böyük Oktyabr inqilabından sonra Dərbənd aşıq mühiti həm mövzu, həm də ifaçılıq baxımından yeni keyfiyyətlər qazanmış oldu. Yaradıcılığı daha çox siyasiləşən el sənətkarları şən həyatın üzə gülməsindən, yeni həyatın insanları xoşbəxtliyə qovuşdurmasından daha çox yazırdılar, lakin yeni cəmiyyət eyforiyası tezliklə çəkilib gedir və Aşıq Tahirbəy məktəbinin yetişdirmələri Qara Qərib (1914-1943), Əfəndi (1926-1983), Gilas Gilasov (1909-1983) və nəhayət, Məhrəğalı Niftulla Bilqədidə aşıq ocağını sönməyə qoyurlar. Son dərəcə məlahətli səsə, xoş avaza malik olan Qara Qəribin mənşəyi haqqında maraqlı fikirlər söylənilir. Deyilənə görə atalığı onu Məkkəyə ziyarət zamanı bir ərəb qadından alıb gətirib. Qara Qərib aşıqlıq sənətini Tahirbəydən öyrənib. Qara Qəribin irsi bizə gəlib çatmasa da, dastan ifaçılığı barədə şahidlər böyük səxavətlə danışırlar. Hətta onun bir məclisdə 12 aşığı bağlaması haqda söhbətlər də bu günə kimi Dərbənd camaatı arasında gəzib dolaşmaqdadır. (Şagirdi İlyas Aslanovun xatirələrindən). Yersili Əfəndi də yaddaşlarda güclü səs imkanları olan aşıq kimi qalmışdır. Bu gün orta yaşlı dərbəndlilərin yaxşı xatırladığı Aşıq Əfəndinin səsi audiolentlərdə də qorunub saxlanılır. Dərbənd mühitində fəallaq göstərən qubalı Aşıq Lətifin də adı son dövr sənətkarları arasında çox hallanır. Öz sənət hünərinə güvənən Lətif bir gün Aşıq Şabanla deyişməyə - Dərbəndə gəlir. Lakin Şabanın qonağı gəldiyindən Lətiflə söz sınağına şagirdi Niftullanı göndərir. Şabanın bu hərəkətindən inciyən Lətif nəhayət, Niftulla ilə deyişir. Təcrübəli Aşıq Lətiflə döş-döşə sınağa tablaşan gənc Niftullanın şöhrəti birəbeş artır. Dərbənd aşıq mühitinin son istedadlı nümayəndələrindən olan Niftullanın iştirak etdiyi bir deyişmədən nümunəni diqqətinizə yetiririk:

Əfəndi Yersili : Ayna qabaq, alma yanaq, diş incə,
Uca boyun, siyah zülfün, bel incə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şirin-şirin danışıban gülüncə
Dərdim artır, olur doxsan, yüz pərim.

Niftulla : Niftullayam, dəryalara at məni,
Fərraş bazarında apar, sat məni.
İstərdim gəl şirin cana qat məni,
Ayırma sinəsi qardan, sevgilim.

(Aşıq Niftullanın əlyazmaları şəxsi arxivimizdədir. A.M.)

Dərbənd səfərləri zamanı dəfələrlə görüşüb AzTV-nin "Ozan" proqramı üçün müsahibə aldığım Məhriğalı Niftulla ömrünün son illərini Rubas kəndində yaşayırdı. Sinəsi Dərbənd tarixi yaddaşından qopan söz, havacat, dastan, dastançalarla zəngin olan aşıq ağır astma xəstəliyindən əziyyət çəkirdi. Lakin beştelli üstü sədəf işləməli sazını hələ də əldən yerə qoymamışdı. Bu bəstə boylu, dolu bədənli, sinəsi körük kimi enib-qalxan aşıq sözün, sazın sevdasından doymadığını, xəstəliklə bacara bilmədiyini, sinəsində zəngin bir xəzinəni aparıb getdiyini bizə söyləyirdi. Dərbənd aşıq mühitinin tarixi inkişafı, havacat özəllikləri, ustad sənətkarların ifaçılıq fərqləri, tək saz ifaçılığından aşıq ansamblına keçidin dinamikasını birər-birər danışıb şahidi olduğu ustad məclislərindən soraq verirdi. Amma özü tək sazla çalıb oxuduğunu söylədi. Gödək, qalın, plastikliyini itirmiş barmaqlar pərdələrdə gəzişdikcə sırf Dərbənd havalı səslərin qopduğunu müşahidə etdim. Ləhcəsində, leksikonunda yerli dialektin qatı izlərini yaşadan Aşıq Niftulla sağalmaq, yaxşı günlərdə görüşmək ümidi ilə bizə vədə versə də, növbəti səfərlərimizdə onu daha həyatda görmədik. Qoşma, gəraylı, təcnislərini çox səliqə ilə yazıb yadigar qoyduğu kağızların boşluqlarını mövzuya uyğun rəsmlərlə bəzəyən Aşıq Niftulla Dərbəndin son qüdrətli sənətkarlarından biri kimi itgilərimizin ən böyüyünə çevrildi.

Dərbəndin aşıq mühiti bu gün də gənclər hesabına yaşayır. Necə onillərin dil, təhsil məhdudiyyətləri, söz yox, öz təsirini göstərilməkdədir. Bu mühiti ən çox dağıdan, yaddaşlardan silməyə çalışansa ədəbi-mədəni əlaqələrin kəsilməsi, süni qadağalarla araya sərt uçurumların salınmasıdır. Qəlbimizdə, yaddaşımızda, ruhumuzda bütöv olan vətənin sərhədləri kimi saz sənətinin də nüfuzu millətin coğrafiyası qədər hüdudsuzdur. Bu nüfuzu qorumaq üçün Azərbaycan aşıq sənəti ərazi-məkan çevrəsində deyil, ruhumuzun çevrəsində öyrənilməlidir. Şabran mühiti də XX yüzilliyin ikinci yarısında Şirvan aşıq şeri ənənələrinin yaradılması istiqamətində Aşıq Orucun, Aşıq Ocaqqulunun, Aşıq Haşımın fəaliyyətini, xüsusən «Qoroğlu» kimi əski yaddaş eposunu qoruyub saxlaması, Xaltanlı Tağı poetik irsini yayıb-yaşatması ilə fəxr edə bilər. Daha sonrakı nəslin nümayəndəsi Aşıq Haşım Qubalı həm də ən müxtəlif xalq şeri janrlarında yaratdığı nümunələrin orijinallığı ilə bu günkü Şirvan sənətkarlığında qiymətləndirilir:

Yazıq canım, nə nəsihət verirsən,
Söz nə vaxt kar etmiş nadana axı?!
Qoçdan quzu törər, təkədən oğlaq
Hərə öz əslini nə dana, axı?! (18, s.78).

Şirvan aşıq məktəbi də kökə, şəcərəyə, ənənəyə bağlı, daim inkişaf və yeniləşməkdə Azərbaycan aşıq sənətinin çevrəsinin bütövləşməsinə xidmət edir.

## ƏDƏBİYYAT

1. Dağıstan töhfələri. Tərtib edən M.Yarəhmədov. Bakı, 1987.
2. Azərbaycan tarixi. Bakı, 1994.
3. Kudryavtsev.A. Derbentu – 5000 let. Moskva, 1989.
4. APU-nun elmi xəbərləri. N 4. Bakı, 2004.
5. BDU-nun elmi xəbərləri. N 4. Bakı, 2005.
6. M.Qasımlı. Bizim ellər yerindəmi. Bakı, 1993.
7. Ü.Hacıbəyov. Seçilmiş əsərləri. Bakı, 1960.
8. BDU-nun elmi xəbərləri. N 1, Bakı, 1960.
9. A.Mirzə. Xaltanlı Tağı. Bakı, 1999.
10. Q.Namazov. Aşıqlar, Bakı, 2004.
11. Qobustan jur. N 4, Bakı, 2004.
12. Azərbaycan aşıqları və el şairləri. II c., Bakı, 1984.
13. A.Mirzə. Şirvana binə gəlləm. Bakı, 2004.
14. S.Mümtaz. El şairləri. (təkrar nəşr) Tərtib edəni, ön sözün müəllifi A.Mirzə. Bakı, 2005.
15. Xardamiyev S. (namizədlik diss.) Mahaçqala, 2002.
16. M.P.Vaqif. Qurban olduğum. Bakı, 1994.
17. Quseynov Q.Q. Kratkaya ensiklopediya qoroda Derbenta. Maxaçkala. 2005.
18. Aşıq Haşım Qubalı. Bağışla məni. Bakı, 2002.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# OĞUZ EPİK ƏNƏNƏSİNDƏ FOLKLOR MİSSİYA DAŞIYICILIĞI

***Atif İslamzadə***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Oğuz epik ənənəsinin əsasını təşkil edən bədii epik, mənqəbəsi əsərlərdə vahid bir sistem özünü göstərir. Bu sistemin ana xəttini təşkil edən üç əsas obraz –Oğuz-Qorqud-Qazan üçlüyü ətrafında Oğuz və qeyri Oğuz obrazları cəmlənir. Oğuz dünyagörüşü , inanc sistemi , əxlaq və idarəçilik qaydaları bu əsərlərdə geniş şəkildə əks olunur. Təbiidir ki , hər bir toplumun mövcud olaraq qalmasının əsasını onun necə inanclar sisteminə malik olması həll edir. Məhz Oğuz epik ənənəsinə aid olan əsərlərdə bir bu inanc mədəniyyətinin daşıyıcısı olaraq folklor missiya ilə vəzifələndirilən Oğuz Xanı , onun risdə və qəravafını , ondan sonrakı dönəmdə işə Qorqud atanı və Qazan xanı görürük. Oğuz xanın ruhani-dini missiyasının dav amçısı kimi Qorqud ata görünürsə , qəraratçı və siyasi idarəçilik rəhbəri kimi Qazan xan görünür.

Bir bu yarımızda, Adəmdən Xafəmə qədər peyğəmbərlər silsiləsini araşdırmaqla Oğuz mədəniyyətinin də əsasında duran «Tək Tanrı»çılıq məntiqindən çıxış edərək tarixi , mənbələri , epik əsərlərdə ya işarə səviyyəsində , yaxud da aşkar göstəqələrlə Oğuz xanının və Qorqud atanın bu mübarək silsilənin tərkib hissəsi olmasını yekun qənaətlərdə ortaya qoymağa çalışmışıq. Eyni zamanda epik qanunların mövcudluğunu nəzərə almışıq ki, fikirlərimiz yanlış istiqamətə getməsin. Beləliklə işlədiyimiz bu yarıda aşağıdakı tezisləri irəli sürmüşük :

a) Oğuz epik ənənəsi vahid bir sistemin təzahürüdür;
b) Oğuz mədəniyyətini təşkil edən inanclar sistemi və idarəçilik qaydaları Vahid Allah konsepsiyasına əsaslanır.
c) Oğuz Xan peyğəmbərlər silsiləsinin tərkib hissəsinə aid olan peyğəmbərdir.
ç) Qorqud ata peyğəmbərlər düzümünün davamı olaraq müjdəçi peyğəmbərdir.

Bu iddiaları irəli sürərkən epik və tarixi məntiqə əsaslanmış, fakt və arqumentlər əsasında araşdırma aparmağa çalışmışıq.

.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# DƏRƏLƏYƏZ DASTAN YARADICILIĞI

***Alı Alıyev***
***AMEA Folklor Institutu***
***Azerbaycan***

Epik folklorun ən iri mətn tipi kimi dastanlar öz janr özəllikləri baxımından universal məzmuna malikdirlər. Bu universalizm ilk növbədə özünü həm semantik, həm də poetik strukturu baxımından digər janrların dastan mətni daxilində «ərimәsini», onun ayrı-ayrı üzvləri kimi çıxış etməsini ifadə edir. Epos, dastan elə bir məfhumdur ki, o özündə etnik-milli düşüncə ilə bağlı hər şeyi ehtiva edir. Məlum olduğu kimi epos təfəkkürü qədim türklərin əsas düşüncə mexanizmini təşkil etmişdir. Qədim türklər bütün etnik potensiyasını eposlarda əyaniləşdirmişdilər. Daha sonrakı dövrlərdə erkən orta əsrlərdə «Kitabi-Dədə Qorqud» dastanı həmin potensiyaya dayanaraq meydana gəlmişdir. Orta əsrlərin son iki yüz ilində pərvəriş tapan əsl Azərbaycan-oğuz mədəniyyəti fenomeni kimi özünü göstərən məhəbbət dastanları və «Koroğlu» eposu da tamamilə yeni keyfiyyət halında meydana çıxmasına baxmayaraq genetik kökləri etibarilə milli dastançılıq ənənələri əsasında yaranmışdır.

Azərbaycan folklorunda dastan yaradıcılığı özünün son mərhələsini XVIII-XIX əsrlərdə başa vurmuşdur. «Qaçaq Nəbi», «Qaçaq Kərəm», «Molla Nur», «Qandal Nağı», «Qara Tanrıverdi»(1). kimi dastanlar milli qəhrəmanlıq ənənələri əsasında, həmin ənənlərin folklor modellərinə əsaslanaraq yaransa da, onların klassik dastan kimi formalaşmasına yardım edən münbit kulturoloji zəmin olmadığından tam «dastanlaşa» bilməmişdilər. Lakin bununla yanaşı bu təzahürün özü folklor potensiyasının gücünün göstəricisidir. Xalq təfəkkürü, ümumetnos yaddaşı nə qədər ki dastan, epos yaratmağa qadirdir, deməli, ümumetnik yaddaşın potensiyası hələ tükənməmişdir. Bu mənada Azərbaycanın əksər regional folklor mühitlərində dastan yaradıcılığı öz inkişafını genetik potensiyaya dayanaraq yeni keyfiyyət halında davam etdirməkdədir. İstənilən regional folklor mühitinə, xüsusən də aşıq yaradıcılığının güclü inkişaf etdiyi Qərb mühitlərinə nəzər salsaq, görərik ki, burada aşıqların canlı repertuarında klassik dastanların regional variarntları ilə bərabər, sırf regional xarakerli dastanlar da çoxluq təşkil edir.

Həmin dövrdə yeni yaranan dastanlar yeni ictimai-tarixi şəraiti özündə əsaslı şəkildə əks etdirirdi. Belə ki, XIX əsrin əvvəllərindən Rusiyanın işğalçı siyasətinə qarşı xalq qaçaqlıq hərəkatı ilə mübarizəyə başladı. Tədqiqatçılardan A. Nəbiyev haqlı olaraq bu hərəkatı «milli azadlıq hərəkatının yeni mərhələsi» hesab edir: «XIX əsrin 40-illərindən başlayaraq Azərbaycanda milli azadlıq hərəkatının yeni bir mərhələsi üzə çıxdı. Tarixə qaçaq hərəkatı kimi daxil olan bu yeni, qüdrətli kəndli hərəkatı çox keçmədən geniş xalq kütlələrini əhatə etdi və onlar tərəfindən müdafiə olunmağa başladı»(2, s.558).

Azad Nəbiyev digər bir tədqiqatında isə qaçaqlıq hərəkatının geniş ictimai məzmuna malik olub çar jandarm zorakılığına qarşı yönəldiyini qeyd edir(181,s.136).

Bu baxımdan Dərələyəz folklor mühitində də dastan yaracılığının bir sıra orijinal nümunələrinə rast gəlmək mümkündür. Bir məsələni xüsusi qeyd etmək lazımdır ki, Dərələyəz folklor mühiti Azərbaycan aşıq sənətinin episentiri olan Göyçə aşıq mühiti ilə sıx əlaqədə olduğundan bu istiqamətdə həmin mühitin təsir dairəsinə daxil olmuş, hər iki mühitdə digər mühitlərdə rast gəlinməyən, sırf bölgənin aşıqları və qəhrəman şəxsləri ilə bağlı dastanlar aşıqların repertuarında müştərək istifadə olunmuşdur. Məsələn, «Ağ aşıq və Süsənbər» dastanı, «Aşıq Alının Türkiyə səfəri» dastanları belə dastanlardandır.

Bundan əlavə bilavasitə Dərələyəz mühiti üçün xarakterik olan «Qaçaq Səfəralı», «Qaçaq Süleyman» kimi dastanlar da mövcuddur. Bunların içərisində «**Qaçaq Səfəralı**» dastanı mühüm yer tutur. Dastan həm də Qaçaq Səfo adı ilə yayıldığından hər iki deyimdə işlənəcək. Bu dastan Dərələyəz folklor mühitində ən irihəcmli dastandır. Dastan Azərbaycan qəhrəmanlıq eposu ənənələri əsasında yaranmış mükəmməl bir epik nümunədir. İstər süjet strukturunun bütövlüyü, istər obrazlar sisteminin mükəmməlliyi, istərsə də əsas qəhrəmanın mübarizəsinin ümummilli mənafeyə xidmət etməsi baxımından dastan yeni dövr Azərbaycan epos yaradıcılığının ən gözəl nümunələrindən biridir. Lakin çox təəssüf olsun ki, belə bir dastan uzun illər nəşr olunmamış, professional folklorşünaslıq tədqiqatının predmetinə çevrilməmişdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Qaçaq Səfo» dastanı uzun illər ərzində ağır zəhmət bahasına dərələyəzlilərdən toplanılmış, tərəfimizdən ilk dəfə olaraq 2001-ci ildə nəşr edilmişdir(4).

Dastan əsasən aşağıdakı şəxslərdən toplanmışdır: Səfəralının nəvəsi 103 yaşlı Bəhman Baxşəli oğlu, 97 yaşlı Rüstəmov Rüstəm(Terp kəndi), 89 yaşlı Ağamirzə kişi(Məmərza kəndi), Aşıq Nəbinin qızı 96 yaşlı Fatma nənə(Germuk-İstisu), 76 yaşlı Gümşüd baba(Sisyan, Şıxlı kəndi), 87 yaşlı Alıyev Abdulla, 77 yaşlı Mahmud Nəsiroğlu, 75 yaşlı Cəmil Bəşiroğlu, 94 yaşlı Səməd Nəbiyev(Aşıq Nəbinin nəvəsi) və b.

Biz sovet hakimiyyəti illərində dastanın nəşri ilə əlaqədar müxtəlif təşkilatlar qarşısında dəfələrlə məsələ qaldırmış, lakin ideoloji yasaqlara görə dastanın nəşrinə nail ola bilməmişik.

Dastanın strukturu və janr spesfikası.

Məlumdur ki, XVIII yüzilliyin sonu XIX yüzilliyin əvvəllərində Çar Rusiyasının istilaçı siyasətinə qarşı bütün Azərbaycanı qaçaqlıq hərəkatı bürümüşdür. Bu hərəkat xalqın yadelli işğalçılara qarşı mübarizəsini əks etdirirdi. Lakin sovet hakimiyyəti illərində yanlış olaraq qaçaqların yerli bəylərə, xanlara qarşı mübarizə apardığı qabardılırdı. «Qaçaq Səfəralı» dastanında da bu xalq hərəkatının Dərələyəzdə nümayəndəsi olan Səfəralının qəhrəmanlığından, mübarizəsindən söhbət açılır.

**Dastanın strukturu və janr özünəməxsusluğu.** Dastanın geniş təhlilinə keçməmişdən əvvəl onun janr özünəməxsusluğunu müəyyənləşdirmək lazımdır. Bu, həmçinin dastanın ideya-məzmun baxımdan daha dərindən anlaşılmasına yardım etmiş olar.

Məlumdur ki, Azərbaycan folklorşünaslığında dastanların təsnifi ilə müxtəlif folklorşünas alimlər məşğul olmuş, bu barədə maraqlı mülahizələr söyləmişdilər. Üstündən xeyli müddət keçməsinə baxmayaraq M. Təhmasibin bölgüsü bunların içərisində öz aktuallığını hələ də saxlamaqdadır. Alimin nəzəri-analitik yanaşma tərzi ilk öncə özünü Azərbaycan dastanlarının təklif olunan təsnifi modelində göstərir:

«I. Qəhrəmanlıq dastanları.

Bizdə bu qrupa daxil olan dastanların üç növünə təsadüf edilməkdədir.

1. Qədim bahadırlıq nağılları, sehrli nağıllar və əsatiri görüşlərlə səsləşən qəhrəmanlıq dastanları.
2. Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları.
3. Adi qəhrəmanlıq dastanları.

II. Məhəbbət dastanları.

Bu qrupa daxil olan dastanların da aşağıdakı nümunələrinə təsadüf edilməkdədir.

1. Məhəbbətlə qəhrəmanlıq hüdudlarında dayanan dastanlar.
2.Əsl məhəbbət dastanları.
a) nağıllarla bağlı məhəbbət dastanları;
b) qədim eposla bağlı məhəbbət dastanları;
v) yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları;
q) orijinal məhəbbət dastanları;
3. Məcazi məhəbbətə həsr edilmiş dastanlar.
a) astral dastanlar;
b) rəmzi dastanlar.

III. Ailə-əxlaq dastanları»(5, s.112).

Azərbaycan dastanları içərisində qaçaq dastanları M. Təhmasibin təsnifatında daha çox tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları istiqamətinə uyğun gəlir. O cümlədən «Qaçaq Səfəralı» dastanı da bu qrupa aid edilə bilər. «Qaçaq Səfəralı» dastanı tarixi hadisələrə söykənən bir folklor nümunəsidir.Qaçaq Səfo tarixi şəxsiyyət olmuşdur.

Beləliklə, bu dastanın tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanlarına daxil edilməsi doğru olardı. Lakin dastanın tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları içərisinə daxil edilməsi onun janr özünəməxsusluğunu tamamilə müəyyənləşdirmir. Məsələ ondadır ki, bu dastan klassik dastan prinsiplərinə tam şəkildə uyğun gəlmir. Belə ki, dastanın təhkiyəsində dastanlaşmadan daha çox olmuş bir əhvalatın nəql olunması üslubu özünü göstərir. Bəzi məqamlarda tarixi hadisələr o qədər real təsvir olunur ki, bu hadisələrin dastan, epos təfəkkürü prinsipləri ilə baş verməsi şübhə doğurur. Qeyd edək ki, bu tipli epik mətnlərə Azərbaycanın əksər folklor mühitlərində rast gəlmək mümkündür. Dastanla rəvayət arasında olan fərq mətnlər spesfik janrı kimi özünü göstərir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görkəmli folklorşünas alim H. İsmayılov Göyçə dastanlarından bəhs edərkən onları aşağıdakı kimi təsnif edir:

1.Kanonik məhəbbət dastanları:
A) Azərbaycan məhəbbət dastanlarının Göyçə variantları.
B) Göyçə mühitinə məxsus məhəbbət dastanları
2. Aşıq dastanları:
A) Ustad aşıqların yaratdığı dastanlar.
B) Ustad aşıqlar haqqında yaradılmış dastanlar.
C) Digər tarixi şəxsiyyətlər haqqında dastanlar.
3. Göyçə dastan-rəvayətləri:
A) Aşıqlarla bağlı dastan-rəvayətlər.
B) Başqa görkəmli şəxsiyyətlər haqqında dastan-rəvayətlər(6,**s.** 376).

Biz hesab edirik ki, «Qaçaq Səfəralı» dastanı da öz janr özünəməxsusluğu ilə dastan-rəvayətə uyğun gəlir. Dastan-rəvayətlər də öz növbəsində rəvayət, əhvalat və səfər olmaqla üç yerə ayrılırlar. «Qaçaq Səfəralı» dastanının bəzi qolları isə dastan-səfər bölgüsünə uyğun gəlir. Dastanın mövcud əhvalatlarının janr mənsubiyyəti aşağıdakı kimidir:

**Dastan-rəvayətlər:**

1. **Vəli kişi**
2. **Səfərali Murovun əhvalatı**
3. **Qaçaq Səfonun Qaçaq Nəbiynən Göbəkdaşda görüşməsi**
4. **Qoçu Həşimin Qaçaq Səfəralıya güllə atması**
5. **Qoçu Həşimin üzürxahlığı**
6. **Qaçaq Səfonun pristavı qonaq çağırması**

**Dastan-səfərlər:**

1. **Qaçaq Səfonun Zəngəzur səfəri**
2. **Qaçaq Səfonun Qaraxaç səfəri**
3. **Qaçaq Səfonun Gindivas səfəri**
4. **Qaçaq Səfoynan oğlu Məmmədalının Türkiyə səfəri**
5. **Məmmədalının Cul səfəri**
6. **Qaçaq Səfonun oğlanları Məmmədalı və Alıynan Naxçıvan səfəri**

Göründüyü kimi, dastandakı qolların tam yarısı dastan-rəvayət, yarısı isə dastan-səfərə uyğun gəlir. Ümumiyyətlə dastanın janr özəllikləri baxımından təhlili göstərir ki, dastanın strukturunun formalaşmasına «Koroğlu» eposu güclü təsir göstərmişdir. Dastanın əvvəlində qeyd olunur ki, pristav Vəli kişigilə qonaq gəlir. Pristav Vəli kişinin son dərəcə gözəl olan qızı Günəşə sataşır. Vəli kişinin oğlu pristavı və yaxın adamlarını öldürür. Bundan sonra Vəli kişi öz ailəsini də götürüb dağlara çəkilir. Dərələyəz ərazisində Göydağda özlərinə məskən salırlar.

Dastan süjetinin bu şəkildə başlanğıc strukturu öz əsasını «Koroğlu» eposunun «Alı kişi» qolundan götürmüşdür. Görünür xalq öz qəhrəmanının əzəmətini daha da artırmaq məqsədilə onu, onun mübarizəsini, məişətini məşhur xalq qəhrəmanlarına bənzətmişdir.

**Dastanda tarix və folklor.** Tarix və folklor dastanlarımızda xüsusi problemlərdəndir. İstənilən eposda tarixin müəyyən izlərini, ştirixlərini, əlamətlərini görmək mümkündür. Xalqın keçdiyi tarixi inkişaf yolu, onun tarixi şəxsiyyətləri azadlıq uğrunda apardıqları mübarizələri və s. müəyyən aspektləri ilə dastanlarımızda əks olunmuşdur. Lakin tarixin eposda əks olunması mexanizmləri müxtəlif dastanlarda müxtəlif cür üzə çıxır. Azərbaycan eposlarından «Kitabi-Dədə Qorqud» və tarix» problemi son dərəcə mürəkkəb problemdir o mənada ki, mifik dünyagörüşlə tarixi dünyagörüşün sərhədlərini burada fərqləndirmək çətindir. Mif və tarix eposda iç-içədir. «Koroğlu» dastanında isə tarixi lay daha aydın şəkildə görünür. Tədqiqatçılardan E. Abbasov tarixiliyi «Koroğlu» dastanının Paris nüsxəsində izləyərək belə bir qənaət irəli sürür: «Koroğlu» dastanının XIX əsrin birinci yarısına aid Paris nüsxəsində əsasən üç aspektdə tarixi faktların çoxluğu diqqəti çəkir:

1. Cəlalilik;
2. Qızılbaşlıq;
3. Türkmanlıq (7, s.102).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaçaq dastanlarında isə tarix və folklor informasiyasının bir-biri ilə qarşılıqlı münasibətlərdə nisbəti özünəməxsus şəkildə üzə çıxır. Qaçaq dastanlarında etnik-mifoloji arxetiplər demək olar ki, yox dərəcəsindədir. Dastanlarda sosial-ictimai plan daha çox üzdədir. Bəzi mifik mətnlərlə səsləşən motivlər isə milli dastançılıq ənənəsindən, xüsusən də «Koroğlu» eposunun ənənələrindən irəli gəlir. Biz bu cəhəti «Qaçaq Səfəralı» dastanında da görürük. Dastanda sosial-ictimai məzmunlu hadisələrin folklorlaşması prosesi baş verən hadisələrin milli mövqedən qabardılması, əsas qəhrəmanın olduğundan daha qüvvətli qələmə verilməsi ilə özünü göstərir ki, bu tip folklor mübaliğələri orta əsrlərin qəhrəmanlıq eposlarında olduğu kimi qeyri-adi mifik miqyaslarda deyil, real ölçülərdə həyata keçirilir. Qaçaq Səfəralının simasında fiziki qüvvə ilə qəhrəmana aid olan yüksək mənəvi-əxlaqi keyfiyyətlər birləşmişdir. O mərddir, qəhrəmandır, səxavətlidir, yetim-yesirə əl tutandır. Onun fiziki əlamətləri dastanda oğlu Məmmədalının dilindən belə təsvir olunur: «Mənim babam enlikürək, pələngbilək, hündür, yekə adamdır. Özü də üzündə elə bil əzrayıl tükü var. Adama baxanda adam qorxuya düşür. Bir də onda bir səs var ki, nə deyim, həmişə əlində ucu haça cidəsi var, başında da balaca qırmızı baydağ bağlı olur. Düşmənnən davada cidəni qaldırır. Nərə çəkəndə düşmənin dizləri qırılır, gözünə qaranlıq çökür»(4,s. 40).

Göründüyü kimi, Qaçaq Səfonun fiziki keyfiyyətləri dastanda Koroğlunun fiziki keyfiyyətləri ilə eyniləşdirilsə də, bu cəhətlər real inandırıcı hüdudları lazımı səviyyədən keçmir. Qaçaq Səfonun qəhrəmanlığını əks etdirən səhnələrdə də realist cizgilər daha qabarıqdır. Bütün bu xüsusiyyətlər dastanın yarandığı dövrdə tarixi şüurun mifoloji şüurdan üstün olması ilə əlaqədardır. Əgər «Koroğlu» dastanında mifik arxetiplər ayrı-ayrı obrazlar vasitəsilə dastanın realist planında özünü göstərirsə, «Qaçaq Səfo»da bu cəhətlərin bəziləri dastan qəhrəmanı ənənəsindən irəli gələrək saxlanılsa da, mifik məntiqi əsasdan məhrum edilir. Məsələn, Koroğlunun bir epos qəhrəmanı kimi yenilməz qüdrətinin əsasında atı, qılıncı, nərəsi həlledici rol oynayır ki, hər üç qüvvənin də əsasında mifoloji qüvvəyə inam dayanır. «Qaçaq Səfəralı» dastanında da Qaçaq Səfəralının nərəsindən söhbət açılır. O da Koroğlu kimi düşmən üzərinə hücum edərkən nərə çəkir. Lakin dastanda nərənin mifoloji planda izahı yoxdur. Bu cəhət Koroğlu ənənələrindən irəli gəlir. Artıq orta əsrlərin sonunda tarixi şüur o qədər güclü idi ki, ayrı-ayrı təzahürlərin mifoloji planla izahı mümkün deyildi. Real zamanın tələblərindən irəli gələrək sosial-ictimai məzmun mifoloji məzmunu sıxışdırıb aradan çıxarırdı.

Əsərin tarixiliyi ən çox onun ictimai məzmununda əks olunmuşdur. Əsər, yuxarıda da qeyd etdiyimiz kimi, Qaçaq Səfəralının mübarizə timsalında xalqımızın çar üsuli-idarəsinə, onun işğalçılıq siyasətinə qarşı mübarizəsini əks etdirir. Burada bir neçə tarixi şəxsiyyəti çıxmaq şərtiylə tarixi faktlar, rəqəmlər, dəqiq tarixi hadisələr yoxdur. Əvəzində həmin tarixi dövrdəki tarixi şəraitin ümumi ruhu, mahiyyəti, tarixi məzmunu vardır. Bəlkə də, hər hansı bir tarixi fakt Rusiya işğalının milli qürur, milli heysiyyatımızı nə dərəcədə alçaltdığını aşağıdakı səhnə qədər əks etdirə bilməz: «Vəlinin arvadı Bədiyyəcamal və qızı Günəş taxtın üstünə xalça, nimdər döşəyib başqa iş dalınca getdilər. Vəli kişi qızı Günəşə dedi ki, ay qızım, aftafanı, dəsmalı götür, qonaqların əlinə su tök, qoy yuyunub sərinləsinlər.

Günəş çox gözəliydi. Uzun saçlı, iri qara gözləri, buxağı süddən ağ, elə bil ki, yanağına lalə sancılmışdı. Həddən artıq gözəl olduğundan qız-gəlinlər ona Günəşli deyirdilər.

Günəşli bir qolunun üstündə dəsmal, o biri əlində aftafa qonaqların əlinə su tökməkdə, pristav altdan-altdan onu süzməkdə. Qız utanıb üzünü yana çevirdi. Bu eyində pristav əlindəki suyu qızın üzünə çilədi ki, qız ona tərəf dönsün, o da bu gözəlliyə bir də tamaşa eləsin.

Qız diksinif ucadan «alçaq» deyib dəsmalı və aftafanı taxtın üstünə atdı »(4, s.15).

Bu xırda bir epizod yadelli işğalçıların xalqımızın milli heysiyyatı ilə necə saymazyana bir şəkildə oynadıqlarını bütün dolğunluğu ilə əks etdirir. Onlar türkün qədim torpaqlarında özlərini ağa kimi aparır, istədikləri hərəkəti edirdilər. Müəyyən bir tarixi şəraitdə yadelli işğalçıların xalqımızın mənliyini tapdalamaq niyyəti burada əks olunmuşdur.

**Dastanın surətlər aləmi.** «Qaçaq Səfəralı» dastanı zəngin surətlər aləminə malikdir ki, onların ayrı-ayrılıqda təhlili bütövlükdə dastanın ideya-məzmun xüsusiyyətlərinin izah edilməsinə yardım etmiş olar. Dastanın əsas qəhrəmanı **Qaçaq Səfəralıdır**. O, dastanın mərkəzi obrazıdır. Dastanda baş verən bütün hadisələr mərkəzində ya Qaçaq Səfəralı özü dayanır, ya da baş verən hadisələr bu və digər baxımdan Qaçaq Səfəralı ilə bağlanır. Qaçaq Səfəralı tarixi şəxsiyyətdir**.** Onun dastanda əksini tapan mübarizəsi də Azərbaycan xalqının Dərələyəz mahalındakı tarixi milli azadlıq uğrundakı mübarizəsidir. Qaçaq Səfəralı xalqımızın milli-mənəvi dəyərlərini özündə əks etdirən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mərd, qəhrəman, qoçaq, səxavətli, kasıbların tərəfində dayanan bir şəxsdir. Qaçaq Səfəralının Qaçaqlıq hərəkatı adi bir şəxsi münaqişə zəminində yaransa da, sonradan bu münaqişə genişlnərək ümumxalq mənafeyinin müdafiəçisinə çevrilən ictimai məzmun kəsb etməyə başlayır.

Mərdlik və qəhrəmanlıq Qaçaq Səfəralının ən qabarıq keyfiyyətləri sırasına daxildir. Məsələn, «Qaçaq Səfonun Zəngəzur səfəri» boyunda təsvir edilir ki, onun oğlu Məmmədalı əsir alınır. Bunu eşidən Qaçaq Səfəralı öz qaçaq yoldaşları ilə pristavın ordusunun üzərinə hücum edir. Böyük qəhrəmanlıq və şücaət göstərərək öz oğlunu və onunla bərabər üstünə şər atılaraq həbs olunmuş bir çobanı da düşmən əlindən azad edir. Dastanda Səfəralının bu qəhrəmanlığı Aşıq Nəbi tərəfindən aşağıdakı kimi tərənnüm edilir:

Xəbər gəldi Məmmədalı tutulub,
Qol-qanadı qandalağa bükülüb.
Bedavı minəndə qullar tökülüb,
Min atlı dağıdan can Səfəralı,
Düşmənə yaladır qan Səfəralı.

Pristavı öldürüb izin izlədi,
Sirr-sözünü şirin dildə gizlədi,
Tikəni yemədi yoldaş gözlədi,
Hatəmi-tey olan can Səfəralı,
İyidlər sərdarı can Səfəralı.

Aşığın tərifnaməsindən də göründüyü kimi, Səfəralının Gorus qəhrəmanlığı oğlunun əsirlikdən azad edilməsi ilə əlaqədar olsa da, bu fakt xalqın qəhrəmanının diz çökdürülməsinə yönəldildiyi üçün ümummilli xarakter daşıyır. Səfəralının xalq qəhrəmanı olmasını təmin edən o amildir ki. o yalnız özünün şəxsi mənafeyi, öz ailəsi üçün deyil, xalqın ən sadə kasıb nümayəndəsi üçün də eyni qəhrəmanlıqla mübarizə aparır. Biz Qaçaq Səfəralının bu xüsusiyyətini onun qəhrəmanlığından bəhs edən digər bir boyda – «Qaçaq Səfonun Qaraxaç səfərində» görürük. Boyda göstərilir ki, Dağıstanda İbrahim adında yetim bir oğlan çörək pulu qazanmaq üçün Qarabağ mahalının Cinni kəndinə gələrək orada Hacı Bəbir adında varlı bir adama nökərçilik edir. İsmayıl az bir müddət ərzində bu evdə böyük hörmət qazandığından Hacı Bəbir öz qızı Balqızı yetim İbrahimə nişanlayıb onu özünə oğulluğa götürür. Lakin sonradan bu fikrindən vaz keçib onu yaylaqda olarkən döyüb evdən qovurlar.

Yetim İbrahim ağlaya-ağlaya birbaşa Göydağa Qaçaq Səfəralının yanına gəlir. Dərdini ona danışır. Səfəralı bunu eşidib çox qəzəblənir. Öz dəstəsi ilə gedib toy günü Balqızı qaçırıb İsmayılla onu bir-birinə qovuşdurur. Səfəralının bu cür mübarizə üsulu öz kökləri etibarilə tarixin dərinliklərinə gedib çıxır. Qədim türklərin igid qəhrəmanları daim dünyanın pozulmuş nizamını bərpa etməyi özlərinin missiyası hesab edirdilər. Həm də bu missiya yalnız sosial harmoniyanın deyil, mənəvi harmoniyanın da pozulmasına aid edilirdi. Bu boyda da Səfəralı yetim İbrahimin nişanlısının zorla əlindən alınmasına mənəvi nizamın pozulması kimi baxır. Səfonun qız qaçırtdığını görən pristav soruşur ki, bəs deyirlər sən camaat tərəfdarısan. Bəs niyə xalxın toy üstə gəlinini aparırsan özünə?

Səfo dedi:

- Səhv düşmə pristav, mən həmin qızı aparıram nişanlısı İsmayıla. Qızın həqiqi nişanlısı budu. O deyil.

Bunu eşidən camaat hamı geri qayıtdı. Səfəralı öz dəstəsiynən gəlib yetişdi İsmayıla. Göydağa çatan kimi orada İsmayılla Balqıza üç gün-üç gecə toy elədi»(4,s.54).

Qaçaq Səfəralının bir dastan qəhrəmanı kimi xarakterinin bəzi cizgiləri onun Qaçaq Nəbi ilə münasibətlərində üzə çıxır. Dastan-rəvayətdə təsvir edilir ki, Qaçaq Səfəralı ilə Qaçaq Nəbi arasında yüngül bir inciklik olmasına baxmayaraq, ümumi düşmənə qarşı onlar həmişə birləşməyi bacarırlar. Dəfələrlə Qaçaq Səfəralının adamlarından əsir düşərkən Qaçaq Nəbi onlara yardım edir. Səfəralı öz mübarizələrinin dəqiq hədəflərini çox yaxşı bilir. Ona görə də o Qaçaq Nəbiyə belə bir məktub göndərir ki, bizim bir düşmənimiz var. O da çardı, onun yerlərdəki adamları bəy-xanlardı. Biz onlara divan tutmalıyıq. Yaxşı olar ki, biz qaçaqlar birləşib birlikdə onlardan öz qisasımızı alaq(4,s.58).

Buradan aydın olur ki, Səfəralı apardıqları mübarizənin ümumxalq miqyasındakı əhəmiyyətini və onu hansı strategiya ilə həyata keçimək lazım olduğunu çox yaxşı anlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dastandakı əsas surətlərdən biri də Qaçaq Səfəralının atası **Vəli kişidir.** Vəli kişi dastanın əvvəlinci iki qolunda – «Vəli kişi» və «Səfoynan Murov əhvalatı»nda iştirak edir. Dastanda Vəli kişi aşağıdakı kimi xarakterizə olunur: «Vəli kişi Qazax mahalından idi. Həm öz kəndində, həm də ətraf kəndlərdə böyük hörməti varıydı. Onun hər bir xasiyyəti camaatın xoşuna gəlirdi. O nə çox varlı, nə də çox kasıbıydı. Orta hal dolanırdı. Yaxşı rəncbər, qoçaq adamıydı. Kənddə heç kəsin xətrinə dəyməzdi. Vəli kişi həm də süfrəsi açıq, qonaqsevən bir adamıydı. Qonşu kəndin adamları da onun hörmətini saxlayırdılar»(4,s. 14).

Vəli kişi bu müsbət keyfiyyətləri ilə yanaşı həmçinin qəhrəman və mərd bir adamdır. O, öz ailəsinin namusuna gələ biləcək azacıq bir ləkəni götürməkdənsə, namus ləkəsini təmizləyib dağlarda-daşlarda qaçaqlıq etməyə üstünlük verir.

Vəli obrazı üzərində elmi müşahidələrdən aydın olur ki, xalq bu dastan surətinin yaradılmasında «Koroğlu» eposundakı Alı kişi obrazından istifadə edibdir. Yaxud da Vəli kişi Alı kişinin təsiri altında yaradılıbdır. Hər iki dastanda Alı kişinin Çənlibeli axtarması ilə Vəli kişinin Göydağı axtarması arasında son dərəcə anoloji paralellər mövcuddur.

Vəli kişi mərdi-mərdanə ömür sürür, düşmənlərlə döyüşdə yaralanıb həlak olur. Alı kişi Çənlibeldə dəfn olunduğu kimi, Vəli kişi də Göydağda dəfn olunur.

Dastanda öz qəhrəmanlığı ilə seçilən əsas qəhrəmanlardan biri də **Məmmədalıdır**. Məmmədalı Qaçaq Səfəralının oğludur. Mərdlikdə, şücaətdə, qəhrəmanlıqda o, heç də atasından geri qalmır. Bəlkə, əksinə, atası ehtiyat etdiyi, tədbir tökmək istədiyi məqamlarda Məmmədalı məsələni tüfənglə həll etməyə üstünlük verir. Məmmədalının qəhrəmanlığı dastanın demək olar ki, bütün boylarında əks olunmuşdur. Onun qəhrəmanlığı və şücaəti elə yüksək səviyyədədir ki, əksərən onu atası Qaçaq Səfəralı ilə dəyişik salırlar. Ona yaxın getməyə ehtiyat edirlər. Məmmədalının bircə qüsuru var ki, bərk yatağandır. Onun başına nə zaval gəlsə, yatanda gəlir. Öz ulu oğuz-türk babaları kimi o da yatanda durmaq bilmir. Düşmənlər bir neçə dəfə onu yatdığı yerdəcə əsir götürür, hər dəfə də atası tərəfindən azad edilir.

Qaçaq Səfəralı bütün səfərlərə oğlu Məmmədalı ilə birlikdə gedir. Daha doğrusu, son dərəcə cəsur olan Məmmədalı atasının tək olaraq təhlükəli səfərlərə çıxmasına imkan vermir. Dastanda Məmmədalının qəhrəmanlığının əks olunduğu əsas qollardan biri «Qaçaq Səfoynan oğlu Məmmədalının Türkiyə Səfəri»dir. Ruslarla türklərin müharibə etdiyini eşidən Qaçaq Səfəralı türklərə köməyə getmək qərarına gəlir. Onlar Ağrı dağı aşıb türk paşasının hüzuruna gəlirlər. Ruslarla türklər təkbətək döyüşə pəhləvanlar çıxarmaq qərarına gəlirlər. Belə təkbətək döyüşdə Məmmədalı böyük bir şücaət göstərir: «İkinci həmlədə Məmmədalı atı minib meydana çıxdı. Onunla döyüşə bir heyvərə rusu çıxartdılar. Məmmədalı atı cövlana gətirib o baş-bu başa sürdü, qırğı kimi rus pəhləvanının üstünə cumdu. Bir anın içində onu atdan necə aşırdısa, əl atıb boynundan təkəlli yapışdı, qartal caynağında sərçə tutan kimi, onu gətirib paşanın qabağında yerə atdı. Hamı «iyi», «iyi» deyib əl çaldı»(4,s.77).

Dastanda Səfəralının və Məmmədalın Türkiyədəki qəhrəmanlığı aşıqlar tərəfindən belə tərif edilir:

Aslan kimi çıxdı rusun üstünə,
İgid Səfəralı, qoç Məmmədalı.
Ata oğul düşmənlərin qəsdinə,
İgid Səfəralı, qoç Məmmədalı.

Qaçdı İvan, qorxdu Nikolay, Saşa,
«Afərin, türk oğlu» söylədi Paşa.
Qoç ata var olsun. Oğul yüz yaşa,
İgid Səfəralı, qoç Məmmədalı.

Nizəyə taxanda rusun başını,
Qoymadı daş üstə qala daşını.
Qırıb çatdı sərçə kimi qoşunu,
İgid Səfəralı, qoç Məmmədalı.

Göründüyü kimi, Məmmədalının qəhrəmanlığı Qaçaq Səfəralı ilə eyni səviyyəyə qaldırılır.

Dastanda Məmmədalının qəhrəmanlığından bəhs edən qollardan biri də «Məmmədalının Cul səfəri»dir. Qoçu Həşim güllə atıb namərdcəsinə Qaçaq Səfəralını yaraladığı üçün Məmmədalı atasının qisasını almaq üçün Qoçu Həşimin evinə yollanır. O, Həşimin damının üstünə çıxıb bacadan onu nişan alır. Lakin namərdcəsinə onu öldürməyi özünə rəva görmür. Mərdi-mərdanə onu bağışlayır.

Əsərdəki surətlərdən biri də **Qoçu Həşimdir.** Qoçu Həşim Qaçaq Səfəralının qaynıdır. Səfəralı onun bacısını «öldürdüyü» üçün o Səfəralıdan qisas almaq qərarına gəlir. Dastanda «Qoçu Həşimin Qaçaq Səfəralıya güllə atması» qolu Qoçu Həşimə həsr olunmuşdur. Qoçu Həşim qubernatorun yanına gəlib ona bildirir ki, o, Qaçaq Səfəralını öldürmək istəyir. Lakin ona kömək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lazımdır. Qubernator ona 30 kazak verir. Qoçu Həşim gecə yatdığı yerdə Səfəralının başının üstünü alır. Lakin son anda etdiyi hərəkətə peşman olur. O, Səfəralını öldürmür, çiynindən yaralayır. Beləliklə, dastanda Qoçu Həşim də mərd və qəhrəman bir şəxs kimi təsvir edilimşdir.

Əsas surətlərdən əlavə dastanda bir çox başqa qəhrəmanlar da vardır. Bunların içərisində Qaçaq Səfəralının övladları **Alı, Qurbanalı, Bayramalı, Həsənalı, Ataş, İbrahim, dəstə üzvlərindən Qoçu Məmməd, Ləzgi Əhməd, Div Salman, Qurd Həsən, Pələng Səməd, Keçəl Murad, Qanlı Abbas, Cinni Yəhya** və başqalarını göstərmək olar. Dastanda ayrı-ayrılıqda onların hər biri haqqında, onların qəhrəmanlığı haqqında epizodik söhbət də açılır.

«Qaçaq Səfəralı» dastanı original toponimlərlərlə də zəngindir. Dastan sırf türk mənşəli toponimlərlə – oykonim, oronim, hidronim, antroponim, etnonim, zoonim, kosmonimlərlə zəngindir. Qaçaq Səfonun məskəni qışda Pir kahası, Yazda Dərə Yurd kahası, yayda isə Göy dağdır. Kəngərli dərəsi, Daş körpü, Murad təpəsi, Qızıl təpə, Sarı yer, Təndirri, Tikanlı, Şahbulağı, Almalı, Dibəyli, Qısır, Arxaşan, Dəvəgözü, Soğanlı, Vers dağı, Keyti, Kotan təpə, Dəlik təpə, Qumlaq, Ağ yoxuş, Sarı bulaq, Ala göllər, Zalxa gölü, Qurbağalı göl, Pristavın gölü, Səfo kahası, Təmraz kahası, Göyərçinli kaha, Burcalı kahası, Qaz kahası, Harsın kahası, Dəliydaş kahası, Südlü bulaq, Am bulaq, Ağ bulaq, Ağ su, Alı bulağı və yüzlərlə dağ, dərə, qaya, çay, meşə, kövşən, biçənək, kaha, yurd yerləri ulu babalarımızın 1988-ci ilə kimi bizə miras qoyub gəldikləri qiyməti olmayan xəzinə, dəfinə idi.

Hazırda Qərbi Azərbaycanda – Ermənistanda nə azərbaycanlı var, nə azərbaycanlıların əsrlər boyu yaşamış olduğu kənd, məskən, nə də həmin yaşamış bölgələrindən hər birinin çox-çox qədimdən bəri daşıdığı türk mənşəli adı. Millətimiz kimi, toponimlərimiz də bütövlükdə erməni faciələrinin qurbanı oldu. İstər şifahi, istərsə də yazılı ədəbiyyatımızda həmin toponimlər elə həkk olunmuşdur ki, neçə yüz illər keçsə belə, erməni millətçiləri daşnakları bu adları tamam silə bilməyəcəklər. Həmin toponimlər ömründə erməni yamağı götürməz.

«Qaçaq Səfo» dastanında verilən insan adlarının zənginliyi onu göstərir ki, Səfonun ətrafında xeyli sayda elin igid oğulları cəm olmuşdur.

Bayramalı, Qurbanalı,həm Alı,
Hazır olun, Zəngəzura gedirəm.
İndi yol gözləyir can Məmmədalı,
Hazır olun, Zəngəzura gedirəm.

Həsənalı nərə çəkəndə hərdən,
Ləzgi Əhməd dağı tərpədər yerdən.

Ağaclarda turac, sərçələr çoxdu,
Həddi nədi çıxa qaça, İsmayıl.

Səfo deyər, qoçaqlar tez düşün yola.

Dərələyəz qaçaq dastanlarından danışarkən **Qaçaq Süleyman** haqqındakı qəhrəmanlıq süjetlərini və el nəğmələrini də xüsusi qeyd etmək lazımdır. Dərələyəz folklorunun fədakar toplayıcısı, tədqiqatçısı və qoruyucusu Həsən Mirzəyev 2006-cı ildə nəşr etdirdiyi «Dərələyəz folkloru» kitabına(8)Qaçaq Süleyman haqqında süjetləri və aşıq nəğmələrini daxil etmişdir. H. Mirzəyev Qaçaq Süleyman haqqında aşağıdakı şəkildə arayış verir: «1880-ci ildə Şərur-Dərələyəz qəzasının Qaraqaya kəndində anadan olan Süleyman Məmməd oğlu ailə-məişət zəminində baş verən bir münaqişə nəticəində qaçaq düşmüşdür. Başına dəstə toplayıb dağlara çəkilən Qaçaq Süleymanı uzun illər həbs etmək və öldürmək mümkün olmur. Birinci Dünya müharibəsində Osmanlı cəbhəsində döyüşən Rusiya ordularına silah və ərzaq daşıyan araba karvanlarına basqınlar edən və əhalidən araba, at, ərzaq toplanılmasına əngəllər törədən qaçaq dəstəsini açıq döyüşdə məhv edə bilməyən hökümət məmurları dəstənin içinə öz adamlarını yerləşdirmək və qaçaqların etibarını qazanmış insanları ələ almaqla onları məhv etməyə girişirlər. Qaçaq Süleymanı da 1916-cı ildə Çivəli dəllək Səfəralının əliylə Danzikin yaxınlığındakı Zərdə dərədə (indiki Şərur rayonu ərazisində) öldürürlər» (8,s.495).

Qaçaq Süleyman haqqındakı süjetlərdə və nəğmələrdə onun qəhrəmanlığından, mərdliyindən söhbət açılır. Bu süjetlərin dastanlaşması, rəvayətləşməsi prosesi tam başa çatmadığından onlar natamam təsir bağışlayır. Belə bir fikir də mövcuddur ki, guya Qaçaq Süleyman haqqında bitkin bir dastan olmuş, sonradan bu dastan itmişdir.

Qaçaq Süleymanın bir xalq qəhrəmanı olaraq bədii obrazı aşağıdakı el nəğməsində parlaq cizgilərlə əks olunmuşdur:

Yorğanı adyaldı, döşəyi həsir,
Adı çəkiləndə pristav əsir,

Nəçəlniklər yazır, divan iş kəsir,
Dillərdə əzbərdi Qaçaq Süleyman,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anası özündən qoçaq Süleyman.

O, ata minəndə rus dedi nazat,
Nəbitək ona da yaraşır Bozat,
İşlərin mayası binamaz Hürzat,
Dillərdə əzbərdi Qaçaq Süleyman,
Anası özündən qoçaq Süleyman.

Beşaçılan tüfəngi mıxdan endirdi,
Endiribən sinə üstə mindirdi,
Yeddi gündə on beş düşmən öldürdü,
İgidlikdə təkdi Qaçaq Süleyman,
Anası özündən qoçaq Süleyman(8,s. 496).

**ƏDƏBİYYAT:**

1. Koroğlu nəvələri / Nəşrə hazırlayan R.Rüstəmzadə . Bakı: ...... 1985,.....
2.Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı: 2 cilddə, II c., Bakı: Elm, 2006, 647s.
3.Корёглы Х. Г. Набиев А. Азербайджанский героический епос. Баку, 1986.
4.Qaçaq Səfo / Toplayıb tərtib edəni Alı Alıyev. Bakı: Adiloğlu, 2001, 201 s.
5.Təhmasib M. H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.
6.İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2002, 404 s.
7.Abbasov E.H. «Koroğlu» dastanının Paris nüsxəsində tarixi və dini ünsürlər /«Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə» II uluslararası folklor konfransının materialları. Bakı: Səda, 2004, s.
8. Dərələyəz folkloru /Toplayanı və tərtib edəni H. Mirzəyev. Bakı: Elm, 2006, 768 s.
9. Mirzəyev H. «Dərələyəz folkloru» VIII jild, Bakı, Nurlan, 2005.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCAN MÜHACİRƏT FOLKLORŞÜNASLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

*Fil.e.n.* ***Almaz Həsənqızı***
***Azərbaycan***

Azərbaycanın öz istiqlaliyyətini bərpa etməsi ədəbi-mədəni irsimizin yenidən, milli mənafelər baxımından nəzərdən keçirilməsi üçün geniş imkanlar yaratdı və yetmiş ildən artıq sovet ideoloji sisteminin birbaşa müdaxiləsi, həmçinin kommunist partiyasının tələbləri fonunda ciddi senzuraya məruz qalan mənəvi irsin tamamilə fərqli mövqedən araşdırılması zərurəti meydana çıxdı. Bu cəhətdən ən çox basqılara məruz qalan mühacirət ədəbiyyatının və onun ayrılmaz qolu olan folklorşünaslığın tədqiqi zamanın tələblərindən birinə çevrildi.

Məlumdur ki, Azərbaycan mühacirət folklorşünaslığı XX yüzilin son illərinə qədər tədqiqatlardan kənarda qalmış, onun yaradıcıları – Əhməd Cəfəroğlu, Məhəmməd Əmin Rəsulzadə, Əhməd Ağaoğlu, Əlibəy Hüseynzadə, Ceyhun bəy Hacıbəyli, Hüseyn Baykara, Nağı Keykurun (Şeyxzamanlı), Almas İldırım, Səlim Rəfiq, Əbdülvahab Yurdsevər, Kərim Odər, Kərim Yaycılı, Nəbi Turablı, Yunus Lənkəranlı və başqalarının nəinki araşdırmalarını öyrənmək, hətta çox vaxt adlarını belə dilə gətirmək yasaq olunmuş, yalnız nadir hallarda onlardan bəhs edilmişsə də, həmin şəxsiyyətlər ya təhqir olunmuş, ya da yanlış təbliğə məruz qalmışlar. Bu yanaşmanın da bir sıra səbəbləri vardır. Hər şeydən əvvəl, mühacirətdə yaşayıb-yaradan insanlar vətəndən uzaq olsalar da, azad, hər cür mənəvi basqıdan kənar bir mühitdə fəaliyyət göstərirdilər ki, bu da tədqiqatların mahiyyətinə, istiqamətinə və metodologiyasına ciddi şəkildə təsir göstərirdi. Digər tərəfdən, mühacirət folklorşünaslığı xalqın söz sərvətini dünya ədəbiyyatı, eləcə də mənşəyinin söykəndiyi türk ədəbiyyatı kontekstində dəyərləndirməyə çalışırdı. Bu da rus şovinist təbliğatının maraqları ilə uyğunlaşmırdı.

Yalnız Azərbaycanda deyil, bütövlükdə Sovetlər Birliyindəki senzura sistemi «kommunizm əxlaqı» adı altında milli sərvətlərin mümkün olduğu qədər öz mənafeləri istiqamətində saxtalaşdırmaq və ya tamamilə inkar etmək mövqeyi nümayiş etdirməkdə idi. Xalqların mənəvi sərvətlərinə qarşı belə münasibət mühacirətdə yaşayan ziyalıların ciddi narazılığına, bir çox hallarda onların kəskin etiraz səslərinin ucalmasına səbəb olmuşdur. Professor Əhməd Cəfəroğlunun 1971-ci ildə Münhendə Sovetlər Birliyini Öyrənmə İnstitutu tərəfindən nəşr edilən «Dərgi»də işıq üzü görən «Sovetlər Birliyi türkoloji araşdırmalarında rus kültür üstünlüyü davası» adlı irihəcmli məqaləsi bu ideoloji təzyiqlərə qarşı mühacirət elmi-nəzəri fikrinin münasibətini aydınlaşdırmaq baxımından xüsusi əhəmiyyətə malikdir(6).

Alim sovet ölkəsi içərisindəki türk xalqlarının mənəvi sərvətlərinin yanlış tədqiq və təbliğinə qarşı çıxmış, bu cür yanaşma tərzinin Bartold, Radlov, Samoyloviç kimi əvvəlki rus türkoloqlarının zəhmətinə də kölgə saldığını və yolverilməz olduğunu xüsusi olaraq diqqətə çatdırmışdır. Əhməd Cəfəroğlu hətta bəzi «parti disiplini» əsiri olan türk tədqiqatçılarının da nəzəri irsin araşdırılmasında tarixi təhrif yolunu tutmasını kəskin tənqid etmişdir: «... keçən ilki bir millətlərarası türkoloji konqresində rastlaşdığım bir qırğız bilgini qırğız türklərindən bəhs edilərkən, qayət küstahca, «əlli il öncəsi məni ilgiləndirməz» deyərəkdən toplantıdakı bilginləri şaşırtmışdı. Demək ki, parti disiplini əsiri bu kommunist türkoloq milli varlığının millətlərarası simvolu bulunan «Manas» dastanını dəxi inkar etməkdən zövq duymuşdur. Oysa gerçək rus türkoloqları «Manas» dastanını dünya ədəbiyyatının ən mükəmməl təfəkkür ünsürü olaraq tanıtmaqda israr etməkdədirlər» (6 , s.32).

Bu məqaləsində Ə.Cəfəroğlu həmçinin rus ədəbiyyatının qədim nümunəsi olan «İqor polku haqqında dastan»ın da tədqiqində yol verilən nöqsanlara diqqət yetirmiş, qıpçaq türkləri ilə rusların arasında baş verən savaşlara həsr olunmuş bu dastanın şovinist ruhda araşdırılmasının, gerçəklərin təhrifinin yalnız elmə ztyan gətirəcəyini qeyd etmişdir. Məqalənin əhəmiyyətini nəzərə alan «Azərbaycan» (Ankara) dərgisi 1974-cü ildə onu yenidən nəşr etdirmişdir ki, bu da sovet Azərbaycanında kəskin əks-səda doğurmuşdur. Belə ki, «Kommunist» qəzetinin 1974-cü il 20 mart tarixli sayında F.Köçərlinin «Böhtançıya cavab»(16), 24 mart sayında çap olunan İ.Kərimovun «Agent kafedra arxasında» (15) adlı məqalələri Əhməd Cəfəroğlunun «ifşa»sına həsr edilmişdir (Ətraflı bax: 13).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lakin Əhməd Cəfəroğlu «Türk dili tarixi» monumental əsərində qıpçaq türklərinin ləhcə xüsusiyyətlərinin şərhi zamanı yenidən «İqor polku haqqında dastan»la bağlı həqiqəti üzə çıxaran çox maraqlı arqumetlər irəli sürmüşdür(11).

Türk xalqlarının alp-ərənlik tarixini özündə əks etdirən ən qədim söz incisi «Kitabi-Dədə Qorqud» eposu sovet ideoloji sistemi tərəfindən yasaq edilərkən mühacirət folklorşünasları bu dastanla bağlı daha çox tədqiqatlar aparmış, kəskin münasibətlərini ifadə etmişlər. Məhz həmin dövrdə M.Ə.Rəsulzadənin «Dədə Qorqud dastanları»(20), «Dədə Qorqud oğuznamələri» (21), M.B.Məmmədzadə «Dədə Qorqud»(18) məqalələrində, Ə.Cəfəroğlu «Azərbaycan dil və ədəbiyyatının dönüm nöqtələri»(5) əsərində bu problemlə bağlı münasibətlərini ifadə etmişlər (Ətraflı bax:12).

Bundan başqa, «Qaçaq Nəbi» dastanının senzura tərəfindən ixtisar edilmiş bəzi parçalarını Əhməd Cəfəroğlü «Azəri xalq ədəbiyyatında «Qaçaq Nəbi» dastanı»(2), H. Baykara «Azərbaycan istiqlal mücadiləsi tarixi» (1) əsərində, N.Keykurun(14), N.Turablı(25), Y.Lənkəranlı(17) eyni adlı məqalələrində nəşr etdirmiş, öz tədqiqatlarında belə münasibətin dözülməzliyinə xüsusi diqqət yetirmişlər.

Ə.Cəfəroğlu «Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi» əsərində «Cavad xan» dastanınını mövcudluğu ilə bağlı ehtimallar irəli sürmüş(3), S.Sənan «Azərbaycan saz şairləri»(22), Mehmet Şakir «Aşıq Qurbanın üç mənzuməsi» (24) məqalələrində «Aşıq Qərib» dastanından dinlə bağlı parçaların çıxarılmasına etiraz etmişdir. Bu faktların sayını istənilən qədər artırmaq mümkündür.

Mühacirət folklorşünaslığı bir çox hallarda xalq ədəbiyyatı nümunələrinin araşdırılmasına özlərinin azadlıq ideallarının həyata keçməsinin tərkib hissəsi kimi xüsusi həssaslıqla yanaşmış, folklor materiallarının toplanması, nəşri və təbliğinin, daha doğrusu, milli-mənəvi sərvətin öyrənilməsinin vacibliyinə diqqət yetirmişlər. Məhz buna görə də folklor materiallarının araşdırılması mühacirətdə iki istiqamətdə aparılmışdır:

1. Ədəbi-nəzəri;
2. İctimai-siyasi (23; 12).

Mühacirətdəki ziyalılar əsasən azadlıq, əsarətə barışmazlıq ruhunda olan, xalqın qəhrəman keçmişini əks etdirən folklor nümunlərini, yəni daha çox dastanlar, bayatılar, atalar sözlərini, ayrı-ayrı aşıqların həyatı və yaradıcılığını araşdırmaya cəlb etmişlər. Bir çox hallarda isə folklor nümunələri ilə bağlı müxtəlif problemlər mühacirətdə sovet folklorşünaslığından daha əvvəl qaldırılmış, maraqlı və maraqlı olduğu qədər elmi həllini tapmışdır.

Mühacirət folklorşünasları xalq ədəbiyyatı nümunələrinin toplanması və nəşri sahəsində də çox məhsuldar fəaliyyət göstərmişlər.Onlardan yalnız Əhməd Cəfəroğlunun 1940-1951-ci illlərdə Türkiyənin qarış-qıarış gəzərək topladığı zəngin irsi nəzərə alsaq, bu materiallar silsilə kitablar şəklində işıq üzü görmüşdür(4; 7; 8; 9; 10). Onların da mühüm bir qismi azərbaycanlıların kompakt yaşadığı ərazilərdən toplandığı üçün xüsusi əhəmiyyət kəsb edir.

AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev «Azərbaycan xalq ədəbiyyatı» dərsliyində doğru olaraq yazır ki: «Bu gün ədəbiyyatımızın yeni istiqamətdə, bütün genişliyi və zəngin janr tərkibi ilə araşdırılmasına və tədrisinə ehtiyac var. Bir çox məsələləri tədqiqata cəlb etmək, araşdırmalardan kənarda qalmış janrlardan söhbət açmaq, xalq ədəbiyyatını dövrləşdirmək, bir sıra janrların təsnifini dürüstləşdirmək və ümumilikdə xalq ədəbiyyatımızın ilkin müxtəsər tarixini yaratmağa ehtiyac duyulur» (19, səh. 17-18).

Azərbaycan folklorşünaslığının tam mənzərəsini əks etdirmək baxımından mühacirətdəki araşdırmaların, həmçinin toplanan materialların öyrənilməsi, vətənimizdə nəşri də mühüm əhəmiyyət malikdir.

**QAYNAQLAR**

1.Baykara Hüseyn.Azerbaycan istiqlal mücadilesi tarihi, İstanbul,1975

2.Jaferoğlu Ahmet. Azeri Halk Edebiyatında "Kaçak Nebi" destanı, **Azeri Türk** (İstanbul), № 13 (1928), s.3-5, №14 (1928), s. 9-10, №17 (1928), s. 7-9.

3.Jaferoğlu Ahmet. Azeri Edebiyatında İstiklal Müjadelesi, İstanbul, Burhaneddin Matbaası, 1932. 44 s.

4.Jaferoğlu Ahmet. Anadolu ağızlarından toplamalar, İstanbul, Bürhaneddin Basımevi, 1943, 272 s.

5. Jaferoğlu Ahmet. Azerbayjan dil ve edebiyatının dönüm noktaları, Ankara, Yeni Jezaevi matbaası, 1953, 26 s.

6. Jaferoğlu Ahmet. Sovyetler birligi Türkolocisi araştırmalarındakı rus kültür üstünlügü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

davası, **Dergi** (Münih), 1971, sayı 66, s.22-34.
7.Jaferoğlu Ahmet. Kuzeydoğu illerimiz ağızlarından toplamalar, Ankara, Ankara Universitesi Basımevi, 1994, 356 s.
8.Jaferoğlu Ahmet. Güney Doğu illerimiz ağızlarından toplamalar, Ankara, Ankara Universitesi Basımevi, 1995, 319s.
9. Jaferoğlu Ahmet. Anadolu İlleri ağızlarından derlemeler, Ankara, Ankara Universitesi Basımevi, 1995, 288 s.
10.Jaferoğlu Ahmet. Doğu illerimiz ağızlarından toplamalar, Ankara, Ankara Universitesi Basımevi, 1995, 296 s.
11.Jaferoğlu Ahmet. Türk dili tarihi, İstanbul, Enderun kitab evi, 2000
12. Həsənqızı Almaz. Azərbayjan mühajirət folklorşünaslığında dastançılıq məsələəlri, Bakı, Azərnəşr, 2002, 124 səh.
13.Həsənqızı Almaz. İki dastan, Bakı, Azərnəşr, 2006, 120 səh. 14.Keykurun Naki. Kaçak Nebi, **Azerbayjan**(Ankara), 1960, yıl 8, sayı 12, s.11-12
15.Kərimov İ. Agent kafedra arxasında, «**Kommunist**» qəzeti, 24mart 1974, №71(15591)
16. Köçərli Firudin. Böhtançıya javab, «**Kommunist**» qəzeti**,** 20 mart 1974,№ 66 (15586)
17. Lengeranlı Yunus. Kaçak Nebi. **Azerbayjan** (Ankara), 1981, yıl 30, sayı 236, s.13-14.
18. Mehmetzade Murza Bala. Dede Korkut, **Kafkasya** (Münih), 1952, №8, s.10-12.
19.Nəbiyev Azad. Azərbayjan xalq ədəbiyyatı, I, Bakı, Turan, 2002, 678 səh.
20. Resulzade M.E. Dede Korkut destanları, **"Azerbayjan"** (Ankara), 1952, yıl 1, sayı 6, s. 7-9.
21. Resulzade M.E. Dede Korkut Oğuznameleri, **Azerbayjan** (Ankara), 1953, yıl 2, sayı 7(9), s. 12-14.
22. Sanan Sadık M. Azerbayjan Saz Şairleri, **Azerbayjan Yurt Bilgisi** (İstanbul), 1932, yıl 1, sayı 2, s.55-59.
23.Sultanlı Vaqif. Azərbayjan mühajirət ədəbiyyatı, Bakı, Şirvannəşr, 1998, 198 səh.
24. Şakir Mehmet. Aşık Kurbaninin üç manzumesi, **Azerbayjan Yurt Bilgisi** (İstanbul), 1932, yıl 1, sayı 4-5, s.167-169.
25. Turaplı Nebi. Kaçak Nebi, **Müjahit** (Ankara), 1960, yıl 6, sayı 31-32,s.14-16

## The mainstreams of Azerbaijanian immigration folklore studies

The immigration folklore studies have looked at the folklore samples as a way to realize their freedom ideals. That is the reason why the folklore materials are examined in two directions:

1. literary-theoretical direction
2. political-public direction

Mainly the samples reflecting the heroic history of the nation and his struggle for the independence were gathered, investigated and published.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# АРХАИЧНЫЕ ФОРМЫ ФОЛЬКЛОРА В ХРОНОТОПЕ БАЛКАРСКОЙ ПРОЗЫ КОНЦА XX ВЕКА

***Д.ф.н., проф. А.М. Казиева***
***Россия***

Романы балкарских прозаиков, увидевшие свет в промежутке между 80-ми и 90-ми годами окончательно означали, помимо всего прочего и вступление национальной прозы на новую стадию развития. Тенденции, заложенные в произведениях авторов новой волны, получили свое развернутое воплощение в крупной прозаической форме, вплотную подведя национальную прозу к той границе, за которой начиналась ее истинное своеобразие и национальное существование. Это был тот путь, когда полная и неограниченная зависимость от «литературной моды» СССР сменилась осознанием своего национального начала, и в общем совпала с тенденциями большой советской многонациональной литературы, в которой начался процесс обратного влияния – новописьменных и национальных литератур на русскоязычную.

Теперь можно было говорить не о стилизации и стереотипном употреблении национальных и псевдонациональных литературных штампов, а об органичном вхождении прозы Северного Кавказа в качестве равного компонента в семью других литератур страны. Думается, что именно такие произведения, как «Жернова» И.Машбаша, «Мост Сират» А.Теппеева, «Большая медведица», «Белое платье» З.Толгурова позволили, наконец, национальным прозаикам выйти за пределы традиционного и узкого стиля, ограниченного набора тем и сюжетов и – что особенно важно – пользоваться находками русской литературы не как обязательными клише, но творчески и осознано. Эта была та стадия развития национальной литературы, характеристику которой дали многие ученые, Когда национальную специфику литературы стремятся ограничить каким-нибудь одним стилем, восходящим, как правило, к седой старине, когда против национального нигилизма борются оружием национального традиционализма, то объективно национальное может превратиться в средство разобщения, в перегородку между культурами разных народов. На самом же деле происходит взаимное обогащение советских литератур, расширение их эстетических горизонтов. Это вызвано ростом национального самосознания народов, их сближением между собой, новым единством исторических путей, судеб и устремлений, на основе которого прочно зиждутся идеалы народов. Эстетический идеал вбирает в себя многообразие народной жизни, национальных характеров, специфики художественной образности, стилей, трансформируя все это в сложное единство, обладающее множеством национальных граней, яркостью и неповторимостью красок». [1:180]

Новый виток развития национального эстетического сознания связан, прежде всего, с углубляющимся его кризисом в условиях нового окружения. В современном мире само понятие национального и, соответственно, фольклорного настолько размыто, что во многих случаях закономерным выглядит вопрос – насколько национальны современные прозаики -представители новописьменных литератур.

Возникает интересное положение, когда именно те авторы, чье творчество как бы «опережает» в своем развитии средний уровень, чье творчество можно увереннее увязать с общемировыми литературными тенденциями, более четко могут быть идентифицированы с тем или иным национальным колоритом, относительно четко увязаны с определенной культурной средой. Говоря о национальной прозе, мы должны констатировать, что та составляющая, которую мы обычно и относим к «национальной» узнаваемо присутствует у авторов младшего поколения, причем более всего – на образном уровне: «Мощный порывистый ветер с низины не унимался вот уже третий день. Высвобождаясь из глубины ущелья, он широко расстилался над самой землею и, чуть помедлив перед атакой, с воем врывался в пустые глазницы окон полуразвалившейся мечети, где, обшарив все щели каменной кладки, задыхался, не в силах найти выхода. Возникающие в разных местах смерчи поднимали в воздух тучи беловатой пыли, слизанной со стен здания мечети и желтых шероховатых камней ущелья, кое-где им удавалось вырвать и камень с осыпающегося фундамента и, казалось, ярость этого ветра неисчерпаема.

Разрушить старую мечеть оказалось непросто. Но даже после того, как Чиппо удалось выворотить из стены и столкнуть вниз огромные отесанные под кладку фундамента камни, дело не продвинулось. Главной задачей было погрузить их на воловью арбу и отвезти к месту, где собирались построить школу. …



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

А ветер, позабыв свое привычное направление вдоль по течению реки, понесся в обратную сторону, смущая жителей аула Кургак невыносимым воем и стоном. «Дурная примета, – говорили в ауле, – это души умерших оплакивают мечеть». [5:3]

Как мы можем видеть, вступление романа З.Толгурова полностью базируется на сугубо фольклорных архетипах, буквально дублирует их и интегрирует в современную повествовательную ткань.

И, начиная с конца 80-х, и позже, вплоть до нашего времени, горская проза, в частности, роман, пошли по перспективнейшему пути развития – по крайней мере, у лучших представителей Национальной литературы. Конечно, стремление насытить прозаический текст узнаваемыми деталями, относящимися к традиционно национальному бытийному окружению, имеет место у всех балкарских авторов. В ряде случаев это обуславливает реальное национальное качество – тем более, если фольклорные элементы, устойчивые национальные символы сопряжены с новыми, оригинальными трактовками окружающего мира или внутреннего «я» автора: «Крым, зажурившись, вытянул перед собой руки и замер. Его тотчас же окружила тишина, прохладный ветерок, игриво мотающийся по закоулкам, затих, исчезли возня т азартные крики ребятни, игравшей в альчики неподалеку. Ощущая ладонями тепло лучей солнца, Крым задумался о сокровенном. Вообще, надо сказать, Крым – паренек любознательный и очень любит мечтать. Порою ему бывает даже скучно играть с мальчишками, бегать с ними на речку, потому что он знает то, что дано не всякому там уличному задире. Он должен увидеть Золотую чашу, которую Судьба дарует не каждому, испить из нее чистейшей родниковой воды. Правда, он еще не знает, кто именно подаст ему эту самую Золотую чашу. «Ее протягивает Судьба, – говорила бабушка Геля, а она никогда ничего не выдумывает и не обманывает. – Золотая чаша, – говорит Геля, – это Надежда, которую человек не должен терять, как бы тяжело ему не было, тогда Судьба вознаграждает этого человека – дает ему утолить долгую и мучительную жажду из Золотой чаши». [5: 4-5]

И это направление развития стало генеральной линией эволюции национальной прозы, как наиболее соответствующее требованиям современности и, в то же время, связанное с национальным сознанием и мировосприятием. Это было направление, ориентированное на создание сложных произведений, характеризующихся, прежде всего, своеобразным синтезом национальных форм художественного восприятия, мышления с образными рядами общечеловеческого, общекультурного плана:

– Видишь ли, Эккяй, - Каспот медленно подбирал слова. – Там, где нет справедливости, равенства, уповать на одну совесть, человечность – значит обманывать себя. Овца – самое спокойное, мирное животное. Но как легко справляется с ней волк.

– А ты хочешь, чтобы и у овцы были такие же зубы, как у волка. Но тогда в мире будет вечная грызня.

– Значит тебя устраивает, что волки постоянно режут овец, – сказал он.

– Аллах создал природу именно такой. Овцам – трава, волкам – мясо. Если овца не захочет травы, а захочет мяса, она превратится в хищника. По-твоему это хорошо? Покой на земле будет тогда, когда слабый смирится со своей слабостью, а сильный будет пользоваться своей силой. Таков вечный закон природы, а люди дерутся между собой оттого, что не понимают законов природы. – Голос девушки потерял нежность, в нем появились жесткие нотки». [6: 100]

Часто тексты подобного рода базируются на фактическом отрицании эстетических стандартов предыдущей культурной традиции, иногда даже в открыто продекларированной форме: «Марков нервничал, что-то не сходилось: по диалектическим законам природы все должно было получиться наоборот.

Марков больше не слушал Чиппо. Действительно, лошадь есть лошадь – хорошая, плохая ли, пускай говорят, какое ему дело до обыкновенного животного? Но, признаться, мысли об этом животном становились уж слишком навязчивы. Или он сошел с ума: стал верить слухам, бытующим в этих местах? И почему люди говорят о каких-то столетних родовых корнях этого коня, когда сами родились не далее как вчера, благодаря революции? Марков глянул на Чиппо, как на новорожденного. «Как они смеют почтительно говорить о прошлом, позабыв о своей матери – советской власти, - с возмущением подумал Марков, пройдясь по комнате, - да еще и речь о животном – пятьсот, тысяча лет! Да у них, я смотрю, опасные амбиции, - не ожидал, не ожидал, не собираются они признаваться, что это именно советская власть раскачивала колыбель, в которой они покоились несмышлеными. Бесхвостые ящерицы … Они не могут понять, что они только начали вылупляться, лишь носы показались из треснувших яиц. Не то, что не могут – не хотят. А это не так уж просто. С этим надо бороться, это надо вырезать, вырвать с корнем. Но как? Все, что от него зависело, он сделал, и что толку? Сознание не висит, словно женская коса; было бы так, Марков живо подрезал бы ее. Знать бы где, в каком месте у человека прячется сознание –



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

оно заключено не только в сердце или мозгу, – но где же тогда? В семи изгибах шумного Черека? В Алакезе? Этого не узнаешь, – размышлял Марков, присев на табуретку». [5: 256-257]

Выйдя из-под давления официальной идеологии государства, северокавказская проза естественно пришла к реализации своих национальных эстетических ресурсов уже в форме развернутых архетипических систем, показывающих нам этническое не на уровне образности или объектного окружения действующего героя, а скорее на уровне аперцептивном, когда сам тип мировосприятия ярко свидетельствует о национальной специфике художественного мышления автора: «После сказок матери ему во сне часто являлись нарты на белых лошадях, белый марал, прилетал огромный белый орел. Но Азретали не успевал сесть на крыло белого орла, оседлать белую лошадь, коснуться шеи белого марала, - они исчезали, наполняя его сердце смутной печалью. … Он и наяву думал об этой зеленой поляне и мечтал отыскать ее, никому не раскрывая своей тайны. Оседлает белую лошадь, которую поймает там, и сам станет нартом… А целебное молоко белого марала будет отдавать больным…». [7: 328]

Логическим итогом этого процесса стало появление произведений совершенно особого типа, характеризующихся наличием непривычных для русского читателя структурных инноваций.

В подобных случаях мы можем говорить не о буквальном внедрении фольклорных элементов в прозу. Проблема эта гораздо шире, и заключается она в расширении изобразительных и гносеологических возможностей художественного текста.

В эволюционном смысле можно констатировать, что горская проза начала выходить на новый качественный уровень развития. В смысле образного воплощения авторского замысла произведения данного типа отмечены не только присутствием ярко индивидуальных, можно сказать – уникальных образов, свойственных конкретному автору и никому больше. Все чаще и чаще в повествовательную стихию прорываются конкретные детали национального мира, национального мировосприятия, все чаще объекты традиционного происхождения становятся выразителями эстетических переживаний автора: «Поверить тому, что говорят об Эккяй, значило бы разочароваться в ней, но Каспот был не из таких. Для него не было более красивой и умной девушки, чем Эккяй. Правда, многие аульчане пытались внушить Каспоту, то, во что поверили сами. «Не боязно тебе, Каспот, быть женихом девушки, с которой дружен белый джинн?» - говорили ему. Однажды на нагыше (место, где собираются старейшины аула – А.К.) Шамгун сказал: «Напрасно ты, парень, храбришься. С белым джинном шутки плохи. Ты даже не узнаешь, чей кол проломит твой затылок. Бессилие и злость станут твоими спутниками, и от девушки поневоле откажешься. Пусть меня поразит Тейри, если я говорю неправду». [6: 96]

Детальный анализ механизмов этого явления весьма сложен, но, в общем и целом мы можем, скорее всего, утверждать, что подобная структура восприятия, фиксации и обработки эстетической информации больше всего соответствует специфике национального общественно-культурного сознания, реализующего свои возможности в условиях урбанизированного окружения.

Даже поверхностный обзор современной национальной прозы говорит нам о том, что интерес к сугубо социальным темам исчерпался, мифологема – причем мифологема аутентичная, национальная стала характерной чертой современного балкарского романа, она обыгрываются даже в текстах, посвященных темам изначально идеологическим и как бы не требующим какого-либо использования фольклорных архетипов.

– Добрый день, девушки, - сказал Каншау, с трудом уняв волнение, уж не жажда ли пригнала вас сюда?

Нальбике ясно поняла, о чем спросил джигит. Это был жаз тил – весенний язык, тайный говор влюбленных. И ответила на том же языке.

Нальбике:

– Давно мы не пили чистой воды, - и этим открыла свою тоску. – А вода, что может утолить нас… течет с гор.

Каншау:

– Счастлив родник, если сумеет утолить чью-то жажду.

Нальбике:

– Но ведь мы не ангелы, чтобы знать тайну родника, - родник то бурлит, то замирает, а то и вовсе уходит в землю.

Каншау:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Он так чист и прозрачен. Стоит лишь заглянуть в его глубину. Если же … если же эмегены не выпьют его и не осушат до дна… [4: 110-111].

На наш взгляд, в подобных случаях мы имеем дело с совершенно определенным явлением. Логичным выглядит предположение, что авторов привлекает не столько необычность или даже некоторая эпатажность образов такого характера, а скорее их способность воздействовать на читателя. Непривычность отражаемого в тексте объекта способствует остроте и свежести его восприятия, и в этом смысле они являются элементами, в которых реализуется индивидуальный стиль автора, так как проявления личной манеры прозаического изложения здесь тесно связаны именно с отбором самих объектов изображения.

Дальнейшее развитие этой тенденции неизбежно приводит к появлению в национальной прозе произведений, в которых авторские свобода и индивидуальность проявляются уже на стадии формирования собственно идеологемы, т.е. автор, используя в произведении достаточно традиционные системы образов – в номинативном смысле – в смысле их текстового воплощения может представлять абсолютно непривычные для читателя сочетания: «Далеко запустив свои корни, - вздохнул Казак, – ты сохранил здесь почву от напора воды и ветра, в теперь твое трухлявое дупло заполнили камнями, даже ты с трудом вбираешь в себя влагу, гибнут ветви твои, много у тебя болячек, отметин от топора и ножа… Такова жизнь. Деревья, которым ты помог укорениться, перешептываются, видя лишь обугленные ветви да трухлявое дупло. Рядом с тобой они еще больше чувствуют себя зелеными стройными красавицами. Но что же, законы жизни не изменишь. Потерпи, немного осталось, дорогой мой друг. Все есть в этом мире: гордость и несчастье, дурное и мудрое, сильное и слабое – всего вдоволь. Но всегда судьба беспощадна к тем, кто лучше других, к тому, что нам всего более необходимо и дорого». [6: 158].

В конечном итоге мы имеем дело с процессом расширения, как рамок индивидуальной творческой свободы автора, так и с проявлением форм национального эстетического, художественного мышления на новом уровне. Действительно, пытаясь проследить эту линию развития на примере национальной прозы, мы неизбежно придем к выводу, что наиболее четко проявленные феномены личной творческой свободы истоком своим имеют именно интерес к ранее не использовавшимся в качестве эстетических объектов (в советский период):

– Выходит, золото взял этот русский солдат? – спросила Халимат заискивающе, как бы боясь спугнуть едва затеплившуюся надежду.

– О каком русском ты говоришь?

– Который Крыма с собой забрал.

– Никакого русского я не знаю. Говорю же тебе, государство забрало.

– Ты, бедолага, кого называешь государством?

– Посмотрите на эту дуру! Говорят тебе, что ты Хаббла, обижаешься. Лишь она живет, не ведая и не понимая, что такое государство. …

Государство – не человек, – отрезала она, наконец.

– А что же это?

Айшат раскинула руки, как будто собиралась обхватить что-то большое, но поолчала, словно не знала, что сказать.

– Оно велико, как Аллах, - сказала она, наконец.

– Замолчи, не гневи Аллаха, и так мы у края пропасти! – воскликнула Халимат. Айшат засмеялась, обнажив свои безобразно желтые зубы, казавшимися огромными из-за больных, стертых десен. В этот миг она действительно была сумасшедшей.

– Не Аллах довел нас до этого, вот это государство, о котором я говорю, и погубило нас, – сказала Айшат, перестав смеяться. – Аллах един и живет на седьмом небе. А государство и день, и ночь у нас в доме. Как домовой. Что бы ты ни делал – все видит, все знает.

– Бедная ты моя, шайтан овладел твоей душой, – сказала Халимат, чувствуя, как ком горечи вновь подкатывает к горлу.

– Нет, нет! Какой шайтан? Прочел молитву – и он, несчастный, исчез. А государство – оно везде – на кровати, под кроватью, может тяжелой глыбой навалиться на грудь и лишить тебя дыхания.

– Но как же тебе удалось сохранить жизнь, несчастная моя сестра? – спросила Халимат. ….

– Оно оставляло меня в покое, когда я поступалась частичкой своей веры. Но требовало поступаться слишком часто, пока не отняло ее у меня всю без остатка… Оно отняло у меня веру и взамен оставило мне мою никчемную жизнь». [5: 266-267].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Фактически, в применении к интересующему нас вопросу, можно утверждать, что сам факт обращения авторов к фольклорным архетипам и образным комплексам является одним из базовых принципов фольклорной эстетики вообще. Он свидетельствует о том, что национальная проза, национальное художественное мышление естественно и не ограниченно какими-то идеологическими рамками. Иначе говоря, несколько десятилетий развития национальной литературы в качестве новописьменной характеризовалось своеобразным «избеганием» в употреблении элементов этого происхождения в текстах. Исключения относились к проявлениям природной одаренности авторов, но на уровне тенденции, постоянно присутствующего явления, не наблюдались.

Истоки этого процесса, в случаях отсутствия внешнего влияния – в фольклоре. Создание исторических песен, отказ от логических конструкций, панхроничных и внепространственных произведений в словесном творчестве уже знаменует взрыв изолированного мира полумифического сознания. Не вдаваясь в теоретические споры о сформированности-отсутствии жанровой парадигмы исторических песен [2: 64-67], отметим принципиальное для нас наличие в текстах исторических песен реальной хронологической протяженности, выражаемой чаще всего в рациональной локализации сюжетного времени с четко выявленной общественно-исторической, а иногда – и пространственной атрибутикой: «…сюжет исторических песен разомкнут, и эта разомкнутость позволяет воспринимать содержание произведений как звено в реально протекающем историческом процессе. Художественно осмысленный факт создатели песни «включают» как эпизод в систему общественных отношений, событий политической и военной истории своего времени» [3: 54].

Переход от сугубо иллюзорных хронотопических объемов архаичных форм фольклора к приближенным к реальности неизбежно требовал создания соответствующих образных рядов. Иначе говоря, преобразование, эволюция устойчивых форм в устном народном творчестве столь же естественный процесс, как и в авторской литературе – во всяком случае, до определенного порога.

Сравнивая же образные системы фольклора и современной национальной прозы на современном этапе ее развития, мы можем заметить, что, как правило, использование фольклорных элементов приобретает совершенно новый вид. Реализуется это в виде изменения роли и содержательной нагрузки образа фольклорного типа. К примеру, очень отчетливо видно, что однозначно восходящий к эпическому, фольклорному образу эмегена Жельбыдыра З. Толгурова никоим образом не выполняет роль идеологическую, никак не претендует на качество признака национального в данном произведении. Зейтун Толгуров одним из первых в истории национальной художественной мысли стал использовать фольклорные образы для передачи оттенков и нюансов своих стратификационных устремлений. Иначе говоря – перед нами пример использования ресурсов национального способа познания мира, способа, свойственного носителям именно балкарского миропонимания и миросозерцания.

Надо сказать, что такой подход к использованию фольклорных элементов стал преобладать даже в произведениях явно выраженного социального плана, произведениях, посвященных рассмотрению тех или иных моментов эволюции идеологической среды, в которой пребывал или пребывает этнос.

Несмотря на явное преобладание роли идеологического идентификатора текста – как это было и на более ранних этапах развития национальной прозы – мы можем наблюдать новое качество фольклорных форм. Как мы помним, картины острейших социальных катаклизмов, трагические моменты истории балкарского народа – одни из самых распространенных в национальной литературе. Но теперь развитие их в творчестве национальных авторов пришло к тому этапу, когда уровень свободы их употребления уже свидетельствует о зрелости художественного мышления, о переходе эстетического сознания народа на ступень самостоятельного эволюционного развития. В частности, в романах З.Толгурова по большому счету сохранена – в определенной, разумеется, мере – сама форма традиционной подачи фольклорного героя.

Более архаичные фольклорные элементы остаются в границах замкнутого идеологизированного эстетического пространства – в худшем случае. Основной ценностной характеристикой их является демонстрация соответствия этики, философии, идеологии автора официальным позициям общества, и, конечно же – иллюстративность и доказательность национальной составляющей произведения.

К этому времени в произведениях балкарских прозаиков фольклорные элементы уже, собственно говоря, и не являются таковыми в буквальном смысле слова – по крайней мере, случаи прямого переноса готовых фольклорных формул в произведения крайне редки. Теперь, в полном соответствии с новыми задачами и требованиями эстетического сознания народа, речь могла идти только о создании сферы национальной духовности в романах – духовности, проявленной, прежде всего, в тех культурных и бытовых признаках, которые могут осмысляться не как самодовлеющие и изолированные обозначители



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

и знаки национальной принадлежности текста, но, прежде всего – как среда существования художественной мысли, получившей свою этническую окраску не по внешним признакам, а по сути.

Здесь вновь мы сталкиваемся с образом женской красоты, однако в эстетизация женского образа зачастую чисто зрительный прием, дающий читателю возможность более детализировано разглядеть визуальное представление, данное автором. Влияние фольклорного образа практически не угадывается, но ассоциативная апелляция к фольклорным образам женщин очевидна и неоспорима.

Может быть, именно подсознательное стремление полнее представить свой национальный мир, объясняет стабильное тяготение балкарских прозаиков к выражениям, ориентированным на предыдущую традицию, на культурный субстрат балкарского этноса, особенно в части представления диалоговых и монологовых вставок.

Прямое употребление фольклорных и традиционных образов в качестве эстетически реальных объектов может вообще считаться одним из характерных признаков стиля современной национальной прозы: «Пораженная шапка, прибитая к каменному выступу, на миг приостановилась, будто решала, катиться ей дальше или нет. Но пули снова сдвинули ее, и она покатилась… Она неслась, будто тяжелый котел с расплавленным металлом, чтобы выплеснуться на головы врагов. Будто огромное колесо, готовое переломать им ноги. Будто скала, грозящая раздавить их всех.

…Не шапка – израненное, истекающее кровью животное, бросившееся на охотников, неслось со склона!..

Шапка неслась, катилась, катилась и… смирно уткнулась в ногу одного из врагов. Кованый носок сапога отбросил ее прочь, она взлетела вверх и ударилась макушкой оземь. … Что она могла теперь? Разве лишь проклинать свою судьбу… И она проклинала:

– Шапка я или заброшенный под кроватью комок старой шерсти? Отчего я не скатилась вместе с головой хозяина, отчего полна не кровью, а плевками? Видели ли вы когда-нибудь, чтобы шапка падала, а хозяин ее был цел-невредим? Срубят голову – и шапка летит, что поделаешь… Втопчут в грязь копытами – но только вместе с тем, кого она согревала… А со мной – смотрите! – нет рядом того, кто должен быть. Я одна, беззащитна, и топчут меня сапоги пришельцев…

– Я шапка! Во мне – тепло и нежность женских рук. Немало я согревала мужчин. Я была колыбелью для новорожденных. Джигитов я водила на ратные подвиги, женихи ходили со мной высматривать невест. Не я ли удерживала мужчин от постыдного шага? …

Оставшийся без шапки – как неприкаянный бродяга. Позволить сбить шапку – все равно, что позволить плюнуть в седую бороду. Меня не оставляли за дверью ни на свадьбах, ни на празднествах. В горькие минуты мужчины скрывали слезы, надвигая меня на глаза… А мой хозяин снял меня и бросил, как женщина наперсток с пальца. Теперь качусь, бегу… Куда?! Бегу, как пес, которого забросали палками, как осел, которому отрезали уши… [7: 365-366].

Все приведенные отрывки в высшей степени обогащены традиционными и привычными в для национальной прозы архетипами. Все они знакомы нам еще по фольклорным произведениям. В то же время, их функциональная нагрузка в произведениях носит совершенно особый характер, раскрывающий основные этические, идеологические, художественные принципы и воззрения народа, но уже никакой речи об идеологическом или стилизационном их использовании быть не может.

С этой точки зрения фольклорные элементы и национальная символика соответствуют той степени усвоения предыдущей традиции, которая предполагает достаточно четкое и конкретное понимание как самодостаточности национальной эстетики, так и ее функциональной в смысле изобразительных возможностей полноты.

Первопроходцами в такой трактовке фольклорных архетипов в балкарской национальной прозе можно, по всей видимости, считать именно А.Теппеева и З.Толгурова. Именно в их произведениях, начиная с середины 60-х годов, стабильно наблюдается стремление к реальному представлению символических фольклорных картин и даже формульных выражений.

**БИБЛИОГРАФИЧЕСКИЙ СПИСОК**

1. Гей Н., Пискунов В. Эстетический идеал советской литературы. - М., 1962.
2. Пропп В. Жанровый состав русского фольклора.//Русская литература, 1964, № 4.
3. Селиванов Ф.М. О специфике исторической песни. В кн. Специфика фольклорных жанров. М., 1973.
4. Теппеев А. Воля. Роман. Пер. с балкар. – М.: Современник, 1986.
5. Толгуров З. Голубой типчак. Роман. Пер. с балкар. – Нальчик: Эльбрус, 2003.
6. Толгуров З. Большая Медведица. Роман. Кн. 1. Пер. с балкар. – М.: Современник, 1988.
7. Толгуров З. Алые травы. Повесть. Пер. с балкар. – Нальчик: Эльбрус, 2003.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AĞBABA – ÇILDIR AŞIQ MÜHİTİNDƏ AŞIQ NƏSİBİN YERİ

***F.e.n. Avtandil Ağbaba***
***Sumqayıt Dövlət Universiteti***

Azərbaycan aşıq yaradıcılığının ən qədim və zəngin qollarından birini təşkil edən Ağbaba-Çıldır aşıq mühiti, bu mühitin görkəmli nümayəndələri, klassik və regional dastanlar, ifaçılıq ənənələri, keçdiyi tarixi inkişaf yolu onun özünnəməxsus mövqeyini müəyyənləşdirməkdədir. Müxtəlif zaman kəsimlərində bu mühitin Azərbaycan aşıq sənətindən müəyyən qədər təcrid olunması onun musiqi və söz repertuarının formalaşmasına öz təsirini göstərmişdir. Ədəbi-estetik və genetik qaynaqların ozan-aşıq sənəti ilə birbaşa və qədim köklərlə bağlılığı lokal coğrafi arealdakı onun hüdudlarının müəyyənləşməsində də nəzərə çarpmaqdadır. Başqa sözlə, Ağbaba və Çıldır bölgələrinə yaxın ərazilərdə yaşayan erməni və gürcü aşıqları da Ağbaba-Çıldır aşıq mühitinin özəlliklərindən bəhrələnərək azəri türkcəsində çalıb-çağırmış, bu mühitdə geniş yayılan saz-söz repertuarından bəhrələnmişlər. Təsadüfi deyildir ki, Aşıq Şenlik gürcü sənətkarları arasında «baş aşıq» şöhrəti qazanmış, gürcü aşıqları ona böyük hörmət və ehtiram bəsləmişlər.

Ağbaba-Çıldır aşıq mühitində müxtəlif dövrlərdə Pir Sultan Abdal (XVI əsr), Bağdad xanım (XVI əsr), Aşıq Ömər (XVII əsr), Aşıq Xəstə Həsən (XVIII əsr), Aşıq Şenlik (1853-1912), Aşıq Məhərrəm (XIX əsr), Aşıq Gülüstan (1920-1970), Aşıq İsgəndər Ağbabalı (1925-1995) və digər saz-söz ustaları yaşayıb yaratmışlar. Qətiyyətlə demək lazımdır ki, adını çəkdiyimiz və çəkmədiyimiz Ağbaba-Çıldır aşıq mühitinin nümayəndələrinin yaradıcılıqları nə Türkiyə, nə də Azərbaycan folklorşünaslığında kifayət qədər öyrənilməmişdir. Bunun da əsas səbəbi yuxarıda qeyd etdiyimiz kimi, keçmiş Sovetlər Birliyi ilə Türkiyə dövləti arasında sosial-siyasi və mədəni əlaqələrin soyuqluğu olmuşdur.

Həyat və yaradıcılığı çox az öyrənilmiş belə saz-söz sənətkarlarından biri də Aşıq Nəsibdir. «Sənət dərsini Aşıq Şenlikdən alan Kor Nəsib ustadlarına layiq bir aşıq olmuşdur. Söz dünyasının kamil bilicisinə çevrilən bu qüdrətli sənətkarın qarşısına çıxmağa nadir aşıqların cəsarəti çatmışdır. Onun Aşıq Ələsgərlə məşhur deyişməsi ağır sənət sınaqlarından sayılır» (10.200)

Aşıq Nəsibin həyatı haqqında bəhs etməmişdən əvvəl indiyədək onunla bağlı aparılan araşdırmalar barədə qısa da olsa məlumat verməyi lazım bilirik. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Aşıq Nəsibin yaradıcılığının çox az bir qismi bizə gəlib çatmışdır. Bunun da bir sıra səbəbləri var. Birincisi, Aşıq Nəsib uşaqlıqdan gözləri çiçək xəstəliyinə tutulduğu üçün yazıb-oxumağı öyrənə bilməmişdir. Lakin iti fəhmi, möhkəm zehni, böyük istedadı ona el arasında geniş ad-san qazandırmışdır. Ümumiyyətlə, Azərbaycan aşıq ədəbiyyatının bir çox görkəmli simaları müəyyən səbəblər üzündən təhsil ala bilməmişlər. Tanınmış folklorşünas-alim İ.Ələsgərli Aşıq Ələsgərlə bağlı bu məqama toxunarkən yazır: «Aşıq Ələsgər təhsil almamış, yazı-pozu bilməmişdir. Lakin çox kəskin hafizəsi və həmişə öyrənməyə cəhd göstərməsi sayəsində zəngin bilik qazanmışdır… Ali savadı şifahi yolla əldə etmək üçün belə güclü hafizə taleyin aşığa bəxş etdiyi qeyri-adi fitri qabiliyyət idi» (3.23).

Ustad sənətkar Aşıq Ələsgər kimi, Aşıq Nəsib də müstəqil şəkildə bilik qazanmağa, dünyagörüşünü genişləndirməyə daim səy göstərmişdir.

İkinci ən mühüm səbəb, Aşıq Nəsib Sovet hakimiyyətinin şəninə tərif demədiyinə görə onun əsərlərinin çapı qadağan olunmuş, adını çəkmək yasaq edilmişdi. Sovet hakimiyyəti illərində folklor örnəklərinin toplanıb nəşr edilməsi, ayrı-ayrı söz sənətkarları haqqında elmi tədqiqatların aparılması, məqalələrin yazılması və s. sürətlənsə də, Aşıq Nəsibin həyat və yaradıcılığından demək olar ki, bəhs olunmamışdır. Bu hal iyirminci əsrin səksəninci illərinin sonlarınadək davam etmişdir. Aşıq Nəsib haqqında ilk geniş məlumat mərhum folklorşünas-alim Qəşəm Vəliyev tərəfindən verilmişdir. O «Aşıq Şenliyin həyatı, mühiti və poetik yaradıcılığı» adlı namizədlik dissertasiyasında, müxtəlif mətbuat orqanlarında («Azərbaycan» jurnalı, 1988, №6) aşığın əsərlərindən müəyyən nümunələr çap etdirmiş, onun həyat və yaradıcılığı haqqında qısa da olsa bəhs etmişdir.

Həvəskar folklor toplayıcısı S.Ağbabalı «Ağbaba folkloru» kitabında (5) Aşıq Nəsibin poeziyasından iki gəraylı və bir qoşma vermiş, həyatı haqqında bir necə cümləlik qısa məlumatla kifayətlənmişdir. Burada o, iki yerdə qeyri-dəqiqliyə yol vermişdir. Birincisi, aşığın doğum tarixi kimi 1874-cü ili göstərmişdir. Qeyd edək ki, bu tarix ustad sənətkarın əsərlərinin ən mükəmməl nəşri sayılan «Aşıq Nəsib» adlı kitabında da (4) getmişdir. Əslində isə Aşıq Nəsib 1870-ci ildə anadan olmuşdur. O, Güllübulaqda təzə qəbiristanlıq deyilən qəbirstanlıqda dəfn olunmuşdur. Onun qəbir daşının üzərində doğum tarixi 1870-ci il qeyd olunur. Deməli, ən dəqiq tarix məhz 1870-ci il olmalıdır.

«Ağbaba folkloru» kitabında gedən digər bir yanlışlıq onun gözlərinin tutulması haqqındadır. Həmin məlumatda deyilir: «Ömrünün sonlarına yaxın gözləri tutulmuş, Kor Aşıq adı ilə də tanınmışdır» (5.60). Bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

fakt da qeyri-dəqiqdir. Onun gözləri uşaqlıqdan tutulmuşdur. Aşıq Nəsibin müasirləri də bu faktı təsdiqləyirlər. Aşığın şeirlərindəki «Qara yolun yolçusuyam», «ağ dünyaya həsrət qaldım» və s. misralar da onun gözlərinin uşaqlıqdan tutulduğunu göstərir. Əgər aşığın gözləri sonralar tutulsaydı o, qeyd etdiyimiz misraları yazmaz, gözlərinin dünya işığından məhrum olmasını başqa cür ifadə edərdi.

AMEA-nin Folklor İnstitunun əməkdaşı T.Səmiminin tərtib etdiyi «Duman dağı bürüdü» (6) kitabında da Aşıq Nəsibin qoşma, gəraylı və divanilərindən, aşıqla bağlı maraqlı əhvalatlardan, dastan-rəvayətlərdən müəyyən nümunələr verilmişdir. Ümumiyyətlə, Aşıq Nəsibin şeirlərinin, onun haqqında dastan-rəvayətlərin toplanıb işıq üzü gərməsində T.Səmiminin böyük xidmətləri vardır.

Filologiya elmləri namizədi A.Bayramovun tərtib etdiyi «Oğuz elindən-ozan dilindən» adlı kitabda (12. 84-86) aşığın həyat və yaradıcılığı haqqında yığcam məlumat və dörd şeri verilmişdir. Topluda Aşıq Nəsib haqqında diqqəti çəkən cəhətlərdən biri verilən məlumatın nisbətən mükəmməlliyidir. «Dünyada» adlı divani də ilk dəfə bu kitabda çap olunmuşdur və çox təəssüf ki, nədənsə «Aşıq Nəsib» kitabına salınmamışdır. Onu da qeyd etmək lazımdır ki, adını çəkdiyimiz kitablarda Aşıq Nəsibdən verilən şeirlərin əksəriyyəti eyni şeirlərdir. Məsələn «Keçdi» gəraylısı cüzi fərqlərlə həmin kitablarda və jurnallarda eynilə verilmişdir.

Bu sətirlərin müəllifi də Aşıq Nəsib haqqında müəyyən məlumat verməklə, əsərlərindən nümunələr çap etdirmiş, elmi jurnallarda məqalələrlə çıxış etmişdir.

Aşıq Nəsibin əsərlərinin ən mükəmməl nəşri isə ilk dəfə olaraq 2004-cü ildə gerçəkləşmişdir. Professor H.İsmayılovun və Folklor İnstitutunun əməkdaşı Tacir Qurbanovun tərtib etdikləri kitabda görkəmli sənətkarın müxtəlif janrlarda yazdığı şeirlər, dastan-rəvayətlər, aşıq rəvayətləri və rəvayətlər toplanmışdır. Professor H.İsmayılov kitaba – «Kor taleyə, qara bəxtə nə deyim?!» adlı ətraflı bir ön söz də yazmış, aşığın həyat və yaradıcılığı haqqında daha dolğun elmi məlumatlar vermişdir.

Aşıq Nəsib 1870-ci ildə Amasiya rayonunun Güllübulaq kəndində anadan olmuşdur. Atası Bayram kişi maldarlıq və əkinçiliklə məşğul olmuş, ailəsini dolandırmışdır. Nəsibdən başqa onun Yusif və Rza adlı daha iki oğlu olmuşdur. Aşığın uşaqlıq və gənclik illəri çətin dövrə təsadüf edir. «Türklərlə rusların savaşları XVIII-XX yüzillərdə üç yüz ilə qədər bir dövrü əhatə edir. Bu döyüş illərinin cəmi əlli yeddi ildir. Bu, hər iyirmi ildə bir çarpışmalar deməkdir. Yaxın tarixdə bu qədər çox vuruşan başqa iki millət yoxdur» (9; 89). Çar Rusiyasının Qafqazda özünü möhkəmlətmək siyasəti Sultan Türkiyəsi ilə tez-tez ciddi münaqişələrlə, qanlı müharibələrlə nəticələnirdi.

Nəsibin aşıqlığa başlamasının da qəribə və möcüzəli bir tarixi var. Güllübulaq kəndinin yaşlı sakinlərinin və aşığın şagirdi Aşıq İsgəndər Ağbabalının dediklərinə görə, Nəsib yuxuda olarkən bir dərviş ona alma verir. Nəsib almanı götürmək istəməsə də, dərvişin təkidindən sonra almanı alıb yeyir. Dərviş ona deyir ki, bu adi alma deyil, bu, insanı çoşduran, sinəsini sözlə dolduran almadır. Bu əhvalatdan sonra Nəsib aşıqlığa başlamış, çalıb oxumuşdur. Aşıqlıq sənətinin sirlərini o əvvəlcə Göləli İbrahimdən öyrənmişdir. Aşıq İbrahim öldükdən sonra bütün Anadoluda və Azərbaycanda məşhur olan Çıldırlı Aşıq Şenliyə şagirdlik etmiş və onu ömrü boyu unutmamışdır. «Yerə var» qoşmasında Aşıq Nəsib ehtiramla yazırdı:

Usta Şenlik yenə düşdü yadıma,
Dəli könül, bir quşa dön, ora var.
Yandım, yandım, Allah, yandım ataşda,
Çıldır kimi bu tərəfdə görə var?! (4.21)

Aşıq Nəsibi görənlər deyirlər ki, o çox cəsarətli, sözü üzə deyən, həm də həddən artıq səxavətli bir insan olmuşdur. Dünya malına, var-dövlətə qətiyyən tamah salmamış, qazandıqlarını səxavətlə xərcləmişdir.

Vara-pula əyilmərəm, baxmaram,
Sazsız-sözsüz el içinə çıxmaram.

- misraları da aşığın qürur və cəsarətini, mala-pula heç vaxt əyilmədiyini göstərir.

Məclislər keçirdiyi mahalların sayılıb-seçilən ağaları, bəyləri ona ovuc-ovuc qızıl bağışlayar, kəndə qayıtdıqdan bir neçə gün sonra o, bu qızılları ürəyi istədiyi dost-aşnaya paylayar, bir qəpik də olsun cibində xərclik saxlamazmış. Əliaçıqlığına görə də onu bütün kəndlərdə tanıyır, xətir-hörmətlə aşığa qulluq göstərirdilər.

Aşıq Nəsib həm də gözəl məclis aparmağı bacaran ustad aşıqlardan olmuşdur. Yüksək zil səsi, qəmli dastanları danışarkən tez-tez kövrəlib ağlaması, çevik hərəkətləri, məclisi bir nəfəsə dörd-beş dəfə oxuya-oxuya dolanması onun özünəməxsus ifaçılığını göstərən amillərdəndir. «Lətif şah» (Şenlik variantı), «Yaralı Mahmud», «Abbas və Gülgəz», «Yetim Məhəmməd», «Qaçaq Usuf» və başqa dastanları Aşıq Nəsib olduqca şirin bir təhkiyə ilə danışır, oxumaq məqamı gələndə məclisi dolana-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dolana nəqəratlarda «Leyla, Leyla»- deyə oxuyub coşarmış. Ağbaba-Şörəyeldə aşıqların məclis aparması üçün adətən XX əsrin 40-cı illərinədək səhnəni əvəz edən enli, geniş səkilər düzəldilir, üstünə xalça-palaz sərilirdi. Aşıq Nəsib oxuyarkən bəzən elə coşub sürətli hərəkət edirmiş ki, görənlər mat qalırmış. Belə anlarda gözləri görmədiyindən səkidən yıxılmaması üçün səkinin qıraqlarına mütəkkə döşəyərdilər. Ayağı mütəkkəyə toxunduqda aşıq bilirmiş ki, baradan o yana addım atmaq olmaz.

Aşıq Nəsibin xarakterindəki tündməcazlıq, sözü birbaşa çəkinmədən üzə deməsi onu gözü-götürməyənlərin əllərinə tez-tez girəvə salırdı. Onu hökumətin nəzərindən salmaq üçün bədxahlar müxtəlif hiylələr uydurub böhtanlar atsalar da, heç vaxt aşığın həbsinə nail ola bilmədilər. Qırmızı imperiyanın, onun dəmtutunları ermənilərin təzyiqləri Aşıq Nəsibin səhhətinə pis təsir göstərirdi. O, yalançı beynəlmiləlçilik, xalqlar dostluğu pərdəsi altında mənəvi sərvətlərimizə edilən qəsdləri ürəkağrısı ilə hiss edib duyurdu. Xüsusilə, Böyük Vətən müharibəsi illərində yalançı «od-gor qonşuluğundan», «sarsılmaz dostluqdan» hiyləgərliklə yararlanan ermənilərin, kommunist ideoloqlarının, milli satqınların təzyiqləri daha da güclənmiş, nəzarət birə-beş artırılmışdı. Həmin illərdə keçmiş Sovetlər Birliyi ilə Türkiyə dövləti arasında ictimai-siyasi münasibətlərin kəskinləşməsi ermənilərin əlinə yeni girəvə verir, Aşıq Nəsibi hökumətin düşməni elan edərək ev dustağına çevirirdilər. Türklərin yaşayıb-yaratdıqları yurd yerlərində saysız-hesabsız məclislər keçirən Aşıq Nəsibin indi Güllübulaqdan kənara çıxa bilməməsi, «türk» sözünə həsrət qalması, alman faşizmi ilə mübarizədə kəndə gələn qara xəbərlər və s. onun həyatına mənfi təsir göstərirdi. Səhhəti get-gedə pisləşən, türkçülüyü ilə öyünən aşıq 1944-cü ilin qışında vəfat etmiş və doğma kəndi Güllübulaqda dəfn olunmuşdur.

Sonuncu – 1988-ci ilin deportasiyasında bir çox görkəmli saz-söz ustaları kimi onun da qəbri yağı tapdağında qaldı.

Aşıq Nəsib Şərqi Anadolunun bütün bölgələrində (Ağbaba, Çıldır, Qars, Axıska, Axırkələk və s.), Borçalıda, İrəvanda və başqa yerlərdə məclislər keçirmiş, xalq içərisində tanınıb sevilmişdir. Keçən əsrin otuzuncu illərindən başlayaraq Sovet-Türkiyə sərhədlərinin bağlanması Ağbaba ilə Çıldır-Qars arasında get-gəlişin kəsilməsi aşığa böyük dərd olmuşdu. Çünki əhalisinin demək olar ki, hamısının türklərdən ibarət olan Şərqi Anadoluda bu görkəmli sənətkar türkün vətən sevgisinə, etibarına, mərdliyinə və bir çox nəcib keyfiyyətlərinə bütün varlığı ilə bağlı idi. Ona görə də türkün böyüklüyünü və türkçülüyü sonsuz məhəbbətlə tərənnüm edirdi. Türkçülük məfkurəsi, rus-erməni əlbirliyinin ifşası, mövcud ictimai quruluşun – sosializm quruluşunun tənqidi onun ictimai-siyasi şeirlərinin əsas ideya istiqaməti, başlıca motivləridir. Türkçülük məfkurəsi onun şeirlərinin əsas özəyini, poetik layını təşkil edir. «Ötən əsrin 30-cu illərinin ikinci yarısında milli düşüncədə aşığın deformasiya prosesi başladı… Aşıq ifaçılığı institutu öz soy kökündən sızıb gələn türkçülük, islamçılıq, bərabərlik və azadlıq dəyərlərini kütlələrin şüuruna ötürmək, milli məni formalaşdırmaq imkanlarını dayandırdı, sosialist həyatının bir sıra gözə dəyən ilkin nailiyyətlərinin tərənnümü mövqeyinə keçdi» (11.39). Aşıq Nəsibin yaradıcılığında isə biz bunun tamamilə əksini görürük. Ustad sənətkar nəinki Sovet hökumətini tərənnüm etdi, əksinə yeni quruluşu açıq şəkildə tənqid atəşinə tutdu. Ona görə də sərhədlər bağlanandan sonra doğma yerlərə - Qarsa, Çıldıra, Ərzuruma həsrət qalan aşıq «yol bağlıdı, qol bağlıdı, dilim lal» - deyə üsyankar bir ruhla Sovet hakimiyyətinə kəskin etirazını bildirməkdən, zəmanəsini tənqid etməkdən çəkinməmişdir. Aşıq Nəsibin şeirlərində tez-tez rast gəldiyimiz Çıldır, Qars, Suxara, Sarıqamış, Canbaz və digər toponimlər onun Çıldır-Qars bölgəsinə nə qədər yaxından bağlı olduğunu göstərir. Həm də adı çəkilən yerlər aşığın poeziyasında poetik məna qazanır, Qars türkün-türkçülüyün simvolu, Çıldır ustad-şagird münasibətlərinin ocağı kimi tərənnüm olunur: «Qarsa gedəlim», «Ağlaram», «Yerə var» və başqa qoşmalarda Aşıq Nəsibin Qarsı bir güvənc, ümid yeri sayması, «canım qurban olsmun türkün adına» - deyə alqış etməsi onun milli-soykökünə, türkçülük məfkurəsinə sədaqətini müəyyənləşdirən amillərləndir. Beş bəndlik «Çıldırın» qoşmasında aşıq Çıldır bölgəsinin təbii gözəlliklərini, «saf adamlarını» böyük sevgi ilə təsvir və tərənnüm edir, yığcam və poetik tutumlu misralarda Çıldır bədii obyektə çevrilir:

Aşıqlar yurdudu, dədələr yeri,
Şöhrəti yayılıb elə Çıldırın.
Demə çobanı çox, naxırçısı çox,
Nəyini görübsən hələ Çıldırın. (4.22)

Aşıq Çıldıra «pir yeri, dədələr məkanı» kimi baxaraq, onu «sazın-sözün müqəddəs ocağı» adlandırır:

Bu yer müqəddəsdir, bu yer pir yeri,
Möcüzat məkanı, əcəb sirr yeri,
Saz-sözün həmişə təzə-tər yeri,
Düşüb gözəlliyi dilə Çıldırın. (4. 22)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Maraqlıdır ki, Aşıq Nəsibin müasiri qarslı Aşıq Zülali də (1873-1959) eyni məhəbbətlə, oxşar ifadələrlə Çıldırı vəsf edir. «Nə zaman ki, ölmüş atanız Şenlik, o zaman pozulmuş ziyarətin, Çıldır» - deyə Zülali Aşıq Şenliyi ehtiramla xatırlayır. «Çıldır» qoşmasında Aşıq Zülali də Aşıq Nəsib kimi Çıldırın milli-mənəvi gözəlliklərini övlad sevgisi ilə qələmə alır:

Zülali, burdadır ərənlər xası,
Əhli - dil mənbəyi, pirlər ölkəsi.
Ərəbi ahəngi, əcəm şivəsi,
Yaxşıdır lisanın, söhbətin, Çıldır. (1.71)

Aşığın «Canbaz yaylası» divanisində də türk sözünə, türk danışığına qadağaların qoyulması, vaxtilə gəzib-dolaşdığı, məclislər apardığı Qars-Çıldır kəndlərinin ayrılıq həsrəti ifadə olunur. Əlbəttə, aşığın yaşayıb-yaratdığı Ağbaba-Şörəyel mahalı, o cümlədən onun doğma kəndi Güllübulaq tamamilə azəri türklərindən ibarət idi. Nəinki ətraf kəndlərdə, eləcə də Güllübulaqdan cəmi 8 km. cənub-şərqdə yerləşən Gümrüdə, İrəvanda və digər şəhərlərdə də gündəlik ünsiyyət vasitəsi azəri türklərinin dili idi. Erməni daşnaklarının bütün ciddi-cəhdlərinə baxmayaraq, xarici ölkələrdən köçürülüb ətraf ərazilərdə, qəsəbə və şəhərlərdə yerləşdirilən ermənilər də ünsiyyət vasitəsi kimi türk dilindən istifadə edirdilər. Aşıq Nəsib də ömrünün sonuna kimi doğma elində, qohum-qardaşlarının arasında yaşadı, məclislər apardı. Aşıq hiss edirdi ki, ermənilərin bu ərazilərdə yerləşmələri «göydən yağan bəladır.» Onlar zorla buradakı yaşayış məskənlərinə soxulmağa, Ağbaba-Şörəyel mahalını tarixən bağlı olduğu Şərqi Anadoludan ayırmağa çalışır, milli-etnik bağları zəiflətməyə cəhd göstərirlər. Aşıq Nəsib də «türk sözünə həsrət qaldı qulağım» deyərkən məhz bunları nəzərdə tuturdu. Başqa sözlə, Aşıq Nəsib hər gün türkcə danışır və eşidirdi. Aşığı dərdə salan türkə qənim kəsilənlərin amansızlığı idi. Türkçülüyə, türk dövlətçiliyinə bağlılığı, etno-kulturoloji köklərin gen yaddaşında çox güclü olması sənətkar kimi onu dilə gətirir, əsil həqiqətləri xalqa çatdırmaqdan çəkinmirdi. Millətçilik, milli ruh onun poeziyasındakı bəşərliyə kölgə salmırdı, o başqa xalqların dilinə, dininə, adət-ənənəsinə hörmətlə yanaşan bir sənətkar olmuşdur. Aşığın dilində qabar, ürəyində qübar bağlayan həsrət, ayrılıq motivləri iyirminci əsrin iyirminci-qırxıncı illərinin doğurduğu real tarixi gerçəkliklər idi. Bu amansız gerçəkliklər onun ürəyini didib parçalayır, «Canbaz yaylası» kimi divanilərin yaranması ilə nəticələnirdi:

Düşmüsən yadıma necə,
Canım Canbaz yaylası,
İnsafdımı fərağında
Yanım Canbaz yaylası.

Gözlərimdən yaş tökülür,
Keçənləri andıqca
Dərd içində səni necə
Anım Canbaz yaylası. (4.43)

Real tarixi gerçəkliklə milli-estetik duyum tərzinin harmoniyası «Canbaz yaylası» divanisinin məzmun-mündəricəsini daha da dolğunlaşdırır, onu yaxın keçmişimizin bədii-tarixi folklor mənbəyinə çevirir.

Onun «Qalıbdı», «Aşıq Nəsib», «Düşərəm» kimi qoşmalarında quruluşun tənqidi ilə yanaşı bədbinlik hissləri də nəzərə çarpır. Haqq yolundan çıxan «tanrı qullarının» cəmiyyətdə törətdikləri yaramazlıqlar aşığın ürəyini qubarlandırır. O, rus hökuməti ilə ermənilərin xalqın var-dövlətini çapıb-taladıqlarını, azəri türklərinin isə var-yoxdan çıxdıqlarını, repressiyalara, zorakılıqlara, deportasiyalara məruz qaldıqlarını dərin kədər hissi ilə qələmə alır, səxavət və mərhəmətin göyə çəkildiyini, yadlar arasında tək-tənha qaldığını bildirirdi:

Urus-ermənilər yeyir, yağlanır,
Kişi deyilənin qolu bağlanır.
Haqqın adı qalxır, yolu bağlanır,
Nəsiblə «davariş», «ara» qalıbdı. (4.27)

Bəndin sonuncu misrasında işlənən «davariş» (yoldaş), «ara» (ermənicə müraciət forması) sözləri ilə aşıq mövcud quruluşun yürütdüyü antitürk siyasətinə işarə edirdi. Qoşmada həm də Aşıq Nəsibin milli qürur hissi, yüksək vətənpərvərliyi, dövrü, zəmanəni diqqətlə müşahidə etməsi, hadisələrdən doğru nəticələr çıxarması diqqəti cəlb edir.

Aşıq Nəsibin poetik irsində ülvi, müqəddəs məhəbbətin tərənnümünə həsr olunmuş şeirlər də incə poetik deyim tərzi ilə seçilir. Aşığın məhəbbət motivli şeirlərində nisgil, ayrılıq əzabı ictimai kədərlə birləşərək lirik məzmunu sosial çalarlarla dolğunlaşdırır. Aşıq poeziyasında məhəbbət şeirlərindən bəhs edən M.Qasımlı yazır: «Bu sahədə poetik nümunələr həm çoxsaylılığı, həm də bədii sisteminin mükəmməlliyi, üslub rəngarəngliyi və obraz zənginliyi ilə digər mövzulardakı aşıq şeirlərindən nəzərəçarpacaq üstünlüklə seçilir» (10.157).

Aşığın «Yeri, bəyim», «Alma bağı», «Mən də», «Könül» kimi şeirlərində lirik qəhrəmanın daxili düşüncələri, hiss və duyğuları olduqca təbii boyalarla, müəllifin özünəxas deyim tərzi ilə qələmə alınmışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kövrək hisslərin təbiiliyi, obrazlılıq, emosionallıq və səmimilik hər iki qoşmanın müəllifinin incə və zərif bir ürək sahibi olduğunu, bənzərsiz sənətkarlığını göstərməkdədir. «Toxdaya bilməyən, gözlərindən qanlı yaş axıdan» aşiqin dərdlərinə məlhəm olmaq, onu ovutmaq istyən bir türk gözəlinin həssaslığı aşığı kövrəldir. «Səxavətdə tayı olmayan bəyimin» qayğısı və diqqəti aşığın ürəyində xoş duyğular oyatsa da, onun qan ağlayan gözlərindən axan seli dayandıra bilmir. Aşıq istəmir ki, onun dərdlərinə əlac tapmaq istəyən bəyimin də ürəyi qubarlansın, nakam eşqinin həsrət və nisgili ona da təsir etsin:

Bulamazsan göz yaşımın dərdini,
Yeri, bəyim, yeri bəyim, yeri get.
Bilən bilir kədərimi, qədrimi,
Yeri, bəyim, yeri, bəyim, yeri get. (4.22)

Aşığın həssas qəlbi dərd əlindən, ayrılıq əzabından gecə-gündüz fəryad etsə də, ilk eşqinin şirinliyini, o heç vaxt unuda bilmir. İllər, aylar ötüb keçmişdir, dərdli aşığın beli bükülmüş, «əzəl gündən qədəri, taleyi qara yazılmışdır.» Ancaq bütün dərd və iztirablarına baxmayaraq onun «eşqi əvvəlkindən cavan qalmışdır.» Heç vaxt öz şirinliyini, təzəliyini itirməyən ilk məhəbbətin cavan qalmasının, aşığın qəlbində əbədi yuva salmasınını əsas səbəbi onun öz eşqinə ömürlük sadiq qalmasıdır.

«Öldürdü məni» gəraylısında el gözəlinin həm zahiri, həm daxili-mənəvi gözəlliyi ustalıqla təsvir olunmuşdur. Gəraylıya bir neçə epik cizgi əlavə etməklə aşıq bədii-estetik dəyərlərin, lirik-emosional duyğuların ifadəsini sənətkarlıqla verə bilmişdir:

Bu gəlinin gözlərinin
Yağışı öldürdü məni.
Baxışından çiçək yağır,
Baxışı öldürdü məni. (4.20)

Sonrakı bəndlərdə aşıq bu el gözəlinin ona gətirdiyi naxışlı corabı bədii vasitəyə çevirir. Gözəlin hədiyyəsi onun qəlbində incə və zərif duyğular oyadır, bu «mərd qızı mərdin» toxuduğu corabın naxışları da el gözəlinin özü kimi gözəl və zərifdir:

Bir naxışlı corab gətdi,
Özü bir mərd qızı mərddi,
Gözəlliyi əlamətdi,
Alxışı öldürdü məni.

Nəsib tez durdu ayağa,
Gördü məclisdə bəy, ağa.
Corabı geydim ayağa,
Naxışı öldürdü məni. (4.20)

Aşıq Nəsibin poeziyasının bir qismində onun dini-ürfani görüşləri öz əksini tapmışdır. Bu baxımdan «Qadir Allah», «Əhli-hallar arasında» gəraylıları, «Desəm», «Könül» qoşmaları, «Gərək» divanisi və s. səciyyəvidir. İlahi vücuda - uca Tanrıya tapınma, eşq odunda yanmağı ən uca məqam bilmək, Məcnun kimi səhralarda yana-yana öz eşqinə qovuşmaq istəyi Aşıq Nəsibin şeirlərinin dini-ürfani qatını yaradır:

Dərd vermisən, yenə də ver,
Məni qəmə yetir, Allah.
Məcnun elə səhralara,
Ya çöllərə ötür, Allah. (4.15)

«Dərdi ilə doğmalaşdıqca» aşığın vüsal həsrəti bitmir, çünki ilahi eşqə qovuşmağın yolu məhəbbətin ağır sınaqlarından keçir. Məhəbbətin dərd-qəmi çoxaldıqca aşiqin öz sevgilisinə – ali məqama qovuşmaq istəyinin gerçəkləşmə prosesi də sürətlənir. Ali məqama gedən yolda aşıq real gerçəkliyin hər cür süniliyindən, çirkinliklərindən təmizlənərək saflaşır.

Maraqlıdır ki, Aşıq Nəsibin poeziyasında təsəvvüf ideyaları abstrakt düşüncə tərzinə əsaslanmır, müxtəlif təriqət terminlərində (yahu, qırxlar), qədim türkün mifik düşüncə arealında (qarayol, ağ dədə və s.) gerçəkləşir:

Bir «yahu» sözündən ruhum hey uçar,
Könlümün kilidin ürfanlar açar. (4.26)

3- Ancaq kökü doğru ya uydurma olsada Heydər bəy dastanı ədəbi texnik baxımından Azərbaycan şifahi xalq ədəbiyyatı icərisində başqa məhəbbət dastanları kimi xalq dilinin gözəlliklərindən zəngin olan nəzm və nəsrlə qoşulmuş bir dastandır.Onun nəzm hissələrində aşıq şe-rinin gözəl nümunələri –nəsr hissələrində isə xalq ədəbiyyatından çox dəyərli qafiyəli nəsr-ifadələr-ibarət və bənzətmələrdən bacarıqla istifadı olunmuşdur. 4-Azərbaycan xalq ədəbiyyatında bir çox məhəbbət dastanlarında olduğu kimi Heydər bəy dastanında da qəhrəmanın işi lap çətin və açılmaz bir hala düşən zaman bə-zi metafizik və xariqül-adə quvvələrin yardıma gəlib və qəhrəmanı təhlikədən qurtardığını görürük. Gahdanda həmin həmin quvvə bir dərviş surətində qəhrəmanın yuxusunda zahir olaraq gələcəkdə rast gəlib aşiq olacağı qızın adını və nişanəsini ona öyrədir .Eləcədə qızın yuxusuna gedir oğlanın adını və nişanını da ona deyir.Beləliklə iki insanın arasında qeybdən qırılmaz bir məhəbbət ilgisi qurulur.

5 – Bir çox məhəbbət dastanlarında o çümlədən Heydər bəy dastanında zaman və məkan fasiləsi önəm daşımır.Misal üçün bu dastanda heç bilinməyir ki Şah Abbas və onun vəziri İsfahanla Urmiyə arasında olan məsafəni necə və nə müddətdə sürürlər vəyaxud Keşmirlə İsfahanın neçə min ağac fasiləsi olduğu halda Keşmir şahının qızı bu uzaqlıqda yolu necə atlayıb İsfahanın yaxınlığında yaylağa çıxır.

6) Və nəhayət bu ki Heydər bəy dastanı da Azərbaycan Xalq ədəbiyyatında yaranmış başqa məhəbbət dastanları kimi yüzlər ildir ki xalq tərəfindən sevilib və söylənməkdədirOnun yaranış tarixi barədə dastanən möhtəvasında üz verən hadisələrin göstərdiyinə əsasən dastan Şah abbas səltənıtinin orta illəri ilə müsadif olur .Dastanən hansı aşıq tərəfindən təsnif olunması da bəlli deyildir .Dastanən başlanışından sonuna qədər təkcə bir yerdə Aşıq Xıdır adlı bir aşığın adı çəkilir .Ona görədə zə-if bir güman var ki bəlkədə dastanın qoşanı haman Aşıq Xıdır olmuş ola.Xalq ədəbiyyatında uğurla başa çatan məhəbbət dastanlarında olduğu kimi Heydər bəylə Süsənbərin bir-birinə qovuşduğu münasibətə dutulan Duvaq Qapma mərasimində sazlə- sözlü aşıqlar təvəsüti ilə müxəmməslər oxunur və dastan şənliklə sona çatır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCAN VƏ GÜNEY MƏNTƏQƏSININ FOLKLORINDAN ÖRNƏK

***Əbdüləli Mücazi***
***İran***

**Kosalar və Kosaçılar:**

Sayalar məqaləsində oxuduğumuz kimi, Kosalar ya Kosaçılar əski zamanlardan, yəni neçə min il əvvəldən qoyunçu tayfalar olan obalarda kəndlərdə yaşayan musiqiçi və hünərmənd insanlardılar ki öz zamanlarının musiqi alətləri misal üçün saz, balaban, sorna, dohol və s. ilə sayaçıların və elin xidmətində olardılar. Sonralar dinlərin hökümətlərin məsuliyyətləri camiədə çoxaldıqca, sayaçıların məsuliyyətləri azalır və yavaş-yavaş sayaçıların işləri kəmrəng olduqca Kosalardan aralaşırlar, amma Kosalar ki özləri qoyunçu, eldar və el tayfa içindəidilər, ona görə öz milli və qovmi vəzifələrinə davam ediblər ki, bu günə qədər bir az kəmrəngi gəlib bizlərə çatıbdır.

Kosaların ikisi "Kosa", "gəlin" və iki üç nəfəri də musiqi çalmağa məşqul olarlar. Kosalar novruz bayramına 45 gün qalanda, sayaçı mərasimlərini ifa etməyə başlayarlar.

Aşağıda gələn "Kosa bəylərin tərifi" ünvanında şerini 1989-cu ildə Kosalar məqaləsini hazırlayanda yazmışam.

**"Kosa bəylərin tərifi"**

Kosa bəydən söz açıram sizlərə
sizdə qışda qonaq gəlin bizlərə
qış fəslində kətdə kösa çıxardı
cinlənəndə dam duvarı yıxardı
hampalardan buğda cəviz alardı
bərkiyənə, beş altı söz salardı
Əjdər dai balabanı çalardı
istəseydi aşıq sazın alardı
bir şux adam Kosa bəyi olardi
Kosanında bir hənəyi olardı
Kosa çıxıb mərəkəni qurardı
gəlinini qoltuğuna vurardi
aparardi gizlədərdi yalandan
adam yeyən aparmasın dalandan
istəseydin ona bir söz diyəsən
şuxluğunan sən də bir don giyəsən
çuvalduzu batırardı adama
dirmaşardı nərdivana ya dama
çuvalduzun yeri bir az göynərdi
Kosa çalıb, oxuyardı oynardi
ondan sonra hampa hərzad verərdi
Kosaların, oyunların, görərdi
uşaqlarda səsinə hay verərdi
eldar çoban, gözəl dövran, sürərdi
çalardılar zırna, qaval, balaban
alardılar süt yoğurtdan kaladan
verərdilər, kəllə-paça həm ürək
badam içi ya girdəkan bir çərək
bircə xurcin buğda nuxud yarmadan
armut qarxı, ərik qarxı qovurmadan
Kosa-gəlin, qır-o ətvar satardı
beləliklə Kosa sona çatardı
onda gəlin əldə corab toxurdu
Kosa bəydə bu sözləri oxurdu
" geçi deyir adım Əbdülkərim dir
qavala çəkilən mənim dərimdir
üç ay qışı mənim dərd-i sərim dir
yaza çıxsam, yenə Allah kərimdir"

yenə Kosalar:

Kosaların əhvalatını çox adamlar kitablarında yazıblar, Tehran şəhərinin yazıçılarının çoxu bu Kosaları Tehranın "haci Firuzu" ilə bərabər tutublar və güya bu haci Firuzlar haman Kosalardılar ki, ifaları davam tapıbdır. Lakin mənim nəzərimcə Azərbaycanda olan və özüm gördügüm Kosalar, sayaçılarımızdan qalan bir müstəqil ifaçılardılardılar ki, bu dövrdə həm sayaçıların və həmdə öz rollarını ifa edirlər və haci Firuza mərbut olmamalıdırlar, hər nəqədər də ki, haci Firuzlar qış və çillə oyunlarını da ifa etmiş olalar.

Bu qonuya lazım olan səbəbləri və sözləri oxuyaq:

əvvələn Azərbaycan mahalında haci Firiz adına olan bir simbolik adam yoxdur, əgər olursada Tehranın yaxınlığında olan şəhərlərdə ola bilər. Onlarında işləri. Sözləri və geyimləri Kosalarla tam fərqlidirlər. Haci Firuzlar iki üç nəfərdən ibarət bir uzun börk qoyarlar, şəhərlərdə çalıb, oxuyub oynayarlar. Şəhər adamlarından pul alıb gedərlər. Bunlar tam qəribə və tanınmayan ifaçılardılar ki, yalnız öz ciblərinə görə bu oyunu icra edərlər və onlar siyahbazi oyunçularıdırlar ki, özlərini haci Firuz adı ilə tanıtdırırlar. Sözlərinində çoxu fars dilindədir və o sözlərdə bayram günlərinə bağlıdır. Məsələn: "haji Firuzəm Sali ye ruzəm" və ya

"Əlestun-o vəlestun yek zəne kordi bestun
Esmeşo bezar əmqezi dovre kolaş qermezi"...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu farsi şerindədə bizim bayatilarımız kimi şerin birinci mesrasi mənasiz amma bu şerə halət verməkdir, yəni məsələn:

“elə al belə al bir dənə kürd arvad al
Adını goy əmqızı börkünün dövrü qırmızı”

Amma Kosalar neçə min il bundan əvəldən sayaçıların musiqi ərkanlaridilər, sonralarda yəni bu keçən iki üç yüz ildə Kosalar həm öz vəzifələrini ifa ediblər həmidə sayaçıların vəzifələrini öhdələrinə alıblar və bu iki grupun işlərini və vəzifələrini bir biri ilə idqam edib, qatıb birləşdiriblər və özləri də onların ifaçıları olublar.

Bu ifaçilar (Kosalar) əvvələn üzlərini qaralamazlar amma üzlərini xalqdan gizlədərlər ki, onların kişi qadın olduqlarını kimsə başa düşməsin saniyən bunlar qoyun dərisindən paltar və börk geyərlər və paltarlarına çoban vəsillələri olan şeylərdən asarlar məsələn balaca zinqırovdan, buynuzdan və bəziləri də müharibə əbzarlarından məsələn qılıncdən, qəmədən, toxmaqdan və belə-belə şeylərdən özlərinə asarlar. Üçüncüsü və ən mühummu budur ki, Kosalar heç vaqt şəhərlərə getməzlər, heç vaqt dilənçiliyə getməzlər. Kosalar rollarını yalnız öz obalarında, öz kəndlərində və öz tanış adamlarına ifa edərlər. Bunların əcrləri (mükafatları) şəhər haji Firuzları kimi (bugünkü zamanda 2006) məsələn 50 tumən ya 250 manat deyil, yəqin ki, bunların mükafatlarına bir qəlbir qoz, badam ya bir yüz dənə çörək ya bir qoyun, quzu, geçi ya da onların pulunu verərlər. Niyə ki? Çün bu Kosalar haman çobanlardırlar ki, qoyunçuların qoyunların ili başdan başa otarıblar, becəriblər və bayrama qırx beş gün qalanda və kiçik çillə qar küləyi özüylə gətirəndə və öz soyuğunu xalqın canlarına sancanda və kiçik çillənin ömrünün son günlərinə qədər Kosalar saya mərasimlərini ifa etməyə başlayarlar.

Bununda mənasi o deyil ki, bu çobanlar qışda qoyun otarmayanda bekar qalarlar və pulsuz olarlar ona görə Kosa çıxardarlar. Xeyr!!

Bu çobanlar maaş haqlarını illik danışarlar, yəni il on iki ayda neçə alacaqlarını əvvəldə danışarlar, bəs bu sözlərə diqqət edilərsə görünür ki, bu Kosalar dovrəgərd, dilənçi mühtac (yoxsul) adam ya ara dərə adamı deyirlər. Bunlar bir kəndin və bir elin hünərmənd qollarıdırlar ki, həm dağlarda düzlərdə çobançılığı başararlar və bir savadlı və ali məktəb görmüş mal-heyvan mütəxəsisi kimi, qoyunçuluğun ilk mərhələsindən sonunacaq bilirlər və başarırlar, həmidə gözəl-gözəl və şirin-şirin muzikal tiatr və numayişlərin ifaçısı ola bilirlər.

Bu Kosalar bu mərasimi özlərinin milli bir mərasimi bilib onu qırx beş gün bayrama qalandan ifa etməyə başlayarlar və bunu özlərinə bir milli borc bilərlər. Bu dörd beş nəfər Kosaların hər birisi tək bə tək həm ney həm balaban zırna və dohol çala bilirlər və həmdə gözəl tiatral oyunlar oynaya bilirlər və həmidə gözəl şerlər oxuyarlar və yeri gəldikcə özlərindən də felbedahə bir şirinkarlıq sözlərindən deyib öz tamaşaçılarını güldürə bilərlər. Elə ona görədir ki, ev sahibləri və qoyun bəyləri neçə gün qabaqdan bu Kosaların gəlmələrini intizarla gözləyərlər.

Dördüncü qonu budur ki, bu Kosalar doğrudur ki, kəndlərdə, küçələrdə çala-çala, oxuya-oxuya və oynuya-oynuya bu evdən o evə gedərlər amma küçələrdə kimsədən bir şey almazlar, o qabaqcadan bilinən evlərə gedib və onlardan hər zad alarlar.

Azərbaycanın bəzi şəhərlərində belə bir varyant vardır ki, “Kosalar İbrahim Xəlil peyğəmbərin zamanında araya gəliblər” bəziləri də deyirlər ki, “Musa peyğəmbər “Şoeybin” yanında qoyun otaranda əlli gün bayrama qalanda qoyunlarına baş vurur, görür tamam qoyunları cüt doğublar və o zamandan evə gəlib şənlik qurub və vəlimə xeyrat veribdir və bu Kosalıqda o zamandan qalıbdır”.

Alimlərimiz yaxşi bilirlər ki, hər qonu ki əsatiri şəxslərə və dastanlara çevrilərsə, o qonunun tarixi xeyli qədim və əski zamanlara yetişə bilər.

Bu sonuncu sözlərə baxanda görünür ki, bu sayaların və Kosaların da talei Novruz talei kimi olubdur, bunu da çox dinlərə, peyğəmbərlərə, şahlara və xanlara nisbət veriblər, ancaq Kosalarda sayalar kimi və Novruz kimi sadə xalqın və elin istəyi şənliklərdən yaranıblar və heç kimə bağlı deyillər. Hər halda belə nəzərə gəlir ki, bu Kosalarda sayalar kimi ən əski tarixlərdə yəni o zaman ki, musiqi alətlərinin ən sadəsi təbiətdə olan neylərdən “ney” və öz bəslədiyi qoyunların dərinlərindən olan qaval əldə edəndən, Kosalarda sayaçıların xidmətində olublar və neçə min il tarixlərdə yaşayan hünərməndlər dirlər ki, hər dövrun özünə məxsus paltarlar və geyimlər geyib və özünə məxsus musiqi alətlərindən və sözlərindən, şerlərindən faydalanaraq, öz məqsədlərini və hədəflərini daşiyan mahnıları və oyunları ifa edənlərdirlər.

**Təkəçilər:**

Təkəçilər də Kosalar kimi, sayaçıların işlərini ifa edənlərin bir qoludur. Fars yazıçıları arasında, yanlış olaraq, təkəçilərə “Təkəm gərdan” (Təkəm dolandıran) deyilir və yazılır, hal buki, türk dilində və türkcə, təkəm sözü iki kəlmədən ibarət bir sözdur **(Təkə + mən= ad+zəmir melki).** Geçinin bir illik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ərkək və burulmamış ovlağına təkə deyilir. Bəzi Kosa olanlar məxsus paltarlar geyirlər və bir parçadan düzəldilmiş qolçaq ya kukla ki onun buynuzu, gözləri, ağzı və saqqalı təkə şəklində olmuş olsun, əllərində götürüb ev qapılarına gedərlər və Kosalar kimi zurna, qaval balaban, döhul kimi musiqi alətlərini çala-çala və əlindəki təkəni oynada-oynada və təkə şerlərini oxuya- oxuya, bir pul ya şirini ya ayri bir şey alaraq bu evdən o evə gedərlər. Təkəçilər əlindəki təkəni oynada-oynada bu şerlərdən oxuyarlar:

Təkəm-təkəm axta təkəm | buynuzunda nuxta təkəm
yay qurtarar payız gələr | onda çıxar taxta təkəm

ay mənim yasdi təkəm | tük gəldi basdi təkəm
yeyən sənin sayandan | qazanı asdı təkəm

təkəm-təkəm axta təkəm | buynuzunda nuxta təkəm
tüklərdə biz-biz olub | qışda yeyib şaxta təkəm

təkəm getdi mərəndə | tamaşadır gələndə
yaxşı insan çox yaşar | vay pisədir öləndə...

bu təkənin fəndi var | çox kəssəkli kəndi var
hər qapıda oynasa | bir nəlbəki qəndi var

bu təkə yarış təkə | boynu bir qarış təkə
geçidən küsübmüsən | çəpiş ilə bariş təkə

təkə gəlir havadan | donu var yel qavadan
təkəyə arxalıq ver | xanım evin avadan

təkəm təkəm naz eylər | çobana avaz eylər
yığar qoyun qozunu | bayramı peşvaz eylər

təkəmi yaradan allah | tükünü daradan allah
hər kəs təkəyə pay versə | saxla bəladən allah...

**Çavuş ya Çovuş:**

Qədimlərdə maşin yoxidi və səfərlər hamısı piyadə (ayaq ilə) ya at, dəvə və ayrı mal heyvan vəsiləsiylə olunardi və uzun zamanlara çatardi, həmidə bəlli olmazdiki, bu musafir sağ salamat gəlib çatacaq ya xeyr. Məsələn Şəbistərdən-Tehrana ayağınan 15 günə, Bakiya 10 günə, Məşhədə 30 günə, Kərbəlaya və Nəcəfə 20 günə və Məkkəyə 3 aya qədər gedərdilər. Yəni Məkkəyə gedib qayıtmaqları 6 ay zaman aparardi. Bir yandan da, yol kəsənlər, oğrular, həramilər, talançılar yollarda bu zairləri və musafirləri soyardilar. əgər bərkə dursaydilar, özlərini də öldürərdilər. Nəticə beləidi ki, belə səfərə və ğurbətə gedən adam, aydin deyildi bu səfərdən sağ salamt geri qayıdacaq ya qayıtmayacaq. Bu məsələlərə görə, o zaman ziyarətə getmək yəni ölüm ayağına getmək kimi hesab olunardı. Ona görədə hər kəs ziyarətə gedəndə lazımidi ki, tamam kəndlilərdən, tanışlardan, qohum və əqrəbasından həllallıq və rizayət alsın. Bu iş tək bə tək çətin olduğu üçün səfəri başlamadan bir gün qabaq axşam çağı bir nəfər çovuş çağırardılar, gələrdi, məxsus paltar əgnində, məxsus uca börk başında və at üstündə kəndin girişindən çıxışınacaq, neçə dönə, aram və hövsələ ilə, uca səsi ilə, məxsus ritm və ahəng ilə Peyğəmbərin və imamların tərifində yazılan şerlərdən oxuyardi və hər bəndin qurtarışında bir sələvat söylərdi və kəndin adamları da onun arxasiycan gedə-gedə o sələvatı dönə-dönə, uca səslə çevirərdilər. bu səslər kəndin tamam evlərinə gedərdi və hamı bu səsləri eşidərkən xəbərdar olardılar ki, sabah ki gün filankəs filan ziyarətə məsələn Məkkəyə, Kərbəlaya ya Məşhədə gedəcəkdir. Onda cəmaat özlərini ziyarətə gedən adamlar ilə görüşməyə hazırlayardılar.

Bu gecədə kimsənin o zaer ilə hesab kitabi olursa, həllallaşmalıdilər ki, sabaha hesab qalmasın və həlallaşsınlar. Sabahki gün yəni yollanmaq günü və çıxış saatında, yenədə çavuş haman formada geyinib və at üstündə məzhəbi şerləri uca səslə oxumağa başlayar və bu çağırışda camaat yığışarlar çavuşun dalısıcan ziyarətə gedənlərin evlərinin qabaqlarında çavuş öz bildigi və məruf şerlərdən oxuyar və yeri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gələndə camaat birlikdə, çavuş söyləyən şerlərin təkrarin uca səslə deyərlər və sələvat çevirərlər. əgər zair neçə nəfər olursa kəndin başından bir bə bir sələvat ilə evlərindən çıxardıb, ikinci və üçüncüsünü birlikdə yola salarlar, görüşüb, öpüşərlər və yenədə həlallaşarlar. Indi isə çavuş oxuyan və camaat təkrar edənlərdən bir ikisini gətiririk:

Düşdü xəyalıma yenə gülzar-e Kərbəla
divanə etdi məni yenə bazar-e Kərbəla
qurban olum Hüseyn! O şeş guşe qəbrivə
könlüm çox istiri ola zəvvar-e Kərbəla

**Dərvişlər:**

Azərbaycanın güney mahalında xüsusilə Şancan kəndində "Dərviş" kəlməsi onun əsli mənasında olan "əhl-i həqq ya o adamlar ki, əllərində "kəşkul" və həzrət Əlini vəsf edən" adamlara yox bəlkə sadə və adı saellərə deyilir ki, bir az oyan buyanda, sözlər və şerlər öyrənib və kəndləri dolanar və küçələrdə səs sala, bəzi evlərdən bir şey alar, gedər. qədim adamlar tama saellərədərvişdə deyirdilər. Dərviş təqribən saelin bir balaca hörmətlisinə deyilərdi. Bu hörmət qoymaq güya o əsli dərvişlərin adlarının hörmətinə görə idi. Şancanın özündə dərviş yoxdur, bəlkə ayrı vilayətlərdən gələrlər.

**Şəkil dolandıranlar:**

Şəkil dolandıranlar da sael dərvişlərindən bir az hörmətli adamlar olardilar ki, çiyinlərinə aba salardilər və abanın altında bir qaba salınmış şəkil ki mükkun idi Məhəmməd Peyğəmbərin, həzrət Əli ya həzrət Əbülfəzin şəkili olaydı əlində saxlardı və kənddə küçələri, evləri qapı-qapı dolanardı, bəzi mədihə şerləri oxuyardı və ev qadınlarını öz çevrəsinə yığardı, şer oxumasıla bir pul alardı. Əgər şəkil görən də olsaydı onada ayrı pul alardı, təxminən 30 saniyyə o şəkili pul verən adama göstərərdi (məsələn 1943-cü dövrələrində hər tamaşaya 2 Qran alardı və o zaman bir fəhlənin maaş haqqı gündə 10 Qran olardı (Qran İranda rayic olan bir pul vahidi) o şəkili o qədər gizlində saxlayardı və asrar amiz və sehirli müəyyənləşdirərdi, qadınlar belə xəyal edərdilər ki, bu şəkil deyil bəlkə şəkil sahebinin özüder, ona görə qadınlar, hər haradan olursa pul tapardılar ki, gələn həftə şəkil dolandıran (məsələn kəlbə Mahmud) gələndə, bu da pul verib şəkili görsün.

**Başaq yığanlar:**

Əkinçilər əkinlərini dərib o zəmidən aparandan sonra, bir ya neçə nəfər gəlib o buğda və sünbüllər ki, yerə tökülüblər və sahebidə onları istəmiri yığıb özlərinə pulsuz aparardılar. Lakin yer sahebindən icazə alardılar, indi daha o adamlar yoxdur, traxtor hətta 100 kilo da buğda yerə töksə kimsə onu yığmayacaq, başaq yığanlarda ayrı vilayətlərdən gələrdilər Şancanın özündə başaq yığan yoxidi.

**QAYNAQLAR**:

Sələmüllah Cavid, Yekanı Zare, Paşa Əfəndiyev, Əncəvi , Sübhi, öz gördüklərim, Nəvid Azərbaycan, Ərməğan Azərbaycan və Həmşəhri qəzetləri.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XALQIMIZIN ULU DASTANINDA TAYFA VƏ YER ADLARI

***Əkrəm Hüseynzadə***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Azərbaycan respublikasının dahi şəxsiyyəti, türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" un 1300 illiyini qeyd etmək barədə 20 aprel 1997-ci il tarixli Fərmanı tariximizə, mədəni irsimizə göstərilən böyük qayğı və diqqətin parlaq nümunəsidir. Fərmanda deyilir: "Oğuz türklərinin tarixini əks etdirən "Kitabi–Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur". Kitabi–Dədə Qorqud dastanlarında məhz Azərbaycan xalqının ən qədim, ən möhtəşəm abidəsidir ki, alimlər artıq bunu qəti təsdiq etmişlər. Xalqımız 2000-ci ildə Kitabi–Dədə Qorqud dastanının 1300 illik yubileyini təntənə ilə qeyd etdi. Bu məsələnin aktuallığını nəzərə alan Yunesko 1998-ci ili "Dədə Qorqud" ili elan etmişdir. 2000-ci il aprel ayında Bakı şəhərində keçirilmiş beynəlxalq miqyaslı Dədə Qorqudun 1300 illik yubileyində xalqımızın sevimlisi, əbədi lideri Heydər Əliyev demişdir: "Kitabi–Dədə Qorqud yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi sərbəstliyimizi bir daha nümayiş etdirir. Kitabi–Dədə Qorqud vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir… Kitabi–Dədə Qorqud bütün çətinliklərə, məhdudiyyətlərə baxmayaraq 1300 il ərzində bizim xalqımıza mənəvi qida olmuş, onların yaşamasına, mübarizə aparmasına öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir".

Dastanda öz əksini tapmış adların tarixini, mənalarını öyrənmək ilk növbədə yetişən nəslimimzin vətəni daha yaxşı tanımağa, onu dərindən sevməyə, öz tarixini, kökünü, soyunu daha mükəmməl öyrənməyə sövq edir və insanlarmızda milli ixtixar hissləri yaradır.

Dastanda Vətənin dağları, çölləri, bulaqları, al-əlvan çəmənləri, əzəmətli qalaları, abidələri haqqında söhbətlər gedir. Dastanın boylarında Qədim Azərbaycanın yaşayış yerləri olan Dərbənd, Gəncə, Bərdə, Şərur-Dərələyəz, Göyçə mahalı, Borçalı, Əlincə qalası, Qaraçüq və s. yerlərin adı çəkilir ki, bu da Azərbaycanın hələ VII əsrdə, ondan da əvvəl nə qədər geniş ərazilərə malik olmasından xəbər verdiyi kimi, bu yerlərdə oğuz ərənlərinin at çapıb, saz çalıb, söz deməsini, qəhrəmanlıq göstərib yurdunu qorumasını görürük.

Kitabi–Dədə Qorqud dastanının müqəddiməsində Dədə Qorqudun Bayat boyundan olduğu göstərilir. Orada yazılır: "Məhəmməd Peyğəmbərin (s.ə.s) zamanına yaxın Bayat boyunda Qorqud ata deyilən bir kişi varimiş. O kişi oğuzların kamil bilicisi idi. Nə deyirdirsə o da olurdu. Gələcəkdən qəribə xəbərlər deyərdi..."

Böyük Azərbaycan alimi və yazıçı Abbasquluağa Bakıxanov özünün məşhur "Gülüstani İrəm" adlı tarixi əsərində Azərbaycanda 32 tayfa olduğudu qeyd edir və bu tayfaların ən qüvvətlisi və ən böyüyü Bayat tayfası olduğunu göstərir. Deməli Azərbaycan xalqının əsas özəyini təşkil edən tayfalardan birisi Bayat qəbiləsi və ya Bayat tayfrası olmuşdur. Azərbaycan tayfaları içərisində daha qabaqcıl, elmə, maarifə, mədəniyyətə daha çox nail bir tayfa olmuşdur. Dahi Füzuli də Bayat boyundandır. Bayat tayfası öz adı ilə bir çox qalalar, kəndlər, şəhərlər də yaratmışlar.

Qədim zamanlarda Azərbaycanın Qarabağ mahalında Bayat adlı şəhər də olmuşdur. Bu şəhər vaxtilə dağ başında və ətrafı qalalarla mühafizə olunmadığından xarici işğalçıların tez-tez hücumlarına məruz qalmışlar. XVIII əsrin əvvəllərində Pənah xan bu şəhəri qorumaq və həmçinin Qarabağ xanlığını yaradıb yaşatmaq üçün dağ başında qalalar və şəhərlər salınmasını nəzərdə tutmuşdur. Məşhur Qarabağnamə kitabında Pənah xan deyir ki, "Qızıl quş quşların padşahıdır. Bütün quşlar onun çənginin qarşısında acizdir. Lakin o da elə bir yuvada yerləşməlidir ki, bir hadisə üz verəndə fələkətdən asudə olsun". Belə bir mülahizəyə sahib olan Pənah xan XVIII əsrin əsrin əvvəllərində dağ başında Bayat qalası adı ilə bir qala da tikdirmişdir.

Bayat tayfası qeyd etdiyimiz kimi Azərbaycan xalqının özəyini təşkil edən çox böyük və qüvvətli bir tayfa olmuşdur. Bayat tayfası ədəbiyyat tarixində məşhur olan incə və zərif bir sıra duyğuları nəşə və kədərləri tərənnüm edən "Bayatı" adı ilə məşhur olan eşq və əmək nəğmələrini yaratmışdır. Bayatı sözü Bayat tayfasının axırına əlavə edilən "İ" şəkilçisi vasitəsilə yaradılmışdır ki bu da yalnız Azərbaycan xalqına məxsusdur. Bu nəğmələr Bayat tayfasının bəşəriyyət tarixinə buraxmış olduğu ən qiymətli ədəbi irsdir.

Dədə Qorqud dastanlarında diqqəti cəlb edən daha bir tarixi ad vardır ki, bu da "Salur", (Salur Qazan) sözüdür.

Məlumdur ki, XI əsrin əvvəllərində Azərbaycanda Salarilər dövləti yaranmışdır. Salarilər Cənubi Azərbaycanda yaşayan böyük bir tayfanın adıdır. Bu tayfanın ilə Saları dövləti təşkil edilmişdir. Bu tayfa Azərbaycan tayfaları içərisində ən qüvvətli və geniş yayılmış bir tayfa olmuşdur. Salari tayfası içərisindən bir sıra görkəmli şəxsiyyətlər çıxmışdır. Bunlardan biri XIII əsrdə yaşamış Qazi Bürhanəddindir ki, o həm dövlət başçısı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həm də istedadlı bir şair olmuş, doğma Azərbaycan dilində şeirlər yazmışdır. Onun ədəbiyyat aləminə məlum olan böyük bir divanı vardır. Bu divan Böyük Britaniya muzeyinə aparılmışdır. 1890-cı ildə rus alimi Meliyoranski bu divandan bəzi parçaları rus dilinə tərcümə etmişdir. Akad. Krımski bu şair haqqında məlumat verərək göstərmişdir ki, o, Teymur və Toxtamış ordularına meydan oxumuş və bir şeirində belə yazmışdır:

“Xalq əzəldən nə yazıbsa bulur
Gəznəki nə görəcəksə bulur.
İki aləmdə haqqa sığınmışıq,
Toxtamış nə ola, ya axsax Teymur”.

Bu şair haqqında ərəb təzkirətçisi ibn Həcər də ətraflı məlumat vermiş və Qazi Bürhanəddinin Salur tayfasından olmasını göstərmişdir.

Dədə Qorqud dastanının Drezden nüsxəsinin üzqabığında “Kitabi Dədə Qorqud əla Lisani- Tayifeyi Oğuzan” yazılmışdır. Bu onu göstərir ki, dastan oğuz tayfasının abidəsinir. Oğuzlar isə Azərbaycan xalqının əsas soykökünü təşkil edir. Dədə Qorqud dastanının hər bir boyu demək olar ki, bir “Oğuznamə”dir. Elə kitabın içində bu hekayələrin “Oğuznamə” adlandırıldığını da görürük. “Qazılıq qoca oğlu Yeynək boyu”nda deyilir: “... Min yerdə ipək xalça döşənmişdir. İç oğuz və Dış oğuz bəyləri məclisə toplanmışdır. Dədəm Qorqud gəlib boy boyladı, soy soyladı. Bu oğuznamə Yeynəyin olsun!-dedi” (Kitabi-Dədə Qorqud., Bakı, 1988, səh. 195.). Görkəmli ədəbiyyatşünas alim Fuad Köprülü Dədə Qorqud kitabındakı 12 boyun hər birini ayrıça “Oğuznamə” adlandırmışdır. Fəzlullah Rəşidəddinin “Oğuznamə”sində Oğuzun şəcərəsi verilmişdir ki, bunun da Nuh Peyğəmbərdən gəldiyi göstərilir. Yeri gəlmişkən qeyd edək ki, Nuh Peyğəmbərin gəmisinin Naxçıvanda “Gəmiqaya”da–onun Kiçik Qafqazda ən böyük zirvəsi olan Qapıçıqda (yük. 3906 m) oturması və qəbrinin də Naxçıvanda “Köhnə qala”da (Nuhtaban) olması məndələrdə göstərilmişdir. Naxçıvanda yaşamış realist rəssam Bəhruz Kəngərli 1919 və 1921-ci illərdə Nuhun qəbrinin nir neçə variantda rəsmini çəkmişdir. Sərdabəli bu məzar palçıq kərpicdən hörülmüş və yer üstündən 1-1,5 dairəvi şəkildədir. Çox maraqlı və diqqət çəkici budur ki, Gəmiqayada rast gəlinən məzar yerləri də ənənəvi qaydadan fərqli olaraq dairəvi şəklində daş parçalardan yer üstündə hörülmüşdür. Rəvayətə görə Nuhun övladlarından birinin adı Yafəs olmuş və Yafəsin oğlu olarkən Nuh Peyğəmbər ona Türk adı vermişdir. Türkün də övladlarından birinin adı Əlincə olmuşdur ki, həmin Əlincə qalası da Naxçıvandadır. Kitabi Dədə Qorqud dastanlarında da Əlincə qalasının adı çəkilir. Görkəmli alım, prof. Səfəralı Babayev göstərir ki, Dədə Qorqudda adı çəkilən yer adlarının 16-sı Naxçıvan diyarındadır: Ağ qaya, Altun taxt, Qaraçuq, Qarasux, Şərik (Şərur), Dədəşam, Göyçə dəniz (Göygöl), Günortac (Günorta daşı) Sallahxana və s. ümumiyyətlə Naxçıvan regionunda dastanın qəhrəmanlarının adını yaşadan 50-dən artıq toponim və mikrotoponim qeydə alınmışdır. (S. Babayev “Naxçıvanda Kitabi Dədə Qorqud toponimləri”, Bakı-1999, səh. 10-11).

Naxçıvan MR Ordubad rayonunun Kilik və Kotam kəndlərində qədim Oğuz türk tayfaları yaşamışdır ki, onlardan birinin adı İşquzlar (İç oğuzlar), digəri isə Diqliqoz (Dinqiliqoz) adlanır ki, bu da Oğuzların adı ilə bağlıdır. Hətta bəzi mənbələrdə göstərilir ki, Salur Qazanın sərkərdələrinin birisinin adı Dinqili bəy olmuşdur (F. Rəşidəddin “Oğuznamə”, Bakı-1997, səh. 21). Bu fakt onu göstərir ki, Dədə Qorqud addımaddım Azərbaycanın qədim bölgələrini Oğuz yurdunu gəzmişdir.

Dədə Qorqud dastanında gedən proseslərin mühim bir qismi Naxçıvan ərazisində və Qərbi Azərbaycan ərazisində baş vermişdir. Bayandır xan və Qazan xan hakimiyyətləri, onların iqamətgahları çox ehtimal ki, bu ərazilərdə olmuşdur.

Dastanda öz əksini tapmış şəxs, tayfa və yer adları habelə digər adlar insanların vətənpərvərlik, yurd sevgisi, tarixi keçmişini unutmamaq kimi keyfiyyətlərinin yaranmasında mühüm əhəmiyyət kəsb edir.

### Ə D Ə B İ Y Y A T

1. Əliyev H.Ə. «Kitabi Dədə Qorqud» dastanlarinin 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. “Respublika” qəzeti. baki, 11 aprel, 2000-ci il
2. Əliyev H.Ə. «Kitabi Dədə Qorqud» dastanlarinin 1300 illiyi haqqinda Azərbaycan Respublikasi Prezidentinin fərmani. “Respublika” qəzeti. baki, 1997, 21 aprel.
3. Kitabi Dədə Qorqud . Bakı, 1988.
4. Fəzlullah Rəşidəddin «Oğuznamələr». Bakı, 1997.
5. Səfəralı Babayev “Naxçıvanda Kitabi Dədə Qorqud toponimləri”, Bakı, 1999.
6. Ş. Cəmşidov “Kitabi Dədəm Qorqud” Bakı-Elm 1999.

### Р Е З Ю М Е

Статья называется «Имень места и племена в великих эпосах Азербайджанского народа». В статье анализируется исторические имена в Книге Деде Коркуда. Указывается что, имен в Книге имеет большое воспитательное, патриотическое значение, формирует у подрастающих поколениях любовь к родине. Существующийся имена в эпосах таких как- «Салур Газан», «Байат», «Алынджа», «Огузнаме» и т.п.р имеет большое историческое значение и еще раз доказывает что «Китаби Деде Коркуд» принадлежить Азербайджанскому народу.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# MÖVSÜM MƏRASİMİ OYUNLARININ POETİK XÜSUSİYYƏTLƏRİ

***F.e.n. Ələs Qasımov***
***BDU***
***Azərbaycan***

*«Mövsüm mərasimi oyunlarının poetik xüsusiyyətləri» məqaləsində xalq oyunlarının maraqlı bir tipi - mövsüm mərasimləri ilə bağlı yaranan oyunların poetik xüsusiyyətləri araşdırmaya cəlb edilmişdir.*

*Məqalədə bu oyunların daha əski etiqadlarla bağlı yarandığı göstərilməklə onların törəniş formalı strukturu mərasim nəğmələri ilə qarşılıqlı əlaqəsi nəzərdən keçirilir. «Qodu-qodu», «Çömçələ qız», «Kosa gəldi», «Kosa-kosa» oyunlarının tərkib hissələri erkən görüş, ayin və etiqadların mərasim oyunlarının formalaşmasındakı rolu qədim türk, yunan, altay, balkan türklərinin materialları əsasında təhlilə cəlb edilir. Məqalədə belə bir qənaət açıqlanır ki, milli oyun mədəniyyətimizin ilkin qatlarında ayrı-ayrı mövsüm mərasimi detallarını əcdadlarımız sonrakı dövr məişət həyatında çox məharətldə oyun elementlərinə çevirməklə zəngin struktura və məzmuna malik mərasim oyunlarını yaratmışlar.*

Azərbaycan folklorunda daha əski düşüncə qatının diqqət çəkən janrları içərisində oyunların özünəməxsus yeri vardır. Müxtəlif görüş, etiqad, ayin və mərasimlərlə bağlı yaranan bu arxaik folklor vahidlərinin törəniş mənbələri müxtəlifdir. Ayrı-ayrı tədqiqatçılar onların ilkin örnəklərini mövsüm mərasimləri ilə də bağlayır, həmin oyunların ya bütöv sistemini, ya da müxtəlif detallarını əcdadlarımızın erkən mərasim etiqadlarında axtarırlar. Müşahidələr göstərir ki, həqiqətən mərasim etiqadları oyun modelinin formalaşmasında özünəməxsus funksiyalara malik olmuş, daha arxaik elementləri, magiya və ya ovsun modelinin müəyyən xüsusiyyətlərini əhatə etsə də ümumilikdə mövsüm etiqadı düşüncəsinin bütöv sistemlərini ehtiva edə bilmişdir.

Əski çağlarda ya havalar uzun müddət yağmursuz keçəndə, ya da mövsüm yağmurlu keçdiyi zaman oynanılan bu ilkin oyun nümunəsi "inamlarla bağlı xalqın erkən təsəvvürlərinin mərasim oyunlarında daha fəal birləşdiyini göstərir. "Qodu-qodu" oyunu eyni adlı mərasim daxilində geniş yayılmışdır. Lakin oyunu mərasim daxilindən kənara çıxardıqda burada əsas oyun ünsürləri aydın nəzərə çarpır" (1, s.140).

"Qodu-qodu"nu oyun deyil, təbiətə təsir etmək üçün ciddi formada keçirilən bir sehr vasitəsi, mərasimi olduğunu söyləyən müəllif onu "Kos-kosa" ilə yanaşı qoymağa etiraz fdirdi (2, s.156). Lakin müşahidələr göstərir ki, hər iki oyun mövsüm mərasimləri ilə bağlılığını qorumaqdadır. Burada olsa-olsa, oyunların evolyusiyalarının ayrı-ayrı səviyyələrindən söhbət gedə bilər. Etnosun dünya, təbiət haqqında ən ilkin anlayışlarını oyun səviyyəsində özündə birləşdirən "Qodu-qodu" ilə "Kosa"dakı Qodu və Kosa obrazları o dərəcədə yaxındırlar ki, onlar bir çox hallarda, hətta eyniləşdirilir. Bu yaxınlığın ilkin kökdən gəlmə və ya sonrakı hadisə olması isə tamam ayrı məsələdir. Diqqəti çəkən odur ki, məsələn, İraq türkmanlarında quraqlıq olduğu zamanlarda "yağmur duası" ilə Ulu Tanrıya müraciət mərasimi keçirilirdi. Bu mərasim-oyunda "Kosa"ya qapı açılar, ona para, yfmək — yağ, pənir və digər nəsnələr verilərdi. Açılmayan qapıya dögər, "Kosa gəldi qapını qırdı" deyərlərdi və s. ( 3, s.76).

Mərasim folklorundakı "Çömçələ qız", "Qodu", "Kosa gəldi" etiqadları biri-birinə olduqca yaxındır, onlardan biri o biriylə bərabər ola bilir.

Beləcə, "Qodu-qodu" və "Kos-kosa" eyni və ya bir-birinə çox yaxın hadisələrdir. Bu baxımdan folklorçu alim N.Seyidovun "keçmişdə Bakıda oynanılan "Kosa-kosa" oyununun adı Azərbaycanın başqa yerlərində günəşi çağırmaq, onun çıxmasını arzulamaq məqsədilə icra olunan "Qodu-qodu" və ya "Dodu-dodu" mərasim tamaşasına verilən adlardan birisidir" fikri də ayrıca diqqəti çəkir (3, s.275). Lakin belə bir qənaətə səbəb "Kosa-kosa" və "Kosa oyunun"dakı Kosa obrazının həm də "Qodu-qodu"da iştirakı da ola bilərdi.

"Qodu-qodu" bəlkə ən arxaik qatda sehr ayini, ovsun xarakterli oyun idi. Lakin ilkin oyun tiplərindən olmaqla yanaşı, eyni zamanda mövsum mərasimiylə bağlı yaranan oyunlardandır.

Deməli, çox əski inamlarla bağlaşaraq ovsun səciyyəli "Qodu-qodu" həm də mövsum mərasimi oyunlarının xüsusiyyətlərini daşıyır. Bunu həmin oyunun Novruz bayramı günlərində, İlaxır çərşənbələrdə oynanıldığı da göstərir.

Fikrimizcə, Qodu mərasim nəğməsindəki:

Qodu gülmək istəyir,
Qoymayın ağlamağa

- mətnindən aydın olan Qodunun gülmək istəyişi mifoloji inamla bağlıdır. Buradakı gülüş ritual misteriyasını andırır. Bu gülüş öz mifoloji simvolikasına görə artıma, bolluq və bərəkətə, doğuma, məhsuldarlığa aparan gülüşdür.

Əski mifoloji təsəvvürlərlə bağlı mövsum mərasimi oyunlarından biri "Kəvsəc" adlı xalq oyunudur. Araşdırıcılar xalq mahnıları, xor və dialoq elemfntləri ilə zəngin bu ayin-oyun ("ayin-oyun" ifadəsi prof.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

M.Seyidova məxsusdur. Alimin "Kosa-kosa" üçün işlətdiyi bu istilah oyunun mahiyyətini anlamaq baxımından çox qiymətlidir) "azər (noyabr) ayında olub, qışı qorxutmaq və qışa hazırlaşmaq məqsədi daşıyarmış... (4, s.54).

Bir çox araşdırmalarda "Kəvsəc"dən tamaşa kimi bəhs olunur. lakin bu zahiri yaxınlığına baxmayaraq, onun xalq oyunu şəkli daha qədimdir. Novruz mərasimi ərəfəsində göstərilən və dəyişkən xarakterli "Kəvsəc" əslində "bütün daxili və poetik strukturu etibarilə xalq oyunu olaraq qalır. Buradakı pantomim hərəkətlər, süjetli və süjetsiz rəqslər oyun komplekslərini tamamlayır..., mövsüm mərasimləri ilə əlaqədar yaranmış xalq oyunu olduğunu göstərir." (1, s.139).

Özünün zənginliyi və əlvanlığı etibarilə sfçilən xalq oyunlarından biri də "Kos-kosa" və ya "Kosa oyunu"dur. Mövsüm mərasimiylə bağlı oyunların bir kamil nümunəsi olan "Kosa oyunu" Novruz bayramı günlərində baharın gəlişi münasibətilə oynanırdı.

Bu xalq oyununun ilk tam və geniş təsviri xalq artisti H.Sarabskinin "Köhnə Bakı" kitabında yer alır: "Bayrama bir nfçə gün qalmış məhəllə uşaqları həyətləri gəzməklə Kosa-kosa adlanan xüsusi bir oyun oynar, tamaşaçılardan xüşkbar, pul topladılar. Rəqs etməyi bacaran bir uşağın əyninə tərsinə çevrilmiş bir kürk geydirərdilər, üzünə kağızdan qayrılmış üzlük taxıb, başına da kəllə qənd kağızından uzun şiş papaq qoyardılar. Belinə zınqırovlu bir kəmər bağlanardı. Habelə boynundan da zınqrov asardılar. Bu şəkildə hazırlanan Kosanı məhəllə uşaqları araya alıb, həyətləri gəzərək xüsusi bir hava ilə aşağıdakı sözləri xor halında oxuyardılar. Kosa isə oynardı.

A Kosa, kosa gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Kosanı yola salsana.
Novruz, Novruz bahara,
Güllər, güllər nahara.
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun.
Bal olsun, həm yağ olsun.
Evdəkilər sağ olsun.
Verənə oğul versin,
Verməyənə qız versin.
Xanım dursun ayağa,
Kosanın payın versin... (6, s.20-23).

Göründüyü kimi, oyunun mərasim, ayin xarakteri açıq-aşkardır. Lakin bir çox Azərbaycan alimləri (M.A.Dadaşzadə, Ə.Sultanlı, C.Cəfərov) "Kosa-Kosa"nı başlıca olaraq xalq tfatrı kimi səciyyələndirmişlər. M.H.Təhmasib isə onu yazın gəlişinə həsr olunmuş törən (mərasim) saymışdır (7, s.25). Lakin M.Arif "Kosa oyunu"nun mərasimlə bağlı cəhətlərini də nəzərdə tutaraq yazır ki, bu xalq mərasimlərində hələ oyun və əyləncələr mərasimin özünə çox bağlıdır, ondan ayrı, müstəqil bir şəkildə yaşamır" (5, s.54).

Prof. M.Seyidov isə yazla qışın təbii hadisə kimi canlandırıldığı "Kosa-Kosa"da həmin hadisənin ayin-oyun kimi icra olunduğunu söyləyir (8, s.315). Müəllifə görə, "Kosa-Kosa" mifoloji görüşlər, baxışlar dünyasında boya-başa çatmışdır.

Azərbaycanda çoxlu variantları qeydə alınan bu xalq oyunu Anadoluda da yayılmışdır. Məsələn, Vanda "Kosa oyunu" deyilən bu oyun hər il 20 fevral tarixində oynanılır. Oyunun iştirakçıları qurd, tülkü, çaqqal kimi heyvan qiyafətinə bürünürlər.

İnanışa görə Kosa birinci dəfə kimin evinə girsə, həmin il o evin içinə, həyət-bacasına xeyir-bərəkət gəlir. Ona görə də evə gələn Kosa oyunçularına ev sahibi çörəkdən, yağdan-undan, puldan-paradan hədiyyə elər. Beləcə, kəndin bütün evlərini bir-bir gəzərlər. Bütün kənd camaatı sevinər, deyər-gülər (9, s.5949).

Kosanın birinci gəldiyi evə xeyir-bərəkət gətirməsi əslində onun bolluq, artım, məhsuldarlıqla bağlı mifoloji təsəvvürlərdən gəldiyini göstərir. Kosanın artımla, qadın başlanğıcıyla bağlılığı baxımından Anadoluda Kosa oyununun bəzi yerələrdə qadınlar arasında oynanması faktı da diqqəti çəkir. Bu oyunda Kosa obrazını kişi qılığına - cildinə girmiş bir qadın canlandırır. Bu oyunda Kosanın ətrafında 8-10 qadın dolanarlar ki, güya bunlar da Kosanın arvadlarıdır. Bundan başqa həmin qadınların oxuduqları türküdə: "Kosa, Kosa, kor Kosa" deyilir. Lakin Kosanın korluğu ilə bağlı bir başqa qeydə təsadüf olunmur və ola bilsin ki, bu mətndə də Kosanın həqiqətən korluğundan söhbət getmir, bu ifadə məcazi xarakter daşıyır.

Azərbaycan xalq tfatrı tarixinin araşdırıcıları Kosanın fallik rəqslə güldüyü "Kosa oyunu"ndakı üzlüyü də haqlı olaraq artımla əlaqələndirirlər (10, s.216) Lakin fikrimizcə, oyun yanlış olaraq da Dionis ənənələrinin qalığı kimi qiymətdirilir. Doğrudur, bir sıra tədqiqatlarda da "Kosanın iştirakı ilə keçirilən el şənliklərinin bir adət olaraq yunanların qədim Dionis mərasim şənliyinə bağlılığı" fikri tənqid olunur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məsələn, Elçin Rəssam "Kosa, keçəl və qırxlotular" başlıqlı məqaləsində yazır: "Təəssüelə deməliyik ki, elmi ədəbiyyatımızda uzun müddətdir ki, Kosanın iştirakı ilə keçirilən el şənlikləri bir adət olaraq yunanların qədim Dionis mərasim şənliyi və fallik səciyyəli rəqslərlə bağlılığı və ya "Avfsta"dakı quraqlıq tanrısı Apauş divin prototipi kimi iddia olunur. Bu mülahizələrin nə qədər həqiqətə yaxın olub-olmaması şübhəlidir." (11, s.57). Lakin elə buradakı iddiaların özündə də yanlışlıq var. Belə ki, əsl həqiqətdə də Kosa oyununun fallik səciyyəli rəqslərlə bağlılığından danışmaq olar. M.Allahverdiyev Azərbaycanın Laçın rayonunda uzun müddət Kosa oyununda məşhur olan Məlik kişidən "Kosa-kosa" oyunu haqqında soruşduqda onun: "Lülə sümüyə parça dolayır, fallos halına salırdım. mənlə rəqs fdən qadına çevriləndə o, oynaya-oynaya uzaqlaşırdı. Bu səhnəni tamaşaçılar çox sevirdi. Oyunun zarafat olduğunu hamı bildiyi üçün incimək sözü olmazdı. Buna görə də tamaşa bitəndə hamı məni təbrik fdir, deyirdilər: "Sağ ol, sən bizə kef verdin, günümüz şən keçdi, bayramınız mübarək olsun, Kosamız var olsun - sözlərini qeydə almışdır (12, s.52)

Canlı ənənənin özündən gələn bu fakt "Kosa-kosa" oyununun fallik məzmunlu olduğunu göstərir. Bu isə oyunun artım, bərəkət, bolluq ideyasından gəldiyinə işarədir.

Təsadüfi deyildir ki, mərasim xarakterli oyunlarda əsrlər boyunca fallos hadisəsinə rast gəlinir. Çünki fallosa, fallik hərəkətlərlə torpağın verimli olmasının təmin fdiləcəyinə inanılır.

"Kosa-kosa" oyununda Kosanın fallik rəqslərini, pantomim hərəkətlərlə müşayiət olunan şən, oynaq və gülüş doğuran hərəkətlərini yanlış olaraq Dionisin fallik rəqsləriylə bağlamasına baxmayaraq, M.Allahverdiyevin "Azərbaycan xalq teatrı tarixi" kitabında belə bir qiymətli etnoqrafik detala rast gəlirik: "Qubadlı rayonunun Məmər kəndində yaşayan İbrahim kişi deyir ki, xalq arasında belə bir əqidə vardı. Uşağı olmayan hər bir kəs güya Kosa rolunda çıxış etsə imiş, onun oğlu olarmış." (10, s.33).

Bütövlükdə isə müəllifin gülməli sözlər deyə-deyə meydanı dolaşan Kosanın ulaqdan düşüb zarafat eləməsini, toy çalınmasını, seyr eləyənlərin gülüb uğunmasını artım ideyası ilə əlaqələndirməsi təqdirəlayiqdir.

Altaylarda yaşayan kumandinlərdə "Koça kan" adlı bir əski mərasim mövcuddur. Bu mərasim bərəkət, bolluq, artım olması diləyi ilə keçirilir. Mərasimdə erotik məzmun var. Mərasimdə Koça kana məxsus ləvazimat arasında ağacdan düzəldilmiş fallos da yer alır. Koça kan özü artımı təcəssüm elətdirən mifoloji varlıqdır. Bir inanışa görə Ülgenin qızıyla ulu şamanın izdivacından dünyaya gələn, başqa bir bilgiyə görə də özü elə şaman olan Koça kanın bir özəlliyi isə maska-üzlüklə bağlıdır (13, s.130-131). Bir fikir də "Koça" adının elə "üzlük" bildirməsidir. Ağac qabığından düzəldilən bu üzlük elə "Kosa oyunu"ndakı maskanı yada salır. Hər ikisinin əlində də əsa (hasa) olur. Bundan başqa "Kosa" və "Koça" adları arasındakı yaxınlıq da düşündürücüdür. Lakin bütün bunlarla yanaşı hər iki ayin-oyunun (və ya mərasim oyunun) aralarındakı bağlılıqdan danışmaq da tfzdir. Bunun üçün hər bir oyunun arxaik ritual sfmantikası, bu oyunların ritual misteriyaları və mifoloji simvolikaları diqqətlə araşdırılmalıdır.

Xalq oyunlarının mövsüm mərasimləri ilə bağlı qismindən danışarkən akad.M.Arif köçərilik, maldarlıq və əkinçilik həyatından yaranmış ənənəvi ayin-oyunların qalıqları sırasında xüsusilə Güney Azərbaycanın bir çox yerlərində "Sayaçı" adı ilə yaşamaqda olan məşhur maraqlı ənənəvi bir oyunundan bəhs fdir: "Hər il təxminən yaza əlli gün qalmış qoyunlar quzulamağa başladığı zaman çoban paltarı geymiş adamlar kəndbəkənd gəzib "Sayaçı" mərasimi icra fdirlər. Çobanlar özləri ilə bir nfçə qoyun-quzu (qoyun olmadıqda qoyun dərisinə girmiş adam), ağarantı (süd, qaymaq, pfndir və s.) götürüb sayalar (maldarlıq mahnıları) oxumağa başlayırlar. Əksəriyyətlə mənzum olan bu sayalarda təbiətin oyanması, qoyunların quzulaması, məhsulun bollaşması və məhsulların tərifi verilir... Beləliklə, mərasim bərəkətli təbiətin məhsul bolluğu nümayişinə çevrilir." (5, s.52). Müəllifə görə, "Sayaçı" oyunu qədim Yunanıstanda Dionisin şərəfinə verilən xalq bayramı nümayişlərini xatırladır. Bu isə görünür, hadisəyə bir zamanların dəbi olan antik mədəniyyət ölçüləriylə yanaşmaqdan gəlir.

"Sayaçı" oyununun iştirakçıları musiqinin müşayiəti ilə rəqs eləyir, şənlənərdilər. Sayaçılar qoyun-keçi dərisinə girib saçaqlı çoban papağı geyər, üzlük taxar, gülməli hərəkətlər eləyərdilər, məzəli oyunlar çıxarardılar.

Burada tamaşa ünsürləri o dərəcədə güclüdür ki, bir çox araşdırıcılar onu, hətta "oyun-tamaşa" kimi səciyyələndirirlər.

Mövsümi səciyyə daşıyan, bir nfçə aktda icra olunan və bütün aktların sayaçı kultuna tabf etdirildiyi bu mərasimlə bağlı oyunun özündə çox arxaik elemfntlər qorunmuşdur. Bu, sayaçı nəğmələrində aydın şəkildə özünü göstərir:

Bu saya kimdən qaldı?
Adəm atadan qaldı.
Adəm ata gələndə,
Qızıl öküz duranda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dünya binnət olanda,
Musa çoban olanda...

Rəqslərlə zəngin olub arxaik tipli oyunlar üçün səciyyəvi bir cəhətlə həmin rəqslərin üzvi şəkildə bir bütövlük təşkil elədiyi bu oyun təbiət başlanğıcına xas xüsusiyyətləri də özündə saxlamışdır. Bunu üzlük geymiş rəqqas oyunçuların ifa elədikləri "canavar", "qoyun", "keçi", "bənək", "təkə" kimi surətlərdən də görmək olur.

Bu mərasim oyunundakı gülüş də yanlış olaraq sadəcə şux zarafat, gülüş vasitələrinin üstünlük təşkil etməsi - komizm kimi yozulur. Halbuki bu gülüş, Kosa oyununda olduğu qədər artım, torpaqdan bolluq istəmə, məhsuldarlıq ideyası ilə əlaqədardır.

"Sayaçı" maldarlıqla məşğul olan köçəri tərəkəmələr arasında çox yayılmışdır. Bu oyunda bütün köç əhlinin iştirak etdiyinə dair bilgilər ədəbiyyatlarda var. Yəni oyun seyrçilərin də ona qoşulmağı ilə keçirdi. Tamaşa eləyənlər sözün əsl mənasında həm də oyunun gedişinə qoşulur, iştirakçıya çevrilirdilər. Hər kəs bir-birinə qaynayıb-qarışırdı. Bu bütövlük içərisində kimsə özünü kimsədən ayırmırdı. Burada çox əski ritualın qalıqları sayıla biləcək detallar oyunun dramatik keyfiyyətlərini gücləndirir. Oyunçular özlərindən başqa bir varlığı canlandırırlar. "Onqon" deyə dəyərləndirilən maskaları isə heyvan təqlidi ilə əlaqələndirib onda totfmizm və birbaşa şamanizm izlərini görmək də yanlışlıqdır.

Sayaçı oyununu yönləndirib idarə eləyən bir ənənə var. Ritual qaynaqlı bu ənənəyə uymayan oyun sayılmır. Bu oyunun xalq şeri parçalarından ibarət mətni var ki, oyunçu onu dəyişdirə bilməz. Burada oyunçunun öz bacarığını göstərməsi də ancaq və ancaq mərasim oyununun qaydaları daxilindədir.

"Sayaçı" oyununda köç əhlinin elliklə iştirakı bu xalq oyununu diriliş, bolluq və bərəkət, artım ideyasını simvolizə edən oyun kimi səciyyələndirmək imkanı verir. Oyunun:

Səfa olsun yurdunuz
Ulamasın qurdunuz.
Ac getsin avanınız,
Tox gəlsin çobanınız!

- nəğməsi ilə sona yetməsi də bu fikri təsdiqləyir.

"Sayaçı" bir əyləncə tamaşası deyil, müəyyən zamanda oynanılan ritual qaynaqlı xalq oyunudur. Köçlə bağlı hazırlanıb göstərilən bu xalq oyununun seyrçi ilə iç-içə olması onun mətnindəki dialoqlardan da aydın görünür. Soytarının:

Salam əlek, say bəylər,
Bir-birindən yey bəylər.
Saya gəldi, gördünüz?
Salam verdi aldınız?
Alnı təpəl qoç quzu
Sayaçıya verdiniz?

- sözləriylə başlayan bu oyunda rəqslərin də böyük çoxluğunun kütləvi xarakter daşıdığı araşdırıcıların diqqətindən yayınmamışdır.

"Qodu-qodu", "Kosa-Kosa" oyunları qədər "Sayaçı" da ənənəvi mədəniyyətdə oyunun nə dərəcədə mühüm yer tutduğunu görmək imkanı verir. Oyunların ritual, davranış və misteriyaların mayasında dayandığı, onun cövhərini təşkil elədiyi bu xalq oyunlarından bəlli olmaqdadır.

"Sayaçı" xalq oyununda güclü ritm var. Həmin ritm təbiətdə də var, tərəkəmənin yaşayış tərzində də bu yaşayışı təbiətlə nizam içində saxlayan bir qüvvət kimi mövcuddur.

Yeri gəlmişkən qeyd fdək ki, "Sayaçı" oyunu Anadolu türkləri arasında da yayılmışdır. Prof. Ş.Elçinin heyvan kultuyla bağladığı bu oyun - "Saya gəzməsi" haqda qaynaqlarda geniş bilgilər var: qoyunlar quzulayan zaman Anadolunun çfşidli bölgələrində uşaqlar bir yerə toplanıb saya gəzərlər. Həmin gəzməkdə iştirak eləyən uşaqlar müxtəlif vəzifələri icra etməyi boyunlarına götürürlər. Bunlardan biri - gəlin, biri - qoç, biri - ərəb, ikisi - tülkü, biri - dəfçi, o biri də qavalçı olur. Sonra da ev-ev dolaşaraq aşağıdakı əsl Saya türküsünü:

Sayaçı gəlir saxının,
Dəmir-dümür taxının.
Sayaçının po .... unu
Xına deyib yaxının...

- söyləyərək yemək üçün yağ və başqa şeylər toplayarlar. Bu şərqi bitəndən sonra uşaqlar bağırışaraq, eyni zamanda da oyunlar oynayaraq bildikləri şərqiləri söyləirlər (14, s.128).

Tədqiqatlar göstərir ki, "Sayaçı" oyunu Balkanlarda variantları olan Cəməl ritualı ilə də yaxından bağlıdır. Oynanması ilə bərəkətin də olacağına inanılan bu oyunda cürbəcür qılıqlara görmək, heyvanları yamsılamaq, şənlik nərələri, çıxarılan qəribə səslər ibtidai çağ insanlarının dini mərasimlərini xatırladır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu gün əyləncə yönləri ön plana çıxaraq daha çox 15-20 yaşlı dəliqanlıların oynadıqları Cəməl oyunu mahiyyətdə artımla, bolluqla, torpağın verimli olmasını artırmaq məqsədilə oynanılmışdır. Bir adı da Dəvə oyunu olan həmin oyun Krım tatarları arasında Novruz adıyla icra olunur.

Cəməl oyununun torpağa ilk toxumun atıldığı gündə oynanması da onun uğur, bərəkət əldə etmək məqsədilə oynanılan bir sehrkarlıq vəsfi olan mərasim olduğunun ifadəsidir. Oyunçuların qışqır-bağırlarına "bolluq nəşəsi", oyuna da "bərəkət şənliyi" deyirlər. Təbiətin bilinməyən yönlərinin rəmzləri olan rituallardan qaynağını alan bu günkü oyunlar, şübhəsiz, əski bayramlara məxsus keyfiyyətləri də qorumuşdur. Bu baxımdan Cəməl oyununa bayram kimi baxılması, ona "bolluq nəşəsi", "bərəkət şənliyi" deyilməsi təbiidir. Bolluq, bərəkət və artım ideyası ilə bağlılığı oyunun müəyyən bir zamanda (oyuna başlamaq üçün gecə yarısının olmasını gözləyirlər) oynanması da bunun ifadəsidir.

Oyunun "Sayaçı" ilə bağlılığına nümunə kimi bu oyunu aparanlardan birinin "Sayaçıbaşı" adını daşıması, oyun mətnində söylənən:

"Sayaçı gəldi duydunuzmu?
Salam verdi aldınızmı?"-

sözləri və s. misal göstərmək olar.

Başlıca elemfntinin canlandırma olduğu bu oyunda (eynilə "Sayaçı"da və eləcə də mövsüm mərasimləriylə bağlı digər oyunlarda olduğu kimi) oyun icraçıları güya kimin evi qabağında çox oynarlarsa o evdə bolluq, bərəkət olacağı şəklində özünü göstərən cəhətiylə də məhsuldarlıq ideyasına bağlanır.

Oyunun icraçıları əyinlərinə qoyun, keçi dərisi geyinərlər. Bənzətməsi olan heyvanların səslərini yamsılayırlar. Gülüş burda da mühüm yer tutur. İrəlicədən axırında nə olacağı bilinməyirmiş kimi, tamaşaçılar oyunu diqqətlə izləyirlər. Ən nəhayət, Cəməl oyununu "Sayaçı" oyununa bağlayan cəhətlərdən biri də Çanaqqaladakı kəndlərdən birində bu oyunun elə sadəcə olaraq "Saya" adlanmasıdır.

Hər iki oyunda yamsılama, sehrkarlıq ayini, musiqi və rəqs içəridən birləşərək bu oyunlara bir bütövlük gətirir (15, s.7-33). Cəməl - Sayaçı bağlılığı geniş öyrənilməlidir.

Hər iki oyundakı gülüş doğuran elemfntlər, yəni gülməli oyunlar çıxarılmasının mənası torpağın bol məhsul verməsinə kömək fdilməsi, gülüşlə torpağa təsir göstərilməsidir. Jalq mədəniyyətindəki ənənəvi Kosa və b. obrazların da mahiyyəti budur.

"Saya" və "Sayaçı" anlayışlarına gəldikdə, bu haqda müxtəlif fikirlər var. F.Köçərli "Saya" sözünün "kölgə", lakin məcazi mənasının isə "hami", "qoruyucu" demək olduğunu yazırdı. Prof. M.H.Təhmasib bu anlayışı "Kitabi- Dədə Qorqud" dastanlarında da işlənən "soy" şer kəlməsi ilə bağlayır, sözün "nəğmə" demək olduğunu qeyd fdir. Folklorçu Ə.Axundov isə "saya"nı "say" kökü ilə əlaqələndirir. Bu mülahizələri saf-çürük fdən T.Fərzəliyevə görə, bu yozum və aydınlaşdırmalar içərisində F.Köçərlinin sözün məcazi mənasındakı "hami", "qoruyucu" anlayışları həqiqətə daha yaxındır (16, s.14).

"Sayaçı" oyununun digər ənənələrdə "Sayaçı kosa" da adlandığını yazan M.Allahverdiyev T.FərzəLİyev-dən fərqli olaraq mövsum tamaşası kimi səciyyələndirdiyi bu oyunun bütünlüklə bədahətçiliyə əsaslandığını söyləyir, "saya" sözünü də "söz danışan, oxuyan və çalğı alətində çalan" kimi mənalandırır (10, s.28).

Sayaçılığın bir institut kimi əsl vətəninin Azərbaycan olduğunu söyləyən tanınmış alim Ə.Cəfəroğlu isə Sayaçı sözlərini (və ya türküsünü) Qarapapaq və yaxud Tərəkəmə türk boyuna məxsus bir ədəbiyyat deyə Tərəkəmə mühitinin əsəri sayır, Dədə Qorqud oğuznamələrində də izlərinə rast gəlinən, "şaman duası" dəyəri daşıyan bu xalq yaradıcılığı örnəyin verilən "Saya" adının köklərini Moğol dilindəki Yaya, Dzaya, Dzayaqaçı tanrı adında görür: "Kəlmə (koybal, kaçin) **ч амаэл** = (şor, saqay) **эамаэл** "Tanrı, ilah, Jaliq" = (koyb. kaç.) **мамаэл** .... olaraq işlədilməkdədir. Yakutcada **амагэл** və **амачэл** şəkillərində kök salmışdır." Fəqət bu tanrı tipi Altaylara və daha sonralar Anadolu və Azərbaycana, hfç şübhə yoxdur ki, əski qarışıq şamanist Türk-Moğol mədəniyyət çevrəsindən yayılaraq gəlmişdir" (17, s.159).

Müəllif D.Banzarova əsaslanaraq bu varlığa tapınan Moğolun: "Südümə barmağını salan, sürümə kəmənd atan xain düşmənin gözlərini oyan ... Sayaçı tanrı, səndən səadət diləyirəm"- sözlərində həmin ilahəyə qarşı ruhunda yaşatdığı dərin inançı görür. Əski şamanist inanca görə, göylərin təqdiriylə insanları yaradan və onu öz himayəsinə alan Sayaçının buyuruğu və inayəti ilə Çingiz xan özü dünyaya gəlmişdir (106, s.478).

"Saya" və "Sayaçı" adları ilə bağlı yuxarıda söylənənlər içərisində, bizə görə, Ə.Cəfəroğlunun fikirlərinin daha çox elmi əsas var və gerçəyə daha yaxın olan da odur.

Göründyü kimi, Azərbaycan xalqının oyun-tamaşa mədəniyyəti özünün inkişafında erkən təsəvvürlərin silsilə məemuunu əhatə etmiş, onların müxtəlif tip və formalarını yaşadıb bu günümüzə qədər yetirə bilmişdir.

## ƏDƏBİYYAT

1. Nəbiyev A.M. El nəğmələri, xalq oyunları. Azərnəşr. Bakı, 1988, 168 s.
2. Həsənov O. Tarixilik və müasirlik. Bakı, Yazıçı, 1985, - 294 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

3. Azərbaycan folkloru antalogiyası. II kitab (İraq-Türkman cildi). Bakı, 1999, - 466 s.
4. Azərbaycan nağılları. V cilddə, IV cild. Bakı, 1963.
5. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Elm, Bakı, 1985, - 213 s.
6. Sarabski H. Köhnə Bakı. Azərb. SSR EA nəşriyyatı, Bakı, 1958. - 157 s.
7. Seyidov M. Yaz bayramı. Bakı, Gənclik, 1990, - 96 s.
8. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, Yazıçı, 1989, - 496 s.
9. Türk Folklor Araştırmaları. Sayı: 257, Şubat, 1970.
10. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Ali məktəblər üçün dərs vəsaiti. Maarif. Bakı, 1988, - 255 s.
11. Elçin Rəssam. Kosa, keçəl və qırxlotular. «Qobustan» curnalı, 1979, №2.
12. Allahverdiyev M. Dionis şənlikləri və Azərbaycan xalq tamaşaları. «Qobustan» curnalı, 1979, № 1.
13. Сатлаев Ф. Коча-кан-старинный обряд испрашивания плодородия у кумандинцев. Религиозные представления и обряды народов Сибири в XIX - начале XX века. Ленинград Наука, 1971.
14. Cəfəroğlu A. Anadolu dialektolocisi üzvrine malzeme. II (oyunlar, tekerlemeler, yanıltmaclar ve oyun istilahları). Ankara, TDK yayınları. 1994, 171 s. (türk dilində).
15. E.Artun. Cemal ritüeli ve Balkanlardakı variantları. Ankara, 1993, - 142 s. türk dilində).
16. Fərzəliyev T. Azərbaycan folklorunda xalq dram və oyun tamaşaları. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VII kitab, Bakı, Elm, 1987, - 200 s.
17. Caferoğlu A. Şaman-sayaçının bir duası // Reşid Rahmeti Arat için. Ankara, 1966.
18. Потанин Г. Восточные мотивы в средневековом европейском эпосе. М., 1899.

## СЕЗОННО-ОБРЯДОВЫЕ ИГРЫ В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ
## АННОТАЦИЯ

В статье под названием «Сезонно-обрядовые игры в азербайджанском фольклоре» привлечен к исследованию один из интересных типов народных игр, зародившихся в связи с сезонными обрядами.

В данной статье атмечается зароъдение этих игр в связи с древнейшими верованиями, наряду с этим прослеъиваются формы их зароъдения, структура и взаимосвязь с обрядовыми песнями. На основе материалов древних тюрков, греков, алтайцев, балканских тюрков привлекаются к исследованию составные части игр «Году-году», «Чомчяла гыз», «Кеса пришел», «Кеса-кеса», а такъе роль ранних воззрений, ритуалов и поверий в формировании обрядовых игр. В статье приходится к такому выводу, что наши предки на ранних этапах национальной игровой культуры с большим умением превращали отдельные детали сезонных обрядов в элементы игшр и в последующем создании сезонные игры, богатые структурой и содержанием.

## GAMES THE SEASONAL RİTES İN AZERBAİJANİAN FOLK-LORE
## ABSTRACT

İn the article of «The games of the seasonal rites in Azerbaijanian folk-lore» the author deals with one of the interesting types of the national games which could be enlisted to the scientific research.

İn the arricle one can see th ties of these games with more anciend beliefs, their forms, their mutural relations and the others. And the games like «Godu-godu», «Chemchala giz», «Kosa galdy», «Kosa-kosa» their contents and roles in the formation of all these meetings, ceremonies and beliefs are analysed on the basis of an ancient turkic, greek, altai and balcan turks materials. İn the first layers of the earliest national game culture every separate seasonal ritual data could easily be transsered into their game elements by our ancestors which played an important role in the formation of the seasonal ritual games in their structure of the seasonal ritual games in their structure and content as well.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# GELENEKSEL TÜRK TIYATROSU VE KARAGÖZ OYUNUNDA SOSYO- KÜLTÜREL ÖZELLIKLER

***Prof. Dr. Eflatun Neimetzade***
***Gazi Üniversitesi Öğretim Üyesi***
***Turkiye***

*ÖZET:*

Geleneksel Türk Tiyatrosu belirli bir tarih evresinden çok, bir bakıma önsüz ve sonsuz bir evre olarak düşünülmektedir. Çünkü bundan sonraki üç evre Batı örneğinde olan Türk Tiyatrosudur. Her üç evrelerin sosyo-kültürel siyasal, yapı değişikliklerinin başlığını taşıması, bu değişikliklerin tiyatroda önemli etkisinin görülmesiyle pekişmektedir.

Nedir bu söylemiş olduğumu üç evre sorusuna cevap olarak söylemeliyiz ki, ilki olan "Tanzimat ve İstibdat Tiyatrosu" (eski), daha sonra II: Meşrutiyet, yani Cumhuriyetin ilânına dek olan Meşruriyet Tiyatrosu, son olarak 29 Ekim 1923'ten günümüze dek uzantısı devam eden Cumhuriyet Tiyatrosu'dur.

Eski kültürün, geleneksel halk oyunlarının, meydan temaşalarının oturmuşluğunu birbirine karşın kuvvetlerin dengede olması sağlamıştır. Türk Dünyası edebiyatında, güzel sanatlarında, müziğinde, tiyatrosunda görüldüğü gibi bunlar kendi kendini düzenleyen kuvvetlerle perçinlenmiştir. Kökleşmiş inançlar, alışkılar görenek ve gelenekler zemininde, mayasında teşekkül, oluşum yükselmiş, günümüz harikalarına dek uzanmıştır. Ulu Atatürk nutuklarında şöyle der: *"Hiçbir delili mantıkiye istinat etmeyen bir takım ananelerin, akidelerin muhafazasında ısrar eden milletlerin terakkisi çok güç olur; belki de hiç olmaz Terakkide kuyut ve şurutu aşamayan milletler hayatı makul ve müşahede edemez… Fırka, millete mürebbilik yapacak; bilim, iktisat, siyaset ve güzel sanatlar gibi bütün hars sahalarında vatandaşları yetiştirmek için pişvalık edecektir…Medeniyetin esası, terakki ve kuvvetin temeli, aile hayatıdır…Geçmişimizdeki örf adetlere, geleneklere, folklor sanatına, geleneksel halk oyunlarına özen göstermeliyiz…"*

Gerçek temeli, tarihi geçmişi, destanları, folkloru, milli örf ananeleri olmayan bir toplumun yükselişi güç olur; bu toplumun edebiyatı, sanatı, bilimi, sosyal yapısı ve medeniyeti teşekkülü zor olacak, evrensel boyutlara hiç yükselemez. Bu bakımdan Türk Dünyası geçmiş tarihi, kadim medeniyetler hazinesiyle dünyada tanınıyor. Geleneksel Türk seyirlik oyunlarının en önemlilerinden biri Meddah'tır ki bu tarz bütün Türk topluluklarının da tiyatrolarının tarihi geçmişine dayalıdır. Özellikle başta dil olmak üzere soy bakımından temelinde birçok ortaklıklar bulunan Türk ulusları çağlar boyunca birbirlerinden ayrı kalmış olsalar da kültür gelişmeleri devam etmiştir. Bu Türk topluluklarını (daha sonra Türk Devletleri olmuşlardır) birbirine yaklaştıran Türk olmalarıdır, fakat Türkçenin gelişimi ve geçirmiş olduğu evreler bu toplulukları uzaklaştırmış, bu kopmuşluğu vurgulamıştır. Bir Azerbaycan tiyatrosu, bir Kazak, Özbek, Tatar, Türkmen, Başkır, vb. tiyatrosundan söz edildiğinde birlikte bunların her biri tıpkı Anadolu Türklerinde gerçekleştiği gibi, geleneksel tiyatro, bu ilkelerin örf adetlerinde, yaşamlarında, sosyo-kültürlerinde derin kök saldığı bir gerçektir.

Eskilerde "Köylü Tiyatrosu geleneği ve "Halk Tiyatrosu" geleneği gibi Halk oyunları mevcut olmuştur Türk köylüsünün eski bolluk ve canlılık inançlarını sürdürdüğü seyirlik oyunları zamanla değişiklere uğramasına rağmen günümüze dek yaşabilmiştir. Örneğin, çeşitli hayvan benzetmeceleri, danslar, kukla, çeşitli doğmaca oyunları kapsayan bu oyunlara bütün Türk köy ve yerleşim mekanlarında çocuklarının oyunlarında gözüküyor. Bu oyunların temelinde taklit ve sözlü söyleşmeler, Tulûat ve benzeri önemli öğeler yer alır. Karagöz'de Hacivat, Ortaoyununda Pişekâr, Hokkabazda Usta, Kukla ve Tulûat tiyatrosunda İhtiyar Efendi kişiler sayesinde söyleşen iki kişi arasında karşıtlığın belirtilmesi en önemli öğelerdendir.

Köylü Tiyatro geleneğinde "Ölüp dirilme", "Kız Kaçırma, "Kukla" "Karagöz" vb. oyunlarda "Dede Korkut", Köroğlu gibi geleneksel Türk Kaynaklarından alınmış konular, İslâm geleneğinden alınmış dinsel konular, Kerbelâ olayının çeşitli sahneleri, Hazreti Hamza'dan ve Hazreti Ali'den alınmış konular efsanelerden, Destanlardan, Şehnameden vb. konuları mizahçılar yetenekleri sayesinde sergiliyorlar.

Şimdi bu geleneklerden bir tanesi de Karagöz gölge oyunudur ve Karagöz'ün oluşumu, sosyo-kültürel temellerine göz atalım. Adı, oyunun iki eksen kişiden biri Karagöz'den olan çok çok eskilere dayalı halk geleneksel tiyatro unsurudur. Bu Geleneksel Halk oyunu niteliğini taşıyan Karagöz'ün Türkiye'ye nereden, nasıl ve ne zaman geldiğini araştıralım.

Şunu ifade etmeliyim ki, Orta Asya ve İran'da gölge oyunları tarihin hiçbir yüzyılında bulunmamıştır. Türkiye'de gölge oyununun varlığını kesin olarak gösteren kaynakçalarda 16. yüzyılda Mısırdan geldiği yazılıyor. Bu kaynakça Arap tarihçisi Mehmet bin Ahmed bin İlyas-ül-Hnafi'nin Bedâyi-üz-zuhûr fi vekayi-üd-dühûr adlı Misir tarihinden olduğu yazılıyor.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# SÖZDƏ BİRİNCİLƏRDƏN OLAN AŞIQ QARANI

**Əli Şamil**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan**

**Özət:** Qul Qaranı Axısqa-Çıldır aşıq məktəbinin ən istedadlı sənətkarlarından olub. 18-ci yüzilliyin sonları 19-ci yüzilliyin əvvəllərində yaşamış aşığın əsil adı, atasının adı, ustadı və şagirdləri haqqında bugünədək əlimizdə bilgi yoxdur. Xəstə Hasanın haqqında olan dastan-rəvayətdən birində və sənətkarın məşhur "Sözdə bir" divanisində Qul Qaranıdən söz açılır. Urfanı, Küfdadi, Usta Polad, Qara Zülalla çağdaş olduqları bilinir. Adının əvvəlindəki qul, təxəllüsündəki Qaranı sözləri, bizə gəlib çatan şeirləri onun islam dini və təsəvvüflə sıx bağlı olduğunu göstərir.

**Açar sözlər: Qul Qaranı, Xəstə Hasan, Urfani, Usta Polad, Axısqa-Çıldır aşıq məktəbi.**

**Giriş**

Müharibələr, sürgünlər yalnız şəhər və kəndləri xaraba qoymur, həm də insanların ölümünə, faciələrə, mədəniyyətlərin məhvinə səbəb olur. Qüdrətli Osmanlı dövləti 20-ci yüzilliyin əvvəllərində dünyanın güclü imperiyaları tərəfindən məhv edilsə də onun xarabalıqlarında qurulmuş gənc Türkiyə Cümhuriyyətinin dirçəlməsi bir çox Avropa dövlətləri kimi Rusiyanı da qorxuya salırdı.

Rusiyanın yerində qurulmuş SSRİ sözdə xalqların himayəçisi, azadlıq və sülh carçısı kimi özünü təqdim etsə də əslində imperiya siyasətini yeridirdi. Türkiyənin güclənməsi onun müstəmləkə boyunduruğu altında saxladığı xalqların azadlıq mübarizəsini gücləndirəcəyindən qorxuya düşərək cənub sərhədləri boyundakı türk xalqlarını ata-baba yurdlarından sürgün etməyə başladı. XX yüzilliyin 20-30-cu illərində sürgünə ayrı-ayrı qruplar, bəzən bütöv kəndlər göndərilirdisə, İkinci Dünya Müharibəsinin sonunda Qaraçaylar, Balkarlar, Axıska və Krım türkləri, eləcə də başqa xalqlar ellikcə sürgün edilirdilər. Folklorumuzu, adət-ənənələrimizi yaxşı bilən insanların bir çoxu müharibədə və sürgünlərdə öldüyündən bildiklərini də özləri ilə apardılar.

Bir tərəfdən də hökumətin vətən xaini kimi elan etdiyi xalqların folklorunu toplamağa, nəşr etdirməyə heç bir araşdırıcı cəsarət etmədi. Rejimdə yumşalma başlayanda bu həvəsə düşənlərin də maddi imkanları yox idi ki, sürgün olunanların arxasınca Qazaxıstana, Qırğızıstana, Özbəkistana gedib folklor nümunələri toplasınlar və ya araşdırma aparsınlar.

Türkiyə araşdırıcıları isə başqa bir problemlə üzləşmişdilər. Cıldır-Kars-İgdir Azəri bölgəsi adlandırılaraq diqqətdən kənarda saxlanılırdı. Bu da səbəbsiz deyildi. Türküyə gündən-günə güclənən, hətta ondan məsafəcə çox-çox uzaqda olan Vyetnamı, Koreyanı, Kubanı və b. ölkələri təsir dairəsində saxlayan Rusiyanı qıcıqlandırmaq istəmirdi.

1.**Qul Qaranının ömür yolu ilə bağlı yazılanlar**

Aşıqlarımızın çoxu kimi Qul Qaranı haqqında yazılı qaynağa rast gəlinmir. Onların ömür yolları xatirələr, rəvayətlər, haqlarında qoşulmuş dastan rəvayətlər, özlərindən sonra yaşamış sənətkarların şeirləri əsasənda yazlır.

Qul Qaranı haqqında da ilk yazıya 1966-çı ildə Ankarada çap olunmuş "Kars Turizm ve Tanıtma Dernegi Yayınları" nın 5 sayında rast gəlirik. Orada Ardahan xalq şairlərindən söz açılarkən yazılıb: "1. Qaranı. Dəyirman köyü. 18 yüzyıl. Axıskalı Xasta Hasanın çağdaşı...3. Dursun Kaşifi. Dəyirman köyü. 1797-1865. İkraminin babası."

Eyni kənddən olan iki çağdaş sənətkardan birinin dəqiq doğum və ölüm tarixi, oğlunun adı verilsə də Qaranının yaşadığı zaman 18 yüzil yazılmaqla kifayətlənilib.

Türkiyədə Qul Qaranıyla bağlı araşdırmalara yalnız Aşıq Şenlik haqqında çap olunan kitablarda rast gəlmədik. Xəstə Hasanın "Yüzdə bir" divanisində adı çəkilib. (Erdener Aşık İslam,1960:18, Özbék Orhan,1969:10-11 Aşıkoğlu İsmail,1964, Arslan Enser, 1975:74). Ensar Aslan "Kars Turizm ve Tanıtma Dernegi Yayınları"nda çap olunana bir söz əlavə etməklə belə yazıb: "Garani, Kul Karani 18 yüzyılda yaşamış, Ardahanın Degirmen köyünden bir aşık"(Arslan Enser, 1975:411). Aşıq Şenlik şeirlərinin son və təkmil nəşirlərindən sayılan "Çıldırlı Aşıq Şenlik. Divanı(Hayatı, şiirleri, atışmaları ve hekayelerı) kitabda isə sənətkarın yüksək qiymətləndirdiyi aşıqların adları belə sıralanır: " Azerbaycan sahasında Şemkirli Aşık Mirze, yeğeni Aşık Hüseyn, Göğçeli Aşık Elesger, havetli Hasta Hasan, Çöllü İsmayıl, Doğu Anadoluda Aşık Karani, Çildırlı Hoca İrfani, Molla Halis,......şiirlerinde öne cekmişler."

Həmin kitaba yazdığı ön sözündə A.Barat Alptekin ilk dəfə Aşıq Nurunun doğum və ölüm tarixini müəyyənləşdirərək yazrı: "Nuri(Lebisli). 1811-1885-ci yölları arasında Gürcüstanın Ahıska vilayetinin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ahırkelek kazasının Lebis köyünde yaşamış olan Aşık Nuri Xasta Hasanın çırağıdır. Sazı ve sözü Xasta Hasandan ögrenmiştir. Çıldırlı Aşık Şenliyin saz ustadıdır.” (Çıldırlı Aşık Şenlik, 2006: 44)

Türkiyə araştırıcılarının əksəriyyəti Qul Qaranını Ardahanlı, bir az da dəqiqləşdirənlər Ardahanın Dəyirman köyündən hesab edirlər.

1980-ci illərdən Sovetlər Birliyində Həstə Hasan haqqında çap olunan yazılarda Qul Qaranı adı çəkilməyə başladı və ömür yolunun, yaradıcılığının öyrənilməsinin vacibliyi irəli sürüldü. (Hacıyev V., 1983: 12 aprel, Şamilov Ə.,1984:20 Mart, Şamilov Ə., 1986:1iyul) 1990-cı illərdən isə bu məsələyə diqqət artdı. Valeh Hacıyev büyük tirajla çap etdirdiyi “Folklorumuzun üfüqləri.(Azərbaycan-Gürcistan əlaqələri tarixindən) kitabında yazdı: “ Xəstə Hasan dövrünün görkəmli sənətkarları Qul Qaranı, Usta Polad, Ömər, İlfani, Sefili ilə deyişmiş, yüzlərlə ustadnamənin, divaninin, təcnisin və bir neçə destanın yaradıcısı kimi tanınmışdır” ( Hacıyev V., 1991:22) Müəllif 2005-ci ildə Bakıda çap etdirdiyi “Gürcüstanda Türk xalq ədəbiyyatı ənənələri” kitabında da Qul Qaranı haqqında yuxarıda dediklərini təkrarlamışdır.(Hacılı Valeh, 2005:160-162)

Şurəddin Məmmədli Qarapapaq 2000-ci ildə çap etdirdiyi “Borçalı ədəbi mühütü” kitabında Xəstə Hasandan söz açarkən sənətkarın “Qərənəyə şagirdlik edib, Xəstə Qasımı özünə ustad sayıb” ifadəsilə kifayətlənmişdirsə(Qarapapaq Şurəddin Məmmədli, 2000:112) 2004-cü ildə çap etdirdiyi “Borçalı-Ahıska-Kars ortaq ədəbi arealı” kitabında Qul Qaranıya fəsil ayırıb.(Qarapapaq Şurəddin Məmmədli, 2004:25-30). Bu Qul Qaranı haqqında gördüyümüz ilk məqalədir.

Araşdırıcı məqaləsində yeni qaynaqlardan istifadə etmiş, Qul Qaranı haqqında daha geniş bilgi vermişdir. Əsasən, özünün topladıgı materiallardan və S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Ziyəddin Əfəndiyevin fondunda saxlanan “Cüng-bayaz”dan(fond 533. saxlama vahidi 63, 64) istifadə etmişdir.

Araşdırıcı bu fikirdədir ki, sənətkar Üveysilik-Qərənilik təriqətinə bağlı olduğuna görə təxəllüsünü Qərəni götürüb. Topladığı bilgilərdən bu qənaətə gəlir ki, “Qaranı Axıska tərəfdə doğulmuş, orada və Borçalıda məşhurlaşmışdır... Borçalının Bəylər kəndində olub, 19-cu yüzilliyin birinci yarısında yaşayıb” Müəllif Borçalının Qoşçulu kəndində yaşayan Qəhraman Ömər oğlu Süleymanovun dediyi: “Aşıq Qul Qaranı Borçalı mahalımızın Bəylər kəndindəndir” fikri üzərində ciddi dayanmır. Amma yazır: “Qul Qərənini şeirləri indi də Borçalıda elin hafizəsində yaşayır və bu da onun Borçalıyla bağlılığı faktının müəyyən anlamda dəstəklənməsinə kömək edir”. (Qarapapaq Şurəddin Məmmədli, 2004:25).

Onun bir az tərəddüdlə söylədiyi fikrlə razılaşırıq. Çünki aşıq gəzərgi bir insan olub. Qaranı da Borçalıya gəlməsi, məclislər aparması, müəyyən müddət burada qalması mümkündür. Amma onun Bəylər kəndindən olmasını sübutlayan elə bir dəlil yoxdur. Aşığın yaşadığı dövür bizdən çox da uzaqda deyil. Çağdaşımız olan yaşlı nəsil onun oğul-uşağını xatırlayardı. Şurəddin Məmmədli Qarapapağın məqaləsinin ətək yazısındakı “Borçalının Bəylər, Saraçlı, Kosalı, Qaraçalar kəndlərində Qərənizadə soyadı indi də qalmaqdadır” fikri hələ həmin nəsillərin Qul Qaranıyla bağlı olduğunu sübutlayan dəlil deyil. Olsa olsa bu soyadı oxşarlığıdır.

Şurəddin Məmmədli Qarapapaq Qul Qaranı haqqında dəyərli bilgilər verir. Lakin bəzi yerlərdə qaynaq göstərməməsi özündə sonrakı araşdırıcıları çətin vəziyyətdə qoyur. O yazır: “İndiyə qədər bilginlər(Ənsər Aslan, Əflatun Saraçlı, Əsəd Əliyev, Məmməd Sarvan, Tinatin Məmmədova və başqaları) Qul Qaranının yalnız adını çəkməklə, onu Borçalı ədəbi mühitinin qüdrətli nümayəndələrindən birini təqdim etməklə yetərləniblər, məlumat azlığı səbəbindən onun barəsində geniş danışa bilməyiblər”. (Qarapapaq Şurəddin Məmmədli, 2004:25). Bilinmir ki, yuxarıda adı çəkilən araşdırıcılar hansı yazılarında Qul Qaranınin adını çəkiblər.

Yaxud araşdırıcı Qul Qaranının təxəllüs götürməsindən söz açarkən aşağıdakı şeiri verir:

Ərş üzündə pərvaz edən buludlar,
Gözlərim oxşatdı ay ağa səni.
Hər qətrəsi tutar bir əzim mələk,
Əmirsiz qoymazlar ay ağa səni.

Müşkül olsa həkim atar nəx andan,
Qorxum yoxdur nə sultandan, nə xandan,
Mələkülmövt bir gün tutar yaxandan,
Qoymaz ki, qalxasan ayağa səni.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəhd eylə, Qərani, qıl beş vaxtını,
Günahkar olarsan, tərk et taxtını,
Soyarlar əynindən tacı-taxtını,
Yuyarlar, bükərlər ay aga səni.

Araştırıcı bu şerin də haradan alındığını göstərməyib. Kiçik qüsurlarına baxmayaraq məqalə Qul Qaranı haqqında ilk məqalə kimi olduqca dəyərlidir.

**2. Xəstə Hasan Qul Qaranı haqqında**

Xəstə Hasanın yükcək sənətkarlıqla söylədiyi "Sözdə bir" divanisinin əlimizdə olan nüsxələrinin hamısında Qul Qaranının adı çəkilir. Aşağıda Türkiyənin Kars ilinin(vilayətinin) Kümbətli (Ladıkars) kəndindən olan Aşıq İslam Ərdənərdən topladığımız nümunəni veririk:

Abi-çeşmim göllərində sona da bir, qaz da bir.
Süsən-sünbül, mor mənəvşə, bülbül ötər yazda bir.
Vaqif dərdən xəbərdardı Gövhərin qiyməti yox.
Qul Qaranı, Qara Zülal, Aşıq Ömər sözdə bir.

Bu misralardan aydın görünür ki, Qul Qaranı Vaqif, Gövhəri, Aşıq Ömər, Qara Zülal kimi söz ustası sayılır. Aşiq İsgəndər Ağbabalı və Murtuza Tursunovdan (Namazov) topladıgımız nüsxələrdə isə son misra "Qul Qaranı qərəz eylər, Aşıq Ömər sözdə bir" kimidir. Fərqin yaranmasını aydınlaşdırmaq üşün mütləq Xəstə Hasanın Qul Qaranı ilə deyişməsindən söz açan dastan rəvayəti gözdən keçirmək lazımdır.

**1. Xəstə Hasan və Qaranının deyişməsindən bəhs edən dastan-rəvayət**

Bir gecəlik məclis üçün hazırlanmış dastan-rəvayətin əlimizdə dörd nüxəsi var. Onlardan biri Məhəmməd Hüseyinqulu oğlundan, ikincisi Aşıq İsgəndər Ağbabalıdan, üçüncüsü Aşıq Murtazadan, dördüncüsü Aşıq İlyas Dadaşovdan toplanıb. Birinci nüsxəni araşdırıcı Elxan Məmmədli babasından toplayıb və AMEA Folklor İnstitutunun Arxivində 1996-cı ilin ekspedisya materialları sirasında 100-cü qovluqda saxlanılır. Sonrakı üc variant isə şəxsi arxivimizdə və AMEA Folklor İnstitunun Arxivində müxtəlif illərin ekspedisya materialları arasındadır.

Gözdən keçirdiyimiz dörd variantın sujetləri arasında elə bir ciddi fərq yoxdur. Hadisələr Nağı bəyin evində baş verir. Aşıq Murtaza və Aşıq İsgəndər Ağbabalı Nağı bəyin Qarzaxlı, Məhəmməd Hüseynqulu oğlu isə Sarıqamışlı olduğunu söyləyib.

Aşıq deyimələrinin ənənəvi qəlibləri əsasında qurulmuş dastan-rəvayətin qısa məzmunu belədir:

Qaranı Qarzaxlı Nağı bəyin aşığıdır. Nağı bəy təzə gətirdiyi gəlininə tərif dedirtmək istəyir. Bəyin xanımı gəlini bəzəyib məclisə gətirir. Qaranı gəlinə baxıb aşağıdakı tərifi deyir:

Başına döndüyüm, qurvan olduğum
Yoxdu sənin kimi, yaxası Gülgəz.
Alışıb oduna büryan olduğum,
Olarmı sənintək həvəsi Gülgəz.

Can qurban eylərəm o uca boya,
Gözəllik yaraşır qamətə, soya,
Bəzəkli-düzəkli aparam toya,
Yoxdu sənin təki sonası Gülgəz.

Qaranıyam oxumadım hecəmi,
Yuxum gəlmir, yatammıram gecəmi,
Çox gəzdim dünyanı, Azərbaycanı,
Öldürür qaşların qarası Gülgəz.

**(Ağbabalı İsgəndərin variantı)**

Aşıq Murtazanın və Aşıq İlyas Dadaşovun söylədiyi şeir də Ağbabalı İsgəndərdən toplanmış variantla məzmunca eyni olsa da misralarda, deyimlərdə bir az fərq var. Hər iki şeir Gülgəz rədifi ilə bitir. Dastanda deyilir ki, şeir Nağı bəyin xoşuna gəlmir. O qədər hirslənir ki, hətta Qaranını öldürmək istəyir. Lakin dostları, məsləhətçiləri buna imkan vermirlər. Deyirlər ki, aşığı öldürsən deyəcəklər: "Nağı bəy bir aşığı da saxlaya bilmədi deyə öldürdü. Elə bir aşıq tapaq ki, deyişəndə onu bağlasın. Bu Qaranıya ölümdən ağır zərbə olar".

Şerii diqqətlə gözdən keçirdikdə burada elə bir qəbahətli misraya rast gəlmirik. Toylarda gəlinlərə, qızlara aşıqlarımızın əksəriyyəti belə təriflər deyib.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Burada nəsə bir anlaşılmazlıq, məntiqsizlik özünü göstərir. Elxan Məmmədlinin babası Məhəmməd Hüseynqulu oğlundan topladığı variantdakı gözəlin tərifi məsələyə aydınlıq gətirir.

Gəl görüm, gəlişin nerdən, çeşmi siyah, nöycavan,
Həsrətəm didarına, çəkirəm ah nöycavan,
Nə müddətdir yolçusuyam, gözlərəm yollarını,
Axşamlar zarı qıllam, taki sabah nöycavan.

Bad əsdi, gül üzündən qalxdı niqab, ey nigar,
Dağıldı könlüm qübarı, hüsnünə qıldım nəzər,
Məni edib, məbus yaradıb, camalın pərvərdigar,
Saxlasın cümlə bəladan cəni Allah nöycavan.

Qaranını mehman eylə otağına sazınan,
Üz sürtüb qədəmlərini bus edim peşvaznan.
Soyunub alsan qoynuna aşığı min nazınan,
Açılaydı üstümüzə taki sabah nöycavan.

Bu şeirin son misralarının Nağı bəyi və məclisdəkiləri əsəbiləşdirəcəyi, aşıqdan narazı salacağı normal görünür. Ehtimal etmək olar ki, Qul Qaranı Gülgəzin tərifinə iki şeir söyləmişdi. İkinci şeirdə açıq-saçıq, intim misralar olduğuna görə onu qadınlar-qızlar, uşaqlar olan məclislərdə söyləməmişlər. Beləcə bəzi aşıqların repertuarından çıxsa da yaşlı nəslin yaddaşında qalmışdır.

Aşıq Murtaza variantında Qaranı qarşılaşdırmaq üçün Urfanini, Küfdadını və Usta Poladı dəvət etmək istəyirlər. Lakin onlar Qarzaxdan uzaqda olduğuna gətirtmək vaxt aparır. Bu zaman eşidirlər ki, Xavet kəndində danaçılıq edən bir yeniyetməyə haqdan vergi verilib. Onu gətirtməyi planlaşdırırlar. Yeniyetmə Qul Qaranı kimi bir aşıqla deyişməyə ehtiyat edəcəyini bilirlər. Buna görə də öncədən Nağı bəyin çağırdığını söyləyirlər.

Yeniyetmə Hasan Nağı bəyin yanına gələndə məclis qurulduğunu görür. Həmin vaxt bəyin göstərişi ilə Qaranı gizlənir. Bəy ona haqdan vergi verildiyinin doğru, yalan olduğuyla bağlı suallar verir. Hasan söylənənlərin doğru olduğunu deyir. Nağı bəy deyir ki, doğrudursa onda məclisdəkilər üçün çalıb-oxusun.

Xəstə Hasan çalıb-oxumağa başlayır. Aşıq Murtuzanın və Aşıq İsgəndər Ağbabalının, Aşıq İlyas Dadaşovun söylədikləri variantda Xəstə Həsən müxtəlif məzmunda 3 şeir deyir ki, bunlar Məhəmməd Hüseynqulu oğlu variantında yoxdur. Dastan rəvayətin əsasını, özəyini təşkil edən Qul Qaranıyla Xəstə Hasanın deyişməsidir. Hər dörd variantda və Aşıq İslam Ərdənərin bizə göndərdiyi “Qara hey!” rədifli deyişmələr, misra, ifadə fərqlərini nəzərə almasaq eynidir. Buna görə də onlardan Aşıq İslam Ərdənərin söylədiyi “Qara hey!” cığalı təcnisini, Aşıq İsgəndər Ağbabalının söylədiyi “Bax” divanisini, Məhəmməd Hüseynqulu oğlunun söylədiyi “Ver xəbər” divanisini təqdim edirik:

**Qul Qaranı:**
Əlif-bey içində, hərf arasında,
Bir xət gördüm, çəkilibdi qara hey!

Əziziyəm, qara hey!
Qış gəldi bax, qara hey.
Qaradan boyax olmaz,
Boyanıbdı qara, hey!

Namərd seyraqubun bafası olmaz,
Dolanar dünyanı üzü qara hey!

**Xəstə Hasan:**
Aləm bilir bu dünya da beş gündü,
Mən bilirəm beşini də qara hey!

Əziziyəm qara, hey!
Oxu dərsin qara, hey!
Əzəlindən kim çalıb,
Ağ üstündən qara hey?!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sağlıq xəbərimi yara versələr,
Dost sevinər, düşmən geyər qara hey!
**Qul Qaranı:**
Üstümüzdə kərəm kanı bir dura.
Dəvət eylə, dostun minsin bir dura.

Əziziyəm bir dura.
Bir yeriyə, bir dura.
Sərraf odur dür seçə.
Qiymət vura bir dura.

Əliyyən Mürtəza mindi bir dura.
Qabağında sarvanıydı Qara hey!
**Xəstə Hasan:**
Xəstə düşdüm, döşək üstə dər saldım.
Cəfa çəkdim dünya üçün dər saldım.

Əziziyəm dərs aldım.
Eşiyinə dər saldım.
Eşitdim seyraqub gəlir.
Onun üçün dər saldım.

Əqli kamil ustadımdan dərs aldım.
Oxumuşam əlif, əbcət, qara hey!
**Qul Qaranı:**
Haqq əmr etdi inli-cinni yaransın.
Əyyub sağlığında gördü yarasın.

Əziziyəm yarı sin.
Yarı mimdi, yarı sin.
Cismimi ataş aldı.
Qırağında yar, isin.

Qaranı der: Şavatçıyam, ya Rəsul.
Cünahkarlar gələr üzü qara hey!
**Xəstə Hasan:**
Bizlərdə qaydadı yara deməzlər.
Yarın sirrin əğyara deməzlər.

Əzizyəm yara deməzlər.
Yarı yara deməzlər.
Axır həsrət ölərəm.
Dərdi yara deməzlər.

Xəstənin dərdini yara deməzlər.
Görər məzarımı, geyər qara hey!

**(Aşıq İslam Ərdənər variantı)**

**Qul Qaranı:**
Ey könül, oyan qəflətən, ol dəmi-dövrana bax.
Hər sabah tezdən ərşə çəkilən ol karvana bax.
Dəryada mah, yerdə murğu, hamı onun əmrindədi.
Dünya heç kəsə qalmadı, hanı, Süleymana bax.
**Xəstə Hasan:**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bizi yoxdan var eyləyən ol Tanrı sübhana bax.
Abı, ataş, xaki, baddan xəlq olan insana bax.
Adəmi sakin eylədi cənnəti irizvana.
Onların qəsdi-qərəzi ol ləin şeytana bax.
**Qul Qaranı:**
İbrahim ki, İsmayılı apardı Ərəfətə.
Dedi: Ata, qolum bağla, sallam səni əzyətə.
Xışmla bıçağı çəkdi ol Həcərül Əsfətə.
Kim göndərdi, kim gətirdi ol qoçu qurbana bax!
**Xəstə Hasan:**
Hax taladan nida gəldi, «İncil» endi İsaya,
«Zabur» Davuda verildi, abu «Tövrat» Musaya.
Məhəmməd durdu qıvlaya, Məryəm girdi kilisaya.
Məhəmmədin hümmətinə oxunan Qurana bax!

**(Aşıq İsgəndər Ağbabalı variantı)**

**Qul Qaranı:**
Bizi yoxdan var eyləyən ol sübhandan ver xəbər.
Səkkiz cənnət əzizi o kimlərdən ver xəbər.
O kimdi hüllə biçir insanın sifətinə?
Doqquz bağa su bağlayan o bağbmndan ver xəbər.
**Xəstə Hasan:**
Bizi yoxdan var eyləyən ol sübhandan al xəbər.
Səkkiz cənnət əzizi o kimlərdən al xəbər.
İdrisdir hüllə biçir insanın sifətinə.
Doqquz bağa su bağlayan o bağmandan al xəbər.
**Qul Qaranı:**
Dinlərdən hansı əzizdi, mən tutmuşam adını?
Əngiddə kimlər gördü Əzrayılın cəngini?
O kim idi, iki yol gördü ana rəhnini?
Məkanı bu məkanın bil, o bir cannan ver xəbər?
**Xəstə Hasan:**
Məhəmmədin dini əzizdi, mən tutmuşam o dini.
Qabil öldürdü Habili gördü Əzrailin zəhmini.
Həzrət Yunus iki yol gördü ana rəhnini.
Məkanı ümman məkanı, ol cannan al xəbər.
**Qul Qaranı:**
Qaranı ana ilə buldu bir-birini.??????
O kimiydi kəndi əliynən kəndi kəsdi sərini?
O kim idi atasız gəldi dünyaya, əmdi ana şirini?
O ki nədən xəlq olubdu ol divandan ver xəbər?
**Xəstə Hasan:**
Xəstə Hasan ana ilə buldu bir-birini.
Əzraildir kəndi əliynən kəndi kəsər sərini.
Həzrət İsa atasız gəldi, əmdi ana şirini.
O ki, nurdan xəlq olunub ol divandan ol xəbər.

**(Məhəmməd Hüseynqulu oğlu variantı)**

Qul Qaranının dediklərinə cavab verdikdən sonra Nağı bəy Xəstə Hasana təklif edir ki, indi də o desin. Xasta Hasan "İçnidə" rədifli bağlamanı deyir. Qul Qaranı bağlamanı aça bilmir. Xasta Hasanın söylədiyi bağlama Məhəmməd Hüseyniqulu oğlu variantında yoxdur. Onun söylədiyi nisbətən yığcamdır və Qul Qaranının söylədiyi bağlamaları Xəstə Hasanın açmasıyla bitir.

Qalan üç variantda fərqlər azdır. Aşıq Murtaza variantının sonunda Qul Qaranı Nağı bəydən xahiş edir ki, Xəstə Hasanı ona iki günlük qonaq versin. Qul Qaranı uşağı, yəni Xəstə Hasanı incitdiyinə görə onun xəcalətindən çıxsın, könlünü alsın. "Nağı bəy dedi: "Yox olmaz, çünki insan oğlu çiy süd əmmiş".



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaranı dedi: "Bəqim gətir əl kağızı yazem, mənim buna ziyanım olmaz". Nağı bəy dedi: "Onda olar, yaz. Əgər buna bir şey olsa sənin kökünü kəsərəm vallah!"

Bəli Qur Qaranı Xəstə Hasanı apardı davata, hamısı yedilər işdilər... Nağı bəy bir yaxşı atı Xasta Hasana peşkaş verdi"

Bu sonluqda məğlub qalibdən düşmən kimi deyil, dostcasına ayrılır.

**Sonuc**

Gözdən keçirdiyimiz dastan-rəvayətlərdə və yazılı qaynaqlardan aşağıdakı nəticəyə gəlirik:

1. Qul Qaranı Türkiyədəki Ardahan qəsəbəsi yaxınlığındakı Dəyirman köyündəndir.
2. Aşığın əlimizdə olan 3 qoşma və 3 bağlamasından aydın görünür ki, ustad sənətkar olmuş, elə buna görə də bölgənin ən secilən aşığı kimi Nağı bəy onu yanında saxlamışdır.
3. Şeirlərinin təsəvvüfələ sıx bağlılığı, adındakı qul və Qaranı sözləri onun təriqətlə bağlı olduğnu söyləməyə əsas verir.
4. Qul Qaranı, Urfanı(əsil adı Sülüyman), Usta Polad Xəstə Hasandan yaşda böyük olsalar da bir bölgənin sənətkarlarıdır və çağdaşdırlar.
5. Aşıq Şenlik 1853-1914-cü, Aşıq Nuru 1811-1885-ci, Xəstə Həsən 1760-1840-ci illərdə yaşayıblar. Bu hesabla Qul Qaranı da Xəstə Hasandan 20 yaşdan çox büyük olmalıdır. Demək Qaranının doğum tarıxı 1740-cı illərdən sonralara düşür.
6. Xəstə Hasan Qul Qaranı ilə deyişib. Bu mövzudakı dastan-rəvayət isə sonradan, özü də Xəstə Həsənin şagirdləri tərəfindən formalaşdırılıb. Buna görə də Xəstə hasanın "Birdir, bir" divanisindəki "Qul Qaranı, Qara Zülal, Aşıq Ömər sözdə bir" misrası dastan sujetinin təsirilə "Qul Qaranı qərəz eylər, Aşığ Ömər sözdə bir" şəklinə salınıb. Beləliklə aşıqların şerlərinin qorunub günümüzədək gəlib çatmasında böyük rolu olmuş "Qul Qaranıynan Xəstə Hasanın deyişməsi" dastan-rəvayər həm də Qara Zülal kimi aşığımızın unudulmasına, Qul Qaranı kimi ustadın qərəzkar kimi tanınmasına şərait yaradıb.
7. Şeir və rəvayətlər isə onu göstərir ki, Xəstə Hasan Qul Qaranının ya şagirdli olub, ya da ondan güclü təsirlənib.

## QAYNAQLAR


1. Aslan Enser.(1975, 1993), Çıldırlı Aşık Şenlik. Hayatı, şiirléri vé hikayéléri. (İncélémé-métin-sözlük), Ankara.
2. Aşıkoğlu İsmail.(1964) , Aşık Şenlik, "Koban" yayınları, İzmir.
3. Çıldırlı Aşık Şenlik. (2006). Divanı.(Hayatı, şiirlerı, atışmaları ve hikayeleri), Hazırlayanlar: A.Barat Alptekin, M.Nizamettin Coşkun, Ankara.
4. Erdener Aşık İslam.(1960), Aşık Şenlik divanı, "Bugün" matbaası, Kars.
5. Hacılar Valeh. (2005), Gürcistanda Türk xalk ədəbiyyatı ənənənləri. «Səda» nəşriyyatı, Bakı.
6. Hacıyev, V. (1983), Xəstə Hasan kimdir? "Sovet Gürcüstanı" qəzeti, 12 aprel.
7. Hacıyev Valeh.(1991), Folklorumuzun üfüqləri. (Azərbaycan-Gürcistan folklor əlaqələri tarixindən). "Yazıcı" nəşriyyatı, Bakı.
8. Qarapapak, Şurəddin Məmmədli.(2000), Borçalı ədəbi mühitü, "Elm" nəşriyyatı, Bakı.
9. Qarapapaq Şurəddin Məmmədli(2004). Borçalı-Ahıska-Kars ortaq ədəbi arealı, "Kolori" nəşriyyatı, Tbilisi.
10. Kars ili.(1966), Çıldır, Ardahan, Hanak, Posof. I sayı. Özél say. Kars Turizm vé Tanıtma dérnéği yayınları. Sayı 5, Ankara.
11. Özbék Orhan. (1969), "Aşık Şenlik.(değişmélér, karşılaştırmalar), "Ay yıldız" néşriyatı, Ankara.
12. Şamil Ali.(2004), Xəstə Hasanın ömür yoluna dair bir dəqiqləşdirmə. "Ortak Türk keçmişindən ortak Türk gələcəyinə". II Uluslararası Folklor Konfransı. AMEA Folklor Mərkəzinin nəşri, Bakı.
13. Aşiq Ürfaninin ömür yolu və şeirləri. "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə». IV Uluslararası Folklor Konfransının materialları. AMEA Follkor İnstitutu, Bakı, 2006, 1-3 noyabr, s.??????.
14. Şamilov Ali.(1984), El sənətkarlarımız. Xəstə Hasan, "Şərq qapısı" qəzeti, 20 Mart, Naxçıvan.
15. Şamilov Ali. (1986), Xəstə Hasan və müasirləri. "Sovet Gürcüstanı" qəzeti, 1 iyul, Tbilisi.




PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MITOLOJIK UNSURLARIYLA YAGMUR DUASI ve YAGIS RITUELLERI

***Dr. Enver Uzun (Arastirmaci-Yazar)***
***Turkiye***

Suyun insanlar için önemi çok büyük olması nedeniyle eski zamanlardan beri değişik insanların su ile ilgili pek çok itikadi davranış şekillerinin olduğu, zamanla suya manevi bir güç yüklendiğini görmekteyiz. Bu nedenle suyun yokluğu büyük bir falâket olarak algılanmıştır. Bu algılayış sonucunda suyun yokluğunu gidermek için kuraklık anlarında değişik davranış şekilleri ortaya konmuştur.

Mitoloji insanın hayal gücünün sınırsız ortamında filizlenerek bir süre sonra değişik objelerin yardımıyla real yaşamın somut bir olgusuna dönüştürülüverirler. İnsanın kendi hayal dünyasının ürünü olan bu manevi değer manzumeleri zamanla insan psikolojisi üzerindeki baskıyı artırarak fiziki objeler ile somutlaştırılarak birer toteme dönüştürülürler. Kendi çaresizliğinden çıkış yolu arayan ilkel insan farkına varmadan kendi yaratmış olduğu totemler vasıtasıyla kendi kurtuluş yolunu yaratır. Bu yaklaşım değişik sosyal olgular ile zenginleştirilerek yaşamın vazgeçilmez unsuruna dönüştürülürler. Daha sonra da tüm çaresizliklerinde felaha erecek somut kavramlara sokularak her zor şartlarda ya da edindiği mutlu anlarında ona adak ve kurbanlar, değişik hediyeler sunarak şükran duygularını bildirmenin yanında dilek ve arzularda da bulunur ki bu dileklerden birisi de yaşamın temel unsuru olan su(yağmur)dur. Yağmur yağışına gök ve yer tanrılarının birleşmesi olarak bakıldığı gibi, yer yüzünün mayalanması olarak da bakılabilir. Bu durum Türklere özgü bir durumdur. Her ne kadar su bolluk ve bereket olarak düşünülse de aslında bu suya tapınma anlayışının bir sonucudur.

Afrika Kıtası'nda yağışın totemlerden beklenmesi ilginçlik arz eder. Afrika'nın değişik yörelerinde yağmur gereksinimi için farklı ritüeller uygulanır. Doğu Afrika'da Caffre'ler, Yukarı Zimbabe'de Barotseler'de her türlü felaketlerden kurtuluş çaresi olarak krallarına yalvarırlarken bu inanç yağmur arzusuyla tarlalarına bereket verecek yağmuru krallarından isterler. Batı Afrika'da kralın yağmur vermemesi durumunda yağmur yağar umuduyla kralın elleri kabile reislerince elleri bağlanarak atalarının mezarına getirilir. Batı Afrika'da Banjarlar iyi günlerinde hediye sundukları krallarını yağmurun tahılları bozma durumunda durumun değişeceği ana kadar krallarını aşağılar, hatta döverler.[1] Meksika krallarının kuraklık zamanlarda bulutların yağmur vermesini sağlayacağına dair yemin ederlermiş. Habeşistan'ın dış bölgelerinde yaşamakta olan Alfai Rahipleri'nin yağmur yağdırabileceklerine inanılır. Nil Nehri sakinlerinin bazılarında yağmur kralları Mata Kodou vardır. Bunların yağmur getirme(yağdırma) gücüne sahip olduklarına inanılırken Afrika(Kongo'da)Yağmur ve Fırtına kralı Namvulu Vumu vardır**.** Bangal'deki Khond kabilesinde olduğu gibi Avrupa'da da bazı ritüel törenler yağış büyüsü olarak kabul edilir. Osiris'in bir sandık içerisinde Nil Nehri'ne atılarak Nil'in kabarması kısmen de olsa bir yağmur duası ile alâkalıdır.[2] Yağmur duası ile ilgili törenlerin eskisine Romalılar devrinde rastlamaktayız. Değişik masallarda ve Homeros'un meşhur İliada Destanında Su perisi yağmur ile ilgili düzenlemeyi yapar.

Türk topluluklarında sosyal yaşantıda yer alan değişik merasim törenlerinden birisi belkide en önemlisi yağış ile ilgili törenlerdir. Baştan sona kadar animizm ve efsun ile dolu olan bu tören itikati inançla bağlı olarak pek çok milletler arasında geniş bir şekilde uygulana gelmiştir. Zaman zaman görülen kuraklıklar bizim insanımızı suya karşı bir hasrete yöneltmiş, bu hasret zamanla kutsal bir havaya sokulmuş böylece vazgeçilmesi mümkün olmayan bir merasimin yapılmasına neden olmuştur ki, " Yağmur " ve " Güneş " duaları bu halk merasimlerinden en dikkat çekici olanlardır. yapılarak gelmiştir. Günümüzde bu halk merasimi İslâmî değerler ile yaşatılmaya çalışılırken, daha çok Azerbaycan ve Karadeniz yöresinde İslâmi değer ölçülerinin dışındaki geleneksel yağmur ve güneş duaları zamanla unutulmaya yüz tutmuştur. Uzun yıllara dayanan bir geçmişe sahip olan bu halk merasimleri aynı özellikleri ile günümüzde İslâmi değerler ile yaşatılmaya devam edilmektedir.

Elbetteki yağmura ya da suya duyulan ihtiyaç nedeniyle düzenlenen yağış merasimleri farklı algılamalar ile farklı şekillerde giderilmeye çalışılmıştır. Irak Türkmenleri arasında yaygın bir inanış olarak kuraklığın İnsanlar arasındaki cinayet, kıyım ve kıyımların yaygınlaşması gösterilir.[3]

Türk topluluklarında sosyal yaşantıda yer alan değişik merasim törenlerinden birisi bel ki de en önemlisi yağış ile ilgili törenlerdir. Baştan sona kadar animizm ve efsun ile dolu olan bu tören itikati inançla bağlı olayarak pek çok milletler arasında geniş bir şekilde uygulana gelmiştir. Halk bilimi açısından emsalsiz bir değer taşıyan bu ritüel olgu folklor için zengin bir kaynak oluşturur. Yağmur duası ile ilgili olarak "Türkiye'de Yağmur Duası" adını taşıyan makale oldukça dikkati çeker.[4]

Ali Rıza Önder evrensel bir konu olan "yağmur duası" geleneğinin, bütün eski uygarlıklarda yaygınlaşmış olduğunu "üreme tanrısı" ve "ana tanrıça" inançlarına dayandığı görüşündedir.[5] Zaman zaman



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görülen kuraklıklar bizim insanımızı suya karşı bir hasrete yöneltmiş, bu hasret zamanla kutsal bir havaya sokulmuş böylece vazgeçilmesi mümkün olmayan bir merasimin yapılmasına neden olmuştur ki, bu manevi yöneliş Türk kültüründe önemli bir yere sahip olan taş ile somutlaştırılmıştır. İlk mitolojik ifadelere göre ilk yaz yağışlarını yer yüzüne " Tiştti-Tir " adlı antropomorfik tanrı yağdırmıştır.[6] O, kuraklık devi " Apoş " ile düşman olup, onunla yapmış olduğu amansız mücadelede Apoş'u yenerek yaz yağışının yer yüzüne yağmasını sağlamıştır.[7] Türk inamında çok önemli bir yeri olan yağmur yağışı ile ilgili merasimler ilk dönemler tayfa başçıları, sonra tayfa başçıları, şamanlar, İslâm inancı sonrasında ise manevi saygınlığı olan pîrler tarafından ifa edilirdiler.On dokuzuncu asrın sonu, yirminci asrın başlarında ise bu fonksiyonel işlevi kolhoz reisleri ifa etmeye başladılar. Eski Türklerde yağmur duası öncesinde "Idık" merasimi yapılırdı. Bunun için sürü içerisinden bakımlı bir koyun, koç, inek hatta at seçilerek "ıdık" yapıldıktan sonra ya sürü içerisinde ona kesinlikle dokunulmaz ya da sürüden ayrılarak serbest bırakılır ve yağmur için tanrıya duada bulunulurdu. Bereketi temsil eden "ıdık" seçimi özel bir merasim sonucunda gerçekleştirilir, değişik eğlenceler düzenlenirdi. İsâm inancının kabulu sonrasında "ıdık" seçimi yerini kurban seçimine bırakmıştır.

***Taş motifi ve kutsal taşlar***

Yağmurun Türk kavimlerinde yaygın olan bir inanışa göre Tanrı Türklere Yada ( Cada, yat ) taşı hediye etmiştir ki, bu taş yağış ile ilgili bir takım olayları yönlendirmede oldukça önemli bir rol oynar. Bu öneminden dolayıdır ki bu taş Türk folklorunda derin izler bırakmıştır. İlk defa olarak Çin kaynaklarında adından söz edilen bu taş İslâm kaynaklarında "Yağmur taşı " olarak dile getirilmektedir. Türklerin aynı zamanda sihir için de kullanmış oldukları bir taşı yağmur yağdırmak içinde kullandıkları ve literatürde " Yeda taşı ", " Ceda taşı ", " Yada taşı " , " Sata "şeklinde geçmiş olan bu sihirli taş Franzızcada " Jade ", Farslarca " Yeşim( Şimşek, Şimşek taşı ) " şeklinde dile getirilir. Bu konuda en geniş bilgileri İslâm tarihçilerinden İbn-ül- Fakih tarafından verilmiştir.[8] Kaşgarlı Mahmut'un meşhur " Divanü Lûgat'it Türk adlı eserinde ise bu sihirli taş " yat " şeklinde yer alır. Kaşgarlı'ya göre "Yat " bir tür kamlıktır. Belli başlı taşlarla ( Yada taşı ) yapılır. Böylelikle yağmur ve kar yağdırılır; rüzgâr estirilir. Bu Türkler arasında tanınmış bir şeydir. Ben bunu yağma ülkesinde gözümle gördüm. Orada bir yangın olmuştu, mevsim yaz idi; bu suretle kar yağdırıldı ve Ulu Tanrının izniyle yangın söndürüldü. [9] Yada Taşı mifik değerler ve inanışlar ile kutsal bir konuma sokularak adeta ölümsüzleştirilmiştir. Bu nedenle Türklerin sosyal hayatında vazgeçilmez bir değer olarak kalan bu taş aynı zamanda da itikati manevi değerler ile de donatılmıştır. Altay şamanları içerisinde " Yadaçı " adı verilen şamanların olduğu belirtilmektedir. L. Seroşevski'ye göre yada taşı " İnsan kafasına benzer. Yüzü, gözü, kulağı, ağzı çok açık olarak görülür. Kadın veya bir yabancının eli veya gözü dokunursa ölür, kuvvetini kaybeder. Canlı " sata " yı ele alıp yukarı kaldırırsa derhal soğuk rüzgâr eser, yağmur ya da kar yağar. Elinde bu taş bulunan adam uzak yola çıkarsa atının yelesi veya kuyruğu altına bunu bağlarsa at terlemez, daima esen serin rüzgâr altında rahat rahat seyahat eder. Şamanlardan birine " sata "yı bir kartal vermiştir.[10] Uygur Türklerinde yıldırım ve gök gürlemesini sağlayan kutsal taş aynı zamanda yağmurun yağdırıcısıdır. Ancak söz konusu bu taş ilahi bir buyruk ile çatışması durumunda güçsüzleştiği söylenir.[11] Böylece manevi bir kuvvet haline sokulan bu taşın sosyal yaşamın düzenlenmesinde önemli bir rol oynadığı görülür. Anadolu'da eskiden beri yağmur dualarında yedi dere ağzından toplanan taşların okunduktan sonra yağmur duası zamanında suya atılması olayı vardır ki, bu geçmişteki Yada taşı geleneği ve inancının bir devamı olarak algılanmalıdır. Ural ve Başkırdistan Türkleri yağmur yağış merasimlerinde kullanmış oldukları taşlar üzerine değişik resimler çizerler. Eskiden Azerbaycan'ın Mugan, Şirvan ve Kuba-Haçmaz şehirlerinde baba dağı'ndan getirilen taşların kutsal sayılan bir bulağın gözüne konularak yağış teminine gidildiği kayıt edilir. Ayrıca Cebrail Rayonu'nun ortasında bulunan Karataş üzerine çıkılmak suretiyle yağmur duası yapılır.

Kayseri'nin Turan Köyü'nde yağmur duaları kutsal sayılan bir taşın kuzey yanında yapılır. Söz konusu bu taş, granit görünümünde bir metreküp büyüklükte ve dört köşelidir. Bir yüzü üzerine yatay olarak değil, yan yatmış olarak durur. Söz konusu bu taş bir tapınak taşıdır. Fellahın Ayşe adlı yaşlı bir kadın dere içerisindeki köye yönelerek "haydin evliyanın başına" diyerek söz konusu bu taşa yönelir. Taşın yanına varıldığında kadın, erkek, çoluk çocuk, kıble yönünde kalan taşa dönük olarak ayakta durur ve hocanın okuduğu duayı "amin" diyerek onaylarlar. [12]

Kurak giden mevsimlerde yağmurun ya da suyun gücü daha belirgin olarak kavranmış ve kuraklıkta su temini için yada taşından başka itikati davranışlara da yönelinmiştir. Örneğin Yağmur duası yapıldıktan sonra insanların suya atılmaları, bir-birleri üzerine su dökülmesi ya da çocuk folklorunun önemli nümunelerinden oyunlarda Çömçe gelin oyununun oynanması gibi olaylar hep suya olan hasretin giderilmesine, arzu edilen bereketin, mahsulun elde edilmesine yönelik bir davranış biçimidir. E. Elekberov ve G. Ç. Cevadov'un kayıtlarına göre Azerbaycan'ın Laçin ve Kelbeçer şehirlerinde asrımızın otuzuncu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yıllarına kadar kadınların yağış olması için mahnılar okuyup, bir-birleri üzerine su serpiyorlardı. Derbend Azerbaycanlıları arasında XIX. asırda yağış tanrısının şerefine " Gudul- Gudul " oyunu içra edilirmiş. [13]

***İslâm Dininde Yağmur Duası***

İslâmiyette su ve yağmur ile ilgili pek çok ayet olmasının yanında fıkıh kitaplarında " İstiska " adıyla yağmur duasının varlığı ya da ne şekilde içra edileceğine dair açıklayıcı bilgiler vardır. Bu nedenle Türklerin İslâmiyeti seçmelerinden sonra yağmur için düzenlenen törenlerde islâmi bir özellik görülse de eski kültün izleri silinememiştir. Bu gün hala değişik Türk halkları arasında kuraklığa care olarak yağmur duaları eski canlılığı ile yapılmaya devam edilmektedir.

İslam dini bir dualar manzumesi özelliği taşır ki, bu dualar içerisinde "mendub(yağmur duası) da vardır. Söz konusu duamın pratikte uygulama safhasına sokulması ise "müstehab" şeklinde adlandırılır.[14] Yağmur yağışı ile ilgili İslâmiyete uygun bir şekilde düzenlenen bu halk merasiminin yanı sıra ayrıca yüksek dağ tepelerine yazılı nuskaların gömülmesi, Yağmur duasında "Neml Süresi" nin okunması, türbe, camii ve yatırlardan yardım dilenmesi * Güneşli bir gün öğle üzeri sıcaklığın en belirgin hissedildiği saatte Çocuklar ve kuzular annelerinden ayrı tutulmak suretiyle meleştirilmeleri ve ağlatılmalarıyla oluşturulan hüzünlü hava yağışa bir vesile sayılır. Kayseri'nin Turan Köyü'nde köyün su kaynağı Ulupınar'ın közesine(çıkış yerine)üzerine yağmurla ilgili ayet ve hadisler yazılmış at kafası iskeleti bırakılır.[15] Benzer davranışı Azerbaycan'da Cebrail Rayonu'nda görmekteyiz. Söz konusu coğrafyada sağ bir atın başı kesilerek suya atılır. At kafası su içerisinde kaldığı sürece yağmur yağışı devam edermiş.

Trabzon yöresindeki yağmur duaları ise Türkiye'nin değişik yerlerinde yapılan yağmur dualarına benzer şekilde yapılır. Kurak mevsimlerde erkek ve çocuklardan oluşan topluluk yağmur duası yapılaçak yerde toplanır. Daha önce dereden toplanmış olan 70.000 taşa Şûra süresinin 28 ayeti okunur ve daha sonra torbalara doldurulur. Yağmur duası için bir hayvan kurban olarak kesilir ve çakıl dolu torpalar dualar eşliğinde dereye atılır. Yağmur yağışının çok olması durumunda okunmuş taş dolu çuvallar sudan çıkarılır. Yağmur duasının sonunda şükür duası yapılır.

***Suya adam atma***

Geçmiş zamanlarda Azebaycan'ın Tovuz, Kazak, Kelbeçer ve Kubadlı şehirlerinde suya adam atma geleneği yanında bilgin dul bir kadının başını yıkama geleneğini de görmekteyiz. kadınlar ön plana çıkmaktadır. Benzer gelenek eskiden olduğu gibi günümüzde de Bingöl Adıyaman ve Tunceli yörelerinde yaşatılmaktadır. Söz konusu coğrafyada kurak mevsimlerde yağmur yağması için köy kadınları bazen çobanı, bazen de çobanın asasını suya atarlar. Esasen bu törenlerde kadınların ön plana çıkması şamanizm geleneğinden gelen bir gelenek olsa gerek yağış merasimlerinde ilk şamanların da kadın olduğu düşünülürse bu ihtimal oldukça kuvvetlenmektedir. İslâmiyet öncesinde üretkenliğin ifadesi olan kadınların erkekler ile birlikte yağmur duasına çıktıkları, yağmur duası için düzenlenmekte olan "Idık" merasimlerinde erkekler ile temsili güreş tuttukları bilinir. Ancak İslâm inanışı sonrasında yetişkin kadınların kirli olabileceği ve bu nedenle yağmur duasına zarar getirebilecekleri düşüncesiyle ergenlik yaşına gelmemiş kızlar ve haizden kesilmiş kadınların yağmur dualarına katı8lımı yasaklanmıştır. Ancak yine de Azerbaycan'ın Fuzûlî Rayonu'nun Arayatlı Kenti'nde kadın ve erkeklerin birlikte yağmur duası yapmaktadırlar. Azerbaycan'da eskiden kadınlar dereye girip yıkanarak dua eder, çocuklar ile değişik şarkılar söylerlermiş. D. K. Zelenin bu olayı kadınların annelik, üreme, mahsuldarlığı ile ilgili olarak değerlendirir. [16] Diğer yandan kadının yağmur yağışıyla ilgili kutsallığını ifade eden bir başka güzel bir örneğini Rusya'da görmekteyiz." Kursk'ta kuraklık zamanlarında kadınlar yanlarından gecmekte olan herhangi bir yabancıyı nehre atar ya da baştan aşağıya kadar ıslatırlar. "[17] Kuzey Irak Türklerinde de Şeyhlerin suya atılması geleneğini daha çok Erbil Yöresinde görmekteyiz. Bu geleneğin doğu Anadolu'nun değişik yörelerinde imamın suya atılması ya da ıslatılması şeklinde yaşatılmakta olması ilginçtir.

***Elbiselerin ters giyilmesi***

Yağmur duasında izlenen yollardan birisi de elbiselerin ters giyilmesi olayıdır ki, bu olay bilhassa Başkurtların Tabın-Barın ve Ulu Katay boylarında yaygındır. Abdulkadir İnan'a göre bu davranış şeklinin islâmiyetle ilgisi olmayıp, yağmur duasında elbiseyi ters giymek kuraklıktan dolayı halkın matemli olduğunu göstermek içindir.[18] Ters elbise giyme motifi Türk kültür ananesi içerisinde dikkati çeken bir husustur. Türkmenlerde şeyh önderliğinde çıkılan yağmur duasına çıkış sırasında ayini yönetecek şeyh elbisesini ters giyer. Köse Emi yönetiminde "def ayini" icra edilir. Kayseri'de yağmur duasının üçüncü gününde halktan birisi, ceketini ters giyerek kapılarda dolaşır başının üzerine şemsiye gibi tuttuğu örtüye çatılardan testi ya da güğümlerden dökülen bu sular ile ıslanan şahıs "Yağmur gelini" adlanır. [19]

Kırgız efsanelerine göre Abakan Han aynı zamanda bir yağmur tanrısı imiş. İnsanlara yağmuru o verir. Bu nedenle Kırgızlar ona dua ederek kurban kesermişler. Berberilerde "Ğanca" adlı ya da buna benzer



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şekilde ifade edilen bir yağmur ilahı vardır. Bu ilaha ait yağmur merasimleri düzenlenerek ona kurban kesilir.[20] Manas Destanı'nda Manas'ın büyük Cin seferi rivayetinde Almambet efsunlamak suretiyle bulutları efsunlar, yağmur yağışına zemin hazırlar. Türklerin meşhur "Göç Destanı "nda da " Yada taşı" nı belirgin olarak görmekteyiz. Destanda Yada taşını Cinlilere kaptıran Türkleri kader ceza olarak susuzluğu vermiştir. Irmaklar kuruyup, sular çekilmiş, yağmur yağmayınca da Türkler göç etmek zorunda kalmışlardır. Kırgızça sözlükte bu sihirli küçük taş koyun işkembesinde bulunur. [21] Maldarcılıkla geçinmekte olan eski Türkler ister istemez geniş otlaklara ve suya ihtiyaç duymuşlar; yerleşik düzene geçince de tarım ve mahsul için ön plana çıkan su yokluğunda suyun mutlaka temini yoluna gidilmiştir. Hayatın anlamı olan su insanlar için en büyük gereksinimdir. Bu nedenle geçmiş itikatlardan arda kalan değerler ile farklı boyutlara çekilmiş olan yağmur yağış törenleri dini bir karakter ile bezenerek folklorik bir tören haline getirilmiştir. Buna en güzel örnek çocukların yağış merasimlerinde değişk adlar altında oyunlar sergilemeleri, yağmur duasına katılanların dua anında ellerini ters aşağı cevirerek yağmur yağışını taklit etmeleridir.

***Gelin-Godu***

İnkılap devrine kadar Azerbaycan yağış merasimlerinde Godu godu, Dodu dodu, Hodu hodu, kutul kutul, Anadolu'da Çömçe gelin, Godu Godu, Dodu Dodu(Kars), Dodi Dodi, Potik, Mulla(Elazığ) gibi değişik şekillerde adlandırılan yağış merasimi kadın şeklinde düzeltilen bu sembolik şekil kız çocuğuna verilerek evler dolaştırılır. Ev sahipleri dolanan kişilere hediyeler verirken bir yandan da Godu üzerine su serper. Islatılan şahıs ya da kuklanın eski yağmur ve bereket tanrılarının tanınmaz hale gelmiş sembollerinin yerini tuttuğu belirtilir.[22] Irak Türkmenleri arasında yağmur duası merasimlerinde ise" Köse geldi ", "Cemcemele kız " ve " Suya atma" gibi çocuk oyunları vardır.

İndiyədək uşaq ruhuna uyğun gələn, ümumiyyətlə, uşaqlar üçün deyilən hər bir bayatı formalı şeir müxtəlif toplularda "laylalar" başlığı altında verilmişdir. Lakin uşaq folkloruna aid bütün bayatıların layla olmağı elə ilk baxışdan da müəyyənləşdirilə bilər. Məsələn:

Bayram bayramın olsun,
Ellər heyranın olsun.
Niyə belə çox yatdın?
Anan qurbanın olsun! (1, 102)

Balam gedir yatmağa,
Böyüyüb boy atmağa.
Səhər yuxusu şirin,
Qıymıram oyatmağa (2, 159; 1, 97).

Bu nümunələr aydınca göstərir ki, ana həmin sözləri balasını yuxuya vermək üçün yox, əksinə yuxudan oyatmaq üçün oxuyur. Ana balasını tək yuxuya verəndə yox, həm də onu yuxudan oyadarkən əzizləmiş, sevmiş, oxşamışdır. Məhz bu səbəbi nəzərə alan tədqiqatçılar, yəqin ki, sonrakı toplularda həmin məzmunlu bayatıları layla adı altında yox, "layla, nazlama (3, 81), "nazlama (8, 477), bəzən də hər hansı bir istilahsız – ümumi məzmunla bağlı şəkildə "Qadan, balan canıma (3, 188) adı altında vermişlər.

Laylaların janr spesifikliyini müəyyənləşdirən ən əsas, ən başlıca bir xüsusiyyəti də vardır ki, bu cəhət laylalardan tək ayrıca bir janr kimi danışmağa yox, həm də laylaların digər uyğun şəkilli və uyğun məzmunlu bayatı, oxşamalardan fərqləndirməyə, laylaların spesifikliyindən danışmağa tam əsas verir. Əvvəlki yazıda qeyd etdiyimiz kimi, (bax: E.Gözəlova. Laylaların lirik-emosional xüsusiyyətləri – "Dədə Qorqud toplusu, 2002/IV. səh. 64-73) beşik nəğmələrini ayrıca forma və dəqiq taktı olan mütləq bir ünsür kimi müşayiət edən

Balam laylay, a laylay,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gülüm laylay, a laylay.

nəqəratıdır. Bu nəqərat sanki layla janrındakı bütün bayatı formalı şeirləri digər janrlardan ayırmaq üçün bir me'yardır, məhək daşıdır.

Və yaxud, ana bütün günü dəcəllik edən körpəsini yuxuya verərkən bəzən saatlarla onu yatırda bilməyib

Laylay, quzum, ağlama,
Ürəyimi dağlama.
Yat, yuxun şirin olsun,
Yuxuma daş bağlama (1, 97)

– deyirsə, aydınca görünür ki, ana da yuxusuzdur, o da yatmaq istəyir və körpəyə arzulanan şirin yuxuda ananın özünün yuxusuzluğunu, bütün günü körpənin yolunda çəkdiyi əziyyəti də görmək çətin deyildir. Sonra isə əgər ana

Oxunur əzən, bala,
Dur geyin, bəzən, bala.
Boyuna anan qurban,
Tappatap gəzən bala (1, 97)

– deyirsə, sanki indi də onun dəcəlliyi, körpənin bütün günü verdiyi əziyyət üçün darıxdığını ifadə etmiş olur. Göründüyü kimi, uşaq aləmi ilə əlaqədar hər bir şeiri eyni mə'nalı layla janrı altında vermək mümkün olmur. Və bu cür mənalı şerlərin sonuna nəqərat hissəni qoşmaq da heç cür mümkün deyildir.

Laylalarda oxunan nəqərat hissəni janrın əsas xüsusiyyəti kimi götürməyə daha başlıca bir səbəb var. İlk dəfə laylalardan ayrıca bir janr kimi danışmasa da, bu janrın spesifik xüsusiyyətlərini qeyd etməsə də, hər halda laylalar böyük pedaqoq-alim F.Köçərli tərəfindən məhz nəqəratı ilə birgə yazıya köçürülmüşdür. F.Köçərlinin 1912-ci ildə çap olunmuş “Balalara hədiyyə kitabında (müntəxəbatda) bütün layla bəndləri mütləq

Balam laylay, a laylay,
Gülüm laylay, a laylay (19, 25-27).

nəqəratı ilə müşayiət olunmuşdur. Əlbəttə, böyük alim və pedaqoq 8 bəndin hər birindən sonra eyni nəqərat sözlərini təkrar etmişsə, şübhəsiz, buna təsadüfi baxmaq olmaz. F.Köçərli bununla məhz nəqərat hissəsinin əsas bəndlə nə dərəcədə uyğun gəlməsi prinsipini nəzərə çatdırmaq istəmişdir.

Nəqərat hissəsinin laylaların başlıca janr xüsusiyyətini müəyyən edən bir cəhət olduğunu layla bəndlərində özünü göstərən daha bir xüsusiyyət təsdiq edir. Bizcə, nəqərat hissəsinin əsas mətnlə çox üzvi şəkildə birləşməsi, əsas mətndəki fikirləri tamamlaması nəticəsidir ki, layla bəndlərinin özündə də çox tez-tez “layla sözünə rast gəlirik. Bir sıra hallarda "Balam laylay, a laylay" sözləri tək nəqərat hissə olmayıb, həm də azacıq variant fərqi ilə özünü layla bəndinin bütöv bir misrası kimi göstərir:

A laylay, yenə laylay...
Laylay, a balam laylay...
A laylay, butam laylay...
Qızılgül butam laylay...
A laylay, bəyim laylay...
Laylay, beşiyim laylay...
Laylay, hər kəsim laylay...
Laylay, maralım, laylay...

A laylay, quzum laylay...
Laylay, bülbülüm, laylay və s. və i.a.

Laylay, əməyim, laylay,
Duzum, çörəyim, laylay.
Dönsə də dilim dönər,
Dönməz ürəyim, laylay.
Balam, laylay, a laylay.
Günüm, laylay, a laylay (26, 681)

Bəndlərin hər hansı birində misra şəklində yox, təkcə layla sözünün özünün işlənməsi yenə laylaların həm ümumi ahəngi, həm də onun məzmun və ideyasını tam müəyyənləşdirmiş olur:

Laylası dərin, bala.
Yuxusu sərin, bala,
Tanrıdan əhdim budur,
Toyunu görüm, bala (3, 181).

Layla dedim boyunca,
Baş yastığa qoyunca,
Pardaxlan qızılgülüm,
Bir iyləyim doyunca (3, 182).

Daha bir fakta diqqət yetirmək lazım gəlir. "Balam laylay, a laylay" nəqərat misrasının müxtəlif variantlarda bənd içərisində özünü göstərməsi (yuxarıda nümunə verilmiş misralar) nəticəsində bəndin poetik strukturu bütün misralarda "laylay" sözünün həm də rədif kimi 1, 2 və 4-cü misralarda təkrarını labüd edir. Əgər nəqərat hissə bəndin poetik quruluşuna, poetikanın ən əsas qollarından olan qafiyə və rədiflərinin yaranmasına da tə'sir edirsə, o zaman tamamilə cəsarətlə iddia etmək olur ki, laylaların bir janr kimi əsas xüsusiyyətini də, onun janr spesifikliyini də nəqərat hissəsinin əsas mətnlə nə dərəcədə uyğun gəlməsi təşkil edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu da maraqlı faktdır ki, F.Köçərlidən sonra laylaları bayatılarla birgə yox, ayrıca bir janr kimi yazıya köçürən digər görkəmli pedaqoq-alimimiz Rəşid bəy Əfəndiyev də yalnız "laylay" kəlməsi görünən, bu kəlmənin hər hansı bir misrada işləndiyi bəndləri layla janrına daxil etmişdir (4, 327-328).

Diqqət yetirməli cəhətdir ki, ən hörmətli nəşrlərindən birində də məhz yuxarıda qeyd edilmiş cəhətlər əsas me'yar kimi qəbul olunmuş, yalnız "Laylay, balam, a laylay nəqəratı ilə bitən və "layla sözü işlənmiş bəndlər bu kitaba daxil edilmişdir (8, 474-476).

R.Əfəndiyevin RƏF-də Arx. 8, Q-3 (81); Q-3 (88) şifrəsi altında alimin özünün yazıya köçürdüyü bayatılar da saxlanılır (Arxiv sitatı A.Məmmədovanın göstərilən toplusundan götürülmüşdür. Bax: 4, 321-324). Həmin bayatılardan biri digər nəşrlərə də düşmüş xalq arasındakı məşhur bayatılardan biridir (təbiidir ki, müəyyən variant fərqi ilə E.G.):

Əzizim, gəl gündə mən,
Kölgədə sən, gündə mən.
Qurban qoyundan olar,
Sənə qurban gündə mən (4, 323).

Bu bayatı müəyyən variant fərqi ilə digər bayatı toplularında belə getmişdir:

Əzizinəm, gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olar,
Sənə qurban gündə mən (1, 54; 3, 121).

Maraqlıdır ki, həm R.Əfəndiyevin, həm də digər tədqiqatçıların bu bayatını laylalar içərisinə salmadığı halda, sonrakı nəşrlərdən birində ilk misrada laylay kəlməsi işləndiyi üçün həmin bayatı məhz layla janrına daxil edilmişdir:

Laylay dedim gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olar,
Sənə qurban gündə mən (11, 6).

Əgər həmin bənd bayatı formasında deyilirsə, məzmundan tam aydın olur ki, mətn məhəbbət motivində olub aşiqin sevdiyinə qarşı dediyi intim hisslərdir. Ancaq maraqlıdır ki, əsas mə'na üçün hazırlıq rolu oynayan ilk misrada əsas ideya olmasa da, bircə sözün – layla sözünün işlənməsi məhəbbət obyektini tamamilə dəyişir, burada heç bir intim məhəbbət hissinə yer qoymayıb, eyni məzmunu və ideyanı bütünlüklə ananın övlada məhəbbəti səviyyəsinə qaldırır. Göründüyü kimi, laylay sözünün mə'nası bütünlükdə bəndin ideyasının dəyişilməsinə xidmət edir, məhəbbətin obyektini dəyişdirdiyi kimi, onun janrını da dəyişir. Beləliklə, bütün yuxarıda deyilənlərə əsasən tam təsdiq etmək olar ki, nəqərat hissənin janr kimi laylalarının formalaşmasında ən mühüm amil olması, layla janrının bugünkü inkişafında da mühüm rol oynaması şübhəsizdir və bu səbəbdən də nəqərat hissənin laylaların janr spesifikliyini tə'yin edən ən mühüm amil kimi qəbul etmək lazım gəlir. Ona görə də bu fikirlə tam razılaşmaq mümkündür ki, laylaların nəqəratı "onların formaca müstəqil inkişaf yolu keçdiyini göstərir" (14, 124).

Anaların beşik başında xalq motivləri ilə oxuduqları laylalardan başqa, şair və bəstəkarlarımızın da bu janra müraciətləri bir daha laylaların janr xüsusiyyətlərini dəqiqləşdirmək baxımından yuxarıda deyilən fikirləri təsdiq edir. S.Rüstəmin sözlərinə Ş.Axundovanın bəstələdiyi "Laylay" mahnısında hər bənddən sonra "Laylay, həyatım, laylay (18, 64) misrasının təkrarı 10-11-ci səhifələrdə layla bəndlərindən gətirilmiş birinci misralarla nə dərəcədə səsləşdiyi göz qabağındadır. B.Vahabzadənin sözlərinə A.Babayevin (18, 95), S.Əsədin sözlərinə R.Mirişlinin (18, 185) yazdığı musiqidə "Laylay sözünün nəqəratlarda təkrarı və nəqəratların da öz növbəsində əsas bəndlərlə məzmunca tam uyğun gəlməsi yenə deyilənləri təsdiq edən əlavə misaldır. Layla janrının başqa bir yazılı və şifahi növündə isə nəinki yaxınlıq, hətta müəyyən dərəcədə eynilik də görmək mümkündür. İ.Səfərlinin sözləri əsasında C.Cahangirovun bəstələdiyi mahnının nəqərat hissəsi belədir:

Gecə əriyib keçir,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən,
Durmuşuq keşiyində (18, 130).

Layla janrına daxil edilən bir bənddə isə deyilir:

Evində, eşiyində,
Yat, quzum, beşiyində.
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində (1, 98; 3, 182).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göründüyü kimi, layla janrının spesifik xüsusiyyətləri yazılı ədəbiyyatımıza da öz janr spesifikliyindən irəli gələn tə'sirini göstərməkdədir. Əlbəttə, bu tə'siri həm da xalq mahnılarına daxil olan laylalardan gələn başlıca cəhət kimi qəbul etmək lazımdır. Çünki yuxarıda göstərilən xüsusiyyətlər bir qayda olaraq xalq mahnılarına daxil olan laylalarda da özünü göstərməkdədir (12, 67; 13, 30).

Laylaların musiqi ilə əlaqəsi məsələsini inkişaf etdirərkən bir cəhətə də xüsusi toxunmaq lazım gəlir. Yuxarıda qeyd edildiyi kimi, laylalar musiqinin müşayiətinə həmişə ehtiyac duysalar da, hər halda, musiqi - laylaların janr spesifikliyini tə'yin edən cəhətə çevrilmir. Buna baxmayaraq, laylaların bir janr kimi yaranması və formalaşmasında musiqinin əvəzsiz rolu inkaredilməzdir.

"Qeyd edək ki, azərbaycanlıların musiqi təfəkkürünün formalaşmasında ana folkloru əvəzsiz mənbədir.

Ananın nəğməsi, səsi körpədə melodik quruluşların qavranılmasına istiqamət yaradır. Övladlarda çox illər sonra da laylaların estetik tə'siri özünü büruzə verir, çünki ana ən gözəl saydığı musiqi dili ilə övladına ninni bəxş edir. Beləliklə də, təmas vəziyyətdə ananın körpəsinə bəxş etdiyi oxumanın ritmi sözsüz ki, balanın öz etnik mühitinə aid musiqi dilində verilir və estetik məqam seçimini müəyyən edir..." ( 23, səh. 3)

Körpəsini yatırmaq istəyən ana balasına tək layla çalmır. Layla ilə bərabər, ana həm də körpəyə məlum lirik mahnıları da sözləri ilə birlikdə ifa edir. Maraqlı cəhət burasıdır ki, ana məlum mahnı sözlərini musiqi ilə körpəsinə oxuyarkən əgər improvizasiyaya yol verirsə, mahnı sözlərini dəyişirsə, ilk növbədə, layla janrının tələblərini gözləyir, daha dəqiq deyilsə, improvizasiya mahnı sözlərinin layla janrına çevrilməsi üçün ən əsas xüsusiyyət olur. Məlum mahnı sözləri layla janrına uyğun ifa olunursa, musiqi mətni tam toxunulmaz qalır, sözlər isə ifa olunan motivlə tam uyğunlaşdırılır. "Leylam adlı nota köçürülmüş xalq mahnısının bir bəndi belədir:

Gecələr, ay gecələr,
Ay batar, ay gecələr.
Səni görən gözlərim
Nə yatar, nə dincələr.
Gəl, gəl, gəl, gəl! Gəl, mənim Leylam!
Gözlərinə olmuşam heyran.

Qızının adı Leyla olan bir ana həmin mahnının musiqisi üstündə övladına layla çalarkən yuxarıdakı bəndi layla janrına uyğunlaşdıraraq bu qaydada dəyişmişdi:

Gecələr, ay gecələr,
Ay batar, ay dincələr.
Belə balası olan
Nə yatar, nə dincələr.
Laylay, laylay, ay mənim Leylam.
Laylay, laylay, ay qəşəng Leylam.

Mahnı sözlərinin ana tərəfindən dəyişdirilərək onun layla formasına salınması və mə'lum musiqi motivi ilə ifa olunmasının musiqi mətninə heç bir xələl gətirmədiyini hər iki mətnin not yazısındakı müqayisəsində də görmək olar.

Göründüyü kimi, istər bənddə, istərsə də nəqərat hissədə ana tərəfindən dəyişdirilmiş sözlər mahnı mətninə tam uyğunlaşdırıldığı halda, mahnıdakı məhəbbət obyekti tam dəyişmiş, layla janrının tələblərinə tamamilə tabe edilmişdir. Əvvəla, buradakı nəqərat hissədə "laylay" sözlərinin təkrarı janrın obyektini tam müəyyənləşdirmiş olur. İkinci tərəfdən, "Səni görən gözlərim misrasının "Belə balası olan fikri ilə əvəz edilməsi yə'ni bənddəki ideya bütünlükdə uşaq aləminə və ananın öz əhvali-ruhiyyəsinə uyğunlaşdırılmışdır. Dəyişilmiş misra ilə ana körpənin həm dəcəlliyini, həm gec yuxuya getməsini və bununla da özünün bütün gün ərzində körpə yolundakı zəhmət və əziyyətini ifadə etmişdir. Bircə misranın dəyişdirilməsi ilə bütün əsas fikir ananın körpəyə məhəbbətinin ətrafında birləşir: "Gecələr hətta ay belə dincəlmək üçün batdığı halda, bu cür balası olan yə'ni hələ də yatmayan və balasını yatırmaq üçün ona uzun müddət layla çalmağa məcbur olan analar isə nə yatar, nə də dincələr.

"Ana laylası əfsanəsində bu fikir daha geniş formada öz ifadəsini tapır. Əsərin qısa məzmunu belədir: Bir varlı ağac bitməyən yerdə ağac əkdirmək istəyir. "Bu adam car çəkdirir ki, kim bir ağac əkib ona qullux eləsə, ona filan qədər pul verəcəyəm. Hərə bir ağac əkdi. Ona qullux elədilər. Bura oldu bir meşəlik. Bura yavaş-yavaş heyvanlar yığışdılar, oldu bir aləm… Heyvanlar belə qərara gəldilər ki, onlar da bu yaxşılığın əvəzində həmin adama bir yaxşılıq etsinlər. Məsləhət görüldü ki, hər bir yaranmış bir layla desin. Heyvanlar elə də etdilər. Hərə bir layla dedi. Axırıncı laylanı bülbül dedi:

Əziziyəm, gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olur,
Sənə qurban gündə mən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bülbülün laylası meşədəki bütün heyvanların xoşuna gəlir: "Heş bir yaranmışın laylası ananın laylasına bənzəməz. Gəlin bunu örgənəg…" – dedilər (24, 37-38).

Dediklərimiz onu bir daha təsdiq edir ki, laylaların həm mətni, həm də musiqisi əksərən məhz analar tərəfindən yaranır. Analar öz övladlarına olan sonsuz məhəbbətlərini, sevgilərini ifadə edir. Ana laylası çox həzin bir musiqidir. Laylaları oxuduqca, dinlədikcə ana ürəyinin böyüklüyünə, ana qəlbinin genişliyinə heyrət edirsən, ana adı qarşısında səcdə qılırsan. Ana ürəyinin bir parçası olan körpəsinə laylay çalır, onu rahatlayır. Ana öz ciyərparasını yuxuya verəndən sonra onun keşiyini çəkir, pərvanə kimi başına dolanır, canını qurban deyir, ana körpəsindən ayrıla bilmir:

Laylay, səsim, avazım,
Laylay, çiçəkli yazım.
Sənsən mənim dünyada
Neyim, kamanım, sazım.

– deyən ananın geniş qəlbinin döyüntülərini, ürək çırpıntılarını eşidirik. Bircə misrada ananın daxili aləmi, əhvali-ruhiyyəsi, duyğuları ifadə olunmuşdur. Bu kiçik poetik lövhədə, bəlkə də, heç bir rəssamın bütün dolğunluğu ilə yaratmadığı bitkin, kamil ana surəti canlanır.

Bütün yuxarıda deyilənlərə əsasən, belə bir nəticəyə gəlmək mümkündür ki, musiqi laylaların əsas janr xüsusiyyətini təşkil etməsə də, laylaların yaranması və inkişafında musiqinin aparıcı rolu inkarolunmazdır. Göründüyü kimi, hər hansı digər mətnin layla mətninə çevrilməsi üçün ilk əvvəl onun musiqi mətni ilə uyğunlaşması vacib şərtlərdən birini təşkil edir. Ona görə də, bizcə, bundan sonra folklor praktikaları və ekspedisiyalarında laylaların toplanması mütləq onların musiqi mətnləri ilə birgə aparılmalıdır.

## ƏDƏBİYYAT

1. Bayatılar (tərtib edəni: Qasımov H.). Bakı, 1960
2. Arazam Kürə bəndəm (tərtib edəni: Abdullayev B.). Bakı, 1986
3. Azərbaycan bayatıları (tərtib edəni: Abdullayev B., E.Qasımov, Q.Babazadə). Bakı, 1984
4. Bayatılar (tərtib edəni: Məmmədova A.,). Bakı, 1977
5. Bayatılar (tərtib edəni: Vəliyev V.). Bakı, 1985
6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1981
7. Babayev İ., Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1970
8. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə, I cild, Bakı, 1982
9. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1984
10. Nəğmələr, inanclar, alqışlar (tərtib edəni: Nəbiyev A.). Bakı, 1986
11. Folklor nümunələri. Bakı, 1980
12. Xalq mahnıları (tərtib edəni: Bağırov Ə.). Bakı, 1961
13. Azərbaycan xalq mahnı və təsnifləri (tərtib edəni: Namazəliyev Q.). Bakı, 1979
14. Vəliyev V. Azərbaycan şe'rinin əsas janrları. Bakı, 1963
15. Ədəbiyyatşünaslıq terminləri lüğəti (tərtib edəni Mirəhmədov Ə.). Bakı, 1978
16. ASE. VII cild. Bakı, 1983
17. Zeynallı H. Seçilmiş əsərləri. Bakı, 1983
18. Mahnılar (Tərtib edəni: Həsənbəy Y.). Bakı, 1967
19. Köçərli F. Balalara hədiyyə. Bakı, 1987
20. Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə, III cild, Bakı, 1977
21. Nəbiyev A. Azərbaycan – özbək folklor əlaqələri. Bakı, 1987
22. Atalar sözü (tərtib edəni: Hüseynzadə Ə.). Bakı, 1985
23. Dadaşova E. Ana folklorumuzun uşaqların tərbiyəsində olan əvəzsiz rolu. "Azərbaycan mədəniyyəti və incəsənəti qəzeti, Bakı, 22 aprel, 2005
24. Azərbaycan folklor antologiyası. XII cild, Bakı, 2007



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «DƏDƏ QORQUD KİTABI»NDA DİLİN FUNKSİYALARI

**Prof. Dr. Əzizxan Tanrıverdi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Azərbaycan**

Qorqudşünaslıqda «Kitab»ın Azərbaycanla bağlılığından, onun Azərbaycan dilində olan ən kamil abidələrdən biri və birincisi olmasından kifayət qədər bəhs olunub. Bu mənada «Kitab»da qədim Azərbaycan dilinin funksiyalarının öyrənilməsi də zəruri məsələlərdəndir.

Türkologiyada «Kitab»ın fonetik, leksik-semantik, onomastik və qrammatik sistemi geniş şəkildə tədqiqata cəlb edilsə də, dilin funksiyaları, xüsusən də ictimai (sosial) funksiyaları sosiolinqvistika baxımından araşdırılmayıb. Alman dilçisi H.Ştegerin praqmalinqvistika və sosiolinqvistikaya dair fikirlərinə istinad edən Ə.Rəcəbov yazır: «…praqmalinqvistika da, sosiolinqvistika da təbii dillərdə polivalent dil işarələrinin funksional işlənməsi xüsusiyyətlərinin aşkara çıxarılmasından çıxış edir. Sosiolinqvistikanın da, praqmalinqvistikanın da ümumi vəzifəsi kommunikantların rolunu və kommunikasiya mövzularını nəzərə almaqla ekstralinqvistik situasiyalardan asılı olaraq dil işarələrinin işlədilməsinin və birləşdirilməsinin qanunauyğunluqlarını və şərtlərini müəyyənləşdirməkdən ibarətdir. Bu zaman mətnin və onun strukturunun öyrənilməsi ön planda çıxış edir»(6-282). «Kitaba» bu prizmadan yanaşsaq, onun mətni qədim Azərbaycan dilinin funksiyalarını öyrənmək baxımından ən sanballı abidədir. Digər tərəfdən, həmin mətnlər təkcə «Kitab»ın formalaşdığı dövrün yox, eyni zamanda yazıya alındığı dövrün dil funksiyaları barədə müəyyən təəssüratlar yarada bilər.

R.Yakobson nitq fəaliyyətinin modelinə (göndərən, qəbul edən, mətn (kontekst), kod,əlaqə, məlumat) uyğun olaraq dilin altı funksiyasını dəqiqləşdirib (emotiv, konativ, referent, metadil, fatik, poetik) (1-83). Müəllifin müəyyənləşdirdiyi modellər barədə Ə.Rəcəbov yazır: «R.Yakobson modeli dil funksiyaları üçün taksonomiya qurulması problemini aydın göstərir. Müəyyən mənada o, üçfunksiyalı modelə nisbətən irəliləyişdir, heç olmasa ona görə ki, kateqoriyanın sayını iki dəfə artırır. Lakin təhlükə də məhz bundadır. Belə ki, dilin yeni funksiyalarının kəşfi (daha doğrusu icad olunması) davam etdirilə bilər, nəticədə yenə də qənaətbəxş sistem alınmazdı. Ona görə ki, söylənilən fikirlərin çoxu hətta müəyyən kontekstdə çoxfunksiyalıdır» (6-431)

A.Qurbanova görə, «cəmiyyətdə dil üç mühüm funksiyanı yerinə yetirir:

1) ictimai-tarixi təcrübəni yaşatmaq, ötürmək və mənimsəmək vasitəsi rolunu oynayır;

2) kommunikasiya rolunda çıxış edir; 3) intellektual fəaliyyət vasitəsi olur. Dilin həmin funksiyaları nitq prosesinin də istiqamətini müəyyənləşdirir» (5-43).

Dilin funksiyaları ilə bağlı Q.V.Kolşanski, V.A.Avrorin və başqalarının təklif etdiyi sistemlər də vardır.Biz həmin modellərin heç də hamısına yox, əsasən, R.Yakobsonun təklif etdiyi sistemə istinad etməklə «Kitab»da dilin funksiyalarını, onların ümumi səviyyəsini müəyyənləşdirməyə çalışacağıq.

Maraqlıdır ki, «Kitab»da R.Yakobsonun təqdim etdiyi modellərin, demək olar ki, hamısına rast gəlinir. Deməli, «Kitab»da dilin emotiv, konativ, referent, fatik kimi funksiyalarının reallaşmasında poetik dil bir vasitə kimi çıxış edir. Burada Ə.Rəcəbovun bir fikrini xatırlatmaq yerinə düşür: «…hətta tarixi aspektdə də dilin ictimai (sosial) funksiyasını onun kommunikativ funksiyasına qarşı qoymaq olmaz. Dilin ictimai (sosial)funksiyaları insanın bu və ya digər dairədə fəaliyyətinin dilin kommunikativ funksiyası vasitəsilə konkret reallaşdırılmasından, həyata keçirilməsindən başqa bir şey deyildir» (6-151). «Kitab»da dilin kommunikativ və ictimai funksiyasının sintez şəklində olması da abidəni yaradanların ictimai (sosial) olanı poetik təfəkkür süzgəcindən necə də ustalıqla keçirdiklərini təsdiq edir.

«Kitab»da dilin funksiyalarının ümumi mənzərəsi aşağıdakı kimidir:

*1) Dilin emotiv funksiyası*

Danışan və ya yazanın nitq predmetinə münasibət bildirməsi dilin emotiv funksiyasının başlıca vəzifəsidir. Bu tip funksiyada «insanın hiss və həyəcanları, əhvali-ruhiyyəsi ifadə olunur» (5-424).

«Kitab»da təhkiyəçi və surətlərin dilindən verilmiş parçalarda dilin emotiv funksiyasının səviyyəsini müəyyənləşdirmək mümkündür. İlk olaraq təhkiyəçi dilindən verilmiş aşağıdakı parçaya diqqət yetirək:

«Rəsul əleyhissəlam zəmanına yaqın Bayat boyından, Qorqut ata diyərlər, bir ər qordu. Oğuzun , ol kişi təmam bilicisiydi, - nə diyərsə, olurdı. Ğaibdən dürlü xəbər söylərdi. Həq təala onın könlin ilham edərdi…».

Göründüyü kimi, dilin emotiv funksiyası «Kitab»ın 1-ci cümləsində, daha dəqiqi, «müqəddimə»dəki 1-ci sintaktik bütövdə müşahidə olunur. Həmin parçada Dədə Qorqudun hamıdan yüksəkdə durması,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğuzların kamil bilicisi kimi gələcəkdən qəribə xəbərlər söyləməi və tanrının onun könlünə ilham verməsi ifadə olunub. Bu da təhkiyəçinin Dədə Qorquda olan emosional münasibətinin təzahürüdür. Burada bir cəhəti də qeyd edək ki, təqdim etdiyimiz parçada dəbdəbəli, təmtəraqlı üslub-evfuizm müşahidə olunur. Belə bir üslubdan istifadənin özü də təbii qarşılanır. Çünki Dədə Qorqud şəxsiyyəti, Dədə Qorqud böyüklüyü başqa cür ifadə oluna da bilməzdi.

Dilin emotiv funksiyasının «Kitab»ın ilk cümlələrində müşahidə olunması Oğuz cəmiyyətinin inkişaf səviyyəsini, xüsusən də türk dilinin ifadə imkanlarının zənginliyini təsdiqləyir. Digər tərəfdən, «Kitab»ın böyüklüyünə elə ilk parçada işarə olunur.

Bayındır xan, Qazan xan kimi Oğuz bəylərinin şadlıq məclislərinin təsvirində də dilin emotiv funksiyası müşahidə olunur:

«Bir gün Ulaş oğlı Qazan bəg yerindən turmışdı. Qara yeriŋ üzərinə otaxların tikdirmişdi. Biŋ yerdə ipək xaliçəsi döşətmiş idi. Ala sayvan gög yüzinə aşanmışdı. Toqsan tümən gənc oğuz söhbətinə dərilmişdi. Ağzı böyük xümrələr ortalığa salınmış idi. Toquz yerdə badyələr qurılmışdı. Altun ayaq surahilər dizilmişdi. Toquz qara gözli, örmə saçlı, əlləri biləgindən qınalı, parmaqları nigarlı, boğazları birər qarış kafər qızları al şərabı altun ayağla Qalın Oğuz bəglərinə gəzdirirlərdi…».

Təqdim etdiyimiz parçada Qazan xanın məclisi təhkiyəçi dili ilə məhz təmtəraqlı üslubda ifadə olunub. Həmin parçanın məzmunundan aydın olur ki, Qazanın məclisi adi məclislərdən deyil, bu məclis ipək xalça döşənmiş uca evlərdə təşkil olunub. Oğuz bəglərinə şərab paylayanlar isə qara gözlü, əlləri biləyindən xınalı, barmaqları naxışlı, boğazları bir qarış, hörmə saçlı kafir qızlarıdır. Bu isə sosiallığın dilin emotiv funksiyası daxilində təzahürüdür.

«Kitab»da surətlərin dilindən verilmiş parçalarda dilin emotiv funksiyası daha qabarıq şəkildə görünür. Məsələn:

- Mərə dəlü ozan! Məndən nə dilərsən? Çətirli otaqmı dilərsən? Qul-qaravaşmı dilərsən? Altun-aqçamı dilərsən, verəyim!

…Bəglər, bügünki bəgligim bunıŋ olsun. Qouŋ nerəyə gedərsə-getsüŋ neylərsə eyləsün…

Qazanın bu münasibəti təbii görünür. Çünki o, toy mərasimində ozanın (Beyrəyin) şücaətinə, mərdliyinə heyran qalır. Təhkiyəçi bu situasiyada Qazanı məhz öz statusuna, konkret desək, Oğuz cəmiyyətinin ən böyük bəyi statusuna uyğun danışdırır, onun bəyliyi ilə əhvali-ruhiyyəsini uyğunlaşdırır.

III boyun toy mərasimi səhnəsində özünü ozan kimi təqdim edən Beyrək Banıçiçəklə qarşılaşarkən hiss və həyəcanını, hadisəyə münasibətini gizlədə bilmir. Bu, onun dilindən verilmiş parçanın sonuncu cümləsində aydın şəkildə ifadə olunur:

Mən bu yerdən gedəli dəlü olmışsan, dəlim!
Ağca qarlar yağmış, dizə yetmiş,
Xan qızının evində qul-xəlaiq dükənmiş…
Məşrəbə almış, souqda suya varmış –
Biləgindən on parmağını souq almış.
Qızıl altun gətirüŋ,
Xan qızına tırnaq yonuŋ.
Eyiblücə, xan qızı, ərə varmaq eyib olar, - dedi.

Göründüyü kimi, adını gizlin saxlayan Beyrək hiss və həyəcanını gizlədə bilmir. Yəni Banıçiçəyin Yalancı oğlu Yalancığa ərə getməyə razılıq verməsi Beyrəyə toxunur, onun əhvali-ruhiyyəsinə təsir edir. Beyrək «Eyiblücə, xan qızı, ərə varmaq eyib olar» deməklə həm də Banıçiçəyi sınağa çəkir, onu haldan-hala salır, onun ilk sevgisinə olan münasibətini dəqiqləşdirməyə çalışır. Çünki 16 il dustaqlıqda qalan, çətinliklə yurduna gələn, Yalancığı dəli ozan kimi sıradan çıxaran, həm də dəli ozan kimi Qazanın rəğbətini qazanan Beyrək bilirdi ki, Baybican qızı Banıçiçəyi almaq üün onun qarşısında heç bir maneə qalmayıb və o, tezliklə səadətinə qovuşacaqdır.

Dilin emotiv funksiyasının səciyyəvi cəşətləri sırasında emosioanl leksika, xüsusən də əzizləmə və kiçiltmə bildirən sözdüzəldici vasitələr aparıcı mövqeyə malikdir. «Kitab»a bu müstəvidə yanaşdıqda aydın olur ki, onun poetik dilində həmin vasitələrdən geniş şəkildə istifadə olunub. Qeyd edək ki, «Kitab»da əzizləmə və kiçiltmə funksiyalı vahidlərə təkcə müsbət yox, həm də mənvi surətlərin dilində rast gəlinir. Bəzi nümunələri təqdim edirik:

Qazanın dilində – oğlancıq

«Əlhəmdülillah, mənim oğlancığım böyük ər olmış»

Beyrəyin dilində – alıncuq, gözcigəz, yəlicik…

Açuq-açuq meydana bəŋzər sənin alıncuğıŋ,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eki şəbçırağa bəŋzər səniŋ gözcigəziŋ
Əbrişimə bəŋzər səniŋ yəlicigiŋ…

Basatın dilində – gəlüncük

Güvəncimlə gətürdigiŋ gəlüncügiŋ
O zalım səndən ayırdı ola, qardaş…

Təpəgözün dilində – yigitcik, qızcığaz, qarıcıq…

Ağ birçəklü qarıcıqları çoq ağlatmışam.
Gözü yaşı tutdı ola, gözüm, səni?
Bığçağı qararmış yigitcikləri çoq yemişəm.
Yigitlikləri tutdı ola, gözüm, səni?
Əlcügəzi qınalı qızcığazları çoq yemişəm…

Nümunələrdəki oğlancıq, gəlüncük, qızcığaz, yigitcik kimi sözlərin situasiyaya uyğun olaraq işlədilməsi «Kitab»da dilin emotiv funksiyasının ümumi mənzərəsi barədə müəyyən təəssürat yaradır.

*2) Dilin apelyativ funksiyası*

Dinləyiciyə müraciət, dinləyicini nitqi anlamağa təhrik etmək məqsədinin güdülməsi dilin apelyativ funksiyasına aid edilir. «Kitab»da dilin apelyativ funksiyası müşahidə olunan parçalar çoxdur. Onlardan yalnız birini təqdim edirik:

Atamdan yegrək qayın ata!
Anamdan yegrək qayın ana!
Qaytabanıŋ buğrası ürkdi gedər,
Sarvan ögin aldı, döndərəməz.
Qaraquc ayğırıŋ ürkdi, gedər.
İlqıçılar ögin aldı, döndəriməz.
Ağayılıŋ qoçarı ürkdi, gedər.
Çoban ögin aldı, döndəriməz.
Ala gözlü oğluŋ qardaşını aŋdı, gedər.
Ağca yüzlü gəlinüŋ döndəriməz,
Sizə məlum olsun! – dedi.

Bu parçanı boyun məzmunu kontekstində təhlil etdikdə aydın olur ki, qardaşının (Əyrəyin) dalınca getmək istəyən Səyrəyi fikrindən döndərə bilməyən gəlin (Səyrəyin nişanlısı) qayınatası və qayınanasına müraciət edir, onları öz ata-anasından yüksəkdə tutur. Gəlin qayınatası və qayınanasını inandırmaq üçün öz taleyitni sarvan, ilxıçı və çobanla müqayisə edir. O bildirir ki, sarvan buğranı, ilxıçı ayğırı, çoban qoçları, özü isə nişanlısı Səyrəyi (Ala gözlü oğluŋ qardaşını aŋdı, gedər) yolundan döndərməkdə acizdir. Deməli, gəlin qayınatası və qayınanasına situasiyanın mürəkkəb və ağır olduğunu çatdırır. Sanki onları anlamağa təhrik edir. Hətta yuxarıdakı sintaktik bütövün sonuncu cümləsinin semantik yükündə vəziyyətin çətinliyi birbaşa ifadə olunur: «Ağca yüzlü gəlinüŋ döndəriməz, Sizə məlum olsun!»

Səyrəyin nişanlısının müraciəti və anlatmağa çalışmaq istəyi boyun sonrakı hissələrində qismən də olsa reallaşır. Belə ki, ata-anası Səyrəyi yolundan döndərmək istəyir:

«Ata-ana ah etdilər. Yerlərindən qalqdılar, «Oğul, getmə» deyü. Gördilər, çarə olmadı…»

Bu fakt da yuxarıdakı parçanın dilin apelyativ funksiyası ilə bağlı olduğunu təsdiq edir. Amma burada onu da qeyd etmək lazımdır ki, Səyrəyin nişanlısının dilindən verilmiş parça «dilin hazırlaşdırma funksiyası» kimi də götürülə bilər. Belə ki, dilin bu funksiyasında «danışan dinləyiciyə informasiyanı birdən-birə çatdırmır, bəlkə dinləyicini infıormasiyanı dərk etmək üçün hazırlayır, onun diqqətini özünə cəlb edir» (1-316)

Yuxarıdakı parçanı dilin kontekst funksiyası prizmasından da təhlilə cəlb etmək mümkündür. Çünki kontekst funksiyada «məqsəd diqqəti obyekt, mövzu, diskursun məzmunu üzərinə toplamaqdır…» (6-430). Göründüyü kimi, eyni funksiyanı müxtəlif başlıqlar altında şərh etmək mümkündür.

*3)Dilin konativ funksiyası*

Dilin konativ funksiyasına görə dinləyən müəyyən bir iş görməyə təhrik edilir. Dinləyənlə (oxuyanla) bağlı olan «bu funksiya üçün ən tipik hal vokativ və imperativlərin işlənməsidir»[2]. «Kitab»da bu tip vahidlərdən istifadəyə nəinki hər bir boyda, hətta hər ibr səhifədə rast gəlinir. Deməli, «Kitab»da dilin konativ funksiyası aparıcı mövqedədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aydındır ki, felin əmr şəklində, xüsusən də II şəxs təkdə təhriketmə mənası daha qabarıq şəkildə ifadə olunur. Bu mənada dilin konativ funksiyası daha çox felin əmr şəkli kontekstində tədqiq edilməli, əmr funksiyasının ən səciyyəvi cəhətləri dəqiqləşdirilməlidir.

«Kitab»dakı bəzi nümunələrə diqqət yetirək:

I boyda nökərləri Dirsə xana deyir: «Dərsə xanıŋ oğlu böylə bidət eyləmiş» deyərlər. Səni çağırdalar, Bayındır xanıŋ qatında saŋa qəzab ola. Böylə oğıl nəŋə gərək? Öldürsəŋə!»

Bu parçada felin əmr şəkli ilə ifadə olunmuş «Öldürsənə» predikatı birbaşa təhriketmə funksiyasına xidmət edir. Həmin predikatın «sənə» əmr ədatı ilə birlikdə işlənməsi də təsadüfi hesab oluna bilməz. Çünki təhrikedicilik mənasının qüvvətlənməsi məhz «sənə» ədatı ilə bağlıdır.

Dirsə xan nökərlərinin «öldürsənə» təklifinə cavab olaraq deyir: «Varıŋ gətürüŋ öldürəyim. Böylə oğıl maŋa gərəkməz!» Bu isə təhriketməyə görə hökmün çıxarılmasıdır. Lakin Dirsə xanın nökərləri hökmün bu tərzdə, yəni açıq-aşkar şəkildə icrasını qəbul etmir və başqa bir təhrikedici plan təklif edirlər:

«Biz səniŋ oğlıŋı necə götürəlim? Səniŋ oğlıŋ bizim sözimiz almaz, bizim sözimizlə gəlməz. Qalqubanı yerindən uru turğıl. Yigitlərin, oxşağıl, boyıŋa alğıl, oğlıŋa uğrağıl, yanıŋa alub ava çıqğıl. Quş uçurıb, av avlayıb, oğlıŋı oxlayıb öldirə görgil! Əgər böylə öldirməzən, bir dürlü dəxi öldirəməzsən, bəllü bilgil!»

Göründüyü kimi, Dirsə xanın nökərlərinin dilindən verilmiş cümlələrin əksəriyyətində təhrikedicilik müşahidə olunur (turğıl, oxşağıl, alğıl, uğrağıl, çıqğıl, öldirə görgil…).

Boyun sonrakı hissələrindən məlum olur ki, Dirsə xan oğlu Buğacı yaralayır:

«…Dərsə xan Qorqut siŋirli qatı yayın əlinə aldı. Üzəngiyə qalqıb, qatı çəkdi, uz atdı: oğlını iki talusınıŋ arasında urub çıqdı, yıqdı. Uc toqundı, alca qanı şorladı, qoynı toldı. Bədəvi atınıŋ boynın qucaqladı, yerə düşdi…».

Təqdim etdiyimiz parçanın semantik tutumundan aydın olur ki, müəyyən bir iş görməyə təhrik reallaşır, yəni Dirsə xanın nökərlərinin qurduğu plan baş tutur.

«Uşun qoca oğlu Səyrək boyu»nda Səyrək deyir: «Qız, sən maŋa bir yil baqğıl! Bir yildə gəlməzsəm, iki yil baqğıl! İki yildə gəlməzsəm, üç yil baqğıl. Gəlməsəm, ol vəqt mənim oldügimi biləsən. Ayğır atum boğazlayub, aşum vergil! Gözün kimi tutarsa, könlüŋ kimi sevərsə, ana varğıl!».

Səyrəyin dilindən verilmiş cümlələrdəki baqğıl, vergil, varğıl predikatları təhrikedicilik funksiyasına malikdir. Digər tərəfdən, Səyrək, elə bil ki, nişanlısının gələcəkdə görəcəyi işlərin planını verir, ona yollar göstərir. Həmin parçaya Oğuz müsəlman cəmiyyəti prizmasından yanaşan N.Cəfərov yazır: «…müraciətdə, bir tərəfdən, cəmiyyətdə ailə sabitliyinin gözlənilməsi, digər tərəfdən, ailəsiz (dul) qalmamaq tələbi əks olunur ki, bunların hər ikisi, əslində, eyni bir ictimai əxlaqın ifadəsidir. Oğuz müsəlman cəmiyyətinin hərbi demokratiya sistemi vaxtaşırı qəzaya gedən gənclərin, kişilərin nişanlılarının, xatunlarının (övrətlərinin) onları gözləməsi məcburiyyətini qoyduğu kimi kafirlərlə döyüşdə həlak olanların xatunlarına yenidən ərə getmək səlahiyyəti verir, hətta buna məcbur edir» (2-103). Müəllifin qeydləri də Səyrəyin dilindən verdiyimiz sintaktik bütövdə dilin konativ funksiyasının təzahürünü, dil işarələrindən istifadə ilə konativ funksiyanın reallaşmasını təsdiqləyir.

Dilin konativ funksiyası kafirlərin dilindən verilmiş parçalarda da müşahidə olunur:

«…Bərə çoban, irağından-yaqınından bərü gəlgil! Baş endirüb bağır basğıl! Biz kafərə salam vergil, öldürmiyəlim! Şöklü Məlikə səni ilətəlüm. Saŋa bəglik alı verəlim».

Göründüyü kimi, təhriketmə cümlələrin rema hissəsində birbaşa ifadə olunur (gəlgil, bağır başğıl, salam vergil…). Kafirin təhrikedici, həm də aldadıcı nitqi Qaraca çobanı fikrindən döndərə bilmir. Bu, Qaraca çobanın dilindən verilmiş «Arqırı söyləmə, mərə itüm kafər!» misrası ilə başlanan müraciətdə də təsdiqini tapır.

«Kitab»da dilin konativ funksiyasının inklüziv imperativ formalardan (…eyni işi görməyə dəvət etməni bildirən imperativ) istifadə ilə reallaşmasına da rast gəlinir:

«…Gəl, sən dəxi and iç!»

XII boyun məzmunundan aydın olur ki, Beyrək «Mən Qazandan dönməzəm» deyərək and içmir. Bu da təhriketmə, əmr funksiyasının reallığa çevrilmədiyinni təsdiqləyir. Burada bir cəhəti də qeyd edək ki, «Kitab»da konativ funksiya nəticəsindən asılı olmayaraq, hadisələrin zəncirvari şəkildə bağlanmasına xidmət edir. Bir növ tekstual funksiya üçün zəmin hazırlanır. Deməli, mətn daxilində dilin funksiyaları bir-birilə sıx şəkildə bağlıdır.

*4) Dilin fatik funksiyası*

Fatik funksiya dilin digər funksiyalarından kəskin şəkildə fərqlənir. Bu funksiya aşağıdakı hallarda təzahür edir: «Danışan dinləyənə hər hansı informasiya vermir, yeni məlumat bildirmir, bəlkə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dinləyicinin diqqətini özünə cəlb etmək istəyir, onunla dostluq qatmaq istəyir… Fatik funksiya onunla səciyyələnir ki, burada informasiya verməyin o qədər də əhəmiyyəti olmur. Çünki məqsəd informasiya deyil, danışıq prosesinin özüdür, yalnız əlaqə yaratmaqdır. Nə haqqında deyilməsi yox, necə deyilməsi əsas götürülür» (1-83). «Kitab»da dilin fatik funksiyasına az rast gəlinir. Nümunə kimi aşağıdakı parçaya diqqət yetirək:

Banıçiçək otaxdan baqırdı. «Mərə dayələr, bu qavat oğlı qavat bizə ərlikmi göstərir?» - dedi. Varın bundan pay diləŋ, görüŋ, nə deyir!» - dedi.

Qısırca yengə derlər, bir xatun vardı. İlərü vardı, pay dilədi. «Hey, bəg yigit, bizə dəxi bu keyikdən pay ver!..»

Banıçiçək və Qısırca yengənin dilindən verilən cümlələrin leksik aə intonativ mənalarındann aydın olur ki, Banıçiçək ova gələn igidlə (Beyrəklə) əlaqə yaratmaq istəyir. Banıçiçəyin dilindəki «Varıŋ bundan pay diləŋ, görüŋ, nə deyir» cümləsi də əlaqənin reallaşdırılmasına xidmət edir.

Boyun sonrakı hissələrində Banıçiçək özünü dayə kimi təqdim edir: «…əmma mən Banıçiçəgin dadısıyam». Burada da dil işarəsindən istifadə ilə fatik funksiya yerinə yetirilib.

*5) Dilin referent funksiyası*

Söyləmin mahiyyəti ilə əlaqədar olan referent funksiyada «obyektiv aləm haqqında informasiya, məlumat vermə, müəyyən məntiqi məzmun ifadə etmə səciyyəvi cəhətlər kimi götürülür» (1-83).»Kitab»da dil işarələrindən istifadə ilə referent funksiyanın yerinə yetirilməsini təsdiqləyən faktlar çoxdur. Onları aşağıdakı kimi sistemləşdirmək olar:

1) Oğuz cəmiyyətinin siyasi idarəçilik sisteminə birbaşa işarə olunur:

…Sağda oturan sağ bəglər!
Sol qolda oturan sol bəglər!
Eşikdəki inaqlar! Dibdə oturan xas bəglər!
Qutlu olsun dövlətiŋüz! – dedi.

Yaxud: İç Oğuz, Taş Oğuz bəgləri Bayındır xanıŋ söhbətinə dərilmişdi… Bayındır xanın qarşusında oğlı Qarabudaq bay tayanub turmışdı. Sağ yanında Qazan oğlı Uruz turmuş idi. Sol yanında Qazlıq qoca oğlı bəg Yegnək turmışdı…

Nümunələrdə Oğuz cəmiyyətinin idarəetmə struktukru,dövlətin siyasi idarəçiliyinin səviyyəsi haqqında olan informasiya poetik bir dillə ifadə edilib.

2) Boyların əksəriyyətində Oğuz igidlərinin döyüşkənliyi və məğlubedilməzliyi xüsusi olaraq vurğulanır:

Hərzə-mərzə söyləmə, mərə itim kafər!
Altımda Al ayğırım nə bəgənməzsən, -
səni gördi oynar.
Əgnimdəki dəmür tonum çignüm qısar.
Qara polad uz qılıcum qının toğrar.
Qarğı talı südüm nə bəgənməzsən,
Köksüŋ dəlüb gögə pırlar.
Ağca tozlu qatı yayım zari-zari iŋlər,
Sadaqda oxum kişin dələr.
Yanımda yigitlərim savaş dilər…

Təhkiyəçi Oğuz igidlərinin qəhrəmanlığı barədə təəssüratı məhz bu cür parçalarla yaradır. Həmin tip parçaların məntiqi nəticəsi olaraq yaranan informasiya isə belədir: «Oğuzlar qəhrəmandır!»

*3)* Oğuz elinin təbiəti, onun əsrarəngiz gözəlliyi poetik bir dillə çatdırılır:

Qanturalı baqdı gördi bü qonduğı yerdə quğı quşları,turnalar, turaclar, kəkliklər uçurlar. Souq-souq sular, çayırlar-çəmənlər… Selcan xatun bu yeri görklü gördi, bəyəndi. Düşdilər, işrətə məşğul oldılar. Yedilər, içdilər.

Bu parçada Oğuz elinin fauna (ququ quşları, durnalar, turaclar, kəkliklər…) və florası (çayırlar-çəmənlər…) haqqında dəqiq məlumat çatdırılır. Oğuz elinin təbiətini sevgi, şadlıq kontekstində poetik dillə təqdimetmə isə «Kitab»ın gözəlliyidir.

4) Oğuz elində elçiliyin (qız istəmənin) poetik dillə ifadəsi:

Qarşu yatan qara tağıŋı aşmağa gəlmişəm.
Aqındılı görklü suyuŋı keçməgə gəlmişəm.
Gen ətəgüŋə, tar qoltuğına qısılmağa gəlmişəm.
Təŋrinin buyruğilə, peyğəmbərin qövlilə
Aydan arı, gündən görkli qız qardaşıŋ Banıçiçəgi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bamsı Beyrəgə diləməgə gəlmişəm…

Göründüyü kimi, qədim türk etnoqrafiyasının kiçik bir detalı barədə olan informasiya poetik şəkildə ifadə olunur. Maraqlıdır ki, təqdim etdiyimiz şeir parçası müasir etnoqorafiyamızda nisbətən dəyişilmiş şəkildə mühafizə olunmaqdadır:

Al almağa gəlmişik,
Şal almağa gəlmişik,
Biz oğlan tərəfiyik,
Gəlin aparmağa gəlmişik!
Dirəyimizi qoparmağa gəlmişik,
Ürəyimizi qoparmağa gəlmişik.

Əsrlərin süzgəcindən keçib gələn, müasir toylarımızın bəzəyi olan bu misralar təkcə forma yox, həm də məzmun baxımından Dədə Qorqudun dilindən verilən misralarla səsləşir. Fikri təsdiq üçün həmin parçalardakı son misraları qarşılaşdıraq: «Aydan arı gündən görklü qız qardaşıŋ Banıçiçəgi Bamsı Beyrəyə diləməgə gəlmişəm» («Kitabi-Dədə Qorqud») – «Biz oğlan tərəfiyik, Gəlin aparmağa gəlmişik! Dirəyimizi qoparmağa gəlmişik» (müasir etnoqrafiyamızda). Fikrimcə, qarşılaşdırılan misraların forma və funksiyaca oxşarlığını əlavə arqumentlərlə təsdiqləməyə ehtiyac yoxdur.

5) Oğuz elinin coğrafi koordinatları haqqında məlumat çatdırılır:

… Oğuzdan köç elədi. Bərdəyə, Gəncəyə varub vətən tutdu. Toquz tümən Gürcüstan ağzına varub qondı. Qaravulluq eylədi.

… Mən bu oğlanı alayın, ava gedəyin. Yedi günlik azuğla çıqayın. Ox atduğım yerləri, qılıc çalub baş kəsdügim yerləri göstərəyim. Kafər sərhəddinə Cızığlara, Ağlağana, Gögcə tağa aluban çıqayın. Sonra oğlana gərək olur, a bəglər!...

Təqdim etdiyimiz parçalardakı Bərdə, Gəncə, Cızığlar, Göycə və s. kimi türk mənşəli vahidlər «Kitab»dakı toponimik vahidlərin bir hissəsi olsa da, Oğuz elinin coğrafi koordinatları barədə müəyyən təəssürat yaradır. Digər tərəfdən, həmin toponimik vahidlərin informatik funksiyası təkcə qədim yox, həm də müasir onomastikamız baxımından əhəmiyyətlidir. Burada T.Hacıyevin fikrini xatırlatmaq yerinə düşür: «Doğrudur, əsərdə bəzi toponimlər xəyalidir (Günortac, Bambam təpə, Ayğırgözlər və s. Ola bilər ki, bunlar daha qədim oğuzların hansı ərazidə isə gördükləri konkret toponimlərdir, fonetik cəhətdən dəyişib və tanınmaz olub), bəziləri indi başqa ərazilərdədir (bu toponimlər üzrə o vaxtkı Azərbaycanın coğrafi koordinatlarını müəyyənləşdirmək olar). Ancaq xəyali olmayan toponimlər Azərbaycanı əks etdirir: Bərdə, Gəncə, Əlincə qalası, Dərəşam, Dərbənd, Sallaxana, Göycə dəniz (Göycə göl), Sürməli, Qazlıq dağı (Qafqaz), Ağ qaya, Qaradağ, Bayat, Qaracuq dağı, Şərur və s.» (4-64). Bu qeydlər «Kitab»dakı real toponimik vahidlərin əksəriyyətinin Azərbaycanla bağlı olduğunu bir daha təsdiq edir.

6) Oğuzların ticarət əlaqələri barədə dəqiq informasiyalar çatdırılır:

…Bazırganlar dəxi gecə-gündüz yola girdilər. İstanbula girdilər. Dan-danışux ilə yəxşi ərməğanlar aldılar. Baybörənin oğlıyçun bir dəŋiz qulunu boz ayğır aldılar. Bir ağ tozlu qatı yay aldılar. Bir dəxi altı pərli gürz aldılar. Yol yarağın gördilər.

Bu parçada oğuzların ticarət əlaqələrinin spesifik cəhətləri bədii şəkildə ifadə edilib. «Kitab»da ticarətlə bağlı təsvirlərin xüsusi yer tutması qorqudşünaslıqda dönə-dönə vurğulanıb. Məsələn, qorqudşünaslıqda sanballı əsərləri ilə tanınan O.Ş.Gökyay yazır: «Kitapta, o çağların ve daha sonraki devirlerin en büyük ticaret müessesesi olan bezirganları ve kervanları görüyoruz. Bezirgan, tacir, arğız ve kervan keçilmeləri türlü münasebetlerle geçmektedir. Daha kitabın ba şında sıralanan özdeyişler içinde «dünle kervan göçdügün turğay bilür» deniyor… bu ticaret kervanlarının, başqa ülkeler arasında durmadan gidib geldikleri yinə hikayelerden anaşılmaktadır…» (3-371). Müəllifin fikirlərindən bir daha aydın olur ki, «Kitab»da ticarətlə bağlı olan məlumatlar xüsusi olaraq qabardılır. Bir cəhəti də qeyd edək ki, həmin tip parçaların informativ funksiyası ilə bədiilik gücü qovuşuq vəziyyətdədir. Bu isə o deməkdir ki, «Kitab»da dilin fünksiyaları, o cümlədən referent funksiya ilə poetik funksiya sintez şəklindədir.

7) Şərab istehsalı barədə dolğun informasiya çatdırılır:

Dügməsi böyük bizim tağlarımız olur,
Ol tağlarumızda bağlarumız olur,
Ol bağlarıŋ qara salxımları, üzümi olur.
Ol üzümi sıqırlar, al şərabı olur.

Göründüyü kimi, şərab istehsalında tətbiq olunan ən sadə texnologiyanın spesifik cəhətləri bədii şəkildə ifadə olunub. Amma qeyd etmək lazımdır ki, təhkiyəçi şərab istehsalının ilkin görüntülərini, daha doğrusu, şərabın ən sadə üsulla istehsal olunmasını ifadə edərkən onu birbaşa qəhrəmanın taleyilə əlaqələndirir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ol şərabdan içən əsrük olur.
Şərabluydım, tuymadım, nə söylədim, bilmədim.

Demək, Dəli Domrulun dilindən verdiyimiz parçadakı informasiyalar bir-birini tamamlayır. Konkret desək, I informativ funksiya II informativ funksiya üçün zəmin rolunu oynayır: «Bağların qara salxımlı üzümünü sıxmaqla şərab hazırlanır» (I informativ funksiya üçün əsas işarə – şərab); «Şərabdan içən sərxoş olur, nə dediyini bilmir» (II informativ funksiya üçün əsas işarə – sərxoş). Deməli, həmin poetik struktur və ya mikromətnin bünövrəsini «şərab+sərxoş» modeli təşkil edir.

8) Oğuz elinin təsərrüfatı, xüsusən də heyvandarlığı barədə təsəvvür yaradılır:

«Qazanıŋ qapulu Dərvəndə on biŋ qoyunı vardır. Şol qoyunları dəxi götürsək, Qazana ulu heyf edərdik».

9) Kafirlər haqqında informasiyalar verilir:

İt kibi gu-gu edən çərkəz xırslı
Küçicik toŋuz şülənli,
Bir torba saman döşəkli,
Yarım kərpic yasdıqlı,
Yonma ağac təŋrili,
Köpəgim kafər…

Yaxud:

Məgər Başu açuq Tatyan qələsindən, Aqsəqa qələsindən kafəriŋ casusu vardı.

Təqdim etdiyimiz parçaların semantik yükü təsdiq edir ki, Oğuzlar kafirlərin etnoqrafiyası və coğrafi koordinatları ilə bağlı dəqiq informasiyalara malik olub.

«Kitab»da oğuzların siyasi idarəçilik sistemi, etnoqrafiyası, coğrafi koordinatları, təsərrüfat həyatı, ticarət əlaqələri və s. barədə verilən dolğun məlumatlar dilin referent funksiyasına daxildir. Fikrimizcə, «Kitab» məhz bu cəhətlərinə görə sanballı ensiklopediya kimi dəyərləndirilir.

«Kitab»da dilin apelyativ, emotiv, konativ, referent kimi funksiyalarının təzahürü və onların bu günümüzə ötürülməsi tarixiliklə müasirliyin qırılmaz tellərlə bağlanmasıdır. Geniş mənada götürsək, dilin əsas funksiyalarını özündə ehtiva edən «Kitab» həm də sözün əsl mənasında dilin qneseoloji və ya akkumlyativ funksiyasını yerinə yetirir.

**Ə D Ə B İ Y Y A T**

1. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. Bakı, 1989.
2. Cəfərov N. Eposdan kitaba. Bakı, 1999.
3. Gökyay O.Ş. Dedem Korkudun kitabı. İstanbul, 2000.
4. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, 1976.
5. Qurbanov A. Ümumi dilçilik. I cild, Bakı, 2004.
6. Rəcəbov Ə. Sosiolinqvistika. Bakı, 2004.

## ФУНКЦИИ ЯЗЫКА В КНИГЕ «ДЕДЕ КОРКУД»А

**Р е з ю м е**

Книга «Деде Коркуд» отражает в себе функции языка. Автор показывает, что в книге «Деде Коркуд»а встречаются такие основные функции языка, как емотивная, апелятивная, конативная и другие.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# OĞUZNAMƏLƏR VƏ RƏŞİDƏDDİN OĞUZNAMƏSİ

***F.e.n. Əfzələddin Əsgər***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Rəşidəddin və Əbülqazi mətninə diqqət yetirdikdə bu mətnin Oğuz və onun yaratdığı Oğuz elinin tarixindən bəhs etdiyini asanlıqla tutmaq olur. Bu mətnin şifahi ənənədə yaşayan oğuznamələr əsasında yazıldığını yada salsaq, bu oğuznamələrin tarixi sosiuma münasibəti, onların birləşməsi qanunauyğunluğu, janr özünəməxsusluğu, bütövlükdə onlara xas olan poetik sistemin öyrənilməsi filologiyanın qarşısında dayanan vəzifələrdəndir. Bu məsələnin aydınlaşdırılması müəlliflərin şifahi ənənədən necə yararlanmasının bəzi laylarını da üzə çıxarır.

Bizcə, problemin izahına oğuznamələrin sıralanması və biri-birinə birləşməsi qanunuyğunluqlarının üzə çıxarılmasından başlamaq lazımdır. İrəlidə görəcəyimiz kimi, bu məsələnin aydınlaşdırılması müəlliflərin istitfadə etdiyi oğuznamələrin poetik quruluşu haqqında müəyyən təsəvvür yaradır.

Problemə münasibət bildirən Z.V.Toqan mətnin şifahi ənənədən qaynaqlandığını qeyd etsə də, Rəşidəddin və Əbülqazinin mətn üzərindəki haqqını "önlərinə gətirilən rəvayətləri bir araya gətir-mələri" şəklində dəyərləndirir (15, 125). Məsələ bundadır ki, Z.V.Toqanın oğuznamə haqqında fikirləri kifayət qədər ziddiyyətlidir. O, bir tərəfdən müəlliflərin rəvayətləri sistemləşdirməsindən danışır, başqa tərəfdən "mətnin sistemsiz şəkildə sıralanmasından" şikayətlənir. Yəni siyasi şəxsiyyət və sülalələrin tarixi gerçəkliyə uyğun olaraq xronoloji ardıcıllıqla verilməməsindən narazılıq edir (15, 132). Müəllifin məsələyə bu şəkildə yanaşması oğuznamələrin necə yaranması, onun şifahi ənənədə hansı şəkildə yaşamasını təssəvvür etməməsindən doğur. O, [Rəşidəddinin daha əvvəl yazılmış əlyazmadan istifadə etməsi haqqında söylədiyi fikri unudaraq (15, 119)] "bu rəvayətlərin bir qisminin Xorasan və Sırdərya hövzəsindən, digərlərinin isə Göyçəgöl – Van gölü məntəqəsində yaşayan Bayandur və Salurlar ağzından yazıldığını" düşünür (15,125). Bu zaman oğuznamələrin yaradıcıları və ifaçıları olan ozanlar unudulur. Elə buna görə də Rəşidəddin mətnində müşahidə olunan "nizamın" əsl sahibləri yada düşmür.

Xatırlatmaq istərdik ki, sözügedən problem daha qədim və Əbülqazi mətninə nisbətən daha təfərrüatlı və müəllif müdaxiləsinə daha az məruz qalmış Rəşidəddin mətni əsasında araşdırılır. Burada Əbülqaziyə nisbətən Rəşidəddinin daha az qaynaqdan (variantdan) istifadə etməsi və Əbülqazidə şifahi mətnin diaxronik müstəvidə dəyişməsinin əks olunması da nəzərə alınmışdır. Bununla yanaşı, araşdırma boyu Əbülqazi mətni ilə müqayisələr aparılmışdır.

Rəşidəddin mətnində müşahidə olunan ardıcıllıq, oğuznamələrin bir-birinə bağlanması şifahi epik düşüncənin qanunlarına uyğun şəkildə baş verir. Qeyd olunduğu kimi Rəşidəddin yararlandığı qaynaqların "bir neçə dastan"dan ibarət olduğunu söyləyir. Bu dastanlardan birini (və birincisini) uyğur etnik mühitində formalaşan "Oğuz kağan" dastanının sayəsində heç bir çətinlik çəkmədən tanımaq mümkündür. Ancaq Rəşidəddin mətnində qarşılaşdığımız "Oğuz" dastanı özünün bir çox xüsusiyyətləri ilə "Oğuz kağan" dastanından seçilir. Ən başlıcası isə, dastanın uyğur versiyasında Oğuz uyğur xaqanıdır. Bunun əksinə olaraq sözügedən qaynaqda Oğuz, Oğuz elinin yaradıcısı və ilk hökmdarıdır. Deməli, Rəşidəddin mətninin birinci hissəsində təsvir olunan Oğuzun epik bioqrafiyası dastanın oğuznamə versiyasına əsaslanır.

Beləliklə, birinci oğuznamə Oğuzun əcdadları haqqında məlumatla başlayır. Onun doğulması, dövlətini qurması, dünyanı fəth etməsi ilə davam edir. Sonda Oğuz ulu toyda üç ok-boz ok sistemini yaradır və bu sistemə uyğun olaraq oğlanları arasında siyasi hakimiyyət bölgüsü aparır. Bəllidir ki, "Oğuz kağan" dastanı da elə bu şəkildə qurtarır. Ancaq Rəşidəddin mətnində bu epizoddan sonra Qara Sülük və atası Yuşi Xoca ilə bağlı motiv, eləcə də Kıl Barakların qıpçaqlar tərəfindən itaətə gətirilməsi epizodu gəlir. Yalnız bu iki epizoddan sonra Oğuzun ölümü qeyd olunur. Qara Sülük və Yuşi Xoca ilə bağlı hadisə böyük toyda baş verdiyi üçün şifahi təhkiyəni ifadə etməsi baxımından məntiqidir. Qıpçaqların Kıl Baraklar üzərinə yürüşü epizodu isə yamaq kimi görünür. Qıpçaqların tarixi vətənlərində yaşamasının oğuznamə yozumu olan bu epizod "deyilənlərə görə" ifadəsi ilə başlayır. Mətnin bu hissəsinin dastanın başqa yerindən buraya keçirilməsini ehtimal etmək olar. Bu epizodun variantı Əbülqazi mətnində dastanın içərisində verilir (10, 43-44).

Maraqlıdır ki, təhkiyədə Oğuzun min il yaşaması haqqında qeyd təkrar olunur: birinci dəfə böyük toydan sonra qıpçaqlar məsələsindən öncə, ikinci dəfə qıpçaqlar epizodundan sonra. "Min il yaşayaraq öldü" qeydi qıpçaqlar epizodundan sonra gəlir (14, 62-63). Oğuzun min il yaşaması haqqında qeydin qıpçaqlar epizodundan əvvəl və sonra gəlməsi bu epizodun mətnə epik təhkiyənin başqa yerindən keçi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rilməsini göstərir. Beləliklə, "Oğuz" dastanının oğuznamə versiyası əsasında yaradılan Rəşidəddin mətnində "Oğuz kağan" dastanından bizə bəlli olan epik süjetin əsas cizgilərinin saxlandığını söyləmək olar.

"Oğuz" dastanının oğuznamə versiyasına söykənib əlyazmasında son sətirləri silinmiş uyğur versiyasında da Oğuzun böyük toydan sonra dünyasını dəyişdiyini söyləmək olar. Beləliklə, epik silsilənin birinci həlqəsi Oğuzun dünyasını dəyişməsi ilə bitir.

Oğuz etnik sistemi – törəsi və oğuz nəslinin bu etnik sistemin nüvəsi olan boz ok – üç ok bölgüsündə yeri, Oğuz elində siyasi hakimiyyət vərəsəliyi və Oğuz elinin etnosiyasi tarixinin epik təsviri Oğuz haqqında "əsas mətnə" söykənir və tarixən oğuz konfederasiyasına daxil olan tayfalar Oğuzun əsas mətndə mövcud olan altı oğlunun törəmələrinə çevrilir. Yəni etnonimlər eponimlər şəklində təqdim olunur. Mətnin ikinci hissəsi əsas mətnə bu şəkildə bağlanır.

Mətnin birinci hissəsinə nisbətən ikinci hissəsinin təhlili çətinlik törədir. Ona görə ki, sözügedən ikinci hissə ümumtürk kontekstində müəyyən etnosun tarixindən bəhs edən yeganə mətn tipidir. Mətnin əsas süjet xətti Oğuz elinin etnosiyasi tarixi üzərində qurulub. Burada sıra ilə Oğuz elinin başında dayanan yabqular, xanlar, onların vəzirləri haqqında məlumat verilir; Oğuz hakimlərinin əməllərindən, hakimiyyət müddətindən və bəzilərinin hakimiyyəti illərində baş verən epik hadisələrdən söz açılır.

Rəşidəddin mətninin Oğuz elinin tarixindən bəhs edən ikinci hissəsinə ötəri nəzər salsaq, orada bir neçə oğuznamənin varlığını görə bilərik. Oğuz elinin tarixi bu oğuznamələr vasitəsilə interpretasiya olunur. Oğuznamələr silsiləsi Oğuz elinin tarixində baş verən siyasi hadisələrin epik xronologiyasını verir. Bununla yanaşı, bir-birini əvəz edən yabğular və xanlar, eləcə də onların hakimiyyəti illərində baş verən hadislər gerçək oğuz tarixi deyil, oğuz tarixi haqqında dastanlardır. Başqa sözlə, oğuz tarixinin oğuznamə yozumudur.

Mətndə müşahidə olunan "nizamın" haradan qaynaqlandığını aşkarlamaq üçün onun "daxili quruluşuna" diqqət yetirmək lazımdır. Mətnin parçalarının (ayrı-ayrı oğuznamələrin) bir-birinə birləşməsi prinsiplərinin üzə çıxarılması, onda müşahidə olunan "nizamın" şifahi epik ənənədən gəlməsini və ya müəllif qələminə məxsus olmasını aydınlaşdıracaq yeganə vasitədir.

Xatırladaq ki, mütəxəssislər bu günə qədər mətnə şifahi epik yaradıcılıq kontekstindən yanaşmayıblar. Belə yanaşma ən azı mətni onun daxili quruluşundan çıxış edərək dəyərləndirməyi tələb edir. Z.V.Toqan və R.Şükürova mətnin Oğuz elinin tarixindən bəhs edən hissəsini tarixi baxımdan dövrləşdirir. Yəni Rəşidəddin mətnində adı çəkilən hökmdarların ümumtürk tarixi konteksində prototipləri axtarılır və bu müstəvidən oğuz, karluk, qaraxanlı, müxtəlif oğuz yabquları kimi dövrlər müəyyənləşdirilir (15, 132-138; 14, 72-84).

Epik mətnə tarixi konteksdən yanaşmanın B.N.Putilov aşağıdakı şəkildə ifadə edir: "Tarixizm bədii sistemdən qoparıla bilməz. O, onun üzvi keyfiyyətərindən biridir. Əgər biz məlum janrın tarixə münasibətini anlamaq istəyiriksə, gerçəkliyi yox, hansısa tarixi və etnoqrafik substratı yox, adları və səlnamə əks-sədalarını yox, xalq yaradıcılığı hadisəsi kimi müəyyən estetik qanunauyğunluqlara və özünəməxsus bədii aləmə malik olan bütöv eposu öyrənməliyik" (12, 240). Məsələyə sonuncu münasibət Rəşidəddin mətninin poetik qanunauyğunluqlarını üzə çıxarmağı tələb edir. Yalnız bu qanunauyğunluqlar aşkarlanandan sonra oğuz tarixinin oğuznamə interpretasiyası haqqında fikir söyləmək mümkündür

Öncə, Oğuz elinin tarixindən bəhs edən oğuznamələrin hansı şəkildə bir-birinə bağlanması və ya bir oğuznamədən başqasına keçidin hansı şəkildə realizə olunması üzərində dayanmaq istərdik. Bunun üçün oğuz hakimlərinin hansı prinsiplə siyasi hakimiyyətin başına gəlmələri və ya hakimiyyətin verilməsi prinsipi aydınlaşdırılmalıdır. Mətnə diqqəti yetirək.

Oğuzdan sonra hakimiyyətə böyük oğlu Gün xan gəlir. Gün xandan sonra taxta oğlu Dib Yavkuy xan oturur. Dib Yavkuy xandan Uladmur Yavkuy xana qədər davam edən doqquz sülalə üzvü (naib sifətində Tuman xanı əvəz edən Kol Erki xanı çıxmaq şərti ilə) hakimiyyətə "atadan oğula" prinsipi ilə gəlir. Uladmur Yavkuy xanı qardaşı Qara Alp əvəz edir. Oğuznamə qardaşın hakimiyyətə gəlməsini sonuncu hökmdarın oğlunun olmaması şəklində motivləşdirilir. Qara Alpdan sonra oğlu Buğra xan, Buğra xandan sonra oğlu Qoru təkin gəlir. Qoru təkindən sonra "onun qohumlarından biri Oyunak padşah olur". Mətndə Oyunakın hakimiyyətə gəlməsi səbəbi izah olunmur. Oyunakı oğlu Qara Arslan xan əvəz edir. Qara Arslan xandan sonra hakimiyyətə əmisi oğlu Osman gəlir. Mətndə bu hadisə Qara Arslan xanın oğlunun kiçik yaşlı olması ilə izah olunur. Osmandan sonra hakimiyyətə Əsli xan gəlir. Əsli xanla Osmanın qohumluğu haqqında heç nə deyilmir.

Yuxarıda təsvir olunan mənzərə açıq şəkildə göstərir ki, oğuznamə siyasi hakimiyyət vərəsəliyinin "atadan oğula" prinsipini irəli sürür. Bu baxımdan, oğuznamə patriarxal ailə ideologiyasını müdafiə edir. Məlumdur ki, vərəsəliyin "atadan oğula" prinsipi patriarxal ailə ilə bağlıdır. Patriarxal ailənin vərəsəlik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

prinsipinə görə, siyasi hakimiyyət atadan böyük oğula keçirdi. Ata ocağı (mülkü) isə kiçik oğula verilirdi (2, 52-61).

Yuxarıdakı təsvirdən göründüyü kimi, oğuznamədə siyasi hakimiyyətin yan xətlə (qardaşa, əmioğluya, "yaxın qohuma") verilməsi halları da mövcuddur. Məlumdur ki, siyasi hakimiyyət vərəsəliyinin "qardaşdan qardaşa" forması daha arxaikdir. Etnoqrafiyada vərəsəliyin bu forması ana ailəsindən (matriarxatdan) ata ailəsinə (patriarxata) keçid dövrünün ailə forması olan qardaş ailəsi ilə əlaqələndirilir (18, 286-287; 4, 175; 3, 100; 9, 163). Siyasi hakimiyyətin qardaşa verilməsi bir çox xalqların tarixi üçün xarakterikdir. Cənub Hun dövlətində, Göytürk dövlətində, Qaraxanlı dövlətində və Peçeneq konfederasiyasında siyasi hakimiyyətin qardaşa verilməsi bu ailə formasının və ona uyğun olan vərəsəlik prinsipinin türklər üçün də xarakterik olduğunu göstərir (7, 11-25; 8, 176). Bununla yanaşı, orta əsrlər türk tarixi əmilərlə qardaşoğullarının siyasi hakimiyyət uğrunda mübarizəsinə aid misallarla doludur. Bu hadisə əslində siyasi hakimiyyət vərəsəliyinin köhnə – "qardaşdan qardaşa" şəkli ilə yeni – "atadan oğula" şəklinin qarşıdurmasından doğurdu. Əmilərlə qardaşoğulları arasında baş verən siyasi çəkişmələrin qarşısını almaq üçün Nadir şahın və Sultan Mahmudun köhnə vərəsəlik prinsinini bərpa edərək bu barədə xüsusi fərman imzalamaları da tarixə yaxşı məlumdur (1, 532; 5, 113).

Siyasi hakimiyyət vərsələyinin patriarxal ailədən doğan "atadan oğula" şəklini müdafiə edən oğuznamədə hakimiyyətin yan xətlə verilməi işarəvi mahiyyət daşıyaraq siyasi hakimiyyətin dəyişməsini, yəni bir sülalədən başqa sülaləyə (müəyyən hallarda bir dövlətdən başqa dövlətə) keçməsini ifadə edir. Oğuznamədə siyasi hakimiyyətin oğuz yabğularından qaraxanlı xanlarına, qaraxanlı xanlarından Oyunak soyuna, Oyunak soyundan Osman soyuna və oğuz yabğularından qəznəli soyuna keçidi siyasi hakimiyyətə qardaşın, əmioğlunun, "yaxın qohumun" gəlməsi şəklində reallaşır. İrəlidə görəcəyimiz kimi, oğuznamə siyasi hakimiyyətin yan xətlə verilməsinə neqativ münasibət bəsləyir və bu üzdən oğuz tarixində baş verən sarsıntılar məhz bu şəkildə ifadə olunur. Bununla yanaşı, oğuznamə etnik tarixin acı səhifələrinə nəinki işarə etməkdən, hətta onu "nəzmə çəkməkdən" belə çəkinmir. Mətndə etnik tarixdə baş verən siyasi hadisələrə işarə olunması orada sıralanan oğuznamələri də seçib ayırmağa imkan verir. İş ondadır ki, mətndə bir sülalənin sona yetib başqa bir sülalənin başlanması uyğun olaraq bir oğuznamənin tamamlanıb başqa bir oğuznamənin başlaması ilə müşayət olunur. Buradan etnik tarix haqqında oğuznamələr silsiləsinin bir-birinə bağlanması qanunauyğunluğu üzə çıxmış olur. Hər bir oğuznamənin etnik tarixin klassifikasiyasını verərək onu epoxalara bölməsini nəzərə alsaq, sözügedən qanunauyğunluğa əsaslanıb bu epoxaların harada başlayıb, harada sona çatdığını konkret şəkildə ayırd etmək mümkündür.

Ətraflı təhlilə keçməzdən öncə, bir məsələni təkrar olaraq, vurğulamaq istəyirik. Oğuznamələr Oğuz elinin adına qoşulsa da, tarixi hadisələrin heç də hamısı oğuz dövrünü əks etdirmir. Oğuz elinin adına çıxılan tarixi hadisələr yalnız oğuz tarixinin oğuznamə yozumudur. Heç olmasa onu nəzərə alaq ki, Rəşidəddinin söykəndiyi oğuznamələr Oğuz elinin (Oğuz Yabğu dövlətinin) yıxılmasından 300 ilə yaxın dövr keçəndən sonra yazıya alınmışdır. Bu dövr ərzində şifahi mətnin dövrün sosial-iqtisadi və siyasi-ideoloji gerçəkliyinə uyğun şəkildə dəyişməsi tamamilə qanunauyğundur. Oğuz Yabğu dövlətinin yıxılmasından sonrakı, eləcə də ona qədərki dövrlərdə baş verən hadisələrin oğuznamələrə salınması şifahi epik mətn üçün qanunauyğun haldır. Bununla yanaşı N.V.Putilovun qeyd etdiyi kimi, eposla tarix arasında "gerçək qanunauyğunluq epik sosiumun yalnız üst təbəqəsindədir. Halbuki onun (epik mətnin – M.)" dərin məzmununda ondan (tarixdən – M) kəskin şəkildə fərqlənir. Epik sosium "təkcə real tarixi sosiumun məzmunu ilə izomorf deyil, həm də bir çox cəhətləri ilə onunla ziddiyyət təşkil edir". Yəni o, "öz tarixini", tarixi sosiumun epik variantını yaradır (13, 46). Problemin mahiyyəti məhz bundan ibarətdir.

Qeyd olunduğu kimi, oğuznamənin ikinci hissəsində siyasi hakimiyyət Gün xandan Uladmur Yavkuy xana qədər "atadan oğula" prinsipi ilə davam edir. Bu hissədə adı çəkilən doqquz oğuz hakimindən yeddisinin *yavkuy xan* titulu daşımasına əsaslanıb "yabğuxanlar" dövrü adlandırmaq olar. Yabğuxanlardan ikisinin adında *qayı/kayı* sözünün əks olunması onların Gün xanın böyük oğlu Qayı/Kayı soyundan olduğunu göstərir. Z.V.Toqan bu dövrün bir hissəsini, yəni İnalsır Yavkuy xana qədər olan hissəsini "Oğuz xan və onun övladı tam mənası ilə hakimdirlər" şəklində xarakterizə edir (15, 132). Yəni Oğuz elinin siyasi baxımdan müstəqil olduğunu bildirir. Müəllif bu fikri irəli sürərkən nəyə əsaslandığını deməsə də, bu dövrü Oğuz elinin müstəqillik dövrü kimi xarakterizə etməsi doğrudur. Ancaq bu müstəqilliyi İnalsır Yavkuy xana qədərki dövrə aid etməsi ilə razılaşmaq olmaz. O, bu fikri irəli sürərkən məsələyə tarixi baxımdan yanaşmışdır. Araşdırıcı Əbulqazinin İnalsır Yavkuy xanla başlayan dövrü Karluk yabğuları ilə əlaqələndirir və Şahməliyin ölümünə qədərki dövrə çatanadək davam etdiyini söyləyir. Müəllifin bu fikri VIII əsrdə karlukların uyğurlarla birgə göytürklərə qələbə çalıb hakimiyyətə gəlmələrinə əsaslanır (15, 133-134). Epik informasiyanın tarixi sənəd və ya səlnamə ilə eyniləşdirmənin nə qədər ciddi səhv olduğunu vurğulamağa xüsusi ehtiyac yoxdur. Əbülqazi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mətnində İnal Yavı xanın (Rəşidəddində İnalsır Yavkuy xan) hakimiyyət illərinin Abbasilər dövrünə düşməsi onun vəziri Korkut atanın həmin dövrdə yaşaması şəklində ifadə olunur (10, 56). "Kitabi-Dədə Qorqud"un müqəddiməsində isə Qorqud ata Məhəmməd peyğəmbərin müasiri sayılır. Təkcə bu qarşılaşdırma epik informasiyanın tarixi baxımdan nə dərəcədə ciddi olduğunu aydın şəkildə göstərir. Bununla yanaşı, sözügedən informasiyanı epik hadisənin tarixiləşdirilməsi kimi dəyərləndirmək lazımdır və bu sonuncu hadisə də tamamilə epik mahiyyət daşıyır.

Məsələyə folklor münasibəti tarixi sosiumun epik variantının strukturunu öyrənməyi tələb edir. Bu baxımdan, Rəşidəddin mətnində adı çəkilən xanlar Gün xanın soyundan gələn oğuz hakimləri kimi interpretasiya olunur və bu sarıdan epik mətnin strukturu bütövdür. Qeyd edək ki, bütün oğuznamələrə xas olan oğuzlaşdırma Oğuz elinin tarixi haqqında oğuznamələr silsiləsində birinci növbədə siyasi hakimiyyətin Kayı soyuna məxsus olmasında özünü göstərir. Oğuznaməyə görə, Oğuz elində siyasi hakimiyyət haqqı yalnız Kayı övladlarına məxsusdur və bu soydan çıxanların hakimiyyəti ilahi təqdir sayılır: "Padşahlıq taxtı Ulu Tanrı tərəfindən seçilmiş olanlara, onların nəslindən çıxanlara layiqdir. Şübhəsiz ki, yalnız bu soydan çıxanlar yalnış iş görməzlər" (15, 61; 14, 77).

Hakimiyyətin yan xətlə verilməsi vərəsəliyin Kayı soyundan kənara çıxması demək deyil. Mətndə qardaşın, əmioğlunun, "yaxın qohumun" hakimiyyətə gəlişi vurğulanır. Vəssalam! Qaraxanlı, Oyunak soyu, Barani və Qəznəli soyunun hakimiyyətə gəlişi oğuznamədə bu şəkildə ifadə olunur. İrəlidə görəcəyimiz kimi, Kayı sülaləsinin sonu, oğuznaməyə görə, Oğuz elinin süqutu ilə müşayiət olunur. Kınık soyundan olan Toqsurmış övladının hakimiyyətə gəlişini oğuznamə Oğuz elinin tarixindən kənarda qoyur. Bu şəkildə silsilə oğuznamələrdə təqdim olunan tarixi dövrlər oğuzlaşdırılır. Ancaq oğuznamələr silsiləsinin birinci oğuznaməsinin oğuzlaşdırmaya bir o qədər də ehtiyacı yoxdur. Burada Oğuz elinin "qızıl dövrü", yəni tarixən "Oğuz Yabğu dövləti" adlanan müstəqillik dövrü əks olunur. Oğuznamədə sülalə üzvlərinin adındakı *yavkuy* sözü tarixən Oğuz hakimlərinin daşıdığı *yabğu* titulunun oğuznamə variantıdır. Bu baxımdan, oğuznamə tarixi gerçəkliyi əks etdirir. Bunun əksinə olaraq, Qaraxanlı, Oyunak, Osman sülaləsinə məxsus olan hakimlər bu titulu daşımırlar. Ancaq oğuznamədə Oğuz elinin müstəqilliyi onun hakimlərinin bu titulu daşıması ilə deyil, siyasi hakimiyyətin "atadan oğula" prinsipi ilə davam etməsində əks olunur. Oğuznaməyə görə, Oğuz elinin "qızıl dövrü"ndə siyasi vərəsəlik hüququ məhz bu şəkildə gerçəkləşdirilirdi.

Beləliklə, Oğuz elinin etnosiyasi tarixindən bəhs edən oğuznamələr silsiləsinin birinci oğuznaməsini Yabğuxanlar haqqında oğuznamə adlandırmaq olar. Bu oğuznamədə doqquz oğuz yabğusunun adı çəkilir və onlardan bəzilərinin zamanında baş verən hadisələr təsvir olunur. Tarixi məzmun daşıyan bu hadisələr müstəqil oğuznamə təsiri bağışlasa da, onların hamısı yabğuxanların tarixi kimi birləşərək bütövləşir. Oğuznamə Gün xanın taxta çıxması ilə başlanır. Onun zamanında Oğuz övladlarının üç ok-boz ok sistemində yeri, yəni Oğuz elinin törəsi müəyyənləşdirilir. Gün xandan sonra hakimiyyətə oğlu Dib Yavkuy xan gəlir. Mətndə Dib Yavkuy xanın dövlət işlərini qaydaya salmasından və yeməklər üzərində qələbəsindən söz açılır.

Yabğuxanlar haqqında oğuznamə Gurs Yavkuy, Koru Yasak Yavkuy, İnalsır Yavkuy xan, Ala Atlı Kiş Dərnəklü Qayı İnal xan kimi yabğular, onların vəzirləri, naibləri, bəyləri haqqında məlumatla davam edir. Qayı İnal xanın ölümündən sonra onun oğlu Tuman xan haqqında epik təhkiyə başlayır. Tuman xan haqqında epik təhkiyə özü-özlüyündə böyük bir oğuznamə təsiri bağışlayır.

Kayı İnal xan öləndə onun oğlu təzəcə doğulduğu üçün hakimiyyət naib sifətində Bayandur Dönkərin oğlu Erkiyə verilir. Yabğunun oğlu Tuman böyüyəndən sonra hakimiyyətə gəlmək istəyir. Korkutun məsləhəti ilə Kol Erkinin qızı ilə Tuman xan evlənir. Hakimiyyət isə Kol Erki xanda qalır. Tuman xan həmin qızla evlənmək iddiasında olan Ayne xanın oğlu Uce xanın üzərinə qoşun çəkib onu cəzalandırır. Elə bu zaman onun bir oğlu olur. Uşaq böyüyəndən sonra babasından tələb edir ki, hakimiyyəti atasına versin. Tuman xan taxta oturur və yüz gündən sonra hakimiyyəti oğlu Kayı Yavkuy xana verir. Kayı Yavkuy xandan sonra hakimiyyətə onun oğlu Uladmur Yavkuy xan gəlir (15, 49-62; 14, 63-78).

Uladmur Yavkuy xan haqqında epik təhkiyə Yabğu xanlar haqqında oğuznamənin sonuncu həlqəsidir. Oğuznamənin bu hissəsi siyasi hakimiyyətin Yabğuxanlardan Buğraxanlara verilməsini əks etdirir.

Mətndə Uladmur Yavkuy xanın taxtda oturması haqqında məlumatdan sonra onun Qara Alp adlı daha nüfuzlu bir kiçik qardaşının olması xatırlanır. Ardınca uyğur hakimi Arıqlı Arslan xanın Oğuz elinə qarşı qiyamından bəhs olunur. Uladmur Yavkuy xan Arıqlı Arslan xanın qiyamını yatırır, onu və yaxın bəylərini öldürür. Oğuz elinə itaət etmək şərtilə hakimiyyəti Arıqlı Arslan xanın oğlu Alp Tavqac xana verir (15, 62-63; 14, 78-79).

Uladmur Yavkuy xan 70 il hakimiyyət başında olur. Dünyasını dəyişərkən oğlu olmadığı üçün hakimiyyətə qardaşı Qara Alp gələrək "Qara xan" ünvanı alır. Oğuznamədə yabğuxanlardan xanlara, başqa sözlə, Oğuz yabğularından Qaraxanlı xanlarına keçid bu şəkildə baş verir. Z.V.Toqan bu məsələyə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

diqqət yetirərək yazır: "Dastanda yabğu sülaləsinin sona çatıb buğraxanların başladığı açıqca ifadə edilmişdir...". Tarixi baxımdan bu zamanlar qaraxanlıların quruluş illərinə təsadüf edir". Müəllifə görə, bu xanlar Böyük qaraxanlılar deyil, quzeydəki buğraxanlardır (15, 135).

Beləliklə, oğuzların siyasi müstəqilliyini itirərək Qaraxanlı dövlətinin siyasi hakimiyyəti altına girməsi hakimiyyətə qardaşın gəlməsi şəklində ifadə olunur. Bununla da oğuznamə qaraxanlılara özünəməxsus şəkildə ögey münasibət bildirir. Əbülqazi variantında Qara xana ögey münasibət bir az da tündləşdirilmişdir. Burada Qara xan Mur Yavı xanın kənizdən doğulan uşağı kimi verilir (10, 61). Məlumdur ki, türkmən törəsinə görə, kənizdən doğulan uşaqlar siyasi hakimiyyətin başında otura bilməzdilər. Onlar *iq və qul* kateqoriyasına ayrılan övladlar içərisində sonuncu yerdə dayanırdılar (17, 319). Bununla yanaşı, oğuznamə qaraxanlıları yabğu soyu ilə bağlamaqla onları oğuzlaşdırır.

Qara xandan sonra hakimiyətə oğlu Buğra xan gəlir və ardınca Buğra xan haqqında oğuznamənin təsviri verilir. Bu oğuznamənin süjeti dünya xalqlarının folkloru üçün səciyyəvi olan ögey ana və oğul konflikti üzərində qurulub. Araşdırıcıların fikrinə görə, süjetin oğuznamə variantı Asokanın oğlu Kunala haqqında hind əfsanəsinə yaxındır (15, 107).

Buğra xanın üç oğlu olur: İl təkin, Qoru təkin, Bek təkin. Arvadı Bayır xatunun ölməsi xanı sarsıdır. O, qocalıb əldən düşdüyü üçün dövlət işlərini görməyə gücü çatmır. Bəylər işə qarışır. Buğra xan hakimiyyəti oğlu Qoru təkinə verməli olur.

Qoru təkin atasını Güncəbək adlı bəylərbəyinin qızı ilə evləndirir. Ögey ana oğulluğu ilə "başbir etmək" fikrinə düşür. O, imtina edir. Sirrin açılacağından qorxan qadın yubanmadan oğulluğunu şərləyir. Bəylər Qoru təkini yaxalayırlar. O, hadisənin necə baş verdiyini bəylərə danışır. Bəylər onun ağzından eşitdiklərini Buğra xana söyləyirlər. Buğra xan oğlunun gözlərinin çıxardılıb günahının aşkarlanması üçün əjdahanın məkanına göndərilməsini istəyir. Qoru təkini əjdahanın məkanına göndərirlər. Əjdaha nəinki günahsız oğlana toxunmur, hətta onu sağaldır. Həqiqət üzə çıxır. Qadının əl-ayağını atların quyruğuna bağlayıb parçalayırlar (15, 63-68; 14, 80-85). Buğra xan haqqında oğuznamə bu şəkildə tamamlanır.

Qoru xandan sonra siyasi hakimiyyət vərəsəliyinin "atadan oğula" prinsipi yenidən pozulur; taxtda "onun qohumlarından biri olan Oyunak" oturur. Oğuznamə yeni sülalənin əcdadına *oyun* sözündən olan "Oyunak" adı verməklə hakimiyyətin qeyri-legitimliyinə işarə edir. Ayrıca araşdırma tələb edən bu məsələnin Qaraxanlı dövlətində baş verən siyasi hadisələrlə bağlı olduğunu düşünmək olar.

Oyunakdan sonra hakimiyyətə oğlu Qara Arslan xan gəlir. Ardınca Qara Arslan xan haqqında oğuznamənin təsviri verilir. Qara Arslan xan haqqında oğuznamə süjet baxımından "Dədə Qorqud" oğuznamələrindəki "Dirsə xan boyu"na bənzəyir.

Qara Arslan xanın qırx hacibi və Suvar adlı bir qulamı var. Haciblər və inaqlar xanla Suvarın dostluğunu qısqanır. Bu üzdən xanı inandırırlar ki, Suvar xəyanət fikrindədir. Xan onların dediyinə inanır. O, Suvarı iş dalınca göndərib haciblərə deyir ki, geriyə dönərkən Suvarı öldürsünlər. Baş verən hadisədən kədərlənən xan hərəmxanaya gəlir. Xanın xatunları onu inandırırlar ki, haciblərin dedikləri qısqanclıqdan irəli gələ bilər və məsləhət görürlər ki, səbrli olsun.

Xan haciblər ova, səfərdən qayıdan Suvarı isə vergi toplamağa göndərir. O, tabuta girərək ölmüş təsəvvürü yaradır. "Xanın ölməsindən" xəbər tutan haciblər onun var-dövlətini talayırlar, Suvar isə onun qəbri üzərində göz yaşı tökür. Həqiqət aşkarlanır. Xan tabutdan çıxır. Haciblər cəzalarına çatır. Suvar isə mükafatlandırılaraq sübaşi vəzifəsinə qoyulur. Qara Arslan haqqında oğuznamə sona yetir (15, 68-71; 14, 85-89).

Qara Arslan xandan sonra siyasi vərəsəlik prinsipi yenidən pozulur. Hakimiyyətə onun əmisi oğlu Osman gəlir. Osmandan sonra hakimiyyətə gələn Əsli xanın Osmanla qohumluq dərəcəsi haqqında heç bir qeyd yoxdur. Ancaq Əsli xandan sonra hakimiyyət "atadan oğula" xətti ilə davam edir. Əbülqazidə başqa mənzərə ilə qarşılaşırıq. Burada Osman Arslan xanın əmisi oğlu kimi təqdim olunur. Osmanı qardaşı Əsli xan əvəz edir. Əsli xandan sonra hakimiyyətə oğlu Şaban, Şabandan sonra oğlu Buran gəlir. Əbülqazi Rəşidəddindən fərqli olaraq, Əli xanı Buranın oğlu saymır və onun Oğuz elinin parçalanması nəticəsində hakimiyyətə gəldiyini bildirir (10, 65-66). Mətndəki ziddiyyətləri nəzərə alıb, bu soyun Osman, Əsli xan və ya Buranla başladığını demək çətindir. Ancaq bir tarixi həqiqətə söykənərək Oğuz elinin süqutundan bəhs edən V oğuznamənin hansı soyla bağlı olduğunu üzə çıxartmaq mümkündür.

Oğuz yabğusu Əli xan və oğlu Kılıç Arslan – Şahməlik bu oğuznamənin əsas qəhrəmanlarıdır. Məsələ bundadır ki, bu sülalənin sonuncu xanı olan Əli xan və oğlu Şahməlik tarixi şəxsiyyətlərdir. Onların barani soyuna mənsub sonuncu oğuz yabğusu olması və Şahməliyin səlcuqlu Çağrı bəy tərəfindən öldürülməsi məlumdur (16, 57-58). Bu baxımdan oğuznamə tarixi gerçəkliyi əks etdirir. Z.V.Toqan tarixi qaynaqlara söykənərək barani soyunun kəngərlilərə mənsub olmasını sübuta yetirir (15, 109). Bununla yanaşı, oğuznamədə Əli xanın atası Buranın *baran* sözünün pozuq şəkli olduğunu qəbul etsək, onda eponimin etnonimlə bağlı olduğunu düşünmək olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Baranilərin oğuz törəsinə görə, hakimiyyət hüququna malik olmamaları bəllidir. Maraqlıdır ki, Əbülqazi barani soyunun mənsubları olan Əli xan və oğlu Şahməliyi əvvəlki xanlardan ayırır, onların hakimiyyətə gəlişini Oğuz elinin dağılması ilə əlaqələndirir. Oğuznamənin Əbülqazi variantına görə, Oğuz eli monqol təzyiqi nəticəsində dağılır. Oğuzların böyük bir hissəsi Ürgəncə gedir. Yerdə qalanlar isə, "Əli adlı birisini" xan seçirlər (10, 48). Burada monqol təzyiqi məsələsi açıq-aydın anaxronizmdir. Sözügedən hadisə X əsrin sonlarında Oğuz elinin parçalanmasına işarə edir (8, 58; 16, 201-202). Bununla yanaşı, oğuznamə barani soyunun Oğuz elində baş verən siyasi sarsıntıların nəticəsində hakimiyyətə gəldiyini yaddaşında möhkəm saxlayıb. Bu üzdən oğuznamə onları "yabğuxanlar" yox, "xanlar" sırasına daxil etməklə ögey münasibət bildirir. Ardınca barani soyundan gələn Oğuz yabğularının günahı üzündən Oğuz elinin param-parça olması haqqında oğuznamənin təsviri verilir. Bu oğuznamədə Oğuz elinin son çöküşünün məsuliyyəti bu soyun sonuncu nümayəndələri olan Əli xan və oğlu Şahməliyin boynuna qoyulur. Beləliklə, Oğuz elinin etnosiyasi tarixindən bəhs edən oğuznamələr silsiləsi Oğuz elinin süqutu haqqında oğuznamə ilə tamamlanır. Oğuznamənin Rəşidəddin interpretasiyasının əsas cizgilərinə diqqət yetirək:

Oğuz hakimi Buran oğlu Əli xan Amudəryanın o tərəfindəki tayfaların idarəsini Kılıc Arslan adını verdiyi kiçik yaşlı oğlu Şahməliyə verir və Bükdüz Kardıcını onun atabəyi vəzifəsinə təyin edir. Yetkinlik yaşına çatan Şahməlik pozğun həyat tərzi keçirir. İş o yerə çatır ki, o, bəylərin qızlarının yatdığı alaçıqlara girib onların namusuna sataşır. Oğuz bəyləri üsyan qaldırıb Şahməliyi və onun atabəyini qovurlar. Əli xan və Kardıcının üsyanı yatırtmaq üçün düşündüyü hiylələr baş tutmur. Kınık boyundan olan Toğrul üsyanın rəhbərinə çevrilir. Üsyan uğurla nəticələnərək Şahməliyin öldürülməsi ilə başa çatır. İki il sonra Əli xan qüssədən ölür. Onu da deyək ki, Əbülqazidə Toğrul kayılaşdırılır. Yəni o, Kınık soyunun mənsubu kimi deyil, Kayı boyunun mənsubu kimi təqdim olunur.

Rəşidəddin sonuncu oğuz yabğusunun ölümündən sonra səlcuqlu sultanlarına keçir. Toğrul "doğruluğa, ədalətə və yaxşılığa" əsaslanan böyük bir dövlət qurur. Böyük qardaşı Dukakı Qəznə və onunla sərhəd olan əyalətlərin, kiçik qardaşı Arslanı isə "Rum və onunla qonşu olan ərazilərin" bəyi qoyur... Toğruldan sonra hakimiyyətə Dukak gəlir (15, 74-75; 14, 93-94).

Rəşidəddinin əksinə olaraq, "Şəcəreyi-tərakimə"də sonuncu oğuz yabğusunun ölümündən sonra Oğuz elində baş verən xaosdan və oğuzların müxtəlif istiqamətlərdə köçündən, yəni Oğuz elinin dağılmasından bəhs olunur. Rəşidəddin isə Oğuz elinin dağılması haqqında qeydlərini Qəznəlilər haqqında oğuznamədən sonraya keçirmişdir. Problemə aydınlıq gətirmək üçün öncə "Qəznəlilər haqqında oğuznamə"nin Rəşidəddin təsvirinə diqqət yetirək.

Qəznəlilər haqqında oğuznamədə öncə bir-biri ilə qohumluq dərəcəsi bəlli olmayan Toküz Yavkuy, Saman Yavkuy, Aqım Yavkuy, Kökəm Yavkuy kimi oğuz hakimlərinin adı çəkilir. Kökəm Yavkuyun adının çəkilməsi ilə epik süjet hərəkətə gəlir. Burada Kökəm Yavkuy ilə "Oğuz" dastanından bizə bəlli olan Qara Şit arasındakı savaş təsvir olunur. Qara Şit öncə Kökəm Yavkuya qələbə çalır, onun beşikdə olan qardaşını aparır. Kökəm Yavkuy güclənərək Qara Şiti məğlub edir. Ancaq qardaşı Qara Şitin yanında qalır. Qara Şit ona "Sərəng" adı verir. Sərəng böyüyəndən sonra qardaşını köməyə çağırır. Kökəm Yavkuy qardaşını xilas edir... Kökəm Yavkuy dünyasını dəyişir. Sərəng qardaşının ölməsini gizlədib bir il onun əvəzindən eli idarə edir. Oğuz bəyləri Sərəngin yanına gəlib ondan Kökəm Yavkuyu soruşurlar. Sərəng göz yaşları içərisində baş verən hadisəni bəylərə nağıl edir. Kökəm Yavkuy dəfn olunur, Sərəng taxta çıxır (15, 75-76; 14, 94-95). Sərəngin taxta çıxması ilə, oğuznaməyə görə, qəznəlilər hakimiyyətə gəlir. Mətndə tarixi gerçəkliyə uyğun olaraq, qəznəlilər sülaləsi mənsublarının (Səbüktəkin, Mahmud və Məsud) adı çəkilir. Ardınca qəznəlilərlə səlcuqlular arasında yaranan nifaqdan və nəhayət savaşdan bəhs olunur. Savaşda qəznəlilər məğlub olur. Oğuznaməyə görə, Məsud (tarixi gerçəkliyin əksinə olaraq) səlcuqlulara əsir düşür... (15, 76-77; 14, 95-95).

Rəşidəddinin xülasəsini verdiyi bu epik süjet qəznəlilər sülaləsinin oğuz yabğularının soyundan gəlməsinə həsr olunub. Deməli, bu hissə "Qəznəlilər haqqında oğuznamə"dir. Burada oğuz yabğularından qəznəli sultanlarına keçid oğuznamənin poetikasına uyğun olaraq qardaşın hakimiyyətə gəlməsi şəklində realizə olunur. Unutmamışıqsa, yabğuxanlardan buğraxanlara, buğraxanlardan Oyunak soyuna, Oyunak soyundan Osman soyuna keçid oxşar şəkildə baş vermişdi. Tarixi faktların əksinə olaraq, qəznəlilərin Kayı soyundan olması haqqında fikir buradan qaynaqlanır.

Qəznəlilər sülaləsinin tarixən qeyri-legitim sayılması bəllidir. Bu münasibət onların qulmənşəli olmaları ilə bağlı idi (11, 89). Beləliklə, oğuznamə bir tərəfdən qəznəliləri Kayı soyuna bağlamaqla onların hakimiyyətini legitimləşdirir, başqa tərəfdən etnik tarixin qəznəlilər dövrünün epik salnaməsini yaradır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yuxarıda deyilənlərlə yanaşı, Qəznəlilər haqqında oğuznamə Oğuz elinin etnosiyasi tarixindən danışan oğuznamələr silsiləsinin poetik strukturundan kənarda qalır. Oğuznamənin epik silsilədən kənarda qalması aşağıdakı hallarda özünü göstərir:

1. Qeyd olunduğu kimi, oğuznamələrin əsas süjet xətti Kayı soyundan olan oğuz hökmdarlarının siyasi hakimiyyət vərəsəliyinin "atadan oğula" və "qardaşdan qardaşa (əmioğluya, "yaxın qohuma") prinsipinə uyğun şəkildə davam etməsi üzərində qurulub. Siyasi hakimiyyətin yan xətlə verilməsi bir siyasi epoxanın sonunu, başqa bir siyasi epoxanın başlanğıcını ifadə edir. Bu siyasi epoxaları ifadə edən oğuznamələr də bu şəkildə bir-birinə bağlanır. Oğuz elinin süqutu haqqında oğuznamə ilə Qəznəlilər haqqında oğuznamə arasında belə bir bağlılıq yoxdur. Mətndə, sadəcə olaraq, bir-biri ilə qohumluq münasibəti bəlli olmayan hakimlərin adı çəkilir.

2. Oğuz elinin etnosiyasi tarixini tərənnüm edən oğuznamələr silsiləsi Oğuz elinin süqutu haqqında oğuznamə ilə başa çatır və oğuznaməyə görə, oğuz tarixi burada başa çatır. Oğuz elinin süqutu haqqında oğuznamədən sonra Qəznəlilər haqqında oğuznamənin geriyə dönərək Oğuz elinin "yabğuxanlar dövrü"nü gündəliyə gətirməsi Oğuz tarixi haqqında oğuznamələr silsiləsinin kompozisiyası ilə uyuşmur.

Qəznəlilər haqqında oğuznamə özünün poetik strukturuna görə, Yabğuxanlar haqqında oğuznamənin sonuncu – Uladmur Yavkuy xandan bəhs edən hissəsinə bənzəyir. Hər iki süjetdə beşikdə ikən düşmən tərəfindən qaçırılan və böyüyəndən sonra geriyə qayıdan qardaş hakimiyyətə gəlir. Göründüyü kimi, oğuznamə yabğuxanlardan qaraxanlılara və qəznəlilərə oxşar şəkildə "körpü atır". Bu baxımdan, Qəznəlilər haqqında oğuznaməni Yabğuxanlar haqqında oğuznaməyə bağlamaq mümkündür. Bunun əksinə olaraq, sözügedən oğuznamə Oğuz elinin süqutu haqqında oğuznamə ilə uzlaşmır.

Qəznəlilər haqqında oğuznamənin Oğuz elinin tarixindən bəhs edən oğuznamələr silsiləsində öz yerini tapmaması onun oğuznamələr silsiləsinin başqa variantından götürülərək mətnə daxil edilməsi şəklində də izah oluna bilər. Əgər belə deyilsə, onda başqa dövlətlərin də Kayı soyundan olması haqqında müstəqil oğuznamələr olmuşdur.

Qəznəlilər haqqında oğuznamə Əbülqazini əməlli-başlı çaş-baş vəziyyətinə salmışdır. Əli xanın ölümündən sonra Oğuz elinin dağılmasından bəhs edən Əbülqazi oğuz tarixini Sərəngə qədər uzatmaq məcburiyyətində qalmışdır. Burada Sərəng soyu Kayı qəbiləsinin mənsubu kimi təqdim olunan Toqurmuş soyuna bağlanır. Toğruldan sonra hakimiyyətə qardaşı Arslan gəlir. Arslandan (– Asılzadə – Arslan -) Kökəm Bakuya qədər hakimiyyət "atadan oğula" prinsipi ilə davam edir. Ardınca Kökəm Bakuy ilə qardaşı Sərəng haqqında oğuznamənin xülasəsi verilir. Bu oğuznamə Rəşidəddində olduğu kimi, Sərəngin, yəni qəznəlilərin hakimiyyətə gəlişi ilə tamamlanır (10, 69). Əbülqazi qəznəli və səlcuqlu tarixinə dair çoxlu əsərlər yazılmasına əsaslanıb, onların haqqında məlumat vermir. O, Oğuz elinin Sərəngdən sonra müstəqilliyini saxlaya bilməməsini vurğulayır (10, 70).

Beləliklə, Rəşidəddin mətnində Oğuz elinin dağılması haqqında qeydlərin mətnin sonuna keçirilməsi Qəznəlilər haqqında oğuznamənin araya salınması ilə bağlıdır. Bu baxımdan, Əbülqazi mətni şifahi ənənəni əks etdirir.

Hər hansı bir şəkildə təqdim olunmasından asılı olmayaraq, Oğuz elinin etnosiyasi tarixi haqqında oğuznamələr silsiləsi Oğuz elinin süqutu haqqında oğuznamə ilə başa çatır. Deməli, Rəşidəddinin istifadə etdiyi oğuznamələr silsiləsində başlanğıcından sonuna qədər oğuz tarixi tərənnüm olunur. Qəznəlilər haqqında oğuznaməni də saysaq, Rəşidəddinin istifadə etdiyi oğuznamələr aşağıdakılardan ibarətdir:

1. Yabğuxanlar haqqında oğuznamə
2. Qaraxanlılar soyu və buğraxanlar haqqında oğuznamə
3. Oyunak soyu və Qara Arslan xan haqqında oğuznamə
4. Barani soyu və Oğuz elinin süqutu haqqında oğuznamə
5. Sərəng soyu və qəznəlilər haqqında oğuznamə

Birinci oğuznamə Oğuz elinin müstəqillik dövründən, ikinci və ehtimal ki, üçüncü oğuznamə etnik tarixin qaraxanlılar dövründən bəhs edir. Dördüncü oğuznamədə Oğuz elinin süqutu təsvir olunur. Oğuznamə silsiləsinin epik strukturundan kənarda qalan beşinci oğuznamə qəznəlilər sülaləsinin oğuz mənşəyindən söz açır. Bu oğuznamənin etnik tarixin qəznəlilər dövrünü əks etdirməsini də düşünmək olar.

## ƏDƏBİYYAT

1. «Бартольду В.В.», Ташкент, 1927
2. Бикбулатов Н.В. Минорат. Проблема происхождения и исторического места в системе социальных институтов, – Этнография Башкирии, Уфа, 1976
3. Бикбулатов Н.В. Башкирская система родства, М., 1987



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Бромлей Ю.В. Ф.Энгельс и проблемы архаической формы семейной общины, – Проблемы этнографии и антропологии б свете научного наследия Ф.Энгельса, М., 1972
5. Фадеева И.Л. Официальные доктрины в идеологии и политике Османской империи (XIX –XX в), М., 1985
6. Герасимова К.М. Традиционные верования тибетцев в культовой системе ламаизма, Новосибирск, 1989
7. Гумилев Л.Н. Удельно-лествицная система у тюрок в VI-VII веках, – Советская Этнография, 1959, №3
8. Гумилев Л.Н. Тысячелетия вокруг Каспия, Баку, 1991
9. Гумилев Л.Н. Хунны, Спб., 1993
10. Кононов А. Н. Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского, М.- Л., 1958
11. Köymen M. Büyük Selçuklu imparatorluğu tarihi, c.1, Ankara, 1989
12. Путилов Б.Н. Героический эпос и действительность, Л., 1968
13. Путилов Б.Н Методология сравнительно-исторического изучения фольклора. Л., 1976
14. Рашид-Ад-Дин Ф. Огуз-Наме, Баку, 1987
15. Togan Z. V. Oğuz destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili, 2 baskı, İstanbul, 1982
16. Sümer F. Oğuzlar (türkmenler), III baskı, İstanbul, 1980
17. Йомудский Караш-хан оглы Н.Н. Из народного предания туркмен. О родословной туркмен-йомудов, – «Бартольду В.В», Ташкент, 1927
18. Золотарев А.М. Родовой строй и первобытная мифология, М., 1964

## РЕЗЮМЕ

В статье выявляется структура «Огузнаме», описанного в произведении «Джами ат-таварих». Выясняется, что текст Рашидаддина составлен на основе 6-и огузнаме. Одно из них о жизни и деяниях Огуза, основателя огузского иля. 4 огузнаме посвящены истории огузского иля. 1 огузнаме (о газневидах) не входит в структуру огузнаме, посвященной истории огузского иля.

## SUMMARY

The structure of "Oghuzname", described in the work «Jami at-tavarikh», is revealed in the article. It is found out that the Rashidaddin's text is composed on the basis of 6 oghuznames. One of them is about a life and acts of Oghuz, the founder of Oghuz il. 4 oghuznames are devoted to history of Oghuz il. 1 oghuzname (about Ghaznavids) is outside of Oghuzname structure, devoted to history of Oghuz il.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRK FOLKLORUNDA MIFIK SÜD SIMVOLUNUN KOSMOLOJI SEMANTIKASI

***Əli Kərimbəyli***
***AMEA Folklor Institutu***
***Azərbaycan***

**Giriş**

Azərbaycan şifahi xalq ədəbiyyatı özlüyündə ümumturk bədii söz (1) sənəti kontekstində bu estetik-fəlsəfi irsin özünəməxsus palitrasıdır desək, məncə yanılmarıq.Azərbaycan bədii-şifahi söz sənətkarlığı elə böyük söz, motiv, janr, işarə və simvol zənginliyinə malikdir ki, hər hansı bir nağıl və ya dastandan bir kəlməni, ifadəni, söz və ya deyimi mifik məntiqin semantikasından düşüncə obyektinə çevirsək, cild-cild kitablara mövzu verəcəkdir. Məsələn, mifik süd simvolu kimi.

Mifik simvollar sistemində dağ, ağac, od, hava, su, dəmir və s.təbiət hadisələri və cismləri, ana, ata, qadın, qız, kahin, şaman, xan, hökmüdar və s. Sosial mühiti təmsil edən surətlər; inək, At, şir, qoyun, canavar, dəvə, ilan, qarğa, göyərçin, Simurq, heyvanlar və quşlar; allahlar və ilahlar panteonuna məxsus sakral obrazlar və göy, yer, xaos, planetlər və s. kainat obrazları; su, süd, çörək, silah, qan, bitki, çiçək, ayrı-ayrı yemək növləri, şəfa bitkiləri, ərzaq məhsulları və s. natural-məişət münasibətləri, əşyaları, motivləri mifik situasiyalardan, durumdan asılı olaraq bəzən simvolik-rəmzi mənalar və məna bənzərlikləri, çalarları ifadə edir, bəzən saklarlaşır,adi həyat-məişət mənası ifadə etməkdən uzaqlaşır, simvolik məna yükümünə mifik ünsürlər daşıyır, bədii-estetik məzmun ifadə edir, bəzən insan təxəyüllünü mövhumi, əfsanəvi obrazlar qalereyasina döndərir.

Bütün bu maraqlı, ecazkar qəribəlikləri işarələyən, rəmzləşdirilən mifopoetik obrazlardan biri də Süd simvoludur (2,32). Baxmayaraq ki, Süd mifik obraz olaraq müstəqil ədəbi-bədii motiv mühütü yaradır, mifik durumlardan asılı olaraq ifadə etdiyi mənalara görə dəyişir, çalardan-çalara keçir, bütün hallarda göbəyi kəsilməyən çağa kimi Ana obrazına baglanır.

Həm türk mifoloji ənənəsində, həm də dunya xalqlarının mifoloji dünyagörüşündə Ana obrazının təmsil etdiyi mənanın motivi xeyri ifadə edir. Bununla yanaşı, xeyir motivinə rəğmən ana obrazı dəyişir, şəri də təcəssüm etdirir. Maraqlıdır ki, mifopoetik Süd obrazı yalnız mifik xeyir motivini təmsil edir, bolluğu, bərəkəti, sağlamlığı təcəssüm edir. Bu nəzəri düşüncənin saysız - hesabsız misallarına Azərbaycan şifahi ədəbiyyatinda – nağil və dastanlarımızda rast gəlinir.

Mifik ana obrazı ilə irsi əlaqədə zühur edən süd simvolikası mifik həyatın mərkəzində durmaqla dialektik təkamülü təxəyyülün ən dərin qatlarına qədər yaşayır, şişir, böyüyür, mifik aurasına sığmır və öncə əhilləşdirilmiş heyvan südünə daha sonra simvolik mənalanma əhilləşməyən vəhşi heyvan südünə bütün çalarları və bənzərlikləri ilə transformasiya edilmişdir. Bu səbəbdən türk mifik simvolları və işarələri bədii idrak konstruksiyasının estetik strukturunu zəngin inkişaf mərhələsinə qədər gətirmiş, qədim türkün etnogenetik yaddaşı, ağlı və təxəyyülünə orjinal estetizm və yüksək təfəkkür əsasları üzərində qurulmuş bir fərqlilik gətirmişdir.

Məhz bu səbəbdən mifoloji görüşlər sistemində özünə xas yeri olan süd rəmzi yeraltı-yerüstü mif dəryasının mayakı kimi diqqətimi cəlb edir.

Mövzunu folklorşünaslıq baxımından aktual edən ən mühüm səbəb budur ki, bu mövzu – süd simvolikası mövzusu ilk dəfədir ki, təhlilə cəlb edilir, folklorşünaslıq parametrləri ilə türk folklorunda mifik süd simvolikası nəzəri-tənqidi düşüncənin yeniliyi, movzu ilə bağlı olaraq Azərbaycan, türk, rus, Cənubi Azərbaycan (İran), Orta Asiya xalqlarının folklor nəzəriyyəsində elmi-ədəbi mənbənin olmaması təbii ki, özünəməxsus mənbə çətinlikləri yaratmaqdadır. Etiraf etməliyəm ki, AMEA Folklor İnstitutunda hökm sürən işgüzar elmi şərait, tədqiqatçı alimlərimizin öz iş yoldaşlarına səmimi, mehriban, dostluq münasibətləri, həvəslə, təmənnasız yardıma təşəbbüs etmələri, qarşılıqlı hörmət göstərmələri, ziyalılıq, xeyirxah elmi məsləhətləri ilə müəllifi gerçəkdən ürəkləndirir, süd simvolikası mövzusunu uğurla yazacağına əminlik yaradır, məmnunluq hissi gətirir.

Dastan və nağıllarımızda rast gəlinən süd simvolikası natural durumundakı biokimyəvi və biofizioloji tibbi təsirdən kontekstdə daha dərin mifik məna kəsb etməklə astroloji mistik məzmun ifadə edir. Bu mifologem-simvol bir çox hallarda süjetin ya tam baş ucunda yerləşir-1; ya sadəcə hardasa əvvəlində gəlir-2; ya da süjetin ciddi keçid mərhələsini təşkil edir-3. Yəni mövzunun və süjetin harasında-1-ci, 2-ci, 3-cü mövqeyindən asılı olmayaraq, bütün hallarda mütləq bolluğu, xoş mənəvi iqlimi, xoşbəxt həyatı, taleyi simvollaşdırır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bədii-epik şüura süd simvolu və məna bənzərlikləri bütün sivilizasiyalar tarixi ərzində təsir etmişdir.Biz bu simvolun mifik arxitektonik təkamülünü vizual dövrləşmə üzrə müşahidə etdikdə, zaman dəyişkənliyi ilə paralel simvolik mənaların əlavələşməsini və artmasını görürük.

Ana südünün əhilləşən heyvanlara, əhilləşən heyvanlardan – o cümlədən, quşlara, xtonik personajlara, şər qüvvələrə, demonik mövcudata və nəhayət, eşq dastanlarına – süd halallığı istənilən səhnəyə qədər inkişafı, təbii ki, yüz min illəri əhatə edir. Heç şübhəsiz, yüz min illəri əhatə etdiyi zaman mərhələsindən günümüzə qədər yaşayan bədii mətn genetik yaddaşını süd və qanla(4) "qidalandırmış", tarixi faciələri mifik obrazların vasitəsilə mübaliğə və istiarə etmiş, günümüzə zəngin mifik sistem gətirmişdir. Südün və Qanın genetik kodları ötürən bir biosferik və biofizioloji vasitə olduğunu nəzərə alsaq, türk insanının genetik ağlının, hansı tarixi-mifik qaynaqlardan gəldiyini isti dumanlıqlar arasından sezə bilərik. Həmçinin, unutmayaq ki, süd qanın alternatividir. Əslində, süd qanın cövhəridir. Demək, irsi yaddaş qanla nə qədər gəlirsə, südlə də bir o qədər gəlir, amma, cövhər deyiriksə, o zaman süd də irsi yaddaşı bir o qədər ötürür və ehtiva edir.

**Dədə Qorqudda süd mifi**

Süd simvolu dastan və nağıllarımızda süjetin keçid mərhələsinin vacib komponenti rolu oynadığı bütün epizodlarda süjet quruluşunun dəyişməsi, təkmilləşməsi, mükəmməlləşməsində həlledici, fəal, təsirli, həyəcanlı işarəyə çevrilir.

"Kitabi-Dədə Qorqud" oğuznamələrindən "Dirsə xan..." boyunda qara vicdanlı nökərlərin fitnə-feli ilə Buğac atası Dirsə xan tərəfindən ölümcül yara aldığı zaman atdan yıxılır, qan içində bayılır, bu an Xızır peyğəmbər at üstündə zühur edir. Xızır peyğəmbər yaralı Buğaca deyir ki, ana südü, dağ çıçəyi sənin məlhəmindi: "Başın qaldırdı yılabudaq, gözün açdı, anasının yüzünə baqdı, soylamış gözəlim, xanım, nə soylamış.

Aydır:

- Bəri gəlgil ağ südün əmdiyim, qadınım ana. Ağbirçəklü, izzətlü, canım ana."Aqar" ayıda qarğamağıl. Qazlıq tağının suyunun günahı yoqdır.

... Qarğarsan, babama qarğa. Bu suç, bu günah babamdandır, dedi.

Oğlan yenə aydır:

Ana ağlamağıl, mana bu yaradan ölüm yoqdır.Qorxmağıl. Boz atlı Xızır mana gəldi, üç kərrə yaramı sığadı, " bu yaradan sana ölüm yoqdır. Tağ çiçəyi, ana südü sənə məlhəmdir, "- dedi.

- Böylə digəc qırk incə qız yayıldılar, tağ çıçəyi döşürdülər. Oğlanın anası əmcəyin bir sıqdı, südü gəlmədi, iki sıqdı, südü gəlmədi, üçüncüdə kənduyə zərb eylədi, qan toldu. Sıqdı, südlə qan qarışıq gəldi. Tağ çıçəyı, ana südi oğlanın yarasına vurdular." (5)

Dastan mətnindən aldığımız emosional informasiyadan məlum olur ki, dağ çiçəyi və ana südü Buğacı aldığı ağır yaradan xilas edəcəkdir. Ana südü və dağ çiçəyi şəfavericilik, xilaskarlıq keyfiyyətinə malikdir.Ana Xızır peyğəmbərdən gələn mifik şəfa reseptinin bir komponentinin – ana südü – onun özündə olduğunu dərhal qəbul edir. Bu informasiyanı ananın təfərrüatsız, izahatsız qəbul etməsi onu göstərir ki, südə bəslənilən sakral təsəvvurlər anaya məlum imiş. Fəqət, bu informasiya yalnız seçilmişlərdən olan pir, övliya, kahin, şaman, peyğəmbər tərəfindən deyildikdə müqəddəslik məzmunu kəsb edir, sakrallaşır. Biz yuxarıda südlə qanın bir-birinin alternativi olmasını qeyd etmişdik. Kontekstə fikir verin; "...südlə qan toldu", "sıxdı, südlə qan qarışıq gəldi." Südlə qan natural duruma görə eritrositlə fərqlənir, südə qırmızı qan hissəcikləri - eritrositi əlavə etsək, süd qan rəngi alacaqdır. Südün qanla bərabər gəlməsi və ana obrazı vasitəsilə gerçəkləşməsi, südün və qanın mifopoetik simvol olduğuna dəlalət edir. Südün və Qanın mifik simvol olduğunu isbatlayan daha mühüm amil mifik reseptin bilavasitə Xızır peyğəmbər tərəfindən deyilməsidir. Çünki mifik ənənədən bəllidir ki, Xızır peyğəmbər özü dastan poetikasnda ölməzliyi təcəssüm edən mifik obrazdır. Demək, şəfa dərmanı ona görə sakral məzmun ifadə edir ki, onu Xızır peyğəmbər sğyləmişdir. Südə və qana Xızır peyğəmbər mifik aurasını əlavə etməsəydi, natural durumda süd və qan sakrallaşmazdı.

Bizə elə gəlir ki, Xızır peyğəmbərin zühur etməsi şəfa resepti haqqında informasiya verməsi ona mifik hami ruh dəyəri qazandırır və etnogenetik kodun rəmzi mənasında Türk gəncliyinin ölməzliyini, əbədiyaşararlığını simvolizə etməyi işarələyir.

Süd su kultu, stixiyası ilə əlaqədardır. Su stixiyası isə xaosla əlaqədardır, yəni su stixiyası öz mifik maddi-yaradıcı başlanğıcını xaosdan alır. Xaosun dual xarakterli məzmun ifadə etməsini təbii ki, mifoloqlar, folklorşünas alimlər yaxşı bilir. Deməli, süd, maddi qaynağını Su stixiyasından alırsa, xaosdan gələn ikili başlanğıcdan birini – mənəvi – ruhi aura mənbəyini dual xaosdan alır. Görürük ki, süd həm maddi, həm də mənəvi, substansiyanı ehtiva edir. Süd fəlsəfi məntiqə görə dualdır. Məncə, südün mifopoetik fəlsəfi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məzmununda çoxşaxəli gəlişmiş xətləri və əsatir laylarını arxitektonik ayrıntılara bölsək, daha dərin əsatir inancının rasional nüvəsində mıfık-metoforık informasiya daşıyıcısı tarıxı Dədə Qorqudun özüdür. Xızır peyğəmbər şəfa informasiyasını şəxsən Dədə Qörqudun özünə demiş, südün tərkibində mövcud olan sehrli, sirli, mistik yaşam ideyasının bioenergetik kodunun rəmzləşmiş sirrini Dədə Qorquda söyləmişdir.

Tarixi Dədə Qorqudla mifik Xızır peyğəmbərin görüşə bilməsi ehtimalını gücləndirən ən mühüm əlamət, işarə dastanın özündədir. “Nə dersə olurdu. Qyibdən dürlü xəbər söylərdi. Haqq Təala onun könlünə ilham edərdi.” (6). “ Qayibdən dürlü xəbər söyləmək”, “...könlünə ilham vermək”, “ oğuzun tamam bilicisi olmaq” – bu əlamətlər “peyğəmbərlik əlamətləridir. Könlünə ilham etmək – vəhy verilmək anlamına gəlir.” “ Qurani Kərim”dən bilirik ki, Məhəmməd peyğəmbərə (s.ə.x.) vəhyi həzrəti Cəbrayıl verirdi. Həzrəti Cəbrayıl Allahla Məhəmməd peyğəmbər arasında rabitə qurur, allahın tapşırıqlarını hz. Məhəmmədə catdırırdı. Eyni qayda ilə Xızır peyğəmbər Tanrı ilə Dədə Qorqud arasında rabitə qura bilər, qeybdən-kosmoloji informasiyanı verə bilərdi. Makrokosmun sirli, mübhəm kod işarələrini, bu işarələrin qayibanə hikmətlərini Dədə Qorquda ötürər, açardı. Oğuzun tamam bilicisi olan Dədə Qorqud süd simvolikasını Xızırın adından Buğaca vermişdir. Dədə Qorqudun Buğaca verdiyi süd haqqında sirli-mistik informasiya, aşıq yaradıcılığının sonrakı təkamülündə yeni astral məzmunu ifadə edəcək, butalaşacaqdır. Dədə Qorqudun ana südünün magik energetikasi haqqında informasiyası, Buğacın məlumatlandırılmasına reaksiya sosial-tarixi epoxanın vacib komponenti olaraq, bu cümlə ilə diqqəti cəlb edir. “Böylə digəc qırx incə qız yayıldılar, tağ çiçəyi döşürdülər.” Qırx rəqəminin sakral məzmuna malik olduğunu bilirik, burada başqa məqamdan maraqlı cəhət budur kı, qırx rəqəmi qızlara aiddir.Çıçək yığmağa gedən qızların sayının sakral rəqəmlə ifadəsi bir tərəfdən qızların simvollaşmasını izah edir, digər tərəfdən mistik ritualların, kahinlik və şamanlığın tarixin ilk mərhələsində qadınlar tərəfindən (7) ənənəvi olaraq icra edilməsini göstərən bədii-mifoloji sübutdur. Heç şübhəsiz bu, əsatırın metoforik obrazlarda ana şahlığı dövründə formalaşan elmi-bədii təfəkkürün bizə Dədə Qorqud vasitəsilə çatmış izləridir. Göründüyü kimi on minlərlə il bundan əvvəl süddə var olan dirilik və canlılıq xassəsi mifopoetik obrazlaşmaya ibtidai təxəyyüldə mincər edilmişdir. Başqa sözlə, elmi fikir obrazlaşma prosesinə daxil olmuşdur.

Ana şahlığı epoxasından günümüzə bədii istiarələrlə daşınmış mifopoetik Süd simvolikası sosial zəmində kiçik bir ünsür olsa belə, türkün ana şahlığı dövrünü kamil bir səviyyədə keçməsini işarələyir. İrəli sürdüyümüz bu ideyanın davamına digər oğuznamələrdə, nağıl və dastanlarımızda rast gələcəyik.

İngilis filosofu R.Briffolt “ Analar” monoqrafiyasında ( R.Briffoult. The Mothers. London, 1927.) qədim xalqların astral-magik görüşlərini araşdırarkən belə bir nəticəyə gəlmişdir ki, tilsim, sehrbazliq, cadugərlik və kahinlik bilavasitə ana ilə, qadın ilə əlaqədar olmuşdur. Falçı, sehrbaz, cadufər, büyücü, kahin, şaman vəzifələrini bir qayda olaraq qadınlar icra etmişlər. Bu qadınlar nəsildən-nəslə ötürməklə otlar, çıçəklər, bitkilər, meyvələr, yarpaqlar vasitəsilə bədəndəki yaraları, ruhi-əsəb xəstəliklərini müalicə etmək qabiliyyətinə malik olmuşlar. Bitkilərin şəfavericilik xassələrini Brifflta görə, ilkin olaraq qadınlar bilirmiş, sonrakı minnilliklər zamanı kişilər bu vəzifəni icra etməyin sirlərini qadınlardan zorla almışlar.(8).

Briffoltun gəldiyi bu ideya nəzəri işıqda “qırx incə qızın çıçək döşürməsi” faktına baxsaq, bir tərəfdən ana və qırx ıncə qız paralelinin tarixi gerçəklik olduğunu görürük, digər tərəfdən “ Dirsə xan...” oğuznaməsində verilən bu kiçik əsatir epizodu vasitəsilə Dədə Qorqud hətta ana şahlığı dövründən min illər öncənin sosial-psixoloji mühütün cox vacib etnoqrafik informasiyasını bizə çatdırmışdır.Bizcə, bu informasiya Nuh tufanı – Dünya Sehrindən əvvəlki sivilizasiyanın mədəniyyət kompleksindən qoparılmış bır tarixi gerçəklıkdir. Artıq gerçək tarixi həqiqətın mahiyyətində qadın kultunun sakrallaşmasını, mifik simvollaşmasını şərtləşdirən səbəblərdən birini beləcə görürük.(9).

“Kitabi Dədə Qorqud ”da sıralanan oğuznamələrdən biri də “ Duxa Qoca oğlu Dəli Domrul boyunu bəyan edər, xanım hey! ”-dir. Bu oğuznamədə Əzrayıla can vermək istəməyən Dəli Domrul öz yerinə anasından canını verməsini xahiş edəndə, qəribədir ki, anası etiraz edir.Bu zaman anası süd əmizdirmək məsələsini xüsusi vurğulayır. Bizə elə gəlir ki, ana burada oğluna süd verməsini xatırlatmaqla Dəlı Domrula ən qiymətli şey olan südünü verdiyini anlatmaq istəmişdir, yəni, süd vermək can vermək qədər müqəddəs, qiymətli, dəyərlidir. Anaya görə süd vermək ana tərəfindən ilahi borcu ödəməkdir. Bu ilahi borc burada birmənalı şəkildə diaxronik semantikalı, sakraldır.(10).

“Duxa Qoca oğlu...” oğuznaməsinin məlum epizodunda ana həm bioloji funksiyaları – “ doqquz ay dar qarnımda gəzdirdiyim”, “ gözəl beşiklərdə bələdiyim”, “ on aya kecəndə dunya üzünə gətirdiyim” həm astral – kosmoloji funksiyaları – “ tolap-tolap ( dolu, doyunca süd vermək – Ə.K.) aq südimi əmizdirdim”- deməklə, analıq borcunun başa çatdiğini, tükəndiyini göstərir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu parçada " ağ süd" ifadəsi diqqət çəkir. Burada ağ – leksem, südün rəng əlamətinin əlaməti və ya təşbeh deyil. Dəli Domrulun anası " südümü əmizdirdim" deyə bilərdi, o zaman süd, sakral məna ifadə etməz, daha çox natural-bioloji konkretliyi əks etdirmiş olardı. Yəni " südümü yermişəm", deyərdi. Amma Dədə Qorqudun qeybdən aldığı informasiyada ağ-mifik koddur. Ağ -parlayan günəş şüasına işarədir, ( məsələn, ağ süd ağ çay, ağ gecə, ağ duman, ağ gül, ağ adam, ağ at və s.). Ağ obrazı metoforik məntiqinə görə südə aid edildikdə südün sakrallığı işarələnır, əsatir şüurunu əxz etmış olur. Sanki süd dedikdə sadə süddən, ağ süd dedikdə mifik-kosmoloji rəmzi məna kəsb edən süddən danışılır. Ağ süd natural durumda qanın candakı ağ rəngli alternatividir. Bu mənada natural-bioloji qana " qızıl qan" və ya " qırmızı qan" dedikdə, o da sakrallaşır, mifik semantikasında əsatiri rəmzi mənalandırır. Süd kimi Qan da mifik simvoldur. Buğacın yarasının təmiz süddə deyil, qan qarışıq süddə müalicə edilməsi hər iki simvolun folklorda paralel mifoloqem olaraq, məzmununda eyni sakral semantikanı ifadə etməsindədir.

Bir başqa məqamda ana südü ilə bağlı olaraq ana haqqı barədə bədii-metoforik fakt da diqqəti çəkir. Sanki ana haqqı-ana südü ilə mifik paralel təşkil edir. Ana südü anaya – qadına müqəddəslik havası, ovqatı, rəmzi gətirir. Bu mənada " Uşun Qoca oğlu Səgrək..." oğuznaməsində (11) bir epizoda baxaq. Məchul bir şəraitdə hələ kiçik olduğu zamanlarda düşmən qüvvələr Səgrəyin qardaşını əsir götürmüşlər. Bu əhvalatı Səgrəkdən gizli tutmuşlar. Səgrək bu hadisənin ondan gizli saxlanmasını eşidəndə əsəbləşir, özündən çıxır, anası ılə çox sərt danışır: " Qardaşsız Oğuzda dursam olmaz! Ana haqqı Tanrı haqqı olmasaydı.

... Ana, zalım ana!"(12).

Dədə Qorqudun öğuznamələrində ana südü bir obraz kimi epizodik rola malik olsa da, ayrı-ayrı mifik-semantik fikir və düşüncələri təcəssüm etdirir. Artıq bildiyimiz " Dirsə xan..." boyunda ana südünün dərman, şəfaverici magik rolunu, " Duxa qoca oğlu... " boyunda ana-oğul münasibətində ağ süd-ilahi borc paralelində ifadə edilən kosmoloji informasiyanı, " Uşun Qoca oğlu Səgrək..." boyunda ana haqqının – Tanrı haqqı rolu həm birlikdə, həm də ayrılıqda mifik-fəlsəfi düşüncəni araşdırmaq üçün geniş elmi material verməkdədir;

1. " Dırsə xan ..."-da -süd, magik dərman;
2. " Duxa xan..."-da süd, ilahi borc;
3. " Uşun Qoca..."-da - süd, Tanrı haqqı; - gördüyümüz kimi mifopoetik süd müşahidə etdiyimiz 3 oğuznamədə müxtəlif mənaları simvolızə etməklə simvollar müstəvisi üzərində qurulacaq sistemə yol açır. Süd simvolunun çoxplanlı, çoxmənalı çalarlarla mənalanması türk kosmoloji düşüncəsini anlamaq, dərk etmək baxımından arqumentləşir, mifik dəlillər verir.

Dədə Qorqudun ana südünə verdiyi məna-bənzərlik düzümü simvolık strukturda göstərir. Mifik strukturu bir əsatir ağacı kimi təsəvvür etsək, bütün simvollar mifik məntiqin arqumentləri olaraq, o ağacin əbədiyaşıl yarpaqlarıdır.

Dədə Qorqudun təqdim etdiyi "ana südü-dağ çıçəyi" səhnəsində Xızır peyğəmbər türk insanının hami ruhu, xilasedici mələk obrazındadır.Ana Xızırdan gələn informasiyaya tam əminlik, arxayınlıqla inanır. Amma çoz təəssüf ki, qorqudşünas alimlərimiz Dədə Qorqud obrazına aşıq-ozan deyib durmaqla Qorqud obrazını məhdudldşdırmış, Dədə Qorquda gedən yolları sıxıb azaltmış, enindən və uzunundan kəsmiş, Dədə Qorqud şəxsiyyətini layiq olduğundan xeylı kiçiltmişlər. Burada islam faktorunun təsiri, türk etnik düşüncəsinətəzyiq etməsi danılmazdır. Kosmoqonik kodlara diqqətli olduqda Dədə Qorqudun məhz özünün mifik simvollar, ideyalar mücəssəməsi olduğu görünür. Yalnız bir epizodda – Buğac epizodunda o Xızır peyğəmbəri ön plana çıxartmışdır. Digər oğuznamələrdə Xızır görünmür, o özü hadisələrin mərkəzindədir. Özü olmadığı yerdə həmişə Dədə Qorqudun ideya-strateyi istiqamətləri yönündən hadisələr səmtlənir.

Dədə Qorqudun ana südünün kod mənalarını açdığı epizodlarda biz bu fikrin isbatını görürük. Buğac üçün "yazılan" mifik reseptin komponentlərini də deyən Dədə Qorqud özüdür, ancaq Xıızırın obrazında. Dədə Qorqud Türk qəbilələrinin yaşadığı bütün ərazilərdə, istər Qazılıqda, istər Qıpçaq –qazaxlarda, istərsə türkmənlərdə_ böhranlı anlarda xühur edir, kritik durumlardan çıxmaq yollarını qeybdən söyləyir, çəkilib gedir, Dədə Qorqudu bizim anladığımız aşıq-ozanla deyil, bizim anladığımız peyğəmbərlə müqayisə etmək lazımdır. Əslində Dədə Qorqud peyğəmbərdir. Əgər " Tanrı onun qəlbinə ilham edərdisə, qayıbdan dürlü xəbərlər verərədisə" – bu Dədə Qorqudun peyğəmbər və ya vergili olduğunu sübut edən əlamətdir.

Dədə Qorqud mifikləşmiş tarixi şəxsiyyətdir. Əgər nəzərə alsaq ki, tarixi şəxsiyyətin mifikləşmə prosesi ən azı 300 il gedir. Mifik məntiqin gücü ilə Dədə Qorqud Məhəmməd əleyhissəlam zamanında ən azı 250-300 il qabaq, yəni, təxminən III-IV əsrlərdə yaşamışdır.

Dədə Qorqud xeyirxah hami obrazdır. Oğuz türklərinə tanışdır. Ona görə də ana şəfa ideyasını eşitcək sorğusuz-sualsız oğlunu qeyri-adi müalicə yolu ilə xilas etməyə hərəkətə keçdi." Xızır bana gəldi" –



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ifadəsində keçən Xızır adi mifik parolun adıdır. Sakral məntiqə işarədir. Müqəddəslik ruhunu rəmzi olaraq əks etdirir. Dədə Qorqud - Xızır, Xızır - Dədə Qorqud paraleli qarşılıqlı mifik əlaqədə, rabitədədir. Dədə Qorqud tamam Oğuzun bilicisi, çətinə düşəndə həm maddi, həm mənəvi yardımlarda bulunan xilaskar hamidir, Xızır isə türk dünyasının – oğuz, qıpçaq, karluk və sairin xilaskar hami ruhudur. Yəni Dədə Qorqudun, Xızırın qlobal müqəddəslik ideyasını təcəssüm etdirdikləri Buğacın anasına tanışdır. O səbəbdən yaşın ahıl vaxtında döşündə süd axtarır, qan qarışıq süd alır. Burada hadisənin özü də simvolikdir, Xızır və Dədə Qorqud da mifik məntiqi simvolizə edir. Biz Dədə Qorqud obrazını Qam, Şaman, Ozan, Aşıq, Dədə və s. adlandırdığımızdan asılı olmayaraq o təmsil etdiyi müqəddəs və ülvi, səmavi və qüdsi ideyaların mənalarında ifadə edilən kosmoloji çalarlara, bənzərliklərə görə bütün adların fövqündə dayanır. Oğuzun bütün eli, elatı o kişinin məhz belə dəyərləri ifadə etdiyini bilirmiş. Ana və Buğacın Xızıra inamı Dədə Qorqudun yüz illik təlim və təbliğindən irəli gəlir. Bir sözlə, Dədə Qorqud oğuzun tam qanuni mənəvi atasıdır. Hər halda, mifik təxəyyülün dinamikası, dialektik məntiqi bunu təlqin edir. Burada formal məntiqin qanunları bizi sapdırar, fəqət biz təxəyyülün dialektik obrazlar sırasına idraki məntiqin təfəkkür qanunları ilə baxmağa çalışırıq. Məlhəm haqqında Buğacdan alınmış informasiya ananın emosional durumunu dərhal dəyişir. Demək, informasiya ilk mənbədən qidalanır. Ana bunu beləcə də idrak edir.

Başqa bir məqamdan yanaşıldıqda, bizə elə gəlir ki, Dədə Qorqud Buğac obrazı vasitəsilə bir yandan Türkün hami xilaskar ruhunu təcəssüm etdirən Xızır peyğəmbərdən Oğuz türkləri üçün əbədi həyat qazantı almışdır. O bunu vurğulayır. Digər yandan Türkün qanında və südündə əbədi həyatın, magik energetikasının gizli, məxfi kodlarının mövcudluğuna işarə vurmaqdadır. Mifoloji simvollar sırasında Südün Su stixiyası ilə bağlılığı bəllidir. Demək, Su stixiyasında təcəlla edən kosmoqonik kodlar Südə transfer edilmişdir. Başqa tərəfdən Su stixayasının xaosdan qaynaqlandığını da xatırlasaq və buradan alınmış bilgiləri, rəmzləri, işarələri, kodları Su vasitəsilə Südə müncər etsək, ana südünün zəngin simvolik müstəvisində bir mifik sistemin yerləşdiyini görürük. Mifoloji simvollar sisteminin Ana südünə yerləşməsi ana südünə super simvol dəyəri qazandırır. Bu sistemə qan yaddaşı qədər Süd yaddaşını da əlavə etməklə genetik kodu da bu sistemdə görürük. ( qan və süd).

Hami ruh obrazı kimi tanıdığımız Xızırın xeyixahlıq missiyası çoxşaxəli, mürəkkəbdir. İki ifadə “ ana südü və dağ çıçəyi” ifadəsi Xizirin mifik zənginliyinin açarıdır. Xızır Nuh oğlu Yafəsin mifik varisidir. Bu mənada Xızır mifik təxəyyülün daha qədim inkişaf mərhələsini təmsil edir, yəni Xızır minilliklərin o tayından gələn əsatiri simvolları təcəssüm edən obrazdır. Xızr seçılmışlərdəndir. Dədə Qorqud isə vergili peyğəmbərdir. Oğuzun tam bilicisi olması, qeybdən xəbərlər keçməi onun vergili peyğəmbər olmasına dəlalət edir. Ana südü – dağ çıçəyi Xızırın dilindən kosmoqonik kod kimi gəlirsə, Dədə Qorqud bu kodu açır. Oğuz türklərinin, dolayısıyla bəşəriyyətin malı edir. Oğuznamələrə bəşəri dəyər qazandıran ünsürlərdən biri də Ana südü, dağ çıçəyi mifologemidir.

Dədə Qorqudun türk şüuruna gətirdiyi mifoloji sistem mifik inkişafın b.e.əvvəlki sonuncu minilliyin yekunudur. Dədə Qorqudun kitabdan bizə gəlib çatan mifoloji sistemində türkün məlumatlı olub-olmasından asılı olmayaraq, mifopoetik Ana südü bir sıra mifik funksiyalarla yükümlüdür;

1. Ana südü – şəfa simvoludur;
2. Ana südü – mistik simvoldur;
3. Ana südü – mifik auralı simvoldur;
4. Ana südü – hərəkətli ( transferli) simvoldur;
5. Ana südü – super simvoldur.

Əyəsi Humay Ana olan Ayzit (Ay-süt) Süd gölünün timsalında Ana südü Türk Mifoloji təxəyyülündə qurulan, zaman-zaman təkmilləşən mifik həyat ağacının qızıl meyvəsidir.

Ana südü gördüyümüz kimi bir cəhətdən realdır, başqa bir cəhətdən idealdır. Real durumunda mistik şəfaverəndir, ideal durumunda isə mifik auralı energetik gücü ifadə edəndir. Demək, Xızırın Buğaca himayədarlıq etməsi, onu həm mifik aura ilə, həm də mistik şəfa mühütü ilə əhatə etməsi, onunla ölüm arasında bir astral ayla qurması, Buğacı müalicə etməsi, Buğacın timsalında türk gəncliyinin müqəddəs real və müqəddəs ideal qanadlar arasında var oluşunun,ölümsüzlüyünün əbədi mövcudluğunun mühafizə edildiyinə bəslənilən mifik inancı əks etdirir.

Türk mifik təkamülünü zənginləşdirən müqəddəs real öz başlanğıcı Xaosdan – Su stixiyasından, müqəddəs ideal isə öz başlanğıcını Günəşdən, Səma cisimlərindən, kainatdan almaqdadır. Məsələ burasındadır ki, müqəddəs real və müqəddəs ideal bütün fəlsəfi məzmunu ilə Ana südündə təcəssüm olunur. Ana südü qanla bərabər genezisi formalaşdırır. Genezis öz növbəsində həmişə dualdır. Maddi və mənəvinin məcmusudur. Öz doğal təbiətində ağla – qaranı, işıqla – qaranlığı, xeyirlə - şəri, soyuqla –



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

istini, sevgiylə - nifrəti, məkrlə - məhəbbəti, müdrüklüklə - cəhaləti və s. bu qəbildən olan bəşəri həyat amillərini özündə ehtiva edən natural – mistik faktordur. Amma bütün hallarda fəlsəfi yönü ilə dualdır. Genezisdə təcəlla edən Süd simvolları və ya Südün evolyusiyadan əvvəlki özü parçalanıb, bölünmüş transfer bəndlərindən keçməklə müasir məhəbbət və qəhrəmanlıq dastanlarında daha çox mistik amilin daşıyıcısı olan bir simvlik obraz kimi iştirak edir. Burada ikinci mifopoetik obraz bitkidir,(13), dağ çiçəyidir(14). Dağ çiçəyi, eyni zamanda, həm süjetin, həm də məlhəmin ikinci vacib komponentidir. Gördüyümüz kimi qədim türk insanı əsatir inancını quru yerdən almır, təsadüfi səciyyə daşımır. Folklorun mifoloji mətnlərində Süd həyat mənbəyidir, xaosu, su stixiyasını, həm mistik- sinxronik semantikanı, həm natural-fəlsəfi amili, həm də Günəş mərkəzi diaxronik semantikanı daxili məzmununda ehtiva edir. Bununla yanaşı, bitki obrazı olan dağ çıçəyi yer üzünün təbiətini təcəssüm edir. Bitki özü-özlüyündə bir çox mifik simvolları, hətta ağac – adam (mandraqor) belə təmsil edir. Bizim predmetimiz dağ çıçəyidir. Çıçək obrazı dünya xalqlarınını mifoloji ənənələrində bir çox mənaları rəmzləşdirir. Türk nağıl – dastan poetikasında gül – çiçək insan həyatının xoşbəxt dövrünü, taleyini (Azərbaycan nağılı, "Güli – Qahqah") (15), təbiətdən alınan bioenergetik gücü ( "Dirsə xan..."), sağlamlığı təcəssüm etdirir. Fikrimizin izahlı sübutu kimi ana südü – dağ çiçəyi mifoloji motivi kifayətdir.

Çiçəyin mifik ənəndə yeri haqqında oxuyuruq: " Güllər – həyat sevincinin , həyat gücünün parlaq təzahürü, obrazıdır."(16,17).

Türkün mifik təxəyyülündə qurulan sistem başda substsntiv ana südü olmaqla, Ana südü+Hami ruh+dağ çiçəyi mifologemlərinin məcmusunda ifadə olunan xətləri qovuşdursaq bir-birinə mifik tellərlə bağlanan həndəsi üçbucaq alınacaqdır. Bu üçbucaq şərti olaraq A,B,V olsa , A nöqtəsi – Ana südü, B nöqtəsi- Hami ruhu, V nöqtəsi –Dağ çiçəyini təmsil edəcəkdir. Qədim türkün – müasir sivilizasiyadan öncəki prototurkün təsəvvür etdiyi sadə dünya bu üçbucaq müstəvisində kainatla bütövləşib qapanır. Prototürk mqrəkkəb dünyanı , yaradılışın, ilkin formasında, təxəyyülündə genetik kodlarla evolyusiyanın ilk mərhələsinin obrazları kimi yaşadır, dünyanı sadə bucaq altından (2) beləcə görüb dərk edir. Əgər biz A,B,V nöqtələrini Dədə Qorqud obrazı ilə deyil, daha başqa simvollarla işarələmiş olsaq, Ana südü, Hami ruh, Dağ çiçəyi mifologemlərinin əvəzinə yazsaq ki, A-xaos, B-kosmos, V-Yer,türkün dünya ilə qarşılıqlı bütövlük şüurunun cizgilərini almış oluruq, dünya ilə bağlılıq təsəvvürünü başqa yöndən anlamış oluruq.

Dağ çiçəyi – adından bilindiyi kimi, sadə bir dağ çiçəyidir. Ancaq südlə qarışdıqda bu çiçək simvollsşər, sakral məzmun kəsb edir. Ana südünün məzmununda ifadə olunan kosmoloji-diaxronik semantika paylanır, kosmoqonik kodların məcmusundan göyərən Süd ağacı iki yaşıl kosmoloji – sinxronik semantik motivə daxil olur, türkün animistik təsəvvürü üçün yeni qapı açılır, o zamandan etibarən ruhlar, ilahlar doğulacaq, sonrakı minilliklərdə "ətə-qana"dolacaq, Dədə Qorqud isə öz zamanında romantik əsatir dünyasını mifoloji sistem halında bütöv qəbul edəcəkdir.

Maraqlıdır ki, " Kitabi Dədə Qorqud" dastanlarında, " Güli – Qahqah, " Üç qardaş" nağılnda " Oğuznamə"(F.Rəşıdəddin variantı) dastanında, " Quzu körpəc və Bayansılu" dastanında da ( Boraba tatarlarının variantı), çuvaşların " Günəşli naxış" əfsanəsində də ( yazıya alanı Mişşi Yuxma) və digər bu qəbilddən olan saysız-hesabsız folklor materiallarında Süd və heyvan südü mifik məntiqi obrazları süjein kompozisiyasından asılı olaraq, Süd-Su-Xaos xəttində mifik universiumda süd təkamül edir, formasına görə amorf, məndəricəsinə görə kosmoloji olur." Buğac suyu qınayan anasına etiraz edir. Qazlıq tağinin suyının gunahı yoqdır." Burada su başlanğıcına bəslənilmiş mifik inancı ğörürük. Yəni Su – yaradılışın müqəddəs başlanğıcıdır. Buğac Suya inanaır. Müqəddəsliyi ehtiva etdiyinə görə müdafiə edir. Buğacın süyü müdafiə etməsində həm müqəddəslik motivi, həm də arxaik zamanların elmi şüuru da, özünü göstərməkdədir.Gerçəkdən elm çoxdan isbat etmişdir ki, quru Yer dünyası sudan çıxmışdır. Əsl həqiqətdə Yer dünyasının sudan çıxmasını bir alim olaraq, Dədə Qorqud obrazı sərgiləməkdədir.

Biz Buğacın bir ifadəsində, kiçik bir ünsür – informasiya olsa belə, Dədə Qorqudun alim- Dədə, törə - Dədə, ocaq – Dədə, oğuzun milli – mənəvi atası olduğunun müasir şahidi oluruq. Arxaiklik dərəcəsinə görə çox qiymətli faktlardan biri olan bu mifik informasiya bir neçə mifik düşüncədən xəbər verir;

1. Süd – su stixiyasından keçən genetik simvollar;
2. Süd – mental şüurun simvoludur;
3. Süd – universal – kosmoloji simvoldur;
4. Süd – natural fəlsəfi simvoldur.
5. Süd – dualdır.

Artıq məlumdur ki, Buğac ölümcül yara aldısa da, ana südü və dağ çiçəyindən hazırlanmış məlhəmlə sağaldı. Ramil, Əliyev "Azərbaycan nağıllarında ölüb – dirilmə motivinin tipləri və tipikləşdirilməsi haqqında"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(18) məqaləsində Buğacın yaralanib- sağalmasını ölüb – dirilmə aktı kimi dəyərləndirməyə təşəbbüs etmişdir. Yəni R.Əliyev D.E.Xaytunun folklorda ölüb – dirilmə aktının totemik əcdadla bağlanmasına istinad edən fikrini alıb Buğacın sağalmasına da şamil etməsi bir o qədər ciddi görünmür. Axı Buqacın sağalmasının totemik əcdadla nə əlaqəsi var.! “Ana südü və dağ çiçəyinin” yarasına məlhəm olması onun yenidən dirilməsinə sübutdur (19). Ana südü – astral – mistik simvoldur. Dağ çiçəyi isə yer üzü təbiətinin insan taleyinə mifik tərzdə müncər olunmuş, xəşbəxtlik simvoludur. Bunlar heç biri totem deyil. Bizcə, Buğacın olumsüzlük simvolu olan Xızır ( Dədə Qorqud ) tərəfindən ana südü – dağ çiçəyi vasitəsi ilə şəfa tapması D.E.Xaytunun nəzəri şablonuna sığmır, bu ölüb – dirilmə aktından daha çox, türkün ölümsüzlük aktıdır. Ölümsüzlüyün mifik prosessual modelidir. Əks məntiqlə düşünsək bu inisiasiyadır, bu mifik təxəyyülün evolyusiyasıdır, totem deyil.

**Çuvaş əfsanəsində yusma, süd**

Ana südü ilə, yaxud heyvan südü ilə ilgili mifik epizodlara başqa türk xalqlarının folklor mətnlərində də rast gəlinməkdədir. Çuvaş tarixçisi – yazıçısı, folklor toplayıcısı Mişşi Yuxmanın “Müqəddəs qılnıc” kitabında (20) keçən folklor materialları arasında “Günəşli naxış” əfsanəsi mövzu baxımından diqqətimizi cəlb çəkdi(21). Nağıl əfsanə və lətifələrdən ibarət olan “ Müqəddəs qılınc” kitabını maraqlı, oxunaqlı edən daha bir cəhət ondan ibarətdir ki, folklor materiallarını toplayan yazıçı Mişşi Yuxma bütün folklor mətnlərini ilxıçı Endimer dədədən yazıya almışdır. Folklor mətnləri bir qayda olaraq 1-ci şəxsin – Endimer dədənin dilindən söyləmir, Endəmir özü çuvaş xalqının mənəvi – irsi zənginliyini ifadə edən folklor obrazıdır(22).

Ana südünün mifik – simvolik obrazını izləmək baxımından “ Günəşli naxış” əfsanəsi xeyli dərəcədə cəlbedicidir.

“Günəşli naxış ” əfsanəsinin qisa məzmunu təxminən belədir; qədim çuvaş türkləri isti, işıqlı, sulu gözəl bir vadidə məskunlaşıb, yaşamaqdadır. Bir gün Kuştan adlı bir tayfa Çuvaşıstana girir, bu xalq, öz əsarətinə alir. Bu yeni qəlmələr burada günəşin bolluğundan, istisindən narazılıq edir. Burada dünyanı üç günəş isidir. Onu deyim ki, dünyanın 3 günəşli modeli nadirdir və düşündürücüdür. Kuştanlar ovçu Qazyalı məcbur edirlər ki, Günəşin ikisini oxla vurub öldürsün. Nəhayət, ovçu bunu edir, Kuştanlara etiraz edən müdrik qocaları kuştanlar uzaq dağlara sürgün edir, taleyin girdabına buraxırlar. Acıq, səfalət, xəstəlik, soyuq və böhran çuvaş xalqını üzür, incidir, əldən –dildən salır, məhv etməyə başlayır. Bir gün xalq cəsarətə gəlir, qalxıb yadelli kuştanları qovur. Qazyal, uzaq dağlara qovulmuş mudrik qocaları axtarmağa gedir. Xalqın müdrik qocaların məsləhətinə böyük ehtiyacı var. Qazyal səfərə çıxır. Yol çox qorxuludur.

Ovçu qocaları tapır. Qocalar günəşlə barışmaq üçün tədbir görür. Faydası yoxdur. Nəhayət, öz qolunu kəsir qanıyla Günəşə işarə verir, uzağa çəkilmiş üç günəşdən sağ qalanı Yerə yaxın gəlir. Çuvaş xalqı xilas olur. Yenidən daha üç günəşlə deyil, bir günəşlə isinməyə, yaşamağa başlayır. Əfsanənin sujeti, fabulası,zavyaskası,razvyaskası olan epizod belədir; konflikti, canlı, maraqlı oxunaqlıdır. Ana südü mövzusuna birbaşa aidiyyatı olan epizod belədir:

“Qazyal arvadı, uşaqları və dostları ilə vidalaşdı. Artıq onu heç kəs saxlaya bikməzdi, o getməli idi. Çünki bəşəriyyətin həyatını xilas etməli idi. Anası yolda yemək üçün ona ana südü ilə bişirilmiş Yusman hazırlamışdı. Qalan südü isə Çima töküb ağzını bərkitmiş, yol bağlamasına qoymuşdu. Qazyal da onu qoltuğundakı etibarlı cıbında gizlətmişdi.

-Oğlum, çətinə düşşən, sənə ana südü kömək edəcək, - deyib, əlavə etmişdi ki, onu da bil ki, bizim hamımız ana yerin övladıyıq, çətinə düşşən ona da söylə, o səni köməksiz qoymaz”(23). Epizoddan gördüyümüz kimi ovçu Qazyal çətinə düşəcəyi təqdirdə ana südünə və ana Yerə müraciət etməlidir.Burada Ana südü və ana Yer eyni sakral semantikanı ifadə edən simvolik mifologemdir. Simvolik obrazların ifadə etdiyi mistik semantika Qazyal surətndə birləşmiş, mifoloji qoşa qanad kimi ovçunun əsatir düşüncəsini mifik müstəvidə bütövləşdirmişdir.

Uç günəşli dünya modeli mifik məntiqə görə minilliklərin o tayından,yəni, Nuh tufanı kimi tanıdığımız Dünya Selinin ötəsindən, əski sivilizasiyalardan gələn təkamüllə bağlıdır. Bəlkə də Yer planeti qitələrə bölünməzdən öncə hansısa Ulduz bürcünün mərkəzində olmuş, sonra, qravitasiya pozulması nəticəsində Yer yeni trayektoriyaya keçmiş, görünür hələ kiçik olan Yer kürəsi uzun müddət soyuq olmuşdur. Bu kataklizma qədim çuvaş türklərinin qan-süd yaddaşında yüz min illərlə yaşamış, öz ilkin tarixi- təbiət amilini itirmiş, nağıllaşmış, sakrallaşmış, simvollaşmış bir mifik folklor atributuna çevrilərək, zəmanəmizə gəlib çıxmışdır. Beləliklə, çuvaş türkləri kainatda baş verən hadisələrin səbəbini araşdırmış, tapmağa çətinlik çəkdikdə kuştanları günahlandırmaqla təbiət hadisələri qarşısında məğlub olmaqla barışmamış, özlərinə qalibiyyət qazandırmışlar.

Üç günəşli dünya modeli haqqında yuxarıdakı fikirləri söyləməyə bizi təhrik edən səbəblərdən biri də bu əfsanədə Ay və hami ruh – Xızır obrazlarının olmamasıdır. Burada biz Süd simvolunu, Yer və Od



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kultunu görürük. Bu əfsanədə hava – Yer kultunun olmaması əfsanənin arxaikliyinə dəlalət edir. Prototürk təxəyyülü prosesinin inkişaf mərhələsini göstərir. Bu əfsanədə ana südü simvolu qismən təkmil görünür. Burada mifik dini inanış da öz növbəsində bəsitdir, şəffafdır. Mifik həyat gücü predmetin natural özündə, əşyaviliyindədir. Torpaq mifik anadır. Torpağın mifik ana olması artıq müəyyənləşmişdir.Ana tövsiyyə edir, torpağa müraciət et, o səni köməksiz qoymaz.” Maraqlıdır ki, ilk insanın Yerdən – torpaqdan doğulması ovçunun anasına məlumdur. Sanki ana öz doğma anasını daha yaxşı xatırlayır. Ovçu Qazyalın anası Yerlə - torpaqla genetik bağlılığını unutmamışdır. Burada südə bəslənilən mifik münasıbət də qismən formalaşmışdır; mifik gücün varlığına inam hisi tam təsəvvür olunur. Yusman və çımdakı süd magik səciyyə daşıyır. Magiya mifoloji düşüncənin astral- sinxronik yönüdür, simvollar bazasında qurulan inamı əks etdirir.

Ana südü universal mifologemdir. Təfəkkürün mifik mənəvi substansiyasıdır. Mifik real və mifik idealın fenomenal – dual köküdür. Ovçu Qazyalın demonik güclərlə vuruşunda biz bu mifik-fəlsəfi əlamətlərin hər birinə rast gəlirik.

Ovçu Qazyal yolda üçbaşlı əjdaha ilə rastlaşır. Onlar vuruşur. Əjdahanın zərbəsi nəticəsində ovçu sinəsinə qədər torpağa batır. “ Ovçu gördü ki, onun axırı çatıb, birdən anasının yer barədə verdiyi öyüdü onun yadına düşdü. Dərhal var gücüylə bağırdı. Ana Yer!.. Öz oğluna güc ver!.. Çıxım!.. Onun sözü havada yarımçıq qaldı. Nəsə onu yerin altından itələdi.Yerin üstünə çıxartdı. O anındaca əlindəki qılıncla əjdahanın alov püskürənb üç başından birini vurub kəsdi. Əjdahanın kəlləsi fırlanıb otuz verstlikdə dayandı. Ovçu dərhal qoltuğunda gızlətdiyi yusmandan dişlədi. Yusman ana südüylə bişmişdi deyə, ona fövqəladə güc verdi. Bunu huss edən ovçu əjdahaya daha bir zərbə endirdi. Əjdahanın ikinci başı dığırlanıb altmış verstliyə düşdü. Sonra ovçunun yadına düşdü ki, hələ çımda da süd var. Cəld çımı açıb südü içdi. Üçüncü zərbəni endirdi, əjdahanin üçüncü başı doxsan verstliyə yuvarlandı. Əjdahanın qara qanı üzü aşağı dərəyə çay kimi axırdı” (24).

**Oğuznamədə (Fəzlullah Rəşidəddin variantı) süd**

Ana südünün rolu “ Oğuznamə”(25) dastanında daha ciddi və önəmlidir. Təsəvvür edin ki, “ Dirsə xan...” boyunda ana südü məlhəm rolunu, çuvaş əfsanəsi – “Günəşli naxış”da fantastik fiziki güc verən magik eliksir rolu oynayırsa, “ Oğuznamə”dastanında ana süd Oğuzun anasını mıfık dilemma qarşısında qoyur; həm çağa Oğuzun ölum –qalım məsələsi, həm də Oğuzun fitrətindən gələn Tanrı inancını qəbul edib – etməmək!?

“ Oğuznamə” müəllifi qeyd edir ki, Nuh peyğəmbərin oğlu Yafəsin ( Olcayın) oğlu Qaraxanın şahlığa layiq bir oğlu dünyaya gəlir. Amma bu çağa üç gün, üç gecə anasının südünü əmmir(25). Əslində çağa şüurlu şəkildə anasının südünü əmməkdən imtina edir. Ana həyəcan içindədir, çağa acından ölə bilər. Üç gecə cağa – Oğuz anasının yuxusuna gəlir. Yuxuda anasını dilemma qarşısında qoyur; “ Əgər sən istəyirsən ki, mən sənin döşündən süd əmim, onda bir olan Yaradana inam gətir, Onu tanı və Onun haqqını öz üzərində mütləq bil.” Ana böyük çətinliklə bu təklifi qəbul edib, Tanrıya dua edərək, “ balamın süd payına şəkər qat”(26) – deyir. Yalnız ana bu şərti qəbul edib, düa etdikdən sonra çağa – Oğuz süd əmir və çox qisa zaman biçimində Oğuz qeyri-adı surətlə böyüyür, inkişaf edir, yetkinləşir. İsa peyğəmbər kimi hələ kiçik ikən bir yaşında danışır. Biz Dədə Qorquddan bilirik ki, qədim türklər uşağa öz fərasəti, qabiliyyəti , fədakarlığı və əməlinə uyğun ad verərdilər ( Basat, Buğac və s.).

“Oğuznamə”nin Fəzlullah Rəşidəddin variantında bu ənənvi adətin tam əksini görürük. Burada Oğuz öz- özünə ad verir, “hamı məni Oğuz deyə çağırsın”(27).

Oğuzun Nuh oğlu Yafəsin (Olçayın) oğlu Dib Yabğu xanın nəvəsi olması ( peyğəmbər soyu-Ə.K.), tanrıçılıq inancının fitrətdən gəlməsi, yuxuda anası ilə tək Tanrılıq barədə söhbət etməsi, tək Tanrı haqqında inam gətirməyə məcbur etməsi,tək Tanrı haqqına inam gətirən qadının südünü əmdikdən sonra sürətlə böyüməsi, bərqahda doğulması (bərqah- seçilmiş, müqəddəs yer mənasındadır), doğulduğu ilk saniyədən Tanrıya üz tutması və “istər yuxuda, istər oyaq halda böyük Yaradanı mütləq yada salması... ən müxtəlif bilik sahələrində, ox atmaqda, nizə tullamaqda, qılınc oynatmaqda və alimlikdə dünya şöhrəti qazanması” onun öz dövrünün süçilmiş peyğəmbəri olduğunu izahlı-izahsız sübut edən dəlillərdir. “ Hamıya göstərdiyi xeyirxahlıq və məhəbbətə görə böyüklər də, yaşlılar da, kiçiklər də ona Oğuz ağa adı verdilr” (28).

Oğuzun timsalında ana südü simvolu kosmoqonik kodun işarəsi tək özünü göstərir, tək allahlıq dininin mifik cövhərində xüsusi yerə malik olur, monoteist təfəkkürün türkün fitrətinə südlə gəldiyini isbat edən dəlil olur. Bu epizoda ana südü motivi natural – fəlsəfi məzmundan uzaqlaşmış ( Yusman, Cım), tanrı inancı, tanrı haqqı motivinə qədər inkişaf edərək yeni, daha yüksək evolyusiya həddinə çatmışdır.

Maraqlıdır ki, zaman və məkan qavrayışından asılı olmayaraq, ana südü kosmoloji – simvolik amil kimi bütün zamanlarda və məkanlarda insan iradəsinə, xarakterınə, fəaliyyətinə yeni – yeni çalarlar gətirir, təxəyyüldə formalaşmaqda olan simvolik obrazların doğulub – törəməsində həlledici mövqe tutur,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sağlamlığı, gucu- qüdrəti, tanrı inancini – müqəddəsliyi, xeyrin şər üzərində qələbəsini təmin etməkdə, öz daxili təbiətinə sadiqdir, mifik-məntiqi silloqizmdə dözümlü və sabitdir, ardıcıl təkamüldədir, inkişaflıdır.

Bu kimi mifopoetik keyfiyyətlər əlahiddə semantikasına görə Süd simvolunu super simvol edir. Əgər süd simvolunun mifik – fəzavi ağacını qursaq, ana südü ağacın kökü və gövdəsini təmsil edəcək, ana südündən törəyən saysız – hesabsız mifologem obrazlar, simvollar və işarələr bu ağacın yarpaqları və meyvələrini oluşduracaqdır.

**Sonuc**

Oğuz peyğəmbər bəşəriyyətin mənəvi – ruhani rəngini dəyişməyə gəlmişdir. Oğuz dünyanı dəyişməyə məhz anasından başlayır. Anası psixoloji durumunu dəyişməlidir. Məsələ burasındadır ki, ana psixoloji durumunu dəyişsə, onun südü öz natural məzmununu dəyişəcək və astral – magik məzmun kəsb edəcək,sakrallaşacaq, simvollaşacaqdır. Oğuzun canı, ruhu "Kut" olacaq, Oğuzun təbiətinə maddi və mənəvi olmaqla diaxronik- kosmoloji aura müncər ediləcək, peyğəmbərlik Oğuzda təcəlla edəcəkdir. Gördüyümüz kimi ana südündə ifadə olunan etno – mifik məzmun türk üçün bir növ etnoenergetik, mifopoetik xassəni bir cür ifadə edir, fransız, ingilis, slavyan üçün başqa bir cür . Yeri gəlmişkən, türk folklorunda süd simvolunun geneloji – assosiativ çalar və bənzərlikləri dünyanın bir çox xalqlarından ( məs. ərəb, fars, ari, dravid, slavyan, ingilis və s.) daha arxaik, daha fəzavi, daha rəmzi, daha zəngindir.

Biz, folklor ənənəmizi, şifahi sözün mifoloji poetikasını daha dərindən, bir növ arxeoloq gözü ilə (bəlkə də bəsirət gözü ilə) izləsək, bu zənginliyin, geniş mifoestetik arealını iki mühüm aspektdən görə bilərik;

1. Estetik- bədii mifologia; və -
2. Dini – mifologiya;

Türk folklorunu dünya folklorundan fərqləndirən ən mühüm amillərdən biri türk mifoloji təfəkkürü heç bir zaman mövhumata və xurafata yuvarlanmır. O. Ilkin mifopoetik rüşeymin bazasında doğur, törəyir, transfer edir. Mifik məntiqin ilkin müqəddəsliyini, substantiv başlanğıcını çalarlarla paylaşsa belə mahiyyətdən sapmır, uzaqlaşmır.

Həm estetik – bədii mifologiyanı, həm də dini mifologiyanı istənilən qədər təsnifatlaşdırsan, türk mifoloji ənənsi motivi, süjeti, strukturu, ideyası, hətta mizanı belə xurafata, mövhumata deyil, bəşəri ideallara, insanın arzu və istəklərinin çiçəklənməsinə yönəlik simvolik məzmunla yükümlüdür.

Mifik semantikanı simvolizə edən obrazlar düşüncələr, türk insanını xülyapərəstliyə deyil, pozitiv-praqmatik əxlaqa, etik sərvətlərə, bəşəri fəallığa çəkir; " Alpamış", " Manas", "Kitabəi – Dədə Qorqud", "Koroğlu", "Maday Qara", "Ural Batır", "Koroğlu" (M.H.Təhmasib nəşri), "Nart", "Altıyaruq tigin", "Akbuzat", "Quzukörpəc və Bayansılu" və s.

Saka-Yakut türklərinin əsaki mifoloji təsəvvürlərində yer üzünün ilahı olan Aan Alakçın Xotun (kadın – Ə.K.) da uzun Anadır. Bu obrazın folklor poetikası yetərincə zəngindir. Buğacın anası, ovçu Qazyalın anası, Oğuzun anası, Quzukörpəcin anası və s. Aan Alakçın Xotun obrazı ilə mifik – estetik qan – süd qohumluğunda, mənəvi – irsi əlaqədədir. Bu obraz bütün dünyanı öz övladları ilə idarə edir (29).

Ana südü vasitəsilə formalaşan mifik obrazlar türkün qəlbini, könlünü Yerə, mənəvi – ruhi duyğularını isə səmavi bioenergetik auraya çəkir, kosmoloji fenomenlərlə birləşib, bütövləşir. Türk mifik düşüncəsində mental rişələr və köklər də görünən və görünməyən xətlər və kanallarla ana südüylə - super simvolla bütövləşir.

Ana südünün müqədəssəsliyini və astral sakrallığını bir də onda görürük ki, Buğacı sağaldır – Buğac şikəst qalmır, yarımçıq deyil, o tamdır, bütövdür, kamildir. Ovçu Qazyal məqsədinə çatır, müdrik qocaları öz elinə, obasına gətirir, sözü ilə əməli üst-üstə düşür, yarımçıq deyil, bütövdür. Oğuzun sözü ilə əməli bir-dir, dediklərini edir, etdiklərini deyir, yarımçıq deyil, bütövdür, mükəmməldir. Mifik obrazlardan gələn bütövlük insanın mənəvi yetkinliyə, ardıcıllığa aparan ənənvi mifik ölümsüzlüyün, əbədiyaşarlığın kainatla bütövlüyüdür.

Oğuz obrazının timsalında dünyanın bütün problemlərini türk insanı həll etməlidir. Türk dünyaya cavabehdir.

Ayzit süd gölündə yaşayan Humay -Ana obrazı çoxplanlı təfəkkür modrelinin bədii-dini strukturunu epizodlar, motivlər, cizgilər, ayrıntılar, mifik sujetlər, simvolar və işarələrlə nümayiş etdirsə də, ümumtürk folklor kontekstində türk animizmi və kosmizmini birmənalı şəkıidə bədii-dini mifologiya müstəvisində sistem olaraq çevrələyib qapayır. Humay – Ana bütün mifik- fəlsəfi məzmunu ilə Törə, Yaradıcı, Əcdad obrazıdır. Humay ananın bir damcı südü varlığın başlanğıcı, mənəvi-cismani güc, müqəddəs ruhun mənbəyi, tanrı ilə magik rabitə vasitəsi; fövqəladə fiziki qabiliyyətin mistik mənbəyi, tanrı haqqını yerdə təmsil edən kosmoloji simvol, insan fitrətinə ilahi eşqi təlqin edən romantik qida;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

amorf varlığın xaotik simvolu; isti xasoun fenomeni və s. bu qəbildən mifik-fəlsəfi xarakteri əhatə etməkdə, içəriməkdədir.

Türkün ana sevgisi fərqli ruhaniyyəti ilə daha mündəricəli, daha ulvi, daha qüdsidir.

Mifik süd simvolu geniş transfer xassəlidir. Gələcək araşdırmalarımızda süd simvolunun heyvan südünə transferi müxtəlif aspektdən öyrəniləcəkdir. Azərbaycan nağılları, dastanları digər türksoy xalqların şifahi ədəbiyyatında süd simvolunun kosmoloji-astral çalarları öyrəniləcəkdir. Dünya mifoloji sistemində süd simvolunun müqaisəli təhlili ədəbi-fəlsəfi yöndən, o cümlədən, psixoanalitik yöndən təhlilə cəlb edəcəkdir.

Etnogenetik əsaslar üzərində qurula biləcək, milli-mənəvi inkişaf konsepsiyasının olmadığı bir vaxtda cəmiyyətin mənəvi inkişafını istiqamətləndirmək, onu rasionallığa, qarşılıqlı səmərəliliyə, pozitiv dəyişkənliyə, doğruluğa və paklığa səmtləndirmək üçün folklor ədəbiyyatının çox təsirli vasitə olduğunu nəzərə alsaq, mövzunun elmi-ictimai, etik-estetik aktuallığı özünü daha dərindən göstərəcəkdir.

Qeyd etməyi vacib bildiyim cəhətlərdən biri də budur ki, Türk folklorunda mifik süd simvolu obrazlı təxəuuülüun zənginliyini təkamül mərhələlərində göstərən mifopoetik açarıdır. Simvollardan danışdığımıza görə tam əminliklə vurğulamaq istəyirəm ki, Türk mifoloji sistemi dünya xalqlarının etioloji-animistik sisteminə zaman-zaman transfer edilmişdir. Biz bu ideyanı gəlişi gözəl və özünəvurğunluq hissələrindən uzaq bir halda mifik məntiqi inkişafı izləməkdən gəldiyimiz nəticəyə görə düşünüb daşınırıq(30). Şübhəsiz, türk mifoloji- dini şüuru dünya xalqlarına təsir etdiyi kimi, özü də təsirlənmiş, qidalanmış, sakrallaşma və simvollaşma prosesini tarixən yaşamışdır, yaşamaqda davam edir, özünə əxz etməkdədir.

**ƏDƏBIYYAT**

1. C.Bəndili " Türk mifoloji sözlüyü" Bakı, Elm 2003, səh. 324.
2. Rəmzlər və işarələrin tam ensiklopediyası, Xarvest, Minsk, 2007, səh. 300(rus dilində).
3. C.Bəydili " Türk mifoloji sözlüyü" Bakı Elm 2003 səh. 329.
4. Rəmzlər və işarələrin tam ensiklopediyası, Xarvest, Minsk 2007 səh. 234-235 (rus dilində).
5. " Kitabi Dədə Qorqud", ön söz Samət Əlizadə, Bakı, Yeni nəşrlər evi, 1999, səh.43-44.
6. a.g.k. səh.113.
7.C. Bəydili, " Türk mifoloji sözlüyü"Bakı ,Elm 2003. səh.329.
8. Smirnova İ.M. " Magiyanın sirləri" Moskva, Veçe 2004 səh 38.(rus dilində).
9. a.g.k. səh. 8 -11.
10." Kitabi Dədə Qorqud" ön söz Samət Əlizadə Bakı, Yeni nəşrlər Evi 1999 səh.160.
11. a.g.k. səh 43.
12. a.g.k. s.h.44.
13. Rəmzlər və işarələrin tam ensiklopediyası, Xarveşt, Minsk 2007 səh.105-110.
14.a.g.k. səh.561-563.
15.Dədə Qorqud 2006, №3 səh. 176-184.
16.Rəmzlər və işarələrin tam ensiklopediyası, Xarveşt Minsk 2007 səh 562.
17.Yuxu yozumları, ensiklopediya, ön sözün müəllifi – professor Əkbər Bayramov, Bakı AABB səh. 153.
18.R.Əliyev " Azərbaycan nağıllarında ölüb-dirilmə motivinin tipi və tipikləşdirilməsi" Dədə Qorqud 2005,№3 səh. 36-49.
19.a.g.k. s.h.44.
20.Mişşi Yuxma, Müqəddəs qılınc, Kuqesyi -1988, səh.230 ( rus dilində).
21.a.g.k. səh.5-12.
22.a.g.k.-da İlya Pastuxovun məqaləsindən, səh.229-230.
23.a.g.k. səh.9.
24.a.g.k. səh.11.
25.Fəzlullah Rəşidəddin, Oğuznamə, fars dilindən tərcümə, ön söz və şərhlər R.M.Şükürovanındır. Azərnəşr, Bakı 1992 səh.71.
26.a.g.k. səh. 10.
27.a.g.k. səh.11
28.a.g.k. səh.15.
29.C.Bəydili, Türk mifoloji sözlüyü, Bakı, Elm 2003, səh.329.
30.Y.E.Qolosovker, Mifin məntiqi Bakı BSU 2006, səh315.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## «KOROĞLU» DASTANININ AZƏRBAYCAN TƏQDİMATI

***Elnarə Tofiq qızı***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

«Koroğlu» dastanının Azərbaycanda toplanma və nəşr təcrübəsinə bir qədər gec başlansa da, ötən əsrin birinci rübündən etibarən demək olar ki, alimlərin və araşdırıcıların xüsusi diqqət mərkəzində olmuş, çox geniş şəkildə toplanmış, dəfələrlə nəşr olunmuş, saysız elmi təhlillər aparılmışdır. Ancaq bütün bunlara baxmayaraq «Koroğlu» dastanının Azərbaycanda ilk nəşri 1913-cü ilə təsadüf edir. Rza Zakinin müəllifliyi altında «Orucov qardaşları» mətbəəsində ərəb əlifbası ilə «Koroğlu» adıyla çap edilən kitabın titul səhifəsində «Aşiqi bir hekayətdir» və «Mühəvvəri: Rza Zaki» sözləri yazılmışdır (1).

Dastanın dilinin müasir Azərbaycan türkcəsi ilə fərqlilik təşkil etməsi, bəzi söz sonluqlarının Türkiyə türkcəsinə məxsus əlamətlərlə bitməsi (istiyor, diyor, gəziniyor, vurmayalım, olalım, tovpuz, bazirgan və s.) XX əsrin əvvələrində Osmanlı dövlətinin təsiri altında olan ziyalıların yazılı ədəbiyyatımıza gətirdiyi üslubu xatırladır. Bu üslubun Osmanlı dövlətində təhsil alan ziyalılar tərəfindən yaradıldığını nəzərə aldıqda, R.Zakinin həyat və yaradıcılığına diqqət yetirmək zəruriləşir.

R.Zaki Lütfibəyli bir müddət Gəncədə müəllim kimi çalışmış, «İrşad», «Kaspi», «Sovqat» və s. qəzetlərdə maraqlı məqalələrlə çıxış etmişdir. Sonradan «Nəşri-Maarif» Cəmiyyətinin dəvəti ilə Bakıya gəlmiş və fəaliyyətini burada davam etdirmişdir.R.Zaki millətini sevən, onun tərəqqisi üçün çalışan və buna görə də müxtəlif dairələr tərəfindən təqiblərə məruz qalan ziyalılarımızdan olub (2). Onun «Nakam qız», «Zavallı Cavad», «Fədayi-eşq» və sair romanları, eləcə də faciə janrında yazdığı «Haqq yerini tapar», «Bədbəxt gəlin», «Köhnə Türkiyə» əsərləri ayrı-ayrı illərdə işıq üzü görmüşdür (3, 34). Ömür yolu ilə bağlı biblioqrafiq məlumatların az olduğu səbəbindən R.Zakinin kimliyini tam aydınlaşdırmaq mümkün deyil; ancaq əsərlərinin üslubuna görə Türkiyədə təhsil alması barədə ehtimal irəli sürmək mümkündür. Çox güman ki, Koroğlu haqqında kitabla da Türkiyədə təhsil aldığı müddətdə tanış olmuşdur. Xüsusilə Türkiyə nəşrləri üçün əlamətdar olan və Azərbaycan variantlarında toxunulmayan «Kənan» süjetinə əsasən müəllifin bu mətni Türkiyədə oxuduğu müddətdə eşitdiyi və ya yazdığı qənaətinə gəlmək olar. Ancaq 1913-cü ilə qədər Türkiyədə cəmi bir «Koroğlu» nəşrinin mövcudluğu məlumdur. Halbuki R.Zakinin birdən daha çox nəşrlər haqda məlumatlı olduğu görünür və bu məntiqlə müəllifin erməni, gürcü, rus və yaxud ingilis, həmçinin Təbriz nəşrlərinə bələd olması ehtimalı da meydana çıxır.

Əsərin məzmunundan aydın olur ki, «aşiqi bir hekayətdir» ifadəsi altında R.Zaki «eşqdən bəhs edən hekayə» deyil, «aşıqlar tərəfindən söylənilən dastan» və ya «aşıqlara məxsus bir hekayət, dastan» mənasını nəzərdə tutmuşdur. Müəllifin özü tərəfindən kitabın son səhifəsində verilmiş «Fikrim» başlıqlı ön sözdə (4, 9) onun dastanı bir başqasından (kitabın oxunuşunda və başqa mənbələrdə həmin şəxsin adına rast gəlinmədiyindən, söyləyici-informator haqqında heç bir bilgi yoxdur) mənimsəyərək yazdığı bildirilir.

R.Zakinin ön sözündə diqqəti çəkən məqamlardan biri isə «Koroğlu» dastanının əvvəlki nəşrlərinə dair eyhamıdır. Müəllifin «Kor oğlu hekayəsi bir çox yazıçılar tərəfindən qələmə alınmış isə də, bəziləri Kor oğlunun fikrini təmamilə dərk etməyib onu çirkin səftlər ilə səftləndirərək qarain kəramin nəzərində onu mənfur etmişlər» (4, 8) sözləri R.Zakinin Koroğlu nəşrlərindən məlumatlı olduğunu və həmin nəşrlərdə dastan qəhrəmanı barədə deyilən bir çox fikirlərlə şərik olmadığını göstərir. Ancaq R.Zaki «yazıçılar tərəfindən qələmə alınmış» sözləriylə hansı mətnləri və nəşrləri nəzərdə tutduğuna dair heç bir kəlmə yazmır.

1913-cü ilə qədər nəşr olunan Koroğlu mətnlərində qəhrəmanın, əsasən, «qaçaq-quldur» kimi təqdim edildiyini nəzərə alsaq, düşünmək olar ki, R.Zaki məhz bu məqamla razılaşmayıb və xalq yaradıcılığının təhrifinə qarşı çıxıb. Ancaq mətndən görünür ki, R.Zaki də Koroğlunu xalq təfəkküründə yaşayan səviyyədə təqdim etmir; hətta bəzən öz canını qurtarmaq üçün Koroğlu «Ərəb oğlunu» - Kənanı «dilə tutur», «tovlayır», ona «yalvarır» (4, 18-19).

Dastan mətninin quruluşu da fərqliliyi ilə seçilir. Belə ki, məlum olan digər nəşr və variantlardan fərqli olaraq bu nəşrdə mətn heç bir qola (məclisə) bölünmür və «Koroğlu» dastanına aid süjet və epizodlar ümumiləşmiş vahid mətn kimi işlənir. Yəni « «Koroğlu»nu meydana çıxaran şərait – bəy üçün at seçimi və at bəyənilmədiyindən mehtərin gözünün çıxarılması, onun vətəninə yola düşərək oğlu ilə görüşü, həmin atın qaranlıq tövlədə bir müddət yetişdirilməsi və sınağı, Koroğlunun intiqam üçün Çənlibeli seçməsi («Alı kişi» süjeti), qəssaboğlu Eyvazın qaçırılması («Eyvazın Çənlibelə gətirilməsi» süjeti), onların arxasınca paşa sərkərdəsi Kənanın (bəzi nəşrlərdə Ərəb Reyhanın) gəlməsi, Bolu bəyləri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ilə qarşılaşması və onun «Bolu bəgləri, mən Koroğlu deyiləm» sözləri ilə özünü danması («Koroğlu ilə Bolu bəy»), Koroğlunun saz ustası və onun şagirdi ilə görüşü («Nigar xanımın Çənlibelə gəlməsi» süjeti), Koroğlunun evlənməsi və qızı atasının yanında qoyub Çənlibelə qaytması, onun oğlunun olması və gəlib atasını tapması («Koroğlunun Dərbənd səfəri» süjeti), Bolu bəyin baxçasından tel çiçəyini gətirmək üçün dəlilərin getməsi və onların əsir düşməsi («Durna teli»), dəlilərin azad olması üçün Bolu bəyin Koroğlunun atını istəməsi, atın arxasınca Koroğlunun getməsi və onu qaçırtması («Qıratın oğurlanması»), bazirganbaşının Koroğlu ilə qarşılaşması və ona xərac vermək istəməməsi («Koroğlunun tacirlə qarşılaşması»), Ərzurum bəyinin qızı Binli xanımın Çənlibelə gətirilməsi («Koroğlunun Ərzurum səfəri») süjet və epizodları dastanın digər nəşrlərində bütöv süjet kimi rastlanmaqdadır.

R.Zaki nəşrində həmçinin digər variantlarda rast gəlinməyən və poetik baxımdan həddindən artıq zəif, xalq yaradıcılığının məhsulu olduğu ciddi şübhə altında olan şer nümunələri də kifayət qədərdir. Bu poetik mətnlərin xalq yaradıcılığı nümunəsi olması ən azı ona görə şübhə doğurur ki, şerin bəndlərində vəzn, heca, qafiyə pozulur, bəzənsə ümumiyyətlə, ağız ədəbiyyatına xas olmayan və mənası anlaşılmayan ifadə işlədilir. Məsələn, Koroğlu Ərəb oğluna müraciətlə deyir:

Cavanam, dünyada zövq sürmədim,
Ömrümdə mən bir gün görmədim,
Gəldim, yalvarıb söylədim,
Qıyma mənə, ərəb oğlu (4, 18).

Bəndin birincisi 10, ikincisi 9, üç və dördüncü misraları isə 8 hecadan ibarətdir; digər tərəfdən, «zövq sürmədim» (adətən, zövq görürlər, sürmürlər), «gəldim, yalvarıb söylədim» (mətndən aydın deyil ki, Koroğlu yalvarmaq üçün niyə və hara gəlib) ifadələri düzgün seçilməyib və s. Qeyd edək ki, mətndə bu kimi «poetik parçalar» kifayət qədərdir.

R.Zaki nəşr etdiyi mətni birbaşa söyləyici-informatordan qələmə almamış, eşitdiyi və oxuduğu hekayələr əsasında ayrıca əsər yazmış və bu zaman folklor dil-üslubunun qorunmasına əhəmiyyət verməmişdir. Ona görə də bu nəşri müstəqil variant kimi qəbul etmək mümkün deyil. Bununla belə «Aşiqi bir hekayət» «Koroğlu» nəşri sahəsindəki tarixi təcrübəyə daxildir və buradakı bir çox motiv, obraz və toponimik göstəricilər, eləcə də etnoqrafiq cizgilər maraqlı və orijinal tədqiqat predmetləridir.

«Koroğlu» dastanının Azərbaycanda R.Zakidən sonra ikinci nəşri 1927-ci ildə ərəb əlifbası ilə «Azərbaycanı öyrənən cəmiyyət» tərəfindən işıq üzü görür (5). «Koroğlun»nun iki qolunu – «Toqat səfəri» və «Bağdad səfəri»ni özündə birləşdirən kitabın tərtibçisi Vəli Xulufludur.

V. Xuluflu 1917-ci ildə Gəncə müəllimlər kursunu bitirmiş, bir müddət müəllimlik etmişdir. O, 1922-29 cu illərdə Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin təlimatçısı, «Bakinski raboçi» nəşriyyatının və «Azərnəşr»in redaktoru, 1929-36 illərdə isə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun elmi katibi, dil, ədəbiyyat və incəsənət bölməsinin direktoru, Mərkəzi Dövlət Arxivinin müdiri vəzifələrində çalışmışdır. Tarix, etnoqrafiya və folklorla yaxından maraqlanmış, bir çox dəyərli tədqiqat-toplama işləri aparmışdır. V.Xuluflu hələ «Azərbaycanı tədqiq və tətəbbö» cəmiyyətində çalışdığı zamanlarda ağız ədəbiyyatı komissiyasının üzvü seçilmiş, bu cəmiyyətin xətti ilə bölgələrə təşkil olunmuş fərdi ekspedisiyalarda olmuş, bununla da xalq yaradıcılığına dair nümunələrin toplanıb yazıya alınmasında, həmçinin tərtib edilərək çap olunmasında yaxından iştirak etmişdir. Ayrı-ayrı illərdə onun tərtibatında «El aşıqları», «Azərbaycan tapmacaları», «Koroğlu» kimi bu gün də folklorşünaslığımız üçün çox dəyərli mənbə sayılan kitablar işıq üzü görmüşdür.

Qeyd etdiyimiz kimi, V.Xuluflu «Koroğlu» dastanının Azərbaycanda 1927-ci il ikinci və 1929-cu il üçüncü nəşrinə tərtibat vermişdir. 1927-ci il nəşrində ön söz yerinə yazdığı «Başlanğıc əvəzinə»də V.Xuluflu əslində, əhəmiyyətli araşdırma aparmış, xalq arasında bəzi coğrafi adların Koroğluyla bağlanmasına aid misallar göstərmiş, eyni zamanda, Koroğlu qalalarına toxunmuşdur. Tədqiqatın dəyəri «Koroğlu» dastanının həmin dövrə qədərki nəşrləri barədə ətraflı məlumatda, həmin nəşrlərin ön sözlərində qeyd olunan qiymətli fikirlərin Azərbaycan oxucusuna çatdırılmasında və ciddi ümumiləşdirilmə aparılmasındadır ki, (yeganə yanlışlıq A.Xodzko və S.S.Penn nəşrlərini ikincinin adıyla təqdim etməsidir) bu da müəllifin mövzunu uzun müddət diqqətlə izlədiyini nümayiş etdirir.

V.Xuluflu dastanın Azərbaycanda nəşrini «Orucov qardaşları» tərəfindən çap edilmiş kitabla başlayır (5, 9). Ancaq nəşr ili və tərtibçisindən söhbət açılmır. Qeyd edək ki, «Orucov qardaşları» mətbəəsində «Koroğlu» dastanının nəşr edilməsi barədə folklorşünas alim A.Nəbiyev də məlumat verir (6, 5) və nəşr ilini 1911-ci il göstərir. Ancaq burada da nəşrin tərtibçisi haqda heç bir söz deyilmir və kitab «İstambul nəşrlərinin kiçik düzəlişlərlə təkrar çapı» kimi qiymətləndirilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu qiymətləndirmə, təbii ki, V.Xuluflunun informasiyasına əsaslanır. Belə ki, Xuluflu mətnin Azərbaycan aşıqlarından götürülmədiyini və «İstambulda nəşr olunan kitabçanın kopyası» olduğunu bildirir: «Lakin Türkiyə çapında qəliz və Azərbaycanda anlaşılmayan bir neçə kəlmə azərbaycanlaşdırılmışdır (məsələn, «sayı» sözü «mehtər» edilmiş) və Azərbaycan düşüncəsi və adəti ilə yamadığı üçün bəndlərdən bir neçə beyt atılmışdır» (5, 9).

Göründüyü kimi, məlumatda R.Zaki nəşrinin nəzərdə tutulduğu şübhə doğurmur və sözügedən çapla əlaqədar ehtimallarımızı gücləndirir. Belə ki, R.Zakinin Türkiyədə təhsil alarkən yuxarıda bəhs olunan mətni topladığı və yarımçıq, qüsurlu şer nümunələrinin «bəndlərdən bir neçə beyt atılması» nəticəsində yarandığı üzə çıxır.

«Koroğlu»nun 1911-ci il nəşriylə bağlı isə digər heç bir mənbədə məlumata rast gəlmədik. Hesab edirik ki, mətbəə eyniliyi və mətn haqda fikirlər üst-üstə düşdüyündən, hər iki müəllif R.Zaki nəşrinə işarə etmişlər və «1911-ci il» texniki qüsurdan başqa bir şey deyil. Çünki A.Nəbiyevin «Azərbaycan xalq ədəbiyyatı» kitabında da «Koroğlu»nun Azərbaycanda ilk nəşr tarixi 1913-cü il göstərilir (6, 464).

V.Xuluflu İstambulda, Əbuzziya mətbəsində 1902-ci ildə çap olunan «Koroğlu hekayəsi» haqda da bilgi verir. Həmin nəşrin tərtibçisinin yazdığı «Oxuyanlara sözüm»də qeyd edilir ki, «bundan əvvəl yüzlərcə dəfə basılmış, Osmanlı məmləkətlərinin həmən həpsinə yayılmış isə də, bir taqım yazı bilməz, sözün mənasını anlamaz adamlar tərəfindən hər başladıqca bir çox yerləri yalnız təb edilmiş olduğundan, bu gün əldə bulunan kitablar anlaşılmaz bir hala gəlmişlər» (5, 10-11).

Hekayənin «rabiyani-əxbar və nakilani-asar şöylə rivayət edirlər ki...» sözləriylə başlamasından nəşrin 1887-ci il Türkiyə nəşrinin təkrar çapı olduğu aydınca görünür. Diqqəti çəkən məqam isə «yüzlərcə dəfə basılan» ifadəsidir.

Təəssüf ki, «Koroğlu hekayəsi»nin tərtibçisinin dediyi «yüzlərcə dəfə basılan» mətnləri əldə etmək və yaxud onlar barədə istər Türkiyə, istərsə də Azərbaycan tədqiqatçılarının əsərlərində hər hansı bilgiyə rast gəlmək mümkün deyil. Ancaq V.Xuluflunun «heç bir fəslə və baba bölünməmiş, maalı çox uyarsız, həm də saçma-sapan» saydığı «Koroğlu hekayəsi»nin tərtibçisinin özündən əvvəlki nəşrləri «anlaşılmaz» sayması artıq «yüzlərlə» çapın səviyyəsini təsəvvür etməyə imkan verir. Yəqin ki, məhz bu «anlaşılmazlıq» səbəbindən 1887-ci ildən öncəki nəşrlərə Türkiyə koroğluşünasları əhəmiyyət verməmişlər.

V.Xuluflu söyləyici-informatorun «Qazax qəzasının Bozal Qanlı kənd sakini aşıq Söyün» - Aşıq Hüseyn Bozalqanlı olduğunu da qeyd etməyi unutmur.

1929-cu ildə isə V.Xuluflu «Azərbaycanı öyrənmə cəmiyyəti»nin xəttiylə 1927-ci il nəşrini daha da təkmilləşdirərək latın qrafikasında Hənəfi Zeynallının redaktorluğu ilə yenidən çap etdirmişdir (7). Kitabı iki hissəyə bölən müəllif birinci hissədə 10 qol vermişdir ki, bunlardan 4-ü (Toqat səfəri, Bağdad səfəri, Dəli Koroğlu və Bolu bəy, Koroğlunun Dərbənd səfəri) mükəmməl qol səviyyəsində, 6-sı isə (Koroğlu kimdir, Niyar xanımın gətirilməsi, Dəmirçioğlunun dəlilər cərgəsinə girməsi, Koroğlunun taciri qaçanda, Cunul aşıx, Cunul aşıx və Telli xanım) məlumat xarakterlidir. V.Xuluflu kitaba verdiyi əlavələrin birində «Koroğlu nağılları»nın beş əsas qolu olduğunu (Toqat səfəri, Bağdad səfəri, Bolubəy, Ərəb Reyhan, Ərzurum səfəri) və onlardan ikisinin «ələ keçirilərək» çap edildiyini bildirir(7, 34).

Başqa bir əlavədə isə Koroğlunun Dağıstan səfəriylə bağlı süjet Firdovsinin Rüstəm Zalın bilmədən oğlunu öldürməsi süjetiylə müqayisə olunur(7, 121).

Digər əlavələr isə Koroğluya aid edilən şerlər, Aşıq Hüseyn və Aşıq Əsəd haqqında məlumatlara aiddir.

30-cu illərdə «Koroğlu» dastanının nəşri və tədqiqi sahəsində cəhdlər davam etdirilir. 1935-ci ildə «Koroğlu»dan parçalar» başlıqlı yazı (8) çap olunur, Abbas Rəcəbli isə dastanın bir neçə qolunu əhatə edən mətnlə 1937-ci ildə «Ədəbiyyat» qəzetində çıxış edir (9).

Bugünümüzə gəlib çatmasa da, 30-cu illərdə «Koroğlu»nun daha bir neçə nəşrinin mövcudluğunu ehtimal etmək olar. Əvvəla ona görə ki, folklorşünas alim Paşa Əfəndiyev Dastanın 1937 və 1938-ci il (10; 11), B.Qarrıyev 1936 – cı il (12, 57), M.H.Təhmasib isə «1927-1936-cı illərdə» çap olunan V.Xuluflu nəşrləri (13, 3) haqqında bilgi verirlər.

İkincisi, H.Əlizadə nəşrləri 1940-cı ildə rus (14), 1941-ci ildə Azərbaycan dilində olmuşdur (15) və mətni ruscaya Əziz Şərif çevirmişdir. Azərbaycan dilində hazır mətn var idisə, onda necə olur ki, Dastan ilk dəfə rus dilində işıq üzü görür?

Üçüncüsü, H.Əlizadə 1929-34-cü illərdə dastanın 5 qolunu toplayıb ki, müəyyən variant fərqləri ilə «Koroğlunun Dərbənd səfəri» istisna olmaqla digər 4 qola V.Xuluflu nəşrində təsadüf olunmur. H.Əlizadənin 1936-cı ildə beş və yaxud 1937-ci ildə topladığı daha iki qolla birlikdə 7 qoldan ibarət Dastan mətnini, həmçinin Abbas Rəcəblinin 1937-ci ildə «Ədəbiyyat» qəzetinin bir neçə sayında çap



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

etdirdiyi mətni bir il sonra – 1938-ci ildə qollara ayıraraq ayrıca kitab halında dərc etdirmədiyini iddia etmək üçün əsasımız yoxdur.

Əksinə, son dövr tədqiqatlarında əldə olmadığı səbəbindən haqqında heç bir məlumat verilməyən 1936 (yaxud 1937) və 1938-ci il nəşrlərinin mövcudluğunu ehtimal etmək üçün kifayət qədər əsaslar yaranır. Ehtimal etmək olar ki, sözügedən nəşrlərin toplayıcı və tərtibatçıları repressiya qurbanları olduqları üçün bu kitablar dövriyyədən çıxarılmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, 1936 (1937) və 1938-ci il nəşrləri haqqında verilən bilgilər çox məhduddur. A.Rəcəblinin «Ədəbiyyat» qəzetində hissə-hissə çap etdirdiyi mətn isə dastanın bir neçə qolunu əhatə etdiyindən xüsusilə diqqətçəkicidir. Mətn Şəmkir rayonunun Seyfəli kəndindən olan Aşıq Hüseyndən yazıya alınmışdır. Abbas Rəcəbli Gəncədə yaşamış və əsasən jurnalistika ilə məşğul olmuşdur. Onun toplayıb nəşr etdirdiyi bu mətn həvəskar işidir. Belə ki, naşir mətni heç bir qola ayırmamış, qolları müstəqil adlar altında verməmişdir.

Haqqında söhbət gedən bu mətn ön söz və şərhlərlə birgə 1999-cu ildə ayrıca kitab halında təkrar nəşr olunub (16). Nəşrdə ümumi mətn bir-birindən süjet çevrəsinə görə ayrılmış, hər bir qola cərəyan edən hadisələr və digər mövcud nəşr qolları ilə oxşarlığına görə ad verilmiş və şərti olaraq «Aşıq Cünunla Telli xanım», «Dəmirçioğlunun Telli xanımı gətirməsi», «Koroğlunun Tuhat səfəri» adlarıyla adlandırılmışdır.

Bu qolları digər tam nəşrlərdəki eyniadlı qollarla müqayisə etdikdə, bəzi fərqlər meydana çıxır və bu mətnin dəyərini və özəlliklərini nəzərə alaraq, şərti olaraq adlandırdığımız qolların digər eyniməzmunlu qollarla fərqlərinin bəzi məqamlarını qeyd etməmək mümkün deyil.

Belə ki, «Aşıq Cününla Telli xanım» və süjet əlaqəsi etibarilə onun davamı saydığımız «Dəmirçi oğlunun Telli xanımı gətirməsi» qolunu V.Xuluflu, H.Əlizadə, M.Təhmasib nəşrləri, «Paris nüsxəsi», «Koroğlu»nun Təbriz variantı və A.Nəbiyev variantı ilə müqayisə etdikdə fərqli və oxşar cəhətlərin mövcudluğu ortaya çıxır. Öncədən qeyd edək ki, dastanın yalnız V.Xuluflu variantında «Cünul Aşıx və Telli xanım» adlı qol müstəqil qol kimi verilmişdir. H.Əlizadə və M.Təhmasib nəşrlərində, A.Nəbiyev və Təbriz variantında isə bu qol «Dəmirçi oğlunun Telli xanımı gətirməsi» qolu daxilindədir. «Paris nüsxəsi»ndə istər «Aşıq Cünun və Telli xanım», istərsə də «Dəmirçi oğlunun Telli xanımı gətirməsi» qolu haqqındı heç bir məlumat yoxdur. Abbas Rəcəblinin topladığı mətndə, yuxarıda da qeyd etdiyimiz kimi, bu qolların heç biri müstəqil qol kimi verilməmiş, bir qol digərinin davamı kimi çap olunmuşdur.

Hadisələrin gedişi, Telli xanımın Aşıq Cünunun vasitəsi ilə Koroğlunu daha da yaxından tanıyıb ona namə göndərməsi digər dastan variantları ilə bəzi fərqlərlə səsləşir: A.Rəcəblinin topladığı variantda hadisələr Aşıq Cününun Koroğluya qız axtarmaq məqsədi ilə Ərzuruma gəlməsi və burada Telli xanımı görməsi ilə təşəkkül tapırsa, V.Xuluflu və «Təbriz variantı»nda Aşıq Cünul ailəsinin görüşündən gələndə, H.Əlizadə variantında Cəfər Paşanın məclisində oxuyan Aşıq Cünun Telli xanım tərəfindən öz məclisinə cağırılanda, M.Təhmasib nəşrində Aşıq Cünun Koroğlunun görüşündən qayıtdıqdan sonra Telli xanım ilə qarşılaşır; A.Nəbiyev variantında isə Telli xanım haqqında Koroğluya Dəmirçioğlunun özü məlumat verir.

Telli xanımın və Dəmirçioğlunun şəxsiyyəti müxtəlif variantlarda müxtəlif cür verilir. Belə ki, A.Rəcəbli variantında Telli xanım Ərzurum paşası Cəfər paşanın bacısı, V.Xuluflu, A.Nəbiyev, «Koroğlu»nun Təbriz variantı və H. Əlizadə nəşrində isə Ərzurum paşası Cəfər paşanın qızı kimi təqdim olunur.

V.Xuluflu nəşrində - dastanın birinci hissəsində Dəmirçioğlunun yeri bəlli deyil, digər variantlardakı kimi o, nalbənd oğludur. Dastanın ikinci hissəsində isə Dəmirçioğlu Silistrə şəhərindən gətirilən, usta şagirdi kimi verilir. Biz onun Koroğlunun yanına gəldikdən sonra adlı dəlilərin deyil, tövləçilər-atabaxanlar sırasında olduğunu görürük. Yalnız o, hadisələrin sonrakı inkişafında adlı-sanlı dəlilərdən birinə çevrilir.

Digər variantlarda - H.Əlizadə, A.Rəcəbli və Təbriz variantında onun haradan gəldiyi haqqında məlumat verilmir. A.Nəbiyev nəşrində də Dəmirçioğlu nalbəndin oğludur, M.Təhmasib nəşrində və «Paris nüsxəsi»ndə isə Dəmirçioğlunun Naxçıvandan olduğu söylənilir.

A.Rəcəbli variantındakı hadisə və səfər təfərrüatı - Dəmirçioğlunun bir neçə dəst yaraq-yasaq götürməsi, Koroğlunun öyüd-nəsihəti, Ərəb atın itməyi, Dəmirçioğlunun Ərzurum şəhərində bir qarıya qonaq olması və s. kimi mühüm məqamlar digər variantlarda da bu və ya digər fərqləri ilə mövcuddur.

Bütün bunlara baxmayaraq, A.Rəcəblinin nəşr etdirdiyi qollar həm süjet çalarları, həm şer örnəkləri, həm də yazıya alınmış folklor nümunəsi kimi bir çox özəlliklərə malikdir və nəşrə diqqət etsək aşağıdakı qənaətləri əldə edə bilərik:

1. Abbas Rəcəbli aşıq söyləməsinə demək olar ki, müdaxilə etməmişdir. Bu, qollardakı şerlərin təqdimində xüsusilə qabarıq şəkildə nəzərə çarpmaqdadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

2. İnformator (aşıq) haqqında və onun sənət şəcərəsi barəsində bilgi verilmişdir.

3. Bu qollar «Koroğlu» dastanının nəşri sahəsindəki ilk uğurlu cəhdlərdən biri kimi olduqca böyük dəyərə malikdir.

4. Nəşr olunmuş qollar eposun variant çeşidlərinin dolğun mənzərəsini yaratmaq işində qiymətli qaynaqlardan sayıla bilər.

Ancaq A.Rəcəbli dastan mətnlərinin toplanmasını işini davam etdirməmiş, sistemləşdirməmişdir. Buna görə də onun təqdim etdiyi mətni yalnız «Koroğlu» dastanının toplanılması işində uğurlu cəhd» kimi dəyərləndirmək düzgün olardı.

Folklor mətnlərinin toplanması və nəşri sahəsində xüsusi xidməti ilə seçilən H.Əlizadə 1941-ci ildə 1940-cı ildə nəşr olunmuş 13 qolu əsasında dastanın özündən əvvəlki nəşrləridən daha mükəmməl bir variantını təqdim etdi. B.Musayevin redaktorluğu ilə «Azərnəşr» tərəfindən ilkin kirill əlifbasıyla çap olunan bu mətn özündə Koroğlunun 14 qolunu və 50 müstəqil qoşmasını əhatə eləyir (15). Həmçinin tərtibçi sonda «Variantlar» adı altında Koroğlunun qocalığına aid daha iki variantı təqdim edir – birinci variantın söyləyicisinin Tovuz rayonunun Düzqıraqlı kəndindən olan Aşıq Məhəmməd, ikinci variantın söyləyicisinin isə Qazax şəhərindən Aşıq Əlinin olduğu göstərilir. Dastanın 14 qolu 1987-ci ildə «Azərbaycan ədəbiyyatı inciləri» kitabının «Dastanlar» hissəsində yenidən nəşr olunmuşdur (17).

Ümumiyyətlə, H.Əlizadə bir toplayıcı kimi söyləyici-informatorların adını və toplanıldığı tarixi hər qolun sonunda verməklə folklor mətnlərinin toplanma qaydasına ciddi əməl etmişdir. «Koroğlu» adlı birinci qol və «Koroğlunun Toqat səfəri» adlı yeddinci qol 1937-ci ildə, ikinci qol - «Koroğlunun İstambul səfəri» və üçüncü qol – «Koroğluynan Aşıq Cünun» 1938-ci ildə, dördüncü qol - «Koroğlunun Türkmən səfəri» və on ikinci qol – «Koroğlunun Bayazıd səfəri» 1934-cü ildə Qazaxda Aşıq Əlidən, beşinci qol – «Koroğluynan Dəmirçioğlu» 1938-ci ildə Tovuzda Aşıq Mirzədən, altıncı qol – «Koroğlunun Ərzurum səfəri» 1938-ci ildə Gəncədə Aşıq İbrahim Qaracaoğlundan, səkkizinci qol – «Koroğlunun Ərzingan səfəri» 1938-ci ildə Qazaxda Aşıq Sadıqdan, doqquzuncu qol – «Koroğlunun Bağdad səfəri» 1938-ci ildə Gəncədə Aşıq İsrafildən, onuncu qol – «Koroğlunun Ballıca səfəri» 1930-cu ildə Ordubaddda Aşıq Muxtardan, on birinci qol – «Koroğlunun Rum səfəri» 1929-cu ildə Qazaxın Canallı kəndində Aşıq Məhəmməddən, on üçüncü qol – «Koroğlunun Dərbənd səfəri» 1932-ci ildə Tovuzun Bozalqanlı kəndində Şair Validən, on dördüncü qol isə – «Koroğlunun qocalığı» 1938-ci ildə Şamxor rayonunun Zəyəm kəndində Aşıq Qəmbərdən toplanılmışdır. H.Əlizadə «Koroğlunun qocalığı» qolunu üç variantda topladığını, ən mükəmməl saydığını mətn daxilində - sonuncu qol olaraq, digər ikisini isə «Variantlar» adı altında təqdim etdiyini də bildirir (15, 157).

Müstəqil şerlərin söyləyiciləri haqqında isə bilgi yoxdur. «Qoşmalar» bölümündə təqdim edilən bu şer mətnlərinə H.Əlizadə «bu qoşmalar əldə edilmiş Koroğlu dastanında yoxdur, ayrılıqda aşıqlar tərəfindən oxunur» (15, 166) qeydini vermişdir.

Ötən əsrin 40-cı illərindən başlayaraq görkəmli alim Məhəmməd Hüseyn Təhmasib «Koroğlu» dastanının toplanması, nəşri və təbliği sahəsində gördüyü çoxçalarlı fəaliyyəti ilə yadda qalmışdır. Təhmasib təkcə bir nəşrlə kifayətlənməmiş, az qala 40 il müddətində yeni-yeni nəşrlərin müəllifliyini etmiş və bu sahədə ağır yükü təkbaşına daşımışdır.

Belə ki, H.Əlizadədən sonra M.H.Təhmasib 1949-cu ildə Həmid Araslının redaktorluğu ilə «Koroğlu» dastanını ilkin kirill əlifbasıyla daha mükəmməl formada nəşr etdirdi (18). Bu nəşr müqəddimədən, 17 ayrı-ayrı müstəqil qoldan, qeyd, izah və lüğətdən ibarətdir.

Təhmasib yazdığı çox geniş «Müqəddimə»də Dastanı hərtərəfli səciyyələndirməyə çalışmış, yaranmasından tutmuş nəşrlərinə qədər əhatəli münasibətini ortaya qoymuşdur. Alim Koroğlunun tarixiliyinə diqqəti çəkmiş, «1602-1670-ci illərin tarixini yazmış erməni tarixçisi Arakel Təbrizlinin» əsərində «Bu haman Koroğludur ki, hazırda aşıqlar tərəfindən oxunan saysız-hesabsız nəğmələr demişdir… Min nəfərlə üsyan qaldırmış Giziroğlu Mustafa bəy, bu, haman nəğmələrdə adı çəkilən, Koroğlunun dostu Giziroğlu Mustafa bəydir» (18, 8) qeydinə, həmçinin Elyas Muşeğin 1721-ci il əlyazmasındakı «…bu, İran şahı Şah Abbas və Türkiyə sultanı Sultan Muradın hakimiyyəti dövründə olmuşdur» məlumatına əsasən, «bu müəlliflərə inanmamaq üçün bizim heç bir əsasımız yoxdur» qənaətinə gələrək Koroğlunun tarixi şəxs olduğunu təsdiqləyənlər sırasına qoşulmuşdur (18, 8-9).

Təhmasib tarixiliklə bağlı fikirlərini Dastandakı Kosa Səfər, Dəli Həsən, Dəmirçioğlu, Hasan Paşa, Bolu bəy, Əmirgünə xan obrazlarının tarixiliyi, eyni zamanda toponimlərin dürüstlüyü və Cəlalilər üsyanı zamanı baş verən hadisələrin eynilə qollarda əksini tapmasına dair faktlarla qüvvətləndirir, təzkirələrdə günümüzə gəlib çıxan tarixi hadisələrlə səsləşən dastan mətnlərini müqayisələrə cəlb edir. Ancaq «Koroğlu» dastanının bu tarixi hadisələrin təsvirindən ibarət olmadığını irəli sürən Təhmasib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«dastan bədii əsər olaraq öz qidasını daha başqa mənbələrdən almış, daha aydın deyilsə, özündən qabaqkı və sonrakı dövrlərə aid olan tarixi hadisə və əfsanələrdən, eləcə də bir sıra xalq ədəbiyyatı əsərlərindən istifadə edilmişdir» - rəyini irəli sürür: «Dastan qədim epos, süjet və motivlərinin tarixi hadisələrin yaratmış olduğu epizodlarla qaynayıb-qovuşmasından əmələ gəlmişdir» (18, 11-12).

Müəllifin «Kitabi-Dədə Qorqud»la «Koroğlu» dastanı arasında paralellər aparması, özəlliklə, «Uşun qoca oğlu Seyrək» boyu ilə «Bağdad səfəri», «Qambörə oğlu Bamsı Beyrək boyu»nun sonu ilə (boyun bütövlükdə «Aşıq Qərib» dastanı ilə müqayisə oluna biləcəyini qeyd edir) «Toqat səfəri» və «Ərzincan səfəri»ni müqayisə etməsi elmi-nəzəri baxımdan qənaətbəxş sayılmasa da, diqqəti özünə çəkir. Həmçinin, Qıratın əfsanəvi at olması, adın «qor at»dan (Od at) yaranması ilə bağlı fikirlərindən də görünür ki, 1949-cu ilə olan toplanmış və əldə edilən materiallar əsasında yazılan bu müqddimə əhatəliliyinə, elmi fikirlərinə görə koroğluşünaslıqda əhəmiyyətli tədqiqatlardan biri sayıla bilər. Müqəddimədən M.Təhmasibin 1942-ci il London (müəllif yeri gəldikcə Xodzkonun yazdığı ön sözdən sitatlar təqdim edir), 1956-cı il Penn nəşrlərindən və bu nəşrlərə verilən tənqidçi rəylərindən məlumatlı olduğu aydın olur.

Müəllif Azərbaycanda bir neçə dəfə çap edilən «Koroğlu» dastanı içərisində ən mükəmməli kimi «Azərbaycan xalq ədəbiyyatının toplayıcısı Hümmət Əlizadənin 1935-ci ildə nəşr etdirmiş olduğu «Koroğlu» adlı kitabı»ndan bəhs edir. Maraqlıdır ki, M.H.Təhmasib «Koroğlu»nun 1941- ci və 1942 - ci il (18, 6) nəşrindən ümumiyyətlə söz açmır.

Bu anlaşılmazlığa M.H.Təhmasib tərəfindən «Koroğlu»nun «yenidən işlənmiş və tamamlanmış» 1956-cı ildə nəşrinə verilən müqəddəmədə aydınlıq gətirilir. Müəllif burada mükəmməl nəşr kimi «aşıq yaradıcılığı və dastanlarımızın toplanmasıda ən çox iş görmüş Hümmət Əlizadə» tərəfindən dastanın «14 qoldan və kitabın sonunda verilmiş 50-dən artıq qoşmadan» ibarət 1941-ci il nəşrini göstərir (19, 18).

M.H.Təhmasib 1949-cu il nəşrinə yazdığı müqəddimədə «müxtəlif aşıqlardan toplanmış» 41 variantın hamısının çapını doğru yol saysa da, açıqlamadığı «müxtəlif səbəblərdən» variantlar əsasında 17 qoldan ibarət kitabın hazırlandığını bildirir.

Bu nəşrdə «Alı kişi», «Koroğlu ilə Dəli Həsən», «Koroğlunun İstanbul səfəri», «Dəmirçioğlunun Çənlibelə gəlməsi», «Koroğlunun ərzurum səfəri», «Koroğlunun Türkman səfəri», «Koroğlunun Bağdad səfəri», «Koroğlunun Toqat səfəri», «Koroğlunun Rum səfəri», «Koroğlunun Bayazid səfəri», «Qulun qaçması», «Koroğlunun Ballıca səfəri», «Koroğlunun Ballıca səfəri», «Koroğlunun Qras səfəri», «Hasan paşanın Çənlibelə gəlməsi», «Koroğlunun qocalığı» qolları toplanmışdır. Müəllif qeyd və izahlar bölməsində mətnlərin nə vaxt və kimdən toplanıldığı, həmçinin indiyə kimi çap olunub-olunmadığı haqda məlumat vermiş, qolların hansı variantlar əsasında işlənildiyini açıqlamışdır. Eyni zamanda, müqəddimədə deyildiyi kimi, «istər məzmuna, istərsə də qollarda istifadə olunmayan müstəqil qoşmalara» əsasən dastanın tam toplanılmadığı qənaətinə gələn M.Təhmasib (18, 28) «Misir səfəri, Gürcüstan səfəri, Kaxetiya səfəri və başqa bir sıra tam qolların» mövcudluğu ehtimalını irəli sürür. Fikrimizcə, bu rəyinə son dərəcə aludəçilik dastana daxil edilən bəzi qolların müəllif tərəfindən, qoşmalar əsasında düzülüb-qoşulmasına gətirib çıxarmışdır və bu məqsədlə bəzi qoşmalara hətta redaktələr də edilmiş, dastan süjetlərilə tarixi hadisələr arasında oxşarlığı artırmaq üçün heç bir ehtiyac olmadan, İsgəndər Münşinin «Əmirgünə xan Üçkilsə yaxınlığında, qaladan kənarda üsyançılara böyük bir ziyafət vermişdir» tarixi məlumatı «Qulun qaçması» boyunda dastanlaşdırılmışdır.

Folklor mətninə ciddi müdaxilələrinə baxmayaraq, bu nəşr oxucular tərəfindən yüksək səviyyədə qəbul edilmiş və həddindən artıq geniş yayılmışdır. Beləliklə, dastanın təkrar çapı məqbul sayıldığından 1956-cı ildə, yuxarıda qeyd edildiyi kimi, H.Araslının redaktorluğu ilə Təhmasib «yenidən işlənmiş və tamamlanmış» ikinci nəşri elmi ictimaiyyətin və oxucuların ixtiyarına vermişdir.

«Yenidən işlənmiş» bu nəşr də 1949-cu il nəşri kimi, müqəddimədən, 17 qoldan, qeyd, izah və lüğətdən ibarətdir (19). Dəyişiklik daha çox müqəddimədə özünü göstərir və hesab edirik ki, müəllif «yenidən işlənmiş» ifadəsi altında qollardakı xırda ədəbi redaktələri deyil, məhz «yeniləşən» təqdimatı nəzərdə tutmuşdur.

Gözlənildiyinin əksinə olaraq, M.H.Təhmasib 1949-cu ildə dastanın təhlili ilə bağlı irəli sürdüyü elmi fikirlərini burada nəinki inkişaf etdirmiş, hətta çox uğurlu tərzdə toxunduğu bəzi məqamların təkrarını məqbul saymamış, dastanın dini-siyasi mahiyyətini tamamilə inkar etmiş, «beynəlmiləlçi-internasional» ruhlu olduğunu isbatlamağa çalışmış və daha yığcam «Müqəddimə» vermişdir. Məsələn, şifahi xalq yaradıcılığının, xüsusilə aşıq sənətinin kökləri, «Qırat» sözünün açımı, dastanın Osmanlı Türkiyəsinin istilalarına qarşı yaranan Cəlalilər Hərəkatından doğmasını, obrazların tarixiliyi və s. bağlı 1949-cu il nəşrinin «Müqəddimə»sində səsləndirdiyi fikirlərə yeni «Müqəddimə»də rast gəlinmir. Əvəzində isə müəllif «Koroğlu»nun ideya-siyasi mahiyyətini kəndli üsyanlarıyla əlaqələndirmiş, Koroğluyla Qatır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məmmədi müqayisə etmiş, «müvəqqəti müsavat hakimiyyəti və osmanlı müdaxiləçiləri ilə mübarizə aparmış», «1919-cu ildə müsavatçılar tərəfindən xaincəsinə öldürülmüş» (19, 7) Qatır Məmmədin – «bu xalq qəhrəmanının» dastanlaşmamasının səbəbini «onun mübarizə apardığı aləmin məhv olması ilə» əlaqələndirmiş, fikirlərini Azərbaycanın Rusiyaya ilhaqından sonra «Koroğlu» eposunun böyümə, genişlənmə mənasında inkişaf etməməsiylə əsaslandırmağa çalışmışdır.

Təbii ki, bu müqayisənin olduqca uğursuz və yersiz olduğunu geniş izah etməyə ehtiyac yoxdur. Yalnız Azərbaycan xalqının istər qəhrəmanlıq, istərsə də məhəbbət dastanlarının yaranmasında başlıca səbəbləri düzgün qiymətləndirməmək nəticəsində bu cür paralellər aparmaq mümkündür. Əgər deyildiyi kimi, həm Koroğlu, həm də Qatır Məmməd «kəndli üsyanlarının rəhbərləri, Osmanlı işğalçılarına qarşı ümumxalq mübarizəsi aparanlardırsa», onda niyə birinci nəinki Azərbaycanda, həmçinin «işğalçıların» özündə və bütün Orta Asiyada dastanlaşdırılır, mifikləşdirilir, ikinci isə yaddaşlardan tamamilə silinir. Əslində, Qaçaq Nəbi və Qatır Məmməd tarixi şəxsiyyətlərinin dastanlaşmaması müəllifin dediyi kimi, ictimai-siyasi formasiyanın məhv olmasıyla deyil, onların mübarizələrinin arxasında dini-siyasi ideologiyanın dayanmamasıyla bağlıdır. Koroğlunu ideya mübarizəsindən ayırmaq, onun ideoloji rəhbər olmadığını iddia etmək dastanı dərkolunmaz bir aləmə çevirir. Ona görə də M.H.Təhmasibin yeni müqəddimədə Xodzko nəşrinə ayrı prizmadan yanaşmasını, Koroğluda görünən «çox aydın şiəlik, hətta müsəlmanlıq tendensiyalarını» «Xodzkonun» öz «fəaliyyətinin» nəticəsi kimi izahlamasını qəbul etmək mümkün deyil. Müəllifin «bu gün xalq içərisində yaşayan «Koroğlu» eposunda belə şeylər yoxdur, o, əməkçi xalqın nümayəndəsi, sultanların, şahların, xan və bəylərin barışmaz düşmənidir» (19, 18) arqumenti isə ona görə əsassızdır ki, «belə şeylərin olmaması üçün» M.H.Təhmasib dastanı büsbütün dəyişmiş və folklorşünasların haqlı olaraq «müəllif romanı» adlandıracağı səviyyədə dastana müdaxilələr etmişdir.

M.H.Təhmasib həmçinin, erməni alimi Samoelyanın «tarixi şəxsiyyət kimi azərbaycanlı» olan Koroğlunu «İran mühitində iranlı, kürd mühitində kürd, erməni mühitində erməni» kimi təqdim etməsini cidd-cəhdlə müdafiə edir, kökündən yanlış olan bu münasibəti əsaslandırmağa çalışır: «Koroğlunun dəliləri öz sinfi mahiyyətlərinə görə aşağı təbəqədəndirlərsə, öz milli mənsubiyyətlərinə görə internasional tərkibə malikdir. Burada erməni, gürcü, kürd, ləzgi və başqa xalqların nümayəndələri vardır» (19, 16-17).

Halbuki dastan mətnlərinə əsasən Koroğlu dəlilərinin bütövlükdə aşağı təbəqədən çıxdıqlarını iddia etmək mümkün olmadığı kimi, mübarizənin «internasional xarakterini» göstərəcək əlamət də yoxdur. Ancaq Sovet ideolojiyasının tələbi qarşısında çıxılmaz qalan müəllif 1949-cu il nəşrinə yazdığı müqəddəmidəki yeni fikirlərini təkzib edəcək faktlar, yuxarı təbəqədən çıxmış və Koroğlunun yaxın ətrafı sayılan tarixi şəxsiyyətlər - Giziroğlu Mustafa bəy, Kosa Səfər, Həsən Cəlali, İsabalı və s. – haqqında heç nə demir, əksinə, «Şah Abbasın etibar etmədiyi yerli qızılbaş tayfalarının əksəriyyətini məhv etməsiylə» (19, 11-12) bağlı mənbəyi göstərilməyən və uydurma «tarixi həqiqətə» sığınmağa çalışır.

Ümumiyyətlə, təhlildən daha çox, «Koroğlu» dastanının mahiyyətini yanlış istiqamətdə yozmağa hesablanan «təkmil» nəşrdəki müqəddimənin yazılması H.Təhmasibin dövrün siyasi konyukturası qarşısında məcburiyyətindən irəli gəlmişdir. Ancaq nəzərə alsaq ki, 1949-cu ildə Sovet imperiyasında konyektura daha güclüydü və Stalinin ölümündən sonra Nikita Xruşşovun 1953-cü ildə hakimiyyətə gəlməsiylə siyasi təzyiqlər azalmış, hətta 30-cu illərdə bir çox ziyalının ədalətsizcəsinə mühakimə olunması və qətli ifşa edilmiş, onlara bəraət verilmişdir, onda Təhmasibin ilk nəşrə yazdığı müqəddimədəki daha dolğun və cəsarətli fikirlərini 1956-cı ildə təkzib etməsini və dastanı qeyri-elmi, bəsit üsullarla hakim ideologiyanın şərtlərinə uyğunlaşdırmaq yönündəki mənasız cəhdlərini anlamaq olmur.

M.Təhmasib 1959-cu ildə «Azərbaycan Elmlər Akademiyası nəşriyyatı»nda bu nəşri təkrar (20), üçüncü dəfə çap etdirmiş, 1965-ci ildə isə dastanın «orta və böyük yaşlı uşaqlar üçün» hazırlanmış mətnini oxucuların ixtiyarına vermişdir (21). Eyni zamanda, 1959-cu ildə Təhmasibin tərtibatı, H.Araslının ön sözü ilə «Koroğlu» dastanı rus dilində çapdan çıxmışdır (22, 102).

H.Araslı ön sözdə dastanın tarixiliyi, «Cəlalilər Hərəkatı» ilə bağlılığı, Koroğlunun Osmanlı-Səfəvi müharibələri zamanı meydana çıxdığını rusdilli oxucular üçün aydınlaşdırmışdır. Maraqlıdır ki, M.H.Təhmasibin 1956 və 1959-cu il nəşrlərinə yazdığı müqəddimədəki yanlış fikirləri qətiyyən təkrar etməyən H.Araslı dastana daha çox elmi nöqteyi-nəzərdən yanaşmışdır. A.Təbrizinin 1670-ci ildə öldüyü, öz tarixi kitabını 1662-ci ildə tamamladığı, Koroğlunun böyük ehtimalla XVII əsrdə yaşadığını bildirən X.Samuelyanın fikirlərini bölüşən H.Araslı erməni alimindən gətirdiyi sitatla bu tarixi dəqiqləşdirir: «Bu tarix, göründüyü kimi, Türkiyə variantındakı bir şerin tərcüməsində əksini tapmışdır: «Mən, Koroğlu, 1018-ci ildə Eyvaz xana dağları göstərdim…» Bu müsəlman təqvimi bizim tarixlə 1600-cü ilə təsadüf edir» (22, VII-VIII). Nəzərə alsaq ki, Cəlalilər Hərəkatı 1591-ci ildən başlayaraq geniş vüsət almışdır, onda bu tarixi faktların üst-üstə düşdüyünü aydınca müşahidə etmək olur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1969-cu ildə «Koroğlu» dastanı M.H.Təhmasibin tərtibatı ilə təkrar çap edilmişdir (23). «Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı»nda dərc olunan 5 cildlik «Azərbaycan dastanları»nın 4-cü cildi «Koroğlu» dastanından ibarətdir. H.Araslının redaktorluğu ilə çap olunan bu nəşrdə M.H.Təhmasib əvvəlki nəşrlərdən fərqli olaraq, «Müstəqil qoşmalar» bölməsində Koroğlunun müxtəlif mənbələrdə rast gəlinən və dastanda əksini tapmayan qoşmalarını da dərc etdirmişdir. Belə ki, Elyas Muşeqyanın «Nəğmələr kitabı»nda təsadüf edilən 7, erməni əlifbasıyla qələmə alınan 1, Əndəlib Qaracadağinin «Şerlər» məcmuəsindəki 19, 1935-ci ildə nəşr olunmuş «El şairləri» kitabının ikinci cildindəki 2, Gürcüstan Dövlət Arxivində saxlanılan və gürcü əlifbasıyla qələmə alınan 6 – ümumilikdə 35 qoşma verilmişdir.

Qeyd edək ki, 5 cildlik «Azərbaycan dastanları» 2005-ci ildə AMEA Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə Əliağa Cəfərli, H.İsmayılov və S.Axundova tərəfindən yenidən işlənib təkmilləşdirilərək «Çıraq» nəşriyyatında çap edilmişdir (24).

M.H.Təhmasib eposun dəyərini və əhəmiyyətini düzgün qiymətləndirərək «Koroğlu» dastanının nəşri sahəsində fəaliyyətini davam etdirmişdir. Beləliklə, müəllif «Gənclik» nəşriyyatı tərəfindən 1975-ci ildə dastanı növbəti dəfə dərc etdirir(25), 1982-ci ildə isə eyni nəşriyyatda təkmilləşmidirmiş daha bir çapını elmi ictimaiyyətə təqdim edir (26).

1982-ci il nəşrinə M.H.Təhmasibə çox yığcam – «Bir neçə söz» başlığı altında dastanın nəşr tarixinə ötəri nəzər salmaqla kifayətlənən müqəddimə vermişdir. Tərtibçi bir daha əvvəlki fikrinə qayıdaraq dastanın tam toplanmadığını önə çəkir, «Adı Qoç Koroğlu, Urumda bəlli», «Eyvazı göndərdim Şama», «Mənəm Cazirənin şiri, pələngi» və sair misralı qoşmalara əsasən dastanın «Şam səfəri», «Urum qolu», «Cazirə qolu» qollarının mövcudluğu ehtimalını irəli sürür, eləcə də «Türkmən səfəri»ndə Koroğlunun Alacalar adlı yerdə 7 gün, 7 gecə mühasirədə qalmasına işarə edildiyini bildirərək, bu süjetin də əldə olunmadığını, ancaq son illərdə folklorçuların uğurlu axtarışlar apardığını və dastanın yazıya alınmayan bir neçə qolunun izinə düşdüklərini, bu sırada Əli Sadəddin tərəfindən «Qəhrəman», «Koroğlunun divlərlə görüşü», «Koroğlunun Tehran səfəri» epizodlarını, həmçinin Azad Nəbiyevin topladığı, «müfəssəl və tam qola daha çox oxşayan» «Misri qılıncın oğurlanması», «Giziroğlu Mustafa bəyin Çənlibelə gəlməsi» və «Koroğlunun Quba səfəri» qollarını «Koroğlu» ruhunda olan epizodlar kimi dəyərləndirir, toplanılan həmin mətnlərin nəşrə daxil edilməməsini isə «hələlik tam mükəmməl qol səviyyəsində olmamaları» ilə izah edir (26, 3-4).

Ancaq M.H.Təhmasib Kəlbəcərdə müəllim işləyən və aşıq yaradıcılığını, həmçinin «Koroğlu» eposunu çox gözəl bilən Əli Qurbanov adlı müəllim tərəfindən toplanmış «Mərcan xanımın Çənlibelə gəlməsi» qolunu yüksək qiymətləndirmiş, qolun əvvəlki nəşrlərdə gedən 17 qoldan heç fərqlənməyən ən gözəl mətn olduğunu bildirərək bu nəşrə daxil etməyi münasib saymışdır və beləliklə, 18 qoldan ibarət son nəşri «daha mükəmməl» kimi təqdim etmişdir.

Müəyyən qüsurlara, həmçinin folklor mətnlərinin nəşri qaydalarına riayət olunmamasına baxmayaraq, M.H.Təhmasibin «Koroğlu» dastanının nəşri sahəsində 40 ilə yaxın müddətdə gördüyü işin həcmi olduqca böyükdür. Məhz bu alimin sayəsində dastan Azərbaycan oxucusu tərəfindən sevinclə qəbul edilmiş və məşhurlaşmışdır. Etiraf edək ki, «Koroğlu» qollarının yenidən aşıq repertuarına kütləvi şəkildə qayıtmasının və məlum olmayan qolların toplanılması işinin sürətlənməsinin bir səbəbi də M.H.Təhmasibin dastanın təbliğində sistemli olaraq çəkdiyi zəhmətin bəhrəsidir.

Onu da qeyd edək ki, bu müddət ərzində M.H.Təhmasiblə paralel olaraq bəzi alimlər də dastanın uşaqlar və məktəblilər üçün işlənilmiş variantlarını çap etməklə oxucu auditoriyasını genişləndirmişlər. Belə ki, 1951-ci ildə H.Araslı dastanı müqəddiməsiz, 32 səhifədən ibarət sadələşdirilmiş şəkildə uşaqlar üçün işləyərək «Uşaqgəncnəşr»də çap etdirmişdir (27). Həmin nəşr təkrar olaraq 1988-ci ildə işıq üzü gördü (28). Məktəblilər üçün nəzərdə tutulan 17 qolun hamısının əhatə olunduğu nəşr isə Fərhad Fərhadovun tərtibatı ilə 1975-ci ildə «Maarif» nəşriyyatında dərc olunmuşdur (29). Lakonik müqəddimə, həmçinin kiçik izahlarla məktəblilərin ixtiyarına verilən bu nəşrdə F.Fərhadov yeniyetmələrin anladığı səviyyədə dastanın tarixiliyinə qısaca toxunmuş, daha çox hərəkatın beynəlmiləlçi xarakterinə diqqət çəkmişdir ki, bu da ideoloji senzuranın tələbinin ödənilməsi kimi qavranıla bilər.

«Koroğlu» dastanının nəşri sahəsində xidmət göstərən alimlərdən biri də İsrafil Abbaslıdır. Alim xüsusilə dastanın erməni mənbələrində qorunan əlyazmaların, o cümlədən müxtəlif illərdə erməni dilində çap olunmuş «Koroğlu» mətnlərinin, araşdırmaların öyrənilməsi, tərcümə və nəşr edilməsi sahəsində müxtəlif xidmətlər göstərmiş, dəyərli tədqiqatlar aparmışdır. 1997-ci ildə isə İ.Abbaslı dastanın «Paris nüsxəsi»ni – A.Xodzko variantını ilk dəfə olaraq Azərbaycan dilində, «Ön söz», «Lüğət və şərhlər»lə çap etdirmişdir (30).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Müəllif «Ön söz»də Paris nüsxəsinin nəşr tarixinə nəzər yetirmiş, əlyazmanın qələmə alınma tarixi, toplayıcı və söyləyici-informatorla bağlı verilən məlumata əsasən fikirlərini bildirmiş, bu variantın digər «Koroğlu» variantlarının «əsasını, kökünü, mayasını, başlanğıcını təşkil etməsiylə» (30, 8) bərabər bəzi motivlərin istisna olduğunu qeyd etmiş, həmin motiv-epizodları qruplaşdırmış, həmçinin süjet, qoşma, təhkiyə üslubu haqqında qənaətlərini bölüşmüşdür.

Qeyd edək ki, Paris əlyazmasının yurd hissəsini Azərbaycan dilinə Qulamrza Budaqi tərcümə etmiş, İ.Abbaslı isə mətni qəhrəmanlıq dastanlarımızın üslubuna, dastan ifaçılığı ənənələrinə uyğunlaşdıraraq kiçik düzəlişlər vermiş, qoşmaların, ayrı-ayrı söz və ifadələrin dəqiqləşməsində «V.Xuluflu, H.Əlizadə, M.H.Təhmasib nəşrlərindən» (30, 3) istifadə edilmişdir. Ona görə də nəşr elmi-tənqidi nəşr hesab olunmur və müəllifin də qeyd etdiyi kimi, tənqidi mətnin çapı koroğluşünaslıqda həllini gözləyən problemlərdəndir. Qeyd edək ki, «Paris nüsxəsi» 2005 – ci ildə təkrar nəşr olunmuşdur (31).

Azərbaycan Milli Elmlər Akademiyası Folkor İnstitutunun folklor mətnlərinin nəşr olunması və elmi ictimaiyyətə çatdırılması sahəsində atdığı mühüm addımlardan biri də «Koroğlu» dastanının 2000-ci il nəşridir (32). Dastanın rus dilində nəşrinə tərtibat verən İ.Abbaslı dastana ön söz də yazmışdır. İlk dəfə 25 qolu özündə əks etdirən nəşr kimi koroğluşünaslığa daxil olan bu nəşrin redaktoru Gülrux Əlibəyova, ruscaya tərcüməçisi İmran Seyidovdur.

Maraqlıdır ki, bu nəşr rusdilli oxuculara təqdim olunduqdan 3 il sonra – 2004-ci ildə ana dilində çap olunmuş və əlavə edilmiş yeni qollarla Azərbaycan oxucusu da tanış olmaq imkanı əldə etmişdir (33). Sözügedən nəşr 2005-cü ildə yenidən işıq üzü görmüşdür (34).

Hər üç nəşrin ön sözünün müəllifi İ.Abbaslıdır, arxivin təsviri isə B.Abdullaya aiddir. Azərbaycan dilində olan nəşrlərə İ.Abbaslı redaktorluq etmişdir və rusca nəşrdən fərqli olaraq, dastana «Lüğət» və «Söyləyicilər və toplayıcılar haqqında məlumat» da daxil edilmişdir.

Nəşrlər AMEA-nın Folklor İnstitutunun elmi arxivində qorunan materiallar əsasında tərtib olunaraq 25 qolu əhatə etsə də, fərq də mövcuddur. Belə ki, Azərbaycan dilində olan nəşrlər özündə H.Əlizadənin topladığı «Alı kişi», «Aşıq Cünun», «Koroğlunun Türkman səfəri», «Koroğlunun Bayazid səfəri» (söyləyəni Alış Əli), «Koroğlunun İstambul səfəri» (söyləyəni Aşıq Abbas), «Koroğlunun Rum səfəri», «Koroğlunun qocalığı» (söyləyəni Aşıq Məhəmməd), «Dəmirçioğlunun Çənlibelə gəlməyi» (söyləyəni Aşıq Mirzə), «Koroğlunun Ərzurum səfəri» (söyləyəni Aşıq İbrahim Qaracaoğlu), «Durna teli» (söyləyəni Aşıq İsrafil), «Koroğluynan Bolu bəy» (söyləyəni Aşıq Sadıq), «Həmzənin Qıratı aparması» (söyləyəni Aşıq Qoca), «Koroğlunun Dərbənd səfəri» (söyləyini Şair Vəli) və «Koroğlunun Ballıca səfəri» (söyləyəni Aşıq Muxtar); Ə.H.Tahirovun topladığı «Koroğluynan Dəli Həsən» (söyləyəni Aşıq Həsənbala), «Koroğluynan Aypara» (söyləyəni Aşıq Cahandar) və «Koroğluynan Bəylər» (söyləyəni Əliş Səməd); E.Məmmədlinin topladığı «Ağcaquzu» və «Pərzad xanımın Çənlibelə gəlməyi» (söyləyəni Aşıq Aslan Kosalı); M.Həkimovun topladığı «Mahru xanımın Çənlibelə gəlməyi» (söyləyəni Aşıq Hüseyn Cavan) və «Zərnişan xanımın Çənlibelə gəlməyi» (söyləyəni Aşıq Hüseyn Saraclı); Əli Qurbanovun topladığı «Mərcan xanımın Çənlibelə gəlməyi» (söyləyəni Abbas İman oğlu Vəliyev); toplayanı məlum olmayan «Qulun qaçması» (söyləyəni Aşıq Mehdi), həm toplayanı, həm də söyləyəni haqda heç bir bilgi verilməyən «Koroğluynan Ərəb Reyhan» və «Hasan paşanın Çənlibelə gəlməyi» qollarını ehtiva edir. 2000-ci il nəşrində verilən yalnız bir – «Giziroğlu Mustafa bəyin Çənlibelə gəlməsi» adlı 9-cu qol bu nəşrdə əksini tapmayıb, əvəzində isə «Mərcan xanımın Çənlibelə gəlməsi» qolu 24-cü qol olaraq nəşrə əlavə edilmişdir.

İ.Abbaslı «Azərbaycan qəhrəmanlıq eposu» (rusca nəşrdə «Azərbaycan qəhrəmanlıq eposu «Koroğlu» kimi getmişdir») adlı ön sözdə eposun məşhurluğuna, nəşr tarixinə diqqət çəkmiş, həmçinin 1900-cü ildə dastanı türkcədən ermənicəyə çevirərək nəşr etdirən Aşıq Camalinin «Koroğlu əfsanəvi obraz, yaxud ehtimal edilən bir adam olmayıb real tarixi şəxsiyyətdir, həm Koroğlu, həm də Giziroğlu Mustafa bəy 1605-ci ildə türk və fars işğalçılarına qarşı üsyan edən, öz igid dəstələri ilə iki dövləti sarsıdan Cəlalilərdən idilər ki, xalq onların şücaətini yaradıcılıq süzgəcindən keçirib «Koroğlunun nağılı»nı düzəltmişdir» fikirlərini misal gətirərək (34, 9-10) Koroğlunun tarixi şəxsiyyət olmasıyla bağlı fikirləri bölüşmüşdür. Eyni zamanda, İ.Abbaslı Paris Milli Kitabxanasında və Tiflisin G.Kekelidze adına Əlyazmalar İnstitutunda qorunan ən qədim «Koroğlu» dastanları əlyazmaları barədə də bilgi vermiş, elmi ədəbiyyatda «Paris nüsxəsi» kimi tanınan birinci əlyazmanın toplayanı və söyləyicisi barədəki qeydləri izahlamışdır.

Ümumiyyətlə, İ.Abbaslı bu ön sözdə elmi fikirləri senzuraya tabe etdirmədən daha ətraflı və çox geniş məlumat vermiş, A.Təbrizlinin qeydlərini ilk dəfə olaraq müdaxiləsiz, olduğu kimi təqdim etmiş, eposun qərb və şərq regionları qrupuna ayrılması, əsasən türkmən, Azərbaycan və Kiçik Asiya variantları bölgüsünü xatırladaraq bütün variantlara diqqət çəkmiş, onları müqayisə etmiş,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan variantında dastan süjetlərinin daha real hadisələr üstündə cərəyan etdiyini qeyd edərək dastanın yaranmasının bu əraziylə bağlanma səbəbini açıqlamış, eposun şerlər silsiləsində məzmun və ideya təsniflərini aparmış və əhəmiyyətli qənaətlərini bildirmişdir. Qeyd etmək yerinə düşər ki, İ.Abbaslının ön sözü mükəmməlliyinə və elmi yükünə, əhatəliliyinə və müqayisələrə görə ənənələrindən fərqli və daha mükəmməldir.

«Koroğlu» arxivinin təsvirində isə B.Abdulla AMEA-nın Folklor İnstitutunun elmi arxivində toplanmış materiallar əsasında işləmiş, eyni qolun ayrı-ayrı variant toplayıcıları və söyləyiciləri haqqında məlumat vermiş, variantlar arasındakı süjet xətlərində və qoşmalardakı fərqləri göstərmiş və beləliklə, M.H.Təhmasibin 1982-ci il nəşrində müəyyən qədər qeyd etdiyi, geniş araşdırılmasını zamanın ixtiyarına buraxdığı problemin həlli istiqamətində araşdırma aparmışdır.

Elmi ədəbiyyatda «Koroğlu» dastanının Təbriz variantı kimi tanınan, Gürcüstan Respublikasının K.Kekelidze adına Tiflis Əlyazmalar İnstitutunda saxlanılan «Tiflis nüsxəsi» haqqında ilkin məlumatı elmi ictimaiyyətə gürcü alimi Lia Çlaidze «Koroğlu» dastanının gürcü versiyaları haqqında yazdığı namizədlik dissertasiyasında məlumat vermişdir. Daha sonra isə D.Əliyeva 1958-ci ildə bu mövzuda ayrıca məqalə ilə çıxış etmiş, beləliklə də Azərbaycan alimlərinin diqqətini sözügedən əlyazmaya yönəltmişdir.

Lakin uzun müddət əlyazmanı ələ gətirmək və çap etmək mümkün olmamışdır. Yalnız 1989-cu ildə D.Əliyeva çox böyük çətinliklə əlyazmanın surətini Azərbaycana gətirə bilmiş, hətta dastanın iki məclisini dərc etdirmiş və bu barədə öz mülahizələrini bildirmişdir (35, 14). 1991-ci ildə alimin vaxtsız vəfatı isə başladığı işi yarımçıq qoymuşdur.

Nəhayət, folklorşünaslığın diqqət mərkəzində olan, bütün alimlərin tədqiqatlarında toxunulan, ancaq mətn əldə olmadığından ciddi elmi araşdırmalara cəlb edilməyən Təbriz variantının elmi-tənqidi mətni 2005-ci ildə AMEA-nın Folklor İnstitutu tərəfindən elmi ictimaiyyətə çatdırıldı (35). H.İsmayılov və T.Kərimlinin redaktorluğu ilə E.Tofiq qızının tərtib etdiyi nəşrə «Ön söz», «İzah və şərhlər», həmçinin «Lüğət» verilmişdir.

«Ön söz»də Tiflis Əlyazmalar İnstitutunda saxlanılan əlyazma haqqında məlumat verilir, ərəb əlifbasının nəsx-nəstəliq xəttində yazılmış əlyazmanın 384 vərəqdən, 768 səhifədən və 28 məclisdən ibarət olduğu bildirilir, həmçinin «Koroğlu» dastanının nəşr və öyrənilməsi tarixinə deyil, daha çox yeni variantın tədqiqinə ilkin cəhd edilir, dastanın ideya-bədii xüsusiyyətlərinə, tarixi faktların zənginliyinə, epos qəhrəmanı Təkə-Türkman Cəlali Koroğlunun tarixi «Cəlalilər hərəkatı»nın rəhbərlərindən biri olmasına diqqət yetirilir, eyni zamanda, Koroğlu mübarizəsinin arxasında böyük ideoloji zəminin dayandığı və bu ideolojiyanın səfəvi-ələvi təriqətlərindən vüsət aldığı dastan süjetləri və qoşmalarla inanclar arasında paralellər aparılaraq izah edilir.

Əlyazmada qollar «Paris nüsxəsi»ndə olduğu kimi «məclis» adıyla verilir. Hazırda dastanın qərb regionları qrupunda ən irihəcmli variant sayılan «Təbriz variantı»nda sıralanma belədir: I məclis – «Dəmirçioğlunun Telli xanımın ardınca Ərzuruma getməsi və Cəfər paşaya əsir düşməsi, Koroğlunun onun ardınca gedib onu azad etməsi», II məclis – «Koroğlunun Sultan Mahmudun qızı Nigar xanımı gətirmək üçün İstanbula getməsi və Xondkarın oğlu Bürcü Sultanla dava etməsi və Koroğlunun ona qalib gəlməsi», III məclis – «Koroğlunun Eyvazi gətirmək üçün Urfa şəhərinə getməsi və onun dayısı Reyhan Ərəblə davası», IV məclis – «Eyvazin öz bəzi yaşıdları ilə Qazlı gölə ördək və qaz üçün getməsi və onun Həsən Paşaya əsir düşməsi. Koroğlunun Həsən Paşa ilə davası və Eyvəzlə onun yaşıdlarını azad etməsi», V məclis – «Koroğlunun Van şəhərinə getməsi. Osman Paşa və Teymur ağa ilə davası. Koroğlunun Teymur ağanı öldürməsi və onun nişanlısı Əsmər xanımı Çamlıbelə gətirməsi», VI məclis – «Eyvəzin Əhməd Paşanın qızı Şərəf xanımın ardınca Hələb şəhərinə getməsi. Koroğlunun Eyvəzin dalınca gedib Əhməd Paşa ilə davası və onu məğlub etməsi», VII məclis – «Koroğlunun Mahmud xanın qızı Ceyran xanımı gətirmək üçün Dağıstana getməsi. Mahmud xanla dava etməsi və onu məğlub etməsi», VIII məclis – «Bəlli Əhmədin Davud Paşanın qızı Qumru xanımı gətirmək üçün Ərzuluma getməsi və tutulması. Koroğlunun onun dalınca gedib Davud Paşa ilə dava etməsi və Bəlli Əhmədi xilas etməsi», IX məclis – «Cəlali Koroğlunun Həsən Paşanın sərdarı Bolı bəglə davası və Toxatdan Həsən Paşanın qızı Səadət Bəgim xanımı gətirməsi», X məclis – «Koroğlunun Kürdüstana getməsi və Kürdüstan valisi Əhməd Paşa ilə dava edib onun qızı Leyli xanımı gətirməsi», XI məclis – «Səlim Paşanın nökəri Həmzənin Koroğlunun atını oğurlaması və Koroğlunun onun ardınca gedib atı ilə birlikdə Səlim paşanın qızı Donə xanımı gətirməsi», XII məclis – «Səlim Paşanın qardaşı Davud Paşanın öz qardaşının qanını Koroğludan almaq üçün Qarsdan gəlməsi, Eyvəzi ovlaqdan aparması. Koroğlunun xəbər tutaraq ardınca getməsi və Davud Paşa ilə döyüşü», XIII məclis – «Cəlali Koroğlunun Xumar xanımı gətirmək üçün Misirə getməsi. Hüseyn Paşa ilə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dava etməsi və onu məğlub edərək Xumar xanımı Çamlıbelə gətirməsi», XIV məclis – «Koroğlunun Dağıstan yürüşü, Dağıstan valisi Ağa xanla vuruşması və onun qızı Şahsənəm xanımı Çamlıbelə gətirməsi», XV məclis – «Cəlali Koroğlunun Həmis şəhərinə səfəri və ordan İsa balını gətirməsi və Koroğlunun İsa balının qardaşı Həsən Paşa ilə dava edib onu məğlub etməsi», XVI məclis – «Bürcü bəgün Çamlıbelə gəlməsi, Bəlli Əhmədi əsir edib Ərzingana aparması. Koroğlunun xəbər tutub Bürcü bəgün dalınca getməsi və onunla müharibə edib, Bəlli Əhmədi xilas etməsi», XVII məclisi – «Koroğlunun Həsən Cəlalini gətirmək üçün getməsi. Sərdar Bolu bəgin izdivacı. Koroğlunun Bəhbəhanın valisi Abdal Paşa ilə müharibə edib onu məğlub etməsi və onun qızı Mərcan xanımı Həsən Cəlali üçün gətirməsi», XVIII məclis – «Qadir ağanın Eyvəz balını tutub həbs etməsi. Cəlali Koroğlunun bundan xəbərdar olub Qadir ağanın üstünə ordu çəkməsi və onun Koroğlu tərəfindən öldürülməsi», XIX məclis – «Cəlali Koroğlunun təvəllüdü, əsi və nəsəbi haqqında. Qıratın doğulması, Koroğlunun üsyanı və İsfahandan, Şah Abbasdan qaçması», XX məclis – «Koroğlunun yuxu görməsi, onun üsyanı. Şah Abbasla müsahibəsi və oradan qaçması. Koroğlunun Ruma gəlib, Van şəhərinə qədəm basması», XXI məclis – «Cəlali Koroğlunun Təxti – Süleymana gedib Ayaz bəg Çardəvli ilə müharibə etməsi və onun məğlub edib qızı Xurşid xanımı Çamlıbelə gətirməsi», XXII məclis – «Eyvəzin sərxoşluq aləmində Koroğludan küsüb Van şəhərinə Nəzər Cəlalinin yanına getməsi. Koroğlunun onun ardınca gedib Nəzər Cəlali ilə dava edib onu tələf etməsi», XXIII məclis – «Cəlali Koroğlunun adamlarından Sərxoşun Diyarbəkrə, Məlik Paşanın qızı Məhvəş xanımın ardınca getməsi və onun əsir düşməsi. Koroğlunun əhvalatdan xəbər tutub Sərxoşun ardınca getməsi və Məlik Paşa ilə müharibə edib onu qətlə yetirməsi», XXIV məclis – «Cəlali Koroğlunun silahdaşlarından Məhbubun Miri Paşanın qızı Sürahi xanıma aşiq olması və onun dalınca Əyin şəhərinə getməsi, orada əsir düşməsi. Koroğlunun Miri Paşa üstünə ordu yürütməsi, onu öldürüb Sürahi xanımı gətirməsi», XXV məclis – «Cəlali Koroğlunun Malatya şəhərinə getməsi və Fərhənglə müharibə etməsi və onu öldürməsi. Cəlali Koroğlunun Fərhəngin oğlu Kənanı Çamlıbelə gətirib saqi etməsi», XXVI məclis – «Eyvəz balının Süleymaniyyə şəhərinə, Süleyman Paşanın qızı Gülsabah xanımın dalınca getməsi. Koroğlunun onun arxasınca getməsi, Süleyman Paşa ilə davası və onun Koroğlu tərəfindən öldürülməsi», XXVII məclis – «Rum Xundkarının Məcid ağanın başçılığı altında Cəlali Koroğlunun üstünə iyirmi min nəfərlik ordu göndərməsi. Koroğlunun onunla müharibəsi. Məcid ağanın Koroğlu tərəfindən öldürülməsi», XXVIII məclis – «Koroğlunun İsfəhana Şah Abbasın yanına getməsi. İsfəhana çatmamış yolda ölümü və İsfəhan yaxınlığındakı Murçəxurd kəndində basdırılması».

Göründüyü kimi, məclislərin adları hadisələrin qısaca məzmununu ifadə edir ki, belə adlandırılma təcrübəsinə «Koroğlu» dastanının digər vaiantlarında rast gəlinmir.

Dastanın qələmə alınma tarixi və müəllifi haqqında bilgi verilmədiyindən koroğluşünaslar müxtəlif ehtimallar irəli sürmüşlər. D.Əliyeva bu tarixi XIX əsrin əvvəlinə aid etsə də, X.Koroğlu əlyazma kağızının istehsal tarixini əsas götürərək dastanın 1856-cı ildən sonra qələmə alındığı barədə ehtimal irəli sürmüşdür (35, 5). Ancaq fikrimizcə bu əlyazma özündən daha öncə mövcud olmuş mətn əsasında üzü köçürülmüşdür.

Azərbaycan folklorunun ən mühüm tərkib hissəsi olan aşıq yaradıcılığının daim inkişaf etdiyini, yeni-yeni çalarlarla və repertuarla zənginləşdiyini, şifahi mətnlərin bu gün də işlək və dinamik halda olduğunu təsdiqləyən faktlardan biri də «Koroğlu» dastanının müxtəlif qollarının variantlarıdır.

Bu baxımdan 2005-ci ildə A.Nəbiyevin 20 illik toplayıcılıq fəaliyyətinin nəticəsi olaraq araya-ərsəyə gələn «Koroğlu» dastanının yeni nəşri xüsusilə diqqəti çəkir (36). Paşa Əfəndiyevin redaktorluğu ilə çap olunan dastan 20 qoldan (19 qol və bir əlavədən) ibarətdir: I qol – «Röşən» 1973-cü ildə, III qol – «Koroğluynan Nigar xanım» və IX qol – «Qıratın oğurranması» 1979-cu ildə, həmçinin XIX qol – «Koroğlunun ölümü» 1973-cü ildə dərbəndli Aşıq Vəli Atalıyevdən Qayakənddə, II qol – «Koroğlunun İrəvana getməsi» 1976-cı ildə, həmçinin VII – «Koroğlunun Bağdada getməsi», X – «Mehbub xanımın Çənlibelə gəlməsi» və XVIII – «Qıratın Hasan paşanı öldürməsi» qolları 1977-ci ildə Dəvəçidə Aşıq Məhəmməddən, IV – «Telli xanım» və XIII – «Koroğlunun Beyazidə getməsi» qolları 1964-cü ildə Quba rayonunun Qonaqkənd qəsəbəsində Aşıq Gülbala Həşimovdan, V – «Koroğlunun Dərbənd səfəri» və XVII – «Qaracaoğlanın Çənlibelə gəlməsi» qolları 1970-ci ildə Qayakənddə dərbəndli Aşıq Utul Qutliyevdən, VI qol – «Eyvazın Çənlibelə gəlməsi» 1967-ci ildə Dərbənddə Aşıq Yəhya Ağabəyovdan, XVI qol – «Koroğluynan Ərəb İreyhan» isə 1974-cü ildə dərbəndli Aşıq Yəhya Əlibegovdan Qayakənddə yazıya alınmışdır.

XV – «Koroğluynan Bolu beg» qolu 1939-cu ildə Ə.Tahirov tərəfindən Dəvəçidə Aşıq Həsənbaladan yazıya alınmışdır. Mətn üzərində M.H.Təhmasib işləmiş və ilk dəfə «Koroğlu» dastanının 1949 və 1956-cı il nəşrlərinə daxil etmişdir. Sonralar Təhmasib orijinal mətni A.Nəbiyevə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təqdim etmiş və qol həmin mətn əsasında 2003-cü il nəşrində təkrar çap edilmişdir. Kitabda pasport qeydlərində XX -- «Koroğlunun Türküstana getməsi» qolu isə Bakı Dövlət Universitetinin tələbəsi Adil Xasıyev tərəfindən 1964-cü ildə Aşıq Həmdulladan (Quba rayonu) toplanıldığı bildirilir.

VIII, XI, XII və XV qollardan əlavə digər 16 qol ilk dəfə çap olunmuşdur. A.Nəbiyev 1964-83-cü illər ərzində topladığı 18 qoldan bəzilərini müxtəlif vaxtlarda - XII qolu 1967-ci ildə ədəbiyyatşünas İ.Abbasovun təqdimatı ilə ADU-nun «Elmi Əsərləri»ndə (37), VIII, XI və XII qolları 1972-ci ildə «Koroğlu» dastanında «Koroğlu surəti» mövzusunda yazdığı namizədlik dissertasiyasının «Əlavələr» bölməsində, həmçinin 1977-ci ildə «Azərbaycan dastanları» kitabında (36, 416) – çap etdirsə də, ön söz, qeyd və izahlarla birgə tam nəşr halında yalnız 2003-cü ildə elmi ictimaiyyətə təqdim etmişdir.

Kitabda həmçinin «Redaktordan» (Paşa Əfəndiyev) və «Azərbaycan aşıqlarının repertuarında «Koroğlu» dastanı» (X.Koroğlu) adlı iki rəy də daxil edilmişdir ki, hər iki müəllif aşıqlardan toplanmış və dialekt xüsusiyyətlərini saxlayan bu nəşrin koroğluşünaslıqda xüsusi önəm daşıdığını bildirmişlər.

Tədqiqat predmetimizə uyğun olaraq folklor mətnlərinin yazılı ədəbiyyatdan fərqliliyini göstərən bəzi xüsusiyyətlərə toxunmaq istərdik. Hər hansı bir folklor mətni folklor qəlibləri, modelləri əsasında yaranır, şifahi ənənədə yaşayır, variant və versiyalara malik olur, etnik mifoloji dünya modelinə əsaslanır, bədii-estetik və praktik funksiya daşıyır, dil-üslub baxımından folklor üslubunu qoruyur (38, 3-18). A.Nəbiyevin özü də bu problemə yazdığı ön sözdə toxunmuş, «Koroğlu»nun toplanması və nəşri təcrübəsi sahəsində görülən işləri dəyərləndirməklə yanaşı, A.Rəcəbli, V.Xuluflu və H.Əlizadədən sonra dastanın daha geniş «aşıq variantını bərpa etmək əvəzinə yazılı ədəbiyyata çevrilib romanlaşdırılmasına meyl» edildiyi (36, 7) narahatlığını ifadə etmişdir.

Bu məqamda qeyd etmək yerinə düşər ki, aşıqlıq təkcə saz çalmaq, oxumaq və oynamaqdan ibarət deyil. Aşıq, bu sahədə ətraflı araşdırma aparmış alim H.İsmayılovun təbirincə desək, ideya-estetik və dini ruhani əsaslarını atadan (babadan və dədədən keçməklə), sənət öz ənənəsini ozandan, musiqi (alət (saz) və havalar ənənəsini isə hələ tam aşkarlanmamış əski türk xalq musiqi sənətindən almışdır(38, 64). Yəni tarixin ayrı-ayrı kəsimlərində daşıdığı funksiyadan asılı olmayaraq həmişə ağıl, zəka, bacarıq, davranış və s. baxımından digər insanlardan fərqlənən aşıq sözün əsl mənasında xalq irsinin orijinallığının qoruyucusudur. Bu baxımdan aşıqlardan toplanmış mətnlərə toplayıcı və tərtibçilərin «əlavələri» görkəmli folklorşünas alim A.Nəbiyevin narahatlığını əsaslandırır.

Müəllifin ön sözdə verdiyi məlumata görə, o, Quzey Azərbaycanın Borçalı, Qarayazı, Darbaz, Amasiya, Basarkeçər, Meğri, Dərələyəz və sair də daxil olmaqla bütün ərazisini gəzmiş, nəhayət Şirvanda – Quba və Dərbənd aşıqlarından «Koroğlu»nun bütöv mətnini müşahidə etmişdir (36, 9) və qolların böyük əksəriyyətini yazıya ala bilmişdir.

Ancaq bu nəşr Şirvanda söylənilən «Koroğlu» qollarını tamamilə əhatə etmir. Hazırda Şirvan aşıqlarının repertuarında «Koroğlunun Şirvan səfəri» adlı qol da geniş yayılıb. 1946-cı ildə Məmməd Cəfərzadə tərəfindən Hacıqabul rayonunun Udulu kəndində qələmə alınan bu qol (əlyazması Aşıq Mahmud Ələsgəroğlunun şəxsi arxivindədir) kitaba daxil edilməyib.

Müəllif özü də nəşrin «Koroğlu»nun Şirvanda söylənilən bütün qollarını əhatə etmədiyini və «Koroğlu və Gülbəndi paşa», «Mahnigarın Çənlibelə gəlməsi», «Ağagül paşanın Şirvana hücumu» və başqa qolları yazıya ala bilmədiyindən təəssüfləndiyini qeyd edir (36, 12). Hesab edirik ki, elmi ictimaiyyətə təqdim edilən bu nəşr dastanın aşıq variantını özündə əks etdirən ilk nəşrlərdən biri kimi maraqlıdır  və bu təcrübə gələcəkdə davam etdiriləcəkdir.

Ümumiyyətlə, «Koroğlu» dastanının tam nəşrləri ilə bağlı Azərbaycanda myxtəlif tədqiqat aparılmasına və bir çox alimlərin dastana aid maraqlı baxışları bu tədqiqatlarda öz əksini tapmasına baxmayaraq koroğluşünaslıqda dastanın toplanması və nəşri təcrübəsi davam etdirilir.

**Ədəbiyyat**

1. Koroğlu. Rza Zaki. Aşiqi bir hekayətdir. Bakı: «Orucov qardaşları mətbəəsi», 1913
2. Dövlət Tarix Arxivi, fond 312, s./v-88
3. Elnarə Tofiq qızı. Daha bir «Koroğlu». Filoloji araşdırmalar. Bakı: Şirvannəşr, 2000, 12 kitab, s.33-35
4. Koroğlu. Rza Zaki nəşri. Transliterasiya, tərtib, ön söz, şərh və lüğətin müəllifi E.Tofiq qızı. Bakı: Elm, 2000
5. Koroğlu. V.Xuluflu. Bakı: «Azərbaycanı öyrənən cəmiyyət» nəşriyyatı, 1927
6. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı: 2 cilddə, 2-ci cild, Bakı: Elm, 2006



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

7. Koroğlu. V.Xuluflu. İlavəli 2-ci təbi. Bakı: Azərnəşr, 1929
8. Əlizadə H. Koroğludan parçalar / «Şifahi xalq ədəbiyyatı nümunələri dərgisi», Bakı: 1935, 8-ci cild, s. 3
9. Rəcəbli A. Koroğlu. «Ədəbiyyat» qəzeti, 1937, №№ 17, 21, 22, 27, 34, 36, 38, 40, 41
10. Эфэндиев П.Ш. Короглу - героический эпос Азербайджанского народа: Автореф. дис. канд. Филологических. Баку: 1954
11. Əfəndiyev P.Ş. Folklorşünaslıq: qayğılarımız. Bakı, "Ədəbiyyat və incəsənət" qəz., 1989, 30 iyun
12. B.A.Karrıyev «Aşıq Hüseyndən toplanmış 1936-cı il nəşri» (Б.А.Каррыев. Эпические сказаниея о Кер-оглы у тюркоязычных народов. Москва, 1968
13. Təhmasib M.H. Bir neçə söz \\ Azərbaycan dastanları. 5 cilddə. I c. (Tərtib edənləri Ə. Axundov, M. H . Təhmasib. Bakı, 1965
14. Кер-оглы. Г.Али-заде. Баку: 1940.
15. Koroğlu (Toplayanı H.Əlizadə). Bakı: Azərnəşr, 1941.
16. Koroğlu. A.Rəcəbli nəşri. Çapa hazırlayanı, ön söz və şərhlərin müəllifi E.Tofiq qızı. Bakı: Elm, 1999.
17. Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar (tərtib edəni B. Abdullayev). Bakı: Yazıçı, 1987.
18. Koroğlu. (Tərtib edəni və ön söz müəllifi M.H.Təhmasib). Bakı: Azərb SSR EA Nəşriyyatı, 1949.
19. Koroğlu. (Tərtib edəni və ön söz müəllifi M.H.Təhmasib). Bakı: Azərb SSR EA Nəşriyyatı, 1956.
20. Koroğlu. (Tərtib edəni və ön söz müəllifi M.H.Təhmasib). Bakı: Azərb SSR EA Nəşriyyatı, 1959.
21. Koroğlu. (Tərtib edəni M.H.Təhmasib. Orta və böyük yaşlı uşaqlar üçün). Bakı: Azərnəşr, 1965.
22. Кероглу. (Составител М.Г.Тахмасиб. Предисловие Г.Арaслы) Баку: Изд. АН Азерб. ССР, 1959.
23. Azərbaycan dastanları. Koroğlu dastanı (Tərtib edəni M.H.Təhmasib): 5 cilddə, IV c., Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1969.
24. Azərbaycan dastanları. Koroğlu dastanı (Tərtib edəni M.H.Təhmasib): 5 cilddə, IV c. Təkmilləşdirilmiş II nəşri. Bakı: Çıraq nəşriyyatı, 2005.
25. Koroğlu. (Çapa hazırlayanı və müqəddimənin müəllifi M.H.Təhmasib). Bakı: Gənclik, 1975
26. Koroğlu. (Çapa hazırlayanı və müqəddimənin müəllifi M.H.Təhmasib). Bakı: Gənclik, 1982
27. Koroğlu (Uşaqlar üçün işləyəni H.Araslı). Bakı: Uşaqgəncnəşr, 1951
28. Koroğlu (Uşaqlar üçün işləyəni H.Araslı). Bakı: Uşaqgəncnəşr, 1988
29. Koroğlu. (Çapa hazırlayanı F.Fərhadov). Bakı: Maarif, 1975,
30. Koroğlu. Paris nüsxəsi (Çapa hazırlayanı, ön söz, qeyd və şərhlərin müəllifi İ.Abbaslı). Bakı: Ozan, 1997
31. «Koroğlu» (Paris nüsxəsi). Bakı, Şərq-Qərb, 2005
32. Короглу. Авторы подготовки и составление национального текста, «Введение» и «Описание» Исрафил Аббаслы, Бахлул Абдулла. Баку: Сада, 2000.
33. («Koroğlu» Tərtib edəni İ.Abbaslı, B.Abdulla. Bakı, Çaşıoğlu, 2004
34. Koroğlu. (Mətni hazırlayıb tərtib edənlər: İ.Abbaslı, B.Abdulla). Bakı: Lider, 2005
35. Koroğlu. Təbriz variantı (Ön sözün müəllifi H.İsmayılov, E.Tofiq qızı). Bakı: Səda, 2005.
36. Koroğlu. (Toplayanı, ön söz qeyd və izahların müəllifi A.Nəbiyev, çapa hazırlayanlar Ü.Nəbiyeva, Y.İsmayılova). Bakı: Nurlan, 2003
37. Nəbiyev A. Koroğlunun Quba səfəri / Azərbaycan Dövlət Universitetinin Elmi Əsərləri, Dil və Ədəbiyyat seriyası, Bakı: 1967, № 1
38. İsmayılov H. Folklor aksiom və absurd arasında / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı: Elm, 2006, 20-ci kitab, s., 3-18

**РЕЗЮМЕ**

Статья посвящена Азербайджанским изданиям эпоса «Кероглы» тексты анализированы и национальные ценности оценены. Одновременно указаны годы издания и выражается мнения к несушествуюшим изданиям.

**SUMMARY**

The article dedicated to Azerbaijan publications of the legend "Koroglu". Text were analisied, the scientific costs have valued. The same time publications were showed, respected to unpresence publication, too.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# PROFESSOR M.SEYIDOVUN AZƏRBAYCAN MIFIK TƏFƏKKÜRÜNÜN QAYNAQLARINA BAXIŞLARI

***Emin Ağayev***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Prof. M.Seyidovun mifoloji görüşləri içərisində onun Azərbaycan mifik təfəkkürünün qaynaqlarına, milli soykökün mifologiya ilə bağlılığı məsələlərinə baxışları mühüm yer tutur. Alim xalqımızın mifik təfəkkürünün ən əski qatlarını həm də milli etnogenez problemləri çərçivəsində öyrənmişdir. Onun mifologiya ilə bağlı əsərlərində etnogenez məsələlərinə, yaxud əksinə (etnogenezlə bağlı əsərlərində mifologiya məsələlərinə), demək olar ki, həmişə rast gəlinir. Beləliklə, M.Seyidov üçün əski köklərin araşdırılması, etnik qaynaqların öyrənilməsi eyni zamanda etnik düşüncənin ilkin qaynaqlarının – mifik təfəkkürün öyrənilməsi demək idi. Professorun mifologiya və etnogenez məsələlərinə bu praktik yanaşması onun tədqiqatlarında (1; 2; 3; 4; 5 və s.) nəzəri fikirlər şəklində də ifadə olunmuşdur.

Alimin mifoloji görüşlərinə görə, təkcə Azərbaycan xalqınını deyil, eləcə də istənilən xalqın mifik təfəkkür qaynaqlarını onun etnik tarixindən ayrıca, tədric olunmuş halda öyrənmək mümkün deyildir. M.Seyidov yazır: «Mifologiyanın yaranması və keçib gəldiyi dolanbac yollarının öyrənilməsi – ibtidai cəmiyyətin ilkin psixologiyasının, həyata, cəmiyyətə olan koratəbii və şüurlu baxışlarının qismən öyrənilməsi deməkdir. Mifologiya lap ibtidai və sonrakı təsəvvürləri özündə birləşdirdiyindən, təbii olaraq, burada ən ibtidai psixoloji görüşlə nisbətən mürəkkəb, zamanın daha çox bərk-boşundan keçmiş, yavaş-yavaş sabitləşməyə doğru meyl edən psixoloji görüşləri öz əksini tapır» (3, 232).

M.Seyidova görə, xalqın düşüncə tarixinin öyrənilməsinə kompleks yanaşılmalıdır. Burada mifik düşüncə tarixini bədii, fəlsəfi, etnopsixoloji düşüncədən ayırmaq mümkün deyildir. Etnosun tarixi bütöv bir sistemdir və bu sistemdə mifologiyanın özünəməxsus yeri vardır: «Düşünüş – təfəkkürlə bağlı fikir silsilələrini, düzümünü öyrənmək üçün xalqın zəkasının, həyatı dərk etməsinin, ətraf mühitə münasibətinin qaynaqlarını, soypsixologiyası – etnopsixologiyasının tarixən keçib gəldiyi yolu, onun durumunu, biçimlənməsini və eləcə də biçimlənməməsinin ictimai-siyasi səbəblərini, kosmoqonik yaradılış anlayışlarını, öz-özü haqqındakı düşüncələrini və onun düzümlənməsindəki amilləri, mifoloji-fəlsəfi, bədii təfəkkürünü araşdırmaq gərəklidir» (3, 172).

Avstraliya aboregenləri üzərində müşahidə aparmış ingilis tədqiqatçıları B. Spenser və F. Qillen göstərirlər ki, avstraliyalıların totemik əcdadları eyni zamanda həm insan, həm də heyvan hesab edilir (9, s. 12). Bəzi Afrika xalqları böyük heyvanları ovlaya bilən mahir ovçuları sehrbaz, maq hesab edirlər, həmçinin onları yarı heyvan, yarı insan sayırlar. Məlumdur ki, bir sıra Sibir xalqları da ovu mistik hadisə hesab edirdilər və onun uğurlu olması üçün ova çıxmazdan əvvəl heyvan dərisi geyinərək, mərasim keçirirdilər. Totemik əcdadların mənşəyi də, mütəxəssislərin fikrincə, məhz ovçuluq peşəsindən yaranmışdır. Yarı insan-yarı heyvan şəklində olan qədim obrazlar təkcə totemik əcdadların deyil, həmçinin mədəni qəhrəman və demiurqların, bir çox zoomorf və antropomorf tanrı personajlarının da prototipi olmuşlar.

C. Bəydili qeyd edir ki, yakutların mənşəyi haqqında bir əfsanəyə görə, guya onların ilkin, ulu əcdadları yarısı at, yarısı adam şəklində göydən enmiş bir varlıqdır (2, s. 165). Bahəddin Ögəl də göstərir ki, Çin mənbələrinə görə, Göytürk dövləti içərisində və Altay dağlarında yaşayan tarduş türklərinin əcdadı "qurd başlı bir insan imiş" (6, s. 51). A. Şükürov isə bu haqqda yazır ki, əgər nəsil bu və ya digər heyvanla əlaqədar totemə malik idisə, onda ilkin totemik əcdadlar çox vaxt zooantropomorf təbiətli – iki simalı varlıq kimi təsəvvür edilirdi. İlk əcdadlar ölərkən təbiət predmetlərinə, heyvanlara, həmçinin ruhlara çevrilə bilərdi (7, s. 45). İlkin əcdad öldükdən sonra onun canının ağaca keçməsi haqqında çoxlu əfsanə və rəvayətlər məlumdur. Bu da yalnız türk xalqları üçün deyil, bir çox başqa xalqlar üçün də xarakterikdir. Bu haqda C. C. Frezer fikirlərini belə ifadə edir ki, bəzi xalqlar inanırlar ki, ağacların həyatı ölənlərin canı ilə doludur. Mərkəzi Avstraliyada dieri tayfası, rəvayətdə deyildiyi kimi, əcdadlarının çevrildiyi ağacları müqəddəs hesab edirlər: onlar bu ağaclar haqqında çox hörmətlə söhbət açırlar və əllərindən gələni edirlər ki, onları heç kim doğramasın və yandırmasın. Nə vaxt ki, ağ sakinlər dierlərdən ağacı doğramalarını istəyirlər, onda dierlər dərhal imtina edirlər və iddia edirlər ki, belə hərəkətə görə uğur onlardan üz döndərəcək; onlar əcdadlarını qoruya bilmədikləri üçün cəzalandırılacaqlarından qorxurdular (12, s. 115).

Belə nümunələr, qeyd etdiyimiz kimi, türk xalqlarında da mövcuddur. Belə ki, qədim türk xalqarının mənşəyi ilə bağlı olan mifoloji mətnlərdə ağac mühüm yer tutur. Bildiyimiz kimi, bir çox xalqlarda olduğu kimi, türk xalqlarında da ağacın müqəddəsliyinə inanılmışdır. Bu inancla əlaqədar olaraq da qədim türklərin ehtiram göstərdikləri bir sıra kultlar içərisində ağac kultu da mühüm yer tutmuşdur. Lakin qədim türk mifologiyasında ağacın müqəddəsliyinin digər bir tərəfi də məhz ağacdan törəmə ilə izah olunur. Ağacdan törəmə ilə əlaqədar bir Altay əfsanəsində belə deyilir: "Qolsuz-budaqsız bir ağac bitmişdi. Bu ağacı tanrı gördü və "budaqları olmayan ağaca baxmaq yaxşı bir şey deyil, buna doqquz ədəd budaq bitsin!" – dedi. Ağacda doqquz budaq bitti. Tanrı yenə belə dedi: "Doqquz budağın kökündən doqquz kişi törəsin və bunlardan doqquz ulus olsun!" (5, s. 15). Buna misal olaraq həmçinin Oğuz Kağanın ikinci arvadını bir göl ortasındakı ağac oyuğundan tapmasını və yaxud uyğurların mənşə əfsanəsində bu xalqın atası olan beş şəhzadənin yenə iki çay qovşağının ortasında olan bir adacıqdakı qayın ağacından doğulmasını göstərmək olar (6, s. 103, 157). M. Uraz da Altay türklərinin qayın ağacına xüsusilə inandıqlarını, onu başqa ağaclardan daha müqəddəs tanıdıqlarını, adına qurbanlar kəsdiklərini qeyd etmişdir (8, s. 142). Bunlar yuxarıda bəhs etdiyimiz Mərkəzi Avstraliyanın dier tayfasının əcdadları ilə əlaqədar olan rəvayətlə səsləşir.

Ümumiyyətlə, bir çox xalqlarda əcdadlara müxtəlif heyvanların obrazında ehtiram edilirdi. Əcdadulubabaların əksəriyyəti totemlərdir. Ancaq heyvan cizgilərini totemizmin bir çox xüsusiyyətlərini itirmiş xalqların əcdad kultunda da tapmaq olar. Belə halda heyvanlara əcdad şəklində ehtiramın inkişafına müxtəlif amillər təsir göstərmişdir. Bunlar arasında daha çox əhəmiyyətlisi ölənin ruhunun dövr etməsi və heyvanlara, quş, ilan və s. keçməsinə inamdır.

Ölmüş əcdadlar yalnız axirət dünyasına getmir, eyni zamanda (bəzən müxtəlif dövrlərdən sonra, bəzən isə axirət dünyasında olduqdan sonra) heyvan, bitki, təbiət obyeklərində təcəssüm olunurlar (11, s. 334).

Ölənlərin ruhunun heyvanlara, quşa və ya ilana keçməsi haqqındakı təsəvvürlər əcdad kultunun heyvan şəklində inkişafına səbəb olmuşdur. Bu kultun yaranmasında və inkişafında heyvanla əlaqə və onlardan uşaq dünyaya gətirmə imkanına inam da böyük rol oynamışdır.

İbtidai insanın psixologiyası heyvanlar və insanlar, ruhlar və insanlar arasında kəbin əlaqəsi imkanına yol verirdi. Hesab edilirdi ki, bu əlaqədən (heyvan və ya ruhla) yaranan nəsil fövqəltəbii olacaq və insanlara himayədarlıq edəcəkdir. Aydındır ki, tarixi cəhətdən bu cür baxışlar totemik inkarnasiyaya qədim inancla bağlıdırlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İnsanların heyvanlarla və ya heyvan şəkilli ruhlarla əlaqəsinin mümkünlüyünə inam müxtəlif xalqlarda çox geniş yayılmışdır. İnsanın heyvanla yaxınlığı çox vaxt onunla bilavasitə qohumluğu kimi başa düşülürdü. Bu barədə bir çox xalqlarda möcüzəli doğuluş, qadının heyvanla əlaqəsindən insanların doğulması haqqında miflər mövcud idi. Məsələn, qırğızlarda onların qırmızı itdən törəmələri haqqında əfsanə saxlanılmışdır. Söylənilir ki, düşmənlərin hücumundan sonra bütün qırğız tayfasından yalnız xanın qızı qalmışdı. Onun qırmızı iti var idi və sonralar qız bu itdən uşaq dünyaya gətirir. Beləliklə, onlar qırğızların əcdadları olurlar.

Qədim türklərdə nəslin qurddan törəməsi haqqında rəvayətlər var. Rəvayətdə deyilir ki, türklər hun nəslindən olan qadının qurdla əlaqəsindən törəmişlər. Digər variantda deyilir ki, qurd hun nəslindən olan kimsəsiz oğlanı ətlə yedizdirir, sonra isə onun bu oğlandan türk nəslinin banisi olacaq on oğlu olur.

Bahəddin Ögəl Göytürklərin mənşəyi barədə qurdla bağlı əfsanələr vermişdir. Bu əfsanələrdən biri belədir: "Göytürklərin ilk ataları hsi-hai, yəni Qərb dənizinin sahillərində yaşayırdılar. Onların qadınları, kişiləri uşaqları ilə birlikdə böyüklü-kiçikli hamısı birdən Lin adlı bir məmləkət tərəfindən məhv edilir. Düşmənlər türklərin hamısını qırdıqları halda yalnız bir uşağa rəhm etmiş, onu öldürməkdən vaz keçmişlər. Bununla belə onun da qollarını və qıçlarını kəsərək, özünü Böyük bataqlığın içindəki otların arasına atmışdılar. Bu vaxt dişi bir qurd peyda olmuş və ona hər gün ət və yemək gətirmişdi. Uşaq da bunları yeyərək özünə gəlmiş və ölməmişdi. Az bir vaxtdan sonra uşaqla qurd ər-arvad kimi yaşamağa başlamış və qurd uşaqdan hamilə olmuşdur.

Türklərin köhnə düşməni olan Lin dövlətinin hökmdarı uşağın sağ qaldığını eşitdikdə tez adamlarını göndərərək həm uşağı, həm də qurdu öldürməyi əmr etmişdir. Əsgərlər qurdu öldürməyə gəldikləri zaman qurd bundan xəbərdar olmuş və qaçmışdı. Çünki qurdun müqəddəs ruhlarla əlaqəsi var idi və daha öncə onlar vasitəsi ilə düşmənlərin gəlişindən xəbər tutmuşdu.

Buradan qaçan qurd Qərb dənizinin şərqindəki bir dağa getmişdi. Bu dağ Kao-ç-anqın (Turfanın) şimal-qərbində yerləşirdi. Bu dağın altında isə çox dərin bir mağara var idi. Qurd buraya gəlincə dərhal həmin mağaranın içinə girmişdi. Bu mağaranın ortasında böyük bir ovalıq var idi. Bu ovalıq başdan-başa ot və çayırla örtülü idi. Ovalığın çevrəsi isə təqribən 200 lidən artıq idi.

Qurd burada 10 oğlan uşağı doğmuşdu. Göytürk dövlətini quran Aşina ailəsi bu uşaqlardan birinin soyundan törəmişdi" (6, s. 38).

Bahəddin Ögəl əlavə edir ki, mənbələrdə deyildiyinə görə göytürklərin qurddan törədikləri səbəbilə bayraqlarının yuxarı hissəsində qurd başı təsviri var imiş (6, s. 39).

Ümumiyyətlə, qurdla bağlı belə əfsanələr türk xalqları arasında söylənilir və bunların doğruluğuna inanılırdı.

Mifologiyada qurd yalnız əcdad deyildir. M. Uraz qurdun eyni zamanda müqəddəs və uğur gətirən bir heyvan sayıldığını bildirmişdir. O, göstərir ki, qurd totem qəbul edildiyi, ana, ata olduğu kimi, xilaskar, yol göstərici, qəhrəmanlara köməkçi, şəfqətli, cəsarətli, yaxşılıq edən bir varlıq olaraq tanınmışdır (8, s. 105-106). F. Bayat qurdu çox yaxşı xarakterizə etmişdir. O göstərir ki, boz qurd mədəni qəhrəman, əcdad-xilaskar, iki dünyanı birləşdirən mediator, ritual-mifoloji səciyyəli hami ruh, nəhayət, döyüşkənlik, qəhrəmanlıq simvoludur (1, s. 48).

Bir çox tədqiqatçıların da qeyd etdiyi kimi, qurd haqqında əfsanə və rəvayətlərin əksəriyyəti bu və ya digər formada bir-birini təkrar edir. V. Həbiboğlu göstərir ki, bu əfsanələrin, demək olar, hamısında iki başlıca tendensiya aparıcı xətt təşkil edir: 1) Qurd xilaskardır; 2) Qurd yeni nəslin törədicisidir. Qurd əcdaddır və o, müqəddəs tutulmalıdır (3, s. 165). F. Bayat isə qeyd edir ki, türk tayfalarında boz qurd əsasən 1) əcdaddır (məsələn, çiğil, yağma, karluq tayfalarında). Göytürklərdə əcdadlıq xilaskarlıq funksiyası ilə birləşib əcdad-xilaskar şəklində rəsmiləşdirilib. 2) Oğuzlarda, qıpçaqlarda qurd xilaskardır (1, s. 47).

"Kitabi Dədə Qorqud" dastanında da qurdla bağlı yerlər çoxdur. Burada da qurd həm totem, həm də əcdad-xilaskar kimi xatırlanır. Bu haqda V. Həbiboğlu fikirlərini belə ifadə edir: "Qurd totemizminin izlərinə "Kitabi Dədə Qorqud" dastanında rast gəlmək mümkündür. Belə ki, "Qara başım qurban olsun qurdum sana", "Avazı qaba qurd əniyi erkəyində bir köküm var" ifadələri Oğuz tayfaları arasında qurdun bir totem olmasına işarədir. Dastanda Qazan xan öz əcdadını "qurdun erkəyi" ilə əlaqələndirir" (3, s. 169-170).

Müxtəlif xalqlarda totemizmə, əcdadlara əsasən heyvan şəklində sitayiş edilir. Lakin totemik kultdan fərqli olaraq heyvan-əcdad kultu daha üstündür: burada heyvanın özünə deyil, heyvanda təcəssüm etdirilən insan ruhuna ehtiram edilir.

Həqiqətdə, əcdadlar kultu bu zaman artıq patriarxal münasibətlər fonunda inkişaf edir. İndi artıq daha çox heyvan deyil, insan şəklində olan kişi əcdad kultuna sitayiş edilir.

Əcdadlar haqqında tədqiqatçıların müxtəlif fikirləri mövcuddur. Məsələn, E. M. Meletinskiy yakut olonxolarının qəhrəmanı olan Ər-Soqotoğun adını çəkərək, qeyd edir ki, tənha yaşayan, digər insanları tanımayan, valideynləri olmayan bu qəhrəman insan tayfasının ilkin əcdadıdır. Ər-Soqotoğ özünə qadın axtarır ki, digər insanların nəsil başlayanı olsun (10, s. 4).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

A. Şükürov qədim türklərdə əcdad kultunun mürəkkəb olduğunu, bəzən də müxtəlif, bir-birindən fərqlənən predmet və canlıları əhatə etdiyini bildirir. Buna misal olaraq da dağı, qurdu, ağacı və ən nəhayət insanı göstərir. O, bildirir ki, ilkin əcdadlar adətən tayfa və qəbilənin əsasını qoyan nəsil hesab olunur. Onlar digər qəbilə-tayfa icmasına və təbiət qüvvələrinə qarşı dura bilən öz qəbilə-tayfa icmasını bir sosial qrup kimi modelləşdirir. Arxaik mifologiyada (klassik nümunə kimi Avstraliya mifologiyasını göstərə bilərik) ilk əcdadlar ciddi şəkildə mifik "ilkin" zamana aid edilir. Onların hərəkət və fəaliyyətləri relyefi, sosial institutları, adət və mərasimləri, dünyanın həmin dövrdəki vəziyyətini müəyyən edir. Onlar haqqında deyilən məlumat-hekayət, nəql edilən şeylər paradiqmatik xarakter daşıyır (7, s. 45). Bəzən insanların yarandığı ilkin əcdadların özü allahlar tərəfindən yaradılır (və ya onunla qohum olur) və onun köməkçisi, elçisi olurlar. İlkin əcdadlar öldükdən sonra təbiət əşyalarına, heyvanlara, həmçinin ruhlara çevrilə bilirlər.

İbtidai insan çox vaxt öz ilkin əcdadları ilə əlaqə saxlamağa çalışır, ondan kömək diləmək üçün müxtəlif yollar fikirləşirdi. Buna görə də əcdadlarla əlaqədar müxtəlif təsəvvürlər yaranırdı. İnanclara görə onlar çox vaxt yaşayanların dünyasına gəlirlər. Məsələn, Cənubi Afrika xalqlarından zuluslar belə hesab edirdilər ki, ölümdən sonra əcdadın ruhu kəndə qayıdır və onların yanlarında sakin olur. Sayan-Altay türklərinin təsəvvürünə görə də ölən əcdad tamamilə yox olmur. Xakasların fikrincə, "yaşlı adam ölürsə, o, öz qohumlarının qayğısına qalmalıdır, çünki onun ruhu daima onlarla birlikdədir" (7, s. 48). Bəzi təsəvvürlərə görə əcdadlarla əlaqə yuxugörmələr əsasında yaradılır.

Göründüyü kimi əksər xalqlarda olduğu kimi türk xalqlarının da həyatında əcdad kultu mühüm yer tutmuşdur. İlkin əcdada ehtiram, onun xatirəsinin əziz tutulması bir sıra əfsanə və rəvayətlərdə öz əksini tapmışdır. Beləliklə, aydın olur ki, miflərdə adətən mifoloji zamanın başlanğıcında fəaliyyət göstərmiş, dünyanın və onun ayrı-ayrı maddi və mədəni ünsürlərinin yaradılmasında iştirak etmiş ilkin əcdadlara geniş yer verilir.

## BİBLİOQRAFİYA

1. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. B., 1993.
2. Bəydili C. Türk mifoloji sözlüyü. B., 2003.
3. Həbiboğlu V. Qədim türklərin dünyagörüşü. B., 1996.
4. Hüseynoğlu K. Novruz yenilik və bərəkət bayramıdır // "Azərbaycan" qəzeti, 21 mart, 2007.
5. İnan A. Tarihte ve bugün şamanizm. Ankara, 1954.
6. Ögəl B. Türk mifologiyası. I c. B., 2004.
7. Şükürov A. Mifologiya. 6-cı kitab. Qədim türk mifologiyası. B., 1997.
8. Uraz M. Türk mitolojisi. İstanbul, 1967.
9. Баландин Р. К. 100 великих богов. М., 2002.
10. Мелетинский Е.М. Первобытное наследие в архаических эпосах. М., 1964.
11. Мифы народов мира. Энциклопедия. Т 2, М., 1982.
12. Токарев С. А. Ранние формы религии. М., 1990.
13. Фрэзер Д. Д. Золотая ветвь. М., 1986.

**РЕЗЮМЕ**

**Культы первопредков в тюркской мифологии и их историко-мифологическое происхождение**

Первопредки обычно мыслятся как прародители родов и племени, они моделируют родовую общину как социальную группу.

Тотемные предки, если роды имеют тотемом то или иное животное, часто предстают в виде существ двойной, зооантропоморфной, то есть животно-человеческой природы. Подобные черты имеются в мифах о предках племени Ашина, об Огуз-кагане и в других тотемных мифах. Умирая, сами первопредки могут превращаться в природные предметы или животных, а также духов. Надтотемной предок, «всеобщий отец», может развиться в образ бога-творца (в тюркской мифологии - Тенгри), а женские первопредки участвуют в формировании образа богини-матери (в тюркской мифологии - Умай), воплощающий рождающее начало и земное плодородие.

**SUMMARY**

**Cults of ancestors in Turkic mythology and their historical-mythological origin**

Ancestors are usually thought as forefathers of tribes and generation, they shape generation community as a social group.

Totem ancestors if generation has totem with one or another animal, often appear in double creature, zoo anthropomorphous, that is animal-human nature. Similar features have in myth about ancestors tribes of Ashina, about Oghuz-Kagan and in other totem myths. Being dead the ancestor could turn into nature things, animals, or spirit as well. Totem ancestor the "general father" can develop in the character God-Creator (in Turkic mythology - Tengri), but female ancestors take part in forming the character Goddess – mother (in Turkic mythology - Umay), incarnating the flourishing beginning and earthly fertility.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# OĞUZ-NAME'NİN KAZAN YAZMASINDA CENGİZ HAN'LA İLGİLİ RİVAYETLER VE CENGİZ HAN'IN TÜRK İLLERİNE İSİM VERMESİ

***Prof. Dr. Fikret Türkmen***
***Ege Üniversitesi Türk Dünyası Araştırmaları Enstitüsü***
***Turkiye***

Abdülkadir İnan, "Türk Destanları" adlı makalesinde, Orta Asya hakkında M. P. Gryaznov'dan naklen "*M.Ö. VII-VI. asırlardan miladi I. asra kadar Orta Asya ve Doğu Avrupa'da atlı göçebe milletler arasında yayla ve hayvan sürülerini ele geçirmek için savaşlar durmadan devam ediyordu. Bu sürekli savaş, halk kahramanlarını yarattı. Milletin başbuğu olan alplar hakkında efsaneler meydana gelmiştir. (...) Şimdiki Türk ve Moğolların alp destanlarında bu en eski destanların temel konuları ve birçok şekilleri muhafaza edilmiştir.*" demektedir[89].

Eski Türklerin destanlarından tespit edilmiş olanlarından biri, XIV. yüzyılın başlarında İlhanlılar döneminde Reşidüddin'in Camiu't-Tevarih (1218–1230) külliyatı içinde, eski bir Türkçe eserden Farsçaya tercüme edilen Oğuz Destanıdır. Bir başka rivayet de Uygur harfleriyle yazılmış ve W. Bang'la Reşit Rahmeti Arat tarafından neşredilen Oğuz Kağan Destanı'dır. Üçüncü rivayet ise Ebulgazi Bahadır Han'ın yazmış olduğu Şecere-i Terakime'dir, ki bu rivayetin esası Reşidüddin'in yukarıda adı geçen eseri olmakla birlikte, yazma başka nüshalardan ve sözlü rivayetlerle desteklenmiş görünmektedir. Mesela, Kazan Alp'le ilgili methiye başka kaynaklarda mevcut değildir.

Oğuz Destanı, Türk boyları arasında ortak millî bir destandır. Bu destanın tespit edilmesi İlhanlılar devrinde olmuştur. XI.-XIII. yüzyıllarda Moğolistan'daki Türkler ve Moğollar arasında sözlü gelenekte yaşadığı ve manzum olarak anlatıldığı anlaşılmaktadır. W. Bang ve R. R. Arat'ın neşrettikleri Oğuz Kağan Destanı, Uygur bakşıları tarafından tespit edilmiştir. Bu destandaki "*Uşbu bildirgülük bildirmiş irdi kim: men Uygurların kaganı bolomen*" (Ben Uyguların kağanıyım.) demektedir. Ayrıca destanda Kıpçak, Kanglı, Kalaç, Yagma, Karluk, Uygur, Başkurt gibi pek çok Türk boyunun adı geçmektedir. Bu bilgiler, destanın bu Türk boyları arasında da yaygın olduğunun işaretidir.

Moğol istilasından sonra, eski Türk destanlarının parçaları Cengiz Han'ın ismi etrafında toplanmaya başlamıştır. Kıpçak boyları arasında Çingiz-Name adıyla toplanmış olan bu epizotlar ve motifler epik kanunlara uygundur. Zira bu kanunlara göre; "*Sönmekte olan kahramanın özellikleri, parlayan kahramana yüklenir.*". Canlı olan anlatım geleneği içinde daha önce var olan bütün kahramanların özelliklerini Cengiz Han kendisine çekmiştir.

Çingiz-name'nin girişinde Cengiz'in soy kütüğü olarak "*Yafes'e Ebulca Han derler. Ebulca Han oğlu Bakır Han, Bakır Han oğlu Ovuz Han, onun oğlu Gök Han, onun oğlu Güz Han, onun oğlu Karak Han, onun oğlu Künü Mergen, onun oğlu Ucam Bugrul, onun oğlu Sam Savu, onun oğlu Serke Burun, onun oğlu Kaçu Mergen, onun oğlu Kaçuman Mergen, onun oğlu Karavman, onun oğlu Tumavul Mergen, onun oğlu Duyun Bayan ve onun oğlu Çingiz Han*" şeklinde gösterilmektedir.

Bu şecerenin içindeki Ovuz Han ve onun oğlu Gök Han ismi, Cengiz Han'ın Oğuz soyundan geldiğini göstermekte ve Çingiz-name'yi okuyanlar buna inanmaktadırlar. Ayrıca Ebu'l-Gazi Bahadır Han'ın Şecere-i Terakime'sinde de Moğol ve Tatar kavimlerinin Oğuz soyundan olduğu belirtilmektedir. Bütün bunlar Çingiz'in Türkler arasındaki benimsenişini açıklamaktadır.

Çingizname'de Malta şehrinin hanı olarak gösterilen Tumavul Mergen'in karısı Ülemelik'le ilgili bir rivayette, Altın Han'ın bir kızı doğmakta ve bu kız bir taş saraya kapatılmaktadır. Kız bir gün, başka dünyaların olup olmadığını merak ederek, pencereyi açınca gün ışığından hamile kalmakta, buna çok sinirlenen Altın Han, kızı bir gemiye koyarak deryaya bırakmaktadır. Bu gemiyi, Çingiz Han'ın atalarından biri olarak adı geçen, Tumavul Mergen ele geçirir ve kızla evlenir. Bu kızdan bir çocuk doğar ve adını Duyın Bayan koyarlar. Çingiz'in babası bu Duyın Bayan'dır.

Çin kaynaklarının verdiği Hun-Uygur menkıbesinde de hakanın iki güzel kızını, "*Bu kadar güzel kızları kişioğlu ile evlendiremem, ben onları Tanrı'ya bağışlayacağım.*" diyerek taştan yaptırdığı bir saraya kapatmakta, bir müddet sonra sarayın çevresinde bir kurt ortaya çıkmakta ve kızla evlenmektedir. Uygur sülalesi bu kurdun soyundan gelmektedir.

Görüldüğü gibi Türklere ait rivayetler, Moğol istilasından sonra tarihi kahramanların destanlarına dâhil edilmiştir. XV.-XVI. yüzyıl Altınordu ve Çağatay hanlıkları dönemindeki İdigey, Toktamış ve Çora Batır gibi tarihi kahramanlara ait destanlarda da aynı şekilde, eski destan motiflerinin kullanıldığını görmekteyiz.

---

[89] Abdülkadir İnan, "*Türk Destanları*", Türk Dünyası El Kitabı, Türk Dünyası Araştırmaları Enstitüsü Yayını, Ankara 1978, s. 377.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eski Türk destanlarının pek çok motif ve epizotunun Çingiz ismi etrafında toplanması ve anlatılan olayların Cengiz Han'ın tarihi hayatı ile hiçbir ilişkisinin olmaması tam bir folklorizasyon olayıdır.

Cengiz Han'ın doğumu, hayatı ve yaptığı mücadeleler Moğollar arasında olduğu kadar Türkler arasında da derin izler bırakmıştır. Bu izler destan mantığı (epik mantık) içinde, bütünlükten yoksun, sadece yıldızların parladığı anları ve akarsudaki basılarak geçilen taşları andıran kopuk yükselişlerin anlatımıdır. Anlatım aslında göçebe Türk kültür alanının mirasıdır. Moğolların XIII. yüzyıldaki aniden parlayıp dünyanın en büyük gücü haline gelme mucizesi de zaten başka türlü anlatılamazdı. Hunların, Göktürklerin ve Uygurların mirasının özü ve "Yeryüzünde tek bir hükümdar olması gerektiği" inancı, çeşitli Türk boylarınca Cengiz Han'ın kendi hükümdarları ve onun kurduğu devletin de kendi devletleri gibi benimsenmesini sağlamıştır.

Jean Paul Roux, Nasreddin Tusi'nin "Moğollar bir Türk boyudur." diye yazışını doğru bularak, Türk-Moğol birleşmesinin çok güçlü olduğunu ve bu iki milletin tek bir millet gibi düşünüldüğünü yazmaktadır[90].

Gerçekten de Cengiz Han'ın ordusunun nizamı, Mete Han'ın (İ.Ö. 208) ordu nizamı ile aynıdır. Ordu da onluklar, yüzlükler, binlikler ve onbinlikler (tümen) şeklinde bir teşkilatlanma vardır. Savaş için ordunun, itaat-disiplin ve organizasyon, üçlü prensibi de aynen uygulanmıştır.

Moğol ordusunun esas gücünü de itaat altına alınan Tatarlar, Naymanlar, Merkitler, Uygurlar, Kırgızlar ve diğer Türk boyların askerleri meydana getirmektedir. Bu durum bozkır medeniyetinin bir geleneğiyle ilgilidir. Bu geleneğe göre, mağlup olanlar bütün güçlerini galip gelenin emrine vermektedir.

Bütün bu ve benzeri unsurlar, bize Cengiz Han'ın Türkler arasındaki itibarını ve benimseniş geleneklerini göstermesi bakımından dikkat çekicidir. Bu yüzden Cengiz Han'ın doğumu, hayatı, savaşları ve başarıları Moğollar arasında olduğu kadar Türk boyları arasında da derin izler bırakmıştır. Halkın muhayyilesi hem onunla hem de daha sonra gelen Cengiz nesli ile ilgili pek çok efsane yaratmıştır. Bu efsanelerden bazıları, onu olağanüstü bir destan kahramanı olarak göstermektedir. Bir kısmı da tam tersine şehirleri yakıp yıkan ve nefret edilen biri olarak takdim ve tasvir etmiştir.

Türk boyları arasında yazıya geçmiş Cengiz Han rivayetleri, başta Çingiz-nameler olmak üzere Camiu't-Tevarih Tercümeleri, Hanname, Şecere-i Terakime, Şecere-i Türk ve Oğuz-name gibi eserlerdir.

Bunlardan Çingiz-name, dikkate değer bilgiler içermektedir. A. İnan'ın verdiği bilgilere göre, eski Oğuz ve Uygur hükümdarlarının sülaleleri hakkında, Türkler arasında söylenen menkıbeleri Moğol fütuhatından sonra Cengiz adı etrafında toplayan bir eserdir.

Cengiz-name'deki bazı motifler başka eserlerde bulunmamaktadır. Bu yüzden mesela Camiu't-Tevarih'i çok iyi bilen Ebulgazi Bahadır Han, kendisine kaynak olarak onu değil de 17 nüsha Cengiz-name'yi kullanmıştır[91].

Diğer yazarların eserlerinde bulunmayan, yukarıda kısaca sözünü ettiğimiz "Güzel prensesin kaleye kapatılması", "Hun hakanının güzel kızını kaleye kapatması ve kızın bir kurtla evlenmesi" motifleri sadece Cengizname'de bulunmaktadır. Bu da bize bu menkıbenin kaynağının, İslam tesirinin olmadığı eski Türk rivayetlerinden alınmış olduğuna delildir. Moğol Cengiz-namelerinde de bu motif yoktur.

Bir başka önemli fark ise Türkçe Cengiz-name'de "Cengiz Han'ın 12 kabileye damga, uran, kuş, ağaç ve zırh" vermesidir. Bu rivayet de Reşidüddin'de ve Moğol eserlerinde yoktur.

Oğuzname nüshalarında "damga" ve kabile isimleri Oğuz Han tarafından verilmektedir. Cengiz-name'deki rivayetler çok kuvvetli bir ihtimalle Oğuz-name'den alınmıştır veya Cengiz han'la Oğuz Kağan aynileştirilmiştir. Bu durum da epik kanunlara uygundur.

Bunların dışındaki unsurlar, Altan Topçi dâhil Moğolca diğer eserlerde (Yuan-Çao-Bi-şi, Sanang Seçen gibi) aynıdır. Cengizname ile Moğol rivayetleri arasında bazı olaylar başka isimlere atfedilmektedir ki bu da motiflerdeki olayları değiştirmemektedir.

Cengiz Han'la ilgili Türkçe eserler arasındaki rivayetlerden bahseden ikinci eser Han-name'dir. 1947 yılında İstanbul'da bulunan bu eserde Cengiz Han'la ilgili bölümler karışık bir sistemle verilmiştir. Firdevsî'nin Şehnâme'sinin bir taklidi olan eser, İmamî isimli bir zat tarafından yazılmıştır (1662–1663). Bu eserde İmamî, Alankova'nın doğuşunu anlatmakta ve babası Buyan Han'ı, Turan hükümdarı olarak göstermektedir. Ayrıca kuvvetli bir İslamizasyon ile Alankova'nın parlak bir aydan gebe kalması ve Tanrı'nın buyruğu Hz. Peygamber'in İmam Abdurrahman'la Alankova'yı nikâhlaması ve kadının Abdurrahman'dan gebe kalması anlatılıyor (s. 315). Doğan çocuğun ismini de Buzencer koyuyorlar.

Hannâme'de bunun dışında iki rivayet daha anlatılmaktadır. İmamî "*Bu rivayetleri üç tarihten aldım, kimin hangisi hoşuna giderse ona itibar etsin.*" demektedir. İkinci rivayete göre, Kuyat kabilesinden birisi

---

[90] "*Moğollar ve Türkler*", Altan Dergisi, S. 166, s. 102.

[91] A. İnan, "*Dastan-ı Cengiz Han Kitabı Hakkında*", Azerbaycan Yurt Bilgisi, Yıl: 3, 1934.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alankova'nın kocasıdır. Bundan üç oğlu doğmuştur. Daha sonra kocası ölür. Bir gün Alankova uyurken ay ışığı pencereden girer ve arslan veya kurt şeklinde evden çıkar. Alankova ondan hamile kalır ve Buzencer bu hamilelikten doğar.

Üçüncü rivayette Buyan Han, Kıyan sahrasında Buğur Han'ın oğlu Bekiş'le savaşa gider. Alankova hamiledir. Annesi, Buyan Han duyarsa beni öldürür diyerek, Alankova'yı bir sandık içinde deryaya bırakır. Daha sonra Bürülgen ilinden iki avcı bu sandığı bulur ve Alankova'yı kurtarırlar. Kırk gün sonra Alankova Buzencer'i doğurur[92].

Her üç rivayette de Buzencer, yüzü güneş gibi parlak, saçları kıvır kıvır bir çocuktur. Sonunda Hakan olur. Bütün Moğol kabileleri ona itaat ederler.

Türkler arasındaki rivayetlerden biri de "Şecere-i Türkî"deki rivayettir. Diğer rivayetlerde olduğu gibi Cengiz Han'ın atası olan Bozancar'ın annesi Alankova'dır. Alankova'nın hamile kalması "Alankova'nın Garip Hikâyesi" başlığı ile "Şecere-i Türkî"de şöyle anlatılmaktadır (s. 63):

Ergenekon'dan çıktıktan sonra Moğollarda hakanlık, sürekli babadan oğula geçer. Sonunda Mengli Hoca'nın oğlu Yılduz Han hakan olur. Yılduz Han'ın iki oğlu vardır. Ancak bunlar Yılduz Han'dan önce ölürler. Büyük oğlunun Dubunbayan isimli bir oğlu, küçüğünün ise bir kızı kalır. Kızın adı Alankova'dır[93].

Yılduz Han bu iki genci evlendirir. Yılduz Han'ın ölümünden sonra yerine Dubunbayan geçer. O da ölünce, altı ve yedi yaşlarında iki oğlu kalır. Bunların isimleri de Belgüday ve Bükçeday'dır.

Alankova'nın kocası ölünce Yılduz Han'ın ağabey ve inilerinin çocukları, onunla evlenmek isterler. Ancak o, "*Çocuklarım yiğit oluncaya kadar kabilenin başında bulunurum, sonra umuru onlara bırakırım.*" diyerek reddeder. Aradan birkaç yıl geçer bir sabah seher vakti çadırının üst deliğinden giren bir ışık fark eder. Alankova'nın dili tutulur, ayağı tutmaz olur. Nurun içinden yüzü ak, saçı sarı, gözleri şehla bir adam Alankova'ya yaklaşır ve onunla birleşir. Alankova bunu kimseye söylemez, fakat bu nurdan gelen adamdan hamile kalır. Hamileliği belli olunca olanları anlatır. Ancak onun söylediklerine kimse inanmaz, sonunda akrabaları nöbet tutarak gözetlerler ve gözleri ile görüp kani olurlar. Alankova'nın üç oğlu vardır. En küçüğünün adı, Budancar'dır. Bu çocuk, sonunda Han olur. Çingiz Han ve Moğol'un birçok uruğu bunun neslidir. Bu nesilden olanlara "Pak-soy" anlamına gelen "nirun" denmiştir (s. 63–65).

Oğuz-nâme'deki duruma geçmeden önce Cengiz'in yaptıklarının Türkler arasındaki akislerini açıklamak faydalı olacaktır. Böylece Cengiz Han'ın sadece epik cephesinin yanında tarihî cephesini de görecek ve neden Türkler arasında hem olağanüstü bir kahraman hem de zalim bir tip olarak görüldüğü daha iyi anlaşılacaktır.

Cengiz Han'ın ortaya çıktığı çağlarda, Orta Asya'da pek çok feodal devlet (hanlıklar) bulunuyordu. Bu devletçiklerin hepsi müstakil idiler. Gümrük ve dinî inançlar yüzünden aralarındaki çatışmalar hiç eksik olmuyordu. Her devletin kendi resmî tarihçileri vardı. Cengiz Han'ın çok kısa bir sürede bu devletleri ortadan kaldırması o tarihçiler için felaketlerin en büyüğü idi. Bu yüzden Cengiz ve sülalesinin aleyhlerinde yazdılar.

Diğer taraftan bu hanlıkların aralarındaki en önemli müşterek bağ İslamiyet idi. İslamiyet, önceki din ve inanışları silmiş, yerine sadece kendi sistemini yerleştirmişti. Şimdi Müslüman olmayan dehşetli bir güç geliyor ve bu düzeni yıkıyordu. İşte bu sebeplerden Müslüman halk da Cengiz'i pek sevmiyordu. Bilhassa Batı Türkleri arasında Cengiz'in sevilmeyişinin belli başlı sebepleri bunlardır.

Ayrıca Cengiz Han'ın sadece kendi yaşadığı dönemle değerlendirmemek, onu XII. ve XIV. yüzyıllarda Doğu Avrupa'dan Japonya'ya kadar geniş bir sahada kurulan ve onun adına bağlı devletle birlikte düşünmemiz gerekmektedir. Böyle olunca Cengiz istilası olarak tarihlere geçen olayda, onun oğulları ve torunlarının yaptıkları da ona mal edilmiştir. Mesela Anadolu'da meşhur klasik şairimiz Nedim (1680–1730) bir şiirinde;

Tahammül mülkünü yıktın, Hülâgü Han mısın kâfir
Aman, dünyayı yaktın, âteş-i sûzan mısın kâfir.

diyecektir. Görüldüğü gibi, Anadolu Türklerinin sözünde Cengiz sülalesi yakıp yıkan, zalim bir sülale olarak iz bırakmıştır.

Gerçekten de Cengiz Han ve oğulları kurmak durumunda oldukları yeni dünya düzenine karşı gelen veya direnen şehirleri yakıp yıkmışlar ve ahalisini de öldürmüşlerdi.

Bunu yanı sıra XIII. ve XIV. yüzyıllar yani Cengiz Han devleti zamanında Türk boyları aynı siyasi birlik içinde bulundukları için, bozkır ve civar memleketlerdeki karışıklıklar ortadan kalkmış, Avrupa'dan ve Orta Doğu'dan gelen ticaret yolları emniyet altına alınmıştır. Böylece sükûn ve huzur sağlanmış, ticarette ve kültürde doğu batı sentezi oluşmuş, insanlık tarihinde bu dönem çok önemli bir rol oynamıştır.

---

[92] Geniş bilgi için bkz. Orhan Şaik Gökyay, Hannâme, Necati Lugal Armağanı, TTK Yayınları, VII. Seri, s. 275–329.
[93] Türk Şeceresi, Rıza Nur Neşri, İstanbul 1925, s. 62–65.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mesela, Anadolu'dan Buhara'ya giden bir mal, Cengiz Han'dan önce 28 ayrı ülkeden geçerken ve gümrük vergisine tabi olurken, bu dönemde tek gümrük ödenmeye başlanmış, ucuzluk ve ticaret emniyeti sağlanmıştır. Bütün bunlar da Cengiz Han'ın hayatı hakkındaki müspet rivayetlerin sebebi olmuştur.

Türkler arasındaki Cengiz sureti de saymaya çalıştığımız sebeplerden dolayı bazen müspet bazen de menfi olarak görülmüştür[94].

Bu girişi yaptıktan sonra, elimizde bulunan olan Oğuznâme yazmasındaki duruma geçebiliriz. Bu Oğuznâme, Kazan Üniversitesi Yazmalar Bölümünde bulunmaktadır. Daha önce ilim âlemine tanıttığımız bu eser[95], Sait Vahidî (1887–1938) tarafından 1930–1937 yılları arasında toplanan yazmalar arasında bulunmaktadır. Talik bir yazıyla kaleme alınan bu eser, 109 varaktır. Sahifelerin ebadı 29×17,5 cm olup, her sayfa 9,5×17 cm'lik bir çerçeve ile çevrilmiş ve 12 satır halinde yazılmıştır. Son sayfada oval bir mühür bulunmaktadır. Mühürde Arap harfleriyle "Vahidî Kütüphanesi" orta ve alt kısmında da kiril harfleriyle "Biblioteka S. G. Vahidova" yazıları bulunmaktadır.

Yazmanın müstensihi ve istinsah tarihi belli değildir. Dil özellikleri Çağatay sahasında yazıldığı ve XVI. veya XVII. yüzyıla ait olduğu intibaını vermektedir. Yazmada, müstensihin bir edisyon kritik yaptığı, hatta bazı olayları anlatırken tarihî deliller gösterdiği görülmektedir. Mesela daha ikinci varakta, "*… ve Âdem eyyâmıdın ta bizning eyyâm-ı ferh encâmımız gaça kitablar-ı mu'teber yüzidin cem ve te'lif eyleyüp…*" demektedir.

Eserin bugün inceleyeceğimiz, Cengiz Han'la ilgili kısımları karışık bir sıra ile verilmiştir. İlişikte orijinal fotokopisi ve transkripsiyonu verilen 86. varakta Cengiz Han'ın Rum vilayetini alışı ve oradan Kayı ve Afşar boylarından, Gün ve Yıldız oğullarından, Bozok'ta oturan 40.000 evi Horasan'a göçürdüğünden ve oğlu Toylu Han'ı bunların başına serdar tayin ettiğinden söz etmektedir. Bu Türkmenler Tebriz, Esterabad ve Merv'i içine alan sahaya yerleştirilmiştir. Cengiz Han, uzun bir süre sonra bu bölgelere gelip ahalisinin kimlerden olduğunu sormakta ve oğlu da bunların Rum vilayetinden göçürülen Kayı ve Bayat halkından olduklarını söylemektedir. Cengiz Han "*Bular köp ulug il ikenler ve bularga Hızır ili hazar kılganturur ve bularnıng atlarını Hızır ili koydung* (86b)" diyerek bu memlekete Hızır ismini verir. Aynı şekilde Afşar ve Kızıl boylarının yaşadığı bölgeye gelince Cengiz Han'ın söyledikleri daha da dikkat çekicidir. "*Bularga hem andag bolan bir yahşı at koyalı kim Türkmen halkı taharrübli bolurlar ve bizdin yaman körürler.... ve bularga Ali ili at koydung her kim bu illerga koşulsa bitgay ve kim bu illerden ayrılsa yitgay ...* (87a)" diyerek bunlara da Ali ili ismini verir. Oğuznâme'de bu kayıttan başka Alankova ile ilgili ikinci bir rivayete daha rastlamaktayız. Buna göre Allah insanoğlunu yaratırken üç garip ve nadir insanı özel olarak yaratmıştır. Bunlar anasız ve babasız olarak Hazreti Adem-i Safi, babasız olarak Hazret-i İsa ve bakire Alankova'dan nur ile doğan Bozancar'dır. Oğuznâme'ye göre bu olay şöyle olmuştur:

"*…Doğuda bütün sakinleri kadın olan bir ada vardır. Onların hamilelikleri bir çeşmede gusûl ile olur. Bundan sonra bakire olarak hamile kalırlar. Alankova burada başka bir garip olayla hamile kalır ve üç oğlan doğurur. Bir gece Alankova yatarken, havadan bir ses gelir, sonra bu ses mavi bir göze dönüşür ve yavaşça onun uykusuna girer. Daha sonra kurt suretinde çıkıp gider. Alankova çok şaşırır ve korkar. Olayı kimseye anlatmaz, ancak bir müddet sonra hamile olduğunu anlar. Akrabaları ona inanmazlar ve tahkir ederler. Sonunda bu ışığı onlar da görünce inanırlar ve bu olayı Allah'ın bir işareti olarak değerlendirirler. Belli bir süre sonra Alankova üç oğlan doğurur. En küçüğünün adını kurt anlamına gelen Bozancar koyarlar. Bozancar yıllarca ilin ve ülkenin hanı olur. Cengiz Han dokuz göbekten Bozancar'a ulaşır.* (91a)".

Bozancar'ın iki oğlu olur. Büyüğünün adı Buka Han'dır. Babasından sonra şecere: Buka Han-Tımın Han-Kaydu Han-Baysungur Han-Tümene Han-Kabal Han-Burtan Bahadır Han-Sebüke Bahadır Han'dan sonra Cengiz Han'a ulaşır.

Daha sonraki sayfalarda Tümene'nin küçük oğlu Kaçulı Bahadır'ın gördüğü bir rüya anlatılmaktadır. Bu rüyaya göre ağabeyi Kabal Han'ın koynundan bir yıldız doğar ve yol gösterir. Bu rüya bir müddet devam eder ve gittikçe yıldızların sayısı çoğalır. Kabal Han her bir yıldızı başka bir vilayete gönderir. Sonunda ilk doğan yıldız kaybolur. Ancak yıldızın nuru devam eder. Kaçulı uyanır ve yine uyur. Bu sefer kendi koyunundan bir yıldızın doğduğunu görür. Aynı yıldızı sekizinci görüşünde, yıldız, âlemi aydınlatır ve yıldızdan birçok yeni yıldızlar doğar. Kaçulı Bahadır uyanır ve Tümene Han'a giderek gördüğü rüyayı

---

[94] Geniş bilgi için bkz. Zeki Velidi Togan, Cengiz Han (1155–1227), İstanbul 1970, teksir halinde ders notları.

[95] Fikret Türkmen, "*Kazan'da Bulunan Yeni bir Oğuznâme Nüshası Üzerine*", Uluslararası Türk Dili Kongresi, Ankara 1992.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

anlatarak tabirini yaptırır. Tümene Han'ın yorumuna göre Kabal Han'ın yıldızı, Cengiz Han'ın saltanatına Kaçulı Han'ın yıldızı da Emir Timur-ı Gürgân'a işarettir.

Kabal Han'ın oğlu Burtan ve onun büyük oğlu da Sebüke Bahadır'dır. Onun anası Atun Enke isimli bir kadındır. Doğum yapınca çocuğun elinde ciğer parçası gibi bir parça kan olduğunu görürler ve adını Temuçin koyarlar. Büt Tengri denen kutsal varlık ona "Senin adın Cengiz olsun." diyerek isim verir. Cengiz, daha sonra 599. H.de Moğol ve Türkistan hanlarını temizler ve 73 yaşında 25 yıl saltanat sürdükten sonra ölür (93b).

Görüldüğü gibi, Cengiz Han'la ilgili doğum, şecere ve diğer özellikler Oğuz an'anesi içinde folklorizasyona uğramış ve Türkleştirilmiştir. Ancak "elinde kan tutarak doğma" motifinin Moğollar arasında da bulunduğu malumdur. Pelliot'un bu motifin Hint menşeli olduğunu söylemesi de ayrıca incelemeye değerdir[96].

Elimizdeki Oğuznâme'de Cengiz'in soy kütüğündeki isimler de oldukça farklıdır. Ancak anlatılan olaylar, temel kaynaklara fazla ters düşmemektedir. Bu bakımdan Han'la ilgili rivayetler üzerinde çalışacak olanlarla Türk epik edebiyatı ile uğraşanlara bu Oğuznâme önemli malzeme vermektedir. Hem Türkler arasındaki Cengiz Han'la ilgili rivayetlerin yaygınlığını hem de bilinen rivayetlere yeni bir değişik anlatım katacağını düşünerek bu yazmanın önemli olduğu kanaatindeyiz.







[96] Bahaeddin Ögel, Türk Mitolojisi, TTK Yayınları, Ankara 1971, s. 500–501.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com















PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# SABR U SEBAT'TAKİ DEYİMLER VE ATASÖZLERİ

***Harid Fedai***
***KKTC***

**Özet:** Abdülhak Hâmid Tarhan (İst.1852-İst.1937) Tanzimat döneminin en büyük şâiri sayılır ve bu yüzden 'Şâir-i A'zâm' olarak anılır. Kendisi Türk şiirine Batılı bir anlayış ve şiir yenilikleri getirmiştir. Ancak şiir dili ağır ve karmaşık söyleyişlidir. Hâmid'in 12 şiir kitabı ile 22 adet piyesi vardır. Piyeslerinin bazıları manzûmdur.

Sabr ü Sebat, Hâmid'in ikinci tiyatro eseridir ve 1875 tarihini taşır. Ondan önceki Mâcerâ-yı Aşk, 1873 yılında mensûr olarak yazılmış, 1910 da ise yazar tarafından manzûm hâline sokulmuştur.

Sabr ü Sebat'ta Hâmid'in karmaşık dilini görmüyoruz. Çünkü 'millî ve mahallî' olması için tiyatro sâhasında emeği geçen Ahmed Vefik Paşa'nın tavsiyesini dinlemiş ve eserini ona göre yazmıştır. Nitekim, eserin önsözünde bunu kendisi de i'tirâf eder:

"… ehibbâdan ba'zı zevâtın vāki' olan ihtârı bunın tiyatro oyunlarına tamâmıyle nazîre değilse de, bir raddeye kadar mutâbık ve âdet ve tabîate muvâfık olmasına beni teşvīk ėtmiştir."

Konu Rumeli'nde geçer. Eserde o yörenin ağız özelliklerinin de dikkate alındığı gözlemlenir. Eserin "millî ve mahallî" olmasına özen gösterirken metin deyim ve atasözleri ile öylesine doldurulmuş ki Ahmed Vefik Paşa'nın, "Ben sana darb-ı mesel mecmûası yaz dememiştim" lâtîfesiyle karşılaşılacaktı.

Konu, İstanbul'da bir câriyeye duyulan aşkla başlar. Sonra Rumeli'nde, seven erkek, işi dervişliğe vurarak bu aşkı unutmaya, unutturmaya çalışır. Ama kısa bir Paris yolculuğundan sonra yine İstanbul'da birbirlerine kavuşup bu aşkı evlenmeyle sonuçlandırırlar.

Konunun Türk tipleri arasında geçmesi esere bir özellik katmıştır.

Bildiride, 17x12 cm. boyutlu 143 sayfalık işbu eserdeki deyim ve atasözleri ele alınarak açıklanmaya çalışılacaktır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DƏDƏ QORQUD KITABININ DRESDEN NÜSXƏSI DƏ KÖÇÜRÜLMƏDIR

***Hüseyn Mohəmmədxani(Güneyli)***
***Azərbaycan***

Milli mirasımız və mənəvi sərvətimiz sayılan Dədə qorqud kitabının tanınması 1815-ci ildən başlanmış və o gündən bəri çoxlu oxunuşu çətin olan sözləri oxunmuş, açıqlanmalı qonuları açıqlanmış və həmin əsər üzrə Yüzlərcə elmi əsərlər, məqalələr pieslər, filmnamələr və sayirə yazılmışdısa, hələlik bir sıra görülməsi gərək olan işləri və aydinlaşmalı qaranlıqları da vardır ki, vaxtı gəldikcə çalışqan alimlərimiz onlara diqqət edəcəklər.

O işlər, nələrdən ibarətdir?

Onların biri əsərin ilk Katibinin kim və ya kimlər olduğunun araşdırılmasıdır. Hələ bu günə kimi əsərin birinci dönə qələmə alanından heç bir iz- toz göstərən olmamış, heç bir tarıxi əsərdə soz- söhbəti getməmişdir.

İkinci mövzü əsərin yazılma tarixidir. İndiyə kimi əsərin yazilma tarixi barədə söylənilən fikirlərin heç birisi ümum Dədə Qorqudşünaslar tərəfindən qəbul olunmamışdır. Belə ki, bir sıra alimlər əsərin son səhifəsində qələmə alınan "Təmmət= sona catdi, tükəndi" sözünün altında verilən əlamətləri 444 və ya 446 ədədi hesab edir, əsərın yazılma tarixini 431 və ya 433 şəmsi və ya 1052 ya da 1054 miladi illərində qəbul edirlər.

Halbuki, 1999-cu il Yunesko tərəfindən dünya səviyyəsində "Dədə Qorqud ili" adlandıqad, Azərbaycan respublikasında Dədə Qorqudun 1300 illiyi qeyd edildi. Bunlarla yanaşı Türkyəli alim Mühərrəm Ərgin əsərin qələmə alınmasını 15- ci əsrin sonlarına gətirib çıxardır. O bu fikirinin sübutu üçün bu dəlili irəli sürür ki, əsərin katibi, Əsərin müqəddiməsində Dədə Qorqudun dilindən bu kimi cümələri qələmə almışdır:

"Axər zamanda Xanlıq gerü Qayıya dəyə, kimsənə əllərindən almıya, axır zaman olub, qiyamət qopunca, bu dedüyi Osman nəslidir". Mühərrəm Ərginin fikirincə əsər Osmanlı hakimiyyəti dövründə qələmə alınmış və katib hakimiyyətin nəzərini özünə və ya əsərə cəlb etmək üçün bu sözləri Dədə Qorqudun dilindən söyləmişdir.

Əsərin dilini 15-16- cı Əsirlərdə yazılan Füzuli, Nəsimi, Xətayi divanlarının dili ilə tutuşdurduqda, Mühərrəm Ərgin ilə heç də razılaşmaq Olmur; Çünki sözü gedən Əsirlərdə yazılan əsərlərin dili, müasir türkcəmizə qat-qat yaxındır və onları eşidən hər dinləyici Onlarda anlaşılmaz bir sözlərlə qarşılaşmır,halbuki,Dədə Qüorqudda həmin dinləyicilər üçün anlaşılmaz sözlər nə qədər desən coxdur.

Əsərin yazılması barədə irəli sürülən çeşitli fikirləri yan-yana qoyaraq, onların istinad etdikləri qonular barədə düşündükdə, belə bir nəticəyə çatmaq mümkündür.

Ola bilsin ki, əsər 1300 il bundan əvvəl bəlkə də ərəb əlifbasi ilə deyil, başqa bir əlifba ilə qələmə alınsın,sonralar, yəni qəməri tarix ilə 444- cü ildə bir az da İslam dini boyası artırmaqla yanaşı, olduqca dilini də müasirləşdirərək, ərəb əlifbasi ilə yenidən yazsınlar, bəlkə Dresden nüsxəsinin katibi də əsəri özü yazmadığının ucundan və ona köçürdüyü bir iş kimi baxdığından, öz adını əsərdə verməmiş və təkcə köcürülməsinin başa çatma tarixini əsərin sonunda vermişdir.

Belə bir fikir ilə razılaşa biliriksə, məhərrəm ərgin ilə də bir cəhətdən razılaşmaq olar, yəni əsər öncə köçürüldüyü kimi, 15- ci əsirdə də başq bir katib tərəfindən köçürülmüş və həmin katib əsəri köçürərkən bir sıra dini-siyasi münasibətlərini də ona əlavə edərək, dilini də olduqca yumşaltmış, lakin tamamiylə müasirləşdirməmişdir.

Beləki, o dövrlərdə mükəmməl arxayikləşməmiş, hələ də bəzilərə anlaşılan bəzi sözlər olduqları kimi saxlanmışlar. Həmik sözlərin biri "bun" sözüdür. Bu söz müxtəlif dastanlarda işlənmişdir, məsəla:

-"Qara başım bunaldı", Qızım- gəlinim bunlu oldu", "bunlı yerdə qoyub gəldim otuzdoqquz yoldaşım,iki arğışım", "eləki mən çakirəm göz bununu, heç yigidə verməsün qadir tangrı göz bununı".

Bu sətirlərdə verdiyimiz cümlələrdə görürük ki, bun sözü ağrı, dərd, sıxıntı, pərişanlıq anlamında ışlənir. Və Dədə Qorqud boylarında işlənən bu arxayikləşmiş söz, həmin əsərin cöx qədim dövrlərdə qələmə alinmasını güstərən daha da onəmli bir sənəd olaraq, Məhərrəm Ərgin və onunla Dədə Qorqud kitabinin ilk dönə qələmə alinma tarixi barədə fikirdaş olanların iddiasını pozur, zira onlarin söylədiyi dövrdə yazılan əsərlərin heç birində bu kimi sözü görmək olmur. "Bun" sözünü biz "əski Türk" əsərlərində və səkgızıncı yüz illikdə yəni miladi 731 dən 734 cü ilə qədər yazılan "kültəkin" abidəsi kimi əsərlərdə görəbilirik həmin abidədə iki cümləni oxuyuruq:

1-"...Türk qağan ötükən yış olursa, eltə bun yoq"... (Türk xaqanı ötükən urmanında otursa, eldə bun= dərd, qəm- qussə, pərişanlıq, sıxıntı) yoxdur.

2- "Tuzultum, altun, kümüş, isgiti, kutay bunsızça birür". (yaxşı davrandım, qızıl- gümuş, ipək parçanı zəhmətsiz sıxıntısız verir).

İndi mümkündür belə bir sorğu ortaya çıxa:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dədə Qorqud əsərində çoxlu əski sözləri müasirləşdirən katib nə üçün "bun" sözündən vaz keçmişdir?

Bu sorğunun cavabında demək olar:

Bəlkə o zaman katibin yaşadıgı yerlərdə dərd, ağrı, sıxıntı sözlər, xalq tərəfindən indiki qədər mənimsənməmişdi,buna görə də katib bun sözünün anlamını özü başa düşmədiyi üçün ona uyğun anlam tapa bilməmiş, nəticədə onu cağdaşlaşdırmamış və bir əmanətdar olaraq, ibarəti olduğu kimi köçürmüşdür.

Dədə Qorqud əlyazmalarının, özəlliklə Dresden nüsxəsinin köçürülmə olmasına dayir yalız onun dili və onda işlənən arxayikləşmiş sözlər deyil, bəlkə başqa faktlar da göstərmək olar. məsəla:

Dresden nüsxəsinin 19-cu səhifəsində Oxuyuruq:

"Ağ saqqallu qocanın ağzın söydi, ağ birçəklü qərinin südin tartdi". Ehtimal vermək olurki, ikinci cümlənin feli yəni "tartdı" sözü ilk dönə"tandı= dandı" olmuş(Ərəb əlifbasında yazılan tatdı ilə tandı sözlərinin yazılışında təkcə bir nüqtə fərqi vardır), lakin köçürən katib sözün anlamını başadüşməyib və ya onu doğru oxuyabilmədiyinin ucundan onu tartdı yazmışdır.

(D. S. 43) "uçarda quzğun, tazi tolaşmış yürəndə qalmış" . Həmin ibarət ( D. S . 91) belə işlənir:"uçarda quzğun qalmış, tazi tolaşmış yüzində qalmış". iki şəkildə təzahür edən bu cümlənin, hər iki şəkildə yazılmasından bunu duymaq olur ki , başqa bir adam tərəfindən qurulmuş bu cümlələri yenidən yazan katib ,kələmələrin anlamlarını yaxçı başadüşmədiyi üçün yaxşı düzə bilməmiş, ya da düzəndə yanılaraq belə qarma –qarışıq yazmışdır. təbiidir ki, katib öz zehnindən yazsaydı, onları belə qatmazdı. Hər katibə, artıq köçürmə işlərdə və köçürdüyü mətləbin anlamını başadüşmədikdə, belə bir olaylar baş verəbilər. demək olar ki, o cümlənin doğru yazılışı belə olmalıydı:

"Uçarda quzğun, yürürdə tazi tolaşmış qalmış". yenə də (D. S.48)"nə qaqırsan bana ağam qazan"!? Bu cümlə ikinci boyda qazan bəyin qaracıq çobana etdiyi qarğışdan sonra cavab olaraq, çobanın dilindən qazan bəyə söylənir. belə olduqda, nə qaqırsan sözü əslində nə qarqırsan-nə qarğış edirsən?_ olmalıdır. çünkü qaqmaq=qaxmaq, qaxınc etmək, və başa çalmaq deməkdir. Halbuki, qarğış edənə, niyə qarğırsan? Deyərlər. buna əsasən əsəri köçürən katib, ilk katibin" qarqırsan" sözünü bilə- bilə"qaqırsan" sözünə çeviribdir,-deyə bilməsək, bunu qəbul etməliyik ki, ilk katib və ya köçürən, həmin sözün ilk hicasında"R" səsini qələmdən salmışdır .

(D.S.109) Həmin sətirlərin yazarının fikirincə, bu səhifənin 2-3-4-cü sətirlərində verilən cümlələr bu günə qədər, gərəkən kimi oxunmamışdır. Bunun da səbəbi əsəri köçürən katibin orijinal nüsxəni oxuyabilmədiyi və onun bu sözlərinin(bacara- bacarmaya) şəkillərini cızmaq qinaətinə gəldiyi ola bilər. o cümlələr bunlardan ibarətdir:"Tul tulada gərdigim, tuladarı, duxarlıyı qovduğum yağı yurdu əlimdə qıl keşlim ayğır malı, ayğır verüb alduğum tozlu qatı yayım, buğə verüb alduğum boğmə kirişim".

Bu cümlələri quzey Azərbaycanlı dədə qorqudşünaslar " Fərhad Zeynalov və Samit Əlizadə" belə oxumuşlar:"Tul tulara girdigim, tuladarı, duxarlıyı qovduğum, yaği yordı əlümdə qıl kişlim ayğır malı, ayğır verib alduğım tozlı qatı yayım, buğa verüb alduğım boğma kirişim" .

Yenə də quzey Azərbaycanlı Dədə Qorqudşünas profesor "Şamil Cəmşidov" belə oxumuşdur:"Tul tulada gərdigim, tulu avarı ,duxarlıyı qovduğum yaği yürdüyi alumda qızıl kişlim ayğır malı, ayğır verüb aldığım tozlu qatı yayım, buğa verib aldığım boğma kirişim". Güney Azərbaycanlı alim Məhəmməd Əli Fərzanənin əsərində də həmin cümləələri belə oxuyuruq:

"Tul tulara, girdigim, tulaları, duxarlıyı qovduğum yaği yurdı, əlimdə qıl keşlim ayğır malı, ayğır verib aldığım tozlu qatı yayım, boğa verib aldığım boğma kirişim". Həmin sətirlərin muəllifi isə bu ibarətləri bu kimi oxuya bilmişdir: "Tul tulada gərdigim, tul avarı, duxarlıyı qovduğum, yaği yordı əlimdə qıl keşlim ayğır malı, ayğır verib alduğım tozlu qatı yayım! buğa verub alduğım boğma kirişim[97]. (D. S. 113): "Qəravatə varduğım yoq". (Ğəzəvatə vardığım yox). "Ğəzəvat" din uğrunda və ya başqa bir müqəddəs yolda gedən mudafiələr və müharibələr deməkdir. Oğuz iyidi deyir: Mən and içmişəm qısır və qısırağa(dişi ata, madyana) minərək"Ğəzəvata getməyəm". Təbiidir ki, bir sözün anlamını bilməyən və ya onun imlasını bacarmayan kimsə, onu qələmə almaz. Bu fikir ilə razılaşırıqsa, deyə bilirik ki, bu söz orijinal nüsxədə başqa əlifba ilə yazılmış və ya ərəb əlifbasında yazilmişdisa, bu əlifba hələ gərəkən qədər gəlişməmişdi və sözləri bununla gərəkən qədər doğru yazmaq olmurdu. nəticədə sözü oxuyabilməyən və ya anlamını olduğu kimi başa düşməyən katib "Ğəzəvat" sözünü "Qəravat" kimi köçürmüşdür. bu kimi yanlış "Qəzəğuç" sözü barədə də qabağa gəlmişdir. məsəla əsərin ön sözündə gedən "Qəzəğuç" sözü, başqa dastanlarda qara qoç, qərə qoç, qərəğuç kimi də qələmə alınmışdır.

---

[97] - Bu cümlələr nəşr etdiyimiz ( Dədə Qorqud kitabı və Dədə Qorqud kitabında sözlər – adlar ) ünvanlı əsərin üçüncü boyunun ətək yazılarında bir az açıqlanmışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Buna əsasən, demək olarki, ilk katib bu sözü boylarda da "Qəzəğuç" (yəni at və ya bir çeşit at) yazmışdır, lakin sözün anlamını başa düşməyən köçürən, onu qara qoç və bu kimi anlamlarda götürüb, göstərilən kimi də yazmaq istəmişdir.

(D. S. 121) quşun alə qatını, qumaşıng arusini" bəlkə də bu sözlər əvvəlcə belə iymiş: quşun alaqanını, qumaşın arusını(quşun alağanını, alicisini, quşları ovlayanını və qomaşın, qumaş parçanın təmizini). Ancaq köçürən katib nədənsə "alaqanını" sözünü alaqatını yazmışdir! Həmin ibarət, D. S. 212-də də tikrar olmuşdur. hər iki yerde işlənən söz alimlər tərəfindən çeşitli şəkillərlə oxunmuşdur. məsəla "Ale qatını" sözünü " Ala qanını, ala qatını" və "qumaşıng arusını" isə "qaşın irisini " kimi də oxumuşlar.

(D. S. 127) İt üzməkli keçə börklü..." bu sözü alimlər it ürməkli (it hürməkli, it kimi hürən) və ip üzəngili(Atının üzəngisi ipdən olan) kimi də götürürlər, ancaq bunların yalnız birisi doğru ola bilər. Yəqin ki, sözün yazılmasında və ya köçürülməsində yanlış baş vermişdir.

(D. S. 11) "qavunım virəgim düləgim". bu üç sözcük dədə Qorqudşünaşar tərəfindən çeşitli şəkillərlə oxunurlar.

Demək olar: ilk katib bunları qadunım (qadınım), dirəgim(dayağım), düləgim (tüləgim, mətanətlim) yazmışdır, ancaq boyları köçürən, sözlerin anlamını bilməyir və ya onları oxuya bilməyir və "D" səsi ile "V" səsinin Ərəb əlifbasında bir az bənzər olduğu üçün, bu sözlərdəki "D" səsini "V" səsinə çevirir.

(D. S. 138): qarşu yatan qara tağdan bir oğul uçurdunsa degil mana! –qamın aqan yügrək sudan bir oğul uçurdunsa, degil mana! boylarda başqa şeir parçalarına göz gəzdirdikdə görürük ki, göstərilən ikinci cümlədə "bir oğul uçurdunsa" ibarəti yerinə, "bir oğul aqıtdınsa" yazılmalı idi. bəlkə də boylar yenidən yazıldıqda, katib yanılaraq, öncə yazdığı cümlədə "uçurdunsa" sözünü, sonku cümlədə "axıtdınsa" yazacağı sözün yerində tikrar etmişdir.

(D. S. 206): "Qarğu dallu uz sügümi tandım"! şübhəsiz ki bu cümlənin ilk katibinin məqsədi, cümləni belə yazmaqımış: qarğu dalı uz sügümi qapdım və ya qarğu dalı uz sügümi tartdım". Ancaq əsər köçürüldükdə, mətni yaxşı oxuya bilməyən və ya anlamını başa düşməyən katib qarğu dalu sözünü qarğu dallu, qapdım və ya tartdım sözünü də qandım yazmışdır.

Başqa sözlə desək, "dalu= qolu, budağı" sözünü "qullu, budaqlı", başa düşmüş, "qapdım" sözündə isə, cümlənin anlamını bilmədikdə, altda qoyacağı bir nüqtəni üstdə qoymaqla" qapdım" sözünü "qandım" etmiş, ya da Ərəb qırafıkasında əvvəldə yazılan "T" səsi ilə əvvəldə yazilan "Q" səsinin oxşarlığının ucundan "tartdım" yazacağı sözün ilk hicasında "T" səsi ilə "Q" səsində həm də bir nüqtə ilə fərqlənən "T" və "N" səslərində yanılmışdır. Hər halda belə - belə xatalar əsli yazardan deyil, artıq köçürən tərəfindən baş verə bilər.

(D. S. 251):İbrahimi tutdurdun, xanım künə çulğadın". alimlər, bu iki cümlədə "Xanım" sözünü "Xam" və "Künə" sözünü "gönə" kimi qəbul edir, nəticədə cümlələri belə oxuyurlar:

"İbrahimi tutdurdun, xam gönə çulğadın". bir haldaki İbrahim peyğəmbərin oda salınması barədə, bildigimizə görə heç bir rəvayətde onun gönə və ya xam gönə çulğanmasından söz – söhbət getməyib, belə olduqda, bu iki söz yəni "Xanım künə"" Xanım, gəvənə" və ya "Xam gəvənə" (Alışıq üçün münasib olan bitgiyə) olmasa[98], bizcə bu kələmələr də hələlik oxunmamış və ya köçürən, bu sözləri olduğu kimi qələmə alabilməmişdir .

(D. S. 256): "gördi kim öksiz oğlan bir qızanı çəkişüər". Dədə Qorqudşünaslar bu cümləni çeşitli anlamlarla oxuyurlar, ancaq bizə belə gəlirki, cümlə əslində belə olmuş: "Gördi kim öksuz oğlan bir qızınan (qız ilə) çəkişür(gördü ki, yetim oğlan bir qız ilə dartışır). Ancaq əsəri köçürən kimsə, "qız inən= qız ilə" sözünü, "qızani" kimi köçürmüşdür.

(D. S. 266): "Əgrək aydır: gəlün varəlım, dedi tutalım! Bəllidir ki, bu cümlə, köçürülərək pozulmuşdur. Həmin cümləni əsərin cümlə quruluşu əsasında qurmaq istəsək, sözləri bu durumda düzməliyik "Əgrək Aydır: Gəlün varalım, tutalım, – dedi.

( D. S. 278): "fir'on şişlər yönəlib yerdən çiqsə, qaba ökçəmlə pərçin qılan Qazan ər idim". Müasir türkçəmiz ilə desək: Fir'on şişlər yönəlib yerdən çıxarkən, dik dabanım ilə basıb əyən (pərç eləyən) Qazan kişi idim.

Cümlənin anlamı barədə düşündükdə, görürük ki, fir'on sözü ilə şiş sözü arasında heç bir ilgi ola bilməz. şübhəsiz ki, ilkin katibin məqsədi "qızğun şişlər" yazmaqımış, amma kitabi köçürən, sözü başa düşmədiyindən, neçə nüqtəni qələmə almamış, "qizğun" sözü "fir'un" şəkilində təzahur etmişdir.

Bunlarla yanaşı əsərin köçürülmə olduğu barədə başqa örnəklər də göstərmək olar. məsəla:

---

[2-] Ərəb əlifbasında " gun, gəvən , gön" Kələmələri son vaxtlara kimi bir şəkildə yazılırdı və onun nə olduğu cümlənin anlamından asılı idi .



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(D. S.114): "tur qız oynarsan oynamazsan cəhənnəmdə oyna"!-cümləsində. Bizcə bu cümlə əslində belə olmalıdı: "tur qız oynarsan- oyna, oynamazsan, cəhənnəmdə oyna! Belə isə bu cümlədə "oyna" sözü köçürülərək qələmdən düşmüşdür.

Habelə (D. S. 151): "yigirmi dört boyin oxşayan dəli tondaz yetdi". Başqa boylarda dəli Dondar barədə işlənən və onun kimliyi barədə söylənən cümlələri gözdən keçirdikdə, görürük ki, bu cümlədəki iki söz qələmdən düşmüş bir nüqtə də artiq qoyulmuşdur. Deməmk bu qəhrəman barədə işlənən başqa cümlələrə əsasən, bu cümləni yenidən qurmaq istəsək, qurulacaq cümlə belə olacaqdır: "yigirmi dört sancaq bəyinin boyin oxşayan dəli tundar (dəli Dondar) yetdi".

Köçürülərək, əsərdə baş verən bu kimi olayların sayı az deyildir. Biz burada onlarin neçəsini göstərməyə qinaət edirik. Məsələn: (D. S. 205): də "ayğır gözlü yüzdürən" cümləsi, başqa səhifələrdə "ayğır gözlü suyunda at yüzdürən" gedib (D. S. 199)da "qoşa badam taz ağızlum" başqa yerdə "qoşa badam sığmayan tar ağızlum" işlənibdir.

Yenə də (D. S. 231) də "qırış günü öndən" cümləsi başqa səhifələrə görə, "qırış günü öndən dəpən alpinuz kim?-olmalı və (D. S. 282) də "mərə ana, mən xan oğlı deyilmişəm, xan Qazan oğlıimişəm" cümləsi, "mərə ana mən xan Bayındır oğlı dəyilmişəm, xan Qazan oğlı imişəm" olmalıdır.

2000-ci ildə çap etdirdiyimiz "Dədə Qorqud kitabı və Dədə Qorqud kitabında sözlər – adlar" ünvanlı əsərin mətnində/ / arasında yerləşdirilən sözlərin hamısı(D.) nüsxəsində qələmdən düşmüş sözlərdilər ki, əsərin başqa cümlələrinə müraciət edərək, bu boşluqlar doldurulmuşar.

Bu sətirlərdə göstərdiyimiz bir sira örnəklərə əsasən, dədəqorqud kitabının bu günə kimi lap əski nüsxəsi tanınan "Dresden" nüsxəsi də hələlik tarixin qaranlıqlarında qalmış bir nüsxədən köçürülmüşdür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCAN MƏHƏBBƏT DASTANLARI SÜJETİNİN TAM ŞƏKİLDƏ YAZIYA KEÇİRİLDİYİ İLK MƏNBƏ: «ŞƏHRİYAR»DASTANI

***Hikmət Quliyev***
***Səfa Qarayev,***
***BDU***
***Azərbaycan***

Etnosun dünyagörüşü, onun təfəkkürünün quruluşu müxtəlif vasitələrlə reallaşır. Bugünki müstəvidə bu geniş mənada təfəkkürün strukturunu, onun tarixi formalarını öyrənmək üçün mənbədir. Lakin bu mənbənin araşdırılmasından öncə sərhədlərinin müəyyənləşdirilməsi və təfəkkürdəki yerinin dəqiqləşdirilməsi çox vacib məsələdir. Məlumdur ki, etnosun dünyagörüşünün ifadə vasitələrindən biri də söz kodudur. Bu ümumi götürdükdə ədəbiyyatdır. Lakin ədəbiyyat özünün spesifik inkişaf qanunauyğunluqlarına görə biri-birindən fərqlənən iki qola – şifahi və yazılı ədəbiyyata ayrılır. Müasir dövrdə yazılı və şifahi ənənənin sərhədlərinin müəyyənləşdirilməsi çox da çətin deyildir. Ancaq şifahi ənənəyə aid nümunənin yazıya keçirilmə tarixinə aid olan materialarla sırf yazılı ənənəyə məxsus olan əsərlər arasında sərhəddin müəyyənləşdirilməsində bəzi çətinliklər vardır. Belə ki, bəzən şifahi ənənənin yazıya keçirilmə tarixinə aid olan nümunənin formal olaraq yazılı mətn şəkilində bizə gəlib çatdığını əsas gətirərək bu sıradan olan əsərləri yazılı ədəbiyyatın nümunəsi hesab edirlər.

Belə tipli əsərlərdən biri də Məhəmməd adlı müəllifə aid edilən, lakin bütün poetik-semantik struktur elementləri baxımından klassik Azərbaycan məhəbbət dastanlarından biri olan «Şəhriyar» dastanının Azərbaycan məhəbbət dastanlarının bütöv süjetinin yazıya keçirildiyi ilk mənbə olmasına baxmayaraq, şifahi ədəbiyyat nümunəsi kimi təhlildən kənarda qalmasına səbəb olmuşdur.

Əslində yazılı şəkildə bizə gəlib çatan mətnlərin şifahi, yaxud yazılı ənənəyə aid olmasını müəyyənləşdirmək üçün onlarda mövcud olan keyfiyyətləri nəzərə alaraq şərti olaraq iki səviyyəyə ayırmaq olar:

1. Şifahi ənənə səviyyəsi;
2. Yazılı ənənə səviyyəsi.

İlk olaraq qeyd edək ki, şifahi ənənə səviyyəsinə kollektiv yaradıcılıq ənənəsindən gələn struktur və məzmun keyfiyyətlərini özündə birləşdirən **fərd – kollektiv – fərd – kollektiv** (11,28) ənənəsində mövcud olan materiallar aiddir. Yazılı ənənə səviyyəsinə isə klassik ənənənin qanunlarını özündə birləşdirən və fərdin özünəməxsus düşüncə tərzini və ideyalarını əks etdirən əsərlər daxildir. Deməli, şifahi ənənəyə aid olan materiallarda şifahi ənənə detalları üst planda, yazılı ənənəyə aid olan nümunələrdə şifahi ənənə alt planda olmalıdır.

| Şifahi ənənəyə aid olan əsər | Yazılı ənənəyə aid olan əsər |
|---|---|
| Şifahi | Yazılı |
| Yazılı | Şifahi |

Bu sxemə uyğun olaraq konkret nümunələrə müraciət edək:

Nizami Gəncəvinin «Xosrov və Şirin» əsərinin əvvəlində övladsızlıq motivinin əks olunmasının, yaxud Şəbdiz atının daşdan doğulması motivinin yer almasının folklor ənənəsindən gəldiyi bəllidir.

Yaxud Ə.Təbrizinin «Mehr və Müştəri» əsərində övladsızlıq motivi xalq ədəbiyyatında olduğu kimi, dərvişin köməkliyi ilə həll olunur. Bir fətrin iki yerə bölünərək yeyilməsindən doğulan uşaqlar sonda yenə də vahidə qayıdırlar. Həm N.Gəncəvinin əsərindən gətirilən detal, həm də Ə.Təbrizinin folklordan alaraq vəhdəti-vücud nəzəriyyəsi ilə əlaqələndirdiyi nümunə əsərlərdən də göründüyü kimi yazılı ənənənin alt qatında qalmış və yazılı ədəbiyyatın formalaşmasına kömək göstərən bir detal səviyyəsində təzahür etmişdir.Bu kimi faktlar şifahi və yazılı ənənəni fərqləndirmək üçün prinsipial imkanlar yaradır.

Şifahi ənənənin yazıya keçirilmə (yazıya keçirilmə dedikdə folklor nümunəsinin müəyyən yaradıcılıq prosesindən keçərək yazı koduna oturdulması nəzərdə tutulur- S.Q, H.Q) tarixinə aid olan materialda isə yazı ənənəsi daha çox yazı faktı ilə əlaqədar olur. Belə ki, burada mətn informasiyası yazı koduna oturdulmuşdur. Əksər hallarda burada struktur-semantik dəyişikliklərin baş verməsi az təsadüf olunandır.

Burada bir fakta da aydınlıq gətirmək lazımdır. Belə ki, şifahi ənənənin yazıya keçirilmə tarixinə aid olan nümunəylə, mövzusunu və hətta strukturunu şifahi ədəbiyyatdan götürmüş yazılı ədəbiyyat nümunəsinin fərqləndirilməsi də çox vacibdir. Mövzusunu və hətta strukturunu şifahi ənənədən götürmüş əsər şifahi ədəbiyyatın yazıya keçirilmiş nümunəsindən o keyfiyyəti ilə fərqlənir ki, belə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nümunələrdə bütün folklor detallarının yeni semantik yüklə yüklənərək müəllif tərəfindən müəyyən olunmuş hədəfə istiqamətlənən vahid ideyası, qayəsi olur. Məhz müəllifin folklor mövzusundan bəhrələnməsi, mövzunu yenidən işləyərək öz dövründə aktuallaşdırması da bununla bağlıdır. İrəlidə bütün səviyyələrdə təhlil edəcəyimiz «Şəhriyar» dastanı üzərində apardığımız müşahidələr göstərir ki, bu dastan nə şifahi ənənə motivlərini özündə ikinci planda əks etdirən yazılı nümunələrə, nə də mövzusunu şifahi ənənədən götürən müəyyən müəllif ideyasına xidmət edən əsərlər sırasına aid deyil.

Şifahi və yazılı ənənənin formalaşmasına təsir edən fərqli, spesifik elementlər də mövcuddur ki, bunları da təxminən aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Yazılı ənənəni formalaşdıran və fərqləndirən cəhətlər:

a) Müəllifin fərdi dünya görüşü və gerçəkliyə münasibəti;

b)Yazılı ədəbiyyatda tarixən yaranmış formalarla bağlı xüsusiyyətlər (klassik qəsidənin məzmun qrupları, saqinamə və s.);

c) Dini dünyagörüşü ilə bağlı xüsusiyyətlər;

d) Yalnız yazılı ədəbiyyat üçün xarakterik olan janrlar;

e) Digər xalqların folklorundan və ədəbiyyatından gələn xüsusiyyətlər;

2. Şifahi ənənəni formalaşdıran cəhətlər:

a) Kollektiv təfəkkürün aparıcılığı;

b) Vahid strukturun invariantlığı;

c) Etnik-milli düşüncənin dominantlığı;

d) Mətnin şifahi repertuarda dəfələrlə söylənilərək təkmilləşməsi;

e) Ənənəviliyin daha üstün olması;

f) Şifahi ədəbiyyat üçün xarakterik olan model, qəlib və janrlar.

Bununla belə , şifahi ənənəylə yazılı ənənənin kəsişdiyi,qovuşduğu məqamlar da mövcuddur. Bunlar aşağıdakılardır:

1.Söz kodu ilə reallaşma;

2. Məzmun və mövzu cəhətdən oxşarlıqlar;

3. Forma və janr baxımından bəzi eyniliklər və s.

Biz bütün bu prinsiplər əsasında «Şəhriyar» dastanını ədəbiyyatşünaslığımızda mövcud olan fikirlər kontekstində təhlil etmək istərdik.

«Şəhriyar» dastanını ilk dəfə akad. H.Araslı aşkara çıxarmış və onun haqqında müəyyən fikirlər söyləmişdir. Qeyd edək ki, dastanın günümüzə gəlib çatmış yeganə əlyazması AMEA-nın Əlyazmalar İnstitutunda saxlanılır. Əlyazmanın sonuncu və ortadan bir neçə səhifəsi yoxdur. Lakin əlyazmada nə katibin, nə hər hansısa bir müəllifin, nə də onun yazıya alındığı yerin haqqında məlumat yoxdur. Lakin əlyazma üzərində işləmiş H.Araslı orada dağa qarovula getmək haqqında sonradan yazılmış tarixi bir qeydin olduğunu qeyd edir (1245-1836). Dastanı ilk dəfə yeganə əlyazması əsasında geniş ön söz və şərhlərlə 1987-ci ildə AMEA-nın müxbir üzvü, professor Ə.Səfərli çap etdirmişdir.

Əsərin ümumi süjeti belədir: «Tiflis şəhərində Saleh adlı bir sövdəgər yaşayırdı. Onun var-dövləti başından aşsa da bir övladı yox idi. Bir gün Saleh sövdəgər bağda olarkən tuti quşlarının söhbətinə qulaq asır və qəmgin olur. Arvadı Zöhrə xanım nəzir-niyaz verib Allaha dua etməyi məsləhət görür. Sonra bir gün bunlar gecə aləmi-röyada olarkən «bir ağsaqqal nurani kimsənə» onların yuxusuna girir və deyir: tezdən yol üsdünə çıxın və aciz, kimsəsiz gördüyünüz adama kömək edin.

Onlar belə də edirlər. Bundan sonra «doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə tamam olanda Zöhrə xanım bir oğlan doğur. Alimlər, münəccimlər yığışıb uşağın adını Şəhriyar qoyub və on beş yaşından sonra buna bir işin üz verəcəyindən, lakin sonda xoşbəxt olacağından xəbər verirlər.

Vaxt olur Şəhriyarın sövdəgərlərlə ticarətə çıxması ərəfəsində yuxusuna aşiqləri bir-birinə yetirən şəxs girir və Kirman bəylərbəyisi Cahangir xanın qızı Sənubər xanımı ona buta verir.Şəhriyar yuxudan ayılmır, ağzından köpük gəlir. Heç kim ona dava-dərman edə bilmir. Nəhayət bir «qareyi-köhnəsal» gəlib onun sağalmaz dərdə düşdüyünü deyir və başına kül ələyib öldürülməsini məsləhət görür. Lakin Şəhriyar yuxudan ayılır və ayılan kimi saz istəyir. Və

«Yatmışdım üstümə gəldi ərənlər
Bir cam verib saldı bu hala məni»

- deyərək öz halını Fatma qarıya bəyan edir.

Şəhriyara buta veriləndə « Şəhriyarı ataşi-eşqə düçar edən» gəlib Sənubərə də buta verir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əvvəlcə Saleh sövdəgər Şəhriyarın butası dalınca gedir. Lakin heç nə alınmır. Bu zaman Sənubər xanım da eşq badəsini içdiyi üçün yatağa düşür. Heç kim onun dərdini bilmir. Lakin Həkim Sadıq onun dərdini bilir və kömək edəcəyini bildirir. Həkim Sadıq gəlib Şəhriyarı tapır və birlikdə Kirmana yola düşürlər. Yolda Pərzad və Şamamabəyim xanımla da qarşılaşır. Şəhriyar Pərizadı bacı kimi qəbul edir, Şamamabəyimi isə deyişmədə bağlayaraq geri qayıdarkən onu da alıb aparacağına söz verir. Şəhriyar çox böyük əzab-əziyyətdən sonra sazın, sözün köməyilə butasına qovuşur və Şah Abbasdan bəylərbəylik alıb geri qaydır. Toy edib Sənubəri və Şamamabəyimi özünə, Pərizadı isə vəziri Həkim Sadıqa alır».

«Şəhriyar» dastanı barədə ədəbiyyatşünaslıqda mövcud olan fikirlərə nəzər salaq.

Qeyd etdiyimiz kimi, əsər haqqında ilk elmi mülahizə akad. H.Araslıya məxsusdur. Akad. H.Araslı əsər barədə yazır: «Şəhriyar və Sənubər» dastanı da həmin əsrlərdə yaranıb, müxtəlif aşıqlar tərəfindən təkmilləşdirilmişdir ki, müəllif də bunu **yenidən işləyib**, XVIII əsr yazılı ədəbiyyatımızın, xüsusən nəsrimizin gözəl nümunəsi kimi canlandıra bilmişdir (1,620). Göründüyü kimi, alim düzgün olaraq əsəri şifahi ənənəylə bağlayır, onun vaxtilə aşıqların repertuarında olduğunu qeyd edir. Lakin burada yer alan digər fikrlərə («nəsrimizin gözəl nümunəsi» və «müəllif də bunu yenidən işləyib») biz qarşıda bir daha qayıdacağıq.

«Şəhriyar» dastanı barədə ən geniş mülahizələr professor Ə.Səfərli tərəfindən təqdim olunur. Ə.Səfərli dastanın ustadnaməsinə əsasən onun müəllifinin Məhəmməd adlı bir yazıçı olması mülahizəsini irəli sürür. Və əsərin başqa bir yerində Məhəmməd Əmirli adının qeyd olunduğunu deyərək hər iki adın eyni şəxsə aid olduğunu yazır. Əsər barədə alim daha sonra yazır: «Şəhriyar» əsəri şifahi deyil, yazılı ədəbiyyat nümunəsidir. Belə ki, bu əsər şifahi yox, yazılı şəkildə bizə gəlib çatmışdır. Mövzunu xalq ədəbiyyatından alan yazıçı onu yeni bir biçimdə, yeni bir süjet və məzmunda qələmə alaraq müstəqil bir əsər yaratmış, dastan üzərində özünəməxsus bir yaradıcılıq işi aparmışdır» (15, 5). Bundan əlavə alim dastanda Şəhriyarın öz butasından əlavə başqa bir qızla evlənməsini belə izah edir: «Qəhrəmanın butadan başqa qızlarla evlənməsi feodal, ruhani zehniyyəti və münasibətlərinin təzahüründən başqa bir şey deyildir» (15, 11).

Göründüyü kimi, müəllif öz fikirlərini əsaslandırmaqla «Şəhriyar» dastanının orijinal bir müəllifli əsər səviyyəsində təhlil edir. Həmçinin əsərdəki digər obrazlar, xüsusən qadın obrazları barədə də müəyyən təhlilləri bu kontekstdə verir.

Əsəri daha çox dilçilik baxımından təhlil edən AMEA-nın müxbir üzvü, prof. N.Cəfərov onun ədəbi-bədii aspektinə də toxunur. Belə ki, prof. N.Cəfərov əsərin müəllifinin Məhəmməd olması məsələsinə şübhəli yanaşır və bunu haqlı olaraq «... Çünki onun adı ancaq ustadnamədə çəkilir (ustadnamə isə, məlum olduğu kimi, dastan mətni üçün dəyişkəndir)» fikri ilə əsaslandırır (6,417).

Həmçinin prof. N.Cəfərov dastanın təhkiyə tipinə də nəzər salaraq bu barədə yazır: «... həmin təhkiyə tipinin struktur əsaslarının müəyyənləşməsində ilkin mənbə kimi folklor təfəkkürünün iştirakını da qeyd etmək lazımdır»(6, 418).

Qeyd edək ki, «Şəhriyar» dastanının müəllifi barədə bir qədər maraqlı görünən fikirlər də mövcuddur. Belə fikirlərdən birində məsələyə bir qədər fərqli yanaşılmışdır: «Əsərin müəllifi XVIII əsrin son rübündə yaşamış Gəncə xanı Məhəmməd xandır. Fikirimizcə, yalnız onun müəllifliyi əsərin müəmmalarının izahına kömək edə bilər» (17,29).

F.e.n. L.Əliyeva isə əsərin müəllifi barədə danışarkən əsərdə rast gəlinən Məhəmməd obrazının elə əsərin müəllifi olması fikrini tənqid edərək yazır: «Bizim fikrimizcə, Məhəmməd bəy Əmirlinin adı olduqca işgüzar, hətta «prozaik» bir məqamda xatırladılır ki, bu da həmin adamın əsərin müəllifi ən azı isə «Ustadnamə»də adı çəkilən Məhəmmədlə eyni adam olması fikrini bu və ya digər dərəcədə şübhə altına alır» (8,27).

Bundan əlavə, f.e.n. L.Əliyeva dastandakı hadisələrin tarixinin dastan poetikası baxımından deyil, rast gəlinən bir neçə tarixi detala əsasən sırf tarixi aspektdən izah edir. «Əsərdə baş verən hadisələrə gəldikdə isə, əgər onlar Şah Abbasın dövrünə təsadüf edirsə, deməli XVII əsrin əvvəllərinə aiddir» (8,29).

Bizcə «...hər bir oxşar tarixi element epik ənənə çərçivəsində özünün real dayağını itirir» (2,71).

Əsərə aid olduğu kateqoriya baxımından təhlil edib münasibətini bildirən AMEA-nın müxbir üzvü, prof. A.Nəbiyev məsələyə daha dəqiq yanşaraq yazır: « «Şəhriyar», «Seyfəlmülük»ü erkən mərhələdə şifahi yaradıcılıq hüdudlarından qoparıb ayrı-ayrı sənətkarların poetik dühası ilə bağlamaq həqiqətə yaxın deyildir».(12,384).

Ədəbiyyatşünaslığımızda «Şəhriyar» dastanı ilə bağlı təsvir etdiyimiz mənzərədən aydın olur ki, əsərə yanaşmaqda onun müəllifi, müstəqil əsər olub-olmaması, hadisələrin məkanı və zamanı,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dastanın dil, üslub, təhkiyə sistemi kimi problemlər ətrafında gedən mübahisələr bir qədər dəqiqləşmiş, sonda qeyd etdiyimiz müəllifin də vurğuladığı kimi «dastanın ayrı-ayrı sənətkarların poetik dühası ilə bağlanması» aspektində təhlili mövcud olmuşdur. Başqa sözlə, «Şəhriyar» dastanı məhəbbət dastanları kontekstində izah olunmamış, sadəcə olaraq bəzi əlaqələndirmələr mövcud olmuşdur.

Qeyd edək ki, dastanın süjet xətti ümumi süjetdən də göründüyü kimi, klassik məhəbbət dastanları ilə əsasən invariant süjetə əsaslanır. Lakin dastanın yazıya keçirilməsi ilə əlaqədar olaraq burada müəyyən yaradıcılıq aktı baş verdiyini öndə də qeyd etmişdik. Bunun səviyyəsini müəyyənləşdirməzdən əvvəl bir məsələni də diqqət önünə gətirmək vacibdir. Dastan yazıya keçirildiyi dövrdə hələ informator və folklorşünas kateqoriyaları, başqa sözlə söyləyici və yazıya alan kateqoriyası müəyyənləşmədiyi üçün bütün hallarda yazı koduna keçirilmə yaradıcılıqdan keçirdi. Bunu da nəzərə alsaq ki, forma strukturu ilə məzmun strukturu baxımından «Şəhriyar» dastanı klassik məhəbbət dastanları ilə əsasən eyniyyət təşkil edir, onda burada yaradıcılıq aktının nə dərəcədə olduğunu aydın təsəvvür etmək olar.

Ümumiyyətlə, «hər bir folklor nümunəsi (xüsusilə nağıllar və dastanlar) yarandığı tarixi şəraiti, söylənilən vaxta qədərki hadisələri və söyləyən şəxsin dünyagörüşünü özündə kodlaşdırır» (10) fikrini burada tətbiq etsək əslində sonuncunun, yəni söyləyən şəxsin dünyagörüşünün (burada yazıya keçirənin) daha fəal olmasına baxmayaraq, bunun digər iki xüsusiyyətdən, yəni yarandığı tarixi şərait və söylənilən vaxta qədərki hadisələrdən mahiyyət baxımından uzaqlaşmaması ilə əlaqədar olaraq «Şəhriyar» dastanı müstəqil əsər səviyyəsinə çatmamışdır. Əgər burada folkorşünaslıqda mövcud olan «Folklorla yazılı ədəbiyyatı fərqləndirən əsas xüsusiyyət fərdi müəlliflik və fərdi müəllifsizlik deyil. Yəni istənilən mətnin müəllifinin bütün bioqrafiyası etibarilə yaradıcı şəxsiyyət kimi bəlli olması onun yazılı ədəbiyyat nümunəsi olmasının başlıca əlaməti deyil, yaxud əksinə müəllifin olmaması onun folklor nümunəsi olmasının göstəricisi deyil. Mətnin folklor və yazılı ədəbiyyat nümunəsi olmasının əsas tipologiyası mətnin öz poetik və semantik struktur səciyyəsindən irəli gəlir». (9,6) fikrini də əlavə etsək onda «Şəhriyar» dastanının müəllifinin müəyyən olub-olmamasının elə böyük bir daşımadığını görərik.

«Şəhriyar» dastanında bir neçə qəzəldən də istifadə olunmuşdur. Bunun səbəbini və dastanın poetik strukturda oynadığı rola aydınlıq gətirmək istərdik.

İlk növbədə qeyd edək ki, dastanda verilən qəzəl nümunələri ustadnamədəki istisna olmaqla əruz ölçülərinə cavab vermir. Həmçinin burada yer almış qəzəllərin dili dastandakı xalq yaradıcılığı janrlarına aid nümunələrin dili qədər sadə və aydındır. Prof. N.Cəfərovun dili ilə desək burada «klassik üsluba (onun janr – üslub, hətta ideya – məzmun keyfiyyətinə) funksional şəkildə folklor üslubu mövqeyindən təzyiq göstərilir».

Ədəbi dilin inkişaf qanunları çərçivəsində izah olunmuş bu fikri daha çox söyləyici və yazıya keçirən statusunda dayanan şəxsin dünyagörüşü, başqa sözlə desək informasiyanı yazı koduna oturdan subyektin yazılı ənənədən daha çox şifahi ənənəyə sadiq qalması ilə izah etmək olar. Deməli, dastanda fərdi yaradıcılıq elementi kimi özünü göstərən qəzəllər funksiya baxımından qoşma və gəraylının ifadə etdiyi məzmuna uyğunlaşdırılmışdır. Deməli, burada ənənədə mövcud olan prosesin əksi baş vermişdir. Belə ki, yazılı ənənənin daşıyıcısı olan subyekt folklorda mövcud olanı yazı ənənsinə uyğunlaşdırmasının əksinə olaraq, yazı ənənəsi detalını (yəni qəzəli) şifahi ənənəyə proyeksialamışdır. Aşağıdakı nümunədə biz bu prosesi açıq-aydın şəkildə görə bilərik. Dastanın bir məqamında Sənubər xanım və həkim Sadıq qarşılaşarkən deyilir: «Sazı götürüb Sənubərə verdi. Sənubər ustadi – kamil tək saza zinət verib görək nə deyər:

**Dedi Sənubər:**
Xoş gəldin, səfa gətirdin sən bu zaman, ey həkim,
Sirrimi sənə deyərəm eylə pünhan, ey həkim.

**Dedi ustad Sadıq:**
Gəlmişəm səni görməgə mən bu zaman, ey qızım,
Təbiblər sirdaş olullar, ey qızım, iki gözüm.
(15,59).
Elə bir qədər sonra isə dastanda deyilir:
**Dedi qız:** Gəl dərdimi sənə deyəm,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gör nə bəlayə düşmüşəm,
Bir cavanın butasıyam,
Pirimdən badə içmişəm.
**Dedi Həkim:**

Heç fikir çəkmə, ey qızım,
Çün dərdin mənə deyibsən,
Səni mətləbə yetürrəm,
Çünkü doğru söyləyibsən.(15,60).

Verdiyimiz qəzəl və gəraylı arasında belə bir fikir də deyilir. «Bu dəfə qız bu sözdən xürrəm olub dedi:

– Ey ustadi-kamil, sən çünki sirri sənə açıldı mürəxxəs eylə danışaq» (15,60).

Buradan görünür ki, qəhrəmanın əlinə saz alıb klassik üslubda söhbətləşməsi elə bir qədər sonra xalq şeiri – gəraylı ilə davam etdirilir. Yəni, klassik forma şifahi ənənənin funksional statusuna tabe edilmişdir. Hətta dastanda qarşılaşmada deyilən həm qəzəl, həm digər xalq şeiri janrları bəndlərin (qəzəldə beytlərin) sayı da eyni prinsipə, əsaslanır. Yəni, həm qəzəllə, həm də xalq şeiri janrları ilə «söhbətləşmə»lərdə klassik dastanlardakı kimi, hər qatarda 5 bənd, yaxud 5 beyt deyilir.

Yuxarıda göstərdiyimiz kimi, dastanda yer alan qəzəllə xalq şeiri arasında məzmun və funksionallşma baxımından bir eynilik olsa da klassik üslub janrının dastanın bəzi məqamlarında emosional yükü tam ifadə edə bilmədiyini də görmək mümkündür.

Misal olaraq gətirdiyimiz nümunədən də göründüyü kimi,bir qədər əvvəl qəzəllə («söhbətləşən») danışan qəhrəman öz sirrini açmaq məqamı gələndə «Sirri sənə açıldı mürxxəs eylə danışaq» deyərək qeyri-şüuri olaraq gəraylı ilə danışmğa başlayır. Göründüyü kimi, yazılı ənənənin detalı olan qəzəl bir fərdi yaradıcılıq aktı kimi formal səviyyədə dastanda yer alsa da keyfiyyət baxımından xalq şeiri ilə eyni səviyyədə dayana bilməmişdir. Bununla əlaqədar olaraq, bəzi məqamlarda bu janr (yəni qəzəl) dastan informasiyasını daşımaq «haqqını» tarix boyu qazanmış xalq şeiri ilə eyni semantik yükü ifadə edə bilməmişdir. Əks halda klassik janrda verilən informasiyanın yenidən xalq şeiri qəlibində ifadəsinə ehtiyac qalmazdı.

«Şəhriyar» dastanını klassik məhəbbət dastanlarının öyrənilməsi etalonuna çevrilmiş aşağıdakı səviyyədə təhlil etmək olar:

**1. Süjet və motiv səviyyəsi.**
**2. Formal struktur səviyyə.**
**3. Dil və üslub səviyyəsi.**

**Süjet və motiv səviyyəsi.**

İlkin olaraq «Şəhriyar» dastanının süjet və motiv səviyyəsini klassik məhəbbət dastanlarının müəyyən olunmuş süjet sxemi ilə müqayisə edək:

I. Qəhrəmanın anadan olması ilə ilk təlim-tərbiyəsi;
II. Qəhrəmanların, yəni aşiq və məşuqənin buta almaları;
III. Qabağa çıxan maneələri və onlara qarşı mübarizə;
IV. Müsabiqə və qələbə (16,65).

Bu ümumi konturların verilməsi məhəbbət dastanlarının ən ümumi süjet sxemidir. Lakin «Şəhriyar» dastanını yazıya keçirilmiş xalq dastanı kimi dərindən təhlil etmək üçün şifahi ənənədə olan məhəbbət dastanları əsasında tərtib etdiyimiz aşağıdakı süjet və motiv detallarını təqdim etmək istərdik:

– Övladsızlıq motivi. Nəzir-niyaz, kasıblara kömək;
– Dərviş obrazı kompleksinə aid obrazlardan birinin övlad sevməsi;
– Adqoyma mərasimi: qarıların iştirakı;
– Doğulan uşağın çox sürətli böyüməsi, qeyri-adi qabiliyyətlərə malik olması, müxtəlif tipli qeyri-adi işlər görməsi;
– Qəhrəmanın buta alması;
– Buta almış qəhrəmanın üstünə qarıların gətirilməsi;
– Qəhrəmanın butası ardınca getməsi (əksər hallarda lələ ilə);
– Bu yolda qəhrəmanın haqq aşığı olması faktını əsaslandıran müxtəlif tipli sınaq maneələrdən keçməsi;
– Qəhrəmanın bir və ya bəzən bir neçə qızla deyişərək onları da alması;
– Butaya qovuşma;
– Qəhrəmanın elinə – obasına qayıtması.

«Şəhriyar» dastanı da övladsızlıq motivi əsasında başlanır. Məclisdə övladsızlığın dərdini çəkən sövdəgər Salehə məsələnin həlli yolunu arvadı göstərir. Biz eyni ilə bu detala «KDQ»-nin «Dirsə xan oğlu Buğac xan boyunu bəyan edər, xanım hey» boyunda da rast gəlirik:

«Dirsə xanın xatunu soylamış, görəlim, nə soylamış və aydır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hay Dirsə xan, bana qəzəb etmə!
İncinib acı sözlər söyləmə!
Yerindən uru turğıl!
Ala çadırın yer yüzinə dikdirgil!
Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç öldürgil!
İç Oğuzun, Taş Oğuzun bəglərin üstünə yığnaq etgil!
Ac görsən toyurğıl! Yalıncıq görsən, tonatğıl!
Borcluyu borcundan qurtargil!
Dəpə kibi ət yığ, göl kibi qımız sağdır!
Ulu toy elə, hacət dilə!
Ola kim, bir ağzı dualının alqış ilə
Tənri bizə bir yetman əyal verə – dedi». ( 7,37).

Bu informasiyanın «Şəhriyar» dastanında da müvafiq situasiyada verildiyini görmək olar:

«.... Aqil odur ki, genə icz və niyaz ilə namaz qılub və təzərrə zar ilə əl duaya götürüb, istida və iltica etmək. Ümid ki, bir kəs ixlasi-kamil ilə bu günə əl qaldırıb və yalvarıb, bir murad təvəqqe edə, ərrəhmurrahimin onun təvəqqə əlin öz dərgahından boş qaytarmaya». (15,30).

Bu eynilik heç də təsadüfi olmayıb, mifoloji şüurda qadının daşıdığı funksiyanın mahiyyətcə eyni, formaca müxtəlif şəkillərdə dastan informasiyası koduna transformasiya ilə əlaqədardır. «Qadın fiqurunun mediasiya fəaliyyəti (verdiyi məsləhət, dinamik impuls) nəticəsində kişi – qadın qarşıdurması daha da yumşaldılır (tox-ac, geyimli – yalın, varlı – borclu qarşıdurma blokları) və o həddə çatdırılır ki, buradan konfliktin həlli artıq mümkün olur; aclar yedizdirilir, yalınlar geyindirilir, borcluların borcu verilir. Beləliklə, qadın fiquru öz ambivalent (ikili) simvolikası sayəsində əks qütblər arasında mediasiya (əlaqə) yaradaraq Tanrı qarğışı konfliktini həll olunana qədər yumşalda-yumşalda gedir». (14,29)

«Şəhriyar» dastanında övladın verilməsi isə məhəbbət dastanları ənənəsinə uyğundur. Burada bir gecə ağsaqqal nurani kişi aləmi vaqiədə bunlara deyir: «– Ey fəqirlər, qəm çəkməyin ki, sizi həqq-təala pürmurad edər amma sübh tezdən şahrah yol üstə çıxın, hər kimi aciz və müztərr görəsiz, ona tərəhhüm edin, həqq-təala sizə rəhm eylər» (15,31).

Klassik məhəbbət dastanı kimi «Şəhriyar»da da dərviş obrazı kompleksinə daxil olan ağsaqqal nurani kişi yol göstərmə funksiyasına əsasən valideynlərə övlad verir. Xatırladaq ki, övlad əldə olunmasında dərvişin rolu barədə ilk informasiyaya «KDQ»də rast gəlmək mümkündür: «Qara tonlı dərvişlərə nəzirlər verdim». (7,41) Bu detal klassik məhəbbət dastanlarının ayrılmaz tərkib hissəsidir.

Advermə məhəbbət dastanlarında xüsusi əhəmiyyət kəsb edən mərasim kimi təsvir olunur. «Şəhriyar» dastanında da bunun izlərini görmək mümkündür. Ötəri şəkildə təsvir olunan mərasimdə «haziq arvatlar», «münəcimani – sitarəşünaslar və alim - üləmalar» (15,32) yığılıb oğlana ad qoyurlar. Folklorda ad semantik dəyərinə görə elə insanın həyatına və özünə bərabərdir. Yəni ad sakral mahiyyətə malikdir. «Ad varlığın ifadəsi, mahiyyəti olmuşdu, varlıq özü də onda və onunla yaşayırdı. Adla tale arasında qırılmaz bir bağlılıq olduğuna da bu üzdən inanılmışdı» (3,14). Təsadüfi deyildir ki, bütün məhəbbət dastanlarında olduğu kimi «Şəhriyar»da da ad insan həyatının konturlarını müəyyənləşdirir. Belə ki, dastanlarda ad qoyulan kimi qəhrəmanın həyatı, taleyi müəyyənləşir. Başqa sözlə ad elə taleyin işarəsi kimi çıxış edir. «Şəhriyar» dastanında bu informasiya belə kodlaşmışdır: «Cümləsi bina bu üzrə rəva görüb adın Şəhriyar qoyub və taleyi – sədinə nəzər qılıb gördülər ki, on beş yaşından sonra buna bir iş üz verir, çox cəfaya düşüb, axırda xürrəm və xoşhal və sahibi- rütbə olur».(15,32)

Məhəbbət dastanlarının ən maraqlı və mürəkkəb faktlarından biri doğulmuş qəhrəmanın çox sürətlə böyüməsi, onun həyatın bir çox sirlərinə qeyri-adi şəkildə yiyələnməsinin təsvir olunmasıdır. Baxmayaraq ki, «Şəhriyar» dastanı söyləyici və yazıya alan kateqoriyalarının müəyyənləməşdiyi dövrdə yazı koduna oturdulub, lakin yenə də burda şifahi dastan (yaxud nağıl) təhkiyəsi ənənəsinə sadiq qalındığı açıq-aydın görünür. Belə ki, qəhrəmanın doğuluşundan sonra «bir yaş, iki yaş, ta yeddi yaşına gəlib», «on iki yaşına yetənətən cəmi ülumları təhsil qılub mahir oldu», «on beş yaşına gəldi» kimi dastan təhkiyəsinə uyğun təsvirlər yer alır.

Qeyd edək ki, on beş (yaxud on dörd) yaş folklorumuzda əsas inisiativ yaş mərhələsidir. On beş yaşda inisiasiyanın dastanlarımızda əsasən iki formasına rast gəlirik. Bunların da iki yolu vardır:

1. Qəhrəmanlıq göstərərək ad almaq (əsasən qəhrəmanlıq dastanlarında);



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

2. Yuxuya gedərək buta almaq (məhəbbət dastanlarında);

Deməli, buradan belə görünür ki, on beş yaşdan sonra qəhrəman yenidən «bərpa olunur», «doğulur» və təbii olaraq bu akt ona yeni qeyri-adi keyfiyyətlər verməklə yeni status qazandırır.

«KDQ»nin «Dirsə xan oğlu Buğac xan boyunu bəyan edər, xanım hey» boyunda Buğac on beş yaşında qəhrəmanlıq göstərərək ad aldıqdan sonra cəmiyyətdə yeni status əldə edir: bəylik alır, var-dövlət qazanır» (7,38).

Məhəbbət dastanlarında isə qəhrəmanın on beş yaşındakı inisiasiya buta vasitəsilə təqdim. Məhəbbət dastanları ənənəsinə uyğun olaraq qəhrəmanın cəmiyyətdəki statusu dəyişir, yeni keyfiyyətlər qazanır: saz çalır, deyişmələrdə qeyri-adi, ilahi informasiyalar verir və s. Göründüyü kimi, həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarında on beş yaşdakı inisiasiya eyni mahiyyət daşıyır. Yəni qəhrəman tamamilə yeni bir statusda bərpa olunur.

«Şəhriyar» dastanında da bu inisiativ mərasim məhz on beş yaşda baş verir. Belə ki, Şəhriyar yuxuda ikən ona buta verilir. Bu proses eyni anda Sənubər xanımda da baş verir. Buta mərasimi məhəbbət dastanlarının əsas mahiyyətidir. Əslində buta mərasiminin özü mifoloji düşüncə elementini öz içərisində əridib bədii vasitələrlə ifadə edən bir mərasimdir. Bu mərasimdə ilahi informasiyanı verən dərviş obrazı göyü, qarı obrazı yeri işarə edir. Prosesin reallaşdığı məqam isə yuxudur. Yuxu isə müəvəqqəti ölüm aktı olaraq bunlar arasındakı əlaqələndiricidir. Bu prosesin özündə yer və göy, başqa sözlə dərviş və qarı arasındakı informasiya mübadiləsinin maddi qabığını isə göstərən detallar qütblər üzrə müvafiq şəkildə düzülmüş şərab və köpükdür.

Burada şərab ilahi məkanda hərəkət etmək, veriləcək informasiyanı qəbul etmək üçün bir vasitədir. Çünki, qəhrəmana ilahi informasiya, yəni buta verilməzdən əvvəl hökmən şərab verilir. Məhz bundan sonra veriləcək informasiyanı qəbul etmək mümkündür. Bu məqamda qəhrəman bütün zaman və məkan çərçivəsini aşaraq informasiyanı görüntü ilə birlikdə qəbul edir.

İlahi məkanda verilmiş şərabın maddi dünyada köpüyə çevrildiyini görürük. Və əslində elə köpük dərvişdən verilmiş informasiyanın özüdür ki, bunu da qarı qəbul edərək köpüklə kodlaşmış informasiyanı açır. «Koroğlu» dastanında Qoşabulaqdan Koroğlunun içdiyi köpük də sakral mahiyyətə malik olub ilahi məkandan ötürülmüş informasiyanı ifadə edir. Dastanlarımızın əksəriyyətində mövcud olan bu mərasim təhkiyə prosesindən asılı olaraq bəzi detalların əlavə olunması, yaxud da bəzilərinin ixtisarı ilə verilir.

Buta haqqında yuxarıda deyilənlərin hamısı «Şəhriyar» dastanında da əks olunub: «- Ey Şəhriyar, qalx, nə yatıbsan, bixəbərsən.... İndi al bu cam şirini iç ki.... Qərəz müddəa budur: Kirman xanı Cahangir xanın pərdeyi-ismətdə bir qızı var ki, adına Sənubər xanım deyəllər ki, Ruyi-dünyada onun kimi cavani-huşyar və məqbuli-dünya yoxdur. Onu sənə və səni ona buta verüb və bir-birinizə məhəbbət bağlamaq möhkəm olub, onun eşqi səndən ziyadə üz verir», «Övrət filhal qalxub gəlüb, oğlanı səda etdi səs gəlmədi. Yorğanı qaldurub baxdı. Nə gördü ki, oğlu məsti-laəql yıxılıb ağız-burun köpük ilə dolub və gözlər qan çanağı kimi özündən bixəbər yıxılubdır» (15,34-35).

Burada bir detalı qeyd etmək yerinə düşərdi ki, adətən məhəbbət dastanlarında buta almış qəhrəmanın üstünə müxtəlif tipli qarılar gəldiyi halda (yəni, ipək, köpək, ləpək və s.), burada bu proses bir qədər fərqli şəkildə təsvir olunmuşdur. Dastan toplayarkən məhəbbət dastanlarının bu məqamında aşığın auditoriyanın əhvalını yüksəltmək üçün situativ olaraq qarıların sayını azaldıb və ya artırdığının dəfələrlə şahidi olmuşuq. Başqa sözlə, bu detal şifahi təhkiyənin emosionallığı ilə əlaqədar olduğu üçün yazıya keçirilmədə öz təzahürünü qoruya bilməmişdir. Lakin «Şəhriyar» dastanında bununla bağlı bir faktın əks olunması onun yazıya keçirilmiş dastan olması faktını bir daha sübut edir.

«Şəhriyar» dastanında da buta almış qəhrəman «qariyi-birəhm, mənim sazımı bir mənə ver gör nə deyərəm» deyərək öz halını bəyan edir.

Qeyd edək ki, «Şəhriyar» dastanında əlavə hadisə kimi ilk olaraq qəhrəmanın atasının buta ardınca getməsi faktı yer alsa da, əslində bu hadisələrin axarına heç bir dəyişiklik etmir. Məhəbbət dastanları ənənəsinin vahid məzmun strukturunda bu tipli hərəkət qəbul olunan deyildir. Nəzərə alsaq ki, obrazın sonrakı fəaliyyəti axıra qədər əsaslandırılmayıb onda hətta bu fəaliyyət dastanın məzmun strukturunda artıq görünür. Və buta almış qəhrəmanın, yəni Şəhriyarın buta ardınca getmə prosesini demək olar ki, nə çətinləşdirir, nə də asanlaşdırır.

Dastan yaradıcılığında bir-birindən aralı qütblər arasında əlaqə yaradan, qəhrəmana kömək edən obrazın da olması faktı mövcuddur. Adətən bu fəaliyyət buta ardınca gedənin lələsi tərəfindən həyata keçirilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Burada da Şəhriyarın köməkçisi həkim Sadıq adlanan obrazdır. Bu hissədə nağıl ənənəsinin təsiri görünməkdədir. Nəzərə alsaq ki, «qəhrəman və onun köməkçisi arasında funksional bir üz var»(13,150) onda həkim Sadığın hadisələrə müdaxilənin səviyyəsini, ümumiyyətlə funksiyasının nədən ibarət olduğunu anlamaq olar.

Ənənəvi məhəbbət dastanlarında da buta ardınca gedən qəhrəman müxtəlif tipli sınaqlardan keçərək haqq aşığı statusunu müəyyən mənada sübut etmiş olur. Biz bu hadəsədə süfi-təsəvvüfi dünyagörüşünün təsirini görürük. Belə hesab etmək olar ki, sufizmdə olan mərhələlər (yəni şəriət, təriqət, mərifət, həqiqət) dastan poetikasının məzmun strukturunda özünəməxsus bədii keyfiyyətlər qazanaraq yeni bir biçimdə ifadə olunmuşdur.

«Qəhrəmanın aşıqlığı (yəni haqq aşığı – S.Q, H.Q )üç elementdə təzahür edir:

1. İlahi sevgi.
2. İlahidən gələn söz demək – şairlik qüdrəti.
3. İlahidən verilən saz çalma qüdrəti.

Dastan süjeti boyu bu üç element müxtəlif sınaqların əsasında durur»(5,112).

«Şəhriyar» dastanında da **sınaq-təsdiq modeli** (M.Cəfərli) dastan formulasına uyğun şəkildə əks olunmuşdur. Şəhriyar evdən uzaqlaşan kimi ilk olaraq Pərizad xanımla qarşılaşır. Dastan məntiqinə uyğun olaraq bu hadisə Şəhriyarın (haqq aşiqinin) ilk sınağı idi. Burada Pərizad ona evlənmək təklif etsə də o

«Ey qız, qalmaqal eyləmə,
Əldən qoy məni, qoy məni,
Mən səni alan deyiləm,
Billah, qoy məni, qoy məni»

deyərək onun təklifini rədd edir və onu özünə bacı kimi qəbul edir. Bu gözəl qızla qarşılaşma səhnəsi Şəhriyarın məhəbbətinin şəhvani deyil, ilahi olduğunu göstərməklə onun haqq aşığı statusunu sübut edən ilk sınaqdır.

İkinci qarşılaşma Gəncə bəylərbəyinin qızı Şamamabəyim xanımla olur. Qeyd ki, Şamamabəyim xanım neçə-neçə aşıqla deyişərək onları bağlayıb sazlarını əllərindən almışdı. Bu səhnədə Şəhriyarın haqq aşığı olması iki faktla bir daha təsdiq olunur. Belə ki, Şəhriyar Şamamabəyim xanımla deyişmədə onun verdiyi çoxsaylı mürəkkəb suallara cavab verərək qeyri-adi, ilahi bilgilərə sahib olduğunu göstərir:

| | |
|---|---|
| Qız: | Dedi Şəhriyar: |
| Kimdi dərs almadı, oldu kamilə, | Yusif dərs almadı oldu kamilə, |
| Nərgiz xilaf sözi gətirməz dilə, | Hərgiz xilaf sözü gətürməz dilə, |
| Nə mayədür nərsiz oldu hamilə, | Ağac mayə nərsiz oldu hamilə, |
| Vədəsində bəçə verdi, yeri hey? | Vədə güni beçə verdi bari hey. (15,95). |

Başqa bir tərəfdən bu qarşılaşma səhnəsindən Şəhriyarın cah-cəlalda, var-dövlətdə, ümumiyyətlə dünya malında gözünün olmadığı açıq şəkildə ifadə olunur. Və dastan ənənəsinə uyğun olaraq Şəhriyar butasına qovuşduqdan sonra onu da gəlib alacağına söz verir.

Ənənəvi məhəbbət dastanlarında qəhrəmanın butaya çatma məqamında da sınaqdan keçirildiyi bəllidir. Belə ki, qəhrəman öz butasını tanımalı haqq aşiqi olduğunu sübut etməlidir. Lakin «Şəhriyar» dastanında bu məqam yazıya keçirilmə ilə əlaqədar olaraq bir qədər məntiqsiz görünür. Belə ki, birinci dəfə Şəhriyar həqiqi aşiq olduğunu sübut edib Sənubərlə görüşdüyü halda, ondan ikinci dəfə yenə də məclisdə Sənubəri kənizlərin içərisinən tanımasını tələb edirlər. Beləliklə, Şəhriyar dastan ənənəsinə uyğun olaraq sazın-sözün köməyilə butasına qovuşur. Və sonra söz verdiyi kimi Şamambəyimi də alaraq öz el-obasına qayıdır.

Ənənəvi məhəbbət dastanları ilə paralel şəkildə təhlildən də göründüyü kimi, «Şəhriyar» dastanı bəzi kiçik istisnalar olmaqla süjet və motiv detalları baxımından klassik məhəbbət dastanları süjeti ilə eyniyyət təşkil edir. Başqa sözlə, bu dastan ümumi süjet və ideyasına görə müstəqil əsər səviyyəsinə qalxa bilmir.

**Formal struktur səviyyə.**

Mətnin formal struktur səviyyəsi dedikdə mətnin forma elementləri nəzərdə tutulur. Bura ustadnamə, mətn, duvaqqapma daxildir. Prof. M.Cəfərli Azərbaycan məhəbbət dastanlarının mətnini Mətndənqıraq və Mətndaxili hissələrə ayırmaqla bu barədə yazır: «Göründüyü kimi, Mətndənqıraq hissə iki elementi nəzərdə tutur: Mətnönü və Mətnsonu. Mətnönü – ustadnamə, mətnsonu isə – duvaqqapmadır. Bütün bunları sistemləşdirdikdə görürük ki, məhəbbət dastanının poetik strukturu iki



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hissəli, üç elementli (üç üzvlü) quruma malikdir». (4,15). Burada müəllif üç element dedikdə mətnönü elementi (ustadnamə), mətn elementi (əsas süjet), mətnsonu elementi (duvaqqapma)-nı nəzərdə tutur.

«Şəhriyar» dastanında da ustadnamə vardır. Lakin bu ənənəvi məhəbbət dastanlarında olduğu kimi üç ustadnamədən ibarət deyildir. Həmçinin burada ustadnamə yerində bir qəzəl də verilmişdir.

Bunun səbəbi vardır. Bu məqamda «Ustadnamənin ustad sözü, böyük sözü, ustad nəsihəti, öyüdü olduğunu nəzərə alsaq, bunların dastanın ifasında başlıca funksiyası birbaşa dinləyiciyə yönəldilmişdir» fikri öz təsdiqini tapmış olar (4,16). «Şəhriyar» dastanında ustadnamənin ənənəyə uyğun olmamasının səbəbi də elə bununla izah olunmalıdır. Belə ki, dastan yazıya keçirildiyi üçün, yəni birbaşa dinləyici auditoriyasına yönəlmədiyinə görə bir sıra sırf kontekstlə bağlı olan elementlər təbii olaraq təhrifə məruz qalmışdır. Lakin dastanın önündə ustadnamə hissəsinə yer ayrılması yenə də ənənəyə müəyyən mənada sadiqliyin göstəricisidir.

Mətndaxili element olan mətn (süjet) haqqında öndə danışdığımız üçün burada həmin məsələyə qayıtmağı məqsədəuyğun hesab etmirik.

Qeyd edək ki, mətndənqıraq ikinci elementin (duvaqqapmanın) «Şəhriyar» dastanında ayrıca yer alması barədə fikir söyləmək bir qədər çətindir. Belə ki, bir tərəfdən «əsərin son səhifəsi və ortadan bir səhifəsi cırılmışdır»,(1,620) digər tərəfdən ola bilər ki, yazıya keçirilmə ilə əlaqədar olaraq burada duvaqqapma ümumiyyətlə heç olmamışdır. Çünki, duvaqqapma da ustadnamə kimi canlı auditoriya ilə bağlı detaldır.

**Dil və üslub səviyyəsi**

«Şəhriyar» dastanı yazıya keçirilmə prosesi ilə əlaqədar bizcə ən çox dil və üslub səviyyəsində dəyişikliklərə məruz qalmışdır. Dastanın şeir hissəsi həm klassik, həm də şifahi üslubun qovuşuğunda reallaşmışdır. Bu proses müvafiq olaraq dastanın nəsr dilində getmişdir.

Dastanda sırf şifahi dastan təhkiyyəsinə aid olan qəliblər yer almaqla yanaşı, klassik üslubun təzahürü olan ərəb-fars qəlibləri də işlənmişdir.

Mətn şüurun ifadəsi olmaqla dil və təfəkkür əlaqəsinin məcmusunda yaranır. Bu mənada folklor mətninin dili xüsusi əhəmiyyətə malikdir: «Materiyanın strukturu şüurda, şüurun strukturu dildə, dilin strukturu folklorda və onun janrlarında proyeksiyalanır. Məhz bu baxımdan folklor mətninin dili struktur sxemlərindən təşkil olunur. Ədəbiyyat bu sayaq elementlərdən azaddır». (9,10). Bu fikri «Şəhriyar» dastanına da tətbiq etmək olar. Çünki həmin dövrə qədər müstəqil şəkildə yazıya alınmış bədii nümunələrin heç birində şifahi təhkiyə qəlibləri «Şəhriyar» dastanında olduğu qədər geniş yayılmayıb. Bunun olması mümkün də deyil. Çünki, onlardan fərqli olaraq «Şəhriyar» dastanı müstəqil əsər deyil, şifahi məhəbbət dastanının yazıya keçirilməsidir.

«Şəhriyar» dastanında şifahi təhkiyənin folklor mətninə malik qəlibləşmiş ifadələrinə geniş rast gəlmək mümkündür. Nümunə olaraq bunlardan bir neçəsinə nəzər salaq:

«Saçın saz edib dedi» (15,39), «sazı əlinə alıb oğluna nəsihət məqamində gör nə deyir» (15,41), «sazın saz qılub və sinəsinə basub gör nə deyər» (15,44), «indi bunları burda qoy, Kirmandan və Sənubərdən xəbər eşit» (15,52), «Sənubər ustadi-kamil tək saza zinət verüb görək nə deyər» (15,59) «İndi sövdəgər gəlməkdə, görək hakim Sadıq necə oldu və əhvalı necə keçər və nə işdədür» (15,74), «Bir oğlan, nə oğlan! Ön dört gecəlik ay kimi, kakil pərişan və yanaqlar gül yarpağı kimi və qaşlar qabi-qövseyn kimi və ləblər yaquti-əhmər kimi, zülflər hər tərəfdən ruxsarına tökülüb bixud olub, düşübdür» (15,76). «Sazı iki məməsinin arasına alıb, görək nə deyər» (15,131), «Bina qoyuldu qırx gün, qırx gecə gərək toy ola» (15,168), «gecə-gündüz durmayıb, o zaman ay il ilən, bu zaman müxtəsər dil ilən gethaget gedüb» (15,116) və s.

Göründüyü kimi, bu ifadə qəlibləri mətnin yazıya keçirilməsinə baxmayaraq öz varlığını qoruyub saxlaya bilmişdir. Həmçinin bu ifadə qəliblər folklor mətninin şifahi təhkiyəsində bu gündə yaşamaqdadır.

Ümumiyyətlə, müxtəlif səviyyələrdə təhlilindən aydın olur ki, «Şəhriyar» şifahi ənənə faktının yazıya keçirilməsi aktı olub, bu kontekstdə öyrənilməsi daha vacib olan dastandır.

## ƏDƏBİYYAT

1. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. B., Gənclik, 1998, 732 səh.
2. Bayat. F. Oğuz epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı, Sabah, 1993, 194səh.
3. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı, «Elm», 2003, 418 səh.
4. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı, «Elm», 2000, 265 səh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

5. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının strukturu ümumtürk dastançılığı kontekstində. (Türkmən sevgi dastanları əsasında) AŞXƏDT (on birinci kitab), B., «Səda» nəşriyyatı, 2002, 184 səh.

6. Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı, Az Atam, 2002,599 səh.

7. Kitabi-Dədə Qorqud. (Tərtib edəni, çapa hazırlayanı, ön sözün və lüğətin müəllifi S.Əlizadədir), Bakı, «Yeni Nəşrlər Evi», 1999,704 səh.

8. Əliyeva L.S. Azərbaycan ədəbiyyatında bədii nəsr. (XVII-XVIII əsrlər). Dərs vəsaiti. Bakı Universiteti Nəşriyyatı, 2002, 92səh.

9. İsmayılov H. Folklor: Aksiom və absurd arasında. AŞXƏDT (iyirminci kitab). Bakı, «Səda» nəşriyyatı, 2006, 192 səh.

10. Qarayev S.,Quliyev H. «Gəncəbasar folkloru cildi nəşr olundu». Elm qəzeti, Bakı, 25 may 2005-ci il nömrəsi.

11. Nəbiyev A. Azərbaycan şifahi xalq ədəbiyyatı. I hissə, Bakı, Turan 2002, 680 səh.

12. Nəbiyev A. Azərbaycan şifahi xalq ədəbiyyatı. II hissə Bakı, Elm nəşriyyatı, 2006, 648 səh.

13. Propp V.Ə . İstoriçeskie korni volşebnoy skazki. Leninqrad, 1946, 337 səh.

14. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı, «Səda» nəşriyyatı, 2004, 198 səh.

15. Şəhriyar. (Tərtib, ön söz və lüğət Ə.Səfərli), Bakı: Yazıçı, 1987, 207 səh.

16. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər), «Elm» nəşriyyatı, Bakı, 1972, 398 səh.

17. Yusifova A. «Şəhriyar» dastanının müəllifi kimdir. Bakı, Mərhəmət jurnalı, 1992, №1-2.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRK XALQLARININ ORTAQ ƏNƏNƏLƏRİNİ YAŞADAN ŞAİR

***F.e.n. Gülbəniz Babaxanova***
***AMEA Hüseyn Cavidin ev muzeyi***
***Azərbaycan***

Şəxsiyyətə pərəstiş dövrünün günahsız qurbanlarından biri olan Hacı Kərim Sanılı (Sanıyev) 1878-ci ildə Qazax qəzasının Çaylı-Kəsəmən kəndində anadan olmuşdur.*

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Bakıya köçən şair 1937-ci ilə qədər, yəni repressiya maşınında məhv olanadək müxtəlif maarif idarələrində çalışmışdır.

Repressiya illərində «kənd şairi» elan edilərək sosializmin düşməni kimi güllələnmiş H.K.Sanılı əslində, sosialist həyat tərzinin, kənddə gedən sosial dəyişikliklərin tərəfdarı olmuşdur. Bu, hər şeydən əvvəl, ondan irəli gəlirdi ki, inqilabın ilk illərində xalq arasından çıxmış ziyalılarda bu fəlakətin miqyasları haqqında aydın təsəvvür yox idi və sosialist işğalçılarının nəhəng təbliğat maşınıt ilə beyinlərə həkk edilən utopik ideyalar onlara həqiqət kimi görünürdü.

Hacı Kərim Sanılının «Kəndlərimiz», «Aran köçü», və «Namus davası» poemaları 1927-ci ildə «Azərnəşr» tərəfindən həm ərəb, həm də latın əlifbaları ilə nəşr edilmişdir. H.K. Sanılının başqa əsərləri kimi, bu poemalar da hər şeydən əvvəl, folklorla dərin əlaqəsinə görə seçilmiş, elə bu səbəbdən də o, mürtəce tənqidçilər tərəfindən «kənd şairi», «qolçomaq şairi» damğasını alaraq repressiyaya uğramışdır. Qeyd etmək lazımdır ki, rus sovet ədəbiyyatının fərqli olaraq, Azərbaycan ədəbiyyatında həqiqi mənada «kənd poeziyası» mövcud olmamışdır.

Sanılının ilk poeması olan «Kəndlərimiz» xoşbəxt həyat haqqında mücərrəd sosialist ideyalarının nəzmə çəkilməsindən başqa bir şey deyildir. Şairin digər poemaları da yüsək məzmunu ilə seçilir. Buna görə də 20-ci illər poeziyamızdakı boşluğu az-çox aradan qaldıran Sanılı poemalarının əsas bədii dəyərini məhz folklorla əlaqədə, onlarda işlənmiş xalq obraz və ifadələrində axtarmaq lazımdır.

Doğma təbiətimizlə, sadə Azərbaycan xalqı ilə bağlılıq miqyasına görə şairin «Aran köçü» poemasını xüsusi qeyd etmək lazımdır. Xalq arasında geniş yayılmış məşhur uşaq mahnıları «Əkil-bəkil quş idi» və «Üşüdüm ha üşüdüm» ölçüsündə yazılmış bu əsəri sözün əsl mənasında etnoqrafik poema adlandırmaq olar. Təkcə onu göstərmək kifayətdir ki, poemadakı iki yüz yetmiş səkkiz xalq ifadəsi, köç və heyvandarlıq termininə kitabın axırında izah verilmişdir. Bunlar arasında güney, quzey, asırqal, quzqulaq, çil, çumbuz, yüyət, əyəs, sadır, qırxlıq, damazlıq, sərdən, çatı, sicim, dükcə, cəhrə, daraq, kələf, yumaq, ərkən, doğanaq, limpar, çatma, qurut, motal, edi ediləmək, ağırlığı qabqarmaq və s. sözləri göstərmək olar.

«Aran köçü» vahid süjet xəttinə malik olan bir əsər deyildir. Poemada ümumiyyətlə köç prosesi təsvir olunur və bu zaman Sanılı ən xırda təfərrüatı belə verməyi unutmur. Poema tarixçi və etnoqraflar üçün çox zəngin materiala malikdir.

H.K.Sanlının «Kəndlərimiz» poemasındakı nəğmə-qoşmalar öz janr xüsusiyyətlərinə görə aşıq ədəbiyyatı nümunələrinə çox bənzəyir. Səmimi bir şair qələmi ilə yazılmış bu parçalar əsərin əvvəlində verilmiş köhnə kənd məişətinin tənqidi ilə bir növ təzad təşkil edir, əsasən süni xarakter daşıyan poemanın fonunda öz təbiiliyi ilə seçilir.

Dilim titrir mən adını çəkəndə
Bostanlı, bağçalı, ballı kəndimiz.
Ürəyim atlanır sözün gələndə,
İlxılı, sürülü, mallı kəndimiz.

Gözə bənzər üzümlərin giləsi,
Dadlıdır inciri, sarı iydəsi,
Qırmızı narların əziz ölkəsi,
Bal armudlu, turş zoğallı kəndimiz.

Kotançının holalası yaxşıdır,
Xırmançının fit çalması yaxşıdır,
El havası, nay sədası yaxşıdır,
Sən olursan qalmaqallı, kəndimiz.

Bu misraları oxuduqca eybəcər ictimai quruluş altında təzəcə pöhrələnməkdə olan kövrək bir istedadın necə dəhşətli təzyiqlərə məruz qaldığını sanki bütün qəlbimizlə hiss edirik. Bir tərəfdən həyat həqiqəti, bütün varlığı ilə pak kəndli duyğularına bağlı olan şairin ürək sözləri, digər tərəfdən isə kəndin təbiiliyini amansızlıqla sındırıb yerində eybəcər eksperimental bir konstruksiya qurmaq istəyən ideologiyanın canlı insanları əzib məhv edən təzyiqi. Həqiqi bir şairin əsil faciəsi məhz bu hədlər arasında reallaşır.

H.K.Sanılının da ürək ağrıdan sənətkar faciəsi bu üzüntülü tərəddüdlər arasında poemadan-poemaya gözlərimiz önündən keçir.

Yalnız görkəmli rus türkoloqu N.A. Baskakov "İqor polku dastanı"nda türk leksikası" kitabında "bayat" sözünü izah edərkən onun türk mənşəli "bay" söz kökündən əmələ gəldiyini yazır. N.A.Baskakov bu sözün türk dillərində: 1) "türkəçaralıq etmək" , "cadulamaq" , "ovsunlamaq" ; 2) "çərənçilik etmək" , "cəfəngiyyat söyləmək" , "uydurmalar danışmaq" ; 3) nəhayət, "nəğmə qoşmaq" , "oxumaq" , "söyləmək" mənalarını ifadə etdiyini göstərir. ( Вах: Н.А.Баскаков. Тюркская лексика в "Слове о полку Игореве". Москва, 1985, стр.123.)

Göründüyü kimi, tarixi əlaqələrin hansı mərhələsindəsə (ən azı 12-ci əsrdən əvvəl) bizim mənbələrdə "ayıtmaq"şəklində mühafizə olunmuş söz türk dillərindən slavyan dillərinə keçmiş və burada özünün ilkin mənasını ("demək" , " danışmaq" , "söyləmək" , "oxumaq") indiyə qədər qorunub saxlanmışdır.

Bizə belə gəlir ki, "bayatı" sözünün həm şəkil, həm də mənzumca həmin kökə bağlılığı şübhə doğurmamalıdır. Burada fərqli cəhət yalnız sözün əvvəlinə artırılmış "b" ünsürüdür ki onun da dil məntiqinə əsaslanan izahını tapmaq mümkündür. Qeyd etmək lazımdır ki, "ayıtmaq" felinin və yazılı mənbələrimizdə rast gəlinən "söz" , "kəlmə" mənalı "ayqu" isminin şərq qurupu türk dillərində (yakut,altay) əvvəlinə "b" səsi artırılmış variantı müşahidə olunur.

Bundan başqa, "Dədə Qorqud" dastanının qolları mənasında işlənən "boy" ("nəğmə" , "söyləmə" mənasında) sözünün və "boy boylamaq" ("danışmaq" , "söyləmək" mənasında) ifadəsinin də həmin kökdən olduğunu güman etmək olar.

Deməli, belə bir nəticəyə gəlmək olar ki, "bayatı" sözü "boy boylamaq" ifadəsi ilə eyni məna daşıyan "boy ayıtmaq" ifadəsindən analitik formanın sintetik formaya keçməsi yolu ilə düzəlib: "boy ayıtmaq" – "boyaytmaq" – "boyaytı" – "bayatı" .

Qeyd edək ki, analoji hadisələr dilimizin tarixində müşahidə olunur. Məsələn, "bilək üzük"dən – "bilərzik" , "bir ildir"dən –"bildir" sözləri yarandığı kimi.

"Bayatı" sözünün sonundakı "ı" saitinə gəlincə, qeyd etmək lazımdır ki, fel köklərinə artırılaraq isim düzəldən bu şəkilçi dilimizdə geniş yayılıb. Məsələn:"yazmaq" – "yazı" , "sürmək" – "sürü" , "çəkmək" – "çəki" , "qorxmaq" – "qorxu" və s. ( "Bayatı" sözünün "Bayat" tayfa adından yarandığı fikri ilə razılaşsaydıq , buradakı "ı" saitini tamam mənasız bir element kimi qiymətləndirmək lazım gələrdi.Onu təsirlik hal, yaxud mənsubiyyət şəkilçisi kimi izah etmək mümkün deyil. Yox, əgər fars mənşəli "-i" (-vi") şəkilçisinin dəyişmiş formasıdırsa, bu halda da isim yox, sifət düzəltməli idi.)

İrəli sürülən bütün bu fakt və arqumentlərdən cıxan nəticələri vahid mülahizə şəklində ümumiləşdirərək belə bir qənaətə gəlmək mümkündür ki, "bayatı" şeir şəklinin adı "ayıtmaq" feli ilə eyni kökdəndir və ilkin halda "söyləmə" , "oxuma" , "nəğmə" mənasında işlənmişdir. Sonralar sözün lesik mənası daralmış və yalnız bir janrın adını bildirməklə məhdudlaşmışdır.

Tayfa adı ilə əlaqələndirmədən fərqli olaraq, bu cür izahat meydana çıxan sualların hər birinə məntiqli cavab vermək imkanı yaradır. Bu halda xalq musiqimizdə geniş yayılmış "bayatı" komponentli muğam və şöbə adlarının da rasional izahını vermək mümkündür. Başqa sözlə desək, "Baytı kürd" – "Kürdsayağı oxuma" , "Kürd oxuması (nəğməsi)"; "Bayatı Şiraz" -- "Şirazsayağı oxumağa" , " Şiraz oxuması (nəğməsi)" və s. kimi başa düşülməlidir.

İndiki halda "Bayatı Qacar" muğamının adı iki türk tayfasının adlarının mexaniki birləşməsi kimi absurd bir məntiqlə izah olunur. Əslində isə, "Bayatı Qacar" – "Qacarsayağı oxuma" , yaxud "Qacarların nəğməsi " deməkdir.

Digər tərəfdən, bu muğam şöbələrinin adları "bayatı" sözündən yaranmış izafət tərkibləri ("Kürd bayatısı" , "Şiraz bayatısı" və s. mənalarda) olsaydı, onda indiki kimi yox, "Bayateyi – Kürd" , "Bayateyi – Şiraz" və s. şəkildə işlənərdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Bayatı"sözünün bayat tayfasının adı ilə bağlılığına gəlincə, yekun olaraq demək istərdik ki, bu uyğunluq sırf təsadüfü, zahiri xarakter daşıyır və bu yerdə tayfa adının şeir şəklinin adının yaranmasına heç bir təsiri olmamışdır. Əslində, bayatının da, onun adının da kökləri zənn edildiyindən daha qədimdir.

**Summary**

The Article is devoted to the etymological analysis of one of the main genres of all Turkish folk – lore. The Author refutes the traditional explanation of the origin of the word "Bayatı" The Author comes to a conclusion that this word is derived from the archaic verb "ayitmaq" in the meaninq of "to tell" ("demək") , "to say" ("söyləmək") that were widely used in a number of the ancient Turkish texts by giving examples from Turkish and non – Turkish languages.

**Резюме**

Статья посвящена этимологическому анализу названия одного из основных жанров общетюркского фольклора. В статье опровергается традиционное заключение о происхождении слова "баяты" , то есть утверждение о связи этого слова с названием племени Баят. На основе доказателеств, приведенных из некоторых тюркских и нетюркских языков, автор приходит к мнению, что происхождение этого слова связано с архаическим глаголом "айытмаг",широко употребляемый в древнетюркских текстах , в том числе, в «Китаби - Деде Коркуд»е.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## «СЛОВО О ПОЛКУ ИГОРЕВЕ» И КУМЫКСКИЙ ГЕРОИЧЕСКИЙ ЭПОС - ВЗАИМОВЛИЯНИЕ КУЛЬТУР

***Проф.Др. Империат Халипаева***
***Махачкала***
***Россия***

Памятники кумыкского героического эпоса, которые дошли до нас, дают важные сведения не только об архаичном пласте эпического творчества Дагестана, но и интересный материал в области лексикологии и семантики, а также сравнительной типологии. Как известно, общим достоянием эпического творчества народов Северного Кавказа является нартский эпос, хотя имеются и собственные памятники. Но поскольку обращение к ним и запись собственных памятников произошла довольно поздно, то нужно признать справедливость высказывания А.М. Аджиева, что Дагестан - «периферия нартского эпоса». Таким образом, можно предположить, что не все дагестанские народы следуют традициям нарсткого эпоса - по мере удаления от Центрального Кавказа эти традиции слабеют. Поэтому именно у кумыков есть памятники, которые отходят от нартских стереотипов и имеют другую типологию: древнерусскую. Именно у них сохранились уникальные памятники, которые скорее испытывали влияние Древней Руси, чем тюркских народов Кавказа, хотя это влияние можно назвать взаимным, так как и многие древнерусские памятники, в большой степени «Слово о полку Игореве» подвергались влиянию восточных фольклорных традиций, благодаря процессу ассимиляции, активно продолжавшемуся на протяжении почти семи веков (с VI-го - до конца XII).

Достоверность древнекумыкских памятников не вызывает сомнений, несмотря на то, что первый сохранился в списках XVIII века (Кадырмурза), как, кстати, и древнерусский памятник, а второй был обнаружен и записан нами из уст сказительницы У. Пашаевой лишь в начале 90-х годов XX века. В пользу достоверности памятников говорят некоторые словесные формулы: устойчивые архаичные эпитеты, сохранившиеся в кумыкских йырах средних веков, топонимы, мифонимы, теонимы, исконное значение которых утрачено с принятием кумыками ислама.

Сюжетные формулы, общие места, лексические характеристики речи героев и описания мест сражения в «Анжи-наме» и плача Аймеседу в предании «Окаменевшая Аймеседу» имеют семантические модели, схожие со «Словом о полку Игореве». Это говорит не столько о заимствовании сюжетов и набора лексико-семантических формул древнекумыкских сказителей у древнерусских, сколько об общекультурном взаимовлиянии мифологии и фольклора двух народов на протяжении многих столетий находившихся в разных, как дружественных так и враждебных, отношениях.

Наличие общих мест в «Анжи-наме», «Окаменевшей Аймеседу» и «Слове о полку Игореве» говорит о том, что в средние века на территории современной России существовал традиционный прием изображения тех или иных событий или взаимоотношений, так называемое литературное клише, по которому строилось произведение определенного жанра. В этих произведениях как правило обязательно должны были присутствовать:

- авторская позиция, выраженная «голосом» сказителя;
- боги и другие мифологические персонажи, находящиеся в состоянии вражды или покровительства с главными героями произведений;
- военные дружины, общины, группы дружественных или враждебных народов, принимающих участие в развитии событий;
- женские образы, выражающие эмоциональное отношение к происходящему: воспевающие или оплакивающие героев.

Все указанные элементы жанрового клише присутствуют в трех анализируемых нами произведениях.

События, рассказанные в «Анжи-наме», связаны с Анжи - древним городом Хазарского каганата, расположенным на территории Махачкалы (на берегу Каспийского моря). Посвящены описываемые события борьбе Хазарского каганата с арабами. Сюжет разворачивается вокруг правителя Семендара Карткожака. У него было двое сыновей - Темиш и Айбек. Они оба влюбились в одну девушку по имени Айкыз. Старший из братьев, Темиш, получив отказ от Айкыз, которая отвечала взаимностью Айбеку, во время осады города перешел на сторону врагов. Старый и ослепший отец именами всех божеств - Тенгири, Авамчи, Алава - проклинает сына изменника. Айбек дает отцу клятву в верности родине и чести. Вскоре происходит кровавое



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

побоище с завоевателями. Горит Анжи, горит и священный камень Камари. Город погибает, но помощи от богов не получает. Невеста Айбека молит Тенгири разбить врагов, но все тщетно. Анжийцы отправляют вещую птицу Бийдаяк к другим богам Алаву и Авамчы. Бийдаяк достигает цели и призванные боги возглавив войско нартов, устремляются на врагов. Тенгири строит им преграды, закрывает солнце, заливает дороги водой. Но боги все преодолевают. Однако силы неравны и второе предательство Темиша (он показал уставшим врагам, где вода) довершает дело - Анжи покорен. Правителем назначен Темиш. Айкыз и оставшиеся в живых жители Анжи скрываются в труднодоступном месте, куда не могут проникнуть враги (Айбек погиб в сражении). Враг, бессильный взять укрепление, морит народ голодом, тогда Айкыз берется вывести людей тайными тропами. Она пишет врагам письмо о желании сдаться и просит три дня отсрочки. Тем временем выводит людей в Ирган и Балх. Сама же возвращается и встречается с Темишем, который уверен, что девушка теперь будет принадлежать ему. Вместе с Темишем Айкыз поднимается на вершину башни и там, обхватив его - бросается вниз.

В произведении причудливо сочетаются древнейшие образы и мотивы с исторически реальными событиями. Повествование облечено в художественную форму героического эпоса. Главной героиней «Сказания» выводится женщина - это главное событийное отличие кумыкского памятника от древнерусского, хотя и «Плач Ярославны» возводит княгиню - жену Игоря в статус героини, косвенно спасающей своего мужа (посредством молитвы - обращения к богам-стихиям) из плена.

Событийный ряд развития сюжета «Анжи-наме» предполагает экспозицию, в которой дается общая характеристика ситуации, предваряющей основное событие, то есть эпизод предательства одного из сыновей Карткожака и клятву Айбека. Как и в «Слове о полку Игореве» из экспозиции становится понятным, что рассказ поведется о событии с трагическим истоком.

Как и в «Слове» в «Сказании» имеют место две кульминации: первая - битва и поражение Анжинцев, вторая - месть Айкыз. В «Слове» - первая кульминация - поражение и пленение Игоря, вторая - бегство из плена. Безусловно кульминации «Слова» имеют более глубокий историко-политический смысл, но и кульминации «Сказания» также исторически обоснованны для дальнейшей политики города Анжи как государственного образования Хазарского каганата.

Оба произведения созданы в критические моменты политики и истории государств - канун феодальной раздробленности в первом случае и смену религиозных взглядов (с политеизма на монотеизм) - во втором. Именно данные исторические основы побудили авторов к выбору своих жанров повести и сказания, что в принципе одно и то же.

И в «Слове» и в «Сказании», которые являются прежде всего произведениями литературы, а не историческими хрониками, персонифицированы все персонажи, не только героические личности, как князья Игорь, Буйтур Всеволод, Ярославна, Овлур, враги Игоря - ханы Гза и Кончак в «Слове»; Карткожак, Айбек, Темиш, Айкыз, все дружественные народы в том и другом произведении, но персонифицированы и боги: Даждьбог, Велес, Хорс «Слова», Тенгири, Алав, Авамчи «Сказания». В обоих произведениях поименно упоминаются объекты священного почитания: святилища, камни, рощи, птицы, местности - в «Анжи-наме», вода, светила, ветер, силы природы - в «Слове». В этом смысле каждая деталь обоих произведений в равной степени отображает главную идею - выдержать испытание, которое наслал бог и победить врагов. Единственное существенное идеологическое различие анализируемых памятников состоит в том, что в «Слове» описывается захватническая политика Древней Руси, пусть выраженная даже через настроения удельного князя Игоря Святославича, а «Сказание» отражает политику обороны анжинцев от захватчиков. Поэтому финалы произведений разные. В «Сказании» финал трагичен, в «Слове» - оптимистичен. Игорь бежит из плена, возвращается в свой удел, чтобы укрепить оборону и дать отпор половцам, которые вдохновлены победой и стремятся вторгнуться на территорию соседних с ними княжеств. В «Сказании» умирают все герои и городу некому помочь, хотя его жители благодаря Айкыз спасены. Но в целом событийный ряд обоих произведений совпадает. В «Слове полку Игореве» на помощь князьям не хотят приходить соседи. К анжинцам же помощь не успевает прийти. Ни дальние, ни ближние дружественные общины и народы не могут помочь анжинцам, потому что от них отвернулся Тенгири. В книге не указываются причины такого поворота событий, но из контекста они становятся понятными. Благосклонность Тенгири утрачивается, на наш взгляд по двум причинам: первая - мифологическая, вторая политическая. Мифологическая семантически восходит к древнегреческому мифу о Зевсе и Прометее и представляет собой мифологическую кальку Тенгири - Алав.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Прометей украл огонь для людей, Зевс наказал и его, приковав к скале, и людей, наслав войну. Тенгири, узнав, что анжинца взывают к Алаву за помощью, стал чинить преграды Алаву, приковав его к скале и анжинцам, чиня преграды дружественным соседям, спешащим на помощь.

Политическая причина состоит в том, что время создания «Анжи-наме» и сам факт противостояния хазар и арабов говорит о том, что язычникам-анжинцам «навязывается» новая религия - ислам. «В ««Сказании» говорится, что враги идут для того, чтобы выпить кровь Тенгири. Все это похоже на борьбу народа не только за сохранение национальной независимости, но и языческих верований и богов, на борьбу язычников с мусульманами». То что анжинцы еще тенгрианцы и не желают пока что принимать ислам доказывается многократными упоминаниями Тенгири и просьбами к нему о помощи. Например в призывном письме анжинцев сказано:

Ат туягъы дюнья чанг гелген,
Камарини топуракъага дендюрмей къойман деп,
**Тенгирибиз къанын ичмей къойман деп,**
Билдиригиз Гюржюдеги Исакъгъа,
Не къыйынлар гелип тура бу якъга!

В другом эпизоде Айкыз обращается с мольбой к Тенгири быть опорой народа, оповестить друзей анжинцев о горе, постигшем главу города Абия-Карткожака по причине того, что его сын Темиш изменил своим людям, отвернулся от Камари. «Считаю, эти стихи, это поэтическое проклятие Айкыз в адрес Темиша по силе своего колокольного звучания, всеохватности человеческого потрясения, воплощенного в нем, достойным любого великого произведения мирового искусства», - отмечает ученый - исследователь и переводчик «Анжи-наме» С. М.-С. Алиев.

**Гек будутлар чачыратып, Тенгири,**
Гек денгизни гъалек этсенг не бола!
**...Къудратынг уллу сени, Тенгири,**
Тегинлейин алгъыр жанын Темишни,
Дерт бюкленип, ер ялагъан Абиймни агъы учун!

Как мы знаем из произведения Тенгири не пришел на помощь анжинцам, но по нашему мнению, он все же услышал молитвы Айкыз и покарал предателя, хотя и ценой жизни самой героини.

Значение «Сказания» трудно переоценить. Оно в новом свете представляет богатый кумыкский фольклор. Это единственное произведение, в котором в качестве героев наряду с реальными людьми выступают языческие боги предков современных кумыков: Тенгри, Алав, Авамчи. Имена богов имеют тюркскую основу, за исключением Камари, которое перекликается с именем грузинской богини молнии Камари.

Другой древнекумыкский памятник, на создание которого вероятно оказало влияние «Слово о полку Игореве», предание «Окаменевшая Аймеседу». В мировой научной традиции легенда рассматривается как одна из разновидностей несказочной устной прозы. Предания также относятся к жанру несказочной народной прозы, но в них акцент делается на правдивое, с точки зрения народа, изображение исторических событий и лиц, причем в большинстве случаев носящих локальный характер. По жанру «Окаменевшая Аймеседу» относится к мифологическому преданию, то есть имеет в своей основе какие-то недошедшие до нас исторически достоверные истоки.

Событийный ряд предания, по нашей классификации (Само предание обнаружено нами в с. Башлыкент Каякентского района, от сказительницы У. Пашаевой в начале 1990 г.) следующий:

1.Прозаическое повествование, которым предваряется текст песни-плача Аймеседу.

2.Поэтическая песня-плач красавицы Аймеседу.

3.Стихотворный текст от имени сказителя (последние пять строк).

По всей вероятности, первая часть этого произведения также существовала в виде песни, однако текст ее оказался забытым. Очевидно сохранившийся и записанный нами вариант - это лишь один из важных и интересных эпизодов известного в свое время древнего эпоса кумыков. Здесь мы видим смешение предания и легенды, что объясняется близостью этих жанров, особенно в архаичный период, а также наличием переходных форм.

В основе сюжета лежит история жизни и смерти храброго юноши Али. Он на охоте повстречался с вепрем, убил его , но и сам погиб от многочисленных ран, нанесенных кабаном. Его жена Аймеседу, как могла пыталась спасти своего мужа, однако, ни целебные травы, ни



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

молитвы не помогли Али. Тогда Аймеседу стала оплакивать своего юного супруга. Примечательно, что жанр плача, введенный в прозаическую канву сюжета предания дан в поэтическом воплощении, как дань многовековой традиции не только в тюркской, но и в древнерусской народно-поэтической традиции.

**Енглеримни чайып тузлу сувларда,**
**Яра япракъ изледим чувларда,**
**Сувда чайсам, яраларынг сызлар деп,**
**Тавлар-ташлар неге бугюн чартламай,**
**Алисолтан, нартдай, улан оьлген деп.**
**Омыв-омочив рукава в водах соленых,**
**Травы-листья для раны искала я в чуткой тишине,**
**Думая. Что если омою в воде, раны заноют,**
**А листок как бальзам, раны твои успокоит.**
**О почему сегодня не затрещат горы-скалы**
**Алисолтан - нартоподобный парень.**

В плаче очень много определяющих эпитетов, выраженных качественными прилагательными:
**тузлу** савлар - соленые воды;
**сари** саз - желтая глина;
существительными в Р.П:
яра **япрак - трава для ран;**

**метафорическими эпитетами:**
**аччы къамуш - горький камыш;**
**къара орманлар - черные леса;**
**къара къабан - черный кабан.**

Прилагательные **аччы, къара** имеют лексико-семантическое значение не определения цвета или вкуса, а выражают степень понесенной утраты. Эмоциональную насыщенность создает параллельное противопоставление объектов природы действиям.

«Кеклер бийик - батгъычы ек минмеге,
Ерлер къаты - ачгъычы ек гирмеге».

«Небеса высоки - нет лестницы, чтобы подняться,
Земли тверды - нет ключа, чтобы отворить (зайти)».

Гьей, Гюн! Не инандыр, не яндыр!»
«Эй, Солнце! Или дай поверить, или сожги!».

«В плане строфики плач Аймеседу составляет единое целое, его нельзя расчленить - это характерно произведениям древнего эпоса» [Халипаева: 1994, 53]. В плаче рефреном звучит в заключение почти каждой строки глагол «деп» (говорят), что используется для придания достоверности излагаемому тексту и придает памятнику эффект достоверного исторического предания.

Как и «Сказание о битве при Анжи» предание «Окаменевшая Аймеседу» пестрит ономонимами, мифонимами, топонимами, которые имеют общетюркскую основу.

**Ономонимы Айкыз и Аймеседу.**

Имена являются сложными составными, в начале которых стоит слово «Ай» - Луна. Здесь может быть два варианта толкования этого префикса: бледноликая красавица, занимающая высокое положение в обществе (княжна, княгиня); девушка, принадлежащая народу, поклоняющемуся Луне, где луна выступает как богиня женского начала.

В контексте древнекумыкских памятников Ай - это все же теоним, а не эпитет, олицетворяющий красоту. В пользу данного утверждения говорят как обращение Айкыз к богам о помощи, так и плач Аймеседу по любимому супругу.

Наряду с реальными лицами в произведениях Древней Руси и Древней Кумыкии присутствуют боги, нарты, дэвы. Мифологические персонажи, на наш взгляд, наиболее интересны с точки зрения семантического анализа текста и наличия в нем заимствований из «Слова о полку Игореве». Прежде всего это касается пантеона богов, список которых дается в «Анжи - наме». В



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Сказании о битве при Анжи» очень важное место уделяется богам, которые стоят на стороне сражающихся, такое явление также присуще и «Слову о полку Игореве».

Боян, Траян, Перун, Даждьбог, Стрибог, Велес, Хорс - вот список теистических имен, встречающихся в «Слове». Исследователи комментируют эти имена, привязывая их к славянской или же древнегерманской мифологии. Но комментарии эти несколько неточны, потому что нет этих имен в славянской мифологии и появились они в «Слове» под влиянием тюркского политеизма - тенгрианства и заимствованы из тюркского эпоса. Это доказано на этимологическом уровне многими видными тюркологами-исследователями лексики «Слова о полку Игореве»: Н.Баскаковым, Мелиоранским, Радловым, и другими.

Однако, что это за имена исследователи сказать затрудняются, поскольку они, кроме «Слова» больше не употребляются ни в одном из литературных источников после XII века. Есть эпизодические упоминания Велесе (Волоса) в «Молении» Даниила Заточника, «Задонщине», но в первом - это скорее всего след компиляции из «Слова», а во втором - «общее место», заимствованное из «Слова». Так что же это за имена? Есть ли какие-нибудь сведения о них в других (не европейских) источниках? Безусловно, есть. Все эти имена встречаются в мифологии и летописях ближайшего к Руси соседа - Волжской Булгарии.

Сравнительно-сопоставительный анализ теонимов «Слова » и «Сказания о битве при Анжи» проливает свет на происхождение этих теонимов. Более того, теонимы «Слова» часто семантически и грамматически перенесены из тюркской мифологии как кальки или идиомы, о чем еще раз свидетельствуют «общие места» с «Анжи-наме».

**«Чиливъспети было,**
**вещей Бояне, Велесовь внуче:»** - бог Велес (Волос);
**«збися див, кличетъ врьху древа»** - демонологическое божество;
« **Всеславъ князь людемъ судяше... великому Хрьсови влъкомъ путь прерыскаше».** - Хорс - бог кузнец;
***Се ветри, Стрибожи внуци,*** - Стрибог - бог погоды.
***Въстала обида въ силахъ Даждьбожа внука,*** - Даждьбог - верховный бог. Бог-громовержец;

Итак перед нами три бога: Даждьбог, Стрибог, Хорс, и одно демонологическое божество - див (дэв).

Если о происхождении первых двух можно спорить - славянские ли они, европейские, восточные, то имена двух вторых сомнения уже не вызывают, хотя в комментариях к тексту «Слова» напротив их имен стоит пометка «неизвестные».

Также одинаков и семантический ряд упоминания этих богов, то есть одинаково присутствие бога огня (войны): **Хурс - Алав**; верховного бога: **Даждьбог - Тенгри**; бога лесов, земли, скотоводства, охоты: **Волос-Авамчы**.

Согласно этому сравнению мы смеем предположить о наличии литературного клише в списке «Анжи-наме», что ни в коем случае не умаляет художественных достоинств кумыкского памятника, а наоборот подтверждает версию о тесных русско-кумыкских культурных контактах раннего средневековья и говорит в пользу древности кумыкского «Сказания».

## ЛИТЕРАТУРА

1.Революциядан Алдагъы къумукъ ада бият (Хрестоматия по дореволюционной кумыкской литературе. Под ред. Алиева С.М.-С, Акаева М.-Г.Д) М-ла, 1976.

2.Аджиев А.М. Устное народное творчество кумыков. М-ла. 2005.

3.Алиев С.М.-С Зарождение и развитие кумыкской литературы. М-ла, 1987.

4.«Анжи-наме» в истории кумыкской словесности. Алиев С.М.-С. // Вести КНКО. М-ла, 2002-2003.

5.Кадыраджиев К.С. Древнекумыкский теоним Хорс. В журнале КНКО, № 8-10, 2002-2003.

6.Слово о пълку Игореве, Игоря, сына Святъславля, внука Ольгова. Древнерусский текст. Подготовка текста В.И. Стеллецкого. М. 1996.

7.Халипаева И. А. Мифологическая проза кумыков. Исследования и тексты. М-ла, 1994.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# "KOROĞLU" EPOSUNUN NƏŞRLƏRİ İLƏ BAĞLI TƏHRİFLƏR VƏ ONLARIN TƏSHİHİ

**Islam Sadiq**
**Azərbaycan**

1. Eposun toplanma və nəşri ilə bağlı yanlışlıqlar haqqında. Dünya eposunun ən möhtəşəm və bənzərsiz abidələrindən biri olan "Koroğlu eposu Azərbaycanda yaranmış, sonra türk dünyasında, uzaq və yaxın şərqdə, nəhayət Avropada yayılmışdı. Onun bu cür geniş bir ərazidə, özü də az vaxtda yayılmasına bədii gözəlliyi, poetik siqləti, dilinin şirinliyi, hadisələrin reallığı, formanın orijinallığı ilə yanaşı, həm də Koroğlunun öz dövründə aşıq kimi, şair kimi, qəhraman kimi məşhurluğu səbəb olmuşdur.

"Koroğlunun toplanması və nəşriylə bağlı folklorçularımızın əksəriyyəti dönə-dönə yazsalar da, bu sahədə bir çox qaranlıq məqamlar qalmaqdadır və onların üstünə işıq salmağın vaxtı çatdığını düşünürəm. Cünki "Koroğlunun toplanma və nəşrindən danışanların əksəriyyəti M. H. Təhmasibin yazdıqlarını təkrarlamışlar. Bu fikrimi təsdiqləmək üçün bircə faktı nəzərə çatdırmaq istəyirəm. Mərhum folklorçumuz Vəli Xuluflu 1927-ci ildə Koroğlunun "Toqat səfəri və "Bağdad səfəri qollarını böyük saz-söz ustadı Aşıq Hüseyn Bozalqanlıdan toplayıb "Azərnəşrdə nəşr etdirmişdir. 1929-cu ildə isə Aşıq Əsəddən "Dərbənd səfəri və "Dəli Koroğlu və Bolu bəy qollarını toplamışdır. Koroğlunun dörd qolu toplanmış ikinci kitab 1929-cu ildə yenə "Azərnəşrdə işıq üzü görmüşdür. M. H. Təhmasib yazılarının heç birində 1929-cu il nəşrinin adını çəkməmişdir. Ondan sonra da heç bir folklorçunun 1929-cu il nəşrindən danışmaması belə təsəvvür yaradır ki, onların hamısının əsaslandığı ilkin mənbə M.H. Təhmasibin əsərləri olmuşdur. Təəssüf doğuran haldır ki, 6 cildlik Azərbaycan Ədəbiyyatı Tarixinin 2004-cü ildə işıq üzü görmüş I cildində də V. Xuluflunun 1929-cu ildə nəşr etdirdiyi "Koroğlunun adı çəkilməmişdir. Bu da ondan irəli gəlmişdir ki, faktlar uzun illər boyu təkrarlanmış, nəyin yanlış, nəyin gerçək olduğunun fərqinə varılmamışdır. Bu fikrimin təsdiqi üçün "Koroğlunun toplanma və nəşr tarixi ilə bağlı mənbələrdə rast gəldiyim kobud təhriflərdən bir neçəsini xatırlatmaq istəyirəm.

P. Əfəndiyev yazır: "Koroğlu ayrıca kitab şəklində 1937, 1940, 1941, 1949-cu illərdə çap olunmuşdur (1, s. 5). O, bu yanlışlığı "Folklorşünaslıq: qayğılarımız adlı yazısında da təkrarlamışdır: " 1842-ci il nəşrindən başlayaraq V. Xuluflu (1927), A. Rəcəbli (1938), H. Əlizadə (1936, 1941), M. H. Təhmasib (1956) nəşrləri diqqətlə nəzərdən keçirilmişdir (2, s. 6).

Buradakı yanlışlıqlar ondadır ki, "Koroğlu eposu 1936 və 1938-ci illərdə nə kitab halında, nə də dövri mətbuatda, 1937-ci ildə isə ayrıca kitab şəklində çap edilməmişdir. Bəs bu yanlışlıqlar hardan gəlir? Bunlardan ilk ikisi yəqin diqqətsizliyin nəticəsidir. Sonuncu isə yox. 1937-ci ildə Üzeyir bəy Hacıbəylinin "Koroğlu operasının tamaşaya qoyulması münasibətilə M. F. Axundov adına Böyük Dövlət Opera və Balet Teatrı"Koroğlu adında 28 səhifəlik bir kitabça buraxmışdır. Əziz Şərifin "Xalq dastanının qəhrəmanı adlı ön sözündən və operanın tamaşası haqqında bilgilərdən ibarət olan bu kitabçanın "Koroğlu eposunun nəşri kimi başa düşülməsi faktın dəqiqləşdirilməməsindən irəli gəlmişdir.

Zemfira Qafarovanın "Üzeyir Hacıbəyovun "Koroğlusu (rus dilində) kitabından götürülmüş aşağıdakı cümlələri tutuşduranda onların hamısının bir adamın qələmindən çıxdığına inanmaq olmur:

1."Koroğlunun ilk sovet nəşri 1927-ci ildə çapdan çıxmışdır (3, s. 49).

2.1936-cı ildə eposun istedadlı ifaçısı Aşıq Hüseynin variantı əsasında "Koroğlu kitabı çapdan çıxmışdır (3, s. 49).

3."Koroğlu dastanı ayrıca kitab halında 1937, 1940, 1941, 1949, 1956, 1959, 1975-ci illərdə nəşr olunmuşdur (3, s. 49).

Bu üç cümlədən yalnız birincisi doğrudur. İkinciyə gəldikdə, Z. Qafarova bu səhvi kitabın başqa bir yerində də təkrarlamışdır: "...librettonun müəllifləri 1927-ci il nəşrinə müraciət etmişdilər, çünki növbəti nəşr yalnız 1936-cı ildə işıq üzü görmüşdür (3, s. 53). Halbuki növbəti nəşr 1929-cu ildə işıq üzü görmüşdür, 1936-cı ildə isə "Koroğlu dastanı nəinki kitab halında, heç mətbuatda da çap edilməmişdir. Nəhayət, üçüncü cümlədəki siyahıya bir çox nəşrlər düşməmişdir, 1937-ci ildə isə "Koroğlu kitabı çapdan çıxmamışdır. Əslində müəllifin siyahısı belə olmalıydı: 1927, 1929, 1940, 1941, 1949, 1951, 1956, 1959, 1965 və 1975.

Belə yanlışlıqlardan birinə də akademik Həmid Araslının "Aşıq yaradıcılığı kitabında rast gəlirik: "XIX əsrin 40-cı illərində A. Xodzko adlı bir nəfər Cənubi Azərbaycan aşıqlarından topladığı "Koroğlu dastanını yazıya köçürüb, 1842-ci ildə ingilis dilində çap etdirmişdir. Bu əsər 1867-ci ildə S. Penn tərəfindən rus dilinə tərcümə olunub Tiflisdə çıxan "Kavkaz qəzetinin 21, 24, 26, 27, 30, 35,37, 42-ci nömrələrində "Ker-Oqlı vostoçnıy poet-naezdnik sərlövhəsi ilə çap olunmuşdur (4, s. 45). Buradakı yanlışlıq ondadır ki, "Koroğlu "Kavkaz qəzetində 1867-ci ildə yox, 1856-cı ildə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Koroğlunun nəşrindən danışarkan məşhur folklorşünas M. H. Təhmasibin də yanlışlığa yol verməsi daha çox təəssüf doğurur: "İnqilabdan sonra eposun müxtəsər bir variantı 1927-1936-cı illərdə Vəli Xuluflu tərəfindən nəşr olunmuşdur (5, s. 3).

Yəqin ki, M. H. Təhmasib V. Xuluflunun "Koroğlu eposunu yalnız 1927 və 1929-cu illərdə nəşr etdirdiyini bilməmiş deyildi. Bunlar yetərincə səriştəsi və elmi-nəzəri savadı olan yaşlı nəslin səhvləridi. Ən qorxulu hal odur ki, bu gün folklorla təsadüfi adamlar daha çox məşğul olurlar. Xüsusilə, gənc folklor araşdırıcılarımız bu işə başdansovdu yanaşır, çox zaman faktları dürüstləşdirməyin əzab-əziyyətinə qatlaşmayaraq asan yolla gedir, özlərindən əvvəl yol verilmiş yanlışlıqları təkrarlayırlar. Bütün bunları nəzərə alaraq "Koroğlu eposunun toplanma və nəşr tarixinə qısaca nəzər salmağı özümə borc bildim.

2. Eposun rus və Avropa nəşrləri haqqında. "Koroğlu dastanınn özündən qabaq onun şeirləri xalq arasında yayılmış və ayrı-ayrı adamların dilindən yazıya alınmışdır.Görünür, dastanın özünü yazıya almağın çətinliyi çoxlarını bu işdən çəkindirmiş, onlar yalnız bir sıra şeirləri yazıya almaqla kifayətlənmişlər. Məhz buna görə də xalqın dilinin əzbəri olan Koroğlu şeirləri hələ XV1-XV11 əsrlərdən başlayaraq müxtəlif cünglərə düşmüşdür. Bu cüngləri yazıya alan adamlar sözsüz ki, "Koroğlu dastanına aşıqların ifasında qulaq asmışlar, lakin həcmcə çox böyük olan bu əsərin yazıya alınmasının çətinliyindən qorxmuşlar. Ayrı-ayrı qoşma və gəraylıların yazıya alınması isə daha asan olmuşdur. İ. Muşeqin 1721-ci ildə tərtib etdiyi "Nəğmələr kitabında Koroğlunun 13 qoşma və gəraylısı vardır.

Azərbaycan şairi Əndəlib Qaracadaği çoxlu şeirlər və folklor örnəkləri toplamışdır. Onun 1804-cü ildə yazdığı bir əlyazmasında Koroğlunun da bir neçə şeiri vardır.

1840-cı ildə İ.Şopen adlı bir nəfər "Mayak sovremennoqo prosveşeniya i obrazovaniya toplusunda Koroqlu: tatarskaya leqenda adlı bir yazı cap etdirmişdir. Bu başlıq altında müəllifin Koroğlu haqqında fikirləri və guya dastandan bir variant, yaxud parça verilmişdir. Ona görə guya deyirəm ki, burada Koroğlu haqqında nə dastanın variant və versiyalarında, nə aşıqların ifasında, nə də xalq arasında mövcud olmayan bir rəvayət uydurulmuşdur. Guya Koroğlu Rassudan adlı bir gürcü qızına vurulur, yoldaşlarından üz döndərir, xristianlığı qəbul edir və s. Bu nəşr haqqında V. M. Jirmunski, H. T. Zərifov və onlardan da öncə M. H. Təhmasib tutarlı fikir söyləmişlər. M. H. Təhmasib bu uydurma haqqında yazmışdır: Naşirin (İ.Şopen-İ.S.) dediyinə görə, o bu variantı milliyyəti məlum olmayan bir nəfərdən eşitmiş, lakin özü yerli dili bilmədiyi üçün az-çox başa düşən bir erməni yoldaşının köməyilə başa düşmüş və ruscaya tərcümə etmişdir. Bu "variantın nə dərəcədə dəqiq ola biləcəyi buradan görünür. Lakin İ.Şopenin "xidməti bununla bitməmişdir. O, onsuz da şəkildən-şəklə salınmış bu "variantı həm də yenidən özü istədiyi kimi "işləmiş, "düzəltmiş, öz ruhuna və zövqünə uyğun bir hala salmışdır. Nəticədə "Koroğlu adına böhtandan ibarət olan tamamilə zərərli bir uydurma əmələ gəlmişdir. (6, s. 16 ).

Bu cür tutarlı və əsaslı cavabdan sonra İ. Şopenin "Koroğlu: tatarskaya leqendasından danışmağa dəyməz. Ancaq burdakı erməni barmağı haqqında bir kəlmə demək istəyirəm. Ermənilər əlləri qələm tutandan bizim tariximizi, ədəbiyyatımızı, etnoqrafiyamızı, incəsənətimizi dəyişə-dəyişə, pozub təzədən yaza-yaza çoxunu da öz adlarına çıxıblar.

"Koroğlunu X1X yüzilliyin 40-cı illərində Rusiyanın İranda konsulu işləmiş Aleksandr Xodzko toplayıb ingilis dilinə tərcümə edərək 1842-ci ildə Londonda nəşr etdirmişdir. Bunu "Koroğlunun kitab halında ilk nəşri saymaq olar. Çünki ondan öncə "Koroğlu dastanı ayrıca kitab halında çap edilməmişdir.

"Koroğlunun Xodzko nəşrinin dastanın yayılmasında oynadığı çox böyük rolu danmadan onun nöqsanlarını da qeyd etməliyik. Öncə deməliyəm ki, "Koroğlunun Xodzko nəşrində Azərbaycan folklor yaradıcılığı və dastançılıq ənənələri ilə qətiyyən uyuşmayan kobud bir üslub qabarıq nəzərə çarpır. Biz bunu daha çox Koroğlunun və digər iştirakçıların dillərindən tez-tez eşitdiyimiz söyüşlərdə görürük. Halbuki Azərbaycan folklorunda ikinci elə bir əsər tapmaq olmaz ki, orada bu cür söyuşlər, kobud sözlər, ifadələr işlədilsin.

Xodzko nəşrində ayrı-ayrı qollar, yaxud onlardakı ayrı-ayrı səhnələr bir-birilə qarışdırılmışdır. Məsələn, "Koroğlunun İstanbul səfəri və "Dəmirçioğlunun Çənlibelə gətirilməsi qolları birləşdirilmiş, nəticədə çoxlu təhriflərə yol verilmişdir.

Xodzko nəşrindəki beşinci məclis əslində yarımçıq kəsilmiş dördüncü məclisin davamıdır və onu ayrıca məclis hesab etmək olmaz. Burdakı şeirlərin bir çoxu bədii baxımdan çox zəifdir və Koroğlu üslubuna uyğun gəlmir. 1804-cü ildə Əndəlib Qaracadağinin yazıya aldığı "Bənzərsən qoşması əlimizdə olmasaydı, bəlkə də bu fikri belə cəsarətlə deməzdim. "Bənzərsən qoşması ilə yanaşı qoyduqda bu nəşrdəki şeirlərin çox güclü şəkildə təhrif olunduğu aydın görünür. Dastanda bu cür təhriflər o qədər çoxdur ki, onların hamısını saymağa ehtiyac duymuram. Bunların bir çoxuna kitabın Azərbaycan dilindəki nəşrinə ön söz yazmış professor İsrafil Abbaslı da toxunmuşdur.

Bəs bu qədər təhrif nədən doğmuşdur? A. Xodzkonun topladığı "Koroğlunun yurd hissəsi fars, şeirləri isə türk dilindədir. Məncə, oradakı dolaşıqlıqların və təhriflərin birinci səbəbini elə bunda axtarmaq lazımdır. Birincisi, tarixdə belə bir hala rast gəlmirik ki, Azərbaycan aşığı farsca dastan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

söyləsin. İkincisi, farslarda aşıq da yoxdur, “Koroğlu dastanı da. Onda belə çıxır ki, əgər dastan Azərbaycan açığının dilindən yazıya alınmışdırsa, sonra kim tərəfindənsə fars dilinə tərcümə edilmiş, bu zaman çoxlu təhriflərə yol verilmişdir. A.Xodzkonun məlumatına görə guya o dastanı Aşıq Sadıqdan toplayıb. Lakin şeirlərdəki kobud təhriflər bu fikri də inkar edir. Belə çıxır ki, Xodzko bu dastanı aşıqdan yox, türk olmayan və türk dilini yaxşı bilməyən təsadüfi bir adamdan toplayıb. Sonradan isə bunun üzərində bir neçə nəfər əməlli -başlı redaktə işi aparmışdır. Bu redaktə işi iki mərhələdə: birinci dəfə İranda, ikinci dəfə isə Londonda yerinə yetirilmişdir. Bütün bunlar da dastanın öz əslindən –orijinalından tamamilə uzaqlaşmasına, yad, yamanmış səhnələrlə “zənginləşməsinə səbəb olmuşdur. M. H. Təhmasib Xodzko nəşrindəki bu cür ziddiyyətli məqamlara diqqət yetirərək yazmışdır: “Bu gün xalqın yaddaşında yaşayan “Koroğlu eposunda belə ziddiyyətlər yoxdur (7, s. 185).

A. Xodzko nəşrinin bütün təhriflərinə, qüsurlarına, yad, yabançı, hətta bir çox zərərli ünsürlərlə doldurulmasına baxmayaraq, məhz bu kitab işıq üzü görəndən sonra “Koroğlu eposu Avropada və Rusiyada tanınmış və ona maraq yaranmışdır. A. Xodzkonun topladığı “Koroğlunun ingilis dilindəki nəşrindən istifadə edən O. Volf 1843-cü ildə onu almancaya çevirib Almaniyada yaymışdır. Almaniyada da bu epos böyük maraqla qarşılanmışdır.

“Koroğlu eposu hələ çap olunmamışdan Fransada onun haqqında bilgi almışlar. Ona görə də “Koroğlunun ingilis dilindəki nəşri işıq üzü görən kimi Fransada ona maraq daha da güclənmişdir. Fransız şairi Jorj Sand (şeirləri) və Adolf Brelye (yurd hissəsini) eposu fransızcaya çevirib 1853-cü ildə onun yayılmasına nail olmuşlar.

Murtuz Sadıxov yazır ki, “Koroğlunun fransız dilinə tərcüməsində A. Xodzkonun özü də iştirak etmişdir (8, s.106). Bu tərcümə haqqında “Oteçestvennıe zapiski jurnalında 1856-cı ildə imzasız bir resenziya da çap olunmuş və tərcümə yüksək qiymətləndirilmişdir (9, s. 976).

X1X əsrin 40-cı illərində Abbasqulu ağa Bakıxanovun vasitəçiliyi ilə Tadeuş Lada-Zablotski “Koroğlu eposundan bir parçanı polyak dilinə çevirmişdir. Bu tərcümə 1849-cu ildə “Rubon jurnalında çap olunmuş, sonra isə tərcüməçinin hazırladığı “Şərq toplusuna daxil edilmişdir (8, s.108).

“Koroğlu eposunun ingilis dilindəki nəşri təkcə Avropada deyil, Amerikada da yayılmış, burada yaşayan söz adamlarının marağına səbəb olmuşdur. Hətta bu kitabı oxuyan Amerika şairi Henri V. Lonqfello eposun təsiri altında “Rövşənbəy –Koroğlunun atlanışı adlı bir şeir yazmışdır. “Təbii ki, Amerika şairi Lonqfellonun Koroğlu ilə tanışlığı A. Xodzko nəşri ilə bağlıdır (10, s.52). Onun şeiri ilk dəfə Cəfər Cabbarlının tərcüməsində “İnqilab və mədəniyyət (indiki “Azərbaycan) dərgisinin 1928-ci il 6-7-ci (54-55) nömrəsində çap olunmuşdur. A. Xodzko nəşri bütünlüklə isə 1971-ci ildə Amerikada işıq üzü görmüşdür (11, s. 27).

P. Əfəndiyev “Rövşənbəy-Koroğlunun atlanışı şeirinin Lonqfellonun olduğunu, C. Cabbarlının onu tərcümə etdiyini bilmədiyinə görə yazmışdır: “Sevimli dramaturqumuz C. Cabbarlı “Koroğlunu nəzmə çəkmişdir. Epizod “Rövşənbəy-Koroğlunun atlanışı adlanır. Bu şeir C. Cabbarlının bir neçə kitabina daxil edilmiş və onun Lonqfellodan tərcümə edildiyi haqqında bilgi verilmişdir: “Rövşənbəy-Koroğlunun atlanışı. Bu şeir məşhur Azərbaycan xalq dastanı “Koroğlunun ingiliscə mətnindən (Lonqfellodan) tərcümədir. Cabbarlının xalq ədəbiyyatı üslubunda tərcümə etdiyi bu şeir 1928-ci ildə “İnqilab və mədəniyyət jurnalının 6-7-ci nömrəsində çap olunmuşdur (12, s. 322).

Yeri gəlmişkən bir məsələyə aydınlıq gətirməyi lazım bilirəm. Tez-tez “Koroğlunun Paris nüsxəsindən danışılır və bu ifadə oxuculara aydın olmur. A. Xodzko “Koroğlunu Cənubi Azərbaycandan Parisə aparmışdır. Həmin “Koroğlu hazırda Paris Milli Kitabxanasında saxlandığına görə “Paris nüsxəsi adlanır. Beləliklə, hələ 19-cu əsrin ilk yarısında İngiltərədə, Almaniyada, Fransada, Polşada və Amerikada “Koroğlu eposu haqqında geniş bilgilər olmuşdur.

“Koroğlu eposunu Almaniyaya ikinci dəfə alman yazıçısı, səyyahı baron Avqust fon Haksthauzen gətirmişdir. O, 1843-cü ildə Qafqaza gəlmiş, Tiflisdə və Azərbaycanda olmuş, xalqımızın dili, mədəniyyəti, etnoqrafiyası, folkloru ilə yaxından maraqlanmışdır. O, Azərbaycan türkcəsi haqqında demişdir ki, bu dil şeir dilidir. Onun Asiyadakı işləkliyini Fransız dilinin Avropadakı işləkliyi ilə eyniləşdirmişdir (13, s.136). A.F.Haksthauzen Qafqazdan qayıdarkən “Koroğlu dastanının ayrı-ayrı qollarından götürülmüş parçaları və “Əsli və Kərəm dastanını özüylə Almaniyaya aparmışdır. Onun Almaniyada çap etdirdiyi “Koroğlu parçalarının da yurd (rəvayət) hissəsi almanca, şeirləri isə türkcədir. “Əsli və Kərəm dastanını X.Abovyan alman dilinə tərcümə etmişdir (14, s. 16) və Haksthauzen də səhv salaraq onu Almaniyada erməni dastanı kimi nəşr etdirmişdir. Sözsüz ki, bütün bu yanlışlıqlarda X.Abovyanın “xidməti olmuşdur.

Haksthauzen “Koroğlu dastanının ana xəttini təşkil edən və aşıqların ayrı-ayrı qollar şəklində danışdıqları Alı kişinin gözlərinin çıxarılması, Koroğlunun dağlara çəkilməsi və dəliləri başına yığaraq onlara sərkərdəlik etməsi, Qıratın oğurlanması və nəhayət, Koroğlunun ölümü (Azərbaycan aşıqlarının repertuarında Koroğlu-nun ölümü yoxdur-İ. S.) haqqında rəvayətləri birləşdirib müstəqil dastan halına salmışdır. Qara Namazov Haksthauzenin Almaniyada nəşr etdirdiyi “Koroğlu dastanı haqqında yazır: “...Haksthauzen dastanda keçəl



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həmzənin milliyyətcə erməni olduğunu göstərir. Əlbəttə, heç bir tarixi mənbəyə əsaslanmayan müəllif onu da unutmuşdur ki, erməni əlifbasında "ə səsi olmadığı kimi, "Həmzə adı da ola bilməz (15, s. 227).

S. S. Penn "Koroğlu "nu ingilis dilindən rus dilinə tərcümə etmişdir. Bu tərcümə 1856-cı ildə "Kavkaz qəzetinin 21, 24, 26, 27, 30, 34, 36, 37-42-ci saylarında çap olunmuşdur. S. S. Penn bu tərcüməyə geniş ön söz yazmış, burada Koroğlunun türklərin təkə tayfasından olduğunu və dastanın Azərbaycanda yaranıb, buradan yayıldığını vurğulamışdır. Bu nəşr də sözsüz ki, nöqsanlardan və təhriflərdən xali deyildir. M. H. Təhmasib bu barədə də tutarlı fikirlər söylədiyinə görə, onları təkrarlamaq istəmirəm.

A. Xodzkodan, S. S. Penn və A.F.Haksthauzendən sonra nə Avropada, nə də Azərbaycanda və Rusiyada "Koroğlu eposunun toplanması və nəşri ilə geniş şəkildə məşğul olunmamışdır, yalnız "Tiflisskiye vedomosti , "Kavkaz, "Biblioteka dlya çteniya, "SMOMPK, "Zakavkazskaya reç, "Zakavkazskiy vestnik, "Kaspiy və başqa qəzetlərdə, dərgilərdə və məcmuələrdə dastan haqqında müxtəlif səpgili məqalələr, habelə ondan parçalar verilmişdir.

"Kavkaz qəzeti nəşrə başladığı 1846-cı ildən etibarən "Koroğlu eposundan parçalar və onun haqqında müxtəlif səpgili yazılar çap etmişdir. 1847-ci ildə "Kavkaz qəzetində işıq üzü görmüş "Koroğludan bir parçanı X. Calalov toplayıb tərcümə etmişdir (16, s. 47).

Əslində X. Calalovun topladığı "Koroğıu da öz əslindən çox uzaqlaşdırılmış, naşirin və "onun məsləhətçilərinin arzularına uyğunlaşdırılmışdır. Naşir Koroğlunu quldur və dəstəsini də soyğunçu kimi qələmə vermişdir. "Bu quldurlar dəstəsinə heç kəs müqavimət göstərə bilmirdi. Onların quldur yuvasının yanından ötən karvanları soyub, ətraf kəndləri talayır və əhalisini incidirdilər (16, s. 48).

3. Eposun Azərbaycan nəşrləri haqqında. "Koroğlu eposu Azərbaycanda ilk dəfə 1913-cü ildə Bakıda "Orucov qardaşları mətbəəsində çap olunmuşdur. Bu kitab folklorçularımızdan çoxunun diqqətindən yayınmışdır. Tanınmış koroğluşünas alimlərimizin əsərlərində son illərə kimi bi kitab haqqında danışılmamışdır. Halbuki bu kitab haqqında həm V. Xuluflunun "Koroğlusunda, həm də "Azərbaycan kitabında məlumat vardır: "Zaki Rza. Koroğlu. Aşiqi bir hekayədir.Nəşriyyati-bəradəran Orucov. Bakı,Orucov qardaşlarının elektrik mətbəəsi, 1913. 55 səh. 21x14 sm. 25 q (17, s.121). Gənc tədqiqatçı E. Tofiq qızı son vaxtlar həmin kitabı ərəb əlifbasından latın qrafikalı Azərbaycan əlifbasına transliterasiya etmişdir. Kitab onun ön sözüylə 2000-ci ildə "Elm nəşriyyatında işıq üzü görmüşdür. E. Tofiq qızı kitaba yazdığı ön sözündə deyir: "Dastanın dili müasir Azərbaycan türkcəsi ilə fərqlilik təşkil edir. Belə ki, söz sonluqlarının Türkiyə türkcəsinə məxsus əlamətlərlə bitməsi (istiyor, diyor, gəziniyor, vurmayalım, olalım, gələlim və s.), arxaik sözlərin mövcudluğu (gögmən, tovpuz, bazubənd, qəm, çul, bəzirgan və s. ), bundan əlavə mənası anlaşılmaz və ərəb-fars mənşəli sözlərdən ibarət ifadələrdən ( əğfal etmək, faş etmək, məzib etmək, pədər, səna, şürşə və s. ) istifadə edilməsi dastanın ilk oxunuşdan başa düşülməsini çətinləşdirir. (18, s. 5 ). Ön sözün müəllifi dastanın dilinin bu cür çətinliyini və ağırlığını R. Zakinin Türkiyədə təhsil alması ilə bağlamışdır: "Bəlkə də R. Zaki bu mətni Türkiyədə təhsil aldığı və yaşadığı zaman orada hazırlamış, sonra Bakıda nəşr etdirmişdir " (18, s. 4 ).

Əvvəla, dastandakı toppuz, bazubənd, çul, bəzirgan kimi arxaik sözlər onun başa düşül-məsini qətiyyən çətinləşdirmir. İkincisi, E.Tofiq qızı belə güman edir ki, R. Zaki bu mətni Türkiyədə oxuduğu və yaşadığı illərdə toplamış, lakin çox-çox sonralar Bakıda nəşr etdirmişdir. Görünür, E. Tofiq qızı V. Xuluflunun 1929-cu ildə "Azərnəşrdə çap etdirdiyi "Koroğlunı görməyib. Onda gəlin görək Vəli Xuluflu bu kitab haqqında nə yazmışdır: "Koroğlu haqqında bir çox əzbər materiallar və nağıllar olduğu kimi, bir neçə də çap edilmiş əsər vardır. Azərbaycanda buraxılan əsər Orucovlar tərəfindən çap edilmişdir. Bu əsər Azərbaycan aşıqlarından götürülməyib, tamamilə İstanbulda çap olunan kitabçanın kopyasıdır. Lakin Türkiyə çapında qəliz və Azərbaycanda anlaşılmayan bir neçə kəlmə Azərbaycanlaşdırılmışdır (məsələn: sayı "sözü mehtər edilmiş ) və Azərbaycan düşüncəsi və adəti ilə uymadığı üçün bəndlərdən bir neçə beyt atılmışdır (19, s. 9-10 ). V. Xuluflunun bu məlumatı o qədər dürüstdür ki, hətta onun kitabın nəşrində iştirak etdiyinə də şübhə yeri qalmır.

E. Tofiq qızı V. Xuluflunun "Koroğlu kitabını görmədiyinə və ikinci nəşrə yazılmış ön sözü oxumadığına görə 1913-cü ildə "Orucov qardaşları mətbəəsində çap edilmiş "Koroğlu kitabının dilinin ağır və anlaşılmaz olduğunun səbəbini bilməmişdir. O bu kitabın İstambuldan gəldiyini və xırda redaktədən sonra Bakıda nəşr olunduğunu bilsəydi onda dastanın dili haqqında daha doğru fikir soyləyərdi.

Azərbaycanda "Koroğlu eposunun çox geniş yayılmasına, dillər əzbəri olmasına, xalq tərəfindən sevilə-sevilə yaddaşlardan-yaddaşlara köçürülə-köçürülə yaşamasına baxmayaraq onun toplanması və nəşri ilə uzun illər boyu heç kəs məşğul olmamışdır. "Dünya eposunun şah əsəri olan "Koroğlu dastanının Azərbaycanda ilk toplayıcısı və naşiri hələlik Vəli Xuluflu sayılır (20). V. Xuluflu Tovuz rayonunun Bozalqanlı kəndində yaşamış qüdrətli saz-soz üstadı Aşıq Hüseyn Bozalqanlının ifasından yazıya aldığı "Toqat səfəri və " Bağdad səfəri qollarını 1927-ci ildə "Azərnəşrdə ayrıca kitab halında ərəb əlifbası ilə nəşr etdirmişdir. Bu kitab Azərbaycan aşıqlarından toplanmış və Azərbaycanda çap



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olunmuş ilk “Koroğlu idi. V. Xuluflu bu nəşrə geniş bir ön söz yazmış, özünə qədər “Koroğlu eposunun toplanması və nəşri haqqında ətraflı bilgi vermişdir. Bunlardan başqa, kitaba “Nigar xanımın gətirilməsi, “Dəmirçioğlunun dəlilər cərgəsinə girməsi , “Koroğlunun taciri qaçanda, “Cünul aşıq, “ Cünul aşıq və Telli xanım başlıqlı yığcam materiallar, Aşıq Hüseyn Bozalqanlının tərcümeyi-halı və “Alverçilər, “Kəsdi nədir, “Var imiş və “Geri dur şeirləri daxil edilmişdir. V. Xuluflunun özü də yuxarıdakı yazıların müstəqil qol olmadığını qeyd etmişdir. Sonralar onların hər biri müstəqil qol kimi ayrı-ayrı aşıqlardan toplanıb nəşr edilmişdir. V. Xuluflu isə dolaşıq düşməsin deyə qolları rum rəqəmləri ilə sıralamışdır. I qol-Toqat səfəri; II qol-Bağdad səfəri. 1927-ci il nəşrində üçüncü qol yoxdur.

V. Xuluflu bundan sonra da “Koroğlu eposunun toplanması və nəşri işini dayandırmamış, Tovuzlu Aşıq Əsəddən “Dəli Koroğlu və Bolu bəy və “Koroğlunun Dərbənd səfəri qollarını yazıya alıb 1929-cu ildə yenə “Azərnəşrdə çap etdirmişdir. O bu kitaba “ İkinci çapa qeyd adlı bir ön söz yazmışdır. İkinci kitabda artıq dörd qol çap edilmişdir. Qollar yenə də rum rəqəmləri ilə sıralanmışdır : I qol-Toqat səfəri; II qol-Bağdad səfəri; IIIqol- Dəli Koroğlu və Bolu bəy; IV qol- Koroğlunun Dərbənd səfəri. V. Xuluflu bununla kitabdakı materiallardan hansıların müstəqil qol olduğunu, hansıların müstəqil qol olmadığını ayırmaq istəmişdir ki, oxucular çaş-baş düşməsinlər. İkinci kitaba bu dörd qoldan başqa birinci kitabdakı bütün materiallar, həmçinin “Rüstəm Zal və Koroğlu adlı bir rəvayət, Axısxa türklərindən olan Aşıq Məhəmməd Yusifzadə Kosayevdən toplanmış “Gürcüstan türklərindən Koroğlu başlıqlı bir yazı, Aşıq Məhəmmədin “Toy şeiri, “Qafqaz yerlərini və əhalisini təsvir etmək üçün materiallar yığamatından götürülmüş kiçik bir parça, Şəmkirli Aşıq Çobanın əlyazmaları arasından və Azərbaycanı öyrənən cəmiyyətdə toplanan el ədəbiyyatından götürülmüş iki şeir, Aşıq Əsədin tərcümeyi-halı, onun “ 1 may, “ Göyçə mahalı, “Tellərin şeirləri daxil edilmişdir.

Mən yuxarıda V. Xuluflunun “Koroğlunun 1927 və 1929-cu il nəşrlərinin hər ikisində müstəqil qolları rum rəqəmləri ilə sıraladığını təsadüfən xatırlatmadım. Bu cür aydın olan həmin nəşrlərdən danışan bir sıra araşdırıcılarımızın yazılarında dolaşıq, həqiqətə uyğun olmayan fikirlərə rast gəlinməsi ancaq təəssüf doğurur. E. Tofiq qızı A. Rəcəblinin 1937-ci ildə “Ədəbiyyat qəzeti “nin bir neçə sayında dərc etdirdiyi “Koroğlu dastanının 1999-cu ildəki təkrar nəşrinə yazdığı “İlk nəşrlərdən biri başlıqlı ön sözündə məhz gözlənilməyən bir dolaşıqlığa, yanlışlığa yol vermişdir. O yazır: “Belə ki, 1920-ci ildə Vəli Xuluflu tərəfindən ilk dəfə dastanlarımızın nəşri tarixində elmi şəkildə “Koroğlu dastanının iki qolu, 1929-cu ildə isə yenə də həmin müəllif tərəfindən dastanın on qolu (1999-cu ildə professor A.Nəbiyev bu kitabı yenidən nəşr etdirmişdir) toplanıb yenidən nəşr olunur. 1937-ci ildə H.Əlizadə tərəfindən nəşr olunan on dörd qoldan ibarət “Koroğlu dastanı folklorşunaslıq tariximiz üçün mühüm bir hadisə idi (21, s. 4 ).

1930'lu yıllarda özellikle Sosyalizm, Lenin, Komünist Parti, Ekim İhtilâli, Kadın Özgürlüğü gibi konular önem ve öncelik verilir. "Sovyet devri" halk yaratıcılığının ilk örnekleri olarak kabul edilen bu

---

[167] Bak. A. Tokombayeva, Kırgız El Irları, Frunze 1978.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

konulardaki metinler yayımlanır. 1935 yılında yayımlanan "Özbek Sovyet Folkloridan Numunalar" bu dönemin önde gelen ilk eserlerinden biri olarak sayılmaktadır. Sovyet döneminde yaratılan folklor eserleri sistemleştirilir, bölümlere ayrılır. Bunların gelişmesi ve yaygınlaşması için eleştiriler yapılır.

II. Dünya Savaşı arefesinde ve savaş boyunca özellikle destan konularına önem ve öncelik verilir. Destanların kahramanlık, yiğitlik, dostluk, erdemlilik gibi temalarından yararlanılması esas alınır. Özbekistan yazarlar Birliği'nin 1939 yılında yapmış olduğu II. Kurultay'da folklor meselelerine ilk sıralarda yer vermesi folklora ilgiyi artırır. Esasen burada amaç, halkın vatan duygularından, kahramanlık hislerinden yararlanmaktır. Öteden beri destanların yayılması ve söylenmesine yasak getiren Komünist Partisi, bu kez destanın fonksiyonundan yararlanmak amacıyla bu yöndeki faaliyetleri destekler, hatta bunlara öncülük eder.

1960-1970 yıllarında Özbek folklorunun bilimsel çerçevede ele alınması çalışmalarına hız verilir, araştırma ve incelemelere yeni bir çehre kazandırılır.

1970'li yıllardan itibaren sözlü gelenekte yaşayan anonim ürünlerin derlenmesi yanında folklorun diğer bilim dalları ile ilişkileri de ele alınmış, folklorun sosyoloji, tarih, felsefe ve eğitim ile yakın bağı üzerinde durulmuştur. Bu alanda; Z Mirtursunov, A.Akbarov, S.Alimov, E.E.Romanskaya Ğ.Calalov'un, M.Afzalov, M.Kadirov, S.Mamacanov, G.Mominov, M.Hakimov, H.Mallaev, V.Abdullaev, R.Macidov'un ,Ğ.Cahangirov,.T. Mirzayev, C. İşankul, T.Turdiyev, Y.Caraev gibi araştırmacılar adları zikredilmeye değer şahıslardır.168

Türkmen folkloru konusunda ilk araştırma ve bilimsel çalışmalar Rus folklorcularca gerçekleştirilmiştir. Rus bilim adamı Samoyloviç'in Türkmen folkloru hakkındaki çalışmaları, ilk çalışma olarak kabul edilmektedir.

N.N.Muravyov'un Türkmenistan ve Hıva'ya Sıyahat (1822), K.Boden'in Yomut ve Göklen Türkmenleri Hakda (1849), Türkmenlerin Eri ve Kaspi Denizinin Günorta -Gondoğar Kenarları Hakda Oçerkler (Türkmenlerin Yeri ve Hazar Denizi'nin Güney ve Doğu Kenarları Hakkında Örnekler, (1856) adlı eserlerinde Türkmenlerin yaşayış tarzı, gelenekleri, maddi ve manevi kültürü, tarihi ele alınmıştır. M.Galki'nin Orta Aziya ve Orenburg Ülkesi Boyunca Etnografik ve Tarihi Materyaller (1868), N.Petrusevicin Amuderyanın Köne Ugrunın ve Persiyanın Demirgazık Rayonlarının Arasındaki Türkmenler (1880) adlı eserlerinde Türkmen boylarına ve bu boyların özelliklerine dair bilgiler bulunmaktadır.

1862 yılında Rus araştırmacısı İ.N. Berezin Mahtumkulu'nun şiirlerini yayımlar. Vamberi de Mahtumkulu'nun şiirlerini 1879 yılında yayınlar. 1888 yılında N.P.Ostrounov, Türkmen atasözlerini derler. Balyaev, Kızılarbat'ta, Hocalı Mıratberdi ile birlikte Türkmen edebiyatı ve folkloru konusunda değerli materyaller toplar. 'Tekelerin Uruş Kıssa Kitabı (1906)". "Türkmen Şahın Kermolla ve Onun Ruslar Hakkındaki Eseri (1907)". "Magtımgulı'nm Eserlerine Görkezgiç (1910), "Gorkut Ata ve Göroğlı Barada Legenda (1910)", "Magtımgulının Kaakası, Dövlet Memmet Molla'nın Goşguları (1914)" adlı çalışmalar bu dönemin başlangıç eserleridir.

1917 ihtilalinden sonra folklor ürünlerinin derlenmesi ve araştırılması çalışmalarına hız verildi. II. Dünya savaşı yıllarında savaşla ilgili pek çok halk kültürü değeri yaratıldı. Bunlar toplanarak yayımlandı. Bu savaştan sonra toplanan Komünist Partisi Merkez Komitesi, edebiyat, sanat vb. alanda yapılacak çalışma, araştırmaa ve yayınların ideolojik boyutlu olması ve parti ideolojisini yansıtması gerektiği kararını verdi. Bu karar sert bir şekilde uygulandı.

ive

1917 Ekim İhtilâlini takip eden yıllarda Komünist Partisi, siyaseti gereği

diğer Türk topluluklarında olduğu gibi Türkmenistan'da da feodal devrin yansıması, Komünist ilkelere uymaması ve burjuva hayat tarzına özendirdiği gerekçesiyle bazı destanları yasakladı. Halkın destan kahramanlarına duyduğu sevgi ve inancın, burada dile getirilen düşünce ve görüşlerin milli duygulan canlı tutacağına ve sonunda isyana dönüşebileceğinden hareket edildi. Bu konuda bilimsel çalışma yapan bilim adamları cezalandırıldı.

Türkmenistan'da, folklorun desteklenmesi, komünist Partisinin ideolojisini yansıtmak, kitleleri etkileme ve yönlendirme politikasının gereği olarak görüldü.

---

[168] Ali Abbas ÇINAR, "Özbekistan'da Folklor Faaliyetleri". ***Millî Folklor,*** Sayı:25, Kış 1994, s.10-19 yazı kısaltılarak alınmıştır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1941 yılında SSCB Bilimler Akademisi'nin Türkmenistan Bölümü'nün açılması ile Türkmen folklorunu derleme ve araştırma konusu önemli bir aşamaya girdi, bu dönemde yetişen genç bilginler A.Ahundov-Gürgenli, N.Hocaev, M.Köseev, B.Garnev, N.Aşırav ve H.Hanov tarafından folklor mahsulleri ilmî bakış açısıyla yayımlandı.

Türkmen sahası folklor mahsullerinin derlenmesi, araştırılması ve yayınlanması çalışmalarına; 1930'lu yıllara kadar M.S. Ağabekov, Hocalı Mıratberdioğlı, M. Geldiev, Ş. Gurbanov gibi araştırmacılar katılmış, katkıda bulunmuşlardır. Daha sonra ise G.Ahundov, RAhev, B.Kerbabaev, H.Çanev, A.Kekilov, Ş.Batırov, R.Seyidov gibi bilim adamı ve uzmanlar bu konuda bilimsel çalışmalar yapmışlardır.

Türkmen folkloru son zamanlarda Türkmenlerin kendi aralarından çıkardığı değerli bilim adamlarınca araştırılmakta, Devlet Üniversitesi'nde folklor konuları da ele alınmaktadır. Türkmenistan Bilimler Akademisi; Mahtumkulu Adındaki Dil ve Edebiyat Enstitüsü içinde yer alan "Folklor Bölümü"nde folklorla ilgili çalışmalar yapılmaktadır. Türkmen, folkloru konusunda araştırma ve derleme çalışmaları yürüten Enstitü, Akademi'nin kurulduğu yıl olan 1951'den bu yana folklor konusu üzerinde titizlikle durmuştur. Bu çerçevede; özellikle Türkmen klasik şairleri olarak bilinen ve âşık şiirinin Türkmen halk edebiyatının en önde yer alan temsilcileri sayabileceğimiz Mahtumkulu, Zelili, Kemine, Meteci, Mollanepes, Seyitnazar, Seydi gibi şairler hakkında önemli derlemeler yapılmış, bilimsel eserlerin yayınlanması gerçekleştirilmiştir.

Türkmenistan sahasında, özellikle bağımsızlıktan sonra, folklor ürünleri millî hayat tarzının bir ifadesi olmak bakımından önemli sayılmaktadır.169

Altay folkonıyla ilgili ilk çalışmaları etnolog Nikolay İvanoviç Ananin yapmıştır. Onun derlediği malzemelerin Rusça'ya tercümesini modern Altay edebiyatının da ilk temsilcisi olan Mihail Vasilyeviç Çevalkov yapmıştır. Ananin'den sonra en önemli çalışmaları yapan isim ünlü türkolog W. RadlofF olmuştur. İlk kez 1860 yılında Altay'a gelen Radlof derlediği malzemeleri 1866 yılında "Obraztsı Narodnoy Literaturı Tyurskıh Plemen Yujnoy Sibiri ,San Petersburg, 1866" adlı eserinin birinci cildinde değerlendirmiştir.

Daha sonra sözlü Altay edebiyatı ve grameriyle ilgili en önemli çalışmaları Vasili İvanoviç Verbitsky yapmıştır. Kendisi bir misyoner olan Verbitskiy 1853 yılında geldiği Altay'da 1890 yılına kadar otuz yedi yıl kalmıştır. O bir taraftan misyonerlikle ilgili görevlerini yerine getirirken diğer taraftan da Altay dili ve folkloruyla ilgilenmiş, Altay Türkçesini çok iyi öğrenmiştir. İlk Altay gramerim de yazan odur. (Grammatika Altayskogo Yazıka, Kazan, 1869) Bunun yanında Altay ağızlarının sözlüğünü "Slovar Altayskogo i Aladagskogo Nareçiy" adıyla Altayca-Rusça olarak hazırlamıştır. Eser Kazan'da 1884 yılında yayımlanmıştır, Verbitskiy Altay folkloruyla ilgili olarak Çevalkov'la ortak çalışmalar yapmış, çeşitli folklor ürünleri derlemiş, iki de makale yazmıştır. Onun bu çalışmaları ölümünden sonra kendi adına 1893 yılında Moskova'da "Altayskie İnorodtsı" adıyla yayımlanmıştır.

Potanın "Oçerki Severo-Zapadnoy Mongolii, San Petersburg, 1883" adlı eserinde Altay boyları, inanç ve gelenekleriyle birlikte 'Karatı-Kaan' ve 'Altay-Buuçay' gibi destanlara da yer vermiştir. Ayrıca Potanin 1916 yılında Omsk'da yayımladığı "Annosskiy Sbornik" adlı eserinde bazı destancılardan derlediği destan ve masal metinlerine yer vermiştir.

Altay folkloruyla ilgili yukarıda anlatılan kapsamlı çalışmalardan sonra A. Kalaçev, V. Hvorov, etnograf ve müzikolog A.V. Anohin, Altay Türklerinin ilk ressamı G.İ. Gurkin gibi araştırmacılar derleme ve yayımlama çalışmalarını devam ettirmişlerdir. A.L. Koptelov ise ünlü destan anlatıcısı N.U. Ulagaşev'den derlediği destanları "Altay-Buuçay" adıyla 1941 yılında Novosibirsk'de yayımlamıştır. 1930'lu yılların sonundan itibaren P.V. Kuçiyak'ın bilhassa destancı N.U. Ulagaşev'den derlemeler yapması, Altay'da 1947 yılında pedagoji enstitüsünün kurulması, 1952 yılında tarih, dil ve edebiyat enstitüsünün açılması, bu derleme faaliyetlerini devletin desteklemesi folklor çalışmaları için ivme olmuştur. Folklor malzemelerini içeren eserler bilhassa masal ve destan kitapları peş peşe neşredilmeye başlanmıştır. Ulagaşev'den sonra yetişen en önemli destan anlatıcılarından A. Kalkin'den önemli destanlar derlenmiştir. Tarih, dil ve edebiyat enstitüsünün başkanı olan folklorist S.S. Surazakov önderliğinde Altay

---

[169] Ali Abbas ÇINAR, "Türkmenistan'da Folklor Faaliyetleri, Türk Dünyası Halk Kültürü Üzerine Araştırma ve İncelemeler, Muğla 1996, s.35-48'den kısaltılarak alınmıştır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

destanları "Altay Baatırlar" adıyla 1958'de neşredilmeye başlanmıştır. Bu ilk ciltte Radlof un derlediği destanlara yer verilmiştir. Bugüne kadar bu destan serisindeki cilt sayısı on ikiye ulaşmıştır.

Tarih, dil ve folklor enstitüsü çalışanları bir taraftan derleme çalışmalarını yürütüp zengin bir arşiv oluştururken diğer taraftan da türlerin hemen hepsiyle ilgili yayımlar yapmışlardır. Altay folkloruyla ilgili çalışmalar başlangıçta destan ve masal türleri üzerinde metin neşri çalışmaları olarak yoğunlaşmışsa da sonraki yollarda teorik çalışmalar da yapılmıştır. Bilhassa S.S. Surazakov "Altay Folklor, Gorno Altaysk, 1975" adlı eserinde Altay folkloruyla ilgili çalışmalar türler hakkında bilgiler, bunlarla ilgili teorik değerlendirmeler ve ilgili kaynakları konu sonunda vermek suretiyle sistemli ve kapsamlı bir çalışma yapmıştır. Surazakov "Altay Albatının Çümdü Söstöri, Gorno-Altaysk, 1961" adlı çalışmasında atasözleri, bilmeceler, türküler, eski oyunlar ve efsanelerini, "Altay Kep söstör lö Ukaa söstör, Gorno-Altaysk, 1956" adlı eserinde ise 267 atasözünü yayımlamıştır. 1981 yılında K.E. Ukaçina "Altay Tabışkaktar" adıyla 753 Altay bilmecesini karşılıklı Altayca-Rusça olarak neşretmiştir. Eserde Altay boylarına ait 93 bilmece de ek olarak verilmiştir. Bunun dışında "Altayskiy Folklor" adıyla (Kandarakovoy, 1988) Çalkandulara ait destan, masal, efsane, alkış ve inançlar Altayca ve Rusça olarak karşılıklı yayımlanmıştır. Teleütlere ait folklor malzemeleri ise "Altay Folklor" (Maksimoviç, 1995) adıyla yayımlanmıştır. Eserde destanlar, inanç ve gelenekler, sarınlar, sıgıtlar ve masal metinleriyle, açıklamalar bölümü ve sözlük yer almaktadır. Bunlara ek olarak Ak Çiçek yayınevi Altay foklor türlerini bir dizi halinde yayımlamayı düşünmüş ilk olarak "Atay Alkıştar" (Ukaçina, Yayımeva, 1993), ikinci kitap olarak da efsaneleri "Altay-Kep-Kuuçmdar" (Yamayeva, Şincin, 1994) adıyla neşredilmiştir. "Altay Can" (Muytuyeva, Çoçkina, 1996) adlı kitapta ise Altay inançları yayımlanmıştır.

Altay Türkleri folkloruyla ilgili Türkiye’de yapılan çalışmalar, ancak 1990 yıllından sonra mümkün olmuştur. Bunlar; İbrahim Dilek. Tarafından hazırlanan Altay Destanları I-II-III, Altay Masalları, Emine Gürsoy Naskali ve Selahaddin Beki tarafından hazırlanan Maaday-Kara destanı olarak sayılabilir.

Saha Türkleri arasında yapılan folklor çalışmaları, XIX. yüzyılın başına kadar uzanır.. A. Middendorf Yakutistan'da, Sahaların folklor ve halk edebiyatını, dilini, tarihini ayrıntılarıyla derlemiş, araştırmalar yapmıştır. Topladığı metinleri Sibiryanm Kuzey ve Doğu Taraflarına Seyahat (Puteşestviye Na Sever i Vostok Sibiri) adlı kitapta yayınlamıştır.

Saha halk edebiyatı araştırmalarında büyük yeri olan ilk folklorcu, Sahaca yazılan ilk edebi eserin sahibi A.Y. Uvaroskiy'dir. Bu araştırmacı, Er So-gotoh Hakkında Olonho Destanı ile Bilmeceler1 adlı derleme çalışmasını 1848'de yayımlamıştır. Bu metinler, Almanca'ya çevrilip 1851 yılında. O.N. Bötlingk'in Sahaların Dili Hakkında adlı fundamentel çalışmasına ek olarak konulmuş, bastırılmıştır.

1870-1880 yıllarında Yakutistan'a sürgüne gönderilen Rus aydınları burada Sahalar hakkında geniş araştırmalar yapmışlardır.1890 yılında ünlü .folklorcu İ.A. Hudyakov Verhoyansk Derlemeleri (Ver-hoyanskiy Sbornik}2 adlı geniş kitabında; Sahaların zengin halk edebiyatı ve folkloru hakkında ayrıntılı bilgiler verilmiş, derleme, metinleri yayımlanmıştır.

Hudyakov, Yakutistan'da sürgünde 1867'den 1875'e kadar kalmıştır. Hudyakov'un derlediği metinler Rusça'ya çevrilerek yayımlanmıştır.

1896 yılında yayımlanan V.L. Seroşevskiy'in Sahalar (Yakuti) adlı mografik kitabında saha folkloruna geniş yer verilmiştir.

E.K. Pekarskiy'dir. 1907 - 1918 yıllarında yayımlanan Saha Halk Edebiyatmm Örnekleri (Obraztsı Narodnoy Literaturı, Yakutov), adlı kitabında geniş örnekler vermiştir. 1907-1930 yıllarında basılan Yakut Dili Sözlüğü (Slovar Yakutskogol zika) adlı kitabında ise Yakut halk edebiyatı ve folkloru hakkında da ayrıntılı bilgiler vardır.

1917 Ekim İhtilal'inden sonra Sahalar hakkında yeni çalışmalar başlar. 1922 yılında 'Yakutistan Özerk Cumhuriyeti" kurulur. 1927 yılında P.A. Oyunskiy'in "Saha Olon Destanı: Konusu ve içeriği" başlıklı bilimsel makalesi yayımlanır.

Okuma oranının yükselmesiyle 1920 - 1930 yıllarında Sahala folklor ve etnograyası yine Saha olan araştırmacılar tarafından çalışılır. Bunlar; A.E. Kulakovskiy, G.V. Ksenofontov, S.A. Novgorodov, A.A. Popov, S.İ. Bolo'dur. 1935 yılında Yakutsk'ta Dil ve Kültür Bilimsel Araştırma Enstitüsü kurulur. Ve burada folklor mahsulleri derlenerir.

1938'de D.M. Govorov adlı Olonho destancısının ağzından yazılan "Mülcü Böğö" adlı destan yayımlanır. 1942 yılında Saha Halkının Yaratıcılığı adlı bir antoloji hazırlanır. 1947 yılında Nyurgun Bootur adlı büyük destan yayımlanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yakut Otonom Sovyet Sosyalist Cumhuriyeti'nin tarihinin 1. cildinde folklorla ilgili iki bölüm vardır. Akademik Prof. Dr. A.P. Okladnikov'un hazırladığı çalışmanın 1. bölümü Olonho destanının Sibirya'da yaşayan başka milletlerin destanları ile karşılaştırılması, 2. bölümü ise Sahaların menşei hakkında efsane ve hikâyelerden oluşur.

1962 yılında Î.V. Puhov'un Sahaların Kahramanlık Olonho Destanı (Ya-kutskiy Geroiçeskiy Epos Olonho) adlı çalışması basılır.

Günümüzde, Saha fokloru konusundaki çalışmalara daha çok önem verilmektedir, araştırma ve yayınlar yapılmaktadır. Bu çalışmalarda; eski dönemde sisteme aykırı olduğu öne sürülerek yasaklanan şaman duaları, destan ve efsanelere öncelik verilmektedir. 1920 ve 1930rlu yıllarda yasaklanan bazı anlatmaların yayımlanması çalışmaları sürdürülmektedir. Başkent Yakuts'ta Bilimler Akademisi'ne bağlı olarak çalışmalarını sürdüren Dil ve Edebiyat Enstitüsünde bu konuda araştırma ve derlemeler yapılmaktadır.

Saha (Yakut) Cumhuriyetinde Sovyetler Birliği'nin yıkılmasından sonra yapılan folklor çalışmaları içerisinde en önemli yeri işgal eden iki çalışma dikkat çekmektedir. Bunlar; Saxa Booturdara (Saha Kahramanları): Bu çalışma arşivde bulunan ve daha önce hiç yayınlanmamış olan olonholarn yayınlanmasıdır. 1998 yılında başlayan projeden şu ana kadar 6 cilt eser yayınlanmıştır. Diğer çalışma ise Saxa Tılın Bıhaarılaax Tılcıta (Sahacanın İzahlı Sözlüğü): Bu çalışma bir sözlük çalışmasıdır. Kelimelerin folklorik anlamlan da açıklanıp örneklendir! S mistir, ilk ciîdi 2004 yılında çıkan sözlüğün tamamının 13 cilt olması beklenmekledir. Şu ana kadar iki cilt çıkmıştır.

Saha Türklerinin folkloruyla ilgili olmak üzere Türkiye'de Fatih Kirişçioğlu ve Yuri Vasiliyev'in aldır zikredilmeye değer.

Burada şunu özellikle belirtmekte fayda var. Azerbaycan, Kazakistan, Kırgızistan, Özbekistan ve Türkmenistan sahasıyla ilgili Türkiye'de yapılan çalışmalar ve bu çalışmaları yapan araştırmacı ve bilim adamları konusu ayrı bir çalışma konusu oylduğundan burada adlarını saymadık.

Türk dünyasında yapılan çalışmalar, belki dünyanın en zengin arşivinin oluşmasını sağlamıştır. Türk milletinin yayıldığı geniş coğrafî alan ve bu coğrafî alandaki binlerce yıllık hareketlilik, hem zengin bir kültür dokusu yaratmış, hem de komşu kültürlerle etkileşim içine girerek zenginleşmiştir. Kimi zaman farklı zihniyet, metot ve tekniklerle derlenmiş olsa da arşivlerde bulunan folklor ürünleri, Türk toplumumun kültürel renkliği ve zenginliğini ifade etmektedir. Bunu sebeple; şimdiye kadar yapılan çalışmalar da dikkate alınmak suretiyle devletlerarası ilişkiler kurulmak suretiyle bu çalışmalar yeniden düzenlenmeli ve yeni politikalar belirlenmelidir.

Tük dünyası folklor arşivleri, kurulacak uluslar arası bir arşivde toplanmalı, toplanan bu dokümanlar elektronik ortama aktarılmak suretiyle ilgililerin hizmetine sunulmalıdır.

Zira, 1917 ihtilalinden önce yapılan derleme çalışmaları, Sovyetler Birliği dönemindeki folklorculara zengin bir miras olarak kalmıştır. Ancak dönemin kültür politikalarından dolayı bu eserlerin birçoğu arşivlerin tozlu raflarına mahkum edilmiş ve değerlendirilememiştir.

İlgili Türk devletlerinin bilim adamları, üniversitelerin ilgili bölümleri arasındaki diyalog artırılmalı ve başta söz konusu arşivlerin daha verimli bir şekilde kullanılır hale getirilmesi olmak üzere folklor alanında çeşitli projelerin yapılması sağlanmalıdır.

Türk devletlerinin bağımsızlıklarını kazandıktan sonra bu sosyal değişmenin folklor ürünlerine etkisinin tespiti için alanda derleme ve tespit çalışmaları yapılmalıdır. Çünkü devrimin folklor ürünlerine önemli derecede etkisi olmuştur. Hatta bu etki yeni türlerin ortaya çıkmasına sebep olmuştur.

Türk topluluklarının halk bilimine ait türlerin envanteri çıkartılmalı, bu türlerin sınıflandırılması gibi problemler ele alınmalı ve tartışılmalıdır.

Sovyet döneminde yapılan derlemelerin çok az bir kısmı ancak yayınlanabilmiştir. Önemli bir kısmı arşivde saklanmaktadır. Bu malzemenin envanterinin çıkarılıp, yayımlanması desteklenebilir.

Türk dünyası folklor terimleri sözlüğü ve kılavuz kitap çalışmaları yapılmalıdır.

Sadece folklor konusunda değil, sosyal bilimler, özellikle folklorla iç içeliği bulunan edebiyat dünyası yeniden keşfedilmeli ve adlandırmalar devlet sınırlarıyla sınırlandırılmadan "Türk folkloru", "Türk Edebiyatı", " Türk Tarihi" gibi genel adlandırmalar ve genel bilgiler verilmelidir.

1993 yılından beri yapılan Türk Devletleri Kardeşlik ve İşbirliği Kurultaylarında alınan ilgili kararlar taraflarca uygulanmaya konulmalıdır.

Özellikle Türklük Bilimi Araştırma Enstitüsü veya benzer bir akademik birim teşkil olunarak, Türk folkloruyla ilgili çalışmalar bir merkezden yönlendirilmeli ve yönetilmelidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# EPİK ƏSƏRLƏRİN MUSİQİ HERMENEVTİKASI PROBLEMLƏRİNƏ DAİR

*sən.nam. Kamilə Dadaşzadə,*
*ADMİU*
*Azərbaycan*

Epik əsərlər keçmişdən gələcəyə göndərilən çox ustalıqla bicimlənmiş azman işarələr sistemidir.Onların mənasının açılmasında müasir humanitar elmlərin metodologiyasının mühüm tərkib hissəsini təşkil edən hermenevtikanın prinsiplərinin tətbiqi,zənnimizcə,faydalı ola bilərdi.

Məlum olduğu kimi,hermenevtika XX əsrdə humanitar sahədə fənlərarası təmayülləri özündə əks etdirən elmi istiqamətdir.Müasir humanitar elmlərin inkişafında önəmli ontoloji funksiyalar yerinə yetirən hermenevtikanı çox vaxt təfsir haqqında elm də adlandırırlar.Əslində hər bir tədqiqat əsəri müəyyən mənada təfsiredici funksiyalari yerinə yetirir.Lakin hermenevtika sahəsində aparılan araşdırmaların özünəməxsusluğu ondan ibarətdir ki,burada yaradıcı proses psixoloji dərketmə yolu ilə təfsir edilir,təhlil edilən mətnlər isə müəyyən tarixi dövrlərin kontekstində araşdırılır.

Hermenevtika sahəsində mövcud olan bir çox elmi nəzəriyyələr "ənənə" anlayışı üzərində qurulmuşdur.Bu istiqamətdə aparılan araşdırmalarda müəyyən ənənələrin təşəkkülü və təkamül yolu tədqiq edilir.Təbii ki,bu baxımdan hermenevtikanın bir çox elmi prinsiplərinin məhz ənənəvi xarakter daşıyan sənət növlərinin tədqiqində tətbiq edilməsi səmərəli ola bilər.Zənnimizcə,bu sahədə aparılan araşdırmalarda xüsusilə daxili təşkiletmə nəzəriyyəsinin – sinerqetikanın bəzi elmi prinsiplərinin tətbiqi məqsədəuyğun olardı.Həqiqətən də türksoy xalqlarının epik yaradıcılığının belə bir kontekstdə araşdırılması uzun təkamül yolu keçmiş bədii sistemin daxili qanunauyğunluqlarının üzə çıxarılması üçün zəmin yarada bilər.Hermenevtika sahəsində aparılan bir çox araşdırmaların əsas vəzifələrindən biri də öyrənilən bədii sistemin ilkin mərhələsinin,təşəkkül prosesinin təhlilindən ibarətdir.Ümumi hermenevtikanın yaradıcısı olan Şleyermaxerin fikrincə,tədqiqatçı "sənət" əsərinin keçmiş vəziyyətini,ilkin formasını canlandırmalı,müəyyən mənada "tarixi-bərpa" işləri həyata keçirməlidir (2).

Türk musiqi təfəkkürünün tarixi rekonstruksiyası baxımından musiqi janrları sistemində məhz epik əsərlər önəmli yer tutur.Bu mülahizəni irəli sürərkən biz başlıca olaraq iki amilə əsaslanırıq.İlk əvvəl qeyd etmək lazımdır ki,oğuznamələrin,dastanların və digər epik səciyyəli əsərlərin ifaçıları türksoy xalqlarının peşəkar statusunu almış ilk sənətçilərdir.Ustad-şagird ənənəsinə uyğun olaraq burada bilgilər toplusu nəsildən-nəslə ötürülərək əsrlər boyu qorunub saxlanılmışdır.Digər tərəfdən isə epos ümumiyyətlə öz "mühafizəkarlığı" ilə seçilən bir janrdır.Türksoy xalqlarının müəyyən mənada etik-psixoloji kodeksi sayıla bilən dastanlar həm məzmun baxımından,həm də dəqiq qəliblər,formullar üzərində qurulan struktur cəhətdən arxaika nümunəüsi ola bilər.

Qeyd etmək lazımdır ki,türk musiqi təfəkkürünün tarixi rekonstruksiyası müasir musiqişünaslığının mürəkkəb problemlərindəndir.Bu son dərəcə önəmli elmi problemin həlli zamanı,zənnimizcə,ilk növbədə öz epik havalarına malik olan dastanlara əsaslanmaq lazımdır.Belə ki,Azərbaycan aşıqlarının repertuarında özünəməxsus havacata məxsus olan iki dastan mövcuddur-"Koroğlu" və "Əsli-Kərəm".Bu dastanların ifası zamanı digər ənənəvi aşıq havalarına yer verilsə də, musiqi komponentinin əsasını həmin epik əsərlərə məxsus olan havalar toplusu təşkil edir.Yeri gəlmişkən qeyd edək ki,qocaman aşıqlardan aldığımız məlumata görə,"Koroğlu" və "Əsli-Kərəm" dastanlarında yalnız bu əsərlərə məxsus olan havalar ifa olunmalıdır.Məsələn,1984-cü ildə Tovuz rayonunda qocaman aşıq Ələkbər Əsgərovun (Xatınlı Ələkbər) ifasında yazıya aldığımız " Koroğlunun Ərzincan səfəri" qolunda aşağıdakı havalar təmsil olunmuşdur:

1.Döşəmə Koroğlu
2.Cəngi Koroğlu
3.Nəfəsçəkmə Koroğlu
4.Bozuğu Koroğlu
5.Koroğlu müxəmməsi
6.Osmanlı Koroğlu.

Səciyyəvidir ki,1988-ci ildə məşhur Borçalı aşığı Əhməd Sadaxlının ifa etdiyi "Əsli və Kərəm" dastanında yalnız "Kərəmi" havaları səslənmişdir:

1.Əhmədi Kərəmi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

2.Quba Kərəmi
3.Əsli-Kərəmi
4.Sallama Kərəmi
5.Qürbəti Kərəmi
6.Zarincı Kərəmi
7.Yanıq Kərəmi.

Sinkretik səciyyə daşıyan dastanların mürəkkəb quruluşunun eyni elmi prinsiplər(məsələn,semiotik) əsasında öyrənilməsi onların arxaik musiqi qatı haqqında da müəyyən təsəvvür yaratmağa imkan verir.Belə ki, öz dərin qatlarında mifoloji qaynaqların,qədim tarixi kəsimlərin izlərini qoruyub saxlayan "Koroğlu" dastanının araşdırılması maraqlı elmi nəticələr əldə etməyə imkan vermişdir."Koroğlu" havalarının Azərbaycan,türk,türkmən variantlarının musiqi dilinin müəyyən səviyyələrində aparılmış müqayisəli təhlili onların tarixi-genetik qohumluğunu aşkarlamışdır.Ümumiyyətlə qeyd olunmalıdır ki,türksoy xalqlarının musiqili-epik yaradıcılığının ən dərin semantik qatlarının öyrənilməsində,onun kodunun açılmasında məhz tarixi-müqayisəli təhlil aparıcı rol oynaya bilər.

Epik yaradıcılığın öyrənilməsində Şleyermaxer tərəfindən ortaya gətirilən hermenevtik dairələr anlayışının da tətbiqi faydalı ola bilər.

Birinci hermenevtik dairə anlayışı müəyyən tərkib hissələrin vahid bir sistemlə qarşılıqlı əlaqələrini bildirən məfhumdur.Eposşünaslığın tarixinə nəzər saldıqda belə qənaətə gəlmək olar ki,hermenevtikanın bu məfhumu "variant və invariant","mətn və onun tərkib hissələri" və d. anlayışlarda öz əksini tapmışdır.

Bu da təbii bir haldır.Semiotik nöqteyi-nəzərdən dastanın çoxsaylı ifaçılıq variantları vahid bir invariantın ifadəsidir.Həqiqətən də epik reallıqda dastan yalnız müxtəlif ifaçılar tərəfindən təfsir edilən və daim inkişafda olan bir mətn kimi realizə edilir.Zənnimizcə,dastan kimi mürəkkəb bədii sistemin quruluşunu və məzmununu dərindən dərk etmək üçün onu daim reqenerasiya vəziyyətində olan, yenilənən mətn kimi təfsir etmək lazımdır.Ümumiyyətlə qeyd etmək lazımdır ki,"mətn" anlayışı hermenevtikada müxtəlif aspektlərə malik olan məfhumlar sırasına daxildir.Artıq strukturalizmdə bərqərar olmuş müddəaya görə "mətn" anlayışının tətbiqi onun müəyyən qanunlar üzrə kodlaşdırılmasını nəzərdə tutur.Onu da qeyd edək ki,epik əsərlərə məxsus olan mətn-kod reallıqda mövcud olmasa da, o, "dastançının hafizəsəndə mövcuddur və ona mümkün olan variasiyaların seçimində yardım göstərir " ( 3,44 ).Müxtəlif ifaçılıq variantları şəklində reallaşan mətn-kod müəyyən işarələrin sintaqmatik baxımdan təşkil olunmuş sistemidir.

Təhkiyə səciyyəli janrların struktur-tipoloji tədqiqinə kifayət qədər geniş elmi ədəbiyyat həsr olunmuşdur.Lakin burada epik mətnlərin mifoloji təhlilinə dair yalnız iki xüsusiyyəti qeyd etməklə kifayətlənək: mətnlərin funksional təhlili həm təhkiyə janrlarının mətnyaranma özəlliklərini aşkarlamağa, həm də konkret epik əsərin təkamül yolunun tarixi mərhələlərini tədqiq etməyə imkan yaradır.

Eposşünaslıqda bərqərar olmuş müddəaya görə,epik mətnin quruluşunun dərindən dərk edilməsi yalnız onu təşkil edən vahidlərin – funksiyaların ətraflı şəkildə öyrənilməsi nəticəsində mümkündür.Məhz funksional təhlilin tətbiqi həm epik mətnin daxili quruluşunun,həm də dastan diskursunun qanunauyğunluqlarının üzə çıxarılması üçün imkan yaradır.Qeyd etmək lazımdır ki,müstəqil vahid olan funksiyalar süjetyaranma prosesində müəyyən bloklar çərçivəsində birləşir.

"Koroğlu" dastanının müxtəlif variantlarının struktur – tipoloji təhlili aşıqların yaradıcılıq laboratoriyasının bəzi xüsusiyyətlərini ( blokların uzlaşdırılması,onlara semantik baxımdan uyğun havalar seçilməsi və s. ) aşkarlamaq üçün zəmin yaratmışdır.Bundan əlavə, dastanın müxtəlif variantlarının struktur – tipoloji təhlili həm onların quruluşunda mətnyaranma prosesində fəal iştirak edən,həm də nisbətən statik funksiyaları üzə çıxarmışdır.

Funksional təhlilin məziyyətlərindən biri də ondan ibarətdir ki,o,epik havaların semantik məzmununun araşdırılmasında böyük səmərə verə bilər.Belə ki,hər bir epik havanın dastanın müxtəlif variantlarının funksional sxemi üzrə işlənilmiş paradiqması onların semantik tutumunun təyin edilməsində əvəzsiz rol oynaya bilər.

Şleyermaxer tərəfindən tətbiq edilən ikinci qermenevtik dairə anlayışı təhlil olunan mətnə onun məxsus olduğu mədəni – tarixi mühitin təsirini bildirən bir məfhumdur.Həqiqətən də təhkiyə janrlarında mətnlərin tərkib hissələri olan funksiyalar müəyyən dini – mifoloji,sosial – tarixi arxetiplərin təzahürüdür.Tədqiqatçı Mehmet Açanın tamamilə düzgün qeyd etdiyi kimi, "türk kahramanlık dastanları ve alp kavramı üzerine yapılacak olan değerlendirmeler, mutlaka Türk toplumunun inanç ve düşünce kalıpları üzerine bina edilmelidir. Eski Türk toplumunun bir ve mutlak kadir olan Gök Tanrı,Tanrı düzeni



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

anlamına gelen töre,hakan ya da bey,devlet gibi kavramlar hakkındaki telakkileri dikkate alınmadan Türk kahramanlık destanları ve alp tipini incelmek,yeterince doyurucu olmayacaktır "(1,17)

Qeyd etmək lazımdır ki, "Əsli və Kərəm" dastanının musiqi və verbal ünsürlərinin öyrənilməsi də bizi belə bir qənaətə gətirmişdir ki,həmin epik mətnin quruluşu aşıq sənətinin müxtəlif mərhələlərinin (ozan,sufi )fəlsəfi sistemlərinin izlərini qoruyub saxlamışdır.

Hermenevtikanın əsas nəzəri müddəalarından biri də məna və mənayaranma prosesilə bağlıdır.Qeyd etmək lazımdır ki,artıq Qədim Yunanıstanın Aleksandriya fəlsəfə məktəbinin irəli sürdüyü əsas hermenevtik problemlərdən biri də məhz sözün məna yükü ilə bağlı idi.Qədim filosofların gəldiyi qənaətə görə,mətnin öyrənilməsi zamanı sözlərin konteksti də nəzərə alınmalıdır.Qeyd etməliyik ki,məhz kontekst yanaşma tərzi sözün məna yükü probleminin yeni səpkidə araşdırılması üçün geniş perspektivlər açmışdır.Sözün əsas məna tutumunun müxtəlif kontekstlərdən asılı olaraq dəyişməsi,yeni çalarlarla zənginləşməsi haqqında hermenevtik müddəanı etnomusiqişünaslıqda da səmərəli şəkildə tətbiq etmək olar.Məsələn,eyni musiqi işarəsinin müxtəlif kontekstlərdə tamamilə bir-birindən fərqli olan emosiyaları bildirilməsi musiqi polesimiyası haqqında söhbət açmağa imkan verir.

Məlum olduğu kimi,hermenevtikanın inkişafına V.Humboldtun "dilin fəlsəfəsi" haqqında nəzəriyyəsi də böyük təsir göstərmişdir.Qeyd etməliyik ki,Humboldt tərəfindən irəli sürülən " dil – törədici qurumdur " nəzəri müddəası musiqişünaslıq üçün də böyük metodoloji əhəmiyyətə malikdir.Belə ki,müasir musiqişünaslığın təhlil üsullarından biri olan törədici-yozumlu təsviri Humboldtun ideyalarının musiqişünaslıq sahəsində tətbiqi kimi qəbul etmək olar.Törədici üsulun əsas məqsədi bədii əsəri müəyyən informasiyanın daşıyıcısı kimi təfsir etməkdir.Törədici əməliyyat nəticəsində əsərin yaranması məntiqi proses kimi sanki mərhələ-mərhələ bərpa olunur və yenidən reallaşır.

Fikrimizcə,törədici-yozumlu təsvir üsulunun bəzi metodoloji parametrləri səmərəli şəkildə qədim türk mətnlərinin musiqi dilinin rekonstruksiyasında da tətbiq edilə bilər.Arxaik türk şerinin metroritmik xüsusiyyətləri əsasında aparılan törədici təsvir əməliyyatları erkən dastan havalarının tipologiyasının tərtib edilməsi kimi mürəkkəb məsələnin həllində ciddi əhəmiyyət kəsb edə bilər.Bu istiqamətdə aparılacaq elmi araşdırmalar o qədər də mümkünsüz görünməməlidir.Qeyd edək ki,ritm, xüsusilə deklamasiya səciyyəli janrlarda, musiqi semantikasının tarixi-genetik yaddaşını qoruyub-yaşadan "mühafizəkar" səviyyəsidir.

Beləliklə,hermenevtikanın elmi prinsiplərinə əsaslanaraq və musiqi semantikasının tarixiliyindən çıxış edərək belə qənaətə gəlmək olar ki,epik əsərlərin musiqi dilinin təhlili nəticəsində türkdilli xalqların tarixi-mədəni keçmişinin bəzi məqamlarını işıqlandırmaq mümkündür.

**ƏDƏBİYYAT**

1.Mehmet Aça.Türk destancılık geleneğine bütüncül yaklaşabilme ve alp kavramı üzerine bazı yeni yaklaşım denemeleri //Uluslararası türk dünyası halk edebiyatı kurultayı.Ankara,2002

2.Кузнецов В.Г. Герменевтика и гуманитарное познание.М,1998

3.Лотман Ю.М. Текст в тексте//Труды по знаковым системам.Тарту,1981



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# HİSSLƏRİN TƏRCÜMANI – XALQ MAHNILARI

***F.e.n. Kəmalə İslamzadə***
***BDU***
***Azərbaycan***

Xalq mahnıları folklorun ən populyar, ən çox yayılmış, kütlələr tərəfindən ən asan mənimsənilən və sevilən janrıdır. Biz onları, demək olar ki, hər gün eşidir və ya zümzümə edirik. Lakin bu, xalq mahnılarının kifayət qədər öyrənildiyinə dəlalət etmir. Doğrudur, nümunələrin mətnlərinin toplanıb variantları ilə birlikdə çap edilməsi, melodiyalarının nota alınaraq unudulmaqdan qorunması, mövzu və məzmun baxımından qruplaşdırılaraq təhlil olunması sahəsində xeyli iş görülmüşdür. Bununla belə, xalq mahnılarının bir janr kimi dəqiq sərhədlərinin müəyyənləşdirilməsi, əmək və mərasim nəğmələrindən diferensiasiyası, mətnlərdə anlaşılmazlıq yaradan təhriflərin aradan qaldırılaraq dəqiqləşdirmələr aparılması, musiqi və söz müəllifliyinin eyni və ya müxtəlif şəxslərə məxsus olması və s. məsələlər açıq qalmışdır və həllini gözləyir.

Xalq mahnılarına dair müxtəlif araşdırmalarda janrın əmək, mövsüm və məişət mərasimi nəğmələri ilə qarışdırıldığını, onların bir sırada təhlil olunduğunu görürük. Bu dolaşıqlıq xalq mahnılarının təsnifində də özünü göstərir. Belə ki, əmək, mövsüm və məişət mərasimi nəğmələri eyni bir janrın, yəni xalq mahnılarının mövzu və məzmun baxımından müxtəlif olan nümunələri kimi ayrı-ayrı qruplarda birləşdirilərək nəzərdən keçirilir. Məsələn, R.İsmayılzadə xalq mahnılarını aşağıdakı kimi təsnif etmişdir:

«I. Əmək mahnıları
II. Mərasim mahnıları
III. Məişət mahnıları
IV. Tarixi mahnılar» (14; s. 52)

R.İsmayılzadə hər qrupun özünün də içərisində bölgü aparmışdır. Məsələn, məişət mahnılarını öz növbəsində uşaq mahnıları, lirik mahnılar, yumorlu mahnılar, satiralı mahnılar kimi dörd yerə ayırmışdır (14; s. 67).

Əlbəttə ki, belə bir təsnifatı qəbul etmək düzgün olmazdı. Çünki folklorşünaslıqda əmək nəğmələri, mövsüm və mərasim nəğmələri, xalq mahnıları ayrı-ayrı janrlar kimi diferensiasiya olunaraq sabitləşmişdir. Təsnifatdakı qeyri-dəqiqliyin səbəbini, yəqin ki, müəllifin musiqişünas olması ilə izah etməliyik. Çünki bu janrlar arasındakı bəzən sürüşkən sərhədlərin müəyyənləşdirilməsi, çətin sezilən xırda spesifik cəhətlərin, janrları fərqləndirən çalarların üzə çıxarılması üçün folklorşünasların öz ənənəvi metodları, xüsusi yanaşma tərzləri vardır ki, başqa ixtisas sahiblərinə bunlar bəlli deyildir.

Yuxarıda sözü gedən janrların qarışdırılmasını Əziz Mirəhmədovun «Ədəbiyyatşünaslıq» ensiklopedik lüğətində mahnıya verdiyi izahatda da müşahidə edirik. Bu fakt xalq mahnılarının folklor janrı kimi poetik-semantik xüsusiyyətlərini Naxçıvan folklor mühitinin materialları əsasında araşdırmış folklorşünas Məhərrəm Cəfərlinin də diqqətini cəlb etmişdir. O bu xüsusda yazır: «… Mahnı semantik tutumu baxımından ədəbiyyat olmaqdan iri hadisədir. Ədəbi göstəriciləri mahnı janrının poetik strukturunun təkcə bir hissəsini təşkil edir. Ancaq Ə.Mirəhmədovun janrın təsviri zamanı mahnı janrı ilə nəğmə janrının sərhədlərini gözləmədiyi də müşahidə edilir» (8; s. 23).

Lakin M.Cəfərli bunu bir şübhə kimi ötəri şəkildə ifadə etmiş, üstündən keçərək mahnı və nəğmə janrlarının diferensiasiyasını aparmamışdır. Yəqin ki, bu, müəllifin öz məqaləsində qarşısına qoyduğu məqsədin fərqli olması ilə bağldır.

Azərbaycan dilində çox zaman «nəğmə» və «mahnı» sözləri sinonim kimi işlənir və bir-birini əvəz edir. Lakin məlum olduğu kimi, sinonimlik heç də bütün hallarda yüz faizlik adekvatlıq demək deyildir. Məsələn, «ürək» - «könül» - «qəlb» kəlmələri sinonim olsalar da həmişə bir-birinin əvəzində işlənə bilmirlər. Belə ki, «ürəyim ağrıyır» əvəzinə «könlüm ağrıyır» demək gülünc səslənir. «Nəğmə» və «mahnı» sözləri arasında da güclə seziləcək məna çaları fərqi mövcuddur. Məsələn, həm «nəğmə oxuyuram», həm də «mahnı oxuyuram» demək mümkündür. Lakin «bülbülün nəğməsi», «çayın nəğməsi» əvəzinə «bülbülün mahnısı», «çayın mahnısı» demək yerinə düşmür. Deməli «mahnı» və «nəğmə» sözləri obsolyut sinonim sayıla bilməz. Fərq bu sözlərin bir termin kimi mövcudluğunda da üzə çıxır. Bizə elə gəlir ki, janrların diferensiasiyası məsələsində folklorşünas İsrafil Abbaslı daha düzgün mövqe tutmuşdur. O yazır: «Mərasim və əmək nəğmələrindən fərqli olaraq, xalq mahnılarına oxunma yerinə, vaxtına, mənsubluğuna görə ciddi məhdudiyyətlər qoyulmur. Əgər mərasim



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nəğmələri təqvim bayramlarında (Novruz mərasimi nəğmələri yalnız yazın gəlişi ərəfəsində) və toy şənliklərində, yaslarda (toy-halay nəğmələri; ağılar), laylalar (beşik başında, körpələr yatırılarkən) analar tərəfindən, sayaçı sözləri təkcə qoyunçuluqda (bir peşə daxilində) oxunursa, xalq mahnıları hər zaman, hər yerdə hamı tərəfindən ifa olunur. Çünki onlar insanların gündəlik fəaliyyəti, yaşayışı, işi və istirahəti ilə qırılmaz tellərlə bağlanır, ən çətin anlarda xalqın təsəllisi olur. Doğrudur, xalq mahnılarında da müəyyən məhdudiyyətlər özünü göstərir: ayrı-ayrılıqda bəzilərini yalnız gənclər, qocalar, qadınlar, kişilər oxuyurlar. Lakin ifanın hansı zümrəyə məxsusluğuna baxmayaraq, mahnı hamının qəlbinə yol tapır. Yaxud qaçaq mahnıları xalqın kiçik bir hissəsinə həsr olunsa da, hər kəsin zövqünü oxşayır, ruhunu dilləndirir və bütün bu xırda məhdudiyyətlər janrın müəyyənləşməsinə heç bir maneçilik törətmir» (1; s. 182).

Əlavə olaraq bir məqamı da qeyd etməliyik. Bu, mahnıların forma-struktur özəllikləri ilə bağlıdır. Mahnı sözlə musiqinin qaynağından, qovuşmasından yarandığına görə söz istər-istəməz melodiyanın ahənginə, ritm dəyişikliklərinə, bölgü və pauzalara tabe olmalı, onlara uyğunlaşmalıdır. Odur ki, burada heca vəzninin pozulması, misralarda hecaların sayının müxtəlifliyi, bəndlərlə nəqəratın ritmində kəskin fərqlərin olması, mətnə, məzmuna o qədər də dəxli olmayan «a balam», «a gülüm», «ay aman» tipli xitab və nidaların təkrarlanması adi haldır. Mahnılarda sözün yaradıcı gücü ilə (müqəddəs kitablarda yazıldığı kimi, «əvvəlcə söz olmuşdur», həyat, varlıq Allahın «ol» kəlməsi ilə yaranmışdır) musiqinin magik təsiri (qədim insanlar musiqi ilə xəstələri müalicə edər, onun möcüzəsinə inanardılar) birləşsə də, musiqi dominantlıq təşkil edir. Bütün bu xüsusiyyətlərə digər janrlarda rast gəlmirik. Yeri gəlmişkən, musiqi və sözün qovuşmasından danışarkən yeni-yeni suallar meydana çıxır: görəsən, xalq mahnılarının musiqisi əvvəl yaranıb, yoxsa mətni? musiqi və sözlər eyni müəllifə məxsusdur, yoxsa müxtəlif şəxslərə? folklor nümunələrinə xas olan kollektivlik xüsusiyyəti nə üçün xalq mahnılarında özünü az büruzə verir? və s.

Birinci sualla bağlı düşünürük ki, əksər hallarda ilkin olaraq mahnıların melodiyası yaradılmış, sonra ona uyğun, həmçinin xalq sənətkarının həmin məqamdakı hiss və duyğularını, əhval-ruhiyyəsini əks etdirən sözlər qoşulmuşdur. Mahnılarda musiqinin aparıcılığı, dominantlığı bunu deməyə əsas verir. Daha bir fakt bu mülahizəmizi sübut edir. Eyni melodiya ilə oxunan lakin mətnləri müxtəlif olan mahnılarımız vardır. Burada söhbət eyni mahnının müxtəlif variantlarından getmir, tamamilə fərqli mətnlərdən gedir. Bununla əlaqədar bəstəkar Tofiq Quliyevin aşağıdakı sətirlərini sitat gətirmək yerinə düşər:

«Apardı sellər Saranı» mahnısından eşidirik:

*… Apardı sellər Saranı,*
*Bir ala gözlü balanı.*
*Ay allı-güllü bəxtəvər,*
*Bağçası güllü bəxtəvər,*
*Ay şirin dilli bəxtəvər…»*

Əgər diqqət yetirilsə, bu səhvin (sonuncu üç misranın bu mahnıda oxunması) hardan gəldiyi aşkar olar; məlumdur ki:

*Səhərdən seyrana vardım,*
*Yarı gördüm bağ içində —*

misraları ilə başlayan «Bəxtəvər» adlı xalq mahnımız «Apardı sellər Saranı» mahnısının melodiyası ilə oxunur. Göründüyü kimi, uyğun musiqinin axarına aludə olan müğənni mahnını kor-koranə, mətnin mətləbinə varmadan ifa etmişdir» (6; s. 5).

Bütün bunlara baxmayaraq, yəqin ki, istisnalar da olmuş, bəzən ilkin olaraq mətn yaranmış və sonradan onun məzmunu uyğun musiqini tələb etmişdir.

Mətn və musiqinin eyni müəllifə, yoxsa müxtəlif şəxslərə aid olması ilə bağlı məsələyə gəldikdə deməliyik ki, bu barədə müəyyən fikirlər, bir qədər ehtiyatlı deyilmiş mülahizələr vardır. Məsələn, akademik Məmməd Cəfər bu xüsusda yazır: «El mahnılarımızın mətnlərində musiqi ilə yaxınlıq mütləq nəzərdə tutulmuşdur. Kim bilir, bəlkə, mahnı mətnini yaradan qüdrətli bir bəstəkar, yaxud musiqi bəstələyən, eyni zamanda istedadlı şair imiş» (9; s. 196).

Bu sözlərə qüvvət olaraq deməliyik ki, xalq yaradıcılığına sinkretizm xüsusiyyəti xasdır. Məsələn, aşıqlar öz ifalarında müxtəlif sənət növlərini — şairliyi, bəstəkarlığı, instrumental ifaçılığı, müğənniliyi, rəqsi, aktyorluğu birləşdirirlər. Aşıq saz havalarının bəstəkarı və bu havanın müşayiəti ilə oxunan sözlərin müəllifidir. Müxtəlif sənət növlərinin diferensiasiyası, onların hər biri ilə professional şəkildə ayrı-ayrı şəxslərin məşğul olması xalq yaradıcılığına xas olan xüsusiyyət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyildir. Deməli, xalq mahnılarının həm musiqisinin, həm də sözlərinin eyni bir şəxsə aid olduğunu qəbul etməliyik. Görünür, xalq mahnılarında digər folklor janrlarımızdan fərqli olaraq kollektivçiliyin deyil, məhz individuallığın özünü göstərməsi, hər nümunədə təkrarolunmaz dəst-xəttin hiss edilməsi, digər ağız ədəbiyyatı örnəklərinə nisbətən mühafizəkarlığın qabarıq şəkildə üzə çıxması da hər mahnının arxasında bir müəllifin dayanması ilə bağlıdır.

Lakin hər halda ağız ədəbiyyatı nümunəsi olan, əsrlərin o tayından üzü bəri yol gələn xalq mahnıları şifahi ötürmə prosesində müəyyən dəyişikliklərə uğramaya bilməzdi. Dəyişikliklər, əsasən, mətnlərdə özünü göstərir. Şifahi dildən toplanan xalq mahnılarının yazıda fiksasiyası XIX əsrdən başlamışdır. «Koroğlu» dastanının ilk naşiri A.Xodzko hələ 1828-ci ildə Azərbaycan xalq mahnılarını çap etdirmişdir. Sonralar bütün XIX əsr boyu rus mətbuatında rus və Azərbaycan ziyalılarının topladığı nümunələr çap edilmişdir. Xüsusilə SMOMPK məcmuəsi səhifələrində belə nümunələrə daha çox rast gəlirik (11, s. 212). Lakin məhz həmin məcmuədə bəzən bizə məxsus mahnıların başqa xalqların — xüsusilə də bədnam qonşularımızın adına çıxıldığı faktı ilə qarşılaşırıq» (Bax: 12; s. 127-130).

Xalq mahnılarının mətnlərində yol verilən təhriflərin, dəyişikliklərin səbəbləri müxtəlifdir. Məsələn, Ə.İsazadə bunu belə şərh edir: «Mətnin dəyişilməsi əsasən onunla izah edilir ki, xalq sənəti sahəsində hər hansı tarixi mahnıların yaranmasına səbəb olan hadisələr sonra gələn nəsil tərəfindən yaddan çıxırdı, melodiya ifaçıların yeni nəsli tərəfindən yenidən dərk edilərək sanki yeni inkişaf dövrü keçirirdi» (13; s. 9).

B.V.Asafyev qazax mahnılarından danışarkən bunu belə izah edir: «Bu, musiqi düşüncəsinin, şübhəsiz, artmasına dəlalət edir: musiqi xalqın hiss və düşüncəsinin ifadəçisi olur, o, yüksək ideya-sintetik mərhələyə keçir. Öz-özlüyündə təbiidir ki, bununla yanaşı əvvəlki ifadə forması onun üçün darısqal olur» (3, s. 120).

P.N.Sakulinin fikrinə görə, «Tərənnüm edilən hadisələrdən ayıran zaman məsafəsinin böyüklüyü, şifahi yayılma yollarının mürəkkəbliyi və sənətkarların qeyri-adiliyə və möcüzəyə olan meyli fantaziya üçün geniş meydan açırdı» (18, s. 50).

A.N.Veselovski isə tarixi gerçəkliyə, orijinala uyğunluqdan daha çox elə təhriflərin özünü qiymətləndirərək yazırdı: «Mahnının dəyəri onun salnamə həqiqətinə sadiqliyi ilə deyil, məhz bundan xeyli əvvəl, uzun əsrlər boyu xalqın şüuruna hakim kəsilən ideallar baxımından təhrif olunması ilə ölçülür» (19; s. 911).

Öz tərəfimizdən daha bir neçə səbəb göstərə bilərik. Məlum olduğu kimi, ictimai formasiyaların əvəzlənməsi, dövrlərin dəyişməsi müəyyən sözlərin deyilməsini mümkünsüz edir. Əvvəlki quruluşda normal qarşılanan bir hadisə, hərəkət digərində qəbuledilməz olur. Odur ki, mahnını qoruyub saxlamaq, unudulmasına yol verməmək məqsədi ilə mətndə dəyişiklik edilir. Bəzən bu dəyişiklik uğursuz da ola bilər. Məsələn, indi də bir çox tanınmış müğənnilər tərəfindən oxunan məşhur bir mahnının sözləri belədir:

*Gəmi gələndə verir fitini,*
*Asimana qalxır onun tütünü,*
*Mən neynirəm sənin kimi birisini?*
*Ay ollam, ollam gözünün qurbanı.*
*Ay ölləm, ölləm, ölləm ay, belə-belə yar-yar,*
*Bu gecə gəlləm sizə yar, belə-belə yar-yar.*

İkinci misradakı «tütünü» sözünün yerinə düşmədiyi aşkardır və bu, həm müğənnilərin, həm də dinləyicilərin diqqətini cəlb etmiş, hətta bir dəfə bununla bağlı televiziya kanallarının birində sorğu da keçirilmişdi. Müğənnilər verdikləri müsahibələrində bildirmişdilər ki, «tütünü» sözü, çox güman ki, «tüstü»nün təhrif edilmiş formasıdır və «fitini» sözünə həmqafiyə olduğu üçün işlənmişdir. Lakin əlbəttə ki, bu izahat heç cür qənaətbəxş sayıla bilməzdi. Uzun müddət bu məsələ bizim üçün də qaranlıq qalırdı. BDU-nun filologiya fakültəsinin magistr tələbələri Səfa Qarayev və Hikmət Quliyev 2005-ci ildə folklor ekspedisiyası zamanı həmin mahnının qədim variantını Xankəndi rayonu Malatkeşin kəndinin sakini, 1922-ci il təvəllüdlü Məhərrəm Əliyevin dilindən yazıya almışlar. Bizə təqdim olunan bu mətn məsələyə aydınlıq gətirdi. Həmin variantda deyilir:

*«Gəmi gələndə verir fitini,*
*Xırdaca muzdurlar daşır tütünü».*

Mahnıda tütün yüklənmiş gəminin fit verərək sahilə yan aldığından və «xırdaca muzdurlar»ın, yəni muzdla hamballıq edən uşaqların onun yükünü boşaltdıqlarından söhbət gedir. Məlumdur ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sovet dövründə uşaq əməyi qadağan olunmuşdur və uşaqların istismar edilməsindən bəhs edən bir mahnı da səslənə bilməzdi. Əslində sevgini tərənnüm edən bu mahnını reabilitasiya etmək üçün sözlər dəyişdirilmiş, «Asimana qalxır onun tütünü» misrası əlavə edilmişdir.

Dəyişikliklərin bir səbəbi də naşı müğənnilərin mahnının mətninə kifayət qədər diqqət yetirməməsi, çap olunmuş mahnı topluları ilə maraqlanmaması, başqalarından eşitdiyi (səhv eşitdiyi) şəkildə ifa etməsi ilə bağlıdır.

Təəssüf ki, həmin yanlış ifa bəzən səhvin yayılmasına, sonrakı müğənni nəslinin mahnını dürüst olmayan tərzdə oxumasına gətirib çıxarır. Məsələn, «Getdi yar» xalq mahnısını —

*Getdi yar, getdi yar,*
*Ağlatdı məni.*
*Yarımın qaş-gözü*
*Saraltdı məni.*

– şəklində oxuyan müğənni düşünmür ki, onu saraldan getmiş yarının həsrəti olar, qaş-gözü yox. Yarın qaş-gözü aşiqə zövq, ruh verə bilər. Bir də ki, əgər yar gedibsə, aşiq onun qaş-gözünü harada görəcək? Deməli, mahnı

*«Getdin yar, gəlmədin, aldatdın məni,*
*Gəlmədin, həsrətin saraltdı məni» (6; s. 80).*

- şəklində oxunmalıdır.

Yaxud başqa bir üzdəniraq müğənni —

*«Tellərini yan dara qız,*
*Ay qaşı-gözü qara qız,*
*Eylə dərdimə çara, qız,*
*Ay qaşı-gözü qara qız» (6; s. 102)*

– sözlərini aşağıdakı kimi oxuyur:

*Tellərin yuyan qara qız…* və s.

Əvvəla, abırlı qız tellərini göz qabağında yumaz. İkincisi, xalq mahnılarında adətən gözəllər tərənnüm olunur. Folklor nümunələrimiz əsasında xalqımızın gözəl qadın idealının portretini təsəvvür edə bilərik. Bu, ağ bənizli, al yanaqlı, tünd və uzun saçlı, qara qaş-gözlü bir canandır. Dərisinin rəngi qara olan qızlar isə ağız ədəbiyyatımızda yalnız mənfi rollarda çıxış edirlər və onlar gözəl deyil, çirkin hesab olunurlar.

Digər mahnımızı isə səhvən belə oxuyurlar:

*Aman kəklik əlindən,*
*Bidad kəklik əlindən.*
*Baş götürüb gedərəm,*
*Bivəfa yar əlindən.*

Halbuki, kəkliyin bu mahnıya heç bir aidiyyat yoxdur. Aşiq təklik əlindən fəryad edir. Yarı bivəfa olduğundan onu tək qoymuşdur. Bəndin ilk misrası da —

*Aman təklik əlindən*

– şəklində oxunmalıdır.

Müəllifi müğənni Qulu Əsgərov olan, lakin xalqın sevib özününküləşdirdiyi bir mahnının sözləri belədir:

*Sev ki, sevən mərd olar,*
*Sevməyən namərd olar.*

Lakin bəzi müğənnilər bu mətni təhrif etmiş, ona Azərbaycan dilində işlənməyən bir ifadəni əlavə etmişlər:

*Sevgi sevən mərd olar.*

Hər bir xalqın folkloru əsasında onun psixologiyası, xarakteri, adət-ənənələri haqqında fikir yürütmək mümkündür. Burada xalqın mentaliteti öz əksini tapmışdır. Əlbəttə ki, azərbaycanlılara məxsus qonaqpərvərlik, xeyirxahlıq, fədakarlıq, etibarlılıq və s. müsbət keyfiyyətlər mahnılarımızda da tərənnüm olunur. Bu mövzu ilə bağlı çox danışıldığından onun üzərində dayanmaq istəmirik. Lakin mentalitet yalnız müsbət cəhətləri özündə birləşdirmir. Xalqın mentalitetində mənfi cəhətlər də ola bilər. Məsələn, azərbaycanlılar bir-birlərinə «haralısan?» sualını verməyi xoşlayırlar. Cəmiyyətimizdə belə bir fikir dolaşır ki, güya bu zərərli vərdiş son illərin məhsuludur. Hərçənd ki, bizim müşahidələrimiz bunu təsdiq etmir. Mahnılarımızın mətnini başqa xalqların mahnıları ilə müqayisəli şəkildə tədqiq edərkən belə qənaətə gəldik ki, həmin vərdişin kökləri çox-çox qədimlərə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedib çıxır. Aşiqin vurulduğu qıza «haralısan?» sualını verməsi mahnılarımızın çoxunda özünü göstərir. Məsələn:

*«Almanı atdım xarala,*
*Qaldı sarala-sarala.*
*Dağlarda döndün marala*

**Nəqərat:**

*A tirmə köynək,*
*Ay sarı çəpkən.*
*A tirmə köynək, sarı çəpkən gəlin haralısan?*
*Özü göyçək, sözü göyçək, hara maralısan?» (6; s. 59)*

**Yaxud:**

*«Corabının üstü buta,*
*Məni saldın yanar oda,*
*Mənim ahım səni tuta.*

**Nəqərat:**

*Üçtelli, dördtelli, beştelli durna,*
*Sən haralısan ay, haralı durna?*
*Sən getsən dağlar saralı, durna,*
*Ovçu əlindən yaralı durna,*
*Yaralı, yaralı, yaralı durna» (5; s. 35).*

**Və ya:**

*Yar başında şalı var,*
*Yanağında xalı var.*
*Özü ceyran balası,*
*Yar haralısan?*
*Gözlərindən tanıram,*
*Sən Bakının maralısan.*
*Bakının maralısan,*
*Yar haralısan?*

**Daha bir misal:**

*«Sən haralısan, durnam?*
*Mən buralarda durmam,*
*Gedəlisən, əsmər yarım,*
*Gəl sinəm üstə, dolan.*
*Gəl ey nazlı durnam» (6, s. 86).*

Lirik, həzin, ətrafında mübahisə və qalmaqallar səngiməyən başıbəlalı «Sarı gəlin» mahnısı mətninin tekstoloji, semantik nöqteyi-nəzərdən şərhə ehtiyacı olan nümunələrdəndir. Mahnı belə başlanır:

*«Saçın ucun hörməzlər,*
*Gülü qönçə dərməzlər,*
*sarı gəlin*

*Bu sevda nə sevdadır,*
*Səni mənə verməzlər,*
*Neynim aman-aman,*
*Neynim aman-aman,*
*sarı gəlin» (6; s. 50).*

İlk növbədə vurğulamalıyıq ki, dilimizdə «gəlin» və «qız» kəlmələri müxtəlif anlayışları bildirir. «Gəlin» — artıq ərə getmiş, ailə qurmuş qadındır. «Qız» isə həmin şəxsin bakirə olduğunu ehtiva edən sözdür. Deməli, sarı gəlin artıq ailə qurmuşdur. Lakin ərli qadına eşq elan etmək, ona evlənmə təklif etmək nə xalqımızın əxlaq kodeksinə, nə də dinimizin qanunlarına sığmayan bir hərəkətdir və xalq bunun mahnıda səslənib yayılmasına yol verməzdi. Məsələ burasındadır ki, sarı gəlin duldur, ərini erkən itirmişdir. Mətndə bunu sübut edən, buna işarə vuran sözlər yer almışdır: «Saçın ucun hörməzlər».



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Professor Azad Nəbiyev məsələyə belə aydınlıq gətirmişdir: «Öz sevgilisini itirən Sarı gəlin milli adətə uyğun olaraq, qızlardan fərqlənmək üçün arxasına atdığı uzun, gözəl hörüyünün ucunu hörmür. Bu, ilk sevgilisindən ayrı düşən, onu itirən bir üzü qız, bir üzü gəlinin el arasında tanınma əlamətlərindən biri olub, çox qədim tarixə gedib çıxır» (17; s. 45).

Türk tayfalarında, o cümlədən əcdadlarımız olan oğuzlarda saç düzümü onun sahibi haqqında çox söz deyə bilərdi. Etnoqraf Qiyasəddin Qeybullayev yaşlılar qrupuna keçidlə bağlı adətlərdən danışarkən qeyd edir ki, «qız gəlin köçdükdə çoxsaylı hörüklərini açır, yalnız iki hörük hörürlər» (16; s. 259).

Bəzi xalqlarda saçhörmə mərasimi toydan əvvəl, qız ata evində olarkən, bəzilərində isə artıq oğlan evində icra edilir. Bu, xalq mahnılarında da öz əksini tapmışdır. Məsələn, oğuz türklərindən olan qaqouzlar gəlin köçməli olan qızın saçlarının hörülməsi zamanı «pelik örmək» türküsü oxuyurlar:

*«Qızıydım, nazlıydım — gəlin etdilər,*
*Sürməli saçımı hörük etdilər» (15; s. 20).*

Yaxud yuxarıda adları çəkilən magistr tələbələrimizin eyni söyləyicinin dilindən yazıya aldıqları mahnıda Təbrizə gəlin köçən qıza müraciətlə deyilir:

**Nəqərat**

*Təbrizə gedərsən,*
*Ay qız ey, sən bu gecə.*
*Evləri yıxarsan,*
*Ay qız ey, sən bu gecə.*

*Bu gün ayın dördüdü,*
*Qızlar saçın hördüdü.*
*Məryəm oy, Məryəm oy.*

*Təbrizdə minərsən faytona,*
*Ay qız ey.*
*Aqoşqadan baxarsan hər yana*
*Ay qız ey.*
*Təbrizin qızdarı dönüp ceyrana.*
*Məryəm oy, Məryəm oy.*

**Nəqərat**

(Mahnı ilk dəfə çap olunduğu üçün mətni tam verməyi məqsədəuyğun hesab etdik).

Keçmişdə qız uşaqlarına birçək (saçın qulağın qarşısında burulmuş şəkildə üzə yapışdırılması) və ya kəkil (saçların alın hissədə qısa kəsilməsi) qoymaq qadağan idi. Bunu yalnız gəlinlər edə bilərdi. Aşıq Ələsgərin şerlərindən birində bunu sübut edən sözlər vardır:

*Gözəl, sənin nə vədəndi,*
*Kəsilib qısa tellərin?*
*Kələğayı əlvan, qıyqacı*
*Üstündən basa tellərin (4; s. 160).*

Anadolu türklərində qızın gəlin köçəcəyi gündən qabaqkı üç gün müxtəlif adət və mərasimlərin keçirilməsinə həsr olunur ki, saç kəsmə mərasimi ilk günə təsadüf edir (2).

Türk xalqlarından olan şorlarda gəlinin saçının hörülməsi «sürünmez toy» adlanır (10; s. 18-45). Saqay və kızıllarda həmin adət «sas toyu» adını daşıyır. Bu xalqlarda hətta qızlıq və gəlinlik hörüklərinin adları da başqa-başqadır. Qızlıq hörükləri «sürmes», gəlinlik hörükləri «tulun» adlanır (7; s. 155-165). Deməli, «Sarı gəlin» mahnısındakı «Saçın ucun hörməzlər» sözləri təsadüfən deyilməmişdir.

İkinci misradakı «Gülü qonçə dərməzlər» sözləri başqa bir variantda «Gülü sulu dərməzlər» şəklində oxunur. Bizcə, məna baxımından birinci variant daha məntiqlidir. Görünür, ikinci variantın yaranması «S» samitinin təkrarından alınan ahəngdarlığı, musiqililiyi əldə etmək istəyi ilə bağlı olmuşdur.Əgər gəlin duldursa, aşiqin onunla evlənməsinə nə mane olur? «Səni mənə verməzlər?» misrası hansı sirri özündə gizlədir? Bu sualla bağlı çox alimlərə, etnoqraflara, yaşlı şəxslərə, müxtəlif mənbələrə, bədii ədəbiyyata müraciət etmişik. Gəldiyimiz nəticə bundan ibarətdir ki, gəlini başqasına ərə verirlər. Məlumdur ki, müsəlmanlarda dul qalan cavan gəlini qaynına ərə vermək kimi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

zərərli bir adət vardır. Məqsəd də ondan ibarətdir ki, artıq həmin ailənin namusu hesab edilən gəlin başqa ocağa düşməsin. Yaxud onun övladları varsa, hər halda doğma əmisi onlara yad adamdan daha yaxşı münasibət göstərər. Burada maddi məsələnin də rolu az deyildir. Şəriətdə qadının vərəsə hüquqları dəqiq şəkildə göstərilmişdir və ciddi surətdə qorunur. Yəqin ki, dul qalan gəlinə ərinin mülkiyyətindən, əmlakından müəyyən bir hissə çatmalıdır. Ərin qohumları isə mirasın özgələrə qismət olmaması, ailədə qalması üçün gəlini qaynına almağı çıxış yolu kimi görürlər. Cəlil Məmmədquluzadənin «Ölülər», Əlibala Hacızadənin «İtkin gəlin» əsərlərində həmin adətin öz əksini tapdığını da xatırlatmaq istərdik.

Maneənin nədən ibarət olduğu, mahnının niskilli, yanıqlı xarakterinin səbəbi aydınlaşır. «Sarı gəlin» böyük bir faciənin tərcümanıdır. Həm də bu, tək iki insanın deyil, belə uğursuz taleyə ürcah olan, zərərli adətlərin qurbanı olan bütün şəxslərin faciəsidir. Bu öz dövrü üçün tipik hadisədir. Belə olmasaydı o, ədəbiyyata yol tapmazdı, xalqın yaddaşında əbədiləşməzdi. Bir mahnının mətni bizə bu qədər informasiya verə bilər. Xalq mahnılarımız bir dəryadır. Onların hər biri keçmişimiz, adət-ənənələrimiz, milli xüsusiyyətlərimizlə bağlı xeyli məlumatı özündə qoruyub saxlayır. Onlarla hər təmas yeni-yeni həqiqətlərin üzə çıxmasına vəsilə olur. Xalq mahnılarımızın tədqiqində səmərəli nəticələr əldə etməkdən ötrü folklorşünaslıqdan başqa, etnoqrafiyanın, tarixin, dilçiliyin, müsiqişünaslığın imkanlarını səfərbər etmək, hər birinin üslub və metodlarından istifadə etmək vacibdir.

## ƏDƏBİYYAT

1. Abbaslı İ. Xalq mahnıları. Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı, 2004.
2. Afyonkarahisarda evlənmə törələri. TFA, 1970, №257.
3. Асафьев Б.В. О казахской народной музыке. Избранные труды. Т.5, М., 1957.
4. Aşıq Ələsgər. Əsərləri. Bakı, Şərq-Qərb, 2004.
5. Azərbaycan xalq mahnıları. 2 cilddə / Tərtib edən: Bülbül Məmmədov. Bakı, «İşıq», 1981-1982.
6. Azərbaycan xalq mahnı və təsnifləri (Tərtib edəni: Qafar Namazəliyev. Ön sözün müəllifi Tofiq Quliyev). Bakı, «İşıq» nəşriyyatı, 1985.
7. Бутанаев В.Я. К истории семьи и семейного права хакасов (XIX – нач. XX в.). Традиционные верования и быт народов Сибири XIX – начала XX в. М., «Наука», 1987.
8. Cəfərli M. Xalq mahnılarının folklor janrı kimi poetik-semantik xüsusiyyətləri (Naxçıvan folklor mühitinin materialları əsasında). Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XX kitab. Bakı, «Səda», 2006.
9. Cəfər M. Füzuli düşünür. B., 1959.
10. Дыренкова Н.Л. Пережитки материнского рода у алтайцев и телеут. Журн. «Советская этнография», 1937, №4.
11. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, «Maarif», 1992.
12. Ələkbərova L. SMOMPK məcmuəsində xalq nəğmələri. «Heydər Əliyev və Azərbaycan filologiyası» mövzusunda elmi konfransın materialları. Bakı, BDU nəşri, 2003.
13. İsazadə Ə. Azərbaycan musiqi folklorunun öyrənilməsi tarixindən. Azərbaycan xalq musiqisi (Oçerklər) Redaktoru: Əminə Eldarova. Bakı, «Elm» nəşriyyatı, 1981.
14. İsmayılzadə R. Azərbaycan xalq mahnıları. Azərbaycan xalq musiqisi (Oçerklər) Redaktoru: Əminə Eldarova. Bakı, «Elm» nəşriyyatı, 1981.
15. Qaqouz folkloru. Bakı, «Gənclik», 1996.
16. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah. I hissə. Bakı, «Elm», 1994.
17. Nəbiyev A. Milli təəssübkeşlik, yoxsa erməni saxtakarlığı. Bakı, BDU-nun nəşriyyatı, 2003.
18. Сакулин П.Н. Русская литература. часть I, М., 1928.
19. Веселовский А.Н. Две варшавских диссертации. «Вестник Европы». Том 10, 1872.

## ТЕКСТОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ НАРОДНЫХ ПЕСЕН
## РЕЗЮМЕ

В статье рассматриваются проблемы определения границ народных песен как жанра, их отличия от других жанров и, высказываются мнения об авторстве слов и музыки. Исследование проводится в русле реконструкции и уточнения оригинального текста с указанием причин искажений текста песен.

## TEXTUAL PROBLEMS IN FOLK-SONGS
## SUMMARY

This article is devoted to such problems as determination of the borders of folk-songs as a genre, their differentiation from the other genres, authorship of words and music. In the article are also indicated the reasons that cause distortion of the words of the songs. This research is directed to restoration and definition of the original text.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## DƏDƏ QORQUD TARİXİ ŞƏXSİYYƏT KİMİ

***Prof.Dr.Kamil Hüseynoğlu***
***AMEA Ədəbiyyat İnstitutu***
***Azərbaycan***

Qorqudşunasların əksəriyyəti indiyədək belə fikirdə olmuşlar ki, Dədə Qorqud mifik-epik bir obrazdır. Qorqudun tarixi şəxsiyyət olmasını söyləyən tədqiqatçılar isə bunu təsdiq edən ciddi və dəqiq tarixi faktlar gətirə bilməmişlər. Ancaq qorqudşünaslar belə bir fikirdə yekdildirlər ki, Qorqud obrazı oğuzların hələ Orta Asiyada yaşadıqları və şamanlığa etiqad etdikləri dövrdə (XI əsrə qədər) formalaşmışdır. X.Koroğlu haqlı olaraq qeyd edir ki, «Qorqud haqqında rəvayət və əfsanələrin ilkin variantlarının Orta Asiyada yaranması bu gün heç kimdə şübhə doğurmur» (2, s.29). Oğuzlar Ön Asiyaya gələrkən şifahi şəkildə söylədikləri Qorqud boylarını da özləri ilə gətirmiş və onları hələ X əsrdən qəbul etdikləri islam dininin xüsusiyyətlərinə və Qafqaz mühitinə tədricən uyğunlaşdırmışlar. Orta Asiyada Qorqud Ata haqqında yaranmış və bizim günlərədək gəlib çatmış əfsanə və rəvayətlərin əksəriyyətində o, şaman kimi təsvir olunmuşdur. Bu da təbiidir: Qorqud məhz burada yaşadığına görə onun haqqında burada yaranmış rəvayətlərdə öz tarixi xüsusiyyətlərini də müəyyən qədər saxlaya bilmişdir. Orta əsrlər müsəlman yazılı mənbələrində isə Dədə Qorqud əsasən müsəlman müqəddəsi və ya sərkərdə kimi təqdim edilir. X.Koroğlunun yazdığı kimi, «sərkərdə Qorqudun adına bir sıra orta əsrlər müəlliflərində – Zəhirəddin Nişapuridə (ö.1186), Əbülqazidə və s. rast gəlirik» (2, s.186). Oğuz qəhrəmanlıq dastanlarının hal-hazırda məlum olan «Kitabi-Dədə Qorqud» variantında isə Qorqud sərkərdə, döyüşçü yox, oğuz qəhrəmanlarının igidlikləri haqqında nəğmələr qoşan ozandır. Həmçinin bəzi yazılı mənbələrdə olduğu kimi, «Qorqud kitabı»nda qeyd edilir ki, Qorqud bayat elindəndir: «Rəsul Əleyhissəlam zamanına yaqın Bayat boyından, Qorqut ata diyərlər, bir ər qopdı» (1, 31). L.Qumilyovun yazdığına görə bayatılar qayı tayfası ilə birlikdə vaxtilə göytürklər tərəfindən Altaydan Orta Asiyaya qovulmuş və burada oğuz tayfalarına qoşulmuşlar (9, s.202).

Mütəxəssislər Qorqud haqqında qədim mənbələrdən məlumat əldə etmək üçün indiyədək onu «Qorqud» adı ilə axtarmışlar. Ancaq aşağıda görəcəyimiz kimi, «Qorqud» ləqəbi ona bayat elinin Orta Asiyaya gəlməsindən sonra verilmişdir. X əsrə qədər Orta Asiya çölərində sakit köçəri həyat sürmüş və buna görə də qədim tarixçilərin nəzərindən kənarda qalmış oğuzlar barədə isə həmin dövrədək heç bir məlumat verilməmişdir. Yalnız X əsrdə güclü dövlət yaratdıqdan sonra onlar tarixçilərin nəzərini özlərinə cəlb edə bilmişlər. Bu zamandan etibarən verilmiş məlumatlarda isə, təbiidir ki, Qorqud sonuncu adı ilə göstərilməli idi. Digər tərəfdən, oğuzların islam dinini qəbul etməsindən sonra Qorqud haqqında yazan tarixçilər ilkin mənbə kimi oğuzların şifahi yaradıcılığına müraciət etdiklərinə görə onların yazıya aldıqları məlumatlar rəvayət səciyyəsi daşımış və buna görə müasir tədqiqatçılar da onları əsasən əfsanə və rəvayət kimi qiymətləndirmişlər. Belə rəvayətlərin qədim Çin və Orxon mənbələrində verilmiş müvafiq məlumatlarla indiyədək müqayisə edilməməsi isə onların içərisində gizlənmiş tarixi həqiqətlərin aşkar edilməsinə imkan verməmişdir. Bütün təhriflərə baxmayaraq, müsəlman mənbələrində Qorqud haqqında verilmiş məlumatlarla tarixi həqiqətlər də vardır. Belə ki, XIV əsrin birinci yarısında yaşamış məşhur tarixçi Rəşidəddin Qorqud haqqında danışarkən qeyd edir ki, «bu Qorqud Bayat nəslindən olub, Qara xocanın oğlu idi. Çox ağıllı, bilikli və kəramət sahibi olan bir şəxs idi. İnal xan Sır Yavquyun dövründə meydana çıxmışdı» (6,43).

XVII əsrdə yaşamış Əbülqazi isə «Şəcəreyi-tərakimə» əsərində bu məlumatı təsdiq etməklə yanaşı, Qorqudun şəxsiyyətini və nə zaman yaşamasını müəyyənləşdirmək baxımından əhəmiyyət kəsb edən əlavə məlumatlar da vermişdir: «Qayı elindən Qara qoca oğlu Qorqud Atanın, salor elindən Enkeş xocanın və Avaşban xocanın başçılığı ilə bütün oğuz eli yığışdı və qayıdan İnal yavını hökmdar seçdi. Onun vəziri Qorqud Ata oldu. Qorqud Ata nə desəydi, İnal yavı onun sözündən dönməzdi. Qorqu Ata çoxlu qəribə işlər görmüşdü. O, 295 il ömür sürmüş və üç hökmdarın vəziri olmuşdur. İnal yavı 7 il hakimiyyətdə olmuşdur» (11, s.57).

Bunu da qeyd etmək lazımdır ki, Rəşidəddin və Əbülqazinin adları çəkilən əsərləri ilə tanışlıq göstərir ki, bu əsərlərdə təkcə oğuzlar haqqında yox, vaxtilə tərkibində oğuzların da olduqları böyük türk dövlətləri – Metenin Hun imperiyasından başlayaraq Səlcuq imperatorluğuna qədərki (Əbülqazidə isə XV əsrədək) dövlətlər barəsində əsrlər boyu şifahi şəkildə yaşamış və buna görə də rəvayətləşmiş epik məlumatlar verilmişdir. Yuxarıdakı sitatlarda təsvir edilən epik əhvalatlara və onlarla bağlı göstərilən adamların adlarına isə biz Böyük Göytürk xaqanlığının sonuncu əlli illiyində Altayda baş vermiş tarixi hadisələr zamanı təsadüf edirik. Belə ki, İnəl göy türklərin məşhur



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xanlarından olmuş Qapağan xanın kiçik oğludur və adı Orxon kitabələrində də çəkilmiş bu şəxs 716-cı ildə qısa bir müddətə «Kiçik xan» ləqəbi ilə taxta çıxarılmışdır (5, s.31, 45).

L.Qumilyov göy türklərin türkeşlər əleyhinə müharibəyə hazırlaşmasından danışarkən bu şəxsin də adını çəkmişdir: «O, (Qapağan xan – K.H.), arvadını dəfn etmək bəhanəsi ilə iqamətgahda qalıb, Alşuna 20 min süvari çıxarmağı tapşırdı. O, öz kiçik oğlu İnəl xaqanı və tarduş şahı Mogilyanı bu qoşunun rəisi, Tonyukuku isə müşavir rəhbər təyin etdi» (3, s.350).\

Qapağan xanın ölümündən sonra baş verən və bizi maraqlandıran hadisə barədə isə L.Qumilyov belə yazır: «Qanunun ziddinə olaraq Qapağan xan özünün «Kiçik xan» titulu daşıyan sevimli oğlunu varis etmişdi. Kül-tigin qoşun başçısı Alp Eletmişi öz tərəfinə çəkib, Kiçk xanı və onun müşavirlərini edam etdi və qanuni varis kimi öz qardaşını «Bilgə xaqan» titulu ilə taxta çıxardı» (9, s.162).

Əbülqazinin yuxarıda göstərilən sözlərinin təhlilinə keçməzdən əvvəl VIII əsrin 20-ci illərinə qədər Cənub-Şərqi Monqolustanda məskunlaşmış Bayat və Qayı tayfaları (12, s.9) haqqında «Taypinxuanyuyszi» adlı Çin tarix kitabındakı məlumata da nəzər salmaq lazımdır. Həmin mənbədə deyilir: «Baysi eli ayrıca bir hun tayfasıdır. Bayequlardan şərqdə yerləşir. On min nəfərdən ibarət seçmə qoşunu vardır. Adət-ənənələri türkyutlarla eynidir. Onların xidmətləri rəngarəngdir. Daima öz rəhbərlərini mükafatlandırırlar. Çin impreatorunun yanında onların rəhbərlərinin xüsusi hörməti vardır» (12, s.50). Qayı tayfası haqqında isə yenə həmin mənbədə deyilir: «Qyay eli Bayequdan şimal-şərqdə yerləşir. Ailələri maral və Çində olduğu kimi, inək və at saxlayırlar» (12, s.51).

Bayequlardan (bayrıklardan) söz düşmüşkən bunu da qeyd edək ki, 716-cı ildə bu tayfa göytürklərə qarşı üsyan qaldırmışdı. L.Qumilyov qeyd edir ki, üsyanı uğurla yatıran Qapağan xan döyüşdən geri dönərkən meşədə atdan yıxılaraq, öldürülmüşdü (9, 162). Bu hadisə də həm Rəşidəddin, həm də Əbülqazinin əsərində qeyd edilmişdir. Bayequları «yemekan», Qapağan xanı isə «Dib Yavquy» adlandıran Rəşidəddin yazır ki, sonuncu «oranı tarmar etdikdən sonra geri döndü. Ancaq ilahi qədərin əmrinə tabe oldu: atı sürüqşdü, bel sümüyü sınıb öldü» (6, 42).

Qapağan xanın ölümündən sonra xaqanlıqda yaranmış vəziyyət isə aşağıdakı kimi idi: Göytürklərin qoşunları ənənəvi olaraq sağ (şərq) və sol (qərb) cinahlara bölünürdü. Şərq cinah «tölis», qərb cinah isə «tarduş» adlanırdı. «Tarduş şadı» (rəhbəri) titulu «xan» titulundan sonra ən yüksək titul hesab edilirdi və bu vəzifəyə həmişə xanın varisi təyin edilirdi. Bundan əlavə, göytürklərdə taxt-tac varisliyi haqqında qanun mövcud idi. Həmin qanuna görə qardaş qardaşa, qardaş oğlu isə əmiyə varis olurdu. Bu qanuna əsasən Qutluqdan (İltərəs xaqandan) sonra onun qardaşı Qapağan xan (Moçur) xan olmuşdu. Qapağan xanın varisi isə Qutluğun böyük oğlu Mogilyan olmalı idi. Ancaq Qapağan xan taxt-tacı öz oğlu İnəl xaqana vermək istəyirdi. Bu məqsədlə o, şaddan yüksək sayılan «Kiçik-xan» rütbəsi yaratdı və onu oğluna verdi. L.Qumilyov qeyd edir ki, «bu ağıllı və fəal xan qardaşının yetim oğlanlarına olduqca pis münasibət göstərirdi. O, taxt-tacı öz oğluna vermək üçün onları (Mogilyanı və Kül-tigini – K.H.) həlak olacaqları ümidlə ən təhlükəli yürüşlərə göndirirdi» (9, s.158). Ancaq igid və istedadlı qardaşlar bütün döyüşlərdən uğurla çıxdılar və xaqanlığın həqiqi qəhrəmanlarına çevrildilər.

Buna baxmayaraq Qapağan xanın ölümündən sonra tölislərin yuxarıda adları çəkilən rəhbərləri Alp Eletmişin və Alp Alşunun, həmçinin bəzi tayfa başçılarının himayəsi sayəsində İnəl xaqan özünü xan elan etdi. Beləliklə, göy türk şahzadələri arasında hakimiyyət uğrunda mübarizə başlandı. Bu zaman Bayat və Qayı tayfalarının silahlı dəstələri tölislərin tabeliyində olduğuna görə onların rəhbərləri də İnəl xaqanın tərəfdarları sırasında olmuşlar. Əbülqazinin məlumatında da elə söhbət bu hadisələrdən gedir və onun səhvən Qorqudu qayı tayfasına mənsub etməsi də bu iki tayfanı birləşdirən müştərək məsəllər və onların sonrakı ümumi taleyi ilə bağlıdır. Bəhrələndiyi mənbədəki «tölis» (şərq cinah) sözünü isə Əbülqazi tayfa adı kimi başa düşərək, onu formaca oxşar «salor» adı ilə eyniləşdirmişdir. Oğuzlarda müvafiq hərbi-tayfa istilahları qədim dövrlərdə «uç-ok» (sağ cinah) və «boz-ok» (sol cinah) adlanırdı. Oğuzlar Azərbaycanda məskunlaşdıqdan sonra isə sağ (şərq) cinahın Xəzər dənizi vasitəsi ilə təbii şəkil-də mühafizə edilməsi səbəbilə ona «iç oğuz», sol (qərb) cinaha isə «tış oğuz» (kənar oğuz) deyilmişdir.

Tölislərin şadı Eletmişin adını Əbülqazi «Enkiş», onun köməkçisi Alşunun adını isə «Avaşban» şəklində yazmış, onların «alp» titulunu isə müsəlman istilahı olan «xacə» sözü ilə əvəz etmişdir. Burada bunu nəzərə almaq lazımdır ki, Əbülqazinin yaşadığı XVII əsrdə qədim türk adları artıq çoxdan unudulmuşdu və onların əvəzinə əsasən ərəb adları işlədilirdi. Ən mühüm şəxsin – İnəl xaqanın adını isə müəllif düzgün yazsa da, titulunu «yabqu» kimi vermişdir.

Bütün bu hadisələr barədə İnəl xaqanın dövründən təxminən min il sonra məlumat verən Əbülqazi həmin hadisələrlə bağlı daha iki nəfərin – Köl Erkinin və Tuylı Kayının da adını çəkir (11,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

s.58-59). Həm Əbülqazi, həm də Rəşidəddin Köl Erkini İnəl xaqanın iqamətgahında saray bəyi kimi təqdim edirlər. Bilgə xaqan kitabəsində də bu şəxs «iç (saray) buyruruğu Kül İrkin» kimi göstərilmişdir (BX c. 14). «Tuylı Kaya» adı da açıq-aydın Tonyukukun adını xatırladır. Bu hadisələrdən danışarkən Rəşidəddin yazır ki, İnəl xanın oğlu Tuman taxta oturandan «yüz gün keçdikdən sonra öz arzusu ilə taxtdan əl çəkdi və oğlu Tigin Bilə Ər Biçken xanı taxta oturtdu». Bu məlumatda tarixi hadisələr xeyli dəyişdirilsə də, aydındır ki, İnəl xaqanın qısamüddətli hakimiyyətindən sonra Bilgə xaqanın taxta çıxmasından danışılır. Rəşidəddin məlumatını davam etdirərək yazır ki, Bilə Ər Biçkenin ölümündən 15 il sonra uyğurlar onun oğlu Uladmur Yavquya düşmənçiliyə başladılar. Tarixdən məlumdur ki, həqiqətən də Bilgə xaqanın ölümündən (734-cü il) 8 il sonra – 742-ci ildə uyğurlar qarluq və basmıl tayfaları ilə birlikdə göytürkləri məğlubiyyətə uğratmışlar. Ancaq təxminən bir əsr sonra «qırğızlar 840-cı ildə Uyğur xaqanlığını yıxdıqdan sonra qarluq başçısı Qara xan özünü Uyğur xaqanlığının qanuni xələfi elan etdi» (4, s.7). Bu hadisələr də «Oğuznamə»də öz əksini tapmışdır: «Uladmur Yavquy xanın 75 illik hakimiyyətindən sonra Qara xan taxta keçdi. O, öləndən sonra isə... Qara xanın oğlu Buğra xanı padşalhlıq taxtına oturtdular» (18, 49). Ancaq tarixdən məlumdur ki, Satuk Buğra xan Qara xanın oğlu yox, nəvəsi olmuşdur (4, s.7).

Bütün bunlar aydın göstərir ki, burada Qorqudla bağlı söhbət məhz VIII əsrin I yarısında Böyük Göytürk xaqanlığında baş vermiş hadisələrdən, bu hadisələrin əsas iştirakçılarından gedir. Təhriflərə gəlincə, demək lazımdır ki, qədim türk adlarının istər Çin, istər Avropa və istərsə də müsəlman mənbələrində bir qayda olaraq yanlış və təqribi halda yazılması (yunanların «Platon» və «Aristotel» adlarına ərəblərin «Əflatun» və «Ərəstu», farsların «Daryuş» və «Koruş» adlarına yunanların «Dara» və «Kir», türkyutlara çinlilərin «tu-kyu», deməsi kimi) qədim dövr və orta əsrlər müəllifləri üçün adi haldır. Həmçinin daha qədim dövrlərdən danışarkən faktları qarışdımaq və həqiqi tarixi məlumatları epik əfsanələrlə zənginləşdirmək də orta əsrlər müsəlman müəlliflərinin hamısı üçün səciyyəvi olan bir xüsusiyyətdir.

Nəhayət, Əbülqazinin və Rəşidəddinin məlumatlarından aydın olur ki, İnəl xaqan xan olduğu müddətdə onun müşavirlərindən (vəzirlərindən) biri də Qorqud olmuşdur. O zaman xanın tabeliyində olan tayfa başçılarının öz tayfasının hərbi-siyasi rəhbəri kimi xanın məsləhətçiləri sırasında olması da adi hal idi. Bayat tayfası və onun Baysidəki (Bamsıdakı) sonuncu hakimi haqqında Çin mənbəsəindən aşağıda veriləcək məlumatlar da Əbülqazinin bu barədə yazdıqlarına və hadisələrin baş verdiyi dövrə tamamilə uyğun gəlir. Bütün bu deyilənlərdən aydın olur ki, bir sıra orta əsr müəlliflərinin Qorqudu sərkərdə və İnəl xaqanın müşavirlərindən biri kimi təqdim etmələri əfsanə yox, artıq xeyli dərəcədə rəvayətlərlə çulğaşmış həqiqətlərdir. Həmin hadisələrdən bəhs edən qədim türk və Çin mənbələrində isə «Qorqud» adına ona görə rast gəlinmir ki, Altayda olduğu zaman o, hələlik «Qorqud» ləqəbini almamışdı və aşağıda görəcəyimiz kimi, başqa adla adlandırılırdı. Çin mənbəsində Baysinin sonuncu əyalət hakimi haqqında belə deyilir:

«Syan-sinin hakimiyyətinin 5-ci ilində (660-cı ildə) Li xan-şu Baysidə dudu (əyalət hakimi) seçildi. Li xan-şu öləndən sonra onun kiçik qardaşı Syue-du Baysinin dudusu oldu. Bundan sonra Baysi elindən heç bir xəbər olmamışdır» (11, s.50).

Burada Syue-dunun hakimiyyətinin sonlarından «Baysi elindən heç bir xəbərin olmaması» faktının deyilməsi çox mühümdür. L.Qumilyovun yazdığı kimi, «Kül-tigin hakimiyyəti ələ aldıqdan sonra xanın bütün silahdaşlarını və məsləhətçilərini qılıncdan keçirtdi» (3, s.74). Məlumdur ki, o zaman xanın daimi müşavirlərindən fərqli olaraq, tayfa başçıları yalnız müəyyən toplantılar və ziyafətlər vaxtı onun iqamətgahına dəvət edilirdilər. Görünür, məhz bu səbəbdən də Qorqud sağ qalmış və sonradan öz tayfası ilə birlikdə Baysini tərk edib, hələ VII əsrin sonlarından Yeddiçay (qazax dilində - Yeddisu) ərazisinə gəlmiş oğuz tayfalarının yanına qaçmalı olmuşdur. Ərəb coğrafiyaçısı İdrisinin məşhur xəritəsində də Balxaş gölünün cənub sahillərində «Qorqud» adlı qala olduğu göstərilmişdir.

Qorqudun Baysi elinin sonuncu hakimi olduğu dövrdə daşıdığı ada gəlincə, qeyd etmək lazımdır ki, Çin transkripsiyasında xarici adlar təhrif olunmuş halda verilsə də, sözlərin ilk səsi bir qayda olaraq saxlanılır. Buna görə də «Syue-du» səs birləşməsini «Qorqud» adı ilə eyniləşdirmək heç cür mümkün deyildir. Burada belə bir faktı da xatırlatmaq lazımdır ki, L.Qumilyovun yazdığı kimi, qədim türklərdə «adların heç bir kanonlaşdırılmamışdır; onlar təsviri xarakter daşıyır, şəxsin yaşının, ictimai vəzifəsinin dəyişməsi ilə əlaqədar həmin adlar da dəyişirdi. Onları ləqəb adlandırmaq daha yerinə düşər» (3, s.99). «Qorqud kitabı»nda Qorqudun Dirsə xana «bir buğa öldürmüş sənin oğlun, adı Buğac olsun» (1, s.36) deməsi də bu baxımdan təsadüf deyildir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çin mənbələrində verilmiş türk adlarının düzgün formaları əsasən onların Orxon-Yenisey və b. türk mənbələrindəki analoqları ilə müqayisə əsasında müəyyənləşdirilir. «Syue-du» adı Orxon kitabələrində tayfa başçıları arasında qeyd olunan «Sanun Tirə» adına daha çox uyğun gəlir (St. 1a.13).

Beləliklə, İnəl xaqanı taxta çıxaran tayfa başçılarından birinin Qorqud olması barədə Əbülqazinin verdiyi məlumat digər mötəbər mənbələr tərəfindən də, dlayı yolla olsa da, təsdiqlənir. Göytürk və Çin mənbələrində bu barədə müstəqim məlumatların olmamasının səbəbi isə aydındır: Böyük Göytürk Xaqanlığı tarixindəki rolu baxımından göytürklərə tabe olan çoxsaylı türk tayfalarından nisbətən kiçiklərindən birinin rəhbəri kimi Qorqudun adı o qədər də mühüm əhəmiyyət kəsb etmədiyinə görə ona geniş yer verilməmişdir. Ancaq İnəl xaqanla bağlı olan və onun ölümündən sonra baş vermiş hadisələr bayat tayfasının öz tarixində taleyüklü dəyişikliklərə səbəb olduğuna və həmin dövrdə bayat elinə Qorqudun rəhbərlik etdiyinə görə «İnəl» və «Qorqud» adları bayatların tarixi yaddaşında silinməz izlər qoymuşdur.

«Dədə Qorqud» ifadəsindəki «dədə» sözü isə çinlilərin «dudu» sözünün oğuz ləhcəsinə uyğunlaşdırılmış variantıdır. «Qədim türk sözlüyündə» də bu söz Çin sözü kimi və «əyalət hakimi» mənasında izah edilmiş və bu istilahın qədim türklər arasında «ağa» mənasında titul kimi işlədilməsi qeyd edilmişdir. Qədim türk xalqlarında tayfa başçısının əksər hallada həm də dini rəhbər vəzifəsini yerinə yetirməsinə görə bu söz şamanlarda (10, s.593) «ali ruhani» mənasını da kəsb etmişdir (13, s.46-7). Termin adiləşdikdən sonra isə ailədə «ağa» rolunun ataya, yoxsa babaya məxsus olmasından asılı olaraq bəzi evlərdə ataya, digərlərində isə babaya «dədə» deyilmşidir. Məhz buna görə də indi «dədə» sözü Azərbaycanda əsasən «ata» (father) Türkiyədə isə «baba» (grandfather) mənasında işlənir.

Yuxarıda verilən məlumatlar «Qorqud» sözünün özünün etimologiyasını müəyyənləşdirməyə də imkan verir. Çin mənbəsindən gətirilən sitatda qeyd edilmişdi ki, bayatların «adət-ənənələri türkyutlarla eynidir». Türkyutların isə totemist olmaları və qurda sitayiş etmələri məlumdur. A.Şükürov «Türk mifologiyası» kitabında qeyd edir ki, qədim türklər qurda Tanrı oğlu kimi baxırdılar və Tanrı oğlunun da əsas funksiyası xilaskarlıq idi (7, s.102). Türkyutların da məhz bu səbəbdən öz xilaskarlarını «ləyaqətli qurd» adlandırmaları barədə L.Qumilyovun verdiyi məlumat bizim tədqiqatımız üçün olduqca mühüm əhəmiyyət kəsb edir. Onun yazdığına görə, IV əsrdə tobalılar Şimali Çini fəth etdikləri zaman məğlub edilən tayfalar arasında beş yüz Aşina ailəsi də var idi və bu beş yüz ailə hunlarla syanbilərin (qədim monqolların) «müxtəlif tayfalarının qaynayıb-qarışmasından yaranmışdı» (3, s.30). 439-cu ildə bu tayfanın başçısı özünün beş yüz ailəsi ilə birlikdə Altay dağlarının cənubuna qaçıb, burada çoxsaylı türkdilli tayfalar arasında məskunlaşdı (10, s.31, 34). Bu tayfa birləşməsinin öz başçılarına verdikləri «Aşina» adını isə L.Qumilyov belə izah etmişdir: «Aşina» sözünün mənası «canavar»deməkdir. Türk dilində canavara «böri», yaxud «kaskır», monqol dilində isə «şono» deyirdilər. «A» Çin dilində hörmət önşəkilçisidir. Başqa sözlə, «Aşina» - «nəcib canvar» deməkdir (3, s.31).

«Qorqud kitabı»ndakı Bamsı Beyrəyin atası Qam Börənin adında da «böri» sözünü görməmək mümkün deyildir (Bamsı Beyrəyin adı isə Altayda, çox güman ki, «Baysi Bayrık» (Baysi qartalı) formasında olmuşdur). Türk xalqları içərisində yalnız oğuzlar canavara «qurd» demişlər. Z.Toğanın yazdığına görə, bəzi türk tayfaları qurda əcdad (məsələn, çiğil, yağma, qarluq tayfaları), digərləri əcdad-xilaskar (məsələn, göytürklər), oğuzlar və qıpçaqlar isə yalnız xilaskar kimi baxmışlar (8, s.103). «Qorqud kitabı»nda da Qazan xan özünü təqdim edəndə «Qorxu bilməz qurd balası erkəyində bir köküm var» (1, s.217) deyir. Bütün bu deyilənlərə əsasən belə düşünmək olar ki, bayat eli də Orta Asiyaya – oğuzların yanına gəldikdən sonra bu eli təhlükədən xilas etmiş tayfa başçısına burada «Qor-qurd» ləqəbi verilmişdir. «Qor» sözünün «Qədim türk sözlüyündə» «hörmət», «ləyaqət», «şan-şöhrət» bildirən bir söz kimi izah edilməsi (10, s.467) bu fikri daha da gücləndirir. Orxon kitabələrində də «qor» sözü «şan-şöhrət», «ləyaqət» mənasında işlənmişdir: «Bu yerdə mənə qor boltı» (Bu yerdə mən şan-şöhrət qazandım) (5, s.102). Məlumdur ki, «Qorqud kitabı»nın Vatikan nüsxəsində də Qorqudun adı «Qorqurd» şəklində yazılmışdır. «Şanlı qurd» ləqəbinin bayatların Altay ləhcəsində (Qor-böri) yox, oğuz ləhcəsində (Qor-qurd) yayılması isə Orta Asiyada Qorqudun oğuz tayfaları arasında bir şaman ruhanisi kimi böyük hörmət qazanmasından xəbər verir.

«Qorq-qurd» (şanlı qurd) ifadəsinin substansivləşərək, bir mürəkkəb sözə, ada çevrilməsindən sonra sözün asan tələffüzü naminə «Qorqurd» adından «r» səsinin düşməsi isə dil qaydaları baxımından nəinki təbii, hətta zəruri bir haldır.

Bunu da qeyd etmək lazımdır ki, «Qorqud» adının ikinci hissəsindəki «qud» (qut) sözünün «can», «ruh» mənası da vardır (10, 471). Belə halda «Qorqud» adını «Şanlı ruh» kimi anlamaq da olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ancaq «Qorqud» adının qurdla əlaqəsinə dair türk xalqları tarixində məlumatlar olduğuna görə biz birinci varianta üstünlük veririk. Məsələn, rus salnaməçilərinin məlumatlarına əsasən peçeneq tayfa başçılarından olan bir sərkərdə – şaman həmişə döyüşdən əvvəlki gecə qoşundan ayrılaraq, qurd kimi ulamaqla hami qurddan sabahkı döyüşün uğurlu olub-olmayacağını öyrənirmiş.

«Mənbələrdə Qorqudun doğum və ölüm tarixi barədə heç bir konkret məlumata rast gəlinmir. Ancaq Əbülqazinin adı çəkilən əsərində deyilir ki, o, «peyğəmbərimizin anasının kiçik qardaşı Abbasın nəvələri Bağdad şəhərində hakim olanda» (11, s.56) yaşayıb. Məlumdur ki, «Abbasın nəvələri» (Abbasilər) 749-cu ildə Bağdadda hakimiyyəti ələ almışlar. Deməli, bu məlumata əsasən 750-ci-ci illərdə Qorqud sağ olmuşdur. Onun yaşı barədə isə mənbələrdə əfsanəvi bir rəqəm – 295 il göstərilir. İstər-istəməz belə bir sual yaranır: nəyə görə 300 il yox, məhz 295 il? Çox güman ki, əvvəlcə bu rəqəm həqiqətə yaxın 95 il olmuşdur. Ancaq obraz əfsanələşdikdən sonra epik obraz üçün 95 il adi görünmüş və bu rəqəmə daha 200 il əlavə edilmişdir. Əgər Qorqudun 95 il yaşaması barədəki məlumatı düzgün hesab etsək və 750-ci illəri bu ömürün sonu kimi qəbul etsək (onun həyatı ilə bağlı yuxarıda verilən faktlar bunu tələb edir), onda belə görünür ki, o, 655-665-ci illər arasında doğulmuşdur. Bu isə «Qorqud kitabı»nın əvvəlində deyilən «Rəsul əleyhissəlam zamanına yaqın bayat boyundan, Qorqud ata deyərlər, bir ər qopdı» cümləsində göstərilən zamana tamamilə uyğundur.

## QAYNAQLAR

1. «Kitabi – Dədə Qorqud». Tərtib edənlər: F.Zeynalov, S.Əlizadə, B., 1998.
2. Koroğlu X. Oğuz qəhrəmanlıq dastanı. B., 1999.
3. Qumilyov L. Qədim türklər. B., 1993.
4. Özdək R. Türkün qızıl kitabı. II kitab. B., 1993.
5. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. B., 1993.
6. Rəşidəddin F. Oğuznamə. B., 1992.
7. Şükürov A. Mifologiya. 6-cı kitab. Türk mifologiyası. B., 1997.
8. Toğan Z. Rəşidəddin «Oğuznamə»si. İstanbul, 1972.
9. Гумилев Л. Тысячелетие вокруг Каспия. Б., 1991.
10. «Древнетюркский словарь». Л., 1969.
11. Кононов А.Н. Родословная туркмен, сочинение Абу-л-Гази-хана Хвинского. М.-Л., 1958.
12. Кюнер Н.В. Китайские сведения о народах Южной Сибири, Центральной Азии и Дальнего Востока. М., 1961.
13. Смоляк А.В. Шаман: личность, функции, мировоззрение. М. 1991.

## РЕЗЮМЕ

### Коркут как историческая личность

В статье автор, исходя из сведений о Коркуте, содержащихся в средневековых мусульманских, китайских и орхонских источниках, а также из самого текста эпоса «Книга Коркута», предпринимает попытку рассматривать образ Коркута как историческая личность. На основе этих сведений, подтверждающих и дополняющих друг друга, автор приходит к выводу о том, что Коркут жил во второй половине VII – первой половине VIII вв. и возглавлял племя Баят.

До 20-х годов VIII в. племена Баят и Кайы были поселены на востоке Монголстана. А после смены власти во Втором Тюркском каганате и прихода к власти братьев Бильге-каган и Кюл-тигин, оба племени были вынуждены переселиться на южные побережья озера Балхаш, где жили огузские племена.

## SUMMARY

### "Gorgud as a historical person"

In the article the author issues from the information about Gorgud, containing in the Middle ages Moslems, Chinese, orchon sources and also from the same text of the epos "Book of Gorgud", undertakes the effort to consider the character of Gorgud as a historical person. On the base of this information, confirmations and complementary one another the author comes to a conclusion that Gorgud lived in the second half of the VII century and in the first half of the VIII century and headed the tribe Bayat.

Till the twenties years of the VIII century the tribes Bayat and Kayi lived in the east present territories of Mongolia.

But after changing power in the Second Turkic Khaganate and advent to power Bilge-khagan brothers and Kyul-tigin, both tribes were forced to move on the south sides of Lake Balkhash where oguz tribes lived.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XATIRƏLƏRDIR NAĞILLAR; TARIXIN İZLƏRI NAĞILLARIMIZDA

***Kazım Əbbasi***
***İran***

İnsan oğlunun başqa canlılara görə həyatda yüksəlişinin bir çox nədəni olsada onlardan biri, bəlkədə ən önəmlisi, onun yaradıcılıq qabiliyyəti olmuşdur. İnsan öz yaradıcılıq gücündən yararlanaraq güclü təbiətə meydan oxumuş, bir çox alanda isə onu yenmişdir. Onun qazancı təkcə teknik alanı deyil, düşüncə, fəlsəfə, kültür, ədəbiyyat, musiqi, və... sahələrindədə görünməkdədir. İnsanın şifahi ədəbiyyat yaradıcılığı onun ümum yaradıcılıq okeanından bir damla olsada, bu damla özü okeanlarca zəngindir. Azərbaycan şifahi xalq ədəbiyyatının zəngin və çeşitli qollarına bir çox əsərdə toxunulubdur, ancaq bu məqalədə həmin ədəbiyyat şah əsərlərindən təkcə nağıllar göz önünə qoyulmuşdur. Ancaq folklor sahəsində aparıla bilən araşdırmaların çeşitliliyini öncə gözdən keçirək.

19-cu yüz ilin ikinci onilliyindən başlayaraq folklor üzrə araşdırmalar aparılmağa başlamışdır(Əfədiyev, 1991). Bu araşdırmaların toxunduqları qonular o gündən bu günümüzə kimi diqqətə layiq çeşitli alanlar yaratmışdır. Bunlar dünyanın bir çox ölkələri üniversitələrində özəl məktəblər adı altında yaranıb yararlanan araşdırma tərzləridir. Bu çeşitli məktəblərdə folklor materiallarının yaranış yeri, yaranış tarixi, yaranış prosəsi, hansı toplumlarda yaranması, yarandıqdan bu günə kimi uğradığı dəyişikliklər, materialların sənətkarlıq yönü, toplumda olan rolu və fonksyonu, habelə onun form və şəkil necəliyi açıqlanmaqdadır(Bədrei, 1992:). Folklor üzrə aparılan araşdırmaların bəziləri bu günkü etnik özəlliklərini folklor materiallarında axtarmaqla milli ruhun güclənməsinə, nəhayətdədə Nasyonalism düşüncəsinin bu qaynaqlardan yararlanmasına yardım etmək istəyərək yaranmışlar. Əlbəttə folklordan faydalanmaq təkcə nasyonalism ideolojisinə məxsus deyildir və başqa ideolojilərdə bunlardan faydalanmışlar(Bədrei, 1992:). Bəzi araşdırmalara əsasən folklor materialları pesikolojik anlamlar üzrə də açıqlanmışdır(Betelhaym, 1967), bəzilərində bu materiallerin simbolik özəllikləri və həmin sırların açılması göz önünə tutulmuş(Delachaux, 1987), başqalarında isə folklor materiallarının qalib və form necəliyi araştırma masasına qoyulmuşdur(Propp, 1989).

Bir sıra araşdırmalarda tarixdə baş vermiş hadisələrin yenidən düzənlənməsi əsas yer almışdır. Başqa sözlə, folklordan yararlanaraq tarixi yenidən düzənləmə amacı göz önünə tutulmuşdur. Misal üçün 18.ci yüzildə, İtaliyan filosofu Viko mitləri tarix kimi qarşılamışdır(bayat, 30:2005). Viko-nun mitlərə görə olan görüşünü şifahi ədəbiyyatın başqa janrları üçündə keçərli görmək çox da yersiz olmamalıdır.

Nağıllar keçmişlərdən xatirədirlərsə, ancaq bunların xatirə olduqlarını üzə çıxarmaq çoxda rahat olmamışdır. Amma 1995-in son aylarında topladığım çox qısa bir nağıl rahatlıqca nağıllarımızın bu önünü isbat edəcəkdir. Həmin nağılı “Əli Qasimiyan” adlı 12 yaşında olan bir öyrəncimdən öyrəndim. Bunu zəbt elədiyim gündən onun həm form özəlliyinə həm isə məzmun eşsizliyinə həyəcanla yanaşaraq heyran qalmışdım. Əlbəttə bu nağılın özəl formu, qaynaq şəxsin kiçik yaşlılığındanda asılı ola bilər; çünkü eyni nağıl həm öyrəncim həm isə yaşlı birinin tərəfindən söyləndikdə bir sıra təsvir və şəkil fərqlərinin şahidi olmuşdum. Ancaq bu qısa nağılın məzmunu tarixi sənədlərlə qarşı-qarşıya qoyulduqda gözlərimiz önündə canlanan şey eşsiz bir uyğunluqdur. “Sayın Qala” (Şahin Dej) şəhrinin dağlıq bölgələrində yerləşən “Ala Göz” kəndindən olan “Əli Qasimiyan”-dan öyrəndiyim nağıl belədir:

“*Bir oğlan bir nənəsi var idi. Nənəsi ((məni qəbirstanlığı olmuyan yerə apar)) deyib. Oğlan gətirib görüb elə hər yerdə qəbirstanlıq var. Bir kəndə gəlib görüb qəbirstanlıq yoxdu. Kənd adamı gəlib oğlana ((gəl bizə naxırçı ol)) deyib. Oğlan ((yaxşı)) deyib, naxırçı olub. Bir gün oğlan naxıra getmiş bir qız bunun nənəsinin yanına gəlib. Nənəsinin başı ağrıyırmış, qıza ((mənim belə başım ağrıyır)) deyib. Qız qaçıb kənd adamına xəbər verib, gəlib nənənin başını kəsiblər, ətini kəndə dağıdıblar, bir azınıda naxırçıya saxlayıblar. Axşam naxırçı gələndə qız gedib xəbər verib ((naxırçı, nənən öldü ətindən qalan sənin payın da orda)). Naxırçı deyib ((o əti də verdim sənə qaç ged göter ye)). Naxırçı gəlib gecələr qaçıb gedirmiş günüzlər gizlənirmiş.*” (son)

Oğlan nağılı qurtaranda heyranlığı gözlərimdə gördükdə ((ağa o kənddə adam əti yeyərmişlər da)) dedi.

“Əfsanələr çox mürəkkəb kültərəl material olduqları üçün çeşitli yönlədən açıqlamağa layiq gərçək-ərdilər”(Eliade, 11:1988). Həmin nağıl isə bu qayda əsasında çeşitli baxımlardan açıqlanmalıdır. Burada nağılın form necəliyinə toxunmadan, onun daşıdığı məzmuna bir neçə yöndən yanaşırıq.

Nağılın ilk cümlələrində ananın qəbirstanlığı olmayan kəndə getmək isrədiyində insanların hər zamanki ən yayqın arzu və istəkləri ilə qarşılaşırıq: ölməzlik. Yung-un mitlərə görə dediyi “hər nədən çox bilim altı istəklərin aynasıdırlar”(Bastid, 34:1991) sözünü göz önünə alarsaq, nağılın ilk bölümü isə əski mitlərdə əks sədasını tapan istəklərin bir örnəyi olabiləcəkdir. Ölüm və ölməzlik qonusuna toxunan mitlərin ən tanınmışlarından, sumerlərin Qılqəmiş mitindən ad aparmaq olar. Həmin mitdə Enkidu öldüyündə, Qılqəmiş ölümün üzünü dostunun üzünün çizgilərində gördü; “bala-bala bir fikri beynində yetişdirməyə başladı. Dünyanın sonunda, əl yetməz bir adada, savaşın və ölümün caynağından canını qurtaran bir qocanın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaşadığını eşitmişdi. Beləliklə Umnapishti adlanan bu qocanı tapıb, ölməzlik sırrını ondan öyrənməyə qalxdı. Bir an dayanmadan kimsə ilə danışmadan yola düşdü"(Grimal, 69:1990). Göründüyü kimi qeydə aldığımız nağıl düşünmək qabiliyyətinə malik insanı hər zaman maraqlandıran bir mövzu və cümlə ilə başlanır. Başqa sözlə, həmin nağılın ölüm qonusuna toxunmağı onun ən önəmli özəlliklərindən olmuşdur.

Bu qısa nağılın ikinci diqqətə layiq qonusu yaşlıların, yəni qarı-qocanın ətrafında olan düşüncə və davranışların araya gəlməsidir. Nağıla bu baxımdan yanaşırsaq, bu günkü dünyanın özəlliklərindən olan *yaşlılar saray*larının gərçəkliyinə yeni bir açıdan baxmaq mümkün olacaqdır. Nağılın daşıdığı bu anlam göstərir ki,yaşlılıq və onun törətdiyi problemlər hər zaman insanı düşündürmüş və çeşitli toplumlar, ayrı-ayrı zamanlarda, çeşitli yollarla bunun həllinə çalışmışlar. Toplumların yaşlılığa nə sayaq yanaşmalarının ən düzgün qaynaqlarından biri, təbii ki, şifahi xalq ədəbiyyatıdır.

Söz qonusu olan həmin nağılda yaşlılığı nə sayaq qarşılamaq tarixi sənədlər ilə də, heyrətləndirəcək qədər, uyğunluq göstərməkdədir. Beləliklə nağılda açıqlanacaq üçüncü qonu tarixin dərinliklərində mövcud olan ayinlər və mərasimlər ilə ilgilidir. Paul Saintyves-in düşündüyünə görə "nağıllarda çıxış edən tiplər, mərasim və ayinlərin bu gün unudulmuş aparıcılarıdırlar"(Delachaux, 7:1987). Həmin nağılda isə söz qonusu olan ayin və mərasim, qurbanlıq mərasimidir.

Öncə dediyimiz kimi, nağılda qeydə alınan mövzu tarixi sənədlər ilə paralel bir durum içərisindədir. Sakaların bir qolu olan Derbikler-in arasında insan qurbanlığı gələnəyi varımış. Onlar yetmiş yaşına çatmış kişi və qadınları qurbanlıq edib, ətini qohum-əqrəba arasında paylayıb yeyərdilər(Mustəfəvi, 1990:73). Habelə Issedon-lar arasında ölən atanın ətini yemək dəbi var idi. Herodot demişdir: birinin atası ölən zaman qohumlar hər biri ölünün ailəsinə bir heyvan təqdim edər. Həmin qurbanlıqların ətini ölən atanın əti ilə birgə pişirib törən qurarlar, sonra da bütün bu ətləri yeyərlər_ 26-cı yaddaşt(Mustəfəvi, 1990:73-74). Bu kimi dəb masajetlər arasındada vardır. Onlar, qohumlar toplanaraq, qocalıq yaşlarına çatmış kişini qoyunlar və inəklər ilə birgə qurbanlıq edib, ətləri yaxşıca pişəndən sonra yeyərlər(Behzadi, **1994:95).** Masajetlər həmin gələnəyin nədənini bu adamın ayaqdan düşməgin və qocalığın acılarından qurtulacağında bilirlər(Mustəfəvi, 1990:74). Habelə kaspilər arasında yetmiş yaşına çatmış birini aclıq çəkdirərək qurbanlıq etmə dəbi varımış (Mustəfəvi, 1990:74).

Bütün bu dəblərə və gələnəklərə öz zamanlarına görə yanaşmaq lazımdır, yoxsa bunların bu günümüz üçün nə qədər uyğunsuz olduqları ap-aydındır; ancaq bu kimi adətlərə dəb deyil, vəhşilik adı ilə yanaşmaq yanılmaqdır. Çünkü burada adam əti yemək qarın doyurmaq niyyəti ilə olmamışdır, onlar bu görüntüləri yaratdıqda ayinlər və gələnəklərini yerinə yetirirdilər. Bu kimi insan qurbanlığı gələnəkləri dünyanın çeşitli bölgələrində və çeşitli etniklər arasında səbt edilmişdir.

Hər halda sinələrdə yaşayan nağıllar toplum yaradıcılığının subutudur, toplum sənətkarlığıdır, keçmişin dünya görüşü, yaşam tərzi, məişət necəliyi, baş varmiş hadisələrin izləri, toplum necəliyi, inamları, arzuları, məhəbbətləri və öfkələridir. Nağıllar haqqında bütün bunları demək yerli olsada, "xatirələrdir nağıllar" demək isə yerlidir.

**QAYNAQLAR**

-Bastide, Roger(1991), Daneşe əsatir, Cəlal Səttari (Farscaya çevirən), Tehran, Tus nəşriyyatı, birinci çap.

-Bayat, Fuzuli(2005), Mitolojiyə giriş, Çorum, karam nəşriyyatı.

- Behzadi, Ruqəyyə(1994), Qomhaye kohəne Asiyaye mərkəzi və fəlate İran, Tehran, xaricə işlər nazirliyi nəşriyyatı, birinci çap.

-Betelhaym, Brono(1967), Karbordhaye əfsun, Farscaya çevirən: Kazım Şiva Rəzəvi, Tehran, birinci çap (Farrca çap tarixi qeydə akınmamışdır).

-Bədrei, Firiydun(1989), bu kitabın ön sözü: Propp, Vladimir, Rixtşenasiye qessehaye pəryan (Farscaya çevrilmiş), Tehran, Tus nəşriyyatı, birinci çap.

-Bədrei, Firiydun(1992), bu kitabın ön sözü: Propp, Vladimir, Rişehaye tarixiye qessehaye pəryan (Farscaya çevrilmiş), Tehran, Tus nəşriyyatı, birinci çap.

-Delachaux, M.Loeffler(1987), Zəbane rəmziye qessehaye pərivar, Cəlal Səttari (Farscaya çevirən), Tehran, Tus nəşriyyatı, birinci çap.

-Eliade, Mircea(1988), Əfsane və vaqeiyyət, Nəsrullah Zənqui (Farscaya çevirən), Tehran, Papirus nəşriyyatı, birinci çap.

-Əfəndiyev, Paşa(1992), Azərbaycan şifahi xalq ədəbiyyatı, bakı, Maarif nəşriyyatı.

-Grimal, Pierre(1990), Osturehaye Babol və İrane bastan, İrəc Əliabadi (Farscaya çevirən), Tehran, İnqilabe İslami nəşriyyatı, birinci çap.

- Mustəfəvi, ƏliƏsğər(1990), Ostureye qorbani (Farsca), nəşr edən yazıçı, birinci çap.

-Propp, Vladimir, Rixtşenasiye qessehaye pəryan, Firiydun Bədrei (Farscaya çevirən), Tehran, Tus nəşriyyatı, birinci çap.

-Öz topladığım nağıl arşivindən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRK DÜNYASI DESTANCILIK GELENEĞİ VE BU GELENEK İÇERİSİNDE ALPAMIŞ DESTANI

***Kemal Üçüncü***
***Karadeniz Teknik Üniversitesi***
***Turkiye***

Türklük bilim araştırmacıları arasında Türk uygarlığının doğduğu ve geliştiği coğrafî mekân hakkında tam bir uzlaşma sağlanamamıştır. Genel kabullere göre "Altay dağları" "Tanrı dağları-kuzey batı Asya sahası", İrtiş-Urallar arası", "Altay-Kırgız bozkırları arası", "Baykal Gölünün güney batısı, Altayların doğusu veya 90. boylamın doğusu (Kafesoğlu, 1999:48) gibi tarifler varsa da, bu hususta tam bir anlaşmaya varmak mümkün değildir.

Bazı kaynaklarda, eski Türklerin Akdeniz ve Hazar Denizi'nin arasında yaşadığı ve M.Ö. 3000'de Sibirya'ya ulaştığı belirtilir (Erkin, 1994: 34). Son yıllarda yapılan bazı antropolojik ve linguistik araştırmalar, Türk yurdunun Altay dağlarında değil, Volga-Ural nehirleri arasında Azerbaycan, Kafkasya ve Doğu Anadolu olduğunu ortaya koymaktadır.

Klâsik dönem coğrafya literatüründe eski dünya olarak adlandırılan Asya, Avrupa ve Afrika kıtalarının toplam yüzölçümü 85 milyon kilometrekaredir. Bu alanın 55 milyon kilometrekaresi, başlangıcından günümüze kadar olan tarihsel süreç içerisinde farklı Türk boyları tarafından yönetilmiş, yurt edinilmiş veya siyasî olarak kontrol altında tutulmuştur. Bu coğrafî derinlik bağlamında -coğrafyanın görece daha dar bir alanında- Türk kültür ve medeniyeti, çağlar içinde ulaştığı en uç nokta itibarıyla 20-90 doğu boylamları ile 33-65 kuzey enlemleri arsındaki coğrafyada, kültür ve medeniyetini inşa etmiştir. Bu coğrafya, aynı zamanda Türklerin tarihsel coğrafyasıdır.

Bu tarihsel context[bağlam] içerisinde Türk sözlü kültür geleneği ve Türk destancılık geleneği muazzam bir kültürel hazinedir. MÖ. VI. yüzyıldan MS. I. yüzyıla kadar olan süreç Türk destancılık geleneğinin ilk çekirdek vakalarının Avrasya bozkırlarında teşekkül ettiği dönemdir. Türk kültür ve medeniyetinin tarihsel ve sosyal şartlara bağlı olarak gelişmesi ve dünyanın farklı bölgelerine dağılması neticesinde Türk kültürü de onunla beraber yayılmaya başlamıştır.

Yeni coğrafyalara intibakla beraber folklor unsurları da beraberinde taşınmıştır. Duğudan Batıya Türk dünyasına baktığımızda aynı motifin işlemelerde tokunduğunu aynı etnonimlerin farklı bölgelerde mükerreren verildiğini görürsünüz.

Destancılık geleneği de bundan farklı değildir. Köroğlu destanı , Oğuz destanı bütün bu coğrafyanın ve komşu toplulukların sözlü kültürüne işlemiştir. Bu bağlamda ***Alpamış*** destanı Türk dünyası epik geleneğinin en önemli hazinelerinden biridir. Altaylarda Alıp Manaş, Kazaklar Alpamıs, Özbeklerde Alpamış, Oğuznamelerde ve Oğuz geleneğinde Bey Böyrek olarak anlatılır. İdil Ural'da yine farklı versiyonları ile anatılır.

Bildirimizde Alpamış destanı ekseninde Türk destancılık geleneğinin ortaklıklarını bu ortaklığın Türk sözlü kültürü içerisindeki işlevini,bir folklor metninin destandan hikayeye, masala ve efsaneye dönüşümünü incelemeye çalışcağız.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCANDA İSLAMA QƏDƏRKI DINI INAMLAR VƏ ONLARIN ƏDƏBIYYAT VƏ INCƏSƏNƏTDƏKI PROTOTIPLƏRI

***Prof. Dr.Kübra Əliyeva***
***Azərbaycan***

Yer kürəsində yaşayan altı milyard insan bu və ya digər dinlərə etiqad edirlər. Hazırda dünyada iki milyard xristian və bir milyard yarım müsəlman vardır. Yerdə qalan insanlar isə buddizm, animizm, atəşpərəstlik, musəvilik, induizm, sintoizm və s. dinlərə inanırlar. Yer kürəsinin beş qitəsinin üçünün əhalisi müsəlmanlardır. Hazırda hər gün Amerikada üç nəfər, Avropada dörd nəfər islamı qəbul edir. İslam dini dünyada qabaqcıl dinlərdən hesab edilir və bu dinin 1400 il tarixi var.

Azərbaycan islam dinini VII əsrdə digər şərq ölkələrindən gec qəbul etmişdir. Bunun da əsas səbəbi Azərbaycanda çoxköklü qədim dinlərin olması idi.

Azərbaycanda olan qədim inamlara totemizm, şamanlıq, animizm, büdpərəstlik, zərdüştçülük aiddir. İstər cənub və istərsə də şimali Azərbaycanın ərazisində arxeoloqların apardıqları qazıntılar zamanı əldə edilən zəngin maddi mədəniyyət nümunələri, Qobustan qaya təsvirləri, əcdadlarımızın ilkin inamları haqqında məlumat verir.

Qobustan qaya rəsmlərini araşdıran alimlərin tətqiqatlarına görə mezolit və neolit dövründə Qobustan sakinləri dindən çox uzaq olmuşlar. Onlar kortəbii qüvvələrə qarşı kollektiv halında mübarizə apararkən yalnız öz iradələrinə və bədənlərinin fiziki möhkəmliyinə arxalanmışlar. Lakin e. ə IV-III minilliklərdə Qobustan sakinləri ov prosesində heyvanları ovsunlamaq xeyirxah və bədxah ruhlara təsir etmək üçün sehrkarlıqdan istifadə etmişlər[1]. Sehrkarlıq mərasimi daha möhtəşəm və təmtəraqlı olub xüsusi kollektiv rəqslər, təbillər və səslər vasitəsilə icra edilirmiş. Bu mərasimlərdə ruhlar, pərilər, cinlər, şamanlar və cadugərlərin əmri ilə müxtəlif işlər icra edir, varlıqları sehrləyirdilər[1].

Qobustanda Böyükdaşda arxeoloq İ.Cəfərzadənin vaxtilə 9-cu daş kimi qeyd etdiyi daşın aşağı hissəsində yuxarıda 24, aşağıda 16 əl-ələ verib ayaqlarını geniş açaraq sehrləyici ritual rəqsi ifa edən kişi təsvirləri öz əksini tapmışdır. Alim qeyd edir ki, süjetdə əl-ələ tutan təsvirlər müasir Azərbaycan yallı rəqsinə bənzəyir.[2] Həqiqətdə isə yallı rəqsi birlik və basılmazlıq, qəhrəmanlıq rəqsi kimi nəinki bu günə qədər unudulmamış, hətta xalça sənətində də öz əksini tapmışdır. Şirvan xalça məktəbinə aid "Mərəzə" xalçasının kompozisiyası da bu baxımdan maraqlıdır. Xalq arasında "əl-ələ" adlanan bu xalçanın arasahəsində stilizə edilmiş qadın və kişi rəsmləri əl-ələ tutaraq yallının elementlərini özündə əks etdirən mərasim rəqsini nümayiş etdirirlər ki, bu da həmin rəqsin bu günə qədər qalmasına sübutdur (şək.1).



Azərbaycanda kökləri çox qədim dövrlərə gedən dini-fəlsəfi görüşlərə əsaslanan inamlardan biri də yeddi səyyarəyə sitayiş olmuşdur. Qədim Manna tayfaları hələ e.ə IV-III minilliklərdə ulduzları tətqiq edib öyrənir, hətta onlarla fal da tuturmuşlar. Bu işi Manna tayfalarından olan subilər, lullubeylər, maqlar, kutilər daha dərindən bilib və bu bilikləri təbliğ edirmişlər. XIII əsrdə yaşamış "Dabistani-al-məzahib" əsərinin müəllifi Möhsün Fani özündən əvvəl yazılmış "Əxtəristan" əsərinə istinad edərək yazır ki, qədim sabilər (yəni subilər və ya sabirlər) göyləri və ulduzları əcdadlarının müqəddəs ruhunun kölgəsi hesab edirdilər və ona görədə yeddi səyyarəyə sitayiş edirdilər. Hər bir ulduzu evlərdə saxlanılan müqəddəs tilsimli əşya təmsil edir və həmin müqəddəs əşyalar insanın həyatına təsir göstərirmiş. Müəllifin yazdığına görə həmin ulduzların hər birinin ayrılıqda müqəddəs ibadətgahları varmış və həmin ibadətgahlara istənilən vaxt deyil, yalnız həftənin müəyyən günü və saatında getmək olurmuş.[3]

Qeyd etmək lazımdır ki, qədim Azərbaycanda yeddi ulduz və ona sitayiş haqındakı məlumatlar qədim şumer astrologiyası ilə bu və ya digər cəhətdən bağlı və ya oxşardı. Məsələn, Şumer əfsanələrinə görə 50 möhtəşəm allahlar əsas baş yeddi allahın hakimliyi altında təsvir edilir.

Möhsün Faninin məlumatına görə haqqında bəhs edilən yeddi ulduzun məbədində hər ulduzun bir heykəli mövcud imiş. Təsvirə görə həmin heykəllər insan, müəyyən heyvan, təbiətdən bir nişanəni özündə birləşdirən sinkretik bir obraz imiş.

---

[1] N.Rızayev. Əsrlərin səsi Azərbaycan dövlət nəşriyyatı. B 1974, səh 4
[1] N.Rızayev. Əsrlərin səsi Azərbaycan dövlət nəşriyyatı. B 1974, səh 11
[2] И.М.Джафарзаде. Гобустан. Наскальные изображения. Изд. Елм, 1973, səh 203
[3] К.М.Алиева. Об одном уникальном ковре из Южного Азербайджана. Б.Елм, 1996 səh 58



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həmin heykəllərin təsvirlərini sizin nəzərinizə çatdırırıq.

1. Saturn. Bu planetin heykəli qaradaşdan olub başı meymun, bədəni insan, arxası donuz şəkilli, başında tac, sağ əlində ələk, sol əlində ilan tutmuş bir kişi kimi təsvir edilir. Məbədin xidmətçiləri qara rəngli əlbəsə geyərmişlər və bu məbədin ziyarət günü altıncı gün, yəni şənbə günü imiş.
2. Yupiter. Bu məbədin heykəli isə surəti insan, üzü çalağan, başında xoruz və ilan şəkilli tac, sağ əlində dəsmal, sol əlində kuzə olan bir insan şəklində təsvir edilir. Günü dördüncü gün, yəni cümə axşamıdır. Bu planetin heykəlinin rəngi boz rəngdə idi. Dini xidmətçiləri boz rəngdə paltar geyərmişlər.
3. Mars. Onun heykəli başına tac qoymuş kişi şəklindədir. Sağ əlində aşağı enmiş qana bulanmış qılınc, sol əlində isə dəmirdən qırmanc tutmuşdur. Xadimlər qırmızı geyinirmiş, günü ikinci gün, çərşənbə axşamıdır.
4. Günəş. Onun sarı qızıldan olan ən böyük heykəli var imiş. Heykəl ikibaşlı kişi, hər başında tac, hər tacında yeddi buynuz, üzü insan, arxası ilan, sağ əlində qızıldan qamış tutmuş, boynunda qızıldan boyunbağı sallanmışdır. Günü bazar günüdür.
5. Venera. Yəni Zöhrə ulduzunun bütün ibadətgahı və heykəli ağ mərmərdəndir. Heykəli insan başında yeddi buynuzlu tac, sağ əlində yağ şüşəsi, sol əlində daraq tutmuş bir obrzadan ibarətdir. Bu ibadətgahda zəfəran yandırılır. Xadimləri qadın və qızlardan ibarətdir. Hamısı ağ geyimli, özləri gözəl, başlarında tac vardır. Bu ibadətxanaya rəssam, zərgərlər, rəqqaslar, musiqiçilər və riyaziyyatçılar gəlirdilər. Günü cümə günüdür.
6. Merkuri. Onun heykəli balıq şəklindədir. Üzü donuz, bir əli qara, o biri əli ağ, başında tac, sağ əlində qələm, sol əlində mürəkkəb qabı vardır. Büdxanədə yalnız xoş iyli mum yandırılırdı. Günü çərşənbə günüdür.
7. Ay. Bu planetinin heykəli ağ öküzün belində durmuş başqa bir öküz şəklindədir. Onun başına üç buynuzlu tac qoyulmuşdur. Qoynunda halqa, sağ əlində yaqutdan qamış, sol əlində reyhan tutmuşdur. Günü bazar ertəsi günüdür. Rəngi yaşıldır.

Məlum olduğu kimi bu günkü İran Azərbaycanında Göytəpə mədəniyyətinin mövcud olduğu dövrdə, yəni e.ə IV minillikdə Mesopatamiyada Şumerlər yerləşərək bu ərazidə ilk oturaq həyat sürən cəmiyyət yaratdılar. E.ə III minillikdə İkiçayarasında Suriya tərəfindən hücum edən semit tayfaları burada Akkad şəhərini yaratdılar ki, o da tezliklə Mesopatamiyada ikinci dövlət, Akkad şahlığının (e.ə 2369-2189-cu il) yaranmasına gətirib çıxardı. Akkad şahlığının yıxılmasından qırx il keçəndən sonra Zaqros dağlarından gələn elamitlər, Manna tayfalarından olan müasir azərbaycanlıların əcdadları hesab edilən kassitlər, lullubeylər və qutsilər, yəni kutilər tərəfindən Mesopatamiya işğal edildi. Kutilər isə e.ə 2228-ci ildə Mesopatamiyaya tam yiyələnərək yüz il orada hakimiyyətlərini saxlaya bildilər. Lakin e.ə 2104-cü ildə məğlub olaraq onlar yenidən indiki cənubi Azərbaycan ərzisinə qaldılar.[1] Təbii ki kutilərin yüz il Şumerdə hakimiyyətdə olmaları Mannada olan dini görüşlərin Şumerdə, sonralar Babilistanda da yayılmasına səbəb olur. Məhz kutilərin təsiri nəticəsində Qədim Şumerdə Ay ilahəsinin şərəfinə böyük, hündürlüyü 21 metrdən çox olan məbədlər ucaldılırmış. “Zikkurat” adlanan belə məbədlərin göyə ucalan qübbələrinin mərtəbəsinin hər biri yedii ulduz rənginin şərəfinə ağ, qara, sarı və s. rəngdə rənglənirmiş.

Şumeroloq Kramer qədim mənbələrə əsaslanaraq qeyd edir ki, şumer teoloqları şübhə etmirdilər ki, müqəddəs məbəddə ölməz insanlara bənzər canlılar vardır ki, onlar yeri, göyü, ulduzları idarə edir. Bu antromorf, fövqəlbəşər ölməzləri şumerlər “dinqir” deyə adlandırırmışlar.[2]

Bildiyimiz kimi Orxon-Yenisey abidələrində yazanlar özlərini göy, yəni səma türkləri adlandırmışlar və öz allahlarına bu gün “tanrı” formasında işlətdiyimiz “tenqri” demişlər.

Əlimizdə olan dəlillərə əsaslanaraq deyə bilərik ki, Azərbaycanın istər şimal, istərsə də cənub hissəsində yeddi planetə aid məbədlər olmuş, sonralar onlar zərdüştçülük, ya da atəşpərəstlik məbədləri kimi istifadə edilmişdir. E.ə V əsrdə Midiyanı işğal edən ari tayfaları əvvəllər Zərdüştçülüyü şərti olaraq qəbul etsələr də sonralar onu təhrif edib zərdüştçülük məbədlərini “atəşgədəyə” çevirmişlər. Həmin atəşgədələrin kümbəzlərində isə həmin planeti təmsil edən işarələri, simvolları çıxarıb atmağa cəsarət etməmişlər. Təsadüfü deyildir ki, XIII əsrdə yaşamış Yaqut Həməvi Marağa ilə Zəncan arasındakı Şiz şəhərindəki atəşgahı təsvir edərək yazır: - bu şəhərdə çox əhəmiyyətli olan od evi var. Burada şərqdən qərbə qədər bütün atəşpərəstlər üçün od yandırılır. Od evinin kümbəzində gümüş ay təsviri yerləşir. Deyilənə görə bu ay binanın tilsimidir. Bir çox böyük adamlar həmin ayı kümbəzdən çıxarmaq istəmişlər. Amma bacarmamışlar. Bu od evində yanan od 700 ildir ki, sönmədən yanır, külü də yoxdur.[3] Yunan alimi Strabon isə Albaniya olan məbədlərdən danışarkən yazır ki, albanlar aya və günə sitayiş edir, dini mərasimlər qurban kəsməklə məbədlərdə icra edilirdi. O, belə bir məbədin ölkənin şimal

---

[1] А.С.Сумбатзаде. Азербайджанцы, этногенез и формирование народа. Б.Елм 1990, səh 25
[2] Семуэл Н.Кремер. История начинается в Шумере. М.Наука 1991, səh 92
[3] Л.Керимов. Азербайджанский ковер. II том, .Б.Гянджлик, 1993, səh 111



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qərbində yerləşdiyini qeyd edir.[4] Mannadakı həmin məbədlər haqqındakı məlumata Assuriya mixi yazılarında da rast gəlinir. Məsələn, yazılarda assuriyalıların mannalıların bütlərini oğurladıqlarınıdan xəbər verirlər ki, bizcə burada söhbət həmin yeddi ulduz məbədlərinin heykəllərinin oğurlanmasından gedir.

Azərbaycan alimlərindən Firuzə Muradova və Cəfərqulu Rüstəmov Qazax rayonunda qazıntı işləri apararkən Avey dağında bir neçə məbəd aşkar etmişlər. Alimlərin fikrincə Avey sözünün əsasını ay evi təşkil edir. Çox güman ki, Strabonun adını çəkdiyi məbədlərdən biri həmin Avey dağındakı ay məbədidir. Vaxtilə cənubi Azərbaycanda olmuş Əhəməni və Sasanilərin sitayiş etdikləri atəşgədələrin yeddi ulduzun adını daşıması da bunu sübuta yetirir. Məsələn, Azərmehr atəşgədəsi – Saturnu, Azərbəhram atəşgədəsi - Yupiteri, Azənuş - Marsı, Azərin - Günəşi, Azərxazin – Zöhrəni, Azərbarzin – Merkurini, Azərzərdüşt – Ayı təmsil edirmiş.[1] Bundan əlavə atəşgədə binalarının qülləsində ulduzlardan hər birinin təsviri olurmuş.

Qeyd etməliyik ki, Ərdəbildəki Sufi məsləkli dərvişlərin yeri olmuş Şeyx Səfi kompleksi əvvəllər mövcud olmuş yeddi ulduzdan birinin məbədi, sonra isə "Azərkavus" adlı atəşgədənin üzərində yerləşmişdir. [2]

Qədim azərbaycanlıların yeddi səyyarəyə sitayiş etmələrinin ən elmi təsviri dahi N.Gəncəvinin "Yeddi gözəl" əsərində də öz əksini tapmışdır. Lakin təəssüflər olsun ki, N.Gəncəvi bədii təşbihlərlə də olsa belə bu dünyagörüşünü azərbaycanlılarla deyil, fars atəşpərəst Sasanilərlə bağlayır. Lakin buna baxmayraq dahi N.Gəncəvi bu əsərdə poetik bir mövzunun pərdəsi altında dərin elmi məsələləri bizim üçün aydınlaşdırır.

Əsərə müraciət edək. Memar, rəssam, astronom Şide Bəhram şaha müraciət edərək deyir:

Lütf edib icazə versə mənə şah
Göy ölçmək işində çox pərgaram mən
Ulduzlar elmindən xəbərdaram mən
Memaram bəzərəm bütün dünyanı
Rəssamam, sənətin məndədir canı
Yeddi ülkər kümbəz tikərəm
Hər kümbəz bir rənglə həmahəng olar
Və yaxud başqa bir yerdə
Şah baxdı hasara, yeddi qülləyə
Hər qüllə oxşardı bir səyyarəyə
Ulduzlar tanıyan sənətkar Şidə
Ulduz rəngi vermiş hər bir kümbəzə
Keyvan tənəyində kümbəz ki vardı
Qaraya bürünmüş müşkə oxşardı
O ki müştəriylə həmahəng idi
Bəzəyi, düzəyi, səndəl rəng idi
O kümbəz ki mərrix adını aldı
İncə naxışlıydı, sərasər aldı
O bürc ki günəşdən verirdi xəbər
Saraltmışdı onu üstündəki zər
Ona ki şux etmiş göyün zöhrəsi,
Ağdı Zöhrə kimi onun çöhrəsi
Ona ki Utarid vermişdi nemət
Firuzə rəngindən yetmişdi zinət
O kümbəz ki ona, ay yol salardı
Dediyim bəzəkdə qalxdı göylərə
Oxşayıb yeddisi yeddi ülkərə[1]

Nizaminin ulduzların göydəki hərəkətini elmi əsaslarını əks etdirdiyi iki misrası Möhsün Faninin eyni təsviri ilə müqayisə edək:

M.Fani yazır: Ay planetinin heykəli, ağ öküzün belində durmuş başqa bir öküz şəklindədir. N.Gəncəvi yazır:

Günəş Surda olar bahar zamanı
Suru dolandıran ay varmı, hanı?

---

[4] История Азербайджана, изд. АН. Азерб. ССР, Баку 1958, с. 57
[1] Л.Керимов. Азербайджанский ковер. II том, .Б.Гянджлик, 1993, səh 111
[2] Л.Керимов. Азербайджанский ковер. II том, Б.Гянджлик, 1993, səh 111
[1] N.Gəncəvi."Xəmsə". Yeddi gözəl. B.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məlum olduğu kimi bahar fəslində günəş öküz və buzov bürclərinə daxil olur ki, N.Gəncəvi də bunu aydın ifadə edir.



Azərbaycandakı qədim mannalıların yeddi səyyarə ilə bağlı dünyagörüşləri əsrlər boyu incəsənətimizin müxtəlif sahələrində özünü zaman-zaman təzahür etmişdir. Bu baxımdan cənubi Azərbaycanın Heris şəhərində 1880-ci ildə toxunmuş və üzərində farca "həft-peykər" yazılan xalça bizim mülahizələrimizi bir daha sübuta yetirir (şək.2).

Xalçanın şux parlaq qırmızı rəngli arasahəsində M.Faninin yeddi səyyarənin məbədlərində təsvir edilən yeddi heykəlin, xalq ustası tərəfindən xalça sənətindəki əksini görürük. Hər ulduzun təsviri XIII əsrin müəllifinin təsviri ilə üst-üstə düşür. Səyyarələrin hər birinin üzərində onların adları (Mah, Otarid, Zöhrə, Aftab, Mürrix, Müştəri, Zöhəl) ərəb qrafikası ilə qeyd edilmişdir. Bu xalça Bakıdakı xalça muzeyində yerləşir və ilk dəfə olaraq R.Tağıyevanın kitabında dərc edilmişdir.[1]

Azərbaycanın qədim dövr maddi mədəniyyət abidələrində, o cümlədən e.ə IX-VIII əsrlərə aid Ziviyə və Həsənli tapıntılarında, Altay xalçalarında, XV-XVI əsr Təbriz mehrablı xalçalarında bu dinlərin əksini görməmək mümkün deyildir.

Vaxtilə Midiyada yaşamış Skif massagetləri də günəşə sitayiş edib və ona at qurbanı verməsi haqqında Heredotun məlumatı vardır. Farslar da vaxtilə Günəşə - Mitraya pərəstiş etmişlər. Hətta VII əsrdə ərəb tayfaları belə yeddi ulduzun bütlərinə inanmışlar.

Eyni müəllif - M.Fani mənbələrə istinad edərək belə yazır: "Ərəblərin peyğəmbəri yeddi ulduzu təmsil edən bütlərə sitayiş edirdi. O, Qüreyşdən gətirilən bütün bütləri sındırmağı, Məkkədəki Saturnun bütünü təmsil edən qaradaşı mühafizə etməyi tövsiyyə etdi. L.Kərimovun fikrincə Kəbədəki qaradaş Saturn heykəlinin aşağı kətil (postament) hissəsidir.[2]

Beləliklə, Azərbaycanda İslamın qəbulundan sonra atəşgədə və yeddi ulduz ibadədgahlarının üstündə tikilmiş məscidlərin üzərində ay və ulduz təsvirinin olması təsadüfi deyildir. Hətta yeddi ulduza xas olan günlərin adları elə məscidlərdə saxlanmışdır. Məsələn, Azərbaycandakı Cümə məscidləri vaxtı ilə Zöhrə-Venera adını daşıyırmış.

Məscid və kilsələrdə olan mehrab təsvirlərinə gəlincə onlar çox güman ki ulduzların heykəlinin yerləşdiyi batıq tağ forması ilə əlaqədar olaraq meydana gəlmişdir. Midiya dövlətinin bayrağının üzərində ayın təsviri olmuşdur. Bu gün Azərbaycan bayrağında saxlanılan səkkiz guşəli ulduz və ay təsvirləri bizi əski köklərimizlə bağlayan bir işarədir. Qədim abidələri arxeologiya və geodeziya cəhətdən tədqiq edən ingilis alimi Strounrenqs sübut edir ki, qədim dövrlərə aid büdxanələr təkcə ibadət mərkəzi olmamış, onlar eyni zamanda göydəki ulduzları müşahidə edib öyrənmək üçün bir növ rəsədxanə rolunu oynamışdır. Bunu həmin abidələrin həm hündürlüyü, həm də yüksək dağ başında olması sübut edir. Şumer və Babilistanda olan Zikkuratlara gəlincə həmin zikkuratlar eramızdan əvvəl Mannada, Midiyada mövcud olmuşdur. Zikkurat yeddi ulduzlu yeddi məbədini əks etdirən baş məbəd və rəsədxana idi. Onun hər mərtəbəsi yeddi ulduzun rəngini əks etdirirdi. Heredot Ekbatanda (Həmədanda) midiyalıların seçdikləri ölkənin başçısı olan Deyyok üçüm tikdikləri belə bir Zikkurat haqqındada geniş məlumat verir.[1]

Qədim mannalıların yeddi ulduz səyyarəyə sitayiş etməsi bizcə birbaşa Zərdüştçülüklə əlaqədardır. İlkin olaraq Zərdüşt adından başlamaq daha məqsədəuyğundur. Zərdüşt sözü yunan sözü olub iki hissədən "zoor" və "astr"dan ibarət olub, mənası ulduzları öyrənən, ulduzları sayan və ya ulduz alimi deməkdir. Yəni Zərdüştçülüyün əsasını qoyan Zərdüşt əslində öz həyatını ulduzlara, günəş və ay sistemini öyrənməyə sərf edən bir şəxs olmuşdur. Antik mənbələrdə Zərdüşt müdrik astroloq kimi təsvir edilir və onun yaratdığı elm-təlim "Zərdüştçülük", onun davamçılarını isə "Zərdüştçülər" kimi qeyd edirlər.[1] Avestada olan dərin fəlsəfi

---

[1] R.Tağıyeva. Nizami obrazları xalçalarda. B.İşıq 1991, səh 40
[2] Л.Керимов. Азербайджанский ковер. II том, Б.Гянджлик, 1993, səh 109
[1] Гередот . История в девяти книнах. Перевод с греческого. Ф.Г Мищенка. М.1888, səh 54
[2]Авеста. Избранные гимны.Перевод с авестийского и комментарии проф. И.М.Стеблик-Камельсекого. Д. АДИБ-1994, səh 4



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

biliklər, məsələn, əksliklərin vəhdəti insan və cəmiyyət, cəmiyyət və təbiət, torpaqla göy, günəş sisteminin əlaqəsi, bütün bunlar dindən daha çox təbiət, cəmiyyət, ulduzlar sistemi haqqında əsrlərlə toplanmış elmi biliklərin cəmidir. Azərbaycanlıların soy kökünə daxil olan tayfalardan lullubeylər, kutilər, subilərlə bərabər maqlar da məhz bu dini-elmi biliklərin təbliğçiləri olmuşlar. Avestaşünas alimlərin fikirlərinə görə Zərdüştçülüyün tarixi beş min ildən artıqdır. Lakin yunan filosofu və tarixçilərinin hesablamalarına görə Zərdüştün və onun yaratdığı müqəddəs kitabın yaşı 9-10 min ildir. Avesta qədim azərbaycanlıların dini-fəlsəfi, dini-elmi və dini-ədəbi kitabı idi. Görkəmli alim avestaşünas E.Əlibəyzadə tamamilə haqlı olaraq Avestanı Şumer-Babil mifləri ilə yaxınlığını qeyd edir[2] və təsadüfi deyildir ki, Zərdüştçülük bayramlarından ən mötəbəri olan Novruz bayramı Babilistanda Marduk məbədində keçirilirmiş. Belə ki bu bayram ərəfəsində maq-astroloqlar göy üzünü, ulduzları müşahidə edərək günəşin qoç bürcünə girməsini təyin edincə əhaliyə xəbər verilmişdir. Bundan sonra qoç kəsilib onun qanı məbədin divarlarına yaxılır və bayram mərasimi başlayırmış. [1]

Zərdüştün bir maq olub və bəzi araşdırıcıların səhvən dediyi kimi e.ə V əsrdə deyil, çox-çox qədimlərdə yaşadığı və onun çox böyük astronomiya alimi olduğunu mötəbər mənbələr sübuta yetirir. İngilis alimi Meri Boyz Avestanın qatlarına əsaslanaraq Zərdüştün onun xalqı qədər tarixdən əvvəlki dövrlərdə yaşadığını qeyd etməklə bərabər öz peyğəmbərliyini də yeddi işıqlı ilahdan aldığını qeyd edir. Qat - Yasna 43-ə istinad edən alim yazır ki, Zərdüşt bahar bayramındakı yığıncaqda iştirak etmək üçün səhər tezdən çaya getdi ki, oradan haoma (səməni halvası K.Ə) hazırlamaq üçün çay suyu götürsün. O suyu götürüb geri qayıdanda baharın təmiz havasında onun qarşısında işıq saçan bir ilah göründü. O, Zərdüştü Axura-Mazdanın və digər beş işıq saçan ilahın yanına gəlirdi. İşıq o qədər güclü idi ki, Zərdüşt öz kölgəsini görə bilmədi. Elə bu vaxt Zərdüşt bu yeddi ilahdan öz vəhini (peyğəmbərliyi) aldı.[2]

Zərdüştçülük-maqçılıq və Novruz bayramının ideyalarını özündə əks etdirən ən qiymətli əsər Y.İ.Qummel və F.A.Resler tərəfindən Xanlar rayonundakı kurqanlarda aparılan arxeoloji qazıntılardan əldə edilmiş bir neçə eyni süjeti əks etdirən qara cilalı keramik qablardır ki, onlar e.ə XIV-IX əsrlərə aiddirlər. Həmin keramik qabları əldə edən görkəmli arxeoloq alimlər onun üzərində olan təsvirləri ov səhnəsi olduğunu iddia etmişlər. Görkəmli arxeoloq alim M.A.Hüseynova "Şərqi Zaqafqaziya keramikası (son tunc və erkən dəmir dövrü, XIV-IX əsrlər)" adlı monoqrafiyasında Y.İ.Qummel və F.A.Reslerin fikirlərini təsdiqləmişdir[1]. Bizim araşdırmalarımız isə həmin qabın üzərində olan cızma üsulu ilə işlənmiş təsvirlərin ovçuluqla heç bir əlaqəsi olmamasını və stilizə edilmiş insan təsvirlərinin astroloq olduğunu sübuta yetirir (şək. 3, 4, 5, 6).



Açılış M. Hüseynovanın kitabından götürülmüşdür.

Astroloq əlindəki xüsusi ölçü cihazlını səma qoçuna tərəf istiqamətləndirmişdir. Qoçun kosmik qoç olduğunu göstərən əsas cəhət onun nöqtələrlə başının üstündə spiralvari xəttin olmasıdır. Cihazın astrnomik ölçü cihazı və ya aləti olduğunu sübuta yetirən əsas xüsusiyyət onun üzərində stilizə edilmiş günəş təsvirinin olmasıdır. Həmin

---

[2] E.Əlibəyzadə. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. B., Gənclik 1998, səh 158
[1] Э.Кленгель-Брадт. Путешествие в древней Вавилон. М.Наука 1979, səh 181
[2] Мери Бойс. Зоро Австрийцы. Верования и обычаи. 2 издания. Изд. Наука. М 1988, səh 28
[1] М.А.Гусейнова Керамика восточного Закавказья. Эпоха поздний бронзы и раннего железа XIV-IX вв.до н.э. Б.Елм 1989 səh 84-85



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

spirallar maq-astroloqlarının başında əks edilmişdir. Istər astroloqun baş hissəsini yaradan yumuru, svastika formalı elementlər, istərsə də qoçun başından istiqamətlənə spirallar yumuru formalı səyyarələrlə yuxarıda birləşir. Beləliklə, Xanlar rayonunun Kilikdağ kurqanlarından əldə edilən bu keramika nümunələrinin üzərindəki rəsmləri belə izah edəcəyik: Maq-astroloq, yunanlar demişkən zoorastr əlində tutduğu səmadakı gəzəyənləri ölçən cihazla günəşin qoç bürcünə daxil olduğunu götərərək astronomik baharın girişini və bununla də təbiətin oyanmasını və baharın gəlişini ağac rəsmi ilə nəzərə çatdırır. Başqa sözlə, bu təsvirlər Novruz bayramı, günəşin hərəkət cədvəli və ya xəritəsidir və qablar təbii ki Novruz bayramında haoma üçün istifadə edilən mərasim qablarıdır.

Məlum olduğu kimi Avestanın qatları mahnılardan ibarətdir ki, onu Zərdüşt peyğəmbər özü yazmışdır. 17 qatın təkrarı Avesta ritualında ibadətin əsasını təşkil edir. Bu ibadətdə qurbanlıq və baş əymə prosesində qatın mahnılarındakı sözlərin mütəxəssislərin dediklərinə görə demək olar ki, yarıdan çoxunu oxumaq mümkün olmamışdır. Buna görə də Avestanın qatlarındakı sözlər ölü dil sözlərinə çevrilmişdir. Bunun da səbəbi odur ki, mahnılar əsrlər boyu oxunarkən dildə təhrif edilmiş və nəticədə anlaşılmaz olmuşdur. Deyilənə görə Zərdüşt bu mahnıların sözlərini yazanda bütün insanlar üçün başa düşülən asan dildə yazmışdır. Mahnıların sözləri çox asan



yadda qalırmış. Mahnılarda Zərdüşt Axura-Mazdanın kainatda hər bir xeyirxah işlərini əbədi yaradıcısı kimi birinci yerdə qoyur. Axura-Mazda bütün xeyirxah işlərini xeyirxah ruh olan Spenta-Manyunun vasitəsilə icra edirmiş.[1] Təbii ki Axura-Mazdaya oxunan himnlər musiqi sədaları ilə ifa edilirdi və ən əsas bu mahnıların təlimçiləri maqlar idilər. Heredot maqların həmin dini mərasimlərdə qurbankəsmə prosesində mahnılar oxumalarından bəhs edərək əlavə edir ki, dini bayramlarda onlar eyni zamanda hökmdarlara xeyir-dua mərasimləri keçiriləndə maqlar məclisə andiçmə nəğmələri adlanan teoqoniyalar ilə daxil olurdular.[2] Bizcə maqların Azura-Mazdaya oxuduqları həmin ritual mahnılar sonralar maq mahnıları "maq-am" adı ilə yayılmışdı ki, bu gün Azərbaycanda yayılan muğam deyilən mahnıların eyni kökdən olması şübhəsizdir. Muğam sözünün muğ-atəşpərəst sözü ilə heç bir əlaqəsi yoxdur. Çünki ilkin Zərdüştçülüyün atəşpərəstliklə heç bir əlaqəsi olmamışdır.



Bu gün bir çox türk xalqlarına da, o cümlədən Qazax və Qırğızların muğam sənətinə "makam" və ya "maqam" demələri də təsadüfi deyildir. Muğam sənətinin genetik bir sənət sahəsi kimi Azərbaycanda yaranması da təsadüfi deyildir və bu musiqinin hələ müdriklik səviyyəsinə çatmamış gənclər tərəfindən də qəbul edilməməsi də təbii haldır. Çünki muğam-maqam Zərdüştçülük ideyalarının Axura-Mazda ilə sual və cavab formasında qurulan dialoqdan doğan fəlsəfi bir musiqidir. Onun aşağı tonu və yuxarı (bəm, zil) kuliminasiya nöqtələri mövcuddur. Bu baxımdan e.ə V əsrə aid Dağlıq Altayın beşinci Pazırıq kurqanından əldə edilən xovsuz kilim nümunəsi və onun üzərindəki təsvirləri əvəzsizdir (şək.7).



Professor Rudenko bu xalça üzərində təsvir olunmuş iki qadının xalçada görünməyən atəş qarşısında ibadət etdiyini ehtimal edir.[1]Əslində qarşıda duran yan görünüşlü zəngin saray qadını və onun arxasındakı çox güman ki xidmətçi ağızlarını çənələrinə qədər açaraq maqam oxuyurlar ki, bunu hər kəs öz gözləri ilə görə bilər. Bundan əlavə istər fars əhəməni, sasani və Parfiyalılar, istərsə də Hindistandakı müasir atəşpərəstlər atəş qarşısında ibadət edərkən rituala əsasən başlarına örtükləri örtüklə ağızlarını da yaşmaq kimi örtürdülər ki, onların kirli nəfəsi müqəddəs atəşə dəyməsin.(8,9)

2 rəsm Meri Boysun ktabından götürülmüşdür.

Lakin Altaydan tapılan bu nümunədə qadınların ağızlarının örtülməməsi və geniş açılmış ağızları və məhz onların Axura-Mazdaya oxuduqları maqam olduğunu mülahizə kimi də olsa sübuta yetirir. Təbii ki öz kökümüzü araşdırmaq və düzgün nəticələr əldə etmək üçün hələ gələcəkdə çoxlu araşdırmalar aparılmalıdır. Bu da Azrbaycanı, onun tarix və mədəniyyətini sevən ağıllı, savadlı gəncliyin üzərinə düşür.

---

[1] Авеста. Избранные гимны.Перевод с авестийского и комментарии проф. И.М.Стеблик-Камельсекого. Д. АДИБ-1994, səh 6-9
[2] E.Əlibəyzadə. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. B., Gənclik 1998, səh 174
[1] С.И.Руденко. Древнейшие в мире художественные ковры и ткани. М. Искусство 1968, səh 76



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# MÜRSƏL HƏKIMOV AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞININ TƏDQIQATCISI KIMI

***Könül Nəsirova***
***AMEA Folklor Institutu***
***Azərbaycan***

Aşıq yaradıcılığının öyrənilməsi, tədqiqi sahəsində Azərbaycan folklorşünaslığında müəyyən işlər görülmüşdür. Azərbaycan alimlərinin tədqiqatlarında aşıq yaradıcılığının bir sıra aktual problemlərinə toxunmuşlar.Aşıq sənətinin yaranması və müxtəlif mərhələlərdə inkişafı,"aşıq" sözünün etimologiyası haqqında müxtəlif tədqiqatlar vardır. Bir sıra əsrlərdə yaşamış ayrı-ayrı xalq sənətkarlarının yaradıcılığı da müstəqil tədqiqat obyekti kimi secilmişdir. Lakin bütövlükdə Azərbaycan aşıq yaradıcılığı, xüsusilə də üz dərin lirizmi ilə yeni zirvəyə qalxmış orta əsr aşıq sənəti hələ ayrıca tədqiqat obyekti olmamışdır. Bu baxımdan təqdim olmuş məqslə mövzusu hesab edirik ki, aktualdır.

Azərbaycan aşıq yaradıcılığının müstəqil tədqiqat sahəsi kimi nəzərdən kecirilməsi aşıq sənətinin sistemli şəkildə tədqiq etməyə, orta əsr aşıq poeziyasının Azərbaycan xslq ysrsdıcılığında yerini və əhəmiyyətini müəyyənləşdirməyə imkan verir ki, bu da folklorşünaslıq üçün mühüm bir mərhələdir.Cünki orta əsr Azərbaycan aşıq yaradıcılığının problemlərini dövrün ictimai-siyasi həyatı ilə qarşılıqlı əlaqədə öyrənmədən sonrakı mərhələlərdə ciddi tədqiqatlar aparmaq qeyri-mümkündür.Bu nöqteyi nəzərdən öyrənilən problem eyni zamanda Azərbaycan folklorşünaslığında yeni bir istiqamətdir.

Professor M.Həkimov orta əsr Azərbaycan aşıq yaradıcılığını tədqiq edərkən Azərbaycan xalqının tarixi inkişaf proaeai, onun həyatı və mubarizəsi, orta əsrlərdə yaranmış zəngin milli mədəniyyət ilə sıx əlaqəsini nəzərə almış, dərin məntiqi və elmi cəhətdən əsaslandırılmış nəzəri təhlili əsas tutaraq ayrı-ayrı faktları Azərbayca n xalqının qədim dövrlərdə yaratdığı erkən yaradıcılıq sahələri ilə müqayisədə öyrənmişdir.Bütün tədqiqat boyu müəyyən elmi prinsipə əsaslanan M.Həkimov orta əsr aşıq yaradıcılığının mövcud iki üslubu – dastan yaradıcılığı və lirik üslubu qarşılıqlı əlaqədə tərəf müqabil kimi nəzərdən kecirir.

Etiraf edək ki, Azərbaycan aşıq poeziyasının poetikası hələ də folklorşünaslığımızın tədqiqində öyrənilməmiş sahələrdən biridir. Aşıq sənətinin bu və ya digər sənətkarlıq probleminin bu cəhətdən öyrənilməsinə böyük ehtiyac vardır.bu tədqiqat sahəsi bir tərəfdən aşıq poeziyasının yüzə qədər şəkil və formasını, onların yanr xüsusiyyətlərinin, poetik strukturunun öyrənilməsini, digər tərəfdən isə təkrarsız xüsusiyyətlərə malik olan saz – söz ustalarının sənətkarlığının acılmasını tələb edir.Bu mənada M.Həkimovun xidmətləri, gördüyü işlər əvəzsiz və təqdirəlayiqdir. O, aşıq poeziyası nümumələrinin ən fəal toplayıcısı və usanmaq bilməyən tədqiqatcısıdır. Bir sıra poetik şəkillər məhz onun sayəsində elmə məlum olmuşdurş, desək, səhv etmərik. Orta əsrlərdə yaranmış aşıq poeziyası şer şəkillərinin meydana cızması prinsipləri və yolları məhz professor M.Həkimov tərəfindən geniş tədqiqata və təhlilə cəlb olunmuşdur. M.Həkimovun tədqiqatlarında diqqət cəkən məqamlardan biri də odur ki, alim ilk dəfə olaraq aşıq jarqonunun filoloji və linqvstik xüsusiyyətlərini acmağa təşəbbüs göstərmiş və bu sahədə maraqlı tədqiqat işləri aparmışdır. Bildiyimiz kimi, orta əsrlərdən başlayaraq aşıq yaradıcılığının inkişafında xüsusi rolu olan aşıq jarqonu müstəsna əhəmiyyətə malikdir. Bu müsdtəsna əhəmiyyəti nəzərə alsaq, M.Həkimovun tədqiqatlarının əvəzolunmaz olduğu bir daha təsdiqlənir.

Məlumdur ki, qədim və orta əsrlər aşıq yaradıcılığının toplanmasına az da olsa hələ XVII əsrin I rübündən başlanmışdır. M.Həkimov bu toplamaları tədqiq edərkən Qurbaninin, Abbas Tufarqanlının, Sarı Aşığın, Xəstə Qasımın, Aşıq Valehin yaradıcılığını tədqiq etmiş, bu sahədə olduqca dəyərli materiallar hazırlamışdır.Adlarını cəkdiyimiz bu ustad aşıqların hər biri dövrünün sayılıb-secilən kamil aşıqları olmuş, özləri haqqında demək olar ki, cox az məlumat qoyub getmişlər.Sirli-sehirli dünyası olan bu ustadların yaradıcılığı zaman-zaman müxtəlif tədqiqatçıları cəlb etmiş, hər bir alim bu tədqiqatlarda öz dəsti-xəttini qoymuşdur.Bu mənada M.Həkimovun da tədqiqatları gələcək tədqiqatçılar üçün layiqli bir mənbə olmuşdur.

Orta əsr sənətkarlarından bırı, ədəbi irsi hər zaman tədqiqatçıların diqqət mərkəzində duran dastançı ustad aşıq-şairlərindən bırı olan Qurbani M.Həkimovun da diqqətindən kənarda qalmamış, alim onun yaradıcılığı üzərində layiqli bir tədqiqat işi aparmışdır."Qurbani", "Tifil Qurbani", "Dirili Qurbani", "Yazıq Qurbani", "Yetim Qurbani" təxəllüsü ilə tanınan Qurbani XV əsrin sonu, XVI əsrin ortalarında yaşamış, saray mühitindən kənarda yazıb- yaratmışdır.Qurbani haqqında zəngin folklorumuzun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sütunlarını çiynində daşıyan akademik, professorlardan H.Araslı, M.İbrahimov, M.H.Təhmasib, Ə.Qarabağlı, P.Əfəndiyev, V.Vəliyev, Q.Namazov, M.Allahmanlı, toplayıb tərtib edənlərdən S.Mümtaz, H.Əlizadə, Ə.Axundov və başqalarının adlarını fəxrlə çəkmək olar.Bu tədqiqatçıların tədqiqatlarını önə çəkən M.Həkimova görə bu alimlərin içərisində ən çox zəhməti olan prof.Q.Kazımovdur. O, Qurbani yaradıcılığının toplanması,nəşri, tədqiqi, şerlərinin izahlı lüğəti onun adı ilə bağlıdır.

Aşıq ədəbiyyatında 400 ildən artıqü möhürlü dəsti-xətti olan Qurbani bayatılarında, gəraylılarında, qoşmalarında, ustadnamələrində, divanilərində, vücudnamələrində naşirlərin diqqətsizliyi üzünlən bu nümunələr bir sıra xətalardan xali deyil.Əminik ki, gələcəkdə bu sahədə işləyən tədqiqatçılar öz sözlərini deyəcəklər.

Bır sıra tədqiqatçılar kimi,M.Həkimovun da diqqətini cəlb edən ustad-dastançı aşıqlardan biri də Abbas Tufarqanlıdır.Onun xüsusilə "Yarım apardı" qoşması mubahisəyə səbəb olmuşdur.M.İbrahimova görə "Yarım apardı" qoşması aşıq poeziyasının ictimai məna və konkret tarixi mündəricə ilə dolu qoşmalarından biridir.Qoşmada Şah Abbas dövrünün konkret tarixi simalarının adları çəkilir və xalqa olan zülmdən danışılır.

"Yarım apardı" qoşmasından söhbət açan H.Araslı göstərir ki, bu dastanın mühüm hissəsində aşığın iztirabları, mübarizəsi ilə birlikdə Şah Abbasın zülmünə və onun köməkçilərinə qarşı nifrəti, qəzəbi ifadə edir.Əsər xalqı namus uğrunda mübarizəyə dəvət edir.Bütün bunlardan belə bir nəticəyə gələn M.Həkimov göstərir ki, A.Tufarqanlı artıq Şah Abbasın müharibələri, Azərbaycan qızlarının tarıxdə məşhur olan "kütləvı sürgün" siyasətini yeritdiyi bir dövrdə yaşamışdır.O, qüdrətli bir aşıq-şair olmuş,lirik gözəlləmələr, nəsihətamiz ustadnamələr, mənalı, həm də gözəl təcnislər, şux, gözəl olan divanilər və s. Yaratdığı kimi, gözəl dastanlar da öz dövrünün ən çirkin hadisələrdən birini yəni gözəl qızların güclə saraya aparılması məsələsini məharətli bir dastançı kimi işləmiş, gözəl bir əsər yaratmışdır.Xalqın yaradıcı dəstəsi olan aşıqlar-dastançılar isə bu dastanı müxtəlif variantkar şəklinə salmışlar.

Orta əsr Azərbaycan aşıq yaradıcılığının ətrafında mübahisələr gedən nümayəndələrindən biri də Sarı Aşıqdır.M.Həkimovun ona müraciət etməsi heç də təsadüfi deyil. XVII əsrdə yaşayıb-yaradan el sənətkarı olan Sarı Aşığın ədəbi irsinin toplanıb nəşr edilməsində və həyatına dair az da olsa məlumat verilməsində S.Mumtazın və Ə.Axundovun xidmətləri az olmamışdır.H.Araslı, Ə.Dəmirçizadə, Ə.Qarbağlı öz yazılarında görkəmli bayatılar ustası olan el sənətkarının haralı olması, nəsil-nəcabəti, adı və sənətkarlıq məsələlərinə toxunmuşlar. Tədqiqatçı alim B.Behcət Sarı Aşığı Anadolu, həm də onun nəsil-nəcabətini ermənidən dönmə kimi qələmə verir.

Bu məsələyə münasibətini bildirən M.Həkimov qeyd edir ki, islam dini qayda-qanunlarına görə başqa dinə qulluq edən İslam dinini qəbul edə bilər. Bu şərtlə ki, İslam dininin bütün tələblərinə cavab vermiş olsun. Ancaq burada inandırıcı olmayan odur ki, Osmanlı ərazisində yaşayan erməni sünnülüyü qəbul edərdi. Əfəndi olardi.Necə olmuşdur ki, şiəliyi qəbul edib və özü də seyid olub? Bu heç cürə ağlabatan məntiq deyildir. Tədqiqatçı X.Cabbarova istinadən M.Həkimov göstərir ki, Sarı Aşıq Arazdan Şimala bütün Azərbaycana, xüsusən indiki Zəngilan, Laçın, Cəbrayıl, Gorus və Sisian rayonları ərazisinə qarış-qarış bələd imiş.Bu yerləri oba-oba, oymaq-oymaq gəzər, hamının xeyir-şərinə yarayar, öz sevinc və kədərini həmişə el ilə bölüşərmiş. Xalq onu haqq aşığı, ədalət carçısı kimi hörmətli tutar və hər yerdə mehriban qarşılayarmış.Aşığın qəbir daşı üzərində saz şəkli var.Onun məzarı yanında qədim tarixi bir gümbəz ucalır.Bu gümbəz və aşığın qəbri illər boyu ziyarətgah olmuşdur.

XVIII əsrdə yaşayib-yaradan, demək olar ki, tədqiqatçıların diqqətindən uzaq olan, ədəbi irsi hələ də küll halda cap olunmayan ustad, peşəkar-ifaçı aşıqlardan biri də Xəstə Qasımdır.Sənətkarın əsərlərini toplayıb tədqiq edən S.Mümtaz, H.Əlizadə kimi alımlərin elmi işlərinə müraciət edən M.Həkimov qeyd edir ki, S.Mümtazın "El şairləri" kitabında onun üç ustadnəmə, dörd qoşma, bir təcnis, və bir gəraylısı verilmişdir.Xəstə Qasımın şerlərini ən çox toplayan H.Əlizadə olmuşdur.İstər onun, istərsə də S.Mümtazın toplama işləri üzərində tədqiqat işləri aparan M.Həkimov ustadın dillər əzbəri olan "Yaxşıdır" ustadnaməsi üzərində dayanmış, hər iki variantı müqayisə etmiş, H.Əlizadənin mövqeyi ilə razılaşmışdır. Əlbəttə, adlarını çəkdiyimiz alimlərin topladıqları nümunələrin hansının orijinal, hansının variant olduğunu dəqiq söyləmək çətindir.Lakin ifadələrin aşıq üslubuna müvafiq çeşidlənməsi baximindan yanaşan və təhlil aparan M.Həkimov sonda belə bir maraqlı nəticəyə gəlmişdir.

Orta əsr aşıqları içərisində bir əsrə yaxın ömür sürmüş ustad-dədə və dastançı aşıqlardan biri də Valehdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

M.Həkimovun tədqiqatı aşıq poeziyasının saz musiqisi ilə birgə araşdırılması baxımından diqqəti çəkir: "Aşıq sənəti öz qədim köklərinə, ənənələrinə sadiq qalmaqla yanaşı, həm də incəsənətin bir çox sahələrini özündə birləşdirən sinkretik sənətdir. Məlum olduğu kimi, aşıq həm şer qoşur, həm də havacat yaradır. Dastan söylərkən aşıq aktyor kimi roldan-rola girir.Hər bir obrazı öz ədası, dili ilə danışdırıb dinləyiciyə çatdırır.Aşıq dastan söyləyəndə, yaxud lirik şerlərinin ifasında saz havacatının tələbinə müvafiq ayaq uydurur, rəqs edir, ustadnamə deyir, nəticədə bir növ ssenarist, rejissor,dirijorluq kimi sənətləri özündə birləşdirir."

M.Həkimov "saz-aşıq" sənətinin tədqiqi tarixini,bu sənətin genezisində olan münasibətə görə araşdırır, "varsaq", "saya", "ozan" və aşıq terminlərinin etimologiyası üzərində geniş dayanır və tədqiqatın da əsas hissəsini ona həsr edir.Professor H.İsmayılov qeyd edir ki, bu terminlər eynicinsli deyildir.Bunlardan ilk ikisi sənət nümunəsi ( şer yanrı), sonrakılar isə sənətkar subyektinin adıdır. M.Həkimov F.Köprülüyə istinadən " varsağı"adlı qəhrəmanlıq çağırışı ilə dolu saz havasının olduğunu və bu adlı şer növünün mövcudluğunu önə çəkir.

M.H.Təhmasibin bir mülahizəsi ilə M.Həkimov dədə aşıqları belə xarakterizə edir: " Dədə aşıqlar sözün həqiqi və geniş mənasında sənətin hələlik öz müstəqil sahələrinə bölqnməmiş vahid vəziyyətinin, yaxud mərhələsinin əsas xüsusiyyətlərini özlərində yaşatmışlar.Yəni onlar həm şair, həm dastançı həm bəstəkar, həm də öz yaratdıqlarını ifa etməyi bacaran məharətli xalq sənətkarı olmuşlar.Belə dədələrdən ən görkəmlisi, ən əzəmətlisi, ən məşhuru, şübhəsiz, Dədə Qorquddur".

H.Əlizadənin el ədəbiyyatının əyləndirmə funksiyasını qabartması M.Həkimov tərəfindən tənqid olunur.Alim Aşıq Musadan gətirdiyi:

" Məclisləri abad eylər,
Nə günahı telli sazın?
Məlul könüllər şad eylər
Nə günahı telli sazın?"

örnəyi ilə aşıq şerinin daha dərin estetik mahiyyət daşıdığını diqqətə çatdırır. Digər tərəfdən isə "saz öz tərəf-müqabili asıqla ictimai şüurun yüksəlişində həmişə dini təriqətlərə, onu yayan din xadimlərinə qənim kəsilmişdi" mülahizəsini söyləməklə bu sənətin funksional keyfiyyətini həqiqətə zidd şəkildə təqdim edir.Çunki məlumdur ki, aşıq öz kökü və mənşəyi etibarilə din və daha çox təriqət nümayəndəsidir.Aşıq poeziyasının ideya-estetik əsasını da sufi fəlsəfə təşkil edir.

M.Həkimov "əsl aşiq kimdir? Onun xalq içərisində ədəb-ərkanı necə olmalıdır?" sualına da mükəmməl cavabı Aşıq Ələsgərin " Aşiq olub tərki-vətən olanın, əzəl başdan pür-kamalı gərəkdir" misrası ilə başlanan qoşmasında tapır.

M.Həkimov istər toplama işlərində, istərsə də aşıq şerinin gorma və məzmun keyfiyyətlərinin, poetik xüsusiyyətlərinin müəyyənləşməsində qədim və orta əsr aşiqlarının yaradıcılığına intensiv şəkildə müraciət etmiş və bu baxımdan Azərbaycan folklorşünaslığına əvəzsiz töhfələr vermişdir.

**ƏDƏBIYYAT**

1.Mürsəl Həkimov "Aşıq sənətinin potikası" Bakı 2004.
2.M.H.Təhmasib "Azərbaycan xalq dastanları" (orta əsrlər) Elm, Bakı 1972.
3. M.İbrahimov "Aşıq poeziyasında realizm" Bakı 1966.
4. H.Araslı" Aşıq yaradıcılığı" Bakı 1960.
5. Sarı Aşıq. Ə.Axundov, Müqəddimə Azərnəşr Bakı 1966.
6. Azərbaycan folkloru antalogiyası, toplayanı və tərtib edəni Ə.Axundov.I kitab Azərbaycan EA nəşriyyatı, Bakı 1968.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRK AİLE TERBİYESİNDE MASALLARIN ROLÜ

***Kemale Yilmaz***
***Qafqaz Üniversitesi***
***Azerbaycan***

Terbiye, insanı insan eden, insanı toplumda sayılan, sevilen ve övülen bir şahsa dönüştüren, insan ile hayvan arasındaki farkın ortaya çıkarılmasına yardım eden önemli bir vasıtadır. Ahlak, karakter, seciye, edep gibi eş anlamları da olan terbiye, ilk olarak ailede verilir; okulda öğretmenlerin yardımıyla geliştirilir; toplumda meyvesini verme haline gelir. Yani aile, okul ve toplum edebin, terbiyenin verildiği yerlerdir. Ancak temel ailedir.

Türk ailelerde aile, çocuk ve çocuk terbiyesi önemli yer tutar. Türk aile anlayışı ninnilere, atasözlerine, deyimlere, masallara, hikâyelere, destanlara, yansımıştır. Dünyanın hiçbir yerinde böyle bir aile anlayışına rastlamak mümkün değil. Ortak Türk geçmişini öğrenmek adına, masallar kadar çok değerli bir folklor unsuru olan Türk destanlarındaki ve özellikle Dede Korkut hikâyelerindeki Türk aile yapısına dikkat edersek bunlar bir milletin kollektif şuuraltı bir ifadesi olduğunu görürüz. Hiç bir millet, göçebe veya yarı göçebe Türk milletinin yaşadığı maceraları yaşayarak varlıklarını muhafaza edemez. Bu gücü biz aile yapımızın ve ailedeki terbiye sağlamlığından aldık. Eskilerden günümüze kadar gelen Türk aile yapısı İslam'ı kabulden sonra da pek değişmemiştir. Çünkü İslam'ın ön gördüğü aile yapısı, Türk aile yapısından çok farklı değildir. Her ikisi de iffet ve düzen merkezlidir.

Türk milletinin sahip olduğu milli değerleri muhafaza etmek ve bugünlere yansıtmak hepimizin boynumuzun borcudur. Burada ailenin rolü çok önemlidir. Çünkü bu tür değerler çocuklara ancak aile ortamında aşılanabilir. Halkımızın zengin tecrübesini, yaşam tarzını, adet ve geleneklerini, nesilden nesile, ağızdan ağıza yayılan halk edebiyatında bulabiliriz. Hem çocuklar hem de yetişkinler tarafından rahatlıkla anlaşılan ve sevilen halk edebiyatının ürünlerinin takdimi için en elverişli yer aile ortamıdır. Aslında ebeveynler farkında olup veya olmadan, yavrularının bebeklik döneminden yetişkin dönemlerine kadar ninnileri, masal ve destanları, yani sözlü halk edebiyatının mücevherlerini kullanarak bu borçlarını yerine getirmiş oluyorlar. Burada ortak Türk milli derğerlerinin en etkili ve zengin halk ürünü olan Türk masallarına değinmek yerinde olacaktır.

Türk masallarının oluşumları çok eski tarihe dayanmakta, Türklerin ortak duygu ve düşüncelerini anlatmaktadır. Bugün herhangi bir Türk ülkesinde anlatılan bir masalın, başka bir Türk ülkesinde değişik versiyonlarına rastlamak mümkündür. Hatta küçük farklılıklarına rağmen bazı motif benzerlikleriyle pek çok masalın diğer masalla aynı olduğu kesinlik kazanmıştır. Burada hem Azerbaycan'da hem de Türkiye'de yaygın bir şekilde bilinen "Leylek ile Tilki" masalını örnek olarak gösterebiliriz. Aslında bu tür benzerlikler sadece Türk halkların arasında değil, diğer halklar arasında da görünmektedir. Çünkü masallar ortaya çıktıkları zaman, belli toplulukların malı iken, yaygınlaştıkça ve anlatıldıkça, yöreden yöreye, ülkeden ülkeye geçtikçe ilk söyleneni unutulur, toplumun ortak malı haline gelir.

Türk masalları köklü geleneğe bağlı, kollektif karakter taşıyan "hayalî- gerçek", "mücerred-müşahhas", "maddi-manevi" bir takım konu, macera, vak'a, problem, motif ve unsurlar; nesir dili ve vakit geçirmek, insanları eğlendirirken terbiye etmek düşüncesinden hareketle, hususi bir uslupla anlatılır veya yazılırlar.

Bugün, özellikle Batı'da aile can çekişmektedir. Batılılaşma hevesiyle, manevi değerlerimizi terk edip, meydana gelen boşluğu Batı'nın yaşayışı ile doldurduğumuz için, biz de aynı tehlike ile karşı karşıyayız. Hâlbuki sağlam bir aile yapısı olmayan bir milletin, bir devletin ayakta kalması mümkün değildir. Köklü, sağlam, milli ve manevi değerlerle donatılan aileye sahip milletler, her türlü felaketlere karşı göğüs gererler. Sağlam temellere dayanmayan aileler ve topluluklar, en küçük bir zorlama karşısında dağılırlar. Cocuk Vakfı'nın yaptırdığı bir ankete göre Türkiye'de yüzde 17 yerli, yüzde 83 oranında yabancı çocuk edebiyatı tüketilmektedir. Araştırmaya göre Almanya, Hollanda ve Fransa'da ise yabancı çocuk edebiyatı yayını yüzde 26'yı geçmemektedir. Yabancı edebiyat, başka kültürlere başka renklere köprü kurmak için elbette gereklidir. Ancak biz çocuğumuzu yüzde 83 oranında yabancı edebiyatla büyütürsek, o çocuk bu ülkeyi, bu insanı, bu coğrafyayı sevebilir mi? Anadiline âşık olabilir mi?

Batı'nın çocuklarımızın üzerine bir karabulut, koskocaman bir kâbus gibi abanan kültür emperyalizmine karşı kendi gönlünce ve kıvrak kalemiyle seferberliğe çıkan Türk aydını Yücel



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Feyzioğlu, Türk çocuklarını Batılı masallar yerine Türklerin masallarıyla beslemek için yola koyulmuş ve bugün bu konuda zafere ermiş bulunuyor. Kendisi şöyle diyor: "Kaşgarlı Mahmut'a özenerek Türkçe konuşan halkların masallarını derlemek için 25 yıl önce yola çıktığımda bu kadar güzel masallara ulaşacağımı bilmiyordum. Yirmi altı Kardeş halktan derleyip Türkiye Türkçesi'nde yeniden yazdığım bu masallar, hayatıma inanılmaz bir heyecan kattı. Ciltler dolusu kitap ortaya çıktı. Daha yazılmayı bekleyen yüzlerce masal var. Toplamı: 684."

Batı ülkelerinin masalları kültürlerarası bir köprü vasıtası olabildiği gibi, kültür kıyaslama ve Türk kültürünün güzelliğinin farkını gösterme adına uygun bir araçtır. Ancak körü körüne, düşünmeden taklit ettiğimiz, çocuklarımıza devamlı aktarıp öğrettiğimiz Batı masalları çocuklarımızı olumsuz bir şekilde etkileyebilir. Türk masalları ise çocukları, olgunlaştıran, hayata hazırlayan ve çok daha olumlu gözlerle baktırmasını bilen tecrübe, bilgi, terbiye, hikmet, öğüt, edep, ahlâk ve irfan dolu masallardır.

Görülüyor ki, çocuk eğitiminde, ona manevi değerlerini, kendi din, dil ve millet sevgisini aşılamasında masalın çok önemli bir yeri vardır. Çocuk ile masal arasındaki ilişki de çok önemlidir, çocuğu iyiye, güzele ve doğruya götürücü bir ilişkidir bu. O zaman, masalı önce biz kendimiz önemsemeli, çocuğa anlatacağımız veya okuyacağımız masalı titizlikle seçerek, gereken özeni göstermeliyiz.

Büyük millet, dünyaya örnek millet sözle değil, işle, yapıp ortaya koyduklarıyla olur. Türk milletinin dünyaya örnek, büyük bir millet olduğunu çocuklarımıza, geçmişlerden bizlere miras kalan, milletin manevi değerlerini taşıyan, hiçbir zaman eskimeyen masallarla bile öğretebiliriz. Biz kendi öz değerlerimize sahip çıkıp onları cihanşümûl hale getirmezsek, diğer milletlere model olmak şöyle dursun, onların kültür potaları içinde erir gideriz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# FOLKLOR MƏCLİSLƏRİ

***Ləman Süleymanova***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

*Folklor məclisləri (folklorun söyləndiyi yerlər): dünən və bu gün.* Folklorun varlığı onu söyləyən şəxslərlə yanaşı, folklor məclislərinin varlığından da asılıdır. Folklor mətnləri bu məclislərdə cilalanır, variantlaşır, yayılır. Buna görə də folklordan danışarkən ilk növbədə folklor məclislərindən danışmaq lazım gəlir. Digər bölgərimizdə olduğu kimi, təbii ki, Şəkidə də folklor məclisləri olmuşdur. Bu məclislərin bir qismi artıq sıradan çıxsa da, bir qismi hələ də öz varlığını qoruyub saxlaya bilmişdir. Müəyyən səbəblərlə əlaqədar olaraq sıradan çıxmış folklor məclislərinin bir qismi yaşlı folklor söyləyicilərinin yaddaşlarında qorunub saxlanmışdır. Mərasimləri (toy, yas, Novruz, yağış yağdırma və kəsmə, çillə çıxartma, tas qurma, pir ziyarəti və s.) əsas folklor məclisləri saymaq olar.

*"Folklor axşamları"*. Söyləyicilərin verdikləri məlumata görə, təxminən XX əsrin 50-60-cı illərinə qədər məişət qayğılarından qurtaran camaat (3-4 evin adamı) hər gecə növbəylə bir evə yığışardı və gecə yarıdan keçənədək söhbət edərdilər. Bu, xüsusilə də uzun qış gecələrinə aid idi. Bəzən söhbətlər o qədər uzanardı ki, ev sahibləri zarafatyana bir mahnı da oxuyardılar:

Fındıx ilə qoz
İxtilatı poz.
Durunı gidını siz,
Yıxılıf yatax biz (Şəxsi arxiv).

Həmin "folklor axşamlarında" kənar söhbətlərlə yanaşı, folklor mətnləri də danışardılar. Təbii ki, onların əsas məqsədi folklor mətnləri danışmaq yox, vaxtlarını keçirməkdir. Bu tip məclislər folklor mətnlərinin həm yayılma arealını genişləndirir, həm də onun variantlaşmasına şərait yaradırdı. Belə «folklor axşamları» əvvəlki vüsətlə olmasa da, nisbətən zəif halda 80-ci illərin sonunadək davam etmişdir. Son dövrlərdə elmi-texniki tərəqqi belə məclislərin keçirilməsini demək olar ki, dayandırmışdır.

Bunlardan əlavə, kişilər *gimgə yerləri*ndə, qadınlar *bulaq başı*nda yığışır, şəkililər demişkən bir növ «vaxt öldürürlər». Təbii ki, burada da gündəlik qayğılarla bağlı söhbətlərlə yanaşı, yeri gəldikcə folklor mətnləri də söylənilir.

Orta məktəblərdə də *«folklor məclisləri»* "təşkil olunur". Boş dərslərdə, cürbəcür qonaqlıq və yığıncaqlarda (ad günləri, Novruz çərşəmbələrində və s.) bir yerə toplaşan yuxarı sinif şagirdləri də yaşlı adamlardan eşitdikləri folklor mətnlərinin daşıyıcılarıdırlar.

Keçirilən mərasimlərdən asılı olaraq danışılan folklor mətnləri də müxtəlif olur. Möhlüt məclislərində peyğəmbərin mövludu ilə bağlı və başqa dini mətnlər aktuallaşırsa, Novruzda bu mərasimlə bağlı mətnlər danışılırsa, pir ziyarətlərində pirlər haqqında rəvayətlər önə keçir.

*Əkin-biçin yerləri*ni də bir növ folklor məclisləri saymaq olar. İşdən yorulandan sonra günorta saatlarında bir yerə yığışıb dincələn kənd adamları da folklor söyləyiciləridir. Ancaq Şəki mühafizəkar və qapalı region olduğu üçün bu «söyləyicilik» də bir qədər fərqli şəkildədir. Fikrimizi aydınlaşdırmaq üçün Balakən rayonunun Katex kəndindən Şəkinin Baqqal kəndinə gəlin gəlmiş bir söyləyici ilə söhbətimizi olduğu kimi veririk: «Balakəndə tütün əkərdik. Mənim bacım da zvena (manqa) başçısıydı. Hərəmiz bir cızın** başında dayanardıq, əlimizdə də toxa, lapatka. Birinci cızın başında dayanan qız işləyə-işləyə bir bayatı çəkərdi, yanındakı da ona cavab verərdi, sonra da növbəylə hamı bir-bir bayatı deyərdi, yenə sıra hərlənib gələrdi birinci qızın üstünə. Belə-belə işin nə vaxt qurtardığını bilməzdik. Sonra bura gəldim. Habırda, tütünnuxda bayatı disanı diyəllər ki, bax hələ, filankəsin hağlı qaçıfdı, mahnı oxuyü. Adama ayif eliyəllər". Deməli, folklor mətnlərində olduğu kimi, folklor məclislərinin özündə də regional fərqlər müşahidə etmək mümkündür.

Bundan başqa, müxtəlif mərasimlər də bir növ folklor məclisləri rolunu oynayardı. Əvvəllər mərasimlər indiki dövrlə müqayisədə təmtəraqlı keçirilirdi.

*Orucluq* və *Qurban bayramları*nda da rayon camaatı bir-birinin evinə bayramlaşmağa gedir. Aydındır ki, folklor axşamlarında olduğu kimi, belə məclislərdə də kənar söhbətlərlə yanaşı, həm də folklor mətnləri danışılır.

*Mərasim folklorunun müasir vəziyyəti.Toy* folklor mətnlərinin daha çox aktivləşdiyi mərasimlərdən biridir. Bu mərasim üç mərhələdən keçir; toya qədərki mərhələ (buraya qızbəyənmə, elçilik,

---

* cız-lək, kərdi,cərgə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şəltə, xınayaxdı və s. məclislər daxildir), toy mərhələsi (Şəkidə toy əvvəllər üç gün çalınırdı), toydan sonrakı mərhələ (bəyyanı, qızaşı, gəlingörməsi və s.) (Süleymanova, s. DQ. 2002/IV, s.97-107).

Yaşlı söyləyicilərin verdikləri məlumatlara görə, Şəki toylarında əvvəllər "Qodu-qodu" gəzdirərdilər. Eyni hal Sisian rayonunda da olmuşdur (Şəxsi arxiv).

Əvvəllər toyun hər üç mərhələsində məclislərin xarakterinə uyğun mahnılar oxuyar, bayatılar çağırar, deyişərdilər:

Ay qız adamı,
Sındır badamı.
Elçiyə çay ver,
Alım qadanı.

Qara atın kəkili,
Qabağına tökülü.
Gəlmişik aparmağa,
Kimdir qızın vəkili?

Bu gelin, nazdı gelin,
Söhbəti duzdu gelin.
Arzum budu olasan
Oğullu, qızdı gelin.

Qaynana:
Köynəyi təzə, məzəri təzə
Bir il keşsin, görəyh, nə deyir gəlin bizə?
Gəlin:
Köynəyim təzə, məzərim təzə
Özümə yer eliyim, gör, neylərəm sizə!...və s.

Bunlardan başqa, toylarda həm də digər folklor mətnləri – gəlin-qayınana ziddiyyətlərini özündə əks etdirən rəvayətlər, lətifələr, nəsihət məzmunlu rəvayətlər, əfsanələr, atalar sözləri, məsəllər və s. söyləyərdilər.

Toy mərasimində müxtəlif oyunlar olur. Belə oyunlardan biri qız toyunda icra olunur. Toyun axırına yaxın baməzə qadınlardan biri əyninə köhnə kişi paltarı–şalvar, köynək geyib, başına papaq qoyar, üz-gözünü kömürlə bəzəyib ortaya atılar, hopbanıb-düşər, cürbəcür hoqqalar çıxarardı. Görünür, əvvəllər bu ritual sakral mahiyyət daşımış, sonralar isə sakrallığını itirərək oyuna çevrilmişdir.

Digər bir oyun isə bəyyanında keçirilir və xan-vəzir adlanır. Bu oyunda xanın vəziri və dörd qazağı (buyruqçusu) olur. Xan bəyyanına gecikənləri qazaxlar vasitəsi ilə cəzalandırır, onları cərimə edir. Cəriməni ödəmək istəməyənləri isə "asdırır". Şuluq salanlar da cəzalandırılır. Cəza kimi onlardan müəyyən məbləğ pul alınır. Bəyyanında yançılar ehtiyatlı olmalı, bəyi qorumalıdırlar. Çünki dostlar vəziyyətdən istifadə edib ya bəyi, ya da onun ayaqqabılarını oğurlaya bilərlər. Əgər belə bir hal baş verərsə, bəyi oğurlayanlar yançılardan müəyyən məbləğdə pul almamış bəyi qaytarmırlar. Bəyyanına toplaşanlar gün ərzində xanlıq qayda-qanunları ilə yaşayırlar (Süleymanova, DQ, 2002/IV, s.104).

Folklorun aktivləşdiyi yerlərdən biri də *yas mərasimləri*dir. Yas məclisləri də aşağıdakı mərhələlərdən keçərdi.

Yas – ölü düşən gündən sonrakı 7 gün, bəzən də 3 gün.

Adnalar – yasdan sonrakı 4 cümə axşamı verilərdi.

Qırx – yasın 40-cı günü keçirilən məclisdir.

Əlli iki – Şəkidə dəfn mərasiminin 52-ci günü də məclis keçirilirdi. İnama görə, həmin gün ölünün sümükləri bir-birindən ayrılır.

Qara bayram – mərhumun ölümündən sonra gələn ilk dini bayram (Orucluq və ya Qurban bayramı) onun qara bayramı hesab olunur. Həmin günü onun adına halva çalınır, ehsan verilir, şirniyyat bişirilib qəbri üstə aparılır.

İl – ölünün dəfn olunduğu gün məclis qurulur, ehsan verilir.

Şəki yaslarında deyilən ağılar öz zənginliyi ilə ağılardan seçilir. Ağılardan I fəsildə geniş şəkildə bəhs etdiyimiz üçün burada ətraflı məlumat verməyi lazım bilmirik.

«Söylədiyin mətni kimdən eşitmisən?» sualına bəzi söyləyicilərdən «Yasda molla danışırdı» cavabını aldıq. Biz də yas aparan mollalarla görüşdük və onlardan xeyli sayda folklor mətni qeydə ala bildik. Onların verdikləri məlumata görə, elə ki, yasda ağlaşma qurtardı, məclisdəkilər məişət söhbətləri etməyə başlayırlar. Bu zaman yası aparan molla məclisi ələ almaq üçün folklor mətnlərindən istifadə edir. Düzdür, bu zaman daha çox dini mövzulu rəvayətlər və nağıllar önə keçir. Amma hər halda belə məclislər folklorun yayılmasına, variantlaşmasına və nəhayət yaşamasına kömək edir. Belə söyləyicilərdən biri ilə söhbətimiz zamanı ondan 16 folklor mətni qeydə ala bildik ki, bunlardan üçü lətifə, 12-si dini və tərbiyəvi mövzulu nağıl və rəvayətlərdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Novruz*. Boz aydan sonra ərazidə Novruza hazırlıq görülür. Ev-eşik, həyət-baca təmizlənir, səməni cücərdilir, ağaclar budanır, gövdələri ağardılır, həyət bellənir, tonqal üçün çır-çırpı hazırlanır və s. Torpaq çərşənbəsində toxum səpilir, ərazidə geniş yayılan inama görə, həmin gün səpilən toxumun məhsuldarlığı digər günlərdə səpilən toxuma nisbətən artıq olur. Od çərşənbəsində tonqal yandırılır. Yel çərşənbəsində sulançaq* asırlar və uşaqlar bütün günü sulanırlar.

Rayon ərazisində ilaxır çərşənbə və bayram günü təmtəraqla qeyd olunur. İlaxır çərşənbədə səhərə yaxın, hava hələ işıqlanmamış çaya, çay yoxdursa, bulağa– zəmzəm suyuna gedirlər. Ərazidə yayılmış inama görə, bu vaxt çayda su köpüklənməyə başlayır və bunu ancaq əməlisaleh adamlar görə bilirlər. Zəmzəm suyunu götürməyə gedən adamlar çaya çatanadək hansı arxın üstündən adlayırlarsa, "ağırlığım, dərdlərim bu suda axsın" deyirlər. Zəmzəm suyuna gedən dəstə digər dəstə ilə üzləşirsə, bir-biri ilə danışmadan keçir. Suyu götürəcək adam təmiz olmalıdır. O, suyu götürdükdən sonra çaya daş atır və ya bulağın başına daş qoyur. Suyu götürərkən ürəkdə arzu tuturlar. Niyyəti hasil olanlar növbəti il su başına xonça ilə gedirlər. Bu suyu evə çatdırdıqdan dərhal sonra evdə iki adam *dinməz oyunu* oynayır. Dinməz əlinə ağac alıb çörək təknəsinə vurur. Yanındakı deyir: "Vurma, vurma çörəyi bol olacaq". Sonra o, evdəki adamları ağacla vurur. Yanındakı deyir: "Vurma, vurma canları sağlam olacaq, filankəs bu il ərə gedəcək, evlənəcək, instituta girəcək və s." Dinməz toyuq-cücəni, mal-qaranı, həyətdəki ağacları da bu qayda ilə vurur, yanındakı onlara məhsuldarlıq arzulayır və s.

Dinməz oyunundan sonra zəmzəm suyundan çay qoyur, yemək bişirir, yuyunurlar. Mal-qaranın, toyuqların, ağacların üzərinə, tövləyə, toyuq herinə səpirlər ki, artım olsun. Hətta bəzi adamlar bu suyu şüşələrə doldurub bütün il boyu işlədirlər.

İlaxır çərşənbədə toxum səpir, kürt basdırırlar. Həmin gün, eləcə də Novruz bayramı günündə hamı, xüsusilə uşaqlar təzə paltar geyinməlidir. Paltar,adətən, qırmızı rəngdə seçilir. Həmin günlər hamının evində bayram süfrəsi açılır, süfrəyə plov, digər yeməklər, cürbəcür şirniyyat, çərəz və mütləq səməni qoyulur. Qohumlar və yaxın qonşular bir-birinin evinə bayramlaşmağa gedirlər.

İlaxır çərşənbədə qapı pusur, papaq atırlar. Uşaqlar ilaxır çərşənbəni daha təmtəraqla qeyd edirlər. Onlar pul yığıb bir nəfərin evinə yığışır, orada yeyib-içir, sulancaqda sulanır, qaçdı-tutdu, gizlənpaç oynayır, bənövşə yığmağa gedirlər və s. (Şəxsi arxiv).

Qaynaqların verdiyi məlumata görə, ərazidə ilin axır çərşənbəsində vəsfi-hal məclisləri də keçirilmişdir. R. Əfəndiyev ilin axır çərşənbəsi keçirilən vəsfi-hal məclisini belə təsvir edir: «İlin axır çərşənbəsi günü yetişmiş qızlar və bəzi arvadlar toplaşıb vəsfi-hala (O, bunu «vəsmi-hal» adlandırır) baxarlar. Bir qaba su doldurub içinə hərə bir şey salar və üstünü yaylıq ilə örtərlər. Kəndxuda arvad vəsmi-hal bayatısı oxumağa başlar. Hər bayatının dalınca qabdakı sudan bir şey çıxardarlar, o şey kimin olsa, bayatı ona aiddir. Bayatının məzmunu şey sahibinin gələcəyini andırır:

Kərə yağın yağın tortası,
Qızıl kəmər ortası.
Allah muradın versin
Gələn bazar ertəsi.

İrağdan gələnə bax,
Çövrülüb dönənə bax.
Muradı hasil olan
Çırağı yanana bax.

Əlimdən bıçaq düşdü,
Bilmədim haçaq düşdü.
Viran ol, ey qəriblik,
Yar məndən qaçaq düşdü və s.» (R. Əfəndiyev…..)

Ərazidə Novruz bayramı ilə bağlı lətifələrə də rast gəlmək mümkündür. Elə buradaca onu da qeyd edək ki, yalnız Novruzla bağlı deyil, digər mərasimlərlə bağlı lətifələr də ərazidə geniş yayılmışdır. Belə lətifələrdən biri "Bəndəlikdən çıxıb" adlanır. Bu lətifədə deyilir ki, Novruz bayramı günü Dodulu Nazimin evinə "Qodu-qodu" dəstəsi gəlir və pay istəyir. Onlar pay verməyənlərin qızı olacağını söyləyirlər. Nazimin arvadı onları yola saldıqdan sonra ərindən soruşur ki, qonşumuz çox

* Sulançaq-yelləncək.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xəsisdir, qodu gəzdirənlərə də pay vermədi. Bəs niyə onun yeddi oğlu var? Nazimin arvadına cavabı belə olur: "Bu xalq məsəli Allah bəndələrinə aiddir. Qonşumuzu Allah bəndəlikdən çoxdan çıxarıtdı" (AFA,s...) Bu lətifədən məlum olur ki, Şəki ərazisində Novruz bayramında da qodu gəzdiriblər. Yaşlı söyləyicilərin də verdiyi məlumata görə, ərazidə İlaxır çərşənbədə qodu gəzdirirmişlər və bu hal XX əsrin 70-ci illərinədək davam etmişdir. Qərbi Azərbaycanın Sisian rayonunda da İlaxır çərşənbədə qodu gəzdirirmişlər (Şəxsi arxiv).

Novruz bayramı günlərində həmçinin əraziyə *pəhləvan* (kəndirbaz) gəlir. Pəhləvanın yanında köməkçisi olur. Onu ərazidə "*pəhləvanın iti*" adlandırırlar. O, üz-gözünü bəzəyir, saqqal qoyur, başında tərsinə keçirilmiş papaq , əynində köhnə paltar, zolaqlı parçadan tikilmiş yamaqlı şalvar, ayaqlarında ucu şiş çarıq olur.Onlar açıq sahədə, yerdən təxminən 5-10 metr hündürlükdə məftillər quraşdırırlar. Pəhləvan məftil üzərində oynadıqca, onun "iti" yerdə cürbəcür oyunlar çıxarır.O, gah yolla gedən maşınları saxlayıb sürücülərdən pul alır, gah şeir söyləyir, gah məzəli sözlər deyib adamları güldürür, gah da meydana topalaşanlardan pul alır və kimin nə qədər pul verdiyini hündürdən elan edir və s. Kəndirbazlar XX əsrin təxminən 90-cı illərinədək rayon ərazisində tamaşalar vermişlər (Şəxsi arxiv).

Söyləyicilərin verdiyi məlumata görə, rayon əhalisi Novruzda "*Kosa-kosa*" oyunu da oynayırmışlar. Ancaq biz bu oyunun tam mətnini qeydə ala bilmədik. Bu oyun "ayindən oyuna, oyundan tamaşaya" uzun bir yol keçmişdir. Əvvəllər sakral mahiyyət daşıyan "Kosa-kosa" sonradan sakrallığını itirərək oyuna çevrilmişdir. Hal-hazırkı "Kosa-kosa" isə artıq oyun xarakterini də itirərək tamaşaya çevrilmişdir.

*Saya mərasimi.* Ərazidə folklor ezamiyyətlərində olduğumuz zaman saya mərasimi ilə bağlı məlumat verə bilən söyləyicilərlə rastlaşmadıq. Amma ərazidə az sayda və deformasiyaya uğramış vəziyyətdə qeydə alınmış saya nəğmələri və qoyunçuluqla bağlı nəğmələr vaxtilə bu ərazidə həmin mərasimin də keçirilməsindən xəbər verir:

Qoyun diyər: kür mənəm,
Hər qapıdan girmənəm.
Girdiyim qapıları
Var-dövlətsiz görmərəm(AFA, VIc., s.35).

Nənəm, qoyunnar mələr,
Sayamız dağdan gələr.
Sayası bol olanın
Qışda canı dincələr(AFA, IVc., s.66).

*Pir ziyarəti.* Hansısa niyyəti hasil olan şəxs qurban dediyi ziyarətə heyvan alıb aparır və bu münasibətlə də orada məclis təşkil olunur. Bütün qohum – qardaş və yaxın qonşular da bu məclisə dəvət olunurlar. Mollanın oxuduğu xüsusi duadan sonra üzü qibləyə uzadılmış heyvan kəsilir, onun qanından yaxınlıqda olan bütün məclis iştirakçılarının, xüsusilə də uşaqların alnına vurulur. Bundan sonra onun əti iri, mis qazanlarda ocağa qoyulur. Ziyarətə gələnlər pir sahibinin qəbrini soldan-sağa 3 dəfə fırlanır, dua edirlər, qəbrin üstünə qoyulmuş xüsusi daşları götürüb ağrıyan əzalarına sürtürlər. Əyinlərindəki paltarlarından sap çıxarıb pirin həyətindəki ağaca bağlayırlar. Pirdəki bulaqdan su götürüb içirlər. İnama görə, yuxarıda sadaladığımız ayinləri icra edənin canı sağlam olur, xəstəlikləri sağalır. Bundan sonra süfrə başına əyləşən məclis iştirakçılarına qurban ətindən hazırlanmış yeməklər verilir. Məclisə dəvət olunanlar da ziyarətə cürbəcür şirniyyat gətirirlər. Həmin şirniyyatla məclis iştirakçılarına çay verirlər. Bu məclisdə pir sahibləri və onların möcüzələri ilə bağlı mətnlər önə keçir. Əvvəlllər ziyarətə gələn camaat həm də piri vəsf eləyən mahnılar oxuyar, ondan murad istəyərdilər. Söyləyicilərin verdikləri məlumata görə, Balakəndən gələn camaat Şəkinin Baş Şabalıt kəndində yerləşən Şeyx baba adlı ziyarətin həyətində səf qurub oturar, gətirdikləri qurbanı kəsərdilər. Yeyib-içdikdən sonra zikr çalar*, piri vəsf eləyən mahnılar oxuyardılar:

Məhlədə Hacı baba,
Əynində yaşıl əba.
Bizi muraza yetir
Ya Şavalıt Şeyix baba (Şəxsi arxiv).

---

* zikr çalar-zikr edər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Söyləyici onu da qeyd etdi ki, piri ziyarət etməyə gələnlər belə mahnılar çox oxuyardılar, mənim yadımda qalan budur. Qeyd edək ki, Şeyx baba piri tək Şəkidə yox, ətraf rayonlarda da çox məşhurdur. Eləcə də bu pirə oxunan mahnılar ətraf rayonlarda da özünə geniş yer almışdır:

Məhləyə saldım gaba,
Mollar geyən əba.
Sənə canımız qurban
Ay bizim Şeyx baba (AFA, XIII c., s.141).

*Qodu gəzdirmə* ərazidə ən çox yayılmış mərasimlərdəndir. Qodunu yağış çox yağanda gəzdirərdilər. 3-4 uşaq yığılar, başlarına kisə keçirərdilər. Əllərinə də ağac alıb qapı-qapı gəzərdilər. Hansı qapıya çatsalar, bu sözləri oxumağa başlayardılar:

Qodu-qodu gezəllər,
Qoduyə salam verəllər.
Bu gün bizə un gereyh
Savax sizə gün gereyh.
Verə:n oğlu olsun
Vermiyə:n qızı olsun.
Adı Fatma olsun,
O da çatdıyif ölsün.
Çaylər daşif sel olsun
Taxıllar tel-tel olsun (Şəxsi arxiv).

Şəkidə qodugəzdirmə haqqında ilk məlumatı SMOMPK məcmuəsindən alırıq: "Yağışlı günlərdə tatar uşaqları qapı-qapı gəzib bu mahnını oxuyardılar. Buna görə də onlara adətən pul, un, yağ, yumurta və s. verirlər.

Qodu-qodu dursana!
Çömçəni doldursana!
Qodunu yola salsana!
Allah, Allah! (xorla)
Qodu palçığa batmışdı,
Qarmaladım çıxartdım.
Qızıl qaya dibindən
Bir qırmızı gün çıxartdım.
Allah, Allah (xorla).
Qaratoyuq qanadı,
Kim vurdu, kim sanadı.
Eşik-eşik gəzəndə
Baldırımı it daladı.
Allah, Allah (xorla).
Dağda dana böyürdü,
Yengə ora yüyürdü.
Yengə ona çatınca,
Gəlin bir oğlan qayırdı.
Allah, Allah (xorla)
Verənin oğlu olsun,
Verməyənin qızı olsun.
Adı Fatma olsun,
Qaşları çatma olsun.
O da çatdasın ölsün" (SMOMPK, XVIII. IIşöbə,1894.s.37-74).

O cümlədən, AFA-nın Şəki folkloruna həsr olunmuş cildlərində də məzmunca bir-birindən o qədər də fərqlənməyən "Qodu" nəğməsi verilmişdir. Bunlardan 3-ü SMOMPK məcmuəsindən alınaraq mənbəsi göstərilməklə çap edilmişdir, 1-i isə son dövrlər qeydə alınmışdır (AFA, IVc., s. 59-60, s. 487, AFA, VIc., s.36-37). Söyləyicilərin verdiyi məlumata görə, XX əsrin 70-ci illərinə qədər yağışı kəsmək üçün ərazidə qodu gəzdirirmişlər. Biz Şəkinin Baş Göynük kəndində folklor ezamiyyətində olarkən belə bir məlumatı qeydə aldıq ki, yağış yağanda qodu gəzdirən uşaqlar həyətləri bir-bir gəzər, "Qodu nəğməsi"ni oxuyar, pay alar, sonra isə evdəki adamları çaşdırıb, ocaqdakı qazanı da oğurlayardılar. Söyləyici həmin çaşdırmalardan birini söylədi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Pəri xala yaxşımı?
Hürü xala yaxşımı ?
Sona xala yaxşımı? ".

Uşaqların bir neçəsi avazla bu sözləri oxuyar, baş qarışdırar, bir neçə uşaq isə həyətdə dayanıb maraqla onlara tamaşa edən ev adamlarının gözündən yayınıb ocaqdan qazanı götürərdilər. Bütün bunlar ərazidə bu mərasimin necə şən və təmtəraqlı keçirildiyindən xəbər verir.

*Veysəlqara gəzmək*. Bu mərasim də "Qodu-qodu" kimi yağış çox yağanda icra olunur. Buna görə də "Veysəlqara"nı "Qodu-qodu"nun bir variantı saymaq olar. Bir neçə uşaq başlarına kisə keçirib qapı-qapı gəzərək pay yığardılar. Onlar bu zaman belə bir mahnı da oxuyardılar:

Veysəl baba, qurbanam sana
Veysəl baba, hidayət hana?...
... Verənin oğlu olsun,
Vermiyənin qızı olsun
Adı Fatma olsun,
Qolları çatma olsun.
O da suyə düşüf boğuluf ölsün (Şəxsi arxiv).

Söyləyici əlavə etdi ki, mahnının hamısı yadında qalmayıb. Ərazidə bütün günü boş-boş gəzən adamları zarafatla "Veysəlqara" adlandırırlar.

*Tasqurma.* Tasqurma mərasimini Şəkidə boynuna alan molla olmadı. Onların verdiyi qırıq-qırıq məlumatlardan məlum oldu ki, tası ruhi xəstələr üçün qururlar. Tas quran molla onun içərisinə su töküb yağ salır, sonra oxuyur ki, (söyləyicilər mollanın nə oxuduğunu bilmədilər) xəstəni incidən cinlər gəlib ona yapışsın. Bundan sonra xəstə sağalır. Ərazidən bununla bağlı yalnız bir mətn qeydə ala bildik. Bu mətn əraziyə gəlmədir. Onu bizə Laçın rayonundan deportasiya olunmuş və Şəkidə məskunlaşmış söyləyici danışdı. Şəki mollalarının verdiyi məlumata görə, Zaqatala və Balakən rayonlarında tasquran mollalar hələ də var. Onların söylədiklərinə görə, bu işlə Şəkidə yalnız bir neçə nəfər – Kor Əhməd, Qara Molla və s. mollalar məşğul olurmuş. Ancaq sonralar tas quran mollalar Sovet hakimiyyətinin apardığı siyasətdən qorxaraq gizli fəaliyyətə keçmişlər. Bundan sonra onlar yanlarına gələn hər adama tas qurmazmışlar. Qeyd edək ki, "Qara Molla" ifadəsi özü olduqca maraq doğurur. Şamanizmdə də Ağ şaman, Qara şaman ifadələrinə tez-tez rast gəlinir. Çox güman ki, Qara Molla Qara şaman ifadəsinin müasir formasıdır.

Mərasim Şəki ərazisində öz aktivliyini itirdikdən sonra onunla bağlı folklor mətnləri də sıradan çıxmışdır. Bu mərasimin izləri yalnız ərazidən qeydə alınmış lətifələrdə görünür. "Dınqı Bəkir fala baxır" adlı lətifə həmin mərasimin gedişi haqqında müəyyən qədər təsəvvür yaratdığından onu burada verməyi lazım bildik: "Bəkir kişi tas falına baxırmış. Bu zaman o, mis tasdan istifadə edərmiş. Tasa su töküb metal çubuqla vurar, tasdan dınqıltı səsi çıxarmış. Ona görə ona "Dınqı Bəkir" deyərmişlər. Bir gün Abdulla kişi Əsəd oğlu Yaquba deyir ki, Bəkirin heç savadı yoxdur, o, necə fala baxır? Onunku fırıldaqdır, gəlsənə, onu tərgidək. Onlar Yaqub kişinin evinin hər tərəfini qırmızı pərdələrlə bəzəyirlər, qırmızı yorğan-döşək salır, Yaqubun başına qırmızı çalma bağlayıb yatırırlar. Abdulla kişi Dınqı Bəkiri gətirir. O, evə daxil olan kimi qırmızıları sökdürür ki, cinlərin qırmızıdan xoşu gəlmir, sonra tasa su töküb çubuqla vurmağa başlayır və "Şaqo-Maqo" deyərək cinləri çağırır, deyir ki, gecə vaxtı su qırağında xəstəni cinlər vurub. "Xəstə"ni ovsunlayır, yenə tası dınqıldadıb deyir ki, qaranlıq yerdə, zoğal ağacının altında cinlər onu vurublar. Axırda nəzirini istəyən Bəkirə Yaqub deyir: "Ay Bəkir, guya mən xəstəyəm ki, sən cinləri bura yığmısan?" O ki var döyülən Bəkir həmin gündən fala baxmağı yerə qoyur" (AFA, VI c., s. 289).

Şəki mollaları tasqurma ilə ruhi xəstələri, dua yazmaqla digər xəstələri sağaldırmışlar: qorxan adamlara "Qorxu duası" yazılır, yel tutan xəstəyə üç çərşənbə "Surxavad" oxunur və s. Bu dualar arasında daha çox maraq doğuran "Boyləmə" adlı duadır. Bu dua uşağı olmayan, yaxud uşağı olub tələf olan qadınlara yazılır. Boyləmə digər dualardan uzunluğu ilə seçilir. Belə ki, onun uzunluğu bəzən 5 metrə çatır. Sonra bu dua qara parçaya bükülərək rəngbərəng saplarla çarpaz şəkildə qoltuğun altından keçirilərək xəstənin boynundan asılırmış.

Şəki mollaları tas qurmaq, dua yazmaq, yas aparmaqla yanaşı cadu da yazırmışlar. "Cadu yazmaq" ifadəsi ərazidə "əməl etmək" ifadəsi ilə əvəzlənir. Deyilənlərə görə, Şəki mollaları dua oxuyub arpa dənəsini divarda gəzdirə bilirmişlər. Onlar qarğa beynini yedirtməklə insanın ağlını başından alır, qurd yağı sürtməklə ailəyə nifaq salır, şirinlik duası ilə arada mehribançılıq yarada



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bilirmişlər və s. Belə mollalar və onların əməlləri sonradan ərazidə lətifələşmişdir. "Ünvanı səhv düşən cadu", "Keçi dərisi", "Şirinlik duası" kimi lətifələr bu qəbildəndir.

"Ünvanı səhv düşən cadu" adlı lətifədə sevdiyi qızdan müsbət cavab ala bilməyən oğlan qıza molla tərəfindən cadulanmış alma verir. Ancaq almanı qız yox, öküz yeyir. Bu əhvalatdan sonra öküz oğlanı hər görəndə ona həsrətlə baxır.

"Keçi dərisi" adlı lətifədə şagirdinin anasına gözü düşən molla ondan anasının saçını istəyir. Şagird evin damından asılmış keçi dərisindən bir neçə tük çıxarıb mollaya verir. Bir neçə gün sonra evin damından qopub düşən dəri həyətdə atılıb-düşməyə başlayır (Şəxsi arxiv).

"Şirinlik duası" adlı lətifədə isə arvadı ilə yola getməyən kişi mollaya şirinlik duası yazdırıb su qabına atır. Duanı tapan arvad evdən birdəfəlik çıxıb gedir (AFA,VIc.,s.,291).

*Siran gəzdirmə.* Bu məclis haqqında AFA-nın VI cildində oxuyuruq: "Keçmişdə Şəkidə Siran gəzdirmək adəti geniş yayılmışdır. Əsasən gənc gəlinlər (qohum-əqrəba, bəzən də ailəyə yaxın olan qonum-qonşunun gəlinləri) yığılaraq vaxtaşırı "siran gəzir", yəni, növbə ilə gah bu, gah da digər gəlinin evində toplaşardılar. Gəlinlər "siran"a ciddi hazırlaşar, ən yaxşı geyimlərini geyər, bəzək əşyaları ilə bəzənərdilər. Siran üçün əlborcu zinət əşyaları alanlar da olardı. Qonaqlığı xatırladan "siran"lar geniş ünsiyyət yeri, həm də bir-birinin ailə-məişət şəraiti ilə tanış olmaq "gör-götür" üçün yaxşı vasitə idi. Siran yerində ünsiyyət əsnasında ağız ədəbiyyatı da təbliğ olunur, yeni folklor nümunələri yaranırdı. Deyilənlərə görə, siranı qayınanalar və ailənin böyük gəlinləri təşkil edərdilər. Siran gəzmək adəti keçən əsrin 40-cı illərinədək davam etmişdir" (AFA, VI c.,s.483). Biz ərazidə bu məclis haqqında məlumat verə bilən söyləyicilərlə rastlaşmadıq.

*Mövlud* – bu məclis dini xarakter daşıyır və Şəki ərazisində *möhlüd* adlanır. Dinə görə, hər bir müsəlman öz evində peyğəmbərin doğumu şərəfinə bir gün möhlüd keçirməyə borcludur. Bundan başqa, niyyət məqsədilə və təzə evə köçmək münasibətilə də möhlüdlər keçirilir. Möhlüd həm evdə, həm də ziyarətdə keçirilə bilər. Məclisin nə dərəcədə təmtəraqlı keçirilməsi onu verənin maddi vəziyyətindən asılıdır. Məslisi iştirakçıların sayından asılı olaraq bir və ya bir neçə molla apara bilər. Orada hədislər söylənilir, dini rəvayət və nağıllar danışılır, Yunus İmrənin, Süleyman Çələbinin peyğəmbəri vəsf edən qəsidələri oxunur və s.

Şəki ərazisində keçirilən mərasimlərdən biri də *Məhərrəmlik*dir. Amma ərazidə şiə əhalinin sayı az olduğundan bu məclis şiə zonalarında keçirildiyi kimi təmtəraqla keçirilmir.

Qeydə aldığımız folklor mətnləri sayca çox fərqlənir. Bunun da bir neçə səbəbi var:

1. Bu, bəzi janrların daha aktiv və ya passiv olması ilə əlaqədardır. Atalar sözləri, deyimlər, təmsilcik, inam, yasaq və s. kimi janrlardan demək olar ki, hər bir şəkili öz gündəlik danışığında istifadə edir. Bu janrlar həcmcə kiçik olduğu üçün onları yadda saxlamaq və söyləmək daha asandır. Biz bu janrları yazmaq üçün xüsusi dəftər ayırmışdıq və ezamiyyətdə olmasaq belə, gündəlik eşitdiyimiz hər bir paremioloji vahidi oraya qeyd edirdik.
2. Bəzi mərasimlər artıq öz aktuallığını itirir və onların sıradan çıxması ilə əlaqədar olaraq bu mərasimlərdə söylənilən janrlar da unudulur. Bu da tam qanunauyğun prosesdir. Tutaq ki, qədim Azərbaycan toyları müasir Avropa toyları ilə əvəzlənirsə, deməli, qədim toylarımızda oxunan mahnılar da öz aktuallığını itirməlidir. Amma pirləri ziyarət etmə mərasimi hələ qaldığı üçün pirlər və pir sahiblərinin göstərdiyi möcüzələrlə bağlı rəvayətlər əhali arasında hələ də öz aktuallığını qoruyub saxlamaqdadır.
3. Şəhər mədəniyyətinin güclənməsi, müasir folklorun tədricən kənd folklorunu əvəzləməsi nəticəsində ənənəvi mərasimlər də köhnəlir, sıradan çıxır və onun unudulması orada söylənilən folklor mətnlərinin unudulması ilə şərtlənir.
4. Daha bir səbəb isə elmi-texniki tərəqqi, qloballaşma və onların təsiri ilə folklor mərasimlərinin sıradan çıxması ilə bağlıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# К ВОПРОСУ О ДОСТОВЕРНОСТИ ДРЕВНЕБУЛГАРСКОГО ПАМЯТНИКА «СКАЗАНИЕ О ДОЧЕРИ ШАНА» МИКАИЛЯ БАШТУ

***К.ф.н.Лена Мамедова***
***ДГПУ***
***Россия***

На протяжении многих десятилетий в прессе довольно часто муссируются окололитературные вопросы достоверности или фальсификации тех или иных произведений древних времен и раннего средневековья. Это происходит потому что в древности, во-первых, не было традиции авторства, во-вторых, - что в более поздних редакциях тексты не упоминались и на них не делались ссылки, и в третьих - это то, что оригиналы были утрачены по ряду причин. Самый близкий нам пример - это «Слово о полку Игореве», споры о достоверности которого идут и по сей день.

В конце XX века на мировой литературной арене появилось еще одно произведение, споры достоверности которого до сих пор не умолкают. Это «Шан кызы дастан» - «Сказание о дочери Шана» Микаиля Башту - древнебулгарского писателя и просветителя.

Достоверность этого памятника подвергается сомнению, так как до нас дошел русский вариант перевода, сделанный в 1990 г. татарским ученым Ф. Г. Нурутдиновым. Он опубликовал русский перевод арабской средневековой рукописи из утраченного в 20-30 гг. прошлого столетия казанского свода древних рукописей. К сожалению, приходится констатировать, что арабский текст «Шан кызы» не сохранился и можно использовать лишь художественный русский перевод, сделанный погибшим в Великую Отечественную войну казанским арабистом Ибрагимом Мохаммед-Каримовичем Нигматуллиным (1916-1941 гг.) и сохраненный его матерью, бабушкой Ф. Г. Нурутдинова, Латыфой-аби [1].

Новый поэтический памятник определен автором как дастан, то есть песней, основанной на устных преданиях. Но она включает в себя все позднейшие наслоения, связанные с этнокультурными, социальными и религиозными изменениями в общественных формациях населения Прикаспия, Поволжья, Приуралья и Южной Сибири на протяжении тысячелетия. Эти регионы упомянуты в одном ряду неслучайно, потому что - это ареал древнего расселения булгар - племен тюркского происхождения. Сегодня уже известно, что булгары - предки многих тюркоязычных дагестанских народов, что на территории Махачкалы было расположено булгарское государство Семендер. Благодаря же дастану о Шан-кызы мы узнаем и то, что его автор, Микаиь Башту был известен здесь в основном благодаря своему отцу Шамсу, который некоторое время жил в Семендере и занимался популяризацией ислама.

Жизнеописание поэта Микаила Башту, а также история создания «Шан кызы дастани» изложены в сводах булгарских летописей Гази Бараджа, Кул Гали «Хон Китабы», и Джагфар Тарихы, составленном Бахши Иманом около 1680 г. по приказу Сеида Джагфара [2].

Вот что дословно передают летописи о личности Микаиля Башту.

«От Микаиля осталась книга «Шан кызы дастаны», подаренная им Бат-Угыру при его поднятии на трон. Я читал ее. В ней слова старого дастана булгар о подвигах трех эльбиров-побратимов сплетены с сочинениями самого Микаиля. Сеид Ахмед Бакир нашел ее непристойной и запретил. Однако у моего отца сохранился список книги муллы – подарок бека Гузы. Мулла Хасан ибн Исхак, известный своей книгой «Собрание удивительных историй - услада для читателя и слушателя», увез один из немногих списков дастана в Хорысдан. Из Хорысдана он уехал в Кашан, где виделся с муллой Махмудом и пропел и пересказал ему дастан Микаиля... А написан он был простым языком, почему сеид Ахмед назвал Микаиля «недоучкой»...»

«...Эта Аппак славилась чудесным исполнением «Шан кызы дастаны», и, конечно, это она вдохновила мужа (Низами) на пересказ истории возникновения Болгара в его дастане об Искандере...»

«...А лучшим исполнителем дастана Микаиля считался бек Елаур из каубуйского рода Рыштау. Он ездил от Габдуллы Чельбира в Табыл-Катау сажать Лачына Хисами на гурджийский престол и присутствовал на свадьбе его с тамошней бикой Самар. Когда гурджийские беки стали исполнять свои песни, Елаур не выдержал и на одном дыхании пропел дастан Микаиля, произведя потрясение в душах присутствующих. А надо сказать, лишь изредка он помогал своему необычайно красивому голосу подыгрыванием на домбре, с которой никогда не расставался. И один из присутствовавших



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

беков - Нуршада, сын везира Абласа из гурджийского Хонджака, в восхищении побратался с Елауром. Елаур взял имя Нуршады, а Нуршада - имя его рода Рыштау и стал называться «Рыштаулы». Позднее Нуршада написал свой дастан, куда включил многое из дастана Микаиля...»

В 882 году на Башту двинулся из Галиджа сын Эрека Салахби, а из Болгара – Алабуга с отрядами сабанов и баджанаков, стремившихся отомстить за набег на них кара-булгарских моджар во главе с Лачыном. Накануне выступления кан Габдулла скончался, и на булгарский трон был поднят его сын Бат-Угыр Мумин, не отменивший распоряжений отца. Мулла Микаиль тогда же закончил свой дастан «Шан кызы дастаны» и посвятил его новому кану...» [3].

Сегодня, когда мы смогли восполнить пробелы в древнебулгарской и древнерусской истории можно сказать, что для широких масс булгарского народа в периоды феодальных усобиц и сепаратизма поэма Башту должна была стать воплощением идеала единства в рамках справедливого исламского государства.

Кроме завуалированной идеи исламизации, которой пронизана поэма Башту (подробнее об этом скажем ниже), произведение отличается сюжетной занимательностью и вызывает обыкновенный читательский интерес не только среди булгарской публики, но и среди всего арабоязычного мира, стремящегося к союзу с Булгарией для обращения ее в ислам. Известно, что поэма, первая из древнебулгарских памятников, написана на основе арабского алфавита. Причины этому, на наш взгляд, две: первая - стремление автора приобщить язычников к «священным» письменам; вторая - донести свой поэтический труд до наиболее культурных арабов.

Действительно, в поэме присутствует невероятное богатство сюжетов, тем, образов. Существует масса свидетельств того, как исполнялись на праздниках отдельные сюжеты из поэмы, как заучивались наизусть и пелись многие в сопровождении домбры многие полюбившиеся строфы о героях-эльбирах. Это одна из весомых причин, по которой последующие поэты ухватились за столь беспроигрышный сюжет и озвучили его уже по своему, соответственно поменяв героев на своих - национальных.

«Дастан» или «Сказание о дочери Шана» - уникальный памятник тюркской (булгарской) литературы. Это авторский текст. Однако все говорит о том, что автор Микаиль Башту сделал все возможное для того, чтобы зашифровать свой текст, используя не только тюркский (булгарский), но и мировой фольклор и мифологию.

Сплетение тенгрианских традиций сначала с эпосом, а затем с исламом в произведении позволяет говорить и о мифологизации ислама и об исламизации фольклора. Цель этих сложных переплетений в том, что Башту выступает популяризатором новой и спасительной на тот момент времени для булгар монотеистической религии.

Если древние исконно мусульманские авторы, такие как Ат-Табари, писали свои труды, особенно не задумываясь о цельности сюжета и художественной композиции, то их тюркские последователи уже не удовлетворялись простой констатацией фактов, им необходимо было заинтересовать язычника читателя, заставить его прочитать написанное до конца и заставить принять новую веру. Поэтому Микаиль Башту выбрал традиционный древне-булгарский жанр дастана, включил в него давно знакомых героев и четко поделил их на положительных и отрицательных, направив спонтанные действия основных персонажей в заранее четко продуманное русло. Главные герои дастана - эльбиры имеют только положительные черты. Но при этом они достигают нравственного возвышения лишь пройдя через определенный этап трудностей, бед и несчастий. Почему? В это кроется главная идея писателя. Их нравственность несовершенна и несколько сомнительна, потому что не обращена к Аллаху. - Вот какова главная идея поэмы. Из этого можно вывести первую причину достоверности и древности поэмы.

Если обратиться к истории, то станет ясно почему мы выдвигаем подобный тезис. Девятый век для Булгара - сложный период времени. Он разрывается между четырьмя религиями: собственно тенгрианством, византийским христианством, хазарским иудаизмом, арабским исламом. Наряду с тенгрианством, наиболее влиятельными становятся христианство и ислам. Христианство принимает отделившийся Башту - Киев, ислам принимает Волжская Булгария. Причем обе стороны исповедуют также и тенгрианство.

Микаиль Башту - выходец с арабского Востока принимает ислам и переводит на арабскую графику булгарские предания. Он, как противник другой монотеистической религии - христианства выводит в своем дастане образы румцев (византийцев) и садумцев (викингов), которые по его мнению убили Гыйсу



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(Иисуса). Первые - противники ислама, вторые - язычники. Этот вопрос приверженности к той или иной монотеистической религии довольно быстро угас. Уже к середине X века Киевская Русь как государственное образование была полностью христианизирована, а Великий Булгар - исламизирован. Поэтому, на этом основании мы можем предполагать, что дастан был написан не позже IX века, когда вопрос обращения в монотеистические религии стоял наиболее остро. Позже, уже к середине X века вопрос исламизации не стоял остро и если бы поэма была написана тогда или позже, то мотива «Нет Бога кроме Аллаха» в поэме наверняка бы не было, как и не было бы страстного желания автора и героев, выражающих его позицию, об обращении эльбиров в ислам и вознаграждении Аудана Дуло любимой девушкой Боз Би. А в дастане она - награда за принятие эльбиром ислама, как это видно из текста. (Только обратившись к Аллаху, Ат обретает любимую).

В пользу достоверности говорит еще один важный факт - такой как мифонимы дастана. Дело в том, что большинство из них навсегда исчезли из поздних летописей, описывающих мифологию булгар.

Такие имена как:

1. Хурса - бог кузнечного ремесла
2. Куропатка - алп би, родившая первых людей
3. Имэн - избранное племя людей «великий народ булгар».
4. Боян - предводитель племени имэн. Родился звездой. Родители Солнце и Луна. Пошел жить среди людей и закрыл лицо маской.
5. Бой-Терек - добрый алп, изображаемый в облике дерева.
6. Карга - алп в образе черной птицы - грача.
7. Симбир - гора, на которой жил Карга.
8. Чак-Чак - жена Карги.
9. Сак и Сок - сыновья Карги и Чак-Чак; - не встречаются больше [4].

Ни в каких источниках, а если встречаются, то непременно со ссылкой на имя Микаиля Башту. Так, например, Бахши Иман в летописи «Джагфар Тарихи», используя мифологическую терминологию, рассказывая о народе булгар делает ссылки на Шамси Башту. А Кул Гали в «Хон Китабы» и вовсе ссылается на Шамса Тебира - отца Микаиля.

Таким образом Кул Гали, ссылаясь на Шамса Башту в летописном жанре описывает то, что Микаиль Башту или как его еще называли Шамси Башту (сын Шамса), описал в своем дастане, причина достоверности которого, благодаря этой летописной выдержки кажется нам еще более вероятной. Но еще более ценным в этом тезисе является то, что Шамс Тебир, то есть отец Микаиля был историком. И что почти очевидно, оставил все свои рукописи сыну, который использовал их для создания дастана.

Следующий факт достоверности поэмы кроется в его сюжетно-композиционном построении и в частности, в авторских отступлениях. Нас интересует прежде всего факт автобиографии поэта, зашифрованный в тексте. Этих сведений нет больше ни в одной поздней летописи. Во 2 части поэмы «Дорога к дочери Шана» (глава 6 «Ат встречается с Тат - Ыраном») Аудан Дуло встречает на пути дервиша и обращается к нему с вопросом, не знает ли тот дорогу к Боз - би, но забывает по обычаю слезть с коня при разговоре со старшим, что является страшным грехом. Однако дервиш заговаривает с ним и рассказывает о том, кто он:

«Я - Шамс Тат-Иран, -
Ответил он Ату, -
Я происхожу из племени Саклан
И вырос возле Хурсана.

Отец Хасан
И мать Фатима -
Мир праху их -
Научили меня вере.

Образ миссионера Тат - Ырана (чужеземца из Ирана, «тат» в переводе с булгарского - чужой, чужестранец), является документальным фактом, проливающим свет на «родословную» самого автора. Тат-Ыран - никто иной как дед Башту.

«Шан кызы дастан» имеет четыре части. Первые две - собственно поэтическое изложение мифов и преданий древних булгар, вторые две посвящены булгарским богатырям-эльбирам, странствующим по свету в поисках приключений и любви.

На первый взгляд перед нами обычный переработанный фольклорный материал, в котором текст есть более или менее устойчивая комбинация элементов традиции, которая осуществляется в каждом акте исполнения. Повторяющиеся элементы варьируют по структуре и составу внутри одного текста, от исполнения к исполнению, от исполнителя к исполнителю, от традиции к традиции. Следует



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

добавить, что закономерности, согласно которым в тексте происходят вариационные изменения, не могут нарушать самих принципов порождения текста и практически должны совпасть с правилами текстуализации. Микаиль Башту нарочито, специально придерживается этих характеристик фольклора, более того он стилизует свое авторское «я» под безымянное «я» сказителя.

Послушайте-ка удивительный дастан
Про трех эльбиров
И про то, как они образовали
Великий народ булгар
И державу в стране,
Называвшейся Атиль,
А сейчас слывущей
Страной булгар.
Его написал в 882 г.-
В год поднятия сына Джилки Бат-Угора -
Мудрый наставник мужей -
Башту было имя поэта.
Перескажем дастан со слов людей,
Читавших его.
Может быть, не запомнили они всего -
Но сохранили главное.

Не приписывая себе прямого авторства писатель использует художественное опосредование, таким образом «включая» свое имя в список эпических героев. Такой прием доказывает высокий интеллект поэта и его образованность, а также указывает на следование традициям, основывающимся на отсутствии авторства в литературе того времени.

Однако авторская компетентность говорит читателю о том, что Микаиль Башту знал множество иных, вероятно письменных, источников, кроме устных сказаний. Перед нами классический пример интертекстуальности (т.е. понимания текста лишь благодаря знанию других текстов). Безусловно «Сказание о дочери Шана» представляет некий синтез, в котором гармонично уживаются устно-поэтические традиции и искусственный, то есть авторский эпос.

Разработка сюжета героического сватовства связана с традицией и приемами богатырской сказки, но изображение поисков невесты Ауданом Дуло приобретало принципиальное значение как рассказ о начале новой исламской веры, а борьба героя с чудовищами нижнего мира воспринимается как своеобразная деятельность «культурного героя» - мусульманина, ограждающая человеческое племя язычников от врагов (в образе которых представления об иноверцах).

Хорошо знающий тюркскую литературу, писатель избрал стиль дастана (поэтического предания), как самый известный и почитаемый среди булгар стиль. А это уже авторская литература, а не фольклор в переложении автора. Подтверждает это и идея исламизации тенгрианцев. Исламизация требовала враждебного отношения к другим монотеистическим религиям, в частности к христианству. Поэтому в дастане большое место уделено канонической библейской сцене казни Иисуса в кораническом переложении. Здесь же содержатся сведения о Содоме и Гоморе, интерпретированные автором так, что именно христиане и язычники - самые большие грешники. Историю Гыйсы (Иисуса) эльбирам рассказывает один из первых мусульман, которого они встретили на своем пути - Хасан. Микаиль Башту устами Хасана рассказывает о Гыйсе, как о современнике, то есть Хасан встречался с ним и слышал его историю от него самого, потому что Хасан, глубоко верящий в Аллаха, уверен что Гыйса воскрес и ходит по земле между людьми по воле Аллаха. Хасан сам встречал на своем пути Гыйсу. Об этом он и рассказал эльбирам:

«Виделся я в пути
С самим Гыйсой -
Праведником веры.
Стал Гыйса
Пророком Аллаха...
Объявил он в Руме
Об истинном пути к спасению...
Не понравилось это
Царю Рума - язычнику.
Велел он воинам
Казнить Гыйсу.
Но никто из румийцев
Не решился на это преступление.
Однако, нашли убийц -
Из приезжих садумцев.
Были приезжие
С острова Садум...
Царь Садума
Славился распутством.
В то время, когда в Руме
Схватили Гыйсу,
Сбывала одна группа садумцев
Награбленное румским купцам.
Охотно согласились
Садумцы за деньги
Казнить Гыйсу -
Были они закоренелыми язычниками,
Привязали они Гыйсу
К перекладине ворот кожаными ремнями,
Да потом вздумали
Еще сильнее прикрепить его.
Были у них рогатые шлемы.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Этими рогами они и прибили
Руки и ноги Гыйсы
К перекладине и столбу.
Ни разу не застонал
Добрый Гыйса,
Не возроптал.
Не стал молить о пощаде.
Только сказал убийцам:
«Велик Аллах!
Не избегнуть его суда
Никому из живущих!»
...Прославил веру ислама.

...А Гыйса после казни
Предстал перед Всевышним.
Хотел Творец
Освободить Гыйсу от своего суда.
Но сказал Гыйса:
"Никто не должен
Избегнуть суда Всевышнего.
С радостью принимаю я волю Аллаха!"
Стал приближен Гыйса
К Всевышнему,
Часто являлся он
По воле Аллаха на Землю... [5].

Примечательно, что изложение упомянутых нами сюжетов дается в народно-поэтическом стиле. Нам видится, что образованный книжник Микаиль Башту делает это нарочито, чтобы остаться в канве героического эпоса. Эта народно-поэтическая компиляция литературных текстов с мифологическими имеет конкретную цель - донести до менее образованного читателя главную идею своего произведения - идею любви к Аллаху.

И еще один - последний фактор достоверности дастана лежит вне контекста дастана и даже вне собственно булгарской культуры. Литературный памятник, который может служить «гарантом» достоверности дастана относится к древнерусской культуре. Это «Слово о полку Игореве».

В одном из лирических отступлений автор «Слова» говорит:

*«Всеславъ князь людемъ судяше, княземъ грады рядяше, а самъ въ ночь влъкомъ рыскаше: изъ Кыева дорискаше до куръ Тмутороканя, великому Хръсови влъкомъ путь прерыскаше»* [6].

Это лирическое отступление автора о былом могуществе Руси в контексте основной коллизии поражения Игоря. Внимание здесь привлекает имя Хръсови (Д.п. ед. ч от Хрък - Хорс).

Кто же этот «великий Хорс», которому Всеслав пересекает путь? Согласно древнебулгарской мифологии это - алп (бог второго уровня в пантеоне тюрков) кузнечно-оружейного дела и Божьей вести (о предстоящей смерти или каре), сын Мара и Туран. По воле Тангры доставлял души умерших с Земли на Небо. Принимал вид грифона, орла, беркута, сокола и др. хищных птиц. В булгарском искусстве являлся символом неотвратимости Божьего суда и наказания за грехи. Другие булгарские названия Хурсы — Саин (Добрый, Счастливый), Аспар (Суровый). По преданию, Хорсу нельзя было переходить, перебегать дорогу, так как в наказание за это он лишал воина победы в ратном деле или в поединках.

Последние сведения о Хурсе содержит «Сказание о дочери Шана» Микаиля Башту, где Хурсе посвящена целая глава, полностью объясняющая приведенную цитату из «Слова»:

«Был он отменным кузнецом,
Исходил всю Землю
В поисках руды
Для своей кузни...

Нельзя было никому
Перебегать дорогу Хурсе,
Иначе исчезала
Сила его оружия.

Сравнивая со строфой из «Слова» строфу из «Сказания» можно теперь понять, что перед нами идиома, этимологически восходящая к древнетюркскому народно-поэтическому эпосу. Итак, чтобы подчеркнуть храбрость Всеслава автор приводит пример редкого отчаяния князя: он переходит дорогу самому Хурсе, не страшась, что его оружие потеряет силу. Безусловно не зная мифологии тюрков, трудно проследить этимологию этого слова, этого имени и его функции. Поскольку автор не комментирует своей метафоры, то очевидно имя Хурса было известно в Древней Руси, более того, оно было на слуху и являлось народным поверьем, приметой, суеверием. Отсюда напрашивается предположение, что автору «Слова» был известен дастан Микаиля Башту, причем не только ему, но и тем, для кого создавалось «Слово».

Очевидно, что главным препятствием на пути всестороннего изучения славянских языческих традиций по письменным источникам является отсутствие таких источников, которые были бы хронологически близки к интересующему нас периоду, а главное - отражали бы ситуацию с точки зрения данной культурной традиции. Теперь, благодаря обращению к древнебулгарскому памятнику, одно из «темных мест» «Слова» может быть расшифровано. До нас подобной ссылки в исследовательской литературе о «Слове» не встречается. Перед нами типичный пример идиомы,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

когда инокультурная пословица переходит в другую культуру без изменений. Это может происходить лишь в том случае, когда культуры народов близки, иначе идиома потеряет смысл. Благодаря тюркскому эпосу мы можем сказать, что культура Древней Руси до ее официального признания как государственной целостности во многом была похожа на булгарскую культуру, если не тождественна ей. Поэтому, встречающиеся в «Слове» идиомы еще понятны читателю Руси раннего средневековья, но уже утрачиваю свою семантическую прозрачность при дальнейшем переписывании «Слова».

Интересна в этом плане и другая идиоматическая конструкция, перенесенная автором «Слова» из тюркского эпоса:

Рекъ Боянъ и Ходына,
Святъславля песнотворца
стараго времени Ярославля,
Ольгова коганя хоти:
"Тяжко ти головы кроме плечю,
зло ти телу кроме головы" -
Руской земли безъ Игоря.

В героическом эпосе древних тюрков о деяниях алпов, переданных Микаилем Башту в его «Сказании о дочери Шана», алп Боян-Имэн, славившийся своим музыкальным даром, пел:

Пел он: (Боян): «Тяжело голове без плеч,
Тяжело плечам без головы.
Тяжело детям без отца,
Еще тяжелее отцу без сыновей»

Перед нами пример семантической кальки-метафоры, переданной на идиоматическом уровне, но интерпретированной автором «Слова» согласно собственному контексту. Однако, несмотря на другую интерпретацию - пред нами очевидное заимствование.

Факторы достоверности поэмы «О дочери Шана» кажутся нам вполне убедительными, но для полной аргументации выдвинутой нами гипотезы необходимо провести более глубокий этимолого-семантический и сюжетно-композиционный анализ поэмы, который докажет абсолютное авторство Микаиля Башту и выявит, мы уверенны, много других факторов, указывающих на то, что перед нами не фальсификация XX века, а исконное древнебулгарское произведений, принадлежащее перу Микаиля Башту.

## ПРИМЕЧАНИЯ

1.И. Баранов. Легенда о дочери Шана: новый источник по истории народов восточной и центральной Европы VII-IX

2. 3. Бахши Иман. Джагфар тарихы. Летопись Гази-Бараджа.— Т. I. — Оренбург, 1993. — Гл. 4. — С. 21-22.

4. Ветры Великих Булгар (легенды, предания, баиты и исторические материалы) - Казань, 1993 г.

5. Сказание о дочери Шана. М. Башту. Киев 882 г. М-ла 2003. Под ред. проф. Акавова З.Н.

6. Слово о пълку Игореве, Игоря, сына Святъславля, внука Ольгова. Древнерусский текст. Подготовка текста В.И. Стеллецкого. М., 1985 .



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCAN XALQ NƏĞMƏLƏRİNİN TOPLANMASI VƏ NƏŞRİNDƏ SMOMPK MƏCMUƏSİNİN ROLU

***Lətafət Ələkbərova***
***BDU***
***Azərbaycan***

Azərbaycan folklorunun toplanması, nəşri, öyrənilməsi tarixində SMOMPK məcmuəsi mühüm yer tutur. Burada çap olunmuş məqalələrdə Azərbaycanın hər bir diyarı – Bakı, Qəbələ, Quba, Zəngəzur, Şuşa və s. – geniş təsvir edilmişdir. Bir çox nağıl və dastanlardan parçalar, əfsanə və rəvayətlər, atalar sözü və məsəllər ilk dəfə məhz bu məcmuədə çap olunmuşdur. Eləcə də bu məcmuədə xeyli sayda müxtəlif xalq nəğmələri – mövsüm mərasimi nəğmələri, məişət mərasimi nəğmələri, toy nəğmələri, ağılar, layla, oxşamalar və digər xalq nəğmələri nümunələri təqdim olunmuşdur.

Bunlardan ilk olaraq SMOMPK-un IX buraxılışında İrəvan və Yelizavetpol quberniyalarının məktəblər üzrə inspektor işləyən A.İoakimov «Qodu-qodu» mərasim nəğməsəini toplayıb çap etdirmişdir (11,s.128-130). Daha sonra XIII buraxılışda Qori seminariyasının müdavimi A.İsmayılov üç xalq nəğməsini (deyişməsini – L.Ə.) yazıya alıb nəşr etdirmişdir: «Yaylaqla aranın bəhsi», «Yerlə göyün deyişməsi» və «Arı haqqında nəğmə» (12,s.230-237)

Bildiymiz kimi, çox vaxt Azərbaycan folkloru nümunələri ermənilər tərəfindən mənimsənilərək SMOMPK-da çap edilirdi. Beləliklə «Sbornik»in XVIII buraxılışında Çaykənddə yaşayan ermənilərin hər il avqustun 6-da Afrodita ilahəsinin şərəfinə keçirdiyi «Vardavar» bayramından söhbət açılır. Həmin bayramda qızlarla oğlanların deyişməsi təsvir edilir. Yazının müəllifi A.Kalaşev qeyd edir ki, deyişmənin neçə bəndi azərbaycanca ifa olunur:

Vardavar gələcəkdir, can gülüm, can, can
Süfrəni salacağdı, can, gülüm, can, can.
Hər kəsin yarı yoxdur,
Bəyənib alacaqdır (13, s.1-36)

Həmin buraxılışda A.Kalaşev və A.İoakimovun yazıya alıb çap etdirdiyi bir neçə Azərbaycan xalq nəğməsi də var. Burada layla, ağı, uşaqların oyun zamanı ifa etdiyi nəğmələr, məhəbbət bayatıları (şikəstələr – A.K), yenə də «Qodu-qodu» mərasimi nəğməsi, eləcə də Cəbrayıl qəzası Ağcayazı kəndinin sakini Əhməd Məlikovun dilindən yazıya alınmış bacının qardaşa həsr etdiyi ağı verilmişdir. (13, s.37-74). Həmin nümunələrin ən maraqlı cəhəti odur ki, onlar artıq əski əlifba ilə yox, kiril qrafikası ilə nəşr edilmişdir. Hətta yazıya alındığı diyarın ləhcəsi də saxlanılmışdır. Bu da öz növbəsində tərcümənin düz olub-olmamasının və ya saxtakarlığın üzə çıxarılmasına ikman verir. Məsələn:

Gəlin gedək Xoruzlunun düzünə, düzünə;
Ay güllə dəyif Ürüstəmin dizinə. (13, s.72-73)

Azərbaycan folklorunun ilkin janrlarından biri olan sayaçı nəğmələri bu məcmuənin XLII (42-ci) buraxılışda F.Köçərli tərəfindən toplanılıb nəşr edilmişdir. Firudin bəy həmin sayaçı sözlərinə qısa müqəddimə yazmış, burada «saya» sözünü «sayə» (yəni – himayədarlıq) kimi izah etmiş, sayaçının nə ilə məşğul olduğunu təsvir etmişdir (15, s.1-23).

Azərbaycan mərasim folkloru bir çox tədqiqatçı – AMEA-nın m.ü., prof. A.M.Nəbiyev (1), prof. M.H.Təhmasib (4), M.Seyidov (5), tərəfindən tədqiq edilmişdir. SMOMPK-da çap olunan həmin janrlar üzərində vaxtilə Türkiyədə mühacirətdə yaşayıb fəaliyyət göstərən prof. Ə.Cəfəroğlu da əhəmiyyətli tədqiqat aparmışdır (5).

Bir maraqlı faktı da qeyd etmək istərdik ki, vaxtilə Nuxa (indiki Şəki) qəzasında yazıya alınan və SMOMPK-da çap olunan mərasim nəğmələri sonradan AMEA-nın Folklor institutu tərəfindən çap edilən Azərbaycan folkloru antologiyasının Şəki folkloruna həsr olunan IV və VI cildlərində təkrar çap edilmişdir (6; 7).

Azərbaycan mərasim folkloru həmçinin etnoqraflar tərəfindən də tədqiq olunmuşdur. Məsələn: Q.Ə.Qeybullayev «О пережитках большой семьи в Азербайджане в ХЫХ веке», R.P.Əfəndiyeva «О ритуале оплакивания и похоронных причитаниях азербайджанцев конца XIX – начала XX веков» adlı məqalələrində SMOMPKda çap olunan müxtəlif mərasimlərə, kiçik janrlara və s. müraciət etmişlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan uşaq folkloru da alimlərimiz tərəfindən əsaslı şəkildə araşdırılmışdır. Bu haqda AMEA-nın m.ü., prof. A.M.Nəbiyev (2), prof. V.Vəliyev (8), prof. P.Əfəndiyev (9) və dos. R.Qafarlı (10) geniş araşdırmalar aparmışlar.

SMOMPK məcmuəsinin Azərbaycan nağıl, lətifə, əfsanə və rəvayətlər, tapmaca, atalar sözü və məsəlləri ilə yanaşı milli sərvətimiz olan xalq mərasimləri, uşaq folkloru, oyun və tamaşalarının çapında xidməti əvəzsizdir və onun daha dərin tədqiq olunması milli folklorşünaslığımız üçün zəruridir.

**Ə D Ə B İ Y Y A T:**

**Azərbaycan dilində:**

1. Nəbiyev A. Mərasimlər, adətlər, alqışlar. B., «Gənclik», 1993, 352 s.
2. Nəbiyev A. Azərbaycan uşaq folkloru. B., «Elm», 2000, 76 s.
3. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. B., «Yazıçı», 1989, 496 s.
4. Təhmasib M.H. Azərbaycan mövsüm və mərasim nəğmələri. Filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. B., BDU-nun əsaslı kitabxanası, 1945, 133 s.
5. Hüseynov G.Əhməd Cəfəroğlunun folklorşünaslıq irsi. Filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. B., AMEA-nın Mərkəzi Elmi Kitabxanası, 2003, 156 s.
6. Azərbaycan folkloru antologiyası. IV cild. Şəki folkloru. B., «Səda», 2000, 498 s.
7. Azərbaycan folkloru antologiyası. VI cild. Şəki folkloru. B., «Səda», 2002, 498 s.
8. Vəliyev V. Azərbaycan folkloru. B., BDU nəşri, 1985, 414 s.
9. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., «Maarif», 1992, 477 s.
10. Qafarlı R. Azərbaycan uşaq folkloru. Filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. B., AMEA-nın Mərkəzi Elmi Kitabxanası, 1988, 190 s.
11. СМОМПК, IX выпуск, 1890 г.
12. СМОМПК, XIII выпуск, 1892 г.
13. СМОМПК, XVIII выпуск, 1894 г.
14. СМОМПК, XIX выпуск, 1894 г.
15. СМОМПК, XLII выпуск, 1912 г.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Luiza Rukhadze***
***Nanuli Katcharava***
***Tiflis Dövlət Universiteti***
***(Gürcüstan)***

Birbirine komşu olan ülkelerin folklorunda ve dillerinde, her folklor ve dilde olduğu gibi komşu ülke folklor ve dillerinden geçmiş bulunan sözcükler ve deyimler mevcuttur. Bu ülkelerin, asırlar boyu yan yana yaşamış olmalarının etkileşim sonucunda, birbirleriyle ekonomik, siyasal, dinsel, kültürel ve sosyal ilişkilerde bulundukları için, her konuda olduğu gibi folklor ve dildeki etkileşimleri de kaçınılmazdır.

Asırlar boyunca Kafkasya'da yaşayan ve Türkçe konuşan halk ile Gürcistan'ın dağlık bölgelerinde yaşayan Gürcüler arasındaki sık kültürel-ekonomik ilişkiler sonucunda, Gürcistan'ın dağlık bölgelerinde konuşulan dillerde ve folklorda Karaçay, Balkar ve Kumukh folklorundan ve dillerinden girmiş kelimelerle karşılaşılmaktadır. Gerek Gürcü folklorunda gerek Gürcüce yazılı eserlerde, XII. asırdan sonra özellikle de XVI. asırdan itibaren Anadolu Türkçesinden geçmiş bazı kelimelerin, yer aldığı kanıtlanmaktadır.

Türkçeden Gürcü folkloruna ve diline geçmiş kelimelerin çoğu, dillerin Türk Dil Ailesinin Oğuz (Osmanlıca, Türkçe, Azerice) ve Kıpçağ (Karaçayca, Kumukhça) gruplarına giren kelimelerden oluşmaktadır.

Bu çalışmamızda Türkçe'den Gürcüce'ye geçmiş ve sözlüklerimizde de yer almış birkaç Türkçe kelime incelemekteyiz.

Türkçe'den Gürcü diline ve folkloruna giren kelimelerin hepsinde görüldüğü gibi, aşağıda verdiğimiz örneklerde de, deyimin ya da kelimenin geçtiği dilin doğal kanunlarına uyan fonetik kurallar, olduğu gibi kalmaktadır.

Örnekler:

**G."alçu"<T."alçı"** – Gürcüce'de "alçu" kelimesi anatomi bakımdan koyun veya davar bacağının kemiğidir ve oyuncak olarak kullanılır. Azer. "alçy", Kazakh. "alçy" v.s. T. "alci" Rusça'da yerleştirilerek davar bacağının oynağı anlamına gelmektedir. M. Fasmer'e göre T. "alçı" sadece Rusça'da tasdik edilmektedir ve "alçık"la paralel olarak bu kelimenin "çık" kısa varyantı da kullanılır.

G. **"Artala"** - 1) inek budunun alt kısmı. 2) inek budunun alt kısımdan yapılmış çorba (Gürcüce Sözlük). S.S.Orbeliani ve N. Çubinaşvili'nin sözlüklerinde yalnız birinci anlam yer almaktadır, ikinci anlam ise bulunmamaktadır.

Prof. G. Rogava, Gürcü "artala" kelimesinin Zanca (Gürcü Dilleri Ailesinden bir dil ) "ontole" kelimesinden aldığını kabul etmektedir.

Biz, Gürcüceye geçmiş "artala" kelimesinin Türk "ardala" kelimesine bağlı olduğunu düşünmekteyiz. Çünkü Türk lehçelerindeki "ardala" kelimesinin birkaç anlamından biri olan "inek budunun alt kısmı" anlamı, Bursa ve Niğde'de kullanılmaktadır. Bu anlam Gürcücedeki "artala" kelimesi ile tamamen aynı anlama gelmektedir. Gürcü "artala"nın Türk "ardala" kelimesinden alındığı aşikardır. Türkçe "ardala" kelimesindeki yumuşak ünsüz "d", Gürcücenin belirli kurallarına uygun olarak sert ünsüz "t" haline gelmiştir.

Etimolojik bakımdan "artala" kelimesi Türk kökenlidir. Bunun tasdiği kelimenin ilk kısmı olan "art"-ın anlamlarıdır: 1) sırt, arka kısım, son; 2) art bacaklar (hayvanlar için); Kelimenin "arka, son" anlamları Şems-Ed-Din Sami'nin sözlüğünde de kayıt edilmiştir.

Yukarıda belirttiğimiz gibi, Gürcüce "artala" gibi Türkçe "ardala"nın semantiğinde de baskın olan, sözcüğün "arka" anlamıdır.

G.**"Azmani"** - Sulkhan-Saba Orbeliani'nin Sözlüğünde kaydedildiği gibi "azman" kelimesi iki yaşındaki koyun anlamına gelmektedir.

"Azman" kelimesi, M.Kaşgarlı'nın sözlüğünde iki anlamla kaydedilmiştir: 1) burulmuş koyun 2) atın adı.

V. Radlov'a göre bu kelime Karayım kökenlidir. Bununla birlikte Osmanlıca, Kırgız ve Kazak dilleri için "azban" şekli de getirmektedir.

Türk dillerinde "azman" kelimesinin üç anlamı bulunmaktadır: 1) Burulmuş hayvan – Kazak, Noğay dillerinde ve Özbek lehçesinde 2) Eski Türkçe'de – burulmuş koyun 3) Tay veya öküz.

E. Sevortyan'a göre, azman//azban kelimesi, "burmak" fiilinin objektif anlamından man//ban eki ile yapılmış bir kelimedir. Bu fiil "casa" şekliyle "y" ve "ç"-nin belirli değişmeleriyle Tuva dilinde bulunmaktadır. G. Brockelmen da aynı etimolojiyi vermektedir. Bilim adamların çoğu, Türk "azman" kelimesinin Moğolca "asamag" (burulmus öküz) kelimesine bağlı olduğunu kaydetmektedir. Ayrıca "azman" kelimesi Türk lehçelerinde ve folklorunda da çok yayılmış bir sözcüktür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**G. "kuti" < T. "kutu"//"gutu"** - Gürcüce Sözlükte yer aldığı gibi kare şeklinde tahta sandık (çekmece) ilk defa "Rusudaniani" isimli edebi eserde tasdik edilmektedir. Türk dilinde "kuti" kelimesi kutu//gutu formlarıyla sunulmuştur ve lügatçılara göre Türk kökenli kelime olarak kabul edilir. Adı geçen kelimenin "k'utu, k'urtu" Osça formları incelediğinde; E. Abaev, bunların Türk kökenli olduğunu göstermektedir. A. Knezeviç'e göre ise 'kutu' kelimesi Yeni Yunanca'dan alınmıştır. Fakat bu kelime eski Yunanca'da yer almayıp sadece Yunan folkloruna aittir. "Kutu" kelimesinin Yunanca'ya Turkçe'den girmiş olduğu kanaatindeyiz.

**Tagani//tagana** - "ağaçtan yapılmış küçük kapkaçak". "Tagani" kelimesi Gürcü dilinin dağlık bölgelerinde konuşulan lehçelerde özellikle Pşavi, Tuşeti ve Kakheti lehçesinde kullanılmakta olup ünlü Gürcü yazarlar Vaja-Pşavela ve Aleksandre Kazbegi'nin eserlerinde yer almaktadır. Yukarıda söz edilen lehçelerde "tagani" kelimesi inek sağarak kullanılır bir kaptır; ayrıca yağ ve balın saklanması, peynir konması için de kullanılır.

"Tagana" Gürcüce'ye Türkçe'den girmiş bir kelimedir. Bunu Çağatay, Osmanlıca ve Karaim dillerindeki "täknä" kelimesi; Karaçay, Kazakh dillerindeki "tegäne" kelimesi; Tatar, Bulgar dillerinde kayıt edilmiş "tägänä" kelimesi tasdik etmektedir.

**G."uro" < T."vurmak"** - G "uro" - "büyük demir veya ağaç çekiç" demektir. Gürcüce'deki küçük demir çekiç "kveri//kueri" anlamına da gelerek G."kvra" (vurmak) fiilinden gelmektedir. "Uro" kelimesi Gürcüce'nin lehçelerinde de kayıt edilmiştir (Mokhevuri, Raçuli lehçelerinde). Gürcüce "uro"nun Türk dillerinde var olan "vurmak" fiilinden geldiğini düşünmekteyiz. Bu fiil XII. yüzyıl eserlerinde bulunmaktadır. Eski Türk Dili Sözlüğünde "urgu" kelimesi, "vurmak için gerekli alet" olarak belirlenmektedir. E. Nacip'in tarihsel-karşılaştırma sözlüğünde "urmak" fiilinden yapılmış "urgu" kelimesi de bulunmaktadır. "-Ur" eki Türk dili ve lehçeleri, Azerice, Karayımca, Gagauzca ve Noğayca'da da kayıt edilmiştir. M. Resenen'in Etimoloji Sözlüğünde "urmak" fiilinin yanında aynı anlamındaki Fince "pure" kelimesi de bulunmaktadır.

Türk dillerinden Gürcüce'ye girmiş, birkaç kelime üzerine yapılan incelemelerden örnekler sunduk. Bu incelemeler sırasında en önemli ölçütler olarak, başta tarihsel ve ekonomik ilişkiler ile coğrafi anlamda yakın olup olmama durumunun tesbit edilmesi önemlidir. Ancak, bütün bu incelemelerimize rağmen, kaynak dilin hangisi olduğuna dair net bir tespit yapmak yine de oldukça zor görünmektedir. Türk dilinden alınmış ve Gürcü diline yerleşmiş kelimelerin çoğunun, Türk dilleri ailesinin Oğuz (Osmanlı, Türk, Azeri) ve Kıpçak (Karaçay ve Kumukh dilleri) kollarına ait dillerden gelmiş olduğu düşünülmektedir.

**KAYNAKLAR**:

1.Gürcüce Sözlük. Tiflis, I, VIII, 1956. 1963
2. S.S.Orbeliani, Gürcü Sözlük, Tiflis, 1949
3. Kaşg. D. Resim Altay Divani Lügat- at Türk Dizisi, Ankara, 1943
4. В.В. Радлов, Опыт словаря тюркских наречий СПВ, 1886, 1911
5. Э.В. Севортян, Этимологический словарь тьюркских языков, М., 1973-1980.
6. Н.Л. Шилова, Словарь тюркизмов в русском языке. М. 1976
7. Абдулаев Х., Узбек тилининг хорезм шеватери. Ташкент, 1961
8. Brockelmann C., Mitteltürkischer Wortschatz. . .Leipzig, 1928
9. Фасмер Ш., Этимологический словарь рус. языка. 1987, I.
10. Divani Lügat-at Türk I-III, Ankara, 1939-1941
11. Древнетюркский словарь, Л. 1969
12. Турецко-Русский словарь, М. 1977
13. G. Rogava, Gürcü dilinde tarihsel fonetik konuları, Tiflis, 1962
14. Türkiye'de halk Ağzından söz derleme dergisi, I Ankara, 1963
15. İoane Bagrationi, Doğal Kaynaklari Sözlügu, 1986
17. Ir. Kerkadze, Eski Gürcücedeki hayvanlar kelimeleri , Tiflis, 1974
18. O. Tedeev, Gürcüce-Osça dilleri ilişkileri denemeleri, Tiflis, 1983
19. Ковалевский, Монгол. русс. фраз. словарь, Казань, 1844
20. A. Makashvili, Botanik Sözlük, 1968
21. Наджин Э.Н., Историко-сравнительный словарь тюркских яз. М. 1979
22. Цонев, Турски дули в българских езики, София, 1919
23. Боровков Л.К. Названия растений по бухарскому списку, Муккадимат ал Адаб. М. 1971, стр. 96



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# АЗЕРБАЙДЖАНСКИЕ ЛЕКСИЧЕСКИЕ ЗАИМСТВОВАНИЯ В ЗАКАТАЛЬСКОМ ДИАЛЕКТЕ АВАРСКОГО ЯЗЫКА

***М.Ч.Чеерчиев***
***Россия***

Проникновение тюркских, в том числе и азербайджанских, лексических единиц в закатальский диалект аварского языка не может быть рассмотрен вне контекста взаимодействий разносистемных языков закавказского региона в целом и Алазанской долины в частности. "В изучении истории Азербайджана и Дагестана и истории азербайджанского языка и языков Алазанской долины,- отмечает И.А.Дибиров,- большую роль играют письменные источники 5-14 вв., сохранившие свидетельства существования между закавказскими народами и народами Дагестана древних этнолингвистических и историко-культурных связей, носивших регулярный характер, распространившихся на все сферы жизни и получивших отражение и в их языках ". (1:35)В действительности, народы и языки этого ареала имеют достаточно долгую историю взаимодействия и взаимного контактирования. Это в свою очередь обусловило взаимное проникновение прежде всего лексических единиц контактировавших языков. Вопросы азербайджано-аварских языковых контактов на территории нынешних Белоканского и Закатальского районов Азербайджана изучены не достаточно подробно, хотя отдельные публикации содержат некоторый материал по этой проблематике (1;2;3). Поэтому представляется актуальным рассмотрение вопросов, связанных с лексическими заимствованиями закатальского диалекта из азербайджанского языка. Причем здесь азербайджанскими заимствованиями называются как собственно азербайджанизмы, так и те лексические единицы, которые проникли в закатальский диалект аварского языка через посредство азербайджанского языка."Говоря о влиянии тюркских (азербайджанского) языков на лексический состав дагестанских языков Алазанской долины,- продолжает И.А.Дибиров.- следует отметить, что эти слова затрагивают такие стороны народного хозяйства, как животноводство, кулинария, семья, родственные связи, предметы домашнего обихода, одежда, материалы и др. области лексики дагестанских языков".(1:39-40)Н.С. Джидалаев предлагает дифференцированно рассматривать условия и результаты языковых контактов, различая при этом обычные заимствования и явления суперстрата и субстрата. (4:4)В настоящей статье не ставится цель стратификации или другой характеристики азербайджанских заимствований в закатальском диалекте аварского языка; поэтому эта лексика здесь условно характеризуется тематически как слова со значением быт, человеческие отношения, продукты питания , географические объекты, явления природы и животный мир. Причем, приводятся такие азербайджанизмы, которым в диалекте не имеются аварские параллели.Наиболее многочисленными являются слова, которые тематически связаны с

обозначением быта. Таковыми, в частности, являются слова: махIсул (азерб.мəhсул) - "урожай", срв. авар. бачIин; шикил (азерб. шəкил)-"фотография", сравн.авар. сурат; дярз (азерб. дəрз)-"сноп", срв. авар. гул; махIаля (азерб.мəhəллə)-"двор", срв. авар.азбар; кигьриз (азерб. кəhриз)- "колодец", срв. авар. гъуй; топ (азерб. топ)- "пушка", срв. авар. гIарада; душаг (азерб. дошəк) - "матрац", срв. авар ургу; чIипIи (азерб. чиб)-"карман", срв. авар. чанта; тикари (азерб. тəкəр)- "колесо", срв. авар. гьакибер; багъ (азерб. баг)- "сад", срв. авар. ах; учъагъ (азерб. очаг)- "очаг", срв. авар гъансито; нягьра (азерб. нəhрə)- "пахталка"; аиля (азерб. аилə)-"семья", срв. авар.хъизан; камар (азерб. кəмəр) - пояс, ремень", срв авар. рачел; китаб (азерб. китаб) - "книга", срв. авар. техь. Здесь следует отметить, что наряду со словом китаб в закатальском диалекте используется слово к'ехь со значением "книга". Но в отличие от слова китаб это слово обозначает книгу сакрального содержания и может быть переведено как "писание", чем "книга". Поэтому следует полагать, что слово китаб в закатальском диалекте появилось позже к'ехь.Даптар (азер. дəфтəр)- "тетрадь"; гIарба (азерб. араба)- "арба", срв. авар. гьоко; нава (азерб. нəвə)-"внук", срв. авар. васакIо; хурда (азерб. хырда) - "мелочь".С тематическим значением "продукты питания" используются такие слова, как: тютюм (азерб. тутун)- "табак, срв. авар. тамахьо; чугъундур (азер.чугундур)-"свекла", рв. авар. чIакIултан; истиот (азерб. истиот)-"перец" срв.авар. пилпил; чантала (шəфталы) - "персик", срв.авар. микьир; гавали (кавалы) - "слива", срв.авар. кокам; нар (азерб.нар) - "гранат", срв.авар. соно; зукъали (азерб.зогал) - "кизил", срв.авар. жулан; гъардали



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(азерб.гаргыдалы) - "кукуруза", срв.авар. цӀоросаролъ; догъа (азерб.довга) - "довга".В закатальском диалекте используются азербайджанизмы, обозначающие предметы домашней утвари: бургъу (азерб. бургу) - "гайка"; курпутун (азерб. кəлбəтин) "щипцы", срв. авар. гъецӀ; бульма (азерб.болмə) - "блюдце", срв.авар. налбак; к иному тематическому классу относится слово синип (азерб. синиф) - "класс".К тематическому классу со значением человеческие отношения и животный мир условно можно отнести следующие слова:Яддаш (азерб. јаддаш) - "память", срв. авар. ракӀалдачӀей; ярыш (азерб. јарыш) - "соревнование, срв. авар. къец; кал (азерб. кəл) - "буйвол"; калча (азерб. кəлчə)-"буйвол производитель"; дана (азерб. дана)-"бычок" срв.авар. баси; корамал (азерб корамал)-"уж", срв. авар. хоноборохь. классу "географические объекты" можно отнести следующие слова: кюча (азерб. кучə) - "улица", срв.авар. къватӀ; голи (азерб. көл) - "озеро, лужа", срв.авар. хӀор; чоли (азерб. чөл) - "поле", срв.авар. хур; ямачъ (азерб.јамач) - "скала", срв.авар.кьуру; булах азерб.булах) - "родник", срв.авар. ицц. Некоторые слова можно отнести к тематическому классу явления природы":Ялав (азерб.алов) - "пламя", срв.авар. цӀадул мацӀ; далгъа (азерб.далга) - волна", срв.авар. карачел; чанг (азерб.чəн) - "облако", срв.авар. накӀкӀ; айаз (азерб.ajaз) - "иней", рв.авар. саву.С указанными классами тесно не связаны следующие слова:Достав (азерб.дост) - друг", срв.авар. гьудул; яш (азерб.јаш) - "возраст", срв.авар. гӀел; гялимайав (кəлимə) - пришелец", срв.авар. апараг; субаяв (азерб.субаj) - "холостяк", срв.авар. болозан; зарпат (азерб. зарафат) - шутка", срв.авар. махсаро.В закатальском диалекте аварского языка используется слово махцара со значением "издевательство", "розыгрыш". Поэтому оно не может быть в полной мере поставлено в один семантический ряд с аварским литературным махсаро. И.А. Дибиров приводит в закатальском диалекте аварского языка также азербайджанизмы гъупу "ворота", гъапагъи "крышка", утагъ "комната", гъармах "удочка", ранг "цвет", чулах "калека", сачма "дробь", бугътан

"клевета", хал "родинка" и тд. [1:43-50]. В действительности, азербайджанизмов в закатальском диалекте аварского языка достаточно большое количество. Причем, количество азербайджанизмов в речи закатальцев напрямую зависит как от культурно - образовательного ценза носителей диалекта, так и от того, на каком языке получил образование тот или иной индивидум: на русском или на азербайджанском.

**ЛИТЕРАТУРА**

1. Дибиров И.А. Лексические и морфологические особенности дагестанских языков Алазанской долины. Махачкала, 2001.
2. Саидова П.А. К характеристике лексического состава закатальского диалекта аварского языка.-. В сб.: Проблема лексического состава диалектов и разработка диалектных словарей ИКЯ. Грозный, 1987.
3. Чеерчиев М.Ч. Аварско-азербайджанские языковые контакты на территории Белоканского и Закатальского районов - В сб.:Культура и история тюрских народов. Махачкала,2000.
4. Джидалаев Н.С. Тюркизмы в дагестанских языках. Опыт историко-этимологического анализа. М., 1990.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## NOVRUZ AZƏRBAYCAN VƏ TÜRK SƏLNAMƏSİNDƏ

«Biz bir millət, iki dövlətik»
(Heydər Əliyev)

***f.e.d , professor Maarifə Hacıyeva***
***Azərbaycan Dövlət İqtisad Üniversiteti***

Türk xalqlarının milli mədəniyyətinin bir incisi olan Novruz türk boylarının ortaq mədəniyyətini yaşadan və onların çox qədim dövrlərdən bu günümüzə qədər adət-ənənələrinin canlı nümunəsidir. Türk xalqları Novruzu təqvimdə yeni il kimi də qəbul edərək Qafqazdan Anadoluya, Orta Asiyadan Altaya, Sibirdən Hindistana, Çinə qədər sevgi və coşğu ilə bayram etmişlər. Bu bayram yörələrdə özünəməxsusluğunu da qoruyub saxlamışdır. Türkiyə türkcəsində və Azərbaycan türkcəsində «Yeni gün» mənasına gələn Novruz tarix boyu müxtəlif adlarla anılmıdır. Tədqiqatçı Salahəddin Bekkinin yazdığı kimi Türkiyə folklorunda Novruz «Sultan Novruz», «Yılsırtı», «Mart Bozumu», «Mart Dokuzu», «Mereke», «Ergenekon», «Yörük Bayramı», digər türk xalqlarında «Novruz» kəlməsi ləhcələrə görə dəyişən onlarca fərqli ifadəsi ilə bərabər «Baba Marta», «Yazbaş», «Yeni gün», «Ulustin ulu Künü», «Çıl pazı», «Çilkayak», «Lsıakh» kimi adlarla da anılmışdır. [170]

Bəzi ağız fərqləri ilə Azərbaycanda «Novruz» və ya «Noruz» , Qazaxıstanda «Novruz » və ya «Noruz» , Türkiyədə «Nevruz» , «Sultan Nevruz» , Özbəkistanda «Novruz» , Türkmənistanda «Novruz» , Tatarıstanda «Novruz» şəklində söylənən Novruz bayramı türk dünyası arasında bu xalqların milli mədəniyyətinin əsas ünsürü kimi yayqın olan bir xalq adət - ənənəsidir.

Türk xalqları tarixinin ilk bayramlarından olan Novruzun «Yeni il», «Yaz» «Bahar», «Ergenekon» (Erkən gün, yeni gün) kimi türklər arasında təbiətin oyanmasına bir sevinc əlaməti, yeni ilin, yeni günün başlanğıc əlaməti kimi qeyd edilməsi bu xalqların qədim tarixindən xəbər verən bir soraq kitabıdır.

**Türk alimlərindən Mustafa Uslu yazır ki , «Atatürkün zamanında (1926-cı ilə qədər) göy və qırmızı sancaq və bayraqlarla bəzədilmiş Novruz şənlikləri düzənlənmişdi. 1926-cı ilin yanvar ayından etibarən mart ayı «mali yılbaşı» (yeni maliyə ili ) olaraq son zamanlara qədər həm şiyə , həm də sünni türklər arasında qeyd edilirdi.»[171].**

Bir çox tarixi məlumatlara görə orta əsrlərdə Azərbaycan musiqisində «Novruz» adlı bir havanın da olduğu söylənilir. XV-XVI əsr Azərbaycanın dövlət fərmanlarında Novruz bayramı münasibətilə dövlət məmurlarına verilmək üçün vergi toplandığı da qeyd olunmuşdur.[172]

Abbasoğlular zamanında da Osmanlı saraylarında bayram şənlikləri keçirildiyi də tədqiqatçılar tərəfindən yazılmaqdadır. Ömər Uluçay yazır :

«Osmanlı saraylarında Novruz şənlikləri düzəldilir, o gün üçün xüsusi olaraq hazırlanan macunlar kasalar içində dövlət adamlarının, saray əhlinin evlərinə göndərilirdi.»[173]

«Abbasoğlular zamanında da, Novruzda sarayda bayram şənlikləri keçirilir hədiyyələr alınıb verilir. Xalq rəngli yumurtalar boyayar, halva bişirib bir-birlərinə göndərər, küçələrdə bir-birlərinin üzərlərinə gözəl ətirli sular səpər və fişənglər atardılar.»[174]

Şübhəsiz ki, Novruz bayramı öz atributları ilə ədəbi mətnlərdə də əks edilmişdir. Biz bu məqalədə Azərbaycan və Türk ədəbi salnaməsində Novruzla bağlı yazılan nümunələr əsasında mulahizələrimizi ifadə etməyə çalışacağıq.

Novruzun gəlişi Azərbaycan və Türk ədəbi salnaməsində «Bahariyyə» , «Novruziyyə», «Novruz» adlanan klassik və aşıq şerlərində, hekayə və rəvayətlərdə, bayatılar və novruz səmahlarında və seirlərdə ifadə edilmişdir.

Türk ədəbiyyatından nümunələr :

Laməkan əlindən bir səda gəldi,
Novruzunuz canlar mübarək olsun
Qəlbi-müminana bir səfa gəldi
Novruzunuz canlar mübarək olsun *(Didari, XIX əsr)*

Bəşarət sizlərə , ey can, bu gün Nevruzi –Sultandır,
Quruldu məclisi-irfan bu gün- Nevruzi-Sultandır.

---

170 Salahaddin Bekki. «Ateş etrafında oluşan inanışlar və Novruz ateşi». «Hacı Bektaş Veli» dergisi, Bahar, 2007\ 41, səh. 252.
171 Mustafa Uslu. Türklərdə Novruz. «Türk Dünyası» (Tarih dergisi), № 4 , 1987.
172 Azərbaycan Sovet Ensiklopediyası , VII c, Bakı, 1983 , s.285
173 Ömər Uluçay. A.K.Ə. səh. 90-92
174 Yenə orada səh. 92.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəşər surətinə givdi gədəm basdı cahana Şah,
Boyandı nura asiman bu gün Nevruzi-Sultandır. [175]
(Ali Rıza Kadimi Baba, XX əsr)

Türk ədəbi salnaməsində daha çox «Novruziyyə» adlanan Novruz şerlərində professor Erman Artunun da yazdığı kimi «Ədəbiyyatımızda mövsümlər, bayramlar, xalqın həyatında önəm verilən günlər şerlərlə qarşılanaraq, şerlərin mövzusuna çevrilmişdir. Bektaşilər arasında Novruz ərkanı vardır.Açıq səmada və ya dərgahlarda oxunan bəstələnmiş Novruziyyələr vardır. Bunlar Novruz bayramlarında oxunan şerlərdir.Bektaşilərə görə Novruz Həzrət Əlinin doğum günü kimi qəbul edildiyi üçün xüsusi bir yeri vardır. [176].

Muhamməd Mustafa Sultani cihan,
Əlinin sirrini çün qıldı bəyan.
Xədicə sirrindən kamusu şadan,
Nuha səfa verir Sultani Nevruz. [177].

Mevlevilər də Novruzu bayram edirlər «Selam» sözcüyü ilə başlayan 7 ayəti bir kağıza, bir çanaq içinə qara mürəkkəblə və ya Kərbəla cövhəri ilə yazırlar, qaba süd tökülərək bu yazı qarışdırılır və süddə əridilir. Bəzən içinə bir az da lohusa şərbəti də qatılaraq südün rəngini çəhrayı pənbələşdirirlər. Yeddi selamlı ayətlərə «Heft selam deyilir», (Ömer Uluçay. S.90)

Azərbaycanda bayram süfrəsinə 7 çeşid ləziz yeyəcəklərin süfrəyə düzülməsi də Novruz adət-ənənəsinin nümunələrindən biridir.

XIV əsr türk dünyasının böyük şairi Qazi Bürhanəddin (1344-1398) Novruzu gəlişi ilə cahana bir gözəllik bəxş etdiyini ifadə edir.

Məgər Novruz gəlmişdir musəvvər.
Ki, olmuşdur cahan yenə münəvvər.[178]

XVI əsr türk aşıq şerinin görkəmli ustadı Pir Sultan Abdal Novruzu baharı müjdələyən bir gün olduğunu dilə gətirmişdir.

Sultan Novruz günü callar uyanır
Hal əhli olanlar nura boyanır
Mühüp olan bu gün cəmə dolanır
Mümməti erincə Novruz Sultanın

Pir Sultanın başqa bir şeiri də Novruzun Bolluq bərəkətini ifadə edir.

Yarı olan arar yarını bulur
Əsər badi-sabah, könlümdə farır
Yükün katmerlemiş Nevruzdan gəlir
Əzizim, sultanım sən səfa gəldin.

Pir Sultan Abdal «Nevruz Sultanın» rədifli 7 bəndlik şerində Nevruzun hümmətindən, insanlara birlik gətirməsindən, bütün ərənləri bir yerə toplamasından, könül xoşluğundan bəhs edir :

Aşiq olan canlar bu gün gəlirlər
Sultan Novruz günü birlik olurlar
Hallakı cihandan ziya olurlar
Himməti erincə Nevruz Sultanın[179]

«Nevruziyyə» şerlərində Hüsni Baba Novruz bayramının insanlara bəxş etdiyi sevinci belə ifadə edir:

Husni Baba Hambel erdik bu dəmə
Könüllər girmişdir Bağı-İrəmə
Verilmiş zövq ilə safə aləmə
Novruz bayramınız mübarək olsun

XVI əsrdə Türk dünyasının başqa bir şairi, Bağdadda yaşayan Azərbaycan şairi Ruhi Bağdadi Novruzu belə tərənnüm edirdi:

Keçdi bürci-Həmələ mirri-ləvayi –Novruz,
Qıldı mürğani-çəmən mədhü sənayi- Novruz

Yenə bülbüllərə xasü əməl oldu nəğmat
Saldı bir zəmzəmə afadə sılayı –Novruz

---

[175] Şer nümunələri Ömər Ulucayın adı keçən kitabından götürülmüşdür. Səh. 93-94
[176] Arman Artun. Dini-Tasavvufi. Halk Edebiyyatı İstanbul 2006 , səh 144.
[177] Halk Edebiyyatı İstanbul 2006 , səh 144. Dr. Ömər Uluçay. Dildəvə Gönldə Hz. Ali. Adana, 1997, s.95
[178] Qazi Bürhanəddin. Divan. Bakı, Azərnəşr, 1988, s. 81
[179] Öner Yağcı. Pir Sultan Abdal. İstanbul, 2000. s. 194



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eyş nuş edub ərbabi-səfayi təhrik
Oldi vahidi-fələk nəğməsərayi – Novruz.
Vəsfinin ayəti yoq, başla duayə , Ruhi
Ki, müəssər olur əlbətdə duayi-Novruz[180]

Novruz istər Türkiyə türkcəsi istərsə də Azərbaycan türkcəsi ilə yazılan ədəbi mətnlərdə və şifahi xalq salnaməsində özəllikləri ilə təsvir edilərək yaşanmış və yaşamaqda davam etməkdədir.

Məlumdur ki, Novruzun əsas elementlərindən biri atəşlə (odda ) bağlıdır. Çərşənbə axşamları tonqalın üzərindən atlanmaq, ilaxır çərşənbədə və bayram axşamı şam yandırmaq adəti kültü ilə bağlıdır.

Səlahəddin Bekki «Atəş ətrafında oluşan xalq inanışları və Nevruz» məqaləsində Balıkəsirdə Novruz tonqalı üzərindən atlanarkən aşağıdakı şeirini söyləməsini yazır.

Şeir belədir :

Gavur-gavur gavura,
Gavur xırman savura
Gavur məndən aşağı
Kıçına meymun takıla

Müəllif sözünə davam edərək :

«Türkiyədə atəş və atəş ilə bağlı olaraq ortaya çıxan inanclardan ən yayqın olanı və bilinəni Novruz atəşi üzərindən atlanmaqdır».

Göründüyü kimi, atəşin (tonqalın) üzərindən keçmək pisliklərdən və xəstəliklərdən, pis insanların nəzərlərindən uzaqlaşmaq kimi mənanı ifadə edir ki, Azərbaycanda tonqal üzərindən keçərkən söylənən:

«Ağırlığım uğurluğum
Qada-balam
Bu tonqalda kül olsun» -

poetik ifadəsindəki anlam yuxarıda nümunə verdiyimiz şeirlə səslənir.

Azərbaycan klassik ədəbi salnaməsində Novruzla bağlı çox səhifələr mövcüddür. Qətran Təbrizinin (XI əsr) «Novruz və fitr bayramı münasibətilə Ərran sünəpdarı Əbdülyəsrin mədhi»ndəki

Novruz və orucluq bayramı sənə mübarək olsun.
Bütün dünyada sənin adına xütbə oxunsun[181]

- misralarından görünür ki , islamiyyətin geniş büsət aldığı orta əsrlərdə də Novruz bayramına da ramazan bayramı qədər böyük önəm verilmişdir.

Azərbaycan ədəbi səlnaməsində “Novruz bayramı” ifadəsi çox vaxt “bayram” şəklində ifadə edilmişdir. Bunun bir səbəbi islamiyyətdən əvvəl də çox yayqın olan Novruzun geniş mənada bayran kimi xalqın hafizəsinə həkk olunmasıdır. Molla Pənah Vaqifin (XVIII əsr) “Bayram oldu” şeirini oxuyarkən orada Novruz sözünü axtarmağa heç bir ehtiyac duyulmur. Şeir özü Novruz bayramını ifadə edir.

Bayram oldu heç bilmirəm neynəyim
Bizim evdə dolu çuval da yoxdur
Düyü ilə yağ hamı çoxdan tükənmiş
Ət heç ələ düşməz motal da yoxdu.

Allaha bizmişik naşükür bəndə
Bir söz desəm dəxi qoymazlar kəndə
Xalq batıbdır noğula, şəkərə qəndə
Bizim evdə axta zoğal da yoxdu.

M.P.Vaqifin müasiri olan M.V.Vidadi isə Novruzu belə tərənnüm edirdi :

Novruz bahar oldu , cahan tazətər oldu
Rəf oldu ələmlər
Dağıldı bu şadlıq xəbəri dərbədər oldu
Yandı oda qəmilər

Göydən yerə yağdı nə gözəl şəbnəmi-rəhmət
Bitdi gülü lalə
Xoş nəğmələnib bülbülü-şeyda ötər oldu
Açıldı irəmlər

Qasım Bəy Zakir də (XIX əsr) Novruzu sadəcə olaraq “bayram” şəklində ifadə edir.

Bu gün bayram günü səhni-çəməndə
Gördüm nazəninlər xürrəm oturmuş
Mənim yarım nə danışır, nə dinir
Onların içində əbsəm oturmuş[182]

Zakir başqa bir şeirində bayramın hər evdə zövq- səfa ilə keçirildiyini, el şənliyi olduğunu ifadə edir:

Bayram günüdür zövq -səfa xanələr içrə
Cananım oturmuş neçə cananələr içrə[183]

---

[180] Azad Musabəyli «Ruhi Bağdadi mühiti , həyatı, poetikası və divanı», Bakı, Elm, 2005
Müəllif yazır: «XVI əsrdə Fizuli və Əhdini sonra Baqdadda yaranan Azərbaycan ədəbiyyatından əsərləri toplusunu-əlyazmaları əldə etdiyimiz üçüncü nümayəndəsi» (səh. 48) orada. səh. 391
[181] Qətran Təbrizi . Divan. Bakı, 1967, səh.51
[182] Q.B.Zakir əsərləri , Bakı, EA-nın nəşri,1964, s.130



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

XX əsr türk dünyasının böyük şairlərindən Şəhriyar Novruz bayramını bütün özəllikləri və gözəllikləri ilə təsvir etmişdir:

Bayram idi gecə- quşu oxurdu
Adaxlı qız bəy corabın toxudu
Hər kəs şalın bir bacadan soxurdu
Ay nə gözəl qaydadı şal sallamaq
Bəy şalına bayramlığın bağlamaq.

Bayram olub qızıl palçıq əzərlər
Naxış vurub otaqları bəzərlər
Taxçalara dğzmələri dğzərlər
Qız gəlinin fındıqçası, hənası,
Həvəslənər anası qaynanası.

XX əsrin böyük söz ustadı Səməd Vurğun isə :

Göylərə baş çəkir Göyəzən dağı,
Axşam açıq olar Ayın qabağı
Bizim gəlinlərin bayramqabağı,
Fəsəli yaymağı yadıma düşdü

- deyərək bayramın özünəməxsus ənənələrindən söhbət açır.

Gətirdiyimiz şeir nümunələrindən də göründüyü kimi Azərbaycan ədəbi mətnlərində Novruz bayramı ilə əlaqədar olaraq işlənən "bayram" kəliməsinin əvvəlinə "Novruz" sözünü yazmağa çox vaxt ehtiyac qalmır. Çünki hər kəs bu bayramın ünvanını çox gözəl bilir.

Azərbaycanda Novruz ayında (martda) bir qayda olaraq ağac əkilr , həyət-baca səhmana salınır, çeşidli yeməklər, şirniyyatlar bişirmək üçün hazırlıq görülür, aşıqlar ilk baharı - Novruzu mədh edən şeirləri sazın müşayəti ilə oxuyurlar. Şübhəsiz ki , by vəziyyət ədəbi salnaməyə çeşidli nümunələr bəxş etmişdir.

H.Cavid bu bayramın sevincini belə ifadə edir :

İştə Novruz ! Yetişdi fəsli-bahar,
Gəldi işrət zamanı qardaşlar
Nə gözəl bayram! Ah, nə xoş fürsət !
Sayılır əhli- zövqə bir nemət !....
Böylə şad gün düşərmi bir də ələ,
Keçirin beş gün ömrü ləzzət ilə.

Hüseyn Cavidin yuxarıda adını çəkdiyimiz "Novruz bayramı" şeirində by bayramın sevinc bayramı olduğunu vurğulamışdır. Şair burada qara bayram ifadəsi də işlədərək yazır :

Yalnız hankı evdə yas varsa
Bir onun borcudur ki , tutsun əza
Birinin ölə qardaşı naçar
Qara bayram tutar bir adət var
Hər kimin yoxsa böylə bir üzrü
Eyşi nuş eyləsin yox zərəri.[184]

Novruz bayramının gözəl tədqiqatçısı Şixəli Qurbanov da fikrini şeirlə belə ifadə edir:

Əziz Novruz axşamı,
Hər süfrənin xonçası
Hər xonçanın öz şamı
Xonça tutub oturduq
Masanın dövrəsində
Sakit yanan şamların
Həzin incə səsində
Bir bayram zümzüməsi[185]

---

[183] Orada, səh. 183
[184] H.Cavid Əsərləri, I c. Bakı, 1968, s.56
[185] Ş.Qurbanov əsərləri I c, Bakı Azərnəşr, 1968 , s.530



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Novruzun adı ilə bağlı bir də novruzgülü çiçəyi vardır. Ədəbi səlnamədə bu çiçəyin adı məhz ilk baharın - Novruzun gəlişi ilə bağlı yad edilir. Bunun bir nümunəsini Şah İsmayıl Xətainin "Dəhnamə" əsərindən "Sidəti gülşəni bahar" (Bahar gülünün təsviri) fəslində və M.Şəhriyarın "Heydərbabaya salam» poemasında görürük.

Xətai : Novruz gülünün açıq dəhanı
Mürq anda hezar oxur zəbanı[186]

Şəhriyar isə : Bayram yeli çardaxları yıxanda
Novruzgülü , qar çiçəyi çıxanda
Ağ buludlar köynəklərin sıxanda
Bizdən də bir yad eyləyən sağ olsun
Dərdlərimiz qoy dikəlsin, dağ olsun [187]-

şəklində ifadə edir.

Məlumdur ki, islamiyyətdən çox-çox əvvəl mövcud olub, türk dünyasında çox yayğın olan Novruz xalqın sevdiyi , şənləndiyi bir bayram olduğu üçün xalq islamiyyətin qəbulundan sonra da bu bayramın həyat səhnəsində yaşaması üçün hər cür təşəbbüs göstərmiş, bu bayrama zaman-zaman dini bir mahiyyət, islami motivlər əlavə edilmiş, beləcə də xalqın bu qədim adət-ənənəsini daha da sağlamlaşdırmaq üçün əlavə etməklə yaşatmışdır. Xalq arasında Novruzla əlaqədar olaraq bir çox çeşidli rəvayətlər neydana gəlmişdir. "Həzrət Nuh Tufandan sonra Novruz günü ilk dəfə torpağa ayaq basmışdır" "Həzrəti Yusif Novruz günü quyudan çıxarılmışdır" "Cənnətdən qovulan Həzrəti Adəm ilə Həzrəti Həvva Novruz günündə Arafat dağında bir-birinə qovyşmuşdur" "Həzrəti Yunis Yunis balığının qarnından Novruz günü xilas olmuşdur". «Həzrəti Nuh tufandan sonra Novruz günü ilk dəfə torpağa ayaq basmışdır» və s.

Bu rəvayətlərdən bir qismi də Həzrəti Əli ilə bağlıdır. Rəvayətlərdən biri «Həzrəti Əlinin dünyaya gəldiyi, xəlifəliyi və Həzrəti Fatma ilə evləndiyi günü Novruz günü olduğu» dur.

Ömər Uluçay "Dilde ve Gönülde Hz. Ali" adlı kitabında Türkiyədə Novruzun bəzi islam adətləri əlavə edərək bayram sayılmasına səbəb olan yönləri belə sadalayır :

1. Həzrət Əlinin doğum günü olaraq bilinməsi . Nevruz əski martın 9-da başlar ki, bu da 21mart günün gəlir . Bu gün 3 gün sürər 12-sində bitər.
2. Hz. Əli ilə Fatmeyi Zəhranın evlənmə günü olması.
3. Hz. Məhəmmedin Nubüvvətinin meydana gəldiyi gün olaraq bilinməsi.
4. Yeni bir bahara qovuşularaq, qışlaqlardan yaylaqlara doğru köçlərin başlandığı gün olması.
5. Qış mövsümünün bitib ilk baharın başlandığı gün olması.
6. Günəşin bu gün Balıq bürcündən Qoç bürcünə keçməsi və.s[188]

Bütün bu düşüncə tərzi ədəbi mətnlərə də sirayət etmişdir. Türk ədəbi mətnlərindən iki nümunədə :

Nübuvvət izhar bu gündə oldu
Cənabi Əli də bu gündə doğdu
Kainat bu gündə nur ilə doldu
Bu gün Nevruz oldu əyyam bizimdir
Sevinəlim canlar bayram bizimdir. (Hüseyin Hüsni Erdikli Baba)
Bu gündür Mevludu Şahi vilayət
Bu gün izhar olur nuru Nübüvvət.
Bu günə möminlər eylədi hörmət
Nevruz bayramını kutlamaq üçün. (Hüseyin Hüsni Erdikli Baba)

Bu gün Novruz adı ilə bilinən və türk dünyasının dərin keçmişinə malik milli-mənəvi dəyərlərmizdən xəbər verən günün 3 mln il , hətta bəzi mənbələrə görə daha uzaq keçmişi vardır. O zamandan bəri heç bir siyasi , dini və sosial bir hadisə bu milli-mənəvi dəyərə təsir edə bilməmiş, onu unutdura bilməmişdir.Yuxaıda qeyd etdiklərimiz isə Novruzun xalq arasında geniş şəkildə yaşamasına bir vəsilə oluşdur. Biz bu yazımızda Azərbaycan və Türk ədəbiyyatından gətirdiyimiz və müqayisə etdiyimiz bir neçə nümunə ilə kifayətlənərək bu nəticəyə gəlirik ki, Novruz türk dünyasının milli mədəniyyətinin mühüm bir ünsürü olmaqla, xalqlarımızın ortaq mədəniyyəti, ortaq adət-ənənələrindən, qədim tariximizdən xəbər verən bir mənəvi qaynaqdır.

---

[186] Şah İsmayıl Xətayi əsərləri. Bakı Yazıçı, 1988, s.231
[187] "Divani-Türki" , Bakı, 1993, səh. 9-10
[188] Ö.Uluçay. A.K.Ə. , səh. 144



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QƏDİM TÜRK DASTANLARINDA ZAMAN VƏ MƏKAN PROBLEMİ

**F.e.n. Mahmud Allahmanlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Azərbaycan**

Türk dastan ənənəsində maraqlı olan istiqamətlərdən biri zaman və məkan fərqliliyində qəhrəman tipologiyasının yaxınlığıdır. Min illərin keşməkeşlərini, sevincindən tutmuş ağrılarına qədər nə varsa özündə əhatə edən bu nümunələr bəşər sivilizasiyası üçün çox məsələləri diqtə edir. Ona görə də dastan nümunələrinə təkcə bədiilik baxımından deyil, həm də tarix və məkan problemləri istiqamətində çözümləmək gərəyi yaranır. Onu da qeyd edək ki, türk xalqlarının dastan ənənəsi bütün çağlarda yaxınlıqda və davamlı olacaq inkişafda görünür. Bu yaxınlıq hətta o dərəcəyə çatır ki, eyni dastan nümunələrinə bəzən türk xalqlarının böyük əksəriyyətində rast gəlinir. Məsələn, «Koroğlu» dastanı demək olar bütün Qafqaz, Kiçik və Orta Asiya boyu yayılıb. Ədəbiyyatda bu versiyalar adı ilə araşdırılır. Ancaq onu da xatırladaq ki, bu və bu kimi nümunələrin xalqların öz spesfikasında müxtəlif variantları da mövcuddur. Son dövrlərdə «Koroğlu»nun Xodzko, Şopen əlyazması, eləcə də Tiflis və s. əlyazmaları ortaya çıxarılır. Bu dastanın regionda geniş yayılma faktıdır. Ancaq onun daxilində (mətn nəzərdə tutulur) dastan ənənəsinə yad epizodların olması, ümumiyyətlə hər cür əlavələr bu abidəyə ləkə yaxmaq istəyindən, onu gözdən salmaq cəhdindən xəbər verir. Çünki dastan xalqın amalından yoğrulur, onun ideallıqlarından ortaya çıxır. Eyni zamanda ozanlar yaradır, məclislərdə oxuyur. Heç şübhəsiz nə ozanlar onu yaradardı, nə də xalq məclislərində bu cür epizodlar söylənə bilərdi ki, yazıya alanlar yazsın. Sadəcə olaraq bunlar həmin yazıya alanların əlavəsidi. Məmləkətlərindəki düşüncəni bu cür böyük sənət abidəsinə gətirirlər. Hər yazı, hər deyilən saxta məkr mətbuata, kitab şəklində nəşrə gətirilməməlidir.

Türk dastan ənənəsində ideallıqların yaşanması, onun qorunuşu var. Yadellilərin, düşmənlərin hücumları isə həmişə olub, hətta tobal xarakter daşıyıb. Bunlar bir istiqamətdə XIX əsrin əvvəllərindən güclənməyə başlayaraq ərazilərin zəbti siyasətini həyata keçirib və günümüzə qədər davamlı olaraq aparılmaqdadı. Digər istiqamətdə mənəvi dəyərlərinə, tarixi ənənəyə vurulan zərbədi. Bu sırada ən çox sarsıntıları türk xalqlarının dastanları çəkdi. Məsələn, Böyük Vətən müharibəsi deyilən savaşda bolşeviklərin türk xalqlarına qarşı yönətdikləri siyasət Ahıska türklərinin, kırımtatarların köçürmələri ilə özünün ən dəhşətli tarixini yaşadı. Böyük ənənələri, tarixi mədəniyyəti olan bu region türkləri bir neçə günün içərisində dədə-baba yurdlarını tərk etmək məcburiyyətində qoyuldu və gizlində etibarsız xalq damğası vurulbdu. 1944-cü il mayın 18-i kırımtatarlar, 1944-cü il noyabrın 16-sı isə Ahıska türkləri bəlkə də bəşər tarixi mövcud olandan görmədiyi məlum müdhişliklə qarşılaşdı. Bütövlükdə xalq da, onun min illər boyu yaratdığı mədəniyyət də, adət-ənənəsi də həmin sarsıntılara, təqiblərə məruz qaldı. Böyük dövlət törənləri olan türkün böyük faciəsi yaşandı. Gələcək ağrıların başqa bir istiqamətdə binası qoyuldu. Kırımtatalrların, eləcə də Ahıska türklərinin maddi və mənəvi mədəniyyət abidələri sarsıntılarla üzləşdi. «Edige»si, «Çorabatır»ı, «Koblan batır»ı, «Koroğlu»su, «Manas»ı olan xalqlar ölmür. Və böyük düşüncə işığında yenidən dərddən, hüzndən özünə qayıdır. Böyük düşüncədən, ənənədən yeni savaşa başlayır.

Həmin tarix və qəhrəmanlıq abidələri isə müstəsna əhəmiyyət kəsb edir. Son dövrlərdə bütün məhrumiyyətlərə baxmayaraq bu nümunələrin toplanıb çap olunması istiqamətində mühüm olacaq addımlar atılmaqdadı. Bu bir növ XIX əsrin sonu, XX əsrin əvvəllərindəki işi xatırladır. Məlum olduğu kimi türk xalqlarının folklor nümunələri, eləcə də dastanların toplanması və nəşri həmin dövrə düşür. Bütün ərazilər boyu görülən həmin toplama sonrakı dövrlər üçün bir örnək oldu. «Manas» da, «Alpamış» da, «Koroğlu» da, «Edige» və «Çorabatır» da hamısı həmin dövrdə yenidən yaşamaq haqqına qovuşdu. Daha doğrusu yaddaş yaşamından yazıya gətirildi. Ümumiyyətlə, mövcud dastan nümunələri türk dastanlarında düşüncə yaxınlığını diqtə edir. Məsələn, kırımtatarların «Çorabatır»ı, «Edige»si ilə azərbaycanlıların «Kitabi-Dədə Qorqud»u, «Koroğlu»su, qırğızların «Manas»ı da hamısı bəzi istisnalar nəzərə alınmazsa türk düşüncəsini əks etdirmək baxımından eyni xəttə dayanır. Ona görə də böyük savaşlarda, imperiya ideoloqlarının düşüncəsində ən əsas məsələlərdən biri kimi bu məbədlərin sarsıdılması olub. Bu məqsədlə də «Kitabi-Dədə Qorqud» hansı ağrı, təqiblərlə qarşılaşıbsa «Manas» da, «Çorabatır» da eyni təlatümü yaşayıblar. Burada başlıca məqsəd bu məbədlərin dağıdılması olub. İmperiyalar üçün isə həmin düşüncəni axıra qədər həyata keçirmək bütün zamanlarda mümkünsüz olub. Xalqı əzmək, sarsıtmaq, hansısa qalasını, məbədini uçurmaq olar, onun oğullarına, övladlarına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

işgəncələr vermək, ərazisini zəbt etmək mümkündü, ancaq yaddaşını dəyişmək, istədiyi ilə əvəzləmək heç cürə olası iş deyil. Ona görə də xalqla birlikdə bu dastan abidələri zamanın tələtümlərindən sabaha doğru irəliləyir. Daha doğrusu xalqın güvənc yerinə çevrilir. Bu son yüz ilin olaylarında aydınlıqla nəzərə çarpacaq hadisədir. Belə ki, kırımtatarların canlı tarix kitabı hesab etdiyimiz bu dastanlar xalqla birgə məşəqətlərlə qarşılaşdı. Ancaq xalqla birlikdə də o fəlakətlərə sinə gərdi, özünün mövcudluğunu qorudu.

Kırımtatar dastanları ilə Azərbaycan dastanları arasında bir ortaqlıq görünür. Bu tarix, mədəniyyət, hadisə şərikliyindən tutmuş düşüncə, epizod yaxınlığına qədər böyük olaylarda cəmlənir. Ən başlıcası isə kifayət qədər üzdə görünən bədii fakt kimi əhəmiyyət kəsb edir. Burada fərqlilikdən çox eyniyyət var. Daha doğrusu bir qədər diqqət yetirdikdə təsirdən kənarda bütün çevrələrdə eyni xalqın mədəniyyət faktı təsiri daşıyır. Məsələn, kırımtatarların «Koroğlu», «Aşıq Qərib», «Kərəm və Əslixan», «Arzu və Qənbər», «Tahir və Zöhrə» dastanı var. Bu dastan adlarına eynilə Azərbaycanda, Orta Asiyada da rast gəlmək olur. Hətta oxuduqda hadisə, epizod eyniyyəti görünür. Daha doğrusu, belə düşünürsən ki, sanki bu nümunələr ortaqlıq şəraitində yaranıb və ortaq türk xalqları ədəbiyyatıdı. Digər istiqamətdə bu dastanların kırımtatar və Azərbaycan variantı ilə tanış olduqda orijinallıq faktlarından əlavə, onların Azərbaycan variantı əsasında yaranması ağıla gəlir. Bu bir ehtimaldı, başlanğıcında isə yüzə-yüz həqiqət olmasını dəyərləndirmək çətinliyi var. Dastanların oxşarlığında nəzərə çarpan təkcə ad eyniyyəti deyil. Burada hadisə, mahiyyət yaxınlığı, üst-üstə düşmə faktları da var. Bu kırımtatarlarda daha aydınlıqla nəzərə çarpır. Toplamalarda həmin adda olan dastanların müxtəlif variantları var. Neçə ki, «Bilqamus»ın Nineviya (e.ə. II minilliyin II yarısı), Periferiya (e.ə. II minilliyin yarısı) və Qədim Babil variantı var. Bu dastanların şifahi düşüncədə yaşam xüsusiyyətindən irəli gəlir və yazıya almada da qorunur. Kırımtatarlarda da belədir, «Edige»nin, «Çorabatır»ın, «Arzu və Qənbər»in və s. bir neçə variantı mövcuddur. Məsələn, Çorabatırın Baxçasaray, Karasubazar, Böyük Xocalar variantı var, eləcə də «Edige»nin Böyük Xocalar, Karasubazar, Köqənni kiyat (noqay) variantı mövcuddur.

Dastan özünəməxsusluğunda Kırımtatarlarla Azərbaycan dastanları arasında möhkəm bağlar görünür. Bu həm qəhrəmanlıq, həm də məhəbbət dastanlarında ardıcıllıqla yaşanır. Məsələn, «Edige» və «Çorabatır» mükəmməlliyi, dastan spesifikası ilə «Bilqamus», «Manas», «Kitabi-Dədə Qorqud», «Alpamış», «Koroğlu» tipli dastandır. Və böyük zamanlara, tarixi faktlara, hadisələrə işıq tutur. Bir növ öz çevrəsində türkün ağır savaşlarını, düşmən üstünə gedişlərini yaşadır. Bu «Edige»nin başlanğıc epizodunda bir qədər ötəriliklə görsənsə də sonrakı təsvirlərdə daha aydınlıqla görünür. «Hə… Azavda altmış xan varmış, Çayıkda yetmiş xan, Kırğızda isə qırx xan varmış. Bir gün bu xanlar yığılıb belə məsləhətə gəlirlər ki, onların hamısına yaxın olan orta bir yerdə qazlı-ördəkli bir göl salsınlar. Bu gölün başına çoxlu quşlar yığışacaqdı. Xanlar da öz quşlarıyla burada quş quşlayıb istirahət edəcəklərdi» (5. s.21). Bu dastanın başlanğıc epizodudu. Və orada adi bir təsvir dastanın bətnindəki hadisələrin sonrakı gedişinə böyük təsirdə görünür. Lakin burada hadisə adiliyi yoxdu. Özlüyündə belə bir təklifin həyata keçirilməsi xanlar arasında yaxınlığın, münasibət yaratmağın, hansısa problemləri çözməyin başlanğıc hadisəsi olardı. Ancaq əksinə, konfliktlərin, düşmənçiliyin baş verməsinə səbəb oldu. Hadisə kimi qanlara, qadalara gətirib çıxardı. Bir sıra baxımdan «Edige», «Çorabatır»dan fərqli olaraq «Koroğlu»ya daha yaxınlıqda görünür. Bu düşmənçilikdən, təsvirlərdən tutmuş baş hadisəyə qədər müqayisə olunmaq üçün ortaqlıq informasiyaları verir. «Koroğlu» da başlanğıc baxımından adi olacaq bir hadisəylə maraq doğurur: «Koroğlunun öz adı Rövşəndi, atasının adı Alı. Alı kişi var-dövlətiylə manşır olan Həsən xanın ilxıçısıydı. Alı neçə illər Həsən xana ilxı otarmışdı, onun qapısında ömrünü-gününü çürüdüb, saqqalını ağartmışdı.

Alı bir gün ilxını dərya qırağına aparmışdı. Atlar dəryanın qırağında bir otlağda ottayırdı. Alı bir də gördü dəryadan iki at çıxdı» (2. s.273). Bu dastanın birinci qolundakı başlanğıc hissəsidi. Birincidə, daha doğrusu, «Edige»də göl yaratmaq məsələsi əsas kimi başlanğıcda görünürsə, «Koroğlu»da Alı kişinin Hasan xanın ilxısını otarması, ömrünü-gününü burada keçirməsi və dərya kənarında baş verənlər təşkil edir. Dastanda Alı kişi son dərəcədə müdrik, nurani ağsaqqal kimi axıra qədər diqqət mərkəzində dayanır. Koroğlunun isə ondan savaş üçün rüsxəti isə xalqın xeyir-duası kimi görünür. Koroğlunun atasının halına qəzəbi başa düşüləndi və elin-obanın nifrəti kimi görünür. Dəlilər, mərd igidlər də həmin qəzəbin, nifrətin sonu kimi Qoç Koroğluya qoşulurlar. Kırımtatarların «Koroğlu»su da başlanğıc baxımından bu silsiləyə aiddi. Və hadisə baxımından Azərbaycan «Koroğlu»su ilə eyni səpkilidi. «Deyilənlərə görə lap qədim zamanlarda məmləkəti xanlar idarə edirmişlər. Onlar əsir tutduqlarını, özlərinə tabe olanların hamısını çapıb talayırlarmış, çox var-dövlət əldə edib, yaraşıqlı saraylarda yaşayırlarmış. Onlar var-dövlət əldə etmək üçün bir-biriləri ilə vuruşurlarmış, hərdənbir isə şadyanalıq edib, keyf məclisləri düzəldirlərmiş. Seçmə çapar atları cıdıra çıxardıb, at yarışları keçirirlərmiş. Qalib gələn atlar sahiblərinə çoxlu var-dövlət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gətirirmiş» (5. s.74). Bu «Koroğlu» dastanının kırıtatarlardakı variantındandır. Göründüyü kimi, dastan xanların özbaşınalıqları, apardığı savaşlar, qurduğu keyf məclisləri epizodu ilə başlayır. «Edige» də eyni düşüncə, xanların həyatının, məişətinin təsviri ilə başlayır. Bu dastanlar hər biri hansı zamanın hadisələrini ifadə etməsindən asılı olmayaraq türkün «Manas»dakı, «Oğuz Kağan»dakı, «Alpamış»dakı, «Dədə Qorqud kitabı»ndakı qəhrəmanlığını ifadə edir. Başlanğıc epizodu baxımından hər biri fərqli-fərqli hadisələrlə səciyyələnir. Ancaq dastan təhkiyəsi baxımından bir-birinə çox yaxınlıqda görünür. Eyni ənənəni «Oğuz Kağan»da da görürük.

Olsun dedilər. Onun şəkli budur,
Bundan sonra sevinc tapdılar.
Yenə günlərin bir günü Ay Kağanın gözləri
yarıdı, bir oğlu oldu
Bu oğlanın üzü göy idi.
Ağzı ataş kimi qırmızı, gözləri ala,
Saçları, qaşları qara idi. Gözəllikdə
mələklərdən də gözəl idi.(10. s.124)

Bu türkün «mən oğuzun kağanı oldum, indi də dünyanın kağanı olmağım gərək» deyən qəhrəmanının adına düzənlənmiş dastanın başlanğıc epizodudur. Göründüyü kimi, dastan ənənəsində başlanma sabitliyi bütün vəziyyətlərdə sabit konsepsiya ilə görünmür. Sonrakı çağlarda dastan nümunələrində başlanma formasının sabitləşməsi görünür. Dastanlar ənənəvi olaraq ustadnamə ilə başlanır və duvaqqapma ilə yekunlaşır. Belə bir ənənənin isə davamlılığı məhəbbət dastanlarında daha möhkəm qorunur. Ancaq Azərabycan məhəbbət dastanlarından fərqli olaraq Kırımtatarların dastan ənənəsində hadisələrin ustadnaməsiz, birbaşa təsviri faktı davamlı görünür: «Qədim zamanlarda bir igid oğlan varmış. Bu igidin bir anası və bir bacısı varmış.

Bir gün igid anasına:

-Ana, get mənə padşahın qızını al, - deyir.

Anası:

-Ay Allah, balam sən nə sayıqlayırsan? Sən kimsən ki, padşah öz qızını sənə versin» - deyir. Anası oğlunun hərəkətlərinə çaşıb qalır.

Oğlu anasının sözlərinə qulaq asmır.

-Sən get istə, versə verər, verməsə verməsin, o padşahın işidi, - deyir» (5. s.99). Bu kırımtatarların «Aşıq Qərib» dastanındandır. Və bu təsvir də ümumi ruhu, məzmunu etibarilə Azərbaycan variantı ilə səslənsə də başlanma xüsusiyyəti ilə fərqlidi. Burada göründüyü kimi, Aşıq Qərib padşah qızına aşiq olur. Onun baş vermə məkanına, hadisələrin harada cərəyan etməsi dəqiqliyinə elə də diqqət yetirilmir. Bu baxımdan kırımtatar dastanlarında bir yığcamlıq var. Məsələn, Azərabycan «Koroğlu»su iyirmi dörd qoldan ibarət olduğu və üç yüz səhifəlik bir genişlikdə hadisələr təsvir edildiyi halda, Kırımtatarların «Koroğlu»sunda bu əhatəlilik görünmür. Daha doğrusu, «Koroğlu»nun səfərləri bir ümumilikdə ənənəvi dastançılıqda olduğu kimi təqdim olunur. «Kitabi-Dədə Qorqud»dakı boy, «Koroğlu»dakı qol ənənəsi yoxdu. Kırımtatarlardakı «Koroğlu» 15-16 səhifəlik (təxminən) həcmdə olmaqla yekunlaşır. Burada hadisələrin mahiyyəti, əsas qayə saxlanıb. Bir növ sıxılmış şəkildə qorunur. «Koroğlu»nun Tiflis variantı 28 məclisdən ibarət böyük bir dastandır. Ancaq «Koroğlu»nun kırımtatar variantı ilə bağlı bunları demək olmur. Onu da qeyd edək ki, bu dastan Azərbaycanda formalaşma dövrünü başa vurmayıb. Xalq arasından Koroğlunun müxtəlif səfərləri bu gün də toplanıb ədəbi ictimaiyyətə çatdırılmaqdadı. Təkrar qeyd edək ki, Kırımtatarların «Koroğlu»sunda bu xüsusiyyətlər müşahidə olunmur. Və bu özünəməxsusluq faktı kimi görünür. Kırımtatar dastanları üçün ənənəvi olan başlanğıc formatı «qədim zamanlarda» ifadəsidi. Bu hal Azərbaycan dastanlarında eyni düşüncəni, qədimlik faktını ifadə edən və bu əhvali-ruhiyyəni yaradan «sizə kimdən və nə yerdən danışım» formatıdır. Məsələn, «Aşıq Qərib»də oxuyuruq: «Sizə kimdən və nə yerdən danışım. Təbriz vilayətindən. Təbriz vilayətində Məmməd söydəkar adında bir kişi vardı. Bunun dünya üzərində bir qızı və iki oğlu vardı. Böyük oğluun adı Rəsul, kiçiyinin adı Heydər idi, qızının adı isə Nərgizxanım idi» (1. s.167). Bu dastan üçün özünəməxsusluq xüsusiyyətidir. Və ümumi məzmun mahiyyət anlamında elə də fərq yoxdur. Bu nümunə kırımtatar dastanları üçün xarakterik olan bir xüsusiyyəti, konkretliyi təkrarlayır. Yəni burada hadisələr dastan özünəməxsusluğunda uzanıb getmir, təsvirlər bir neçə cümlə ilə yekunlaşdırılır.

Kırımtatarlarda olan «Aşıq Qərib» dastanında hadisənin baş verdiyi məkan göstərilmir. Ancaq dastanın sonunda maraq doğuracaq informasiya var. Bununla hadisələrin Qafqazla bağlılığını çətinliklə olsa da güman etmək mümkündü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dinləyim ağalar, tərif edim,
Aşığın yırını mən yırlayıb gedim.
Baharda açılır Tiflisdə güllər,
Düyündə, bayramda atlaz geyərlər,
Aşıq Qəribi sorsanız Qafqazlıdı derlər (5. s.107).

Dastan bu mətnlə yekunlaşır. Azərbaycan dastan ənənəsində məhəbbət dastanları duvaqqapma ilə başa çatır. «Aşıq Qərib»in Azərbaycan variantı hər iki istəklinin bir-birinə qovuşması ilə qurtarır: «Qərib yenidən toy etdi. Hər iki istəkli bir-birilə murada çatıb şad günlər və uzun ömür keçirdikdən sonra yerə keçdilər. Siz də atdayıb dövrə keçin» (1. s.202). Bu türk dastan ənənəsində başlanğıc və yekun faktıdır, «Kitabi-Dədə Qorqud»dan üzü bəri zamanımıza qədər gəlir. Və türk xalqlarında özünəməxsusluq xüsusiyyətləri ilə müəyyən çalarlar kəsb etsə də, lakin bədiilik faktı kimi davamlı görünür. Onu da qeyd edək ki, dastanların formalaşma prinsipi mürəkkəbliklə nəzərə çarpır. Yəni bu nümunələr birdən-birə deyil, tədrici prosesdə hadisə, əhvalat olmadan dastan olmaya qədər böyük inkişaf keçirir. Mövcud dastanların inkişafı da bunu təsdiqləyir. Məsələn, ustadlarla bağlı çoxlu əhvlatlar dolaşır, şerləri məclislərdə aşıqlar tərəfindən oxunur. Dədə Ələsgərlə, Növrəs İmanla, S.Vurğunla bağlı olan çoxsaylı hekayətlər özlüyündə tarixi prosesdə dastanlaşmaya gedir. Kırımtatar dastanlarının bizə gəlib çatan nümunələrinin böyük qismi həmin əhvlatları xatırladır. «Aşıq Qərib» dastanında da bu hal hökm sürür. Orada hadisə anlaşıqlı olsa da baş qəhrəmanın ancaq getdiyi şəhərin adı çəkilir. Və sonda «aşıq Qəribi sorsanız Qafqazdandır derlər» misrası verilir. Bütün bu nümunələrin əsasında birmənalı olaraq belə qənaətdəyik ki, mövcud yayımlanmanın əsasında Azərbaycan variantı durur. Bu məsələnin bir tərəfidir, onun digər tərəfində isə özünəməxsusluqlar və təsirlər dayanır. Oxşarlıqlar anlamında ən birinci yada gələn qəriblik faktorudur. Öz sevgilisinə çatmaq üçün vətəndan didərgin düşür. Çünki Şahsənəmin atası yeddi kisə qızıl veriləcəyi təqdirdə qızı almağın mümkünlüyünü deyir. Və yeddi il möhlət verir. Aşıq Qərib də bütün əzablara, əziyyətlərə sevgisi yolunda dözməyə qərarlı olur, anası, bacısı ilə sağollaşıb. Alp şəhərinə yola düşür. Onu da qeyd edək ki, Azərbaycan variantında Qəribin getdiyi bütün yerlər, şəhərlər müəyyən olduğu halda, kırımtatar variantında bu mücərrəddir. Aşıq Qərib yeddi il Alp şəhərində ömür sürdü, burda çoxlu saz çalıb yırladı. Şəhərin camaatı onu ürəkdən sevmişdir. Ancaq Qərib onlarla sağollaşıb Alp şəhəri haqqında belə deyir:

Sənə derlər Ərəbistan,
Çevrə çəti bağ və bostan.
Gəldi mənə yar xəbəri,
Gedirəm indi Alp şəhəri (5. s.103).

Dastan variantları üçün diqqəti cəlb edən ən maraqlı epizodlardan biri qəhrəmana ilahi qüvvənin son anda olan köməyidir. «Bir qayanın üstünə çıxıb ordan özünü suya atmaq istəyir, amma bu arada bir dəmir göy atlı adam peyda olur. «Qoy bu adam getsin sonra özümü ataram» - deyib gözləyir. Bu atlı isə birbaş ona yaxınlaşır, salam verib onun yanında dayanır. O, Aşıq Qəribə:

-Hara gedərsən? – deyib soruşur. Aşıq Qərib isə hara getdiyini qəsdən ona demir.

Atlı adam:

-Haydı min atıma gedək, - deyib Aşıq Qəribi öz atına mindirib gedir. Onlar gözlərini yumub açınca mənzilə yetişirlər. O adam Aşıq Qəribi yerə düşürür.

Bu atlı adam Xıdırnəbi idi. Ona görə də o, Aşıq Qəribin hara getdiyini yaxşı bilirdi.

Xıdırnəbi:

...Ağlamaqdan ananın gözləri kor olub, mənim atımın arxa ayağının altından palçıq götürüb onun gözlərinə sürtsən şəfasını tapar» (5. s.104). Kırımtatar variantından gətirdiyimiz bu nümunə kifayət qədər təfsilatlıdı və dastan ənənəsində göründüyü kimi qorunur. Ancaq bir məqamı da qeyd edək ki, bu variantda Qəribin uşaqlığı, haqq aşığı olması, buta məsələsinə toxunulmur. Bu dastan üçün ən təsirli epizodlardan biri anası ilə Qərib arasında olan mükalimədi. Bu Azərbaycan variantında qeyri-adiliklə təcəssum olunmuşdur və klassik ənənənin ən yaxşı nümunəsi kimi dəyərlidi.

Canım ana, gözüm ana,
Ana, mən Qəribəm, Qərib.
Budu sənə sözüm, ana,
Ana, mən Qəribəm, Qərib.

Gedib Hələbdə oturdum,
Mətləblər yerinə yetirdim,
Gözlərinə dərman gətirdim,
Ana, mən Qəribəm, Qərib.

Kırımtatar variantında isə Aşıq Qəribin anasına müraciəti təxminən buna yaxın olacaq təsirdə görünür və özü haqqında məlumat vermək səciyyəsi daşıyır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sabah namazını Alp şəhərində qıldım,
Nahar namazını Akçokrakta qıldım,
Ekindi namazını Sokur çeşmədə qıldım,
Axşam namazını öz xanəmdə qıldım,
Xıdırnəbinin atına minib gəldim
Mən Qəribəm, mən aşiqəm, ay anam (5. s.105).

Göründüyü kimi, bu dastanda kifayət qədər təfsilatlı epizoddur. Və Qərib haqqında tamlıqla xarakterizə olunacaq informasiyaya yüklənir. Eyni motivi, Aşıq Qəribin qəribliyini, ağrılarını yaşadır, ilahi qüvvələrə inam ifadə edir. Bir illik yolu onun vasitəsilə bir günə gəldiyini aşkarlayır. «Əsli və Kərəm», «Tahir və Zöhrə», «Arzu və Qəmbər» kimi dastan nümunələri də eyni adlı kırımtatar dastanları ilə yaxınlıqda səsləşir və bir növ Azərbaycan dastanının təsirində yaranma ehtimalı doğurur. Ancaq dastançılıqda düşüncə yaxınlığında olan xalqların tarixi prosesdə qaynayıb-qarışması, qarşılıqlı bəhrələnməsi hadisəsi var. Kırımtatarlar da Azərbaycan türkləri ilə digər türk xalqları kimi eyni kökə, mənşəyə malikdir. Onların mədəniyyət faktlarında hansının kimə məxsus olduğunu dəqiqliklə demək mümkün deyil. Ancaq mövcud aşıq dastanları «Koroğlu»dan «Aşıq Qərib»ə qədər daha çox Azərbaycan variantından yayılma istiqamətində görünür. Bütün ehtimallar da hansı konsepsiya ilə yanaşmadan asılı olmayaraq bu qənaəti təsdiqləyir. Bu isə daha çox kök, mənşə, düşüncə yaxınlığının təsiridir. Ona görə də həmin nümunələri müxtəlif müqayisələrdə açmaq zərurətinə daha çox ehtiyac duyulur. Çünki burada əsas məsələlərdən biri bu dastan nümunələrinin dastançılıq baxımından yeni dəyərlər kəsb etməsidir. Bizim məqsədimizdə də olan budur. «Kərəm və Əslixan» dastanı da informasiya yükü baxımından xüsusi maraq doğurur. Bu eynilə Azərbaycan «Əsli və Kərəm»inə uyğun gəlir. Bu dastanla bağlı ədəbi-nəzəri düşüncədə, folklorşünaslıqda kifayət qədər ətraflı mülahizələr yürüdülüb. Dastan ənənəsində «Əsli Kərəm» də ustandanə ilə başlayır. Və Dəllək Muradın üçustadnaməsi verilir. Kırımtatarlarda isə hadisəyə qədimliklə bağlanan bir keçid var. Bunu «Tahir və Zöhrə»də də, «Arzu və Qəmbər»də də görürük. Qədim zamanlarda bir padşah varmış, onun övladı yoxmuş. Ölsəm taxt-tacıma kim sahib olacaq deyib padşah çox dərd-qəm çəkirmiş» (5. s.115). Bu düşüncə, daha doğrusu, övladsızlıq məsələsi xalq yaradıcılığında, eləcə də dastanlarımızda qırmızı bir xətt kimi keçir. «Manas»da, «Kitabi-Dədə Qorqud»da belə təsvirlər kifayət qədərdi. «Dirsə xan oğlu Buğacın boyu»na, «Qanlı qoca oğlu Qanturalı boyu»nda həmin hadisələr əsas istiqamət kimi dastanın düşüncə mahiyyətini açıqlayır. «Xanlar xanı xan Bayındır ildə bir kərə toy edib oğuz bəylərini qonaqlardı. Yenə toy edib atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerə ağ otaq, bir yerə qızıl otaq, bir yerə qara otaq qurdurmuşdu.

-Oğlu olan ağ otağa, qızı olan qızıl otağa qondurun. Kimin ki, oğlu-qızı yox, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin, yeyərsə yesin, yeməzsə dursun getsin – demişdi.

Oğlu-qızı olmayanı allah taala qarğayıbdır. Biz dəxi qarğarız, bəlli bilsin» (3. s.19). Burada övladsızlıq məsələsi və ona münasibət çox aydınlıqla əksini tapır. Belə adamlar allahın qəzəbinə tuş gələnlər kimi qeyd olunur və mətndə bu cür təsəvvür yaranır. Bir məsələni də nəzərə alaq ki, bu adi Oğuz vətəndaşı tərəfindən deyil, xanlar xanı Xan Bayındır tərəfindən deyilir. Oğuz elində kimliyindən asılı olmayaraq bu düşüncədə nizamlanma var. Yəni oğlu olanla qızı olan arasında fərq nəinki duyulur, aydınca təqdim olunur. Bu otaq fərqindən, oturma yerinə, yeməyinə qədər davamlı ənənə kimi görünür. Övladı olmamaq isə ən ağır cəzaya məhkumluqdu, qara otaq, qara keçə, qara qoyun əti bir növ cəzalandırma vasitəsidi. Bu cür adamları mətn informasiyasına görə tanrı cəzalandırıb və biz də cəzalandırırıq düşüncəsi tam aydınlıqla görünməkdədi. Burada digər istiqmətdə tanrı qəzəbindən qurtuluş da var. Bu Dirsə xana qadını tərəfindən çıxış yolu kimi görünür. Yəni məclisdə özünü təhqir olunmuş hesab edən oğuz xanlarından olan Dirsə xan qadınına deyir:

Xan qızı, yerimdən durayınmı?
Yaxanla boğazından tutayınmı?
Qaba öncəm altına salayınmı?
Qara polad üz qılıcım əlimə alayınmı?
Öz gövdəmdən başını kəsəyinmi?
Can dadlısın sana bildirəyinmi?
Alça qanın yer üzünə tökəyinmi?
Xan qızı, səbəbi nədir, degil mana?
Qatı qəşəb edərəm şimdi sana (3. s.21).

Bu artıq Oğuz elindəki xan Bayındırdan başlamış Dirsə xana qədər olan inamdı. Və mətndə onun səbəbinin müəyyənləşməsi aydınlıqla görünür. Boyun qəhrəmanlarından olan Dirsə xan da halalına «səbəbi nədir degil mana» deyə müraciət edir. Dastanda bu bəlaya qurtuluş yolunun açarı qadından gəlir və xalq düşüncəsində köklənən ac doyurmaq, kimsəsizə əl tutmaq təsəvvüründən irəli gəlir: «Hey, Dirsə xan! Mənə qəzəb etmə! İncinib acı sözlər söyləmə: Yerindən uru durğıl! Ala



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çadırın yer üzünə dikdirgil! Atdan ayğır, dəvədən buğra, qoyundan qoç öldürğil! İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığnaq etğil! Ac görsən doyurğıl, yalıncıq görsən donatğıl! Borcluyu borcundan qurtarğıl. Təpə kimi ət yığ, göl kimi qımız sağdır! Ulu toy elə! Hacət dilə! Ola kim, bir ağzı dualının alqışıyla tanrı bizə bir yetman əyal verə (3. 21). Bu düşülən bəladın çıxış üçün bir qadının dediyi təsəvvürdü. Lakin onun arxasında böyük inam dayanır. Və bu qadının dedikləri də həmin inamın ifadəsidi. Ac görsən doydur, ayağı yalın görsən geydir təsəvvürü və bir ağzı dualının sözü alqışıyla müstəcəb olma dastanda bu epizodda çox aydınlıqla əksini tapır. Və hadisələrin sonrakı gedişində də həmin inamın təsdiqini tapması aydınlıqla görünür.

«Kitabi-Dədə Qorqud» dastanlarında övladsızlıq, «atam öldü yerində mən qaldım, mən ölsəm kim qalacaq» təsəvvürü əsas bir xətt kimi davamlı olmada nəzərə çarpır. Məsələn, Xan Qazanın oğlu Uruzdan narahatlığı, Qanlı Qocanın Qanturalıdan narahatlığı adi hadisə təsiri bağışlamır. Bu Qoç Koroğlunun övladsızlığı məsələsində də müşahidə olunur və bütövlükdə eyni düşüncəyə köklənir.

«Qanlı Qoca aydır:

-Yarənlər, atam öldü mən qaldım, yerin-yurdun tutdum. Yarınkı gün mən öləm, oğlum qala. Bundan yekrəyi yoxdur ki, gözüm görərkən, oğul, gəl, səni evərəyim» (3. s.95). Bu artıq ata, valideyn narahatlığıdı. Xalq bayatılarımızda «Dədə Qorqud»dakı nizam davamlı olaraq yaşanır, «oğul elin pənahı, qızlar el yaraşığı» hesab edirlər. «Koroğlu» dastanında övladsızlıq məsələsi ən ağrılı epizodlardandı. Və məclisin şirin yerində Nigar xanımın birdən məyus olması Koroğlunun gözündən yayınmır. Hansı Nigar ki, bütünlükdə Çənlibelin anasıydı. Lakin o nə qədər cəhd etsə də övladsızlıq xiffətindən qırtula bilmir. Dastanda bu ayrıca bir qolun «Eyvazın Çənlibelə gətirilməsi»nin mahiyyətində dayanır. Son dərəcədə məyus olan Nigar xanım bütün vəziyyətlərdə bu düşüncədə görünür. Koroğluun sualına isə kifayət qədər ağrılara yüklənmiş bir cavb verir:

Çənlibeli güllər bəzər,
Güllər saralsa kim üzər?
Hər kəs öz balasıynan gəzər,
Söylə sənin balan hanı?

«Koroğlu»da bunun bir başqa variantının işlənməsini görürük. Bu xalq düşüncəsində tamamilə fərqli yolun gedişidi. Və həmin oğul xalqdan gəlir. Lakin ümumiyyətlə belə bir boşluğun davamlı olaraq doluşu dastanın sonunda Koroğlunun öz oğlunun ortaya çıxması ilə baş verir. Onu da qeyd edək ki, bu təkcə Azərbaycan dastanları üçün xarakterik motiv deyil. Bütünlükdə türk dastan ənənəsində həmin məsələ davamlı şəkildə görünür. Qırğızların «Manas»ında baş qəhrəmanın da dünyaya gəlişi ananın həyat yoldaşına nəzir-niyaz paylamaq, ac doydurmaq tövsiyyəsinin yerinə yetirilməsi ilə olur.

Çakıb qara bağladı,
Bala deyib ağladı.
Oğul-uşaq görəndə,
Ürəyi düşdü bəndə.
Gözündən yaş töküldü,
Yanıq bağrı söküldü.
Çağırdı Allahı o,
Eşitsin bu ahı o.
Qurban dedi hər dəfə
Qurbanlığı nər dəvə (11. s.34).

«Manas»da «sonsuz öləcəyəm mən» motivi kifayət qədər dəhşətli olacaq ağrı kimi görünür. Və burada da bu sonsuzluq türk dastan ənənəsində davamlı görünən nurani bir qocanın vasitəsilə aradan qaldırılır. Bu yuxu Manasın anası Çıyırdı tərəfindən görülür. Nurani qoca ona və əri Çakiba həmin almanı yeməyi tapşırır. Bundan sonra Manas dünyaya gəlir. «Kırımtatarların «Kərəm və Əslixan»ı da təxminən bununla eyni tiplidi. Burada da nurani qocanın rolu müstəsna görünür. Və bütün dastan boyu təfsilat dərvişin dedikləri üzərində qurulur: «Bir gün padşahın arvadı ilə keşişin arvadı baxçaya gəzməyə çıxırlar. Onlara ağsaqallı bir dərviş rast gəlir. Arvadlar öz dərdlərini ona deyib, muradlarına yetişmək üçün bir dua etməsini istəyib sədəqə verirlər. Dərviş onlara bir alma verib:

-Bunu dörd yerə bölüb ərlərinizlə bərabər yeyiniz, - deyib dua edir» (5. s.115). Maraqlıdı ki, türk dastan ənənsində müstəcəb olmanın əsasında nəzir-niyaz, ac doyurmaq, kimsəsizə əl tutmaq bir istiqamət kimi dayanırsa, digər istiqamət hansısa dərviş, daha çox Xıdırnəbi vasitəsilə olur. Məsələn, yuxarıdakı epizodda dərviş vasitəsildə həyata keçirilir. Onun verdiyi alma məhz alma reallaşdırma funksiyasını yerinə yetirir. «Aşıq Qərib»də bu darda qalana kömək, çıxılmaz müşkülü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aradan qaldırmaq məqsədi daşıyır. Və Qəribin üç günə üç aylıq yolu gəlməsi (bəzi variantlarda bir illik yolu bir günə gəlməsi göstərilir) qeyri-adi qüvvənin sayəsində olur. «Kərəm və Əslixan» da bu qeyri-adiliyin fonunda qəhrəmanın dünyaya gəlişinşə yüklənən dastanlardandı.

Azərbaycan «Əsli Kərəm»ində isə bunun daha fərqli görünəcək xüsusiyyəti var. Burada hadisələrin başlanğıc və son nöqtəsinin təfsilatı var. Kərəmin sevgisi arxasınca hansı ölkələrə və şəhərlərə getməsi kimlərlə qarşılaşması, başına gələnlər hamısı aydınlıqla təsvir etmə məqsədi daşıyır. Eləcə də bu dastanda Əsli və Kərəmin dünyaya gəlişinin əsasında bir başqa məqam, arzulama dayanır. Məsələn, Gəncə xanı Ziyad xana bu arzulamanı keşiş edir. Ancaq həmin niyyəti də maraqlıdır ki, o pozur. «Bir gün Ziyadxan imarətində oturub yenə də fikrə dalıbmış, öz bəxtindən, sonsuzluğundan şikayətlənirmiş. Bu vaxt Qara Keşiş içəri girir. Xanın pərişan olduğunu görüb deyir:

-Yenə də qəm dəryasına qərq olmuşsunuz. Bu nədir?

Ziyad xan dedi:

-Əlimdən nə gəlir, keşiş! Sonsuzluq məni lap vərəmlədib. Fikir eləməyim, nə edim?

Qara Keşiş dedi:

-Mənim də övladım yoxdur. Ancaq mən fikir çəkmirəm. Görən allahın dərgahında nə günah iş tutmuşuq ki, bizə övlad əta etmir. Günahımızı yumaq üçün savab iş görməliyik.

Ziyad xan dedi:

-Daha nə savab iş görməliyik? Əlimizdən gələni etmişik: nəzir deyirsən vermişik, niyaz deyirsən vermişik, yoxsulların, acların qarnını deyirsən doyurmuşuq. Daha nə etməliyik? (1. s.71). Göründüyü kimi, Azərbaycan dastanları ilə Kırımtatar dastanları arasında olan bu bağlılıq bir sıra istiqamətlərdən irəli gəlir. Ən birincisi bu dastanlar kök etibarilə eyni düşüncəyə, eyni inam və etiqada bağlı olanların yaxınlığıdı. Ona görə də bunlarda elə bir ciddi fərqlilik aramaq, onu ortaya çıxarmaq mümkün deyil. İkincisi bu xalqlarda mədəniyyət ortaqlığı var. Adət-ənənə yaxınlığı, tarixi prosesdə olan əlavələr burada bir sıra maraqlı məqamları da zəruri edir. Bu da yeni əlavələrdə, müəyyən dəyərlər qazanmadadı. Ona görə də biz dastanlarda qəhrəmanların tipologiyası baxımından hadisələrin də oxşarlığını, yaxınlığın gərəkliyini görürük. Məsələn, Azərbaycanda ən mükəmməl dastan nümunələri kimi maraq doğuran «Aşıq Qərib», «Tahir və Zöhrə», «Əsli və Kərəm», «Arzu və Qəmbər», eləcə də «Koroğlu» dastanı kırımtatarların eyni adlı dastanları ilə ad yaxınlığında görünmür. Eyni zamanda daxilinə varanda kifayət qədər oxşarlıqda nəzərə çarpır. Ta bütövlükdə ümumi məzmundan tutmuş ayrı-ayrı epizodlara qədər bu baş alıb gedir.

Göründüyü kimi yuxarıdakı epizodlarda sonsuzluq bəlasından qurtulul yolunu «Kitabi-Dədə Qorqud»dan tutmuş «Əsli və Kərəm»ə qədər eyni düşüncədə müşahidə edirik. Daha doğrusu bu yaxın olan fakt bolluğunda dayanır. Və bu «Əsli və Kərəm»də bir hadisə kimi təkrarlanır. Maraqlı məsələlərdən biri Ziyad xanla Qara Keşiş arasında söhbətdə nəzir-niyazdan, kimsəsizlərə əl tutmadan başqa, ikincinin bu söhbətlərə əlavəsidir. Daha doğrusu, övladları olacağı təqdirdə bağlanan əhddir. Həmin təklif Qara Keşiş tərəfindən irəli sürülür və hadisələrin sonrakı gedişində də onun tərəfindən pozulur. Xalq inamına görə belə əhdlərin pozulmasının sonunda bir uğursuzluq, fənalıq var. Onun sonundan yaxşı nəsə gözləmək olmur. Və adətən də belə də olur. Necə ki, «Əsli və Kərəm»də bunun canlı şahidiyik.

«Xan sağ olsun, ürəyimə bir fikir gəlib, onu desəm inciməzsən ki?

Ziyad xan:

-De!

Keşiş dedi:

-Gəlsənə bir əhd edək.

Ziyad xan maraqla soruşdu:

O nə əhddir?

Keşiş dedi:

-Xan sağ olsun, gəl belə bir əhd bağlayaq. Əgər mənim qızım, sənin oğlun oldu, mən qızımı sənin oğluna verim, yox, sənin qızın mənim oğlum oldu, sən qızını mənim oğluma ver.

Ziyad xan razı oldu. Əhd-peymandan sonra hərə çəkilib öz otağına getdi»» (1. s.72). Hadisələrin sonrakı gedişində Ziyad xanın oğlu, Qara Keşişin qızı olur. Və aylar, illər keçir, bu əhdin reallaşması zamanında Qara Keşiş vədinə xilaf çıxır. Kərəmin sevgilisini sərv ağacından, yurddan, baxçadakı qızdan sorması ilə «Qazan xanın evinin yağmalanması» boyundakı Qazan xanın qırdla, su ilə, yurdla və sonda Qaraca Çobanla söhbətləşməsi arasında dastan ənənəsinə gələcək bağlılıq var.

Dur, sərv, dur sənnən xəbər sorayım,
Sərv ağacı, sənin maralın hanı?

Gözümnən axıtma qanlı yaşları,
Sərv ağacı, sənin maralın hanı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Doğru söyləməsən, qəddin əyilsin,
Qarğaram mövladan belin bükülsün,
Bir ah çəkim yarpaqların tökülsün,
Sərv ağacı, sənin maraqlın hanı?

Bu «Əsli və Kərəm» dastanında vədə tamam olduqdan sonra sevgilisinin yanına gələn Kərəmin Əslini görmədikdən sonra sərv ağacına xəbər üçün müraciətidir. Artıq bu böyük ağrıların başlanğıcının qoyuluşudur. Uğursuz bir sevginin iztirablarıdı. Onu da Ziyad xanın oğlu çəkməli olur. «Kitabi-Dədə Qorqud»da yağıların yurdu yağmalaması hadisəsini soran Qazan xanın axar su ilə söhbətləşməsi, yurdu xəbər alması var:

Çığnam-çığnam qayalardan çıxan su!
Böyük-böyük ağac gəmiləri oynadan su!
Həsən ilə Hüseynin həsrəti su!
Bağ ilə bostanın ziynəti su!
Ayişə ilə Fatmanın nigahı su!
Şahbaz atların içdiyi su!
Qızıl dəvələr keçdiyi su!
Ağ qoyunlar gəlib çevrəsində yatdığı su!
Ordumun xəbərin bilirmisən degil mana!
Qara başım qurban olsun suyum sana! (5. s.35).

Həm «Əsli və Kərəm»dən, həm də «Kitabi-Dədə Qorqud»dan gətirdiyimiz bu nümunələr format baxımından bir-birindən fərqlənmir. Bunların fərqi olsa-olsa itki baxımındandı. Yəni Qazan xan aparılmış yurdunu soruşur, Xan Kərəm isə yurdda yox sevgini axtarır. «Əsli və Kərəm» dastanının kırımtatar variantında maraq doğuracaq fərqliliklər sırasında ən çox diqqəti cəlb edəcək məsələlərdən biri qəhrəmanların adlarının sonrakı hadisələrdə dəyişməsidir. Onu da qeyd edək ki, hadisələrin «Aşıq Qərib»də olduğu kimi, burada da məkanı dəqiq verilmir. Dastanda keşiş qızının adı Karasultan, xan oğlunun adı isə Amet kimi verilir. Sofi lələ adı isə necə var saxlanır. Ancaq burada fərq Sofinin Ametin məktəb yoldaşı olmasıdır. Sofi dastan ənənəsində dostluq, sədaqət simvoludu və axıra qədər o, Ametə sədaqət göstərir. Addəyişmə isə kırımtatar variantında maraqlı olacaq şəraitdə aparılır: «Məni bura atam götürüb qaçdı. İndi ikimizi bir yerdə görsə, başqa yerə götürüb qaçacaq.

Amet bəy:

-Əgər belədirsə, onda sənə kərəm eyləyib mən bu yerdən sovuşuram, çünki, sən «gəl mənə kərəm eylə dedin. Onunçün qoy indi mənim adım Kərəm olsun. Bura qaçdığını doğru (aslını - əslini) dediyin üçün qoy sənin adın Əsli (Aslı) olsun» (5. s. 116). Azərbaycan «Əsli və Kərəm»ində bunun tamamilə başqa bir tərəfini, yəni bu hadisənin oxşarlıq məqamını təkrarlanacaq şəraitdə görürük. «Oğlan, kərəm elə, tez çıx burdan get, keşiş babam gəlib bizi görməsin.

Mahmud dedi:

-Gedərəm, ancaq gərək bir xahişimi yerinə yetirəsən.

Məryəm dedi.

-O nə xahişdir?

Mahmud dedi:

-Mən istəyirəm ki, sənin adın Əsli olsun.

Məryəm gördü ki, Mahmud əl çəkməyəcək, çar-naçar razı oldu.

Mahmud dedi:

-İndi ki, sən mənim sözümü yerə salmadın, adını Əsli çağırmağa razılıq verdin, bundan sonra sən də mənim adımı Kərəm çağır (1. s.74). Artıq bu addəyişmədəki yaxınlıqlar seziləndi və dastan ənənəsində fərqlilik ancaq onun aparılması ilə bağlıdı. Yəni həm Azərbaycan, həm kırımtatar variantında bunu baş qəhrəman (Kərəm) həyata keçirirsə, «Dədəm Qorqud»da ozanlar ozanı Dədə Qorqud, «Koroğlu»da ata (Alı kişi), «Aşıq Qərib»də camaat edir və qəhrəmanın bundan sonrakı fəaliyyətini əhatələyəcək adı verir.

Azərbaycan dastanları ilə Kırımtatar dastanları arasında yaxınlıq anlayışında belə eyni adlar kifayət qədərdir. «Əsli və Kərəm»lə bağlı son hadisəni xatırlatmaq və hadisənin sonluğu kimi qorunuşunu izləmək anlamında bu hissə daha çox diqqəti çəkir. Hadisələr böyük gərginliklə Mahmud və Məryəm olmadan Kərəm və Əsli müstəvisinə keçir və bu istiqamətdə Qara Keşişin toy tədarükünə qədər davam edir. Ona görə də Məryəm bu ağırlıqlarda Mahmuda ilk başlanğıcda Kərəm deyə müraciət edir:

Adım Məryəm idi, sən qoydun Əsli,
Kərəm oğlan, Kərəm eylə, quşun ol. (1. s.74)

Bütövlükdə türk-dastan ənənəsində «Manas», Oğuz Kağan», «Alpamış», «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Ural batır», «Edige», «Çorabatır» qəhrəmanlıq simvolikasına yüklənirsə, «Aşıq Qərib» qəribliyə, «Əsli-Kərəm» isə məhəbbət, sevgi müqəddəsliyinə yüklənir. Bu bir növ Azərbaycan dastançılığında «Sarı Aşıqla Yaxşı»nın məhəbbətini xatırladır. Kərəm yanğısı, Kərəm sevgisi bu gün türk düşüncəsində əsaslı kök salmış məhəbbət faktıdı. Zaman-zaman bədii düşüncəni döyəcləyir, ədəbiyyatın, bədii sözün ifadə vasitəsinə çevrilir. Sarı Aşıqla Yaxşının məhəbbətinin arasında bir Yaman göyərdiyi kimi, Əsli ilə Kərəmin sevgisinin ortasında nəqafil bir kor yara kimi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ata, Keşiş peyda olur. Ədəbiyyatda bu bədxahlığın, ən azı keşiş olmanın düşüncəsini formalaşdırır. Və ümumişlək obraza çevirir. Qara Keşiş obrazı bu gün də məhəbbətin, sevginin alternativi kimi düşüncəyə hakimdi. Və bu məhəbbətin, ona qənim olmanın yekununda isə Kərəm yanğısı alovlanır, «Kərəmi», «Yanıq Kərəmi» ortaya çıxır. Daha doğrusu, Xan Kərəmin ah-naləsindən, yanğısından «Yanıq Kərəm» yaranır. Toy gecəsi Kərəm Əslinin yanına gələndə Əsli ona:

-Haydı, baxım görüm sən məni necə sevirsən. Əgər məni ürəkdən sevirsənsə fıstanımın düymələrini tellə aç, - deyir.

-Mən bu sənə atamdan, anamdan, elimdən, evimdən ayrılaraq sənin arxanca şəhərdən-şəhərə, vilayətdən-vilayətə düşməkdə təsdiq etdim bunu, bir daha sazımla göstərdim, - deyib Kərəm çalmağa başlayır. Fıstanın düymələri yuxarıdan-aşağıya qədər açılır, yalnız, bir düymə qalanda yenidən düymələnməyə başlayır. Çox kərələr belə təkrarlanır.

Axırda Kərəm «ax yandım» deyib dərdli bir ah çəkir, ağzından bir alov çıxır və bu alovla yanıb kül olur. «Əsli də özünü bu alov atıb alışıb yanır» (5. s.120). Bu Qara Keşişin tilsimi idi. Qara Keşiş olmanın aqibəti bütün türk xalqlarının dastanlarında davamlılıqla qorunur. Dastanın əvvəlində əhd-peyman arzulamanı edən Qara Keşiş sonda tilsimi etməklə öz arzulamasına qənim kəsilir və övladının ölümünə üstünlük verir. Bütün bunlar və bu kimi paralellər türk-dastan ənənəsində mühafizəkarlıqla yaşadılır. Bu göründüyü kimi qəhrəmanlıq nümunələrində də, məhəbbət dastanlarında da türkün düşüncə hadisəsi olmaq haqqı qazanır. Və böyük informasiya yükü ilə tarixin ağır dolaylarını dastan düşüncəsində ənənə faktı kimi sabaha daşıyır. Ona görə də türk dastanlarına böyük hadisələrin, törənlərin məcmusu kimi baxmaq gərəyi yaranır.

## ƏDƏBİYYAT

1. Azərbaycan məhəbbət dastanları. Bakı, Elm, 1979.
2. Azərbaycan ədəbiyyatı inciləri. Dastanları. Bakı, Yazıçı, 1987.
3. Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1978.
4. Oğuznamələr. Bakı, BDU, 1993.
5. Kırımtatar dastanları. Bakı, Nurlan, 2003.
6. Qədim Şərq ədəbiyyatı. Bakı, Azərbaycan Ensiklopediyası, 1993.
7. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1992.
8. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, Azərnəşr, 1993.
9. Vəliyev V. Azərbaycan folkloru, Bakı, Maarif, 1985.
10. Bayat F. Oğuz epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı, Sabah, 1993.
11. Manas

## ПРОБЛЕМА ВРЕМЕНИ И ПРОСТРАНСТВА В ДРЕВНИХ ТЮРКСКИХ ДАСТАНАХ
## РЕЗЮМЕ

Творчество тюркского дастана проявляется во всех направлениях своей насышенностью. Большую часть в них занимают сушествования времени и пространства, выраженные в дастанах, которые в свою очередь выражают жизненный образ тюрков в древних временах. В свою очередь одним из основных направлений в древних тюркских дастанах является факт ихображения времени. Это информация о местах проживания тюрков. Именно с этот точки зрения значение тюркских дастанов незаменимо.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRKİYE'DE FOLKLOR ÇALIŞMALARI ÜZERİNE BİR DENEME (1923-1950)

***Prof. Dr. Mesut Çapa***
***Karadeniz Teknik Universitesi***
***Turkiye***

Bildiride, Atatürk dönemi ve II. Dünya Savaşını kapsayan yıllarda Türkiye'de folklor çalışmalarından bahsedilecektir.

Cumhuriyet döneminde ulusal değerlerin ve halkçılığın önem kazanması aydınların Türk folkloruna yönelmelerini sağladı. İkinci Meşrutiyet döneminde Ziya Gökalp'le başlayan münferit çalışmalar, Cumhuriyet'in kuruluş yıllarında kolektif ve kurumsal bir şekle dönüştürüldü. 1927 yılında Ankara'da, Ziyaettin Fahri Fındıkoğlu ve Mehmet Halit Bayrı'nın öncülüğünde kurulan **Türk Halk Bilgisi Derneği**, kısa bir süre sonra İstanbul'da açılan şubesiyle Türkiye'de folklor çalışmalarının öncülüğünü yaptı. Türk toplumunun ve fikir hayatının ancak, halkın asırlardır kendi gelenek ve yaşayışında mevcut kültürü ile çağdaş medeniyet seviyesine ulaşacağına inanan bir çok aydın (Hamit Zübeyir Koşay, Abdulkadir İnan, Agâh Sırrı Levent, Fuat Köprülü, Ahmet Caferoğlu, Ahmet Kutsi Tecer, Mahmut Ragıp Gazimihal, Yusuf Ziya Demirci, Süheyl Ünver vd.) bu çalışmalara katıldılar. Maarif Vekillerinden Mustafa Necati ve Vasıf Çınar da dernek çalışmalarını desteklediler.

Anadolu'dan toplanan muhtelif folklor örnekleri Ankara ve İstanbul'da çıkarılan **Halkbilgisi Mecmuası** ve **Türk Halkbilgisi Haberleri**'nde yayınlandı. Bu dergiler folklorculuğun Türkiye'de ilk organize rehberliğini yaptılar. Derneğin kuruluşu ve dergilerin yayın hayatını sürdürmesinde büyük rolü olan Mehmet Halit Bayrı, dergideki yazıları içinde geniş olanlarını kitap haline getirdi. Bu Arada kendisi de folklor gezilerine katıldı.

1930'lu yılların başında Türk kültürünün araştırılmasına büyük önem veren Atatürk'ün öncülüğünde **Türk Tarih Cemiyeti** ile **Türk Dil Cemiyeti** kuruldu. Bu çalışmaların, merkezî teşkilat dahilinde yürütülmesi yolunda bazı değişiklikler yapıldı. 1932'de **Halkevleri**nin kuruluşu üzerine **Türk Halk Bilgisi Derneği** kapandı ve Türkiye folkloruna ait bütün çalışmalar, Halkevlerinin **Dil, Edebiyat ve Tarih Şubesi**ne intikal etti. **Türk Halkbilgisi Haberleri**, 1933 yılında Eminönü Halkevi Dil, Tarih, Edebiyat Kolu Başkanı olan Prof. Fuat Köprülü'nün yardımı ile 1942 yılına kadar 124 sayı yayınlandı.

1932'de Halkevlerinin kurulmasından sonra folklor çalışmaları daha da yaygınlaştı; mahallî araştırıcılar da bu çalışmalara katıldı. Halkevlerinin Dil, Edebiyat, Tarih Şubesi, Türk Tarih Cemiyeti ile Türk Dil Cemiyetinin tanzim ettiği program esasları içinde söz derlemeleri, anketlere karşılık bulmak, ata sözleri, maniler, millî masallar, folklor tetkikleri, eski eserlerin yerlerinin tesbiti ve korunması gibi bir çok çalışmalarda bulundu. Halkevlerinin çıkardığı dergi ve kitaplarda Türk folkloruna geniş yer verildi. Türk folklor araştırmaları açısından bu yayınlar ayrı bir önem taşımaktadır.

İkinci Dünya Savaşı'ndan sonra folklor araştırmaları Halkevlerinin çatısı altından ayrıldı. **Türk Halk Bilgisi Derneği** 1946'da yeniden kuruldu. Ayrıca, Ağustos 1949'de tarihinde **Türk Folklor Araştırmaları** dergisinin ilk sayısı yayınlandı. Bu dergi daha sonraki yıllarda Türkiye'nin en istikrarlı ve uzun ömürlü folklor dergisi özelliğini kazanmıştır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XV-XVI ƏSRLƏR AZƏRBAYCAN TƏRCÜMƏ ƏSƏRLƏRİNDƏ XALQ DEYİMLƏRİ VƏ ATALAR SÖZLƏRİ

***Fil. e. d.Möhsün Nağısoylu***
***(AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu***
***Azərbaycan***

XV-XVI yüzilliklərdə Azərbaycanda milli ədəbi dilin güclü inkişafı, xüsusilə də 1501-ci ildə bünövrəsi qoyulan qüdrətli Səfəvilər dövlətinin ilkin çağlarında ana dilinə olan qayğı və dəstəyin güclənməsi, türkcənin dövlət dili səviyyəsinə yüksəlməsi bədii tərcümə sənətinin də geniş yayılmasını şərtləndirmişdir. Bu dövrün Azərbaycan tərcümə nümunələri ərəbcədən və daha çox farscadan edilmişdir və əsasən dini-təsəvvüf məzmunlu əsərləri əhatə edir. Klassik Azərbaycan tərcümə ədəbiyyatının ən dəyərli nümunələrindən sayılan Şirazinin «Gülşəni-raz»ı, Əhmədinin «Əsrarnamə»si, Nişatinin «Şühədanamə» və «Şeyx Səfi təzkirəsi» adlı nəsr tərcümələri bu dövrdə yaranmışdır. Bu tərcümə əsərləri ədəbiyyat tariximizin ayrıca bir qolunu təşkil etdiyi kimi, milli ədəbi dilimizin inkişafında, onun yeni-yeni söz və ifadələrlə zənginləşməsində də müstəsna rol oynamışdır.

XV-XVI əsrlər Azərbaycan tərcümə ədəbiyyatı nümunələrinin çoxu birbaşa geniş xalq kütlələri arasında dini ideya və fikirləri, sufi baxışlarını yaymaq, təbliğ etmək məqsədi daşımış, məhz buna görə də folklor-danışıq üslubunda (*bax:* **2**, 208; **3**, 60-65) sadə və anlaşıqlı bir dillə qələmə alınmışdır. Bu mühüm amil isə öz-özlüyündə həmin əsərlərdə xalq danışıq dili üçün səciyyəvi olan söz və ifadələrdən, bütövlükdə şifahi xalq ədəbiyyatı nümunələrindən, xüsusilə də atalar sözlərindən bol-bol istifadə olunmasını şərtləndirmişdir.

XV yüzilliyin ən dəyərli bədii tərcümə nümunələrindən biri Şirazi təxəllüslü istedadlı Azərbaycan şairi-mütərciminin qələmindən çıxmış «Gülşəni-raz» tərcüməsidir. «Gülşəni-raz», məlum olduğu kimi, görkəmli Azərbaycan şairi-filosofu Mahmud Şəbüstərinin (1287-1320) fars dilində məsnəvi şəklində yazdığı məşhur əsəridir. Orta əsrlərdə geniş yayılan təsəvvüfün mahiyyətinin yığcam şəkildə açıqlamasına, bir sıra sufi anlayışlarının yozumuna həsr olunmuş «Gülşəni-raz» yarandığı dövrdən başlayaraq Yaxın və Orta Şərqdə geniş yayılmış, əsərə çoxsaylı şərhlər yazılmışdır. «Gülşəni-raz»ın XV yüzilliyin əvvəllərində türkcəyə nəzmlə tərcümə olunması da məhz bu amillə bağlıdır. Şirazi bu tərcümə əsərini 1426-cı ildə tamamlamış və onu Türkiyə hökmdarı Sultan II Murada (1421-1451) ithaf etmişdir (*bax:* **6**, 23-24).

Şəbüstərinin «Gülşəni-raz» məsnəvisinin olduqca sərbəst və yaradıcı tərcüməsi olan Şirazinin eyniadlı məsnəvisi görkəmli türk alimi Füad Köprülünün də qeyd etdiyi kimi, xalq arasında sufilik ideyalarını təlqin etmək və yaymaq məqsədini daşımışdır (**10**, 127).

«Gülşəni-raz» tərcüməsinin dilində işlənən xalq deyimləri sırasında aşağıdakı əski sabit söz birləşmələri xüsusilə diqqəti cəlb edir: «ad takmaq» (ad qoymaq), «başına börk urmaq» (aldatmaq), «beyni çokramaq» (başı qızışmaq, beyni dolmaq), «əl bir etmək» (əlbir olmaq, birləşmək) «əldən qomaq» (əldən vermək), «əlindən gəlmək», «ətəgin tutmaq» (yalvarmaq), «gecə ilə gündüz barışmaq», «könlini almaq», «qapudan taşra ayağun uzatmamaq» «qaradan özgə rəng sanmamaq», «qulağından sanu pənbələrin çəkmək» (qulağından bir fikri atmaq), «od ilə su barışmaq», «ögindən keçmək» (ağlından keçmək), «sayru düşmək» (xəstə düşmək), «yelə vermək» (bada vermək), «yürəgi qəm oduyla dağlamaq», «yüzini burtarmaq» (üzünü qırışdırmaq) və s.

Şirazi tərcüməsində bir sıra atalar sözlərindən də uğurla bəhrələnmişdir. Qeyd edək ki, Şirazinin işlətdiyi atalar sözlərinin çoxu azacıq söz fərqilə, kiçik dəyişikliklə çağdaş ədəbi dilimizdə də işlənir. Məsələn:

Həqiqətdə məcazi hal olmaz,
Ki, *bal deyənün ağzı bal olmaz.*

Nümunənin ikinci misrasında Şirazinin işlətdiyi «*bal deyənin ağzı bal olmaz*» deyimi çağdaş ədəbi dilimizdəki «*Halva-halva deməklə ağız şirin olmaz*» atalar sözündən leksik tərkibcə müəyyən qədər fərqlənsə də, məzmun baxımından onunla tam üst-üstə düşür. Qeyd edək ki, Şirazi bu atalar sözünü bir qədər fərqli şəkildə də işlətmişdir:

*Ağız tatlumı olur bal deməkdən?*
Məgər ləzzət gələ anı yeməkdən.

Aşağıdakı nümunələrdə də Şirazi atalar sözlərindən istifadə etmişdir:

Key anlagil qolayın hər bir işün,
Ki, *yokış eyni olmışdur enişün…*
*Kilimincə uzatğil ayağuni,*
Ayağından sıyırmağil bağuni…



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İkindüyə demədi kimsə öylə,
Dedilər: *əgri otur, doğru söylə…*

Bu nümunələrdəki «*yokış eyni olmışdır enişün*», «*kilimincə uzatgil ayağuni*», «*əgri otur, doğru söylə*» deyimləri çağdaş ədəbi dilimizdəki aşağıdakı atalar sözlərinin bir qədər fərqli variantlarıdır:

«Hər enişin bir yoxuşu, hər yoxuşun bir enişi var», «Yorğanına görə ayağını uzat», «Əyri otur, düz danış». Qeyd edək ki, Şirazinin işlətdiyi «*əgri otur, doğru söylə*» atalar sözünə prof. Samət Əlizadənin nəşrə hazırladığı «Oğuznamə»də də eynilə rast gəlirik (**7**, 33).

«Gülşəni-raz» tərcüməsində işlətdiyi aforizm səciyyəli aşağıdakı deyimlər də əski atalar sözlərini xatırladır:

Dilərsə küfrü fisq əhlin keçürür,
Ki, *bir əl taşı bin quzğun uçurur…*

*Tavuq yumurtasından toğmaz ördək,*
*Nə diksən, anı bitürür çəgirdək…*

Bana bu pərdədən bir raz söylə,
*İyü söyləvü uzü az söylə…*

Bu düzgünivü bu düzənləri boz,
Ki, *turmaz günbəz üzrə atcaq qoz…*

Vəli gərçək olur, yalancı olmaz,
*Könüldən bay olan dilənci olmaz…*

Qeyd edək ki, birinci nümunədəki «*bir əl taşı bin quzğun uçurur*» atalar sözünü Qazi Bürhanəddin də bir tuyuğunda aşağıdakı şəkildə işlətmişdir:

Aləmdə bin qarğaya bir sapan bəs.

XV əsr Azərbaycan şairi-mütərcimi Əhmədinin 1478-ci ildə Təbriz şəhərində tamamladığı «Əsrarnamə» tərcüməsinin dili də sadəliyi və xalq danışıq dilinə yaxınlığı ilə diqqəti çəkir. Şirazinin «Gülşəni-raz» tərcüməsində olduğu kimi, Əhmədinin «Əsrarnamə» tərcüməsində də xalq deyimlərindən, aforizm səciyyəli ifadələrdən, atalar sözlərindən yerli-yerində istifadə olunmuşdur. Əhmədi bu tərcümə kitabını farsdilli təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi Fəridəddin Əttarın (1120-1230) ədəbi irsindən seçmə mənzum hekayələri sərbəst-yaradıcı şəkildə nəzmlə tərcümə yolu ilə hazırlamışdır (*bax:* **5**, 34-39).

Qırx mənzum hekayət toplusu olan Əhmədinin «Əsrarnamə»si də Şirazinin «Gülşəni-raz»ı kimi təsəvvüf ədəbiyyatı nümunəsidir və sufi fikirlərinin təbliğinə həsr olunmuşdur. Dövrünün istedadlı şairi-mütərcimi olmuş Əhmədi (onun «Yusif və Züleyxa» adlı orijinal bir məsnəvisi də vardır – bax: **9**, *VII-X*) «Əsrarnamə»də ilk növbədə ümumxalq danışıq dilinə söykənmiş, bu tükənməz qaynaqdan yerli-yerində və uğurla bəhrələnmişdir. Əhmədinin işlətdiyi xalq deyimləri, sabit söz birləşmələri sırasında aşağıdakıları qeyd etmək olar:

«*Ayağına düşmək*», «*bağlı qapı açmaq*», «*başın qoynuna çəkmək*», «*başını yola qoymaq*», «*başına nələr gətirmək*», «*boynuna ip taxmaq*», «*çox görmək*», «*dağa düşmək*», «*əldən qoymaq*», «*əlindən gələni qılmaq*», «*könli yumşalmaq*», «*qəflət yuxusundan oyanmaq*», «*keçən işi qurdamaq*», «*özünü oda salmaq*», «yüz urmaq» və s. Əhmədi «Əsrarnamə» tərcüməsində ayrı-ayrı atalar sözlərini də bir qədər fərqli şəkildə işlətmişdir. Məsələn:

Çü *əkdügin biçərsən* danla, ey yar,
Barı cəhd eylə əkmə tüxmi-murdar.

Göründüyü kimi, nümunənin ilk misrasındakı «*əkdügin biçərsən*» deyimi «Nə əkərsən, onu da biçərsən» atalar sözünün bir qədər dəyişdirilmiş variantıdır. Əhmədinin aşağıdakı beyti isə başdan-başa canlı xalq danışıq dilini xatırladır:

Onun ol yaxşulığın unutməzəm,
*Ölür olsam, ol qapudan getməzəm.*

XVI yüzilliyin ən məşhur tərcümə əsərlərindən ikisi istedadlı tərcüməçi Nişatinin qələmindən çıxmışdır: «Şühədanamə» və «Şeyx Səfi təzkirəsi». Bu klassik tərcümə nümunələri nəsrlədir və həcminin böyüklüyünə görə seçilir. Klassik Azərbaycan ədəbiyyatında nəzmlə müqayisədə nəsrin az yayıldığını nəzərə alsaq, Nişatinin tərcümələri ilkin bədii nəsr nümunələri kimi dəyərli qaynaqlardır.

Nişati «Şühədanamə»ni 1539-cu ildə Səfəvi hökmdarı Şah I Təhmasibin (1524-1576) əmri və Şiraz hakimi Qazi xan Saru Şeyx oğlunun göstərişi ilə Şiraz şəhərində tamamlamışdır. Tərcümənin farsca orijinalı Hüseyn Vaiz Kaşifinin Kərbəla faciəsinə həsr etdiyi «Rövzətüş-şühəda» (Şəhidlər bağçası) kitabıdır. Əsas hissəsi nəsrlə olan «Şühədanamə»də yeri gəldikcə nəzm parçalarından da istifadə olunmuşdur. Hələlik çap olunmayan bu dəyərli tərcümənin dünyada yeganə əlyazması – mütərcimin öz xətti ilə köçürülmüş nüsxəsi Bakıda, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır (*bax:* **4**, 58-66).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nişati «Şühədanamə»də xalq danışıq dilinə məxsus ayrı-ayrı sözləri yazılı ədəbi dilə gətirməklə tərcümənin dilini müəyyən mənada şifahi xalq yaradıcılığı nümunələrinin dilinə yaxınlaşdırmağa cəhd göstərmişdir. Bütün əsər boyu ümumxalq danışıq dilinin, ana dilmizin şah abidəsi, dünya folklorunun nadir incilərindən biri olan «Kitabi-Dədə Qorqud»un dil-üslub xüsusiyyətlərinin təsiri özünü göstərir. Qeyd edək ki, «Şühədanamə»nin bu xüsusiyyətinə ilk dəfə akad. Həmid Araslı diqqət yetirmiş və abidənin dil xüsusiyyətləri baxımından «Kitabi-Dədə Qorqud» dastanları ilə səsləşdiyini vurğulamışdır (**1**, 322). Bu fikrə nümunə olaraq «Şühədanamə»dəki «*gen yeri düşmənlərə dar qılmaq*», «*söz söyləmək*», «*yem yemək*», «*var-get*» və s. kimi ifadələri göstərmək olar.

«Şühədanamə»də xalq danışıq dilindən gələn aşağıdakı deyimləri də qeyd etmək olar: «*başdan bir tük əksük eyləmək*», «*başun üsnə oturmaq*», «*can və baş ilən qulluğında durmaq*», «*qanı qaynamaq*», «*qapudan sürəsən, bacadan girərüz*», «*iş işdən keçmək*», «*işini tamam eləmək*», «*ötəni ötdi, keçəni keçdi*», «*özüni qoşunun içinə salmaq*», «*söz qapusı bağlamaq*», «*su içrə kim ki qərq oldı, anı qorxutma yağışdan*», «*usu getmək*», «*uyxu aparmaq*» və s.

Nişati «Şeyx Səfi təzkirəsi» adlı tərcümə əsərini də farscadan dilimizə çevirmişdir. O, 1543-cü ildə Səfəvi hökmdarı Şah I Təhmasibin əmri ilə İbn Bəzzaz Ərdəbilinin «Səfvətüs-səfa» kitabını türkcəyə çevirərək onu «Şeyx Səfi təzkirəsi» adlandırmışdır (*bax:* **8**, 3-24). Əsər Səfəvilərin ulu babası, Azərbaycanda təriqət qurucusu olmuş, Ərdəbil şəhərindəki «Darül-irşad» xanəgahına başçılıq etmiş Şeyx Səfiəddin Ərdəbilinin (1252-1334) həyatı və kəramətlərindən bəhs edir. Azərbaycan əlyazmaları içərisində həcminə görə ən böyük olan «Şeyx Səfi təzkirəsi»nin də əsas hissəsi «Şühədanamə» kimi nəsrlədir və burada da nəsr arasında nəzm parçalarından istifadə olunmuşdur.

«Şeyx Səfi təzkirəsi» bu yaxınlarda Bakıda geniş ön söz və izahlarla nəşr olunmuşdur (**8**). «Şeyx Səfi təzkirəsi» də «Şühədanamə» kimi dilinin sadəliyi və xalq danışıq dilinə yaxınlığı ilə seçilir. Bundan əlavə tərcümənin ayrıca bir bölməsi dövrünün görkəmli şəxsiyyəti olmuş Şeyx Səfiəddin Ərdəbilinin kəlamlarından - hikmətli sözlərindən ibarətdir. Qeyd edək ki, Şeyx Səfiəddin Ərdəbili bədii yaradıcılıqla da məşğul olmuş və türk, fars və gilək dillərində şeirlər yazmışdır. Mənbələrdə onun «Qara məcmuə» adlı bir kitab yazması da qeyd olunur, lakin bu əsər tam şəkildə günümüzə qədər gəlib çatmamışdır.

Şeyx Səfiəddin Ərdəbilinin tükənməz xalq hikməti ilə yoğrulmuş, aforizm təsiri bağışlayan kəlamları həm nəsr, həm də nəzm şəklindədir. Yüksək əxlaqi-tərbiyəvi fikirlər aşılayan bu kəlamların bir çoxu atalar sözlərini xatırladır. Əsərdəki nəzmlə olan kəlamlardan bir neçəsini nümunə olaraq veririk:

Hər yağışdan incü olmaz, bəllü bil,
Girsə əlünə, anı çürütməgil.
Mürşidün irşadidürür ol yağış,
Dedügüm dürr – mərifətdir, saxlagil.

* * *

Qoyma minnət, hər kimə verdün yemək,
Zira kim ol verdügün zaye qılur.
Hər kimə bir nəstə bağışlar isən,
Tanrıçün ver kim, sana yaxşıdurur.

* * *

Çün silahun var, öldür düşmənün,
Andan eymən olma, ta sağdur tənün.

* * *

Löqməniz pak olmasa, xakə girür,
Pak isə bilgil ki, əflakə varur.
Arpa əksən, dəxi həm arpa bitər,
Buğda əksən, bər həman buğda verür.

Şeyx Səfiəddinin nəsrlə olan kəlamları sırasında isə aşağıdakılar diqqəti çəkir:

*Eşqin məşvərəti yoxdur.*
*Aşiqə bənd ilə zəncir yoxdur.*
*Muridə böylə və şöylə yoxdur.*

*Əkməgi vermək və üstünə minnət qoymaq ana bənzər ki, daşın üstinə toprağ töküb toxmı tökdürəsən.*

*Haram löqmə torpağə batar və halal löqmə könülə bitər.*

*Qamu nəstə yeyən qamu nəstə söyləyəndür və qamu nəstə söyləyən qamu nəstə qılandur və qamu nəstə qılan damuda olur.*

Beləliklə, XV-XVI əsrlər Azərbaycan tərcümə əsərlərinin dili üzərindəki bu qısa müşahidələrə əsasən belə bir qənaətə gəlmək olar ki, anadilli ədəbiyyatımızın ayrıca bir qolunu təşkil edən klassik tərcümə örnəkləri şifahi xalq ədəbiyyatı xüsusiyyətlərini canlı şəkildə özündə yaşadan dəyərli yazılı qaynaqlardır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ƏDƏBİYYAT

1. Araslı H. XV-XVI əsrlərdə Azərbaycan ədəbiyyatı – «Azərbaycan ədəbiyyatı tarixi». I c. Bakı, 1960.
2. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dili tarixi. Bakı, 1967.
3. Hacıyev T. XIII-XVI əsrlər ədəbi dili – «Azərbaycan ədəbi dili tarixi». Bakı, 1991.
4. Nağısoylu M. XVI əsr Azərbaycan tərcümə abidəsi «Şühədanamə». Bakı, 2003.
5. Nağısoylu M. Əhmədinin «Əsrarnamə» tərcüməsi. Bakı, 2005.
6. Nağısoylu M. Şirazinin «Gülşəni-raz» tərcüməsi. Bakı, 2004.
7. Oğuznamə (çapa hazırlayan S.Əlizadə). Bakı, 1987.
8. Şeyx Səfi təzkirəsi (tərtibçilər və nəşrə hazırlayanlar: M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı). Bakı, 2006.
9. Ayan G. Tebrizli Ahmedi Esrar-name (inceleme-metin). Ankara, 1996.
10. Köprülü F. Türk Edebiyatı. İstanbul, 1980.

## ОСОБЕННОСТИ ФОЛЬКЛОРНОГО ЯЗЫКА В АЗЕРБАЙДЖАНСКИХ ПЕРЕВОДНЫХ СОЧИНЕНИЯХ XV-XVI вв.

Азербайджанская литература XV-XVI вв. характеризуется и художественными переводами, сделанными в основном с персидского языка. Большинство переводных сочинений данной эпохи были предназначены для широких народных масс и изложены простым общенародным языком. По этой же причине в них ярко прослеживаются особенности фольклорного языка.

В поэтических переводах «Гюльшани-раз» (Цветник тайны) Ширази (1426 г.) и «Асрар-наме» (Книга тайн) Ахмеди (1478 г.) широко использованы фразеологические выражения и пословицы. В прозаическом переводном сочинении «Шейх Сафи тазкиреси» (Биография Шейха Сафи) Нишати (1543 г.) также широко представлены выражения, свойственные фольклорному языку и афоризмы.

## PARTICULARITIES OF FOLKLORE LANGUAGE IN AZERBAIJAN TRANSLATION MONUMENTS XV-XVI CENTURIES

Azerbaijan literature XV-XVI centuries is characterized also by artistical translations basicly from Persian language. Most translation monuments of that epoch predestined for wide nation mass aud explained on simple public language. By this reason they clearly have the particularities of folklore language.

In poetic translations "Gulshani-raz" (Flower-garden of mistery) Shirazi (1426) and "Asrar-name" (Book of misteries) Ahmedi (1478) were widely used phraseological expressions and proverbs. In prosaic translation monument "Sheikh Safi tazkiresi" (Biography of Sheikh Safi) Nishati (1543) also widely shown expressions are native to folklore language and aphorisms.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# THE STORY ABOUT UNIMPORTANT TREASURE

***Marzena Godzińska (PhD)***
***Institute of Oriental Studies***
***Warsaw University***
***Poland***

*The aim of his text is to present what knowledge and meanings are hidden by felt and especially felt mat, which is not found as a thing of great value by experts in textiles, by anthropologist of culture, or even by people who use it in their everyday life. I will also try to explain why this „treasure" of culture is so important and so little known.*

I would like to tell the story about something not important, not appreciated, cheap and ugly; to tell about something what is in posses of many houses especially here in Turkmenistan, but only a few wants to possess it; to tell about something what is produces by many but only a few like his work. This something speaks and is heard but none wants to listen to, it is seemed but none wants to watch it. And the same time this neglected and abandoned thing, just because it was forgotten somewhere in the corner of a ball room it was able to collect and safe great, unique knowledge about itself and around world. Thanks to that we may learn about ourselves, our history and culture. This hero of my tale is some unimportant treasure – felt, or keçe, or koşma... as you prefer.

In 1996 Siergiej Diemidow wrote an article *Sister of Carpet* (*Siestra kowra*) published in popular in Turkmenistan magazine *Turizm i razwitie* (No. 1, 1996, pp. 38-43). Reading this text I was always under very strong impression that it is about younger sister of carpet. But felt-keçe is rather much older sister, or mother, or even grand-grandmother, however the great career of carpets and rugs was never part of its life. In fact it had never been invited into the middle of the stage but was allowed of standing in the shadow, without make-up, fashion costumes, funs and medial popularity... But my story is not about Cinderella, though I hope for the happy end. Tradesmen, explorers and researchers, who even in XIX century came to Asia had seen extremely beautiful carpets famous from the painting of old masters. To weave them weeks were needed. To produce felt one experienced woman and a few strong young girls with help of two boys should work about four to six hours, sometimes eight. Work is very hard and very dirty. Rather not elegant. And the effect is very simply too. Where is charm and style of great Turkmen carpet shinning with six, eight, ten thousands woven knots per square decimeters. This is mastery! This is art! And this is worth to be proud of, to be promoted, to wove in portraits of leaders, heroes and saints, to be interested in, to be researched, to write books about. It is maybe difficult to realize but in the world three (!) books where written about felt. Because felt still forgotten, still exists in its own tradition, which is not manipulated (or less manipulated) by market of great trade, science or politics.

And that is the point.

- Story number one – How it is made – about producing, making and creating prayer felt mat, and about it's ritual purity (with slides or computer presentation)

The technology of production is extremely simple. You need some wool, some tool to card it, natural or synthetic mat to spread the wool on, and the string to make rulo, hot water and few pair of hands to do all the work… At the beginning some experienced women puts color decoration on the mat, spreads white or brown wool, spreads some water, and makes rulo in which the felt is hardened. After some time the rulo is opened and few girls start fulling the felt with their hands and under direction of experienced older women. After few hours felt is read. All this work seems to be anything extraordinary but…

Even when we make such a simple felt mat to put it on the floor in our home we must be careful on what we are doing and how we are doing. And there is kind of felt which needs special care. This is prayer mat – namazlyk.

It must be done in a very pure way. Except decoration it may be used only white wool. Last and the most important element of decoration is one or few knots of camel wool. Of course it is of the best quality, clean, without insects. Women who puts the decoration should be religious, honest person. Sometimes I had heard: „I do not pray five times a day, so I cannot make namazlyk." Young people who help in hardening and fulling (felting) also should be pure, especially in ritual way. So it is out of question that this job may be done by girl who has just a period. After all work namazlyk must be ritually cleaned – three times three ablution jugs of going (alive) water is poured out. And then, when it dry, it is ready to



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

be used. Using namazlyk is also connected with some special rules – it must be kept in clean place, and when it is very old, and some normal felt mat would be thrown out, it may be only burned.

Everyone in Turkmenistan knows all these rules and everyone believes they are kept. But…

It was not very seldom, and I saw wool for namazlyk with insects. When I turned on it attention of my informer she said: „Oh, yes, I know, and that is why we will clean this wool." But they did not. Sometimes I saw namazlyks thrown out in the street, when some dogs slept on them. May informers where usually shocked: „I see it first time in my life, it must be taken from here, it must be burned" – they said, and did nothing. Once I even heard one of the girls making namazlyk was claiming that she was not well because she had period. And she was told that it does not matter because namazlyk is made for sale. And the camel wool was put into the decoration of this namazlyk.

Very often in our own life and during research we consider that theory and practice walk not the same way. Analyzing my research materials I would call it some cultural blindness. Something is wrong, however it should be not, so we pretend that it is all right. It remind me way of defense. If something is wrong it may be very dangerous, it may be the beginning of revolution who destroys our tradition. Until we do not notice it, it does not exist. And live is going on as it was in our grand and grandfathers times.

- Story number two – About live and death – motive of ram horns and clans routes in the past present and future

There is very interesting decoration motive which survived throughout centuries – ram horns (turkm. koçok). They symbolize prosperity in life, protection, safe, richness, power… We may meet them all over world, including Turkmenistan, or Turkish speaking peoples area.

Ram horns are also popular decoration on felt mats. But about namazlyks in Turkmenistan many people (producers and users) used to say that there is no namazlyk without koçok. And this motive is also full of symbolism. Here in the middle of the mat lines of the pairs of ram horns, pair after pair, climb to the top of mat, to mihrab niche where knot of camel wool was put. Central decoration is round by single or double line of ram horns. It may remind border of the carpet, but it is not, as it is opened in the down part of mat. Here in the entrance is place for us – these who pray to the God. Pairs of ram horns symbolize our ancestors, generation after generation, who support and protect our prayers. If we close the mat decoration we will close the way for prayer, for communication with ancestors and God.

This kind of prayer mat are made by Tekke, Nohurli, Murçeli, Saryk tribes. But namazlyks made by Jomuds, are with oval, closed decoration. Against that what one may think he sees, it is not closed. This decoration is like in mirror. In magic, especially in shaman magic, often happens that what belongs to the other, spiritual world may be showed but inverted. So maybe here in the middle is place for praying person, behind one is line of ancestors and before one is the line of future generations. And we pray for all of them. Past – future – present time. Actually this is the way of life of all of us, and our families.

Motive of the way of generation may be also find in decoration of normal felt mat. Here two crossed lines of koçok were called bright or light way (turkm. ak gürgün), and it symbolize way of two families (clans) who meet when their children get married. And past and future of these two clans is expressed here again. Wedding day is the moment of meeting, when two ways are crossed. Later both clans are going on their own way.

This is not only way told by felt mats.

- Story number three – About decoration motives – round square, sun and about their route with Turkmen tribes

Circular motives are very popular decoration of felt mats, especially they are very easy to put it in the mat. But decorations of felts made by Saryk tribe (wilayet Mary) are dominated by squares filled with latice. However they were named motive of mirror or cup (turkm. *aýna gül*, *jami gül*), because they are similar to round mirror or round cup. And how much surprised were my thirty, forty and fifty years old Saryk informers when I noticed that decoration is composed from squares not circles, and there is no square cups.

Names of these motives sometimes are known in other tribes, as names of some circular forms. Also sumbolism is similar. Felt mats with these mirror decoration are usually intended for young couple, or for a bride as trousseau. And these special motives of mirror should protect young people, and young lady in a very difficult and dangerous moment of their life.

It looks like a need rules over two different patterns of the same symbolism. This need is written deep in conscience of producers and users of the felts, jus like part of the pattern of culture.

Unfortunately I have no occasion to visit south Balkan wilayet or Turkmen tribes in Iran.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

But in Central Anatolia I fund a village where woven, knotted textile called hopan is produced. Its decoration id similar to the square circles of Saryks. This textile is woven only by woman from the yörük tribe Sarıtekeli. And the main motive is called top, what means a ball. When did this name come from? Answer was that decoration is similar to the ball; it is round like foot ball, basket ball...like round mirror. And again how surprised was my interlocutor that she has not notices for forty years of her life, that she had woved squares. And she had to wove herself, as well as her daughters have. Hopan must be part of trousseau, it will protect her and her new family against all evil.

How important motive it is that it survived so many centuries, so many generations, and sol on way from Central Asia to Anatolia. A always wonder what of these importance survives and what disappeared.

- Story number four – About lost way and about live against all and everyone and about treasure

It happens that even this very important, element is a little bit forgotten, fades away. Almost fades away…

Here in Ashgabat, some woman make German felt – niemieckie keçe. In many villages in Achal wilayet, similar motive of four crossed single ram horns was just named „felt pattern", „ram horns pattern" or „four ram horns" (turkm. *keçe nahşy*, *koçok nahşy* lub *dört saýlan*). Where these „German" comes from?

During ethnographical field work researcher do not only realize questionnaire and make observations. Most time we spend talking and talking about everything – wether, children, prices and economy, fashion and shops, computers, films… For example about war films. Some time ago Polish film about Second Word War: „Four Tankers and the Dog" (pol. „Czterej pancerni i pies"), was very popular in all socialist countries. And one day my informer talking about this film reminded question asked a few hour earlier about name of the motive. „German felt" because it is German swastika on it. That time I watched ram horns so often that I must say I did not even notice this swastika. And it is, just have a look. But what more interesting it was German motive. But my informer women was Turkmen, just like swastika is from here – Central Asia – not from Europe.

In some way this forgotten swastika came back home on German felt. Because in culture something lost by one is found by another. This second, after a little modification will give it to another one. And after generations this something will come back home. In here someone will accept a New element, but only under condition that this new factor does not mean strange, and is familiar. Even if we do not really remember that.

These the most traditional elements and factors of our culture, forgotten, pushed away from the stage, do not let us to kill them. They stay alive against everything, and everyone, and even against ourselves. And they stay alive, because if we really destroy them we destroy ourselves, as it is impossible to live without culture which is created by such particles of great treasures.

These are stories and tales which I listened from my informers and from these unpopular characters of my story, from felts themselves. I understood and completed them this way, because usually the I was told some fragment of story, the beginning without the end, a few scenes from the middle… Everyone may here and listen something different, but I think that everyone should listen. Because all these stories are worth to be listened. And they are worth to be told.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## СОВРЕМЕННЫЕ ИНТЕРПРЕТАЦИИ ПРОЗЫ Ю. ГЕРЕЕВА

***д.ф.н. Малик Гусейнов***
***Россия***

Творчество Юсупа Гереева, как собственно в литературном, так и социальном плане, воспринимается как символ определенной эпохи — эпохи строительства социализма. В 20-30-е годы, на которые приходится его творческая деятельность, кумыкский прозаик, как и подавляющее большинство советских писателей, в том числе дагестанских, творил в русле идей своего времени, в контексте партийных идеологем нашей страны. - в сатирико-юмористическом ключе бичевал дореволюционное «прежде», восхваляя советское «теперь».

Надо признать, что явления общественной жизни достаточно веское отражение нашли в творчестве Ю. Гереева. Сказались они и на личной биографии писателя. Будучи сиротой, благодаря советской власти он достиг заметных высот служебного положения. По направлению партии, членом которой он стал в 1921 году, будущий прозаик, обучившись на юридических курсах в Ростове-на-Дону, занимал должности прокурора Буйнакского района, замдиректора газеты «Елдаш», ответственного секретаря Хасавюртовского райкома ВКП(б), заместителя секретаря Махачкалинского горкома, заместителя председателя Дагколхозсоюза, ответсекретаря Союза писателей Дагестана и т.д. Неординарность политической ситуации 30-х годов выразилась и в судьбе Ю. Гереева. В 1938 году он был подвергнут аресту, объявлен «буржуазным националистом», его книги, изданные к тому времени, были изъяты из библиотек и уничтожены. Сегодня очевидно, что с таким клеймом у писателя в ту пору на восстановление своего честного имени не было никаких шансов. В итоге он был вынужден по существу самолично свести счеты с жизнью.

Особенности политического климата в творчестве Ю. Гереева находят проявление в том, что он апеллировал к темам, представлявшимся актуальными. Как известно, в конце 20-х годов в нашей стране разворачивалась мощная антирелигиозная кампания, в связи с чем отдали дань бичеванию служителей культа известные дагестанские писатели Н. Ханмурзаев, А. Иминагаев, Р. Нуров, Г. Цадаса, С. Стальский, А. Баширов и мн. др. Естественно, не стал исключением в этом ряду и Юсуп Гереев.

В 1928-1929 гг. были изданы эти рассказы в книгах «Сапар ёлдаш» Молла Насрутдина» и «Дуа мажмуа» Молла Насрутдина». В 1934 году отдельные из произведений выдержали повторное издание в книге с аналогичным названием.

Прежде всего следует сказать о том, что антиклерикальная тема – это не порождение искусства советской эпохи, не плод литературы социалистического реализма, как было принято считать. Обличение религиозных деятелей, служителей культа имеет глубокие истоки в национальных литературах, в том числе в восточной классике. Достаточно напомнить анекдотичные рассказы Моллы Насрутдина, являющиеся достоянием всей ориентальной культуры, восходящие в глубь веков, в которых осмеянию подвергаются нередко и муллы, и кадии. Советские литераторы по сути дела в эпоху социалистического строительства развивали в своих произведениях одну из традиционных направлений словесного искусства. Юсуп Гереев, в частности, продемонстрировал в своих рассказах оригинальный подход, свидетельствующий о нем как о незаурядном, самобытном художнике. Писатель, как бы уважая чувства своих читателей, которые в большинстве своем являлись верующими людьми, призвал в союзники известного и популярного персонажа народной литературы -Моллу Насрутдина. Неслучайно его имя фигурирует и в названиях книг Ю. Гереева. Говоря «Сапар ёлдаш» и «Дуа мажмуа» Молла Насрутдина, автор подчеркивает, что в его рассказах суждения из книг известных религиозных деятелей начала XX века Шихамата-кади из Эрпели и Абусупияна из Казанище подвергаются обличению в ракурсе его видения, его взгляда. Роль рассказчика, таким образом, отводится именно ему. Подтверждается это и обращением к читателю Молла Насрутдина, которым открывается первая книга, и выводами во многих рассказах, сделанными от его лица. Данное обстоятельство позволяет говорить об осмысленном использовании Ю. Гереевым национальных традиций смеховой культуры, что проливает свет на сущностную характеристику анализируемых произведений.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Нельзя обойти молчанием то, что известные религиозные деятели Шихаммат-кади и Абусупьян, руководствовались гуманной целью пропаганды мусульманских воззрений на мир при написании своих творений. Однако надо признать, при всем уважении к ним, что в их книгах нашли выражения суждения, не отличающиеся безупречностью, порой крайне сомнительные, да к тому же к исламу непосредственного отношения не имеющие, что и стало мишенью Ю. Гереева. В их числе обнаруживаются житейские советы из «Сапар ёлдаша»: о том, как уничтожить крыс и мышей, освободиться из тюрьмы, достичь успеха в торговле и т.д.; из «Дуа мажмуа»: пути очищения от грехов, способы пробуждения любви или избавления от неё.

Следующая деталь, на которую хочется обратить внимание, это то, что в рассказах, по существу подвергаются обличению не столько суждения из религиозных книг, а сколько выписанные колоритно персонажи, слепо в них уверовавшие. Их злоключения, необычные ситуации, в которые они попадают, и составляют основу произведений, где осмеиваются в большей мере косность, невежество, узость кругозора, примитивизм мышления, обывательская психология действующих лиц, рядовых сельских простолюдинов.

Отмеченные выше характеристики вызывают сомнения насчет правомерности определения их сугубо антирелигиозными. Несомненно, автор ставил себе задачей обличение религии через книги мусульманских деятелей. И приставка анти-, возможно, вполне уместна. Однако не всегда применительно к религии, так как примеры, к которым апеллирует писатель, имеют к ней весьма отдаленное отношение.

Весомым фактором в обозначении стиля произведений предстает тот факт, что рассказчиком в них выступает Молла Насрутдин. По своей манере, по своим художественным параметрам рассказы Ю. Гереева, на наш взгляд, точно соответствует народным «молланасрутдиновским» рассказам. Ко всему сказанному следует добавить, что в ряду определений комического, наличествующих в кумыкском языке (а это масхара (шутка), тогъуштув (подшучивание), ихтиллат (шутка, забава), иришхат (насмешка, издевка) и т.д., точных аналогов термину сатира не обнаруживается.

При современном прочтении литературы советского периода, периода социалистического строительства, думается, следует акцентировать внимание не столько на темы и проблемы в них затрагиваемые, а искать и выявлять то, что может сделать их понятней, ближе сегодняшнему читателю. Ю. Гереев в своем творчестве демонстрирует прекрасное владение приемами иронического освещения, комического воспроизведения действительности: комизм ситуаций, остроумие, игра слов. Широка у писателя палитра форм осмеяния – это и добродушный юмор, и тонкая насмешка, и гневный сарказм.

Самобытность таланта Ю. Гереева, своеобразие и оригинальность его произведений находят выражение, прежде всего в языке, речевой манере повествований. Сказовая форма, которой оперирует Ю. Гереев, повествование от лица популярного в народе насмешника и жизнелюбца Молла Насрутдина открыли перед писателем большие возможности умело использовать богатые ресурсы родного кумыкского языка, что становится источником комизма.

Наивно-простодушный тон, заведомо утрированное, примитивное толкование описываемых событий, где рассказчик прикидывается простачком, находит выражение в его речи, чем достигается ярких смеховой эффект.

Речь Молла Насрутдина «искрится юмором, что читатель видит его как живого: во всей неповторимости его фигуры, жеста, мимики» (Л. Ершов). Именно его образом, умением вжиться в него Ю. Гереева во многом обуславливается художественно-эстетическое своеобразие его рассказов.

Рассказы Юсупа Гереева, поведанные от имени Мола Насрутдина, не оставляют сегодня сомнений в том, что являют собой одну из ярких страниц его литературного наследия.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCANDA BALLA BAĞLI İNANCLAR

***t.e.n., dos. Məhəbbət Paşayeva***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***Azərbaycan***

Əlverişli cöğrafi mövqeyi, mülayim iqlimi, zəngin bitki aləminə sahib olan Azərbaycan ərazisi çox qədim dövrlərdən bəri arıçılığın məskəninə çevrilmiş, əsrdən-əsrə, nəsldən-nəslə keçərək xalqın məişətində, ənənələrində əhəmiyyətli yer tutmuşdur. Məhz buna görə də Azərbaycan hər zaman "arının vətəni", "arıçılığın beşiyi" kimi dəyərləndirilmişdir. (2;3) Xüsusilə də, Azərbaycanın Gədəbəy, Kəlbəcər, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara kimi meşələrlə zəngin dağ və dağətəyi rayonları arıçılığın qədim mərkəzlərinə çevrilmişlər. Azərbaycanın qədim əhalisi hələ ibtidai dövrlərdən - insanların təbiətin verdiyi hazır nemətlərlə qidalandığı ibtidai mərhələdən etibarən meşələrdəki ağac köğuşlarından, mağara və qayalardan bal toplayırdılar. Yunan coğrafiyaşünası Strabonun da yazdığı kimi, qədim Azərbaycanın Şakaşena və Matiyena villayətlərinin meşələrindəki ağac koğuşlarında arılar məskən salır, balı da yarpaqlarından süzülür. (4) Xüsusi mülkiyətin yaranması nəticəsində arı ovlayan insanlar artıq aşkar etdikləri ağac köğuşlarını xüsusi işarə ilə damğalayaraq vəya kərtrərək onu öz mülkiyyətinə çevirirdi. Bundan sonra heç kəs artıq bu koğuşa yığılan balı götürməzdi, çünki xalq arasında yayılmış inama görə "arı müqəddəsdir və haram götürməzdi". Arıçılığın ən qədim forması olan belə bal və mum toplanması Azərbaycanda XX əsrin əvvələrinədək mövcud olmuşdur.

Hələ qədim zamanlardan insanlar balı təbiətin hədiyyəsi, sehirli möcüzəsi hesab etmişlər. Təbiətin bütün möcüzələrini goylərlə bağlayan qədim insanlar balın da zərif şeh şəklində göydən düşdüyünə inanaraq onu paklıq, bərəkət simvolu kimi qəbul etmişlər. Bəlkə elə buna görə xalq bal ifraz edən varlıqları paklıq, təmizlik simvolu kimi "arı" adlandırmışlar. Məlumdur ki, "arı", "aru" qədim türk dillərində saf, pak, ləkəsiz demək idi. Bu gün də dilimizdə mövcud olan "Aydan arı, sudan duru", "arınmaq", "arıtlamaq" kimi ifadələr təmizlənmək, paklanmaq mənasında işlənməkdədir.(1) Bir çox klassik mənbələrdə də "arı" söylədiyimiz mənanı ifadə etmişdir. Məsələn, Dədə Qorqud dastanında saf su mənasında işlənən "arı su" ifadəsinə rast gəlinir. Görünür, azərbaycanlılar balı da müqəddəsləşdirdikləri üçün onu yaradan varlıqları saf, pak kimi qiymətləndirərək arı adlandırmışlar. Bu əqidə azərbaycanlılar arasında geniş yayılaraq günümüzədək öz izlərini qoruyub saxlamaqdadır. Bunun nəticəsidir ki, bal və bal mumu ilə bağlı ayinlər azərbaycanlıların bir çox ailə mərasimlərində, istər dəfn, itərsə də toy mərasimərində, mərasim yeməklərində, inanclarında özünəməxsus yer tutmuşdur.

Yuxaıda qeyd etdiyimiz kimi, azərbaycanlıların təsərrüfat məişətində arıçılıq mühüm yer tutuğu üçün arıçılar arı və onun balının qorunması, artması üçün bir çox magik ayinlər icra etmişlər. Xalq arı pətəklərini özünün "çörək təknəsi" hesab etmiş və onları hər cür xatadan qorumaq, daha cox bal toplamaq istəyi ilə inanclara üz tutmuş, bir sıra magik ayinlərlə öz arı təsərrüfatını qorumağa çalışmışdır. Arıçılar arı pətəklərinə göz dəyməsindən qorxduqları üçün kənar adamları arıxanaya buraxmaz, arıların sayını söyləməz, onları tərif etməzdilər. Hətta bəzən arıçılar arıxananın dörd tərəfini çəpərləyərdilər ki, arı pətəkləri kənar gözdən uzaq olsun. Keçmişdə arılara tez-tez xəstəlik düşməsinin səbəbini çox zaman bədnəzərdə axtaran arıçılar pətəklərdən üzərlik, buynuz, heyva ağacının çubuğunu, qaratikan çöpünü və ya at, it, maral kimi heyvanların kəlləsini, təbii deşiyi olan çay daşı asar, bununla da arıları bədnəzərdən qoruduqlarına inanardılar. Bəzən arıxanadan hətta Quranin muqəddəs ayələrindən də yazdırıb asardılar. Göründüyü kimi, arı və balla bağlı inanclarda qədim inanclar sistemi ilə islamın qarşılıqlı təsiri özünü biruzə verir. Xalqın arıçılıqla bağlı inanclarına görə çilləli sayılan zahı qadınların, həmçinin toylarından 40 gün keçməmiş təzə toyluların da arı pətəklərinin olduğu yerə girə bilməzdilər. Bu zaman arıların da cilləyə düşə biləcəyinə inanılardi. Əgər arılar az bal verərdilərsə, və ya tez-tez xəstələnərdilərsə onların ya bədnəzərə gəldiyi, ya da cilləyə düşdüyü güman edilərdi. Bu zaman bir sıra magik ayinlər icra edilərdi; Arıları cillədən azad etmək üçün arıxanaya üzərində müxtəlif dualar həkk olunmuş xüsusi mis qab – "qırxaçar cam" gətirərdilər. İnama görə bu müqəddəs qab arıxanada hündür bir yerdən asılardısa arıları "40-dan çıxar", yəni cillədən qurtararadı.

Arıçılar pak və müqəddəs hesab etdikləri arıların bədnəzəriə bərabər murdarlığı, natəmizliyi, haramı da götürmədiyinə inanardı. Buna görə də onu oğurlamaqdan, ona haram qatmaqdan çəkinərdilər. Bu arılara xəstəlik düşməsinə, qırılmasına səbəb ola bilərdi. Hətta arıçılar bu inancın təsiri ilə arı pətəkləri olan yerə oğru, qatil, əliəyri, yəni "murdar adam" girməsinə də izn verməzdilər. Azərbaycanlılar arasında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mövcud olan əqidəyə görə arı murdarlıq, natəmizlik sevməyən bir varlıqdır. İmkan daxilində bunlardan onu qorumaq lazımdır.

Azərbaycan xalqının təsərrüfat məişətində arıçılıq təsərrüfatının özünəməxsus yeri olması, arı və onun balının müqəddəsləşdirilməsi öz növbəsində xalqın adət və ənənlərində, məişət məasimlərində də balla bağlı bir çox ayinlərin, inancların formalaşmasına səbəb olmuşdur. Bir sıra arxeoloji və etnoqrafik materiallar da qədim Azərbaycan əhalisinihn ailə mərasimləində bal və bal mumu ilə bağlı adət-ənənlərin özünəməxsus yer tutduğunu təsdiqləyir. Arxeoloji materialların təhlili Azərbaycanda hələ eramızdan əvvəl III minillikdə arı mumundan istifadə edildiyini söyləməyə əsas verir. Bu dövrdə mum qəliblər vasitəsilə müxtəlif sənətkarlıq məmulatları – bəzək əşyaları, möhürlər, şəbəkələi xəncər başları, insan və heyvan fiqurları hazırlanırdı. Arxeoloji qazıntılar zamanı eramızdan əvvəl I minilliyin əvvələrinə aid edilən Azərbaycanın Qazax rayonu yaxınlığındakı Sarıtəpə adlı yaşayış yerində aşkar edilmiş qəbirdə ölünün yanına qoyulmuş əşyaların arasında içərisində sarı rəngli məhlul - bal olan gil qab da tapılmışdır.(6) Çox maraqlıdır ki, qabın içərisində görünən xətlər də arı şanını xatırladır. Bu tapıntı hələ bizim eradan əvvəl Azərbaycanın qədim əhalisinin mənəvi dünyagörüşündə balın özünəməxsus yer tutduğunu göstərir.

Antik yazılı qaynaqlar Azərbaycan ərazisində qədim dəfn adətlərində balın mumundan da istifadə etdikləri barədə məlumat verirlər. Strabonun məlumatına görə “cəsədi bal mumu sürtəndən sonra dəfn edirlər”.(7) Xalqımızın adət və ənənəsi ilə bağlı olan bu qədim dəfn ayini və ya cənazə mərasiminin izlərinə günümüzdə də rast gəlinməkdədədir. Bu gün azərbaycanlılar arasında geniş yayılmış “ağzını mumla” ifadəsi məhz bu ayinin izlərini daşıyır. Maraqlıdır ki, XIX əsr müəllifi Bejanov da Vartaşen kəndi (indiki Oğuz rayonu) və onun əhalisi nin adə-ənənlərindən bəhs edərkən aid bir mənbədə verilən məlumata görə, Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan etnik qruplardan biri olan udilər arasında da XIX əsrədək dəfn mərasimi zamanı “ölünün ağzı mumlanandan sonra kəfənlənərək dəfn edilməsi adətinin olduğu məlumdur.(8)

Qeyd etmək lazımdır ki, azərbaycanlıların qədim dəfn mərasimlərində olduğu kimi toy mərasimlərində də balla bağlı ayinlər özünəməxsus yer tutmuşdur. Bal Azərbaycanda hər zaman yeni qurulan ailə üçün xeyir-bərəkət, şirin ömür, mehribançılıq simvolu olmuşdur. Azərbaycanın bir çox bölgələrində elçilik, nişan, toy mərasimlərində süfrəyə bal qoyulardı ki, həyatlarını birləşdirəcək olan gənclərin də ömrü bal kimi şirin və saf olsun. Keçmişdə adətə görə elçilik zamanı razılıq əlaməti olaraq elçilərə baldan hazırlanmış şərbət verilərdi. Azərbaycanın bir çox bölgələrində bu mərasim “şirni” adlanırdı. Naxçıvan bölgəsində isə elçilərə təqdim edilən ballı şərbətə “salma” da deyərdilər.(9) Azərbaycanın Quba rayonunun Xınalıq kəndində qeydə alınmış “çörəkkəsdi” adlanan qədim bir elçilik mərasimində isə razılıq əlaməti olaraq hər iki tərəfin ağsaqqalları fətir arasına bal yaxaraq dürmələyir, iki yerə bölərək yeyirdilər. Bəzən də ballı fətirin bir hissəsi qıza göndərilir, digər hissəni isə elçilər oğlan üçün gətirirdilər. Bu qədim sözkəsmə adətinin izləri bu gün azərbaycanllar arasında çox yayılmış olan “Sözünü balla kəsim” ifadəsində qallmaqdadır. Qeyd etmək lazımdır ki, Azərbaycanın Quba rayonu Xınalıq kəndi ərazisində çox qədim dövrə aid olduğu ehtimal edilən daşlaşmış arı mumu aşkar edilmişdir. Hazırda bu tapıntı Xınalıq kəndi ərazisində yerləşən Xınalıq muzeyində saxlanır.(5)

Azərvaycanın arıçılıq təsərrüfatının inkişaf etdiyi bölgələrədə nişanlılıq müddətində bal kəsilib süzülərkən qız evinə baldan xüsusi pay ayrılaraq göndərilməsi adəti vardı. El arasında yayılmış “Gəldi ballı gün, yamacda var toy-düyün” deyimi də, görünür, bu ənənə ilə bağlı yaranmışdır. Ümumiyyətlə, bal kəsiminin başlanması ailədə xüsusi mərasimlərlə müşayət edilərdi. Balı kəsmək üçün uğurlu gün və saat seçilərdi. Arıçılar arasında yayılmış inama görə həftənin cümə günü və “günün əyilən vaxtı”, yəni günorta vaxtı bal kəsilməsi üçün ən uğurlu zaman idi. Arıçıların bu zamanın günün ən əziz vədələrindən biri olmasına inanmaları xalqın qədim astral təsəvvürləri ilə ilə bağlı idi. Məlumdur ki, səma cisimləri Azərbaycanlıların qədim inaclar sisteminın mərkəzində dururdu. Azərbaycanın qədim əhalisi səma cisimlərinin təsərrüfat və ailə həyatına təsir göstərdiyinə inanaraq öz fəaliyyətlərini bu səma cisimlərinin hərəkətinə uyğunlaşdırmağa çalışırdılar. Xalqın astral təsəvvürlərinə görə günorta zamanı Zöhrə ulduzunun Yerə təsir göstərdiyi vaxt idi. Məlumdur ki, azərbaycanlılar hər zaman nişan, toy, nigah kimi xeyir işlərini məhz günorta satlarında başlamağa çalışırlar. Görünür, arıçıların da bal kəsimini günorta saatlarında başlaması Zöhrə ulduzunun uğuruna, təsir qüvvəsinə inamın qalıqlarıdır. Bal kəsimi zamanı xüsusi şənlik məclisi qurular, ailənin ağbirçəyinin xeyir-dua dinlənərdi. Daha sonra hər kəs bir-birinə gözaydınlığı verər, yanaqlarına bal çəkər, xeyir –bərəkət arzulanardı. El arasında hətta bal kəsilən zaman balı, arısı olmayan qohumlara, qonşulara da bal payı göndərmək ənənəsi də mövcud idi. Fikrimizcə, bu qarşılıqlı yardım ənənəsi kökü çox qədimlərə gedib çıxan icma qaydalarının izlərini daşıyır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Keçmişdə arının beçə verməsi münasibətilə də ailədə xüsusi şənlik məclisi qurulardı. Müvəffəqiyyətli beçəalma ailədə böyük bayrama səbəb olurdu. Beçəalma zamanı da qədim inanclar sisteminin tərkib hissələri olan metala, torpağa, suya inamın izlərini daşıyan bir sıra magik ayinlər icra edilərdi; Becə arıların yuvanı tərk etməməsi üçün arıçılar arıların yaxınlığında mis qab-qacaq döyəcləyər, daşı daşa vurar, beçənin üstünə su çiləyər, torpaq atar, hətta tüfəng də atardılar. Bununla da "beçəni dardan azad etdiklərinə" inanardılar. Xalq arasında mövcud olan inanca görə beçə dara düşəndə insanlardan yardım istəyir, mis qab cingiltisi , səs-küy isə bəd ruhları dağıdır. Azərbaycanda beçə tutma zamanı qam-şaman ayinləri də icra olunardı. Bu zaman arıya tüstü verərək tütəklə ahəstə hava çalardılar. Beləliklə, qədim ayinlər Azərbaycan əhalisinin arı və balla bağlı inanclarının köklərinin çox dərin qatlara qədər uzanığını göstərir.

Yuxarıda da qeyd etdiyimiz kimi, balla bağlı ayinlər azərbaycanlıların ailə mərasimlərində özünəməxsus yer almışdı. Xüsusilə də, Azərbaycanın qədim arıçılıq mərkəzləri olan Şəki-Zaqatala, Quba, Lənkəran-Astara kimi bölgələrində ailə mərasimləri balsız ötüşməzdi. Qonağı ballı şərbətlə qarşılamaq, mərasimlərdə bal halvası çalmaq, süfrəyə ballı fətir, şirəsinin baldan hazırlandığı paxlavalar, Quba bükməsi, Şamaxı ballı badısı, Zaqatala qurabiyəsi qoyulması, içinə qozla bal qatılan qatlama, qozluburma qoyulması Azərbaycan qonaqpərvərlik etiketinin xarakterik əlamətlərindəndir. Hətta Azərbaycanın Şəki-Zaqatala bölgəsində əziz qonaq üçün açılmış süfrəyə məcməyidə şan balı gətirilər, bunun yanında isə tər xiyar qoyarlar. Xiyarla daha çox bal yemək mümkün olduğu üçün qonağa xiyarın dilimlərini bala batırıb yemək təklif olunar. Qəbələ rayonunun Nic kəndində yaşayan udilər arasında da ailə mərasimlərində ballı halva bişirmək ənənəsi vardı. Ballı halvanı udilər "uçlahalva" adlandırırdılar.(10) Şəkidə ailə mərasimlərində, xüsusilə də qız köçürülən zaman süfrəyə verilən südlü plovla bərabər uzunsov şəkildə kəsilmiş şan balı da qoyulması ənənəsi də var. Buna el arasında "kötük təknəsinin böyrəyi" də deyirlər.

Azərbaycanın Şəki-Zaqatala bölgəsində mövcud olan adətə görə toy günü təzə gəlin ər evinə qədəm basarkən qaynana onu bir kasa balla qarşılayardı. Gəlin də barmağını bala batırıb qapının üst çərçivəsinə sürtərdi. Bu adət Türkiyənin Anadolu bölgəsində də mövcuddur. Bəzən də gəlin ər evinə gətiriləndən sonra qadınlar onun ətrafında dövrə qurub oturardılar. Qaynana xüsusi çörək növlərindən olan yeddi "dastana" və ya "xamralı" gətirərək süfrəyə qoyardı. Məclisdəki qız-gəlin çörəyi bala batırıb yeyər, bununla da gəlinə xeir-bərəkət, bal kimi ömür keçirməyi arzu etmiş olurdular. Şəli-Zaqatala bölgəsində yaşayan etnik qruplardan udilərin XIX əsrdə qeydə alınmış toy mərasimlərində isə bəyin toy hamamında bal qarışdırılmış su ilə çimdirilməsi adəti mövcud idi. (8)

Azərbaycanın Lənkəran-Astara bölgəsində də gəlin gətirilən zaman bir kasa balla qarşılanardı. Lakin bölgədə bu ayin bir qədər fərqli şəkildə icra edilirdi; Gəlin üçün gətirilən balı onun başının üstünə tuturdular, gəlin bal dolu kasanın altından keçirildikdən sonra balı 7 oğlan uşağına yedirərdilər. Bu ayin də gəlinə şirin ömür, çoxlu övlad arzusunu ifadə edirdi.

Azərbaycanın Quba bölgəsində yaşayan xınalıqlar, qrızlar, hapıtlarda isə gəlin özü ilə "gəlin bardağı" adlandırılan qabda ballı şərbət gətirərdi. Gətirdiyi şərbətə barmağını saldıqdan sonra onu məclisdəki qız-gəlinə paylayardılar. Bu mərasimə "Gəlin şərbəti" deyərdilər.

Azərbaycanın arıçılıq təsərrüfatının yayıldığı bir çox dağ kəndlərində bəzən ərə gedən qıza çehiz olaraq bir seçmə arı səbəti də bağışlanması adəti mövcud olmuşdur.

Arıçılıq və bal azərbaycanlıların məişətində, mərasimlərində, adət-ənənlərində, inanclarında yer tutduğu kimi zəngin şifahi xalq ədəbiyyatımızda - bir çox atalar sözləri, zərb-məsəllər, deyimlər, bayatılarda da öz əksini tapmışdır; Bal tutan barmaq yalar", "Bir dolu sağlam pətək, yüz yarımçıq pətəkdən yaxşıdır", "Gəldi ballı gün, yamacda var toy-düyün", "Bal yeyənin gözünə işıq gələr", "Bal da çörək kimidir, zəhmət bahasına başa gəlir", "Sözünü balla kəsim" "Bala baldan şirindir" kimi atalar sözləri və deyimlər, eyni zamanda

Bala dadı bal dadı,
Bala adam aldadı.
Yaxşısına mən qurban
Pisi yenə bal dadı.

və ya

Bağ salıb gül əkməyən,
Gülün yerə tökməyən
Arı qəhrin çəkməyən,
Balın qədrin nə bilər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kimi bir çox bayatılar da xalqın bala, arıçılığa rəğbətini, eyni zamanda balla bağlı adət ənənələrini ifadə edir. Bu gün el arasında bal arıları əməyin, zəhmətkeşliyin rəmzi kimi dəyərləndirildiyi üçün çox işləyən adam üçün "arı kimi çalışqan", fərsiz adam üçün "balsız arı", tutarlı, məntiqli danışan adam üçün "ağzından bal damlayır" ifadələri də işlənməkdədir.

Beləliklə, arıçılıq və onun məhsulu olan balla bağlı adət-ənənələri, inancları araşdırdıqca balın Azərbaycan xalqının məişətində çıx qədim dövrlərdən bəri möhkəm yer tutduğunun və xalqın mənəvi dəyərinə çevrildiyinin şahidi oluruq.

## ƏDƏBİYYAT

1. Bax:Ortaq türk keşmişindən ortaq türk gləcəyinə" IV Uluslararası Folklor Konfransının materialları. Bakı 2006.s.202.
2. Şavrov N.N. "Kavkaz" qəzeti, 1885,N145;
3. Şavrov N.N.Oçerk pçelovodstva v Zakavkazye,"Svod materialov", IV hissə.s.138
4. Strabon. Qeoqrafiya. M,1964.s.481-482
5. Paşayeva M. Azərbaycanın qədim diyarı Xınalıq. Bakı 2006.
6. Narimanov İ.Q. Drevnee svyatilişe (pir) v Kazaxskom rayone pozdnebronzovoqo perioda. DAN Azerb.SSR,XVI,1960,s.208.
7. Əliyev K. Əiiyeva F. Azərbaycan antik dövrdə. Bakı.1997.s78.
8. Bejanov M. Kratkaya svedeniya o s. Vartaşen i eqo jitelyax. SMOMPK 14-cü buraxılış.1892.s.251.
9. Seqal. Elisavetpolskaya quberniya. Tiflis.1902.s.18-19.
10. Cavadov Q. Hüseynov R. Udilər.Bakı.2000.s.120.

**Worships related to honey in Azerbaijan**

Because of beekeeping was taking a great role in Azerbaijani industry it formalized some worships, traditions, rituals and public medicine related to honey.There are many rituals related to honey and beeswax which are performed in marriages, births and funerals. Since old times honey was considered as symbol of sweet life and profit for a new family. Also honey and beeswax were used in funerals.

Stated article was investigated on materials from regions such as: "Sheki-Zagatala" , "Lenkeran-Astara" , "Quba-Hachmaz" which are considered ancient centers of beekeeping.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# NAXÇIVAN MİFLƏRİNİN POETİKASINA DAİR

***F.e.d. Məhərrəm Cəfərli***
*Naxçıvan Dövlət Universiteti*
*Azərbayjan*

Mifləri varlıq aləmini əks etdirən güzgüyə bənzətmək olar. Dünyanın bir çox nəhəng alimləri, o cümlədən görkəmli türk alimləri Bahaəddin Ögəl, Əbdülqadir İnan və başqaları mifologiyanın xalqın ilkin dünyagörüşü olduğunu, mifoloji təsəvvürlər sisteminin dünya haqqında ilkin bilgiləri əks etdirdiyini öz əsərlərində əyani şəkildə açıb göstərmişlər (1, s. 2).

Görkəmli rus mifşünası M.İ. Steblin- Kamenski mifin təbiəti barəsində demişdir ki, «…mifə münasibətdə bir məsələ mübahisəsiz şəkildə məlumdur: mif nə qədər qeyri-həqiqət olmasından asılı olmayaraq, yarandığı və mövcud olduğu yerdə həqiqət kimi qəbul olunan söyləmədir» (8,s.4). Deməк, alimin fikrindən belə bir nəticə çıxardırıq ki, mif öz dövrünün hakim dünyagörüşüdür.

Yaxud məşhur fransız alimi K.Levi-Stros yazır: «…mif nə qədər ki, mif kimi qəbul olunur,o, mif olaraq qalır» (9,s.194). Alimin fikrini təhlil etsək maraqlı nəticəyə gəlmiş olarıq. Demək, K. Levi-Strosa görə, o mətn ki, mif kimi qəbul olunur, o- mifdir. Yəni mifoloji düşüncə çağında həmin mətnlər doğru, düzgün məlumat daşıyan miflər kimi qəbul olunmuşdur. Lakin bizim çağın insanları miflərə doğru-düzgün informasiya daşıyan mətnlər kimi yox, bədii uydurma kimi baxdıqda, onlar artıq mif olmaqdan çıxır. Buradan belə bir nəticəyə gəlmək olur ki, mifin əsas keyfiyyəti inamla bağlıdır.

Hər bir xalqın mifologiyasında dünya fantastik şəkildə təsəvvür olunur. Görkəmli rus mifoloqu Y.M.Meletinski bu barədə göstərir ki,bir sıra kosmoqoniyalarda dünya kosmik insan bədəni kimi təsəvvür edilir. Burada kosmosun müxtəlif hissələrinin insan bədəninin hissələrinə uyğun olması makrokosm və mikrokosmun birliyini bildirir (10,s.212).

Şübhə yoxdur ki, dünyanın başqa mifoloji sistemləri kimi, türk mifologiyası da maddi görünən, duyulanlardan təşəkkül tapmışdır. Bu mənadə türk mifologiyası türk dünyasının, yaşadığı çöllərin, gəzdiyi ormanların, vurub keçdiyi çayların, sahillərinə can atdığı nəhrlərin və s. mifoloji gerçəkliyi, mifoloji tarixidir. Türk mifologiyası mifoloji dünya modeli olmaqla türkün yaşadığı torpağı bütövlükdə modelləşdirmiş, işarələr sisteminə çevirmiş, bu torpağın üzərində mövcud olan bütün gerçəklik obyektlərini türkün dünyası olaraq qavramışdır. Bu baxımdan, türk mifologiyasında mövcud olan hər bir şey onun yaşadığı və yaratdığı tarix olmaqla mifik elementlər vəhdətidir.

Türkün əfsanələri, rəvayətləri, yurdla bağlı deyimləri yurda bağlılığın mifoloji şahidləridir. Bu cəhətdən türkün hər hansı yurdunun söz xəzinəsinə üz tutsan, orada türkün oymaqlarının, onun ana torpağının ulu tarixini görəcəksən. Bu deyilənlər eynilə əfsanə və miflərlə zəngin olan ulu bir torpağa –Naxçıvan torpağına və bu torpağı özündə mifləşdirən mifoloji əfsanə və rəvayətlər dünyasından tarixi gerçəkliyə səsləyən mətnlərə də aiddir.

Zəngin tarixə malik Naxçıvan folklor mətnləri içərisində mifoloji obraz, epizod, motivlərlə bağlı mətnlər çoxdur. Bu mətnlər bütün mənalı elementləri ilə sıx şəkildə Naxçıvan geolandışaftına – Naxçıvan torpağına bağlıdır. Bu baxımdan, həmin mətnlərin nəzərdən keçirilməsi Azərbaycan türk tarixinin Naxçıvanla bağlı əzəmətli keçmişinin öyrənilməsi, ümumiyyətlə, xalqımızın mifik tarixi ilə bağlı tutarlı və dayanıqlı məlumatlar verə bilər. Deyilənləri əyani şəkildə nəzərdən keçirmək yerinə düşərdi.

Mifoloji mətnlərdən birində deyilir: «Lap qabaxlar Allahdan başqa heç kim yoxuymuş. Yer üzü də başdan-ayağa suyumuş. Allah bı suyu lil eliyir.Sora bı lili qurudub torpax eliyir. Sora torpaxdan bitkiləri cücürdir. Onnan sora da torpaxdan palçıx qəyirip insanları yaradır,onlara ruh verir».

Nümunə verdiyimiz mifoloji mətn kosmoqonik prosesi ardıcıllıqla təsvir edir. Burada xaosdan kosmosa keçidin bütün mərhələləri öz əksini tapıb. Lakin bu mifoloji mətndə ən maraqlı detal hər bir mifoloji, o cümlədən, dini şüur üçün səciyyəvi olan tipoloji obrazla əvəzlənməsidir. Yəni mətndəki Allah obrazı əski türk düşüncəsindəki Tanrı obrazının tipoloji adekvatı olmaqla bir-birinə tipoloji laylanma keçirmişdir. Nəticədə, mifoloji mətn Naxçıvan geolandışaftının bütün struktur qatlarının obrazlaşdıra biləcək dərəcədə genişlik əldə etmişdir. Bu mətn xaosdan kosmosa keçidin ümumtipoloji modeli,bu torpaq üzərində yaşayan Naxçıvan türkünün torpaqla bağlı ən uzaq, əslində ,ilkin keçmişindən, yəni mifoloji keçmişindən soraq verən Tanrı-Allah əvəzlənməsinin Naxçıvan türkçülüyünün bu ərazidə sürəkli etnik tarixin fasiləsiz inkişaf stimulunun göstəricisidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Naxçıvan mifoloji mətnlərində Naxçıvan özünün bütün qlobal səciyyəli onomastik vahidləri ilə mifləşib. Məsələn, Naxçıvanda məşhur olan, xalqın etnik yaddaşında özünə yer tutan dağlar Naxçıvan mifik mətnlərində kosmoqonik proseslərlə bağlı anılır. Belə mətnlərin birində deyilir:

«Ələyəzin başı dörd haçadı. Deyirlər ki, Ağrıynan Ələyəz vuruşub, Ağrı güclü olub, vurub Ələyəzin başını parçalayıb».

Bu mifoloji mətndəki Ələyəz və Ağrı dağı onomastik mifik proseslərin qeyri-adi mövcudluğu baxımından diqqət çəkir. Onun adı türk mifologiyasında, o cümlədən Naxçıvan mifoloji mətnlərində Nuhun məşhur gəmisi ilə bağlı xatırlanır. Bunun belə olmağı Ağrı dağının bu torpaqda yaşayan Naxçıvan türklərinin ən ulu yaddaşından baş alıb gəlməsi deməkdir. Maraqlıdır ki, Ağrı dağı təkcə Nuhla bağlı deyil, digər mifoloji mətnlərdə də hallanır. Bu da həmin dağın Naxçıvan türklərinin mifoloji tarixinin struktur elementi, bu torpağın ulu türkçülüyünün ilkin «daşı» olmasını göstərir. Mətnlərdən birində deyilir: «Bir çoban Ağrı dağının ətəyində heyvan otarırmış. Günorta baxır ki, həm özü, həm də sürü suzunnan ölür. Heç yanda da su yoxdur. Allaha yalvarır ki, bırda bir çeşmə yarat, yeddi qoyun Qurban kəsim.

Bir də görür ki, qabağında bir çeşmə yarandı, özü də içir, sürü də içir. Sonra fikirləşir ki, bir sudan yana niyə yeddi heyvanı kəsim, dəli deyiləm ki?!

Qoltuğundan yeddi dənə pit tapır, öldürüp deyir ki, bı da Allahın yeddi qurbanı.

Elə bı dəmdə çoban sürüsüynən bir yerdə daşa çevrilir. Ağrı dağının ətəyindəki daşlar o vaxtdan qalmadı».

Bu mifoloji mətn bir neçə xüsusiyyəti baxımından əlamətdardır. Əvvəla, bir mif mətni kimi tematik baxımdan etioloji miflər sırasında çox ciddi yer və mövqeyə malikdir. Bunlar izahedici mətnlər olmaqla ən əski kosmoqonik təsəvvürlərlə bağlıdır. Onların araşdırılması ilkin kosmoqonik təsəvvürlər ortaya qoymuş olur. İndiki mifdə etioloji izahedici funksiya daşıyır. Naxçıvan türkü üzərində yaşadığı Naxçıvan torpağının hər bir elementini, o cümlədən indiki mifdə olduğu kimi, Ağrı dağının ətəyindəki daşları özünün yurd tarixinə çevirir. Bu tarixləşdirmə yurdun mənalı elementlərini etnik yaddaşda söz-mif şəklində «pasportlaşdırmaqdır». Naxçıvanda yaşayan türklərin etnik yaddaşının öz yurd torpaqları ilə belə «tarixləşməsi» sözügedən mifdən açıq şəkildə boy verir.

Regionun relyef vahidlərinin Naxçıvan mifoloji mətnlərində mifoloji onomastikanın təşkil etməsi səciyyəvi haldır. Bu baxımdan, Naxçıvanda olan irili-xırdalı yurd yerləri, yurd dağları, qayaları və s. Naxçıvanda folklor yaddaşında mühüm yer tutur. Xalq mifologiyası ilə səsləşən Gəlin qayası ilə bağlı bir mətndə deyilir:

«Bir gəlin başını yuyurmuş. Qeyni bını görür. Gəlin utanır. Deyir Allah, məni daş elə. Allah bını daş eliyir. İndi Kərdəni çayının qəyalıqlarında bı daş qalır». Burada gəlinin daşa dönməsi ümumtipoloji motiv olmaqla çox geniş mifoloji mətnləri əhatə edir. Yəni burada Daşa dönən gəlin,qız, yaxud başqası ola bilər. Əsas olan iki cəhətdir. Bunlardan biri budur ki, Kərdəni çayının daşı da bu torpaqda yaşayan etnosun mifik yaddaşının şahididir. İkinci tərəfdən, burada hər daşın, hər qayanın öz tarixi var və bu tarix öz başlanğıcını mifdən, ilkinlikdən,yaddaşın başlanğıcından götürür. Qədim Naxçıvan torpağı türk-islam dünyasının ən ulu adlarını öz folklor, mif yaddaşında saxlamaqdadır. Bu baxımdan Nuh və Xıdır peyğəmbərlərlə bağlı əhvalatlar—mifoloji səciyyəli rəvayətlərlə xarakterikdir. Belə mətnlərdən birində deyilir:

«Culfanın Yaycı kəndindəki pirdə qara daş var,üstündə nal izi. Xıdır peyğəmbər bırdan keçəndə atı ayağını qoyub bı daşın üstünə».

Bu maraqlı mifoloji mətnin xarakterik xüsusiyyətləri və ümdə cəhəti at ayaq izlərinin müqəddəs varlıqlarla bağlı olmasından ibarətdir. Bu motiv bütün türk-islam dünyasında çox geniş yayılmış bir modeldir. Ancaq burada məsələnin indiki halda səciyyəvi cəhəti torpağının üstündə yaşayan etnosun bu torpağı öz sakral dünyası ilə əlaqələndirməsi ilə bağlıdır. Naxçıvan türkləri üzərində yaşadıqları torpağı müqəddəs bilirlər. Ona görə ki, bu torpaq Xıdır peyğəmbərin keçdiyi torpaqdır. Beləliklə, etnos üzərində yaşadığı torpağı müqəddəs sanır, onun ayrı-ayrı hissələrində tapınır və bu tapınma, torpaq müqəddəsliyi etnosun öz şüurundan, etnik yaddaşından, etnik-mənəvi özünəməxsusluğundan irəli gəlir. Deyilən bu cür mifik cəhətlər Xıdırla bağlı başqa mətnlərdə də özünü göstərir. Belə mətnlərdən birində deyilir: «Yeddi qardaş varımış, bir bacı. Bı qardaşlar hər gün gedirlərmiş işdəməyə,bacıları da əvdə qalıp xörəy pişirirmiş, axşam hamısı oturup yeyirmişdər. Bir gün qız əvdə pişirməyə heç zad tapammır. Gedir çöldən pencər yığıp gətirir,pişirir. Axşam qardaşları gəlir, elə pencərrərdən yiyən kimi çönüb hamısı olur qoyun. Qız başdayır başına –gözünə döyüb ağlamağa. Səhərisi də ağlaya-ağlaya bı qoyunları aparır otarmağa. Bir də görür ki, boz atdı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir kişi peyda oldu. Kişi soruşur,qızım,niyə ağlıyırsan? Qız əhvalatı deyir. Heç demiyəsən bı kişi Xıdır peyğəmbər imiş. Ağam qıza deyir ki, sən səsivi çıxartma, mən onları adam eliyəcəm. Ancaq qışqırsan, ta əlac olmayacax. Xıdır peyğəmbər ağam başdıyır çomağnan qoyunnarı vırmağa. Altı qoyun çönüb olur adam. Ancax bir qoyunu vıranda qız dözmiyip qışqırır. Demiyincə bı balaca qardaş imiş. Xırda qardaşın bir tərəfi insan olur bir tərəfi heyvan. Ta hara yetəcək, bı xırda qardaş altı ay qalıb ölür».

Nümunə verdiyimiz bu rəvayət, əsasən, nağıl səciyyəlidir.Daha doğrusu, bacının əli ilə qardaşlarının heyvana dönməsi, daha sonra sehirkar bir qüvvə tərəfindən yenidən adama döndərilmə süjeti nağıllarda geniş yayılmış motivlərdəndir.Burada qoyulmuş yasağın pozulması ilə bağlı epizod da tipoloji səciyyə daşıyır. Belə ki, vəd olunmuş yasağın pozulması ilə süjet «standartdan» çıxaraq yeni şaxəyə meydan verir və yeni inkişafa başlayır. Süjetin belə şaxələnməsi,əslində, nağılçılıq baxımından süjetyaratma vasitəsi rolunu oynayır. Bütün bunları anmaqda məqsədimiz Xıdır peyğəmbər adının Naxçıvan folklor mətnləri ilə sıx bağlılığının və beləliklə xalqın şifahi yaddaşı ilə nə dərəcədə əlaqəli olduğunu göstərməkdən ibarətdir. Göründüyü kimi, Xıdır peyğəmbər Naxçıvan türklərinin folklor yaddaşının səciyyəvi obrazı kimi epik folklorun çeşidli mətnlərində funksiyalaşır.Bu səbəbdən Xıdır obrazının bundan əvvəlki mifoloji mətndə olduğu kimi, toponomik yaddaşla bağlı olması qanunauyğun bir hal olmaqla Naxçıvan ünvanlı torpağın çox əksi bir ənənənin məhsulu olan folklorla zəngin olduğundan soraq verir. Belə dərin qaynayıb qovuşma uzun illərin, əsrlərin məhsulu ola bilərdi. Başqa cür desək, real toponomiya folklor toponomiyasına dərhal daxil ola bilmir. Naxçıvanda yer-yurd adlarının folklor mətnlərinə nüfuz etməsi bu prosesin miniliklərlə bağlı olduğunu nümayiş etdirir.

Həzrəti Nuhla bağlı əldə edilmiş mif mətnlərindən birində deyilir ki, Allahdan gələn vəhylə Nuh peyğəmbər insanlara güclü tufan olacağı və hər yeri su alacağı haqda xəbər verir. Nuh peyğəmbər bir gəmi qayırır və bütün canlılardan bir cüt qoyur həmin gəmiyə. Çox keçmir ki, dünyanın üzünü su alır. İnsanlar boğulub ölürlər. Tufan dayanır,Nuh peyğəmbərin oğlanlarından olan Türk adlı birisi atasının məsləhəti ilə qoyunla qoç götürüb bir çəzirəyə düşür. Hər tərəf su olduğundan Türk adadan çıxa bilmir. Günlərin bir günü Türk görür ki, bir heyvanı parçalayıb yeyiblər. Öz-özünə fikirləşir ki, axı bu çəzirədə qoyundan başqa heç bir heyvan yoxdur. Bəs bunu nə yeyib? Türk çox təəccüblənir. Gecəni yatmır və güdür. Bir də baxır ki, uzaqdan suyun içilə bir qaraltı gəlir. Qaraltı yaxınlaşanda Türk görür ki, bu boz rəngli bir qurddur. Qurd adaya çıxan kimi cumur bir heyvanın üstünə, Türk bu yandan çıxır qurdun qabağına. Boz qurd onu görən kimi, başlayır gəldiyi yolla qayıtmağa, Türk də düşür bunun arxasına. Xeyli gedirlər. Türk baxır ki, qurdun getdiyi yerlərdə su heç topuğa qədər də qalxmır. Bir az gedəndən sonra quruya çıxırlar. Bununla da Türk xilas olur. Həmin yolla qayıdıb adaya gəlir. Buradakı heyvanları da həmin yolla sudan keçirib quruya çıxarır. Türk fikirləşir ki, bu boz qurd məni xilas elədi. Gərək mən də onun şəklini çəkəm bayrağıma. Belə də edir. Sonra Türkün nəsli çoxalanda o nəslinə deyir ki, boz qurd bizim xilaskarımızdır. Əgər o yol göstərməsə idi, nə mən olardım,nə də siz. Ona görə də gərək həmişə Boz qurda inanasınız. Onun şəklini bayrağınıza çəkəsiniz. Çətinə düşəndə onu çağırarsınız».

Bu mifoloji mətn bizə çox maraqlı material verir. Əvvəla, qeyd etmək lazımdır ki, ayrı-ayrı mifoloji mətnlər bütün süjet-mövzu fərqlərinə baxmayaraq eyni bir silsilə ətrafında mərkəzləşir. Yəni bu süjetlər türk mifoloji sisteminə daxil olan və vahid türk mifi ətrafında cəmləşən miflərdir. Bu cəhətdən bir mətndə Nuhun Gəmiqaya ilə bağlanması ayrı-ayrı hadisələr kimi qavranmalıdır. Bunlar bir regionda qeydə alınmış eyni epik silsilənin həlqələridir. Və mətnlər bir-biri ilə eyni yolla həlqələnir. Məsələyə bu mövqedən yanaşdıqda maraqlı cəhətlər görünür.

Həzrəti Nuhun tufanı ilə bağlı mif dünya xalqların folklorunda çox geniş yayılmışdır. Onun türk mifoloji mətnlərinə daxil olmasının poetexniki prosesi indiki halda bizim üçün maraqlı deyil. Əsas olan odur ki, türk mifologiyası inkişaf etmiş, tarixən normal funksionallaşma keçirmiş, şüur düzəni kimi Nuh obrazını da «özününkülәşdirmişdir». Nuh və Türk obrazlarının bir mətn çevrəsində mövcudluğuna baxmayaraq yuxarıdakı mifoloji mətndə Nuh və Türklə bağlı müstəqil süjetlərin bir-birinə calanması (kontaminasiyası)aydın boy verir. İkinci tərəfdən Türk Boz qurd obrazı ilə bağlı kontekstə salınır. Bu, təsadüfü deyil. Hər iki obraz türk mifologiyasının ağır yüklü obrazlarındandır və bunların eyni mətn içərisində funksionallaşma keçmələri tam təbiidir. Beləliklə, bir mətn çevrəsində Nuh, Türk və Boz qurq obrazları eyni sırada dururlar. Nuh obrazının Gəmiqaya ilə bağlanması bu sıraya sakral toponomik məkan kimi onu da əlavə etməyə imkan verir.

Beləliklə, ulu Naxçıvanın ulu keçmişi olan Gəmiqaya dağ adının türk, islam mifologiyası ilə əlaqələnməsi bu torpaqda yaşayan etnosun şüurundakı xronotop/ məkan-zaman/ parametrlərinin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çox əskiliyindən soraq verir. Etnos Gəmiqayanın orta əsrlər, yaxud yaxın keçmişin əlaqədar hadisələri ilə yox, məhz ilkinliklə,mifoloji keçmişlə bağlayır. Bu isə təsadüfü olmayıb, Naxçıvanda yaşayan türk etnosunun bu torpaqdakı ulu keçmişinə şəhadət verir. Etnik tarixin bu torpaqda uzun bir prosesi gerçəkləşdirməsi, burada insanların şüurunda bu torpaqla bağlı çox əzəmətli bir tarix «arxetipinin»olması buranın insanlarını öz yurdlarına, tarixi keçmişlərinə bütün hallarda ululuq prizmasından baxmağa çağırmışdır.

**ƏDƏBİYYAT**


**1.** Bahaeddin Ögel. Türk mitolojisi. Ankara –2002
**2.** Abdulkadir İnan. Tarihde ve bugün şamanizm. Ankara-2000
**3.** Azərbaycan mifoloji mətnləri.tərtibçi A.Acalov, B.,1988
**4.** Azərbaycan folklor antologiyası. I kitab, Naxçıvan folkloru,B.,1994
**5.** Yol gələr Ordubada. Ön sözün müəllifləri və toplayanlar: Məhərrəm Cəfərli,Rafiq Babayev. Naxçıvan ,2005
**6.** Naxçıvan hikmət xəzinəsindən. Toplayıb yazıya alanlar və tərtib edənləri: Adil Bağırov, Kamilə Bağırova, Bəxtiyar Məmmədov. B.,2005
**7.** Xalq yaddaşının izləri. Toplayıb nəşrə hazırlayan Məhsəti İsmayıl. B.,2005
**8.** M. İ. Steblin-Kamenskiy. Mif. L ., 1976
**9.** Levi-Stros K. Strukturnaə antropoloqiə.M.,1985
**10.** Meletinskiy E.M. pogtika mifa. M .,1976


XÜLASƏ

«Naxçıvan miflərinin poetikasına dair» adlı məqalənin ən böyük əhəmiyyəti ilk növbədə onun Naxçıvan miflərinin poetik özünəməxsusluğunun öyrənilməsindədir. Tədqiqatda bir tərəfdən regionun mif materialları sistemli tədqiqə cəlb edilmiş, o biri tərəfdən onlarda tədqiq olunan mifoloji informasiya sistemləşdirilərək Azərbaycan-türk mifoloji dünya modelinin bərpasına yönəldilmişdir.

**РЕЗЮМЕ**

В статье «К поэтике мифов Нахчывана» изучаются поэтические своеобразия Нахчыванских мифов. В ней, с одной стороны, мифические материалы исследуются системно, с другой стороны, полученные мифологические информации направлены на восстановление модели мира азербайджанских тюрков.

**ABSTRACT**

About the poetic of the Nakhchivan myths

The great importance of the article «About the poetics of the Nakhchivan myths» is first of all an studying poetics of the myths of Nakhchivan. İn the investigation from one side the systematically investigating of the myths in region is studied. From the other side the mythological information is sistematized and directed to the rebuilding of the Azerbaijan-Turk mythological world model.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ƏFSANƏLƏRDƏ ƏJDAHA MOTİVİ

***Məhsəti İsmayıl***
***AMEA Naxçıvan Bölməsi İncəsənət,***
***Dil və Ədəbiyyat İnstitutu***
***Azərbaycan***

Əjdaha, əjdahaya çevrilmə, əjdahadan insana dönmə, əjdahanın daşa dönməsi, əjdahaların dağlarda, qayalıqlarda yaşaması əfsanələrdə ayrıca bir mövzudur. Nağıllarda əjdaha suyun qabağını kəsir, hər gün bir gözəl qız yeyir. Yalnız cəsur bir igid əjdahanı öldürürdükdən sonra xalqın canı zülümdən qurtulur. Əfsanələrdə isə bu qorxunc surət əsasən daşa dönür. Belə daşa dönmələr əsasən qarğış və bəddualarla baş verir. Şərurun Aşağı Yaycı kənd sakini Zeynalova Pəri Allahverdi qızının «Əjdaha burnu» adlanan yerlə bağlı söylədiyi əfsanənin mövzusu daşa çevrilmə ilə bağlı olub əski dünyagörüşü, ictimai baxışı orijinal şəkildə ifadə edir. «Əjdaha burnu» əfsanəsinə görə, sevgilisini su aparan oğlan əjdahaya dönür. Daş olmuş əjdaha axşamlar qaranlıqda həsrətlə sulara baxır. Günəş çıxanda qorxur və qayalarda görünməz olur. Bu əfsanənin digər çap olunmuş variantına görə, Arpa çayının sahilində bir kişi yaşayırmış. Bunun gözəl bir qızı varmış. Qız çayın sahilində sevgilisi ilə görüşəndə ona aşiq olmuş əjdaha qəzəblənir. Sevgililəri kamına çəkmək istəyir. İşi belə görən qızın atası üzünü göylərə tutub allaha yalvarır. Beləliklə əjdaha daşa dönür (9, s. 102-103). Əjdaha və su həm nağıllarda, həm də əfsanələrdə eyni motiv üzərində verilir. Əfsanə və nağıllarda əjdaha bilavasitə su stixiyasının təmsilçisidir. Yolu kəsən mənfi əjdaha tipi də bu obrazı tamamlayır. Onun nəhəng görkəmi olduğu yerdə daşlaşsa da, yenə də qorxunc görünür. Dastanlarda da əjdaha amansız və qorxuncdur. Özbək və xəzər xanlarının soy tarixlərində- «Xan-namə»də Toxtamış xan ölüncə yerinə on beş yaşlı oğlu keçir. Bir gün tufan qopur. Xan vəziri Ulug Arslanla birlikdə özünü bir dağın üstündə görür... Bulaqdan su içib yatırlar. Bu zaman mağaradan bir əjdaha çıxır və xanı udur (12, s. 398-399). Bu süjetdə mağara yeraltı dünyanı və ölümü ifadə edir. Dastanda xanın ölümü mifik süjetlə səciyələndirilir. Əjdaha daş, Əjdaha burnu və sair kimi yer adları ilə bağlı söylənən əfsanələrdə köç yolları üstündə durub adamları udan əjdaha ağzı dualı bir nəfər tərəfindən qarğanınca daşa çevrilir. Azərbaycan və Anadolu nağıllarındakı əjdaha ağacda yuva bağlayan quşun balalarını yeyir. Həmçinin Orta Asiya, Buryat inanclarında həyat ağacının altında məhz ilan gözətçidir. Əjdaha ilə bağlı miflərdə deyilir: «Zaman ile yılanlar, evren olur». Məlum olduğu kimi, XIV yüzillikdə yeddi yaxud 17 başlı əjdahalar haqqında əfsanələr olmuşdur (13, s. 568).

Əjdaha türk mifologiyasında əsas yer tutan heyvanlardan biridir. O, illik təqvimdə on iki heyvanın beşincisidir. Mənbələrdə Acıdaar (kırğız), Ajdakar, Aizdahar (Taran) adları ilə yanaşı əski türkcədə «yel buke» adı da keçmişdir. Əjdahanın bu adla ifadəsinə Mahmud Kaşğarlıda rast gəlinir: «Ejderha, böyük yılan- «Yedi başlı Yel Büke» Yeti başlığ yil büke» (13, s. 567). Türklər böyük ilana əjdaha deyirlər. İnama görə xalq arasında çox yaşayan ilanlar insana çevrilir (11, s. 10). Büke- əjdaha böyük ilana verilən addır. «Divani lüğət-i türk»də «yeti başlığ yil büke»= Yeddi başlı əjdaha ifadəsi vardır (8, s. 227). Bütün türk nağıllarında əjdahanın insana çevrilməsi, daha çox qız donuna girməsi motivi qalmışdır. Nağılların birində bir əjdaha insan donuna girmiş ilanı qovur, yaxud ilan donunda insanı bir igid xilas edərək əjdahanı öldürür. İlan isə igidə sehirli bir daş hədiyyə edir (13, s. 268). Rəvayətə görə Tanrı dağlarının çevrəsində əjdaha gölü varmış. Ən yaxşı cins atlar da bu əjdahaların atlarla birləşməsindən törənərmiş. Bahaəddin Ögəl bunu tam türk və Orta Asiya ənənəsi adlandırmışdır (13, s. 569).

Bahaəddin Ögəlin verdiyi məlumata görə, Hacı Bektaş, qapısını bərkidib, içəridə evrən donunu geyinib, başını qapıdan yana qoyub yatdı (13, s. 569). Fikrimizcə Hacı Bektaşın evrən donu geyməsi onun mənəvi nəhəngliyi, qorxmazlığı ilə əlaqələndirilməlidir.

Məlum olduğu kimi, yel sözü həm də külək mənasında işlənir. Bahaəddin Ögəl yel-in cin demək olduğunu div mənasında işlənən «yelbegen» sözünün kökünü buradan aldığını qeyd edir (13, s. 567). Mirəli Seyidov yel sözünün «pis ruh», demonik varlıq mənası ilə ifadə olunduğu fikrini demişdir (15, s. 20). «Divani lüğəti türk»də belə bir ifadə var (7, s. 4). Oglanığ yel kapdı= çocuğa yel dokundu (çocuğa cin yeli dokundu). Həmin mənbədə Yelpik-cin çarpması, yel çarpması, yele uğraması, erge yelpik tegdi = adama yel toxundu. (8, s. 46) Yel yıgacığ yaydı=yel ağacı salladı (8, s. 247) Həmçinin Büke, Buqa, baqa sözlərinin igid, qəhrəman, batır mənaları vardır (16, s. 391-392). «Divani- lüğət-i türk» əsərində qəhrəmanın Büke Budraç adı daşıması buna misal ola bilər (13, s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

567). Sənət nümunələri üzərindəki təsvirlər insanların mifoloji dünyagörüşünün əksidir. IX – X yüzilliklərə aid edilən bir freskada göldə əjdaha təsvir edilmişdir. Təsvirdə əjdahanın bədəninin yalnız bir hissəsi görünür. Ağ tüklü boynu, qoşa buynuzlu başı, balaca qanadları və vəhşi baxışları mifoloji təsəvvürdəki görüntünü xatırladır (2, s. 20-21). Səlcuqilər dövrünə aid Konya İncə minarəli mədrəsə muzeyində daş üzərində fiqurlu, bədəni düyünlü, qanadlı, quyruğu əjdaha başı kimi sonlanan əjdaha qabartması var. Bu qabartma bir vaxtlar Konya qalasında mövcud olmuşdur (2, s. 312). Konya Səlcuqlu sarayını başdan-başa bəzəyən təsvirlərin hərəkətliliyi bu baxımdan maraqlıdır. Əfsanəvi heyvanlar və qanadlı əjdaha, əjdahanı öldürən atlı təsvirləri əski türk sənətinin zənginliyini göz önündə sərgiləyir (2, s. 313). XIII yüzilliyə aid edilən başqa bir Səlcuqlu mədəniyyət nümunəsində güzgüdə işlənmiş nəfis təsvirdə əlində doğan (qızılquş) tutan süvari, ov iti, ov tülküsü, uçan vəhşi ördək və ata hücum edən ilan-əjdaha kompozisiyası əks olunmuşdur (2, s. 338).

1890-cı ildə Romada Berlin muzeyi üçün alınmış, XV yüzilliyə aid bir Anadolu xalısı üzərində əjdaha ilə zümrüd quşunun döyüş səhnəsi təsvir edilmişdir. (2, s. 350). Övliya Çələbinin Türkiyədə qeydə aldığı bir əfsanənin süjeti ümumtürk əfsanələrində və nağıllarında olan süjetin eynidir: Dağlarda yaşayan yeddi başlı əjdaha hər axşam qaranlıq çökəndə şəhərin divarlarını aşıb içəriyə girər və bir qız alıb apararmış. Xalq çox düşünüb daşınandan sonra şəhərin ətrafında dərin xəndəklər qazırlar. Hər axşam çayın suyunu bura ötürürlər. Əjdaha sudan qorxduğundan şəhərə yaxın düşmür (10, s. 33). Şərurdan topladığımız əfsanədə isə əjdaha axşamlar dərin sulara həsrətlə baxarmış və sevgilisini xatırlayarmış.

«İlan qız» nağılına görə oğlan dağlıq yolla gedəndə qayanın qarşısında gözəl bir qız görür və gözəlliyinə valeh olub evinə gətirir. Oğlan bu qızla evlənir. Bu şəhərə bir tacir gəlir. Gözəl parçalar satır. Oğlan parçadan bir paltarlıq alıb arvadına hədiyyə gətirir. Qız parçanı bəyənmir ki, bu Qaf dağının otundandı tez xarab olar. Tacir bu sözləri eşidən kimi oğlana arvadının ilan olduğunu söyləyir. Oğlan tacirin ağıllı məsləhəti ilə yoxlayır ki, həqiqətən də arvadı nəhəng bir əjdaha, ilandı (11, s. 59). Naxçıvandan toplanmış mifdə deyilir ki, bir ilan 300 il yaşayır sonra dönüb qız olur. İlan qızla evlənən bütün cavanlar da ölürmüş (11, s. 10). Göründüyü kimi, ilan və əjdaha tam mənada xaosu təmsil edir. İnsan həyatına şər və qaranlığı əjdaha gətirir. Bu isə ölümdür. Yeraltı dünyasının sakini sayılan ilanın insana qarşı xeyirxahlığı motivini isə «Odunçu qızı» nağılında görmək mümkündür. İlan donuna girmiş div oğlu qıza aşiq olur (11, s. 67). «İlanın nağılı»nda isə əksinə ilan varlı bir kişinin oğlunu dilənməyə məcbur etdikdən sonra atasına artıq sənə layiq olmaqdan çıxdı deyərək öldürür (11, s. 53-54). İlan bu nağılda bilavasitə ölümü ifadə etməkdədir. Folklor nümunələrinin araşdırılması əjdaha və ilan obrazları arasında müəyyən semantik yaxınlıq olduğunu deməyə imkan verir.

Mifə görə yaylaq vaxtı el dağa köçür, yurd qurur. Bu vaxtı yel əsir, yağış yağır, boran olur. Camaat baxır ki, göydən boynu zəncirlənmiş bir əjdaha endi. Adamlar tez gətirib öküz qurban kəsirlər. Əjdaha bir cavana onu izləməyi tapşırır. Ağrı dağına çatanda əjdaha fit çalır. Ağrı dağından bir əjdaha enib gəlir. Bunlar vuruşurlar. Ağrı dağının əjdahası güclü olduğundan oğlan zəncirli əjdahaya kömək etməliymiş. İgid qılıncını çəkib Ağrı dağının əjdahasını öldürür. Bu yaxşılığa qarşılıq əjdaha oğlanı zağasına aparıb ona qızıl verir (4, s. 39-40). Burada əjdaha boranla göydən-Tanrı məkanından gəlir. İnsanoğluna qızılı- dünya malını yaxşılığı müqabilində verir. Yel, boran əjdahanın gücünü bildirir. Ağrı dağının əjdahasının gücünə qarşılıq alp-igid seçilir.

Bu mövzu Azərbaycan xalq nağılları üçün də xarakterikdir. «Məlikməmməd»in nağılında Məlikməmməd qaranlıq dünyada Zümrüd quşunun balalarını əjdahadan xilas edir. Zümrüd quşu xeyirxahlığı və işığı –işıqlı dünyanı, əjdaha yeraltı dünyasını, qaranlığı bildirir. İlanın ikili xarakteri buradan daha aydın görünür. «Ovçu Əhməd» nağılında suyun qarşısını kəsən əjdaha 40 başlıdı (1, s. 34). Mifologiyada gücü, nəhəngliyi adi insandan fərqli olan mədəni qəhrəmanlar və qorxunc görüntülü heyvanlar, sehirli təbiət hadisələri, sirri bilinməyən qorxunc xəstəliklər, ölümlə qarşı-qarşıya təsvir edilmişdir.

Azərbaycan miflərində Günəş və əjdaha qarşıdurması Günəş tutulması kimi təbii prosesin mifoloji izahı kimi əks olunmuşdur. İnsanlar tək və boğulmaqda olan Günəşə kömək edirlər (3, s. 38). Bu epizodda dünyanın üçqatlı quruluşu ilə bağlı mifoloji təsəvvürlər əks olunmuşdur. Günəş göyü, əjdaha yeraltı dünyanı, insanlar isə orta dünyanı, yəni məskunlaşan mədəni məkanı əks etdirir. Vəli Baxşəliyev eneolit dövrünün boyalı qabları üzərindəki şüaşəkilli naxışın günəş kultu ilə bağlı olduğunu bu inancların isə e.ə. VI-IV minilliklərdə formalaşdığını yazır (6, s. 29). Seyfəddin Rzasoyun fikrincə türklərin etnik özünütanımalarında Günəş simvolu əsas etnopsixoloji işarələrdən olmuşdur (14, s. 152). Şumerlərdə Günəş-Utu mifik ağacı qıran əcayibə qalib gəlir. Həmçinin Günəş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dünyanın dörd tərəfinə yürüş edib onu tutur. Qədim Misirdə Günəş baş Tanrı, tək bir hakim kimi təsəvvür edilmişdir (17, s. 34). Günəşə inam Tunc və Erkən Dəmir dövründə Naxçıvanda yaşayan tayfalar arasında geniş yayılmışdır (5, s. 62).

Lakin araşdırmalar göstərir ki, əjdaha motivli əfsanələrdə dünyanın mifoloji quruluşu başlıca olaraq ikili müxalifət halında təsvir edilmişdir. Əfsanələrin digər folklor nümunələri ilə müqayisəli şəkildə araşdırılması göstərir ki, Azərbaycan türklərinin təfəkküründə mifoloji dünyanın quruluşu üçqatlı şəkildə düşünülmüşdür. Dünyanın mifoloji quruluşu ilə bağlı təsəvvürlər Naxçıvanda yayılan digər əfsanələrdə də müəyyən dərəcədə əks olunmuşdur. Araşdırmalara əsasən deyə bilərik ki, xalqımızın təfəkküründə dünyanın mifoloji quruluşu ilə bağlı təsəvvürlər olduqca müxtəlif olmuşdur. Azərbaycan folklorunda bu struktur adətən Göy-Yer-O bir dünya şəklində verilir. Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan əfsanələrinin bir çoxunda dünyanın mifoloji quruluşu ikili formada-Bu dünya və O biri dünya formulu ilə ifdə olunur. O biri dünya bəzən yerin altında, bəzən göydə, bəzən isə insanların yaşadığı mədəni məkanın ətrafında təsəvvür edilir. Bu motiv dağa və daşa çerilmələrlə bağlı əfsanələrdə də ifadə olunmuşdur. İnsanların dağa, daşa, ağaca çevrilməsi onların dünyasını dəyişməsi, əbədiyyətə qovuşması kimi düşünülmüşdür.

## ƏDƏBİYYAT

1. Arpaçay köylerinden derlemeler. S.Olcay, A.B.Ercilasun, E.Aslan. Ankara: Türk Dil Kurumu, 1998, 398 s.
2. Aslanapa O. Türk sanatı. İstanbul: Remzi Kitabevi, 1997, 454 s.
3. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988, 196 s.
4. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 388 s.
5. Baxşəliyev V. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
6. Baxşəiyev V. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
7. Divanü lüğat-it –türk tercümesi. (çeviren: B.Atalay), II cilt, Ankara: TTKB, 1985, 366 s.
8. Divanü lüğat-it –türk tercümesi. (çeviren: B.Atalay), III cilt, Ankara: TTKB, 1985, 452 s.
9. Əfsanələr. Bakı: Gənclik, 1986, 176 s.
10. Hatəmi M. Türk xalqları folklorunda əjdaha surətinin rəmzləri. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, Dil və İncəsənət seriyası, 1969, № 2, s. 32-41
11. Xalq yaddaşının izləri. (toplayan və tərtib edən M.İsmayıl) Bakı: Elm, 2005, 144 s.
12. Ögel B. Türk mitolojisi. I cilt, Ankara: TTKB, 1993, 644 s.
13. Ögel B. Türk mitolojisi. II cilt, Ankara: TTKB, 2002, 610 s.
14. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, 200 s.
15. Seyidov M. Xalçalarımızdakı əjdaha motivinin mifoloji kökləri. Elm və həyat, 1984, № 3, s. 20-23
16. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
17. Seyidov M. Günəş mifi. Elm və həyat, 1983, № 2, s. 32-34



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRKİYE'YE GÖÇ EDEN AHISKA TÜRKLERİNİN EVLİLİK ADETLERİNDE GÖRÜLEN KÜLTÜR DEĞİŞMELERİ

***Dr. Minara Aliyeva Esen***
***Uludağ Üniversitesi Eğitim Fakültesi***
***Türkiyə***

İnsanın doğumundan ölümüne kadar geçen sürede yaşamını etkileyen bazı dönemler vardır. Bu dönemlerde kişi, alıştığı ortamdan çok farklı bir ortama geçer. kişinin yaşamını etkileyen bu geçiş sürecinde, geçişi kolaylaştırmak, yeni ortama rahat adapte olabilmesini sağlamak için bazı gelenek, törenler vardır. Evlilik de insan hayatındaki önemli dönemlerden biridir. Evliliği "bir kadınla bir erkeğin birbirini severek, anlaşarak veya ailelerinin istekleri sonucu birleşerek yeni bir aile oluşturması" diye tanımlayabiliriz. Gençlerin yeni yaşamlarına alışmasını sağlamak, geçişi kolaylaştırmak için evlilik törenlerinin öncesinde ve sonrasında çeşitli pratikler vardır. Ve bu pratikler zaman zaman maddi olanaklara göre, ortama göre değişebilmektedir.[189]

Burada biz, Ahıska Türklerinde geçen evlilik olayları etrafında oluşan adetlerin günümüzdeki geçerliliğini ve Türkiye'ye göç eden Ahıska Türklerinde görülen evlilik adetlerindeki değişmeleri irdelemeye çalışacağız.

Evlilik mukaddes ve önemli bir hadisedir. Bu bakımdan tarafların eş seçmede çok dikkatli olacağı tabiidir. Elbette tarih içerisinde ve günümüzde eş seçiminde tesir eden pek çok tercih noktası vardır. Özellikle soy, sop, aile kültür seviyesi, maddi durum, dini inanç vb. ölçüler eş seçiminde rol oynar.[190] Ahıska Türklerinde eskiden beri eş seçme olayı genellikle görücü usulü ile gerçekleşmektedir. Bu gelenek, Türkiye'de yaşayan Ahıskalılarda büyük ölçüde görülmektedir. Ancak gençlerin kendi aralarında anlaşarak ve elbetteki ebeveynlerin onayını alarak yapılan evlilikler de görülmüyor değildir, hatta gittikçe daha da artmaktadır.

Ahıskalılarda ailenin onayını almadan evlenme şeklinde ortaya çıkan ve zaman zaman birtakım problemler doğuran daha başka eş seçme yolu da vardır. Bu da kız kaçırmadır. Kaçırma olayı iki türlüdür. Birincisi, genç ile kızın anlaşarak kızın evden kaçmasıdır. İkincisi ise ailenin istemediği gence vermemesi üzerine kızın zorla kaçırılmasıdır. Türkiye'de yaşayan Ahıskalıların arasında kız kaçırma olayı hemen hemen görülmemektedir.

Ahıskalıların adetlerine göre kızı istemek için kız tarafına üç kez elçi gönderilir. Eğer ev sahibi kızlarını vermek istemezlerse *"Bizim kızımız hala küçüktür."* derler. Şayet razı olurlarsa illa ki kız tarafı *"Biz bir emmilerine ve tayılarına sorah."* diyerek ikramda bulunmadan elçilere bir kez daha gelmeleri için fırsat tanırlar. Gelenlerin arasında oğlanın vekili ile babası ve yakın olan dayıları ve amcaları gelir. Kızın da aynı şekilde bir vekili ile yakınları bulunur. Fakat Türkiye'de kız isteme olayında anne, baba ve oğlanın kendisinin bulunması adeti yavaş yavaş Ahıskalı Türklerin adetlerine de yerleşmektedir. Ancak Ahıskalılarda kızın istenmesi babaya düşmediği için bu gelenek onlarla birlikte gelen bir erkek tarafından gerçekleştirilir. Gelenlerin arasında olan oğlan vekili münasip bir dille kızı istemeye geldiklerini bildirir ve kızı şu sözlerle ister: *"Allahın emriynen Peygamberimizin kavliynen İslamın şeriyatıynan burda oturan camaatın şaadatlığıynan falan kişi (isim söylenir)nin kızı (isim söylenir)nı, falan kişi (isim söylenir)nin oğlu (isim söylenir)na istiyeruh"*. Bu sözler üç kez tekrarlanır. Kız vekili ise *"Allahın emriynen Peygamberimizin kavliynen İslamın şeriyatıynan burda oturan camaatın şaadatlığıynan falan kişi (isim söylenir)nin kızı (isim söylenir)nı, falan kişi (isim söylenir)nin oğlu (isim söylenir)na verduh."* cevabını vererek kızı verdiklerini dile getirir. Bu sözler aynı şekilde üç kez tekrarlanır. Bu durumda oğlanın babası bir altın yüzük çıkarır ve kıza takılmak üzere bu yüzük kız tarafına verilir. Eskiden beri takılan yüzüğün yerine, Türkiye'de yaşayan Türklerde görülen bilezik takma adeti de Ahıskalılarda yavaş yavaş ağırlığını kazanmaktadır. Söz kesildikten sonra şerbetler içilir, iyi dileklerde bulunulur ve yemekler yeyilir. Yemekten sonra başlık konusuna geçilir. Başlık, evlilik çağı gelen genç kız ailelerinin kızlarına söz kesmeden önce, erkek ailesinden istedikleri maddi karşılıktır. Ahıska Türklerinde bu gelenek daha çok

---

[189] Aysu Aksu, Diyarbakır Düğünleri, Milli Folklor – Türk Dünyası Folklor Dergisi, Cilt 5, Yıl 9, Sayı 34 – Güz, Ankara 1997, s. 72.

[190] Nezihe Araz, Umay Günay, Nail Tan, Kamil Toygar, Enis Öksüz, Bilge Seyidoğlu, *21. Yüzyılın Eşiğinde Örf ve Adetlerimiz (Türk Töresi)*, Türk Kültürüne Hizmet Vakfı, İstanbul, 1994, s. 38.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kırsal kesimlerde görülür.[191] Ancak Türkiye'de yaşayan Ahıskalılarda bu gelenek, hayat şartlarının ağırlaşmasıyla yavaş yavaş ortadan kalkmaktadır. Aileler başlıkta anlaştıktan sonra düğünden önce yapılması gereken diğer adetlerden bahsedilir. Adetlerden *"bey"* ile *"yohlama"* Ahıska Türklerinde dedikleri nişan günüdür. Bu adetin gerçekleşmesi için mesafeyi fazla açmadan bir gün belirlenir.Ahıska Türklerinde *"bey"*, oğlan tarafından gelenlerin kıza getirilen hediyelerin ve kız tarafından oğlana verilecek olan hediyelerin takdim edilmesidir. Bey adeti, genellikle akşam saatlerinde yapılır ve bu gelenek sona erdikten sonra erkekler o evden ayrılır, geride kalan kadınlar yatsıya kalır ve ertesi gün *"yohlama"* dediğimiz merasim gerçekleştirilir.[192] *"Yohlama"*, oğlan tarafından gelen yakınlarının, yani kadınların ayrı ayrı getirdikleri hediyelerin takdim edilmesidir. Bu gelenek öğle vakitlerine yakın bir zamanda gerçekleşir. Daha evvel bu iki gelenek ayrı ayrı tarihlerde yapılırdı. Ancak son zamanlarda ikisi de bir arada gerçekleşmektedir. Türkiye'de yaşayan Ahıskalıların arasında oğlan evinin mesafe bakımından uzak bulunmasından dolayı bu adet, düğün günü bile yapılmaktadır.

Bu arada oğlan evinden gelen hediyelerin arasında kına da bulunmalıdır. Kına, ezilmek üzere gelinin kız kardeşine, yoksa analı babalı bir kıza verilir. *"Yohlama"* töreni bittikten sonra gelinin parmakları kınaya batırtılır, ardından kına yakmak isteyenlere de uzatılır. Ancak, son zamanlarda Türkiye'de görülen kına geceleri, Ahıskalılar tarafından fazlasıyla benimsenmekte ve kız düğünü şeklinde algılanarak salonlarda kutlanmaktadır.

Düğün günü oğlanın evinden davul ile zurnanın eşliğinde gelini almaya gidenler arabalara biner. Gelin arabasının ön koltuğunda gelinin kaynatası, arka koltukta ise oğlanın yengesi yer alır. Ahıska Türklerinde gelini almaya gidenlerin arasında damat bulunmaz. Damat, gelini evinde bekler. Fakat son zamanlarda Türkiye'de ikamet eden Ahıskalılar gelini damatla birlikte almaya gitmektedirler.

Gelinin evine vardıktan sonra gelin evine girmeden evin önünde davul ile zurna eşliğinde gençler bir müddet oynar. Daha sonra içeri girilir. Misafirlere şerbet ikram edilir. Ardından sıcak yemekler yeyilir. Yemek esnasında başka odada gelin hazırlanır. Gelini almaya gelenler tarafından getirilen gelinlik giyildikten sonra kız evinden bir kadın, geline geleneksel papağı[193] takar leçeği[194] ile papağın üstünden geçirerek gelinin sadece yüzü açık bırakılacak şekilde, çene ve boyun kısmını örter. Yüzünü kapatacak şekilde üstüne kırmızı örtü atılır, ellerinin görülmemesi için gelinin ellerine işlenmiş el marabası verilir. Bu gelenek Türkiye'de de devam etmektedir. Ancak, Türkiye'de ikamet eden bazı Ahıskalılar bu geleneğin dışına çıkarak duvaklı gelinliği tercih etmektedirler.

Oğlanın evine varınca gelin, evinin girişinde kurban kesilmeden arabadan inmez. Kurban kesildikten sonra gelin arabadan iner ve akıtılan kanın üzerinden geçer. Geçerken bir tarafta saklanan damat gelinin üzerine hazırladığı parayı, şekerleri evimize bolluk, bereket getirsin niyetiyle üzerinden serper ve oradan uzaklaşır.

Gelin evin eşiğinden adımını atmadan evvel bir kapta getirilen bala sağ elini bular ve eşiğin üst kısmına balı sürter. Bunu üç kez yapar. Daha sonra besmele çekerek ve sağ ayağıyla adımını atarak içeri girer. Gelin götürülen odanın bir köşesine diktirilir. Bu arada kaynanası gelir, geline bir altın yüzük takar, örtülü olan yüzünü açar ve gelinini öper. Bu adetlerin hepsi genel olarak gerçekleştirilir. Ancak Türkiye'de ikamet eden Ahıskalıların büyük bir kısmı maddi açıdan sıkıntıda oldukları için bazı aileler, koyun kesme ve yüzük takma adetini gerçekleştirememektedir.

Kırsal kesimlerde düğün evin bahçesinde yapılır. Bu mekan birkaç gün önce hazırlanmaya başlar. Hava durumunun bozulma ihtimalini de göz önünde bulundurarak düğünün yapılacağı mekan, brandalarla kapattırılır. Büyük çadır halini alan bu mekan süslenir, çadırın duvarlarına halılar asılır, uzun masalar dizilir. Gelinin duracağı yer ise, daha da süslü bir hale getirilir. Fakat Türkiye'deki Ahıska Türklerinin hemen hemen hepsi düğünlerini düğün salonlarında gerçekleştirmektedirler.

Türkiye'nin dışında yaşayan Ahıska Türkleri düğünlerini yemekli olarak geçirir. Düğün günü çadırların arkasında büyük kazanlar kurulur. Kazanların birinde etli sulu çorba, kazanın birinde etli pilav, kazanın birinde ise dolma pişirilir. Çadırda dizilen masalar çeşitli mezelerle, tatlılarla, meyvelerle ve içeceklerle donatılır. Fakat Türkiye'de ikamet eden Ahıskalılar düğün salonlarında Türkiye'de olduğu

---

[191] Ahıska Türklerinin yerleşim mekanları ağırlıklı olarak kırsal kesim olduğu için, başlık adeti hemen hemen her oğlan ailesinden istenmektedir.
[192] Ahıska Türklerinde "bey" merasiminde daha evvelki zamanlarda sadece erkekler bulunurdu. "yohlama" denilen merasimde ise sadece kadınlar bulunur. Ancak son zamanlarda bu iki adet bir arada yapılır.
[193] Önü altın pullarla süslene bir tür geleneksel papak.
[194] Papağın üstünden geçirilerek gelinin saçlarını ve boyun kısmını kapatmaya yarayan beyaz ince bir örtü.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gibi sadece kuruyemiş ve içeceklerin ikramında bulunur. Daha evvel düğünlerde düğün pastası olarak kesilmeyen bu pasta düğün esnasında damat ve gelinin birlikte kesilmesinden sonra ikrama sunulur.

Düğünün açılışını oğlan ailesine yakın olan biri yapar ve düğünü yönetecek olan tamada[195] seçilir. Tamada, ailenin büyüğüne göz aydınlığını vererek söz verir. Sözü alan kişi misafirlere teşrifleri için teşekkür eder ve genç çiftlerin uzun mutlu bir yaşam sürdürmelerini diler. Dileklerinden sonra oyun oynamaları için bu kişi varsa kızlarını, gelinlerini piste davet eder, herkesin eline para verir ve oynatır. Oynayanlar oynadıkları müddetçe yakınlarından da para alırlar. Oyunun bitiminde paralar müzisyenlerin masasına bırakılır. Oyundan sonra tamada tekrar mikrofonu ele alır ve düğün boyunca damadın amcalarına, dayılarına, erkek kuzenlerine, gelen erkek misafirlere, erkek arkadaşlarına[196] söz verir. Sözünü bitiren herkes oyun için ya yakınlarından birilerini davet eder ve aynı şekilde oynayanların eline para vererek onları oynatır ya da kendisi oynamaya çıkar. Bu gelenek aynı şekilde sürdürülmektedir. Ancak bu gelenekte değişen adetler şunlardır: Oynayanlar için para verilmez. Daha evvel adı geçen kişiler oyuna çıkıp oynadılarsa, son zamanlarda bu geleneğe bakılmaksızın genç kızlar oynamak istediklerinde piste çıkarak oynarlar. Daha evvel söz sadece erkeklere veriliyorduysa son zamanlarda kadınlar da gençleri tebrik etmektedirler.

Düğün başladıktan bir müddet sonra gelin, düğünün yapıldığı mekana getirilir ve gelin ile gelinin yengeleri için ayrılan bölüme götürülür. Gelin düğün boyunca yüzü kapalı ayakta durur. Kaynatası veya kaynanası tarafından verilen müsaade ile oturabilir. Ancak büyüklerinden biri gelinin önüne geldiğinde, konuşanlardan biri gelin ile damada hitap ettiğinde veya önünde birilerin oynandığında gelin temenni alarak tekrar ayağa kalkar. Bu arada damat eski adetlere göre düğün mekanında bulunmamaktadır. Ancak Türkiye'de yapılan düğünlerin çoğunda gelinle damadın aynı masada oturdukları, piste çıkıp birlikte oyun oynadıkları görülür.

Ahıska Türklerinin düğünlerinde gerçekleştirilen takı merasimi tamamıyla farklılaştı. Daha evvel düğünde müzisyenlerin ara verdikleri esnada misafirler yemek yerken bir tarafta erkek evine bırakılacak olan paralar toplanırdı. Paraların toplanması için üstüne kırmızı örtü serilen tepsi getirilirdi. Paralar sırayla bu tepsinin üzerine atılırdı. Bu adeti üç kişi gerçekleştirirdi. Biri paraları sayarak kimden geldiğini söyler, biri mikrofonla anons eder, diğeri ise bir deftere yazar. Merasim bittikten sonra örtünün içine toplanan paralar, örtüyle birlikte evin büyüğüne verilirdi. Fakat, Türkiye'de yaşayan Ahıska Türkleri bu geleneği Türkiye Türklerince yapılan geleneğe dönüştürmüşler. Gelinle damat ortaya çıkartılır ve gelen misafirler sırayla gelinin veya damadın üzerine atılan kurdeleye ya para ya da altın takarlar.

Eski zamanlarda Ahıska Türklerinin düğünlerinde kız evinden sadece kızın yengesi ile gelin getirilirken kaynanasına *"müjde yastığı"* getiren gelinin küçük erkek kardeşi, yoksa yakınlarından olan bir oğlan bulunmaktaydı. Ancak son zamanlarda oğlan düğünü başladıktan bir müddet sonra kız evinden gelinin yakınları ve arkadaşları da gelir ve genellikle gelinin annesi hariç düğünde eğlenir oynarlar.

Ertesi gün damadın yakın akrabaları tekrar toplanır. O gün, hınkal[197] pişirilir ve yeyilir. Yemek yemeden evvel gelinin sandığı açılır. İçinden çıkan misafir hediyeleri dağıtılır. Diğer çeyizler gelin yengesi tarafından gösterilir. Sandıktan çıkan tatlılar, şekerler ve benzeri şeyler masalara konulur. Çeyizin açıldığı esnada gelin odasından çıkartılır ve oraya getirilir. Gelin çıkarken önce kaynatasından, kaynanasından daha sonra da diğer misafirlerden temenni alır. Yemekler yeyildikten sonra bir müddet oturulur daha sonra herkes dağılır.

Gelenekler ve sosyal normların temelinde sağlıklı bir toplum, toplum fert ilişkileri ve sağlıklı bir hayat söz konusudur. Toplumdaki uzlaşmayı sağlayan gelenek ve görenekler ortadan kalkarsa toplumun ahengi bozulur. Kargaşa yaşanır. Özünde ve teferruatında kendi seyri içerisinde bazı değişiklikler yapılabilir. Ancak toplumun çoğunluğunun tasvibini gören gelenekleri kaldırıp bir tarafa atamayız. Gelenek ve göreneklerin devam ettirilmesi zorunludur.

---

[195] Düğünü yöneten kişi, sunucu.
[196] Sıralama, yakınlık derecesine ve yaşına göre yapılır.
[197] Ahıskalıların geleneksel yemeklerinden suda pişen bir mantı çeşidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# İLK ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA DƏFN AYİNLƏRİ

***T.e.n.Mübariz Xəlilov***
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***Azərbaycan***

Azərbaycanda III əsrdən başlayaraq Sasanilər İranı tərəfindən zərdüşt dininin və IV əsrdən alban kilsəsi tərəfindən rəsmi dövlət dini elan edilmiş xristianlığın təbliğ edilərək yayılması, Xalqların böyük köçü prosesi çərçivəsində ölkə ərazisində yeni gəlmə əhali kütlələrinin məskunlaşması buradakı dəfn ayinlərində bir sıra mühüm dəyişikliklərin meydana çıxmasına şərait yaratmışdır. Hakim dinlərin geniş intişar tapması ilk orta əsrlərdə (IV-VIII əsrlər) bütpərəst qəbir abidələrinin tamamilə yox olmasına deyil, onların yayıldığı ərazinin məhdudlaşmasına gətirib çıxarmışdır.

Azərbaycanda ilk orta əsrlərə aid torpaq, küp, saxsı təknə, daş qutu, katakomba, kurqan və habelə xristian qəbirləri aşkar edilərək tədqiq olunmuşdur. Bir sıra qəbiristanlıqlarda eyni zamanda bir neçə tipə aid qəbirlər üzə çıxarılmışdır. Bunun səbəbləri etnik və sosial amillərlə izah olunur. Qəbir kameralarının və meyidlərin başının yönəldildiyi istiqamətlər, adətən, müxtəlifdir, yəni vahid bir qibləgah olmamışdır. Meyidlər geyimlə, bəzi hallarda həm də parçaya bürünmüş halda dəfn edilmişlər. Parça qalıqları, düymələr, geyim bəzəkləri, toqqalar və s. bunu təsdiq edir. Bir nəfərin dəfn edildiyi qəbirlərlə yanaşı, eyni bir qəbirdə 2 və daha çox adamın basdırılması hallarına təsadüf olunmuşdur. Qəbirlərdə meyidin yanına saxsı, metal, şüşə, ağac qablar, müxtəlif bəzək və məişət əşyaları, əmək alətləri, silahlar və s. qoyulmuşdur. Bu onu göstərir ki, insanlar o dünyada da eyni həyat tərzi sürəcəklərinə inanırdılar. Bütpərəst qəbirlərindən fərqli olaraq xristian qəbirlərinə, adətən, heç bir avadanlıq qoyulmurdu. Burada yalnız şəxsi bəzək əşyaları istisnalıq təşkil edə bilərdi. Heç bir avadınlıq tapılmayan bütpərəst qəbirlərə gəldikdə isə bu, dini deyil, sosial amil ilə izah oluna bilər.

Torpaq qəbirlərdə ölüləri dəfn etmək məqsədi ilə dördkünc və ya oval planlı çala qazılırdı. Belə qəbirlərin bəzilərinin üstü iri daş parçaları, daş lövhələr və ya yastı çay daşları ilə örtülürdü. Qəbir kameralarında skeletlər sağ və ya sol böyrü üstə, qolları və ayaqları bükülü və yaxud kürəyi üstə düz uzadılmış vəziyyətdə qeydə alınmışlar. Bəzi hallarda torpaq qəbirlərdən ibarət eyni bir qəbirisitanlıqda həm bükülü, həm kürəyi üstə düz uzadılmış skeletlərə təsadüf edilmişdir. Əgər meyidin bükülü vəziyyəti qədim alban ənənələrinə uyğun gəlirsə, kürəyi üstə düz uzadılmış vəziyyət erkən alban dövrü üçün xarakterik olmamışdır. Meyidlərin belə bir pozada qəbrə yerləşdirilməsi Dərbənddən şimaldakı çöllərdən gəlmiş yeni əhali kütlələrinin təsiri altında meydana çıxmışdır. Torpaq qəbirlərdə insanla birlikdə bəzi hallarda at, it, qoyun və hətta maral dəfn edilmişdir. Sandıqtəpə abidəsindəki (Quba rayonu) qəbirlərdən birinin kamerasında 6 yerdə heyvan sümüyü topası qeydə alınmışdır. Bunların hər birində 5-6 qoyun və 1 it skeleti qalıqları var idi. Buna əsasən güman edilir ki, həmin qəbirdə varlı bir maldar dəfn edilmiş, onun yanında heyvanlar üst-üstə yığılaraq kiçik sürülərlə basdırılmış və hər belə sürünün bir mühafizəçi iti olmuşdur. Enıx abidəsində (Qusar rayonu) döyüşçü öz atı ilə birlikdə qəbirdə dəfn edilmişdir. Torpaq qəbirlərdə ölü üçün yemək qoyulduğunu ayrı-ayrı heyvan və quş sümükləri təsdiq edir. Ölünün yeməyi daha asan «əldə edə bilməsi» üçün bir çox hallarda yemək dolu qablar meyidin başının yanına qoyulmuşdur. Bir sıra qəbirlərdə yanmış torpaq, kömür qırıntıları və kül topaları odla bağlı dəfn ayininin icra edildiyini göstərir. Skeletlərdə və qəbir avadanlığında yanıq izlərinin olmaması təsdiq edir ki, od meyid qəbrə endirilməmişdən əvvəl kamerada yandırılmışdır. Bəzi hallarda od yanıb qurtardıqdan sonra kömür qırıntılarını və kül topalarını qəbrə qoyulmuş saxsı qabların içərisinə tökmüşlər. Torpaq qəbirlərdə müşahidə olunmuş digər o qədər də geniş yayılmamış ayinlər sırasında meyidin başının altına saxsı qabların yerləşdirilməsini, meyidin ayaqları arasına dik vəziyyətdə uzunsov daş qoyulmasını və s. göstərmək olar (1; 2; 10).

Adi torpaq qəbirlər kimi küp qəbirləri üçün də əvvəlcə çala qazılırdı (2; 3; 12). Həmin çalalara müxtəlif ölçülü dəfn küpləri əsasən üfqi vəziyyətdə yerləşdirilmişdir. Küpün içərisinə, adətən, meyidin əvvəlcə ayaqları salınır və beləliklə, meyidin başı küpün ağzına yaxın qərar tuturdu. Şərgah abidəsində (Şamaxı rayonu) qəbir çalalarının üstünün ağac dirəklərlə bağlanılması müşahidə olunmuşdur. Küp qəbirlərində də od yandırmaq ayini mühüm rol oynamışdır. Ənənəvi olaraq, ocaq qəbir çalasının içərisində qalanırdı. Yalnız bəzi hallarda od küpün daxilində yandırılmışdır. Bunun nəticəsində skeletin bəzi sümükləri yanmışdır. Çalanın içərisində ocaq qalanması ilə yanaşı bir sıra qəbirlərdə küpün xaricində və bəzən daxilində yerləşdirilmiş çıraqlarda və şamdanlarda da ritual xarakterli od yandırılmışdır. Küp qəbirlərində odla bağlı ayinin zərdüştçülük ənənələri ilə heç bir əlaqəsi olmamışdır. Qəbirlərdən birində küpün ağzı aşağı qoyulması və bu zaman onun ağzının bağlanılmaması nəticəsində meyidin torpaqla təmasına şərait yaranması bunu təsdiq edən vacib bir dəlildir. Küpdə dəfn meyidi torpaqdan ayırmaq məqsədi ilə icra edilməmiş, küp insan ruhunun xüsusi «evi (məskəni)» kimi nəzərdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tutulmuşdur. Küplərdə skeletlər sağ və ya sol böyrü üstə, az və ya çox bükülü vəziyyətdə qeydə alınmışlar. Sandıqtəpə torpaq qəbirlərindən birində olduğu kimi, Şərgahın bir küp qəbrində də skeletin kəlləsi saxsı qabın üstündə qeydə alınmışdır. Şərgah uşaq küp qəbirlərindən birində tapılmış gil qadın fiquru parçası, çox güman ki, axirət dünyada uşaqların himayəçisi olan ilahənin plastik təsviridir. Maraqlıdır ki, Şərgahda ölülər üçün yemək küpün içərisinə, meyidin yanına deyil, küpdən xaricdə qoyulmuşdur. Görünür, bu hal insan ruhunun istədiyi vaxt dəfn küpünü tərk edə bilməsinə inamla əlaqədar olmuşdur. Xınıslı (Şamaxı rayonu) küp qəbirlərindən birində skeletin boyun hissəsində xüsusi olaraq açılmış oyuqlara malik (yəqin ki, ipə düzmək üçün) it dişləri qeydə alınmışdır. Çox güman ki, bu boyunbağı totemizm ideyalarını əks etdirərək qoruyucu və qüvvətverici funksiya daşımışdır.

Saxsı təknə qəbirlər öz quruluşlarına görə küp qəbirlərindən, demək olar ki, fərqlənmirlər. Meyid saxsı təknəyə qoyulduqdan sonra bəzi hallarda saxsı təknə öz qapağı ilə bağlanırdı. Albaniyada küp və saxsı təknə qəbirlər ideoloci pərakəndəliyi deyil, alban qəbilələrində eyni dini inama əsaslanan dəfn ayinində müxtəlif tipli və formalı saxsı dəfn qablarından istifadə olunduğunu göstərir. Bəzi ilk orta əsr saxsı təknə qəbirləri küp qəbirlərindən qəbir kamerasının formasına görə müəyyən qədər seçilirlər. Məsələn, Mingəçevirdə saxsı təknə tağvari örtüyə malik dördbucaqlı formalı kameranın içərisində yerləşirdi. Bu kameranın divarlarının bünövrəsi daşla, yuxarı hissəsi isə çiy kərpiclərlə hörülmüşdür. Güngörməz abidəsində (Hacıqabul rayonu) saxsı təknələr daş qutu tipli qəbir kameralarının içərisində qeydə alınmışlar. Bu saxsı təknələrin dibində açılmış oyuqlar, saxsı təknənin yerləşdiyi daş qutunun torpaq döşəməsi, habelə bir halda skeletin kəlləsinin və ayaqlarının dizdən aşağı hissəsinin təknədən kənarda, torpaq üzərində qeydə alınması meyidin torpaqla birbaşa təmasına şərait yaratmışdır. Küp qəbirlərində olduğu kimi saxsı təknə qəbirlərdə də skeletlər zərdüştçülük ənənələrinə zidd olaraq anatomik düzülüşə malikdir. Bu amil, habelə meyidin torpaqla təması küp qəbirlər kimi saxsı təknə qəbirlərin də zərdüştçülük ilə heç bir əlaqəsi olmadığını təsdiq edir (8).

Şərti olaraq daş qutu adlandırılmış qəbirlər öz konstruksiyalarına görə iki əsas tipə ayrılır: divarları dik qoyulmuş iri daş lövhələrdən qurulan daş qutular və divarları çay daşlarından müəyyən cərgələrlə hörülmüş daş sərdabələr. Qəbir kameralarının üstü sal daşlarla örtülürdü. Bəzi hallarda bu tip qəbirlərin üstü, ümumiyyətlə, açıq saxlanılmış və içərisi torpaqla doldurulmuşdur. Qəbir kameraları torpaq döşəməyə malikdirlər. Güngörməz abidəsində belə qəbirlərdən birinin döşəməsində ağ rəngli maddə izlərinin aşkar edilməsi, çox güman ki, qəbrin meyid qoyulan yerinin ağardılmasından xəbər verir. Tək skeletli bir sıra qəbirlərdə topa halında digər insan sümüklərinə də təsadüf olunması bu daş qutulardan dəfn üçün bir neçə dəfə istifadə olunduğunu güman etməyə əsas verir. Cənubi Qafqazda daş qutularda dəfn praktikasında belə bir ənənənin olduğunu Gürcüstanda Samtavro qəbir abidəsində hələ 1938-ci ildə daş qutulardan birinin üzərində qeydə alınmış IV əsrə aid yazı təsdiq edir. Həmin yazıda ər və arvadın adlarından xahiş olunur ki, onların qəbrində başqalarını dəfn etməsinlər.

Bəzi hallarda daş qutuların üstündə müəyyən əşyalara təsadüf edilmişdir. Bunların arasında saxsı qablar da vardır. Güman edilir ki, bu qablardan yas mərasimində istifadə edilmişdir.

Daş qutu qəbirlərdə od ayininin icrası küp qəbirlərdə olduğu kimi dəfn prosesinin çox əhəmiyyətli bir atributu olmuşdur. Belə qəbir kameralarında kül, kömür qırıntıları, örtük daşlarının üstündə və habelə qəbir kamerasının döşəməsində yanıq izləri, od rəmzi olan oxra qalıqları aşkar edilmişdir. Xınıslı daş qutu qəbirlərindən birində kömür qırıntıları və küldən ibarət təbəqənin qalınlığı 3 sm-ə çatırdı. Həmin qəbirdəki skeletin sümüklərinin altının qızarması dəfn mərasimində meyidin ocaq üstünə qoyulduğunu göstərir. Skeletlərin sümüklərinin anatomik düzülüşü, qəbir kameralarının torpaq döşəməsi, od ayini icra edilmiş daş qutu qəbirləri zərdüştçülük ənənələri ilə bağlamağa imkan vermir. Üzərində oda ibadət edən kahin təsvir edilmiş gemmanın od ayini icra edilməmiş Xınıslı daş qutu qəbirlərindən birində aşkar olunması da zərdüştçülük motivinə malik bu gemmanın sahibinin zərdüşt dininə sitayiş etmədiyini və həmin əşyadan yalnız bəzək nümunəsi kimi yararlandığını təsdiq edir.

Xınıslıda yemək qalıqları olan heyvan sümüklərinin bir qisminin üstündəki yanıq izləri qəbrə qızardılmış ət qoyulduğunu güman etməyə əsas verir. Heyvan sümüklərinin yanında, adətən, bıçaq tapılır. Görünür, bıçaq yemək zamanı əti tikələrə parçalamaq üçün nəzərdə tutulurdu. Güngörməz abidəsində daş qutu qəbirlərdən birində aşkar edilmiş saxsı qabın içərisində hətta qurumuş şərab qalığına təsadüf edilmiş, qabın qapağının üstündə ağac qədəh aşkar edilmişdir. Həmin qəbirdə tapılmış ağac kətil insan ruhunun oturması üçün nəzərdə tutularaq ruhun rahatlığının qayğısına qalındığından xəbər verir. Quşçu (Şamaxı rayonu) daş qutu qəbirlərindən birində isə skeletin çənə hissəsində şüşə qab üzə çıxarılmışdır. Görünür, dəfn zamanı hansısa maye bu qabdan meyidin ağzına tökülmüş və yaxud axirət dünyasında rahat içə bilməsi üçün şüşə qab ağzına yaxın qoyulmuşdur.

Daş qutu qəbirlərdə qurban kəsilmiş heyvan sümüklərinə də təsadüf edilmişdir. Alıbəyli (Qobustan rayonu) daş qutu qəbrində aşkar olunmuş qoyun skeleti, Xınıslı daş qutu qəbirlərində üzə çıxarılmış it kəllələri bu qəbildəndirlər. Hələ e.ə. II əsrdə Kiçik Asiyada müharibə allahı Mars şərəfinə it qurban


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kəsildiyi haqqında tarixi məlumat vardır (Apollodor. «Allahlar haqqında», 13-cü fr.). Albaniyada da itlərin hərblə bağlılığı yazılı mənbələrdə öz əksini tapmışdır. Məlumdur ki, itlər Albaniya qəbilələrindən biri olan kaspilərin apardıqları döyüşlərdə iştirak edir, «əcdadların və igidlərin qəbirlərində dəfn edilirdilər» (Valeriy Flakk. «Arqonavtika», VI, 107). Güman etmək olar ki, it kəllələrinin qeydə alındığı qəbirlərdə dəfn edilən insanlar müharibə qurbanlarıdır. Bunlar həm dinc sakinlər, həm də döyüşçülər ola bilərdi. Çəmcəmli (Qobustan rayonu) daş qutu qəbirlərindən birində üzə çıxarılmış at kəllələrini də dəfn prosesində qurban kəsmək ayini ilə bağlamaq mümkündür. Massaget qəbilələrində Günəş allahına at qurban verilməsi yazılı mənbələrdə əks olunmuşdur (Strabon. «Coğrafiya», XI kitab, VIII, 6). Massagetlər bu qurbanı belə əsaslandırırdılar ki, Günəş ən sürətli allah olduğu üçün ona dünyada ən sürətli canlı varlıq olan at qurban kəsilməlidir (Herodot. «Tarix», I, 216). Albanların da Günəşə sitayiş etmələri məlumdur (Strabon. «Coğrafiya», XI kitab, IV, 7). Bundan başqa massagetlərin ilk orta əsrlərdə Albaniyanın şimal-şərqində, Cəmcəmli abidəsinin yerləşdiyi bölgənin qonşuluğunda məskunlaşması yazılı mənbələrdə qeydə alınmışdır («Alban tarixi», I:10,14). Lakin Albaniyada at qurbanı massagetlərin təsirinin nəticəsi kimi deyil, müstəqil surətdə də meydana çıxa bilərdi. Enıx, Qursan-pel (Qusar rayonu) kimi abidələrdəki daş qutu qəbirlərində insanla birlikdə dəfn olunan atlar isə, çox güman ki, qurban ayini ilə əlaqədar olmayıb. Burada söhbət atın öz sahibi ilə axirət dünyasına köçməsindən gedə bilər. Məsələn, oğuzlarda X əsrin əvvəllərində belə bir inamın hələ də qaldığı haqqında X əsrin ərəb səyyahı Əhməd ibn Fədlan məlumat verir. XIII əsrdə monqol-tatarlar axirət dünyasında da amansız döyüşlərin getdiyinə inanır və insanla birlikdə onun atının da dəfn olunmasının səbəbini bu amillə bağlayırdılar (Kirakos. «Tarix», 32-ci fəsil).

Daş qutu qəbirlərdə də skeletlər əksər hallarda sağ və ya sol böyrü üstə, bükülü vəziyyətdədirlər. Xınıslı qəbirlərində bir qədər fərqli pozalara da təsadüf olunmuşdur. Burada skeletlərin bir qismi kürəyi üstə düz uzadılmışdır. Qəbirlərin birində 2 skelet arxası üstə olduğu halda, bir skelet baş tərəfdə oturdulmuş vəziyyətdə idi. Digər bir Xınıslı qəbrində iki skelet qarşı-qarşıya oturdulmuş haldadır. Xınıslı daş qutu qəbirlərinin başqa birində böyrü üstə, üz-üzə qoyulmuş bir kişi və bir qadın qalıqları aşkar edilmişdir. Kəllələrin arasından tapılmış 2 üzük və qəbirdəki saxsı qablardan birinin üzərində qarşı-qarşıya durmuş iki quş təsvirinin qeydə alınması qəbirdə ər və arvadın, yaxud sevgililərin dəfn edildiyini göstərir. Quşçu daş qutu qəbirlərindən birində skeletin əlinin kəllənin altında qeydə alınması meyidə dəfn zamanı yuxuya getmiş adam pozası verildiyini güman etmək üçün əsas yaradır. Quşçu daş qutu qəbirlərindən bəzilərində meyidlərin üstünə saxsı qabların qoyulması müəyyən maraq doğuran ayinlərdən biridir. Quşçu abidəsində qeydə alınan daş qutu qəbirlərdən birində boğaz nahiyəsində balta olan skelet üzə çıxarılmışdır. Quşçu qəbirlərində silahların zənginliyi burada başlıca olaraq döyüşçülərin dəfn edildiyini göstərir. Bəlkə də, baltanın boğazdan çıxarılmayaraq meyidin dəfn edilməsi hansısa bir əlamətə inamla bağlı olmuşdur.

Daş qutu qəbirləri kimi katakomba qəbirləri də forma etibarı ilə yaşayış otaqlarını xatırladırdı. Bu qəbir tipləri axirət dünya mənzili kimi nəzərdə tutulurdu. Əgər daş qutu qəbirləri divarları daşdan hörülmüş binaların kiçildilmiş nümunəsi təsirini bağışlayırdısa, katakombalar daha çox qazma tipli yaşayış evlərini xatırladır. Katakombaların prototipi kimi hələ eneolit dövründən məlum olan dairəvi planlı evlərə də diqqət yetirilmişdir. Torpaqdakı çalanın divarlarından birində «taxça» formasında qazılmış belə qəbir kameralarının girişi çiy kərpic, daş və başqa materiallarla bağlanırdı. Kameraların yerinə, adətən, ağac lövhə, çiy və bişmiş kərpic, kirəmit və hətta ot döşənir, meyidlər bunların üstünə qoyulurdu (9; 10; 11). Katakombalarda bükülü, oturdulmuş və kürəyi üstə uzadılmış skeletlərə təsadüf edilmişdir. Mingəçevir katakombalarında dəfn zamanı meyidlər bir çox hallarda qızıl sapla naxışlanmış müxtəlif rəngli parçalara (atlas, güləbətin, gülməxmər) bükülmüşlər.

Bir sıra Quxur-oba (Qusar rayonu) katakombalarının divarları, döşəmə və tavanı gillə suvanmışdır. Bəzi divarlar, tavan əhənglə ağardılmışdır. Quxur-oba katakombalarında kül topası, kömür qırıntıları dəfn mərasimində od ayininin icra edildiyini göstərir. Qafqazda ən qədim katakomba qəbirləri e.ə. III minilliyin II yarısı – II minilliyin əvvəllərinə aid Vəlikənd (Dərbənd rayonu) katakombalarıdır. İlk orta əsr katakombalarında isə şimaldan köç etmiş çöl xalqlarının nümayəndələri dəfn edilmişlər. Qəbir kamerasının katakomba formasında (sapma) qazılması adəti Azərbaycanın bəzi bölgələrindəki, o cümlədən, ilk orta əsr katakomba qəbirlərinin yayıldığı şimal-şərq bölgəsindəki bəzi kəndlərdə indi də qorunub saxlanılmışdır.

İlk orta əsr kurqanları torpaq, katakomba, daş qutu və sapma qəbir kameralarının üzərində ucaldılan qəbir abidələridir. Azərbaycan Respublikası ərazisində ilk orta əsr kurqanları hələlik yalnız Qubalı kəndi (Hacıqabul rayonu) yaxınlığında aşkar edilmişdir (4). Kurqanların böyük əksəriyyəti isə Dərbənd rayonunda qeydə alınmışdır. Bu kurqanların torpaq örtüyündə aşkar edilmiş ocaq qalıqları (kömür qırıntıları və kül), sümük qırıqları və saxsı qab parçaları yas mərasiminin izlərini əks etdirir. Kurqanların



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəbir kameralarında əsasən arxası üstə düz uzadılmış, çox az hallarda qol və ayaqları bükülü skeletlərə təsadüf olunmuşdur.

Kurqanlarda qeydə alınmış bəzi dəfn ayinləri öz oricinallığı ilə seçilir. Palasa-sırt (Dərbənd rayonu) kurqanlarından birində dəfn olunmuş şəxs üçün nəinki qəbrə yemək qoyulmuş, hətta o bu yeməklə «yedizdirilmişdir». Belə ki, yemək qalıqları onun ağız boşluğunda aşkar edilmişdir. Cəmikənd (Dərbənd rayonu) kurqanlarından birində skeletin sağ əlinin altında bülöv daşı, sol əlinin altında isə dəmir bıçaq aşkar edilmişdir. Beləliklə, bıçağı itiləmək üçün ölüyə «şərait» yaradılmışdır. Palasa-sırt kurqanlarında 12 dama ilə birlikdə oyun taxtası, habelə oynamaq üçün nəzərdə tutulmuş aşıq sümükləri aşkar olunmuşdur. Bütün bu hallar o dünyada adi həyata, o cümlədən, əyləncəli həyata inamı çox yaxşı əks etdirirlər.

Daş qutu, katakomba qəbirlərindən olduğu kimi kurqanlardan da dəfn üçün müxtəlif dövrlərdə bir neçə dəfə istifadə edilməsi halları qeydə alınmışdır. Bunlar sırasına daha qədim dövrlərə aid Torpaqqala (Dərbənd rayonu) kurqanı, Mil düzündəki Üçtəpə kurqanı daxildir. Kurqan qəbirləri albanlar üçün xarakterik olmamış və əsasən Albaniyadan şimaldakı çöllərdə yaşamış və Albaniyaya miqrasiya etmiş massaget-hun mənşəli qəbilələrlə bağlıdır. Lakin bu o demək deyildir ki, Azərbaycanda daha qədim dövrlərdə belə abidələr olmamışdır. Son tədqiqatlar nəticəsində məlum olmuşdur ki, e.ə. IV minilliyin II yarısında ən qədim kurqanlar məhz Azərbaycan ərazisində təşəkkül tapmışdır. Ümumiyyətlə, «kurqan» sözünün mənasının araşdırılması onun «Kur yeri» demək olduğu nəticəsinə gətirib çıxarmışdır. Şumerlərdə Kur – ölülər səltənəti, zülmət dünyası idi. Şumerlərə görə, Kur böyük bir dağdır. Azərbaycanda aşkar edilmiş ən qədim kurqanların da Şumer ərazisində formalaşmış Uruk mədəniyyəti daşıyıcılarının miqrasiyası ilə əlaqədar olduğunu nəzərə alsaq, «kurqan» sözünün belə izahı çox uğurlu hesab edilə bilər. Skit hökmdar kurqanlarının Gerr adlı bir ərazidə yerləşməsi barədə Herodotun (e.ə. V əsr) məlumatı da (Herodot. «Tarix», IV, 71) bu fikri qüvvətləndirir. «Kur» və «Gerr» adlarının eyni mənşəli olmasını təsdiq etməyə çox böyük əsas vardır. Azərbaycan dili leksikonuna daxil olan «gor», «kor» kimi sözlərin də ölülər səltənəti, zülmət dünyasını ifadə edən Kur adından törənmələri heç bir şübhə doğurmur. Hələ Nizami Gəncəvi «İskəndərnamə» poemasında əcəli çatmış insanları özünə cəzb edən, gedər-gəlməz, sirli bir dağı təsvir etmişdir. Hətta 1717-ci ildə Şotlandiyalı həkim Bel İran türklərinin Gedən-gəlməz adlandırdıqları bir dağa inamları barədə məlumat vermişdir. Beləliklə, qəbir kamerasından və onun üzərində torpaqla daş-kəsəkdən ucaldılmış təpədən ibarət kurqan şumerlərdə ölülər səltənəti, dağ formalı Kurun özünəməxsus bir «modelidir».

IV əsrdə Albaniyada xristianlıq dövlət dini elan edildikdən sonra ölkə ərazisində xristian dəfn ayinləri yayılmağa başladı. Bütpərəstlərdə olduğu kimi torpaq, daş qutu, katakomba qəbirləri xristianların da dəfn praktikasına daxil oldu. Lakin daş sarkofaq tipli qəbirlərdə dəfn yalnız xristian qaydalarına uyğun həyata keçirilmişdir. İlk dövrlərdə bəzi abidələrdə xristian və bütpərəst dəfn ayinlərinin çulğalaşması müşahidə edilmişdir. Xarakterik xristian qəbirlərində skelet əsasən kürəyi üstə uzadılmış və ya böyrü üstə, ayaqları və qolları zəif bükülü vəziyyətdə aşkar edilir. Skeletin üstündə əsasən yalnız şəxsi bəzək əşyaları tapılır. Mingəeçevirin bəzi xristian katakomba qəbirlərinin divarlarında çızılmış xaç işarəsi qeydə alınmışdır. Bir Mingəçevir katakombasında isə skeletin üstündə aşkar edilmiş parça qalıqlarında sarı rəngli iplə toxunmuş xaç təsviri qorunub saxlanılmışdır.

Beləliklə, ilk orta əsrlərdə Azərbaycanda qədim dövrlərin dəfn ənənələri ilə bağlı olan bütpərəst ayinləri xristian ayinləri ilə paralel icra edilmişdir. Xristianlığın görə bilmədiyi bir işin öhdəsindən islam dini gəldi. Məhz bu monoteist din bütpərəstliyi məhv etmək məqsədi daşıyan missiyanı uğurla başa vurdu. VIII əsrin axırlarında Azərbaycanda bütpərəst dəfn ayinlərinin icrasına son qoyuldu.

## ƏDƏBİYYAT

1. Əhmədov Ş. Qozlu kəndi (Xilmilli) ərazisində daş qutu qəbirlərdən tapılan silah və bəzək əşyaları // 2003-2004-cü illərdə aparılmış arxeoloci və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 2005, s. 72-73.
2. Ələkbərov A.İ. Borsunlu küp qəbirləri haqqında ilk məlumat // 2000-2001-ci illərdə aparılmış arxeoloci və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya. Tezislər. Bakı, 2002, s. 40-41.
3. Əliyev Ə.Ə. Yevlax rayonu ərazisində aşkar olunmuş küp qəbirləri haqqında // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, №2, 1989, s. 61-67.
4. Xəlilov C.Ə. Qazıməmməd rayonunun bəzi arxeoloci abidələri haqqında // Azərbaycan SSR EA Məruzələri, XIV c., № 11, 1958, s. 917-923.
5. Xəlilov C.Ə. Xınıslıda arxeoloci qazıntıların ilk nəticələri haqqında // Azərbaycanın maddi mədəniyyəti (bundan sonra – AMM), VI c. Bakı, s. 78-90.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

6. Xəlilov M.C. Sandıqtəpə qəbir abidəsində tədqiqatlar // Görkəmli Azərbaycan arxeoloqu S.M. Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Bakı, 1994, s. 45-47.
7. Xəlilov M.C. Albaniyanın ilk orta əsr bütpərəst torpaq qəbir abidələri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, №2, 2006, s. 101-114.
8. Xəlilov M.C. İlk orta əsr alban saxsı təknə qəbirləri // Mingəçevir arxeoloci ekspedisiyası – 60. Mingəçevir, 2006, s. 87-90.
9. Qazıyev S.M. İki küp və iki katakomba qəbiri // AMM, III c. Bakı, 1953, s. 5-35.
10. Qazıyev S.M. Qəbələ ərazisinin qədim dəfn mərasimləri haqqında // AMM, VI c. Bakı, 1965, s. 235-251.
11. Nərimanov İ.H., Aslanov Q.M. Mingəçevirin bir qrup qəbir abidələri haqqında // AMM, IV c. Bakı, 1962, s. 217-249.
12. Nuriyev A.B. Şərgah küp qəbirləri haqqında // AMM, VII c. Bakı, 1973, s. 220-232.

## ПОГРЕБАЛЬНЫЕ ОБРЯДЫ ЭПОХИ РАННЕГО СРЕДНЕВЕКОВЬЯ В АЗЕРБАЙДЪАНЕ

### РЕЗЮМЕ

В докладе приводится информация об отдельных типах погребальных памятников раннесредневекового периода. При этом для каъдого типа описываются различные этапы похоронного процесса, погребальные обряды, делается попытка их идеологического осмысления. Устанавливается этнокультурное происхоъдение того или иного типа погребальных памятников, а такъе отдельных погребальных обрядов, в частности, отвергается мнение о связи ритуального возъигания огня во время похорон с зороастрийской религией.

## FUNERAL RITES OF EARLY MIDDLE AGES EPOCH IN AZERBAIJAN

### RESUME

The information on separate types of funeral monuments of early Middle Ages is given in the report. To this end the various stages of funeral process, funeral rites are described for each type, the attempt of their ideological comprehension is done. An ethno cultural origin of this or that type of funeral monuments, and also separate funeral rites is established, in particular, the opinion on connection of ritual burning of fire during the funeral with the zoroastric religious is rejected.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# UYĞURLARDA NOVRUZ ƏNƏNƏLƏRİ

***Mustafa Vüqar Öməroğlu***
***Azərbaycan***

Novruz, ən qədim zamanlardan günümüzə qədər qarlı-boranlı, gediş-gəlişin məhdudlaşdığı ayların sona çatdığı, ana təbiətin oyandığı, qar və buzun əridiyi, yerin donunun açıldığı, çayların çoşub-daşdığı, çiçəklərin açdığı, agacların yaşıllaşdığı, əkin-səpinin başlandığı, gecənin güngüzlə bərabərləşdiyi, bir sözlə, insan həyatında oyanış anlamına gələn duyğuların canlandığı baharın carçısı kimi Qərbdən–Şərqə, Şimaldan-Cənuba, bütün dünya xalqları tərəfindən sevinclə qarşılanan bir bayramdır. Bu bayram Türk xalqları tərəfindən xüsusi coşqu və sevinc ilə keçirilir.

Məqsədimiz uyğurların Novruz(Yeni gün) adət-ənənələrindən söhbət açmaq, XXI əsrdə dünyada gedən demokratik proseslər çərçivəsində inkişafı, bu prizmadan baxanda dünyanın heç bir ölkəsində rast gəlinməyəcək vəhşilik, insan şüurunun qəbul edə bilməyəcəyi şərtlər altında dözulməz zülm-zillət altında yaşayan, haqqı-hüququ tapdanan bir xalqın başına açılan oyunlara baxmayaraq milli adət-ənənələrini qoruyub saxlaması, hakimiyyət tərəfindən aparılan assimilyasiyaya və aşınmalara qarşı ayaqda durması, keçmiş adət və ənənələrin bugünkü nəslə çatdırmasında bilavasitə ötürücü rolunu oynaması kimi fədakarlıqlarını bir daha qeyd etməkdir.

İnsanlar ta qədim zamanlardan yaz fəslinin gəlişini xüsusi təmtəraqla, bir sözlə insanın ruhunu təzələyən, goz oxşayan tamaşalarla keçirməyə, dəyərləndirməyə çalışmışlar. Ayrı-ayrı ölkələrdə bu bayram hər xalqın öz adət-ənənələrinə, milli ruhuna uyğun şəkildə keçirilmişdir və mərasimlər bu gündə davam etməkdədir. Hər bir xalq bu bayramı özü bildiyi kimi adlandırır. Bu adları nəzərdən keçirsək Novruzun necə geniş bir arealı əhatə etdiyini gözlərimizin önünə gətirə bilərik:

| | | |
|---|---|---|
| Nevruz-i Sultani, | Nartukan, | Çağan, |
| Sultan Nevruz, | Nartavan, | Baba Marta, |
| Sultan Navrız, | Isıak Bayramı, | Tanasisa, |
| Navrız, | Altay Ködürgəni, | Köklü Marta, |
| Mart Dokuzu, | Bahar Bayramı, | İlk Yaz Yortusu, |
| Zamanın Sultanı, | Yüryk Bayramı, | Yeni Gün, |
| Navruz, Novruz, Navrez, | Kırlar Bayramı, | Yengi Gün, |
| Nevris, | Ulusun Ulı Kunı, | Mereke, |
| Navrus, | Ulusun Ulu Günü, | Mevris, |
| Noruz, | Ulı Kün, | Mart Bozumu |
| Norus, | Ergenekon, | [1. 4] |
| Meyram, | Bozkurt, | |

Bu bayram insan övladı özünü dərk edəndən təbiətin oyanışı, dirilməsi, canlanması kimi qəbul edilmişdir və konkret bir xalqa məxsus bayram deyildir. Bu bayramı çinli və yaponlar, ərəb və iranlılar, Avropa xalqları, monqollar, laos və vyetnamlılar, hindli və hindular, 30-dan çox Türk boyu-azəri, uyğur, qazax, qırğız, özbək, türkmən, tatar, karaim, qaqauz və başqaları, bir sözlə müxtəlif adlar altında bütün dünya xalqları keçirirlər. Hər bir xalqın novruzun məhz onlara məxsusluğunu sübut eiməyə çalışan nümayənlədəri olmuşdur. Novruz sözünün fars mənşəli olması İran alimlərinin əl-qolunu açmasına imkan yaratmışdır ki, onlar da bunu Cəmşid haqqında əfsanələrə əsaslanaraq söyləyirlər. Firdovsinin «Şahnamə»sindən qaynaqlanan bu fikirlərin heç bir əsası olmadığı elm aləmində hamıya məlumdur.

Prof. Dr. Abdulhaluk Çay 12 heyvanlı Türk təqvimini və daha qədim mənbələri əldə əsas tutaraq bu günün "Türklərin Ergenekon Bayramı" oldugu fikrini irəli sürür. [2. 7-10]

Yandırma özün odlara,
Yatağını qor eləmə,

Aşıq poeziyasının ən maraqlı, ən məşhur növlərindən biri də deyişmədir. Deyişmə aşığın sənətkarlıq bacarığını, istedadını nümayiş etdirmək üçün geniş meydan açır. Deyişmədə qıfılbənd, bağlama, təcnis, ustadnamə, dodaqdəyməz, hərbə-zorba və s. şeirlərdən istifadə edirlər.

Deyişmədə Aşıq Nəsibin qarşısına çıxmağa nadir aşıqların cəsarəti çatmışdır. Onun Aşıq Ələsgərlə məşhur deyişməsi ağır sənət sınaqlarından sayılır:

Nəsib hər kim ilə açsa meydanı,
Ona dar eliyər bu gen dünyanı,
Müsafirdi ona verin dövranı,
Bəlkə çoxdu nəticəsi, nəvəsi.

Aşıq Nəsib Aşıq Ələsgərdən başqa bir çox aşıqlarla da deyişmiş və həmişə məclisi qalib tərk etmiş, məğlub olmuş aşığın sazını əlindən almışdır. Aşıq Nəsibin Aşıq Şenliklə, Aşıq Veysi ilə, erməni aşığı Usta Tatosla, Tacir Söyünlə, Çorlu Məhəmmədlə və digər aşıqlarla deyişmələri məlumdur. Aşıq Nəsibin bədahətən şeir demək bacarığı eyni zamanda ədəbiyyat, tarix, din və sair sahələrə yaxından bələd olması, şeirlə verilən suallara şeirlə cavab verməsi onu çox məşhurlaşdırmışdır. Aşıq Nəsiblə bağlı olan aşıq rəvayətlərində bu deyişmələrə rast gəlmək olar.

Sənət dərsini Aşıq Şenlikdən alan Aşıq Nəsib ustadına layiq bir sənətkar olmuşdur. O, aşıq ədəbiyyatında geniş yayılmamış divani janrında da şeirlər qoşmuşdur. Bu da onun aşıq poeziyası ilə bərabər eyni zamanda klassik ədəbiyyata da bələd olduğunu göstərir. Divani əruz vəznində yazılır və adətən dörd misradan ibarət olur. Misralarda 15 hecadan istifadə olunur. Divanilərini oxuyarkən Aşıq Nəsibin ustalığına və qüdrətinə bir daha şahid oluruq:

Düşmüsən yadıma necə
Canım Canbaç yaylası;
İnsafdımı fəryadında
Yanım Canbaç yaylası;

Gözlərmdən yaş tökülür,
Keçənləri andıqca
Dərd içində səni necə
Anım Canbaç yaylası.

Aşıq Nəsibin yaradıcılığında aşıq rəvayətləri də əsas yer tutur. Onun "Aşıq Nəsibin Qulanıs səfəri, "Qonaq sevməyən kişinin əhvalatı, "Alaşanın otunun qurtarması, "Ağbaba ellərinin Qars köçü, "Aşıq Nəsibin Tacir Söyünnən görüşməsi, "Aşıq Ələsgərin Aşıq Nəsiblə qabaqlaşması, "Ları xoruz, "Aşıq Veyisin Güllübulaq səfəri və s. rəvayətləri olduqca maraqlıdır.

Aşıq Nəsibin həyatı keşməkeşlərlə dolu olmuş, yaşayıb-yaratdığı dövr siyasi çaxnaşmalar, köçlər, milli iğtişaşlarla yadda qalmışdır. Sözsüz ki, bütün bunlar aşığın yaradıcılığına güclü təsir etmiş, doğma elə-obya olan sonsuz məhəbbəti, sovet hökumətinə və onun anti-türk siyasətinə olan nifrəti poeziyasının şah damarını təşkil etmişdir.

Aşıq Nəsib 1944-cü ildə 70 yaşında doğulduğu kənddə vəfat etmiş, kənd qəbristanlığında dəfn edilmişdir.

Aşıq Nəsibin irsi çox zəngin olmuş, lakin laqeyidlik ucbatından unudulmuş, vaxtında yazıya alınmamışdır. Sovet hökumətini mədh etmədiyinə, Leninə, partiyaya şeir qoşmadığına görə irsi vaxtında toplanmamış, itib batmışdır. Lakin aşığa olan el sevgisi, məhəbbəti onu tamamilə unudulmağa qoymamış, şeirlərinin bir hissəsi hafizələrdə yaşamış, nəsildən-nəslə ötürülmüş, nəhayət "Aşıq Nəsib kitabında bir yerə toplanmışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AZERBAYCAN VE TÜRKMEN MANILERINDE KÜLTÜRÜMÜZÜN ORTAKLIKLAR

***Nargül Bayramova***
***Kızlar Aşırova***
***Maxtımkulu adına Türkmenistan Dil ve Edebiyat Enstütüsü***
***Türkmenistan***

Bu günkü Azerbaycan'la Türkmenistan uzakta görünse de onlardan derlenmiş manilerde ortaklıklarımız çoktur. Bazen de aynıdır. Tarihimizi iyice bilenler şu ortaklığın nereden kaynaklandığından haberdardırlar. Malisev son yüzyılda şu ortaklık hızla azalmaktadır. Sebepleri ise siyasi nedenlerden dolayıdır. Bildirimizde siyasi nedenler, tarihe dokunmadan günümüzdeki durumdan söz açırız. Türkmen Türkçecinde günümüzde kullanılmayan, yalnız manilerde yaşayan çoklu söz ve deyim vardır ki, Tatvan ve yöresinde sık-sık kullanılır. Şunu aynıyla Tatvan ve yöresinden derlenmiş maniler hakkında da söylemek olar.

Nedense günümüzde şu konuya az dikkat yetirilir. Ama XX yüzyılın başlarında konu gündemde olmuştur. 1928 yılda araştırıcı Emın Abid Türk halklarındaki beş bin dörtlük üzerinde derleme aparmış, oldukça ilginç neticeler elde etmiştir.

Konunu gündeme getirmekle kültürümüzün, tarihimizin ortak noktalarını araya getirmekle şimdiki araştırıcılara, yazarlara dilimizin zenginleştirmeye ve ortaklığa aparacak yolları göstermiş olarız.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## QAÇAQ KƏRƏM

***F.e.n. Nazilə Məmmədova***
***ADPU***
***Azərbaycan***

Ölməz qaçaqların sırasında özünəməxsusluğu ilə seçilən Qaçaq Kərəm həmişə, həm el arasında, həm də onun haqqında yaradılan mənalı əsərlərdə qoç Koroğluya bərabər tutulmuşdur.

Unudulmaz xalq şairimiz Osman Sarıvəlli bu iki ölməz qəhrəmanın dünyasını dəyişməsindən yaranan dərin kədər hisslərini poeziyanın həzin dili ilə kövrək misralarla belə ifadə etmişdir:

Öldü qoç Koroğlu, öldü xan Kərəm Sinəsi kədərli qaldı bu yerlər.

Kərəm 1860-cı ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. Gürcüstan SSR Dövlət Tarix Arxivində saxlanılan 22 oktyabr 1885-ci il tarixli teleqramdan bəlli olur ki, 1885-ci ildə Qaçaq Kərəmin 25 yaşı var imiş. Onda göstərilən təvəllüd tarixi həqiqətə uyğun gəlir.

Qaçaq Kərəmin atası Mollazaloğlu İsgəndər kasıb olsa da dövrünün gözüaçıq adamlarından imiş. Onun hökümət orqanlarından torpaq tələb etməsi yerli bəylərin xoşuna gəlməmiş, bunun nəticəsində İsgəndərə böhtan atıb həbs etdirmiş, sürgünə göndərtmişdir. Lakin o, sürgündən qaçaraq Qazax-Borçalı qəzalarında qaçaqlıq etmiş, 1884-cü ildə düşmənlər tərəfindən öldürülmüşdür. Bu hadisədən sonra Kərəm bir daha kəndlərində qalmayıb, elindən, obasından qaçaq düşmüşdür. Hətta onu təqib edən strajniki öldürdükdən sonra meşələrə, dağlara çəkilmişdir. Bəylərdən, mülkədarlardan narazı qalan bir neçə dəliqanlıları da başına toplayaraq xalqm düşmənlərindən intiqam almağa başlamışdır. Əvvəllər Qazax, Borçalı, Gəncəbasar ətraflarında fəaliyyət göstərmişdir. Sonralar isə Yerevan, İran, Türkiyə, Naxçıvan, Şimali Qafqaz ölkələrində də hərəkət etmişdir. Kərəm olduğu yerlərin sakinləri ilə sıx əlaqə saxlayır, özünə çoxlu dostlar qazanır, kasıblara əl tutur, zalımları xəbərdar edir, yoxsullara arxa dururmuş.

Qaçaq Kərəm haqqında daha çox bədii əsər yazan gürcü ədibləridir. Bunların sırasında ilk dəfə Anton Purtseladze cəhd göstərmişdir. 1885-ci ildə o, «Qaçaq Kərəm» adlı dörd pərdədən ibarət musiqili səhnə əsərini bitirmişdir.[232]

O zaman Tiflisdə nəşr olunan «Doreba» qəzeti bu hadisəni şərh edərək alqışlamış və müəllifin bu əsəri nə cür yazdığını səbəbini aydınlaşdırmışdır:

«Qaçaq Kərəm» camaatın nəzər-diqqətini o qədər cəlb etmişdir ki, müəllif də bu əsəri yazmağa ruhlanmışdır».[233]

Dörd pərdədən ibarət olan bu pyesin hər pərdəsi Kərəmin müəyyən bir fəaliyyətini əks etdirir. Məsələn, «Tkveoba» səhnəsində göstərilir ki, konservatoriyanı qurtarmış bir qız qaçaqlara əsir düşür. O, öz kədərini dağıtmaq üçün operalardan parçalar ifa edir. Bununla qaçaqların rəğbətini qazanır. Qaçaqlar qızın məlahətli səsindən məmnun olur və Kərəmin göstərişi ilə onu əsirlikdən azad edirlər. Qaçaq Kərəm haqqında ikinci böyük əsəri Gürcüstan Xalq ansamblının banisi, görkəmli dramaturq və yazıçı Vano Yestafyeviç Mçedlişvili yazmışdır. Dörd pərdədən ibarət olan bu pyes XX əsrin əvvəllərində yazılmış və ilk dəfə 1912-ci ildə aprel ayının 5-də Tiflis şəhərində tamaşaya qoyulmuşdur. «Qaçaq Kərəm» pyesinin Tiflisdə göstərilən tamaşası böyük müvəffəqiyyət qazanmış və bütün Zaqafqaziya mətbuatının nəzər-diqqətini cəlb etmişdir. Bu barədə bir sıra resenziyalar yazılıb dərc olunmuşdur ki, bunlardan «Zakavkazskaya reç...» qəzetinin verdiyi rəy daha maraqlıdır.

V. Y. Mçedlişvilinin «Qaçaq Kərəm» dramı sonralar Azərbaycan dilinə də tərcümə edilmiş, bir sıra yerlərdə, o cümlədən, Qazaxda, Naxçıvanda və Bakıda tamaşaya qoyulmuşdur.

Əsər beynəlmiləl xarakter daşıyır. Tarixi qəhramanlıq dramıdır. Yeri gəlmişkən qeyd edək ki, əsərin 1924-1925-ci illərdə Qazaxda tamaşası göstərilmişdir. Şair Osman Sarıvəllinin dediyinə görə Səməd Vurğun da onunla birlikdə bu tamaşaya baxmışdır. Azərbaycan tamaşaçılarının rəğbətini qazandığı üçün pyesin müəllifini Bakıya dəvət etmiş və tamaşaçılarla görüşdürmüşlər. «Bakinski raboçi» qəzeti bu barədə xüsusi məlumat vermişdir.

Sənətşünas Cəfər Cəfərovun yazdığına görə «Təbliğ və Tənqid» teatrı üçün Azərbaycan yazıçıları tərəfindən təqdil edilən pyeslərdən biri də «Qaçaq Kərəm» olmuşdur.

Gürcü yazıçısının Qaçaq Kərəmi dar ayaqda olanın əlindən tutan, insanpərvər, xeyirxah bir adam, xalqın arzu və istəklərinin ifadəçisi, azadlıq uğrunda mərd və mübarizdir. Pyesin üçüncü pərdəsində şübhəli görünən bir neçə adamı tutub Kərəmin yanına gətirirlər. Onların arasındakı yoxsul bir kəndli Kərəmə bildirir ki, qızı üçün cehiz almağa gedir...Kərəm qocanın yoxsul olduğunu görüb ona parça, paltar, 20 tümən pul və bir qızıl üzük verib yola salır.

Qadınlarla həmişə mədəni rəftar edən Kərəm onlara xüsusi hörmətlə yanaşır. Əsərin bir yerində Qaçaq Kərəm əsir edilib onun yanına gətirilmiş qadınları azad edir, qarət olunmuş zinət əşyalarını da geri qaytarır.

[232] Bizə bu məlumatı M. J. Çikovani vermişdir.
[233] «Droeba» qəz., 1885, №153 (gürcü dilində).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsərdə səxavətli, mərhəmətli, açıqqəlbli dəstə başçısı olan Qaçaq Kərəm istirmarçı, siyasətpərəst çar məmurlarına qarşı çox qəddardır. Özünün alçaq düşməni Rohim xanı evində yaxalayan Kərəm onu öldürmür, bu qəddar adamı meşəyə, vəhşi heyvanlar arasına buraxmaqla qurda-quşa yem edir.

Pyesdə Qaçaq Kərəmin Koroğlunun Nigarını xatırladan, ismətli, sədaqətli, tədbirli bir sevgilisi vardır. Bu Rəhim xan tərəfindən qaçırılan Seyrəb xanımdır. Seyrəb bəhanə ilə Rəhim xandan altı ay möhlət alır, axırda da öz sevgilisinə qovuşur. Qazan xanın Burla xatunu, Koroğlunun Nigarı kimi o da öz əri ilə bərabər silah qurşanır, at minir, döyüşə atılır.

V. Mçedlişvilinin "Qaçaq Kərəm" pyesi 1912-ci ildə ilk dəfə Tiflisdə tamaşaya qoyulmuşdur. Bu əsəri 1928-ci ildə Hüseynbəy Mirzəcamalov azərbaycancaya tərcümə etmişdir. Pyes dəfələrlə Bakıda, Gəncədə,-Naxçıvanda, Qazaxda tamaşaya qoyulmuşdur.

Gürcüstanlı tədqiqatçı Şurəddin Məmmədov yazır ki, "gürcü dilində bir-birindən gözəl, oynaq bayatıların, gəraylıların, qoşmaların, təcnislərin müəllifı olan Aşıq Həziri Qaçaq Kərəmi Azərbaycan xalqının milli qəhrəmanı, zəhmətkeşlərin mənafeyini çar məmurlarından və yerli bəylərdən qoruyan bir mübariz və nəhayət, başqa xalqlara humanist münasibət bəsləyən bir beynəlmiləlçi kimi xarakterizə edir".

1886- cı ildə gürcü dilində nəşr olunmuş kitablardan biri belə adlanır:

«Qaçağı Kiarima». Leksi Qomelisa da sxva leksebi «Qaçaq Kərəm». (Qomelinin şeri və başqa şerlər). E. Xeladzenin mətbəəsində çapdan buraxılmış bu kitabın elə «Qaçaq Kərəm» adlandırılması Azərbaycan xalqının mərd qəhrəmanına güclü məhəbbətin nümunəsidir. Kitab Qomelinin Qaçaq Kərəmə həsr etdiyi şerlə açılır:

*Qaçaqlığı özüm üçün seçdim peşə, Gədiklərdə keçdi daim ömrüm-günüm! Xalğa, elə arxalandım mən həmişə, Uzaq-uzaq obalardan gəlir ünüm!*

Qaçaq Kərəmin haqqında XIX əsrin II yarısında, XX əsrin əvvəllrində yaşayıb-yaratmış gürcü müəlliflərindən Georgi Tumanişvilinin, Georgi Amilaxvirinin, İlya Xonelinin, Sulikonun və b. bədii və publisist əsərləri vardır. XIX əsrin 80-90-cı illərində Tiflisdə gürcü dilində nəşr olunan «Doreba» («Zəmanə») və İveriya qəzetlərində Qaçaq Kərəm hərəkatına dair külli miqdarda material verilmişdir. Hətta 1885-ci ildə «Doreba» qəzetinin bir neçə nömrəsi demək olar ki, bütünlüklə Qaçaq Kərəmə həsr olunmuşdur (№l50; 151). Bu onunla əlaqədar idi ki, igid Kərəmin qəhrəmanlıqla dolu olan ömrünün müəyyən məqamları məhz Gürgüstanla, Tiflislə bağlı olmuşdu.

Gürcü ədibləri Qaçaq Kərəmə həsr etdikləri pyeslərdən başqa oçerklər, hekayələr və felyetonlar da yazmışlar. Həmin əsərlər 1880-1890-cı illərdə Tiflisdə dərc olunan bir sıra mətbuat səhifələrində çap edilmişdir.

«Qaçaq Kərəm» haqqında rus ədibləri də öz ürək sözlərini demişlər. O zaman Kərəm Zaqafqaziyada öz fəaliyyəti ilə yerli bəyləri, mülkədarları və onların mühafizəkarlarını qorxuya salan «dəhşətli bir tufana çevrilmişdi”.[234]

Kərəm rəsmi dairələrin diqqətini cəlb etdiyi kimi, mütərəqqi fikirli ziyalıların da nəzərindən yayınmamışdır. Böyük proletar ədibi Maksim Qorki XIX əsrin son illərində yazıb 1896-cı ildə çap etdirdiyi «Qafqazda qaçaqlar» oçerkində Qaçaq Kərəmin fəaliyytinə xeyli yer vermişdir. Yəqin ki, bu da səbəbsiz deyildir. Məmməd Arif həmin səbəblərdən birini belə izah edir:

«Yazıb topladığı bu xalq rəvayətlərində ədibi hər şeydən əvvəl xalq içərisindən çıxmış qoçaq, üsyankar adamlar və bu adamlara xalqın çox məhəbbət bəsləməsi maraqlandırmışdır».

M.Qorki ötən yüzilliyin sonlarında Zaqafqaziyada olduğu zaman qaçaqlıq hərəkatı ölkəni bürümüşdü. Hər yerdə söhbət ancaq qaçaqların göstərdiyi fəliyyətdən gedirdi. Xüsusilə, Qaçaq Kərəmin Zaqafqaziyada dəhşətli tufana çevrildiyi bir zamanda o, Tiflisdə olmuş və Kərəm haqqındakı rəvayətlləri eşitmişdir. Hətta bütün rəvayətlərdə onun «alicənab qaçaq» kimi təsvir edildiyini görüb, bütün xalqlara rəğbət bəsləyən bu igid haqqında eşitdiklərini qələmə almışdır. M. Qorki Qaçaq Kərəmin şöhrətinin nəinki Zaqafqaziyada, hətta Şimali Qafqazda, Kubanda belə yayıldığını göstərmişdir:

«O yalnız Zaqafqaziyada deyil, Kuban kazakları arasında da öz mərdliyi və cəsurluğu ilə şöhrət tapmış, əfsanəvi hala salınmış qaçaq kimi məşhurdur”.[235]

Maraqlı burasıdır ki, M. Qorki Qafqaza gəldiyi vaxt Zaqafqaziyanın demək olar ki, əksər mətbuatı Qaçaq Kərəmin fəaliyyətindən bəhs edirdi. Şübhəsiz, böyük ədibə bunun da təsiri az olmamışdır. O zaman Zaqafqaziyanın mərkəzi olan Tiflis mühiti Qaçaq Kərəmin fəaliyyətini geniş təbliğ edir və kütlə arasında onun haqqında rəvayətlər danışırdılar. Hətta M. Qorki Kərəm haqqında eşitdiyi bu rəvayətlərin hamısını öz əsərində əhatə edə bilmədiyindən, onlardan bəzilərinin qısa məzmunu ilə bizi tanış edərək yazmışdır:

«Külli miqdarda eşitdiyim hekayələrdə Kərəm insanpərvər və yaxın hesab etdiyi şəxslərə bacardığı qədər kömək etmək istəyən bir adam kimi verilir. O, Siqnaxdan Tiflisə bazara tuluqda qırmızı şərab gətirən gürcünün arabasının

---

[234] Народная воля журн., 1885, oktiyabr

[235] М.Горкий. Разбойники на Кавказе, «Нижнегородский листок», гяз., 1896, №309



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sınmış çarxını düzəldir, təqiblərdən gizlənmiş bir nəfərə iki min manat bağışlayır və onun kəndinə heç bir zaman basqın etməyəcəyinə söz verir. O, həmişə mübahisə edən ayrı-ayrı kənd, ailə və dostların arasında həkəm olur...».[236]

Əslində bu, tarixən belə olmuşdur. İstər Avropada və istərsə də Asiya və digər qitələrdə meydana gəlmiş qaçaq dəstələri həmişə yoxsulların mənafeyini müdafiə etmişdir. Məsələn, gürcü Qaçaq Darçiya, Marabdlı Arsen, moldav Ataman Kodr, türk Qara Feyzi, Eye Çakıcı, ingilis Robin Qud, alman Hizel, italyan Fra Diyavolo, serb Yura Yanoşik, ukraynalı Dovbuşvə Karmelyuk, slovak Mixala Vdovtsa və başqalarını göstərmək olar. Onlar xalq arasında hakim kimi tanınaraq, mütləqiyyətə qarşı mübarizə aparmışlar.

Başqa xalqlarda olduğu kimi Azərbaycan qaçaqları da hər yerdə mübahisə edən iki şəxs arasında həkəm olaraq ədalət mücəssəməsi kimi hərəkət etmişlər. Məsələn, Maksim Qorki Kərəmin kütlə arasındakı rolundan bəhs edərək, demişdir: «Kərəm həmişə aulda, ailədə, ayrı-ayrı şəxslər arasında olan mübahisəli məsələlərə həkəmlik etmiş və bu işi daimi vicdanla, ədalətlə yerinə yetirmişdir».[237]

Rusiyada inqilabın yetişdiyi bir dövrdə Maksim Qorkinin «Qafqazda qaçaqlar» əsərini yazıb nəşr etdirməsi də səbəbsiz deyildir. O, yaxşı bilirdi ki, Qaçaq Kərəm mütləqiyyətə qarşı, varlılara, zülmkarlara qarşı vuruşur, yoxsulları müdafiə edir. Onun mərdliyi, ədalətli olması da yazıçının nəzər-diqqətindən yayınmamışdır. Odur ki, «Qafqazda qaçaqlar» adlı bioqrafik oçerkini yazmış və burada Qaçaq Kərəmə daha çox yer vermişdir. Bu, həqiqətən də belədir. Bir sıra əsərlərində olduğu kimi «Qafqazda qaçaqlar» əsərində də haqqında bəhs etdiyi qəhrəmanların həyat-fəaliyyətini əks etdirmiş, Qaçaq Kərəmin bütün xarakterik cizgilərini, şəxsiyyətini təsvir etmiş və onun haqqında demişdir: «O, əfsanə və nağılların qəhrəmanıdır, kobud olsa belə ədalət mücəssəməsidir».

«XIX əsrin 90-cı illərində mövcud ictimai quruluşdakı ziddiyyətlər, əzilən kütlələrin acınacaqlı həyatı ədibin etirazlarını gücləndirmiş, «kiçik adamların» mənafeyini müdafiə edənlərə rəğbətini artırmışdı... Kərəmə də Qorkinin bu qədər rəğbətlə yanaşması, heç şübhəsiz, onun Kərəm haqqında eşitdiyi rəvayətlərdəki qəhrəmanlıqdır; xalq kütlələrilə qismən bağlı olmasıdır».

Qaçaq Kərəm haqqında inqilabdan əvvəl bədii əsər yazan rus yazıçılarından biri də Denis Kozlovskidir. «Qaçaq Kərəm» adlı əsərində o, hər şeydən əvvəl Qaçaq Kərəmin qoçaqlığından, mərdliyindən, insanpərvərliyindən, xalq arasındakı hörmətindən söhbət açır. Məsələn, müəllif yazır: «Kərəmin adı aulda hamıya məlumdur. Bu qəhrəman cavanların və qocaların qibləgahıdır. Bu cəsur igid heç kimdən, heç nədən qorxmur... Hamı onun ixtiyarında olmaq istəyir. Cavan qız və qadınlar onun haqqında düşünür, onun etdiyi qəhrəmanlıqlara həvəslə qulaq asırlar”.[238] Müəllif öz əsərində Qaçaq Kərəmi günahsız yerə qan tökməyən, zülmün və ədalətsizliyin ardıcıl düşməni kimi tərənnüm edir.

Polkovnik Kazaçkovski də Qaçaq Kərəm haqqında oçerk yazmışdır. 101 səhifədən ibarət bu kitab geniş müqəddimədən və qısa nəticədən ibarətdir. Burada müəllif 17 qaçaq haqqında bioqrafik məlumat verir ki, bunlardan 11-i azərbaycanlıdır.[239] Eyni zamanda o qaçaq hərəkatının meydana gəlmə səbəblərini izah edir. Burada bir sıra mütərəqqi fikirlərlə yanaşı müəllifin yanlış mülahizələri də vardır. Məsələn, müəllif qaçaqçılığın əmələ gəlməsinin əsas səbəbini xalqın maarif və mədəniyyətdən uzaq olmasında görür. O, unudur ki, mülkədar fəhlə ilə, ac tox ilə bərabər ola bilməz.

Qaçaq Kərəm haqqında gürcü ilə yanaşı, Azərbaycan şair və yazıçıları da gözəl əsərlər yaratmışlar. Bu cəhətdən N.B.Vəzirov xüsusilə fərqlənir. Onun «Keçmişdə qaçaqlar» pyesi bilavasitə Qaçaq Kərəmin həyatına həsr olunmuşdur.

1878-1890-cı illərdə böyük Azərbaycan dramaturqu N.B.Vəzirov Dilicanda meşəbəyi vəzifzsində çalışırdı. O, Kərəmin məskən saldığı Dilican meşələrini qoruyurdu.

Şübhəsiz, Zaqafqaziyada, Rusiyada və Yaxın Şərqdə rəsmi dairələrin nəzər-diqqətini cəlb etmiş Qaçaq Kərəmi Nəcəf Bəy Vəzirov eşitməmiş və tanımamış deyildi. Bəlkə də Nəcəf Bəy Vəzirov Qaçaq Kərəmlə görüşmüş və onunla söhbət etmişdir. Bunu müəllifin «Keçmişdə qaçaqlar» (1912) pyesi və bir sıra başqa dəlillər sübut edir. Əsərin əsas qəhrəmanı Camal bəydir. Camal bəyin ədalətsizlik üzündən qaçaq düşməsi, onun əvəzində ailəsinin həbs olunması, xalqın bu qəhrəmana olan hüsn-rəğbəti, meşə içərisindən keçən «Ağ yolu» iki tərəfdən kəsməsi, nəhayət, əlacsızlıqdan və təqiblərdən qorunmaq üçün İrana keçməsi və s. eyni ilə Qaçaq Kərəmin həyatı ilə bağlı hadisələrdir.

«Keçmişdə qaçaqlar» dramının məşhur Qaçaq Kərəmlə əlaqədar olduğunu göstərən aşağıdakı dəlillər vardır:

1. Əsərin birinci məclisində təsvir olunduğu kimi, ölkədə özbaşnalıqdır. «Mahalda bədbi hesablığ o qədər artıbdır ki, əhalinin naləsi asimanə bülənd olubdur".[240]

---

[236] М.Горкий. Разбойники на Кавказе, «Нижнегородский листок», гяз., 1896, №309
[237] Yenə orada.
[238] “Kaspii” qəz., 1903, №65
[239] В.Казачковский. разбой на Кавказе, Владикавказ, 1903
[240] N.B.Vəzirov. Əsərləri, II cild, Bakı, 1954, s.92



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azğınlaşmış bəylər isə bundan ğorxuya düşərək xalq arasında böyük nüfuza malik olan və şübhələndikləri şəxsləri müəyyən bəhanələrlə təqsirləndirib həbs etdirməyə çalışırlar. Bununla əlaqədar olaraq, xalqın acınacaqlı vəziyyətinə acıyan Camal bəyi həbsə alırlar. Onlar həbsdən qaçıb, meşədə gizlənir və qaçaqlıq edirlər. Bəlli olduğu kimi, Qaçaq Kərəmin atası Mollazaloğlu İsgəndər sürgündən qaçaraq hökumət orqanlarından gizlənir və qaçaqlıq edir. «Həmin ildə Qazaxda xidmət edən Orucağa Kərbalayev torpaq məsələsindən ötəri Kərəmin atası İsgəndərə məhkəmə və polis vasitəsilə cürbəcür cəza verdirmişdir. Kərəm bu əhvalatdan sonra Orucağa Kərbalayevdən intiqam almağa fürsət axtarır. Bu fürsət məqamı gələndə Kərəm Oruc ağanı öldürmüş və polis əleyhinə silahlı müqavimət göstərərək atışma zamanı bir neçə strajniki öldürmüşdür. Kərəmin qaçaq düşməsinə səbəb də bu olmuş və bu onu xalq qəhrəmanı etmişdir».[241]

Ata ilə oğulunun, yəni əsərdə Camal bəyb Şahmar bəyin günahsız yerdən qaçaq düşmənləri xalq arasında nüfuz qazanmış Mollazaloğlu İsgəndərlə oğlu Kərəmin qaçaq olmalarını xatırladır.

2. Əsərin ikinci məclisində Camal bəy qaçaq düşdükdən sonra naçalnikin əmri ilə onun ailəsi həbs olunur və ciddi nəzarət altında saxlanılır.

Kərəm haqqında dolaşan rəvayətlərdə də buna bənzər əhvalatla qarşılaşırıq. Bu vəziyyət əlaqədar arxivlərdə saxlanılan ayrı-ayrı rəsmi sənədlərdə də öz izini saxlamışdır.[242]

3. Pyesdə təsvir edilən bir sıra coğrafi yerlər Kərəmin ən çox olduğu yerlərlə tam uyğun gəlir. Məsələn, meşədə vaqe olan üçüncü məclisdə Bəkir Camal bəyə deyir: «Bu yerlərə mən az-çox bələdəm... Uzaq getmək lazım deyil; bax, sağ tərəfimiz sıldırım qayalar, həmçinin sol tərəfimiz və baş tərəfimiz. Aralıqdan pişik keçməz meşə, yuxarı yaylaqdır, aşağı köç yolu... Az-çox salamat buradır».

Əsərdə təsvir edilən bu yer Soyuq bulaq dağı ətəyinə çox uyğun gəlir. Qaraqoyunlu meşəsində üzüyuxarıya doğru qalxan yolun sağ, sol və üst tərəfi sıldırım qaya, aralıq isə qalın meşəlikdir. Aşağısı isə yaylaqdır ki, burada Qazax rayonunun Poylu, Qaralar, Daşsalahlı, Qıraq Kəsəmən, Pirli, Xanlıqlar və Ağköynək kəndlərinin əhalisi köç düşür, dincəlir. Bizcə N. B. Vəzirov bu yerləri təsvir etmiş və həm də olduğu kimi verə bilmişdir. Çünki vəzifəsi ilə əlaqədar özü bu meşələrdə çox gəzmiş, bu yerlərdən çox keçmişdir.

4. Pyesin canı və kulminasiya nöqtəsi hesab olunan 4-cü məclis daha maraqlıdır. Burada Camal bəyin təkidi ilə yoldaşları şose yolunu iki tərəfdən kəsirlər. Əsirləri meşənin içərisində əvvəlcədən müəyyənləşdirilmiş yerə toplayırlar.

Əsir düşənlər içərisində Rusiyadan gəlmiş bir mühəndis, onun arvadı və bir nəfər də meşə qarovulçusu olan cavan oğlan vardır ki, Camal bəyin onlarla olan söhbəti çox maraqlıdır.

Camal bəy hamı ilə, xüsusləi, rus mühəndisi və onun xanımı ilə daha mehriban və səmimi söhbət edir. Bu hadisənin də kökü real tarixi hadisələrlə bağlıdır. Belə ki, 1885-ci il iyul ayının 10-da gündüz saat 1-də Qaçaq Kərəm Qazaxdan Dilicana gedən Ağ yolu «Molla qayası» adlanan yerdə öz səkkiz nəfər yoldaşı ilə kəsərək gəlib-gedəni saxlamış, əvvəlcədən meşənin içərisində müəyyənləşdirdiyi yerə toplamış, xüsusilə, Rusiyadan gəlmiş Qrişa Tiqranov və onun arvadı ilə çox mehriban söhbət etmişdir.

5. Həmin məclisdə Camal bəy rus mühəndisini və onın xanımını qonaq edir, arabaçıya iki qutu papiros verir. Həmçinin Qaçaq Kərəm də öz «əsirlərini» çaya, qarpıza, tütünə qonaq edir, yolxərci olmayanlara pul da verir.

6. Başqa yazılarda Qaçaq Kərəmin dilindən verilən bir sıra ifadələr «Keçmişdə qaçaqlar» pyesində Camal bəyin danışığı ilə uyğun gəlir. Məsələn, Camal bəy üzünü əsirlərə tutub deyir:

«...Quldur mən deyiləm, Sərdarovdur, öz dostları ilə».

O zaman «Doreba» qəzetinin Dilican müxbiri Kərəmin əsirlərlə olan söhbətini verərək yazır: Kərəm deyir: - Kərəm qorxaq deyil, quldur naçalnikdir!

7. Mətbuatın yazdığına görə, Kərəmə əsir düşənlər içərisində Gəncə tacirləri də varmış. Nabatov, Simon Antonov, Aleks İsayev. Kərəm onlardan və İran müstəntiqindən bir qədər pul alır. Əsirlərlə vidalaşarkən pulsuzlara yolxərci verir. Ən çox kasıbların bəxti gətirir.[243]

Əsərdə bu məsələ daha açıq şəkildə şərh edilmişdir. Budur, Camal bəy bir neçə əsirlə söhbət edir. Sonra öz-özünə deyir:

«Fəqir-füqaraın sarsıda bilmərəm, pulsuz da dolanmaq olmayır, naəlac qalıb Ovanes bəydən iki min manat, Hacı Məhəmmədən üç min manat götürdüm».

---

[241] Р.Гусейнов. Очерки революционного движения в Азербайджане, с.39
[242] Gürcüstan SSR MDTA, f.12, s.43
[243] “Doreba” qəz., 1885, №151 (gürcü dilində).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

8. Əsərdə verilmiş vətəndən ayrılıq səhnəsi də maraqlıdır. Məsələn, pyesin beşinci məclisində verilmiş səhnə vətəndən ayrılıq, əlacsızlıqdan qürbət elə getmək, yurdundan, yuvasından, ədalətsizlik üzündən ayrı düşmək, göz yaşları və s. jurnalist Denis Kozlovskinin yazdığı «Qaçaq Kərəm» oçerkində də eyni şəkildə təsvir olunmuşdur.

Müəllif Camal bəyin dili ilə deyir:

«...Camaat yazıqdır, amma yoldaşların adları çəkilməyir, onlar qala bilərlər... Bir də Hacı, insaf deyil, onları vətəndən ayırmaq, çiçəkli dağlardan, soyuq bulaqlardan necə ayırmaq olar. Mənin əlacım yoxdur, ayrılıram».

Denis Kozlovskinin «Qaçaq Kərəm» oçerkində Kərəmin xalq arasındakı böyük hörmətindən, kasıblara olan xeyirxah münasibətindən, yoxsullara əl tutmasından, xalqı təqiblərdən qorumasından, mərdliyindən söhbət gedir. Buna aid müəyyən nümunələr verilir. Əsərin sonunda isə təqiblərə məruz qalmış Kərəm üzünü silahdaşlarına tutub deyir:

«Bilirsinizmi, mən son günlərimi zabit geyimində Tiflisdə keçirdim. İmkan tapıb öyrəndim ki, bizim taleyimiz əvvəlcədən həll edilmişdir. Qərarı sizə təkrar etməyin lüzumu yoxdur... Əmr verilmişdir ki, necə olursa-olsun bizi tutsunlar. Əlbəttə, bizə bu sevimli yerləri qoyub getmək çox ağırdır. Həmişəlik olaraq öz qohumlarımızla, tanışlarımızla, qardaş-bacılarımızın qəbri ilə vidalaşmaq, bu əziz və sevimli dağlarla vidalaşmaq bizim üçün ağırdır, lakin biz bunu etməliyik”.[244]

9. Sərhədi keçmək üçün Kərəmin dəstəsi əvvəlcədən müəyyən planlar hazırlayır: güya zəvvardırlar, Kərbalaya gedirlər.

Sərhədi keçən kimi onlar İran karassuranlarına (polis işçilərinə) rast gəlirlər. Özlərini də zəvvar kimi qələmə verirlər. Hətta Əmir Nizamın teleqramında da hadisə olduğu kimi qeyd edilmişdir.[245]

Fərman Eyvazlının "Qaçaq Kərəm" romanının I hissəsinə "Gəngavərliyin tərənnümü" adlı maraqlı bir ön söz yazan görkəmli yazıçı İ.Şıxlı yazırdı:

"Zaqafqaziyanın müxtəlif guşələrində Kərəmin igidliyi ilə bağlı xalq arasında bir sıra yer adları vardır: "Kərəm körpüsü", "Kərəm qayası", "Kərəm bazarı", "Kərəm çalası", "Kərəm yolu", "Kərəm layı", "Kərəm bulağı", "Kərəm meydanı" və i.a.

El-oba içində məşhur olan bu yer adlarının bəzisi dövrümüzdə rəsmi sənədlərdə də eyni ilə belə qeydə alınmışdır.[246]

Yurdumuzda qəhrəman Koroğlunun da adı ilə bağla bir çox dağlar, mağaralar vardır ki, sonralar onlara Qaçaq Kərəm pənah aparmışdır. Belə dağlardan biri Qazağın əzəmətli "Göyəzən"i idi. F.Eyvazlı "Qaçaq Kərəm" romanında Göyəzəni belə təsvir edir: "...Geniş düzənlikdə tənha ucalan Göyəzən dağı elə bil ümmanda buz dağıdır. Bu mahalda zaman-zaman baş verən hadisələrin qoca şahididir bu dağ...Sanki bütün Qazağın göy qübbəsini nəhəng bir sütun kimi çiynində saxlayan Göyəzənin üzərində əmələ gələn qövsi-quzey dağın başında uzaqdan qızıl tac kimi görünürdü. Onun bir ucu elə bil Borçalı, bir ucu Göyçə dağlarına dirənmişdi. Göyəzən dağı tək qartalların deyil, həm də bir istehkam kimi, ulus qeyrətli igidlərin həmişə arxası, yuvası olmuşdu. Kərəm ora tələsirdi...

Sal qayalarında al çiçəklər bitən, başı bulud çalmalı bu alınmazlığın zirvəsində gözəl bir meşə, sinəsində keşikçi sığınacağına oxşayan bir neçə mağara vardı. Ətəyindəki səkkiz bürclü qaladan həmin mağaralara dar keçidlər açılmışdı. Bu keçidklər dolayı yollarla mağaraları bir-birinə bərləşdirirdi.

Kərəmin daha heç nə vecinə deyildi. Dəstəsi arxasını Göyəzənə söykənmişdi. İndi onlara batmaq çətin idi.

Bu ucalıqdan Göyəzənin yan-yörəsində məskən salmış Abbasbəyli, Alpout, Daşsalahlı, Fərəhli, Məzəm, Ürkməzli Dəmirçilər, Qızılhacılı, Qızıl qayanın sıldırım yamacları, Əksiparanın zümrüd meşələri aydınca görünürdü...".[247]

Bizim ata-babalarımız Göyəzənlə bağlı çoxlu hadisə, rəvayət, əfsanələr söyləyirdilər, elə indi də belə söhbətbr qazaxlıların sevimli mövzularındandır.

Ahıl qocaların dediklərinə görə Göyəzənin zirvəsindəki meşə də, orada olan gözətçi qayalar, sinəsindəki daş mağaralar, ətəyindəki səkkiz bürclü qala da (bir zamanlar qoç Koroğlunun məskəni olmuşdur...

"Qaçaq Kərəm" romanında müəllif XIX əsrin sınaqlarından çıxmış el qəhrəmanı igid Kərəmin obrazını yaratmışdır. Əsər həm də XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan kəndində gedən sinfi mübarizəni öyrənmək, tarixi keçmişimizi tədqiq etmək baxımından maraqlıdır.

"Qaçaq Kərəm" romanını bitirmək, onun II hissəsəsini çap etdirmək Fərman Eyvazlıya qismət olmadı.

65 yaşlı yazıçı Mingəçevirdə böyük şair S.Vurğunla bağlı çıxışından sonra onun iri portretinə yanaşdı və: "Allah sənə rəhmət eləsin ey böyük ustad!" deyib gözlərini əbədi yumdu.

---

[244] “Kaspi” qəz., 1903, №73-77
[245] Gürcüstan SSR MDTA, f.12, iş№341
[246] Qaçaq Kərəm, 1987, səh.5
[247] F.Eyvazlı. Qaçaq Kərəm. B., 1987, səh.207



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dəfn mərasimindəki insanların bu qəfil ölümdən nisgillə dolu olan ürəklərindən: "Hayıf Fərman, "Qaçaq Kərəm", romanı yarımçıq qaldı...." sözləri keçdi.

Fərman Eyvazlının "Qaçaq Kərəm" romanının II hissəsinə "Düyünlü günlər" və "Bir kisə qızıl" povestləri, İsrafil ağanın həyatla vidalaşması səhnəsinə həsr edilmiş "Ağanın ölümü" hekayəsi və yazıçının İran səfəri əsasında yazılmış "Xoy səfəri" publisistik yazısı daxil edilmişdir.

"Xoy səfəri"də yazıçıya Kərəmdən danışan Aşıq Aslan "Qəhrəmanı" havası üstündə səkkiz bəndlik bir şer oxuyur:

Qaf dağıdı bil əyilməz,
Qeylü-qalu heç kəsilməz,
Türk oğludu qorxu bilməz
Meydanda dastandı Kərəm
Gör necə aslandı Kərəm

Qaçaq Kərəmin məziyyətlərini sadalayan bu şerdən sonra aşıq üzünü Fərman Eyvazlıya tutub:

-"Sabah gələrsən, sənə Kərəmin qaçaq ola-ola yeddi igidin bir bacısı Zəhra xanımı necə götürüb qaçdığmı, onu necə öldürmək istədikbrini nəql edərəm. Maraqlı əhvalatlar var", - deyir...



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ULAŞLI ETNONİMİ AREAL TÜRK ONOMASTİKASINDA

*F.e.d. Nəbi Əsgərov*
*ADPU*
*Azərbaycan*

Arealı maraq doğuran oykonimlərdən biri də Ulaşlıdır. Bu oykonimə Qubadlı rayonunda Ulaşlı, Göyçayda Ulaşlı Şıxlı kənd adlarında rast gəlirik. Sabirabad rayonundakı Ulacalı kəndinin də bu kökdən olduğunu güman edirik. Ulaş oniminə antroponim kimi "Dədə Qorqud" kitabında Salur Qazanın atasının adı kimi rast gəlirik.

Hal-hazırda Gürcüstan Respublikasının Marneuli rayonunda Ulaşlı adlı oykonim yaşamaqdadır. 1728-ci ilə aid tarixi sənəddə Borçalı mahalının Ağcaqala nahiyəsinə tabe olan Ərəbli oymağında **Böyük Ulaşlı, Orta Ulaşlı, Kiçik Ulaşlı** camaatı haqqında məlumat verilir. Bundan başqa, həmin nahiyəyə tabe olan başqa - **Ulaşluyi-Qoyunluca** adlı toponimin adı çəkilir (9, 168, 178)

Türkiyə ərazisinin Dəli çay yaxınlığında **Ulaş** adlı makrooykonim qeydə almışıq. X.Əliyeva ortaq yer adlarını araşdırarkən Türkiyə ərazisində Ulaşlı toponimi haqqında məlumat vermişdir (60. 78).

T.Nafasov Özbəkistan Respublikasının Şəhrisəbz rayonunda Ulaç adlı oykonim haqqında məlumat verir. Müəllif yazır ki, Ulaç xüsusi adı tarixi mənbələrdə **Oliş, Ulaş, Ulaç** yazılışında qeydə alınmışdır. O, bu adın semantikasını "qışlaq", "şəhər" kimi mənalandırmışdır (6, 190). Müəllif başqa bir tədqiqat əsərində Ulaş adının semantik izahını "dərya suyu, arx" kimi izah etmişdir (7. 52). Ulaş oniminin semantikası ilə bağlı xeyli fərqli fikirlər mövcuddur. N.A.Baskakov **Ulaş** (<Ulaşeviç); < ulas-ülas adını "tale, qismət" kimi izah etmişdir (1. 76).

M.Seyidov Ulaş etnonimi haqqında yazır: ""Ulaş" - ulu+aş//əs" tərkiblərindən ibarət mürəkkəb sözdür. "Ula" - bir sıra türk dillərində "təpə", "kiçik dağ", "ucalıq" deməkdir. Bəllidir ki, sözün ikinci hissəsi "aş/əs"in "tay" anlamı da vardır. "Ula" və "aş" birləşərək "ula"dakı "a" səsi vurğusuz qaldığından düşmüş, "Ulaş", yəni "təpəyə, ucalığa tay" anlamını verən ad yaratmışdır" (8. 110).

K.Bəşirovun Ulaş adı ilə bağlı araşdırmaları maraqlıdır. Müəllif qeyd edir ki, Ulaş sözü mənbələrdə ulu (böyük, yüksək), ulaşmaq (qovuşmaq, birləşmək), ulus (el, oba) və ulamaq (böyümək) kimi bir-birindən çox da uzaq olmayan mənalarda işlənmişdir ki, zənnimizcə, dastandakı Ulaş şəxs adı da bu mənalara uyğun gəlir. Addakı "ş" formantı isə isim və ya ad düzəldən şəkilçi vəzifəsi daşıyır. Əlaqədar toponimlər: Ulaşlı, Ulaşlı Şıxlı, Ulacalı, Ulubaba və s. (2. 75).

İ.Cəfərsoylunun Ulaşlı etnonimi ilə bağlı fikirləri fərqlidir. Müəllif yazır ki, Azərbaycan dilinin bir sıra ləhcələrində vələs ağacına ulas deyilir. İndi Qubadlı, Göyçay, eləcə də Dağıstanda Ulaş adlı köylər vardır. Arakel Davrijetskinin (Təbrizli Arakelin) yazdığına görə XVII yüzildə Araz çayı yaxınlığında Ulaş adlı şəhər varmış (3. 19).

Tədqiqatçılarımız Kulas xüsusi adı ilə Ulaş etnonimi arasında semantik yaxınlıq görürlər. "Kulasların Şimali Qafqazda mövcudluğu haqqında VI əsrə aid Suriya mənbələri məlumat verməkdədir. Elmə bəlli olan hələlik budur ki, qədim bulqarların Volqa ətrafındakı şəhərlərdən biri **Xulaş** adlanıb. Bəzi müəlliflərin fikrincə, **Kulas** etnonimi ilə qədim Bulqar şəhəri **Xulaş**, Azərbaycanın Qubadlı və Göyçay rayonlarındakı Ulaşlı kənd, Gürcüstanın Borçalı mahalındakı Ulaş toponimi, Dağıstandakı Ulaşlı kəndi, Ermənistanın XVII əsrə aid Ulaş şəhəri və Qazaxıstandakı Kulaş qalası arasında ümumi yaxınlıqlar vardır" (5. 292).

Biz Ulaş onomastik vahidini etnotoponim hesab edir və bu tayfanın əsasında bir çox etnoslarda olduğu kimi Ulaş antroponiminin dayandığını görürük. Deməli, antroponimdən etnonim formalaşmış, etnonimdən isə coğrafi adlar yaranmışdır.

## ƏDƏBİYYAT:

1. Баскаков Н.А. Имена половецев и названия половецких племен в русских летописях. Тюркская ономастика. Алма-Ата-"Наука" 1984, с.76.
2. Ицжшкщм Л. "Гдфж щхдг Ыфдгк Йфяфт" фтекщзщтшьш. Фяцкифнсфт щтщьфыеш лфыэ зкщидуьдцкш. ЭМ. Ифлэ-1993, ыцр.75.
3. Сцацкыщндг Ш. Еъклдцк кгыдфкэт ыщнлблътвц. Фяцкифнсфт Вбмдце Зувщйщош Гтшмукышеуештшт тцжкшннфеэ. Ифлэ-1995, ыцр.19.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Цдшнумф Ч. Щкефй еъкл нук фвдфкэ рфййэтвф. Фяцкифнсфт щтщьфыешлфыэ зкщидуьдцкш. М. Ифлэ-1995, ыцр.76-78.
5. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkül tarixindən. Bakı, 1994, s.292.
6. Nafasov T. Uzbekiston toponimlaininq izoxli luğati. Toşkent “UKİTUVÇİ”, 1988, s.190.
7. Nafasov T. Kişlğinqiz neqa şunday atalqan? Toşkent, Uzbekiston SSSR “Fan” naşriti. 1989, s.52.
8. Iunşvhm Ğ. Fəükifnsft çfdygtgt ıhnlblctc vcjctüklüt. İflg-“Nfəgög”-1989, ıür.110.
9. Eşadşı ünfdüeştşt ğcaüııüd vüaeükş. İhköfdg mü Yfəfç (1728-sş şd). İflg-“Zuvfyhpşlf” tüjkşnnfeg, 2001, s.168, 178.

## В АРЕАЛЬНОЙ ТЮРКСКОЙ ОНОМАСТИКЕ ЭТНОНИМ УЛАШЛЫ

В статье исследованы ареалы и семантика ойконима Улашлы.Наряду с тем, что ойконим Улашлы существовал в районах Губадлы и Геокчай, его существование отмечаетсч в районе Марнеули Республики Грузия, а также в Турции и в Республике Узбекистан.Ойконим Улашлы исследован как ойконим этнонимного происхождения.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QAQAUZLARIN TOY-DÜYÜN MƏRASİMLƏRİ

***Prof.Dr. Nizami Məmmədov***
***Bakı Slavyan Universiteti***
***Azərbaycan***

Qədim türklərdə toya olduqca böyük əhəmiyyət verilirdi. Qədim türklər toy mərasimi olmayanlara heç də yaxşı baxmırdılar. Rəsmi nikaha girməyənlərə, toyu hüquqi cəhətdən möhkəmləndirilməyənlərə ictimai rəy də birmənalı qiymət vermirdi.

Toy nəinki nikaha girənlərin arasında yeni ictimai vəziyyəti təsdiqləyir, həm də qohumluq əlaqələrinə daxil olanların təsərrüfatı, iqtisadi, hüquqi, mədəni-mənəvi münasibətlərini möhkəmləndirirdi və buna görə də toy nəinki iki gəncin birgə həyatının başlanğıcını qoyan mərasim kimi dərk olunur, həm də onları şər qüvvələrdən qoruyan əfsun mərasimidir Buna görə də nəinki türklərdə, həm də digər dünya xalqlarında toy zamanı çoxsaylı əfsunlar həyata keçirilir, onun tarixi kökləri isə lap qədimlərə gedib çıxsa da, bu günün özündə belə türk ulusların da bu əfsunlardan genbol istifadə olunmaqdadır.

Əlbəttə, ilk növbədə toy mərasimlərində kənd, el-oba dünyagörüşünün, düşüncə tərzinin xüsusiyyətləri öz əksini tapmışdı. Müxtəlif türk xalqlarında toy mərasimləri özünün oxşar və sırf spesifik xüsusiəəytləri və detalları ilə seçilir. Bu, qaqauz toyları üçün də xarakterik cəhətdir. Spesifikliyinə baxmayaraq, toy mərasimləri nəinki qaqauzlarda, türklərdə, həm də digər xalqlarda, slavyanlarda ərəblərdə, farslarda ümumi cəhətlərə də, şübhəsiz ki, malikdir. Bu özündə aşağıdakı mühüm mərhələləri birləşdirir: elçilik, nişanlanma, qız məclisi (qız başı), toy günü, toydan sonrakı mərhələ və s. Folklorşünas B. Abdulla burada üç mərhələ- toya qədərki dövr, toy və toydan sonrakı dövrü fərqləndirir (1) .

Qaqauzların toy-düyün adətləri, onların özünəməxsusluğu, özəlliyi ilə bağlı türk mədəniyyəti, folkloru və ədəbiyyatının yaxın dostu və təbliğatçısı akad. V.V.Radlovun tələbəsi V.A.Moşkorun hələ XX əsrin əvvəllərində hazırlamış olduğu fundamental « Bender qəzasının qaqauzları » kitabında, Qaqauz mədəniyyətinin babası hesab edilən «Ay baba» protoirey Mixail Çakirin əsərlərində, Nikolay Babaoğlunun, A.Çolakın, S.Kuroğlunun, Türkiyədən olan tədqiqatçılar Perihan Lokmanoğlunun , Doğan Kayanın, Azərbaycan folklorçusu G.Yoloğlunun və d. əsərlərində xeyli dəyərli məqamlarla rastlaşa bilirik.

Qaqauzların əksər adətlərini-ənənələrini, dilini, folklorunu, musiqisini, xalq təbabətini, etnorqafik alətlərini və əşyalarını, illüstrativ kolleksiyalarını böyük diqqətlə yığan etnoqrafik və türkoloq V.A.Moşkovun qaqauzşünazlığa verdiyi töhvə, zənn edirik ki, hələ çox uzun bir zaman kəsiyində əhəmiyyətini itirməyəcəkdir.

Qaqauzların həyatını, məişətini dərindən və hərtərəfli öyrənmək üçün o, Bessarabiyanı, Balkanları, Polşanı, Türkiyəni gəzmiş bu xalqın həyat tərzi və adətləri ilə bağlı maraqlı fakt və materiallar üzə çıxarmışdır(2). Qaqauz toy-düyün mərasimləri ilə bağlı kitabda təqdim olunmuş materialda « Toy » fəsli əsərin beşdə bir hissəsini əhatə edir. V.Moşkov qaqauz toylarında aşağıdakı mərhələləri- nişanlanma, yemiş (üzüm)- bu nişandan bir, ya iki həftə sonraki mərhələdir ki, buraya dəvətliləri yemişə, yaxud üzümə (kişmişə) qonaq edirlər və toy bu yemişdən iki həftə, yaxud bir ay sonra baş verir.

Qazi univərsitəsindən olan dosent, doktor Perihan Lokmanoğlu türk və qaqauz toylarında bənzərlik məsələsinə toxunarkən burada «Kız isteme», «Nişan töreni (Çorta)», «Dügün», «Gelin giysisi», «Güvey giysisi», «Giyim kuşamı»; (3) digər türkiyəli mütəxəsis dosent, doktor Doğan Kaya isə «Kız isteme», «Baalantı (Söz kesimi)», «Coda (Nişan)», «Nişanlılıq dönəmi», «Dügün», «Dügün sonrası»nı qeyd edirlər. (4) Protorirey Mihail Çakirin də qaqauzların toy mərasimləri ilə bağlı fikirləri bu xalqın toy adətlərinin öyrənilməsində bizə yardımçı olmuşdur. Mihail Çakir qaqauz toylarını yuxarıdakılardan fərqli olaraq ayrı-ayrı mərhələlərə bölmür. Lakin toyla bağlı mülahizələrdə bu mərhələlərdən konkret olmasa da söhbət açılır.(5) Azərbaycanda qaqauz folkloru, mədəniyyəti, ədəbiyyatının təbliğində xeyli işlər görmüş və bu günün özündə də görməkdə olan filologiya elmləri namizədi Güllü Yoloğlu özünün 1996-cı ildə nəşr etdirdiyi «Qaqouz folkloru » kitabındakı «Ön söz»də qaqauzların şifahi yaradıcılığında olan digər örnəklər və janrlarla yanaşı, bu xalqın qədim adət-ənənələrindən olan toy mərasimləri haqqında da qısaca da olsa danışır. G.Yoloğlu qeyd edir ki, qaqauz toy mərasimində hər bir adət türkü ilə müşayiət olunur. Bu türkülərin sırasında «gəlin türküləri», «traş türküsü», «xamur türküsü», «güvə türküsü», «Pelik türküsü» və s. göstərilir. G.Yoloğlu yazır ki, qaqauzlar toya adətən cümə axşamı çörək bişirməklə başlayırlar.(6) Biz qaqauzların türkülərinin mövzu-janr, kompozisiya-məzmun xüsusiyyətlərindən danışdıqda ona daha geniş şəkildə toxunmağı nəzərdə tutduğumuzdan burada bu məsələni şərh etmək fikrində deyilik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Toy-düyünlə, gəlinlə bağlı V.S.Karanfilin namizədlik disertasiyasının avtorefaratında biz yalnız bir üzük, bilezik, left, boncuk, küpə, gərdan, duvak və s. gəlin bəzək əşyalarına rast gəlirik. Bu müəllifin dissertasiya məişət leksikasına və dil məsələlərinə həsr edildiyindən mərasim adətləri, o cümlədən toy-düyünlə bağlı mülahizələrə orada xüsusi yer ayrılmamışdır.(7)

Adlarını çəkdiyimiz və çəkmədiyimiz xeyli müəlliflər də və mənbələrə qaqauzların, türk xalqlarının toy-düyün adətlərinin özünəməxsusluğundan, bu adətlərin digər xalqlar arasında uyğun olan məqamlarından söhbət açılır. Qaqauzların toy-düyün adətlərinin spesifik çalarları ilə bağlı bəzi məlumatları biz həm də digər mənbələrdən hazırda Komrat Dövlət Universitetində Tədris işləri üzrə prorektor işləyən dosent doktor S.D.Bankovadan, XX əsrin 90-cı illərində M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnistitutunun (bu günki Bakı Slavyan Universitetinin –N.T.) məzunu, qaqauz milli adət-ənənələrinə hörmətlə yanaşan və onu dərindən bilən, hazırda Bakıda yaşayan İvan Zavriçkodan və başqalarından ala bilirik.

Qaqauzlarda, ümumiyyətlə, digər türk xalqlarında, o cümlədən Azərbaycan türklərində olduğu kimi qız alma ilə bağlı məşhur bir kəlam vardır: «Urdun kalpaklan, yıkılmadı, xayda gitsin» (8)

Qaqauzlarda belə mərasimlərin başlanğıcı «Xoru yeri»dir. Əksər hallarda elə qızın özünü də oğlan «Xoru yeri»ndə bəyənir. Oğlanın ata-anası da «Xoru yeri»nə gedirlər.Əgər oğlan bəyənən qız onların da xoşuna gəlsə, onda ailəliklə məsləhətləşmə aparılır və qohumların daha dilli-tavazalılarından birini (qaqauzlar ona «dünürçü başı» deyirlər) qız evinə göndərirlər.

O, qız evinə gəlir və sobaya yaxınlaşıb maşa ilə közü qarışdırır. Qeyd edək ki, toy mərasiminin bütün mərhələlərində (biz bunun məzmunda dəfələrlə şahidi olacağıq)- dünürçü başının ilk dəfə oğlan evinin bir neçə mərhələ elçiliyə gəldiyi vaxt, nişanda, nişandan sonrakı dövrlərdə, toya hazırlıq və toy zamanı şərabın daim hadisələrin tərkibində olduğunu görəcəyik. Lakin qeyd edək ki, ilkin elçi gedəndə və qızın ilk «hə»si alınanda Azərbaycan türklərində şərab və digər spirtli içkilərdən istifadə etmək nəzərdə tutulmur. Bu da, hər şeydən öncə, toy mərasimlərimizin bu mərhələsində müsəlman adət-ənənələrinə ciddi riayət etməyimizdən irəli gəlir və ondan ilk elçilik zamanı istifadəni işin gələcək uğurluluğuna xələl gətirə biləcək bir ritual kimi qiymətləndiririk. Qaqauzlar isə xristian olduğlarından onların toy mərasimlərinin bütün mərhələlərində məhz şərabdan istifadə ənənəyə uyğunluqdan irəli gəlir. Dürümçü başı qız evinə gəldikdə (qış zamanı-N.M.) sobaya yaxınlaşıb maşa ilə közü qarışdırır. Ev sahibi sanki buna məhəl qoymur, görmür, lakin bu hərəkətin nə demək olduğunu yaxşı bilir. Elçiliyə gələn «Avşam ayrusun» (axşamınız xeyir), «müsafir kabulmusunuz» deyir. Ona cavab verirlər «müsafirdən kim kaçar». Oturub, yeyib-içib, ordan-burdan danışdıqdan sora gələn «Biz otureres xem şerap içeyerız, ama siz beni sormayorunuz, neçin geldim ben sizə». Ev yiyəsi: «Buyur söyle nə varsa yüreyinde». «Ye söyleyeciim şindan sonra. Diilmi bileersiniz ne için geldim? Biz isteeris sizinnen suvatu olma!» Qızın atası: «Bizim qızımız taa küçük, bu yıl onu vermeyceem, kiminse kısmet gelen yıla,» qızın anası əlavə edir: «Ciizi taa tamam diil, bu yıl vermeyceem, kimse olursa gelen yıla.» Beləliklə söhbət uzanır, yeyirlər, şərab içirlər. Nəhayət, elçiliyə gələn bir də deyir: «Verin bana cuvap, olacak mı, olmacak mı?». Qızın anası: «Siz pek çavuk isteersiniz?», atası: «Bakalım, düşünelim, laf edelim, da ondan sora söölərsiz sana işin aslına».

Elçi oğlan evinə qayıdıb nəticə haqqında məlumat verir. Oğlan özü isə qapı arxasında dayanıb onun məsələsinin necə həll edildiyinə qulaq asır. Bir-iki gündən sonra elçi yenidən qızın atasının icazəsi ilə: «Yarın avşama buyurun, gelin her bir hazırlınızlan». Ad eləməni qaqauzlar adətən imkan dairəsində şənbəyə, yaxud hər hansı bayram gününə salmağı məqsədəuyğun hesab edirlər. Oğlan evi qız evinə şərtləşdirilmiş gün və saatı bildirir və dəstəylə yığılıb qız evinə gedirlər.

Əgər oğlan evinin bu istəklərinə qız evi uyğundursa, onda qıza elçi göndərilə bilər. Qaqauzlar elçini elə vaxt yollamaq istəyirlər ki, o gedəndə qızı iş başında görə bilsin, onun əl qabiliyyətinin necə olduğuna inansın. Qaqauzlarda belə bir fikir var ki, evdə sobanın qurumunu alan qızın üstünə onun bir dənəsi yapışmamalı, düşməməlidir və onların fikrincə bunun özü də qızın bacarığını əks etdirən əlamətdir. Oğlan tərəfi uzun müddət ərzində qız evini dərindən öyrənir. Bununla belə qız evi də öz növbəsində oğlan tərəfi dərindən, hərtərəfli öyrənməklə məşğul olur. Oğlanın ağllı-kamallı olması, içkiyə meyli olub-olmaması, evləndikdən sonra ailə saxlaya biləcəyi, valideyinləri ilə necə münasibətdə ola biləcəsi, fiziki və psixi cəhətdən sağlamlığı, xarici görkəmi, ədəb-ərkanı və s. məsələlər dərindən araşdırılır.

Beləəiklə, hər iki tərəf bir-birini yaxşı öyrəndikdən sonra (hər iki tərəfin maddi, mədəni, mənəvi, təsərrüfat və digər imkanları) xeyli götür-qoydan sonra razılıq əldə olursa, məhz «bağlantı» məqamına gəlib yetişirlər. Buna digər türk xalqlarından (Anadolu, Azərbaycan türklərində) və slavyanlarda, o cümlədən ruslarda, ukraynanaılarda, belarus və digər toplumların toy adətlərində biz rast gələ bilirik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Bağlaantı» Anadolu türklərində də «bağlantı» Azərbaycan türklərində razılıq, ruslarda «baxış» («smotrin»dən sonra), «əl-ələ tutmaq» («rukobitye») adəti vardır ki, bu məhz qız evində baş tutur və bu, toyla bağlı mühüm məqamlardan biri hesab olunur. (9)

Qaqauzların adət-ənənələrini damla-damla, kəndbəkənd, obabaoba yığan V.Moşkov daha sonra göstərir ki, qaquzlar elçiliyi adətən gecə vaxtı edirlər ki, onların qız almağa getdiklərini görən olmasın, Türkiyədən olan folklorçu Perihan Lokmanoğlu isə bildirir ki, «qaqauzlarda iknci defa bir bayram günü veya tatil günü yaxın akrabadan iki kadın dünür olaraq gönderilir. Vakit ya sabah erkən saatlerde ya da akşam alaca karanlıktadır». (10)

Bağlantı baş tutduqdan sonra qaqauzlar oturub yeyib içirlər. Qız atasına da şərab süzürlər, oğlanın qohumlarından biri stəkanı ona verir. O isə yerindən qalxıb ikona qarşısında üç dəfə xaç çəkir və deyir: «Hadi şevkenize xayirli kademli saatta çekedelim, Allah onnara böyük kesmet versin xem güzel anıl.» Qalanlarda təkrar edir: «Allah versin».

Nəhayət «nişan», «nişan töreni», «çorta», «çoda» ya hazırlıq başlanır.

Qaqauz nişanında dever deyilən sağdıcın rolu böyükdür. Dever nişan bayrağını hazırlayır. Azərbaycan türkləri nişan bayrağıı hazırlamırlar. Bu bizlərdə əsasən qırmızı yaylıqdır ki, o həm oğlan evi, həm də qız evi tərəfindən qız evinin darvazvsında yuxarıda daha görüntülü yerdən asılır.

Oğlan evində çeşidli bir çəmbər hazırlanır. Çəmbərin dörd küncünə kiçik altın, ortasına böyük bir altın qoyurlar. Qaqauzlarda nişan şənbə günündən bazar gecəsinə təsadüf etməlidir. Nişan törənində nəinki oğlan evi qız evinə həm də qız evi oğlan evindən gələn qohum-əqrabaya- kişilərə dəsmal, qadınlara isə yaylıq paylanılır. Qızın başına «nişan çəmbəri» qoyduqdan sonra o, yavkulu hesab olunur. Nişanlı qız məclisdə olanların ətrafında dövrə vuraraq onların əllərindən öpür. Nişan mərasimi başa çatdıqdan sonra dəvətlilər musiqi sədaları altında, rəqs-edə-edə evlərinə dağılışırlar.

Qaqauzlarda mərasimin ən yüksək zirvəsi toy-düyün günüdür. Keçmişdə toya bütün kənd-köy dəvət edilər və o üç-dörd gün çalınardı. Bu hələ lap XX əsrin 50-60-cı illərinə qədər Azərbaycan türklərində də belə idi.

Toyun özünün də keçirilməsi qaqauzlarda bir sıra ritualla çərşənbə günü «maya tutması», «xəmir yoğrulması» ilə müşayiət olunur.(11) «Maya tutması», «xəmir yoğrulması» elə bir ritualdır ki, ona riayət olunması evə xeyir-bərəkət gətirilməsi kimi qəbul olunur. Oğlanlar və qızlar rəqs edə-edə musiqi sədaları altında xəmirə qatmaq üçün bulağa və ya çaya su gətirməyə gedirlər.(12)

Əski qaqauz türklərinin baxışlarına görə bu törənin din-əfsun, simvolik-rəmzi və poetik elementləri mövcuddur. Zaman keçdikcə əfsunlar toy-düyün adətlərində öz yerini daha çox poetik elementlərə verməyə başladı. Folklorşünaslar qaqauz türklərində nişan-toy törənlərində daim türkülərə üstünlük verildiyini qeyd edirlər. İreçek, V.Moşkov, Güllü Yoloğlu, P.Lokmanoğlu, D.Kaya və başqaları toyda bir sıra türkülərin oxunmasını- «xamur», «pelik», «traş», «gəlin», «yol» türkülərin qaqauz düyünlərində mühüm yer aldığını qeyd etmişdir.

Qaqauzlarda toyun «bayrağı hazırlandıqdan sonra hamı evinə dağılışır, geyinib- kecinib axşama «çələng» «fenets» hörməyə yığışırlar. «Fenets» ağ kağızdan düzəldilir, kişili-qadınlı toya dəvət olunanlar –çələngi kişilər papaq kimi, qadınlar isə yaylıq kimi geyirlər. Bundan başqa gəlinin başına yığışan qızlar müqəddəs bitki sayılan «fəslin»dən bəy, gəlin, sağdıc (bəyin xaç atası) və krestnitsa (oğlanın xaç anası) üçün çələng hazırlayırlar.

Azərbaycan türklərinin də toy-düyün adətlərində həm oğlan, həm də qız üçün sağdış və soldış vardır. Lakin bizim toylarda onlar qaqauz toylarında olduğu kimi əlahiddə səlahiyyətlərə malik deyildirlər. Belə ki, biz də oğlan evindən toya «toy bəyi», «sərpayı», «toyun xanı» kimi üstün səlahiyyətlilər nəzarət edirlər.

Toyxanada qonaqların qəbuluna, əyləşdirilməsinə, onların müxtəlif arzu, tələb və təkliflərinin yerinə yetirilməsinə, rəqs etmələrinə, çalğıçıların oxuyub-çalmasına- bütün hər nə varsa hamısı onların arzusu, istəyi, nəzarəti altında həyata keçirilir.(13) Azərbaycanın Şirvan və digər bölgələrində toyun xanı toy gününə bəzən 10 gün, bir həftə qalmış müəyyənləşdirilir. Hələ oğlan evində toya hazırlıq gedən zamandan başlayaraq, demək olar ki, buraya köməyə gələn qohum-əqrəba, qonşular xana verilmiş statusla razılaşırlar və toyun xanın dediklərinə əməl etməyə çalışırlar. Toyun xanının yanından Şirvanın Ucar bölgəsində sağdış və soldış (onlara həm də toyun «qazaxları» deyirlər) olurlar. Toyun xanının əlində şallaq, qırmanc və yaxud qayış, sağdış, soldışın əlində isə heyva, yaxud nar çubuğu olur. Bəyin tay-tuşları, dostları özləri bilərəkdən xanını toyda verdiyi göstərişi (əmri) yerinə yetirmədikləri, olduğu təqdirdə xan qazaxların köməyilə onları cəzalandırır, onlar xana, bəyə təzim edir, səsləndirilmiş, deyilmiş «cərimə»ni «Xan, bəy, taxtın mübarək» deyib, bəyin stolunun üstünə atırlar.

Protoirey M.Çakir qaqauz-toylarında olan ən mühüm məqamlardan biri haqqında belə danışır: «Güveenin evindən düün dooruler gelinin evina, nereda gena gider kutlamaklar, tanşlar hem iilenmeklar gün kauşuncaya kadar. Emen bütün küü toplaner seslamaa muzikayı, görma tanşları hem sırayı, da



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

insannar, durarak ayakça yakında, sokakda hem yanındakı aullarda, yavş sevinmekliklan siirederlar düün terenomiyasını, yavaş lafederak.»(14)

Perihan Lokmanoğlu yazır ki, «Gelin kıza elbiseleri giydirilir. Bu giysi «çatal don»dan ibarəttir. «Don» keten və kumaşındandır, yarısı beyaz, yarısı da koyu renkdir. Beldən yukarısına ipekli bir gömlekle «enteri» bunların üzərinə de kısa kollu bir «kontoş» geydirilir. Gelin kiliseye gideken «piniş» giydirilir. Piniş bütün vücudu örtər. Gelinlik kız saçlarını örer, arkadan iki kat «zülüf» keser, başına bir «fes» koyar, ətrafına bir «çember» sarar, üstünə altından bir «takaltu» ilə «kalkan» və «visulka» başının arka tərəfinə bir çiçek ön tarafına altunlar, boynuna mücevherlerle birlikdə «gerdanlık», kollarına isə bilerzik, belinə de sırma kemer takarlar» (15)

Qaqauzların toy-düyün adətləri ilə tanış olduqda biz onlarda, ümumiyyətlə, digər türklər üçün xarakterik olan xüsusiyyətlərin şahidi oluruq. Sadaladığımız mərasimlərin, ritualların, demək olar ki, xeyli hissəsini biz nəinki Anadolu və Azərbaycan türklərində, həm də digər türklərdə tapa bilirik. Qaqauzlarda da biz türklərdə olduğu kimi, ailədə kişi və qadının rolu və yeri son dərəcə dürüst müəyyənləşdirilmişdir və bütün hallarda üstünlük kişiyə verilmişdir. Bu heç də qaqauzların feodal-patriarxal yaşam tərzinə önəm verilməkdən yox, həm də türkçülükdə kişiyə verilən yerə uyğun seçimdən irəli gələn cəhətdir.

Qaqauzların toy-düyün mərasimlərindən danışarkən onlardakı toy nəğmələrindən danışmamaq da mümkün deyildir. Çünki digər türk qövmlərində – qazaxlarda, özbəklərdə, qırğızlarda, qaraqalpaqlarda, Azərbaycan və Anadolu türklərində, Sibiriya türklərində olduğu kimi, onlarda da toyqabağı və toy günü oxunan türkülər düyünün tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

Qazax, qırğız, qaraqalpaq və digər türk qövmlərində olan «toy basdar», «jar-jar», «sınsu», «bet aşar» kimi mərasimlər öz məişət-ritual mahiyyət və təyinatlarından başqa, həm də təntənəyə yığışanları əyləndirmək, toyu-büsatı şən keçirmək məqsədini daşımaqdadır.

Qaqauzlarla qaraqalpaqların toy adət-ənənələrində xeyli yaxın motivlər vardır. Biz hesab edirik ki, qaqauzlar-oğuzlar, qaraqalpaqlar-kıpçaqlarla bir soy kökə bağlı olsa da, onların genetik birliyini sübut edən çoxsaylı məqamlar vardır. Çünki Qaraqalpaqstanda qazax, qıpçaq, qazayaqlı və digər tayfa və qəbilələr olduğu kimi, qaqauzların etnogenezində və bugunkü Qazaxıstanda biz qazax, qıpçaq, qazayaqlı tayfalarının adlarına rast gəlirik. Əgər genetik yaxınlıq güclü olmasaydı, həm bu, həm də digər xalqlarda bu tayfaların da adı eyni olmazdı. Əlbəttə, bu tamamilə başqa bir söhbətin mövzusudur və biz məsələyə daha dərindən yerli-yataqlı qayıtmaq və onu dərindən araşdırmaq fikrindəyik.

## ƏDƏBİYYAT

1.Abdulla B. Azərbaycan mərasim folkloru, Bakı, Qismət, 2005, s. 120.

Мошков В. Турецкие племена на Балканском полуосрове- Кишинев, «Елена- »,2005,с.40-41.

3.Lokmanoğlu Perihan. Türk və qaqauz geleneklerinde benzerlikler.- «Sabaa yıldızı» jurnalı, 1998, №5, s.49-52.

4.Kaya Doğan. Qaqauz türklerinde dügünle ilgili terimler.- «Sabaa yıldızı» jurnalı, 2001, №14, s.20-24.

5.Protoirey Mihail Çakir. Qaqauzların düün adetleri. «Sabaa yıldızı» jurnalı, 2004, №29,s.2-4.

6.Yoloğlu G. Qaqouz folkloru.- Bakı, Gənclik, 1996, s.6-8.

7.Каранфил В.И. Бытовая лексика гагаузского языка.-Автореф. Дисс. канд.филол.наук.- Баку, 2004, с.16-18.

8.Мошков В.А. Гагаузы бендерского уезда, с.101.

9.Кравцов Н.И. Русское народное поэтическое творчество.- М., Просвещение,1971, с.55; Аникин В.П., Круглов Ю.Г. Русское народное поэтическое творчество.- Л.,Просвещение, 1987, с. 88.

10. Lokmanoğlu Perihan. Türk və qaqauz geleneklerinde benzerlikler,s.49.

11.Yoloğlu G. Qaqouz folkloru, s.7.

12. Yoloğlu G. Qaqouz folkloru, s.7.

13.Abdulla B. Azərbaycan mərasim folkloru, s.131.

14. Protoirey Mihail Çakir. Qaqauzların düün adetleri, s.3-4.

15. Lokmanoğlu Perihan. Türk və qaqauz geleneklerinde benzerlikler, s.51.

**Свадебные обряды гагаузов**

В представленной статье изучаются народные свадебные традиции гагаузов. Обращается внимание на специфичность отдельных моментов свадебного обряда этого народа, выявляются общие и сходные особенности со свадебными традициями других народов. Глубокому анализу подвергаются в работе этапы свадебного обряда гагаузов, азербайджанских и анатолийских тюрков.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRKLERDE HOŞGÖRÜ ÖRNEKLERİ

***Dr. Ömer ASLAN***
***Cumhuriyet Üniversitesi***
***İlahiyat Fakültesi Öğr. Gör.***
***Türkiye***

Teknoloji baş döndürücü bir hızla ilerlerken, XXI.asra girdiğimiz şu günlerde insanlık hala kin, nefret ve düşmanlık duygularından kurtulmuş değildir. Küreselleşen bir yapı ile dünya küçülmeye devam ederken, insan ve insanlık bir türlü büyüyememiştir. Her asır ve çağda olduğu gibi bugün de insanların sevgi, saygı, hoşgörü, adalet, barış, huzur ve hürriyete ihtiyaçları vardır. Fakat durum hiç de böyle olmamış eski çağlara nazaran insan uygarlığı haksızlığa dayalı acımasız bir düşmanlığın içerisine düşmüştür.

Pek çok uygarlığa beşiklik eden Anadolu, farklı ırk ve dinden olan insanları bağrına basmış, hoşgörü ve kardeşlik içerisinde yaşatmış bir geleneğe sahiptir. Türk halkı gönlündeki genişliğe İslam Dininin feyzini de katarak 13.yüzyıldan beri hoşgörü medeniyetinin temsilcisi haline gelmiştir. Daha 1940lara kadar "insan hakları" diye bir kavram yoktu, Birleşmiş Milletler ve NATO diye bir teşkilat yoktu... II. Dünya savaşında 38 milyon, bazı kayıtlara göre 50 milyon insan öldü. Ondan sonra Birleşmiş Milletler teşkilatı kuruldu ve bir yasa hazırlanarak 30 maddelik İnsan Hakları Evrensel Beyannamesi ilan edildi. Bütün bunlar insanlığın sevgi ve kardeşliğe ne kadar ihtiyaç duyduğunun en büyük göstergesidir.

İnsan hakları hususunda yeterli adımların atılamamasının sebeplerinden biri de, Hz. Îsa'nın, "hepiniz kardeşsiniz" (2) sözünün, Hıristiyanlarca yanlış anlaşılması ve yorumlanmasıdır. Nitekim Hıristiyanlar, ta Yirminci yüzyıl başlarına kadar, kendileri dışında kalan diğer insanları, paganlıkla suçlamışlardır. 19.yüzyılda, Katolik Dünyası, pozitivizm ve materyalizm karşısında büyük bir sıkıntıya girmiş ve bu sıkıntıdan kurtulabilmek için de yeni bir arayışa girerek, bu ezikliğin altından çıkabilmek için birtakım formüller bulabilme amacıyla 1873'ten 1879'a kadar çeşitli toplantılar yapmıştır. Nihayet, Papa XIII. Leon, *din ile toplumun, din ile devletin ve din ile bilimin barıştırılması* şeklinde bir proje geliştirmiştir. Daha sonraları, özellikle Louis Masssignon'un yanında yetişmiş olan Anawati gibi, Louis Gardet gibi aynı zamanda orta çağ ve İslam uzmanı olan kişilerin gayretleriyle İkinci Vatikan Konsili'nde İslam-Hıristiyan ilişkilerine dair yeni bir kapının açılması sağlanmıştır. İkinci Vatikan Konsilinde Ortaya çıkan anlayış doğrultusunda Kilise, kendi bünyesinde Hıristiyan olmayan gruplarla ilgili seksiyonlar açmış ve bu seksiyonlara bağlı olarak da Müslümanlarla ilgili bölümler geliştirmeye çalışmıştır. Ortalama olarak 1870'li yıllarda hızlanmaya başlayan bu çabalar, İslam-Hıristiyan diyalogu çerçevesinde Akdeniz İslam ülkeleri ile Avrupa ülkeleri arasındaki ilişkiler Batı dünyasında yaygın bir şekilde kendini göstermektedir. Nitekim, 1970'li yıllardan 1995'lere kadar, uluslararası nitelik taşıyan yaklaşık kırk kadar toplantı yapılmıştır. (3)

Bunlara karşılık Anadolu'da 12-13.yüzyıldan beri Mevlâna, Yunus, Haci Bektaş Veli ve Pir Sultan Abdal ile özdeşleşmiş olan sevgi ve hoşgörü anlayışı devam etmekteydi. Zira onlara göre insan, Hak'kın tecelli aynasıdır. Bunun için de o çok yüce, değerli ve kutsal bir varlıktır. Hal böyle olunca o, hoşgörüye, sevgiye, af ve merhamete layıktır. İşte bu anlayış ve ruh asırlar boyu aynı örnekleri yaşatarak bugüne kadar gelmiştir.

Türk medeniyetinin bu yönüne işaret eden Voltaire, kendi yandaşlarına serzenişte bulunarak şöyle demektedir: "Sizi, yaratan Tanrı'ya hiç bir zaman arı bir tapınışta bulunmasını becerememiş akılsızlar!... Ey, bütün bilgelerin verdikleri örneklerle hiç bir zaman doğru yola getiremedikleri zavallılar!... Türk padişahına baksanıza bir kez: Zerdüştleri de, Banianları da, Rumları da, Nasturileri de, Katolikleri de pekala yönetip gidiyor." (4)

ABD Wisconsin Üniversitesi profesörlerinden Kemal Karpat, "Osmanlı'da Hoşgörünün Hukukî Temelleri" adlı tebliğinde, şu iki tarihi olaya yer vermektedir. Osmanlının hoşgörüsünü sahneleyen bu tarihi gelişmelerden birincisi şöyledir: "18. yüzyılda Çar Petro'nun giriştiği reformları beğenmeyip, oradan kaçarak Osmanlı topraklarına sığınma izni isteyen bir grup Hıristiyan vardır. *Staroverı (Eski İnançlar)* isimli bu grup, Osmanlı padişahı tarafından kabul edilmiştir. Bunlar Dobruca'da Razen Gölü etrafında yerleşmişler ve halen de orada oturmaktadırlar. İki yüz küsur seneden beri orada bulunan bu kimselerin kiliseleri, adetleri kendi vatanları olan Rusya'da emniyette olmadığı için buraya gelmiş ve burada halen muhafaza edilmektedir." 1850'lerde Mecidiye kasabasında vuku bulan ikinci tarihi gelişme ise şöyledir: "Mecidiye köyde malzemesi İstanbul'dan getirilen bir cami inşa edilmiştir. Fakat, daha sonraları oraya Rumenler gelmeye ve yerleşmeye başlayınca Dobruca, Rumenlerin eline geçmiş. Bu gelişme sonrasında Müslüman Halkın camisi yanında, Hıristiyan halkın kilisesiz olduğunu gören


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belediye Başkanı Ali Kemal, yeni idareyi temsil eden Rumen Başbakanı'na gitmiş ve Hıristiyanlar için de bir kilisenin yapılmasını rica etmiştir. Fakat, maliye bakanı, 'hayır, paramız yok, bu işi yapamayız' deyince Ali Kemal, bu cevaba bozularak 'peki efendim' deyip kapıdan çıkmak üzereyken, tekrar geri dönüp, şu vecîz ifadeyi kullanmıştır: 'Ben bir Müslüman olarak Hıristiyanlara kilise istiyorum, sen ise bir Hıristiyan olarak onlara kilise vermemekten utanmıyor musun?' bu ifade üzerine Bakan, duygulanmış ve kilisenin yapılmasına karar vermiştir." (5)

Bernard Lewis şöyle diyor: "Müslümanlara karşı Hıristiyanlar, Müslümanlığın Hıristiyanlığa Karşı olduğundan çok daha müsamahasız ve fanatik idiler. İslâmî anlayıştaki bu durumun sebepleri içerisinde dinî ve tarihi değerler vardır. Peygamber Hz. Muhammed, Hz. Îsa'dan hemen hemen altı yüzyıl sonra yaşamıştı. Müslümanlar için olduğu gibi Hıristiyanlar için de, kendi dinleri ve vahiyleri, Tanrı'nın insanlığa en son vahyini ve mesajını temsil etmekteydi. Bir Müslüman için Hz.Îsa bir müjdeci ve mesih idi. Bir Hıristiyan için ise Hz. Muhammed bir yalancı ve sahtekâr idi. Birincisi için Hıristiyanlık tek gerçekliğin tam olmayan neshedilmiş bir şekli idi, dolayısıyla otantik bir vahye dayanan gerçeklik unsurunu ihtiva etmekteydi. Öyle ise Yahudi gibi Hıristiyan'ın da Müslüman bir devlette hoşgörü hakkı vardı. İslam, daha sonra gelen bir din olduğundan dolayı Hıristiyanlar için benzer bir tutum, teolojik açıdan kabul edilebilir değildi... Hıristiyanların Yahudilere karşı da müsamahakâr davranmaları çok zor olmuştur. Ne var ki İslam dinine müsamaha göstermek demek, Hz. Îsa'nınkinden sonra gelen bir vahyi ve İncil'den sonra başka bir kutsal metni kabul etmek demekti. Hıristiyanlar bunu kabule hiç de hazır değillerdi." (6)

Türk kültüründe hoşgörü o kadar engin boyutlar kazanmıştır ki, "iyiliğe iyilik her kişinin işi, kötülüğe iyilik ise er kişinin işidir," (7) felsefesiyle hareket edilip insan egosuna tam bir sınırlama getirilmiştir. Nitekim Hacı Bektaşı Veli, "incinsen de incitme," (8) diyerek diğer insanları kendi nefsine tercih edebilecek engin bir hoşgörü yaklaşımı sergilemiştir. Yunus Emre'nin "bir kez gönül yıktın ise bu kıldığın namaz değil" sözüyle bu anlayışa destek vermiştir.

**Mevlana'ya atfedilen çok evrensel bir söz vardır: 'Bir ayağım merkezde dîni esaslarla bağlı, diğer ayağım da yetmiş küsur milletle beraberdir...' (9) Başka ve farklı olanlarla, öteki ve diğerleriyle bir araya gelebilmek, onlarla aynı ortamı paylaşmak ancak onlara uzatılacak bir hoşgörü eli ile mümkün olacaktır.**

Fatih Sultan Mehmet'in İstanbul'u fethettiği zaman orada yaşayan insanlara gösterdiği hoşgörü anlayışı dillere destan olmuştur. Fatih, İstanbul'u alınca Edirne'ye gitmişti. Sonbahara doğru tekrar şehre döndüğünde şehrin dışında kalan Çatalca ve Silivri'ye kadar olan yerlerin boşaldığını ve şehir içerisindeki halkın da perişan olduğunu gördü. Bunun üzerine önceki dönemde olduğu gibi bunların başına bir papazın patrik olarak tayin edilmesine karar verdi. İstanbul'un büyük kiliselerinden birini patrikhane yaparak Cenadoys adındaki bir papazı patrikliğe getirdi. Patriğe son derece büyük hürmet gösterip eline imtiyazlar verdi. (10) Fatih, sergilemiş olduğu bu hoşgörülü tavrıyla gönlü kırılan şehir halkının gönlünü almış ve yaralarına merhem olmuştur.

Fatih Sultan Mehmet'in Bosna'yı aldığı zaman o bölgeyi terk edip Venedik'e giden papazlara göndermiş olduğu mektup da zikredilmeye değer bir keyfiyettedir: "Ben ki Sultan Mehmed Hanım. Cümle avam ve havasa malum ola ki... Bosna ruhbanlarına mezidi inayetim zuhura gelip buyurdum ki, mezburlara ve kiliselere kimse mani ve müzahim (baskı ve müdahale) olmayıp ihtiyatsız (kayıtsız, şartsız) memlekette duralar ve kaçıp gidenleri dahi emin ve emanlıkta olalar... Gelip bizim memleketimizde sükun içerisinde olup, kiliselerinde mümekkin (yerleşmiş) olalar. Vezirlerimden ve kullarımdan ve raiyyelerimden ve cemi memleketim halkından kimse mezburlara dahil ve taarruz edip incitmeyeler. Kendilerine ve canlarına ve mallarına ve kiliselerine ve dahi yabandan hassa memleketimize adem gelirler ise yemin ederim ki.... bu yazılanlara hiçbir fert muhalefet etmeye..." (11)

Yavuz Sultan Selim Mısır seferine giderken Turisina Manastırındaki papazlar, kendisine Hz. Muhammed (sav)'in Hıristiyan din adamlarıyla ilgili bir ahitnamesini takdim ederler. Ahitnameyi alıp okuyan Yavuz bundan esinlenerek yeni bir ferman yayınlar. Umum hatlarıyla bu ahitname şöyledir:

"Papazlara eziyet edilmeyecek, seyahatten men olunmayacaklar, kiliseleri yıkılıp yerlerine cami yapılmayacak, ibadetle meşgul olan papazlardan kendi geçimleri için ekmiş oldukları ekinden vergi alınmayacak. Papazlarla rıfk ve güler yüzle konuşulacak, onlarla şiddetli ve gönül kırıcı münakaşalar yapılmayacak, kiliselerinin tamirinde onlara yardım edilecek, silah altına alınmayacak ve harbe gitmeye mecbur edilmeyecekler. Bilakis Müslümanlar onların canlarını ve mallarını koruyacaklar. Herhangi bir Müslümanın nikahı altında bulunan kadın dinini değiştirmeye mecbur edilmeyecek." (12)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Türklerin hoşgörü felsefesini anlatması bakımından şu vakıaya da burada yer vermenin çok önemli olduğu kanaatini taşıyorum: 1990 yılı başlarında Kızılordu Bakü'ye girmiş, yüzlerce Azerbaycan Türk'ü şehit olmuş ve Bakü de tarihinin en zor günlerinden birini yaşıyordu. O günlerde Türkiye'den Azerbaycan'a giden bir gruptan iki kişi, Rus istilasına karşı Azerbaycan halk hareketini düzenleyen Halk Cephesi lideri Ebulfez Elçibey ile görüşme imkanı buldular. Azerbaycan'ın geleceğine dair sohbet devam ederken, ziyaretçilerden biri Elçibey'e şu soruyu sorar: "Azerbaycan'daki Türk nüfus Sünni ve Şia olmak üzere ikiye ayrılıyor. Azerbaycan'ın azadlığından sonra bu inanç farklılığı bir ayrışmaya hatta bir çatışmaya sebep olmaz mı?"

Bunun üzerine Elçibey misafirlerini, Bakü'ye hakim bir tepede olan evin balkonuna davet eder ve şöyle der: Bakınız Bakü'de iki tane mescit var. Bunlardan biri Şia, diğeri de Sünni mescididir. Görüyor musunuz bunların ikisinin minarelerinden de siyah bayraklar asılı. Bu bayraklar Kızıl ordunun katlettiği Azerbaycan'ın yahşi evlatları için tutulan matemi ifade etmektedir... bu sebepten azadlıktan sonra bizim mezhep çatışması diye bir endişemiz yoktur. Ayrıca, kendini tehlikeye atarak beni evinde misafir eden bu dostumla da farklı mezheplere mensup olduğumuzu bilmenizi isterim." (13) Bu ifadeleriyle Elçibey, hangi inanç ve felsefeye sahip olursa olsun, Azerbaycan Türkünün engin bir hoşgörü olgunluğuna sahip olduğuna işaret etmektedir.

**Bu felsefenin asıl gayesi, insana değer vermektir. İnsanoğlu için problem üretmek değil aksine problemlerini çözmektir. Bireysel ve toplumsal problemleri hem birey olarak ve hem de toplum olarak sahip olduğumuz imkanlarla çözebilmemiz mümkün değildir. Nitekim problemler ferdi olmayıp, toplumsaldır. Yani bir insanın tek başına problemi olmaz. Her ne kadar insan öyle görünse de, onu o probleme götüren başka insanlar vardır. Yani, sorunlardan bir kısmı her ne kadar bireysel gibi görünse de, aslında hepsi müşterektir. O halde ortak problemler, ancak ortak çözümlerle mümkün olacaktır. Ortak çözüm ise ancak, ortak sorumluluk duygusuyla elde edilirken; bu duygunun sonuç verebilmesi için de karşılıklı anlayış, hoşgörü, iyi niyet ve iş birliğinin olması gerekmektedir.**

Verilen bu örnekler neticesinde şöyle bir değerlendirme yapmak mümkündür. İyi-kötü, güzel-çirkin, günah-sevap, hayır-şer, mal-mülk gibi pozitif ya da negatif değerler şeklinde niteliği ne olursa olsun, tarihsel süreçte herkes yaptığıyla hatırlanacak ve yargılanacaktır. Herhangi bir dış müdahale olmaksızın herkesin yaptığıyla anılması da tarihe karşı gösterilen en büyük bir hoşgörü olayıdır. *"Şimdi o toplumlar geçip gittiler. Onların kazandıkları kendilerine, sizin kazandıklarınız ise size yazılacaktır. Siz onların yaptıklarından ötürü yargılanacak değilsiniz."* (Bakara Suresi 134 ve 141.ayetler) Bu ayet-i kerime, herkesin kendi yaptığından sorumlu olacağını ifade ederek hem daha önceki milletlerin tarih sahnesindeki konumlarının nasıl olacağına ve hem de fiili özgürlüğe dikkat çekmektedir.

Gelecek için geçmişten ders alınması metodunu kullanan Kur'ân, ibret alınması için geçmiş milletlerin kıssalarından bolca örnekler vermektedir. *"Onlar, kendilerinden öncekilerin sonunun nasıl olduğunu görmek için, yeryüzünde hiç gezip dolaşmadılar mı?"* (Fâtır Suresi 45.ayet) mealindeki bu ayet, inadi ve taassubî duygulardan arınarak tarihe ve olaylara olduğu şekilde bakıp objektif yaklaşımların sergilenmesine dikkat çekmektedir. Buna göre bizler de milletimiz için bir iftihar tablosu çizen atalarımızı hürmet ve rahmetle yad ediyoruz. Lakin onlara layık olmamız gerektiğinin de unutulmaması gerektiğinin altını çizmek istiyoruz.

**DIPNOTLAR:**

(1) Mehmet Bozdemir, **Din Devlet ve Toplum**, (Abant Toplantıları), İstanbul 2000, s.145.
(2) Matta, 23, 8.
(3) Bekir Karlığa, *"Hoşgörünün dini ve Entelektüel Temelleri"*, **Osmanlı'da Hoşgörü**, İstanbul 2000, s.106-107.
(4) Voltaire, **Felsefe Sözlüğü**, (Çev: Lütfi Ay), İstanbul 1995, s.381.
(5) Kemal Karpat, **Osmanlı'da Hoşgörü**, (yay. Haz. Mustafa Armağan), Gazeteciler ve Yazarlar Vakfı Yay. İstanbul 2000, s.11-12.
(6) Bekir Karlığa, *"Hoşgörünün dini ve Entelektüel Temelleri"*, **Osmanlı'da Hoşgörü**, İstanbul 2000, s.105.
(7) Hamdi Mert, **İslam'da Hoşgörünün Simgesi Hünkar Haci Bektaş Veli**, (Ahmet Yesevi Üniversitesi Yardım Vakfı), Ankara, tsz. s.37.
(8) Hamdi Mert, **İslam'da Hoşgörünün Simgesi Hünkar Haci Bektaş Veli**, (Ahmet Yesevi Üniversitesi Yardım Vakfı), Ankara, tsz. s.36.
(9) Selçuk Camcı – Kudret Ünal, **Hoşgörü ve Diyalog İklimi**, İzmir 1998, s.140.
(10) Osman Ergin, **Fatihin Hoşgörürlüğü**, İstanbul 1953, s.4.
(11) Osman Ergin**, Fatihin Hoşgörürlüğü,** İstanbul 1953, s.6.
(12) Osman Ergin, **Fatihin Hoşgörürlüğü**, İstanbul 1953, s.4.
(13) Dursun Dağaşan, **Türk Toplumunda Dini Tartışmalar ve Hoşgörü**, Ankara 1997, s.20.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TÜRKMEN FOLKLORUNDA AZERBEYCAN TEMASI

***Oraz Yagmur***
***Türkmənistan***

Türk dünyasının büyük dallarından oluşan, kanı bir, dili bir, dini bir, tarihi bir, talihi bir, bir atanın-ananın ocağından dünyaya yayılmış Türkmenlerin ve Azerbeycanlıların eski folkloruna baktığımızda büyük birliğe rastlıyoruz. Ayrıca edebiyat alanında daha da derinlikleri görüyoruz.

Ben bu geniş konunun sadece üç destan ile ilgili taraflarını anlatacağım. O destanların birincisi: "Sayatlı Hemra" destanıdır. Bu destan dilden söylene-söylene eski zamanlardan gelmiştir. Bu destan Daşoguz velayetinin Köneürgenç ilçesinde yaşamış destançı-bagşı Nazar Baga tarafından söylenirken 1939 yılında yazıya geçirilmiştir. O bagşının söylediğine göre bu destan 18.yüzyılda yaşamış Türkmen şairi Şabende tarafından üretilmiştir. Destanın söyledik olayları Karakoyunlu, Akkoyunlu zamanına rast geliyor. Biz Türkmenistan Ilımlar Akademisinin Mahtumkulu adına edebiyat enstitüsü tarafından neşire hazırlanmış ve 1960 senesinde Türkmen Devlet yayın evi tarafından basılmış "Sayatlı Hemra" destanından istifade ederek örnekler aldık.

Destan şöyle başlıyor: "Ama ravıyan ahbar ve nakılani destan andağ rivayet kılırlar kim: Häzirbecan vilayetinde Aşık Ahmet ve Aşık Mahmıt(Muhammed) diygän iki dost var idi." Bu destanın metninde Azerbeycan sözcüğü 15 defa kullanılmaktadır. Gence, Garabaĝ, Şamahı, Şirvan sözcükleride şiir mısralarında bulunmaktadır.

Meselâ: Destanın 41. sayfasında:
Babacan, gidersen Häzirbecana,
Koca, sen oĝlundan hatır cem olgul.
43. sayfasında:
Durnam, gitsen Häzirbecan iline,
Varırsan, näzli yara salam diygeysen.
44. sayfasında:
Dövre çıksan, Häzirbecan görüne,
Baĝrım başı su boluban eriye.
45. sayfasında:
İmdi gözläň, Häzirbecan yolunı,
Tiriňler bagların kızıl gülüni.
Yine 45. sayfasında:
Hakdan buyruk olsa, biz hem baralı,
Häzirbecan sarı uç imdi durnam.
60. sayfasında:
Gence, Garabaĝım, Şamahı, Şirvan,
Külli Häzirbecana bermenem seni.
61. sayfasında:
Gel, köňlüm, gideli Häzirbecana,
Gülşen baĝlarının barı bar, barı.
Köňlüm ister Häzirbecan ilini,
Mugan daĝlarının karı bar, karı.

Bu son dörtlüklü şiir şimdi de bagşıların dilinde en çok söylenen türküdür-manidir. Türkünün ismi Azerbeycan olarak geçmektedir. Müzikisi 1935-de Moskova'da Türkmenistan'ın halk artisti, ussat Sahy Cepbarov tarafından dutarda oynanmıştır hem-de gramplastinka yazılmıştır.

"Aslı-Kerem" destanıda Türkmenlerin meşhur destanlarından birisidir. Bu destan son defa 2004 yılında Türkmenistan Milli Kolyazmalar enstitüsü tarafından basılmıştır. Bu destan böyle başlıyor:

"Ama ravıyanı ahbar, nakılanı asar, beyle rivayet kılıptırlar ki, Tebriz vilayetinde Ziyad adlı bir padişah var idi. Yedi iklime padişah erdi. Ama onun hiç ferzendi yok idi." Bu destandan da birkaç örnek verelim:

33. sayfasında:
Şirvan, Şamahısı, Reştin turuncu,
Gürcüstan'ın narı şudur sınası.
39. sayfasında:
Kerem, Aslın gitti Bayat iline.
Yine 39. sayfasında:
Tebrizden bir bölük suna geldi mi?
51. sayfasında:
Erzurum'a çıktım, yol iki oldu,
Men şu yolun haysı birne varayım?
52. sayfada:
Kerem galdı Erzurum'un dagında.
68. sayfasında:
Erzurum'un dagı hiç karsız olmaz.
130. sayfasında:
Bir gözel görmüşem Gacar ilinde,
Şovkı düşmüş Häzirbeycan iline
Her gülende dür dökülür tilinden,
Nabat saçmış dudagının balına.

Bildiginiz gibi, Aslı destanda ermeni, yani Hristiyan olarak gösterilmiştir. Kerem ise müslüman-türk olarak gösterilmiştir.

Şimdi sıra Türkmenlerin "Necep (ne güzel) oglan" destanında. Biz burada Türkmenistan'da 1939 yılında Mämmetanna Sopıyev'in dilinden yazılmış destanın 1976 yılında "Türkmenistan" yayın evinde basılmış kitabından örnekler verecegiz. Görkemli sazşınas, "Turkmenskaya muzıka" kitabının yazarlarının biri V.Uspenskiy "Necep oglan" destanının türkülerinden-manilerinden örnekleri 1926 yılında nota yazısına geçirmişti. Bu destan böyle başlıyor:

"Ravılar andag rivayet kılarlar, gadim eyyamda Yemen ilinde Soltanesen adlı padişah var idi. Tarif etsek, atarmanlıkda-çaparmanlıkda bir özü idi. Onun yurduna Gence-Garabag diyen yurttan bir katar kerven geldi."



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu destanın 22. sayfasında:
Aslın sorsan, Gence-Garabaglıdır,
Tebriz'in begleri, Sunam geldi mi?

Bu destanların üçüsünde de Azerbeycan ayrı bir memleket olarak gösterilmektedir: Azerbeycan bu destanlara bakıldıgında güzel tabiatlı, göllü-çaylı, baglı-bakcalı, çok yagmurlu, seması her zaman turnalı, semadaki turnalarla güzel sohbetler yapan halklı bir diyar halinde okuyucunun gözünde canlanmaktadır. Azerbeycan aşık-türkücüsü çok, insanların her biri mani-türkü söyleyen ya da eli sazlı, insanlarının yürekleri dolu-dolu aşklı-sevgili bir mekan olarak anlatılmaktadır. Destanların metninden anlaşılıyor ki Azerbeycan Bagdat gibi büyük güzellikli şehirlerle yarışabilecek bir yer olarak şekillendirilmiştir.

Bizim size örnekler verdigimiz destanların başka variantları Türkiye'de, Azerbeycan'da, Cenubi Azerbeycan'da, Kerkük, Şam türkmenlerinde bulunmaktadır.

Burada Azerbeycan temasıyla ilgili başka bir enteresan örnek de vermek istiyorum. 18. yüzyılın büyük Türkmen klassik şairi Mahtumkulu'nun bir şiiri onun Azerbeycan topraklarını görmüş oldugunun kanıtıdır. O şiirin adı: "Yaylahları var".

Sapar edip barsak Nuşah mülküne,
Köňül isläni dek yaylahlary bar,
Seyran etsek gunçasına, gülüne,
Bakcasında bilbil oynahları bar.

Yeri sazdır, hassa bolan sagalar,
Arrık, mühlis, garıp bolan oňalar,
Serçemen agacı bile deňeler,
Acap guş salmalı avlahları bar.

Meydanı doludır şeker gamışdan,
Dileg etmez hergiz gardaş gardaşdan,
Üsti yapıglıdır kümüş kerpiçden,
Her kimiň özi üçin suvlahları bar.

Baş goşmandır arrık, agsak şa bile,
Atdırıp du kunbul, baz le, na bile,
Şirvan galasıdır, anı kim bile,
Her burçunda altın baydahları bar.

Magtımgulı, sazdır, söhbetdir işiň,
Acaldan, gayrıdan bolmaz teşvüşiň,
Baylarıň, pakırıň, ähli dervüşiň
Yurdı bolar yalı farsahları bar.

Mahtumkulu bu şiiri büyük türkçemizin Azerbeycan agsına çok yakın sesleri kullanarak yazmıştır. Meselä: Türkmenistan türkçesinde "baydak" denilmektedir, ama şiirde "baydah" olarak geçmektedir, ve sayire.

Bu günkü hayatımızda da Azerbeycan kelimesi unutulmamaktadır. Azerbeycan diyarı güzel maniler diyarı, her yerde müzik sesi gelen bir mekan olarak tanılmaktadır.

**KULLANILAN EDEBIYAT:**

1. "Aslı-Kerem", Milli kolyazmalar enstitüsü. Aşkabat-2004.
2. "Necep oglan", "Türkmenistan" yayınevi, Aşkabat-1976.
3. "Sayatlı Hemra", Türkmenistan ilimler akademisi. Mahtumkulu adındaki edebiyat enstitüsü. Aşkabat-1960.
4. "Mahtumkulu", şiirlerinin 2 tomlugu. Aşkabat-1983.
5. V.Uspenskiy. "Turkmenskaya musıka" Mosskva-1928.
6. "Türkmen edebiyatının tarihi" 1.tom. Aşkabat.Ilım-1975.
7. R.Recebov. "18-19 asırlar türkmen edebiyatınıň döredicilik stili" Aşkabat. Ilım-1995.
8. "Türkmen halk dessanları". Aşkabat. "Türkmenistan" neşiryatı-1993.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# NAĞILDA ADAXLI SEÇMƏ

***F.e.n. Oruc Əliyev***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Nağıllarda qız və ya oğlan seçmə ilə bağlı maraqlı və öyrənilməsi gərəkli olan nümunələrə təsadüf olunur. Bunlar mərasimlərlə bağlı bir çox mətləbləri dərindən öyrənməyə və bu barədə daha ətraflı mülahizələr söyləməyə yol açır.

Fikrimizi əsaslandırmaq üçün nağıl mətnlərinə müraciət edək. «Ceyranın nağılı»nda qıza yuxuda gördüyü oğlan alma verir:

«Zərğova xanım yatıb yuxuda gördü ki, on beş yaşında bir cavan oğlan gəlib oturdu dizinin üstündə, bir alma verib çıxıb getdi. Zərğova səhərnən oyanıb dəli-divanə oldu» (2, I, 226).

Bəzi nağıllarda oğlan şəklini gördüyü şah qızına vurulur:

«Bu oğlan girib içəridən bir şəkil gətirib Məlik Əhmədgilə verdi. Məlik Əhməd gördü bir qız şəklidi ki, Allah taala xoş gündə, xoş saatda yaradıb. Bunu görən kimi Məlik Məmmədin ürəyi getdi» (2,II, 229).

Nağıllardan məlum olur ki, toydan əvvəl bəzi mərasimlər də keçirilirmiş. Oğlan seçən qız və ya qız seçən oğlan bu yolla arzusunu bildirir və bununla da onun istəyi aşkar olur.

Bəzən qızlar öz istəklərini üstüörtülü şəkildə, müəyyən işarələrlə bildirirlər. Məsələn, «Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi» nağılında ərlik vaxtları çatmış şah qızları atalarına üç qovun göndərirlər. Böyük qız göndərdiyi qovunla demək istəyir ki, «axı mənim vaxtım keçdi, məni nə vaxt ərə verəcəksən». Ortancıl qız da demək istəyir ki, «axı mənim də vaxtım keçdi». Kiçik qız isə demək istəyir ki, «ata, lap yetişmişəm, eləyəm ki, şax-şax şaqqıldayıram, çırtma vurma, dağıllam». Vəzirin məsləhətilə şah qızlarının kimə meyli olduğunu öyrənmək üçün şəhərdə olan bütün oğlanların sarayın qabağından keçməsini əmr eləyir. O bununla qızların arzusunu bilmək istəyir:

«Təbillər çalındı, adamlar başladı pəncərənin qabağından birbəbir keçməyə. Böyük qız almanı atdı vəzirin oğluna, ortancıl qız atdı vəkilin oğluna. Kiçik qız heç kəsin dalınca atmadı.

... Padşah qaldı məəttəl ki, görəsən bu qız kimə getmək istəyir. Çar-naçar əmr elədi, gedib quşqovanı, yəni Məlik Cümşüdü çağırdılar. Məlik Cümşüd elə gəlib, əynində yırtıq paltar pəncərənin qabağından keçəndə, qız almanı, yallah küpədi onun dalınca. Padşah bunu görcək dəli kimi qalxdı ayağa. Ancaq iş-işdən keçmişdi» (1, 274-275).

«Şahzadə və Qurbağa» nağılında da şah oğlanlarını vəzirin məsləhəti ilə dədə-baba qaydası ilə evləndirməyi üstün tutur:

«... Padşah vəzirə dedi:

- Vəzir, bəs uşaxlara kimin qızını alax?

Vəzir dedi:

- Ey adil hökmdar, öz dədə-baba qaydamıznan əmr elə, sənin torpağında nə qədər adlı-sanlı adamın qızı varsa, sabah hamısı bəzənib bir-bir sənin sarayının qabağından keçsinlər. Oğlanlar da küləfringindən baxıb özlərinə qız seçsinlər. Hansı qız xoşlarına gəlsə, ona bir alma atsınlar, biz də bilək ki, həmin qız kimdi.

Bəli, həmin günü şah əmr verdi, kəndbəkənd, şəhərbəşəhər carçılar hər yerə car çəkdilər ki, padşah oğlanlarını evləndirmək üçün qız seçəcək, sabah özünə güvənən nə qədər qız varsa, hamısı şəhərin sarayına gəlməlidi. Carçılar car çəkməkdə olsun, bu tərəfdən də padşah küçə-bacanı xalı-ziliynən, gül-çiçəynən, çil-çıraxban bəzətdirib səhəri günü üç oğlunun üçünü də çıxarmışdı küləfringiyə. Oğlanların yanında atası, vəzir, vəkil, əyan, əşrəf oturmuşdular. Padşahın vilayətində nə qədər qəşəng qız varıydısa, hamısı gəlib bir-bir şahzadələr olan küləfringinin qabağından nazi-qəmzə ilə keçirdilər. Aradan bir az keçməmişdi ki, gördülər vəzirin qızı gəlir. Qız gəlib küləfringinin qabağından keçəndə padşahın böyük oğlu almanı atdı vəzirin qızına. Bir az keçmiş gördülər vəkilin qızı budu bir şəstnən gəlir ki, elə bir tovuz quşudu. Padşahın ortancıl oğlu da əlindəki almanı vəkilin qızına atdı. Şahın yanındakı adamlar hər iki qardaşa əhsən, bərəkallah dedilər.

Axırda növbə gəldi kiçik qardaşa. Bu qardaş da almanı hey əlində atıb-tuturdu. Hamı gözlüyürdü ki, elə indicə kiminsə qızına atacaq.

Qızlar bir-bir gəlib, boylana-boylana keçirdilər. Birdən çaydan bir yekə qurbağa hoppanıb düz yolun üstünə düşdü. Padşahın kiçik oğlu almanı atdı. Alma gedib həmən qurbağaya dəydi. Hamı bu əhvalata məyus oldu» (2, IV, 215-216).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deməli, nağıl məntiqinə görə, alma kimə atılsa, onunla evlənmək qaçılmazdı, hətta şahzadələr də bu addımı atıbsa, daha onu pozmaq, qərarı dəyişmək mümkün olmazmış, buna qarşı çıxmaq adət-ənənəyə qarşı çıxmaq kimi qiymətləndirilərmiş. «Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi» nağılından göründüyü kimi, şah kiçik qızının qərarından qəzəblənsə də, heç cürə qızının istəyinə qarşı çıxa bilmir, bunu pozmaqdan çəkinir, bununla razılaşmaq məcburiyyətində qalır. «Şahzadə və Qurbağa» nağılında isə kiçik qardaşın atdığı alma arzuedilməz olduğu üçün hamı məyus olur.

Hər iki nağılda üçüncü seçim iki əvvəlkindən fərqlənir, qəbul edilmiş prinsiplərə uyğun gəlmir, şahzadə qızın yırtıq paltar geymiş quşqovana alma atması, şah oğlunun atdığı almanın isə arzuedilməz bir varlığa dəyməsi ilk baxışda qeyri-adi görünür. Lakin bundan sonra qəhrəmanların sınanması ilə bağlı motivlər gəlir ki, bununla da onların əsl siması üzə çıxır, daha doğrusu, sınaqlardan çıxa bilən nişanlı əsl qəhrəman, sınaqlardan çıxa bilməyən nişanlı isə yalançı qəhrəman funksiyasında çıxış edir. «Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi» nağılında kiçik şahzadə qızın seçdiyi oğlan (Məlik Cümşüd) vəzir və vəkil oğlanlarından üstün olduğunu sübuta yetirir. Düşmən qoşunu şəhərə hücum edən zaman hər şey aydın olur. Şahın böyük kürəkənləri düşmənlə vuruşda yenilir. Məlik Cümşüd isə sehrli köməkçilərin yardımı ilə döyüş meydanına daxil olub düşmən qoşununu darmadağın edir. Bundan sonra şah böyük kürəkənlərini saraydan samanlığa qovub Məlik Cümşüdlə kiçik qızını saraya gətirir.

Bu nağılda folklor poetikasının mühüm bir cəhəti - müəyyən işləri həyata keçirmək üçün geyim-libas dəyişmə aktının vacibliyi öz əksini tapmışdır. Qəhrəman məhz libasını dəyişməklə öz məqsədinə çatır. O müxtəlif sınaqlarda uydurulmuş ad altında özünü göstərir, həqiqi sifətini gizlədir.

«Şahzadə və Qurbağa» nağılında isə əvvəlki nağıldan fərqli olaraq qızlar sınağa çəkilir. Şah hər üç oğluna arvadlarının bir həftəyə xalı toxuyub gətirmələrini əmr edir. Kiçik qardaşın gətirdiyi xalı şahı valeh edir. Şah ikinci dəfə paltar tikməyi tələb edir. Bu dəfə də kiçik qardaşın arvadının göndərdiyi paltar şahı heyrətə salır. Burada nə isə bir sirr olduğunu duyan şah, oğlanlarının arvadlarını üçüncü dəfə sınağa çəkir, indi də oğlanlarından tələb edir ki, sabah yanıma gələndə arvadlarınızı da özünüzlə gətirərsiniz, özü də onlara tapşırarsınız ki, özlərinə elə paltar tikib geyinsinlər ki, mənə gətirdikləri paltarlar onun yanında heç nə olsun. Bunu eşidən kiçik şahzadə məyus olur. Ancaq onun arvadı donunu dəyişərək gözəl-göyçək bir qıza çevrilir. Oğlan onu yanında görəndə gözlərinə inanmır. Şah da bunu görüb çox şad olur, bu möcüzə qarşısında donub qalır.

Onu da göstərmək gərəkdir ki, çevrilmələr sehrli nağıllarda mühüm yer tutur. Çevrilmələrin müxtəlif növləri ayrı-ayrı sehrli nağıllarda geniş yayılmışdır. İnsanın başqa bir varlığa - quşa, heyvana, ağaca, daşa və əksinə çevrilməsi əski inamlardan qaynaqlanır:

«Çevrilmələr, dönmələr, ilkin inamlardandır. Ona görə də, belə çevrilmələri aydınlaşdırarkən çevrilən və çevirənin qarşılıqlı münasibətini aydınlaşdırmaq gərəklidir. Burada bir nəsnəni də yazaq: Çevrilənlər onqonla, tanrı ilə, zoomorfik, antromorfik aləmlə bağlı olduqlarından güclü, yüksək keyfiyyətlərə, istedada malik idilər. Deməli, dəyişmələr, dönmələr onqonun, tanrının gücü ilə olur» (3, 262).

Ümumiyyətlə, sehrli nağıl süjetlərində əsas obrazlar - qəhrəman və onun rəqibləri ilə yanaşı, qəhrəmanın köməkçiləri də mühüm yer tutur. Qəhrəman tez və ya gec, bu və ya digər şəkildə xeyirxah sehrli qüvvələrin əhatəsinə düşür.

Çətin səfərə yola düşən qəhrəman müdrik məsləhətçinin köməyilə istəyinə yetir. Çox vaxt onun verdiyi sehrli vasitə qəhrəmanın çətin anlarda köməyinə çatır. Həmin funksiyada çox vaxt nurani qoca çıxış edir. Bu işıqlı, müdrik və xeyirxah qoca addımbaşı qəhrəmanın köməyinə çatır, ona yol yoldaşı olur. Müdrik qocanın məsləhətlərini yalnız əsl qəhrəman yerinə yetirə bilir. Məsələn, «Üçbığ Kosa» nağılında ölüm döşəyinə düşən şah oğlanlarını yanına çağırıb deyir:

«Oğlanlarım, mənim sizə iki vəsiyyətim var. Biri budu ki, mən öləndən sonra üç gün mənim qavrımı qoruyun. Birinci gün böyük oğlum, ikinci gün ortancıl oğlum, üçüncü gün balaca oğlum qavrımın üstündə qaroul çəksin. İkincisi də budu ki, mənim elçi daşımın üstündə hər kim oturub qızımı istəsə, verərsiniz ona» (2, II, 157).

Ata vəsiyyətini namusla həyata keçirən kiçik qardaş həm özünün, həm də qardaşlarının yerinə atasının qəbri üstündə gecə keşik çəkir. Birinci gecə başdan-ayağa qırmızı yaraq taxmış, qırmızı atda atasının qəbrinə hücum çəkən naməlum şəxsi, ikinci gecə yaşıl, üçüncü gecə sarı libas geymiş və yaraqlanmış düşmənləri yenərək onların libasını, yarağını, atını ələ keçirir. Sonra isə heç kimin, eləcə də qardaşlarının yerinə yetirə bilmədiyi şərtə gizli ad altda - qırmızı, yaşıl, sarı geyimdə, yaraqda və atda əməl edərək üç gözəl qızı alıb gətirir. Bu qızların atası belə bir şərt kəsir:

«Firuz bəy bu şəhərin ən böyük bəylərindən biri idi. Bunun gözünün ağı-qarası üç gözəl qızı varıydı. Bu qızları çox bəylər, xanzadələr istəyirdi, ancaq Firuz bəy heç birinə verə bilmirdi. Çünki birisinə versə, o biriləri bundan inciyə bilərdi. Ona görə də şəhərin kənarında bir böyük xəndək qazdırıb, içini suynan doldurdu, qızları xəndəyin o biri qırağına qoyub dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Hər kim atını xəndəyin bu qırağından o qırağına sıçratsa, qız onundu» (2, II, 160).

Gözəl qızların atası belə bir şərt kəsməklə sınaqdan çıxmış, hamı tərəfindən qəbul edilmiş mərasimə söykənərək vəziyyətdən çıxır, həm də qızlarına layiq oğlanların bu yolla seçilməsinə nail olur.

Kiçk qardaş yalnız hadisələrdən xeyli keçəndən sonra sirri qardaşlarına açır. Bu nağılda qəhrəman - kiçik qardaş sınaqlardan libasını dəyişərək keçir.

«Məlikməmməd» nağılında isə bu motivə əsas hadisələrdən sonra, əlavə sınaq məqamında rast gəlinir:

«Zümrüd quşunun tükünü çıxarıb yandırdı. O saat Zümrüd quşu hazır olub dedi:

- Mənə görə nə qulluq?

Məlikməmməd dedi:

- Bu saat mənə bir dəstə sarı paltar, qılınc, qalxan, bir sarı at, yel atı gətir.

Zümrüd quşu «baş üstə» deyib, uçub getdi, bir az çəkmədi ki, Məlikməmməd deyən şeylər hazır oldu. Məlikməmməd paltarlarını qıvraq geyindi, qılıncını belinə bağladı, qalxanını qoluna taxdı, birbaşa atı padşahın evinin qabağına sürdü. Şəhər camaatı, bütün qoşun tamaşaya yığılmışdı. Padşahın böyük oğlu da at çapırdı.

Məlikməmməd atını meydana salıb bir o başa çapdı, bir bu başa çapdı, sonra qılıncını çıxarıb padşahın böyük oğlunun boynunu vurdu» (1, 23).

Paxıl qardaşlar kiçik qardaşın quyuda kəndirini kəsir, onun igidliklərini öz adlarına çıxır, özlərini əsl qəhrəman kimi təqdim edirlər. Bu məqamda əsl qəhrəman möcüzəli köməkçinin - Simurq quşunun yardımı ilə meydana çıxaraq əvvəl sarı geyimdə, sonra isə qırmızı geyimdə yalançı qəhrəmanları cəzalandırır, yalnız bundan sonra özünü nişan verir.

Nağıl süjetlərində qız seçən, istəyən oğlanların qarşısında müəyyən şərtlər qoyulur, nişanlı müəyyən sınaqlardan keçməli olur, yalnız tələb olunan şərti yerinə yetirə bilənlər istəklərinə yetirlər, yetirə bilməyənlər əsir alınır, qul olur, bəzən ölümə də məhkum olmaq məcburiyyətində qalırlar.

Ümumiyyətlə, nağılların böyük bir bölümündə çətin tapşırıq, şərt süjetdə mühüm yer tutur. Bu tipli nağılların isə müəyyən bir qismi toy mərasimi ilə bağlı olur və oğlanın və ya qızın sınanması burada aparıcı yer tutur.

«Hazarandastan bülbülü» nağılı (2, I, 166-173) bu baxımdan maraq doğurur.

Şah atanın arzusu ilə Hazarandastan gülü, Hazarandastan bülbülü, Bili-Bilqeys xanım və ərəbatını gətirmək üçün üç şahzadə səfərə yola düşür. Üç yolun ayrıcında böyük daşın altına bir üzük qoyurlar ki, hansı tez gəlsə o birilərinin dalınca getsin. Sonra hərəsi bir tərəfə yola düşür. Kiçik qardaş gedib atı tapıb gətirir. Sonra ortancıl qardaşı bir aşbaza şəyirdlik eliyən yerdə tapır, ona təzə paltar, at alıb üç yol ayrıcına gətirir, özü isə böyük qardaşının dalınca yollanır. Böyük qardaşını gülün və bülbülün sahibi Bilqeys xanımın qapısında palçıq ayaqlayan halda tapır. Qardaşının yanında da bir dəstə adam olduğunu görür. Böyük qardaşı deyir ki, buradakıların hər biri padşah oğludur. Gəliblər ki, Bili-Bilqeys xanımı alsınlar. O da hər gələn oğlanla güləşib yıxıb. Hər yıxılana da burada palçıq ayaqlatdırır. Kiçik qardaş qızı meydana çağırır. Bunu görən qız qəzəblənir:

« - Oğlan, mən sənə qıymırdım, sənə yazığım gəlirdi, sən belə danışdın, çox yaxşı, güləşək. Ancaq bir şərtnən. Sən məni yıxa bilsən, ixtiyar sənindi, nə istəyirsən elə, mən səni yıxdım başını kəsəcəyəm.

Oğlan dedi:

- Mən razıyam, şərtin gözüm üstə» (2, I, 170).

Onlar üç gün, üç gecə güləşirlər. Oğlan üçüncü gün qızı yıxır, bundan sonra Bilqeys xanım kiçik şahzadəyə getməyə razılıq verir.

Göründüyü kimi, bu nağılda nişanlının fiziki gücünü sınamaq əsas yer tutur. Bilqeys xanım ancaq o oğlana ərə getməyə razılıq verir ki, ona qalib gəlsin. Kiçik şahzadə qızın bu şərtini yerinə yetirir və Bilqeys xanımın razılığını alır.

Hadisələrin sonrakı gedişində də həm kiçik qardaş, həm də bu gözəl pəhləvan xanım sınaqdan namusla çıxır. Kiçik şahzadənin öldüyünü güman edən qız buna baxmayaraq namərd, fərsiz şah oğlanlarının təklifini rədd edir və yenə də onların qarşısında öz şərtini irəli sürür. Paxıl və qorxaq böyük qardaşlar qızın bu şərti qarşısında aciz qalırlar. Belə olanda qızı zorla əvvəlcə şahın böyük oğluna, sonra isə ortancıl oğluna verməyə cəhd edirlər. Elə bu vaxt gəlib toy mərasiminə özünü yetirən kiçik şahzadə yalançı qəhrəmanları cəzalandırır. Bilqeys xanım kimi igid bir qıza özünün layiq olduğunu sübuta yetirir.

«Kəl Həsənin nağılı»nda (2, I, 189-201) təsivr olunur ki, padşah Kaşkaş pəhləvan tərəfindən oğurlanmış gözəl qızı Pəri xanımı xilas etmək üçün abidin məsləhətilə Kəl Həsəni tapıb saraya gətirir. İndiyə qədər bütün elçiləri naümid geri qaytaran padşah Kəl Həsənə söz verir ki, qızımı gətirsən onu sənə verərəm:

«Padşah dedi:

- Ey oğlan, mən səni Kaşkaş pəhləvanın qabağına göndərsəm gedərsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəl Həsən dedi:
- Nə üçün məni onun qabağına göndərirsən?
Padşah dedi:
- Kaşkaş pəhləvan mənim qızım Pəri xanımı götürüb qaçıb. Əgər sən Pəri xanımı götürüb gələ bilsən qızımı sənə verərəm.
Kəl Həsən razı olub, padşahnan şərt bağladı» (2, I, 193).

Nə üçün abid şah qızını ancaq Kəl Həsənin xilas edəcəyini söyləyir. Çünki Kəl Həsən qeyri-adi, möcüzəli şəkildə dünyaya gəlib. O artıq doqquz yaşında iki ayını baş-başa vurub öldürür. İndi on altı yaşında olan Kəl Həsənin qabağında dayana bilən bir pəhləvan yoxdur. Kəl Həsən yeddi qazan aşı yeyib, yetmiş put poladdan döyülmüş qılınc-qalxanı, paltarı geyinib atını minib yola düzəlir. Gəlib bir qarıya qonaq olur. Qarıdan Pəri xanımın yerini öyrənir. Qarı deyir:

«Kaşkaş pəhləvan divdən əmələ gəlmə bəni-insan idi. Pəri xanımı götürüb qaçırdan kimi aparmışdı gülşən bağındakı qalaçada saxlayırdı. Neçə vaxt idi ki, Pəri xanımla baş bir yastıq olmaq istəyirdi. Pəri xanım bir il möhlət istəmişdi ki, ata-anası başından çıxsın» (2, I, 193).

Kəl Həsən Kaşkaş pəhləvanı, sonra isə onun qardaşı Bəlğ pəhləvanı məğlub edib Pəri xanımı və Firəng padşahının qızı Şərəf xanımı da əsirlikdən azad eliyib evlərinə gətirir. Padşah onu təmtəraqla qarşılayır:

«Padşah əmr elədi:
- Məni istəyən Kəl Həsənə xələt versin!
Kəl Həsən padşaha dedi:
- Vədəyə sözün nədi?
Kəl Həsən belə deyəndə padşah dedi:
- Üç gün mənə möhlət» (2, I, 200).

Vəzirin tədbirilə padşah Kəl Həsəni qonaqlıq zamanı zəhərlətdirib yeddi daşın dalına atdırır. Simurq quşu bundan xəbər tutub onun köməyinə çatır, onu ayıldır. Kəl Həsən vədinə əməl eləmiyən padşahı öldürür. Sonra özünə yeddi gün toy eləyib Şərəf xanımla Pəri xanımı alır.

Bu nağılda padşah şərtini pozur, Kəl Həsən şah nəsilindən olmadığı üçün qızını ona vermək istəmir, hiyləyə əl atır, bu yolla canını qurtarmağa çalışır, ancaq sözünün üstündə durmayan şah öz cəzasını alır. Deməli, nağıl məntiqinə görə, verilən sözə, kəsilən şərtə əməl olunmaması həmin şəxsin kim olmasından asılı olmayaraq onun məhvinə səbəb olur. Odur ki, kəsilən şərt, verilən söz əhd-peyman kimi qiymətləndirilir. Bu motiv ölkəsi fəlakət içində olan şahın bağladığı şərtdə özünü göstərir. Şah ölkəni fəlakətdən qurtaranının kimliyindən asılı olmayaraq qızını ona verəcəyini bildirir və bu şərtə danışıqsız əməl edir. Hətta belə bir şahın ölkəsinə təsadüfən gələn igidlər bununla razılaşmasalar da, şah qızı ilə evlənib orada qalmağa məcbur olurlar.

«Cantiq» nağılında Pəri xanımın dalınca çətin səfərə yola düşən üç dostdan biri padşahın qızı ilə evlənir.

«Padşah dedi:
- Ey oğlan, mən əhd-peyman eləmişəm ki, hər kim əjdahanı öldürsə, qızımı ona verəcəyəm. Odu ki, biriniz mənim qızımı almalısınız.
Cantiq dedi:
- Padşah sağ olsun, biz yol adamıyıq. Bir günlüyə sənin şəhərinə qonaq gəldik. Sən nə bilirsən biz kimik, nəçiyik, qızını bizə verirsən?» (2, I, 84-85).

«Üç bacı» nağılında təsvir olunur ki, Sam padşahın hakimiyyətini ələ keçirən Qulam padşahın hökmü ilə qızları Gülbənd kəndində bir daxmaya köçürürlər. Ov zamanı təsadüfən bura gələn şahzadə qızları görüb, vəziyyətləri ilə maraqlanır. Bu qızların adlı-sanlı nəsildən olmasından daha çox şahzadəni onların tərbiyəsi, qabiliyyəti, gözəlliyi cəlb edir. Evdarlıq işlərini də yaxşı bilmələrini görən şahzadə onları özləri ilə aparmağı qərara alır.

«Şahzadə Cəlal qızların adlı-sanlı nəsildən olduqlarını görüb xəbər aldı:
- Sizin evdarlıq işindən əlinizdən nə gəlir?
Şahzadəyə cavabında böyük bacı Südabə sözə başladı:
- Bilin və agah olun, mən bir gəbə toxuyuram ki, bir şəhərin əhalisi onun üstündə oturar hələ genə də bir tərəfi boş qalar.
Südabədən sonra Rübabə sözə başlayıb dedi:
- Mən də bir yumurta qabığında elə aş bişirərəm ki, bir şəhərin əhalisi onnan yeyər, yenə qalar.
Kiçik bacı Züleyxa üzünü şahzadəyə tutub dedi:
- Mən də bir oğlan doğaram ki, birçəyinin biri qızıl, biri gümüş olar.
Şahzadə Cəlal qızlardan bu sözləri eşidib Züleyxaya məhəbbəti qondu, dedi:
- Ay nazəninlər, əgər razı olsanız, biz sizi alıb vətənimizə aparırıq» (2, III, 123).


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Padşah oğlu» nağılında şahzadə Məhəmməd Gülzar xanıma aşiq olur. Ancaq bu qızı istəyənlərin hamısı ölümə məhkum olub, tilsimə düşərək daşa dönüblər. Ancaq bu çətinlik Məhəmmədi yolundan döndərə bilmir, yel atına minib düz tilsimlər padşahının ölkəsinə gedir: «Hər rəng çalan bağa girib bir dəfə Gülzar xanım çağırdı, dizə qədər daş olub yerində qaldı. İkinci dəfə çağırdı qurşağa qədər daş oldu. Öz-özünə dedi ki, yox olsun ki, o can ki, Gülzar xanım kimi gözəl yolunda ölümündən qorxacaq.

Öz-özünə ürək-dirək verib üçüncü dəfə çağırdı. O saat boğaza qədər daş oldu» (2, III, 188).

Məhəmmədin cəsarətli, yolundan dönməz, həm də gözəl bir oğlan olduğunu görən Gülzar xanım bir könüldən min könülə ona aşiq olur.

«Reyhanın nağılı»nda (2, III, 149-161) Reyhan xanımı çoxları istəsə də ata-anası onu naxırçı Murtuzun oğlu Bahadıra nişanlayır. Lakin bir gün gözəl Reyhan xanımı Əş-əş div oğurlayıb Qulzəmi Qafda olan tilsimə salır. Nişanlısı onu xilas etməkdə aciz qalır. Qızın qardaşı Ayğır Həsən ağır çətinliklərdən keçərək div padşahını öldürür. Gözəl Güləndam xanımı və bacısı Reyhanı tilsimdən qurtarır. Sonra 40 gün, 40 gecə toy edib Güləndam xanımı alır. Bu hadisədən bir müddət keçmiş Reyhan xanımın nişanlısı Bahadır elçi göndərir. Ayğır Həsən onu rədd edib bacısını qeyrətli bir oğlana verməyi üstün tutur.

Deməli, nağıldan çıxan məntiqi nəticə belədir ki, Bahadır kimi fərsiz, qorxaq bir oğlan Reyhan kimi dünyagözəli bir qıza layiq deyil. Doğrudur, digər bir çox nağıllarda olduğu kimi «Reyhanın nağılı»nda nişanlının qarşısında hər hansı bir şərt qoyulmur. Ancaq hadisələrin gedişində aydınlaşır ki, Reyhan kimi bir qızı düşmüş olduğu fəlakətdən qurtarmaq hər oğulun işi deyildir. Deməli, bu nağılda Bahadırın seçdiyi qıza layiq olmadığı hadisələrin gedişində üzə çıxır. Ona görə də Bahadırın istəyi gözündə qalır və igid Ayğır Həsən bacısını özü layiq bildiyi qeyrətli bir oğlana verməyi yeganə çıxış yolu bilir.

Deməli, qız və ya oğlan seçərkən onların qarşısında müəyyən şərtlərin qoyulması, müxtəlif sınaqlara çəkilməsi təsadüfi olmayıb əski xalq inamları, mərasimləri ilə bağlı bir hadisə kimi dəyərləndirilməlidir.

Azərbaycan nağıllarının bir bölümündə həddi-buluğa çatmış igidlər, çətin, uzaq səfərlərə yola düşür, möcüzəli şərtləri yerinə yetirir və istədikləri qızları alıb gətirirlər. («Gülnar xanım» (2, I, 71-79) kimi nağıllarda isə bu funksiyanı igid, mətanətli qızlar yerinə yetirirlər. Nağılın məzmunu belədir: Qəndahar padşahının Məlik Məmməd adında bir oğlu olur. Bir gün lələsi münəccimləri yığıb tas qurdurub, rəml atdırıb şahzadənin baxtına baxdırır. Münəccimlər deyirlər ki, Məlik Məmməd on dörd yaşına çatanda itəcək. Elə də olur. Qoca lələsi onu axtarmağa başlayır. O gəlib İstanbul şəhərinə çatır. Lələdən əhvalatı öyrənən Gülnar xanım şahzadəni axtarmağı qərara alır, atası ona icazə verir.

«Gülnar xanım çəkildi öz otağına, altdan geyindi üstdən qıfıllandı, üstdən geyindi altdan qıfıllandı. Bir at mindi hamı ilə görüşüb yola düşdü.

Günə bir mənzil, teyyi-mənazil, gecəni gündüzə qatdı, gündüzüü gecəyə, üç ay tamam at sürdü, üç ayın tamamında gəlib bir qalaçaya çatdı» (2, I, 72).

Burada Gülnar xanım üç pəri qızlarından kiçiyinə rast olur. Pəri qızı deyir ki, biz üç bacı pərilər padşahının qızlarıyıq. Biz hər cümə axşamı sənin gözəlliyinə tamaşa eliyirdik. Sən də bizi göyərçin bilib yedirib-içirdirdin. Gülnar xanım gəlişinin məqsədini söyləyir. Pəri qızı deyir ki, biz üç bacı üç divə ərə getmişik. Böyük bacılarımın ərləri bundan bir xəbər bilər. Gülnar xanım ortancıl bacının, sonra isə böyük bacının qonağı olur. Pəri qızı divdən Məlik Məmmədi onun oğurladığını öyrənir.

«Axirüləmr div boynuna alır ki, Məlik Məmmədi o oğurlayıb, özün də yeddi təpə qalasında tilsimə salıb.

Qız səhər əhvalatı Gülnar xanıma xəbər verdi. Gülnar xanım ona tapşırdı ki, indi də öyrənsin o tilsimi necə sındırmaq olar. Bir də ki, öyrənsin görsün divin canı nədədi. Div qıza dedi ki:

- Bu qalanın qapısında qırx dildə yazılmış daşlar var. Gərək onu sındırmaq istəyən bu daşların hamısın oxuya» (2, I, 74).

Div öz canının yerini də ona deyir. Divin canı həmin qalaçadakı çarhovuzdakı üç balıqdan birində imiş. Gülnar xanım həmin balığı tapıb divi öldürür. «Gəldi bu yana, gördü dağın ətəyində barı kimi bir yerdə qırx dildə yazılmış daşlar asılıb. Gülnar xanım dünyanın bütün elmlərindən baxəbər idi. Başladı bunları bir-bir oxumağa. Axırıncı daşı oxuyub qurtaranda elə bil ki, dağ hərəkətə gəldi. Barı yarıldı, girdi içəriyə, gördü Məlik Məmməd bir qızıl taxtın üstündə yatıb, amma yarımcandı» (2, I, 76). Gülnar xanım cibindən quran çıxarıb oxumaq istəyir, amma qorxur ki, tamamlaya bilməyəcək. Çünki bilir ki, belə adamları tilsimdən oyatmaq üçün qırx gün arasını kəsmədən quran oxumaq lazımdır. Çıxıb karvandan bir qızı alıb qalaçaya gətirir, əhvalatı qıza danışır. O yorulanda qız oxuyur ki, quranın arası kəsilib batil olmasın. Lap axırda görür ki, yuxu onu aparır. Qızı qaldırıb quranı ona verir. Qırx gününün tamamında şahzadə ayılır.

«... Soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Sən kimsən?

Namərd qız cavabında dedi:

- Mən burada düz qırx gündü ki, səni ayıltmaq üçün gecə-gündüz quran oxuyub xətm tuturam.

Məlik Məmməd ətrafına baxıb yerdə yatan bir adam gördü. Bu, Gülnar xanımdı, başını örtüb yatmışdı. Məlik Məmməd soruşdu:

- Bəs bu kimdi, burda yatıb?

Qız dedi:

- O səni bu günə salan adamdı. Düz qırx gündü ki, mən onunla çarpışıram. Axırda mən ismiəzəm oxuyub onu yatırmışam» (2, I, 175).

Gülnar xanım ayılıb əhvalatı başa düşür. Onların dalınca gəlir, ancaq çata bilmir. Odur ki, gəlib Qəndaharda qalır. Məlik Məmməd isə o biri qızla atasının şəhərinə gəlir. Onlara toy edirlər. Gülnar xanım isə yun aldırıb xalı toxumağa başlayır. Bütün başına gələnləri naxış ilə bu xalçanın üstünə yazır. Bir gün xəbər yayılır ki, bütün şəhər camaatı şahzadəni görməyə gedir və hərəsi bir xələt aparır. Abbas adlı bir nəfər də bu xalçanı alıb şahzadənin yanına yollanır. Bir az keçmiş onu şahzadənin hüzuruna çağırırlar. Şahzadə deyir ki, bu xalçanın tayını da gərək gətirəsən. Üçüncü xalçanı da alan şahzadə bütün əhvalatı öyrənir. Şahzadə Gülnar xanımı axtarıb tapır və onu da götürüb atasının vilayətinə gəlir.

Bu nağılda bütün çətinliklərdən keçən igid və ağıllı Gülnar xanım istədiyi oğlanla evlənməyə layiq olduğunu sübut edir).

Bu nağıllar üzərindəki müşahidələr göstərir ki, uzaq məmləkətdən, qeyri-adi padşahlıqdan qız almaq igidlik sayılmışdır. Bu motiv «Məlik Düçar», «Məlik Məmməd və Məlik Əhməd», «Cəlayivətən», «Soltan İbrahim», «Sehrli üzük», «Oxxayla Əhməd», «Tapdıq», «Qaraqaşın nağılı» və s. onlarla nağıllarda da mühüm yer tutur.

Deməli, nağıldakı hər bir motiv və süjet sadəcə möcüzə olmayıb əski inamlarla, adət-ənənələrlə bu və ya digər dərəcədə bağlı olmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı inciləri (Nağıllar). Tərtib edəni N.Seyidov, Bakı: Yazıçı, 1985.
2. Azərbaycan nağılları. Beş clddə. I - V cildlər. Bakı: Azərb. EA, 1960-1964.
3. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989.
4. Пропп В.Й. Морфология сказки. М: Наука, 1969.

## РЕЗЮМЕ

### Выбор невесты в сказках

В статье основное внимание концентрировано на вопросе о выборе невесты в сказках. Отмечается, что постановка данного вопроса позволяет глубже изучать целый ряд важных аспектов обрядов и выдвигать новые предположение по этим вопросам.

Автор приходит к выводу о том, что постановка определенных условий перед невестой или женихом и их испытание в сказках носят не случайный характер, а связаны с народными поверьями и древними обрядами.

Основывается тезис о том, что в сказках те женихи или невесты, которые выдерживают испытание, которые не в состоянии выдерживать подобные испытания, причисляются к ложным героям.

## SUMMARY

### Choice of bride in stories

In the article the main attention is concentrated to the problem about choice of bride in stories. It is noted that statemenet of the given question allows to study the whole important aspects of rituals and to put forward new questions according to these questions.

The author comes to a conclusion that the statement of the definite conditions before the bride or the bride-groom and their trial in the stories carries not only the fortuity character but also folk belives and ancient rituals.

In the article it is also said that in the stories bride-grooms or brides who stand the test come forward in the role of authentic heroes, but those who can't stand the similar test reckon among the false heroes.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## KİTÂBI DEDE KORKUT'TA *BASAT* OKUNAN İSİM ÜZERİNE YENİ GÖRÜŞLER

***Prof. Dr. Osman Fikri SERTKAYA***
***( İstanbul Üniversitesi )***

Bildirimin konusu Dede Korkut hikâyelerinin 8. boyu olan "Depegöz hikâyesi"nin kahramanının adının ilk hecesinin *a* ünlüsü ile *basāṭ* yerine *u* ünlüsü ile *busāṭ* veya *pusāṭ* şeklinde okunması gerektiğidir. Bu kanaatimi aşağıda şöyle açıklamak istiyorum:

Dede Korkut Kitabı'nın Dresden nüshasının 231. sahifesinin 6.-10. satırları arasında Depegöz'ün söylediği ve ilk dörtlüğü k*a*-, ikinci dörtlüğü *a*- baş kafiyesi ile olan bir Soylama vardır. Depegöz'ün söylediği soru bölümü iki dörtlükten oluşmaktadır. *Busāṭ*'ın söylediği 231. sahifenin 11.-13. ve 232. sahifenin 1.-3. satırlarındaki cevap bölümününün ikinci dörtlüğünde eksik olan mısra soru bölümünden alınarak dörtlük tamamlanmıştır. Soru-cevap şeklindeki Soylama şöyledir:

Depegöz gene aydur:
***ka**larda koparda yigit! yerüñ ne yerdür?*
***ka**rangu dün içinde yol azsañ, umuñ ne dür?*
***ka**ba ʻalem götüren ĥanuñuz kim?*
*kırış güni öndin < depen alpuñuz kim? >*
*< **a**ġ pürçeklü anañ adı ne dür? >*
***a**ġ sakallı babañ adı ne dür?*
***a**lp eren {erden} adın yaşurmak ʻayb olur*
***a**duñ ne dür yigit! degil, maña!* dedi.
*Busāṭ* Depegöze soylamış. Görelüm ĥanum! ne soylamış :
***ka**larda koparda yerüm Gün Ortac!*
***ka**rañu dün içre yol azsam, umum Allāh!*
***ka**ba ʻalem götüren ĥanumuz Bayandar ĥan!*
*kırış güni öndin depen alpumuz Ulaş oğlı Salur azan!*
***a**nam adın sorar olsañ, Kaba Aġaç!*
***a**tam adın derseñ, Kaġan Aslan!*
*< **a**lp eren {erden} adın yaşurmak ʻayb olur >*
***a**dım menüm sorarsañ, Aruz oġlı Busāṭ* 'dur dedi.

Soylama'da geçen bazı kelimeleri ve şekilleri şöyle açıklamak istiyorum:

**1. Kalarda** : "kışlada kaldığımda", **koparda** : "yaylaya çıktığımda" da yerim yani ana yurdum **Gün Ortac** (Güneydeki Or dağı)'dır. *Or tak* yer adındaki **tak** "dağ" kelimesi **tak** > **tac** şeklinde gelişmiştir.[248] Oğuzların yazlık yurtları olan *Ortak* ve *Kürtak* için bk.[249]

**2. karangu ~ karañu** : Soylama'nın soru bölümünde imlâ نك cevap bölümünde ك ile yazılmıştır.

**2. içinde ~ içre** : Soylama'nın soru bölümünde *içinde*, cevap bölümünde ise *içre* şeklinde yazılmıştır.

**4.** < **depen alpuñuz kim?** > ibaresi cevap bölümüne bakarak soru bölümüne eklenmiştir.

**5.** < **aġ pürçeklü anañ adı ne dür?** > mısraı Soylama'nın cevap bölümündeki *anam adın sorar olsañ, Kaba Aġaç!* mısraına dayanılarak metne eklenmiştir.

**9. yerüm Gün Ortac !** : Yerim (= ana yurdum) *Gün Ortac* (Güneydeki Or dağı)'dır. *Or tak* yer adındaki *tak* "dağ" kelimesi *tak* > *tac* şeklinde gelişmiştir.[250]

**11. ʻālem** : İmlâ yanlışı. Doğrusu 3. satırdaki gibi *ʻalem* şeklinde olmalı idi.

**12. Ulaş oğlı Salur Kazan!** : Metinde müstensih tarafından sehven *Salur oğlı Kazan* şeklinde yazılmıştır. İbare *Ulaş oğlı Salur Kazan* şeklinde tamir edilmiştir.

**13. anam adın sorar olsañ, Kaba Aġaç!** : Mısraın ilk kelimesi metinde *anam* انام yerine *atam* اتام şeklinde noktalanmıştır. Müstensihin *nûn* harfinin tek noktası yerine *te* harfinin iki noktasını sehven koyduğu anlaşılıyor. Bu düzeltmenin tasdikleri de vardır. İlki *Oğuz Kağan Destanı*'nda *uç ok* (*üç* ? *uk* ?) 'ların esasını teşkil eden *Kök Han, Tag Han* ve *Tengiz Han*'ın annelerinin ağaç kovuğunda oturan bir kız olmasıdır. İkincisi ise *atam* "babam" şeklinin bir sonraki *atam adın sorar <ol>sañ, Kaġan Aslan!* mısraındaki *Kaġan Aslan* sözü ile geçmesidir.

---

[248] Asıf Hacıyev, "Ulu tarih, eski mif", *Azerbaycan Şifahi Halq Ədəbiyatına Dair Tədqiqlər*, XIX, Bakı, 2006, s.
[249] A. Zeki Velidi Togan, *Oğuz Destanı. Reşideddin Oğuznamesi, Tercüme ve Tahlili*, İstanbul 1972, s. 17 ve 81.
[250] Asıf Hacıyev, "Ulu tarih, eski mif", *Azerbaycan Şifahi Halq Ədəbiyatına Dair Tədqiqlər*, XIX, Bakı, 2006, s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**14. atam adın derseñ, kağan Aslan!** : Mısrada *Kağan Aslan*, "ata" yani "baba" şeklinde "erkek aslan" olarak geçmektedir.

Buna karşılık Bəhlül Abdulla;

"M. H. Təhmasib göründüyü tək, aslanı Basatın atası yoĥ, anası hesab edir. Bir gədər sonra professor doğrudan-doğruya Təpəgözün Basatdan kimlərdən olduğunu soruşan sualına cevabı, bizim arĥada «Gaba Agac»dan danışarkan bildirdiyimiz kimi, «Atam adın sorar olsan Gaba Ağac, anam adın deyirsən Gagan Aslan» olarag geyd etmişdir. Bizə bəlli olan məsələ burada bir daha aydın olur ki, **Qaba Ağaç ata, Qagan Aslan ise anadır.** Basat «anam adın deyirsən Qagan Aslan» deməklə ona meşədə süd verən aslanı nəzərdə tutmuşdur. Odur ki, bu məsələni cürbəcür dona salmagdan sarı dağa-daşa düşməyə hec bir ehtiyac yohdur" demektedir.[251]

Süleyman Eliyarlı ise "*Dede Korkut Kitabı* ve Türk türeyiş efsaneleri" adlı makalesinde "Busāṭ'ın epik hal tercümesini" atası *Kaba Ağaç*, anası *Kağan Aslan* olarak verir:

*Atam adın sorar olsan Kaba Ağaç. / Anam adın dersen Kağan Aslan.*[252]

Azerbaycanlı araştırıcılar olan B. Abdulla ile S. Eliyarlı'nın aslanın *Busāṭ*'ı "beslemesi"ni süt vermesi şeklinde anlamaları yüzünden anne olarak kabul ettikleri açıktır. Ancak Dede Korkut Kitabı'nda aslanın *Busāṭ*'a süt vermesi, yani emzirmesi belirtilmemektedir. Ayrıca *Kağan Arslan* ifadesi Türkçe metinlerde hem "erkek aslan" hem de "dişi aslan" olarak anlaşılmıştır.[253]

a) **Kağan Aslan'ın "erkek aslan" olarak anlaşılma örnekleri :**

* Melik Nāsır alāhü'd-din *kağan aslan* gibi bin kişi ile Hama'dan seyr eyledi (Kesîr, XV. 205)

* ānkāhı içre añraşup yatan dervişlerüñ
Her birisi kulle-i ʻışkuñ *kağan aslanı*dur (Aşkî, XVI. 58)

b) **Kağan Aslan'ın "dişi aslan" olarak anlaşılma örnekleri :**

İki aslan çıka geldi; biri erkek, biri *kağan* idi (Bektaş. XV. 102).

Bu cümleye dayanarak; "Eger zaʻif dilkü anuñ himāyeti otluğuna yol bulursa, *erkek kağan arslan*ları iki yırtar (İhlâs, XIV. 2)" cümlesinde geçen şekli de "erkek (arslanları) ve Kağan arslanları" şeklinde anlamak mümkündür.

Ali Fehmi Karamanlıoğlu *kağan arslan* ibaresindeki *kağan* kelimesini "kükreyen, kızgın (arslan)" şeklinde anlamlandırmıştı.[254]

Semih Tezcan ise *kağan* kelimesinin *kakığan* "öfkelenen, sinirlenen, hiddetlenen, gazaplanan" kelimesinden vurgusuz orta hece düşmesi ile *kakığan* > *kağan* şeklinde ortaya çıktığı görüşünü ileri sürmekte ve benzer örneklerin *Tarama Sözlüğü*'nde *kakığan* maddesinde geçtiğini belirtmektedir.

**Drs. 86b. 6** (ME D 173/6) ve başka yerler

*ol üç cānverüŋ biri kağan aslanıdı ...*

Bazı yerlerde kökeni bilinmeyen bir sözcük gibi gösterilen *kağan*, hece yutumu (Haplologie) ile *kakığan*'dan gelmektedir. TarS. 2164'te *kakığan* maddesinde bu sözcüğün de tıpkı *kağan* gibi yırtıcı hayvanlar için kullanıldığını gösteren örnekler yer alır.[255]

**15. adım menüm** : Metinde *menüm adım* şeklindedir. Baş kafiye uyumu için *adım menüm* şeklinde düzeltilmiştir.

**15. Busāṭ** : Dresden nüshasında 56 kere zikredilen bu isim, imlâda daima ilk ünlüsü eksik olarak Be - Sin - Elif - Tı harfleri ile olmak üzere بساط imlâsı ile geçer. Vatikan nüshasında bu boy olmadığı için bu ismin harekeli şekli meçhuldür. Ancak bu isim ve benzerleri Arapça, Farsça ve Türkçe kaynaklarda benzer ve değişik şekillerde geçer.

**A) Arapça kaynaklarda:** Ebûbekir bin Abdullâh bin Aybek ed-Devâdârî'nin 1330 yılında tamamladığı *Dürerü't-Ticân ve Tevârîh-i Gurerü'l-Ezmân*[256] adlı Arapça eserindeki benzer bir hikâyede kahramanın adı بساط بن أرؤس BSĀ BN 'RS (*Bsāṭ bin Arus*) şeklinde geçer.

[251] B. Abdulla, *Kitabi-Dede Qorqud'un Poetikası*, Bakı, 1999, s. 67-68. Krş. 41-43.
[252] *Türk Dili Araştırmaları Yıllığı-Belleten 1998/II*, Ankara, 2004, s. 35.
[253] *XIII. Yüzyıldan Beri Türkiye Türkçesiyle Yazılmış Kitaplardan Toplanan Tanıklarıyle Tarama Sözlüğü, IV, K-N*, Ankara, 1969, s. 2160-2161.
[254] Ali Fehmi Karamanlıoğlu, *Gülistan Tercümesi (Kitâb Gülistan bi't-Türkî*, Ankara, 1989, s. 286-287.
[255] Semih Tezcan, *Dede Korkut Oğuznâmeleri Üzerine Notlar*, İstanbul, Nisan 2001, s. 242.
[256] Süleymaniye Kütüphanesi, Damat İbrahim Paşa, no 913, s. 202b-203a.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com



*Dürerü't-Ticân ve Tevârîh-i Gurerü'l-Ezmân,* v. 202b.



*Dürerü't-Ticân ve Tevârîh-i Gurerü'l-Ezmân*, v. 203a.

«Ben derim ki: Burada bu kavmin ilk def'a huruçlarını ve bidayetlerini zikredelim. Fakat bu hususatın bazısını şer'-i şerif kabul edemez. Bu malumat bunların «Ulu Han Ata Bitikçi» kitaplarından alınan şeylerdir. Mezkûr terkibin tefsiri (Büyük Şah Baba) Kitabı demektir. Bu öyle bir kitaptır ki eski Türklerden Moğullar ve Kıfçaklar bununla sevinir ve memnun olurlar; bu kitabın onlar yanında büyük hürmeti vardır. Nasıl ki Oğuz Türklerinin yanında «Oğuznâme» denilen bir kitap vardır ki elden ele dolaştırırlar. Oğuzların bidayeti halleri ve ilk padişahları hep bu kitapta mezkurdur. «Oğuz» diye Türklere denir ki büyükleri «Oğuz» isminde birisi imiş. «Oğuznâme» denilen bu kitapta دباكوز (Tepegöz) denilen bir şahsın ahvali de mezkurdur. Tepegöz denilen bu kimse ilk Türklerin memleketini harap etmiş, büyüklerini tepelemiş bir şahıstır. Onların rivayetlerine göre çirkin, igrenç bir adammış; tepesinde bir tek gözü varmış; bunun anası ulu deniz perilerinden imiş. Oğuzların bu Tepegöz hakkında pek meşhur masalları var; bu masallar bugüne kadar ağızlarda dolaşır durur. Bu masalları Oğuzlar içinde uslu, bilgili kimseler ezberler ve kobuzlarını çalarak söylerler. En sonra bu Tepegöz'ü Türkler arasında yetişmiş itibarlı, şöhretli, güçlü, yürekli «ارز Uruz» oğlu «Basat» öldürmüştür. Bunu öldürmesine sebep ise Oğuzlar içerisinde yetişip de atıcılıkta kendisini kimse yenemeyen bir kız olmuştur; çünkü Basat bu kızı yenip aldığı ve babasına müjde vererek getirdiği zaman babası şöyle demiştir: «Ben de sandım ki Tepegözü öldürdünüz.» İşte bu sebeplerden dolayı Basat Tepegöz'ü duyunca birçok kurnazlıklar düşünmüş; ve ne yapmışsa yapmış, Tepegöz'ü öldürmüş. Basat ile Tepegöz arasında öyle haller geçiyor



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ki bunu akıl alamaz; bunlar Türklerin hurufatındandır. Ben bu mukaddimeyi mahsus yazdım ki kitabımı okuyanlar Türklerin çok hallerini bildiğimi anlasınlar.»[257]

M. Fuad Köprülü 1919 yılında bu Arapça metinde geçen بساط BSĀ ismini, *-a-* ünlüsü ile, *Basat* şeklinde okumuştur.[258] Köprülü hocamızı böyle okumaya sevk eden husus ismin diğer zikirlerinden birinde Elif harfinin esresini ilk heceye ait zannetmesidir.

Orhan Şâik Gökyay da 1938 yılındaki Dede Korkut neşrinde hocası M. Fuad Köprülü'nün tesirinde kalarak *Basat* okuyuşunu tekrarlamıştır. Ondan sonraki, hemen hemen, bütün nâşirler de *Basat* okuyuşuna iştirak etmişlerdir.

Tanınmış folklor araştırıcısı Viktor Maksimoviç Jirmunski ise Dede Korkut'un sekizinci boyunda geçen ismi *Bisat* şeklinde okumuştur.[259]

*bisat* kelimesi Steingass'da "Arapça بساط *basāṭ*, Extensive (tract of country); - *bisāṭ* Anything spread out; carpet, bedding; chess-cloth, dice-board; goods, wares" karşılıklarında geçer.[260]

**B) Farsça kaynaklarda:** Ebûbekir Tihrânî'nin *Kitab-i Diyarbakriyya* (Ak-Koyunlular Tarihi) adlı Farsça eserinde geçen benzer bir hikâyede kahramanın adı بیسوت *Bisüt ān* şeklinde geçer.

"Bîsüt Han ve o yüz yirmi yıl saltanat sürdü. Moğol ordusu babasının evine saldırdığı zaman anası ona yüklü idi. Kaçar iken doğurdu ve onu yolun kenarına attı ve gitti. Yaşlı bir kadın onu (oradan) aldı, özenle korumaya koyuldu ve dört ay onu inek sütü ile besledi. Babası ülkesine döndüğü zaman onun haberini aldı ve yaşlı kadından çocuğunu geri istedi ve adını "Bîsüt" koydu.[261]

Faruk Sümer "*Basāṭ*, *bas-* fiilinden yapılmış bir isim gibi görülüyor, Kaşgarlı *-t* eki ile fiillerden isim yapıldığını yazıyor..." diyerek *Basāṭ* adını *bas-* fiilinden türeyen bir isim saymaktadır.[262]

Semih Tezcan ise *Dede Korkut Oğuznāmeleri Üzerine Notlar* adlı eserinde *Basaṭ* adının *bas at!* şeklinde halk etimolojisi ile açıklanmak istendiğini vurgular.

**Drs. 108b.5** (ME D 213/5) ve daha sonra birçok kez: Basaṭ.

Bir arslan tarafından beslenmiş olan Basaṭ'ın adı her zaman *ṭı* ile yazılmaktadır. 108b.13'te Basaṭ için: «at basuban kan sömürür» denmiştir. Dede Korkut ona ad verirken 109a.10: «ulu kardaşuŋ adı Kıyan Selcükdür, senüŋ (9) aduŋ Basaṭ olsun. Aduŋı men verdüm, yaşunı Allāh (10) versün» diyor, burada sanki bir köken açıklaması verilmiş gibi: *bas at!*

Kitāb-ı Diyārbekriyye'den aktarılan bir parçaya göre aynı kişiye insan sütüyle değil, inek sütüyle beslemesinden dolayı Bisüt adı verilmiş. bkz. Gökyay, s. Rom. 145 ve Adnan Erzi, "Ak-Koyunlu ve Kara -Koyunlu Tarihi Hakkında Araştırmalar", *Belleten*, 18, 1954, s. 179 ve dev. Sonuç olarak Basaṭ adı, her hangi bir şekilde halk etimolojisiyle açıklanmak istenmiştir.[263]

Dede Korkut'un diğer Türk nâşirleri olan Sâdettin Özçelik ile Mustafa Sinan Kaçalin'in *Basat* adı üzerine bir açıklamaları yoktur.

Gerek Arapça kaynaklardan Ebûbekir bin Abdullâh bin Aybek ed-Devâdârî'nin 1330 yılında tamamladığı *Dürerü't-Ticân ve Tevârîh-i Gurerü'l-Ezmân*'daki şekil, gerek Farsça kaynaklardan Ebûbekir Tihrânî'nin *Kitab-i Diyarbakriyya* (Ak-Koyunlular Tarihi)'sındaki benzer bir hikâyede geçen adı بیسوت *Bisüt ān* şekli Dede Korkut'ta geçen ve *Basat* ile *Bisat* okunan şekle bir esas teşkil etmiyor, edemiyor.

**C) Türkçe kaynaklarda:** Topkapı Sarayı Kütüphanesi'nde bulunan Yazıcızâde Oğuznâmesi'nde bu ismin ilk ünlüsü vâv harfi ile بوسات şeklinde gösterilmiştir.

(43) *yedi yıl Elburza sefer kılan, kaydıp dönen, Kıyan Busāṭ* (قیان بوسات)

---

[257] M. Fuad Köprülü, *Türk Edebiyatında İlk Mutasavvıflar*, İstanbul, 1919, s. 279, not 2; O. Ş. Gökyay, *Dede Korkut*, İstanbul, 1938, s. XLI-XLII; M. Fuad Köprülü, *Türk Edebiyatında İlk Mutasavvıflar*, İkinci baskı, İstanbul, 1966, s. 213-14, not 106.

[258] Orhan Şaik Gökyay, *Dedem Korkudun Kitabı*, İstanbul, 1973, s. CXLV.

[259] V. M. Jirmunski, "VI. Oguzskiy Tsiklop: Bisat i Depe-göz", *Tyurkskiy Geroiçeskiy Epos*, Leningrad, 1974, s. 589-591.

[260] *Persian-English Dictionary*, 1977, s. 185a.

[261] N. Lugal-F. Sümer, Abū bakr-i ihrānī. *Kitāb-i Diyārbakriyya (Ak-Koyunlular Tarihi)*, 1. cüz, Ankara, 1993, s. 21'deki Farsça metni Türkiye Türkçesine çeviren Dr. Abid Nazar Mahdum'a teşekkür ederim. Krş. Ebu Bekr-i Tihranî. *Kitab-ı Diyarbekriyye*, Çeviren: Mürsel Öztürk, Ankara, 2001, s. 28.

[262] Faruk Sümer, *Türk Devletleri Tarihinde Şâhıs Adları -I-*, İstanbul, 1999, s. 170-171.

[263] Semih Tezcan, *Dede Korkut Oğuznâmeleri Üzerine Notlar*, İstanbul, Nisan 2001, s. 297.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*kardaş kanın alan,* (44) *it Depegözü öldürüp, kalıñ oġuzda at koyan, Urılmış Han.*

Bu *Oğuz-nâme* parçasında Aruz Koca'nın iki oğlunun adlarının *Kıyan Selçük* ile *Kıyan Busāṭ* olduğu, *Busāṭ Han*'ın Oğuzlar arasında *Urılmış Han* unvanıyla da tanındığı anlaşılıyor.

Dede Korkut'un sözlü Çepni varyantlarında da bu isim *Busat* şeklinde telaffuz edilmiştir. Yazıcızâde Oğuznâmesi ile Çepni rivayetlerinde ilk ünlünün belirtilmesi dolayısıyla Dede Korkut'un sekizinci hikâyesinin kahramanının adının ***Busāṭ*** şeklinde okunması gerekiyor.

Nitekim tanınmış Azerbaycan âlimi Əli A. Sultanlı da *Dede Korkut Kitabı*'ndaki ismi *busat* şeklinde okumuştu.[264]

**Sonuç** olarak başka hiç bir metinde geçmeyen ***basāṭ*** isminin Türkçede bir "hayal kelime (Ghost Word)" olduğunu söyleyebiliriz.

*Derleme Sözlüğü*'ndeki **busat** ve **pusat** maddelerinde şu karşılıklar vardır:

**busat** (I) **1.** Kumaş parçası;

**2.** Çocukları beşiğe sıkıca bağlamaya yarayan bez;

**3.** Elbise.[265]

**pusat** (I) Asker: *Türk pusatları erkekçe savaş yaparlar*;

(II). Altın ve gümüş eşya: *Ayşe bibinin pusadı pek çok*;

(III). Hamam takımı;

(IV) **1.** Güveyin geline gönderdiği nişan armağanı;

(IV) **2.** Çeyiz;

(IV) **3.** Gelinlik giysi;

(IV) **4.** Giysilik kumaş;

(IV) **5.** Giysi;

(IV) **6.** Çamaşır;

(IV) **7.** Beşiğe bağlanan enli kuşak, beşik örtüsü ve minderi.[266]

Bu bilgilere göre Türkiye Türkçesi yazı dilinde "**busat ~ pusat** 'elbise; kumaş parçası, bez' DS 806, 3490 < *bisat*, b. A. Tietze 1992, s. 306 *Üç gün sonra bir uçurum kıyısında onun gelinlik pusatlarını bulmuşlar.* (Feridun Osman, 1936, s. 102)" anlamında edebî eserde tespit edilmiştir.[267]

Eski ve Orta Türkçe (Göktürk, Uygur, Karahanlı, Çağatay, Kıpçak) metinlerinde tespit edilemeyen, fakat Türkiye Türkçesi'nde bazı tarihî romanlarda "silâh" anlamında kullanılan ve "*At, avrat, pusat ödünç verilmez*" özdeyişinde geçen *pusat* kelimesi *Türkçe Sözlük*'te "**pusat** *is. esk.* **1.** Araç, **2.** Silâh, zırh vb. savaş aracı, **3.** Giysi veya giysilik kumaş" karşılıkları ile yer almıştır.[268]

---

[264] ß. A. Sultanlı, "Dədə Qorqut" dastanı haqqında qəydlər. III", Azerbaycan Devlet Universiteti'nun Əlmi Əserleri, Humaniter Əlmler seriyası, 1959/3, s. 3-4.

[265] *Türkiye'de Halk Ağzından Derleme Sözlüğü, II. B.*, Ankara, 1965, s. 806a.

[266] *Türkiye'de Halk Ağzından Derleme Sözlüğü, IX. L-R.*, Ankara, 1977, s. 3490a-b. 806a.

[267] A. Tietze, *Tarihi ve Etimolojik Türkiye Türkçesi Lugatı, Cilt 1, A-E*, İstanbul-Wien, 2002, s. 102.

[268] *Türkçe Sözlük*, 10. baskı, Ankara, 2005, s. 1632b.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SEYİD NİGARİNİN ÇAYNAMƏ MƏSNƏVİSİ

***Pərvanə Bayram***
***Qafqaz Universiteti Pedaqogika Fakultəsi***
***Türk Dili və Ədəbiyyatı Bölməsi***
***Azərbaycan***

Məsnəvi kəliməsinin hərfi mənası Ərəb dilində iki, ikili deməkdir. Ədəbiyyatımızda isə eyni vəzində və hər beyti öz arasında ayrı ayrı qafiyələnən şeirlərin adıdır. Məsnəvidə beytlər həm ayrı ayrı qafiyələnməlidir, həm də mənalar beyt içində tamamlanamlı və o biri beytlərə keçməməlidir. Beytlər arasında isə sadəcə mövzu birliyi olmalıdır. Klassik ədəbiyyatda 20–30 beytdən yüzlərcə, hətta minlərcə beytə qədər yazılan məsnəvilər vardır. Bu janrda hər beyt ayrı ayrı qafiyələndiyi üçün şeir yazmaq daha asandır və bu səbəblə də ədəbiyyatımızda məsnəvi janrında yazılan əsərlər daha çoxdur. Xüsusən də dastanlar, tarixi, dini-əxlaqi mövzulu iri həcmli əsərlər bu janrla yazılmışdır. Məsnəvilərin başında çox vaxt qəsidə şəklində tövhid, münacat, nat, mədhiyyə yazılır. Sonra səbəb-i nəzmi kitab başlığı altında əsərin kimə yazıldığı haqqında məlumat verilir. Məsnəvilərdə mövzular bölümlərə ayrılır və başlıqlar daha çox Farsca yazılır. Axırda isə əsər kimin adına yazılmışsa ona dua edilir[269]. Azərbaycan ədəbiyyatında bu janrın ustası XII əsrdə yaşamış xəmsə şairi Nizami Gəncəvidir. Nizami Gəncəvi Xəmsəsindəki məsnəvilərlə özündən sonrakı ədəbiyyatda bir məktəb təşkil etmişdir. XIX əsrdə uzunluğu səbəbiylə bu janra olan rəğbət, əvvəlki əsrlərə nisbətəbn azalsa da bəzi şairlər yenə də bu janrdan istifadə etmişlərdir. XIX əsrdə yaşayan Seyid Nigari də bu janrda qələmini sınayaraq iki məsnəvi yazmışdır. Nigarinin məsnəvilərində klassik məsnəvi şairlərinin, xüsusən də Nizami Gəncəvinin bariz təsiri görünməklə bərabər, şair, iki məsnəvisində də daha çox XVIII əsr Anadolu sahəsi klassik Türk ədəbiyyatının məşhur şairi Şeyx Galibin "Hüsn və Eşq" məsnəvisindən təsirlənmişdir. Şeyx Qalibin "Hüsn və Eşq" məsnəvisindəki simvolik məzmunlar və alleqorik ünsürlərdən Çaynamədə də geniş bir şəkildə istifadə edilmişdir. Şair bu əsərdə samovara və çaya müxtəlif təsəvvüfi məznunlar yükləmiş və bunların hər biri haqqında üslublu bir dildə gözəl bənzətmələr yazmışdır.

Çayname-i Seyid Nigari adıyla əruzun Məfu lü/Mə fai lün/Feu lün vəzniylə yazılan əsər, 521 beyitlik təsəvvüfi bir məsnəvidir və bölümlərə ayrılaraq yazılmışdır. On səkkiz bölümdən ibarət olan bu əsərdə klassik məsnəvi ənənəsinə uyqun olaraq hər bir bölümə başlıq verilmiş və başlıqlar ayrı ayrı yazılmışdır.

Bəsmələylə başlayan birinci bölümün adı "Bu gülistan-ı hamd-rənadan bir gül-dəstə və bustan-ı şükr-zibadan bir şəmame-i dilbəstədir" şəklindədir. Mənası "bu şükrün gözəl bağçasından bir gül dəstəsi və şükür bağından bir aşiqin ətirli şamamasıdır" olan bu bölüm tövhid olaraq yazılmışdır və 41 beytdən ibarətdir. Əsərə belə başlanır:

Alemlere ey viren nizamı
Hamd sanadır şükr tamamı

İkinci bölüm isə "Bu cənnətistan-ı şəhənşah-ı ənbiyadan bir dəstə gül və çəmənistan-ı sürur-ı asfiyadan bir güldəstə-i behcət-əfza-yı dildir" başlığı altında yazılmış nət bölümüdür. Mənası "bu peyqəmbərlərin şahənşahının cənnət bağçasından bir gül dəstəsi və sevinc çəmənliyinin başçısından könül gözəlliyini artıran bir gül dəstəsidir" olan bu bölüm də 47 beytlikdir.

Ey dide-i zübde-i dü alem
Ey eşref-i nesl-i can-ı Adem
Her lahza dürud-ı hub her dem
Olsun sana ey Habib-i Ekrem
Bir can Muhammed Emine
Reşkdih buy-ı yasemine

Üçüncü bölümdə şair "Bu gülzar-ı münacat ü arz-ı hacətdən bir şəmmə bu və çəmənzar-ı tazarru u niyazdan bir nefha-i dil-cudur" başlığı altında məsnəvinin münacat hissəsini yazmışdır. Mənası "bu münacatın gül baxçasından və ehtiyacların dilə gətirilməsindən balaca bir ətir və yalvarıb yaxarma –niyaz etmə çəmənliyindən könül çəkən bir ətirdir" olan bu bölümdə şair saqiyə xitabən Allaha yalvarır və əsərini yaza bilmək üçün Ondan yardım istəyir. 83 beytdən ibarət olan bu bölümdə şair həm də dua edir.

Lutf eyle be-hakk-ı desti desti
Ser-şar be-bade-i elesti
Luft eyle be-hurmet-i sebu-mey

[269] İpekten H. Əski Türk ədəbiyyatında nazım şekilleri ve aruz, s. 59–60.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Meyi ki şeved be-nale-i ney
Yani ki beni mükerrem itdin
İslam ile şad ü hurrem itdin
Evvel ola ahirimde beyle
Ey Bari-Huda kıl öyle eyle

Dördüncü bölümdə "Bais-i nəzm-ı Çay-namə" başlığı altında əsərin yazılış səbəbi verilir. Bu bölüm 8 beytdir.

Bir vakt-i ferah ki peyk-i esrar
Şehdane sözi lebi şeker-bar
Semavere eyleyüp işaret
Sudan yanaga virüp beşaret

Beşinci bölümdə şair "Bu övsaf-ı samovar-ı dil-güşadan bir vasf-ı dil-ara-yı fərəh-fəzadır" başlığı altında samovarın xüsusiyyətlərindən danışır. Mənası "bu ürək açan samovarın vəsflərindən ürəyi fərəhləndirib gözəlləşdirən bir vəsfdir" olan 19 beytlik bu bölümdə şair, samovari neylə müqayisə edir. Şair burada Mövləvilik təriqətindən də bəhs edərək "samovar nə çinar, nə də gülnardır, onun aşiqliyinə dəlil içindəki nardır, samovar nə bəzəklidir, nə rəngli; zərrin olması onun öz xüsusiyyəti, öz rəngidir. Qızıl suyuna boyanan onun zahiridir, içi isə eşq atəşiylə yanmışdır. Samovarın canı könül əhlinin canıdır, onu da samovar kimi eşq atəşiylə yandırırlar. Samovar müəmmalı bir dairədir ki içində od ilə su bir yerdə durur. Samovarın atəşgahı məcməyisidir, içindəki od da gülnardır. Burada İbrahim peyqəmbərin atəşə atılması hadisəsinə təlmih edilir. Samovarın su qoyulan yeri dirilik suyunun yeridir, suya bu yer can verməkdədir. Samovarın qaynamağı qaynamaq deyil coşmaqdır, can cünbüşüdür, qaynayan suyu isə elə sudur ki dirilik suyuna bənzəyir. Qaynayan bu suyun yandırıcı isti buxarı uçan quş kimidir, tökülən bu qaynar sular isə Süləyman peyqəmbərin Hüdhüd quşu kimidir. Samovarın özü Simurq quşuna, hər iki tərəfindəki qulpları bu quşunun qanadlarına oxşayır. Bu haliylə samovar sanki Dəhhaqdır iki çiynində də adam yeyən qorxususz ilanlar vardır. Tütkeşi Mövləəvi külahıdır, içi və çölü dərddən yanmışdır. Dəmkeşi nədir, Məsihin nəfəsi, hər aldığı nəfəs isə Məryəmin qoxusudur. Samovarın başındakı çini çaydan isə sanki taxtında oturan Çin padişahı kimidir. Samovara və çaydana yandan baxanda elə bil ki başında tacıyla oturmuş bir şaha baxırsan. Çaydan dəmkeşin üstündə Taymus şah kimi elə oturub ki sanki tovuz quşu sərv ağacının üstündə oturmuşdur. Samovarın qanadları yoxdur ki uçsun amma elə durub, sanki şahbaz quşu kimi uçacaqdır. O könül yandıran samovar yaqutların olduğu yerdir, o parlaq rəng nə lələr tökər?

Beşinci bölümde şair samovara tamamən təsəvvüfi mənalar yükləyir. Bildiyimiz kimi təsəvvüfün qayəsi insan-ı kamilə çatmaqdır. İnsan-ı kamilə çatmaq üçün insanın Haqqı və özünü bilib dərk etməsi lazımdır. İnsan-ı kamilə çatmağın əsas yolu eşqdən keçir. Bunun üçün də bu bu yola baş qoyanın eşq odunda yanıb bişməsi və püxtələşməsi vacibdir. "Mövlananın dili ilə desək "xamdım, bişdim, yandım". Aşiqliyin qısa xülasəsi budur. Eşq oduna yanan aşiq bu yolda irəliləyərək sevdiyinə qovuşur. Buradakı əsas sevgili də ilahi sevgilidir. Çaynamə şairi samovarın vəsfinə başlarkən onun "ürək açan, insanı fərəhləndirən vəsflərindən bəhs edəcəyini ifadə edir. O, samovarın qaynadığı zaman çıxartdığı səsləri neyin inləmələrinə, başındakı uzun tütkeşi isə Mövləvi papağına oxşadır. Şair, samovarı mədh edərkən onun nə çinar nə də gülnar ağacı olmadığını vurqulayır. Bu ağaclar bildiyimiz kimi ədəbiyyatımızda uzun boylu gözəl sevgiliyə təşbih edilir. Yəni bir gözəllik ünsürü kimi ələ alınır. Şair burada samovarı bu vəsflərdən uzaq tutur. Onun vəsflərinin heç bir gözəllik təşbehinə sığmadığını, onun vəfalı aşiq olduğunu deyərək içində yanan atəşin də buna dəlil olduğunu bildirir.

Şairə görə samovar başqa gözəllər kimi bər bəzəkli, rəngarəng də deyildir. Parlaq, zərli olması onun təbii rəngidir. Samovarın çölü qızıl suyuna boyansa da içi eşq atəşiylə yanmışdır. Şair samovarı eşq oduna yanan aşiqə, külxanını- yəni içində od yanan hissəsini müəmmalı bir dairəyə oxşadaraq od ilə su kimi iki zidd maddənin bir yerdə olmağına diqqət çəkir. Şair samovarın qaynamağını can cünbüşünə- ilahi eşq nəticəsində dərvişin vəcdə gəlməsinə oxşadir. Samovarın qaynayan sularını dirilik suyuna, buxarını uçan quşlara, qaynadığı zaman pıqqıldayıb ətrafa saçılan su zərrələrini isə Süleyman peyqəmbərin Hüdhüd quşuna bənzədir. Göründüyü kimi burada şair, samovarın timsalında bütün təsəvvüfi termin və hadisələrə, məşhur əsərlərə təlmih edir. Əsasən də samovarı və onunla əlaqədar xüsusiyyətləri Mövləvilik təriqətinə, təsəvvüfə, insanın Ələst məclisindən ayrılığının və bu dünya qürbətinə düşməsinin təmsilçisi olan neyə, təsəvvüfi əsərlər içində ən məşhur olan Fərídəddin Əttarın Məntiqüt-Teyr adlı əsərinin əsas qəhramanlarından Simurqa və Hüdhüd quşuna oxşadır. Şair samovarın özünü bəzən Simurq quşuna, qulplarını isə bu quşun qanadlarına, bəzən də Fars mifologiyasında məşhur olan zalım Zöhhaka,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qulplarını isə Zöhhakın çiyinlərindən baş qaldıran insan beyni yeyən ilanlara oxşadır. Samovarın dəmkeşini şair, İsa peyqəmbərin nəfəsinə, hər aldığı nəfəsi isə Həzrəti Məryəmin qoxusuna oxşadaraq ədəbiyyatımızda çox istifadə olunan Həzrəti İsanın nəfəsiylə ölüləri diriltmə möcüzəsinə və onun anası Həzrəti Məryəmin başına gələn hadisələrə təlmih edir.

Nigari, samovarın üstünə qoyulan dəm çaydanını taxtında oturmuş Çin padişahına bənzədərək gözəl bir təşbeh sənəti ortaya qoyar. Daha sonra şair bu bənzətməni daha da zənginləşdirərək Taymus şah kimi samovarın üstündə duran çaydanı sərv ağacının üstünə qonmuş tovuz quşuna oxşadır. Şair samovarın bu ehtişamına və vüqarlı duruşuna özü də heyrət edir və "samovarın uçmağa qanadı yoxdur amma o uçmağa hazırlaşan tovuz quşu kimi durub" deyir.

Altıncı bölüm "İstimdad kərdən-i nazım bəd əz lutf-ı Pərvərdigar əz təb-i şəkər-güftar ü əz eşq-i şirinkar" başlığı altında yazılmışdır. Mənası " şairin şirin sözlü aşiqdən və onun şirin təbindən sonra Allahın lütfündən yardım istəməsi" olan 13 beytlik bu bölümdə şair, eşq ustadına xitabən çayı ətri etibariylə Xıta müşgünə oxşadaraq onu şərabın yerinə qoyar.

Ey tab-ı şirin ey aşk-ı üstad
Tarh eyleyelim bir özge bünyad
Ol nafe-i ahu çay-ı hoş-bu
İhvan-ı tarik zikri ya Hu

Məsnəvinin yeddinci bölümü "Bu çay-ı müşg-bunun evsafından bir vasf-ı səmən-sadır" başlığı altındadır. Mənası "bu müşk ətirli çayın vəsflərinin bir yasəmən ətirli ifadəsidir" olan 22 beytlik bu bölümdə şair çayı gözələ bənzədərək onun haqqında belə deyir: "Çay nə çay ki sanki Xıta ayəti, onu içməyənlər xəta eyləyər, çayın üzü gözəldir ağzı gül, əndamı lalə, nəfəsi Əzranınkı kimi gül ətirlidir. Çay, gül üzlü, könül alan bir gəlindir ki zövq əhlinə fərəh verir. Rəngi gül, ərquvan rəngindədir, içənlərə hərarət verir, nar kimi qırmızı rəngi yaqutu xəcalətdən utandırır. Çayın üzünü sanki mərcan görmüş və onun parlaqlığı yanında cansız olmuşdur. Çayın qırmızı rəngi qanı da qısqandırır. Çay məclisində parlaq şərab da məyusdur, tovuz quşunun qanı çayın yanında rəngsiz qalır. Burada şair orijinal bir bənzətməylə dovşan qanı, xoruz quyruğu ifadələrindən fərqli olaraq çayın rəngini tovuz quşunun qanına oxşadır. Şair, çay haqqında daha necə gözəl bənzətmələrdən istifadə etdikdən sonra "çayın başqa xüsusiyyətləri də vardır ki şəfalıdır, vəba xəstəliyinə də şəfadır. Çay min dərdə dəvadır amma tiryək deyildir, tam tərsinə zəhəri bədəndən təmizləyir" deyir. "Bu sözləri də əbəs yerə demirəm dəmli bir çay üçün deyirəm. Çay Çin və Xıta ceyranıdır, Xıta müşkü, Maçin gülüdür. Şübhəsiz ki inayət məzhəridir, kəmalının vəsfləri nəhayətsizdir. Çay könül alan bir pərinin yetişdirməsidir, nəfəsi müşk qoxulu, vücudu gül ətirlidir. Çay nəfəs ərbabı, könül əhlidir, bədəni yanıq, yanaqları gül, vücudu dağlıdır. Bu dəlili də onun aşiqliyini təsdiq edir. Çay limon ilə bir olunca başqa bir ləzzət verir. Çayın təbi şirin, məzacı da xoşdur. Bəzən onu süd ilə də qarışdırırlar. Əgər çay olan məclisdə qaymaq da olursa bu nəşədən, bu keyfdən usanılmaz" kimi ifadələrdən sonra şair səkkizinci bölümə keçir.

Yedinci bölümdə Qarabağlı şair çaydan və onun xüsusiyyətlərindən danışarkən bizə yaşadığı dövrdə Qarabağda mövcud olan çay içmə ənənəsindən və çayın süfrəyə verilme qaydasından təfərrüatıyla bəhs edir. Burada diqqətimizi çəkən xüsuslardan biri çayın süfrəyə qaymaqla birlikdə verilməsidir. Azərbaycanda mürəbbəylə çay içmə adətindən başqa qaymaqla da içildiyini biz buradan öyrənirik.

Səkkizinci bölüm "Vəsiyyət kərdən-i nazım-ı be-hüma-yı güftar u firistadən-i vey be-tələb-i yaran çay-ı ənbər-nisar ki ibarətəst əz şəkər ü limon u şir-fəşar u qaymaq-ı dil-cu" başlığı altındadır. "şairin könül alan qaymaq, təzə sağılan süt, limon və şəkərdən bəhs edən bu ənbər ətirli çay vəya Çaynamə haqqındakı əsəri dostların xahişi ilə onlara söz hüması tərəfindən göndərilən bir vəsiyyətdir" mənasına ələn bu bölümdə toplam 75 beyt vardır. Bu fəsil əsərin klasik məsnəvilərdə yer alan yazılış bölümüdür.

Şair bu bölümdə sözə xiatbən "ey söz hüması indi uç qanadlan, çünki qanadlanmağa yerin var. Durma ayağ al Fransaya ged, şəkər dağını dənglərə vur, qatarı yola sal, dövran eylə, gəzərək İngiltərə şəkərinə can ver, o canlara zövq verən şəkəri topla, gəmiylə gətir. O yerdə çox qalma yola düş ilahi tövfiqlə təkyəgah et, Misirə ged, o şirin dilbəri- şəkəri tez yola sal, minlərcə afərin al. Limonu, limon duzunu da unutma, hamısını şəkərlə bir yerdə göndər gəlsin. Sonra İsfahan yollarını qət eylə, bəzi məkanlarda təyy-i məsafə edərək qəndi topla və usanmadan karvanla yola sal gəlsin. Çünki ləl alınlı dilbər hər məclisdə şəkər söhbəti etməkdədir. Bu işdə səbr etmə, qərarsız ol, çünki yolun Turan torpağına düşdü. Səfər zamanı yemək yemə, yatma, çünki yolçuya rahat haramdır. Qorxmadan Xorasana get, oralarda işlər asan olur. Keçdiyin yerlərdə Bistam şahı, Cəm şah və Tus şəhərinin başçıları vardır, onlar ilahi – lahut- şahlardır, onun ayaqlarının altında Nasut quşu-insanlık quşu vardır. Yol sərdarının adı Tayfurdur, məzarı zəvvarları sevindirir. Sən feyz qanadını o məkandan al, teyy-i məkan edərək zamandan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

keç. Heç fikir çəkmə, Cənab-ı Akdəs səni müqəddəs Məşhəd yollarına çatdırar. Sən Allahı anaraq qanadlan və Tusun eşq şahı ilə dəmsaz ol. Şöhrəti ərşi-bərini ötən Tus şahını gör, o kürsüsündə oturmuşdur. Səkkizinci cənnətin, imamət dayanacağının şahı odur. Sən rıza baxçasına can saç, o yerdə torpaqla bir ol. Sənin cövlan etmənə Allahın rəhməti olacaqdır, sən rıza yoluna şirin canını ver, təmkin və feyz qanadlarını al. Xidmətini sidq ürəklə tamamla və qanadlanaraq Cam şəhərinə get. Sən mənim daimi məstliyimi gör. Sən də meyxarlıq et, qədəhin müridi ol, camın şeyxinə əsir olaraq könül ver. O nə şeyxdir ki dörd üzün əsasıdır və kəramət meracının təməlidir. Deyirlər ki o bu əsrdə Əlidir, kəramət iqliminə də vəlidir" deyir.

Şair daha sonra "Xarəzmə keç, orada Pəhlivanın məzarının torpağını öp, o kimyadan feyz al, rəh-nümalar diyarına əzm eylə, övliyalar məkanını seyr eylə. O nəfəsi Məsih-i Sara, hər bir nəzərində min iksir, min cahangir olan, irfan qəsrinin taxtında oturan o sərdarın, Allahın sevdiyi qul olan, Məhəmmədül Əminin yolundan gedən o övliyalar padişahının, Buxara sərvəri- Bəhaəddin Nəqşibəndin məzarını, dərgahını ziyarət et, əllərini qaldıraraq sənin şeir aləmində qanadlanman, sənə güç qüvvət verməsi üçün Allaha dua et, o torpaqlardan qılınc kimi bir nüfuz alaraq Teymur kimi çahangirlər padişahı ol. Daha sonra o yerləri də öpərək qanadlan və oradan Səmərqənd şahının- yol üzərində olan Übeydullah Əhrarın, o masivaya sahib, bəşəriyyətin xilası, yaradılışı Allaha xas olan, dünyaya əhəmiyyət verməyən, ata mindiyi dəmdə qılıncı Rumda oynayan o, fəna və bəqa mülkünün sultanının da məzarının torpağını öp ki sənin şeir vadisində qanad çalmağına kömək etsin. Sonra Allaha şükr eylə ki sənə nəzər ərbabı bu zatların məzarını ziyarət etməyi nəsib eylədi. Sən günəşi və ayı qısqandıran bu şahlardan nəzər aldın. Şübhəsiz ki artıq təbin açılar və muradına çatarsan. Bütün şairlər səni təqdir edərlər, sənin şeirindən nabat və şəkər axar. Səndə əvvəllər bu gözəl təb, gözəl şeir yazmaq qabiliyyəti yox idi, şübhəsiz ki bu səndə bir nəfəsdir, ərbabına bir nəfəs də bəsdir. İndi qanadlan və Xıta yollarına doğru xəta eyləmədən uç, o müşk və ənbərlər diyarına çatanda ahular səni qarşılayacaq, üzünü görmək üçün canlarını, sözlərini duymaq üçün varlarını verəcəklərdir. Çünki onlar səndə var olan ilahi eşqi, məhəbbəti, sənin bu məhəbbət uğrunda məsivadan keçdiyini bilirlər. Əgər sən bir nəfəsində Ya Hu desən məclisində bütün şirlər və ahular toplanacaqdır" deyir.

Çaynamənin təsəvvüfi cəhətdən ən önəmli bölümləri beşinci və səkkizinci bölümlərdir. Şair vermək istədiyi təsəvvüfi məsajları daha çox bu bölümlərdə verir və mənsubu olduğu Nəqşibəndilik təriqətinin tarixi liderlərindən və onların vətənlərindən, məzarlarının yerləşdiyi məkanlardan burada bəhs edir. Şair əsərdə söz hüması xitabən "qanadlan, ətrafa şəkər saçmaq üçün əvvəlcə Fransaya ged, şəkər dağını yüklə və buraya yola sal. Sonra gəzə gəzə İngiltərəyə keç və o gözəl İngilis şəkərini gəmiyə yüklə göndər. Daha sonra Misirə get, yenə də şəkərləri yüklə buraya gelsinler. Bu arada limon duzunu da almağı yaddan çıxartma" deyir. Şair bu bölümdə limondan və limon duzundan bəhs edərkən biz limon duzundan hələ XIX əsrdən etibarən istifadə edildiyini anlayırıq.

Şair söz hümasına "daha sonra İsfahana keç və oradan da teyy-i məkan edərək Turana-Türk yurdlarına doğru yola çıx. Buralarda Xarəzmi, Bistamı, Tusu, bu yerlərin şahlarını- mənəvi böyüklərini ziyarət et, Tayfur adlı yol sərdarının zəvvarları sevindirən məzarını sən də ziyarət et" deyir. Burada artıq maddi ünsürlərdən mənəvi ünsürlərə bir keçiş vardır. "O şahlar mənəviyyat və ilahi eşq iqlimin şahlarıdır. Sən tus şəhərindəki şöhrəti ərşi də ötüb keçən şahı da gör, ondan da feyz al. O imamət taxtının sərdarıdır. Ey təbim, sən feyz qanadını o məkanlardan al, zamandan və məkandan təyy et və qorxma, Allah təala səni Məşhədə çatdıracaqdır. Buradakı mənivi böyüklərlə də görüşəndən və xidmətini tamamlayandan sonra Cam şəhərinə ged, oradakı camın şeyxinə əsir olaraq könül ver". Şair burada Nəqşibəndilik təriqətinin önəmli təmsilçilərindən şair Abdurrahman Camini nəzəərdə tutur.

Şair təbinə, daha sonra Xarəzmə keçib orada Pehlivanın məzarını ziyarət etməyi, onun məzarının torpağından öpərək feyz almağı, bəşəriyyətə yol göstərən mənəvi böyüklərin-övliyaların diyarına doğru yola düşüb oradan Buxara şəhərində Bəhaəddin Nəqşibəndin və Səmərqənddə Teymurun məzarlarını ziyarət edəndən sonra Səmərqənddə möcüzələri və mənqibələri ilə məşhur olan Übeydullah Əhrarın məzarını öpüb onun ruhaniyyətindən yardım istəməyi məsləhət görür. Şair bu bölümün sonunda təbinə bütün bu mənəvi gözəlliklərdən ötürü Allaha şükr etmeyi də məsləhət görür və "əgər Allahın bu lütufları sənin üzəində olmasaydı sən belə parlaq bir təbə sahib olub gözəl şeilər yaza bilməzdin" deyir. "şübhəsiz bunlar səndə bir nəfəsdir. Ərbabına bir nəfəs də bəsdir. İndi isə durma qanadlan ey təbim, heç xəta etmədən Xıta məmləkətinə doğru uç və nə zamandır orada səni gözləyən müşq ətirli ahuların yanına ged deyir. Onlar sənin nəfəsinə həsrətdirlər.

Doqquzuncu bölüm "Dər bəyan-ı övsaf-ı şir-i anbər-bu" başlığı altında yazılmışdır. Mənası "ənbər ətirli sütün vəsfi" olan 11 beytlik bu bölümdə ənbər qoxulu sütdən bəhs edilir. Burada şair sütün xüsusiyyətlərindən,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ətrindən dadından, içənlərə verdiyi şirin zövqdən bəhs edərək könül alan bu sütün Xıta müşgündən daha ətirli olduğunu ifadə edir. Burada şair, sütə də təsəvvüfi məzmunlar yükləyərək belə deyir:

Bi-cam içilür o şir bi-leb
Bi-vasat gönül olur leb-a-leb
Nafe-i gazal-i deşt-i vahdet
Nefha-i tezekkür-i dü kelimet
Ur yola katarı bar-ı şiri
Yad eyle yine o dest-giri

Onuncu bölüm "Bu bağçe-i niyazdan bir gonçe-i dil-güşadır" başlığı altında yazılmışdır. Mənası "bu yalvarma baxçasından ürək açan bir qönçədir" olan bu səkkiz beytlik bölüm məsnəvinin dua bölümüdür. Burada şair "peyqəmbərimizin üzü suyu hörmətinə diyarıma- vətənimə səlamət ver" deyərək Allaha yalvarır. Daha sonra da tutduğu bu yolda məqsədinə çatması üçün dua edir.

Ey Bari Huda be-hakk-ı Ahmed
Şahen-şeh-i enbiya Muhammed
Evvel ki diyarıma selamet
Bil-emn yatur be-gayr-i afet
İhlas ile olsa arz-ı hacet
Elbette niyaz olur icabet

Məsnəvinin onbirinci bölümü "Dər bəyan-ı rucu kərdən-i hüma-yı güftar be-tərəf-i Azərbaycan be-tələb-i qaymaq" başlığı altında yazılmışdır. Mənası " söz hümasını qaymaq gətirmək üçün Azərbaycan tərəfə göndərmək haqqında" olan dörd beytlik bu bölümdə şair, söz hümasının Azərbaycana dönərək oradan qaymaq istəməsindən bəhs edir.

Azm eyle diyar-ı Şirvanı
Kat eyle reh-i Azerbaycanı
Zira ki gerek o şaha kaymak
fievkane yüri nedir usanmak
Bir yer diyem ismidir Karabağ
Cennet yeri abı şir ü kaymağ

On ikinci bölüm "Dər bəyan-ı mənkabet-i gülgəşt-i vilayət-i Qarabağ" başlığı altında yazılmışdır. Mənası Qarabağ vilayətində gülgəşt etmənin- gəzmənin mənqibələri olan 53 beytlik bu bölümdə şair, vətəni Qarabağ və onun gözəlliklərindən çox gözəl bir üslubla bəhs edir. Əsərin bu bölümü ədəbiyyatımızdakı şəhraşub, şəhrəngiz vəya biladiyyə (şəhraşub bir şəhərin gözəlliklərindən və gözəllərindən, sənət peşə adamlarından bəhsedən şeirlərdir) türünün ən gözəl nümunəsidir[270]. Şair, bu bölümdə əvvəlcə Qarabağın coğrafi xüsusiyyətlərindən bəhs edərək onun qərbinin gözəl Göyçə mahalı, şərqinin isə Şirvandakı Badı-Kubə yəni Bakı, cənub sərhəddinin Araz çayı, şimal hüdudlarının xoş nəfəsli olduğunu deyərək Qarabağı sanki bir dairənin içində peyda olmuş can mərkəzinə oxşadır. Daha sona "Qarabağın çayları uzun, nəhayətsizdir, cənnət kimi hər tərəfi bağ və sularla əhatə olunmuşdur. Atları ceyrana bərəbərdir, baxışları vəhşi olsa da mülayimdirlər, rəngləri xoşdur zəfərəan rəngli ipəyə bənzəyirlər, maral və ceyran sürüsü kimidirlər, ənbər nəfəsli ahuya bənzəyən gözəlləri Xıta ceyranlarını qısqandırır, gəncləri şücaətləriylə dillərə dastan olublar, bura Gülgun və Şəbdizin məkanıdır. Ovlamaq üçün quşları, turac və kəklikləri, kaman qaşlı şirin gözəlləri çoxdur, havası ənbər saçır, səhralarında Numan lalələrinin bitdiyi baxçalar vardır, yaylaqları Allahın inayətiylə yaradılmışdır, çadırlarında gözəllər toplaşırlar, bahar fəslində çadır quraraq orada səfa sürərlər, səbzələri, otları çiçək və quşları cənnət bitkilərinə bənzəyir, torpağı əbir və gül qoxuludur, gönçələrinin ətri ənbəri belə qısqandırır. Bu yerin hər tərəfi yaşıllıq, hər tərəfi bağ olduğu üçün adını Qarabağ qoyublar. Bu diyarın gəzməli ürək açan yerləri çox olduğundan Şiraza yox Bağdada bənzəyir. Torpaqları münbit və bol məhsullu olduğuna görə Misirdən daha zəngindir. Buranın gözəlləri xoş ətirli və şən, nəşəli olduğundan Misir gözəllərini dilxor eyləyiblər. Könül alan bu gözəllər ayrı bir şeydir ki onları vəsf etməyə ehtiyac da yoxdur. Onsuz da tərifə sığmazlar. Bir yer ki Şirin kimi bir gözəlin taxt gahı, vətəni, hökm sürdüyü yer olmuşdur, oranın gözəllərinin necə olduğuna artıq sən qərar ver. Fərhadı əsas alaraq aşiqləri haqqında da məlumat sahibi ol. Könlü əlindən alınmışlarının birisi də mən aşiqəm ki bu mərəkəyə də sadiq dəliləm. Eşq oduyla yanmışlarından birisi Kərəmdir ki o atəşin şövqüylə yanıb möhtərəm olmuşdur"deyir.

---

[270] Hüseynov R. Məhsəti necə varsa, səh 55; Ləvənd A.S. Əski Türk ədəbiyyatı tarixi, səh.)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şair bu vəsflərdən sonra sevgilisinə xitab edərək ona belə deyir: "Ey Nigar, könlüm səni yada salanda bu məclisdə sərt daşlar belə yanmağa başladı. Sənə eybsiz desəm yalan olmaz, çünki çox gözəlsən. Hər bir baxışında min pəri var, səni sevənlər dərdindən sərsəri olmuşlardır. Səni yerdə necə vəsf edəbilərəm ki, Mövlam sənə göydə yer vermişdir".

Daha sonra şair bu şəkildə davam edir: "Qarabağın könül əhli insanları səba nəsimi kimidirlər, onların nəfəsləriylə güllər açılır, sözləri gövhər saçar, şeirləri nabat və şəkər kimidir. Ey qardaş, Qarabağı vəsf etmək buraya sığmaz, bunun üçün başqa bir dəftər lazımdır. Allah qismət eyleyib ömür verərsə, Rus əsarətində olan Qarabağı bir də İslam ilə- yəni bu əsarətdən qurtulmuş bir şəkildə görərik. Aşiqlərin feyzinin mənbəyi olan o məkana girdiyin vaxt, torpağını öpərək sözü fəth et və Qarabağa bizdən salam söylə. Çünki ora bizim qədim diyarımızdır, sevgili Nigarımızın da mənzilidir. Dilbərləri səni görəndə ayağının torpağına can verəcəklər, ətrafına toplaşaraq, şəkər saçan gözəl dodaqlarıyla tuti kimi danışacaq, sənin vəsflərini tərənnüm edəcəklər".

On üçüncü bölüm "Dər Bəyan-ı vəsf kərdən-i xuban-ləban-ı şəkkər-əfşan be-hüma-yı güftar" başlığı altında yazılmışdır. Mənası " dodaqları söz hümasının dodaqları kimi şəkər saçan Qarabağ gözəlləri haqqında" olan otuz beytlik bu bölümdə şair, özündən bəhs edərək Qarabağ gözəllərinin dilindən onların şair haqqında dediklərini nəql edir:

Söyler kamusı ki yarımızsın
Serdar-ı serir-darımızsın
Vacib kamuya sana itaat
Abdane gerek ki şaha hıdmet
Ey mürg-ı hüma-yı Balı-zade
Be-kayd-ı übal ü balı sade

On dördüncü bölüm isə "Dər bəyan-ı əxz-kərdən-i qaymaq u irsal nümudən" başlığı altında yazılmışdır. Mənası "göndərilən qaymaqdan şairin anladıqları haqqında" olan qırx iki beytlik bu bölümdə şair, özündən, cəddi Mir Heydər və Mir Balıdan, onların ocaq olmasından bəhs edir; Qarabağın məşhur yerlərini və adamlarını- Sarı Aşıq, Nəbati, Malik Əştəri, şeyxi İsmail Şirvani və digərlərini xatırlayır. Bu bölümdə şair eyni zamanda təsəvvüfi görüşlərindən də bəhs edir.

On beşinci bölüm "Dər bəyan-ı mənaqibi camiu kəmalatiş-şəriat və haviyü rumuzatit-tarikat və gavvasu biharil-marifət və muhitu əsraril-hakikat şeyhuş-şüyuh cənab-ı cənnət-məab Hacı İsmail Əfəndi əş-Şirvani qəddəsallahü təbarəkə və təala və təqaddəsə əsrarühülaziz" başlığı altında yazılmışdır. Mənası "şəriət elmlərində kamalı çox olan, təriqət elmindəki gizli sirləri özündə toplayan, bilik dənizinin dalqıcı, gerçək sirləri bilən, şeyxlər şeyxi, cənnət məkan Hacı İsmail Şirvani Əfəndi haqqında ( Allah onun ruhunu müqəddəs etsin və sevdiklərinin yanında ona yer versin" olan bu bölüm 35 beytlikdir və şair burada mürşidi İsmail Siracəddin Şirvaninin sufiliyindən və bu yoldaki xüsusiyyətlərindən geniş bir şəkildə bəhs edir.

On altıncı bölüm "Dər bəyan-ı izhar-ı səbəb-i şükr-güzari be Huda-yı kərəm-kari" başlığı altında yazılmışdır. Mənası "mərhəmət və kərəm sahibi Allaha şükr etmək haqqında" olan doqquz beytlik bu bölümdə şair, yazdığı əsər üçün Allaha şükr edir.

On yeddinci bölümdə şair, "artıq sözü uzatma, məramını tamamla deyərək əsl mövzuya girir. Bu bölüm "Dər bəyan-ı icra kərdən-i hüma-yı güftar be umurha-yı məzkurə" başlığıyla yazılmışdır. Mənası "adı çəkilən işləri söz hümasının necə yerine yetirdiyindən bəhs etmək "olan beş beytlik bu bölüm bir girizgah mahiyyətindədir.

Evlad-ı kiramına selam it
İtmam-ı merama azm-i tam it

Əsərin əsas hissəsi və son bölümü olan on səkkizinci bölüm "Dər Bəyan-ı əsashayı samovar" başlığı altında yazılmışdır. Mənası "samovarın əsas xüsüsiyyətləri haqqında" olan qırx dörd beytlik bu bölümdə şair, bir az samovarın xarici görkəmindən bəhs etdikdən sonra növbəylə könül əhlinin saf, kinsiz sinəsinə bənzəyən billur stəkanlardan vəya Çin naxışlı, zərli kasədən, onun içindəki qırmızı rəngli çaydan, şüşə nəlbəkilərdən, gümüş əndamlı aya bənzəyən qaşıqlardan, çayın yanında süfrəyə gətirilən qaymaq və südən, gözəllərin pustanlarına, dərdli aşiqlərin sarı üzünə oxşayan limonların zəmzəm suyu kimi bol, ləzzətli sularından, limon duzundan, şəkərdən, limon bıçağından, çay süzəndən, şəkəri qarışdıranda çıxan qaşıq səslərindən poetik bir dillə bəhs edir. Şair bəhs etdiyi bu çay dəstgahının hər biri haqqında gözəl təşbihlər edir, onları həm təsəvvüfi, həm də bildiyimiz sıradan mənalarıyla bərabər verir. Məsələn çay süzgəcindən tökülən çaylarla iranlı Molla Hüseyin Kaşifinin övliya mənqibələrindən bəhs edən Rəşahətül Eynil Həyat (həyat gözünün sızıntıları, damcıları)- adlı əsərinə təlmih edir; çayın ətriylə də Molla


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Caminin təsəvvüfi sufi mənqibələrindən bəhs edən məşhur əsəri Nəfahatül Üns arasında əlaqə qururaq onlara təlmih edir.

Seyyid Nigarinin Çaynamə məsnəvisinin şəkil və məzmunu haqqında bu qədər bəhs etdikdəqn sonra əsər haqqında bir az məlumat vermək yerinə düşər. Bu əsər olduqca orijinal bir əsərdir. Samovar kəlimə olarq Rus sözüdür. Maraqlıdır ki, XIX əsrdə Rus hakimiyyətinin Azərbaycanda yerləşmsiylə birlikdə ədəbiyyatımızda da çay və samovar haqqında yazılan əsərlərdə bir artış görülməkdədir. Nigarinin çaynaməsindən başqa onunla eyni əsrdə yaşamış Mir Möhsün Nəvvabın da Samovar və Əşari–digər adlı balaca bir əsəri vardır. Bundan başqa Cəlil Məmmədquluzadənin 1889-cu il 2 dekabr tarixində yazdığı Çay dəstgahı adlı bir pyesi də vardır. Bu əsərin ən diqqət çəkən cəhəti əhvalatın Zəngəzur mahalında Bərgüşadlı Hacı Rəhim Bəyin evində cərəyan etməsidir. C. Məmmədquluzadənin əsərinin qəhramanları samovar, padnos, çaynik, istəkan, nəlbəki, qaşıq, maşa, truba və nökərdir. Bu əsərin Nigarinin Çaynamə məsnəvisi əsasında yazılmış olma ehtimalı vardır. Vəya hər iki əsərin Zəngəzur mahalında daha əvvəllər cərəyən etmiş bir hadisə əsasında yazılması da ehtima oluna bilər. Iki əsər arasındakı mövzu və ideya çox fərqli də olsa, əsərdə istifadə olunan zaman, məkan, əşya və məzmunlar ortaqdır. Burada Seyid Nigarinin özünün də Bərgüşada bağlı Cicimli kəndindən olduğunu bir daha xatırlamaq lazımdır.

Nəticə olaraq bunu deyə bilərik ki, Türk ədəbiyyatındakı çay risalələi XVII əsrdən etibarən yazılmağa başlamışdır. XIX əsrdə isə bütün Türk ədəbiyyatında xalqımızın çaya olan marağı nəticəsində çay haqqındakı əsərlərdə artış görülür. Bu əsərlərdən bəzilərində çayın vətəninin hansı ölkə olduğundan, hansı ölkələrdə çayın daha çox yetişdirildiyindən və insan orqanizminə olan faydasından geniş bir şəkildə bəhs olunur. Bu əsərlərdən bəziləri haqqında Türkiyədəki universitetlərdə elmi çalışmalar da mövcuddur. Bunlardan biri Mərmərə universitetində Kamer Karavit tərəfindən "Türkçə Çay Risalələri" adlı əsərdir.

Seyid Nigarinin yazmış olduğu Çaynamə məsnəvisində şair, XIX əsrdə xalqımızın örf və adəti, məişəti, süfrə mədəniyyəti haqqında bizə ətraflı məlumat verir. Əsərdə eyni zamanda şəkərin və çayın timsalında o dövrdəki iqtisadi vəziyyət; çay və şəkərin ən çox hansı ölkələrdə istehsal edildiyi haqqında da məlumat sahibi oluruq. Ən əsası isə bu əsərin XIX əsr təsəvvüf ədəbiyyatmızın ən önəmli nümunələrindən biri olması və bu dövrdə yaşayan məşhur sufilərlə bərabər Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri haqqında da məlumat verməsidir. Əsər XIX əsrdə yazılmış məsnəvilər içində öz dolqunluğu və vermək istədiyi ideya etibariylə də önəmli bir yer tutur. Çaynamənin bir başqa xüsusiyyəti isə alleqorik, realist-yerli, didaktik, aşiqanə və tarixi-mənqibəvi məsnəvilər başlığı altında dəyərləndirilən məsnəvi janrına xas bütün xüsusiyyətlərə burada kompleks halda yer verilməsidir. Çaynamə başlanqıcda alleqorik məsnəvi kimi görünsə də saydığımız bu beş xüsusa içində ətraflı bir şəkildə yer verilmişdir.

## ƏDƏBİYYAT

Bilgin, A. Azmi; Divan-ı Seyyid Nigari, Kule Yay. İst: 2003. 369 s.

Eraydın S. Tasavvuf ve Tarikatler, Marmara Üniversitesi İlahiyat Fakültesi Yay. İst. 1997, 518s.

Hacıyeva A. Mir Möhsün Nəvvabın ədəbi irsi. Bakı: Nurlan, 2004. 211s.

İpekten H. Eski Türk edebiyatında nazım şekilleri ve aruz. Dergah yay. İst: 1997. 343s.

Köçərli F.B. Azərbaycan Ədəbiyyatı. Elm nəşriyyatı I-II cild, Bakı: 1978. 595 s.

Türkçə çay risalələri, Marmara Üniversitəsi Sosyal Bilimər Enstitüsü, hazırlayan: Kamer Karavit, master tezi. Danışman: Əminə Gürsoy Naskali. İstanbul:1993.

Uludağ S. Tasavvuf Terimleri Sözlüğü, Marifet Yay:. İst: 1995.

Şentürk A:A; Kartal A. Eski Türk Edebiyatı Tarihi, Derga yay, İstanbul 2004. 536 s.

Türk Edebiyatı Tarihi, 1–4 cilt, Kültür Bakanlığı Yay. İstanbul 2006.

## THE "CHAYNAME" DISTICH OF SAID NIGARI
## RESUME

**The mystic work of XIX writer Nigari " chayname "is very pithy and meaningful. The writer composed thi work in devisions in accordance with the content of classical distich. Making alike the samovar with the faithful lover and even loaded its parts another distich contents. The writer likens the boiling tea in the samovar to the divine love and expresses poetically that who drinks from that tea will be filled with joy and gladness.**

**Key words: allegorical(metaphorical) distich, sufism, mystic, "chayname" distich, shahrengiz, divine wine**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## «VARLIQ» JURNALININ SƏHİFƏLƏRİNDƏ FOLKLOR MATERİALLARI

***F.e.n.Pərvanə Məmmədli***
***AMEA Ədəbiyyat İnstitutu***
***Azərbaycan***

"Varlıq" dərgisi nəşrə başladığı zamandan Azərbaycan xalqının şifahi xalq yaradıcılığı ilə bağlı məsələlər diqqət mərkəzində olmuşdur. "Varlıq"da folklor məsələləri özündə müxtəlif səpkili problemləri birləşdirən mövzudur və Cənubi Azərbaycandakı ictimai və ədəbi durumla bağlı xüsusi maraq kəsb edir.

"Varlıq"da dərc olunan folklor materialları içərisində atalar sözü və bayatılar çoxluq təşkil edir. Bu baxımdan dərgidə folklorçu Mənzuri Xamneyinin fəaliyyəti məhsuldardır. O, dərginin demək olar ki, hər sayında topladığı atalar sözlərindən nümunələr dərc etdirmişdir. Qeyd etmək lazımdır ki, M.Xamneyi atalar sözlərini müəyyən elmi prinsiplə nəşr etdirməyib. Atalar sözləri sadəcə olaraq xam material kimi təqdim edilib. Ümumiyyətlə, "Varlıq"da dərc edilmiş folklor nümunələri folklorşünaslığın elmi prinsipləri əsasında seçilib təsnif edilmir, orijinallar və ya variantlar üzə çıxarılmır. Dərgidə dərc edilmiş atalar sözləri və bayatılar da bu şəkildədir. Çünki Cənub folklorşünaslığında folkloru toplayıb nəşr etməyin elmi prinsipləri hazırlanmayıb. Buna baxmayaraq materialların orijinallığı və zənginliyi elmi araşdırmalar üçün zəmin yaradır.

Atalar sözlərini dərgidə Mənzuri Xamneyi ilə yanaşı Sabir Xiyavlu və başqaları da təqdim edir. İstər Şimalda, istərsə də Cənubda atalar sözləri xalqımızın düşüncə tərzini, milli psixologiyasını, milli-mə'nəvi dəyərlərini özündə əks etdirir. Xalqımızın milli mentalitetini dolğun əks etdirən lakonik fikirlər bir daha təsdiq edir ki, Cənubla Şimalın "ayrılığı" siyasi səciyyə daşımışdır.

"Varlıq" dərgisində Azərbaycan şifahi xalq ədəbiyyatının bu əsas janrları haqqında məqalələr dərc etdirmiş Cavad Hey'ət atalar sözlərinin, həmçinin bayatıların yaranması, məzmunu, poetik keyfiyyətləri, habelə toplanması və nəşri tarixi ilə bağlı silsilə məqalələr yazmışdır. Bu mə'nada dərgi orijinal folklor nümunələrini dərc etməklə yanaşı, onlara aid elmi-populyar oçerklər də çap etməklə Cənubda olan boşluğu doldurur. C.Hey'ət atalar sözlərinin yaranma yollarını araşdıraraq qeyd edir ki, "Həyat və məişətin hər sahəsində xalq atalar sözü və məsəllərini yaratmışdır" (1,N34,1982,s.24). C.Hey'ət atalar sözləri və məsəlləri bir-birindən ayıran cəhətlərə də toxunur. O, qeyd edir ki, atalar sözlərinin hamısında tam mühakimə, bitmiş fikir, ümumiləşdirmə və nəticə vardır. Məsəllərdə isə fikir tamamilə ifadə edilməmiş və nəticə də ümumiləşdirilməmişdir (1,N34,1982,s.24). C.Hey'ətin atalar sözü və məsəllərinin toplanması və nəşri haqqında verdiyi mə'lumatlar içərisində belə bir fakt maraq doğurur ki, Iranda 1944-cü ildə Əli Əsgər Müctəhidi 2500 atalar sözü toplayıb çap etdirmiş və 1978-1979-cu illər Iran inqilabından sonra 1981-ci ildə Yaqub Qüds altı mindən ibarət atalar sözünün birinci cildini nəşr etdirmişdir. Cənubi Azərbaycan folklorunun toplanması və araşdırılmasında M.H.Əhəri, Molla Mustafa, M.B.Xalxali, S.Cavid, Ə.V.Duhvarqanlı, Ə.Makui, S.Behrəngi, B.Dehqani, Ə.Xürrəmşancanlı, Ə.Kəmali, Fərzanə və başqalarının böyük xidmətləri olmuşdur.

Təəssüf ki, sonuncu iki müəllif istisna olmaqla dərgidə bu nəşrlərin geniş elmi təhlilinə həsr edilmiş məqalələrə təsadüf etmədik.

"Varlıq" dərgisində dərc edilmiş atalar sözləri bir neçə cəhətdən xüsusi maraq kəsb edir. Birincisi, bu nümunələrdə Azərbaycan dilinin saf lüğət tərkibi və dilin təmizliyi özünü hifz edib. Digər tərəfdən xalqın müdrikliyi, dünyaya dərin fəlsəfi münasibəti "Varlıq"dakı atalar sözlərini yaddaqalan edir:

Mərdin tövləsi, namərdin otağından yaxşıdır (1,N65,1987, s.119).
Qışın oğurluğu yazda üzə çıxar
Gül cəngəlsiz olmaz, meşə əngəlsiz (1,N88,1986,s.71).

Bizcə, dərgidə bayatı və atalar sözlərinə digər janrlara nisbətən daha çox yer verilməsi bu janrların lakonikliyi, yığcamlığı, dərginin çap imkanları ilə bağlıdır.

"Varlıq"da dərc edilən atalar sözlərinin bir qismi bu gün şimal oxucusu üçün mə'lumdur. Digər bir hissəsi mövcud atalar sözlərinin maraqlı variantı olub, yeni məzmun ifadə edir və əsasən Güneydə işlənən nümunələrə aiddir. Dərgidə müdrik, fəlsəfi, əxlaqi məzmun daşıyan atalar sözlərinə geniş yer verilir:

Ölüsü olan bir gün ağlar, dəlisi olan hər gün
Dəmir nəmdən, insan qəmdən çürüyər (1,N68,1988,s.82).

Dərgidə müxtəlif illərdə dərc edilmiş bu atalar sözlərinin məzmununu xatırladan nümunələri çox eşitmişik. Lakin sözü gedən atalar sözlərində dünyaya, ömrün və yaşamağın mə'nasına yığcam, poetik formada qiymət verilir. Daxili qafiyə sistemi, saf milli leksikon, xalq həyatının dərin qatlarını təcəssüm etdirən ibrətamiz obrazlar bu nümunələri həqiqi sənət səviyyəsinə yüksəldir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Varlıq"da dərc edilmiş atalar sözləri sübut edir ki, xalqın, mə'nəvi keçmişini ona zorla, diktatura yolu ilə unutdurmaq mümkün deyil.

Könül nə mey istəyir, nə meyxanə,
Könül dost istər, mey bəhanə.
Sevgi od deyil, oddan yamandır.
Qızıl quş əldə gəzər, gözəl qız dildə (1,N93,1987,s.87).
Qarışqanın evində şəbnəm böyük tufandır.
Sərçə olsun, əlimdə olsun, neynirəm göydə uçan qazı
Qarğa qarğanın gözünü dəlməz
Qərib quşun yuvası olmaz
Bir qarın qatıqdan ötrü tuluğu yırtma (1,N87,1986,s.67).

Təsadüfi deyil ki, "Varlıq"da dərc edilmiş məqalələrdə, xüsusən Cavad Hey'ətin silsilə tədqiqatlarında şifahi xalq ədəbiyyatı nümunələrinin xalqın tarixini əks etdirmək mə'nasında əhəmiyyəti ilə yanaşı, milli dilin, milli təfəkkürün yaşayıb inkişaf etməsində bu janrların roluna eyni diqqət ayrılır. Yaşar Qarayev alimin bu sahədəki tədqiqlərindən haqlı olaraq yazır ki, "...Burada folklorun ideya-fəlsəfi zənginliyi onun forma üslub xüsusiyyətləri və poetika sənətkarlıq kamilliyi ilə vəhdətdə təhlil olunur" (71,s.5).

Şifahi xalq ədəbiyyatının tarixini müəyyən etmək qeyri-mümkün olsa da, bir həqiqət aydındır ki, onun inkişaf yolu ilə xalqın tarixi vəhdətdə olub. Lakin folklorun belə bir xüsusiyyəti də özünü göstərib ki, konkret bir bayatıda, əfsanədə, rəvayətdə oxşar mövzular bir-birini əvəz etmişdir. Xüsusən, kiçik həcmli lirik folklor janrlarında ifadə, məzmun qalır, lakin tarixi hadisə və şəxsiyyətlərin yeri dəyişir, başqa sözlə desək, folklor nümunəsi çağdaş gerçəkliyə "uyğunlaşdırılır".

Atalar sözlərindən sonra məcəllədə folklor materialı kimi ikinci yeri bayatılar tutur. Bu zaman həm xalq bayatılarına, həm də yeni yaranan və müəllifi bəlli olan bayatılara yer verilir.

Bu baxımdan "Varlıq"ın bir neçə müəllifi - Sönməz, Savalan, Azər Mazandarani və Əhəd Fərəhməndinin bayatıları xüsusi yer tutur. Bu barədə poeziya bölməsində ayrıca bəhs olunacaqdır.

Həyatın elə bir anı yoxdur ki, orada bayatılar xalqın toy-büsatını, ağrı-acılarını özündə yaşadıb əks etdirməsin. Əsr yarımdan çoxdur ki, Cənub bayatılarının əsasını ikiyə parçalanmış ürəyin nisgilli çırpıntıları təşkil edir. Belə bayatılar çoxdur və geniş yayılıb. Təsadüfi deyil ki, bə'zən oxucular öz ürək sözlərini redaksiyaya göndərdikləri xalq bayatıları ilə ifadə edirlər. Danimarkadan I.Cəmili yazır:

Qızıl gülü dərdi yar,
Dərmə dedim, dərdi yar.
Yerli olan nə bilər
Nədir qərib dərdi yar (1,N73,1989,s.73).

Bu bayatıda qəriblik ruhu konkret mə'na daşıyır. Mə'lumdur ki, qürbət mövzusu klassik bayatılarımız əsas mövzularındandır.

"Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı" - xalqımızın vətənpərvərlik ruhunun simvolu kimi səslənir. Nümunə gətirdiyimiz bayatıda isə qəriblik motivi çağdaş günlərimizə aiddir. Müxtəlif səbəblərdən öz doğma ocağını tərk etmiş cənubluların vətən yanğısını əks etdirir.

Səsinə hay verərdim,
Gecənə ay verərdim
Çıxarardım qəlbimi,
Elimə pay verərdim! (1,N41,1982,s.13).

Bu bayatıda da eyni ruh hakimdir.

Ulduzların sayı yox
Yaradanın tayı yox,
Insan dili dananın
Insanlıqda payı yox (1,N100,1996,s.114).

Bu bayatıda dil yanğısı, bir xalqın dilinin yasaqlığı əks olunmuşdur.

Bayatılar obrazlılıq, bədii təsvir nöqteyi-nəzərdən öz tarixi ən'ənələrini yaşadır. Obrazın biçimi bizə çox tanışdır. Lakin müasir məzmun ona tamamilə yeni çalar gətirir.

Bayatılarımızın məzmun və poetik intonasiya zənginliyi bir-birini tamamlayır. Bu yığcam formada böyük bəşəri kədərin, əzab və iztirabın ifadəsi elə obrazlarla əyaniləşir ki, xalqın poetik yaddaşı ilə bu günkü tarixi sanki birləşir. Bu misralarda Azərbaycan xalqının poetik obraz, təfəkkür ən'ənələri yeni ictimai mə'nəvi məzmunla birləşir, poetik doğmalıq da burdan doğur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Doktor Cavad Hey'ət 1828-ci ildəki Türkmənçay sülh müqaviləsini "tariximizin ən acı və unudulmaz hadisəsi" adlandıraraq yazır: "Bu acı hadisənin buraxdığı kədərli xatirə illər boyu xatirələrdə yaşamış və yeni-yeni mahnı və nəğmələrin, bayatı və aşıq şe'rlərinin yaranmasına səbəb olmuşdur. Bu gün də xalqın ağzında və xatirində olan səmimi duyğularının və ürək yanğılarının tərcümanı olan bu nəğmələrin mövzularını ayrılıq acısı, hicran və zülm təşkil etmişdir.

Araz, Araz, xan Araz
Sultan Araz, xan Araz,
Görüm səni yanasan
Gəl dərdimi qan, Araz

Arazı ayırdılar,
Qum ilə doyurdular,
Mən səndən ayrılmazdım
Zülm ilə ayırdılar (71,s.22-23).

Aşıq sənəti Cənubda milli dilin və ədəbiyyatın yaşaması üçün müstəsna rol oynamışdır. Milli dildə yazılı ədəbiyyatın inkişafına dövlət səviyyəsində imkan olmadığı üçün uzun müddətli tarixi dövrlərdə aşıqlar milli ədəbiyyatın, dilin və əslində milli mə'nəvi varlığın və düşüncənin xalq arasında geniş yayılması, hafizələrdə hifz olunması mə'nasında əvəzsiz xidmət göstərmişlər.

"Varlıq"da aşıq ədəbiyyatının geniş yer tutmasının başqa tarixi ədəbi qanunauyğunluqlarla şərtlənən səbəbi də vardır. Mə'lum olduğu kimi aşıq sənətinə məxsus qədim məktəblər, dastan və el havalarının çoxu Güney Azərbaycanda yaranmışdır. Klassik Azərbaycan aşıq sənətinin böyük nümayəndələri Dirili Qurbani, Tufarqanlı Abbas və Xəstə Qasım məhz Güney Azərbaycanda yaşayıb yaratmış, aşıq sənətinin böyük ən'ənələrini yaratmışlar. Təəssüf ki, uzun illər ədəbi-mədəni əlaqələr kəsildiyi üçün Cənubda ədəbiyyatın digər sahələri kimi aşıq sənətinin də vəziyyəti barədə geniş təsəvvürümüz yox idi. Mövcud aşıq ədəbiyyatına aid tədqiqat əsərlərində Güney qolu az əhatə olunurdu. "Varlıq" dərgisi nəşrə başlayandan sonra aşıq ədəbiyyatının keçmişi, çağdaş durumu barədə dolğun mə'lumat əldə etmək imkanı yarandı.

M.Fərzanənin, Aşıq Mehyarın, Əli Kəmalinin aşıq ədəbiyyatından topladıqları materialların, doktor Cavad Hey'ətin silsilə tədqiqatlarının "Varlıq"da nəşri bu sahədə əvəzsiz bir iş görmüşdür.

Bu gün ədəbi-mədəni əlaqələr də öz bəhrəsini verir. "Varlıq"da cənublu müəlliflərlə yanaşı Şimalda fəaliyyət göstərən tədqiqatçıların da əsərləri nəşr edilməyə başladı. Konkret olaraq aşıq ədəbiyyatı barədə folklorşünas alim, filologiya elmləri doktoru Məhərrəm Qasımlının dərgidə çap olunmuş tədqiqatı Cənubdakı aşıq ədəbiyyatını, mövcud aşıq mühitlərinin özünəməxsus cəhətlərinin təhlilinə həsr edilib. M.Qasımlı yazır ki, "aşıq sənətinin orta yüzilliklərə bağlı ən qüdrətli ustadlarının Dirili Qurbani, Tufarqanlı Abbas və Xəstə Qasımın Güney Azərbaycanda meydana çıxması da aşıqlığın ilkin və əsas ocaqlarının sözü gedən ərazidə qurulması ilə bağlıdır". "Tarixi mənzərə göstərir ki, Azərbaycan aşıqlığının sənət mühiti mərhələsinə yiyələnmiş əsas beşiyi - mərkəz nöqtəsi Təbriz-Qaradağ çevrəsidir. Ikinci buna bənzər mərkəz Urmiya sayıla bilər" (2,s.222).

Tədqiqatçı öz məqaləsində, istərsə də Bakıda nəşr etdirdiyi monoqrafiyasında "Güney mühitləri" bölməsində elmi mənbələrə və müşahidələrinə əsaslanaraq yazır ki, aşıqlıq sənəti Göyçə, Gəncəbasar, Borçalı, Dərbənd və Şirvana Cənubi Azərbaycandan gəlmişdir. Bu isə sufi-dərviş ocaqlarının bu ərazilərdə geniş yayılması ilə əlaqələndirilir.

"Varlıq" dərgisində dərc edilmiş orijinal aşıq ədəbiyyatı nümunələri, mə'lumat səciyyəli yazılar və tədqiqat işləri bir daha təsdiq edir ki, aşıq sənəti və aşıq mühiti milli mədəniyyətin aparıcı qoludur.

"Varlığ"ın səhifələrində "Dədə Qorqud", "Koroğlu", "Tufarqanlı rəvayəti" və s. kimi dastanlardan boylar, qollar verilir. Telimxan, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Qəşəm, Aşıq Rzaəli, Türkmən Mahmud, Məhzun və bir çox digər cənublu aşıqların yaradıcılığından geniş bəhs olunur. Folklor toplayıcısı və araşdırıcısı Əli Kəmali adları indiyə qədər mə'lum olmayan altmışa yaxın el aşığı və şairini geniş oxucu kütləsinə tanıtdırır.

Cənub folklorunun toplanması və nəşri sahəsində gərəkli iş aparanlardan biri də Abbas Mehyardır. Onun dəyərli əsərlərindən sayılan "Tufarqanlı folkloru" bu vaxta qədər çap olunmamışdır.

Azərbaycan türkcəsində və fars dillərində yazılmış bu əsərdə Mehyar öz doğulduğu şəhərin, Tufarqanın - indiki Azərşəhrin folkloru haqqında müfəssəl mə'lumat verir. Onun redaksiyaya göndərdiyi "Tufarqanlı aşıq Abbas" dastanı üslubuna toxunulmadan, dəst-xətti saxlanmaqla dərgidə dərc olunmuşdur (1,N15,1980,s.56-62).

Abbas Mehyar bu dastanı Sığış kəndində Səməd Həkimi adında 100 yaşlı bir ixtiyar qocadan eşidib qələmə aldığını yazır. Nağılın sonunda coğrafi ərazi, şəxs adlarının və s. izahı verilir.

"Varlığ"ın ayrı bir nömrəsində Abbas Mehyar "Tufarqanın ikinci rəvayəti"ni təqdim edir (1,N67,s.56-63). O, həmin rəvayəti Aşıq Əli Kamrani və onun çalğıçı yoldaşı Yədulla Mahmudidən 17 il əvvəl Miyanada Firuz Ruhani adlı şəxsin evində qələmə aldığını yazır.

Cənubi Azərbaycanın məşhur aşıqlarından olan Aşıq Qəşəmin həyatı və yaradıcılığı haqqında mə'lumat da "Varlıq"da özünə yer tapmışdır (1,N70,1989,s.73-76).


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Qəşəm Şəbüstər mahalının Kundur kəndində, sənətkar ailəsində anadan olmuşdur. 11 yaşında ailəsi ilə Quzey Azərbaycana gəlmiş, 10 ildən artıq orada yaşamışdır. Sonralar məşhur bir aşıq kimi tanınaraq onlarla gənc yetirmələrinə aşıqlıq sənətinin incəliklərini öyrətmişdir. 1978-1979-cu il Iran inqilabından sonra da aşıq ön sıralarda olmuş, sazı ilə xalqına xidmət göstərmişdir.

Aşıq Qəşəmin ata-babası da aşıq olmuş və beşinci babası Aşıq Əhməd Tikmədaşlı Xəstə Qasımın kəndində yaşamış və onun qohumlarından olmuşdur. Xəstə Qasımın bir çox bağlamalarını açmaq yalnız ona nəsib olmuşdur. Aşığın indiyəcən "El səni atmaz, aşıq Qəşəm" adlı bircə kitabı çapdan çıxıb. Amma onun çap olunmamış onlarca əsərləri vardır.

Azərbaycan folklorunda quşlar barəsində saysız əfsanələr, nağıllar, dastanlar mövcuddur. Xalqımız bu zərif məxluqlara dərin maraq bəsləmiş, onlar xalqın qorxmazlıq, dəyanət və sədaqət rəmzlərinə çevrilmişlər. Bu gün də məişətimizdə işlətdiyimiz tikmə, xalça, mis və saxsı qablarda onların izlərinə rast gəlirik.

Nasir Əhmədi aşıq qoşmalarındakı durna obrazı ilə bağlı məsələlərə toxunur. O, göstərir ki, dastanlarda qürbətə düşən aşıqlar, qəhrəmanlar öz yer-yurdlarını durnalar vasitəsilə xəbər verirdilər (1,N96,1995,s.35-40). Kərəm Əslinin dalınca qürbət ellərə yollananda neçə dəfə durnalarla rastlaşıb öz sevgilisini onlardan xəbər alır. XV-XVI əsrlərdə yaşayan aşıq Qaracaoğlan da öz istəklisinə yetə bilmədiyini qürbətə düşən durnalarla müqayisə edir.

Dirili kəndindən olan Xudayarlı aşıq Surxay və aşıq G.Ağdaşlı qəriblikdə saz götürüb doğma ellərinə gedən durnalarla danışırlar.

N.Əhmədi yazır ki, aşiqlər durnalarla yalnız yarlarından ayrılanda danışmırlar. Bə'zi dastanlarda igid aşiqlər dara, çətinliyə düşəndə qəribsəyib durnalardan kömək istəyirlər. Bununla bağlı "Koroğlu" dastanında bir epizod var. XVII əsrdə yaşayan Aşıq Allahverdi (Ağ Aşıq) durnalara tez-tez xitab edir. Müəllif belə bir misal gətirir ki, Ağ Aşıq boynunu vurdurmaq istəyən paşadan aman istəyib göy ilə gedən durna qatarına üz tutur. Söylənən kövrək şe'r sərdarın ürəyinə rəhm salır, o, aşığın boynunu vurdurmaqdan vaz keçir.

Digər müəllif Rəhim Rəzzaqi Vənəd də folklorumuzda quşlarla bağlı rəvayət və deyimlərə toxunur (1,N96,1995,s.35-40). Durna haqqında yazır ki, onun budaqda oturması və aşiqin çiyninə qonması ümid rəmzidir. Aşiqə və mə'şuqə yeni həyat verməkdir. Durnanın rəqs eləyərək uçması sevincdən bir nişanədir, qatar-qatar kəlmələri isə birlik nişanıdır.

Sonra o, leylək və sərçə, hop-hop, xoruz, toyuq, kəklik, qartal, bül-bül və qənarinin haqqında xalq arasında yayılmış deyimlərdən, rəvayətlərdən maraqlı misallar gətirir. Yazısını belə yekunlaşdırır ki, insanlara xoş duyğu və məhəbbət aşılayan quşlar olmasa idi, onların qanadlanıb uçmaq xəyalı da yəqin olmazdı.

Dərgidə nəşr olunmuş folklor materialları - örnəklər və tədqiqlər olduqca rəngarəngdir. Folklorla bağlı təqdimat, şərh və izahlar elmi məqalələr belə bir ümumiləşdirməyə əsas verir ki, Cənubda folklorşünaslıq artıq formalaşmış bir sahədir. Onun inkişafında Şimalda fəaliyyət göstərən folklorçuların əsərlərinin nəşri xüsusi rol oynamışdır. Bu nəşrlərin bir qismi iqtibas səviyyəsi daşıyır. Yə'ni "Varlıq" Şimal müəlliflərinin tədqiqatlarının nəticələrindən bəhrələnir. Bu da təbiidir, çünki dərgi Güney oxucusuna Azərbaycan folklorunu tanıtmaq naminə bu zəruri addımı atır. Digər məqalələrdə isə Cənubun orijinal, xam folklor materialları üzə çıxarılır və Azərbaycan folklorunun bütöv mənzərəsinin yaranmasına xidmət göstərir.

Son iyirmi il ərzində Cənubi Azərbaycanda folklor sahəsində görülən işlər belə bir qəti elmi nəticəyə əsas verir ki, folklorşünaslıq cənubda yeni elmi sahə kimi təşəkkül tapmış və formalaşmışdır. Onun inkişafına Şimali Azərbaycan folklorşünas alimlərinin tədqiqatları, xüsusən "Varlıq"da çıxan məqalələri güclü tə`sir göstərmişdir.

## ƏDƏBİYYAT

1. "Varlıq" jurnalıfnın müxtəlif sayları
2. Qasımlı M. Aşıq sənəti. B., "Ozan", 1996

## ФОЛЬКЛОР НА СТРАНИЦАХ ЖУРНАЛА «ВАРЛЫГ»

Публикация посвящена анализу исследований просветительского журнала «Варлыг» в контексте образцов народного творчества.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***fil.e.n. Qalibə Hacıyeva***
***Naxçıvan Dövlət Universiteti***
***Azərbaycan***

Çağdaş türk dillərinin tarixi baxımdan tədqiqində ən zəngin qaynaqlardan biri də bu günümüzə qədər qorunan folklor nümunələridir. Hər bir millətin ruhunu, tarixini, mədəniyyətini, dini dünyagörüşünü, mifik təfəkkürünü yaşadan, ən böyük sərvəti hesab olunan folklor nümunələri qədim adət – ənənələrin, eləcə də milli dil xüsusiyyətlərinin qorunub saxlanmasında əvəzsiz mənbə və zəngin xəzinədir. Bu baxımdan, ayrı – ayrı müxtəlif dövlətlərin – Quzey və Güney Azərbaycan, İraq, Quzey Kipr, Anadolu (Turkiyə), Tatarstan (Rusiya), Qaqauz yeri (Moldova), Mamuşa (Yuqoslaviyanın Kosovo bölgəsi) – tərkibində yaşayan vahid kökə malik türklərin folklor nümunələrinin müqayisəli tədqiqi dialekt leksikamızın hələ üzə çıxarılmamış və araşdırılmamış qədim türk qatının öyrənilməsində mühüm əhəmiyyət daşıyır.

Çağdaş türk xalqlarına aid folklor nümunələrinin dialekt və şivə müstəvisində müqayisəsi çağdaş türk dillərinin eyni kökə əsaslandığını bir daha təsdiq edir. Müasir türk xalqlarının elə ortaq folklor nümunələrinə rast gəlinir ki, bunlar dialekt və şivələrimizin ən qədim qatlarının açılmasına imkan yaradır. Quzey Azərbaycan, Güney Azərbaycan, İraq, Tatarstan, Qaqauz, Kosova, Türkiyə türklərinin folklorunda bir – birinin eyni olan nəğmələr, layla və bayatılar, digər folklor nümunələri qədim adət ənənələrimizin güzgüsü kimi parlayır.

Azərbaycan variantı
Tut ağacı deyiləm,
Hər gələnə əyiləm,
Mənə vəfasız, demə
Mən vəfasız deyiləm.

Kipr variantı
Nar ağacı değilim,
Esdikca eyilirim,
Aç qoynunu gireyim
Can alıcı değilim. (1,s.123)

Qaqauz variantı
Ban dut aacıd iilim,
El estikçe iileyim,
Kaçma yarım, gözelim
Sana düşman diilim.(2,s.42)

**İraq variantı**
Güzəl alma,
Güzəl gül, gözəl alma,
Alırsan bir əsil al
Bədəlsiz gözəl, alma. (3, s.236)

Yaşıldı başın, sona,
Qələmdi qaşın, sona,
Gölə yalqız gəlibsən
Hanı yoldaşın, sona?!

Bağdad yolu Gəncədi
Gülü pəncə – pəncədi
Demə sizdən irağam
Bu sevda ölüncədi. (4, s.32)

**Güney Azərbaycan variantı**
Əzizizm qızıl alma,
Ağ alma, gızıl alma.
Əsil al, çirkin olsun
Bədəsil gözəl alma.

Yaşıldı başın, ördək,
Qələmdi qaşın, ördək,
Həmişə cüt gəzirdin
Hanı yoldaşın, ördək?!

Təbriz yolu Gəncədi
Günü pəncə – pəncədi
Demə səndən uzağam
Bu sevda ölüncədi.

Anadolu variantı
Gözəl alma,
Bağında gözəl alma,
Çirkin al, əsil olsun
Bədəsil gözəl alma. (5, s.281)

Güney Azərbaycan variantı
Ağ alma, gözəl alma,
Payızdan əzəl alma.
Çirkin ol əsitl olsun,
Bədəsil gözəl alma. (6,s.109)

Bu nümunələrdə xadqın təfəkkür tərzinin eyni dil xüsusiyyətləri müstəvisində çağdaş şifahi xalq ədəbiyyatında qorunub saxlanması uzun əsrlər arasında tarixi körpü yaratmaqla mənəvi varislik zəncirinin qırılmamasını təmin edən əsas amil kimi özünü göstərir. Türk xalqlarının belə ortaq nümunələri arasında bayatılar kimi əmək nəğmələri, atalar sözü və zərbül – məsəllər, dastan və rəvayətlər də çox üstünlüyə malikdir.

Nə yavaş ol basıl, nə zalım ol asıl (1, s.190) Kipr variantı.
Nə zalım ol asıl, nə miskin ol basıl. (4, s.335) İraq variantı
Nə zalım ol asıl, nə yazıq ol basıl. Azərbaycan variantı.

Başkasına mezar açan kendisi düşer (7,s.48) (Mamuşa – Kosova)
Başqasına quyu qazan özü düşər. (Azərbaycan).

Akıl yaşdı deyil, başdadır. (Kipr)
Ağıl yaşda deyil, başdadır. (Azərbaycan)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağ dağa qavuşmaz, insan insana qavuşar. (Kipr)
Dağ dağa qavuşmaz, insan insana qavuşar. (Azərbaycan)

Ucuz etin yahnısı dadsız olur. (Kipr)
Ucuz ətin şorbası olmaz. (Azərbaycan).

Müxtəlif bölgələrdəki türk xalqlarının folklor nümunələrinə nəzər saldıqda türk xalqlarının bir qismi üçün səciyyəvi olan sırf milli elat həyatını, türk kəndlisinin estetik – fəlsəfi dünyasının əks olunduğunu görürük. Qüzey və Güney Azərbaycan folklorunda qoyunçuluqla əlaqədar yaranmış nəğmələrin eyni məqamla ortaq dialekt xüsusiyyətləri ilə Anadolu folklorunda işlənməsi milli etnoqrafik mədəniyyətimizin vahid tarixi kökünün bariz nümunəsi kimi özünü göstərməkdədir. Məsələn, Anadolu qarapapaq türklərinin dilində işlənən:

Canım qəmər qoyun,
Balası əmər qoyun,
Yiyən sənin ucunnan
Belinə bağlar kəmər, qoyun. (8, s.82)

– çoban türküsünün həm Quzey, həm də Güney Azərbaycan folklorunda müəyyən ləhcə xüsusiyyətləri ilə işlənməsi diqqəti cəlb edir.

Nənəm, a qəmər qoyun,
***Quzusu əmər qoyun***
Yiyən sənin ucunnan
Bağlayıb kəmər, qoyun. (9 s.18).

Bu oxşama bayatı Naxçıvanda və Güney Azərbaycanda qarapapaq türkləri və şahsevən elatlarının dili ilə belə səslənir:

Ay nazdı, qəmər qoyun,
Quzusu əmər, qoyun,
Yiyən sənin ucunnan
Bağlayar kəmər, qoyun.

Belə elat nəğmələrinin eləcə də, bayatıların bir çoxunda Azərbaycan və Anadolu variantlarını tutuşdurduqda vahid dil xüsusiyyətləri saxlanmaqla bir kəlmə, yaxud bir misranın kiçik fonetik fərqlə işlənməsi türk dilinin dialektal xüsusiyyəti kimi ortaya çıxır.

| Anadolu variantı | Azərbaycan variantı |
|---|---|
| Canım boz ala qoyun, | Nənəm boz, ala qoyun, |
| Yolda yozala qoyun, | Yolda suzala qoyun, |
| Yiyən sənin ucunnan | Yiyən sənin ucunnan |
| Bir ala göz qız ala, qoyun. (8, s.77) | Gözəl qız ala qoyun. (9, s.19) |

Bu nəğmələrdə yozala, suzala tipli sinonimik cərgə yaradan qədim dialektizimləri özündə qoruyub saxlayan folklor materiallarında dilçilik elmi üçün gərəkli olan xeyli söz və qrammatik formalar vardır ki, bunlar da qədim dövrün dil yadigarlarıdır.

Yaralarım oyuldu,
Qabıq tutdu soyuldu,
Mən səni xəlvət sevdim
Bilməm necə duyuldu.

Taxtadan ələk olmaz,
İncə bel mələk olmaz,
Qaşın, gözün qurbanı
Hər yerdə hənək olmaz.

Gənə geydin ağı sən,
Mənə vurdun dağı sən,
Bülbül bağbanın ölsün
Viran qoydun bağı sən.

Rəqibi çayda gördüm,
Gününü vayda gördüm,
Göz kor, dil lal, ayaq şil
Üçün bir ayda gördüm.

Folklor nümunələrində rast gəlinən, tarixən müstəqil leksik vahid kimi mövcud olan dialektizimlərin (hənək – zarafat, xəlvət – gizli, gənə – yenə, şil – şikəst) çağdaş türk dillərində olduğu kimi eyni semantik yüklə işlənməsi təsadüfi hal sayıla bilməz. Bu kimi dialektizmlərin eyni forma və məzmunda tarixi minilliklərlə ölçülən folklor nümunələrinin tərkibində qorunması dilimizin tarixi köklərindən xəbər verir.

Müşahidələr göstərir ki, folklor nümunələrindəki dialekt sözlərin əksəriyyəti çağdaş dövr türk dillərinin ortaq leksemləri kimi işlənməklə qədim türk dilinin etnogenetik baxımdan vahid kök üzərində dayandığını sübuta yetirir.

Göründüyü kimi, folklor nümunələrinin dili dialekt söz və ifadələrlə olduqca zəngindir. Folklor nümunələrindəki ayrı – ayrı dialektizimlərin mövcudluğu türk dilinin qədim milli xüsusiyyətlərini özündə mühafizə edir ki, bu da çağdaş dilə uyğun gəlir və bu gün də öz tarixi sabitliyini qoruyub saxlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Folklor nümunələrində dialekt və şivələrimizi ədəbi dildən ayıran leksik vahidlərlə yanaşı, fonetik fərqləri yaradan səs əvəzlənmələri də üstünlük təşkil edir. Bu əvəzlənmələrin folklor materialları əsasında öyrənilməsi ümumtürk dilinin ayrı – ayrı dialekt və şivələri arasında olan fərqli cəhətləri ortaya çıxarmaqla yanaşı, həm də bu dilin qədim tarixi xüsusiyyətlərini meydana çıxarır və bu türk dilləri arasında oxşar və ayrılan cəhətləri göstərmək üçün olduqca qiymətli material verir. Bu isə öz növbəsində türk dilinin mənşə və inkişaf tarixini aydınlaşdıraraq onun hansı qəbilə və tayfa dilləri arasında təşəkkül etdiyini müəyyənləşdirməkdə dil tarixinə olduqca böyük fayda verə bilər.

Bu baxımdan müxtəlif bölgələrdəki türk xalqlarının folklor nümunələrində dialektal xüsusiyyət kimi səs əvəzlənmələrinə paralel diqqət yetirmək olduqca zəruridir.

Oğuz qrupu türk dillərində ortaq şəkildə müşahidə olunan bir çox səs əvəzlənmələri (ç – s – ts – ş – k; c – g; b – p; d – t; q – x; d – n, a – ə, ö – ü; q – n, ı – u; v – n, q – ğ; y – g, u – ü; l – d, r – y; u – i, ı – i; i – ü müasir türk xalqlarının eyni dil cəhəti kimi soy – kök birliyini təsdiq edir.

*İraq Türkmən variantı*
Kimi gözdər,
Ah çəkib kimi gözdər
Qaşın kimi qaş olmaz
Gözdərin kimi gözdər. (3, s.227)

Günahımnan
Xudam, keş günahımnan,
Cigərdən bir ah çəkərsəm
Tutular gün ahımnan

Yar ovu,
Mən olmuşam yar ovu,
Dərdinin dərmanıym
Təbib bilməz yarovu. (3, s.215)

*Kipr variantı*

*Azərbaycan variantı*
Qara gözdər,
Göz dikib hara gözdər,
Qaşın kimi yay olmaz
Gözdərin kimi gözdər

Günahımnan,
Xudam, keş günahınan,
Cigərimdən vuruldum
Tutuldu gün ahımnan

Hanay yabdım daş isdər,
İçine yoldaş isdər,
Senin gibi güzele
Benim gibi eş isder.

*Mamuşa variantı*
Ay doğdu düzə düşti,
Zülüfler yüze düşti ,
Eller cifte cezergen
Ayrilık bize düşti (7. s.49)

*Azərbaycan variantı*
Ay doğdu düzə düşdü,
Zülüflər üzə düşdü.
Ellər qoşa gəzərkən
Ayrılıq bizə düşdü.

*Anadolu variantı*
Sarı qamışın yollari,
Eyrü – büyri qollari,
Mendil alim süpürüm,
Balam gelen yollari

Ayağında yemeni,
Niçin almaysın beni,
Bu dünyanın ülümi
Ne seni cör, ne beni. (7, s.49)

Məhtip yazdım büləsin
Oxuyasın, güləsin
Bu mehtibim üstüne
Durmiyəsin gələsin. (8,s.38)

Krım tatar variantı
Ayımsıng, yıldızımsıng?
Keninmising, qızmısıng?
Men bu gedje varadjaqum
Evinde əngiqgznusın?!

Azərbaycan variantı
Ayımsan, ulduzumsan
Gəlinmisən, qızmısan?
Mən bu gecə gələcəm,
Evində yalqızmısan? (10, s.131).

Örnəklərdən göründüyü kimi, Güney və Quzey Azərbaycan, Tatar, İraq – Türkmən, Kipr, Mamuşa (Kosova), Qaqauz türkcəsinin dialektal özəlliklərindən assimlyasiya, dissimlyasiya, səsartımı, səs düşümü və dəyişik formada səs əvəzlənmələrinin dialektal tələffüzü və çağdaş dövr üçün xarakterik olan vahid fonetik özəlliklər əski dövrün dil yadigarlarıdır. Folklor nümunələri bir sıra fonetik xüsusiyyətləri mühafizə etməklə yanaşı, həm də qrammatik cəhətdən maraqlı xüsusiyyətlərə malikdir. Bu baxımdan ədatların müxtəlif növ dialekt variantlarının eyni fonetik tərkibdə çeşidli türk bölgələrinin folklor nümunələrində işlənməsi də diqqəti cəlb edir. C.Q.Əlizdə XVI əsrdə Azərbaycan ədəbi dilində ədat kateqoriyasının kifayət qədər söz ehtiyatına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

malik olduğunu və müasir ədəbi dildə işləndiyini qeyd etmişdir (10, s.19). Görünür, tarixən mövcud olmuş bu ədatların bir çoxunun müasir Azərbaycan ədəbi dililə yanaşı, digər türk xalqlarının folklorunda müxtəlif dialekt variantlarında işlənməsi təsadüfi deyil.

Məsələn emosionallıq çalarlığı ifadə edən kaş ki, ədatının Naxçıvan dialekt variantı keşke Anadolu ağızlarında eynilə işlənməkdədir.

Keşke, çolax olaydım,
Yara qonax olaydım,
Yar peşinə gedincə
Soyux sular olaydım. (1, s.166)

Və yaxud məgər sual ədatının Güney Azərbaycan və Şərqi Anadolu folklor nümunələrində, eləcə də müasir Naxçıvan dialektində bəyə formasında işlənməsi də ortaq dil xüsusiyyətlərinin nəticəsi olaraq qalmaqdadır.

Yaxçı olar qoç igidin əzəli,
Payız olcaq bağlar tökər xəzəli,
Bəyə gedəm, sevəm sənnən gözəli
Elə gedəm, yar əylənəm gəlmiyəm!

Göründüyü kimi, istər Quzey və Güney Azərbaycan, istər Şərqi Anadolu, istər İraq, Kipr, Kosova, istərsə də bir çox digər dövlətlər tərkibində yaşayan türklər yüzilliklərlə bir – birindən ayrı mövcud olsalar da, qədim Türk dilinin leksik və fonetik elementlərini mühafizə etməklə ortaq folklorunu da qoruyub saxlamışdır.

Ortaq folklor örnəklərindən aydın olur ki, çağdaş türk xalqlarının qədim dil elementləri dialekt və şivə uyğunluğuna görə vahid kökə əsaslanır. Bununla yanaşı, türk xalqlarının dialektal xüsusiyyətlərinə görə fərqlənməsində ictimai – siyasi və digər amillər də nəzərə alınmalıdır. Çünki bu dillər həm də təmasda olduğu başqa dillərlə də bəzi ortaqlıqlara sahibdir.

Ümumtürk dilinin tarixi inkişafına uyğun olaraq dialektal leksika üzərində aparılmış müşahidələr göstərir ki, mənşə etibarilə ümumtürk dillərində birləşən oğuz, qıpçaq, peçeneq tayfa dil ünsürlərinin ortaq şəkildə işlənməsi ümumtürk ədəbi dilinin təşəkkülündə və inkişafında bilavasitə iştirak etmişdir.

Araşdırmalardan göründüyü kimi, ortaq folklor nümunələrinin öyrənilməsi dialektologiya ilə yanaşı, həm də tarixi etnoqrafik baxımdan çox böyük əhəmiyyətə malikdir. Məhz buna görə də məişətimiz və mədəniyyətimizlə bağlı dil vahidləri olan bu folklor nümunələrinin ayrı – ayrı bölgələr üzrə müqayisəli şəkildə tədqiqi həm də xalqımızın tarixi haqqında maraqlı faktları ortaya çıxarmış olur.

**QAYNAQLAR**

1.Mahmut İslamoğlu. Kıbrıs Türk folkloru. Ankara 2004, 203 s.
2. «Qaqoğuz» kültür sanat dergisi. Moldova _ Kişinyov. 2004, №6
3.İraq – Kərkük bayatıları, toplayan və tərtib edən Q.Paşayev. Bakı 1983, 348 s.
4.İrak – Türkman ləhcəsi, Bakı. 2004.
5. İğdır kültürü. İğdır belediyesi kültür yayımları №1.
6.Bayatılar. Toplayan və tərtib edən Həsən Qasımov. Bakı 1960, 254 s.
7. Cemali K. Tunalıgil. Mamuşa Türk ağzının özellikleri. İnceleme – metinler – sözlük). Prizren 1997, 64s.
8.Caferoğlu A. Doğu illerimiz ağızlarından toplamalar. Ankara 1995.
9.Nəbiyev A. Novruz. Bakı 1989.
10.Babayev R. Bayatılar: poetik – üslubi özellikler, regional xüsusiyyətlər. Folklor edebiyyat dergisi, Ankara 2007, №3.
11.Əlizadə Q.S. XVI əsr Azərbaycan ədəbi dilində ədatların inkişafı səviyyəsi. Türk dillərinin tarixi və dialektologiyası problemləri. ADU Bakı 1986.
12.Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı 1968
13.Vəliyev A. Azərbaycan dilinin keçid şivələri. Bakı 2005
14.Xalq yaddaşının izləri. Bakı 2005
15.Yol gələr Ordubada. Naxçıvan 2005
16.Bayatılar. Bakı 1985, 199 s.

**EXAMPLES FOLRS OF IS THE SOURCE OF DIALECTS AND ACCENTS**

Todey the best way of learning the history of Azerbaijan is spoken language. Sometimes grammatical and written language causes us to stay away from the spoken language of Azerbaijan. In conclusion the idioms, proverbs literal sentences and some special wards about Azerbaijan language are used and hidden in spoken language. they show us the literal, moral and cultural part of Azerbaijan language. By the time they are sometimes forgotten and



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

not used by the next generation. Sometimes we need to investigate our ancient language to know something about our previous history and language.

Last period dialectology researches prove that Nakhchivan Autonomous Republic is a center of Turkish civilization that is situated Caucasus and a part of east Anatolia. South Azerbaijan's rich folk culture helps us to learn much about our culture, morals and the way how our ancestors lived which is not known by the young generations. People who live in South Azerbaijan could protect their cultural and social values and their literal language by speaking this spoken language which almost doesn't in North Azerbaijan.

Unfortunately the meaning of these words haven't been indentified in today's dictionaries however they were often used in our ancient accent. And we didn't try to learn the real meanings if these words and sentences. As we know from the recent researches that our ancestors these words and sentences very often and it's our duty to learn the real meanings and usage of them and to teach them to our younger generation. Making researches on this issue will help us more about our history and we will be more aware of our ancestors, then we will speak our language better.

## TÜRK ƏSILLI "ƏRMƏNI" AŞIQLARI

***Prof.Dr.Qara Namazov***
***BDU***
***Azərbaycan***

Ozan – aşıq sənəti öyrənilərkən keçən yüzilliyin ortalarından həmişə bir məsələ araşdırıcıları düşündürmüşdür. Necə olur ki, orta yüzillərdən bəri erməni qusanları adlandırdığımız bu ozan aşıqları şeirlərini erməni əlifbası ilə türkcə yazmışlar, həm də türk – Azərbaycan şeiri ölçüsündə. Necə olur ki, özlərini dünyanın ən qədim xalqı adlandıran ərmənilərin xalq şeiri və qusan yaradıcılığı türk – Azərbaycan dilində yaranır? Təkcə şeirmi? Həm də bütünlükdə xalq bədii sözü bu dildə yaranıb yayılmışdır. Yalnız əlifba özlərinə məxsus olmuşdur. Türk qalxanda ona yarınan, tənəzzül vaxtı arxadan qənim kəsilən, özünü gah hay, gah ərməni, gah arsaq, hətta Nuhun nəsli qələminə verən ərmənilərin söz adamları niyə türkcə - Azərbaycanca yazıb – yaradırlar? Bir az tarixə qayıdaq.

Ərmən adlanan bu etnos ( ərmən sözü də xalis türk sözüdür ) min illikdən bir az əvvəl Dəclə - Fərat çayları vadisində dövlətlər arasındakı münasibətləri və münaqişələri kəskinləşdirib, özləri əzilən məqamda Tiqranın başçılığı ilə gəlib Van ətrafında yuva qurdular, orada da qanlar töküb Ağrıdağ vadisinə səpələndilər. Görəndəki bu bölgələrdə də köklü türk etnosları yaşayır, onlara sığındılar. O zaman Qafqazda Alban – Aran və Xəzər dövlətləri türk dilli xalqlar kimi yaxşı münasibət qurub hətta qohumluq əlaqələri yaratmışdılar. Qafqazın əksər ərazisinə sahib olan bu dövlətlər xristian dinini qəbul etsələr də, dilbirliyi onların min illərdən bəri birlikdə yaşamasına səbəb olmuşdu. Albanlar Şimali Qafqazdan Araz çayına qədər böyük bir əraziyə sahib idilər. Bizim minillikdən əvvəlki 4-cü yüzillikdən bizim minilliyin XIII yüzilliyinə qədər böyük tarixi kəsimlərdən keçmiş Alban dövləti qərbdə Alban, şərqdə Aran, el arasında isə çox hallarda Oğuz səltənəti kimi tanınırdı. Alban – Aran dövlətində 26 iri və onlarla kiçik etnoslar dövləti təmsil edirdilər. Onların əksəriyyəti türkdilli tayfalar idi. Bu tayfaların kökü də tarixçilərin dediyi kimi bizim eradan əvvəlki minilliklərə gedib çıxır. Professor Z. Yampolskinin tutarlı dəlillərinə görə b. e. əvvəlki üçüncü minillikdə Qafqazda türk etnoslarının izləri bəllidir. Bu əraziyə gələn qeyri – türk tayfaları da istər – istəməz yerli əhalinin dilini və mədəniyyətini öyrənməli olurdu. Belə bir dövrdə Vandan Qafqaza gəlib səpələnən ərmənlər öz qriqoryan məzhəbini xristiyan dininə qovuşdurdu və bu dinlərdən məharətlə istifadə edərək ölkənin qanunlarını kilsəyə tabe eləməyə yönəltdilər.

Qeyd edəkki, 7-ci yüzilliyin sonlarında kilsənin keşişi İlya ərəbləri Albaniyaya dəvət elədi. Yüzminlik ordu ilə Albaniyaya yürüş edən ərəb sərgərdəsi əvvəlcə İlyanın qonağı oldu. İlya arvadını, qızını və ərmən qızlarını sərkərdənin ixtiyarına verdi, həm də onlara böyük ziyafətlər verdı. Və sərkərdəni inandırdı ki, Albanlar Bizanslarla ərəblərə qarşı birgə müharibəyə hazırlaşır. Əlbəttə, Albanlar yüzminlik ərəb qoşununa qarşı vuruşa hazır deyildilər. Həm də kilsə də bu qeyribərabər döyüşdə ərəblərə istiqamət verirdi. Beləliklə, ərəblər min illik tarixi olan Alban dövlətini dağıdıb kilsənin səlahiyyətini daha da gücləndirdi. Əhali arasında siyasi cəhətdən pərakəndəlik yarandı. Əhalinin bir qismi islamı qəbul elədi, bir qismi xristiyanlıqda qaldı, bir qismi isə Qriqoryan kilsəsinin təhriki ilə həmin dinə tapındı. Dili türk dili olsa da, qriqoryan dininə tapınanlara ərməni kimi yanaşıldı. Həmin qriqoryan məzhəbli ərmənlər türkcə danışır, qusanları isə şeirlərini türkcə yazırdılar.

Qeyd edək ki, ərəb sərkərdəsi Übeyd ibn Şəriyə Albaniyanı fəth etdikdən sonra Müaviyə Azərbaycan haqqında soruşduqdakı ora necə ölkədir? Sərkərdə demişdir: "Ora türk torpağıdır. Onlar oraya cəmlənərək bir – biri ilə qarışmış və təkmilləşmişlər"

Kilsə Qriqoryan məzhəbini qəbul edənləri kilsə dili olan qrabarca danışmağa təhrik edir, geniş təbliğat aparırdı. Əslində qrabar dilini kütlə o qədər də yaxşı dərk edə bilmirdi. Çünki qrabar dilinə orta və yaxın şərqin bir sıra dilləri təsir göstərmiş, bu qarışıq dili savadsız xalq mənimsəyə bilmir və nəticədə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

geniş yayılmış türk dilində danışmağa üstünlük verirdilər. Beləliklə, qrabar dininə mənsub olan ermənilər dil baxımından türk dilini xalqlar və qəbilələr arasında ünsiyyət vasitəsi kimi qəbul etmiş, ermənilər özləri də türkləşmişdilər.

Ərəblər isə türk – alban əsilzadələrinin böyük əksəriyyətini ərəbistan vilayətlərinə, orta Asiyaya, hətta Əfqanıstana köçürmüş, torpağa bağlı olan kütlə isə islam dinini qəbul edib yurdunda qalmışlar.

İslamı qəbul edən alban türklərinin tarixi taleyinin bir çox məqamları Dədə Qorqud dastanlarında təsvir olunur. Əlbəttə, dastan bədii əsərdir, ondan tarixi dəqiqliyi olduğu kimi gözləmək olmazdı. Digər tərəfdən həmin dövrlərdə ərəblərin işğalçılıq siyasətini olduğu kimi də dastanlaşdırmaq olmazdı.

O da bəllidir ki, IX – XI yüzilliklərdə Orta Asiyadan gələn oğuzlar islam dinin qəbul etmişdilər. Xristian oğuz türkləri ilə Oğuz müsəlman türkləri tədricən dil tapdılar. Bununla belə peçeneqlərin, hunların, qıpçaqların böyük qismi asimliyasiyaya uğrayaraq xristian xalqların işərisində əridilər. Az qismi və müsəlman oğuzları alban səltənətini itirsələr də onlar Azərbaycan xalqının təşəkkülündə böyük rol oynadılar.

Bu olaylar Kitabi Dədə Qorqud boylarında geniş yer almışdır. Kitabi Dədə Qorquddan sonra ikinci mötəbər abidə "Əsli – Kərəm" dastanıdır. Vaxtilə M. H. Təhmasibin "Əsli – Kərəm" dastanı hər halda 7 - 8 əsr əvvəllərin hadisələrin fikri diqqəti çəkirdi. Sonralar bizim də "Əsli – Kərəmin soyları" və "Dədə Qorqud və Dədə Kərəm" məqalələrimiz Əslinin erməniyə dəxili olmadığı və bu mövzunun xristianlıqdan müsəlmanlığa keçid dövrləri ilə səsləşdiyi qənaətini Elnur Heydərov ""Əsli – Kərəm" dastanı və Alban mədəniyyəti" (2007) adlı çox dəyərli monoqrafiyasında zəngin mənbələrlə davam etdirmişdir.

Kilsə təhrikinə uyub qriqoryan və xristian dininə tapınan ərmənlər, gürcülər və türklər bir-biri ilə türkcə danışır, erməni qusanları, gürcü mqusanları oğuz ozanları kimi Türk – Azərbaycan dilində şeirlər yazırdılar. Şeirlər Azərbaycan ozan – aşıq şeirinin şəkillərində yaranırdı. Azərbaycan – türk şeirinin əksər şəkillərindən istifadə edilirdi. Yalnız ermən və gürcü əlifbasından istifadə olunurdu.

Qeyd edək ki, ərəb işğalından sonra fürsətdən istifadə edən kilisə alban dilində olan bütün yazıları yandırtdı. Bərdədə, Qəbələdə, hətta Gəncədə ələ keçən alban – türk əlyazmaları tapılıb məhv edildi. Çünki qriqoryan kilisəsi ərəblərə bildirmişdilər ki, albanlar bizansların dini təriqətinə meyl göstərir, onlara daha çox yaxınlaşırlar.

Kilisənin rəhbəri İlya yazır:

Dünya fatehi əmirəlmöminin Abdulla Əbdülməlikə erməni katalikosu İlyadan: "Hakimi mütləq Allahın hökmü ilə bizim ölkə itaətlə sizin hakimiyyətinizə tabedir. Biz və albanlar vahid İsa dininə itaət edirik. Bərdə taxtında oturan indiki Albaniya katalikosu Bizans imperatoru ilə sazişə gəlib öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqada ona qoşulsun."

Əmirəlmöminin Əbdülməlikin erməni katalikosu İlyanın məktubuna cavabı:

"Ey Allah xadimi ermənilərin katalikosu İlya! Sənin səmimi məktubunu oxudum və sənin yanına öz sədaqətli nökərimi böyük qoşunla birlikdə göndərirəm. Əmr etdim ki, bizim hökümranlığımıza qarşı qiyam edən albanlar arasında sizin dininizə uyğun dəyişiklik edilsin.

Bu məktublardan aydın görünür ki, erməni kilisəsinin canfəşanlığı, ərəb əmirlərinin tədbiri alban – Azərbaycan mədəniyyətinə izi silinməz zərbələr vurdu. Lakin ərəb işğalı da, erməni xisləti də alban – Azərbaycan – türk dilini məhv edə bilmədi. Türk dili elə o dövrdən bizim dövrümüzə qədər Qafqazda xalqlar arasında ünsiyyət dili kimi yaşadı.

Türk dilinin həm qədimliyi, həm zənginliyi və səlisliyi və geniş yayılması təkcə ünsiyyət vasitəsi yox, həm də şeir dili kimi də şöhrət qazanmışdır. Məhz buna görə də müxtəlif dinlərə xidmət edən erməni qusanları, gürcü mqusanları hətta alban ərazisində sakin olmuş yunanlar belə şerlərini Azərbaycan (türk) dilində yazırdılar.

Qeyd etdiyimiz kimi ərəb işğalı dövrünün hadisələri bədii boyalarla Kitabi Dədə Qorqud boylarında öz ifadəsini tapmışdır. Həmçinin "Əsli – Kərəm" dastanı da bu dövrün hadisələrini özündə ümumiləşdirmişdir. Hər iki ədəbi abidənin Alban mədəniyyəti ilə əlaqəsi ayrıca bir mövzudur. Onu da xatırladaq ki, biz bu qənaətdəyik ki, "Əsli – Kərəm" dastanının sujeti Nizami Gəncəviyə bəlli olub. Çünki, ərəblərdə dastan janrı yayılmamışdır. Leyli və Məcnun əhvalatı ancaq kiçik rəvayətlər şəklində bəlli idi. Nizami geniş planlı dastan yaratmq üçün türk – Azərbaycan şifahi ədəbiyyatında geniş intişar tapmış dastan janrından bəhrələnmişdir, həm də "Əsli - Kərəm" dastanından Nizaminin yaratdığı Leyli və Məcnun poeması ilə "Əsli – Kərəm" dastanının süjeti o qədər yaxındır ki, onları yalnız dil və surətlərin adları fərqləndirir: Baxın, Qeys Leylini xurma bağında görüb sevir, Kərəm də Əslini bağda görüb sevir, həm də çöldə Əslinin ceyranını tanıyır. Məcnun da atını ovçuya verib ceyranı alır, qəlbindən keçənləri ceyrana danışır. Bu paralelləri ayrıca davam etdirmək olar.

Qeyd edək ki, müxtəlif dinlərin, təriqətlərin qarşı – qarşıya dayanması, həm də müxtəlif dillərdə danışmaları geniş kütləni çaş – baş salırdı. Bununla belə dil amili üstünlük təşkil edirdi. Yuxarıda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xatırladığımız ozanların yaratdıqları Kitabi Dədə Qorqud və "Əsli – Kərəm" dastanları da ünsiyyət dili olan türk dilində yaranıb yayılmışdır. Kitabi Dədə Qorqud boylarının hər birinin epiloqunda deyilir:

Hanı görüyün bəy ərənlər,
Dünya mənim deyənlər,
Əcəl adı, yer gizlədi.
Fani dünya yenə qaldı.
Gəlimli, gedimli dünya,
Son ucu ölümlü dünya.

Bu epiloq əslində çox mətləblərə toxunur. O mətləblərə ki, o qanlı savaşlarda bəy ərənləri həm qırdılar, həm də uzaq ölkələrə sürgün elədilər. Yaratdığı mədəniyyəti də məhv etdilər. Biz isə ana kitabımız kimi bu tarixi abidələri öyrənir, ondan təsəlli tapırıq.

O da tarixi həqiqətdir ki, həmin dövrün qusanları da öz nəğmələrini türk dilində söyləyir, türk dilində yayırdılar.

Əldə olan mənbələrə əsasən XIII yüzildən dövrümüzə qədər erməni adlanan söz adamları şeirlərini məhz türk dilində söyləmişlər. Bluz Hövanesin beş bəndlik "Məryəm" gəraylısı təmiz türk dilində və türk şeir vəznindədir:

Sənsən ari qızı Məryəm,
Yazıxlarıma dərman,
Tanrıdır səndən doğan,
Tanrım anası Məryəm.

Bütün bəndləri verməyə ehtiyac yoxdur. Hətta tanrı – sözünü də başqa dinlərə məxsus yox (boq və ya astvas), türklərə məxsus tanrının adı ilə verir.

XIV yüzildə Hovanes İlkuransi də şeirlərini türkcə yazmışdır. XVI yüzildən isə qusanlar nəğmələrini yalnız türkcə söyləmişlər. Siz onların adlarına fikir verin: Vanlı böycək (kuçak), Xəyyafi, Çubuq oğlu, Əkbər (Akbar), Miskin, Səfil, Yaqub oğlu, Dəllək Murad (XVII yüzildə Göyçayda yaşamış Azərbaycan aşığıdır), Məcnun, Arazlı, Miran, Bağır oğlu, Əylisli Horomsime, Keşişoğlu, Kəlbi, Xostiq oğlu, Abdin oğlu, Qul Sərkis (bir neçə Sərkis vardır), Şamçı Meliko, Turab dədə, Əmiroğlu, Kiçik Nəva, Artun oğlu, Dəmirçi oğlu və. b. Bunların sayı 400-dən çoxdur. Əksəriyyəti səpələnib Yaxın Şərqin müxtəlif ölkələrində yaşamışlar. Harada yaşamalarından asılı olmayaraq nəğmələrini türkcə qoşub düzmüşlər.

Bu sənətkarların zirvəsi XVIII yüzildə yaşamış Səyad Nəvadır. O da özü şeirlərində dönə - dönə yazdığı kimi türkdür, dini təriqətlər bu söz adamlarını öz kökündən – türkçülüyündən ayırsa da, dilini itirməmiş, dili ilə soyunu qoruyub saxlaya bilmişdir. Onlar bir – biri ilə bu dildə danışmışlar. Əksəriyyəti də türk olduqlarını etiraf etmişlər.

Adını erməni qoyub türkcə (azərbaycanca) şeir yazan aşıqlar XIX yüzilə qədər yaradıcılıqlarını davam etdirmişlər və təxəllüsü də türkcə seçmişlər: Keşişoğlu, Qəssab oğlu, Zərgar, Şirin, Miskin Bürci, Mahubi Gevork, Çərkəzoğlu, Türinc, Kamil, Bədəl, Əzbər Adam, Bunyadoğlu, Cahiloğlu və s.

M. Y. Lermontov çox yerində deyib ki, türk dili Qafqazda əsas ünsiyyət dilidir

Araşdırmalardan bəlli olur ki, qriqoryan kilisəsi nə qədər təhrik etsə də, əslən soyu türk - Alban – Azərbaycan olan hər bir kəsi kökündən ayıra bilməmiş, türk soylular türklüyündə qalmış, erməni əsillilər də bu dilə tapınmışlar. Bu sənətkarların əksəriyyəti qriqoryan və ya xristian dinini qəbul etsələr də, dil, düşüncə, şeirlərinin vəzni, çalıb – oxumaları, dastan danışmaları türk – Azərbaycanca olmuşdur. Erməni araşdırıcıları onları erməni qələminə versələr də, türkcə yazıb – oxuduqlarına görə tənqid etmişlər.

Tarixi gizlətmək olmaz. Gec – tez tarixin alt qatları üzə çıxır, həqiqət öz yerini tapır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# QƏDİM TÜRK DİYARI BƏRDƏ

***T.e.d. Qasım Hacıyev***
***AMEA Tarix İnstitutu***
***Azərbaycan***

Bərdə ərazisinin təbii xüsusiyyətləri haqqında yunan, latın və alban, eləcə də ərəb, fars və türk dilində olan mənbələrdə də dəyərli məlumatlar verilir.

Bərdənin tarixi-arxeoloji tədqiqi göstərir ki, şəhər b.e.ə. V-IV əsrlərdə yaranmış, antik dövrdə, ilk, inkişafetmiş və son orta əsrlərdə intensif şəhər həyatı keçirmiş və bu gün də öz həyatını davam etdirir.

Albaniyanın digər əraziləri kimi Qarabağ bölgəsinin, o cümlədən Bərdə əhalisinin də etnik kompanetlərindən biri türk tayfaları idi. Bu dövrdə Albaniyada yerli tayfalar arasında, gəlmə tayfalar arasında, gəlmələr və yerli tayfalar arasında assimiliyasiya prosesi də baş vermişdir. Aparıcı tayfalar türk mənşəli olmuşdur.

Mənbələrin verdiyi məlumata görə Albaniyada danışıq dili arran, yazı isə 52 hərfdən ibarət alban əlifbası olmuşdur. Tədqiqatlar Albaniyada müxtəlif dil qrupuna mənsub olan etnik tayfaların mövcudluğu ilə əlaqədar olaraq müxtəlif dillərdə danışıldığını göstərirlər. Bu məqsədlə aparılmış tədqiqatlarda albanları türk dilləri ailəsinə və tamamilə bundan fərqli olan İber-Qafqaz dil qrupuna aid edirlər.

Mənbələrdə inkişaf etmiş orta əsrlərdə yazı dilinin ərəbcə, danışıq dilinin isə fars, həm də ərəb dili olduğu bildirilir. Bərdə əhalisinin tərkibi mürəkkəb olmuş, orada yerli əhali ilə bərabər farslar, ərəblər və digərləri yaşamışdır. Ərəb müəllifləri Bərdə əhalisinin «arran dilində danışdığını» bildirirlər. Arran dilinin türk dili olması şübhəsizdir.

Tarixi-arxeoloji tədqiqatlar Bərdədə müxtəlif maddi mədəniyyətlərin, eləcə də dini və ideoloji cəmiyyətlərin mövcud olduğu dövrlədə zəngin tarixi irs yaratdığını göstərir. Xristianlıqla müsəlmanlığın biri digərini əvəz etdiyi dövrdə bu tarixi dövrün xüsusiyyətlərini əks etdirən proseslər həm arxeoloji, həm də tarixi mənbələrdə öz izini saxlayır.

Xilafətin parçalanmağa başladığı bir dövrdə yaranmış müstəqil Sacilər dövlətini türk mənşəli Sacilər sülaləsindən olan hakimlər və onların əmirləri idarə etmişlər. Dövlətin başçısı «afşin» titullu, türk əmirləri nəslindən olan adlı-sanlı sərkərdə Məhəmməd ibn Əbu Sac olmuşdur. Məhəmməd ibn Əbu Sacın dövründə Bərdə şəhəri ölkənin inzibati mərkəzi olaraq inkişaf etmişdir.

1501-ci ildə Şah İsmayılın başçılığı altında Səfəvilər dövləti yaranmış və qısa müddət ərzində Azərbaycan ərazisi bu dövlət ətrafında birləşdirilmişdir. Səfəvilər 13 bəylərbəyliyindən ibarət ayrı-ayrı inzibati qurum yaratmışdı. Bunlardan bir də Qarabağ bəylərbəyliyi idi. Qarabağ bəylərbəyliyinə Şəmkir, Zəyəm, Tovuz, Şəmsəddinqulu, Qazax, Borçalı, Bərdə, Beyləqan, Yevlax, Ağdam və digər yerlər daxil idi.

XVI əsrin sonlarında Səfəvilərə qarşı Osmanlıların hücumları gücləndi və Osmanlı sultanı III Muradın (1574-1594) vaxtında bütün Azərbaycan tutuldu. Əhalisinin əksəriyyəti yerli türk-müsəlmanlardan ibarət olan Qarabağ əhalisi Səfəvi-Osmanlı qarşıdurması nəticəsində bölgəni tərk etdi və bu səbəbdən də Qarabağda türk əhalisinin sayı, müvəqqəti də olsa, nəzərəçarpacaq dərəcədə azaldı. Bu zaman hakimiyyət dəyişikliyini düzgün qiymətləndirən Qarabağın xristian məlikləri boşalmış türk kəndlərini və torpaqlarını rüşvət və hədiyyələrlə ələ keçirdilər. Müasir erməni tarixşünaslığının Qarabağ əhalisinin əsrlər boyu ermənilərdən ibarət olması və hətta onların burada əksəriyyət təşkil etməsi haqqında iddiası, siyasi məqsədlərini həyata keçirmək naminə Eçmiədzin keşişi İsrael Ori tərəfindən ortaya atılmış avantüranın nəticəsində yaranmış uydurma həmin bu “faktlara söykənir.

XVI əsrdən XVIII əsrin əvvəllərinə qədər davam etmiş Səfəvi-Osmanlı müharibəsində minlərlə insan itkisi olmuş, yüzlərlə şəhər və kənd xaraba qalmışdır. Yeri gəlmişkən eyni millət, iki dövlət olan Osmanlılar və Səfəvilərin bir-birinə vurduqları yaraların sağalması üçün uzun illərin keçməsi lazım olmuşdur. Çünki, o zaman bu qarşıdurmanı yaradanlar bu siyasəti uzun müddət davam etdirmişlər.

Xalqımızın tarixinə qara hərflərlə yazılmış səhifələrdən biri xalqımıza qarşı hayların ərazi iddiaları və bunun ağır nəticələridir. Ermənilərin bu mənfurluğu “tarixi faktlar əsasında Azərbaycanın Qarabağ bölgəsininin onlara məxsus olmasını “sübut etmək, işğala bəraət qazandırmaqla bağlıdır.

Azərbaycanın Qarabağ bölgəsinin qədim şəhərlərindən biri olan Bərdənin tarixini obyektiv, elmi mənbələrə əsaslanaraq yazmaqla güman edirik ki, ermənilər uydurduqları yalanlardan usanarlar – beş min illik dövlətçilik tarixinə qədim şəhər mədəniyyətinə malik olan olan türklərin torpaqlarında özlərinə qədim məskən axtarmazlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ORTAQ TÜRK DƏYƏRLƏRİMİZ VƏ MİKAYIL AZAFLI

**_Prof. Dr. Qəzənfər Paşayev_**
**_AMEA Ədəbiyyat İnstitutu_**
**_Azərbaycan_**

Ortaq türk dəyərlərindən danışarkən göz önünə ilk olaraq «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanı və ulu ozan-aşıq sənəti, onun memarları Yunis İmrə, Qurbani və başqaları gəlir. Aşıq sənətinin gücü-qüdrəti, həmişəyaşar olması onunla bağlıdır ki, burada dahi Ü.Hacıbəyovun göstərdiyi kimi, şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da, istədiyi qədər götürə biləcəyi pay vardır.

Bu sənət heç vaxt solmayan, təravətini itirməyən elə bir aləmdir ki, onu yaşadanların ürəyi eşq ilə yanır, məhəbbətlə döyünür. Belə sənətkarlardan biri də böyük coşğunluqla yazıb-yaradan, yaradıb-yaşadan, aşıq sənətini inkişaf etdirən, sağlığında klassikləşən ustad aşıq Mikayıl Azaflıdır. Azaflı Mikayıl (21.03.1924 – 12.10.1990) təkcə aşıq sənətini kamil bilməyi ilə deyil, eləcə də coşğun şairlik təbinə malik olmağı, saz çalmağı, məclis aparmağı ilə də fərqlənirdi. Azaflının poeziyasını izlədikcə akad. Mirzə İbrahimovun bir fikri yada düşür: «Aşıq poeziyasının kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir, ondan qüvvət alır».

Heç şübhəsiz buna görədir ki, «aşıq ədəbiyyatının memarları» Yunis İmrə, Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Molla Cümə, Alı, Ələsgər, Hüseyn Bozalqanlı, Şəmşir və bu kimi nəhənglərin yaradıcılığından bəhrələnərək pərvəriş tapan, püxtələşən Azaflı: Xaqani, Nizami, Nəsimi, Xətayi, Füzuli, Vaqif, Sabir, Vurğun, Cavid, Müşfiq, Şəhriyar kimi söz ustadlarının əsərlərindən də yaradıcı şəkildə bəhrələnmiş, dönə-dönə onların irsinə müraciət etmişdir. Nəticədə, Azaflı sözün bədii qüdrətindən, məna çalarlarından təcnis və qoşmalarında, divani və ustadnamələrində, gəraylı və müxəmməslərində böyük ustalıq və məharətlə istifadə edərək nəinki təkcə saz-söz xiridarlarının, eləcə də geniş oxucu kütləsinin ürəklərini ram edə bilmişdir. Azaflı aşıq poeziyasının bütün şəkillərində əsl sənət nümunəsi yaradan, klassik aşıq ənənələrini layiqincə davam etdirən sənətkarlardandır. Onun yaratdığı «Azaflı dübeyti», «Azaflı gözəlləməsi», «Azaflı divanisi», «Azaflı dünyası», «Azaflı gəraylısı» və başqa saz havaları dillər əzbəri olmuşdur. Onu da qeyd edək ki, Azaflının yaratdığı aşıq havaları nəinki aşıqların, hətta müğənnilərin belə repertuarından düşmür. Bu havaların hər birinin öz ritmi, ahəngi, gözəlliyi, öz aləmi vardır. Azaflının Sovet dönəmində Ümumittifaq Musiqi Cəmiyyətinin simli alətlər bölməsinə üzv seçilməsi təsadüfi deyildir. Bu, ən azı Azaflı Mikayılın musiqi istedadına verilən qiymət və ehtiram idi.

Azaflı Moskvaya dəfələrlə dəvət olunmuşdu. Sənətkar ilk dəfə Moskvada 1954-cü ildə Festivalda iştirak etmiş və medalla təltif olunmuşdu.

Öz sənət aləmi, öz dünyası olan Mikayıl Azaflı lap gənclikdən yaradıcı adamların diqqət mərkəzində olmuşdur.

Azaflı yaradıcılığına böyük maraq, xeyli sayda məqalələr, ona həsr olunan şeirlər çox mətləblərdən söz açır. Türkiyəli tədqiqatçı Dr. Əli Kafkasyalının Mikayıl Azaflıya həsr etdiyi sanballı namizədlik dissertasiyasında və monoqrafiyasında ustad sənətkarı «Müasir Azərbaycan aşıqlarının bayraqdarı» adlandırması, prof. Əzizə Cəfərzadənin isə onu «Çağdaş aşıq sənətinin ən ulu aşıq-şairi» hesab etməsi həqiqətdən uzaq deyildir.

Azaflının sənətkarlığı o qədər güclü olmuşdur ki, bütün ailəsinə də dərin təsir etmişdir. On bir övlad olan bu böyük ailədə saz çalıb-oxumayan yoxdur. Nəvələri Roman və Konservatoriyanın solo-vokal fakültəsinin 4-cü kurs tələbəsi Məhsəti aşıq havalarını məharətlə çalıb-oxuyurlar. Məhsəti hətta aşıq havalarını vokal üstündə sintez edir. Aşığın oğlu Hakim və qızı Gülarə onun yolu ilə gedərək ömürlərini bu ulu sənətə həsr etmişdir. Azaflının qızlarından Dilarə, Minayə və Marala isə atalarından şairlik keçmişdir. Dilarə Azaflının «Duman gəldi dağlarıma» (Bakı, 2005) sanballı kitabı poeziya sevərlərə ən yaxşı hədiyyə olmuşdur.

Adətən, ilahi vergili insanların həyat yolu ağrılı-acılı, əzab-əziyyətli, keşməkeşli olub. Peyğəmbərlər başda olmaqla onların yer üzündə nümayəndələri hesab olunan əsl şairlərin taleyi də belə olub. Azaflı Mikayılın da həyatı əzab-əziyyət içində keçib. Bir yaşında olarkən atasını itirməsi, əmisinin himayəsində böyüməsi, ata-ana nəvazişinə həsrət qalması onu zəmanədən küsdürmüş, böyüdükcə həyatda qarşılaşdığı haqsızlıqlar onu daha da barışmaz etmişdi.

Azaflı Mikayıl lap cavanlıqdan güman ki, istedadlı, ilahi vergili olduğuna görə ötkəm olub. Qorxu bilməyib. Sovet dövründə nəinki məclisdə oxunması, hətta dilə gətirilməsi belə təhlükəli olan:

Əlimizdə zorba çomaq,
Başımızda motal papaq,
Ağ şalvarda qara yamaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kommunizmə gedirik biz

- adlı mahnını hansısa məclisdə oxuduğuna görə Dövlət Təhlükəsizlik komitəsinin qara siyahısına düşmüş, qara buludlar başının üstünü almışdı.

Bu, aşığı həbsxanaya gətirib çıxarmışdı. «Oğurluqda və evində silah saxlamaqda təqsirli bilinib» damğası ilə sənətkar dörd il (1961-1964) azadlıqdan məhrum edilmişdi. Bu aşıq sənətinin çiçəkləndiyi, gəlhagəl dövrü idi. Adamlar övladlarının məclisini Azaflı aparsın deyə aylarla öncə növbəyə yazılardılar. Həqiqətən də o dövrdə Azaflı ehtiyac nədir, bilmirdi. Toylardan başı açılmırdı.Aşığın günahsız olduğu, sovet quruluşunun riyakarlığı hamıya bəlli idi. Bununla belə, başqalarına görk olmaq üçün onu zindana almışdılar. Lakin həbsxana həyatı sənətkara bir universitetdə qazanılacaq qədər təcrübə qazandırmışdı. Onu daha da mətinləşdirmişdi. Onun zindan həyatını təsvir edən «Ağarmayın ay saçlarım, amandı», «Bülbül», «O mənəm», «Deyəmmərəm», «Bənzər», «Sən demə», «Döndü körpələrin qana yaşları» kimi qoşmaları aşıq hələ zindandakən dillər əzbəri olmuşdu. Aşıq azadlıqa çıxdıqdan sonra onun şöhrəti daha da artmış, yaradıcılığı daha da kamilləşmişdi. Onun yaradıcılığı Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Folklor şöbəsinin diqqət mərkəzində idi. Bunu görkəmli folklorşünas alim M.H.Təhmasibin aşığa ünvanladığı 4 noyabr 1966-cı il tarixli məktubu təsdiq edir. Aşığın arxivində olan məktubda oxuyuruq.

Hörmətli Mikayıl Azaflı,

Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutu «Azərbaycan Ədəbiyyatı Ensiklopediyası»nı çapa hazırlayır. Adınızın həmin ensiklopediyaya düşməsini istəyirsinizsə, təcili olaraq tərcümeyi-halınızı və şeirlərinizi bizə göndərin. Çalışın ki, gecikdirməyəsiniz. Əks təqdirdə biz sizin haqqınızda yazmaq imkanından məhrum olacağıq.

Səmimi hörmətlə, dos. M.H.Təhmasib

Şifahi ədəbiyyat şöbəsinin müdiri

Nahaqdan zindana atılan Azaflı azadlığa çıxdıqdan sonra da sovet sistemini qamçılamaqdan çəkinmirdi. Tutumu, dərin mənası ilə qalaq-qalaq kitablara sığmayan taleyüklü dərdlərimizi, xalqımıza üz vermiş bəlaları görün aşıq bircə bənddə necə məharətlə ifadə etmişdir:

Qoca Azaflıyam, dilim var, lalam,
Təbrizdə qardaşım, Sibirdə balam.
Elə dərd varmı ki, çəkməmiş olam
Bax onlar ağartdı başımı mənim.

Məhz bütün bunlara görə də Azaflı poeziyası xalq arasında geniş yayılsa da, XX əsrin 80-ci illərinə qədər mətbuat üzünə həsrət qalmışdı. Bu vaxt artıq Sovet quruluşunun dayaqları laxlamağa başlamışdı. Odur ki, 80-ci illərdə Azərbaycan televiziyasında rəhbər vəzifədə işləyən yazıçı Nahid Hacıyevin köməyi ilə bu sətirlərin müəllifi aşığın yaradıcılığına həsr olunmuş bir saatlıq veriliş apardı. Bundan sonra 1984-cü ildə Şərifzadə adına «Teatr evi»ndə aşığın 60 illik yubileyini təntənəli şəkildə keçirdik.

Sonralar Azaflının «Qoca Qartal» adlı kitabı Azərbaycan (1987), Türkiyə (1988) və İranda (1993, təkrar nəşr 2003) çap olundu və sənətkarın şöhrəti daha da artdı. Azaflı Türkiyə, İran və İraqa dəvət olundu. 1989-cu ilin oktyabrında Türkiyəni zityarət edən Azaflı orada mahnılarını ecazkarcasına ifa edən Səbri Şimşəkoğlu, Aşıq Vəli və İslam Erdan kimi görkəmli sənətkarlarla görüşdü. Azaflı Azərbaycana döndükdən sonra onun şəninə təşkil etdiyimiz ziyafətdə səfər təəssüratlarından danışarkən dedi: «İki arzum vardı, birinə çatdım. Türkiyədəki türk qardaşlarımı gördüm. İkinci arzum isə Azərbaycanı müstəqil və türk dünyasına qovuşan görməkdir».

Təəssüf ki, ustadımızın ikinci arzusu dünyasını dəyişdiyi 1990-cı ilin 12 oktyabrından az sonra yerinə yetdi.

Azaflı İraqda yaşayan 2 milyon yarımlıq soydaşlarımızı da ziyarət etmək arzusunda idi. Qızı Gülarəyə deyirdi: «Sən məndən xoşbəxtsən. Sən İraqa getdin, müqəddəs yerləri və soydaşlarımızı ziyarət etdin». Qüvvətli arzusunun nəticəsidir ki, hər dəfə Ə.Bəndəroğlu Azərbaycana gələndə onunla görüşər, dərdləşər, İraq türkmanlarına qoşmalar həsr edərdi. Bəndəroğlu «Yurd» qəzetində Azaflının, Zəlimxan Yaqubun, doğma qızları Dilarə və Gülarənin, eləcə də Narınc Xatun və Aşıq Ulduzun qoşmalarını və özünün onlara həsr etdiyi qoşmalarını çap edərdi. Maraqlıdır ki, bundan sonra İraqlı soydaşlarımız qoşma janrına daha çox meyl göstərməyə başladılar və tez-tez «Yurd» qəzetində onların qoşmaları işıq üzü görməyə başladı.

Çəkinmədən deyə bilərik ki, Azaflı sənətinin təsiri Türkiyə və İranda aşıqlar arasında böyük olmuş və bu gün də davam edir. Biz bunu təbii sayırıq. Adətən böyük sənətkarların irsi və təsiri yaşadıqları mühit çərçivəsinə sığmır.

Azaflı yaradıcılığının klassik aşıq poeziyası ilə müasir aşıq poeziyası arasında qüvvətli bir keçid, bir körpü təşkil etdiyini qeyd etsək yanılmarıq. Yəqin Azaflını Vətənimizin hüdudlarından kənarda -



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adı çəkilən ölkələrdə yaxşı tanımalarının bir sirri də bundadır. Orada Azaflının mahnılarını həm radioda səsləndirir, həm də aşıqlar oxuyurlar, şeirlərini əzbərləyirlər.

Azaflı Almaniyada yaşayan çoxsaylı türklər arasında da məşhurdur. Aşığın qızı Gülarə Almaniyanı ziyarət edib qayıtdıqdan sonra deyirdi: «Mən atamı yenidən kəşf etdim. Orada türklər atamın mahnılarını və şeirlərini nə qədər çox sevirlərmiş. Hər evdə atamın kaseti vardır».

Azaflını məşhur edən amillərdən biri də onun gəraylı, qoşma, təcnis, divani, müxəmməs və s. kimi şeir şəkillərini ehtiva edən zəngin yaradıcılığına nəzər saldıqca bir daha «kəşf» etdim ki, aşığın dili bir örnəkdir, zəngin xalq dilini yaşadan bir aləmdir.

Alman alimi Leybnisin məşhur kəlamı vardır: «Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim». Göründüyü kimi, ustad aşıqların folklorumuzun, musiqi mədəniyyətimizin yayılmasında, sevilməsində, dilimizin saf, təmiz, duzlu, şirin olmasında xidmətlər əvəzsizdir.

Burada mühüm bir məsələni də qeyd etmək istərdik. Klassik poeziyamızda ilahi vergili əsl şairlərin «Divan» bağlaması şərt olduğu kimi, ustad aşıq məqamına yüksəlmiş sənətkarların aşıq poeziyasının zirvəsi hesab olunan təcnis yazması da şərtdir. Qüdrətli söz ustadı Xəstə Qasım bu işin çətinliyindən söz açır:

Nə alim işidi, nə də üləma,
Təcnis meydanın öz hünəri var.

Ona görə ki, təcnis sənətkardan fitri şairlik istedadı, zəngin söz ehtiyatı, dilin incəliklərini bilmək tələb edir. Təcnis yaratmaq üçün dilin dərin qatlarına baş vurmaq gərəkdir. Buna görədir ki, hər sənətkar təcnis meydanında «hünər» göstərə bilməmişdir.

Azaflı isə Azərbaycan dilinin intəhasız imkanlarından məharətlə istifadə edərək bir-birindən mənalı təcnislər yaratmışdır.

Azaflının təcnislərində, bəzi aşıqların təcnislərindən fərqli olaraq, məzmun formanın qurbanı olmur, zəifləmir:

Dünyada görmədim dara düşəndə
Şöhrətin dostlara haraya gələ.
Aşıq deyər: hər aya,
Bahar gəlməz hər aya.
A gen günün aşnası
Darda yetiş haraya
Olsa yüz min qohum, qardaş, aşna, dost
Bəlkə yüzdə biri haraya gələ.
(Cığalı təcnis)
Azaflının: Aylar, illər, qərinələr içində,
Yazı çiçək, qışı qar alar keçər

-misraları ilə başlayan «Dodaqdəyməz cığalı təcnis»i də dillər əzbəridir.

Azaflı yaradıcılığının ana xəttini prof. Camal Mustafayevin doğru olaraq göstərdiyi kimi, fəlsəfi fikirlər təşkil edir. Onun elə bir şeiri yoxdur ki, orada həyat fəlsəfəsi özünü bariz şəkildə göstərməsin:

A bəxtəvər qocalmadın,
Girdin dondan dona dünya.
Nə bir şaha baş əyirsən,
Nə sultana, xana dünya

- deyən Azaflı qədimdən zəmanəmizə qədər dünyada baş verən hadisələrdən poeziyanın füsunkar dili ilə söz açır, oxucunu haldan-hala salır.

Azaflının şeir bağçasında hər kəs öz zövqünə uyğun misralar, şeirlər tapa bilər. Çünki bu poeziya klassik poeziya üstündə köklənən, xalqın özündən gələn təbii bir poeziyadır:

Canının qədrini bilməyən insan
Həkimdən, cərrahdan, dərmandan küsər.

Və ya:

Olmasın dünyada bağbansız bağça
Dərərlər, tökərlər kal vədəsində.

Azaflı poeziyasında başqa ustadlarda nadir rast gəlinən nümunələr də çoxdur. Sənətkarın «Gözlərim» adlı üçqafiyəli qoşması buna parlaq misaldır:

Sənsən maral, gəl canım al, ay maral,
Bir yada sal, yanımda qal, olum lal!
Ağ üzdə xal, dodaqda bal, gülcamal
Eləmə naz, gedər, qalmaz, gözəlim.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azaflı poeziyasındakı gözlənilməz keçidlər adamı heyrətə gətirir:

Nə bükülər, nə əyilər,
Adına ölməz deyilər.
Gah soyular, gah söyülər
Olmaz qəmdən kənar, şair.

Və ya:

Gözəl olsan, vəfan olsa,
Alim olsan, qafan olsa,
Həkim olsan, şəfan olsa,
Milyonlar arzular səni.

Məhəbbətdən, gözəllikdən yazmayan şair yoxdur. Azaflının məhəbbət şeirləri başqa aləmdir:

Sən necə təbibsən, necə həkimsən,
Səndən şəfa istər, loğman, a ceyran

Və ya:

Qüdrətindən həyat, aləm yaranıb,
Bahar qızlı təbiətdi məhəbbət.
Cazibəsi yeri göyə bağlayıb
Möcüzəli ziyarətdi məhəbbət.

Azaflı müdrik sənətkar olmaqla bərabər, həm də qəlbi xeyirxahlıqla döyünən imanlı bir insan, seçilən şəxsiyyət idi. Adətən sənətkarlar arasında bir-birinə qısqanclıqla yanaşanlara rast gəlmək olur. Mikayıl Azaflı bu cəhətdən də xüsusi fərqlənirdi. O, nəinki hansısa aşığı tənqid etməz, əksinə onda yaxşı xüsusiyyətləri üzə çıxarmağa səy göstərər «Hər sənətkarın özgə bir gözəlliyi vardır» - deyərdi.

Ürək genişliyi, sənətə və sənətkara məhəbbətlə yanaşması ona böyük hörmət və ehtiram qazandırmışdı. Aşıqlığa meyl göstərən gənclər onun yanında şəyird olmaq istəyirdilər. Sənətkarın çoxlu sayda şəyirdinin olması, neçə-neçə tanınmış aşıq yetişdirməsi də elə bununla bağlıdır. Bu, aşıq üçün ən böyük xidmət hesab olunur. Çünki sənəti yaşatmağın ən ümdə yolu budur.

Azaflının xidmətlərindən danışarkən onun rəhbərliyi ilə Tovuz Aşıq məktəbinin adlı-sanlı nümayəndələri tərəfindən «Koroğlu» dastanının dörd qolunun vala köçürülməsini qeyd etməmək olmaz: «Koroğlunun Dərbənd səfəri» (Mikayıl Azaflı), «Durna teli» (Əkbər Cəfərov) «Toqat səfəri» (Mahmud Məmmədov), «Koroğlu və Bolubəy» (Əlixan Niftəliyev).

Aşıqların IV Qurultayında (mart, 1984) sənətkara böyük ehtiram göstərilərək çıxış etmək təklif olunmuşdu. Azaflı məruzə səviyyəli çıxışında çoxillik təcrübəsindən istifadə edərək aşıq sənətinin incəliklərindən, çatışmazlıqlardan, qarşıda duran vəzifələrdən söz açdı. Onun irad və tövsiyyələri minnətdarlıqla nəzərə alındı. Qurultayda Azaflının aşıq sənətinin inkişafında göstərdiyi fədakarlıq və xidmətləri xüsusi qeyd edildi. O, Aşıqlar Birliyinin sədr müavini seçildi. 1989-cu il Novruz bayramı şənliklərində xalqımızın müdrik qəhrəmanı Dədə Qorqud obrazı ona həvalə olundu.

1989-cu il may ayının 12-də Azaflı Mikayıl Ədəbiyyat və İncəsənətin inkişafında böyük xitdmətlərinə görə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin Fərmanı ilə «Əməkdar mədəniyyət incisi» fəxri ada layiq görüldü.

Azaflı bu sevinc payını dost-tanış, qohum-əqraba və saz-söz xiridarları ilə çox bölüşə bilmədi. Azərbaycan xalqının taleyüklü Qarabağ nisgili, 20 yanvar 1990-cı il faciəsi Fərman Kərimzadə, Xudu Məmmədov, Eldar Baxış, Şahmar Əkbərzadə, İsi Məlikzadə və başqaları kimi onu da sarsıtdı. Ürəyi tab gətirmədi. İnfarkt keçirib dünyasını dəyişdi (12.X.1990).

Ölümündən sonra Tovuz şəhərində bir küçəyə aşığın adı verildi və Azaflı kəndində oxuduğu məkğtəbin önündə büstü qoyuldu.

Zaman bizi cismani cəhətdən ayırsa da, Azaflı Mikayıl ortaq türk dəyərlərinin qorunmasına xidmət edən aşıq havaları və xalq ruhu ilə qaynayıb-qarışan poetik inciləri ilə həmişə bizimlədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## «KOROĞLU»: EPİK ƏNƏNƏ VƏ QƏHRƏMAN TİPOLOGİYASI

***Fil.e.n., dos. Qüdrət Umudov***
***ADPU***
***Azərbaycan***

Kökləri bir olan türk xalqlarının epik düşüncəsində bir eyniyyət, yaxınlıq nəzərə çarpır. Bu hal müxtəlif istiqamətlərdə müşahidə oluna bilər. Ən maraqlısı isə qəhrəmanların tipologiyasında nəzərə çarpan fakt və hadisə zənginliyidir. Ona görə də yazımızda belə bir halın mövcudluğunu konkretlik əsasında, «Koroğlu» dastanının üzərində aydınlaşdırmağa üstünlük verdik. Məsələni həmin nümunələr əsasında yox, ancaq Azərbaycan variantı üzərində ümumiləşdirməkdə qərarlıyıq.

Əvvəla, onu qeyd edək ki, Şərq xalqları arasında bu dastan qədər yayılacaq ikinci nümunə tapmaq çətindir. Bütün bunların əsasında Azərbaycan «Koroğlu»su durur və digər xalqlara oradan paylanır. Bunun özü türk xalqlarında ənənənin davamlığını göstərir. Eyni zamanda tarixi düşüncənin genetik kodlarının saxlandığını aşkarlayır. «Belə dastanlar bəzən adlarına, bəzən məzmun, motiv və süjetlərinə görə ümumi şəkildə nə qədər yaxınlaşsa da, əsas və ümdə xüsusiyyətlərinə görə bir-birindən çox fərqli orijinal əsərlərdir» (2, 26). Bu nümunələr arasında fərqlilik və oxşarlığı müxtəlif istiqamətlərdə qruplaşdırmaq olar. Görkəmli folklorşünas Azad Nəbiyev doğru olaraq yazır ki, «Koroğlu» ümumazərbaycan süjeti idi, burada yaranmışdı, buradan da bütün Qafqaza, Mərkəzi Asiyaya, Türkistana, eləcə də yaxın və uzaq ellərə yayılmışdı» (10, 463).

Ən başlıcası odur ki, həmin nümunələr hər birisi müstəqil düşüncənin məhsuludur. Orada bir xalqın özünəməxsusluğu, tarixi yaddaşı, onun arzu və istəyi ümumiləşdirilib. Daha doğrusu, türkmən də, özbək də, hamısı özünün istəyincə olanı, özünə müqabil olanı yaradıb. Olsa-olsa onlar mövzuda və baş qəhrəmanın adında birləşirlər. Bu böyük faktdır. Belə birləşmənin mövcudluğu təkcə «Koroğlu»da yekunlaşmır. Digər nümunələrdə təkrarlanır. Məsələn, «Əsli-Kərəm», «Aşıq Qərib», «Tahir və Zöhrə», «Yusif və Züleyxa»nın türk xalqlarında kifayət qədər təsir və yaxınlıqda görünən nümunələri var. Fakt üçün kırımtatarlarda bunun əksi daha çox diqqəti cəlb edir.

Məlum olduğu kimi, hələ XIX əsrdən toplanmağa başlayan kırımtatar dastanları V.V.Radlovun böyük xidməti əsasında yazıya gətirilmək haqqı qazandı.

Kırımtatarların dastan nümunələrinə baxdıqda onların eyniyyət və yaxınlığı xüsusilə üzdə görünən hal təsiri bağışlayır. Burada fərq olsa-olsa həcmində özünü göstərir. Həmin nümunələrdə hadisələrin kifayət qədər konkretliyi var. Azərbaycan dastanlarındakı elmi təsvirlərin baş alıb getməsi görünmür. Sanki ona şərait də yaradılmır. Ancaq kırımtatarlarda da «Aşıq Qərib», «Kərəm və Əslixan», «Arzu və Qəmbər», «Tahir və Zöhrə» var. Burada əsas mahiyyət saxlanmaqla hamısı kırımtatarların düşüncəsinə hesablanır. «Koroğlu» dastanında da eynidir. Belə ki, Azərbaycan «Koroğlu»su artıq iyirmi dörd qola çatdığı və bir neçə yüz kitab səhifəsi həcmində olduğu halda kırımtatarlarda təxminən iyirmi səhifə ilə məhdudlaşır. Dastanın başlanğıcında belə bir təsvir var. «Deyilənə görə lap qədim zamanlarda məmləkəti xanlar idarə etmişlər. Onlar əsir tutduqları, özlərinə tabe olanların hamısını çapıb talayırlarmış, çoxlu var-dövlət əldə edib, yaraşıqlı saraylarda yaşayırlarmış. Onlar var-dövlət əldə etmək üçün bir-biriləri ilə vuruşarlarmış, hərdənbir isə şadyanalıq edib, kef məclisləri düzəldərlərmiş. Seçmə çapar atları cıdıra çıxardıb, at yarışları keçirərlərmiş. Qalib gələn atlar sahiblərinə çoxlu var-dövlət gətirərmiş (4, 74). Heç şübhəsiz burada fərqlilik və oxşarlıq var, özü də üzdə görünəndi. Ancaq məsələ bunun eyniyyətindən çox, tarixi ənənədə eyni xətdə dayanan bir türk qövmünün düşüncəsində gedən prosesləri aşkarlayır. Bu başlanğıc təsvirdir.

Onu da qeyd edək ki, Azərbaycan «Koroğlu»su kifayət qədər təfsilatlı dastandır. Burada hadisələrin geniş təcəssümü əvvəlcədən axıra qədər izlənir. «Xalqımızın qəhrəmanlıq dastanı «Koroğlu»nun motivləri Yaxın Şərq, Zaqafqaziya və Orta və Kiçik Asiya xalqlarının da diqqətini cəlb etmişdir. Bu xalqlar da «Koroğlu»dan ilham alaraq öz milli qəhrəmanlarını, milli eposlarını yaratmışlar. Hər bir xalq «Koroğlu» süjetini öz yaradıcılıq ənənəsinə uyğun işləmiş, özlərinə məxsus yeni variantlar yaratmışlar» (3, 353).

Göründüyü kimi, mövcud nümunələrin başlanğıcında təkrar vurğulayaq ki, Azərbaycan «Koroğlu»su dayanır.

Dastan ənənəsində qəhrəmanların tipologiyası xüsusilə dayanıqlı görünür. Ənənəvi olaraq burada baş qəhrəman, əsas qüvvə və yardımçı obrazlar üzrə sıralanır. Burada əks cəbhədə isə düşmən qüvvələr dayanır. Bütün hadisələr məhz bu sxem üzrə davam etdirilir. Bütün variantlarda qəhrəmanların tipologiyasında oxşarlıq nəzərə çarpır və bu da dastan qəhrəmanının ümumi fəaliyyətinə hesablanaraq özünəqədərki ənənəyə dayanıqlı görünür.

Onu da qeyd edək ki, ümumi ruhu ilə bu nümunələr birləşsə də fərqli başlanğıclarda görünürlər. Azərbaycan «Koroğlu»sunda hadisəyə birbaşa keçid var. Bu qəhrəmanlıq dastanlarında mövcud olan ənənənin qorunuşudur. Dastanın ilk cümləsi bununla başlayır: «Alı kişi neçə illər idi ki, Həsən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xana ilxı otarırdı. Ömrünü-gününü onun qapısında çürüdüb, saçını-saqqalını ilxıçılıqda ağartmışdı» (1, 23). Qəhrəman tipologiyasında Alı kişi bütün variantlarda eyni görünür. Eyni zamanda davamlı təsir bağışlayır. Bir növ müdrik qoca rolunda çıxış edir. «Dədə Qorqud» dastanında Dədəm Qorqud hansı funksiyanı yerinə yetirirsə «Koroğlu»da Alı kişi eyni funksiyada görünür. Fərq isə onların dastanda ardıcıllıqla görünüşündədir.

Belə ki, «Kitabi-Dədə Qorqud»da Dədə Qorqud dastanının başlanğıcından sonuna qədər bir qəhrəman kimi görünürsə və hadisələrə müdaxilə edib xeyir-dua verirsə «Koroğlu»da bu başqa tiplidir. Dastanda Dədə Qorqud Oğuz elinin bir müdriki, qeybdən dürlü xəbərlər verən kimi nəzərə çarpır. Bütün müşkülləri həll edir. Dastanın başlanğıcında bu xüsusi olaraq vurğulanır: «Rəsul əleyhissəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə olardı, qayibdən dürlü xəbər söylərdi. Həqtəala onun könlünə ilham edərdi» (5, 14). «Koroğlu»da müdrikliyin (qəhrəman tipologiyasında) bir qədər fərqli çalarını Alı kişi obrazında görürük. Ancaq Alı kişi dastanda birinci qolda iştirak edir. Bir növ burada böyük işlərə bir ağsaqqal kimi uğur deyir. Sonradan onun hansısa məqamda görünüşünə də ehtiyac qalmır. Hadisələrin təfsilatı baxımından da böyük fərqlilik var. Dastanda bütün olacaqlar hamısı öz başlanğıcını ilxıçı Alı kişinin gözünün çıxarılmasından götürür. Bu eyni zamanda el müdrikinə, xalqa olan zülm anlamında başa düşülür. Dünyanın elə dolaşıq zamanına təsadüf edir ki, adi bir at üstündə, özü də bir paşaya veriləcək ata görə ömrünün ağsaqqallıq çağını yaşayan adama sitəm edilirdi. Hansı ki, onun gözləri iki daya qiymətləndirilməklə çıxarılırdı. Bu orta çağların amansızlıqlarının görünüşü idi və dastanda özünə ardıcıllıqla yer tapırdı. «Paşa qəzəbləndi. Alı kişinin axır sözü onu dəli etmişdi. Odur ki, dedi:

- Həsən xan, mən görürəm ki, sənin ilxıçın bu daylara çox böyük qiymət verir. Yəqin ki, elə o haqlıdır. Onda sən belə elə. Bu dayların hər birini onun bir gözünə qiymət elə» (1, 24).

Əslində Alı kişi düz etmişdi. O lazım olanı, ən layiqlini gətirmişdi. Lakin xan və paşa bunu dərk etmirdi. Və bu dərk etməmənin cəzasını isə Alı kişi çəkirdi. Həsən xanla, Həsən paşanın aqibəti isə sonraya qalırdı. Bu dastançılıqda ənənəvi olanın təsviridir. Neçələri bu yolu getmişdi. Alı kişi də gedirdi. Xalq həmin fəraqların yekun aktını Ali kişidə yekunlaşdırırdı. Ona görə də mübarizənin bütün istiqamətlərini (konturlarını) da o cızırdı. Belə də olmalıydı.

Artıq bundan sonra məsələnin, bütövlükdə hadisələrin ikinci mərhələsi başlayır. Gözü çıxarılan Alı kişinin oğlunun düşmənlə savaşa hazırlığının getdiyini görürük. Bunun üçün Rövşənin ilk başlanğıcda elə də imkanları yoxdu. Son dərəcədə səbirli, müdrik Alı kişi oğlunu bu yola çıxarıncaya qədər əsas obraza çevrilir. Ona gələcək üçün lazım olanları bir növ təqdim edir. Bir növ bu müdrik qoca qəhrəmanı böyük mübarizəyə hazırlayır. İtmiş haqq-nizamın yerinə qoyulmasına istiqamətləndirir. Bunun üçün isə qəhrəmana yenilməzlik üçün və bütün olacaqları başa çatdırmaq məqsədilə lazım olanları vermək gərəyi var.

Daha doğrusu, Rövşən olanın Koroğlu adına gətirilməsi məqsədə çevrilir. İkinci bir tərəfdə Həsən xanın və Hasan paşanın bəyənmədiyi o iki day var. Alı kişi son dərəcə əsəbi görünən oğlunu sakitləşdirir və qisasın vaxtını deyəcəyəm deməklə bütün sonrakı olacaqlardan halı edir. Bu qolda artıq mübarizənin gedişinin yönləri, qəhrəman tipologiyasında dastançılıq üçün ənənəvi olan müdrik qoca, baş qəhrəman, düşmən tərəf məlumdur. Baş qəhrəmanın ətrafında toplaşacaq silahdaşların da konturları sezilir. «Kəndin cavanları da qalxdılar. Alı kişi işi belə görəndə oğlunu çağırıb yanında əyləşdirdi. Əlini onun çiyninə qoyub dedi:

- Hələ qisasın vaxtı deyil, bala! Vaxtında mən özüm deyəcəyəm. İndi diqqətlə qulaq as! Mənim gözlərim bu dayların üstündə çıxarılıb, bu dayların üstündə də gərək mənim qisasım alına» (1, 25).

Hadisələrin gedişi ona qədər Alı kişinin bu dediklərini təsdiqləyir. Həmin dayların onun intiqamını, xalqın düşdüyü bəlaların qarşısını almaq üçün gedən mübarizənin əsas faktoruna çevrilir. Yüzə-yüz «at igidin qardaşıdır» tezisini aşkarlayır. Bu dastandakı sonrakı qollarda da eynilə xatırlanır. Ən tipik təsvirinə isə Həmzənin Qıratı aparmasında rast gəlirik.

*Qırat mənim iki gözüm,*
*Belə dərdə necə dözüm?*
*Həmzə sənə budu sözüm,*
*Oğul, incitmə Qıratı.*

Hansı Qırat ki, paşalar, xanlar Koroğlu igidliyinin yarısını onda görürdülər. Ona görə də Koroğlu Qıratın qiymətini əldən gedəndən yanıqlı-yanıqlı deyirdi:

*Əylən deyim qıratın qiymətini,*
*Səksən min sərkərdə, mala da vermə.*
*Səksən min ağ tüklü qəmər öyəcə*
*Səksən min xəzinə pula da vermə.*

*Səksən min ilxıya, səksən min ata,*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Səksən min mahaldan gələn barata,*
*Səksən min kotana, səksən min cütə,*
*Səksən min kotanlı kala da vermə.*

Bu səksən minlər çoxdu. Ancaq onlar da Qıratın qiyməti deyil. Alı kişi xalq timsalında Koroğlunu döyüşə hazırlayırdı. Onun mübarizəsinin yolu isə buradan keçirdi. Ona görə də oğlunu təmkin göstərməyə çağırırdı. Alı kişi dastanda epizodik obraz kimi görünür. Ancaq onun bütünlükdə fəaliyyəti başqa faktı ortaya qoyur. Bu ilk boyda hadisələrin başlanğıcı üçün səbəb olan Alı kişi əvvəldən sabaha olan gedişi nizamlayır. Xalqın mübarizəsinə istiqamət verir. Və bütün bir obraz səciyyəsi daşıyır. Bir növ öz funksiyasını yerinə yetirmiş kimi təsir bağışlayır. Qoşabulaqdan su içən, qeyri-adiliklərə bu bulaq vasitəsilə yiyələnən Alı kişinin oğlu, atası üçün oradan su gətirməli idi. Onun gözünün açılmasının dərmanı da o su idi. Ancaq övlad onu gətirməyə müvəffəq olmur. Burada Rövşənin pərişanlığı bir insan kimi başa düşüləndi. Əslində isə dastan ənənəsində bunlar kiçik epizodlardır. Əsas məsələ qəhrəmanın əyilməzliyə, qeyri-adiliyə yüklənməsi idi. Buna isə atla və Qoşabulaqda çimib, suyundan içməklə sahib olmuşdu. Alı kişi isə öz funksiyasını yerinə yetirmişdi. Ona görə də əsərdə onun duruşuna və axıra qədər təsvirinə elə də lüzum yox idi. Rövşən Koroğlu olmağa sahib idi. Onun qəhrəmanlığını tamamlayan vasitələr sırasında Misri qılınc və Çənlibel də var. Bunlar da başlıca olanlardır. Ona görə də Nigar xanımı Çənlibelə gətirən Koroğlu bu yerin təsvirini maraqlı olacaq tərzdə verirdi.

*Üst yanı dağ, təpə, dərə,*
*Müxənnətlər düşər girə,*
*Mərd igidə olan bərə,*
*Nigar Çənlibel budu, bu!..*

Hələ əvvəldən buranın təsvirini Alı kişi vermişdi. «Oğul, mənim axtardığım yer elə buradır. Mən buranı çox yaxşı tanıyıram. Cavan vaxtlarda burada çox at oynatmışam, çox ceyranlara ox atmışam, çox cüyürlər ovlamışam. Bura mənim köhnə oylağımdır. Buraya Çənlibel deyərlər» (1, 32).

Alı kişinin bir vaxt dediklərini indi Koroğlu Nigar xanıma deyirdi. Hansı Nigar ki, dəlilərin, bütünlükdə Çənlibeldə olanların anasına çevrildi. Bu müdrik qocanın baş qəhrəmana sonuncu bir tapşırığı da oldu. «Bala, ay keçər, il dolanar, sənin adın məğribdən məşriğədək bütün dünyada məşhur olar. O köpükdən sənin qollarına qüvvət, özünə də şairlik verildi. Bir də sənin səsinə, nərənə elə qüvvət gələcək ki, İsrafilin suru onun yanında milçək vızıltısı olacaq. Bəylər, xanlar, padşahlar sənin adın gələndə qorxudan diz çökəcəklər. Nə qədər ki, Misri qılınc sənin belində, sən də Qıratın belindəsən, özün də bu Çənlibeldəsən sənə heç kəs dov gələ bilməcəyək. Ancaq bu həndəvərdə, məşhur bir qaçaq var, adına Dəli Həsən derlər. Özünü bircə ondan gözlə. Get, sənin adın Koroğlu qoydum» (1, 33).

Maraqlı nəsihət və tapşırıqlardı. Bu eyni zamanda baş qəhrəmanın sonrakı taleyindən halı olmasıdı. Bu deyimdə Alı kişi Dədə Qorqudla birləşir. Bir növ müdrikliyin simvolu kimi vərəsəlik daşıyır. Düzdür, «Koroğlu»da hadisələrin yönümü onun əvvəlcədən axıra qədər açılmasına şərait yaratmır. Heç buna lüzum da görülmür. Çünki həmin müdriklik digər keyfiyyətlərlə birgə Koroğluya ötürülür. Ancaq «Kitabi Dədə Qorqud»da gördüyümüz igidə adqoyma ilə «Koroğlu»dakı adqoyma elə də fərqlənmir. Hər ikisində eyni funksiyanı müdrik qoca yerinə yetirir. Birində Dədə Qorqud, digərində Alı kişi. İkincidə bu keyfiyyətlər təkrar qeyd edək ki, davamlı görünmür. Məsələn, «Kitabi-Dədə Qorqud»da Dədəm Qorqud oğuz elinin igidləri Buğac da, Beyrək də, digər başqaları da igidlik göstərdikdən sonra ad alır. Və bu ad göstərilən igidliyin müqabilində olur. Onu isə oğuz elinin ağsaqqalı, qaibdən dürlü xəbərlər verən Dədəm Qorqud verir. Və bu davamlı görünür. «Koroğlu»da isə Alı kişi «get sənin adını Koroğlu qoydum» deməklə, baş qəhrəmana qəhrəmanlığın adını verir. Bu igidliyi müqabilində Dədəm Qorquddan fərqli olaraq əvvəlcədən edilir. Alı kişi bir növ oğlunun bu adla tanınmasının başlanğıcını qoyur. Qəhrəmanlığa açılan qapı təsiri bağışlayır. Ona qədər oğluna Rövşən adını vermişdi. Burada adlandırmada ikipilləli məqam görünür. Necə ki, məhəbbət dastanlarında Mahmud Kərəmə, Rəsul Qəribə çevrilir. Burada böyük zaman və hadisələrin gələcək gedişinin xəbərdarlığı var. Artıq baş qəhrəman adi yaşayışdan çıxır. Özünün həyatının ikinci mərhələsinə daxil olur. Hamı kimi eyni yaşayan Mahmud, Rəsul artıq Kərəmə, Qəribə çevrilib. Bu ənənədə Koroğlu da var. Ancaq onların fəaliyyət fərqliliyi olsa da dastançılıqda ənənə baxımından eyniyyətli görünür və onun davamlılığını təsdiqləyir.

Başqa məsələlərə keçməzdən öncə «Koroğlu» dastanından Alı kişinin xüsusi vurğuladığı bir məqama da diqqət yetirməyi vacib bilirik. Bu da atanın (müdrik qoca) oğluna bu həndəvərdə bir qaçaq var, adına Dəli Həsən derlər, ondan ehtiyatlı ol tapşırığıdır. Dastanda bu çox maraqlı məsələdir. Düşünürsən ki, baş qəhrəman bütün məqamlarda atanın, müdrik qocanın tapşırığına yüzə-yüz əməl etdiyi halda, buna da əməl edəcək. Daha heç bir problem qalmayacaq, ölçü-mizan qorunub saxlanacaq. Ancaq əksinə olur. Elə Koroğlunun başlanğıc sınağı buradan başlayır. İlk əvvəl onunla haqq-hesab çürüdür. Bu bəlkə də atanın dolayısı ilə oğlunun qəhrəmanlığının başlanğıcını qoymağa istiqamətləndirməsi idi. Ancaq onu da deyək ki, dastan gedişlərində bu cür məqamlar bir çoxluqla



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nəzərə çarpır. Dastanın ikinci qolu da «Koroğlu ilə Dəli Həsən» adlanır. Və həm də maraqlı məsələdir ki, Çənlibelə ilk olaraq gələn və gətirilən də Dəli Həsən olur. Bu qarşılaşma Koroğlu igidliyinin və sədaqətinin ifadəsidir. «Üzünü Koroğluya tutub dedi:

- Görünür ki, sən məni tanımırsan? Əgər tanısaydın belə danışmazdın. Mənə Dəli Həsən deyərlər. Bu yollardan kim keçsə mənə bac-xərac verməlidir.

Koroğlu onu tanıdı. Bildi ki, atasının dediyi Dəli Həsəndir» (1, 34).

Qəhrəmanların tipologiyasında baş qəhrəmandan sonra Çənlibeldə bir düzənləmə var. Bu əsas qəhrəmanların sıralanmasıdır. Dəli Həsən orada birincilərdəndir, bəlkə də birincidir. Koroğlu da ilk olaraq onunla savaşa başlayır və ilk olaraq da o, Çənlibelə gəlməyə, Koroğluya dəlilik etməyə qərar verir. Koroğlunun düşmənlər üzərinə gedişində başlanğıc buradan qoyulur. Bu qəhrəmanlığın sınağıdır. Ona görə də burada geri çəkilmə olmur, ancaq məğlub-qalib görünür. Məhz bu səbəbdən də baş qəhrəman özünəməxsus tərzdə deyir: «Dayan, deyim kiməm.

Bunu deyib Koroğlu atının başını çəkdi. At elə qalxdı ki, dırnağının altından qopan daş bir neçə adam boyu Dəli Həsənin başının üstündən keçib o yana düşdü» (1, 35).

Bu artıq Koroğlunun qəhrəmanlığının ilk nişanəsi idi. Sonrasını isə özü sazla deyirdi:

*Adımı soruşsan bil Rövşən olu,*
*Atadan, babadan cinsim Koroğlu*
*Mənəm bu yerlərdə bir dəli, dolu*
*Gündoğandan ta günbatan mənimdi.*

Burada digər maraqlı cəhət qəhrəmanın birinin digərindən məlumatsızlığı faktı var. Dəli Həsənlə bağlı Koroğluya atası Alı kişi məlumat vermişdi. Ancaq ikinci tamamilə məlumatsızdı. Qəhrəman tipologiyasında baş qəhrəman tərəfindən digərlərinin sınağa çəkilməsi var və bundan sonra onlar Çənlibelə daşınır. Bu Dəmirçioğlunda da, Bəlli Əhməddə də, Xan Eyvazda da, bütünlüklə hamısında da belədir. Bu savaşda Koroğlunun köməyinə haqdan verilən dəli nərəsi çatır və məğlub olan Dəli Həsən deyir: «Mən əhd eləmişdim ki, hər kim məni basa, onunla dost, qardaş olam. Ölənə qədər onun yanında qalam. İndi sən məni basdın, ancaq öldürsən əhdimə çata bilmərəm.

Dəli Həsənin bu sözü Koroğlunu sevindirdi. Ayağa qalxıb Dəli Həsənin qolundan yapışıb qaldırdı, əlini üç dəfə onun dalına vurdu. Dəli Həsən onun qılıncının altından keçdi, ölənəcən ona qardaş qulluğunda durmağa and içdi» (1, 38).

Burada iki məqam var, birincisi, qalibə sədaqət andıdır. Bu məğlub olanın, özü də qəhrəmanlığa layiq olanının atdığı ilkin addımdı. İkincisi, qalibin etirafıdır. Məğlub sədaqət andı kimi qalibin qılıncının altından keçir. Qalib isə məğlubun qolundan qaldırır və üç dəfə əlini kürəyinə vurur. Qəhrəman tipologiyasında «Koroğlu» ilə «Kitabi-Dədə Qorqud» dastanları arasında fərqlilik var. Belə ki, «Kitabi-Dədə Qorqud»da hər şey hazırdı. Burada Koroğlu timsallı baş qəhrəman Dədəm Qorqudun və Bayındır xanın ürüsxətində görünən Qazan xandı. Oğuz qəhrəmanları onun ətrafına cəm olublar. Bu birliyə qədərki mərhələnin mənzərəsi görünmür. Dirsə xan da, Qəflət Qoca oğlu Şir Şəmsəddin də də, Qaragünə oğlu Qara Budaq da, Qıyan Səlcuq oğlu Dəli Dondar da, qalın Oğuz imrəncisi, Qazan bəyin inağı boz ayğırlı Beyrək də hamısı baş qəhrəmanın ətrafına cəm olmuş şəkildə görünürlər. Hamısı «çal qılıncın, ağam Qazan yetdim» deyirlər. «Koroğlu»da isə bu mənzərənin tamamilə başqa təfsilatı var. Daha doğrusu dastan ənənəsində fərqliliklə nəzərə çarpacaq gediş var. Belə ki, «Koroğlu»da məsələnin dəlilərin Çənlibelə daşınması istiqamətində təsvirlərə xüsusi üstünlük verilir. Ona görə də aydınlaşır ki, Koroğlu soraqlaşır, salıqlaşır, harada bir igid olduğunu olduğunu öyrənirdisə, əlləşib-vuruşub Çənlibelə gətirir, dəlilərinə qatırdı. «Dəmirçioğlunun Çənlibelə gəlməyi» qolunda da bu fakt ənənəvilikdə görünür. Eyni zamanda baş qəhrəmanın dastanda müxtəlif istiqamətli səfərlərini görürük. Elə bütövlükdə «Koroğlu» dastanı səfərlər üzərində qurulub. Dəmirçioğlu da səfərlərin birinin mövzusuna çevrilib. Burada işin əvvəli zarafat xarakteri daşıyır. Nalları dəmirçidən baxmaq bəhanəsiylə alıb əzişdirən Koroğlu maraqlı bir mənzərə ilə qarşılaşır.

Məlum olduğu kimi, Qıratın ayağını Koroğludan başqa bir kimsə qaldıra bilməzdi. Bu dəfə iş elə gətirir ki, Koroğlu da atın dal ayaqlarını qaldıra bilmir. Nalbəndin oğlu «səssiz-səmirsiz onlara yaxınlaşdı. Koroğlunu bir tərəfə itələyib atın dal ayaqlarının ikisini də götürdü… Ata, gəl nalla» - (1, 62) – dedi. Dastan ənənəsində bunlar hamısı təbii görünür. Eyni zamanda nalbəndin nallarını əzən Koroğlu hərəkəti müqabilində başqa bir cavab hərəkətilə qarşılaşır. «Koroğlu əlini cibinə salıb pul çıxartdı. Dəmirçioğlu pulları alıb, Koroğlu nallara baxan kimi, o yana çevirdi, bu yana çevirdi, əlində mum kimi əzib Koroğlunun özünə qaytardı ki, -

- Verirsən, əməlli-başlı pul ver, bu əzik-üzükləri niyə bizə verirsən?

Koroğlu alıb pula baxdı, doğrudan da əzilib əziyə dönüb. Cibindən bir qədər də pul çıxarıb verdi. Dəmirçioğlu bu dəfə pulları iki baş barmağının arasında elə sütrdü ki, sikkələri pozuldu. Sonra Koroğlunun üstünə tulladı ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Mənə qəlp pul lazım deyil. Al saxla özünə gərək olar» (1, 63).

Bu dastanda təbii axarlı hadisə kimi görünür və Koroğlu hərəkətinin alternativi təsiri bağışlayır. Burada eyni zamanda «Koroğlu» dastanın ənənəviliyi var. Məqsəd igid olanın sınaqdan keçirilib Çənlibelə gətirilməsidir. Burada baş qəhrəman özündən betərinə rast gəlir. Elə Koroğlunun qəhrəman axtarışında da belələri dayanır. Fərq baş qəhrəmanın digərlərindən fərqli olaraq qeyri-adiliyə yüklənməsidir. Məsələn, Koroğluda bu keyfiyyətlərin təminatına birinci qolda rast gəlirik və həmin qol bütövlükdə buna xidmət edir. Bu təminatdan sonra Koroğlunun səfərləri başlayır. Eyni zamanda igidliyin sınağında, ən ağır məqamlarda bu qeyri-adilik onun köməyinə gəlir, müşküldən qurtarır. Dəli Həsəndə, Dəmirçioğlunda və başqa dəlilərin sınağında eyniliklə davam etdirilir. «Dəmirçioğlunun Çənlibelə gətirilməsi» qolunda məsələlər bununla yekunlaşır. Çənlibelə gətirilən dəlini (qəhrəmanı) qabaqda daha ciddi sınaqlar gözəlyir. Bu Dəmirçioğlu olanın gücündən və silahının dastan boyu rastlaşacağımız təsəvvürdə görünüşüdür. Ancaq sonrakı təsvirlərdə biz Dəmirçioğlunun Koroğlunun arxasınca gücünü yoxlamaq üçün getdiyinin və Dəli Həsəndəki kimi sınaqdan sonra eyni ənənənin şahidi oluruq.

Dəmirçioğlu da «Əhsən sənə… Bu gündən mən sənə kiçik qardaşam» deyir. Dastanda bu ənənə sona qədər davamlı görünür. Kırımtatarların «Koroğlu»sunda isə qəhrəmanların Çənlibelə gəlişinin elə də təfsilatı verilmir. Burada igid olanların Çənlibelə daşınmasına da əhəmiyyət verilmir, hər şey hazır görünür. Dəlilər Qoç Koroğlunun başında düşmən üstünə savaşa gedirlər. Azərbaycan «Koroğlu»sunda isə Çənlibelin təşkilinə daha çox diqqət yetirilir. İgidlərin bu yerə gəlişi hadisə səviyyəsində görünür. Qəhrəman tipologiyasında dəlilər bəzi fərqliliklər nəzərə alınmazsa eyni xətdə görünür.

Dastanda digər istiqamət Aşıq Cünunun Çənlibelə gətirilməsidir. Hansı Cünun ki, «çox dövranlar sürmüş, çox məclislər görmüş bir üstad idi. Çox özündən dəm vuran aşıqların sazını əlindən alıb yola salmışdı, çox cavanları da öyrədib, əlinə saz verib aşıq eləmişdi». Məhz Koroğlunun Çənlibeldə belə bir aşıq olana ehtiyacı vardı. Aşıq elin anasıdır, deyirlər. Ona görə də bu boşluğun doldurulması Çənlibelin nizamında başlıca olanlardan biri kimi görünürdü. Onu da qeyd edək ki, hələ Qoşabulaq hadisəsində Koroğluya ilahi səs, aşıqlıq vergisi verilmişdi. Baş qəhrəman buna ali məqam kimi yüklənmişdi. Bu hal onun fəaliyyətində ardıcıllıqla müşahidə olunur. Koroğlu qəhrəmanlığını tamamlayan vasitəyə çevrilir. Bu «Həmzənin Qıratı qaçırması» qolunda bir aydınlıqla görünür. Düratı alıb Qıratı verən Qoç Koroğlu igidlərin qınağından sonra «aşıqlığın bəsdi mənə, şad ol könül nə məlulsan» deyir. Dastanda biz Koroğlunu sözün həqiqi mənasında əvvəldən axıra qədər digər xüsusiyyətləri ilə birgə aşıq kimi görürük. Ancaq bu aşıqlıq ona ən ağır məqamlarda, hələ qılıncın, Qıratın bir şey edə bilmədiyi çağlarda lazım olur. Çənlibel nizamında aşıq boşluğunu isə Cəfər paşanın Cünunu tamamlayır. «Koroğlunun Ərzurum səfəri» qolunda ouxuyuruq: «Cəfər paşanın imarətinin qabağında bir pəhləvan meydanı, bir də aşıq meydanı vardı. Pəhləvan meydanı Qara Pəhləvanın, aşıq meydanı aşıq Cünunun idi. Cəfər paşa bayram günlərində meydanları bəzədərdi. Uzaqdan, yaxından gələn pəhləvanlar, aşıqlar burada öz güclərini sınardılar. Cəfər paşa belə bir qanun qoymuşdu: meydanlarda basılan yüz tümən verər, basan yüz tümən alardı. Amma sən gəl ki, bu neçə il rüzgar hələ bu meydanlarda nə Qara pəhləvan basılmışdı, nə də aşıq Cünun. Pəhləvan meydanında Qara pəhləvan nə qədər qol-qabırğa sındırmışdısa, aşıq meydanında da aşıq Cünun bir o qədər aşığın sazını əlindən alıb dilini, ağzını bağlamışdı» (1, 68).

Göründüyü kimi, dastanda qəhrəmanlıqla aşıqlığın eyni xətdə davamlığı var. Bu xalqın həyatının, varlığının atributu kimi nəzərə çarpır. Bir növ onun varlığının qoruyucusuna çevrilir. Ağızın bu təsvirlər və belə faktlar tarixən qədimlərdən türkün qəhrəmanlığı ilə qoşa durduğunu aşkarlayır. Bir növ müdriklik, el ağsaqqalı olma funksiyasında çıxış edir. Uluq türk də, Dədə Qorqud da, Aşıq Cünun da belə bir ali məqamda dayanır. Qazan xan oğuz elinin vuran qoludursa, Dədə Qorqud düşünən beynidir. Oğlu eli bu iki məqamda nizamlanır. «Koroğlu» dastanında da belədir. Ancaq bu «Koroğlu»da bölüşür. Daha doğrusu, baş qəhrəmanda hər iki keyfiyyət qovuşur. Aşıqlıq Koroğlu ilə Cünun arasında bölüşür. Ancaq həmin keyfiyyət birincidə lazım olan anlarda ortaya qoyulursa, Aşıq Cünunda davamlı halda təsvir olunur.

Burada bir məqam Aşıq Cünunun Koroğlunu görmək istəyidi. Cəfər paşanın sarayında xidmət edən bu ustad xan-xaqanların Koroğlu üzərində hücumunu eşidib Çənlibelə yol başlayır. Onunla görüşüb söhbətlər edir. Koroğlunun Çənlibeldə qalmaq təklifinə razılıq versə də, ancaq bu cür dayanmanı hələlik məsləhət bilmir. «Burada sənin yanında qalmaq oraya getməkdən çox yaxşıdır. Amma bu dönüş qala bilmərəm. Mən aşığam, aşıq gərək nəmək-bəhrəm olmasın, yediyi çörəyi yaddan çıxarmasın. Mən o kişinin çörəyini yemişəm, sənin yanına gəlməli olsam, gərək gedəm ondan halallıq alam» (1, 69).

Koroğlu isə bu zaman atasının aqibətini xatırladır. Ancaq Aşıq Cünun el sənətkarı idi və heç şübhəsiz onu qabaqda nə gözləməsindən asılı olmayaraq belə də etməliydi. Sonrakı vaxtlarda Cəfər paşadan hansı pislikləri görsə də yenə əhdinə sədaqətdə görünür. Eyni zamanda hadisələrin sonrakı gedişi Koroğlu ilə bağlı bir faktı da təsdiqləyir. «Mən çox yerlər gəzib, çox adamlar görmüşəm. Çox ustadlar ağzından çox sözlər eşitmişəm. Amma sənin mənə dediklərinin misli-bərabəri tapılmaz. Sənin sözlərin düz çıxdı, Koroğlu» (1, 75).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Koroğlu isə xandan, paşadan əmanət gözləmə deyərək atasını misal göstərmişdi. Hansı ata ki, həyatı boyu Həsən xana qulluq edib, qapısında can çürütmüşdü. Onun müqabilində isə iki gözdən edilirdi. Belə bir vəziyyətlə Aşıq Cünun da qarşılaşmaq məcburiyyətində qalırdı. Artıq qəhrəman tipologiyasında Aşıq Cünun tale baxımından Alı kişiyə bənzərlikdə görünürsə, ancaq ümumi anlamda dastan ənənəsində Dədəm Qorqudun varisi kimi nəzərə çarpır. Aşıqlıq baxımından Cünun dastanda Koroğluya yaxınlaşır.

*Demə ki, Cünun sözü yalandır,*
*Huridir, pəridir, nə cürə candır,*
*Dedim ki, Koroğlu gözəl alandır,*
*Sözümdən xoşlandı, güldü Koroğlu!*

Dastanda təkcə igid olanın Çənlibelə daşınışı baş vermir. Eyni zamanda xan, paşa sarayında olan qızların, daha doğrusu xanların qızlarının da Çənlibelə gəlişinin şahidi oluruq. Bu gəliş hansısa təhrikdən baş vermir. Koroğlu qəhrəmanlığına rəğbətdən, oradakı mühitin nizamındakı ideallıqdan irəli gəlir. Xotkar qızı Nigarın, İstanbulda Cəfər paşanın bacısı Telli xanımın, eləcə də digər qızların Çənlibelə can atması təsadüfi deyildi. Bu qızlar özlüyündə bütün fəaliyyəti ilə «Kitabi-Dədə Qorqud»dakı Burla xatunun, Banu Çiçəyin, Selcan xatunun varisi kimi görünür. Dastan düşüncəsində eyni tipologiyaya hesablanır. Nigar xanım özünün ağlı, zəkası, ucalığı ilə Çənlibeldə olanların anası kimi uca tutulur. Hətta ən son məqamda onun sözləri eşidilir və baş qəhrəmandan sonra bütün vəziyyətlərdə söz sahibidir. Məsələn, «Həmzənin Qıratı aparması» qolunda tək-tənha yola çıxan Koroğlu yolda Həmzəyə təkrarən aldanır. Hələ onun ilk gəlişində dəlilər etiraz etmişdi.

Belə bir insanın Çənlibeldə yaşaması dəliləri təşvişə salmışdı. Düratı qaçıran keçəl yolda Koroğlunu aldadıb Qıratı almışdı. Dastanda keçəl epizodik səciyyə daşısa da mükəmməlliyi ilə seçilir və dastandakı qolların ən maraqlı, həm də ən təsirediciliyi kifayət qədər olacaq hissəsini təşkil edir. Bir növ Koroğlunu sınağa çəkir. Heç zaman səhv etməyən, heç kəsə aldanmayan Koroğlu bir keçəlin qarşısında səhvə yol verir və dəlilərə «at mənimdi mən bilərəm» deyə cavab verməklə onları incik salır. Hətta Nigarın da üz döndərməsi kimi ağır bir məqama gəlib çıxır. Bu məqamda Nigarın ana-xatunluğu daha aydın görünür. Koroğluya «sən işi o yerə çatdırmısan ki, dəlilərə gedin deyirsən?» ittihamı ilə çıxış edir və kifayət qədər ciddiliklə aşağıdakıları söyləyir:

*Utan, qoç Koroğlu, utan!*
*Dağların damənin tutan,*
*Sənin kimi başa çatan*
*Elin qədrini nə bilər?*

Burada əsas olan və önə çəkilən xalq – qəhrəman problemidir. Dəlilərin sözünü eşitməyən Koroğlu səhvlərə yol verir. Axırda özü ilə dəlilər arasında incikliyin yaranmasına səbəb olur. Ancaq dastanda Koroğlu müdrikliyindən başqa, Çənlibeldəkilərə arxa, ana olacaq Nigar xanım da var. Onun işə qarışması ilə bu keçici narazılıq aradan götürülür.

Dastanda Koroğlu dəlisi olmanın şərtləri axıra qədər davamlı görünür və buna isə hər kəs gəlib çıxa bilmir. Bunun üçün isə candan, başdan keçməklə yanaşı, eyni zamanda Koroğlu sazının, səsinin, sözünün böyüklüyündən keçmək lazımdı. O keyfiyyət olmayanda naqisliklər ortaya çıxır və Koroğlunun qəzəbi sonsuzluqla görünür.

*Bir qul qaçırtmısan Ərəbistana,*
*Arayın, axtarın, tapın, gətirin!*
*Əgər girmiş olsa dəlikli Daşa,*
*Aparın Fərhadı, çapın gətirin!*

Bu adi oxunuş deyildi. Burada Koroğlu harayının bütün Çənlibel boyu əks-sədası var. Onun igidliyinin, cəsurluğunun sonsuzluğu görünür. Dastanda Həmzə – İmirzə xətti axıra qədər davamlı olmasa da tipikdir. Və dəliləri sınağa çəkəcək bir məqamda görünür. Belə hallar – qəhrəmanın sınağa çəkilməsi «Koroğlu»da çeşidlidir. Ona görə də Nigar xanımın «əgər igidsənsə gəl apar məni» yazması da birmənalı qarşılanmır. Ancaq baş qəhrəmanın bütövlüyü, imkanları bu rəngarənglikdə, vəziyyətlərdə açılır. Dəlilərin təşvişi müqabilində Koroğlu oxuyur:

*İgid gərək yar sevməyə,*
*Özü tək gedə, tək gedə.*

Çox maraqlıdır ki, bu məqamda da, baş qəhrəmanın düşmən üstünə gedişində də intiqamçılıq ardıcıllıqla görünür. Bu iki misradan başqa şeirin bütün ruhunda savaş dayanır. Və «müxənnət qəddin əyməyə, özü tək gedə, tək gedə» oxuyur. Elə tək də gedir. Yar sevməyə tək gedən Koroğlunun yolu müxənnət qəddin əyməkdən keçir. Burada dəlilərin təşvişi başa düşüləndi. Ancaq ən uğurlu addımı baş qəhrəman atır və onu da yuxarıdakı mahnı ilə ifadə edir. Qazan xan da evi yağmalandıqdan sonra düşmən üstünə tək gedirdi. Onunla birgə getməyə qərar verən Qaraca çobanın gedişinə razılıq verə bilmirdi.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ümumiyyətlə, dastan yaradıcılığında bir ənənəvilik var. Bu gələcəyə ötürülür, necə ki, xalqın yaddaşından, düşüncəsindən elə keyfiyyətlər var ki, gələcəyə süzülüb gəlir. Dastanlarda da bir başqa formada müxtəlif hadisə, epizod və qəhrəman tipologiyasında təkrarlanır. Koroğlu bütün məqamlarda Çənlibelin düşünən beyni, vuran qolu, görən gözüdür. Onun yardımçı olan, onu tamamlayan isə Nigar xanım, dəlilər və bir də Xan Eyvazdır. Nigar xanımın Koroğluya yazdığı məktubdan onun kamilliyinin işartıları görünür və sonrakı məqamda Koroğluya layiqliyi, Çənlibel dəlilərinə ana olması aşkarlanır.

Dastanda ən davamlı xətlərdən biri Koroğlu – Xan Eyvaz – Nigar xəttidir. Burada övlad, şəcərənin, qəhrəmanlığın sabaha ötürülməsi faktı var. Bu səbəbdən də Nigar xanım ən təsirli, şən məqamlarda məyus görünür. Bu «Eyvazın Çənlibelə gətirilməsi» qolunun əsas leytmotivinə çevrilir. Övladsızlıq həsrətində olan Nigar xanımın sızıltıları Koroğlu qəlbinin ağrıları ilə ortaqdır. Bu bəlkə də ən təsirli epizodik hadisələrdəndir. Ancaq dastan ənənəsində qəhrəmanlığın davamlı təminatı var. Necə ki, «Oğuz Kağan»da Oğuz Kağanın günəş şüası ilə gələn gözəldən və ağac koğuşundakı qızdan olan oğulları var, eləcə də «Kitabi-Dədə Qorqud»da Qazan xanın və digər qəhrəmanların oğul davamı var. Bu şəcərənin və qəhrəmanlığın davamıdır.

«Manas»da hətta həmin təfsilatın nəvə də daxil olmaqla təsviri var. «Kitabi-Dədə Qorqud»da oğlu olanın ağ otaqda oturdulması təsadüfi deyil. Bütövlükdə bunlar eyni amala xidmət edir. «Koroğlu»da da bu narahatlıq Nigar xanım tərəfindən doldurulur. Ancaq onu da qeyd edək ki, bu boşluğun fərqliliklə doldurulması var. Qəhrəman tipologiyasında Xan Eyvaz övlad problemində çarpazlaşır. Daha doğrusu, fərqli tutumda görünür. O gətirilir və bütün vəziyyətlərə baxmayaraq ata adına layiq təqdim edilir. Ancaq bir məqamı da qeyd edək ki, dastanda «ilana öz balası qənim olar» faktını ortaya qoyan Xan Eyvaz yox, Koroğlunun həqiqi oğlu Dəmirçioğlunu, Bəlli Əhmədi, Xan Eyvazı qol-qola bağlayan, Koroğlunu iki dəfə yıxan Kürdoğludur. Bu bir növ baş qəhrəmanın igidliyinin davamıdır, atadan oğula ötürülür. Xalqın qəhrəmanlığının ardıcıllıqla yaşamı təsiri bağışlayır. Bu davama Xan Eyvazdan başqa bir şərik də çıxır və Çənlibelin nizamı daha möhkəmlənir. «Dəlilər də, Nigar xanım da, qoç Koroğlu da bu qəhrəmanlıqla rahatlanır. Aşıq Cünunun sazını alıb kövrək-kövrək oxuyan Koroğlunun «hansı igidin sonu yoxdu, ocaq sönər, Daş inildər» deməsi başa düşüləndi. Həmin ağırlığın çıxış yolu aşıqdan gəlir. «Koroğlu, buna görə sən heç məlul olma! Sənin mənim kimi aşığın var. Dünya ki, var, mənim ayağımın altında sini kimidir. Gedərəm, gəzərəm, dolanaram. Rüstəm kimi igid, Yusif kimi gözəl bir oğlan taparam, gəlib sənə xəbər verərəm, gətirib özünə oğul elərsən» (1, 403).

Bu oğlan da xalqdan gəlir. O nə paşa, nə xan oğludur. Sadə bir həyat yaşayan qəssabın oğludur ki, təminatçısı Cünun olur. Rüstəm kimi igid, Yusif kimi gözəldir. Yazımızın əvvəlində məşhur bir kəlamı – «aşıq elin anasıdır» deyimini xatırlatmışdıq. Bu elin anası olan Aşıq Cünun elin qəhrəmanı olan Qoç Koroğlunu sonsuzluq niskilindən qurtarır. El qəhrəmanına kömək el aşığından gəlir və layiq olanı tapır. Bu «aşıq, bizə Təkə-Türkman deyərlər» deyə oxuyan qəssab oğlu Eyvazdı və Aşıq Cünunun bir qədər kövrək, bir qədər də inamlı səsini eşidirik.

*Dolandım dünyanı yarı,*
*Qoç Koroğlunun Nigarı,*
*Eyvaz tək əri az gördüm.*

Eyvaz isə sonrakı gedişdə «bu qılıqda çodar olmaz, hay olmaz» deyir. Bütün bunlar qəhrəman tipologiyasında rəngarəngliyi və dastan ənənəsinə sadiqliyi xarakterizə edir. «Koroğlu» türk dastan düşüncəsində bir sıra istiqamətlərdə mükəmməlliyi ilə səciyyələnir. Bir tərəf kimi bu rəngarənglikdə maraq doğuran qəhrəmanların tipologiyasıdır. Bu bir növ cəmiyyətin tipologiyası səviyyəsində dayanır. Ona görə də onun təfsilatının verilməsi problemi yaranır. Bu isə daha geniş araşdırmaların işidir. Biz isə yazımızda onun başlanğıcını qoyuruq. Bütün bunlar sonrakı addımları gərəkli edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan xalq dastanları, Bakı, «Gənclik», 1988.
2. M.H.Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, «Elm», 1972.
3. P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, «Maarif», 1992.
4. Kırım tatar dastanları, Bakı, «Nurlan», 2003.
5. Kitadi-Dədə Qorqud, Bakı, «Gənclik», 1978.
6. Koroğlu (Paris nüsxəsi), Bakı, «Ozan», 1997.
7. V.Vəliyev. Azərbaycan qəhrəmanlıq dastanları, Bakı, 1980.
8. Х.Короглы. Взаимосвязи эпоса народов средней Азии, Ирана и Азербайджана, М., 1983.
9. Х.Короглы и А.Набиев. Азербайджанский героический эпос. Баку, «Язычы», 1996.
10. A.Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı, II hissə, Bakı, «Elm», 2006.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## MEHMET FUAD KÖPRÜLÜZADƏ VƏ ONUN «DƏDƏ QORQUD» ARAŞDIRMALARI

***Qumru Şəhriyar***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Ötən əsrin iyirminci illərində Azərbaycanda ədəbiyyat tarixçiliyi sahəsində bir sıra çalışmalara imza atan dünya şöhrətli alim Mehmet Fuad Köprülüzadə yalnız Azərbaycan ədəbiyyatı sahəsində deyil, eyni zamanda, bütün türk xalqları ədəbiyyatının və qərb ədəbiyyatının gözəl araşdırıcısı olmuşdur. Haqqında danışanda onu yalnız ədəbiyyatşünas kimi təqdim etmək doğru olmazdı. O, ədəbiyyatşünas olmaqla yanaşı, eyni zamanda, tarixçi, siyasətçi və dövlət xadimi idi.

Türk dünyasının böyük mütəfəkkir alimi Mehmet Fuad Köprülüzadə 4 dekabr 1890-cı ildə İstanbulda anadan olmuşdur. Atası sədrəzəm Köprülü Mehmet Paşanın oğlu İsmayıl Faiz bəy, anası isə İslimiyə alimlərindən Arif Hikmət əfəndinin qızı Xədicə xanımdır. Alimin ailə şəcərəsi ilə bağlı müxtəlif mübahisələr var. Bir qrup alimlər onun Köprülü sülaləsindən deyil, Paşanın qaynı Qibləli Mustafa Paşanın soyundan olduğunu və onun Qibləlizadə əvəzinə Köprülüzadə (Kıblelizade – Köprülüzade) soyadını götürdüyünü iddia edirlər. Lakin alimlərin bir çoxu bu iddiaları təkzib edir. Onların bu fikirlərini Mehmet Fuadın Köprülülər türbəsindəki məzarı da təsdiqləyir.

Mehmet Fuad Ayasofiya Mərkəz Rüşdiyəsinə daxil olur və oranı bitirdikdən sonra Mərcan İdadisinə daxil olur. Hələ kiçik yaşlarından şeir yazmağa başlayan Mehmet Fuad Sultan Əbdülhəmidə həsr etdiyi mədhiyyəsini 1905-ci ildə nəşr etdirir. Qeyd edək ki, bu onun nəşr edilən ilk şeiridir. İdadidə oxuyarkən əvvəlcə riyaziyyata maraq göstərən alim sonradan ədəbiyyat və tarixə maraq göstərir. O, 1902-ci ildə Mərcan İdadisini bitirdikdən sonra Hüquq Məktəbinə daxil olur. Burada təhsilini 3 il davam etdirdikdən sonra savadını daha da artırmaq üçün fərdi fransız dili dərsləri almağa başlayır. Fransızca mükəmməl öyrəndikdən sonra Avropa və Qərb alimlərinin əsərləri və ədəbiyyatı ilə tanış olur.

Mehmet Fuad 1908-ci ildə «Məhasin» məcmuəsində dərc etdirdiyi şeirləri ilə ədəbiyyat dünyasına ilk addımlarını atır. Qısa müddət ərzində öz yazıları ilə fəlsəfə, tarix, ədəbiyyat sahəsində uğur əldə edir. Bu dövrdə Köprülüzadə tənqidçilərin ciddi hədəfinə çevrilir və onlar onun Hüquq Məktəbini bitirmədiyini və təhsilini yarımçıq qoyduğunu əsas tuturlar.

Erkən yaşlarından sosialogiyaya maraq göstərən Mehmet Fuadın ilk qəzet məqaləsi ictimaiyyətə aiddir. Bundan başqa, 1912-ci ildə «Haqq» qəzetində nəşr etdirdiyi məqaləsini də sosiologiyaya həsr edir. Qeyd edək ki, bu məqalələr Türkiyədə sosiologiya və onun tarixi ilə bağlı ən sanballı əsərlərdir.

Qərb ədəbiyyatını dərindən öyrənməyə çalışan alim 1910-cu ildə «Həyati Fikriyyə Tətəbbuatı İlmiyyə və Fəlsəfiyyə» adlı ilk əsərini Skandinaviya və Parnas şairlərinə həsr edir. Bu kitabın ön sözündə Mehmet Fuad «türk toplumunun gerçəkləşdirilən siyasi inqilabdan başqa böyük bir fikri və ictimai inqilaba da möhtac olduğuna işarə edərək bunun ancaq məmləkətin fikir həyatında bir oyanış meydana gətirməklə mümkün olacağını söyləyir, bu oyanışın Qərbin tənqid, ədəbiyyat, sosial elmlər və hüquq sahələrindəki biliklərini fikir həyatımıza gətirərək gəncliyə qazandırmağın» (1, 473) vacibliyini qeyd edir.

Mehmet Fuad 1908-ci ildə Türk Dərnəyi, 1911-ci ilin avqustunda Türk Yurdu Cəmiyyəti, 1912-ci ilin martında Türk Yurdu Ocağı və 1914-cü ilin yayında Türk Bilgi Dərnəyi ilə yaxından əməkdaşlıq edir. O, 1910-cu ildə məktəb müəllimi vəzifəsinə təyin edilir. Eyni zamanda, İttiyad və Tərəqqi partiyasının qəzeti olan «Haqq» qəzetində ona ayrılan baş səhifədə məqalələrini də dərc etdirir.

1912-ci ildə Türkiyədə Təhsil qanununda dəyişikliklər edən o zamankı Təhsil Naziri Əmrullah Əfəndinin əmri ilə ədəbiyyat və ədəbiyyat tarixinə dair yeni proqramın yazılması ilə bağlı yaradılan komissiyaya Mehmet Fuad da daxil edilir. Bu hadisə onun həyatında çox mühüm rol oynayır. O, 1912-1913-cü illərdə «Məlumati Ədəbiyyə» (2 cilddə) adlı dərs kitabını yazır. Ardınca dostu Şəhabəddin Süleyman ilə birlikdə «Yeni Osmanlı tarixi ədəbiyyatı» adlı ilk məktəblilər üçün əbədiyyat tarixi kitabını nəşr etdirir.

1912-1913-cü illər Mehmet Fuadın yaradıcılığında bir dönüm nöqtəsidir. 1912-ci ilə qədər yazı fəaliyyəti yalnız «Sərvəti Fünun»la məhdudlaşan Mehmet Fuad bu ilin ilk aylarından mətbuatda daha tez-tez çıxış etməyə başlayır. «Gənc qələmlər»lə girişdiyi polemika «Sərvəti Fünun»un səhifələ-rində davam edərkən may ayından etibarən avqustun ilk həftəsinə qədər beş ay ərzində «Haqq» qəzetinin baş məqalə sütununda yazılarını nəşr etdirir. Qəzetin həftəlik əlavələrində də onun məqalə və şeirləri dərc edilir.

Mehmet Fuadın 1912-ci ilin yayından etibarən «Sərvəti Fünun»dakı yazıları getdikcə seyrəkləşməyə başlayır. Burada çıxan son yazılarından biri olan «Milli tərənnümlərimiz» adlı məqaləsinin arxasınca «Türk ocağı»nın yayın orqanı «Türk yurdu» dərgisinin 6 fevral 1913-cü il tarixli sayında «Ümid və əzm» adlı ilk məqaləsi yayımlanır. Bu məqaləsi onun türkçü cəbhədə yer aldığını açıq-aydın göstərir. Köprülüzadə imzası bundan sonra «Türk yurdu» səhifələrində görülməyə başlayır. «Haqq» qəzeti ilə olan əməkdaşlığını da «Təfsiri Efkar» qəzetinə dəyişir. 1913-cü ildə Ədəbiyyat fakültəsinə Türk ədəbiyyatı tarixi dərsinin tədrisi üçün universitet müəllimi vəzifəsinə təyin edilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir sıra əsərlərini Balkan müharibələrinə həsr edən Mehmet Fuad Ədirnənin işğalı ilə bağlı «Hicrət matəmləri», «Hicrət türküləri» şeirlərini, «Süngü altında», «Hicrət hekayələrindən» adlı hekayələri o dövrdə qələmə alır. Ədirnənin fəthi ilə bağlı isə «Anadolu axşamı» əsərini yazır. Bundan başqa, Mehmet Fuad müharibə illərində heca vəzniylə «Şəhidin röyası», «Şəhid və hilal», «Son axın», «Şəhid məzarı», «Şəhidlərimiz», «Qış» şeirlərini də yazır. Eyni zamanda, romantik türk ruhunda «Dəli ozan», «Ağpınar pəriləri», «Axınçı türküləri», «Hakan», «Yamaclarda qaval», «Altın saz» şeirlərini yazır.

1913-cü ilin sonlarında başlayan universitet müəllimliyi və xüsusiylə də 1914-cü ildən etibarən getdikcə artan elmi fəaliyyəti Mehmet Fuadın şeirdən və şairlikdən uzaqlaşmasına səbəb olur. Sonralar 1917-1918-ci illərdə onun şeirləri «Yeni məcmuə»də, 1919-cu ildə isə «Böyük məcmuə»də çıxır. 1917-ci ildə «Tələbə dəftəri» dərgisində nəşr etdirdiyi «Nəsrəddin Xoca hekayələri»ni 1918-ci ildə kitab şəklində dərc etdirir.

Yunus Əmrə haqqında o zamana qədər yazılan məqalələrin ən ciddisi hesab edilən yazısı ilə və Orta Asiya və Anadolu mədəniyyət birliyini ortaya qoymağa çalışaraq Əhməd Yəsəvini ilk dəfə elm aləminə tanıdan araşdırması ilə Mehmet Fuadın yaradıcılığında yeni bir səhifə açılır. Özünü dörd-beş il sonra türkologiya sahəsində millətlərarası bir şöhrətə yüksəldəcək «Türk ədəbiyyatında mütəsəvviflər» əsərinin təməli, məhz bu iki məqalədə qoyulur.

O, 1915-ci ildə «Milli Tətəbbülər məcmuəsi»ndə üç böyük və önəmli araşdırması dərc edilir – «Türk ədəbiyyatında aşıq tərzinin mənşə və təkamülü haqqında bir təcrübə», «Türk ədəbiyyatının mənşəyi», «Səlcuqilər zamanında Anadoluda türk mədəniyyəti».

Mehmet Fuad Köprülüzadə araşdırmalarına «Milli Tətəbbülər məcmuə-si» və «Türk yurdu»ndan sonra 1917-ci ildə Ziya Gökalpın redaktoru olduğu «Yeni məcmuə»də davam edir. Qeyd edək ki, erkən yaşlarında Ziya Gökal-pla tanış olan Mehmet Fuadın yaradıcılığının müxtəlif mərhələlərində onun böyük rolu olur. Mehmet Fuadın yaradıcılığının belə məhsullar vaxtında yu-xarıda da qeyd etdiyimiz kimi Əli Əmiri Əfəndi əvvəlcə onun Köprülülər sü-laləsindən deyil, Qibləlizadələrdən oduğunu iddia edir. Ardınca onun «Türk ədəbiyyatında üsul» və «İlk mütəsəvviflər» kimi dəyərli əsərlərini ciddi şəkil-də tənqid edir. Əli Əmiri Əfəndi bununla da kifayətlənməyib, onun «Yeni məcmuə»də çıxan yazılarını tənqid edərək universitetdən qovulmasını tələb edir. Mehmet Fuad isə bu cür ittihamlara yalnız bir dəfə «Bir həcv münasi-bətiylə» (3, 346-347) məqaləsi ilə cavab verir. Bir-birinin ardınca ciddi araşdırmalara imza atan Mehmet Fuad 1919-cu ildə «Türk ədəbiyyatında ilk mütəsəvviflər» əsərini tamamladı. Beş ildən çox yazdığı bu əsərin nəşri «İttihad və Tərəqqi»nin çökməsi, Ziya Gökalpın və ölkənin öndə gedən şəxsiyyətlərin Maltaya sürgün edilməsi ilə təxirə salınır. Özünün də qeyd etdiyi kimi, bu illər Mehmet Fuadın həyatının ən ağır illəridir. Ziya Gökalpın həbsinin ardınca onu da qısa müddətə həbs edirlər. Sərbəst buraxıldıqdaq sonra «Türk ədəbiyyatında ilk mütəsəvviflər» adlı əsəri çapdan çıxır.

Bu illərdə Mehmet Fuad universitetdə dərs deyən bir çox Qərb alimləri ilə dostluq münasibətləri qurdu. Onlardan Ural-Altay dillərinin müqayisəli qrammatikası dərsini tədris edən Vilhelm Fridrix Karl Gis, tarixdə üsul dərsini tədris edən Cons Henrix Mordtman, fransız türkoloq və dilçisi Jeyn Deni, rus türkoloqu Vladimir Aleksandroviç Qordlevski, macar türkoloqu İmrə Karakson onun ən yaxın dostlarından idi.

Milli mücadilə illərində Mehmet Fuad yeni və orjinal araşdırmalarını sürdürür. 1920-ci ildə ilk, 1921-ci ildə ikinci «Türk ədəbiyyatı tarixi» kitabı işıq üzü görür. 1922-1923-cü illərdə «Anadoluda islamiyyət» adlı məqaləsiylə türk din tarixinin təməlini qoyur. O, eyni zamanda, 1923-cü ildə Cümhuriyyətin qurulması ilə əlaqədar olaraq «Türkiyə tarixi» əsərini yazır. Bunun ardından da Atatürkə təbrik və təşəkkür məktubunu əlyazması şəklində göndərir (4, 277-279).

1924-cü ildə ədəbiyyat fakültəsinə dekan təyin olunan Mehmet Fuad elə həmin il də Türkiyyat İnstitutunun rəhbəri olur. Bu dövrdə onun elmi fəaliyyəti də çox məhsuldardır. 1923-cü ildə Parisdə Dinlər tarixi Konqresinə dəvət alan Mehmet Fuad 1925-ci ildə Moskva Elmlər Akademiyasının dəvəti ilə Akademiyanın 200-cü ildönümünə gəlmiş və orada türkologiya sahəsindəki xidmətləri və orjinal araşdırmalarına görə Moskva Elmlər Akademiyasının fəxri üzvü adına layiq görülür. 1926-cı ildə İstanbula gələn Bartoldla birlikdə Bakı Millətlərarası Türkologiya Konqresində iştirak etdi və orada «Türk xalqlarında ədəbi dilin inkişafı» adlı məqaləsiylə çıxış edir. O, burada, eyni zamanda, Ərişir Nəvayi haqqında başqa bir məqaləylə çıxış edir. Demək olar ki, bu konfrans onun Azərbaycanla və Azərbaycan ədəbiyyatı ilə yaxından tanışlığına və bu sahədə bir sıra ciddi araşdırmalar aparmasına vəsilə olur. Bakıda keçirdiyi bu zaman ərzində «Azərbaycan ədəbiyyatına aid tədqiqlər» adlı kitabı çapdan çıxır. 1926-cı ildə o, Türkiyyat İnstitutunda «Orta Asiya Türk tarixi haqqında dərslər» aldı konfranslar təşkil edir. Bunun ardınca, 1927-ci ildə elmdəki xidmətlərinə görə Heydelberq Universitetinin fəxri fəlsəfə doktoru adına layiq görülür. 1928-ci ildə Oksford və 1929-cu ildə London Dinlər Tarixi və Xarkov Beynəlxalq Konqreslərində yenə də orjinal əsərləri ilə çıxış etdi. Elə həmin il də Çexoslovakiya Şərq Cəmiyyəti ilə Alman Arxeologiya Cəmiyyətinə müxbir üzv seçilir. 1932-ci ildə Leydendə üç müxtəlif qərb dillərində nəşr olunan «İslam Ensiklopediyası»nın «Osmanlı–Türk ədəbiyyatı» bölməsini hazırlamaq da onun payına düşür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunun ardınca, 1934-cü ildə Firdovsinin anadan olmasının 1000 illik yubileyi ilə əlaqədar olaraq Tehrana gedən alim Sabron Universiteti tərəfindən Osmanlı dövlətinin quruluşu məsələsiylə bağlı konfranslar təşkil etmək üçün Parisə dəvət edilir. Bu konfransın materialları 1935-ci ildə «Les origines de l'Empire ottoman» adıyla Parisdə nəşr edilir.

Mehmet Fuad Köprülüzadə 1937-ci ildə Atina Universitetinin fəxri doktoru, 1939-cu ildə Sabron Universitetinin fəxri doktoru, 1939-cu ildə Macar Elmlər Akademiyasının müxbir üzvü, 1947-ci ildə Amerika Şərq Cəmiyyətinin şərəfli üzvü, 1956-cı ildə Karaçi Universitetinin fəxri hüquq doktoru adına layiq görülür. Harvard Universiteti ilə Ford Vəqfi tərəfindən hazırlanan ortaq proqram çərçivəsində araşdırmalar və elmi məruzələr etmək üçün çağrıldığı Amerikada Harvard və Kolumbiya Universiteti Yaxın və Orta Şərq İnstitutunda 1958-1959-cu illərdə konfranslar və elmi seminarlar keçirir. Bunun ardınca 1959-cu ildə Amerika Tarix Cəmiyyəti tərəfindən şərəf ordeni ilə təltif edilir. 1939-cu ildə müxbir üzvü olduğu Macar Elmlər Akademiyası 1964-cü ildə ona fəxri üzv adını verir.

1913-cü ildən 1940-cı ilə kimi yazmış olduğu «İslam Ensiklopediyası»nı o dövrlərdə müəyyən siyasi səbəblər üzündən nəşr etdirə bilmir. Lakin 1941-ci ildə həmin ensiklopediyaya daxil etdiyi «Əruz», «Azərbaycan ədəbiyyatı» və «Cığatay ədəbiyyatı» adlı iri həcmli əsərlərini ayrı-ayrılıqda nəşr etdirməyə müvəffəq olur.

Özünün də qeyd etdiyi kimi, 1950-cı illərdən sonra onun həyatının ən ağır illəri başlanır. Həbslər, siyasi təqiblər məhz bu dövrün payına düşür. Belə ağır bir dövrdə – 1964-cü ildə qələmə aldığı «Orta Asiya Türk Dərvişliyi haqqında bəzi notlar» adlı məqaləsi onun yazdığı son elmi yazısı olur.

Mehmet Fuad 15 oktyabr 1965-ci ildə ağır bir avtomobil qəzası keçirir. İstanbul Baltalimanı Xəstəxanasında müalicə görən Mehmet Fuad Köprülüzadə 28 iyun 1966-cı ildə vəfat edir.

Azərbaycan ədəbiyyatı ilə yaxından tanış olan Mehmet Fuad Türkiyədə nəşr olunan «Azərbaycan Yurd Bilgisi» dərgisiylə də uzun illər yaxından əməkdaşlıq edir. Böyük alim Əhməd Cəfəroğlunun redaktoru olduğu bu dərgi mühacirətdə fəaliyyət göstərən və sırf Azərbaycan və bilavasitə türk xalqlarının ədəbiyyatını araşdıran ən sanballı dərgilərdən biridir.

«Azərbaycan Yurd Bilgisi» dərgisi ayda bir dəfə 48 səhifə həcmində çap olunurdu. 1932-1934-cü illər arasında nəşr edilən dərginin redaksiya heyətinə Mehmet Fuat Köprülüzadə də daxil idi.

Mehmet Fuad bu dərgidə «Dədə Qorqud kitabına aid notlar» (5; 6; 7) başlığı altında silsilə xarakterli üç məqalə dərc etdirir. Bu məqalələrdən birincisi «Altun küpəli oğuz bəyləri» (5) məqaləsidir ki, o, bu məqaləsində qədimdə oğuz bəylərinin küpə – sırğa taxdıqları haqqında məlumat verir və sırğanın türklər arasında yayılmasının tarixi yollarını arayır.

Bu gün çox tez-tez ictimaiyyət arasında kişilərin qulaqlarında sırğa görürük. Az qala bu artıq kütləvi hala keçir. Əvvəlcə ictimaiyyət tərəfindən qəbul edilməyən bu vəziyyət indi camaatın gözü öyrəşdiyindən adi qarşıla-nır. Kiminin ikrah duyduğu, kiminin böyük rəğbətlə qarşıladığı kişilərin qulaqlarını deşdirərək sırğa taxmaları adəti xarici vətəndaşların Azərbay-cana axını ilə gəldi və demək olar ki, geniş vüsət aldı. Mehmet Fuad da özünün «Dədə Qorqud kitabına aid notlar» adlı məqaləsinin birinci hissəsin-də bu məsələni araşdırır və bir çox mübahisəli məsələlərə aydınlıq gətirir.

«Türkün qızıl kitabı» hesab etdiyimiz «Dədə Qorqud kitabı»nda «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy»da deyilir: «Çaya baxsa, qılınc çalan, qaraquş ərdəmli, qurama qurşaqlı, qulağı qızıl küpəli Qalın Oğuz Bəylərini bir-bir atdan yıxan Qazılıq qoca oğlu Yeynək bəy çaparaq yetdi» (10, 175).

Görəsən, Yaxın və Orta Şərqdə, xüsusiylə ərəblərdə kişilər arasında əsarət və köləlik rəmzi olan «küpə» niyə oğuzlarda bəylərə mənsub bir atribut hesab edilirdi?

Qeyd edək ki, Çin mənbələrində də qədim qırğızların qulaqlarına halqa taxması barədə məlumat var (hətta Miniatür Kitab Evində çinlilərin «Atalar sözü və məsəllər» adlı 2 sm. ölçüdə hazırladıqları kitab-sırğa mühafizə olunur. Bu kitabda türk xalqlarına aid atalar sözü və məsəllər çap edilmiş-dir. Kitab-sırğa 12 vərəqdən ibarətdir. Bizim istifadə etdiyimiz «qulağına sırğa elə» məsəlini deyəsən, çinlilər hərfi mənada başa düşüblər).

Qulağa sırğa taxmaq adəti ilə bağlı bir çox tarixi mənbələrə istinad edən fransız alimi M.Quatremer qədim İsraillilərdə olduğu kimi, dünyanın bir çox xalqlarında kişilərin qulaqlarına sırğa taxmalarının «köləlik, əsarət» (11, 7-8) əlaməti olduğunu qeyd edir. Lakin Mehmet Fuad fransız aliminin fikirlərini təkzib edərək bir sıra tarixi məxəzlərə və «Cami ət-Təvarix», «Mətlə-üs-Sadeyn», «Dövlətşah təzkirəsi», «Həbib-üs-Siyir», «Əkbənamə» kimi tarixi qaynaqlara, habelə «Bustan», «Gülüstan», «Ənvari-Süheyli» sırasından olan bədii əsərlərə istinad edir və Kazimirskinin də Manuçöhdən iqtibas gətirərək bu fikrə şərik olduğunu qeyd edir. O, yazır ki, «Quatre-merin gətirdiyi bütün misallar «qulağa sırğa taxmağ»ı məcazi bir ifadə olaraq izah etmiş və böyük fransız alimi bu barədə filoloji izahla kifayətlənərək tarixi aspektdə heç bir məlumat verməmişdir. Halbuki, qədim iranlılarda kişilər arasında qulağa sırğa taxmaq adətinin olmasını göstərən mənbələr vardır» (5, 18).

«Dədə Qorqud kitabı»nda göstərilən oğuz bəylərinin sırğa taxmalarını Mehmet Fuad M.Quatremerdən fərqli olaraq tarixi aspektdə araşdırmışdır. Türklər hələ qədim dövrlərdə də halqayabənzər sırğa taxmışlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tarixi mənbələr göstərir ki, Səlcuqlar qulağa taxılan halqayabənzər sırğaları əsarət əlaməti hesab edirdilər. Lakin qeyd edək ki, Qaraqoyunlu hökmdarı Qara Yusif də qulağına çox qiymətli sırğalar taxırdı. Amma o qul deyildi. Hətta Ağqoyunluların ordusunda türkmənlər də halqayabənzər sırğalar taxırdılar. Heç onlar da qul deyildilər. Türklər heç bir zaman, tarixin heç bir dönəmində əsgərlərə, döyüşçülərə qul kimi baxmayıblar, əksinə onların türk tarixində əvəzolunmaz yerləri həmişə qorunub saxlanılmışdır.

Azərbaycan folklorunda çox tez-tez işlənən «qulağına sirğa elə» ifadəsi hamıya məlumdur. Fikrimizcə, bu ifadə öyüd-nəsihət mənasında işlənsə də, yenə eyni mənanı verir – bəyliyə, xanlığa işarədir (yəni nəsihətimi qulağına sırğa elə, özünü bəyliyin, xanlığın, türklüyün şəninə layiq apar). Göründüyü kimi, bu ifədə də qədimdə türklərin qulaqlarını deşib sırğa taxmalarının bəyliyin, ağalığın nişanəsi kimi göstərir.

Qeyd etdiyimiz kimi, Mehmet Fuadın bu ifadədən söz açmaqda məqsədi «Dədə Qorqud kitabı»nda adı keçən «altın küpəli oğuz bəyləri»nin qədim dünya tarixində yerini və rolunu araşdırmaqdır. O, bu məsələni bir neçə xüsusda izah edib:

1. Türklər arasındakı «qulağa sırğa taxmaq» adəti islamdan qabaq mövcud idi. Sırğa taxmağı türklərin İrandan götürdüyünü düşünmək yalnış fikirdir (bir çox mənbələr yazır ki, türklər bu adəti farslardan götürmüşdür. Biz də M.F.Köprülüzadə kimi bu fikrin yalnış olduğunu düşünürük və tarixin müxtəlif mərhələlərində türklərin qulaqlarında sırğa olduğunu tarixi mənbələrdən görürük. «Dədə Qorqud kitabı» da bu fikrimizi təsdiqləyir. – Q.Ş.).
2. Teymurilərdə, qazaxlarda, Qaraqoyunlularda və Ağqoyunlular-da hökmdarın qiymətli halqayabənzər sırğalar taxmaları bir ənənə idi. Türklərdəki bu ənənənin dünyanın bir sıra xalqlarında olduğu kimi «köləlik və əsarət» mənasını vermədiyi kəsindir (M.F.Köprülüzadə bu qənaətə bir çox tarixi mənbələrə istinad edərək gəlib. Biz də düşünürük ki, o, haqlıdır. Çünki mənbələrdə göstərilən böyük türk hökmdarlarının qulağına sırğa taxması ən azından türklər arasında bu mənanı verə bilməzdi. Həm də eyni zamanda, bizim Qur'an qədər müqəddəs hesab etdiyimiz «Dədə Qorqud kitabı» köləlik və əsarət rəmzi olan sırğanı oğuz bəylərini öyərkən deməzdi – Q.Ş.).
3. Qaraqoyunlularda və Ağqoyunlularda yalnız hökmdarlar deyil, ordunun böyük əksəriyyətini təşkil edən türkmənlər də qulaqlarına sırğa taxırmışlar (görünür, bu ənənə türkmənlərdə daha geniş yayılıb. Çünki onlar belə halqayabənzər sırğalardan kütləvi şəkildə istifadə edirdilər. Təbii ki, bu hal kütləvi şəkildə olduğundan bunu «köləlik və əsarət» adlandıra bilmərik - Q.Ş.).
4. «Dədə Qorqud kitabı»nın bütün nüsxələrində göstərilir ki, hadisələrin cərəyan etdiyi coğrafi mühit Qaraqoyunlu və Ağqoyunluların hökmüranlıq etdiyi ərazilərdir. «Dədə Qorqud rəvayətlərində bəhs olunan «qızıl küpəli oğuz bəyləri»nin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ordularında da mövcud olduğu haqqındakı məlumat həqiqəti bir daha təsdiq etmiş olur» (5, 21).

Qeyd edək ki, tarixi mənbələrdə Qaraqoyunlu hökmdarı Qara Yusifin döyüş meydanında öldürüldüyü zaman düşmənlər onun sırğalarını çıxarmaq üçün qulaqlarını kəsdikləri yazılır (bu faktı Mehmet Fuad da təsdiqləyir – Q.Ş.).

Kişilərin qulaqlarını deşərək sırğa taxması adəti XX əsrin son illərinə qədər qırğızlarda, qazax və başqırtlarda yaşayırdı. Görünür, digər türk elləri ilə siyasi və iqtisadi münasibətlərin yüksək səviyyəyə çatması bu xalqların adət-ənənələrinin də qaynayıb-qarışmasına səbəb olur.

Etiraf etməliyik ki, bu halqayabənzər sırğalar türklərdə bəyliyə, xanlığa işarə olmasına baxmayaraq, bir çox qeyri-türk millətlərində, məsələn, ərəblərdə, farslarda, Afrikada yaşayan bir sıra xalqlarda, doğrudan da, əsarət və köləlik rəmzidir.

Mehmet Fuadın «Azərbaycan Yurd Bilgisi» dərgisində nəşr etdirdiyi «Dədə Qorqud kitabına aid notlar» adlı məqaləsinin ikinci hissəsi «Başa dönmək, aynalmaq» (6) adlanır. Burada Mehmet Fuad «Dədə Qorqud kitabı»nda islamiyyətdən öncəki dövrlərə aid bir çox türk adətlərinin mövcudluğundan söhbət açır və «başa dönmək» adətinin də bu qəbildən olduğunu qeyd edir.

«Salur Qazanın evinin yağmalandığı boy»da və «Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy»da Salur Qazan gürcüləri məğlub edərək oğlunu azad etdikdən sonra qırx qul və qırx kənizi oğlunun başına çevirərək azad edir (10 50, 79). Mehmet Fuadın verdiyi məlumata görə, bu adətlə «Anadolu və Rum türkləri arasında hətta bu gün də qarşılaşa bilirik. Hər hansı bir səbəblə sədəqə veriləcəyi zaman onu adına sədəqə verilən adamın başına üç dəfə fırlatmaq bir adətdir» (6, 84).

Təsadüfi deyil ki, istər yazılı ədəbiyyatda, istərsə də şifahi xalq ədəbiyyatında bu ifadəyə çox tez-tez rast gəlmək olar. «Başına döndüyüm, qurban olduğum», «Başına döndüyüm gül üzlü sona», «Başına dolannam, qurbanın ollam» kimi şifahi xalq ədəbiyyatından onlarla misal gətirmək olar.

Yalnız xalq arasında və xalq ədəbiyyatı nümunələrində deyil, klassik Azərbaycan şairlərinin əsərlərində də bu ifadəyə təsadüf olunur. Müəllif yazır ki, «Hüseyn Kazım bəy xalq bayatılarından və Qüdsi, Səfa, Qafil, Asi, Raci kimi Azərbaycan şairlərindən misallar gətirməklə yanaşı, bu ifadəni yalnış olaraq «birinin qayğısını çəkmək» («birinin qeydinə qalmaq» – Q.Ş.) kimi izah edir (Böyük Türk Lügati,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

I cild, səh. 604). Halbuki bunun mənası «qurban olmaq»dır. Lakin yenə müəllif adı çəkilən əsərində osmanlı ləhcəsində «başına dönmək» ifadəsini «əmrinə amadə olmaq, qul qurban olmaq» kimi daha doğru izah edir və Rasihlə Nəbinin bir beytini də misal göstərir (Böyük Türk Lügati, I cild, səh. 594). Osmanlı şairi Sünbülzadə Vəhbinin (Divan, səh. 23):

Şahsevənlər kimi başına dönüp bir pusərin
Olmuş İranda Vəhbi o şeyx-i hüsnə nökər.

– beytində göstərildiyi kimi, bu ifadə bəzi Osmanlı şairləri tərəfindən istifadə olunmaqla bərabər daha çox azəri türkləri arasında geniş yayılmışdır (6, 84).

Bundan sonra Mehmet Fuad Azərbaycan şairlərindən Əfşarlı Kazımın:

Bu dünya fanidir fani,
Taxtdan salır Süleymanı.
Əfşar Kazımın cananı,
Gəl başına dönüm sənin (12, 23).

Və XVI əsr azəri şairlərindən Mövlana Sahifinin:

Söyləmişsən kim Sahifi çevrilürmü başıma
Bəs kimin qurbaniyəm, başına qurban olduğum

– misralarını misal gətirir. Bununla da o, Hüseyn Kazım bəyin bu ifadəni başa düşmədiyini sübut edir. Qeyd edək ki, Mehmet Fuad Mövlana Sahifiyə aid bu misralara Sadiqinin «Məcmə-ül-Xəvas» (مجمع الخواص) adlı təzkirəsində, Qatada, Peterburqda, İstanbul Universitetinin kitabxanasında, Nur-i Osmaniyədə təsadüf olunduğunu yazır. Biz isə bu müəlliflə bağlı Azərbaycan ədəbiyyatına aid ən qədim mənbələrdə belə heç bir məlumata rast gəlmədik.

Mehmet Fuad «Koroğlu» dastanının Xodzko variantına istinad edərək orada da bu ifadənin mövcudluğunu qeyd edir. O, Koroğlunun Eyvaza xitabən söylədiyi «başına döndüyüm, qurban olduğum, səri durna tellim, Eyvaz, ağlama» şeirində bu ifadənin Azərbaycandakı bəzi xalq adətləri arasındakı əlaqəsini izah edir.

Mehmet Fuad yazır ki, «1683-cü ildə Şah Süleyman Səfəvi zamanında İrana səyahət edən Sanson özünün «Səyahətnamə» adlı əsərində «başa dönmək» ifadəsinin İran türkləri arasında və Səfəvi saraylarında istifadə edildiyini qeyd edir. Sanson Səfəvi hökmdarlarının qızılbaşlar arasında müqəddəs bir şəxsiyyət kimi qeyd olunduğundan danışarkən şaha xitab edənlərin, ümumiyyətlə, «qurban olum, din-imanum padişah, başuna dönim» dediklərini söyləyir. Onun verdiyi izahata görə, «başa dönmək» İran saraylarının qədim bir adəti imiş. Şah kiməsə məmur rütbəsi verirsə, o, şahın ətrafında «başına dönüm» deyərək üç dəfə dönərmiş və bu onun şah yolunda canını verməyə hazır olduğunun bir əlaməti imiş (Sanson, Voyage ou relation de l'etat present du Royaume de Perse, Amsterdam, M. DC. XCV, səh. 137-138). «Başa dönmək» adətinin qədim İran adəti olduğu haqqındakı fikirlərimizi kənara qoysaq, Sansonun bu haqda verdiyi məlumatın yuxarıdakı izahatımızı tamamladığını və təsdiq etdiyini deyə bilərik. Bütün bunlar göstərir ki, «Dədə Qorqud»dakı «başına çevirmək» ifadəsindən başqa bir şey olmayan bu «başına dönmək» ifadəsi qurban olmaq mənasındadır. Bu oğuzlardakı qədim bir adətin nəticəsi olaraq azəri ləhcəsində hələ də yaşayır» (6, 85-86).

Qeyd edək ki, bu ifadəni frazeoloji birləşmə kimi etnokulturoloji aspektdən araşdırdıqda onun kökündə hər hansı icra olunan bir ritualın durduğunu görürük. Çünki «qurban olmaq», «başına dönmək», «qadasın almaq» kimi frazeoloji birləşmələr müəyyən bir ayinlə bağlıdır və düşünürük ki, bu ayinlər türklərin bu gün də qoruyub saxladığı şamanizmdən gəlir.

Bu adəti tarixi və etnoqrafik ənənələr vasitəsilə öyrənməyə çalışan Mehmet Fuad yazır ki, «qazax-qırğızlarda və bütün Türküstan türklərində çox sevilən bir adama «aynalayın» deyə xitab etmək adəti hələ də mövcuddur və bu, «sənə qurban olum» mənasında işlənilir. Müxtəlif türk ləhcəsində mövcud olan «aylanmaq – aynalmaq» kəlməsi, əsasən «dönmək, dövr etmək» mənasındadır» (6, 86).

Başqırdlarda bir kukla düzəldərək xəstənin başına fırladarlar və guya onu xəstəyə qurban verirlər, yəni xəstəliyi ona köçürürlər. Qırğızlarda bir xəstənin yaxşı olması üçün qurbanı xəstənin ətrafında fırladar və sonra kasıblara verərlər (13, 24).

Mehmet Fuad bu məqaləsində Babur şahın[1] müəllifi olduğu «Babur-namə»dən də misallar gətirərək fikrini daha qədim dövrlərə aid əsərlərlə təsdiq edir: «Baburun sevimli oğlu Humayun şiddətli bir xəstəliyə tutulur. Mir Əbülqasım Humayuna aid gözəl və qiymətli şeylərdən sədəqə verilməsini tövsiyə edir. Babur Humayundan daha qiymətli bir şeyinin olmayacağına və ona görə də özünü fəda etmək lazım olduğunu hökm edir. Alimlər buna etiraz edirlər və necə olursa olsun, Humayunun yaxşılaşacağını, vaxlı ilə Humayuna

[1] Babur şah (1483-1530) – Zakir əd-Din Məhəmməd bin Ömər Şeyx böyük Monqol İmperatorluğunun qurucusudur. Atasının bir qəza nəticəsində ölümündən sonra 1494-cü ildə taxta çıxır. 1530-cu ildə Humayunun hökmdarlığını təsdiq etdikdən bir az sonra ölür. Onun böyük külliyatı günümüzə qədər gəlib çatmışdır. Süfi Ubeydullah Əhrarinin «Risale-i validiyə» əsərini türkcəyə tərcümə etmişdir. Eyni zamanda, o, «Baburnamə», «Əruz risaləsi», «Mübəyyən», «Divan» kimi əsərlərin müəllifidir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vermiş olduğu qiymətli bir almazı sədəqə verməyin daha doğru olduğunu söyləyirlər. Fəqət Humayunun xəstəliyi çox ağır olduğu üçün Babur fikrində israr edir, xəstənin otağına girərək üç dəfə başına fırlanır və «min kütardım her ni derdin bar: hər nə dərdin varsa, bən aldım, götürdüm» deyir» (6, 87).

Mehmet Fuad eyni zamanda, Rəşidəddinin də verdiyi məlumatı misal gətirərək yazır: «Oqtay (Ögödey) xaqan bir vaxtlar çox ağır bir xəstəliyə tutulmuşdu və demək olar ki, ölümlə üz-üzə durmuşdu. Bu zaman qardaşı Tuluy xan onun başının üstündə idi. Monqol qamları xəstəni yaxşılaşdırmaq üçün adətə görə, ofsunlar oxuyurdular, taxta kasada götürülmüş su ilə xəstəliyi yuyub guya onu həmin suya köçürdülər. Qardaşını çox sevən Tuluy kasanı çalxaladı və dedi ki: «Allahım, əgər günah arayırsansa, mənim günahlarım qardaşımınkından daha çoxdur. Mən ondan çox adam öldürdüm, qadınlarını, uşaqlarını əsir götürüb ağlatdım. Əgər gözəllik və hünər axtarırsansa, mən ondan daha gözəl və daha hünərliyəm. Onu bağışla və onun yerinə mənim canımı al». Tuluy bu duadan sonra xəstəliklə dolu olan kasadakı suyu içdi. Doğrudan da, Oqtay yaxşılaşdı. Qardaşından icazə alıb yola çıxan Tuluy xan isə xəstələndi və öldü» (6, 87).

Mehmet Fuadın gətirdiyi bu nümunələr əski türklərin «başa dönmək» adətini müxtəlif şəkildə icra etdiklərini göstərir. Bəzən bu ayinlərdə dolayısıyla başa dönmək olmasa belə (müəllifin Rəşidəddindən gətirdiyi misalda olduğu kimi), məqsəd eynidir. Burada da «qadasın almaq», «dərdi-bəlanı götürmək» açıq şəkildə görünür. Bu ənənə bu gün də bir sıra xalqlarda, məsələn, başqırldarda (biri xəstə olanda bir taxta fincanda su götürüb içinə kömür və duz qoyurlar. Xəstəni bir şeylə örtüb bu suyu onun üstünə püskürürlər. Sonra bir toyuq, bir yumurta, yaxud bir bez parçasını başına fırladıb kənara atır və arxalarına baxmadan evlərinə gedirlər – M.F.), qazax-qırğızlarda (xəstəni qapının ağzında üzü çölə tərəf oturdurlar və bir şey (görünür, bu, müxtəlif ayinlər zamanı oxunan dualardır – Q.Ş.) oxuyub fincandakı suyu səpirlər. Boş fincanı da ağzı üstə yerə qoyurlar. Təmizlənmədən fincanı istifadə edən şəxs o xəstəliyi üzərinə almış olur – M.F.), şamanlarda (xəstənin başı üzərində müxtəlif ayinlər oxuyaraq müqəvva, toyuq və s. fırladaraq oda atırlar və bununla da xəstəliyi dəf etdiklərini düşünürlər – Q.Ş.) mövcuddur.

Bundan başqa, Mehmet Fuad Pozdneyevin «Monqolustandakı Budda ruhanilərinin həyatı haqqında qeydlər» adlı əsərindən və buddistlərin «Çjun-ba-rin-çin-gun-du» adlı dini əsərindən də misal gətirərək bu adətin buddist mənşəli olmadığını və xüsusi olaraq qədim türk-monqol şamanlığının davamı olduğunu qeyd edir.

Müəllif bu etiqadı yenə «Dədə Qorqud kitabı»nda axtarır. Bu dəfə o, «Dəli Domrul» hekayəsinə müraciət edir. O yazır: «Özündə əks etdirdiyi bəzi motivlərə əsasən «Dədə Qorqud» hekayələrinin ən qədimlərindən biri olduğunu düşündüyüm bu hekayədə də görünür ki, yuxarıdan bəri izahına çalışdığımız etiqad, yəni «başqa birisini qurtarmaq üçün özünü qurban vermək» anlayışları mövcuddur. Çox kobud və zorakı şəkildə islamlaşmaya məruz qalan «Dəli Domrul» hekayəsindəki bu qeyd etiqadın yayılmış olmasına dair başqa bir misaldır» (6, 89).

Sonda yuxarıda verdiyi bütün məlumatları aşağıdakı kimi təsnif edən müəllif yazır:

1. Yuxarıda verilən məlumatdan gəldiyimiz nəticəyə görə, deyəsən, türklər qədim dövrlərdə qurbanları kiminsə adına onun ətrafında və ya əgər bu bir ölü üçündürsə, məzarın ətrafında fırladırlar.

2. Bu fırlanmanın türklər arasında, xüsusilə cənazə ayinlərində yeddi adətinə istinad edilərək yeddi dəfə olduğu güman edilir. Ancaq daha sonrakı zamanlarda cənazə ayinlərində qədimdən bəri əhəmiyyətli olan üç adətinə görə, üç dəfə fırlandığını görürük ki, bu da Azərbaycanda və Anadoluda son zamanlara qədər davam etmişdir.

3. Qədim türk şamanizmində bir xəstənin yerinə digər bir nəfərin özünü qurban etməsi etiqadı mövcuddur. Ona görə də digər qurbanlarda oduğu kimi, buna aid mərasimdə də başa dönmək adəti davam etmişdir.

4. Bir xəstənin yerinə qurban olan şəxs tapmaq çox çətin, müşkül ol-duğundan yavaş-yavaş insan yerinə, onu təmsil edən və ona görə də onun yerinə bir müqəvvanı atəşə və ya suya atmaq, yaxud kənara atmaq şərtiylə xəstənin başında fırlatdıqdan sonra qurban etmək adəti mövcud olmuşdur.

5. Bir nəfərin yerinə onu təmsil edən bir müqəvva qurban etmək adətindən başqa, xəstənin başına fırladılaraq bir heyvanı qurban etmək adəti də şübhəsiz mövcud olmuşdur. Bu qurban at, sığır, dəvə, qoyun kimi türklər arasında qədimdən bilinən və qəbul olunan, müxtəlif ayinlərdə qurban olaraq istifadə olunan heyvanlardan olurdu.

6. İslamiyyəti qəbul edən, hətta qüvvətli islam təsiri altında qalan müxtəlif türk tayfalarında yuxarıdakı şaman etiqatdarının islam rənginə boyamağa çalışmaqla bərabər, davam etdiyi də bu məqalədə göstərilir. Bundan başqa, qurban edilən heyvanı sədəqə vermək, yaxud hər hansı şəkildə sədəqə vermək adəti daha geniş yayılmış, fəqət buna baxmayaraq qurban və ya sədəqəni xəstənin başına fırlatmaq adəti unudulmamışdır.

7. Müsəlman türklər arasında yalnız xəstələr üçün deyil, hər hansı bir fəlakətdən qurtulanlar üçün də başına fırlatmaq şərtiylə sədəqə vermək, kasıblara paylamaq şərtiylə qurban kəsmək, yaxud «Dədə Qorqud»


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hekayələrində, gördüyümüz kimi, qul və kənizləri azad etmək adəti uzun müddət davam etmişdir. Tamamilə İslam mahiyyətində olan bu adətdə başa döndərmək şamançılıq ənənəsinin davamıdır.

8. Coğrafi mövqeləri və ictimai forma etibarilə qədim şamançılıq ənənələrini az-çox mühafizə edən qazax-qırğızlarda aynalmaq adəti bir az islam şəklinə bürünməklə bərabər davam etdiyindən onlar bu ifadənin mənasını unutmamışlar, fəqət bu mənanı genişləndirmək məcazi mənada sadəcə şəfqət ifadəsi olaraq da istifadə etməyə başlamışdılar. Halbuki çoxdan bəri şəhər həyatına keçən azəri türkləri «başa dönmək» təbirinin ifadə etdiyi qədim mərasimləri unutduqlarından bu ifadə onlar arasında yalnız şəfqət və ya hörmət ifadə etməkdədir (6, 91).

Mehmet Fuad Köprülüzadənin «Azərbaycan Yurd Bilgisi» dərgisində nəşr etdirdiyi «Dədə Qorqud kitabına aid notlar» adlı məqaləsinin üçüncü hissəsi «Ozan» (7) adlanır. Bu adın oxunuşuyla bağlı müxtəlif mübahisəli məqamları göz önünə gətirən müəllif Povet de Coureitlle və Radlovun bu ifadəni «uzan» şəklində oxuduqları halda Bartoldun onu müxtəlif məqalələrində (2, 204-205) ozan oxuduğunu qeyd edir. Daha sonra müəllif yazır ki, «Qamus-i Türki»nin sahibi[1] kəlimənin əksi mənasını nəzərə almayaraq, yalnız Osmanlı ləhcəsində son zonalardakı mənanı qeyd etməklə yanaşı, nədənsə «uzan» şəklini göstərmişdir. Hüseyn Kazım bəy «Böyük türk lüğəti»ndə bu kəlməni qeyd etməmişdir. T.Kovalski uzan şəklini qəbul etmişdir. Samoyloviç isə türkmən ədəbiyyatıyla bağlı məqaləsində bu iki şəkildən heç birini qəbul etməyərək bu haqda izahat vermiş (8, 144-145) və bu kəlmənin istər tələffüz, istər məna etibarilə xüsusi tədqiqata layiq olduğunu söyləmişdir (7, 133).

Ozan kəlməsi haqqında Mehmet Fuad ayrı-ayrı məqalələrində geniş məlumat vermişdir (8, 79; 9, 242-243). Mehmet Fuad yazır ki, «ozan kəlməsi haqqında böyük alim Quatremer Məmlüklər haqqındakı əsərin qiymətli haşiyələrindən birində مسالك الابصار ، كتاب الانشاة ، خطط مقريزي kimi mənbələrə istinadən məlumat vermişsə də, bu məlumat indiyə qədər heç bir türkoloqun nəzərinə çarpmamış və ilk dəfə olaraq «XVI əsrin sonuna qədər türk saz şairləri» adlı əsərimdə bundan istifadə edilmişdir. Halbuki Quatremerin (11) verdiyi məlumatın xülasəsi R.Dozinin məşhur «Supplement aux dictionnaires arabes» əsərində də mövcud olduğundan daha asanlıqla diqqəti cəlb edə bilirdi» (7, 134).

Maraqlısı budur ki, Mehmet Fuadın qeyd etdiyi bu irad bu gün də qüvvədədir. Araşdırmalarımız göstərdi ki, heç bir ozan-aşıq sənətinin tədqiqatçısı bu günə qədər nə Quatremerin, nə də Dozinin əsərlərini tədqiqata cəlb etməmişdir. Halbuki bu əsərlər ozan-aşıq sənətinin öyrənilməsi baxımından çox qiymətlidir.

Quatremerin ozan kəlməsinin türk-oğuz mənşəyindən gəldiyini bilmə-yərək onun xaricdən gəlmə davul və nağara kimi bir musiqi aləti olduğunu iddia edir. Fransız alimi bu aləti çalan müsiqişünasın türkcə qədim hökmdarların tarixini, hərb hekayələrini, məşhur qəhrəmanların şücaətini tərənnüm etdiyini və yenə onun yanındakı bir çox şairlərin də növbəylə telli sazlarla (qeyd edək ki, Mehmet Fuad bunun qopuz olduğu düşünür) türkcə şeirlər yaratdıqlarını qeyd edir.

Mehmet Fuad eyni zamanda, əski mənbələrdə göstərildiyi kimi ozan kəlməsinin əsas etibariylə bir musiqi alətinin deyil, şair-musiqişünaslarının ismi olduğunu sübut etməyə çalışır.

Mehmet Fuad ozan kəlməsi ilə bağlı bir sıra mənbərə istinad edərək yazır: «Əbu Həyyanın əsərlərində bu kəlmənin anlamı «qopuzla türkü söyləyən» mənasındadır və bu aşağıdakı izahata uyğun gəlir. Əsərini XIV əsrin ilk illərində Misirdə bitirən Əbu Həyyanın verdiyi məlumat Quatremerin verdiyi məlumatların yerinə keçə bilmə mahiyyətini daşıyır. Hər halda o, XIII əsrdə Məmlük ordularında ozan kəliməsinin mövcudiyyətini qəti şəkildə göstərir. Əyyubilər dövründə və ilk Məmlük sultanları zamanında Misirdə oğzuların əhəmiyyəti tarixən məlum olduğu üçün, bu oğuz kəlməsinin o dövrdə mövcud olmasını da təbii görmək lazımdır» (7, 135).

Qopuz çalanların öz dövrlərində Osmanlı ordusunda deyil, Səlcuq ordusuna aid olmasını əski mənbələrlə sübuta yetirən müəllif əsgər musiqilərinə malik olan Anadolu Səlcuq ordusunda ozanların olmamasının qeyri-mümkün olduğunu qeyd edir.

Cəmiyyətdə ozanların mövqeyinə də toxunan Mehmet Fuad XV əsrin mütəsəvvüf şairlərindən Kamal Ümminin bir qəzəlində oğuz ozanlarının bağıra-çağıra şeirlər ifa etdiklərini söyləyir və qeyd edir ki, bu şəkildə ifadə tərzi islami ənənələrdən çox tayfa ənənələrinə bağlı olan ozanların əleyhinədir. O yazır ki, «Kamal Ümminin bu ifadəsindən sonra şair və tarixçilərdə təsadüf etdiyimiz ozan kəlməsi mənfi məna işlənir. Lamii نفس الامرنامة əsərində bu ifadəni «uzunçu, uzun danışan» mənasında işlədir. Məşhur şair Zati «Letaif» əsərində ozanları digər musiqişünaslar arasında qələmə verərək onların qopuz çaldıqlarını söyləyir və ona görə də onları digər qopuzçulardan ayırır. Ədirnəli Nəzmi ozan kəlməsini «uzunçu, ağzına gələni söyləyən» mənasında göstərir. Tarixçi Əli vəzn bilməyən bir ozanın cahil Germiyan oğlu tərəfindən təqdir edildiyini lağ ilə söyləyir. Tarixçi Peçevi bir nəfərdən bəhs edərkən «fi-nefs-el-emir ozan makulesi lvğ ve lvtifesi çox muzhikvne ve nedimvne hareket edir, sikleti yok adam»

---

[1] «Qamus-i Türki»nin müəllifi Şəmsəddin Samidir. 6 clddən ibarət ensiklopediyadır. Əsərin əsl adı «Qamus ül-Elam»dır. Əsər türkcə yazıldığından bəzən belə də adlanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyərək bu xüsusdakı şəxsi anlayışını göstərir. Fərhəng-i Şüuridə də bu qeydi görürük: «اوزان bir tayfadır, tənbur çalıb türkü söyləyərlər və Oğuznamə oxuyurlar. Türkcədə اوزان dediklərididir» (14, 148). «Ləhcət-ül lüğvt» kitabının müəllifi isə bu kəlməni Osmanlı türkcəsində daha sonralar istifadə olunan mənası ilə «bihudə çox söyləyən» kimi izah edir. XVIII əsrin məşhur şairi Sabit ozanlıq kəlməsini bir qəsidəsinin «ozanlıq eyləmə Sabit hüzuri Asafda» misrasında «uzuncu, uzun danışan» mənasında istifadə etdiyi kimi, XIX əsr şairi məşhur Vasif-i Əndəruni də «çıkırık misvli ırlayacağına hey ozan» misrasında yenə eyni mənanı nəzərdə tutur. Ozan kəlməsini Anadolu türkləri arasında qədim dövrlərdən bu günə qədər istifadə etdiklərinə dair bu qeydlərə əlavə olaraq ozan adlı (bəlkə də XV əsrə aid) qədim bir Osmanlı xalq şairinin mövcudiyyətini də qeyd edək. Bu kəlmə ozan tələffüzü ilə «uzuncu, uzun danışan» mənasında Anadolunun bəzi yerlərində hələ də istifadə olunmaqdadır» (7, 136).

Bundan sonra Mehmet Fuad tədqiqatçı Əli Rza bəyin verdiyi məlumatla razılaşır. Əli Rza bəy yazır ki, «Adana ərazisində Qara İsalı qəzasında Əlibaş və ya Alabaş adında bir tayfa yaşayır və onlara ozan deyilir. Ozan kəlməsi «qaraçı» və xüsusilə «çalğıçı qaraçı» mənasında istifadə edilən bir kəlmədir. Ozan kəlməsinin Anadoluda XIX əsrdə «uzunçu, uzun danışan» mənasında istifadə etməklə yanaşı, «xanəndə, türkü söyləyən» mənasını da mühafizə etmişdir. Anadolu qaraçıları, xüsusilə çalğıçılıq və xanəndəliklə məşğul olduqlarından hərəkət ifadə edən *ozan* kəlməsinin onlara da şamil olunduğu anlaşılır. Əsasən əski bir təsəvvüf islahı ikən bir zamanlar Qələndərlər, Heydərlər kimi sərsəri dərviş təriqətlərinə də aid olan abtal ابدال kəlməsi sonradan Anadoluda bəzi qaraçı və ya qaraçı olmadığı halda belə adlanan bəzi zümrələrin adı olaraq saxlanıldığı kimi, ozan kəlməsinin «qaraçı çalğıçı» mənasında istifadə edilməsi də bunu xatırladan semantik təkamül əsəridir. Hər iki halda da kəlmələrin qədim, ulu mənalarını itirərək hərəkəti ifadə etmək anlamında işləndiyi görünür» (7, 136-137).

Bütün bu tədqiqatları göz önünə gətirərək Mehmet Fuad Azərbaycanda ozan kəlməsinin XIV-XV əsrlərdə xalq şair-musiqişünası mənasında istifadə olunduğunu qeyd edir. Özbək tədqiqatçısı Fitrət yazır ki, «Hafiz Dərviş Əli Cəngi adlı bir müəllif XVI əsrin sonunda Şeybanilərə aid yazdığı bir musiqi risaləsində türklərin əski və məşhur sazı olan qopuzun Cəlarilər sülaləsindən Sultan Üveys zamanında (1356-1374) ozan adlı bir çalğıdan alındığı və ozanın oğuzlar arasında əskidən bəri çox məşhur olduğu, qəhrəmanların mücadilələrindən əvvəl daima yanlarında gəzdirdik-ləri, bu çalğını çaldıqları və bunu çalmaq bilməyənləri yalançı adlandıraraq şəhərdən qovduqları yazılıdır» (15, 43-50).

Mehmet Fuad da Fitrətin yuxarıda dediklərinin bir qismi ilə razılaşaraq Cəlarilər dövründə yazılmış əski bir mənbədən alınan bu ifadənin XIV əsrdə Azərbaycan ərazisində mövcud olduğunu göstərir və «Dədə Qorqud» hekayələrinin ozanlar tərəfindən yarandığını söyləyir. O yazır ki, «XIV əsrdə Azərbaycan ərazisində təsbit edilmiş «Dədə Qorqud kitabı» ozanın mahiyyəti və oğuz tayfaları arasındakı mövqeyi haqqında bizə çox dəqiq məlumat verir. Ozanlar oğuz cəmiyyəti arasında xüsusi bir zümrə təşkil edir. Əllərində qopuzlarıyla eldən-elə gəzərlər, toylarda, ziyafətlərdə iştirak edirlər, qopuzlarıyla qədim oğuz dastanları, «Dədə Qorqud» hekayələri söyləyirlər, yeni hadisələr haqqında yeni şeirlər yazırlar. Zənginlər də onlara bəzən kürəklərindəki xələti çıxardıb verirlər, qoyunlar, qoçlar ehsan edirlər. Ona görə də yenə «Dədə Qorqud kitabı»nda ozanların daha qədim zamanlarındakı əhəmiyyətlərinə aid bəzi işarələr var: bir yerdə adı çəkilən *alp ozanlar* ifadəsi, alplar, yəni qəhrəmanlar arasında da ozanların yetişdiyini göstərməkdədir» (7, 137).

Samoyloviç «kaysı yere devlet gelse, Baxsı bilen ozon gelir» türkmən zərbi-məsəlindəki *ozon* kəlməsinin *ozan* olması ehtimalını irəli sürür (16, 144). Azərbaycanda və Anadoluda *aşıq* sözünün işləndiyi kimi Türkmənlər arasında da bu kəlmənin yerinə *baxsı* istifadə olunur. Cağatay ədəbiyyatın-da ozan kəlməsinə ilk dəfə Əlişir Nəvainin «Mizan ül-Əvzan adlı əsərində rast gəlinir. O, ozanların اوزماغ (ozmağ və ya uzmağ – Q.Ş.) adlı bir nəğmələri olduğunu söyləyir və bu nəğmənin əruzun heç bir vəzniylə uyğun gəlmədi-yini qeyd edir. Qeyd edək ki, Cağatay lüğətlərində bu ifadə «davul və dəf çalaraq ozan, yəni mani və mahnı (şərqi) oxuyan adam» kimi göstərilir.

«Dədə Qorqud kitabı»nı «ozanların piri» adlandıran Mehmet Fuad sonda Mehmet Fuad yuxarıda dediklərini bir neçə mərhələdə qısaca izah edir:

1. *Ozan* kəlməsi oğuzların xalq şair-musiqişünası mənasında çox əskidən bəri istifadə etdikləri bir kəlmədir. Kəlmənin qədim dövrlərdə müxtəlif Oğuz tayfaları arasında mövcud olması hələ oğuzların Seyhun sahillərində yaşadıqları zamanlarda, yəni böyük Səlcuq dövlətinin qurulmasından əvvəl mövcud olmasına sübutdur.

2. Bu kəlmə müxtəlif oğuz tayfaları arasında əskidən bəri yaşamış və deyəsən, Azərbaycan ərazisində XIV əsrdə ozanların istifadə etdikləri qo-puza da bu ad verilmişdir. Beləliklə də, ozançı kəlməsi meydana çıxmışdır.

3. XV əsrdən sonra ozan kəlməsinin yerinə Azəri və Anadolu ərazi-lərində aşıq, Türkmən ərazisində isə baxsı kəlmələri mövcud olmuşdur.

4. Anadolu və Azərbaycan oğuzları arasında əski mənası unudul-duqdan sonra da ozan kəlməsi «çox danışan» mənalarında son zamanlara qədər istər əbədi dildə, istərsə də xalq (danışıq – Q.Ş.) dilində davam etmişdir. Anadolunun bəzi yerlərində çalğıçı qaraçılara da bu ad verilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

5. Digər türk tayfaları arasında bu kəlmə istifadə olunmamışdır. Cağatay müəlliflərinin bu kəlməni ya Xorasan türkmənlərindən, yaxud da Azəri ərazisində yazılmış əsərlərdən öyrəndikləri anlaşılır. Nəvayinin bəhs etdiyi *ozmağ* kəlməsinin Xorasan türkmənlərinin xalq ədəbiyyatına məxsus bir istilah olunduğu təxmin edilə bilər (7, 140).

Yaxın zamanlarda Mehmet Fuad Köprülüzadənin haqqında danışdığımız «Dədə Qorqud kitabına aid notlar» məqaləsi tam şəkildə nəşr etdirəcəyik.

## ƏDƏBİYYAT

1. İslam Ansiklopedisi. 30 ciltte, XXVIII cilt, Ankara, 2003
2. İslam Ansiklopedisi. 12 ciltte, VIII cilt, İstanbul, 1979
3. Köprülüzadə M.F. Bir hecv munasibetiyle. «Yeni Mecmua» dergisi, nr.44, 16 Mayıs, 1918
4. Köprülüzadə M.F. Bir Hatıra. TTK Belleten, nr.10, 1939
5. Köprülüzade M.F. Dede Korkut kitabına ait notlar. Altun küpeli Oğuz beyleri. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, Yıl 1, sayı 1, s. 17-21
6. Köprülüzade M.F. Dede Korkut kitabına ait notlar. Başa dönmek, aynalmaq. Azerbaycan Yurd Bilgisi. İstanbul, 1932, yıl 1, sayı 2, s. 84-91
7. Köprülüzade M.F. Dede Korkut kitabına ait notlar. Ozan. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 2, s. 133-140
8. Köprülüzade M.F. Türk Edebiyyatı Tarihi. Cilt I, 1920
9. Köprülüzade M.F. Türk Edebiyyatında İlk Mutasavvıflar. Ankara, 1991
10. Kitabi-Dədə Qorqud (tərtib edənlər: Zeynalov F., Əlizadə S.). Bakı, 1988
11. Quatremere M. Histoire des Sultans Mamlouks de l'Egipte. Part 1, Paris, 1837
12. Mümtaz S. El şairləri. I cild, Bakı, 1927
13. Divaev A.A. Etnoqrafiçeskie materialı. Kirqizskoe priçitanie po pokoynike. Vıp.IX, Taşkent, 1903
14. Həsən Şüuri Hələbi. Fərhəng. 2 cilddə, I cild, nəşr ili yoxdur.
15. Fitret. Özbek Klassik Musikası ve onun Tarihi. Semerkant-Taşkent, 1927
16. A.Samoyloviç. Oçerki po istorii Turkmenskoy literaturı. Turkmeniə, t.I., 1929

## МЕХМЕТФУАД КЁПРЮЛЮЗАДЕ И ЕГО ИССТЕДОВАНИЯ «ДЕДЕ ГОРГУД»

В данной статье, наряду с исследованием жизни Мехмет Фуада Кёпрюлюзаде, был дан поэтапный анализ его творческой деятельности.

При исследовании различных этапов творчества Мехмета Фуада, за основу была взята состоящая из трёх частей статья «Заметки к Книге Деде Горгуд», каждая из которых была анализирована в отдельности В первой части книги Мехмет Фуада «Книга Деде Горгуд» повествуется об «огузских беках с золотыми серьгами в ушах». Исследуя историко-етимологическую сущность ношения огузскими беками серёг в ушах, Мехмет Фуад в статье «Огузские беки с золотыми серьгами» ссылается на многочисленные древнеисторические источники. Вторая часть статьи называется «Баша дёнмек, айналмаг». Здесь Мехмет Фуад повествует о том, что обычай «баша дёнмек» – сделать круг вокруг кого-то достался от шаманизма и в некоторых тюркоязычных народах до сих пор продолжается практиковаться. Эту мысль он доказывает историческими источниками. В третьей части статьи, названной «Озан», Мехмет Фуад в своих статьях, анализирует и объясняет спорные моменты, связанные с произношением слова «озан».

## MEHMET FUAD KORULUZADEH AND HIS INVESTIGATIONS ABOUT «DEDE GORGUD»

In the article side by side with the life of Mehmet Fuad Korpuluzadeh the activity also was investigated.Investigating the different levels of Mehmet Fuad Korpuluzadeh's activity the main was the article "Notes about Dede Gorgud Book. The article consisting three parts was analyzed separately due to its parts. In the first part Mehmet Fuad disputes about the "Oghuz beys with golden ear-rings who were mentioned in "Dede Gorgud Book. Mehmet Fuad investigating the historical –etymological ways of wearing ear-rings in Oghuz beys supported to some ancient historical sources in the article "Oghuz beys with golden ear-rings.The second part of the article is called "Basha donmek, aynalmag. Here Mehmet Fuad speaks about the tradition "basha donmek ("make circle around somebody) which remained from shamanism still continues in some Turkic nations and he proves his thoughts with historical sources.

Mehmet Fuad calling the third part of the article "Ozan explains some arguments about the reading of the word "Ozan. At the same time different opinions and thoughts from various articles are mentioned.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XIV-XV ƏSRLƏRDƏ AZƏRBAYCAN VƏ TÜRK MUSİQİ JANRLARININ BƏRPASI
## (Tuyuq, Qoşuq, Cəngi, Məhəbbətnamə, Müstəzad, Arazvari, Türki havalarının forma, lad xüsusiyyətləri və melodik poetikası)

*sən.dok. Rafiq İmrani*
*AMEA Folklor İnstitutu*
*Azərbaycan*

Türkdilli xalqların zəngin mədəni irsi haqqında geniş danışmağa heç bir ehtiyac yoxdur. Çünki, türkdilli xalqların dünya mədəniyyətinin formalaşmasında oynadığı son dərəcə böyük və əhəmiyyətli rol danılmaz bir həqiqət kimi ayrı-ayrı tarixi faktlarda, elmi sənədlərdə, kitab və arxiv materiallarında öz əksini tapmışdır. Türk xalqlarının mədəni irsinin tarixən geniş arealda; Şərq, Asiya və Avropa ölkələrində təmsil olunması bunu əyani şəkildə ortaya çıxarır. Türkdilli xalqların ortaq tarixi, keçmiş və bu günkü mədəni nailiyyətləri spesifik milli xüsusiyyətlərə görə bir-birindən seçilsədə bir çox ortaq cəhətlərə; məişət, dil, poetik və musiqi təfəkkürü tərzlərinə, mərasim, milli ənənələrə görə bir-birini tamamlayır və vahid Turk mədəni irsini, əxlaqını, düşüncəsini ortaya qoyur. Məhz bu cəhətlərə görə həm tarixən, həm də bu cün böyük Türk dünyasının mədəni nailiyyətləri yaşayır.

Türk xalqlarının mədəni irsinin formalaşmasında və geniş coğrafi ərazilər boyu yayılmasında iki əsas amili; türk dilini və onun formalaşdırdığı poetik-musiqi düşüncəsini xüsusi olaraq qeyd etmək istərdim. Türk xalqlarının gen yaddaşının yaşamasının və inkişaf etməsinin də əsas səbəbi göstərilən amillərin bir kökə əsaslanıb ortaq şəkildə özünü biruzə verməsidir. Onu da xüsusi olaraq qeyd edim ki, türkdilli xalqların dilləri ayrı-ayrı şivələrə, dialektlərə, eyni zamanda onların musiqi sənəti, ayrı-ayrı səs sistemlərinə malik olsalar da dildə olan ortaq dəyərlər, məna və məzmunlar vahid Türk mədəniyyəti ünsürlərini formalaşdırır ki, bu da böyük Türk dünyasını yaratmış olur.

Türk xalqlarının mədəniyyəti tarixən iki əsas istiqamətdə özünü göstərmişdir. Bunlardan birinicisi böyük Türk xaqanlarının, hökmdarlarının saraylarında, ikincisi isə sadəxalq kütləsinin məişətdə yaşatdığı poeziya və musiqi nümunələri, mərasimlərdir. Onların milli musiqi mədəniyyətlərində ortaq musiqi janrlarından biri də mahnı janrıdır ki, onlardan həm saray ənənələrində, həm də geniş xalq kütləsinin məişətində istifadə olunmuşdur. Xalq mahnıları janr xüsusiyətlərinə görə müxtəlif olmuşdur. Bunları aşağıdakı şəkildə təsnif etmək olar.

1. Saraylarda ifa edilən mahnılar. Bu mahnıların böyük əksəriyyəti əsasən vəsfinamələrdən, ithafnamələrdən, məhəbbətnamələrdən, qəhrəmanlığı göstərən şücaətnamələrdən ibarət olmuşdur. Misal olaraq «Məzdakani»ni, «Xosrovani»ni, «Baği-Şirin»i, «Şəbdiz»i, «Saqinamə»ni, «Vücudnamə»ni, «Nəbəti»ni və başqalarını göstərə bilərik.
2. Şəhər məişətində istifadə olunan mahnılar. Bu mahnılar arasında Laylalar, Qəhrəmani mahnılar, Cəngilər, lirik-psixoloji mahnılar, məhəbbət və toy mərasim mahnıları, uşaq mahnıları, məişətlə bağlı yaradılmış müxtəlif məzmunlu Tuyuq, Qoşuq, Müstəzad və s. mahnılar.
3. Geniş xalq kütləsinin yaşadığı kənd mühiti ilə bağlı mahnılar. Bu mahnılara peşəkar və qeyripeşəkar sənətçilər tərəfindən yaradılmış mahnılar daxildir. Ozanların, Aşıqların eli-obanı, məhəbbəti, qəhrəmanlığı vəsf edən Arazvari, Türki, Təcnis, Divani, Müxəmməs, Bayatı, Gəraylı, Məsnəvi, Qoşma və s. çoxsaylı şer növlərinə bəstələnmiş mahnıları göstərmək olar. Digər tərəfdən mərasimlərlə bağlı yaradılmış musiqi havaları; sayaçı, holavar, şum nəğmələri, biçin, yığım, balıqçılıq, yel baba, qodu, yağışı çağırma və s. nəğmələr də bu səpkidəndir.

Azərbaycan və qədim türk xalqlarının xalq mahnı janrları ən qədim zamanlardan poetik mətn üzərində qurulduğu üçün şeirlərin məzmunu, metrik ölçüləri, vəzni, yaradılan mahnıların janr xüsusiyyətlərinin, formasının və bir sıra hallarda lad-intonasiya cəhətlərinin formalaşmasına təsir etmişdir. Xalq mahnılarının nəzəri təhlilləri onu sübut edir ki, məişətdə işlədilən mahnıların formayaradıcı amilləri bu mahnıların yaranma mühiti, dövrü ilə sıx bağlı olmuşdur. Adətən kənd mühitində, əmək prosesində yaradılmış folklor mahnılarının mətnləri görülən işin mahiyyəti, məzmunu ilə əlaqədar idi. Heyvandarlıqla, əkinçiliklə, mövsüm və mərasimlərlə bağlı yaranmış mahnıların hamısı məzmunca görülən işi vəsf etmiş və əmək prosesinin yüngülləşdirilməsinə həsr olunmuşdur. Məsələn; muğam janrında «Çoban-Bayatı» çobanın uca dağlar qoynunda elin obanın sürüsünü otararkən cuşa gəlib Bayatı deməsi ilə balğı yaranmışdırsa, C. Bağdadbəyovun verdiyi məlumata görə «Dağıtma» havası qoyun-quzunun otlamaya aparılmasını, «Qaytarma» havası isə qoyun-quzunun bir yerə toplanmasına görə yaradılmışdır. Və ya digər misalda, sayaçı mahnılarında kəndlinin öz heyvanını xüsusi nəvaziş və məhəbbətlə bəsləməsinə həsr edilmiş əzizləmə motivi əsasında oxunan mahnıları göstərə bilərik. Belə misalların sayını istənilən qədər çoxaltmaq olar. Bunu göstərməkdə əsas məqsəd folklor havalarının, həmçinin şəhər mühitində yaradılan hər hansı bir janra məxsus xalq mahnılarının məzmununun mühitlə, əmək prosesi və ya hər hansı bir hadisəylə sıx bağlı meydana çıxmasını üzə çıxartmaq idi. Buna görə də xalqın istedadlı nümayəndələri yaratdığı mahnılarda yaşadığı dövrdə şifahi ədəbiyyatda mövcud olan müxtəlif janrlara aid şeirlərdən geniş istifadə etmişdirlər. Həmin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şeirlər vəzninə, metrik ölçülərinə, forma xüsusiyyətlərinə görə müxtəlif olduqları üçün yaradılan mahnılar da həmin şeirlərin məzmunundan, vəznindən irəli gələn formayaradıcı amilləri özündə ehtiva etmişdir. Buda onu göstərir ki, ədəbi irsimizin müxtəlif janrları əsasında yaradılan xalq mahnıları, Aşıq havaları öz forma və məzmun xüsusiyyətlərinə görə çoxcəhətli və rəngarəngdir. Təkcə, Aşıq yaradıcılığında mövcud olan şeir növləri haqqda tanınmış folklorşünas alim M.Həkimov yazır ki, « ... uzun illərdən bəri bu sahədə apardığımız tədqiqat nəticəsində 74-dən çox aşıq şeir növü müəyyənləşdirilmişdir. Bunun 40-dan XVIII əsrə qədər yaşamış ustad aşıqlarımız istifadə etmişdir. 34 şeir formasını isə XIX, XX və Azərbaycan çağdaş aşıqları yaratmışlar. Hələ biz buraya «Kitabi Dədə Qorqud» dastanındakı şeir növlərini, xalq təkərləmələrini, mərasim nəğmələrini, əruz vəznində yazılmış aşıq qəzəllərini əlavə etmirik. Bütün bunları nəzərə alsaq M. H. Təhmasib öz fikrində haqlıdır. Bu baxımdan əsərlərin, qərinələrin yol yoldaşı olan aşıq ədəbiyatında 70 - dən yuxarı bədii növlərin işlək dairəsi məhsuldardır »[271].

Həmin şeir formaları arasında Heca, Bayatı, Gəraylı, Cığalı gəraylı, Sallama gəraylı, Mürvəti gəraylı, Əlif-lam gəraylı, Qaytarma gəraylı, Təcnis gəraylı, Gəraylı dildönməz, Təkərləmə təsnif gəraylı, Gəraylı rübai, Qoşma, Güllü qafiyə, Qoşa yarpaq qoşma (haça beyt - çarpaz qafiyə), Qoşma müstəzad - Ayaqlı qoşma, Ustadnamə, Təssüfnamə, Təcnis, Heydəri, Məsnəvi, Rübai, Divani, Müxəmməs, Qəzəl janrının müxtəlif bəhrlərində yazılmış Rəməl, Həzəc və s. çoxsaylı şeir növlərini göstərə bilərik. Qeyd edilən müəlliflərin göstərmədiyi şeir növlərinin adlarına isə erməni mənbələrində rast gəlmək olar. Bu haqda tanınmış folklorşünas alim İ.Abbasov özünün doktorluq dissertasiyasında və nəşr etdirdiyi kitablarda məlumat vermişdir. O, erməni aşıqları haqqında materialları toplayan Tridat Baleanın İzmirdə 1911-ci ildə çap etdirdiyi əsərdə verdiyi məlumata istinad edərək yazır ki, ermənilərin «...habelə oxuduqları şeirlərin adları da türkcədir: qoşma, dastan, qələndər, müstəzad-qələndar, müxəmməs - qələndər, divani, qəzəl, rübai-divani, müsəddəs – divani, səmai, müsəddəs-səmai, naxşikar-səmai, yedəkli-səmavi, dübeyti, müxəmməs, təcnis, zəncirləmə, dodaqdəyməz, əlifləmə, sətrənc, qit’ə, qəsidə, nəqərat və s.».

Tükdilli xalqlar əruz vəznini XI əsrdən etibarən öz poeziyalarında işlətməyə başladıqdan sonra saray ənənələrində, xüsusən də şəhər mədəniyyətinə xas ədəbi məclislərdə poetik təfəkkürün bu janrı həm xanedanın salonlarına, həm də geniş xalq tərəfindən yaşadılan «məclisi şüara» deyilən salonlara nüfuz etməyə başlayır. Əmir Əlişir Nəvai və onun «Mizan ül-övzan» əsəri haqda məlumat verən f.e.d. Tərlan Quliyev yazır ki, «... elm aləmində əruz vəznində yazılan hələlik bizə məlum ilk türkdilli əsər Yusif Balasaqunlunun «Qutadqu bilik» poeması hesab olunur. Bu poema mütəqarib bəhrinin fə’Ulün, fə’Ulün, fə’Ulün, fə’Ul ölçüsündə qələmə alınmışdır».

Məlumat üçün bildirim ki, Əmir Əlişir Nəvai 9 fevral 1441-ci ildə Heratda anadan olmuşdur. O, uşaqlıqdan Mirzə Bayqaranın nəvəsi Əmir Qiyasəddin Mənsurun oğlu Hüseyn Bayqara ilə bir yerdə böyümüşdür. Orta əsrlərdə Herat şəhəri və onun sakinləri, İran imperiyası daxilində olmuşdur. Bu fakt göstərir ki, vaxtı ilə Heratda və bu ərazilərdə mövcud olan digər şəhərlərdə yaşayan xalqlar ortaq bir mədəniyyətdən bəhrələnmişlər. Nəzərə alsaq ki, tarixən həmin ərazilərdə türk dilli xalqların öz aralarında ünsiyyət dili türk dili olmuşdur və Səfəvilər hakimiyyəti dövründə onun nüfuzu yüksələrək Şah Xətainin zamanında dövlət dili statusu almışdır, onda poeziyanın hansı dildə, musiqinin isə hansı milli dilin səs sistemi əsasında inkişaf etməsini xüsusi olaraq vurğulamağa heç bir ehtiyac qalmır. Bu mənada aşağıda qeyd edəcəyimiz mahnıların, musiqi janrlarının sırf türkdilli xalqların musiqisi olması şübhəsizdir. İran mədəniyyətində türk musiqisinin böyük nüfuzunu nəzərə alsaq o cümlədən İranın, Avropanın, Orta Asiyanın musiqişünas alimlərinin orta əsrlərdə İranda 17 pilləli səs sistemindən istifadə olunması faktını bir əsas kimi qəbul etsək təhlil ediləcək musiqi janrlarının türkdilli xalqların musiqi nümunələri olmasına heç bir şübhə qalmır. Onu da xüsusi olaraq qeyd edim ki, mənim tədqiqatlarımın nəticəsi kimi «Muğam tarixi I cild» əsərində orta əsrlərdə İran mədəniyyətində istifadə olunan 17 pilləli səs sisteminin böyük musiqişünas alim S.Urməvinin(XIII əsr) və XV əsrlərdə Ə. Q. Marağinin səs sistemi olması faktını ortaya çıxarması həmin səs sisteminin Azərbaycan türklərinin milli musiqi səs sistemi olması faktını təsdiqləmişdir. Qeyd olunan faktlar XIV-XV əsrlərdə Əmir Əlişir Nəvainin «Mizan ül-övzan» əsərində verilən musiqi janrlarının Azərbaycanda da geniş şəkildə ifa olunmasını təsdiqləyir.

Orta əsrlərdə milli ənənələrini İran imperiyası çərçivəsində qoruyub saxlayan türkdilli xalqların bugünkü musiqi mədəniyyəti janrlarını qarşılıqlı şəkildə təhlil edərkən «Tuyuq» mahnı janrının Cığatay milli musiqi ənənəsində, «Qoşuq» mahnı janrının Orta Asiya xalqlarının milli ənənəsində, «Cəngi», «Arazvari», «Məhəbbətnamə» mahnı janrlarının Azərbaycan musiqi ənənəsində, «Türki» havalarının müasir türk milli musiqi ənənəsində qorunub saxlanıldığının şahidi olduq. Elmi axtarışlar və tarixi-nəzəri təhlillər sübut edir ki, «Müstəzad» türk ədəbi janrında bir forma olduğuna görə o, muğam havalarında və Azərbaycanda geniş yayılmış

---

[271] **Həkimov M. Aşıq sənətinin poetikası. Bakı. Səda. 2004. s. 375.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aşıq musiqi havalarında oxunmuşdur. T. Quliyev Ə. Nəvainin fars və türk əruzlarında işlənən əsli təf'ilələrin beş olmasını göstərir. Onlar aşağıdakılardır: fə'Ulün, məfA'İlün, fA'ilAtün, müstəf'ilün, məf'UlAtü. Daha sonra digər təf'ilələrin bu xalqların poeziyasında çox çətinliklə işləndiyi də qeyd olunur[272]. Maraqlısı budur ki, müəllif Ə.Nəvainin öz əsərində əruzvəznli şeir sistemində olmayan, lakin əruz vəznində qələmə alınan bir neçə türk şeir formasının da adını çəkdiyini bildirir və onların aşağıdakılardan ibarət olması göstərilir: tuyuq, qoşuq, cəngi, arazvari, məhəbbətnamə, müstəzad və türki[273]. Nəvai həmin musiqi janrlarının aşağıdakı cədvəldə göstərilən qəzəl formalarında oxunduğunu qeyd edir. Cədvəlin tərtibi bizimdir.

XIV-XV əsrlərdə türkdilli xalqların ifa etdiyi; tuyuq, qoşuq, cəngi, arazvari, məhəbbətnamə, müstəzad və türki havalarının hansı bəhrlərdə olmasını göstərən cədvəl

| Musiqi janrları | Hansı bəhrlər | Təf'ilələr | | | |
|---|---|---|---|---|---|
| Tuyuq | Rəməl | fA'ilAtün | fA'ilAtün | fA'ilAn | |
| Qoşuq | Mədid | fA'ilAtün | fA'ilün | fA'ilAtün | fA'ilün |
| | Rəməl | fA'ilAtün | fA'ilAtün | fA'ilAtün | fA'ilün |
| Cəngi | Münsərih | Müftə'ilün | fA'ilAn | Müftə'ilün | fA'ilAn |
| Arazvari | Həzəc | Məf'AİIün | Məf'AİIün | Məf'AİIün | Məf'AİIün |
| | Rəməl | fA'ilAtün | fA'ilAtün | fA'ilAtün | fA'ilün |
| Məhəbbətnamə | Həzəc | Məf'AİIün | Məf'AİIün | Məf'AİI | ___ |
| Müstəzad | Həzəc | Məf'Ulü | Məf'AİIü | Məf'AİIü | Fə'Ulün<br>məf'Ulü<br>fə'Ulün |
| Türki | Rəməl | fA'ilAtün | fA'ilAtün | fA'ilAtün | fA'ilAn |

Ə.Nəvai göstərilən bilgilərdən əlavə aşağıdakı maraqlı məlumatları da verir. Onun yazdığına görə Arazvarinin İraq tərəkəmələrinə, məhəbbətnamənin cənginin, müstəzadın isə ümumiyyətlə, türk ulusuna məxsus olduğu bildirilir və sonradan qeyd olunur ki, «Ozanların ozmağı və Özbəklərin buday-budayı heç bir vəznə uyğun gəlmədiyi üçün onlardan bəhs edilmədi. Nümunələr olsa da onların əruz elminə dəxli yoxdur»[274].

Ə.Nəvainin verdiyi bu məlumat fikrimcə orta əsrlərdə Azərbaycanda «Ozmağ», Özbəkistanda isə «Buday-buday» poetik və musiqi janrlarının olması faktını da təsdiqləyir. T.Quliyevin şərhinə görə bu şeir formaları heca vəznində olduğu üçün Ə. Nəvai tərəfindən nəzəri təhlilə cəlb edilməmişdir. Buradan belə bir məntiqi nəticə də çıxarmaq olar ki, bu musiqi janrları heca vəzni əsasında yazılmış şeirlərə oxunmuşdur. Qədim musiqi janrlarının bərpası zamanı qəzəllərin bəhrlərə görə düzgün oxunuşunun böyük əhəmiyyəti olacaq. Bunu nəzərə alaraq həmin qəzəllərin hansı bəhrlərdə olması cədvəlində metrik ölçüləri əruzun işarələri və məsafələrin notla uzunluqları aşağıdakı cədvəldə göstərilmişdir.

XIV-XV əsrlərdə türkdilli xalqların ifa etdiyi havalarının hansı metrik ölçülərdə olmasını göstərən Cədvəl

| Musiqi janrı | Hansı bəhrlər | Təf'ilələr | | | |
|---|---|---|---|---|---|
| Tuyuq | Rəməl<br>ölçsülər<br>not ilə | fA'il Atün<br>— ◡— —<br>q e q q | fA'ilAtün<br>— ◡ — —<br>q e q q | fA' il An<br>— ◡ —<br>q e q. | |
| Qoşuq | Mədid<br>ölçsülər<br>not ilə | fA'il Atün<br>—◡ — —<br>q e q q | fA' i lün<br>— ◡ —<br>q e q. | fA'il A tün<br>—◡ — —<br>q e q q | fA' i lün<br>— ◡ —<br>q e q. |
| | Rəməl<br>ölçsülər<br>not ilə | fA'il Atün<br>— ◡ — —<br>q e q q | fA'il Atün<br>— ◡ — —<br>q e q q | fA'il Atün<br>— ◡ — —<br>q e q q | fA'i lün<br>— ◡ —<br>q e q. |
| əngi | Münsərih<br>ölçsülər<br>not ilə | Müftə'ilün<br>— ◡ ◡ —<br>q e e q | fA'ilAn<br>— ◡ —<br>q e q. | Müftə'ilün<br>— ◡ ◡—<br>q e e q | fA'il An<br>— ◡ —<br>q e q. |
| Araz<br>vari | Həzəc<br>ölçsülər<br>not ilə | Məf'AİIün<br>◡ — ——<br>e q q q | Məf'AİIün<br>◡ — ——<br>e q q q | Məf'AİIün<br>◡ — ——<br>e q q q | Məf'A İ lün<br>◡ — ——<br>e q q q |
| | Rəməl | fA'ilAtün<br>— ◡ — —<br>q e q q | fA'ilün<br>— ◡ —<br>q e q | fA'ilAtün<br>— ◡ — —<br>q e q q | fA' i lün<br>— ◡ —<br>q e q |
| Mə<br>həbbət namə | Həzəc<br>ölçsülər<br>not ilə | Məf'AİIün<br>◡ — — —<br>e q q q | Məf'AİIün<br>◡ — — —<br>e q q q | Məf'AİI<br>◡ — —<br>e q q | |
| Müstəzad | Həzəc | Məf'Ulü | Məf'Aİ lü | Məf'A İlü | Fə'Ulün |

272 Nəvai Ə.Ə. Mizanül-övzan. Nurlan. Bakı.2006. s.11.
273 Yenə orada s.15.
274 Nəvai Ə.Ə. Mizanül-övzan. Nurlan. Bakı.2006. s.15.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

| | | | | | |
|---|---|---|---|---|---|
| | ölçsülər<br>not ilə<br><br>ölçsülər<br>not ilə | — —∪<br>q q e | ∪——∪<br>e q q e | ∪——∪<br>e q q e | ∪——<br>e q q.<br>(məf'U lü fə'Ulün)<br>— —∪∪——<br>q q e e q q |
| Türki | Rəməl<br>ölçsülər<br>not ilə | fA'ilAtün<br>—∪——<br>q e q q | fA'ilA tün<br>—∪——<br>q e q q | fA'ilAtün—∪——<br>q e q q | fA'ilAn<br>—∪—<br>q e q. |

Cədvəldən bəhrlərin düzgün oxunuşunu öyrəndikdən sonra Ə. Nəvainin «Mizan ül-övzan» əsərində musiqi janrları haqqında verilən məlumatlara diqqət yetirək və onların bərpasına çalışaq.

XV əsrdə ifa edilən nəğmələrdən danışan Ə.Nəvai ilk məlumatı Cığatay türklərinin məişətində geniş yayılmış Tuyuq haqqında verir. O, bu xüsusda yazır ki, «Yenə Türk ulusu, xüsusilə Cığatay xalqı arasında yayılmış vəznlərdir ki, onlar mahnılarını o vəzn ilə yazıb məclislərdə söyləyirlər. Biri iki beytdən ibarət Tuyuqdur. Səy edilir təcnis ilə deyilsin. Onun vəzni rəməli-müsəddəsi-məqsurdur»[275]. Tuyuq haqqında məlumat verən T.Quliyev yazır: «Dörd misradan ibarət olan şeir janrlarından biridir. Əsasən rəməl bəhrinin fA'ilAtün fA'ilAtün fA'ilün ölçüsündə yazılır, qafiyələri daha çox cinas olur. Ədəbiyyata türkdilli şairlər tərəfindən gətirildiyi güman edilir. Qazi Bürhanəddin, Nəsimi və Nəvainin yaradıcılığında daha çox təsadüf olunur»[276].

Tuyuqun Azərbaycanda yayılması və ondan istifadə olunması haqqında Yılmaz Öztuna belə məlumat verir: «Tuyuq klassik Türk şiirinde vaktiyle kullanılmış bir şekil. Yalnız Türk şiirine mahsustur. Arab ve İran (fars - İ.R.) şiirinde yoktur. Bilhassa XIV esr Azeri lehcesinde böyük rağbet görmüşdür. Şekil bakımından aynen rübai gibidir. Yalnız rübai veznleri ile degil, aruz vezinleri ile yazılır»[277]. Ə.Nəvainin Tuyuq şeir növünə aid verdiyi nümunəyə diqqət yetirək:

Ya Rəb, ol şəhdü şəkər' ya ləbmüdür,
Ya məgər şəhdü şəkər yaləbmüdür,
Canimə peyvəstə navək atqalı,
Gəmzə oqin qaşiğə yaləbmüdür.
fA'ilAtün fA'ilAtün fA'ilün

Musiqi janrının bərpası zamanı qəzəlin oxunuşunu tə'filəyə, əruz vəzninin ölçülərinə və not işarələrinin uzunluqlarına görə düzgün bölgüsünü təmin etmək üçün həmin qəzəli aşağıdakı cədvəl şəklində göstərək.

| Misra | Qəzəl | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Ya | Rəb | ol | şəh | dü | şə | kər | ya | ləb | mü | dür |
| 2 | Ya | mə | gər | şəh | dü | şə | kər | ya | ləb | mü | dür |
| 3 | Ca | ni | mə | pey | vəs | tə | na | vək | at | qa | li |
| 4 | Gəm | zə | o | qin | qa | şi | gə | ya | ləb | mü | dür |
| Tə'filə | fA' | il | A | tün | fA' | il | A | tün | fA' | il | ün |
| Tə'f.ölçüs | — | ∪ | — | — | — | ∪ | — | — | — | ∪ | — |
| Not işarə | Q | e | q | q | q | e | q | q | q | e | q. |

Cədvəldə qəzəlin hər bir hecasının uzunluğu göstərilmişdir. Təfilələrin metrik quruluşu fA'ilAtün q e q q 4 zərbə, iki dəfə ardıcıl işlədildikdən sonra fA'ilün q e q. 3 zərbəli tə'filə gəlir. Şəkildən göründüyü kimi birinci iki qəlib eynicinsli olub 7/8, üçüncü qəlib isə 3 zərbəli olmağına baxmayaraq o da 7/8 metrik ölçüsünə əsaslananır. Verilən metrik vəzn 11 hecalı qəzəlin əsasını təşkil etmişdir. Cədvəldən göründüyü kimi fA'ilün təfiləsindəki son heca üç səkkizliyə bərabər olub əvvəlkilərdən uzunluğuna görə daha uzundur. Verilən spesifik xüsusiyyətlər əlbəttə ki, yaradılacaq melodiyanın quruluşunda öz əksini tapmalıdır.

Bundan başqa, qəzəlin oxunuşunda xanəndələrin hansı zaman, sözlər arasında fasiləyə yol verərək müəyyən boğazların işlədilməsini və ya muğam melodik frazalarını ifaya sala bilməsinin düzgün yolunu göstərmək üçün aşağıdakı izahlara, şərhlərə də xüsusi olaraq diqqət yetirək.

Qəzəlin birinci «Ya Rəb, ol şəhdü şəkər' ya ləbmüdür» misrasında Ya Rəb-dən, ol şəhdü şəkər' – dən sonra müəyyən fasiləyə yol verib boğaz işlətmək düzgün deyil. Bu zaman qəzəlin məna çaları ilə yanaşı onun metrik ölçüsü də şikəst olur. Buna görə də tə'filə harada bitirsə orada da fasilə etmək lazımdır. Göstərilən misrada bölgülər; Ya Rəb, ol şəh//dü şəkər' ya// ləbmüdür - şəklində aparılmalıdır. Bu zaman tə'filədə uzanan səslərə də vurğu vurulmalıdır və ahəng qanununa görə həmin vurğular misradakı Ya, ol, şəh, dü, kər, ya, ləb, dür hecaları üzərinə düşməlidir.

---

[275] Nəvai Ə.Ə. Mizanül-övzan. Nurlan. Bakı.2006. s.83.
[276] Yenə orada s.145.
[277] Öztuna Yılmaz. Böyük Türk Musikisi Ansiklopedisi II cild. Kültür Bakanlığı. Türkiye.1990.s.409.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəzəlin ikinci; Ya məgər şəhdü şəkər ya ləbmüdür misrasında isə kiçik fasilə edib müəyyən boğazlar işlətmək üçün bölgülər Ya məgər şəh//dü şəkər ya//ləbmüdür - şəklində bölünməlidir. Tə'filədə uzanan səslər, yəni vurğular ya, gər, şəh, dü, kər, ya, ləb, dür hecaları üzərinə düşəcək.

Qəzəlin üçüncü; Canimə peyvəstə navək atqalı misrasında kiçik fasilə canimə pey//vəstə navək //atqalı bölgüləri üzrə aparılmalıdır. Bu zaman uzanan səslər və vurğuldar ca, mə, pey, vəs, na, vək, qa, lı hecaları üzərinə düşməlidir.

Qəzəlin dördüncü; Gəmzə oqin qaşiğə yaləbmüdür misrasında kiçik fasilə gəmzə oqin// qaşiğə ya//ləbmüdür bölgüləri üzrə aparılmalıdır. Misranın bölünməsi prosesində uzanan səslər gəm, o, qin, qa, ğə, ya, mü, dür hecaları üzərinə düşür.

Qəzəlin tə'filələrə və hecalara görə təhlilindən sonra qəzəlin hər bir sətrinin ahəng qanununa uyğun intonasiya qrafiklərini quraq. Qurulacaq qrafiklər qədim nəğmələrin melodik quruluşlarının yüksələn, enən və ya ziqzaq şəkildə inkişaf etdiyini əyani olaraq göstərəcək. Bu qrafiklər əsasında qədim nəğmələrin melodik quruluşunu bərpa etmək olar. Onu da qeyd edim ki, ahəng qanunu əsasında bərpa edilən melodik quruluş orjinalla çox cüzi xətalara görə uyğun gəlməyə bilər. Bərpa ediləcək qədim nəğmələr göstərilən şərtlərə olduğu kimi əməl edilsə onun yüzdə doxsanbeş faiz düz olacağına heç bir şübhə yoxdur.

Qəzəlin birinci sətrinin intonasiya qrafikini aşağıdakı şəkildə göstərilən formada həyata keçirsək fikrimcə bir sıra maraqlı xüsusiyyətlərlə qarşılacağıq.




Yuxarıdakı qrafikdə qəzəlin düzgün oxunuşundan alınan intonasiyanın əyriləri göstəilm`işdir[278]. Ayrı-ayrı hecalardakı saitlərin uzunluğu notların uzunluğu ilə götürülmüşdür. İntonasiyaların dinamik yüksəlişi isə sait səslərin ifadəsi zamanı səslərin bir-biri ilə hansı nisbətdə durduğu yüksəkliklər zəminində xüsusi olaraq nəzərə alınmışdır. Göstərilmiş qrafiki bərpa ediləcək musiqi havasının, melodiyanın səslənmə qrafiki ilə eyniləşdirmək olmaz. Təcrübə göstərir ki, intonasiya qrafiklərində səsin yuxarıya getməsi hələ musiqi tonlarının qrafikdə göstərilən yüksəkliklərə doğru hərəkəti demək deyil. Burada onu da nəzərə almaq lazımdır ki, «A» saitindən yuxarıda olan səslərin ifası zamanı musiqi tonları eyni bir səs tonunda məsələn; «ü»nü «i» və ya «ö» saitinin səs yüksəkliyində və s. oxunması qəbahət deyil. Əsas məsələ odur ki, yuxarı səslərə aid olan intonasiyalar aşağıda ifa edilən «A» və «Ə» saitlərinin musiqi tonlarında işlədilməsin.

İndi isə qəzəlin ikinci sətrinin intonasiya qrafikinin quruluşuna diqqət yetirək.




Qrafikdən göründüyü kimi ikinci şəkildəki əyrilər birincidən fərqlidir. Sözsüz ki, bu fərq ayrı-ayrı hecaların, onların sait səslərinin müxtəlif olmasmından irəli gəlir. Metro - ritmik quruluş isə dəyişməz qalmışdır. Birinci şəkildəki intonasiya dinamik cəhətdən ikincisindən yüksəkdir və onun ifası da «ad libitum» sərbəst metrik ölçüyə əsaslanan melodik quruluşda fərqli olmalıdır. Müəyyən metrik ölçüdə mövcud olan təranələrdə, təsniflərdə, mahnılarda, aşıq havalarında hər iki qəzəl eyni melodik bünövrəyə malik quruluşda ifa edilə bilər. Çünki, göstərilən qəzəlin hər iki misrası birinci halda muğam havaları üsündə oxunduğu üçün melodik quruluşun formayaradıcı amillərində sait səslərin yuxarı-aşağı hərəkəti melodik strukturun yaradılmasında xüsusi əhəmiyyətə malikdir. İkinci halda isə müəyyən dəqiq metrik quruluşa əsaslanan havalarda melodiyanın formayaradıcı amili metrik ölçünün ritmik formullarından asılı olaraq formalaşır. Bu baxımdan hər iki janrın xüsusiyyətləri diqqət mərkəzində saxlanılmalıdır.

---

[278] İntonasiya qrafiklərində notların uzunluğu, aşağıdakı qayda ilə götürülmüşdür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tuyuq havası haqqında verdiyimiz məlumatlardan aydın olur ki, hələ qədim dövrlərdə də bu hava dəqiq metrik quruluşa əsaslanmışdır. Onun qədimdə təcnis üstündə oxunmasına səy edilməsi bu havanın aşıq musiqi havası üslubunda ola bilməsinə də üstünlük verir. Hər halda Tuyuqun bəhrli və bəzən qarışıq bəhrli aşıq havacatına uyğun melodik quruluşunun bərpasını intonasiya qrafikləri əsasında yaratmaq mümkündür.

Tuyuqun üçüncü misrasının intonasiya qrafikinə diqqət yetirək. Burada metro – ritmik quruluş dəyişməz qalsa da qəzəldə işlədilən sözlər başqa olduğu üçün intonasiya qrafikindəki əyrilən dinamik cəhətdən əvvəlkindən fərqlidir. Qəzəldə işlədilən hecalarda əsasən «a» və «ə» saitləri olduğu üçün qrafikdən göründüyü kimi əyrilərin amplitudası dinamik cəhətdən yüksək deyil. Bu o deməkdir ki, sözlərin deyilişində ucadan oxumağa ehtiyac yoxdur. Bərpa ediləcək melodiyada da uca səslərə sıçrayışlar etməyin heç bir əhəmiyyəti yoxdur. Üçüncü sətrin əvvəlində işlədilən «i» və sonda gələn «ı» saitləri intonasiyanın bir qədər yüksəlməsini göstərsə də ümumiplanda qəzəlin oxunuşunun dinamikliyi aşağı yüksəkliyə əsaslanır. Bunu nəzərə alaraq həmin sətrin oxunuşunu bir qədər mülayim tərzdə ifadə etmək lazımdır.

Tuyuqun üçüncü sətrinin intonasiya əyrilərinin işlədilən sözlərdən asılı olaraq hansı istiqamətlərdə hərəkət etdiyinə diqqət yetirək.




Tuyugun üçüncü sətrinin intonasiya qrafikindən göründüyü kimi sait səslər aşağı səslərə əsaslanır. Bu sətrin intonasiya qrafikindəki əyrinin hansı istiqamətdə getməsi yaradılmış musiqi havasının quruluşunda nəzərə alınsa da melodiyanın bərpasında bu sətrin əsasında olan sədanı əvvəlkindən fərqli şəkildə vermək olmaz. Çünki, musiqi havalarının yaranışında musiqi fikirlərinin melodiya ilə ifadəsindən başqa musiqi havasının forması da mövcuddur ki, bunu melodiyanın bərpasında xüsusi olaraq nəzərə almaq lazımdır. Adətən sual-cavab formasında qurulan məişət nəğmələrimiz və ya digər mahnılarımızın musiqi fikirləri melodik bünövrənin məntiqi baxımdan sxematik quruluşunu yaratmış olur. Bu baxımdan həm üçüncü, həm də dördüncü misraların oxunuşunda mövcud olan intonasiyanın dinamik istiqamətləri birinci və ikinci misraların intonasiyalarının dinamik inkişafına tabe edilmişdir.

Tuyuqun dördüncü misrasının intonasiya qrafikində verilmiş sözlərin intonasiya quruluşu yuxarıda qeyd etdiyimiz kimi əvvəlki misraların quruluşundan fərqlidir. Burada «ö», «i», «ü» saitlərindən istifadə olunduğu üçün misranın intonasiya quruluşu dinamik cəhətdən yüksəkdir. Lakin, buna baxmayaraq dördüncü misranın oxunuşunda da intonasiyaların hərəkət istiqamətləri melodiyanın ümumi ahənginə tabe etdirilmişdir.

Qəzəlin hər dörd misrasının metrik olçüləri vəznə görə bölüşdürülmüşdür. Onların hamısının musiqi havasında vahid formaya tabe olmasını nəzərə alaraq birinci iki misra əsasında yaradılmış melodik quruluşun ahənginə uyğun şəkildə verilməsi musiqi havalarının, janrlarının forma quruluşuna əsaslanmışdır.




Tuyuqun təcnis formasına uyğun şəkildə oxunuşunun melodik quruluşu bərpa edilərsə, burada aşıq havacatlarına xas ifa tərzinin xüsusi parametrləri nəzərə alınmalıdır. Aşağıdakı not nümunəsində biz Tuyuqun orta əsrlərə aid məişət musiqi havaları janrlarına uyğun formada bərpasını vermişik.

Tuyuq havasının bərpa edilmiş melodik quruluşuna diqqət yetirsək görərik ki, 7/8 metrik ölçüdə olan melodik strukturda xanələrdəki notların ritmik quruluşları qəzəlin tə’filəsinə uyğun şəkildə verilmişdir. Qəzəlin birinci və ikinci tə’filələrinin ritmik formulu q e q q not misalında verilmiş melodik quruluşun metro-ritmik formulu ilə üst-üstə düşür. Üçüncü tə’filənin q e q. ritmik formulu not misalının üçüncü xanəsinin metro-ritmiy formulu ilə eynidir. Birinci iki xanədə fA’ İlAtün 4 zərbəli, üçüncü tə’filə fA’ ilAn isə 3 zərbəli formadadır. Not misalında da bərpa edilən melodiyanın sxematik quruluşu 4+4+3



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

formulu əsasındadır. Melodik quruluşun bu şəkildə bərpası zamanı qəzəlin metrik ölçüləri ilə musiqi havasının metro-ritmik quruluşu tam üst-üstə düşdüyü üçün sözlə melodiya arasında tam vəhdət yaranır.

Tuyuq Tuyuq




Bərpa edilən havanın qəzəli rəməli-müsəddəs-məqsur olduğu üçün Rəməl bəhrinə aiddir. Rəməlin «Şur» muğamında oxunması əlverişli olduğu üçün bərpa edilən melodiya da «Şur» ladına əsaslanmışdır. Melodiyanın emosional təsiri də eyni ilə Şur muğamının insana təsir gücü ilə müqayisə edilə bilər.

**Резюме**

В данной статье впервые в музыковедение сделана попытка восстановить на основе средневековых газелей мелодии семи музыкальных жанров. Поэт XIV века А.Навои в труде «Мизануль овсан» называет имена и дает газели, на основе которых пелись такие музыкальные жанры, как «Туюг», «Гошуг», «Дженги», «Мехеббетнаме», «Мустазад», «Аразбари», и «Турки». В качестве нотного примера, из-за ограничения объема статьи, дается только один жанр Туюг.

**ƏDƏBİYYAT**

**1.**Həkimov M. Aşıq sənətinin poetikası. Bakı. Səda. 2004. s. 375.
2.Nəvai Ə.Ə. Mizanül-övzan. Nurlan. Bakı.2006. s.11.
3.Öztuna Yılmaz. Böyük Türk Musikisi Ansiklopedisi II cild. Kültür Bakanlığı. Türkiye.1990.s.409.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRK MİLLÎ KÜLTÜRÜNÜN OLUŞUMUNUN DİNAMİKLERİ ve KÜRESELLEŞME

***Doç. Dr. Osman Sezgin***
***Doç. Dr. Ramazan Biçer***
***Turkiye***

**Özet**

Türk kültürü, yüzyılların tecrübesiyle oluşmuş, nesilden nesile aktarılarak günümüze kadar gelen bir değerler bütünüdür. Sözlü ve yazılı gelenekte yaşatılan ürünlerle beslenen ve "millî kültür" olarak değerendirilen halk kültürünün özünde, Türk kültürüne ait dil değerleri, dini kabuller ve ahlak anlayışı vardır.

Kültür milletleri birbirinden ayıran özelliklerdir. Medeniyet ise, milletlerin ortak kabulleri ve tecrübelerini yansıtır. Aynı uygarlığa bağlı kültürler, aynı dünya görüşünde birleşirler. Topluluklardaki kişi ve grupların yenilikleri ve milletlerarası etkileşim kültür değişikliğine neden olur.

Tarihi olarak, Türk kültürünü belirleyen değer, sosyal unsurlar ve formlar değişikliğe uğramıştır. Nitekim kültür, statik değildir. Temel değerler aynı kalmak şartıyla değişen ve gelişen ilişkiler ağıdır. Kültür her toplumsal olgu ve değer gibi dinamik karakterle değişerek yenilenir. Türk kültürünün öz nitelikleri arasında değişkenlik ön plandadır.

Bu değişimlerde, teknolojik gelişmeler, sosyal çevre değişimi ve iletişim araçlarının büyük payı vardır. Ancak bunlar, temel değerleri kökünden çıkarıp atmaz, onlara yeni yorum ve yaklaşımlar getirir.

Globalleşme/küreselleşme, diğer Asya kültürlerini olduğu gibi, tüm Türk dünyasını kuşatan Türk kültürünü de tehdit etmektedir. Kaçınılmaz ve karşı konulamaz bir olgu olan küreselleşme karşısında millî kültürün korunması, milletin bekası için zorunlu görünmektedir.

**Anahtar Kelimeler**: Medeniyet, Türk Kültürü, Millî Kültür, Değişim, Küreselleşme.

**Abstract**

The main purpose of this study is to focus on the concept of Turkish culture whose essential nature and functions are forced to change with the influence of globalization. The irresistible political, economical and socio-cultural effects of globalization on established institutions as well as on common values and conceptual understandings will be examined. The effects of globalization on the concept of Turkish culture will be discussed in the framework of national culture.

For West culture, it poses the problem of retaining control of local cultural market. The West cultural market is threatened by the omnipresence of American culture. Cultural diversity has two dimensions: internal and external. For more traditional countries, it poses the problem of ethnic and social cohesion. Accordingly globalization, in general, doesn't have to be a bad thing. It can include cultural diversity. It gives, in a sense, all the cultures a chance to get to know one another.

**Keywords:** Civilization, Turkish Culture, national culture, change, global culture.

## Giriş

### Kültür ve Medeniyet

Kültür ve medeniyet, birbirlerine yakın birer terim olmakla birlikte, aralarında önemli farklar vardır. Nitekim Türk sosyologu Ziya Gökalp da kültür ile medeniyeti birbirinden ayırmaktadır. Kültür toplumların dış etkenlerden uzak kalarak güçleri ve imkânları ölçüsünde çevre şartlarından yararlanarak, varlıklarını devam ettirmek amacıyla ortaya koydukları maddî ve manevî eserlerin bütünüdür. Bu lokal niteliğiyle medeniyetin temelini oluşturan halk kültürü, toplumların yaratıcı gücünün göstergesidir. Kültür unsurları sayılmakla bitirilemez. Zira kültür, insan hayatının maddi ve manevi her türlü faaliyet şeklini ve bunların vasıta ve neticesi olan eserlerini bütünü ile içerisine almaktadır. Kültür maddi ve manevi olmak üzere iki ana öğeden oluşmaktadır. Yaşam araçları olan eşya ve çeşitli ihtiyaç maddeleri kültürün maddî yönünü meydana getirir. Bunların yanında toplumların dünya görüşü, bilgi düzeyi, inanışları, toplum değerleri, gelenek ve görenekleri, düşünce ve sanat eserleri de kültürün manevî tarafını oluşturur. Milletlerin dünden bugüne akıp gelen varlıkları, en iyi şekilde halk kültüründe kendini gösterir.[1]

Geniş anlamda kültür, insanların bireysel ve toplumsal olarak sembolik ve öğrenilmiş yönlerini anlatan genel bir terim olarak kabul edilmektedir. Antropolojide ise bilgi, inanç, sanat, ahlak ve gelenek olarak öğrenilmiş yapıyı göstermektedir. Bu tanıma göre kültür ve medeniyet aynı şeydir. Ancak bu yaklaşım İngilizce ve Fransızca dil bilgileri açısından mümkün olmakla birlikte, Almanca'daki, Kültür sivilizasyon ayrımına pek uymamaktadır.[2] Bazı araştırmacılar da bu anlamda kültür ve medeniyet arasında bir ayrıma gitmeden, onu, "bir toplumun üyesi olarak, insanoğlunun öğrendiği bilgi, sanat, gelenek, görenek ve benzeri alışkanlıkları içine alan karmaşık bir bütün olarak tanımlamaktadır.[3]



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Antropolojik yaklaşım kültürün tanımını, daha çok maddi öğelerin, davranış ve duyguların, simgelerden oluşan, sembollere dayalı bir örgütlenmesi olarak, yani bir simge ve anlamlar bütünü şeklinde belirlemektedir.[4]

Sosyolojide kültür terimi, bir toplumun üyeleri ya da bir toplum içindeki grupların yaşam biçimlerine, onların nasıl giyindiklerine, törelerine, çalışma kalıplarına ve dinsel törenlerine göre ele alınmaktadır.[5] Bu yaklaşımlar da gösteriyor ki, kültür kavramı her disiplinin kendi muhteva ve sınırları içinde farklı anlamlar kazanmaktadır. Belki de bu yüzden hemen her disiplinin teknik bir terim olarak müracaat ettiği kültür kavramının üzerinde uzlaşılmış ortak bir tanımına gidilememektedir. Türk sosyologu Ziya Gökalp'in de kavramı daha çok bir kimlik sorunu etrafında şekillendirmeye çalıştığı ve özellikle onu medeniyet teriminden ayırdığı görülmektedir.[6] Kültürü bir kimlik konusu olarak kullanması, sosyolojik pratik ve toplumsal koşullar bağlamında anlaşılabilecek bir şeydir. Başka bir deyişle Türk ulusal kimliğinin inşasında stratejik kavram, kül-tür olarak belirginleşmektedir, dolayısıyla içeriği de buna göre şekillenmektedir.

Kültür ve medeniyet ayırımı konusunda sosyolog Cemil Meriç'in tespitleri dikkat çekicidir. Ona göre terim olarak kültür, daha önce hars terimi ile ifade ediliyordu. Kültür tek başına bir Babil kulesidir. Balıkçılık, ziraat, mikrop üretimi, vs 161 manası var. 161 manası olan kelimenin hiçbir manası yoktur. Kültür terimi, 1930'a kadar Fransa'da irfan manasına kullanılmıştır. Alman Herder'den itibaren kelimeye çeşitli manalar yüklenmiştir. Öz olarak Kemalat-i beşeriyeyi tamamlayan her şey. Ferdiyeti şahsiyete çeviren her şey. Osmanlı'da bunun ismi irfandır. Batı, billur bir avizeyi kırar ve toz halinde bize sunar. Antropolog ve etnologların kelimeye kazandırdıkları mana, maddi medeniyet-manevi medeniyet. Bu manada kültür-medeniyet aynı anlamdadır.

Eğer kültür irfansa, emperyalizmin silahı irfan değildir. İrfan, kendini tanımaktır, şuurlanmaktır. Hiçir emperyalizm irfanıyla istila etmez. Biz ki Yunan'dan mantığı almışız, insanı insan yapan bütün değerlere açığız. Ama hiçbir emperyalizm Descartes ve Shakespeare'le gelmez. İrfan emperyalizmi olmaz. Avrupa, Hind'de de, Çin'de de, Osmanlı'da da habis programını başarı ile oynamıştır. Bu, irfanımız olmadığına bizi inandırmaktır. İrfanı olan bir ülke bütün irfanlara açıktır. Kültürün emperyalizmi olmaz. Kültür insanidir, insanın has bahçesidir. Kültür, bir hayat üslubu olarak tarif edilmektedir.

Alman tarih felsefecileri kültürle medeniyet ayırımı yaparlar. Danilevsky "Avrupa ve Rusya'da her ülkenin kendine göre bir kültürü olduğunu ileri sürer. Kültürler, milletin ruhunda yaşayan bilgiler, inançlar ve bedii telakkilerdir. Kültürler, tarih sahnesine çıktıktan sonra 1000-2000 yıl yaşarlar. Gerçekleştirecekleri mefkureyi gerçekleştirdikten sonra medeniyet olurlar. Spengler, Toynbee aynı görüşü geliştirirler. Kültür canlıdır, olmakta olan, oluş haline geldikten sonra taşlaşır. Fransız İhtilali'nden sonra Fransız kültürü medeniyetleşir. Don Kişot kültürdür, Sanso Panso medeniyettir. Don Kişot çöken bir devri kılıcı ile yaratabileceğine inanır. Kalıplaşmayan, katılaşmayan, hayal için yaşayan tam bir spontaneité (kendiliğindenlik) örneğidir. Türkler, Selçuk ve Osmanlı'ya kadar kültür merhalelerini yaşarlar. Aynı ağaç Osmanlı'ya kadar çiçektir, Osmanlı'da meyve verir.[7]

Kültürün oluşum merkezi olan halk kültürü, doğrudan belli bir toplumun eseri olup, toplumun niteliklerini taşıdığı için "millî kültür" olarak da adlandırılır. Kültür aynı zamanda medeniyetin başlangıcıdır. Bununla birlikte medeniyetle kültür arasında bazı farklar vardır. Kültür belirli ve sınırlı çevrelerden doğar ve yaşar. Medeniyet ise sınırları daha geniştir. Medeniyetler daha çok geniş kapsamlı olarak milletlerin ürünüdür. Yani bir medeniyet, birden çok halkın katkısıyla oluşabilir. Kültür ise daha çok belli ve sınırlı toplumlara aittir. Bu nedenle bir İslam medeniyetinde söz ederken, Türk kültüründen bahsedebiliriz. Bir Roma medeniyetini konuşurken, Alman halkının kültüründen laf açabiliriz.

Bir ülkenin, bir yöre halkının, bir etnik grubun yaşamının bütününü kapsayan ve temelinde o halkı oluşturan insanların ortak ve yaygın davranış kalıplarını, yaşama biçimini, belirli olaylar ve durumlar karşısındaki tavrını, çevesini ve dünyayı algılayışını açıklamada; geleneksel ve törensel yaşamı düzenleyen, zenginleştiren, renkleniren bir dizi beceriyi, beğeniyi, yaratıyı, töreyi, kurumu, kurumlaşmayı göz önüne sermede halkbilimin önemli bir rolü vardır. Bir ucuyla geçmişe, bir ucuyla da zamanımıza uzanan gelenekler, görenekler, âdetler zincirini saptamada; bu zincirin köstekleyici ya da destekleyici halkalarını belirlemede; halk kültürünün önemli bir yeri vardır.

Bu anlamda bir halk kültürün, Türk toplumunun prototipinin ortaya çıkarılmasında öncülüğü vardır. Bu nedenle, kültürün tanımları arasında yer alan, "bir milletin dünyadaki fârik yerini aldıran genel tavırlar" ifadesi, anlamlı gözükmektedir.

Sonuç olarak kültür, sınırlı, dar veya geniş şekilde tefsir edilebilir. Ancak hangi şekilde anlaşılırsa anlaşılsın, kanaatini izhar eder kişinin yaptığı seçimi yansıtır.[8]

Her kültürde olduğu gibi Türk kültürünün de dinamikleri vardır.

**Türk Kültürünün Dinamikleri**

Türkler, dünya coğrafyası üzerinde çok geniş bir alana yayılmışlar, bir çok kültür ve dinin etkisi altında kalarak farklı uygarlıklar görmüşlerdir. Bunun sonucunda Orta Asya'dan günümüze gelişen bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

halk kültürü olmuştur. Halk kültürü, Türk kültürünün tarih içindeki süreç ve gelişmesine paralel olarak bir değişim ve gelişim içinde olmuştur. Ancak bu gelişim, özde geleneğe bağlı kalarak, yorumlama ve algılama farklılığına maruz kalmıştır. Zaman ve mekanın etkisi, olayların farklı şekilde değerlendirilmesi ve ifade edilmesine neden olmuştur.

Kültür çok yönlü bir olgudur. Tümüyle kucaklayabilmek için ona çok geniş açıdan bakmak gerekir. Bu nedenle Türk kültürünün dinamikleri, çok yönlü ve boyutludur. Daha genel bir sınıflandırma yapılması gerekirse, kültürün, aile sosyal çevre, eğitim ve değerler gibi insani; bayrak, millet, vatan, dil, din, tarih, töre, âdet, gelenek gibi evrensel boyutları ve dinamikleri vardır.[9]

Dünyada başka kültür ve medeniyetlerden yararlanmamış, az veya çok onların etkisi altında kalmamış ve alıntı yapmamış tek bir medeniyet ve kültür yoktur. Özellikle devlet ve milletlerarası komşuluk ilişkilerine sahip olmuş uluslar, birbirleriyle medeniyet ve kültür alışverişi yapmışlardır.[10]

Bu ilişkiye rağmen bir milletin temel niteliği ve kültürü olan dil, kültürler arası en az etkilenen unsur olmuştur. Bu nedenle millî kültürün en önemli elementinin dil olduğu görülmektedir. Din, ahlak, felsefe edebiyat ve sanat, dil unsurunun uzantıları halindedir. Daha kısa ifadeyle Türklerin örf ve adetleri, inanç ve kabulleri, temel unsuru dil olan millî kültür içerisinde değerlendirilir.[11]

Türkler halk idaresini daima töre ile birlikte düşünmüşlerdir. Türklerde töresiz devlet olmamıştır. Bu da aynı zamanda halk kültürünü şekillendirmiştir. Türklerin sosyal hayatlarını düzenleyen, kurallar koyan ve devletin gücünü temsil eden Türk töresi vardır. Daha öz ifade ile töre, tarihsel bağlamda atalardan kalan bütün kuralların toplamıdır. Töre, dini ve ahlaki tecrübe verilerinden oluşan toplumsal dolayısıyla hukuksal bir kurallar yumağıdır.

Bilge Kağan Yazıtları'nda belirtildiği gibi, Eski Türk devlet geleneğinde töre, ilahi kaynaklı olup, kutludur. Bu nedenle Türk kültürünün ana yapısını ve temel temasını töre oluşturmaktadır. Nitekim töre, toplumda bireysel ve sosyal ilişkileri düzenleyen, toplumda disiplin ve otoriteyi sağlayan, dayanışma ve birliktelik oluşturan temel etken olmuştur. Bütün bunların gerçekleşmesinde, törenin şekillenmesinde millî kültür, önemli bir paya sahiptir.[12]

Türk töresi veya halk kültürü yaşayan topluluğunun kendine özgü dünya görüşüne ve değerler sisteine göre şekillenir. Kültüre bağlı olarak oluşan her türlü birikim, doğal olarak o kültürün bir parçasıdır.

Türk kültürünün temel dinamiklerinden birisi olan Türk halk kültürü, toplumun dil, din, tarih, sanat, duygu, düşünce ve beğenisiyle oluşturup yaşatılan, geçmişten günümüze gelmiş, toplum, insan ve doğa ilişkisiyle şekillenmiştir. Halk kültürü, halk arasında mayalandığı için, halkın kültür yapısını ve dokusunu ortaya koyar. Halk kültürü, toplumsal yaşamda birlikteliği pekiştirici, dayanışmayı arttırıcı özelliklerini sürdürerek bir işlev üslenir, halkın kendi kültürüyle yabancılaşmasını önler. Halk kültürü ürünlerinin halkın ortak duygu ve düşüncelerini dile getirmeleri bakımından Türk kültürünün korunmasında, yaşatılmasında önemli işlevleri vardır. Halk kültürü, uygarlıkların yaratıcısı olan insanların kimlik ve kişiliğinin temel belirleyicisidir.[13]

Türk kültürü, maddi ve manevi olmak üzere iki ana temel üzerine kurulmuştur. Maddi temeller, Türklerin yaşam boyunca kullandıkları, mekan ve aletlerle oluşan bir birikimdir. Öte yandan tarihsel süreçte Türklerin hayat tarzı ve yaşam biçimi de kültürün maddi yönünü oluşturur.

Zamanla oluşan ve gelişen anlayış, felsefe ve algılama biçimleri de Türk kültürünün manevi boyutunun göstergesidir. Türk kültürü, belirli bir coğrafyayla sınırlandırılamayacağı için, Türklerin göçüp yerleştikleri, devlet kurup egemen oldukları ülkelerin tümünü kapsamaktadır. Türkler, İslamiyet'ten önce o günkü inanç sistemlerine, kültür ve geleneklerine bağlı halk kültürünü oluşturmuşlardı. İnanç kültürü, kültür de halkın algılayış ve yaşayışını şekillendirir. Bugünkü halk kültüründe, eski inanış ve geleneklerin izlerini bulmak mümkündür. Türklerin İslamiyet'i kabul etmelerinden sonra halk kültürü ürünleri yeni özle İslamî renge bürünerek varlıklarını sürdürmüşlerdir.[14]

İslamiyet öncesi çeşitli inanç sistemlerinden etkilenen Türkler, her kültürde olduğu gibi semavi bir dine geçerken, eski inançlarının bir bölümünü yeni dine taşıyıp onun kalıplarına uydurmuşlardır.

Bugünkü Türk kültürünü oluşturan öğelere bakıldığında, İslamî şekillere bürünmüş olsa bile, ana tema itibarıyla İslam öncesi Türk geleneklerinin izleri ağırlıklı olarak görülmektedir. Doğum ve ölüm esnasında yapılan törenler bunun açık bir göstergesidir. Bu tür uygulamalar, halk Müslümanlığı açısından bir sakınca görülmezken, resmi İslam veya akademik çevreler tarafından ciddi bir şekilde eleştirilmektedir.[15]

Türk kültürü çok zengin bir yapıya sahiptir. Bu zenginlik köklerini tarihin derinliklerinden almaktadır. Türkler, Sibirya'dan Balkanlara, Yemenden Hindistan'a, Çin'e kadar çok geniş coğrafyaya yayılmış, bu coğrafyalarda devletler kurmuş, bir çok uygarlığa etki etmiş, çeşitli medeniyetlerden aldığı kültür öğelerini de Türk kültürüyle yoğurmuştur. Bu hareketlilik Türk kültürünü sürekli ve dinamik kılmıştır.[16]

Anadolu, coğrafi konumu nedeniyle tarih boyunca kültür yollarının kesiştiği bir merkez olmuştur. Orta Asya'dan Anadolu'ya XI. yüzyıldan itibaren büyük kitleler halinde gelmeye başlayan Türk boyları,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Anadolu'nun bugünkü kültürel yapısının şekillenmesinde önemli rol oynamıştır. Türkler, yer değiştirirken inanışlarını, törelerini, geleneklerini, sanatlarını da beraberlerinde getirmişlerdir. Bunlardan bazıları aynen saklanmış bazıları da Anadolu kültüründe yeni bir oluşumla yeniden şekillenmiştir. Türk kültürü, tarih sürecinde kendine miras kalan kültürleri, kendi kültür potasında eritmiştir. Halk kültürü ürünleri, oluştukları toplumun ortak kabullerini alarak kendilerine özgü gelenek yaratırlar. Ancak güçlü kültürler, başkalarını potasında yoğurup, kendi kalıp ve şekilleri doğrultusunda yeniden biçimlendirebilir. Zayıf kültürler ise, eritmez, erirler. Bu nedenle çok köklü ve yönlü olan Türk kültürü, birçok dış kültürle dirsek temasında bulunmakla birlikte, daha çok onlar üzerinde etkin olmuştur.

Türk kültürü, yüzyılların deneyimlerinden süzülerek biçimlenmiş, nesilden nesile aktarılan bir değerler bütünüdür. Halk kültürü ürünleriyle yaşadıkları yöre arasında bir bağ vardır. Bu ürünlerin şekillenmesinde tarihi ve kültürel mirasın önemli bir rolü vardır. Halk kültürü, toplum arasında mayalanmış, halkın kültür yapısını belirleyen, yaşadığı toplumun dokusudur. Halk kültürü ürünlerinin halkın ortak duygu ve düşüncelerini dile getirmeleri bakımından Türk kültürünün korunmasında, yaşatılmasında önemli işlevleri bulunmaktadır. Zira her kültür, yaşandıkça varlığını sürdürür.[17]

Türk kültürünün ana dinamiklerinden birisi olan din, kültür ve halk kültürünün korunmasında önemli bir yere sahiptir. Nitekim tarihsel süreçte Müslüman olmayan Türkler, Türklükten de çıkmışlardır. Macarlar ve Bulgarlar gibi. Bu anlamda İslamiyet, Töresiyle uyum sağlayan kutsal bir din niteliğindedir. Yine Orta Asya kökenli olup da Türklerle dirsek temasına girmiş Budizm gibi dinler, Türkler tarafından özümsenmemiştir. İslam öncesi Türklerdeki Tek tanrı Tek düzen anlayışı da, öz itibarıyla İslam dini ile uyum arzetmektedir.[18]

Nitekim Türk kültürünün öz yapısı ile İslam dininin temel nitelikleri arasındaki uyumun en belirgin olduğu ortak payda, insana yaklaşım olmuştur. Bu anlayış sonucu olarak, İslam öncesi ve sonrası Türkler geniş bir hoşörü yelpazesi içerisinde hareket etmişlerdir. İnsanlık tarihinde örneklik oluşturacak tablolar oluşturmuşlardır.[19]

Qeyd edək ki, «Oğuz Kağan» dastanında Oğuz xanın ilkin əcdad prizmasında görünüşü (2, 10), onun türk qövmünü himayə etməsi, ayrı-ayrı türk birliklərinə ad verməsi və türk dövlətini bəladan qurtarması ilə izah olunur. İlk diqqəti cəlb edən budur ki, Oğuzun doğuluşu möcüzəli yolla baş verir, o, göy üzündən enən şua ilə birgə doğulur. Bu fakt isə, yəni Oğuzun göy mənşəli olması məhz əcdad kultunu ehtiva edən elementdir. Bu baxımdan paremioloq alim A.Xəlilin fikri göstərdiyimiz arqumenti tamamlayır. Tədqiqatçıya görə «ağaca, dağa və göyə Tanrı deyilməsi yayvari gəlişmə ilə Tanrıçılığa qovuşmuş və onunla çulğaşmış əski əcdad kultunun elementləridir» (3, 153). Aydın olur ki, epik ənənədə işıq, şüa şəklində yerə enən mifik obrazlar göy oğlu adına sahib ola bilirlər. «Koroğlu» eposunun özbək variantında Koroğlunun özünü «göy elçisi» adlandırması da bu qəbildəndir. Bununla bağlı C.Bəydili yazır ki, gün işığından anasının boyuna düşməyi də onun əslinin göylərdə olduğunun bir nişanı kmi yozula bilər (4, 138). «Oğuz» dastanından bəlli olur ki, Oğuzun altı oğlundan üçü göymənşəlidir və bütövlükdə onun altı oğlu (Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz) nizamlı kainat (dünya) yaradır və Oğuz xanın bölgüsü ilə bozoklar və üçoklar adı altında böyük türk elinin idarəçilərinə çevrilirlər. Bu təyinatda Oğuz xanın hami ruh qismində iştirakı türklərdəki patriarxal ailə münasibətlərini göstərməklə yanaşı, sonradan kultlaşacaq Gün, Ay, Ulduz və başqa varlıqların ilkin mənşəyini də müəyyənləşdirir. Kainatı, dünyanı yaradan obrazların ulu, ilkin əcdadı kimi Oğuz xan göy qızı və yer qızına evlənməklə türk dünya modelinin qurucusu olur.

Oğuzu ilkin əcdad müstəvisində təqdim edən əsas mifoloji element buynuzdur. Oğuzun orta çağ miniatürlərində buynuzlu təsvir edilməsi də əcdad, hökmdar obrazının mifik variantını səciyyələndirir. İkibuynuzlu əcdad – Oğuz, bu baxımdan özünün göy oğlu və ilkin şaman kimi rolunu büruzə verir. F.Bayat yazır ki, türk mədəniyyətində İslamın qəbulundan sonra mədəniyyətin bir sıra məsələləri islam-türk mədəniyyəti amilinə çevrildiyindən buynuz da alınıb şərq, həm də türk folklorunun mərkəzi obrazlarından biri olan İsgəndərə verildi (5, 76). Bizim fikrimizcə, nəzərdən qaçırmaq olmaz ki, Göy oğlunun başlıca atributlarından biri olan buynuzun İsgəndərə transformasiyasından öncə bu ənənə Umay, Erlik, jalmauz, div, dağ ruhu və digər mifoloji varlıqların timsalında mövcud idi. Buryat, hun, oğuz mənbələri buynuzlu əcdadların mənşəyini, missiyasını əhatəli kontekstdə göstərir. Buryatların öz əcdadlarını Bukanoyon adlandırıb onu Tanrı oğlu hesab etmələri (6, 113), qədim şumerlərin möhürlərindəki öküz-adam (7, 25) təsvirinin olması da buynuzlu əcdadların qədim türk etnik mədəniyyətində hansı yerə sahib olduqlarına işıq salır. Bu radiusdan görünür ki, əski türk etnik mədəniyyətindəki buynuzlu əcdadların aparcı rolu tam fərqli bir əcdad xarakterini formalaşdırmış, bu xarakterin ilk variantı türk mifologiyasında mövcud olmuş və sonradan qeyri-türk mənşəli xalqlar bu əcdad obrazına sahib çıxmışlar.

İlkin əcdad və mədəni qəhrəman sferasında görünün mifik varlıqlardan biri də Ər Soqotohdur. Yakut miflərində göy oğlu kimi səciyyə daşıyan bu varlıq Elley adı ilə də bilinir. Yakut olonxoları ehtiva edir ki, Ər Soqotoh sadəcə bir qəhrəman, qımız içmə mərasiminin (ısıax) təsisçisi, icraçısı deyil, yer üzündəki ilk insan olmuşdur (8, 35). İlk insan müəyyən mifik zaman daxilində ilkin əcdadla eyniləşir ki, bu da mikrokosmla makrokosm arasında yaranan uyğunluqla bağlıdır. Belə bir inanc var: ilkin əcdadlar öldükdən sonra hansısa təbii varlığa, yaxud hami ruha çevrilə bilirlər. Görünür ki, ilkin əcdadların ölümü inisiasiya aktındakı simvolik ölümdür və bu prosesin iştirakçısı həm cismən təzələnir, həm də ruhən yenidən qurulur.

Bir daha Oğuz dastanına nəzər yetirərək qeyd edək ki, Oğuzun əcdad kompleksində təqdimi onun qaranlıq dünyaya səfəri zamanı əhatəli və mifik radiusda görünür. Bu müstəvidə Oğuzun xaosla bağlılığı vardır: «Bədəninin hər yeri sıx tüklə örtülmüşdü» (5, 124). Oğuz obrazının bu tüklülüyü ilkin əcdadlıq funksiyasından gəlməklə Oğuzu mifoloji varlıq statusunda göstərən faktdır. Ümumiyyətlə, tüklülüyün mifoloji açımı ilkinlik və qeyri-adi güc ilə bağlıdır.

«Bilqamıs» dastanında Bilqamıs və Enkidunun, yakutların hami meşə ruhu-əcdadı sayılan Baay Bayanayın, Altay mətnlərində Erlikin bədənlərinin sıx tüklə örtülü olması da ilkinliyin rəmzi idi. Bu tüklülüyü həm də «Koroğlu» dastanının «Paris nüsxəsi»ndə Koroğlunun şəxsində görürük. Koroğludakı tüklülük elementi Oğuzun görkəminə adekvat olan xtonik keyfiyyətdir. Oğuz kimi Koroğlu da xilaskar status daşıyır, hifzedici obrazdır. Və ilkin əcdada uyğun gələn atributların epos ənənəsində Koroğluda bərpası mif dünyasından qaynaqlanmış cizgilərdir. Bunu Koroğlunun mifik zamanla bağlı olan Goroğlu variantı təsdiqləyir.

Türkmən «Goroğlu»sunda Koroğlunun ilkin əcdadlığı və onun dağ ruhundan doğuluşuna aid işarələrin olması (9, 35) dastanın Orta Asiya variantlarında geniş şəkildə əksini tapıb. Bu variantların bəzisində obrazın mənşəyi ata-baba ruhuna bağlanır ki, bu təzahür şəkli Azərbaycan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

variantında vardır. Türkmən «Koroğlu»sunda Koroğlunun gorda doğulması, övliya Xızırın qoca görkəmində gəlib əlini üç dəfə uşağın kürəyinə çəkməsi sonrakı mərhələdə Koroğlunu inisiasiya aktından keçirmək üçün başlanğıc sayılır. Qəhrəmanın «Goroğlu» adlanması isə o biri dünyadan, yeraltı ölülər səltənətindən (əcdadlar aləmindən) gəlməsi ilə əlaqəlidir. Koroğlunun gorda doğulmağı onun inisiasiya aktında yenidən dirilməsi hadisəsini şərtləndirir. «Koroğlu»nın Azərbaycan variantında Koroğlu özünü qurda bənzədir. Bu iki obraz etnik-mədəni sistemin qədim laylarında funksional yaxınlıq baxımından bir-birini əvəz edə bilirlər. Semantik ölçüləri hədsiz olan Koroğlu bir epos qəhrəmanı olaraq özündə Boz Qurd, şaman, mədəni qəhrəman, trikster, dönərgə və başqa obrazları birləşdirir.

Əcdad kultu ilə bağlı elementlər digər bir türk dastanında – «Alp Ər Tonqa»da mövcuddur. Dastan qəhrəmanı Alp Ər Tonqa haqqında tutarlı bilgini əsasən iki mənbədən – M.Kaşqarlının «Divani-Lüğati-it-Türk» və Y.Balasaqunlunun «Qutadqu Bilig» əsərindən alırıq. M.Kaşqarlının divanındakı 9-10 bəndlik ağı Alp Ər Tonqanı (yaxud Əfrasiyabı) mifik ulu əcdad kimi göstərir. Eləcə də Y.Balasaqunlunun «Qutadqu Bilig» əsərində taciklərin onu Tonqa Alp Ər adlandırması, Ö.Xəyyamın «Novruznamə»sində türklərin xeyli sayda hikmətli kəlam və öyüdlərinin Əfrasiyaba aid edilməsi ilə bağlı məlumatlar Alp Ər Tonqanı əcdad müstəvisində səciyyələndirir. Sözügedən mənbələrdən Alp Ər Tonqa ilə bağlı bərpa etdiyimiz dastan mətnini aşağıdakı kimi təqdim edirik:

Miladdan əvvəl VII yüzillikdə bütün türklərin fövqəladə gücə malik olan tək atası Alp Ər Tonqa idi. Həmin zaman kəsiyində öz öndərliyi ilə saka türklərini (iskitləri) qəhrəman döyüşçülər halına gətirən Alp Ər Tonqanın atası Reşenq Xaqan da İran hökmdarları ilə uzun müddət müharibələr aparmış və farsların törətdikləri əməllər müqabilində müəyyən qənaətə gələrək belə qərar vermişdir: «Bu iranlıların bizə etmədiyi pislik yoxdur. İndi Türkün öc almaq zamanı gəlmişdir!» Reşenq Xaqan öldükdən sonra Turan taxtına çıxan Alp Ər Tonqa «Aslanlarla belə çarpışacaq qədər gücüm var və İrandan öc alacağam» deyə savaşa başlayır. Farsların genişlənmək, yayılmaq istəklərini önləməyi bacaran Alp Ər Tonqanın yüksək zəkası, yenilməz gücü farsları çıxılmaz duruma düşürür. Alp Ər Tonqanın ordusu İran üzərinə yürüyərək Dehistan bölgəsində farslara ağır zərbə vurur. Meydan ölən farsların cəsədləri ilə doludur və farsların padşahı geri çəkilib Dehistan qalasına sığınır. Ancaq Alp Ər Tonqa qalanı mühasirəyə alıb İran padşahını əsir edir. Bundan sonra İrana bağlı Kabil ölkəsinin qəhrəmanlığı ilə məşhur olan padşahı Zal farsların köməyinə gəlir. Alp Ər Tonqa çox qəzəblənir və əsir İran padşahını öldürtdürür. Alp Ər Tonqa yenə qalibdir və Rey şəhərinə gedərək İran tacını taxmışdır. Farslar ölən padşahlarının yerinə Zevi hakimiyyətə gətirirlər. İki ordu yenə üz-üzə gəlir. Bu dəfəki müharibə dönəmində hər iki ölkədə ərzaq qıtlığı olur. «Savaş və qıtlıq insanlığı məhv etməsin» deyə onlar barışırlar. İranın şimal əyalətləri Turanın olur. İran padşahı Zev ölüncə barış yenə pozulur və Alp Ər Tonqa təkrar hücuma keçir. Qanlı müharibədən sonra yenə barış imzalandı. İran padşahı indi Keykavusdur. Alp Ər Tonqa farslara heç bir nəfəs aldırmır. Farslar bu böyük türk xanından qurtarmağın yollarını düşünməyə başladılar. Bütün müharibələrdə məğlub olmaları buna gətirib çıxarmışdı. Beləliklə, türkün bütün çağlarda fəlakətinə səbəb olan fitnə, tələ və hiylə bu dəfə də farsların əlində vasitəyə çevrilir. Onlar Alp Ər Tonqanı miladdan öncə 624-cü ildə hiylə ilə öldürürlər. 100 il sonra saka türklərinin içərisində Tomris (Dəmir iz) Xatun bir günəş kimi doğur. Bu günəş Alp Ər Tonqanın soyundan idi. Buyruğu altındakı sakalarla türkün ədəbi həyatında bir fırtına kimi əsən Tomris Xatın babasının qanını yerdə qoymur və farsların şahı Keyxosrovu döyüş meydanında türkə yaraşan bir igidliklə öldürür. Türk xalqları isə Ajun (Dünya) kağanı Alp Ər Tonqanın xatirəsini dastanlaşdırıb ölmünün acısını unutmurlar.

Alp Ər Tonqa öldimü
İciz ajun qaldımu
Özlək öçin aldımu
Emdi yürək yırtılur (10, 41).

Tarixi mənbələrin verdiyi informasiyalardan aydın olur ki, Qaraxanlılar və Səlcuqilər də özlərinin soyunu Alp Ər Tonqanın adına bağlamışlar. Y.Balasaqunlu «Qutadqu Bilig»ndə yazır ki, Alp Ər Tonqaya Əfrasiyab da deyirdilər. «Türk bəyləri arasında adı bilgəli Tonqa Alp Ər idi. O biligi ilə tanınırdı, biligi güclü, hünərləri çox, ağılı ilə dünyada tək idi. Taciklər ona Əfrasiyab deyirdilər. Bu Əfrasiyab ellərini zənginləşdirdi» (11, 31). Qeyd edək ki, fars mənşəli taciklər təsadüfi olaraq Alp Ər Tonqanı Əfrasiyab adlandırmamışlar. Qədim farslar, şər, pişik ilahələrinə belə müraciət edirdilər. Farslar Alp Ər Tonqadan çox qorxduqları üçün onu şər tanrısına bənzətmişdilər. Əfrasiyabın türk əsilli olmasını bir çox erkən qaynaqlar təsdiqləyir. Ət-Təbəridə, əl-Birunidə, İdn Xəldunda onun genealogiyası məhz Yafəs oğlu Türkün adı ilə bağlanmışdır (12, 28).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**«Kitabi-Dədə Qorqud» eposunda əcdad kultu.** «Dədə Qorqud» eposunun əcdad kultu kompleksində ilk diqqəti cəlb edən obrazı Qorqud Atadır. Arxaik strukturunu qoruyub saxlamış obraz kimi Qorqud Ata eposun müqəddimə və boylarında həm bir övliya, həm də ulu əcdad olaraq əksini tapıb. Eposun oxunuşu zamanı aydın görünür ki, Qorqud Ata funksional baxımdan bir çox mifoloji varlıqlara (Boz qurd, Xızır, Uluq Türük, Domrul və s.) yaxınlaşmış, mərasim hamisinə xas özəllikləri daşımış və eyni zamanda mədəni qəhrəmana aid edilən cizgilərə də sahib olmuşdur. Diqqəti cəlb edən başlıca elementlərdən biri budur ki, Qorqud Ata mərasim hamisi obrazında çıxış edərək əcdadlar dünyasına, yaxud axirət aləminə bağlanır. Bu bağlantı Qorqudun möcüzəli yolla dünyaya gəlişini, yaşamını və ölümünü açıq şəkildə təqdim edir. Eposun müqəddimə hissəsindən oxuyuruq: «Rəsul əleyhissəlam zamanına yaqın Bayat boyından, Qorqut ata deyərlər, bir ər qopdı. Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə, olurdu. Qayibdən dürlü xəbər söylərdi. Haq Taala anın könlünə ilham edərdi» (13, 19). Qorqud Atanın «Kitab»da bu cür təqdimatı əcdad ruhuna məxsus abstrakt kodu və şamanlıq-övliyalıq sintezindəki mifik mahiyyəti üzə çıxarır. Bu prizmadan baxdığımızda Qorqudun «Ata» kimi funksiyasını, «Ata» adının «o dünya» ilə əlaqəsini və əcdad haqda təsəvvürləri də müəyyənləşdirmək mümkün olur. Nəzər yetirdiyimiz mifoloji qəlibdən aydınlaşır ki, Atanın qoruyucu ruh kimi daşıdığı dəyər inisiasiya aktında iştirak edən əcdad ruhunun funksiyasına adekvatdır. Və mərasim hamisi, ulu əcdad, mədəni qəhrəman timsalında görünün Qorqud Ata, ümumtürk xarakterini özündə əks etdirən digər obrazlarla (Qırğız Ata, İrkıl Ata və s.) eyni semantik cərgədə dayanır.

Qeyd edək ki, qoruyucu ruh sferasında qəbul edilmiş Karlıq Ata da qaraimlərin dini-mifoloji görüşlərinə uyğun gələn mifoloji varlıq statusunu daşıyırdı. Eləcə də xarəzmlərin axırıncı şiə imamını Qaib Ata, teleutların yeraltı dünya hamisi Krliki «Atam» deyə adlandırmaları əcdad məfhumunun qeyd aləmi ilə bağlantısını təsbit edir. Qeyd edək ki, qədim türklərin qohumluq əlaqələri heç də mürəkkəb deyildi. Nəslin bütün üzvləri, buraya daxil olan hər fərd, bilvasitə ata mülkiyyətini qoruyub saxlamağa borclu idi. Əcdad kultu qeyri-türk mənşəli xalqlarda da geniş şəkildə yayılmışdır. Yunanlarda bazilevslər, yaponlarda sintoist səcdəgahlar bu qəbildəndir. Yapon mifologiyasını geniş şəkildə tədqiq etmiş Meşeryakov yazır ki, VI-VIII əsrlərdə Yaponiyada əcdadların kult olaraq qorunması faktı mövcud idi. Hər nəslin əcdadı var idi. Nəslin icraçısı sayılan əcdada böyük hörmət bəslənilirdi (14, 45). Səcdəgah adlarının analizi təsdiq edir ki, keçmişdə onlar mühüm vəzifə daşıyıcıları hesab olunurdular. Nəsillərin arasında gedən daimi rəqabət dövlətin formalaşma və inkişaf etmə prosesini müşayiət edərkən, nəsillərin səcdəgahı – himayəçilərin funksiyaları yaddan çıxıb, ikinci plana keçirdi. Bu səbəbdən nəslin əmin-amanlığını qoruyan sintoist səcdəgahların böyük əksəriyyətinin çoxfunksiyalılığı yaranmışdır. Əgər nəsil öz irsi işini icra etmirdisə, onun səcdəgahı öz əhəmiyyətini itirmirdi və onun fəaliyyətində heç bir mühüm dəyişiklik nəzərə çarpmırdı. Bu səbəbdən bizi maraqlandıran sintoizm səcdəgahlarının təsnifi «dövrü səcdəgahların funksiyaları ilə deyil, onlara sitayiş edənlərlə təyin edilməlidir» fikri ilə üst-üstə düşür.

Qazaxlar arasında dolaşan mifik rəvayətlərdən birində deyilir ki, Qorqud pəri qızından, digər bir variantda yer altından çıxmış divdən doğulub. Prof. Mirəli Seyidov bu rəvayətlə bağlı yazır ki, Qorqutun anasının alagözlü div qızı olduğu qənaətinə gələn əski insan bununla həm də Qorqutun əcdadını böyük tanrıya – Ulu Toyuna, div onqonuna bağlamışdır (15, 177). Qorqudun «alagözlü div qızından» doğulduğuna dair işarənin tədqiqatçının elmi təhlillərində yer alması Qorqud Atanı Göy mənşəli obraz biçimində də təqdim etmiş olur. Buradan görünür ki, Qorqud Atanın təsəvvürlərdə real varlıq və mistik güc kimi iz salması onun şəcərə və əfsanələrdə müxtəlif şəkillərdə təsvirinə gətirib çıxarmışdır. Prof. Füzuli Bayat yazır ki, Azərbaycandan toplanmış bir əfsanədə diqqət çəkən yön, Qorqudun atasının, Nuh peyğəmbərin oğlu Yafəsin oğlu Türk olduğu qeydinin tapılmasıdır. Onun fikrincə, Qorqudun Nuhun nəvəsi olması, bu mifoloji tipi əcdad kultu ilə bağlayır (16, 7). Ümumiyyətlə, Nuh soyundan gələn Türkün adı əksər mətnlərdə ilk əcdad kimi qeyd edilir. A.Acalov yazır ki, türk kosmosunun formalaşmasında önəmli rol oynayan Oğuz xan, Qorqud ata, Boz Qurd, Koroğlu, Elley, Ulu Türk, Xıdır və başqaları bəzən mifoloji prosesin fəal iştirakçısı, bəzən də mədəni qəhrəman statusunda təqdim edilir (17, 58). Vurğulamağa gərək var ki, başqurdlar öz mərasim nəğmələrində Qorqudu bir sehrkar kimi tərənnüm etmiş, onun yaman ruhları qovmaq gücünə sahib olduğuna diqqət çəkmişlər. Qorqud Atanın fəlakətlərdən hifzetmə qüdrətinə inanmış baxışlar isə «ölü desəm, ölü eməs, tiri desəm, tiri eməs, Ata Qorqud övliya» deyir (18, 47) və bu ulu varlığı əcdad ruhunun daşıyıcısı kimi görürdülər. Qorqud Atanı «böyük ilham sahibi» deyə yad etmiş Ə.Nəvai türk xalqı arasında məşhur olan bu atanın, olacaqları öncədən xəbər verdiyinə işarə edərək Qorqud Ata adlı bir övliyanın varlığından bəhs etmişdir. Ümumiyyətlə, «qədim türklərin ikinci inanc sistemi Atalar kultu» (19, 12) ciddi fakt olaraq «Dədə Qorqud» eposunda əks edilmiş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əcdad tipi ilə üzvi bir şəkildə bağlanır. Və bu kontekstdə əcdada aid paradiqmatik məlumatlar problemin incələnməsinə imkan verir.

Qorqud Atanın «Kitab»da əksini tapmış qeybdən xəbər verməsi, ad qoyması, boy boylayıb, soy soylaması onu Oğuz elinin başbiləni statusunda səciyyələndirir. Digər tərəfdən Qorqudun eposda övliya və təbib funksiyasını yerinə yetirməsi (Dəli Qarcarın əlini qurudub sonra sağaltması), darda qalan Oğuz elinin imdadına çatması (Təpəgözü müəyyən qədər ram etməsi) kimi icraçılığı əcdad ruhunun yardımçı semantikasına uyğun gələn cəhətlərdir. Qeyd edək ki, Qorqud Atanın eposda Dədə adı ilə işarələnməsi yenə də əcdad ruhunu və övliya məzmununu daşıyan hadisə qavramında görünür. Folklorşünas alim M.Cəfərli Qorqud adına qoşulmuş sözlərlə bağlı yazır ki, qorqud adını müşayiət edən hər iki söz – ad (Dədə – Ata) eyni məzmunlu olub, Dədə Qorqudun hami funksiyasını açıq şəkildə büruzə verir. tədqiqatçının sözlərinə görə, atalıq, yaxud dədəlik əcdadlarla, əcdad ruhlarla bağlılıq deməkdir (20, 80). Məsələyə bu cür yanaşma müqəddəs hesab edilən övliyaların, ozanların, qamların «ata» adı ilə təqdim edilməsinə tam aydınlıq gətirir. Məsələn, türklər arasında sufiliyin geniş yayılması ilə şeyxlərə, hikmət və kəramət sahibi övliya dərvişlərə də «Ata» adı verilmişdir. Mənsur Ata, Zəngi Ata, Hakim Süleyman Ata, Çoban Ata, Seyid Ata, Dana Ata və s. tipli adlar bu sıradandır.

Qorqud Atanın ölümdənqaçma motivi ilə bağlı olmasına dair yetərli qədər mifoloji fakt var. Əfsanələrin dəyişik variantlarında Qorqud ağsaqqal, qopuzu yaradan şaman olaraq göstərilir. Belə bir təyinat Qorqudu həm mədəni qəhrəman, demiurq qismində təqdim edir, həm də onu Altay miflərindəki şaman Erliklə eyni funksiyanın (qopuzu şeytanların yardımı ilə düzəltməsi) daşıyıcısı kimi göstərir. Qeyd edək ki, «Dədə Qorqud» eposunda şaman tipində funksiya yerinə yetirən digər bir obraz Bayındır xandır. Bunu onun adındakı «bay» sözü və atasının Qam (şaman) olması da təsdiqləyir (15, 57). Bu baxımdan Bayındır xanın sakral ritualları yönləndirməsi, Qalın Oğuz elinə nəzarət etməsi, eləcə də eposda əksini tapmış «Bayındır xanın ağ meydanında», «Bayındır xanın yağısını basan» tipli formullar hakim-şaman funksiyasına uyğun detallardır. Və Qorqud Ata ilə Bayındır xanın ata-qam laylarında işarələnməsi bu obrazların eposdan görünən əcdadlıq statusundan qaynaqlanır. Folklorşünas alim Hüseyn İsmayılov ata adının mahiyyətinə dair yazır: «Öncə bu ad əcdad kultunun işarəsidir. İcma başçısıdır. Sonra şaman-kahindir: qam ata» (21, 16). Məsələ burasındadır ki, gələcəkdən xəbərvermə, təbiblik, nəsil artımını təmin etmək, kahinlik kimi keyfiyyətlərin Qorqud Atanın və Bayındır xanın icraçılığında cəmləşməsi bu iki obrazı özəl biçimdə – əcdadlar kompleksində büruzə verir. Mifoloq alim Seyfəddin Rzasoy eposda fəal obraz kimi yer tutmuş Beyrəyi də Qorqudla eyni sırada görərək yazır ki, qam-şamanlıq Beyrəyi Dədə Qorqudla eyni funksional sıraya qoymuş olur. Beyrək sonuncu boy süjetində Qorqudun Qalın Oğuz kosmosu kontekstində yerinə yetirdiyi işi görür (22, 76). Göründüyü kimi, tədqiqatçıların çox hissəsi şamanların fərqli xüsusiyyətlər daşıdığını qeyd edirlər. Şamanların adi bir tərzdə fəaliyyətinə önəm verən araşdırıcıların bir qismi əfsanələrə istinadən bildirirlər ki, onlar dəli-cinli olan adamları acıqlı ruhların cəngindən qurtara bilir. C.Bəydili qeyd edir ki, qədim türk çağında «şaman» anlamında həm «ilvici», həm də «kam» adının varlığı burada şamanların dəyişik səciyyəli olduğunu göstərir. Tədqiqatçı alim daha sonra yazır: «Tanrıçılıq mərasimini icra eləyən tayfa ağsaqqallarından da onu fərqləndirərdilər. Belə ki, Tanrıya verilən kütləvi qurban mərasimlərinə şamanlary axın burazılmırdılar. Çünki ruhlar aləmi ilə bağlı olan şaman eləcə də xtonik aləmin gücləri ilə əlaqələndirilirdi» (3, 332). Bu fikirlər şamanın türk sosiumunda hansı yeri tutduğuna dair yazılıb. Qeyd etməyə gərək var ki, qədim türklərin qohumluq əlaqələrinin mürəkkəb olmaması şaman-kahin paralellərinin məhz bu yönümlü təhlil müstəvilərindən yer almasını şərtləndirmişdir.

Eposda ulu əcdad statusunda görünən və yol göstərici, hami funksiyalarını icra edən obrazlardan biri də Boz Qurddur.

Məlumdur ki, qədim türklərin inam sistemində Boz qurd öncül rəmz kimi dəyər qazanıb və epik-mifoloji düşüncədə türklərin atası (əcdad kultunun daşıyıcısı) olaraq şifrələnibdir. Araşdırmalar nəticəsində o də aydın olub ki, hunların və göytürklərin sakral əcdadı sayılan Boz qurd oğuz türklərinin də qoruyucusu və hamisi statusunu daşımışdır. Eposun ikinci boyunda Boz Qurdun Qazanla rastlaşması hadisəsi bu obrazın əcdad-xilaskar semantikasının olduğunu bəlli edir. Qazan xanın Boz Qurddan yurdunu xəbər alması, ona əcdadı kimi üz tutması bu baxımdan fikrimizə əsaslı sübut sayıla bilər:

Ordumun xəbərin bilürmisin, degil mana!
Qara başım qurban olsun, qurdum, sana! (13, 41)

Boz Qurda ünvanlanmış bu müraciət Qazan xanın öz əcdadına bütün varlığı ilə tapındığını, Boz qurdu bəlalardan qurtaran güc olaraq gördüyünü təsdiqləyir.

Qeyd edilən kontekstdə yanaşma «Dədə Qorqud kitabındakı» Boz qurd obrazının müxtəlif funksiyalarını aşkarlamağa imkan verir. eposun zaman areallı və funksional missiyası ilə bağlı konkret



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qənaətlərə gəlməyə şərait yaradır. Sözügedən boyda Salur Qazanın qurda müraciətində «Qaranqu axşam olanda güni doğan» (13. 41) formulu (ifadəsi) qurdun mifoloji obraz kimi funksional hərəkət sxemi və həmin hərəkətin zaman strukturu ilə bağlı dəyərli bilgi kimi diqqəti cəlb edir. Məhz bu zaman kəsiyi Boz qurdun hərəkət fəallığının zaman işarəsi kimi üzə çıxır. Eyni zamanda, Boz qurdun göy işıqla əlaqəsini aydınlaşdıran detaldan da eposun bu boyunda bəhs olunmuşdur: işıq içində göy üzündən enmiş qurd, parlaq şəkildə yalnız axşam vaxtı, qaranlıq çökən zaman gözə görünə bilər.

Eposda qurdun funksional strukturunun Salur Qazan tərəfindən bəyanlanması onun qurda müraciətində xüsusi təhkiyə formulu üzrə davam edir:

Qar ilə yağmur yaqanda ər kimi duran… (13, 41)

Qazanın qurda ikinci müraciəti Boz qurd-Oğuz münasibətlərinin mifoloji semantikasını üzə çıxarır. Məhz Oğuz-qurd münasibətlərinin arxaik semantikasının araşdırılması Oğuzun obrazında qurd obrazına məxsus mifoloji cizgiləri təsdiqləyir. «Dədə Qorqud kitabı»ndakı qurdun Salur Qazan tərəfindən «ər» adlanması faktı Oğuzun funksiyasının qurdun funksiyasından fərqlənmədiyini göstərir. Hər iki obraz «Ər» semantemində birləşir. Bu halda «Ər» semantemi Oğuz və Bozqurd obrazlarının törəmə başlanğıcı kimi də çıxış edir. Qeyd edilən məqam digər mifik qatlara da işıq salır.

Bəlli olduğu kimi, «Oğuz Kağan» dastanında qurdu yalnız Oğuz görür. Və bu detal da dolayı yolla «Dədə Qorqud kitabı»na transformasiya olunub. Eposdakı ərənlər içərisində yalnız Qazanın qurdla rastlaşması Oğuz-qurd təmasından gəlməklə sözügedən əlaqənin ilkin semantikasını ortaya qoymuşdur: Oğuz-Boz qurd mifik münasibətləri Qazan-qurd epik münasibətlərində paradiqmalaşmışdır. Bu halda Qazan-qurd epik münasibətləri bizə Oğuz-Bozqurd mifik münasibətlərinin «detallarını» aşkarlamaq üçün etibarlı material verir.

Qazanın qurda üçüncü müraciəti də mifik təfəkkürdəki elementləri qabardır:

Qaraquç atları gördügində kişnəşdirən… (13, 41)

Bu müraciət variantı da türk xalqlarının inamlarındakı epizodları xatırladır. Əski türklər inanırdılar ki, qəhrəmanların atları Günəşdən gəlir (23, 93) və «Dədə Qorqud kitabı»nda qurdun atla qarşı-qarşıya qoyulması göy üzündən enmiş varlıqların (atın və qurdun) mifik-kosmik bağlantılarını əks etdirir.

Eposda Salur Qazanın qurda müraciətində onu «Ağca qoyun gördügində quyruq çırpub qamçulayan» (13, 41) deyimi ilə səciyyələndirməsi də mifoloji semantikaya malikdir. Qeyd edək ki, «Dədə Qorqud kitabı»nda Salur Qazanın qurdla rastlaşması faktı təsadüfi motiv deyil, həm də böhranlı zaman kontekstində baş verən hadisədir. Salur Qazanın evinin yağılar tərəfindən talanması, ailəsinin əsir düşməsi bir növ qurdun peyda olmasına zəmin hazırlayır və qurd Salur Qazana rast gəlir. Sonrakı mərhələdə Qazanın oğuzlarla birgə düşmən üzərində qələbə çalması məhz Boz qurdu uğur müjdəçisi kimi yada salır.

Bəllidir ki, Boz qurdun qiyamət günü türkləri xilas edəcəyi ilə bağlı əski bir inam möscuddur və bu inam türk qəhrəmanlarının dastan obrazlarında variasiya olunub. Bu baxımdan, «Dədə Qorqud kitabı»nda öz əksini tapmış qurdun xilaskarlıq missiyası da onun digər funksiyaları qədər qabarıq görünür.

Mifoloji antalogiyalara müraciət edək. Yakut şamanlara tanrı oğlu olan qurdu hörmətlə «Tanqara yola» (Tanrı oğlu), bəzi variantlarda «ayin yola» (bu da «Tanrı oğlu» deməkdir), bəzən də «tanqara ıta» (Tanrı iti) – deyə çağırırdılar. Buryatlar ağ qurdu göy – səma itləri adlandırırdılar. Buryatlara görə, ağ qurdlar ancaq Tanrının göstərişi ilə hərəkət edirlər. Onlar başlarını göyə qaldırıb ulayanda Tanrıdan özlərinə yemək istəyirlər. Tanrı da onlara yeməyin yerini, rəngini və qədərini bildirir. Buryatlar qoyuna qurd soxulanda bunu yaxşı əlamət kimi yozurdular (24, 36).

Azərbaycanda da qurdun parçaladığı heyvanın murdar hesab edilməməsi yuxarıdakı mifik cizgiləri təsdiqləyən faktdır. Bu, bilavasitə qurdun xilaskar obrazının xalq yaddaşında bərqərar olması ilə bağlıdır. Saka türklərinin dövründə Oğuz-qurd xilaskar obrazının türk dövlətini qurmaqda rolu məlumdur. Şübhəsiz, bu, Oğuzu dövlətin, hərbi və inzibati bölgünün yaradıcısı kimi görmək cəhdindən meydana çıxırdı. Füzuli Bayat bu barədə yazır: «Türk tayfalarında Boz qurd, əsasən, əcdaddır (məsələn, ciğil, yağma, karluq tayfalarında). Göy Türklərdə əcdadlıq xilaskarlıq funksiyası ilə birləşib: əcdad-xilaskar şəklində rəsmiləşdirilib» (5, 47). Z.Toğan isə yazır ki, oğuzlarda, qıpçaqlarda qurd xilaskardır (25, 134). Bahaeddin Ögel də «türklərin öz simvolları olan müqəddəs qurda «Kök-Börü», yəni Göy Kurt demələrinin səbəbi var. Kök, yəni göy, göyün rəngi olan mavilik idi», – deyə bu məsələyə diqqət çəkmişdir (26, 42). Tədqiqatçının bu təyinatı qurdun rəng simvolikası ilə üzvi bağlılığını göstərir. Bəlli olur ki, göy rəngin Tanrı simvolu olması Boz qurdun yer üzündəki təmsilçilik missiyası ilə çarpazlaşan faktdır. Bununla bağlı «Köç» dastanında da epizodlar mövcuddur: «Müqəddəs buyruğa əməl edən xalq böyük bir yurdu tərk edərək köçə hazırlaşdı. Yolu düzəltdilər. Durub dayanmadan, yorulmaq bilmədən getdilər, getdilər. Hara getdiklərini, harda dayanacaqlarını bilmirdilər. Bu zaman onların qarşısına göy



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tüklü, göy yallı bir qurd çıxdı və onların qabağına düşdü. Uyğurlar da qurdu tanrının göndərdiyini başa düşüb onun dalınca getdilər. Qurd gətirib onları dümdüz ovalıq bir yerə çıxardı. Uyğurlar burada yerləşib yurd saldılar» (27, 37). B.Ögel daha sonra Ramstedtə istinadən qeyd edir ki, monqollar qurda Çina, yaxud Çinu deyirdilər. Çingiz xanın ilk ataları erkək qurdla dişi maraldır. «Monqolların gizli tarixi»ndə bu ata qurda Börte – Çinu adı verilmişdir. Börte və ya Berte monqolca bir rəng adıdır. Kök baxımından bizim boz rənglə də bir əlaqəsi var (26, 43). Bu təyinatla bağlı Yean-Paul Roux da qeyd edir ki, qurdla dişi keyikin birləşməsindən böyük bir soyağacının gövdəsini təşkil edəcək şəxs doğulmuşdur. Bu soyağacı Çingiz xan öncəsi Monqol dönəmindən, (onun – R.Ə.) fateh Dobun Mergen adlı yaxın tarixli atasına qədər bütün nüansları əhatə etməkdədir (28, 310). Daha sonra Çingiz xanın soy əfsanəsindən bəhs edən tədqiqatçı yazır: «Çingiz xanın soy əfsanəsini anladan ikinci mətn olan Altan Tobci, təməl ünsürləri qorumaqla birlikdə Gizli Tarixdən uzaqlaşmış görülür. İlk soyağacı üç oğlanın atasına aparır: Bozocu, Sibağacı və Börteçine. Bunlar dava edincə, Börteçine (Bozqurd) qəzeyə getdi və dənizi aşdı, Monqol xalqının torpağına yetişdi. Burada əri olmayan Toa Maral adlı gənc bir qızla evləndi və bu xalqın torpağına yerləşib Monqol boyu oldu» (28, 312). Deməli, qurdun sonradan təyin ediləcək «qutsal» özəlliklərə daha o zamandan sahib olduğu qətidir. Həqiqətən də, türklər (ti-kiular) özlərinə «mavi türklər», yəni «göksəl türklər» anlamına gələn Gök Türk (ya da Kök Türük) adını vermişdilər. Yean-Paul Roux tarixi faktlara istinad edərək yazır ki, türklərdən qalan və daha öncə qurd əfsanəsinə əsaslanmayan kitabələr, Bumın və İsteminin üzərində hökm sürdükləri insan oğullarının Göy ilə Dünya arasında ortaya çıxışını bəlli edir və göydən gələn hökmdarın göyə bənzədiyini, göydən gəldiyini (tenqri Teq, Tenqride bölmüş) isbatlayır (28, 307). Boz qurd «Dədə Qorqud kitabı»nda mübarək sayılır və Qazan xanın ona müraciət etməsi, ondan kömək istəməsi Boz qurdun yol göstərməsini, sonrakı davranışlarında rəhbərlik etməsini istəməsidir (29, 78).

Bundan başqa, Qazanın eposda: «Azvay qurd əniyi erkəgində bir köküm var» - deməsi onun soyunun (salurların) qurdla bağlantısını üzə çıxarır. Prof. M.Seyidovun yazdığı kimi, qurd vaxtı ilə geniş yayılmış onqon olmuşdur. Çünki çox məşhur onqonu soyun kökü sayırmışlar. Bəlkə də, həmin qurd toteminin Qazanla əlaqədar əfsanəsi də mövcud imiş (15, 31). «Dədə Qorqud kitabı»nda qurdun yalnız Qazanla bağlı xatırlanması da qeyd olunan məsələyə bağlanır. Hazırda Azərbaycanın bir sıra bölgələrində «Qurdu söymək olmaz», «Qurdu görəndə salavat çevir» kimi deyimlərin mövcudluğu qurdun əcdad funksiyasını özündə yaşadır. Eposda Qazanın öz soyunu erkək qurdla bağlaması qurdun başlıca onqonlardan (totemlərdən) biri olduğunu təsdiqləyir.

Tədqiqatçılar qurdu Günəşin bəlgəsi, yəni Günəşlə bağlı mifik obrazlar kimi də təsdiqləmişlər: «…Qurd Günəşin bəlgəsidir… Salur Qazan xanın kökünün qaplanla, aslanla (bu zoomorfik onqon da Günəşin bəlgəsi sayılmışdır), sunqur quşu ilə ilişgilənməsi onun uzaq keçmişlərlə, mifik dünya ilə bağlı olduğunu ehtimal etməyə imkan verir» (30, 78).

Boz qurdun eposda əcdad-xilaskar kimi dəyər qazanmasından əlavə, onun mediator səciyyəsi də qorunub qalmışdır. Belə ki, qurdun ritual-mifoloji səciyyəsi onun arxaik strukturunu bərpa etməyə kömək edir (30, 48). Yəni qurdun yaman ruhlara qarşı dayanması, təhlükəli məqamlarda gözə görünməsi eposda təsadüfi xarakter daşımır. Altayların Umayı, Yakutların Ayıısıtı, demək olar ki, oğuzların Boz qurduna bənzəyir. Məsələn, Qaqauz türkləri yenə də «canavar bayramı» keçirir və bu ritualla yaman ruhlardan qorunduqlarını zənn edirlər. Eposda «qurd üzü mübarəkdir» deyimi də qurdun xeyir-dua verməsi, uğur bəxş etməsi deməkdir. «Mübarək» ərəb sözü olub, «bərəkət» sözü ilə eyni köklüdür. Qurdun üzünün mübarək sayılması onun bərəkət verməsi deməkdir. Bu da qurdun Oğuz etnosunun inkişafı ilə bağlı hami statusunu bərpa etməyə imkan verir, yəni qurdun üzü əski əcdadların hami obrazının inikası olaraq eposda təzahür edir. Nəzərə alsaq ki, Boz qurd türk etnik mədəniyyətində bir çox funksiyaları yerinə yetirir, o zaman onun həmin mədəniyyətdəki yerini müəyyənləşdirmək çətin olmaz. Məsələn, bəzi faktlara əsaslanaraq qeyd etmək olar ki, turduşlar öz əcdadlarını qurd başlı təsəvvür edirdilər (31, 312). Türk tayfalarından kimandinlər də qurdu dağ ruhu hesab edirdilər. Belə dağ ruhunun sarışın saçlı, göy gözlü, qızı isə it şəklində təsəvvür olunurdu (32, 131). Füzuli Bayat yazır ki, geniş semantik dairədə Boz qurd, Öküz və Oğuz Tanrı oğludurlar. Tanrı oğlu motivinin transformasiya, variasiya olunmuş şəkildə türk epik ənənəsində sistem yaratması Boz qurd mifoloji obrazından da görünür. İslamı yayan müsəlmanlara kömək edən qurd obrazı, əslində, heç də dəyişmədən müsəlman tarixlərinə də düşürdü (5, 51). Füzuli Bayat B.Ögələ istinadən qeyd edir ki, belə bir qurd müsəlman dinini qorumaq üçün türklərə: «qalxın – deyə, onları Şərqdən qərbə doğru aparır və türklərin önündə gedir» (5, 52).

Deməli, «Dədə Qorqud» eposunda əksini tapmış qurdu adi bir zoomorf obraz kimi yox, etnik-mədəni sistemdə yer almış sakral biçimli Boz Qurd olaraq dəyərləndirmək gərəkdir. Qazanın eposda «Azvay qurd əniyi erkəgində bir köküm var» deməsi də onun kökünün ilkin əcdada – Boz Qurda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bağlandığına aid işarədir. M.Seyidov qeyd edir ki, Qazan xan «vaxtilə əsatir aləminin «vətəndaşı» olduğuna görə onun kökü zoomorfik totemlərlə, o cümlədən qurdla bağlıdır» (33, 36).

«Dədə Qorqud» eposunda Salur Qazanın qurda müraciət etməsi kimi hadisə, əslində qədim bir ritualın – Oğuz türklərinin savaşdan öncə ulu əcdada, Boz Qurda tapınmalarının izi olaraq diqqəti cəlb edir. Bu isə onu göstərir ki, Boz qurd savaş ruhunun daşıyıcısı rolunda əcdad kultuna daxil olan güc, hərbi və sosial nizamı qoruyan hamidir. Eposda əcdad kimi funksiyalar yerinə yetirən Boz qurd, bilavasitə kosmoqonik aktın iştirakçısı qismində təqdim edilir. Oğuznamə motivlərində şəkillənmiş Boz qurdun göy oğlu səciyyəsi, əski qatlardan «Dədə Qorqud»a transformasiya olunaraq ilkin və ulu əcdad paralellərində status qazanmış və dağ, torpaq, vətən hamisinə çevrilmişdir. Boz qurdun əcdadlıq missiyasını sübut edən ən əski mənbələrdən biri də Göytürklərin yadigarı olan Buqut abidəsidir. Bu abidə üzərində Boz qurddan süd əmən qolları kəsik türk uşağının təsvir edilməsi sonrakı epos yaradıcılığında əcdad, xilaskar obrazının (Boz qurdun) təcəssümünə səbəb olmuşdur.Beləliklə, türk etnik-mədəni ənənəsində fəal yer tutmuş Boz qurdun, ulu əcdad timsalında icra etdiyi funksiyalar müəyyən qədər üzə çıxmış oldu. Aydın oldu ki, bütövlükdə əcdadlar iyerarxiyasındakı sakral varlıqların (Qorqud Ata, Boz qurd və s.) fəaliyyəti mifik zamanla bağlıdır. Və deməli, bu varlıqlar demiurqlar, mədəni qəhrəmanlar kimi dünyanın yaradılması aktında iştirak edə bilirlər.

**ƏDƏBİYYAT**

1. Atsız N. Türk edebiyatı tarihi, İstanbul, 1943.
2. Oğuznamələr. Tərtibçilər və ön sözün müəllifləri: K.Vəliyev, F.Uğurlu. Bakı, 1993.
3. Ağaverdi Xəlil. Mahmud Kaşqarlının «Türk dillərinin divanı kitabı»nda ədəbi mətnlər, Bakı, 2001.
4. Cəlal Bəydili. Türk mifoloji sözlüyü. Bakı, 2003.
5. Füzuli Bayat. Oğuz Epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı, 1993.
6. Ксенофонтов Г.Б. Хрестес. Шаманизм и Христианство, Иркутск, 1929.
7. Афанасева В.К. Гилгамес и Энкиду. Эпические образы в искусстве, Москва, 1979.
8. Н.Йемелйанов. Сюжети олонхо о родоначальниках племени, Москва, 1990.
9. Гор-оглы. Туркменский Героический Эпос, Москва, 1983.
10. Divanü Luqati it-türk. Ankara, 1992, B. Atalayın nəşri.
11. Yusif Has. Hacib. Kutadqu Bilig. Ankara, 1959.
12. Х.Короглы. Алп Ер Тонга и Афрасияб по Й.Баласагини, М.Кашгари и другим авторам// «Совет. тюркология» ж., 1970, №4.
13. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, 2004.
14. А.Н.Мешеряков. Древня Япония. Буддизм и синтоизм, Москва, 1987.
15. Mirəli Seyidov. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.
16. Füzuli Bayat. Korkut Ata. Mifolojiden gerçəkliye Dedi Korkut. Ankara, 2003.
17. Arif Acalov. Mifologiya. Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 2004.
18. Радлов В.В. Образы народной литературе тюркских племен. Т. III, СРЬ, 1870.
19. Rəfik Özdək. Türkün qızıl kitabı, Bakı, 1992.
20. Məhərrəm Cəfərli. Dastan və mif. Bakı, 2001.
21. Hüseyn İsmayılov. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı, 2002.
22. Seyfəddin Rzasoy. Oğuz mifinin paradiqmaları. Bakı, 2004.
23. Şükürov A. Mifologiya. VI kitab, Bakı, 1997.
24. Галданова Г.П. Доламантские верования вурят. Новосибирск, 1987.
25. Toğan Z.V. Oğuz destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili. İstanbul, 1972.
26. Bahaeddin Ö. Türk mifolojisi. Ankara, 1998.
27. Bozqurd. Azadlıq nəş. Bakı, 1992.
28. Jean-Paul R. Orta Asyada kutsal bitkiler ve hayvanlar. Birinci Basım, Mayıs, 2005.
29. Cavad H. Türklerin tarix və mədəniyyətinə bir baxış, 1993.
30. Seyidov M. Yar bayramı. Bakı, 1990.
31. Шастына Н.П. Следы примитивных религий в шаманской мистерии. Москва, 1974.
32. Дыренкова Н.П. Охотничий легенды кимандинчев. Сб. Музея антропологии и этнографии. Т. XI, М-Л, 1949.
33. Mirəli Seyidov. Bözi-qurt, Bakı, 2006.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# İRAN TÜRK LƏHCƏLƏRİNDƏ FOLKLOR NÜMUNƏLƏRİ

***Prof.doktor Roza Eyvazova***
***AMEA Nəsimi ad. Dilçilik İnstitutu***
***Dil əlaqələri şöbəsinin müdiri***
***Azərbaycan***

İran türkləri Türkiyə türklərindən sonra yer üzündə ən böyük türk toplumudur. Onların çoxu İranın şimal-qərbində, şimal şərqi və güneyində yaşayırlar. Qeyd edək ki, əsas məqsədimiz İran türk ləhcələrində folklor nümunələrini araşdırmaqla bərabər, onları yaradan türk etnosları haqqında da məlumat verməkdir.

İran türklərinin dili və folkloru haqqında (12) Əlirza Sərrafi İranda danışılan dillərin çeşidliyinə, İran türklərinin coğrafi yerləşməsinə, İran xalqlarının xalq ədəbiyyatı xəzinəsinə, İran türklərinin folklorunun toplanıb yayılmasındakı çətinliklərinə nəzər salmışdır.

İran türklərinin bu ərazidə yaşadığı yerlər əsasən üç böyük sahəyə ayrılır:

1. Şimal qərb türk yurdları
2. Şimal şərq türk yurdları
3.Güney və Mərkzəi türk urdları

İranın iyirmi səkkiz ostanının on dördündə, yəni bu ölkə torpağının təqribən yarı ərazisində türklər yaşayır və bu dildə danışırlar (11.41).

İran türkləri çox zəngin bir folklor xəzinəsinə malikdirlər.

İranda bir çox əfsanələrdə Dədə Qorqud izlərinə rast gəldiyini qeyd edən Əlirza Sərrafi yazır ki, Dədə Qorqud dastanlarında keçən şəxs adlarının özəlliklə «***Uruz», «Beyrək», «Əyrək***» kimi adlar hələ də Urmiyədə işlənməkdədir. Bu haqda doktor Camal Ayrumlunun araşdırmaları olmuşdur.

Ə.Sərrafi maraqlı bir fakt kimi qeyd edir ki, İranın şimal-şərqində Bəcnəvərd və Aşkanə arasındakı ərazinin bir tərəfində Xorasan türkləri, o biri tərəfində isə türkmənlərin yaşadığı bir sıra dağların adı «Qorqud» (xəritələrdə Kurxut, ya da Kurxud şəklində yazıya alınmışdır) dağlarıdır. Yetmiş beş kilometr boyunca uzanan bu sıra dağların ən uca zirvəsinin adı da yenə «Qorqud»dur; həm də Dədə Qorqud dastanlarının qəhrəmanı olan Salur Qazanın adını andıran yeddi dağ və qala İranın şimal-qərbində və şimal-şərqində yerləşir. Müəllif yazır ki, bu dağların adı xəritələrdə «Qazan dağı», «Qazan qalası» kimi sabitləşmişdir.

Ə.Sərrafi qeyd edir ki, bir çox qaynaqlar Çənlibelin Doğu Anadoluda olduğunu göstərirkən, başqa bir neçə mötəbər qaynaq isə onun Xoy-Salmas dağlarında olduğu fikrini irəli sürür.

«Koroğlu» dastanı haqqındakı fikirlər də maraqlıdır. Belə ki, 1830-cu ildə Koroğlu dastanının ilk yazıya alınmış nüsxəsi Aleksandr Xodzkiyə verilmişdir. Hazırda həmin əlyazmanın əsl nüsxəsi Paris kitabxanasında saxlanılır. Bu nüsxə Təbrizdə Aşıq Sadıq dilindən qələmə alınmışdır.

Müəllif Koroğlunun əslində Türküstan (Xorasan) türklərindən olub və oradan Azərbaycana köçüb Təbriz-Əhər yolu üstə olan Göyçəbel gədiyində bir qala qurub yeddi yüz dəlini başına yığdığını söyləyir. Həmin mənbədə deyilir ki, Koroğlu sonralar oradan köçüb Salmas dağlarında İran-Osmanlı sərhədində Çənlibel qalasını qurur. Həm Aleksandr Xodzki, həm Abbasqulu Bakıxanov, həm də «Aləm Arayi Nadiri» əsərinin yazarı Məhəmməd Kazım Mərvi Çənlibelin Xoy-Salmas dağlarında Rum sərhədində olduğuna işarə edirlər, həmin qalanın bünövrə daşları hələ də Qutur körpüsü ilə Türkiyə sərhədinin arasındadır.

Aşıq sənətindən danışarkən qeyd etmək lazımdır ki, bunun dərin kökləri vardır. Azərbaycan aşıq şerinin dəyərli nümayəndələrindən Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım Güney Azərbaycandandırlar.

Qaşqaylı Məhzun İranın Güney türklərinin böyük aşıq tərzində şeir yazan şairlərindəndir. Onun qoşduğu gözəl gəraylı və qoşmalar İranın güneyində qaşqaylar arasında geniş yayılmış aşıq şeirlərindən sayılmaqdadır. Yeri gəlmişkən qaşqaylar haqqıenda bəzi məlumat və araşdırmaların verilməsini məqsədəuyğun sayırıq.

«Qaqaylılar haqqında bir neçə söz» məqaləsində Əziz Mohseni onların haradan gəlmələri, nə dildə danışdıqları, harada yaşadıqları haqda bəzi məsələləri açıqlamağa çalışmışdır (10).

«Qaşqayların haqqında yeni tədqiqat» məqaləsində Həmid Məmmədzadə (9, 11-18) yazır ki, İran tarixi haqqında bir neçə əsərin müəllifi olan doktor Tağı Şahin son illərdə qaşqay elinin tarixini araşdırmaqla məşğul olmuş və bu barədə elmi axtarışlarının nəticəsini «Qaşqaylar» adlı kitabda (8) toplamışdır. Gəldiyi nəticəyə görə, hazırda İranda yaşayan qaşqaylar Azərbaycan mənşəli türklərə mənsubdur. Onların dil, ədəbiyyat, musiqi, adət-ənənə və bütün milli xüsusiyyətlərinə görə Azərbaycanla bağlı olması tarixi faktlarla sübuta yetirilmişdir.

Qaşqayların atalar sözlərindən bir neçə nümunəyə nəzər salaq:

*Ot yanmasa tüt çıxmaz.*
*Ölüm atı yurük gedir.*
*Biz oğri olduğ, gecə ay aydın.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Bir mıx bir nalı, bir nal bir kişiyi, bir kişi bir eli qurtarır.*
*Bu «amma»da bir «umma» da var (12)*

C.Heyət yazır ki, «***qaşqayı***» kəlməsi «***qaşqa***» kökündən əmələ gəlmişdir, müxtəlif mənalar daşıyır. Qaşqay türklərinin ləhcəsi az-çox Azərbaycan dili ilə uyğunluq təşkil etsə də, həmçinin bəzi xüsusiyyətlərinə görə Anadolu türklərinin də əlamətlərini özündə əks etdirir (2.321).

C.Heyət qeyd edir ki, qaşqayların şifahi ədəbiyyatı çox zəngindir. Şairlərindən İbrahim, Hüseynəli bəg Bəyat, Əli Şahlu, Qul Oruc, Mirzay Məzun, Yusif Əli bəg öz yazıları ilə tanınmışlar. Qaşqayların ədəbiyatı barədə kitab çap olunmayıb; Lakin qaşqay şairlərinin əsərlərindən Mülk Mənsur Qaşqayi nümunələr toplamışdır (2.322).

Qeyd etmək lazımdır ki, qaşqayların çox qədim boy olması haqqında Firidun Ağasıoğlunun (7) fikirləri maraq doğurur: «Boy adı kimi «qaşqay» sözünə eradan əvvəl II minillikdə Kiçik Asiyada yaşayan xalqın və müasir dövrdə İranda yaşayan xalqın adında rast gəlirik. Hər iki xalqı bir-birindən ayıran vaxt ölçüsü (3 min il) belə bir haqlı sual ortaya çıxarır. Bu adlardakı səs oxşarlığı (eyniliyi) təsadüfi deyilmi? Və əgər təsadüfi deyilsə, hansı əsaslarla, faktlarla hər iki xalqın qaşqaylar olduğunu sübut etmək olar» (7. 54).

Öz mülahizəsini bir daha təsdiq etmək üçün bir sıra elmi ədəbiyyatlara müraciət edən F.Ağasıoğlu yazır: «Bəllidir ki, İrandakı müasir qaşqaylar Azər türkləridir. Bir sıra mənbələrə və V.Savinanın müşahidələrinə görə, onlar İrandakı türk boyları içərisində sayca daha çox olub müxtəlif bölgələrə yayılmışdır. V.V.Trubetskoy isə qeyd edir ki, qaşqay boylarının bir qismi də bir sıra boylarla birlikdə çoxsaylı bəxtiyar qəbilələrinə qarışmışlar. İranda «döyüşkən xalq» kimi tanınan qaşqaylar son zamanlara qədər tayfa-nəsil bölgüsünü, yəni hərbi demokratiyanın əsas xüsusiyyətlərini saxlayaraq, əkinçilik və maldarlıqla məşğul olurlar. İndi də qaşqay soy birləşmələrinin başında qəbilə başçılarının seçdiyi **ilxan** durur» (7.54).

F.Ağasıoğlu qaşqay sözü haqqında bəhs edərək yazır ki, türk dillərində ***qaşqa, qaşğa, kaşka, kaska*** variantları ilə işlənən bu sözün «qaynayıb kükrəmək», «ulduz», «nişan», «ay» və «xoşbəxtlik», «müqəddəslik» anlamları vardır. Heyvanların alnındakı ağ xala da «qaşqa» deyilir. Qaşqay sözündəki anlamlar bir-biri ilə bağlıdır və qədim inancla əlaqədar yaranmış məna çalarlarıdır. Alnında ağ xal olan heyvanın doğulması qədim Aralıq dənizi ətrafında yaşayan xalqlarda xoşbəxtlik rəmzi kimi qəbul olunurdu. Həmin nişanənin ulduzla, ayla əlaqələndirilməsi qaşqay sözündə «ay» anlamını möhkəmlətmişdir. Sonrakı dövrlərdə qaşqay sözünün titul mənası da yaranmışdır. V.V.Bartold yazır ki, qırğızların şahı (xanı) yox idi, yalnız bəyləri var idi ki, onu da ***kaşka*** adlandırırdılar və həmin ***kaşka*** titulunu sonralar kalmıklar da işlədirdilər. Bu sözün oyrot sənədlərində də titul bildirdiyi göstərilir. M.Seyidov isə ***qaşqay*** sözünün yalnız ikinci hissəsinin «ay» anlamı daşıdığını yazır. «Ay» hat dlində ***kaşka*** sözü ilə adlanmışdır. Həmin dildə «Ay tanrısı» ***kaşku*** şəklində «Ay» sözü isə ***kasku*** şəklində yazılmışdır. Bu fakt onu göstərir ki, əgər hatlar türkdilli deyilmişsə, onda ***qaşqay*** sözünü türkdilli qaşqaylardan almışlar (7.60).

Görünür qaşqaylar da aya sitayiş edirmişlər. Ona görə də hat dilinə keçən qaşqay sözü həm «Ay», həm də «Ay tanrısı»nı bildirir.

F.Ağasıoğlu doğru olaraq əsaslandırır ki, qaşqaylar Kiçik Asiyadan tutmuş Azərbaycana, Qafqaza və Orta Asiyaya qədər müxtəlif bölgələrdə adlarını yadigar qoymuşlar. Əgər bu gün Güney və Quzey Azərbaycanda İranda, İraqda qaşqay adlı tayfaların özü yaşayırsa, Güney Qafqazda ***Qaşqa*** (Vedidə), ***Qaşqaçay*** (Zaqatalada), ***Qaşqatala*** (Orta əsrlərdə Gürcüstanda) toponimləri onların izini yaşadır. M.Kaşqari də Kaşqa-boğra adlı iki toponimi göstərmişdir (7.61).

İrandakı Xorasan türkcəsindən danışarkən qeyd etmək lazımdır ki, bu Azəri türkcəsinin bir hissəsi olmaqla ondan az da olsa fərqli xüsusiyyətlərə malikdir.

Xorasan türkdilləri müxtəlif qəbilələrə bölünür ki, onlardan ən mühümləri aşağıdakılardır:

1. Bayət ya Bayat- Nişapur məntəqəsində (120-150 min nəfər miqdarında)
2. Qaraçurlu – Guyən və Şirvan məntəqələrində (130-150 min nəfər miqdarında).
3. İmarlu, Bukanlu, Cuyanlu, Pəhləvanlu, Bəranlu, Qılıcanlu – Bəcnəvərd əyalətində
4. Timurtaş, Nardin – Mərzi Gordanda
5. Gudari- Mərzi məntəqəsində
6. Əfşar – Bəcnəvərdin cənubunda və Qucanda, Səbzəvar və Nişapurun arasında (Sərvilayət, Rəbat, Meşkan və Damnə) və Guyənin şimalında.
7. Qarayi-Heydəriyyə türbətinin ətrafında.

Nəzərə çatdırmaq lazımdır ki, Xorasan türkdilliləri fars və kürdlərlə birgə yaşadıqlarından onların ləhcələrində Azərbaycan türkcəsilə fərqli xüsusiyyətlər özünü büruzə verir. Məntəqə danışıqlarını nəzərə alaraq Xorasan türklərinin ləhcəsini dörd şivədə qeyd etmək olar:

1. Cuyən, Rəbat, Meşkan, Bam və Səfiabad (Cənub) şivəsi.
2. Sərvilayət şivəsi (Mərkəz).
3. Şimal-şərq şivəsi, yəni Dərgəz, Kəlat, Qocan..



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Şirvan və Bəcnəvərd şivəsi (Şimal-qərb).

Dərgəz və Kəlat məntəqələrində Nadir zamanında köçürülmüş Azərbaycan mühacirləri də yaşayırlar.

Xorasan türklərini tədqiq edən V.Dörfer onları səlcuq türkləri adlandırır və bunların bir qisminin hətta səlcuqlardan da öncə, Qəznəvilər zamanında Xorasana gəlib orada məskunlaşdıqlarını yazır.

Qeyd etmək lazımdır kei, Xorasan türkcəsi Azərbaycan türkcəsinə yaxın olmaqla bərabər özbək və türkmən türkcələrindən də bəhrələnmişdir. Xorasan türkcəsi İranın xaricində, Türkmənistan və Özbəkistanda az-çox danışılır. Özbəkistanda bu dilə özbək-oğuz dili adı verilmişdir. Xorasan türklərinin şərq qismi (Dərgəz, Kəlat və Şirvan) Azərbaycan türkcəsinə daha yaxındır və hətta onu Azərbaycan türklərinin bir şivəsi kimi saymaq olar. Ancaq cığatay, Nişapur, Qarayi-Heydəriyyə bölgələrinin dilləri az-çox Azərbaycan türkcəsindən fərqlənir.

Xorasan aşıqları həm «Əsli-Kərəm», «Aşıq Qərib» və «Şahsənəm» kimi Azərbaycan aşıq dastanlarını, həm də Məxtimqulu Fəraqinin qoşmalarını, həm də Əlişir Nəvainin şeirlərini sazlarında çalıb oxuyurlar.

Xorasan türklərinin atalar sözü və məsəllərindən bir neçə nümunəyə nəzər salaq:

*Kürəkəndən oğul olmas, kildən (küldən) təpər.*
*Atunq atasu, yigidinq anəsu.*
*Qıl qamçıya qüvvətdir.*
*Hiç ot bi tüt deyil.*
*At minən atasunu tanumas.*
*Cücə gəlbirinq altındə qalmaz, gengişligə bir çıxar.*

Nümunələr:

*Güzgiyə baxan özgiyə baxmas.*
*Köhnə düşmən dost olmas.*
*Yarum çörək çaşt olmas.*
*Qazanınq qarasu gedər, namusunq qarası gedməs.*
*Qələminq ucu, qılıcınq gücü.*
*Qorxan gözə çöp düşər.*
*Qurtdan çoban olmas.*
*Çaqiyə buyur, ardunnan yügür.*
*Ertə turanunq işi gücünnən, ertə övlənin oğlu qızınən.*
*Qara keçək ağarmas.*

Bir daha xatırladaq ki, Xorasan türkcəsi cənub və şimal məntəqələrində fərqli xüsusiyyətlərə malikdir. Hər iki şivədə və canlı danışıq dilinin çoxusunda Azərbaycan türkcəsi ilə özbək, türkmən xüsusiyyətləri də özünü göstərir. Bəzən də bir məntəqədə mövcud olan qəbilələr arasında müxtəlif danışıq fərqləri də nəzərə çarpır (2.323-330).

Digər türk ləhcələrindən olan xələclərin folklor nümunələri də maraq doğurur. M.Vəliyev yazır ki, xalac tayfası lap qədimlərdən Xorasanda və İraqda yaşayan qədim türk tayfalarından biridir (13).

T.Ə.İbrahimov (Şahin) qeyd edir ki, «Farsa köçən xələclər iki hissəyə ayrıldılar. Onların bir hissəsi oturaq həyat tərzi keçirərək, fars əyalətinin Qonqori rayonunda sakin oldu və xələc adlarını da saxladılar. Köçəri həyat keçirən ikinci hissə Qaşqay eli tərkibində digər köçəri tayfalarla birgə yaşayırlar (8.68).

H.Məmmədzadə yazır: «... Xələclərin çoxu qayıdıb Qum və Ərak vilayətləri arasındakı ərazidə sakin oldular və oranı Xələcistan adlandırdılar. Həmin xələclərin bir qismi o vaxtlarda Xələcistanı tərk edib, cənuba fars əyalətinə getdikdə, qalan xələclər onları «qaçqar» adlandırdılar. Bu vaxta qədər göstərilmiş «qacqar», «qoşqar», «qaşqar», «qəşqə», «kaşğu» sözlərindən «qaçqar» sözü düzgün və tarixi həqiqətə uyğundur (9.13-14).

Qədim mənbələrdə xalac adının qalac, kalac variantları özünü göstərir (5.174).

Qeyd etmək lazımdır ki, V.Mironskinin «The Turkish Dialect of the Khalaj» (Xələc türk ləhcəsi), G.Dörferin almanca «Die Turksprachen Irans» (İranın türkcə danışan xalqları), doktor Cavad Heyətin «Torki xələc» (3.12-23), Ə.Sərrafinin «İran türklərinin dili və folkloru» (12) əsərlərində xələclər haqqında araşdırmalar aparılmışdır.

Xələclərin atalar sözündən verəcəyimiz nümunələri Azərbaycan dili ilə müqayisədə təqdim edirik:

*Tülkiga haydlar: şahedun kemə? Hayda qudruğum. – Tülküyə dedilər (ayıtdılar): şahidin kimdir? Dedi: quyruğum.*

*Yağ yağ üstə tamayur, petlə quruq qaynayur – Yağ yağ üstə damır, yarma yavan qaynayır.*

*Bu yılqı kuş kəlmiş beldirkinə civ-civ irtir – Bu ilki quş gəlmiş bildirkinə cik-cik öyrədir.*

*Yelqin siriyilen yetermiş hala dana hartıca kezir – İlxını sürüsü ilə itirmiş, ala dana ardınca gəzir.*

*Ördə-burdə sözüy orta yik üstidə kezuy olta – Orda-burda sözün olsun, yük üstündə gözün olsun.*

Mahmud Kaşqari «Divanü-luğat-it türk» əsərində oğuz tayfalarını sadalayarkən altıncı sırada əfşar tayfasının adını çəkir. Əfşar Avşar variantına Rəşidəddin, Yazıçıoğlu Əli və Əbülqazi xan Xivəlinin əsərlərində təsadüf edilir. Avşar ov həvəskarı mənasındadır (5.156).

İran əfşarlarının taleyindən danışarkən qeyd etmək lazımdır ki, Əfqanıstan ərazisində öz mövqeyini möhkəmlətmək məqsədilə Nadir şah İranda yaşayan azərbaycanlılardan çox böyük bir hissə buraya köçür-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müşdür (5.156-159). Kabul əyalətindəki Əfşar Nanəkqi kəndinin sakinləri təsdiq edirlər ki, onların əcdadları Əfqanıstana Qaradağdan və Təbrizdən gəlmişlər. Sonralar bəzi ailələr Qaradağa və Təbrizə qayıtmışlar (1).

XVIII əsrdə İranda avşarlar bir neçə tayfaya bölünmüşdü: qırıqlı, emirli, inanlı, günəşli, arallı, gündüzlü, kosaəhmədli, areşli, bəykişili, aplı, irli, qasımlı, paplı (4).

2006 senesinde, üç günlüğüne bir Suriye seyahatimiz oldu. 19 Mayıs tatilinden de yararlanarak, Suriye'nin önemli tarihi yerlerini görme imkanını yakaladık. Hama, Humus, Şam gibi şehirlerde dolandıktan sonra dönüşte Halep'e uğradık. Kafiledekilerin bazıları alış-veriş yapmak amacıyla ayrıldılar. Ben ve diğer bir tarihçi arkadaşım da Halep'in tarihi mekanlarını gezmek istedik ve yola çıktık. Biz birbirimizle konuşarak, yürürken; biraz sonra arkamızdan 18-20 yaşlarında bir gencin bizi takip ettiğinin farkına vardık. Epey ardımızdan geldi. Kendi kendimize, "herhalde Suriye gizli servisi peşimize bu adamı taktı" diye yorum yapıyorduk. Yorulduğumuzdan, Halep'teki bir parkın içine girdiğimizde, genç adam yanımıza yaklaştı ve Türkçe ilk sözü "amca siz Türk müsünüz" oldu. Dikkatinizi çekiyorum; çoğumuzun unuttuğu, söylemeyi bile kabalık olarak gördüğü, bir büyüğe, bir yakına, bir akrabaya, aynı kandan bir kişiye hitap için kullanılan, değişik coğrafyalarda amca, emmi, amuca vs. gibi söylenen bir terimle "amca siz Türk müsünüz" diyordu. Gayet açık ve saf bir Türkçeyle konuşuyordu. Biz de "evet Türk'üz, sen kimsin" dedik. "Benim adım Mustafa, ben Türkmenim, Halep Türklerindenim. Buranın çoğu Türk'tür. Ama biz şehrin merkezinde değil kenar mahallerinde otururuz. İşten çıkmıştım, sizin Türkçe konuştuğunuzu duydum. Ama cesaret edip yanınıza sokulamadım. Beni terslersiniz, kızarsınız diye korktum. Sonra sizinle konuşmaya karar verdim" şeklinde cevapladı. "Biz de Türk'üz oğlum. Türkmeniz. Sana niye kızalım. Biz akrabayız, Mustafa" deyince, bir sevinç oldu. Elindeki yeni aldığı cep telefonunu hemen oraya oturağın üzerine bırakıp, "ben size dondurma alacağım, sakın bir yere gitmeyin, geliyorum" diyerek, koşarak uzaklaştı. Hiç tanımadığı adamların yanına onun için çok pahalı olan bir eşyasını bırakıp giden, ancak böyle bir saf Türk olur. Mustafa biraz sonra elinde iki külah dondurmayla geldi ve anlatmaya başladı. Kaç kardeş olduklarını, ne iş yaptığını filan. Babası bir kere Gaziantep'e gitmiş, ama kendisi Türkiye'yi hiç görmemiş. "Biz burada Türk televizyonlarını seyrediyoruz (ne yazık), ama ben Türkiye'yi çok görmek istiyorum, amca" diyordu. Ben ve arkadaşım adreslerimizi verdik, Türkiye'ye gelirse kendisini gezdireceğimizi söyledik ve bu garip Türkmenle Halep şehrini biraz dolaştık. Buruk bir şekilde vedalaşırken kardeşlerine bir şeyler alması için 3-5 kuruş eline bir şeyler tutuşturmak istediğimiz de; "amca ben sizi para veresiniz diye gezdirmedimki, ben siz Türk'sünüz diye yanınıza geldim" diyerek, bizi ağlattı.

İşte Türkler, birbirlerinden ayrı da olsa, aralarındaki bu manevi bağ olduğu müddetçe Turan'dan ümidimizi kesmeyeceğiz. Türk birliği birgün yeniden gerçekleşecek. Son olarak şunu belirtmek istiyorum; Türkiye içindeki ve dışındaki Türklerde mevcut olan "kutlu Türk" düşüncesini bilerek ya da bilmeyerek kim yıkarsa; ister resmi, ister sivil bunlar birer alçak ve vatan hainidir. Bu böyle biline!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## HAL – DİV-ƏZRAYIL OBRAZLARININ SƏCİYYƏSİ

***f.e.n. Şakir Albalıyev***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

«Torpaqdan yaranan insan sonradan da torpağa qayıdıb torpaqlaşır – torpaq olur. İnsan ömrü torpaq ömrüdür. Adəmi, Həvvanı torpaqdan yaradan Allah adamı öləndə də torpağın öz köksünə qaytarıb torpaq edir. Əzəldən torpaq olduğu müddətdən sonrası məchulluğa – yenə torpaqlaşmağa o biri dünyaya gedən zamanın ölçüləri çərçivəsində insan qiyafəsində bir şərəfli ömür yolu – alın yazısı keçmək nəsib olur bəşər övladına… İnsan ömrünü uzadıb həmişəlik yaşamaq üçün müxtəlif fəndlər düşünür, cürbəcür üsullara əl atır: gah öz ömrünü övladının ömrünə calaşdırmaqla (babanın adının nəvəyə verilməsi kimi) ömrünü uzatmaq istəyir, gah adına Tale, Xaliq adları qoymaqla Allahla semantik cəhətcə adaş-addaşıyıcı olmaq istəyir, gah Dayandur, Dursun adı qoymaqla ömrünün əbədi dayanıb durmasını, özünü əbədi yaşatmaq niyyətində olur, gah Vətənin bir parça daşına, qayasına dönməklə (Ararat, Savalan dağlarının adaşı kimi) daşlaşmaq, ya da elə ümumilikdə Vətənin öz adını daşımaqla (Vətən, Azər və s. adlar) axırda Vətənin adaşına – ünvanına dönüb vətənləşmək – bununla əbədiləşmək arzusuna düşür insan övladı. Adı Vətənin ünvanına dönüb, ünvanı Vətənin adına çevrilib əbədiyaşarlıq qazanan həqiqi vətəndaşlar – Vətənin sakinləri az olmayıb. Atropaten dövlətinin adı Avropat adlı sərkərdənin adı ilə bağlıdır, yoxsa Atropaten adlanan Vətənimizin adını öz üstünə götürüb həm Vətənin, həm də öz adını yaşadır Atropat?! Atropat qüdrətli sərkərdə, Atropaten isə qüdrətli bir dövlət olub. Və bir-birlərinin adlarını öz qüdrətləri gücünə yaşadıblar! Qibtə ediləcək xoşbəxtlik deyilmi: Atropat adı Vətənin ünvanına dönüb yaşayır, Vətən isə öz qəhrəman oğlunun hesabına dirilik tapıb yaşayıb. Vətən oğlunu, oğul Vətəni yaşadır beləcə!.. Atropatena Atropatın dövləti kimi tarixdə qaldı, Atropaten dövləti də öz növbəsində öz adının üstündə Atropat adını qoruyub saxlatdı»… (Bax: Ş.Albalıyev, «İgidi yaşadan əməlləridir», «Xudafərin» qəzeti, №5 (6594), 15 may 2003-cü il, səh.7). Ömrünü əbədi yaşatmaq arzusunda olan insan buna əsaslı təminat yaratmaq üçün ilk öncə dünyaya normal və sağlam halda gəlib yaşamağa səy göstərir, birinci növbədə hələ uşağın ana bətnində normal inkişaf tapmasına qayğı göstərir, ana bətnindən azad olacağı günü səbirsizliklə gözləyir, doğuş prosesinin rahatlıqla keçməsi məqsədilə xüsusi profilaktiki əməliyyatlar həyata keçirir, doğuşdan sonra isə çağanın sağlam böyüməsinin qayğısına qalır. Çünki cansağlığı uzunömürlülüyün başlıca qarantıdır. Belə bir ənənə qədim zamanlardan indiyəcən ritual şəklində davam etmişdir. Bununla bağlı Qafan rayonunun Gərd kəndindən olan 75 yaşlı Gülpəri Mürüd qızı Süleymanovanın söylədiklərinə diqqət yetirək:

Hamilə gəlin çox yatmamalıdır, süst olmamalıdır. Onda uşaq əmələ gəlməz, uşaq bitər, ana bətnində inkişafdan qalar. Ana gərək hərəkətdə olsun ki, uşaq eynəlsin, gəlinin qıçları açılsın. Doqquz aydan sonra ki hamilənin vaxtı ki çatdı, onda hadıq (mamaça) çağırırlar. Yekə – 10-15 litrlik mis qazanı gətirib qoyarlar evə, qazanın üstünə də döşəkcə qoyub gəlini üstündə oturdardılar ki, doğanda qazanın üstündə yatsın. Bu qazan onu göstərir ki, gəlin bari-həmlini asanlıqla yerə qoya bilsin, qazan kimi tez boşalsın. Zahı qurtarandan sonra göbəyini kəsirlər, uşağın göbək qanından uşağın ağzının hər tərəfinə basırlar (boğaz basma kimi) ki, uşağın boğazı ağrımasın, şeşə olmasın – boğazı gəlməsin.

Gəlin yükünü yerə qoyandan iki saat sonra qadının döşlərini təmiz-təmiz yuyurlar, uşağı bələyirlər, alnının üstünü - üst hissəsini bərk-bərk çəkirdilər ki, başı uzunsov olmasın. Boyul (bundan sonra – Ş.A.) körpəni əmizdirirdilər. Qadının yerini (yatağını) salanda yanına hər tərəfdən kəklikotu çiləyirdilər. Bundan başqa, qapının dalına dəhrə, ya bıçaq qoyardılar. Beləliklə, pinti adam, ya yad bir kimsə evə gələrsə, dəmirin - dəhrənin, bıçağın üstünə gəlsin, daha zahının üstünə gəlməsin».

Maraqlı informasiyadır. Mətn sübut edir ki, azərbaycanlı uşağının hələ ana bətnində düzgün qidalanıb inkişaf etməsinin bir səbəbini də ananın daima hərəkətdə olmasında görmüş, bununla uşağın fiziki cəhətdən sağlam doğulması şərtinə önəm verilmişdir. Doğuş vaxtı isə əməli tədbirlərlə yanaşı mifoloji səciyyə daşıyan mərasimi aktların yerinə yetirilməsi də həm anaya, həm körpəyə qayğıkeşlik göstərilməsinin nümunəsidir. Doğuşdan sonrakı proseslərdə çağanın ağzının, boğazının basılması, alnının dəsmalla çəkilməsi, ananın döşlərinin yuyulması və s. kimi faktlar da ana və körpə dünyasına sonsuz qayğının, insan aləminə diqqətli yanaşmanın nəticəsidir. Zahının yataq dəstinin ətrafına kəklikotu suyunun çilənməsi də yəqin ki, pinti adamın xoşagəlməzliyinin kəklikotunun xoş rahiyə yaradan ətrinə – iyinə qarışıb yox olacağı kimi inam və təsəvvürlərlə bağlıdır. Yad adamın gözünün, nəzərinin, nəfəsinin isə bıçağın, dəhrənin – bir sözlə, kəsici əşyaların kəsməsi kimi mifik görüşlərə söykənən inamın nəticəsi kimi qəbul olunmalıdır. Doğuş prosesinin həyata keçirilməsilə əlaqədar mövcud ayin və mifik inamlardan danışarkən Afaq Xürrəmqızı digər xalqların da bu barədə adətlərinə toxunaraq yazır: «Doğum mərasimində müxtəlif magik aktlar icra edilir. Bunlardan bir qismi qoruyuculuq (apotropeiklik) səciyyəsi daşıyır, digər qismi isə sövqedici, təhrikedici mahiyyətdədir. Belə magik aktlar Y.Q.Kaqarov tərəfindən protreptik (yunanca – sövq etmək), yaxud ekspetitiv (latınca – tələb etmək) aktlar kimi təqdim


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edilir (198, 152). Doğum mərasimində rast gəldiyimiz ekspetitiv priyomlardan biri doğum sancıları tutmağa başlayan an icra edilir.

Qadının sancıları tutar-tutmaz evdəki un kisəsinin ağzını açaraq gəlinin əlini una basırlar. Doğuş başa çatdıqdan sonra həmin unu ya mamaçaya, ya da ehtiyacı olan kimsəyə verirlər (360).

Xarəzm özbəkləri doğuşdan əvvəl Ambar – anaya qurban vermək üçün un hazırlayaraq unu (buğdanı) gəlin azad olan yerə tökürlər (286, 241). Maraqlıdır ki, şumer dastanı «Bilqamıs»da da qəhrəmanın anası Ninsun Şamaşı rəhmə gətirmək üçün ona un qurbanı qoyur (36, 32). Qumuqlar zahının ətəyinə arpa tökürlər (139, 279). Ləzgilər isə qadın azad olan evin döşəməsinə darı səpələyirlər. Etnoqraf Q.Çursin bu hərəkətin Alpab adlı bəd ruha qarşı icra edildiyini göstərmişdir (327, 47). Ruslar isə otağın astanasına darı tökürlər (327, 47). Taciklər də analoji olaraq unu Momoxo-ya – qadın əcdadlarının ruhuna qurban edirlər. Zərəvşanda yaşayan taciklərdə isə bu adət başqa münasibətlə, amma eyni məqsədlə icra edilir. Yetkinlik yaşına çatmış qızlarda ilk aybaşı zamanı unu yerə ələyərək qızı üstündən tullandırırlar, sonra mamaça əlini una batıraraq qızın belinə vurur (306, 134). Bütün bu mərasimlər təqlidi sehrin təzahürüdür. Arpa, buğda və ondan üyüdülmüş un bolluq, artım, bar-bərəkətlə assosiativ anım yaratdığı üçün qədim insanlar unun artım gücünün hamiləyə (yaxud gələcəkdə hamilə olacaq qıza) keçərək onun bari-həmlini asanlıqla yerə qoyaraq oğullu-qızlı olacağına inanmışlar. Bu mərasimdə təqlidi sehr təmas sehrilə (una əlin basılması) çuğlaşmış şəkildə çıxış edir» (s.72).

Göründüyü kimi, doğuş mərasimi birbaşa insan faktoru olduğundan dünyanın bütün xalqlarında buna oxşar və ya az, ya çox fərqli cəhətlər olmaqla rəsmi aktların icrası özünü göstərir. Qadın zahı yatdıqdan sonra üzücü yorğunluğa düşmüş olur, müxtəlif xoşagəlməz hallar keçirir ki, bunun üçün də müəyyən psixoloji üsullara əl atılırdı. Bəzən yediyi yeməyin ağzında dadını-tamını hiss eləmir ki, bu vaxt da buna bənzər müxtəlif vəziyyətlərlə mübarizədə olduğu kimi türkəcarəçi yollar, psixoloji anlar yaratmaqla bunun qarşısı alınır. Məsələn, qorxan adama yeddi dənə düyünü həb kimi atdırırdılar ki, psixoloji gərginlik keçirdən üçün bu, müalicəvi üsul hesab olunurdu. Yaxud da sarılığa tutulmuş adama qəfildən şillə ilə üzünə vurub qorxudub-səksəndirirdilər ki, sarılığı çəkilsin getsin. Yaxud da sarılıq xəstəliyinə tutulan üçün xəlvətcə üç dənə bit tapıb gətirirlər, düyü bişirirlər. Həmin düyünün plovunu xəstəyə yedizdirirlər ki, yeyib qurtarandan sonra ona deyirlər: bəs plovun içində bit vardı. Xəstə iyrənir, öyüyüb sağalır. Eləcə də buna bənzər tibbi profilaktik əməli zahı üçün də edirlər. Ağzı tamsız qadınlar üçün bir almanı aparıb it yalağında yuyub gətirirlər, zahıya yedizdirib sonra məsələnin üstünü açırlar. Zahı bundan öyüyür, öyüyür, sonradan ağzı tama gəlir. (İnformator Umleyla Qulamhüseyn qızı - mamaça).

Əlbəttə, yuxarıda göstərilən üç dənə bit, yaxud it yalağında yuyulmuş alma xəstəyə yedizdirilmir, çünki məlumdur ki, it yalağı özü yoluxucu xəstəlik gətirər ki, bu da xəstəni sağaltmaq əvəzinə, dərdinin üstünə dərd gətirər. Sadəcə, xəstəyə yemək veriləndən sonra yuxarıda deyilənlər xəstəyə qıcıq yaratmaq üçün nümayiş etdirilir – göstərilir ki, xəstə bu yalana inansın və özündə buna qarşı reaksiya verə bilsin – iyrənsin, öyüsün və sağalsın. Xəstə öyüyüb-qusduqdan sonra ona aldadıldığını başa salırlar. Zahının xəstə yatdığının ən ağır dövrü 40 gün hesab olunur ki, bu barədə əvvəldə də söhbət açmışdıq. Ümimiyyətlə, 40 (farsca çilə) anlayışı rəqəm kimi bir sıra müqəddəslik missiyalarını özündə daşıdığı kimi, ağırlıq mənasını da bildirir. Qırxlı olmaq – çiləli olmaq ağır olmaq – xəstə, üzünük olmaq kimi başa düşülür ki, bu, həm insanlara, həm də təbiətin özünə xasdır: a) qadının çiləli olması; b) təbiətin çiləlik dövrü. Təbiətin çiləli (qışın çiləsi) olması özü də həm ətraf aləmdə canlı-cansız nə varsa, hamısını sınağa çəkən dövrdür, həm də qarının oğlaqlarının – heyvanlarının qışın sazağından (böyük və kiçik çiləsindən) salamat çıxmasının çətinliyi dövrüdür; həm bitkilərin donub məhv olması üçün sərt şaxtalar keçir – bununla canlı və cansız aləm qışın çiləsinin (çillələrin) ağır imtahanlarına məruz qalır, həm də yaşayış üçün ruzi qıtlığı yaranır ki, insanlar da bu ərəfədə aclıq çəkə bilmək təhlükəsi ilə yaşayırlar. Demək, təbiətin – qışın çiləsi həm təbiəti, həm də cəmiyyəti ağır sınaq qarşısında qoymuş olur (imtahana çəkir). Zahılığın 40 günü də həm ananı, həm də körpəni – bir sözlə, insan ömrünü sınağa çəkir. Qışın qırxından (böyük 40 gün və kiçik 40 (20) gündən) salamat çıxmış təbiət həyatda yaşam hüququ qazanır, eləcə də zahını üzüb əldən salan, üzünük edən 40 günlük dövr ötüb keçdikdən sonra həm zahı-ana, həm də körpə-uşaq həyatın üzünə gülür, ölüm qorxusundan (Əzrayıldan və haldan) qurtulur. El arasında bu qırxlılığı – çiləliyi (ağırlıq) tökmək üçün – çilədən qurtarmaq üçün müəyyən mərasimi tədbirlər həyata keçirilir ki, bu haqda çox danışılmışdır. Lakin Qafanın Gərd kəndindən Gülpəri Mürüd qızının danışdıqlarında bəzi özünəməxsusluqlar nəzərə çarpdığı üçün aşağıda veririk:

a) Qırx tökmək mərasimi. Bəzən qız uşağının bir ayı tamam olanda qırxını tökürlər. Amma adətən 40 günün tamamında uşağın qırxını tökürlər. Qırxlı olanda uşaq və ana nə ki paltar geyinibsə, o paltarların üstünə 40 suyundan səpib-çiləyib deyirlər ki, qırxımı tökürəm pak olmaq üçün.

b) Uşağın qırxı tamam olandan sonra sağlam, uzunömürlü, övladları olan bir adam 40 buğda, ya 40 düyünü, bir də 40 daşı sayıb atır suyun içinə, bu suyu qaynadırlar. Qabaqca bir özgə adam uşağı bu suda çimizdirir. Sonra uşağı qəlbi (hündür) yerə – yükün üstünə qoyurlar ki, anası qırxlı halda uşağın üstünə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlməsin. Bundan sonra gəlinlə (zahı ilə) həyat yoldaşı – əri həmin suda yuyunurdular ki, onlar da təmiz, pak olsunlar. Yuyunub qırxını tökəndən sonra ana uşağını əmizdirə bilərdi.

40 gün zahının yanına – ətrafına, dörd bir tərəfinə ip – nazik sap da çəkirdilər.

Mətndə göstərilir ki, «qız uşağının bəzən bir ayında – 30 günlüyündə qırxını tökürlər». Bu, qışın çillələrinin birinin 40, o birinin 20 gün olmasına münasibdir: yəni kiçik çilə 20 gün olduğu kimi, qız uşağının qırxı da otuz gündən sayılması buna uyarlıdır. Demək, göründüyü kimi burda 40 rəqəminin əslində bir daha şərti xarakter daşıdığını – mahiyyətcə ağırlıq anlamında olduğunu bildirir. Yəni 40 günlükdə uşağın 40-ını (ağırlığını) tökmək mümkün olduğu kimi, 30-unda – bir ayın tamamında da qırxı – ağırlığı tökməklə təmizliyə, paklığa – yüngüllüyə çıxması mümkündür. Amma bir ayın 30 gün olmasına baxmayaraq, yenə bu halda da 40 rəqəminin daşıdığı yüklə bağlı «qırxını tökmək» deyirlər. Bəs niyə oğlan uşağının yox, qız uşağının qırxı çıxmamış – 30 günlüyündə (bir aylığında) qırxını tökürlər sualına da qışın çiləsilə müqayisə aparmaqla aydınlıq gətirmək mümkündür. Qışın birinci çiləsi 40 gün, ikincisi 20 gündür. Qışın sərt – günəşsiz çağı qurtarıb 2-ci dövrü başlayanda – havalar nisbətən mülayimləşəndə, üzü bahara – günəşli günlərə doğru yaxınlaşdıqca, bu 40-ın (çilənin) da ömrü yarıqat azalıb 20 gün qalırsa, bu, hardasa yazla, istiləşmə dövrü ilə (Günəşlə) bağlı ola bilər. Yəni çiləlik soyuqluq, günəşsizlik (qar, qış) – ağırlıq deməkdir. Demək, üzü yaza doğru – günəşli günlərə doğru yaxınlaşdıqca qırxın da ömrünün azalması təbiidir. Demək, uşaq da anadan olanda – qaranlıq dünya olan ana bətnindən işıqlı dünyaya çıxandan sonra hardasa 40 günəcən qopduğu o qaranlıq – işıqsız dünyanın təsirində olur, hələ tam ölüm yuxusundan (ölüm yuxusuna qış yuxusu deyilməsi də, ayının qışda yuxulayıb (müvəqqəti ölüb)qış yuxusuna getməsi də qışın ölümlə bu məqamlarda bərabər tutulduğunu göstərir) ayılmış olmur; bu dünyaya gəldiyini hələ hiss etmədiyindən qırxda (çilədə) qalmalı olur. Qırx gün gözlənilən müddətin bir sirri də məhz bu səbəbə bağlanmalıdır. Elə ki, uşağın ana bətnindən işıqlı dünyaya çıxdığının 40 günü tamam olur, daha uşağın (eləcə də ananın) hər cür azar-bezardan, yəni ölüm gətirən xəstəlikdən uzaqlaşdığı güman edilir, onda işıqlı dünyaya tam vəsiqə aldığı zənn edilir. Qız uşağı isə hardasa Günəşin atributunu özündə saxladığındandır ki, onun qırxı – çilləsi (qaranlığı) oğlana nisbətdə az (yəni 30 gün) çəkir. Yəni qız özü birbaşa Günəşlə bağlı olduğundan (saçı Günəşin şəfəqinə, üzü Günəşin nuruna təşbeh edildiyindən) qırxı da tez çıxır. Bunu bəlkə də, qız sözünün etimologiyasında ya axtarmaq olar. Qız – yəni qızmaq, istilənmək sözü ilə (odla - Günəşlə) bağlıdır. Hətta bioloji varlıq olaraq da hələ ana bətninə düşərkən belə qız uşağının embrionları oğlanınkına nisbətən daha güclü – hər cür təhlükəyə qarşı davamlı olur ki, bu güc – enerji də yenə Günəşin zərrəciyinin – daxili enerjinin hesabınadır.

İkinci mətndə 40 suyunu hazırlayanın sağlamlığı, uzunömürlülüyü ilə yanaşı eləcə də övladları olan adam (yəni həmzat olmayan adam) olması şərti verilir. 40 buğda, düyü – məhsuldarlığın rəmzi, 40 daş isə – burda daş möhkəmlik, bərklik, uşağın canının daş kimi bərk, dözümlü (döydümölməz) olmasının arzulanması mənasındadır. Uşağın paklanandan sonra yükün üstünə qoyulması – hündür yerə qoyulması onu göstərir ki, uşaq yerdə – döşəmə üstündə, ayaqlar altında qalmasın ki, bütün ağırlıqlar yerə tökülür (bütün ağırlıqları yer qəbul edir) ki, belə olarsa, uşağın üstünə ağırlıq təzədən tökülə bilər. Uşaq təzədən çilləyə-qırxa düşə bilər. Burada uşağın anası ilə yanaşı atasının da - valideyninin hər ikisinin qırxlarını tökmələri göstərilib ki, bu da atanın ailədəki mövqeyini – uşağın üstündə ana ilə bərabər haqqı-sayı olan müqəddəs insan olduğunu nümayiş etdirir. Mətndə zahının ətrafına ipin çəkilməsi də göstərilir ki, bunun mifoloji izahı ilə bağlı Afaq Ramazanovadan oxuyuruq: «Apotropeik məqsədlərlə «zahının yatağının dövrəsinə yalnız keçi qəzilindən hazırlanan sicim dolayıb uclarını da yerə sancılmış bizə bağlayırlar» (30;72). Bundan başqa, zahını möhr edirlər. Şişlə yatağının ətrafına cızıq çəkirlər.

Bu adət qədim insanların qapalı dairənin qoruyuculuq xüsusiyyətinə malik olması inamı ilə əlaqədardır. Yatağın ətrafına sicim dolamaqla bəd ruhların, şər qüvvələrin bu qapalı dairədən içəri keçməyəcəyinə inanırlar. D.Zelenin magik qoruyucu dairənin ibtidai insanın məskən salacağı yerin əhatəsini yoxlamaq üçün dövr etməsindən yarandığını göstərmişdir (184;14). Bundan başqa, qapalı dairənin Günəşlə, onun simvolu olan təkərlə əlaqələndirilməsi halları da vardır (221;81). Osmanlı türkləri isə sicimin əvəzinə eyni inamla bağlanmış kəməri doğan qadının qarnının üstünə qoyurlar (147;IV c., 78). Qaqauzlar isə bağlanmış kəməri tavandan asaraq, mərasimin müəyyən məqamında onu açırlar (218;20). Naxçıvandan toplanmış bir mifoloji rəvayət hakim dinin əski təsəvvürlərlə icra edilən bu ayinləri özününküləşdirmək cəhdində bulunduğunu göstərir: «Zahı yatan otağın divarlarının dörd bir tərəfini cızıllar. Zahının yatdığı yeri hasara alırlar ki, ora heş bir şey girə bilməsin. Divarrarı cızanda zahı cızıx çəkənnən soruşur ki, nə çəkirsən? Cızıx çəkən də deyir ki, Həzrət Əliyə qurşax çəkirəm.

Hər divarı cızanda belə deyərlər. Onnan sora ta zahının heş bir qorxusu qalmır» (3;171).

Həzrət Əli İslam dininin müqəddəslərindən biri olduğundan bu mifin qeydə alınmış şəklə islamiyyətdən sonra düşməsi şübhəsizdir. M.H.Təhmasibin Azərbaycan dastanları ilə ilgili söylədiyi «…şiəlik yayıldıqca Əli kultu da qüvvətlənmiş və dastan yaradıcılığından Xizri sıxışdırıb çıxarmışdır», (13;15) – fikrinə əsaslansaq, XV (ümumilikdə isə VII) əsrə qədər bu mifik inamda Həzrət Əlinin yerinə Xızırın adının çəkidiyini ehtimal edə bilərik. Əslində çətin doğuş zamanı


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xıdır Nəbi, Xıdır İlyas
Bəndəni bəndədən xilas –

ovsununun söylənməsi, habelə çox mühüm mərasim olan uşağın qırx suyunun tökülməsi zamanı:

Ağırlığın uğurluğun
Dağlara, daşlara,
Göydə uçan quşlara,
Yerdəki ağaclara,
Yüyürüb qaçan atlara,
Söyləyən arvadlara.
Ömrün uzun uzansın,
Bəxtin qızıl yazılsın.
Xızır sənə su versin,
Üzün həmişə gülsün –

ovsun örnəyinin oxunması bu mifoloji obrazın doğum mərasimində müəyyən mövqeyə malik olduğunu təsdiq edir» (s.75-76).

Anaya və körpəyə qayğı xalqımızın diqqətində olmuşdur. Hətta palpasiya yolu ilə hamilənin qarnındakının oğlan, ya qız olacağı da müəyyənləşdirilirdi ki, bu da doğulacaq körpənin taleyinə maraq dünyasının təzahürüdür. El arasında oğlan uşağının ana bətnindən gec – yəni 9 aydan sonra, qız uşağının isə 9 aydan da 10-15 gün tez azad olduğu söylənilir. Hamilənin qarnı yumşaqdırsa – oğlan, bərkdirsə – qızı olacağını düşünürlər. Uşaq bətnində ikən qadının ürəyinin başına çıxanda qız, yox, əksinə, hamilənin bədənində eninə, boyuna – dolayı olsa, oğlandı deyirlər. Uşağı bələyəndə uşağın yuxusunu şeytan aparmaması üçün bələyin bir qırağını içərisinə tərəf qatlayıb qatlaqlı qoyurlar ki, şeytan bələyin içinə girib diksindirməsin, yuxusunu qaçırtmasın.

Anam Qərənfil isə körpəni bələyən vaxt kimsə təsadüfən çöldən qapını açıb içəri girsəydi, deyərdi ki, yuxusunu uşağa bağışladı, uşaq yaxşı yatacaq, rahat olacaq. Yox, əksinə, uşağı bələyərkən kimsə evdən çölə çıxmaq istəsəydi, qoymazdı ki, uşağın yuxusunu da özünlə aparırsan. Uşağın yuxusu qaçar.

Bir də anam uşağın bələyini – bələk bağını möhkəm-möhkəm çəkərdi ki, bələyi bərk çəkiləndə körpə rahatlanır. Deyərdi ki, uşaq öz-özünə deyər ki, məni böləyən vaxt atamla anam bir-birilə dalaşmış olsunlar və bir-birlərinə olan hirslərini mənim üstümə töksünlər – yəni o qədər acıqlı olsunlar ki, bələyimin ipini hirslə çəksinlər – möhkəm çəksinlər.

Bundan irəli uşağın bələyi üçün çörəkdən kökə qayırıb uşağın bələk bağına keçirdərdilər, ya da başının altına çörəkdən kökə qoyardılar. Çörək parçasının körpəni cindən-şeytandan hifz edib qoruduğu düşünülərdi. Uşağın göbəyinə cındadan-əsgidən, cunadan yumru – təvərə bağlayıb göbəyinin üstünə qoyardılar, yaylıqla üstündən çəkərdilər ki, göbəyi pis olmasın, ağlayanda göbəyi yırtılmasın – deşilməsin. Uşağın göbəyini evə atmazlar ki, uşaq evdən çölə çıxmaz - evdə qalar deyərlər. Uşağın göbəyini kitabın arasına qoyarlar ki, yaxşı oxuyan – savadlı uşaq olsun. Ya da bir məktəbin, institutun həyət-bacasına atarlar ki, məktəbcanlı, təhsil sahibi olsun. (İnformator Albalıyeva Qərənfil Qubuş qızı). Gətirilən mətndən görünür ki, uşaq dünyası çox əziz tutulmuş, həm fəna qüvvələrlə mübarizə aparmaqla, həm də real yaşayışının qayğısı çəkilməklə körpə daim naz-qəmzə içində bəslənmiş-böyüdülmüşdür. Gah bələkbağına kökə keçirtməklə, gah başaltına çörək qoyulmaqla, gah bələnən ərəfədə evdən çölə kiminsə çıxmasına etiraz etməklə (yuxusunun qaçırılmaması üçün), gah da hətta göbəyinin pis yerə atılmaması üçün gələcəyinə ümid bəslənilməklə və s. körpənin mifik dünyası nəzarət altında saxlanılmış, gah da bələyinin bağının möhkəm çəkilməsi ilə körpənin bələkdə rahat olmasına, göbəyinə təvərə (yumru bir şey) bağlanmaqla ağlayanda deşilməməsinə təminat yaradılmış və bununla körpənin real həyatına da daim nəzarət edilmişdir. Elə burda bir maraqlı faktı diqqətə çatdırım ki, «uşaq anadan olanda mayalanmamışdan qabaq sarımsaqla qəndi (şəkəri, ya balı) uşağın damağına sürtürlər ki, uşaq büzməcə olmasın. Büzməcə olan uşaq əmə bilməyib ölür» (Söyləyici: Xırda Qubuş qızı Məmmədova).

Uşağın yeriməsi – ilk addımlarını atması münasibətilə keçirilən mərasimlərdən bəhs edərkən Afaq Xürrəmqızı başqa xalqların da adət-ənənələrini bu araya gətirib yazır: «Uşağın ilk addımlarının atılması da müəyyən mərasimin icrasına səbəb olur. Belə ki, uşağın gec gəzməsindən ehtiyat edən valideynlər dərhal magik ayinlərə müraciət edərək körpənin addımlarını stimullaşdırmağa çalışmışlar. Şirvan zonasında belə uşağı «Xəlbirə qoyub qapı-qapı gəzdirərək deyərlər:

Şil gəlib ayaq istəyir,
Tanrıdan dayaq istəyir»

Xüsusi ovsunla müşayiət edilən bu ayindən başqa eyni regionda maraqlı bir mərasim də qeydə alınmışdır: «Uşaq ilk addımlarını atmağa çalışanda bir aftafanın üstünə qırmızı parça ataraq ağzına boyanmış yumurta yerləşdirirlər. Sonra uşağı otağa daxil edərək yerə buraxırlar. Uşaq bu cəlbedici mənzərəni görəndə yumurtaya tez çatmaq üçün ayağa duyub yeriyəcək» (364).

Qaqauzlar isə eyni vəziyyətdə bir toyuq lələyini uşağın ayaqlarının arasında qayçılayaraq:

Gedək, gedək
Qızıl ayaq
Qarına dayaq, -

ovsunu söyləyirlər. Bu xalqda mərasim «köstəəni kəsmək» adlanır (218;33).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qırğızlarda «tuşoo kırktıruu» adlanan bu mərasimdə uşağın ayaqlarını yun sapla bağlayıb yerə bir boşqab xörək qoyurlar. Aulun hörmətli qadınlarından biri bu kəndiri kəsərək gördüyü işin müqabilində ərməğan qazanır (87;131).

Qazaxların analoji «tusau kesu» mərasimində uşağın sağ ayağını «ala bau» (ala bağ) ilə bağlayaraq ipi uzadıb kəsirlər (87;131).

Anadolu türklərində «köstek kəsmə» mərasimini tədqiq edən M.N.Serebryakova «bəzi müsəlman cizgilərinin olmasına baxmayaraq bu mərasimin islamaqədərki qədim adət» olduğunu qeyd etmişdir (276;175). Göyçədə isə uşağın gəzməsinə nail olmaq üçün çox əlverişli nəsnələrdən istifadə edərək maraqlı bir ayin icra edirlər. Bu regionda inanırlar ki, «Yeriməyən uşağı zibilli yerə qoyuf dalınca yeri süpürəndə, uşax ayax açıf yeriyir». Yaxud «gec yeriyən uşağı evi süpürdükdən sonra zivili atır və uşağın əlinnən tutuf onun dalıncan yeridə-yeridə deyirlər:

Zivil yeridi,
Sən də yeri» (8;100).

Bu ayində süpürgənin iştirakı onu magik aktlara bağlayır» (s.76-77).

Ümumiyyətlə, körpə dünyasına insanların maraq dairəsi o dərəcədə genişdir ki, buna aludəçiliklə müşahidəetmələrin nəticəsində təcrübədən çıxmış müxtəlif inanclar və sınamalar formalaşmışdır: Bunların bəzilərinə fikir verək: 1) Uşağın dırnağını qırxı çıxmamış tutsan, oğru olar.

2) Uşağa ölü adı qoyanda həmin ölünün adına xörək bişirərlər.

3) Uşaq qıcıyanda ona nəzər dəydiyini zənn edərlər.

4) Uşağın başını bir yaşı tamam olanda qırxırlar, tükün ağırlığında pul, rüsum verirdilər saçı qırxan adama. Bəzən deyirlər ki, bu pulu dayısı verməlidir; bəzən isə deyirlər uşağın saçını dayısı qırxmalı və pulu dayı almalıdır.

5) Uşaq qızılca tutanda bir yumurtanı bir stəkan suya salıb ya qapının arxasında, ya da uşağın başının altında qoyarlar.

6) Qırxlı çağanın üzünü açıq qoymazlar.

7) Körpənin bələyi bərk çəkiləndə sevinər. Körpə öz-özünə: dədəmlə nənəm dalaşsın, hərəsi hirsindən bələyin bir tərəfindən tutub çəksin, - deyə düşünər. (Anamdan eşitdiklərimdir).

Bu kimi misalların sayını çox artırmaq olar. Əlbəttə, bu deyimlərin hər biri şüuraltı mətn hadisəsi olaraq mifoloji dünyagörüşünün izlərini əks etdirməklə yanaşı həm də həyati gerçəklikləri özündə daşıyır. Bu cür nümunələrin hər biri körpənin həyatı ilə sıx bağlıdır və hər biri də az, ya çox dərəcədə onun sağlamlığını qorumağa – cansağlığına və onu məhv edə biləcək fəna qüvvələrdən, eləcə də real təhlükələrdən – xəstəlikdən və ölümdən sovuşdurmağa xidmət edir. Diqqət yetirsək, görərik ki, qırxı çıxmamış dırnağı tutulan uşaq gələcəkdə oğru olacaqsa, bu, həmin uşağın gələcəyinin təhlükəli olması deməkdir və bu deyim onu göstərir ki, uşağın bədbəxt taleyə uğraşmaması üçün həmin mifoloji inamı gözləmək vacibdir. Yaxud ölü adı verilmiş uşağı ölmüş adın sahibinin o dünyaya çəkib aparmaması üçün – uşağın sağ qalması üçün bişirilən yemək də körpəni ölümdən qorumağa xidmət edir. Eləcə də digər bu kimi deyimlərin hər birində körpənin hazırkı və gələcək həyatının işıqlı olması – ölümsüzlüyü üçün bu inamlar, sınamalar vasitəsilə ölümü qabaqlayan tədbirlər görülməsi düşünülmüşdür.

Demək, insan ölümün əlindən yanıqlıdır, ölümə qarşı hələ körpəlikdən operativ tədbirlər – istər mifoloji xarakterli, istərsə də real əhəmiyyət kəsb edən olsun – düşünüb həyata keçirmişdir. Misal üçün, Muğan bölgəsində mövcud olan bir inama – ayinə görə qorxan uşaq üçün belə bir mifoloji məzmun daşıyan əməl edilirmiş: Evin dörd küncünə əl çalırdılar. Qapının cəftəsinə suyu töküb yaxalayır, qorxan uşağa içirdirdilər. Bununla da inanardılar ki, uşağın qorxuluğu keçdi.

Aydındır ki, çağa üçün qorxu əlaməti, qorxuya düşmək özü çalğı-valğıya düşmək, ölümlə əlləşmək deməkdir. Demək, ölüm hardasa əvvəlcə qorxu şəklində uşağın canına yeriyir, uşağı qorxuzur – incəldir – saraldır, sonra Əzrayıla dönüb uşağın canını alır. Bir daha göründüyü kimi, uşaq dünyası ilə bağlı aparılan müşahidələr və bunun əsasında söylənilən fikirlər, inamlar, sınamalar hamısı uşağı qəfil yaxalayacaq ölümdən qorumağa xidmət edən düşüncələr sistemidir. Bəli, həyat Əzrayılla çilingağac oyunudur və insan taleyüklü bu oyunda heç vəchlə uduzmaq istəmir!

Bəşər nəsli yer üzünə gələndən ona ilahi tərəfindən bəxş edilmiş ali şüur fəaliyyətinə arxalanaraq nəinki təkcə kainatı dərk etməyə cəhd göstərmiş, hətta planetdən kənara çıxmış, kosmosa – digər planetlərə də sahib olmaq iddiasında olmuşdur. Bununla da təkcə yerin yox, göyün də sahibi olmağa çalışmaqla mahiyyətcə dünya-aləmin, yerin-göyün ağası olan Allaha şərikli olmağa, Allahlıq etməyə cəhd göstərmişdir. Allahlıq iddiası isə ölümsüzlük deməkdir, çünki ölməyən, əbədi-baqi olan yeganə varlıq Allahdır. İnsan da ölməmək üçün Allahın yerdəki Ölüm mələyi olan Əzrayıla qarşı çıxmış, ölümə qarşı çarələr axtarmışdır – Əzrayılla çilingağac oynamışdır. Ölümsüzlük üçün həm Ölüm mələyi olan Əzrayıla, həm də Əzrayılın başqa formada – hal donundakı obrazına qarşı müxtəlif cür fənd-fel işlətmişdir. «Dədə Qorqud»da Əzrayılla güləşən, onu yenmək istəyən Dəli Domrul obrazı dediymizə ən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tipik misaldır. Yaxud İsgəndərin dirilik suyu axtarması barədə əfsanə də insanların ölümsüzlük arzusunun ifadəsidir. Hamilə və zahı gəlinin, körpəsinin Əzrayılı olan hala qarşı da qabaqlayıcı tədbirlərin görülməsi bunun sübutudur. Bir sözlə, insan övladı hələ dünya üzünə gəlməmişdən öncə onu qarabaqara izləyən ölüm mələyilə – halla və yaş dövrünün sonrakı mərhələlərində isə Əzrayılın özü ilə üz-üzə gəlmiş, ölümdən qaçmaq yollarını (təbibə, həkimə dava-dərman elətdirmək zoruna, mollaya-seyidə, övliyaya dua yazdırmaq, şəfa diləmək gücü ilə s.) düşünmüş-axtarmışdır. Və beləcənə insanın ömür yolu-taleyi elə əzəldən axıracan Əzrayılla gizlənpaç oynamaqla keçmişdir. Bu gizlənpaç oyunu hələ də davam edir. Və nə qədər ki, həyat var, insan var – davam edəcəkdir.

Beləcə, doğum – həyat, var olma və ölüm – məhv olma qarşılaşması bir-birlərini tamamlayan əbədi ziddiyyət prosesləridir. Bu təzadlar qanunauyğunluğu, əksliklərin vəhdəti fəlsəfə qanunlarında özünə yer tutmamışdan çox öncə hələ miflərdə özünə yer eləmiş, elə həyati proseslərin də inkişaf ritminə çevrilmişdir. Bu haqda Ramazan Qafarlıdan oxuyuruq: «Dörd ünsürün qədim Şərq təqvimlərində qəzalar kimi xarakterizə edilməsinin əsasında onlara olan ikili (həm yaradılışa, həm də məhvə xidmət etmələri) münasibət durur. Belə ki, od inkişafın, mədəniyyətin təkanverici qüvvəsi olmaqla yanaşı yarananı yandırıb kül edir, fəlakətlərin mənbəyinə çevrilir. Təsəvvürlərdə odun xeyirxahlığına, yoxsa şərinə, ziyanlarına birinci inanıldığını müəyyənləşdirmək çətindir. Miflərdə tez-tez üstünlük birindən digərinə ötürülür» (s.44). Bəli, doğum faktoru – varolma, yaranma olduğu kimi onun əksi olan ölüm amili – yox olma, məhv olma prosesi də var. Doğumla bağlı mifik təsəvvürlərdə yaranmış xilaskar Humay obrazının ikili missiyası (doğuma himayədarlıq edən xeyirxah Humay və doğuşa mane olan ziyankar Qara Umay), eləcə də halın ikili funksiya daşıyan obrazı – əvvəlki təsəvvürlərdə doğuşa köməklik edən, sonradan isə mənfi xarakter qazanmış müasir obrazı da ikiliklərin, ziddiyyətlərin bir obrazda, bir varlıqda cəmləşdiyini göstərən faktlardır.

Mifik baxışlarda ikili yöndə özünü büruzə verən hal obrazının su ilə bağlılığı onda da özünü göstərir ki, halın gözə görünmə halları, adətən, su üstündə – bulaq başında olur. Hal arvad yatıb qurtarandan sonra arvada yoluxur, içini-içalatını çəkib aparır. Halın qanlı ciyəri aparıb suya salması da, suya çox meylli olub çox su içməsi də, havadan, ya ay işığından qabqarışıq əlini çölə uzatmaqla qaibindən su götürməsi və s. bu kimi mifoloji rəvayətlər də bir daha halın su ilə ilişgili olduğunu diqqətə çarpdırır. Gülpəri Mürüd qızından eşitdiyimiz bir mətndə isə hal bir qədər fərqli şəkildə təsvir olunur: «Ayat adlı bir arvad boylu imiş. Halı tutub kürəyinə iynə keçirdib. Hala buğdanı verirmişlər, buğdanı aparıb bir qəbiristanlıq yaxınlığında daşlıq bir yerə töküb qurudarmış – sonra nə isə öz-özünə oxuyarmış, buğdalar öz-özünə çuvala yığılarmış. Bir gün hal yalvarır, iynəsini üstündən açırlar. Hal qeyb olub gedir. Damın (evin) bacasından baxıb ev yiyəsinə deyir: «- Soğanı aldılar, sarımsağı almadılar, demədilər igid, dərdin nədəndir?» - niyə soruşmadınız deyib çıxıb gedir». Burda da halın qaibindən işlər görməsi – buğdanı sərib qurutmaq üçün qəbiristanlıq yaxınlığında yerə dağıtması, sonradan isə oxuduğu duanın sehrilə buğdaların öz-özünə çuvala dolması halın ruhlarla bağlılığını sübut edir. O ki qaldı qəbiristanlığa yaxın bir yerdə bu işin icra olunmasına, burda bir maraqlı nüans gizlənib: qəbirstanlıq ruhlar səltənətidir, ölənlərin ruhu uyuyan bir məkandır. Hal isə ruhlarla bağlıdır, bəlkə də, hardasa ruhların Tanrı tərəfindən təyin olunmuş yiyəsidir. Axı Allahın ölüm mələyi olan Əzrayılın ekvivalentidir, daşıdığı bir funksiyaya görə – zahının, hamilənin və bununla bətnindəki körpəsinin canını alarkən Əzrayılın işini görmüş olur, bu məqamlarda Əzrayılla eyniləşir də. Bəlkə də Əzrayıl sözü qrammatik tərkibcə iki sözdən – Əzra və yıl (ıl, al, hal) sözlərindən ibarət olmaqla da elə halın transformativ yol keçmiş adlarından (əslində ad variantlarından) biridir: Əzra – yıl, Əzra – hal. Burdakı Əzra tərkibi də fəna qüvvələrdən olan ərdo (ərdov) adının fonetik transformasiyaya uğramış variantı kimi də götürülə bilər, yəni Ərdov hal, Ərdo hal – Ərdohal – Ərdahıl – Ərdayıl – Ərzayıl – Əzrayıl (D-z səs əvəzlənməsi də mümkün prosesdir: Adərbayqan (Atropaten) – Azərbaycan adlarında baş vermiş fonetik proses kimi. Ərəb dilinin fonetikasında bizim sözlərdəki «d» səsinin «z» səsi ilə əvəzlənməsi təbiidir). Deməli, Əzrayıl əslində Ərdov (Ərdo) hal – yəni div hal deməkdir (Ərdo – divin adlarından biridir): div də uşaqların canını alan qorxunc mövhumi – ruhani varlıqdır. Həm də bir yerdə mən hal sözünün div sözü ilə başqa bir situasiyada bağlılığından danışmışdım: hal-div paralelliyinin, əlaqəsinin olduğunu izah etmişdim və bu müqayisələri də burda uzlaşdıranda, ərdohal-Əzrayıl eyniyyəti ehtimalımız özünü təsdiq etmiş olur. Ona görə də bəlkə aldığı canların ruhlarının ixtiyaratı halın öz əlindədir və qəbiristanlıqda bu öldürmüş olduğu adamların ruhlarına dodağının altında oxuduğu dua vasitəsilə göstəriş verib və nəticədə mətndən gördüyümüz kimi, həmin ruhlar halın yerə səpələmiş olduğu buğdanı gözəgörünməz əllərilə gözqırpımında yığıb çuvala doldurmuşlar. Halın çıxıb gedəndə isə bacadan boylanıb insanlara dediyi: «soğanı aldılar, sarımsağı almadılar, demədilər, igid, dərdin nədəndir?» - niyə soruşmadınız sözlərinin də mənası mifin şüurun alt qatından hələ də bizə öz sirli-sehrli dililə nəsə pıçıldayır, amma hələ ki, bu sözlərin mətnaltı – şüuraltı mənasını açmağa girişmirəm. Bir başqa vədəyə qalsın.

Bəhlul Abdullayev doktorluq işində zahının hal və başqa fəna varlıqlardan qorunması ilə bağlı mifik görüşlərdən bəhs edərkən yazır: «Yeni uşaq doğmuş qadın zahı adlanır. Qırx gün davam edən zahılıq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dövrü həm ana, həm də uşaq üçün ən çətin, qorxulu çağ sayılır. Guya şər qüvvələr məhz bu qırx günün içində onlara xətər toxundururlar. Ona görə də bu munasibətlə bir sıra tədbirlər görülür. Zahının yatacağının çevrəsinə keçi qəzilindən hazırlanan sicim dolayıb uclarını da yerə sancılmış bizə bağlayırlar. Qırx gün müddətində burada şam, lampa yandırırlar. Zahının yaxasına iynə sancılır, yastığının altına güzgü, bıçaq, xəncər və s. dəmir nəsnələr, həmçinin qapının girəcəyində üstündə ağzı açıq qayçı olan şüşə qabda soğan qoyulur. Buradakı işıq, dəmir nəsnələr, sözsüz, dualist anlamın bəhrəsidir. Elə soğan da bu mövqedən izaha ehtiyac istəyir.

Bəlli olduğu üzrə, dualist baxış varlığı daim iki qütbə bölmüşdür: xeyir-şər, yaxşı-pis, isti-soyuq, şirin-acı, işıq-qaranlıq və s. Deməli, soğanda da acılıq keyfiyyəti olduğu üçün ona şər qüvvələrin məhsulu kimi baxılmış və ondan eyni zamanda təqlidi sehr vasitəsi kimi istifadə edilmişdir. Belə ki, guya digər bədxah qüvvələr öz cinsləri olan yerə saniyən gəlməzlər. Elə buna görə də qabı qapının girəcəyində qoyurlar ki, gələn şər qüvvələr onu görüb geri qayıtsınlar. Soğanı isə kəsərdən salmaq üçün, dediyimiz kimi, qabın ağzına qayçı qoyulur. Guya şər ruh buradan bayıra çıxmaq istəyəndə bulunsa, onda qayçı onu kəsər, doğrayar. Yatacağın çevrəsinə dolanmış keçi qəzilindən olan sicimə də şər qüvvələrin qarşısını kəsən vasitə kimi baxılmışdır (199,97). Amma niyə məhz keçi qəzilindən olan sicimdən istifadə edildiyi və onun hansı sehrli qüvvə yiyəsi olması düyünü indiyə qədər açılmamışdır. Bu məsələ xalq yaradıcılığında mifoloji örtüklü obrazlardan sayılan animist, totemist, antropomorf, kosmoqonik təsəvvürlərlə bağlı olan və nisbətən sonrakı çağlarda zahı üçün bəlaya çevrilən doğum ilahəsi, artımın qoruyucusu Al/Hal barədəki düşüncələrlə bağlı öz həllini tapa bilər» (səh.101).

Göründüyü kimi, professor burada keçi qəzilindən söhbət açmış, bunun mifoloji səbəbini aça bilməsə də, doğru olaraq göstərmişdir ki, bunun izahı hal barədəki düşüncələrlə mülahizələrin gedişində açıla bilər. Doğrudan da, qəzildən hazırlanmış sicimdən haldan qorunmaq məqsədilə istifadə edilirsə, bəs niyə «keçi qəzilindən» sualına da belə cavab verərdim ki, kosa-keçi qarşılaşması kimi xalq dramı var və məlumdur ki, burada kosa qışı təmsil edirsə, keçi də yazın gəlişinin daşıyıcısı rolunda çıxış edir. Yaz Günəşlə bağlıdır, dondurucu, şaxtalı, qarlı günlərin Günəşli günlərlə əvəz edilməsidir ki, bu mənada yazın zoomorfik obrazı olan keçi müəyyən dərəcədə Günəşlə bağlıdır. Keçinin qəzili (tükü) də Günəşin şüasına müştəbehdir. Mahiyyətcə isə əynimizə geydiyimiz paltarların bizi qışın soyuğundan qoruyanının materialı saçaqlı-tüklü, ipli (keçi qəzili, qoyun yununun tükü – fərqi yoxdur, saplardan təşkil olunur) olur ki, bunlar istilik yaratmağa xidmət etməklə əslində Günəşin bəlgəsi sayılan istiliyi təmsil edir. Deməк, ipin materialını təşkil edən tük, saç (eləcə də keçi qəzili) birbaşa istiliklə və bu maqamda odla – Günəşlə bağlıdır. Hal da Günəşlə – odla bağlıdır. Demək, hal öz simgəsi olan istilik daşıyıcısına – keçi qəzilinin yaxın həndəvərinə gəlməkdən çəkinir; yəqin ki, burda olan od-istilik təmsilçisi qəzil (sicim, eləcə də ümumiyyətlə zahının ətrafına çəkilən digər qoruyucu iplər, kəndir və s.) odu-müqəddəsliyi özündə daşıdığındandır ki, zahını qorxunc ruhani varlıqdan – haldan qoruyur. Bir sözlə, zahının dövrəsinə çəkilən keçi qəzili və ümumiyyətlə, hər hansı ip özü hardasa istiliyi – odu yaşadır və odun himayədarlıq – qoruyuculuq funksiyası daşıması da çox əski görüşlərə – Avestaya, Zərdüştlüyə, atəşpərəstliyə gedib bağlanır.

Bir qədər sonra isə müəllif özü keçi ilə alarvadının əlaqəsindən söz açarkən də əslində bu qanunauyğunluğa birbaşa olmasa da, dolayısı yolla aydınlıq gətirmişdir: «Biz Al arvadının «keçi şəkilli» olmasını əbəs yerə xatırlatmamışdıq. Başqa xalqların folklor ədəbiyyatında da bu haqda məlumat verilir. Misal üçün, qazax, qırğız, başqırd xalqları arasında Albastı həm də keçi şəklində təsəvvür olunmuşdur. Tuva-urxanlılar isə Albastının ərə getməmiş bir qızdan doğulduğuna və keçi kimi mələməsinə inanmışlar (246;53). Əvvəla, onun «keçi şəklində də təsvir olunması mifoloji baxımdan təbiidir. Axı keçi yazın, bununla əlaqədar olaraq artımın, məhsuldarlığın rəmzidir, mifik obrazdır» (69,47-53). Keçinin yazın rəmzi olması xalqımızın «Kosa-kosa» adlanan çox əski bir mərasimində açıq-aydın özünü göstərməkdədir ki, irəlidə bu barədə ayrıca danışacağıq. Keçinin əsatirlə bağlılığı aşağıdakılardan da bəlli olur. Misal üçün, türkmənlərin «Goroğlu» (Qəbiroğlu) dastanında qəbirdəki uşağı – Goroğlunu (Koroğlu) keçi əmizdirir. Türk dilli qaçinlər yeni doğulmuş uşağı şər qüvvələrdən qorumaq üçün «nənnisinə keçi dərisi qoyur», altaylılar isə uşağın beşiyindən keçi sümüyü asırlar. Maraqlıdır ki, bu məsələlər professor M.Seyidovun da diqqətindən yayınmamışdır və o, «Kitabi-Dədə Qorqud»da Dədə Qorqudun Bamsı Beyrək üçün Banuçiçəyi istəməyə gedəndə mindiyi atlardan birinin niyə keçi başlı, Qazaxıstanda qazıntı zamanı tapılmış «Qızıl adam»ın papağındakı at təsvirinin keçi buynuzlu olmasının mifoloji köklərini üzə çıxarmışdır (72, 40-41).

Bütün bu deyilənlər zahının yatağının niyə keçi qəzilindən olan sicimlə çevrələnməsini də aydınlaşdırır. Deməli, bu, əslində doğum hamisi, artımın qoruyucusu olan Albastının simvoludur. Huşunu itirən zahının yanında Al/Hal nəğmələri oxunula-oxunula çalınan nağaranın da bir üzünə qurd, digər üzünə isə keçi dərisi çəkilməsi, şər qüvvələrin əməli sayılan soyuqdəymədən naxoşlayan uşağın keçi dərisinə salınması, uşağa ana südü əvəzinə keçi südü verilməsi və s. dediyimiz məsələyə marağı daha da çoxaldır» (s.105-106).

Alimdən gətirdiyimiz bundan əvvəlki sitatda isə oxuduq ki, hala qarşı mifoloji mübarizə silahı kimi «qapının girəcəyində üstündə ağzı açıq qayçı olan şüşə qabda soğan qoyulur». Bax, burdakı soğanla



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bağlı ifadələr də yuxarıda mənim gətirdiyim mətndəki halın söylədiyi «soğanı aldılar, sarımsağı almadılar, demədilər, soruşmadılar, igid, dərdin nədəndir?» deyiminə bir sim, bir işarə, xal vurur ki, bu haqda danışmağı yenə sonraya saxlayaq.

Zahını qorumaq, xəstəlikdən sağaldıb ayağa durğuzmaq üçün təkcə bu səntkili mifik təsir vasitələrinə deyil, eləcə də türkəçarə xarakterli real üsullara əl atılırdı ki, bunun bir nümunəsini Gülpəri Mürüdqızının dilindən verirəm: «Birə otunu (eşşək yovşanı da deyirlər) qadın zahı yatanda suda qaynadıb bir az kənarda zahı yatan otağa qoyurlar. Ona görə zahıdan aralıda qoyurlar ki, yaxın olsa, çox güclü təsiri olduğundan zahının qarnı bişər. Zahı yorğanı başına çəkib həmin birə otunun (eşşək yovşanının) otağa yayılan buğunu (buxarını) nəfəsinə çəkir; beləliklə, üç gün ərzində gəlin sağalır, sağlam olub qalxır ayağa». Bundan başqa, qan almaq – bədənin müəyyən hissəsindən kəsib, cızıb-çərtməklə də müalicəvi metoda əl atılırdı: «Xoruzək – göyərtməyə deyirlər; xoruzək göyərmək deməkdir, inaq da deyirlər. Uşağın baş hissəsindən – əmgəyinin yanından cızırdılar ki, uşaq göyərmir» (Gülpəri Mürüd qızından).

86 yaşlı Abihəyat nənənin danışdıqlarında isə sağlamlığın təminatı üçün mifik vasitədən istifadə olunduğu göstərilir: «Uşaq anadan olandan qabaq mollaya süd duası yazdırırlar ki, gəlin həmzat-zad olmasın, ananın südü yaxşı olsun, körpə normal qidalana bilsin».

Aba nənə – Abihəyat nənə aşağıdakıları da danışdı:

- Qabaqlar qırxlı uşaq olan evin üstünə qara tikan, ya yun darağı qoyardılar ki, aralıdan görükəndə bilinərdi ki, burda qırxı çıxmamış çağa var. Ona görə də xəbərsiz halda bilmədən uşağın üstünə gələn – ağırlığını salan olmurdu».

Muncuqlardan – gözdəymədən qorunma vasitələrindən də danışdı Aba nənə: «Qusma muncuğu - ortası yarıq, qıraqları nov kimi, diş-diş olur. Ağ rəngdə. Balaca şeytanın (ilbizin – Ş.A.) çanağı kimi olur. Qusma muncuğunu uşağın üstünə bağlayırdılar ki, qusmasın. Ancaq qusma muncuğunu uşağın üstünə taxmaq həm də pisdir ki, uşağı eynitmir – yekəlməyə, kökləməyə qoymur.

Babaqulu – qara yaşıl rəngdə, mor rəngdə olur. Gözmuncuğu, babaqulu, şivə – şərafətli muncuqlardır. Şivə – Məkkədən gəlmə muncuqdur, qorxuya-zada xeyri çoxdur. Qorxan xəstənin – arvadın, uşağın üstünə bağlayanda qorxuluğu qayıdırdı.

Şötük – dəvənin tükündən (yunundan) şötük düzəldirdilər,ayağı teyxa qotazlı olurdu, uşağın kürəyinə tikirdilər. Əldə toxuyurdular: əyirirdilər. İpinən teriyirdilər (yəni sapı sapa geydirirdilər) ki, əyilib-qatlanmasın. Təxminən üç barmaq enində, uzunluğu isə əl barmağının uc hissəsindən biləyə qədər olan ölçüdə olurdu. Deyirdilər dəvə yunu (şötük) uşağın üstündə olsa yaxşıdır. Şötüyü oğlan uşağının üstünə tikirdilər, qız uşağının yox.

Qum muncuğu – ağ, göy, sarı, qırmızı rənglərdə olur, düzürdülər uşağın üstünə. Qəşəng, yaraşıqlı görsənmək, bəzəyi olmaq üçün tikirdilər. (Mifik təsirlə bağlı deyil. - Ş.A.).

Sarılıq muncuğu – sarılığı tutana köməklik edir. Göyərtmə muncuğu – uşaq göyərtmə tutsa, üstünə bağlayırdılar. Öskürsə, sinəsi tutularsa, xeyri dəyir. Heykəl – balaca ölçüdə «Quran»dır. Uşağın üstə bağlayırdılar, istər həmzatlı gəlsin, istər nə gəlsin, uşağa heç nə olmurdu. Qırxı çıxanacan bağlayırdılar, 40-dan sonra götürürlər.

Aybaşı (Ayarası da deyirlər) – nazikcə, qulplu pul olurdu, abbası yekəlikdə, üstü Quran hərfi ilə yazılı olurdu. Uşaq ayın başından-başına xəstələnirdi (yəqin ki, ayın başından-başına xəstələndiyi üçün bu cür xəstəliyə köməyi dəydiyinə görə bu pul-muncuq aybaşı, ya ayarası adlanırmış – Ş.A), bu aybaşı muncuq-pulu aparırdılar mollanın yanına. Molla da aybaşının (ayarasının) bir parçasını – təxminən dörddə bir, beşdə bir hissəsini kəsib atırdı. Sonra onu gətirib uşağın üstə bağlayırdılar, uşaq sağalırdı.

Bədnəzər duası yazdıranda isə deyirdilər ki, uşağın yaxasına it tükü, pişik tükü də vurun-bağlayın.

Həmzat duasına boylama deyirlər. Yekə, qalın olur, meşin bir şeyə tikirlər ki, su dəyməsin. Asırlar arvadın boynundan, həmişə üstündə olur.

Uşağı çətin olanın da duası var, yazdırırlar. Arvad-hamilə xəstələnəndən sonra – yəni uşaq doğmaq üçün sancıları tutanda həmin duanın suyunu içirdirlər, uşaq asan olur. Uşaq çətin olanda güllə də atırdılar, ya da uşaq çətin olanda bir qız uşağının donunun qabaq tərəfdən yarıq yerindən bir yumurtanı donun içərisinə salırdılar, həmin qız bacadan yumurtanı hamiləyə göstərib deyirdi: - mən doğdum, sən də doğ. Bunu deyib yumurtanı bacadan buraxırdı. Yumurta bacadan düşüb sınırdı və bununla uşağın da beləcə tez, asan doğulacağına inanılırdı.

Uşaq büzmə tuturdu (büzməyə şeşə də deyirlər). Ağız, dodaq büzülürdü, yığılırdı bir yerə, göyərirdi. Əl-ovuc qatlanırdı, key olurdu. Bədən, dodaq olurdu gömgöy. – Buna büzmə deyirdilər. Dua yazırdılar. Eləsi olurdu dua kar salırdı (təsir eləyirdi) – sağalırdı, eləsi olurdu ki, yox, kar salmırdı – uşaq ölürdü. Ya da bu vaxt, ayıb olmasın, oturaq yerlərindən qan alırdılar ki, büzmə çəkilsin.

Uşaq anadan olanda mayalanandan qabaq ağzını, damağını murdarla (it murdarı və s. ilə) əzirdilər ki, uşaq büzmə olmasın, həmzat olmasın».

86 yaşlı el ağbirçəyi olan Aba nənəmizin dilindən yazıya aldığımız bu mətnlərdə nələrə işarə yoxdur. Uşaq doğulandan sonra qidalanacağı süddən tutmuş (süd duası) ta körpə dünyaya gələndən sonra evdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qırxlının olduğunu bildirən istinadgah - bəlgə kimi evin damının üstünə yun darağı, qaratikan qoyulması, bunlardan başqa çağanı müxtəlif yad təsirlərdən qoruyan muncuqlar – gözmuncuğu, qusma muncuğu, babaqulu, şivə, sarılıq muncuğu, qum muncuğu, göyərtmə muncuğu, aybaşı (ayarası) adlanan muncuq-pul və sair, eləcə də uşağı və ananı xəstəliklərdən və ya bəd nəzərlərdən qorumaq məqsədilə dəvə tükündən şötük (qotaz da deyirlər) tikilməsi, heykəl duası (kiçik ölçülü Quran yazısı), həmzat (boylama) duası, bədnəzər duası və başqa bu kimi duaların yazdırılması – bunlar hamısı körpəni və ananı ölümdən, hər cür azar-bezardan xilas etmək tədbirləri idi. Bunlarda təhtəlşüur qatında gizlənmiş möcüzələrin sirləri üstüörtülü halda – mifik tərzdə özünün ifadəsini tapıb ki, bunları açıb-çözmək bizdən xüsusi ustalıq və ariflik tələb edir…

Doğum mərasimini tədqiq edən bütün alimlər doğum prosesinin asan keçməsi üçün mövcud olan ayin və adətlərdən, ənənələrdən bəhs açmış, mifik vasitələrdən istifadə ilə bu prosesə yardım olunması kimi təsəvvürlərdən danışmışlar. Afaq Xürrəmqızının kitabında bu barədə zəngin məlumata rast gəlirik: «Həm azərbaycanlılarda, həm də başqa xalqlarda zahı, eləcə də doğuşda iştirak edən qadınlar saçlarını açaraq çiyinlərinə tökürlər. Bu adətdən bəhs edən bütün alimlər (S.Tokarev, N.Alekseyev, S.Abramzon, A.Troitskaya, A.Firşteyn və b.) bu akta C.Frezer kimi təqlidi-imitativ magiyanın təzahürü kimi baxırlar. Tanınmış etnoqraf N.İ.Qaqen-Torn isə düyünlərin və qıfılların açılmasından fərqli olaraq saçların açılmasının daha dərin semantizmə malik olduğunu göstərir. Alimə görə, bu, saçların müstəqil magik qüvvəyə malik olmasından irəli gəlir. Müəllif fikirlərini Rusiyada çətin doğuş zamanı saçların ağıza verilməsi aktının mövcudluğu ilə əsaslandırır (137;82). Əslində doğum mərasimində saç manipulyasiyaları bu misalla məhdudlaşmır. Məsələn, Taciklərdə sancı çəkən zahının üzündəki təri doğuşdan sonra ləkələr qalmasın deyə onun öz saçları ilə silirlər (306;114). Özbək və tacik mamaçaları uşağın göbəyini kəsdikdən sonra ananın saçını yandıraraq külü yaraya basırlar (314;190). Nəhayət, taciklər zahıların tez-tez yoluxduğu süd vəzilərinin iltihabı (qrudnitsa) xəstəliyini saçlar vasitəsilə müalicə edirlər: saçları açıb xəstə tərəfə tökdükdən sonra üzüaşağı darayaraq xəstəliyi darayıb çıxartdıqlarına inanırlar (305;253).

«Книга мертвых» включает в себя древнейшие речения из «Текстов Пирамид», речения со стенок саркофагов и речения жрецов заупокойного культа Нового царства. По мнению выдающегося русского востоковеда Б.А.Тураева в «Книге мертвых» «попытались совместить нравственный элемент с магическим – в числе ее 180 слишком «глав» или формул оказывается рисунок загробного суда и «исповедание» праведности – в уста умершего влагается перечень грехов, которых он не совершил на земле. Но это совмещение было триумфом магии – она подчинила себе выработанное высшими устремлениями духа представление о загробном суде, превратив его в магическую формулу и обезопасив грешника от грозящей ему участи – называя имена своих судей, он делал их бессильными; магически утверждая, что он не творил греха, он оказывался непричастным ему; имея при себе рисунок суда и взвешивания сердца, которое в нем всегда должно было быть находимо выдержавшим испытание, тем более, что и для этого существовали особые формулы, он мог не бояться результата взвешивания» (2, с. 28).

Из сказанного следует, что египтянин всем своим существом любил жизнь, но мысль о смерти, насколько бы он не пытался ее избежать, не покидала его. Этот процесс переживаний приводил к другой мысли – к поискам путей преодоления смерти. Таким образом, магическими формулами, запечатленных в «Книге мертвых», они, т.е. древние египтяне, обеспечили себе бессмертие.

По мнению египтян, человек состоял из нескольких «форм бытия». Кроме тела и души он обладал и другими оболочками. Многомерность человеческого существа состояла из семи оболочек, соответствующих семи уровням его существования.

Первой оболочкой, которая называлась *Сах*, обозначалась видимое, вещественное тело человека. Парадоксально, но факт логического пояснения того, что человек, пришедший на материальную Землю



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

должен жить в телесном мире и соприкасаться, взаимодействовать со всем внешним материальным миром. Да и физиология его устроена так, что посредством представленных ему внешних и внутренних возможностей (кожа, мышцы, нервы, сухожилии и т.п.) он должен соприкасаться со всем окружающим.

Более всего любопытным является то, что посвященные люди (а они имели магический дар прорицательства) по состоянию данной оболочки могли судить и об остальных оболочках человека.

Духовная чистота человека так или иначе выявляла его здоровье и ясность (осветленность) облика. Напротив, «загрязненность» телесного облика говорила о пороках, о греховных поступках данного субъекта.

Вместе с тем, просвещенные полагали, что загрязненное тело можно очистить путем избавления его от злых мыслей, слов и поступков. Лишь только благородство способно очистить человека от отрицательных энергетических слоев. Более того, была убежденность в том, что загрязненность в духовных оболочках влияет и на вещественное тело, что выражается в болезнях и недугах. Известная латинская поговорка «В здоровом теле – здоровый дух» не что иное, как взятое из древнеегипетских изречений, с той лишь разницей, что в начале была еще одна фраза, которую почему-то впоследствии предали забвению: «Ты бойся бога, чтобы в здоровом теле был здоровый дух».

Итак, ритуальными обрядами и молитвами, заклинаниями, гимнами можно было очистить духовную оболочку.

Особое внимание отводилось сохранению тела умершего и главной ее части – голове, которая называлась «седалищем жизни».

Тело умершего тщательно омывали, умащали и бальзамировали. Бальзамирование в зависимости от занимаемого социального положения было тоже неодинаковым. Чтобы после смерти сохранить оболочку *Сах*, египтяне устанавливали в гробницах копии статуи усопшего, в которую могла бы переселиться его энергетическая оболочка.

*Ка* представляла вторую оболочку человека, которая выражала жизненную энергию, эфирное тело. Она являлась своего рода энергетическим двойником человека, говоря современным языком – «биополе» человека. Говоря иными словами, *Ка* непосредственно была связана с личностью, с его телесными и духовными чертами. Оболочка эта неразлучно с человеком. Порой при внимательном рассмотрении вещественного тела человека можно заметить радужное сияние вокруг него.

Существовало такое поверье, что незадолго до смерти, почувствовав тесноту и неудобство в вещественном теле, *Ка* покидала его. Отсюда и явление человеку перед смертью его двойника. После смерти человека его *Ка* находится в потустороннем мире.

Если вторая оболочка означала «жизненную энергию», то третья оболочка *Ба* называлась «жизненной силой», оболочкой позсознания. В современном понимании ее можно именовать «астральным телом».

Все человеческие чувства, желания, эмоции в целом и образуют *Ба*. И, естественно, что в зависимости от изменчивости этих качеств меняется и форма этой оболочки.

Была убежденность в том, что этой оболочкой обладают только боги, цари и первосвященники. Оболочка имела и свою символику: она изображалась в виде сокола с головой человека. Те, которые проходили посвящение в храмах Египта, имели исключительную возможность отделять свое *Ба* от *Сах* и совершать странствия вне времени и пространства.

Кроме того, обладая свойствами птицы, *Ба* была способна отторгаться от тела спящего, мумию в гробнице, попутешествовать и вновь вернуться к телу, чьей душой оно являлось. Вместе с тем, покинув тело умершего, она была способна переселяться в другие тела.

Интересно, что звезды и созвездия семь светил (Солнце и Земля, Луна, Меркурий, Венера, Марс, Юпитер и Сатурн) являлись оболочками *Ба* богов.

Четвертую оболочку человека, образованному от человеческих мыслей и мыслеобразов, составляла душа – сердце, вместилище человеческого сознания – *Эб*, которая на современный лад называется «ментальным телом».

Египетские посвященные считали сердце средоточием сознания, поэтому и *Эб* находился именно в этой области человека. После смерти, душа *Эб* возвращалась к первоисточнику – к богу Осирису. Видимо, от того, что она была осведомлена об скрытых помыслах и тайнах поступка человека, она могла бы поведать на Загробном Суде о всех видимых и невидимых проявлениях умершего. Поэтому в текстах «Книги» есть магические заклинания, побуждающие душу не свидетельствовать против умершего.

Обратимся к тексту:: «*Эб* – сердце мое, моя мать; мое *Эб*–сердце–моя мать! Мое *Эб*-сердце, посредством чего я воссуществовал!

Да не встанет оно, чтобы противостоять мне на суде, да не будет мне противостоящих в присутствии вождей (татау); да не будет разделения между мной и тобой в присутствии того, кто хранит равновесие (весов)!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ты моя душа – двойник (*Ка*), который обитает в моем теле; бог Хнум, что соединил воедино и укрепил части моего тела. Пусть и ты войдешь в место счастья, куда мы идем.

Пусть служители мениу, которые создают условия человеческих жизней, не соделают мое имя смердящим, и да не будет сказаны лживые слова против меня в присутствии бога.

Пусть это будет удовлетворительно для нас, и пусть Бог Внемлющий будет к нам благосклонен, и пусть возрадуется сердце у нас при взвешивании слов.

Пусть ничто из того, что лживо, не будет произнесено против меня перед ликом Великого бога, владыки Запада.

Поистине, сколь велико будешь ты, когда ты возвысишься в триумфе» (3, с. 79-80).

Пятая оболочка человека – это душа-причина или надсознание, именуемым также *Эб*. Душа-причина несет ответственность за место и время рождения человека.

Шестая оболочка – душа-смысл, называется также *Эб*, которая дает возможность наблюдать за своими мыслями, осознавать свое существование.

Седьмая оболочка *Ах* (дух) переводится как «светлый, просветленный, освященный, блаженный». Она является энергетической основой вселенной. Она охватывает все параметры Вселенной и находится во всем. Поэтому она бессмертна и беспредельна. *Ах* защищает человека от злых мыслей, слов и деяний.

Здесь напрашивается аналогия с тремя правилами-заповедями зороастризма: Благая мысль, благое слово, Благое деяние. Более того, дух *Ах* вкупе с *Ра* – богом Солнца являет собой, на наш взгляд, этимон высшего божества согласно Зороастру – Ахура – Мазда, что снимает недомолвки ученых относительно имени божества. Но это, конечно, тема другого исследования.

Духом – *Ах* наделены и боги – Осирис, Гор и Ра.

Все сказанное приводит к выводу, что эти семь оболочек имели место и в живом, и в мертвом человеке. Немаловажное значение имело и соотнесенность имени (Рин) и тени (Шуит) человека. Здесь нам представляется уместным привести рассуждения Б.А.Тураева относительно вышеуказанных оболочек: «Все элементы организации должны быть сохранены для достижения бессмертия. О душе заботились боги – она отходила на небо, на перепутье богиня Хат-хор или Нут с древа жизни проливала ей воду и подавала дары. «Дай дыхание ноздрям моим, воду – душе моей, да насыщусь я от даров твоей божественной трапезы» - молится умершим Рамсес III. Заупокойные жертвоприношения имели в виду «*Ка*»; что же касается тела, то оно «отдавалось Анубису» для бальзамирования и погребения... Погребение – сложный магический ритуал, имеющий целью превратить умершего в ожившего Осириса, повторяя над ним то, что некогда Анубис и Тот совершили над телом «Благого Бога». Обряды, сопровождающиеся магическими формулами, возвращали его телесным членам утраченные способности; особым инструментом отверзались его уста, чтобы он говорил и ел; каждения и окропления вновь вводили в него жизненную силу и утраченные жидкости и т.п. Даже сохранением прекрасных плачей сестер Осириса мы обязаны заупокойному папирусу, так как они не только выражали скорбь, но и имели магическое действие, служа для оживления усопшего; а то, что послужило для Осириса, было полезно и для всякого покойника, превращаемого в Осириса» (2, с. 31-32).

Итак, «Книга мертвых», названная потому, что ее находили рядом с мумиями, которые арабы именовали «Китаб аль майитун», на самом деле переводится как «проявление света», либо «наступление дня».

Как мы уже убедились, она состоит из заговоров, заклинаний, гимнов, плачей, магических формул и молитв.

Красной нитью через тексты книги проходит мысль о вере египтян в воскресение и бессмертие души. Но самым примечательным является двуплановость текстов. Видимо, она была обоснована более ранними традициями.

Во-первых, явно бросается в глаза возвеличивание бога Солнца и его божественного окружения. Есть предположение ученых, что магические ритуалы должны были облегчить путь умерших к небу, где они должны сопровождать бога Солнца. Более того, еще посвященные Древнего Египта указывали на то, что Солнце является местом обитания блаженных душ.

Таким образом, энергетические оболочки посредством преломления и преобразования солнечного излучения возвращались к первоисточнику.

Обратимся к тексту, где воздается гимн богу Солнца Ра, когда он поднимается на восточном небосклоне:

«Слава тебе, пришедшему в этот мир!
Хапра – Возникший, мудрый творец богов,
Ты, на престол воссев, озаряешь свод
Темного неба и богоматерь Нут

Что простирает руки, верша обряд,
Почести воздавая царю богов.
Город Панополь славу тебе поет
Соединив две равные доли дня,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Нежит тебя в объятьях богиня Маат,
Что воплощает Истины ровный свет.
Ра, ниспошли же доблесть, премудрость, власть,
Душу живую в полость облеки, чтоб я
Гора узрел на розовых небесах!» (3, с. 46-47).

Во-вторых, старая традиция связана с погребением Осириса. Вспомним легенду. Божества Осирис и Исида, Сетх и Нефтида произошли от бога земли Геба и богини неба Нут. Осирис был супругом Исиды и отцом Гора. Осирис и Исида заботились о насаждении среди людей добрых нравов, порядка, культурной жизни, богопочитания. Злой Сетх, одновременно брат Осириса, будучи завистливым, умертвил его. После долгих поисков Исида нашла разрубленное и разбросанное тело своего супруга и оживила его, зачала от него сына Гора. Гор победил Сетха, а Осирис, передав власть на земле своему сыну Гору, сделался владыкой загробного мира. В последующем все усопшие должны были подвергнуться тем же погребальным обрядам, знать те же магические формулы, которые были применены к Осирису его погребателями – Анубисом и Тотом.

Приведем фрагмент гимна Осириса – Онуфрию («Уннофр» (Онуфрий) означает «Благой»):

«Вечность царь, Осирис – Онуфрий, страстно
Я воспою властителя постоянства;
Ты миллионы лет пребываешь в мире,
Для своего правления избрав Абидос.
Старшему сыну Нут, что зачат был богом
Гебом – Эрпатом я вознесу молитву
Ибо ты – тот чей Белый Венец возвышен,
Царь справедливый горних богов и смертных.
Скипетром власти, саном, кнутом и честью
Боги-отцы тебя одарили щедро
Сердце твое исполнено ликованья
Светлого, пребывающий в царстве мертвых
Гора ты утвердил на своем престоле.
Сам же взашел на трон, как правитель мира
И властелин Бусириса справедливый.
Ты побуждаешь Обе Страны к расцвету
Праведной речью; слышит ее Владыка
Крайних пределов и утверждает слово (3, с. 55-56).

Из египетской мифологии следует, что бог Солнца Атум-Ра заканчивает свой небесный путь на ладье ночью. Здесь он вступает через Туат в потусторонний мир и обитель мертвых. В области Туата находилось царство Осириса, которое называлось Секхем Аару, Тростниковые поля.

Дело в том, что по представлению египтян души умерших проходили тот же путь с соответствующими препятсвиями, что и Атум – Ра. То есть души умерших должны были пройти двенадцать областей по числу часов, из которых состоял Туат. Вхождение в каждую из ворот, охраняемую тремя божествами-стражами, сопровождалось опасностями. Фантастические создания и чудовищные змеи подстерегали их там и чинили всевозможные ужасы. Но Атум-Ра преодолевает все препятствия и опасности с помощью богини-кошки Бастет убивает Аапепа (гигантскую змею, олицетворяющую Сехта) и поднимается над восточными горами, даруя тепло, свет и жизнь.

Таковы наши исследовательские наблюдения над «Книгой мертвых» древних египтян.

**ЛИТЕРАТУРА**

1. Гроф С. Человек перед лицом смерти // С.Гроф, Д.Хэлифакс; Пер. с англ. А.Неклесса. –М.: ООО «Изд-во АСТ» и др., 2002.

2. Тураев Б.А. Древний Египет. – Спб.: Журнал «Нева»; «Летний сад», 2001.

3. Древнеегипетская книга мертвых. Слово устремленного к свету. –М.: «Изд-во ЭКСМО-Пресс», 2002.

**XÜLASƏ**

Qədim misirlilərin dəfn mərasimi («Ölülər kitabı» əsasında)

Məqalədə «Ölülər kitabı» əsasında qədim misirlərin dəfn mərasiminin özünəməxsusluğu, dəfn ritualı, allahlar panteonu və başqa məsələlər təhlil olunur. Qədim misirlərin ölüm və həyatla bağlı dünyagörüşü bərpa olunur.

**SUMMARY**

The process of buring of the ancient Egyptians (on the basis of «The book of death people»)

There were studied the peculiarities of the process of buring of the ancient Egyptians, panteon of jods and other guestions. There was restored the outlook, concerning the life and the death.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AŞIQ ŞƏMŞİR YARADICILIĞINDA DİNİ MOTİVLƏR

***Səbinə İsayeva***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

Aşıq Şəmşirin çoxcəhətli və zəngin yaradıcılığının mühüm bir hissəsini dini motivlər təşkil edir. Aşığın qoşma, gəraylı, təsnis, divani və müxəmməslərinin bir qismi bu mövzudadır. Sənətkarın yaradıcılığının qaynar dövrü sovet illərini əhatə edir. Məlumdur ki, sovet dövründə aşıqlara və el şairlərinə dini mövzuda əsərlər yazmaq qadağan edilmişdir. Ona görə də bu dövrün sənətkarlarında dini mövzulara, demək olar ki, rast gəlinmir. Şəmşirin də sovet dönəmində nəşr olunan kitablarında bu motivli şeirlər yoxdur. Aşıq poeziyasında, o cümlədən Aşıq Şəmşir yaradıcılığında da dini motivlərin, təsəvvüf dünyagörüşünün lazımi səviyyədə araşdırmaya cəlb olunmamasına səbəb Azərbaycanda 1990-cı illərin əvvəllərinə qədər hökm sürən ideologiya ilə bağlı idi. Sovet siyasi rejimi dinin təbliğini qanunla qadağan etmişdi. «Təəssüflər olsun ki, ədəbiyyatşünaslıqda, eləcə də folklorşünaslıqda Əli Əleyhissəlamla, Quran ayələri ilə, mələklərlə, peyğəmbərlərlə bağlı aşıq şeirləri sənətkar dünyagörüşündə ziddiyyət yaradan, ideyaca zərərli bir şey hesab edilmişdir» (8, 102). Dinə olan mənfi münasibət, onu zərərli bir ideya kimi qiymətləndirmək nəticə etibarilə aşıq yaradıcılığında dini motivləri, təsəvvüf dünyagörüşünü araşdırmağa mane olmuşdur. Qeyd etmək lazımdır ki, Aşıq Şəmşir ədəbi irsi ilə bağlı məhdud araşdırmaların çoxu məlum sovet dövründə aparıldığından onun yaradıcılığına elmi-nəzəri baxış düzgün qoyulmayıb. Bu səbəbdən də onun lirikasından danışan tədqiqatçılar dini motivlərdən yan keçiblər. Yalnız prof. M.Həkimov «Haqq aşığı Dədə Şəmşir» kitabında bu barədə səthi məlumat vermiş və aşığın dini dünyagörüşünün araşdırmaya ehtiyacı olduğunu bildirmişdir.

Aşıq Şəmşirin dini motivli şeirləri ilk dəfə 1996-cı ildə «Öyüdlər» kitabında işıq üzü gördü. Buraya aşığın «Bağışla Allah», «Qurbanıyam mən», «Amandı», «Aşiqəm», «İlahi», «Əli» və s. kimi qoşmaları, «Sən Heydər mənə», «Sən ağa», «Ay dada yetir», «Ya sına məni», «Ay ağam hey bir» və s. təcnisləri, «Ya Əli», «Pərvərdigar», «Mən», «Gəl», «Gərək», «Əli» kimi müxəmməs və divaniləri daxil edilmişdir.

Şəmşir dini mövzulara müraciət edəndə onları ancaq xatırlatmaqla və təkrarlamaqla kifayətlənməmiş, əksinə bu mövzu və motivləri öz deyim tərzinə, üslubuna uyğun şəkildə işləmişdir. Dini şeirləri Aşıq Şəmşirin təsəvvüf dünyagörüşünü dərindən mənimsədiyini və yaradıcılığında geniş yer verdiyini göstərir. Onun poeziyasınlda islam dininin əsas mövzularından olan Quran, Merac, peyğəmbərlərdən Məhəmməd, Musa, İsa, İbrahim, Həzrət Əli və başqa müqəddəslərlə bağlı ənənəvi mövzu və motivlər üstünlük təşkil edir.

Aşıq Şəmşir poeziyasında Allahın vəsfinə həsr olunmuş dini şeirlər çoxluq təşkil edir. Qeyd etmək lazımdır ki, sovet dövründə yaşamasına baxmayaraq Şəmşir heç vaxt ateist olmamış, Allahı, onun varlığını inkar etməmişdir. Sənətkarın Allaha olan böyük sevgisini, ilahi eşqini ifadə edən dini əsərləri yaradıcılığında böyük bir qüdrətlə səslənmişdi.

Bunların bir qismində ənənəvi tərif, yəni Allah tərif olunursa, digər qisim şeirlərinə isə sufilik nöqteyi-nəzərindən baxmaq lazımdır. O, Allaha daha çox Yaradan, Rəbb, Sübhan, Rəhman, Pərvərdigar deyə müraciət etmişdir. Bu qəbildən olan örnəklərdə Aşıq Şəmşir daim Allahın böyüklüyünü və ucalığını tərənnüm etmişdir.

Ərəstu aləmdə bəli deyəndə,
Adı min bir kərəm-kana aşiqəm.
Laşərik, biməkan əvvəl-axirət,
Bu hənnana, bu mənnana aşiqəm (1, 176).

Yaxud:

Ələstudan bəli dedim, qadiri sübhana mən,
Qane oldum nübuvvətə, yola mən, ərkana mən.
Aləmləri xəlq eliyən dost bildim Allahı,
Sidqi dildən sığınmışam bu bir kərəm kana mən (1, 265).

Ələst aləmi–Tanrı dərgahıdır, insanın dünyaya gəldiyi yerdir, bəli sözü isə Tanrı dərgahında ona verilən cavabdır. Burada məşhur «bəzmi-ələst» rəvayətinə işarə olunmuşdur. Rəvayətdən məlumdur ki, Allahın mən sizin rəbbinizəmmi sualına ruhlar «bəli» cavabını vermişlər. Şəmşir də Ələst aləmində «bəli» cavabını verənlərdəndir. Deməli, Şəmşir ilahidən gələn ruhun əzəli-əbədi mövcudluğu fikrini qəbul edir. Bu da təsəvvüf dünyagörüşündən gələn fikrin Aşıq Şəmşir şeirində obrazlı şəkildə ifadəsidir. Sənətkar min bir adı olan «kərəm kan» dedikdə Allahı nəzərdə tutmuş, onun şəriksiz, məkansız, qüdrətli olduğunu, dünyanın əvvəlinin də, sonunun da onun adı ilə bağlılığını göstərmiş, hər gür pisliklərdən, riyakarlıqlardan nicatı Onu dost bilməkdə, sidqi-dildən Ona sığınmaqda görmüşdür. Verilən nümunələrdən də aydın görünür ki, Şəmşir «Ələst aləmində bəli» demək üçün sufizmin 4 mərhələsindən – şəriət, təriqət, mərifət, həqiqət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mərhələlərindən keçib gəlmiş ürfan sahibidir. Folklorşünas H.İsmayılov təsəvvüf əhlinin 4 mərhələdə şəriət, təriqət, mərifət, həqiqət mərhələlərində Məqsədə gedən yolda belə səciyyələndirmişdir:

Birinci mərhələdə din tərəfindən qəbul edilmiş qanun və vəzifələr yerinə yetirilir. İnsan bu mərhələ ilə özünü nizamsızlıqdan qurtarır. İkinci mərhələ sufizmin əsas mənəvi cəhətdən artma, daxili özüylə döyüş mərhələsidir. Üçüncü təsəvvüf mərhələsi mərifət adlanır. Mərifət məqamlarında Sufi daxilindəki miskinliklə, zəlilliklə, köləliklə döyüşüb Tanrı miskininə, Tanrı quluna, İlahi Eşq xəstəsinə çevirir. Sonuncu – 4cü mərhələdə təsəvvüf yolçusu Ucalar Ucası qarşısında zərrəyə döndüyünü və bu Ucalığınbir Zərrəsi olduğunu dərk edir (6, 5). «Qane oldum nübuvətə, yola mən, ərkana mən» misralarından aşığın əhli-ürfan sahibi, mərifət, həqiqət əhli olduğu aydın görünür. Bildiyimiz kimi, islamın 5 vacib əməlindən biri nübuvvətdir. «Nübuvvət – Məhəmmədin və ondan əvvəlki peyğəmbərlərin peyğəmbərliyinin tanınması» deməkdir (6, 113). Şəmşir də islamın vacib şərtlərinə əməl edən, bu təlimə sadiq qalan ürfan sahibidir.

Dərsimi rəbbül aləmin əzəl uşaqkən verib,
Ərşi-əladan vəhy gəlib, həm nöhrəvaqdan verib.
Üç yüz on üç ayə olan bu pak varaqdan verib,
Dil açanda aşiq oldum ayeyi Qurana mən.

Yüz iyirmi dörd min nəbi, on iki imam gəlib,
Huri-pəri, həm mələklərcəm olub tamam gəlib.
Hicabda Məhəmmədə hatifdən salam gəlib,
Səcdə qılıb baş əymişəm bu hökmü fərmana mən (1, 266).

Bu bəndlərdən aydın görünür ki, Aşıq Şəmşir hələ uşaqlıqdan Quranı, onun surə və ayələrini mənimsəmiş, deməli, şəriəti qəbul etmişdir. Sənətkar bəyan edir ki, islam dininin müqəddəs kitabı «Quran»ı, 124 min peyğəmbəri, 12 imamı, Məhəmməd salavatullahı şəksiz qəbul edir və Tanrının hökmü qarşısında baş əyir. Divaninin sonuncu bəndində Şəmşir ürək ağrısı ilə müqəddəs ziyarəti arzuladığını, lakin gedə bilmədiyini, dünyadan həsrətli gedəcəyini bəyan edir. Çox güman ki, bu sənətkarın yaşadığı sovet dövrünün qoyduğu qadağalar nəticəsində mümkün olmamışdır:

…Şəmşirəm, halalıma haram maya qatmadım,
Bir betərə tələ qurub hiylə kəmənd atmadım.
Bir ziyarət arzuladım təmənnaya çatmadım,
Getdim həsrət intizarlı ey çərxi zamana mən (1, 266).

Şəmşir şeirində Tanrı sevgisi, ilahi eşq çox güclüdür və müşkül işlərinin düzəlməsində məhz ondan imdad diləyir:

And verdim ilahi öz hörmətinə,
Yeganə adına, kəramətinə.
Rəhimsən işimi salma çətinə,
Alı əba Mustafanın eşqinə.

Yüz iyirmi dörd min peyğəmbər tamam,
Yetmiş min məlakə, on iki imam.
Bunların xətrinə ey barı xudam,
Sən şəfa ver Şah-Mərdanın eşqinə (1, 131).

«Alı-əba İslam mədəniyyətində 5 nəfər üçün işlədilən bir addır. Bu 5 nəfər Hz. Məhəmməd, Hz. Əli, Hz Fatimə və onların 2 övladı – İmam Həsən və İmam Hüseyndir». (7, 12). Aşıq yüz iyirmi dörd min peyğəmbərin, yetmiş min məlakənin, on iki imamın, Həzrəti Əlinin müqəddəsliyini nəzmə çəkmiş və onların eşqinə Tanrıdan kömək diləmişdir.

Aşıq Şəmşirin bu mövzuda yazılan əsərlərindən «Pərvərdigar» divaniləri də maraq doğurur. Aşığın bu rədif və qafiyədə üç divanisi vardır. Onlardan birinə nəzər salaq:

And verirəm min bir ismə, pak ada pərvərdigar,
Yetişirsən müşkül gündə imdada pərvərdigar.
Əvvəl-axır bari-baqi rəbbəlaləm laşərik,
Ey yeganə məbud olan xudada pərvərdigar!

Yerin, göyün, ərşin, gürşün böyük sənətkarısan,
Nuri əşrəf xəlq elədin Əhmədi Muxtarı sən.
Qülhüvəllahi əhədsən, həmləmyəzəl tarı sən,
İyirmi min bir hərifdə, ayədə pərvərdigar.

Səndən qeyri yəddi qüdrət, hakim hikmət vardı kim?
Qulluğunda üzüqara bu gün mənəm müttəhim.
Söyləyib çəmin zinub hüləlqəfürur rəhim,
Çox günahdan keçən xaliq üqbada pərvərdigar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həm səxavət, həm kəramət bar ilahi səndə cəm,
Şəmisar günahkarı qoymaz ola bəxti kəm.
Sən Əlinin aşiqisən, mən də sənə aşiqəm,
Nökərəm şahi-Mərdan ustada pərvərdigar (1, 259).

Bu divanisində də Şəmşir min bir isimli Tanrının adına and vermiş, onun müşkül gündə imdada çatan, dünyanın əvvəlinin də, sonunun da şəriksiz və əbədi olan Onun adı ilə bağlı olduğunu tərənnüm etmişdir. Tanrı yerin, göyün, ərşin, gürşün böyük sənətkarı–yaradıcısıdır. Sufizmə görə, Tanrı nur – işıqdır, onun nurundan da bütün aləm, o cümlədən Məhəmməd peyğəmbər xəlq olmuşdur. «Qurani- Kərim»in bir sıra ayələrində də Allah-taala nur, işıq adlandırmışdır. «Allah göylərin və yerin nurudur (Kainatı yaradıb ona nur verən, yer və göy əhlinə haqq yolu göstərən xaliqdir)…O, nur üstündə nurdur». (5, 335). Aşıq Şəmşir də burada nuri-əşrəf deyə Tanrını vəsf etmişdir. Rəbbimizin müqəddəs kəlamları «Qurani-Kərim»in surə və ayələrində öz əksini tapmışdır. «Təsəvvüfi anlayışda Həzrəti Məhəmməd «varlığın ilk nuru, son zühuru»dur. Tanrının nurudur» (3, 151). Bunu da Aşıq Şəmşir poeziya dili ilə əyaniləşdirmişdir. Sənətkar göstərir ki, Tanrıdan başqa qüdrətli hakim yoxdur, o, hakimlər hakimidir və insan axirət günü tək Allahın qarşısında hesabat verməlidir. Sonuncu bənddə Şəmşir Allahı səxavət və kəramət sahibi adlandırmış, Həzrət Əlini Allahın təcəssümü olaraq anmış, özünü isə Əlinin nökəri kimi tərənnüm etmişdir.

Şəriət nöqteyi-nəzərindən Aşıq Şəmşir Allahın varlığını həmişə uca tutmuş, onun adına zikr etmişdir. Çünki haqqa gedən yol ancaq şəriətdən keçir. Şəmşir şeirində də müşahidə etdiyimiz məhəbbət adi məhəbbət deyil, Tanrısına olan böyük məhəbbətdir, insanı Allaha, haqqa doğru səsləyən bir sevgidir. Sufi təliminin irəli sürdüyü ideyalara sadiq qalan Şəmşir də dünyanın gözəlliklərini sevməklə Allahı sevdiyini önə çəkirdi. O göstərmişdir ki, Allahın varlığı, böyüklüyü, ucalığı və gözəlliyi yaratdıqlarında təcəssüm etmişdir.

Şəmşirin dini məzmunlu şeirlərində islamın müqəddəs kitabı «Qurani-Kərim» və onun surələrinin adlarına da təsadüf olunur. Bu silsilədən olan şeirlərdə daha çox «Yasin» surəsinin adına tez-tez rast gəlinir. Q.Vəkilov «XIX əsr aşıq lirikası» monoqrafiyasında haqlı olaraq qeyd edir ki, «bu gözəl, müqəddəs surənin adına təcnislərdə – cinas qafiyələrdə daha çox rast gəlinir» (8, 68). Şəmşirin təcnisləri də bu baxımdan səciyyəvidir. O, «Ya sına məni» təcnisində «Yasin» surəsindən müxtəlif məqamlarda bacarıqla istifadə etmişdir:

Bir xoş günün dəyər min aya dedi,
Həcər qonaq gəldi Minaya dedi.
Biri qafdan, biri lamdan min ayə dedi,
Dərs verdi yetirdi yasinə məni (1, 227).

Bənd «minaya» cinas qafiyəsi üzərində qurulmuşdur. Birinci misrada ilin ayı, ikincidə dağ, üçüncüdə ayə mənasında işlənmişdir. Qaf, lam ərəb əlifbasındakı hərflərin adlarıdır. «Biri qafdan, biri lamdan min ayə» oxuyan aşıq sonda «dərs verdi yetirdi yasinə məni» dedikdə Quranın Yasin surəsini nəzərdə tutmuş, Qurandan dərs alıb bu məqama çatdığını açıqlamışdır.

Yaxud:

Əlifdən dərs aldım lamə yetirdim,
Min ayə oxudum bir ada bağlı.
Cəfa çəkdim ləli mərcan götürdüm,
Hazar dəryasında bir ada bağlı (1, 227).

Bu bənddə də aşıq eyni ustalıqla cinas qafiyələrdən istifadə edərək orijinallıq yaratmağa müvəffəq olmuşdur. Əlifdən dərs alan sənətkar Allahı və onun müqəddəs kitabı «Quran»a işarə etmiş, onun surə və ayələrini dəryadakı ləli mərcana bənzətmişdir.

Aşıq Şəmşirin dini mövzulu şeirlərində Məhəmməd peyğəmbər də böyük sevgi ilə vəsf olunmuşdur. Onun şeirlərində Məhəmməd peyğəmbərin Əhmədi-Muxtar, Səməd, Mustafa, Rəsuli-Əkrəm kimi epitetlərinə sıx-sıx rast gəlinir.

Haqdan gəlməsəydi ayeyi-Quran,
Məhəmməd özündən «A» yazardımı?
Allah kəlamıdı, hər hökmü fərman
Kəlməsi xoşlandı ayə zərdimi? (1, 242)

Məlumdur ki, müqəddəs «Qurani-Kərim» Məhəmməd peyğəmbərə Cəbrayıl vasitəsilə nazil olmuşdu. Quranın hər bir kəlməsi Allah-taalanın hökmü, fərmanıdır və Məhəmməd onu insanlara çatdıran rəsuludur, elçisidir. Aşıq haqlı olaraq göstərir ki, bu dünyada hər şey – Tanrının hökmü ilə yaranmışdır və onun fərmanı ilə Məhəmməd peyğəmbərlik dərəcəsinə yüksəlmişdir.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Şəmşirin dini motivli şeirlərində Həzrəti Əli (ə.) obrazına da rast gəlinir. Aşıq şeirində geniş yayılmış dini inamlardan biri də İmam Əlinin (ə.) ilahiləşdirilməsi ideyası və onun bir xilaskar kimi yenidən yer üzünə dönəcəyinə inam bəslənməsidir. Məlumdur ki, Əlini (ə.) ilahiləşdirənlər Əliallahilər təriqətinə mənsubdurlar və özlərini əhli-həqq adlandırırlar. «Məzhəbin dini ehkamına görə, Allah ilə Əli qırılmaz surətdə bağlı olmuş və olmaqdadır. Əli bütün peyğəmbərlərdə, imamlarda və müqəddəslərdə təcəssüm etmişdir» (4, 56). Bu dini əqidə xüsusilə XX əsrə qədərki aşıq poeziyasında daşa çox aktuallıq kəsb etmişdir. Aşıq Şəmşir də ənənədən gələn bu tarixi faktı öz şeirlərində poetikləşdirmişdir. Onun da bir çox əsərlərində Həzrət Əlinin (ə.) ilahiləşdirilməsi ideyasına rast gəlirik. Bu qəbil nümunələrdə Həzrət Əlinin (ə.) Şahi-Mərdan, ağam, Heydəri-Kərrar, Əsədulla, Yədulla kimi xatırlanması aşığın ona olan sonsuz məhəbbətinin məntiqi yekunudur. Bu əsərlərdə Həzrəti Əli (ə.) obrazının yüksəkdə dayanması, ona xilaskar kimi baxılması, darda qalanların köməyinə çatan kimi təsvir olunması Şəmşirin də ona tarixi şəxsiyyətdən daha çox əfsanəvi, ilahi bir varlıq kimi pərəstiş etdiyini göstərir. Aşıq Şəmşir Həzrət Əlini (ə.) müxtəlif epitetlərlə, təşbehlərlə vəsf etmişdir: Zülfüqar sahibi mərd Mürtəza, sütunu məzhəbim quran Əli, qədr evində başda duran Əli, ağalar ağası ya Şahi-Mərdan, peyğəmbər övladı Əli, ustadlar ustadı Əli və s. Sənətkarın «Əli» rədifli qoşması bu baxımdan çox səciyyəvidir:

Müşküldə qalanlar çağırır səni,
Məzhərül əcayib yanadı, Əli!
Nurun sütun olur asimanlara,
Sənsən Cəbrayılın ustadı, Əli! (1, 179)

Burada aşıq Əlini (ə.) müşküldə qalanların köməyinə çatan xilaskar adlandırmış, hətta Əlini (ə.) Cəbrayılın ustadı kimi vəsf etmişdir. Aşıq bu bənddə qədim bir rəvayəti yada salır ki, hələ Adəm peyğəmbəri yaratmamışdan əvvəl Allah Cəbrayıl adlı böyük mələyi imtahan edir. Ondan soruşur ki, sən kimsən və mən kiməm? Mələyin cavabı düz olmadığına görə Allah tərəfindən onun qanadları yandırılır və bir cəzirədə həbs edilir. Uzun illər bu cəzirədə qanadsız qalan Cəbrayıl nagahan Həzrət Əlinin nurunu görür və başına gələn əhvalatı ona danışır. İmam Əli (ə.) Cəbrailə deyir ki, bu dəfə də Allah-təala səndən bu sualı etsə de ki: «Sən Xaliqsən (yəni xəlq edənsən), mən məxluq (mən xəlq olunan). Sənin adın Cəlildir, mənim adım Cəbrail». Təkrar bu sual Allah tərəfindən Cəbrayıla veriləndə o, Əli (ə.)-ın təlim etdiyi cavabları deyir. Allahın ərşindən səs gəlir ki, əhsən sənə təlim verən ustada  və Cəbrayılın qanadları yenidən özünə qayıdır. Cəbrayıl həmin gündən həmişə fəxr edir ki, Həzrət Əli (ə.) onun ustadıdır.

İki barmağınla Xeybər qopardın,
Düldülü rəfrəflə qoşa çapardın.
Rəsulu Meracda tez-tez tapardın,
Sənin möcüzətin əladı, Əli! (1, 180)

Bu bənddə də dini rəvayətlərin əksi ilə qarşılaşırıq. Burada Həzrət Əli (ə.) misilsiz hünər, möcüzələr sahibi kimi anılmışdır. Dini əfsanələrin birində deyilir ki, o, Xeybər qalasını iki barmağı ilə dağıtmışdır. Aşıq da birinci misrada məhz bu tarixi hadisəyə işarə etmişdir. Bundan başqa Şəmşir Məhəmməd peyğəmbərin Merac səfərinə işarə etmiş, bu səfərdə Həzrət Əlinin (ə.) də iştirak etməsini nəzmə çəkmişdir.

…Şəmşirəm, günahkar agiz nökərəm,
Sən ki, mərd mövlasan nə qəm çəkirəm?
Deyib kəlamını bir kani-kərəm,
Sənə mərd aşiqlər xudadı, Əli! (1, 180)

Sonuncu bənddə Şəmşir özünü Əlinin (ə.) nökəri adlandırmışdır. Sufi təliminə görə «Allah» mənasını verən mövla sözünü Əliyə (ə.) şamil edən Şəmşir onu Allah ilə eyniləşdirmişdir. Bu da qeyd etdiyimiz kimi qatı şiə təriqəti olan Əliallahilərin başlıca ideyasıdır.

Aşığın bir çox təcnislərində dini motivlər daha qabarıq öz ifadəsini tapmışdır. Bunların çoxunda həm də Əli (ə.) obrazının təsvirinə rast gəlirik:

Bir ismi Yədulla, ey bəni imran,
Bu gündə kömək dur sən Heydər mənə.
Davasız dərdim var, ya şahi-Mərdan,
Əlin əsirgəmə sən Heydər mənə (1, 221).

Yaxud:

Dəsti Yədullahın nökəriyəm mən,
Ya çək imtahana, ya sına məni.
Umudum, pənahım, kömək, imdadım,
Qoymaz əyilməyə, ya sına məni (1, 227).

Yədulla, Heydər, şahi-Mərdan Həzrət Əliyə (ə.) verilən adlardır. Yədulla –Allahın əli deməkdir. Əli (ə.) onun pənahıdır. «Həzrəti Əlinin isimlərindən birisi Heydərdir. Aslan anlamındadır. Rəvayətə görə, Həzrəti



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Fatimə röyasında Həzrəti Əlini aslan surətində görmüş və Əliyə bu ismi vermişdir» (3, 169). Göründüyü kimi, Şəmşir çətin gündə Əlini (ə.) köməyə çağırır, onu ümidi, pənahı hesab edir, davasız dərdinə məhz ondan dərman diləyir. Aşıq burada Əliyə (ə.) verilən bu adlarla müraciət edərək köməyinə çağırır.

Gördüyümüz kimi, Aşıq Şəmşir yaradıcılığında Həzrət Əli (ə.) obrazının yüksək poetik məqamda təsviri ilə qarşılaşırıq. Belə ki, aşıq hətta məzarda da, axirət dünyasında da ustadının Əli (ə.) olmasını arzulayır:

Şəmşir, qoy bələdçin bir alim olsun,
Mən ondan dərsimi bir alım, olsun.
Məzarda ustadım bir Əlim olsun,
Asan sual versin bir sin içində (1, 246).

Sonuncu misradakı «sin» qəbir mənasındadır. Diqqət etdikdə burada Allaha aid nişanların, vəzifələrin Həzrət Əliyə (ə.) şamil edilməsi ilə qarşılaşırıq, yəni aşıq qiyamət günü Allah qarşısında deyil, Əli (ə.) qarşısında sorğu-sual edilməsini arzulayır.

Şəmşir dini əsərlərinin əksəriyyətində ilahi eşqini Həzrət Əli (ə.) adına kökləyib. Şəmşir üçün elmin ən yüksək zirvəsi Həzrət Əlidir (ə.), ona dərs verən də, ustadı da Həzrət Əlidir (ə.). Təsadüfi deyildir ki, Məhəmməd peyğəmbər də öz müqəddəs kəlamlarından birində göstərir ki, «Mən elmin şəhəri, Əli isə onun qapısıdır» (9, 7).

Yetişdi yerinə arzum, murazım,
Görmüşəm yuxumda ağam Əlini.
O mənə dərs verən kamil ustadım,
Kəsməsin üstümdən ağam əlini (1, 242).

Təcnisin sonuncu bəndində Şəmşir təlqin etməyə çalışır ki, haqq da, peyğəmbər də elə Əlinin (ə.) özü imiş:

Şəmşir mim yaz, can, dal, ismə hey dilim,
O gətirmiş bir almadan hey dilim.
Əhmədi Muxtarı çağır hey dilim,
Məhəmməd Mustafa ağam Əlini (1, 244).

Əvvəldə də qeyd etdiyimiz kimi, Əlinin (ə.) ilahiləşdirilməsi Ələvilər təriqətinin başlıca ideyasıdır. «Ələvilər Əlini Məhəmməd peyğəmbərdən üstün hesab edirlər… Əliallahilər Əlini bir allah, daimi «həqiqətin» (haqqın) təcəssümü kimi təsəvvür edirlər» (2, 88). Bu baxımdan, Həzrət Əlinin (ə.) Məhəmməd Mustafa adlandırılması təsadüfi deyildir.

Həzrət Əli (ə.) haqqında olan hədislərdən məlumdur ki, o, Məhəmməd peyğəmbəri (s.) Merac səfərində müşayiət etmişdir. Dini hədislərdən birində deyilir ki, peyğəmbər Tanrıya süfrə başında tək olduğunu bildirdikdə Allahdan tək olmadığını, yoldaşlı olduğunu eşidir. Lakin Məhəmməd peyğəmbər süfrə başında özündən başqa heç kimi görmür, ancaq hiss edir ki, plovun o biri tərəfindən azalır. Meracda olarkən peyğəmbərə behişt alması da verilir. Məhəmməd peyğəmbər (s.) almanı Həzrət Əliyə (ə.) aparmaq üçün yarı kəsib süfrəyə qoyur və görür ki, alma yoxdur. Məhəmməd peyğəmbər (s.) bu haqda Həzrət Əliyə (ə.) danışanda Əli yarı kəsilmiş behişt almasını ona göstərir. Aşıq Şəmşir də bu dini hədisi şeirlərində belə gerçəkləşdirmişdir:

Rəsulu Merac evinə
İlahi çağırdı qonaq.
Riqabında kavi rəf-rəf,
Minmişdi ildırım Biraq.
Barilahi əmr elədi
Bəzəndi ərşi nöhrəvaq.
Məhəmmədlə birinc yedi,
Merac evində təmtəraq.
Salam verib alma alıb
Gör necə mövladı Əli (1, 280).

Yaxud:

Ya Əli; Səndən ibarət: doğru məzhəb, doğru din,
Yaradıcı bir Allahdı, Cəbrailə sən dedin.
Rəsulu Əkrəm ilə Meracda birinc yedin,
Canımı qurban demişəm ol Şahı-Mərdana mən (1, 266).

Bilindiyi kimi, Həzrət Əli (ə.) daha çox göy atlı, göy əmmaməli, göy çuxalı təsvir olunur. Bunu Aşıq Şəmşir təcnisində belə əyaniləşdirmişdir:

Şəmşir, baxtın göy çuxalı, ağ ətək,
Bir gün olar bükülərsən ağa tək.
Hanı, kimdi mərd ağası ağatək,
Canımı yolunda var sada qaldı (1, 245).

Burada «ağ ətək» sözündən cinas qafiyə yaratmaq üçün bədii vasitə kimi istifadə olunmuşdur. Birinci misrada paltarın ətəyi, ikincidə ağ parça, üçüncüdə ağa mənasında işlənmişdir. Deməli, göy çuxalı, ağ ətəkli, mərd ağatək vəsf olunan Həzrət Əlidir (ə.).


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Göründüyü kimi, Həzrət Əlinin (ə.) mədhi Şəmşir şeirində mühüm yer tutur. Bununla yanaşı, sənətkar digər müqəddəsləri – Həzrəti Fatimə, İmam Həsən, İmam Hüseyn, müqəddəs İmam Rza, 12-ci imam Sahib əz-Zamanın və başqalarının da adlarını sadalamış, şeirlərində dönə-dönə tərənnüm etmişdir.

Aşıq Şəmşirin dini motivli şeirlərinin hamısını bu mövzuda olan nadir sənət inciləri adlandırmaq olar. Şeirlərindən də görünür ki, sovet dövrünün sərt qayda-qanunlarına baxmayaraq Aşıq Şəmşir həmişə Allahın adını uca tutmuş, adına zikr etmiş, heç vaxt onun varlığını danmamışdır. Aşıq Şəmşir islam dininə, onun ehkamlarına, qayda-qanunlarına, peyğəmbərlərə, imamlara rəğbət bəsləmişdir. Bu rəğbət hissi də onun dini şeirlərində öz qabarıq təzahürünü tapmışdır. Sənətkarın dini dünyagörüşünü anlamaq üçün onun bu qəbil şeirlərinin məzmununa fikir vermək lazımdır. Çünki sadə görünən əsərlərdə dərin hikmət gizlənmişdir. Dini şeirləri Aşıq Şəmşirin müqəddəs «Qurani-Kərim»i, onun surə və ayələrini, Quran qissələrini, dini rəvayət və əfsanələri, hədisləri mükəmməl bildiyini göstərir. Aşıq Şəmşirin dini şeirləri təsəvvüf ədəbiyyatının, ürfani poeziyanın bir nümunəsi olaraq özünəqədərki fəlsəfi dünyagörüşün davamıdır.

**ƏDƏBİYYAT**

1. Aşıq Şəmşir. Öyüdlər (torlayıb tərtib edənlər: Qurbanov Q., Quliyev F.). Bakı, Ozan, 1996.
2. Belyayev Müsəlman təriqətləri. Bakı, 1958.
3. Çetin İ. Türk edebiyatında Hz. Ali cengnameleri. Ankara, T.C.Kültür Bakanlığı, 1997.
4. İslam. Qısa məlumat kitabı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1985.
5. Qurani Kərim. Bakı, Azərnəşr, 1992.
6. Miskin Abdal (toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi: İsmayılov H.). Bakı, Səda, 2001.
7. Polad Ə. Həzrəti Əli. Bakı, 2004.
8. Vəkilov Q. XIX əsr aşıq lirikası. Bakı, Maarif, 1993.
9. 101 hədis (tərtib və tərcümə edəni: Qazi Hacı Sabir Həsənli). Bakı, Gənclik, 1990.

**Религиозные мотивы в творчестве Ашуга Шамшира**

Статья посвящена анализу трудов религиозного содержания выдающегося мастера Ашуга Шамшира. В его поэзии особое место занимают такие основное моменты исламской религии, как Коран, Мерадж, Хазрат Али, из пророков Мухаммед, Муса, Ибрагим и традиционные темы, связанные с другими святыми. На основе примеров показано, что Ашуг Шамшир в совершенстве знал священный Коран, его суры и аяты, религиозные предания и легенды, хадисы. Эта статья полностью охватывает лейтмотив стихотворений религиозного содержания Ашуга Шамшира.

**THE RELIGIONS MOTIVES IN THE ASHUQ SHAMSHIR'S CREATION**

This article is dedicated to analyse great skilful craftsman Ashuq Shamshir's religions poems. His poetry consist of the general themes of the islam religion: Quran, Merach, Hz.Ali, off the prophets Muhammed, Musa, Ibrahim and about other saints. The models are shown that Ashuq Shamshir had perfectly knew saint Gurani-Kerim, its sures and ayets, religions legends and hearsays, hadises and had orqanized the leytmotive of the religions poems.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «FÜYUZAT» JURNALININ LEKSİKASINDA ÜMUMTÜRK DİLİ VAHİDLƏRİ

***Fil.e.n., dos. Sədaqət Həsənova***
***Naxçıvan Dövlət Universiteti***
***Azərbaycan***

XX yüzilin əvvəlində Azərbaycanda türk dillərinin budaqlanması dövründən əvvələ aid olan leksik vahidlər «Füyuzat» jurnalı vasitəsilə yenidən ədəbi dilimizə gətirilmişdir. Bu məsələ hamı tərəfindən eyni səviyyədə qarşılanmamış, hətta təəccüb və narazılıqlara səbəb olmuşdur. Lakin buna baxmayaraq ədəbi dildə özünü göstərən ümumtürk dili vahidlərinə ziyalılar arasında müsbət münasibət də yaranmış, həmin dil materiallarının ömrü qısa olmamış, onlardan XX yüzilin ikinci yarısına qədər müxtəlif ədəbi-bədii, publisistik əsərlərdə, hətta Azərbaycan xalq Cumhuriyyətinin parlament sənədlərinin dilində geniş şəkildə istifadə edilmişdir.

Ümumtürk dili vahidləri arasında daha çox fellər diqqəti çəkir. «Füyuzat» jurnalının leksikasında fellərin xüsusi leksik mövqeyi vardır. Jurnalın dilində işlənən fellərin əksəriyyəti indi də dilimizdə ümumişləkdir. Fellər işlənmə dairəsinin genişliyi və qrammatik rolunun qabarıqlığı ilə səciyyəvidir. Bundan başqa, fellər polisemik imkan, omonimlik xüsusiyyəti, sinonimik cərgədə yeri məsələlərinə görə də fərqlidir. Jurnalın lüğət tərkibində bu gün üçün arxaikləşən bəzi sözlər fel zonasına aiddir. Bu baxımdan, «yapmaq» feli səciyyəvi dil faktlarındandır. Bu felin türk dillərində işlənmə tarixi qədimdir o, ümumtürk elementlərindəndir. Bir neçə mənada işlənən bu söz «tikmək», «düzəltmək», «etmək» və s. hərəkət anlayışlarını ifadə etmişdir:

Ya bən o vaxta qədər nə *yapacağam*? (1,272).

«Yapmaq» feli indi də türk dilində zəngin semantikasını mühafizə edərək iyirmi iki mənada işlənir. Bizim türkcəmizdə isə artıq arxaikləşmişdir. Lakin canlı danışıq dilində «çörək yapmaq» şəklində işlənməkdədir.

Çağdaş dilimiz üçün normativliyini itirmiş fellərdən biri də «qılınmaq» leksemidir. Bu sözün də qədim türkcənin ümumi vahidi olması şübhəsizdir. Aktiv leksikadan sayılmasa da, jurnalın dilində həmin fellə rastlaşırıq.

Cümlədə kəmiyyətcə seçilən (ona yaxın) fel məzmunlu sözlər içərisində iki dəfə «yapmaq» (müxtəlif formalarda) və bir dəfə «qılınmaq» feli işlənmişdir. Onlar arxaik məzmunu ilə fərqlənir.

Jurnalın dilində «qılmaq» feli həm əsas, həm də köməkçi fel kimi işlənmişdir. O, türk dilində köməkçi fel kimi indi də işlək olsa da, dilimizdə bu funksiyasını itirmiş, yalnız «namaz qılmaq» tərkibi felinin komponenti kimi qalmışdır.

Türk dillərinin budaqlanma mərhələsindən əvvəl və bir müddət sonra ümumi dil vahidi kimi işlənən «bulunmaq» feli, yəqin ki, milliləşmənin güclənməsi prosesinin təsiri ilə dilimizdəki mövqeyini tərk etmişdir. Lakin XX yüzilin əvvəlində yazılı nitq nümunələrində, o cümlədən, «Füyuzat» jurnalında onun öz mövqeyini qoruduğunun şahidi oluruq. «Bulunmaq» müxtəlif morfoloji dəyişikliklə jurnalın dilində bir sıra məqamlarda işlənmişdir:

Digər tərəfdən hökumətin təərrüzündən məsun olub bəstə girmək üçün də icabında gözəl yerlər *bulunuyordu* (1,100).

«Bulunmaq» feli jurnalın aktiv leksika faktlarındandır. O, çağdaş türk dilində də işlənmə tezliyinə malik olaraq semantikasının zənginliyi (ondan çox mənası var) ilə seçilir və türk dilinin söz yaradıcılığında fəal iştirak edir.

«Füyuzat» jurnalının lüğət tərkibində dildə tamamilə köhnəlmiş leksik arxaizmlərdən başqa, çağdaş ədəbi dilimizdə, fonetik dəyişmə ilə işlənən sözlərə də rast gəlirik ki, onlardan biri «qoğalamaq» felidir:

Pəncərədən baxıb gördüm ki, bir neçə adam qaçıyor, polis zəbtiyyələri də bunları *qoğalayaraq* tutmaq istiyorlar, fəqət tutamadılar, çünki qaçanlar bir xanəyə girib gizləndilər (1,130).

Bu söz jurnalın dilində «*qovalamaq*» mənasında işlənmişdir. Hazırda türk ədəbi dilində həmin söz «koğalamak» və «kovalamak» şəklində eyni mənada istifadə edilən leksik vahid kimi lüğətlərdə qeyd edilir.

Maraqlı leksemlərdən biri də «varmaq» sözüdür. Bu fel semantik arxaikləşmə prosesinin təsirinə məruz qalıb. Jurnalın dilində isə işlənmə tezliyinə malikdir:

*Varsun* o bəldə nidayi-haqqı eşitməsin, nə bə s var? (1,210).

Demək sən Nuri əfəndiyə *varmıyacaqsan*?.. (1,264).

*Varub* baxayımmı, annə? (1,271).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Heç olmazsa şu geniş ocaq başına *varub* içiniz (1,288).

Lakin biçarə ciftləri bir taqım təhlükəli masallarla qorxudaraq hicrətlərindən istifadəyə qalxacaq dərəcə xainlərin də müsəlmanlar içində bulunduğunu söyləməgə dilimiz *varmıyor*!.. (1,302).

Bu fel türk mənşəli qohum dil elementlərindəndir və hazırda həm fonetik, həm də leksik-qrammatik mühafizəkarlığını qoruyaraq türk dilində fəal mövqedədir. Çağdaş türkdilli lüğətlərdə bu felin ona yaxın mənası göstərilir. Bizim dilimizdə isə «fərqinə varmaq» frazeoloji vahidinin tərkibində qalmışdır. Dilimiz üçün arxaikləşmiş vahidlərin türk dilində və Azərbaycan dilinin dialekt və şivələrində qorunması regional milliləşmənin güclənməsi ilə müşayiət olunan inkişaf qanunauyğunluğunun nəticəsi hesab edilməlidir.

Tarixi-linqvistik cəhətdən təhliləyarar vahidlərdən biri kimi «uğraşmaq» feli maraqlıdır. Uzun yüzillər boyu ümumtürk leksikasının aktiv zonasına daxil olan bu fel milli təsirə məruz qalmış və nəticədə get-gedə işlənmə dairəsi daralmış, dilimizi tərk etmişdir. Buna baxmayaraq tarixi və çağdaş türk leksikasının işlək vahidi olaraq diqqəti çəkir. Jurnalın dilində «uğraşmaq» feli öz mövqeyi olan dil faktlarındandır:

Fəqət bilirəm ki, bunlarla *uğraşacaq* zamanımız yoxdur (1,152).

Jurnalın dilində bu fel çağdaş türk dilində olduğu kimi «çalışmaq», «məşğul olmaq», «davranmaq», «savaşmaq» kimi məna genişlənməsi ilə işlənmişdir. Dilimiz üçün mənası daralan bu fel çağdaş türk dilində «uğraştırma», «uğraştırmak», «uğratma», «uğratmak» sözlərində müxtəlif morfoloji dəyişmələrlə aktiv mövqe tutur. Azərbaycan dilində isə «müvəffəqiyyətsizliyə uğramaq» ifadəsinin komponenti olaraq məna fərqi ilə diqqəti cəlb edir.

Minilliklərin milli fikri ifadəsi olan fellərin içərisində *dəlirmək* sözünü də unutmaq olmaz:

Sən *dəlirdinmi*? (1,263)

Sadədən mürəkkəbə doğru inkişaf edən bu fel morfoloji yolla sözdüzəltmə zonasından uzaqlaşaraq sintaktik yolun «karvanı»na çevrilmişdir. Yəqin ki, həmin fel həm isim, həm də sifət kimi işlənən «dəli» sözünün «r» morfoloji əlamətini qəbul edərək düzəltmə söz kimi türk leksikasının vahidləri sırasına daxil olmuşdur. Adlardan düzələn «dəlirmək» feli inkişaf nəticəsində «dəli olmaq» (tərkibi fel) şəklinə düşmüşdür.

Leksik-qrammatik istiqamətdə müqayisə yolu ilə aparılan tədqiqatlar zamanı qarşıya çıxan leksik vahidlərdən biri də «dürülmək» sözüdür:

Halbuki Avropada bu gün mağazalarda əşya *dürülən* kağızlar da məxsus emal olunduğundan o kibi biçarə əsərlərin sahiblərinin isimlərilə bərabər nərələrə gedəcəgini təyin etmək güc degildir (1,361).

«Burulmaq», «bükmək», «bükülmək» mənasında işlənən bu leksik vahid dilimizdə arxaikləşmənin təsirinə məruz qalmış, lakin türk ədəbi dilində indi də işləkliyini mühafizə etmişdir. Güman ki, dilimizdəki «dürmək» isminin əcdadı həmin feldir. Türk dilində «dürmə» həm yemək növü olaraq isim kimi, həm də məsdər kimi işlənir. Azərbaycan dilində tarixi qədim olan bu söz «Cürtdanın nağılı»nda «yağ dürməyi» söz birləşməsinin komponenti kimi, canlı danışıqda da həm təklikdə isim kimi, həm də birləşmə daxilində işlənsə də fellik funksiyasını itirmişdir. «Burulmaq», «burmaq», «bükmək», «bükülü», «bükülmə», «büküm» və s. kimi geniş semantikaya malik olan bu söz çağdaş Azərbaycan dilində hərəkət mənasında arxaikləşsə də, bu mənada türk dilinin aktiv lüğət tərkibinə daxildir.

«Füyuzat» jurnalının dili üçün xarakterik olub bu gün üçün dilimizi tərk edən, lakin türk dilində və Azərbaycan dili dialekt və şivələrində yaşayan və ya dialekt və şivələrdən də çıxan fellərin arxaiklşəmə dərəcəsi fərqlidir. Bu baxımdan, *aramaq* feli maraqlıdır. Bu fel tamamilə köhnəlməyib, arxaikləşmə mərhələsində olaraq passiv leksikaya keçməkdədir. O, «Füyuzat» jurnalının dilində öz semantikasını qoruyaraq «axtarmaq» mənasında işlənmişdir. Lakin *qullanmaq* feli dilimizin indiki mərhələsi üçün arxaik plana keçmişdir:

Bunların da başlıca əsbabının birincisi yenə *qullandıqları* lisanın Rusiyanın hər tərəfində təmamən anlaşılmamasından rəğbəti-ümumiyyəyi qazanamıyub müştərisinin azlığı ilə idarədən aciz qalmalarından ilərü gəldigi anlaşılıyor (1,143).

«Qullanmaq» sözü türk dilinin milli vahidlərindəndir. Azərbaycan dilində kənar müdaxiləyə məruz qalmış, semantik mənası birinci komponenti ərəb sözü olan «istifadə etmək» tərkibi felinə keçmişdir. Həmin fel türk dilində əsas mənalarını (istifadə etmək, faydalanmaq, yararlanmaq) mühafizə edərək ona qədər semantik çalarda işlənir. Azərbaycan dilində alınmaların müqaviməti ilə mövqeyini tərk etmişdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ümumtürk leksik vahidi kimi qədim tarixə malik olan «*bəkləmək*» feli də «Füyuzat» jurnalının dilində işlək olmuşdur. Yəqin ki, bu söz morfoloji yolla düzəlmiş leksik vahidlərdəndir. Sözün kökü (bək) əsasında «bəkçi» isminin yaranması bu fikri təsdiq edir. Jurnalın dilində «bəkləmək» feli «ummaq» , «arzulamaq» mənasında işlənmişdir:

Bu babda lazım gələn tədabiri-mümkünəyi ərbabi-maarifin qeyrət hümmətlərindən *bəkləriz*.

«Bəkləmək» felinin məna meydanı genişdir, o, «gözləmək», «qorumaq», «axtarmaq» və s. mənalarında türk dilinin leksikasına daxil olan vahidlərdəndir. Türk dilində ilkin forma və məzmunda işləkliyini qorusa da, dilimizin leksikasını tərk etmişdir.

Linqvistik tədqiqatın məqsədi baxımından *saçmalamaq* feli də maraqlıdır. Müxtəlif şəkilçilərlə işlənən bu felin ilkin forması güman ki, «dağıtmaq», «tökmək», «yaymaq» mənasında olan «saçmaq» felidir. Onun əsasında oxşar semantikalara malik yeni sözlər yaranmışdır. Əsas mənası «lazımsız sözlər söyləmək» olan bu feldən «saçmalıq» ismi, «saçma sapan» feli sifəti əmələ gəlmişdir. «Füyuzat» jurnalının dilində leksik məzmununda semantik izini saxlamışdır:

Canım, bən yenə *saçmalıyorum* (1,319).

Həmin fel XX yüzilin ikinci yarısı üçün tamamilə arxaikləşmiş, türk dilində isə işləkliyini saxlamışdır. Tarixi çox qədimlərə gedən *irmək* feli jurnalın leksikasında aktiv və passiv leksika arasında orta mövqedədir. Bu fel ümumtürk dilinin faktı olaraq budaqlanma mərhələsindən sonra da ümumi leksik vahid kimi aktiv olmuş, XX yüzilin əvvəlindən başlayaraq istifadə dairəsi daralmağa başlamışdır. «Füyuzat» jurnalında «irmək» felindən bir neçə yerdə istifadə olunmuşdur. Həmin feli müxtəlif formalarda, yəni morfoloji əlamətlər baxı-mından dəyişik şəkillərdə görürük:

Şübhə yoxdur ki, əvam olan külliyyət, ya əksəriyyət öz mənfəətini almış olsaydı, mübarizə qayət asanlıqla hüsni-əncama *irib* onun mənafeyi intixabatın nəticəsində gözəlcə təmin edilmiş olurdu (1,36).

«İrmək» (ermək) qədim abidələrdə «çatmaq», «yetmək», «olmaq», «qovuşmaq» mənalarında işlənmişdir. Dilimizin hazırkı vəziyyəti üçün bütün variantları arxaikləşsə də, klassik dil nümunələrində xeyli fəal olmuşdur. «Oğuznamə» (tərtib edəni S.Əlizadə) və «Kitabi-Dədə Qorqud» dastanlarının dilində «olmaq» «çatmaq» mənasında işlənmişdir. Prof. H.Mirzəzadə bu felin çağdaş ədəbi dilimizdə işlənən «idi»nin qədim şəkli olduğunu göstərir. O, erdi-idi; ermiş-imiş variantlarında birinci tərəfi qədim, ikinci tərəfi isə çağdaş forma hesab edir. Belə olduqda həmin cərgədə «isə» kənarda qalır. Fikrimizcə, bu fikirlə razılaşmaq çətindir. Hazırda türk ədəbi dilində tam müstəqil fel kimi işlənən «ermek» variantı da buna əsas verir. Tarixən semantikasını bütün gücü ilə qoruyan «ermek» feli indi də ana türkcədə «çatmaq», «qovuşmaq» mənalarında fəal leksikaya daxildir. «İdi» və «imiş» (H.Mirzəzadədə «isə» bu sırada yada düşmür) aktiv və əsas felin «xələfi» kimi şübhəli görünür. Fellərdə mürəkkəb-likdən sadəliyə doğru gedən prosesə əsaslanaraq *irmək//ermək* felinin «idi»nin əcdadı olduğunu demək üçün ən azı çağdaş türkdilli lüğətlərdə fəal mövqeyə malik olan «ermek» leksemini «görməmək» lazımdır. Fakt isə danılmazdır. «İdi»yə və onunla bir sırada olan vahidlərə gəlincə, məsələni aydınlaşdırmaq zərurəti ortaya çıxır. Bu gün artıq şəkilçiləşmiş, daha dəqiq desək, əsas fellə şə-kilçi fel arasında tərəddüddə olub daha çox ikinciyə meyl edən «idi», «imiş», «isə» şəkilçi – fel funksiyasındadır.

«Füyuzat» jurnalında dil vahidlərinin təhlili bir daha təsdiq edir ki, arxaikləşmə müəyyən zaman daxilində dilin leksik-qrammatik strukturunda baş verən qanunauyğunluqdur, təbii bir dil hadisəsidir. Jurnalın dilində fel məzmunlu sözlər kəmiyyət və mənasına görə daha zəngindir. Türk elementi baxımından mühafizəkarlığını uzun müddət güclü şəkildə qoruyaraq son dərəcə zəif dəyişməyə məruz qalan və ya heç dəyişməyən hal-hərəkət anlayışı bildirən sözlərin bir qismi bəzi ayrı-ayrı türksoylu dilləri (məsələn, Azərbaycan dilini) tərk etsə də, ümumi ana türkcənin əsas leksik vahidləri kimi bu gün də canlıdır.

«Füyuzat» jurnalının dilində günümüz üçün arxaizm sayılan sözlər öz mövqeyini müxtəlif təsir və səbəblərdən tərk etsə də, onların bir qrupu, semantikasını başqa leksemlərdə qoruya bilmişdir. Jurnalın dilində bütün dövrlərin yazısında işlənərək indi də sabitliyini saxlamış leksik-qrammatik vahidlər türk dilinin möhkəmliyini göstərən faktlardır. Onlar bütün dövrlərdə olduğu kimi, indi də ədəbi dilin fəal lüğət vahidləri kimi forma və məzmununu mühafizə edir («ermək//irmək» kimi).

«Füyuzat» jurnalında dilimizin leksik vahidləri içərisində fərqli olan *ısırmaq* felinə də rast gəlirik:

Üləmamız, ürəfamız, doktorlarımız, hüquqşünaslarımız, advokatlarımız və müəllimlərimizdən mütəşəkkil bir ictimada bu əsəfəngiz halı görüncə parmaqlarımı *ısırmışdım* (1,190).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Jurnalın dilində «dişləmək» mənasında işlənən bu felin türk dillərində həmin mənadan başqa, «sıxmaq», «qoparmaq», «dalamaq», «qaşındırmaq» kimi geniş semantik imkanlarını görürük. «Isırma» çağdaş dilimiz üçün tamamilə leksik arxaizmdir.

«Füyuzat» jurnalının dilində işlənmiş *kəsdirmək* feli artıq semantik arxaizmlər zonasına keçmişdir. Belə ki, o, formasını-fonetik tərkibini saxlayaraq mənasında uzaqlaşmışdır:

Zatən, burasını özüm də bir türlü *kəsdirəmiyorum* (1,266).

Jurnalın dilində bu söz «başa düşmək» frazeoloji birləşməsinin inkar formasının sinonimi kimi işlənmişdir. Çağdaş Azərbaycan dilində «kəsdirmək» feli tamamilə başqa anlam daşıyır. Bu söz əvvəlki semantikasını yalnız «ağlım kəsmir», «ağlın nə kəsir?» frazeoloji birləşmələrində qoruyub saxlamışdır.

Jurnalın dilində sözü gedən fellərdən biri də *qonuşmaq* leksik vahididir:

Bu halda yekdigəri ilə lisani-ümumi halına girilən rusca ilə *qonuşuyorlar* (1,190).

Bu nitq feli də artıq dilimizdə arxaik plana keçmişdir.

Qeyd edilən fellərdən başqa, jurnalın çoxsaylı leksemlərdən ibarət olan fel zonasında qədim «Oğuznamə»lərdən XX yüzilin əvvəlinə, bəzən ikinci yarısına , hətta dövrümüzə qədər mənasını qoruyub saxlaya bilən leksik vahidlər var. Bu, fellərin milli mühafizəkarlıqda çox möhkəm olduğunu təsdiq edir. Bu baxım-dan, aşağıdakı fellər səciyyəvidir:

itirərək dilimizdə yenə də işlənməkdədir.

*Şaşalamaq: Şaşalama*, validə! Bu da Petronun lətifələrindən biridir (1,154).

Bu fel «çaşmaq», «heyrətlənmək», «özünü itirmək» mənasında işlənmiş və dilimiz üçün tamamilə arxaikləşmişdir. Jurnalın dilində həmin mənada «şaşırmaq» sözü də işlənmişdir: Binaənəleyh millət də yolunu *şaşırmış* bir karvan kibi *şaşıb* qalmışdır (1,221).

*Əgşitmək:* Bən sənin qocan deyilmiyəm, nə üçün bənim qarşımda cirayını (çöhrə) *əgşidiyorsan*» (1,158). Bu fel dilimizdə milli sinonim variantında (turşut-maq) öz əksini tapır.

*Donatmaq:* Əlli-altmış sənə əvvəlki türk-tatar adəti üzrə *donadılmış* bir otada ona gərib ixtiyarlar mindərlər üzərində bağdaş oturaraq dərin-dərin düşünüyorlar (1,217).

Ümumtürk leksik vahidi kimi qədim «Oğuznamə»lərin də dilində işlək olmuş bu felin kökü «don» ismi ilə bağlıdır (paltar mənasında) «Donatmaq» ge-yindirmək deməkdir. Lakin «Füyuzat»ın dil faktları göstərir ki, bu felin semantikası məhdud deyil. Belə ki, yuxarıdakı nümunədə o, «bəzədilmək» mənasında olan feli-sifət kimi işlənmişdir.

*Bəlləmək:* Bu gün isə bir cəmaəti-islamiyyə arasında bulunuyorum, *bəllədim* (1,218).

«Bəllək» türk dillərində «ağıl», «hafizə» anlamında işlənən ümumtürk vahididir. Bu söz əsasında yaranan «bəlləmək» feli «sanmaq», «dərk etmək», «müəyyənləşdirmək», mənasında «Füyuzat» jurnalının dilində işlənmişdir.

*Aşamaq:* Yoxsa bizim kibi *aşamış,* yaşını yaşamış, saçı-saqqalı ağarmış qartlardan nə bəklənə bilir (1,220).

Bizə qalsaydı bu gün içlərində yaşadığımız xanələri belə satıb *aşayacaq* idik (1,189).

M.Kaşqarlının «Divani-lüğət-it türk» əsərində «aşa»- yemək, «aşamaq» -aş yemək kimi qeyd olunmuşdur (2,IV c., 42).

*Mağraşmaq:* Babaları övladından, övladı anasından mağraşa-mağraşa ayrılıyor idi (1,220).

«Mağraşmaq» sözünə Mahmud Kaşqarlının «Divanında rast gəlmədik. Tədqiqat nəticəsində onun Qərbi Azərbaycandan olan vətəndaşlarımızın dilində hələ də işlənən «mağırmaq» feli ilə eyni kökdən olması müəyyənləşdirildi. Sözün mənası «bir yerə yığışmaq», «dəstə- dəstə» deməkdir.

Bu fel XX yüzilin əvvəlində Azərbaycanda, fikrimizcə, yalnız «Füyuzat»ın dilindədir. «Türk lehceleri sözlüğü (6) və «Türkçe sözlük»də (5) də belə bir söz qeydə alınmayıb. Bizcə, krım türklərinin lüğətinə daxildir (H.S.Ayvazovun «Nədən bu hala qaldıq» məqaləsindəndir). Fikrimizcə, dilimizdəki «mağar» sözü həmin leksik vahidlə bağlıdır.

*Qozğamaq:* Keçmişlərimizi anub da bənim dərdlərimi *qozğamayınız* (1,220).

Fikrimizcə, bu söz canlı danışıqdan keçib. Çünki ədəbi dil lüğətlərində belə bir söz verilməyib. Naxçıvanda el arasında işlənən «qavzamaq» (qaldırmaq) sözü bu fikri təsdiq edə bilər.

*Keçinmək:* Demək ki, cəmiyyəti-bəşəriyyə öylə bir surətdə təşəkkül etmişdir ki, bir qisim xalq öz məsailəri ilə həm özlərini, həm də özgələrini bəslədikləri halda, digər bir qisim vəsaiti-istehsala malikiyyət üzündən başqalarının məsaisi sayəsində *keçinməkdədirlər* (1,243).

Ümumi türk leksikasına daxil olan bu fel «dolanmaq» (Azərbaycan), «gün görmək», (başqırd), «ömür sürmək» (kazak), «yaşamaq» ( tiricilik ötkörü) (qır-ğız), «gün keçirmək» (tirikçilik kılmak)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(özbək, uyğur), «güzəran görmək» (türkmən) mənalarında işlənir. Cənubi Azərbaycanda işlək sözdür, dilimizdə canlı danışıqdadır.

*Sasmaq*- Balıq başdan sasır (1,255)...

M.Kaşqarlı «Divan»ında da həmin leksem eyni mənada işlənmişdir: sasmaq –kokmak (2, III c., s.,265). Söz kökü ilə başlanan sözlər ümumtürk vahidləri içərisində müəyyən mövqeyə malikdir. O, fel kimi «iylənmək» mənasında işlən-mişdir. Türk lüğətlərində «yemək» mənasında «sasılıq» asemantik ismi də var.

*Kəkərmək:* İxtiyarların bəzisi dırnaqları ilə dişlərini qarışdırır, bəzisi də *kəkərərək* «əstəğfürullah» deyir (1,349).

«Kəkərmək» sözünə türkdilli lüğətlərdə rast gəlmədik. Lakin M.Kaşqarlı «Divan»ında «öc», «kin», «əsəb» mənalarında «kek» ismi qeyd olunmuşdur. Fikrimizcə, «kəkərmək» feli həmin isimdən düzəlmiş leksik vahiddir. Yəqin ki, dilimizdə işlənən «kükrəmək» feli də «kəkərmək» felinin deformasiyaya uğramış formasıdır.

Tam köhnəlmə prosesinin təzahürü olan leksik arxaizmlər (dilimizin yazı formasında heç işlənməyən sözlər) isə işləklikdən düşsə də, dialekt və şivələrdən üzülməyib və ya başqa türkcələrdən çıxmayıb. Bu əlamət və mühafizəkarlıq, xüsusilə də, hərəkət anlayışı bildirən leksik vahidlərə aiddir. Hazırda oğuz qrupuna daxil olan digər türk dillərində onların fəal işlənməsi bu fikri təsdiq edir. Onlar yazılı ədəbi dildə müəyyən zaman daxilində mövqeyini tərk etsə də, yaşamını tamamilə itirməmiş, ya müxtəlif dəyişmələrlə, ya da çeşidli çalarlarla dilin hansı qatındasa izini çaxlamışdır.

Tədqiqatlar göstərir ki, uzun zaman ədəbi dildə fəallığını qoruyan sözlərin mövqeyinin zəifləməsi və müəyyən mənada itirilməsi milliləşmə prosesinin güclənməsi təsirindəndir.

«Füyuzat» jurnalı vasitəsi ilə dillərin budaqlanma dövründə dilimizə görə arxaikləşmiş, çağdaş türkcədə işləkliyini saxlamış leksik-qrammatik vahidlərin yenidən Azərbaycan dilinə gətirilməsi füyuzatçıların ulu kökə qayıdış arzuları ilə bağlıdır. Budaqlanma zamanının güclü təsirinin zaman-zaman XX yüzilin əvvəlinə gəlib çatmış nəticələri dövrünün məhsulu olan «Füyuzat» yenidən bütövləşmə tərəfdarı olaraq bu məqsədə dildən başlayırdı. Onun yazılı dilin türk dili normalarına dayanması və bunun nəticəsi olaraq jurnalın leksikasında Osmanlı dili vahidlərinin işlənmə tezliyinin yüksəkliyi böyük türkçülük ideyalarının məhsuludur.

**ƏDƏBİYYAT**

1. «Füyuzat» jurnalı. 1906, № 1-6; 1907, № 7-32.
2. Kaşqarlı M. Divani-luğat-it Türk/çevirəni: B.Atalay.I-II c., 1998; III-IV c., 1999.
Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Azərbaycan Universiteti, 1990.
4.Oğuznamə/ tərtib edəni: S. Əlizadə/.Bakı, Yazıçı, 1987.
5. Türkçe sözlük. Ankara, Türk Tarih Kurumu Basım evi, I-II c., 1998.
6. Türk lehçeleri sözlüğü. Ankara, Başbakanlık Basım evi,I c., 1991; II c., 1992.

**Общетюркские языкование единицы**
**В лексике журнала «Фуюзат»**

Статья посвящается изучению языка журнала «Фуюзат», издававшегося в начале XX века в Азербайджане. Основным объектом изучения общетяркские слова, которые употребляются в лексике журнала. Большая часть глаголов употребляющихся в языке журнала «Фуюзат» встречаются в нашим языке и в настоящее время. Но в языке журнала встречаются и слова, которые в наши дни стали архаичными. В одно время эти глаголы можно было отнести ко всем тюркским языкам. После приода разветвления тюркских языков, в некоторых языках круг употребления этих глаголов сузился или же они совсем вышли из лексики этих языков.

В статье эти лексические единицы были найдены и были разъяснены причины выхода этих слов из употребления.Одной из причин архаизации языковых единиц является независимое развитие отдельных тюркских языков. Разъясняется особая лексическая позиция глагола в языке журнала «Фуюзат» в начале XX века. С этой точки зрения привлекается к исследованию глаголы «япмак», «дюрюлмек», «булунмак», «вармак», «делирмек», «ашамак», «беллемек», «кулланмаг», «донатмак», «ирмек» и др. В статбе выдвигаются новые объективные мысли по отношению к глаголам «маграшмак»,»кекермек». Эти лексические единицы, не встречающиеся ни в одном из тюркских словарей, исследуются путём сравнение и разбора, уточняются значения, которые они



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

выражают и география их распространения. С этой целью были исследованы произведения М.Кашкарлы «Дивани- лугат-ит тюрк», «Огузнаме» ( составитель Самет Ализаде ) и другие словари. В статье сравнивается прошлая и нынешняя судьбы исследуемых глаголов, даётся информация о том, в каких языках остаются эти глаголы в настоящее время. Кроме этого сравниваются их употребление в живой разговорной речи и определяютсяглаголы, перешедшие в народной язык. В статье говорится и о лексических единицах, которые ассимилировались. Связываются ослабления и даже потеря позиции слов, которые долгое время были актиными в литературном языке, с процессам влияния национализации. Через журнал выражается удивление и подвергается критике частое употребление лексико-грамматических единиц даже в литературном языке, история которых уходит в глубокую древность. Но жизн этих слов была совсем не короткой, даже эти лексико-грамматические единицы употребляются в художественной литературе, публицистике и в языке документов Азербайджанской Демократической Республики. Возвращение этих основ в Азербайджанский литературный язык связывается с мечтой фуюзатистов о возвращении к своим корням. Опора «Фуюзат»а на нормативы тюркского языка и частое употребление в её лексике османского языка оценивается как возвращение тюркских идей.

**The commonturkish linguistic units in the lexicon of the magazine "Fuyuzat"**
**R E S U M E**

The article deals with the investigation of the language of "Fuyuzat", a magazine published at the beginning of the XX c in Azerbaijan. The main object of investigation is the use of the common Turkish words in the lexicon of the magazine; priority is given to the verbs.

The majority of the verbs used in the language of "Fuyuzat" is used in our modern language too. But there are words now becoming archaic. Those verbs were characteristic for all the Turkish verbs at that time. After the period of branching out of the Turkish languages the use of some of those verbs was limited or some of them completely left the vocabulary of those languages.Those units were investigated in this article and the reasons of their leaving our language were explained. It is shown that one of the reasons of the becoming of those verbs archaic is the independent development of those languages.

The special lexical state of the verbs in the system of commonturkish words at the beginning of the XX c. in the language of "Fuyuzat" is explained in the article.

Consequently, such verb as "yapmaq", "bulunmaq", "varmaq", "dəlirmək", "dürülmək", "qullanmaq", "irmək", "donatmaq", "aşaşmaq","bəlləmək"etc. were investigated. Completely new ideas were presented about the verbs "mağraşmaq", and "kəkərmək". Those verbs which were not registered in any Turkish dictionary were investigated by means of comparison and analysis, their meanings and geography of use were determined. For this purpose the author addressed such dictionaries as "Divani-lüğət-it türk" by M.Kashqarly, "Oğuznamə" dating to XVI c. (compiled by Samit Alizadeh) and some others. In the article the pervious and today's states of the verbs investigated are compared, it is informed in which Turkish languages they are used now. Besides, comparisons with the living conversational languages were carried out; the verbs used in the common language were defined.

In this article the author also investigates the lexical units undergoing asemantization. The weakening or even loss of the position of some words preserving their activeness in our literary language for a long time is connected with the influence of the process of nationalization. At the beginning of the XX c. the sudden use of some words dating to the old times in the magazine, their being widely used in the language, moreover in the literary language caused a great surprise and certain criticism. But their life was not short; those lexical-grammatical units were used in literary, artistic and publicistic works, even in the language of the documents of the parliament of Azerbaijani People's Republic. Their use again in the Azerbaijani literary language is connected with the strive of turning to national roots of the representatives of "Fuyuzat". The publication of "Fuyuzat" on the basis of the norms of the Turkish language, the high frequency of use of the Ottoman lexical units in its language is valued as the result of Turkish ideas.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**TİKMƏDAŞLI XƏSTƏ QASIMIN SƏLƏFLƏRİ VƏ XƏLƏFLƏRİ**

***Fil.e.d., prof. Sədnik Paşa Pirsultanlı,***
***Gəncə Dövlət Universiteti***
***Azərbaycan***

**Tikmədaşlı Xəstə Qasımın sələfi olan Dirili Qurbani Azərbaycan aşıq sənətinə bir sıra ənənələr qoyub getmişdir. Qurbani istedadlı şair olduğu qədər də, aşıq ifaçılığına dərindən bələd bir sənətkardır. Qurbani dastanın əvvəlində sovet dönəmində deyilən ustadnamələri yox, çoxbəndli məsail formasında şeir demişdir. Məsail şeirinin ilk nümunəsini Qurbani özü yaratmışdır.**

**Məsail ərəbcə məsələlərin cəmi deməkdir. Hansı məsələlərin? Allahla, peyğəmbərlə əlaqəli dini məsələlərin cəmi nəzərdə tutulur. Apardığımız araşdırmalar müəyyən etmişdir ki, klassik ədəbiyyatda Nizami kimi dahi şairlərin irihəcmli əsərlərinin əvvəlində verilmiş «Minacat»larda, meracnamələrdə, yəni «Peyğəmbərin meracı»nda, «Peyğəmbərin mədhi»ndə hansı məsələlər qoyulmuşdursa, məsaillərdə də eyni məsələlərdən bəhs olunmuşdur. Fikrimizi əyaniləşdirmək üçün əvvəl Nizaminin əsərlərinə müraciət edək. «Sirlər xəzinə»sinin əvvəlində verilmiş minacatda Allaha belə müraciət olunur.**

**Sən, ey bütün varlığa həyat verən, can verən!**
**Gildən yaranmışlara nəfəs verən, qan verən!**
**Biz hamımız faniyik, əbədiyyət sənindir,**
**Uca göylər, qüdsiyyət, təmiz niyyət sənindir.**[453]

**«Xosrov və Şirin» poemasının əvvəlində isə deyilir:**

**Dilimdə hər şeydən uca bir ad var,**
**Bu ada bağlıdır bütün varlıqlar.**
**Yaranmışlar ona səcdə edərək,**
**Hər an varlığına sahibdir, gerçək.**
**Təkdir, misilsizdir, - kim deyil agah?**
**Ulular deyirlər ona tək Allah.**[2]

**«Peyğəmbərin mədhi», «Peyğəmbərin meracı» başlıqları altında Allahla peyğəmbərin yaxınlığı və aradakı möcüzələr təsvir olunur.**

**Məhəmməd seçilən, Allah seçəndir,**
**Yerdən göyə qədər duan var olsun,**
**Seçib seçilənə salamlar olsun.**[3]

**«Peyğəmbərin meracı» bölməsində oxuyuruq:**

**Açantək bu sirri Cəbrayıl ona,**
**Məhəmməd bu sözdən bu həycana,**
**Huşunu itirib ətrafa baxdı,**
**Qulluq sırğasını qulağa taxdı,**
**Peyğəmbər əmindir, Cəbrayıl əmin.**
**Onları qorxutmaz nə şeytan, nə cin.**
**O dedi: Allahın hər peyğamını,**
**Bu duydu elçinin sirr-kəlamını.**[1]

**Həmin hissədə Cəbrayılla yanaşı, Mikayılın, İsrafilin, Məhəmmədin atı Büraqın adları ehtiramla çəkilir. Adəm, Həvva nənə, digər müqəddəs kultların, şəxslərin adları yad edilir. Qeyd edilir ki, «mənada Adəmin can kimyası, surətdə aləmin göz tutyası» olan Məhəmməd hər şeyə qadirdir. Burada eyni zamanda İsanın, Musanın, Süleymanın, İbrahimxəlilin adları yad edilir:**

**Ruhlara dərs öyrət sən İsa kimi,**
**Eşqdən şam yandır bir Musa kimi.**
**Üzüyə füruzə qaş salanda sən**
**Bizdən Süleymantək əta görərsən.**[2]

**Başqa bir yerdə peyğəmbər haqqında deyilir:**

**Türbətinin qubarı döndü ənbər ətrinə,**
**Yurdun ənbər vətəni oldu sənin xətrinə.**
**Torpağın ətirlidir Süleymanın mehindən,**
**Cənnət də ətirlənər gülzarının şehindən.**[3]

**«Peyğəmbərin mədhi»nin davamında oxuyuruq:**

**Daim ədalətindən nəşə duydu Süleyman,**

---

[453] Nizami Gəncəvi «Sirlər xəzinəsi». Bakı 1981, səh 24
[2] Nizami Gəncəvi «Xosrov və Şirin». Bakı 2004, səh 23-24
[3] Nizami Gəncəvi «Yeddi gözəl». Bakı  2004, səh 22
[1] Nizami Gəncəvi «Yeddi gözəl», Bakı, 2004, səh 22-23
[2] Nizami Gəncəvi «Xosrov və Şirin», Bakı, 2004, səh 34
[3] Nizami Gəncəv «Sirlər xəzinəsi». Bakı, 1981, səh 35



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Peyğəmbərlik tacına sanma uydu Süleyman,
O quyudan qisməti, ah, nə oldu Yusifin?
Nəsibi bir kəndirdi, bir də doldu Yusifin,
Gedər-gəlməz səfərə atını çapdı Xızır.
Camı boşdu həqiqət sorağında Musanın,
Niyyət bais deyildi təlaşına İsanın.**[4]

**Hətta «İskəndərnamə»nin əvvəlində verilmiş peyğəmbərin meracında Xızırın və Musanın bir qasid kimi Məhəmməd peyğəmbərin atının önündə getdiklərini Nizami qeyd edir:**

**At sürdü yollardan, dağlardan keçdi,
Bir sıra təpəni bir anda biçdi,
Yanında qasiddi Xızr ilə Musa,
Atının önündə gedirdi İsa.**[1]

**Şifahi xalq ədəbiyyatına, onun canlı və hərəkətdə olan qoluna, aşıq sənətinə Dirili Qurbani dərindən bələd olduğu kimi, klassik yazılı ədəbiyyata da eyni dərəcədə bələd olmuş və onların hamısından tükənməz bir qaynaq kimi istifadə etmişdir.**

**Bizim arxivimizdə olan Qurbaninin 63 məsaili əsli Göyçənin Cil kəndindən olan, hazırda Şəmkir rayonunun Keçili kəndində yaşayan məşhur aşıq Qasımın oğlu, Cilli Museyibin qardaşı Aşıq Əlidən toplanılmışdır. Həmin 63 məsailin ilk bəndlərində deyilir:**

**Şükür dərgahına qadir Allahın,
Məhəmməd dinini bəyan eylədi,
Sidqinən çağırdı, saqi-kövsəri,
Tamam dərdlərə dərman eylədi.**

**Yaz ayında lala bürüyər dağı,
Mudəm səbzə olsun möminlər bağı.
Doqquzuncu imam Məhəmməd Tağı,
Əliyən Nağını əyan eylədi.**

**Havada kəşt edir Süleyman taxtı,
Bilin ki, nə vaxtdı qıvlanın vaxtı.
Məhəmmədə gələn Quran da haqdı,
Musa da Tövratı bəyan eylədi.**

**Məsailin ayrı-ayrı bəndlərində Fatmeyi-Zəhra xatundan, Museyi Kazımdan, Sahibi Zamandan, on iki imamdan, Firudindən, Sulidindən, müqəddimatdan, müqərratdan, səkkiz namazından, Süleyman taxtından, Məhəmmədə gələn Qurandan, Qadir Sübhandan, Murtuza Əlidən, səkkiz cənnət otağından və digər dini məsələlərdən, müqəddəs şəxslərdən ətraflı bəhs olunur, Qurbani şeirinin möhürbəndində 63 məsailin adı qeyd edilir.**

**Bəzi ustad aşıqlar Qurbani məsailinin 53, bəziləri isə 63 olduğunu söyləyirlər. Lakin bizə görə Qurbaninin məsaili 53 yox, 63-dür.**

**Qurbaninin 63 məsaili aşıq yaradıcılığında ölməz bir sənət incisidir. Həm də o dövrdə buna böyük ehtiyac vardı. Nizami kimi dahi şairlər irihəcmli əsərlərinin əvvəlində «Minacat», «Peyğəmbərin mədhi», «Peyğəmbərin minacatı» kimi möcüzələrlə dolu islami dəyərləri xalqa çatdırırdısa, Qurbani kimi yüksək dini təhsil görmüş ustad sənətkarlar da məclisə daxil olarkən ustadnamə yerində dərin mündərəcəli məsaillərini söyləyirdi. Qurbaninin ölməz əsəri olan məsaili aşıq Abbasa da, Xəstə Qasıma da, Abdalgülablı Valehə də, Şəmkirli Aşıq Hüseynə də, Aşıq Ələsgərə də güclü təsir etmiş, onlar da bu səpkili peyğəmbərin möcüzələrindən bəhs edən əsərlər yaratmışlar. Tufarqanlı Abbasın və Xəstə Qasımın dini ustadnamələri, şəmkirli Hüseynin zəncirləməsi və Aşıq Ələsgərin «peyğəmbərin meracı» adlı şeirləri dediklərimizə misal ola bilər.**

**İslam dininin xalqımızın mənəvi həyatında və mədəni inkişafında müstəsna rol oynadığını inkar etmək qeyri-mümkündür. Dirili Qurbani islami dəyərləri yüksək qiymətləndirərək, onu öz əsərlərinin canına hopdurur, məclislərdə deyir və geniş kütlə arasında yayırdı. Bir-birindən kəskin şəkildə fərqlənən məsaillər, vücudnamə kimi dastanların əvvəlində, cahannamələr isə dastanların sonunda deyilirdi.**

**Bəzi araşdırıcılar Dirili Qurbaninin Şah İsmayıl Xətainin sarayına qədər inkişaf edib, yol tapmasını müxtəlif şəkildə elmi bir dillə yox, bədii nümunələr əsasında danışırlar. Bu doğru deyildir. Şah İsmayıl Xətai Səfəvi dövlətinin ideologiyasını formalaşdırarkən islami dəyərlərə söykənirdi. Tədqiqatçılar çox zaman bu islami dəyərləri sufizm şəklində, yəni şəriət, təriqət, mərifət və həqiqət kimi izah etməyə çalışırlar. Şəriətin tələbi budur ki, təkcə Qurana deyil, bütün dini kitablara bələd olmalısan. Təriqət odur ki, seçdiyin dini yoldan dönməyəsən. Mərifət odur ki, hansı dinə mənsubsansa, xalq arasında o dini mərifətlə təmsil edəsən. Həqiqət odur ki, qardaşın bir adam öldürüb, yerinə isə başqasını həbs ediblər. Sən həqiqət naminə qardaşın olsa belə, kimin günahkar olduğunu aşkarlamalısan. Bax, bu dörd cəhət səndə cəmləşsə, insani-kamil olarsan, göydə Allahı, onun işığını görmək istəyən, onu sənin alnında, alnına yazılmış hərflərdə oxuya bilər,**

---

[4] Nizami Gəncəvi «Sirlər xəzinəsi». Bakı, 1981, səh 39
[1] Nizami Gəncəvi «İskəndərnamə». Bakı, 1964, səh 31


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**yerdə sən onun təcəllası olarsan. İslami dəyərlərin içərisində bu kiçik bir xətdir, bunlar Nəsimi, Şah İsmayıl Xətai, Qurbani və Pirsultan Abdal yaradıcılığında özünü biruzə verir. İslami dəyərlərə çox məsəllər daxildir. Bunlar Dirili Qurbani yaradıcılığında öz təcəssümünü tapmışdır. Hələ ozanların son nümayəndəsi Dədə Yediyarla Qurbaninin deyişməsi, Qurbaninin dini ehkamlara nə qədər dərindən bələd olduğunu aşkar deyir. Dədə Yediyarla Qurbaninin deyişmələrindən bir nümunə:**

***Dədə Yediyar:***

**Nədən hasil oldu İsrafil suru?**
**Kim camal göstərdi, yandırdı Turu?**
**Hansı peyğəmbərin alnında nuru,**
**Onu kim görcəyin müsəlman oldu?**

***Qurbani:***

**Nurdan hasil oldu İsrafil suru,**
**Haqq camal göstərdi, yandırdı Turu.**
**Məhəmməd peyğəmbər – alnında nuru,**
**Xədicə görcəyin müsəlman oldu.**

**Qurbani saraya getməzdən əvvəl Şah İsmayıl Xətai onun yaradıcılığı ilə, ağlı ilə, kamalı ilə dərindən tanış olmuş, Dədə Yediyarın meydanında qalib gəlib, sınaqdan çıxdıqdan sonra onu öz sarayına dəvət etmiş və aşıqlara başçı seçmişdir. Hətta Qurbaninin elə şeirləri var ki, Xətai şeirləri ilə səsləşir, eyni mənanı təqib edir. Xüsusilə Xətaiyə məxsus vücudnamə və cahannamə parçalarını Qurbaninin təsiri ilə yazıldığına şübhə yeri qalmır. Xətai də böyük həvəs göstərmişdir ki, onun şeirləri də dastan gecələrində ustadnamə yerində söylənilsin. Onun «Tövbənamə» qəzəli buna misal ola bilər.**

**Aşıqlar Xətainin nəinki qoşmalarını, hətta qəzəllərini sazda oxumağa başlamışlar. Divani şeir şəkli onun qəzəlləri əsasında formalaşıb meydana çıxmışdır. Aşıqlar hətta məclisi Şah İsmayıl Xətainin dini şeiri olan tövbənaməsi ilə açırmışlar. Akademik Həmid Araslı da «Aşıq yaradıcılığı» adlı əsərində bu hadisəni xüsusi vurğulayır və Şah İsmayıl Xətainin qəzəlindən bir beyt nümunə verir:**

**Şah Xətai seyrə çıxdı açdı hürrün qəbrini,**
**Ya İlahi, sən bilirsən günahkaram doğrusu.**[1]

**XVI əsrdə yaşayıb-yaratmış, Səfəvi xənadanının böyük hörmət və nüfuzunu qazanmış Qurbani Şah İsmayıl Xətai ilə birlikdə Çaldıran döyüşündə iştirak etmiş və o illərdə «Baş divani» («Xətai divanisi»), «Ayaq divani» («Osmanlı divanisi») saz havalarını yaratmışdır.**

**Şah İsmayıl Xətaidən sonra, XVII əsrdə sənət meydanına gələn Tufarqanlı Abbas Şah İsmayıl Xətainin və Qurbaninin yaradıcılıq yolunu intixab etmiş, Qurbaninin məsail şeirinin təsiri ilə yaddaqalan dini şeirlər yazmışdır. Tufarqanlı Abbas başqa sənətkarlardan fərqli olaraq öz şeirləri və həyat macəraları ilə bağlı, «Abbas və Gülgəz» kimi bütöv bir dastan yaratmışdır. Prof. M. H. Təhmasib haqlı olaraq qeyd edir ki, Tufarqanlı Abbasın tərcümeyi-halı, ədəbi irsi onun dastanında cəmləşmişdir. Tufarqanlı Abbasın şeirlərindən nümunələrə diqqət yetirək:**

**Xətmi Rəsul merac üstə yeridi,**
**Mələkələr dörd bir yanın bürüdü,**
**Cənab Əmir şir donunda şiridi,**
**Özü kəsdi Mustafanın yolunu.**

**Və yaxud:**

**Bir şəhərə vardım öz peşəsində,**
**Əyləşib cənnətin sər guşəsində,**
**On səkkiz min aləm bir küçəsində,**
**Bir yanı boş qalıb, min bəndərgahı var.**

**Bu şeir parçalarında Qurbaninin 63 məsailinin təsiri duyulmaqdadır. Qurbani aşıq poeziyasına ilk dəfə olaraq məsail, divani və təcnis şeir formalarını gətirdiyi kimi, bundan sonra sənət meydanına gəlmiş Tufarqanlı Abbas da aşıq yaradıcılığına örnək olaraq müləmmə təcnis (çoxdilli), cığalı təcnis və vücudnamə kimi şeir formalarını gətirmişdir.**

**XVII əsrin sonu XVIII əsrin əvvəlində sənət meydanına gəlmiş Tikmədaşlı Xəstə Qasım özünə qədər mövcud olan klassik ədəbiyyatdan, zəngin folklormuzdan, folklorumuzun hərəkətdə olan, çevik və tez-tez dəyişmələrə məruz qalan aşıq sənətindən istənilən qədər faydalanmışdır. Həmin qaynaqlardan bəhrələnmiş, öyrənə-öyrənə, dərinləşə-dərinləşə dərya-dəniz olmuş, bir dağ kimi ucalmış, geriyə boylananda Nizami, Füzuli, Qurbani və Tufarqanlı Abbas kimi azman söz ustadlarını görmüş və bununla da öz sənət yolunu müəyyənləşdirmişdir. Xəstə Qasım sələflərinin poetik və melodik əsərlərindən təsirləndiyi kimi, onun xələfləri də şair-aşığın ədəbi irsinə söykənərək gözəl sənət nümunələri yaratmışlar. Xəstə Qasım sələflərinin yaradıcılığından necə faydalanmışdır? Nizami yazır:**

**Əvvəl əyri bitən bir cavan budaq,**
**Zənn etmə, qocalsa düzgün olacaq.**[1]

**Xəstə Qasım həmin beytin təsiri ilə yazdığı qoşmasında fikrini belə ifadə edir:**

---

[1] Həmid Araslı. «Aşıq yaradıcılığı», Bakı, 1960, səh 34
[1] Nizami Gəncəvi «Xosrov və Şirin», Bakı, 1962, səh 222



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Əzəl yerdən çıxan əyri ağacı,**
**Yüz min ustad rəndələsə düzəlməz.**[2]

**Dağıstana Ləzgi Əhmədin görüşünə gedən Xəstə Qasım öz hərbə-zorbasını fəxrlə belə başlayır:**

**Ləzgi Əhməd, mənəm Füzuli nəsli,**
**Bəhrlərdə mən ümmanam sən nəsən?**
**Dərin kitabları mənə eylərəm,**
**Söz anlayan, dərd qananam sən nəsən?**[3]

**Xəstə Qasım Füzuli yaradıcılığından təkcə bəhrələndiyini demir, fəxrlə onun nəslindən olduğunu söyləyir.. Xəstə Qasım, eləcə də Dirili Qurbaninin və Tufarqanlı Abbasın yaradıcılığına böyük ehtiramla yanaşır. Qurbaninin poeziyasından təsirlənərək təcnislər, Tufarqanlı Abbas yaradıcılığından təsirlənərək cığalı təcnislər yaradır. Qurbaninin 63 məsailinə cavab olaraq özünün 64 bəndlik ustadnaməsini yaradır. Xəstə Qasımın dini ustadnaməsi çox bitkin və zəngin məzmuna malik ölməz bir əsərdir. Xəstə Qasımın 64 bəndlik ustadnaməsindən bir neçə bənd nümunə göstərək:**

**Cəbrayıla müjdə verdin,**
**Bir oğlan dünyaya gəldi.**
**Adını İsmayıl qoydu,**
**Gərək görsün o Minanı.**

**İbrahim nə xəyala daldı,**
**İsmayıl mətləbin aldı,**
**Qurban Minaya gəldi,**
**Həcər başladı fəqana.**

**Baş kəsmədi bıçaq durdu,**
**Çaldı daşı, iki böldü,**
**O dəm Cəbrayıl gəldi,**
**Gətirmişəm qoç qurbanı.**

**Xəstə Qasım öz sələflərinin, o cümlədən Qurbaninin yaradıcılığına böyük maraq göstərmiş, onun sənət çeşməsindən istədiyi qədər faydalanmışdır. Qurbani bir qoşmasında deyir:**

**Gecə-gündüz vaxtı-bivaxt ağlaram,**
**Çeşmim yaşı Ceyhun olar sellənər,**
**Yaz mövsümü bülbül dil-dil ötəndə,**
**Bağ-bağçalar nərgizlənər, güllənər.**[1]

**Qurbani şeirindən təsirlənərək nəzərə çarpmayacaq tərzdə ona bənzər qoşmasını yazır. Nümunə üçün Xəstə Qasımın qoşmasının bir bəndini veririk:**

**Bağban olub zəhmət çəkə, əlləşə,**
**Saldığı bağ çiçəkləşə, gülləşə.**
**Əgər gücsüz güclü ilə güləşə,**
**Olar tərlan ilə sar aşnalığı.**[2]

**Yuxarıda qeyd etdik ki, Tufarqanlı Abbas mülәmmə təcnisin (çoxdilli) ən mükəmməl nümunəsini yaratmışdır. Tufarqanlı Abbasın mülәmmə təcnisinin nadir bir örnək olduğunu nəzərə alaraq burada onu bütöv veririk.**

**Yaz dolandı, gəldik düşdük yayə də,**
**Dastanımız dildən-dilə yay, ədə.**
**Bir təhrindən bənzədirəm yayə də,**
**Ərəb soki, farsı əbru, türki qaş.**

**Yar geyinib qəddi-dala, incidir,**
**Gümüş kəmər, nazik beli incidir.**
**Düzdürmüsən dəhanına incidir,**
**Ərəb sinan, farsı dəndan, türki diş.**

**Müxənnətnən heç olmaynan aşına,**
**Bir gün olar zəhər qatar aşına,**
**Abbas deyər: sal müxənnət başına,**
**Ərəb səngi, farsı həcər, türki daş.**[1]

---

[2] Xəstə Qasım, Bakı, 1975, səh 10
[3] Sədnik Paşayev «Azərbaycan folkloru və aşıq yaradıcılığı», Bakı, 1989, səh 68
[1] Sədnik Paşayev «Azərbaycan folkloru və aşıq yaradıcılığı», Bakı, 1989, səh 32
[2] Azərbaycan aşıqları və el şairləri. I cild. Bakı, 1983
[1] Sədnik Paşayev «Azərbaycan folkloru və aşıq yaradıcılığı». Bakı, 1989, səh 17


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Tufarqanlı Abbasın dini şeirləri də öz kamilliyi ilə seçilir. Həzrəti Əlinin onu zəhər quyusundan çıxarmasını aşağıdakı şəkildə mənalandırır və onun şəninə dəyərli sözlər deyir:**

**Kor olasan, a gözlərim,**
**Ağam burdan hara getdi?**
**Gizli olan sirləri,**
**Aşkar qılan hara getdi?...**

**Zülfüqar qalxıb havaya,**
**Salam gəldi Mürtəzaya,**
**Ərəb donunda davaya,**
**Girib varan hara getdi?...**

**Zülfüqarı vurdu daşa,**
**Bir cüt qulaq çıxdı qoşa.**
**Əjdəhanı başdan-başa**
**Yarı bölən hara getdi?...**

**Mən sevirəm ənbərini,**
**Düldülünü, Qəmbərini,**
**Cəbrayılın şahpərini,**
**Yarı bölən hara getdi?...**

**Gözün aç, ağanı tanı,**
**Görgünən qədir sübhanı,**
**Qul Abbası, binəvanı,**
**Ağlar qoyan hara getdi?...**[2]

**Xəstə Qasım öz dini divanisi ilə aşıq poeziyasında bir Kəbə yapmışdır, bir imarət ucaltmışdır. Bütün islami dəyərlər onun ayrı-ayrı misralarında yaşayır və Quranın islam dünyası üçün böyük dərslik olduğunu hamımıza anladır, onunla fəxr edir və bizi də fəxr etməyə çağırır. Həmin şeirə belə başlayır:**

**Adəmnən xatəmə,**
**Natiqi Quran mənim.**
**Din mənim, məssəb mənim,**
**Yol mənim, ərkan mənim,**
**Gül mənim, bülbül mənim,**
**Sünbülü reyhan mənim.**

**Xəstə Qasımdan sonra sənət meydanına gələn Aşıq Valeh, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn, Molla Cümə, Yəhya bəy Dilqəm, Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı, Növrəs İman və başqaları onun sənətkarlığından faydalanmış, şeir xəzinəsindən istifadə etmiş, onu özlərinə ustad seçmişlər.**

**Xəstə Qasımda bu cür mükəmməl sənət inciləri çoxdur. Aşıq poeziyasında cığalı təcnisin ən mükəmməl nümunələri onunkidir. Müstəzad təcnisin ilkin nümunəsini Xəstə Qasım yaratmışdır. Xəstə Qasım aşıq yaradıcılığında elə örnəklər, elə nümunələr yaratmışdır ki, o nəinki aşıq yaradıcılığına, eləcə də yazılı ədəbiyyata da güclü təsir göstərmişdir. Azərbaycan folklorşünaslığının banilərindən biri olan professor M. H. Təhmasib yazır ki: «XVII-XVIII əsrlərdə aşıq ədəbiyyatı, aşıq şeiri o qədər geniş yayılmış, elə böyük şəxsiyyətlər yetirmişdir ki, hətta, əgər belə demək mümkünsə, yazılı ədəbiyyatın önündə getməyə, ona istiqamət verməyə başlamış, Vaqif ədəbi məktəbinin formalaşmasında həlledici rol oynamışdır».**[1]

**Xəstə Qasımın «Dağıstan səfəri» dastanını yaratdığı kimi, Xəstə Qasımın təsiri ilə XVIII əsrin böyük sənətkarı Abdalgülablı Valeh də özünün «Dərbənd səfəri» və yaxud «Valeh və Zərnigar» dastanını yaratmışdır. Bundan başqa, Valeh kiçik hissələrdən, 3 bənddən, 5 bənddən ibarət cahannamələrdən fərqli olaraq, 15 bənddən ibarət cahannaməsini yaratmışdır.**

**Aşıq Valeh həmin cahannamədə Molla Pənah Vaqifi yad edərək deyir:**

**Hanı Molla Pənah, bivəfa cahan,**
**Təxəllüsü Vaqif, nəzmi dürr-əfşan.**
**İndi eyləmisən xak ilə yeksan,**
**Tapmaq olmaz o kamalda can, hanı?**

**Dünya, səndə Aşıq Səməd var idi,**
**Nəzmü şeiri, ləli, gövhərlər idi,**
**Bir gözəl eşqinə giriftar idi,**
**Onun kimi bir bəhri-ümman hanı?**

---

[2] Şeir Aşıq Məhəmmədən tam şəkildə yazıya alınmışdır. (Göyçənin Ağzıbir kəndi)
[1] M.H. Təhmasib. «Azərbaycan xalq dastanları», (Orta əsrlər), Bakı, 1972.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Cəsarətlə demək olar ki, Xəstə Qasım «Dağıstan səfəri» ilə real tarixi dastanın ilkin nümunəsini yaratmış, bundan sonra sənət meydanına gələn Aşıq Valeh, Aşıq Alı, Şəmkirli Hüseyn onun real tarixi dastan yaratmaq ənənəsindən əzəmi dərəcədə bəhrələnmişlər.**

**Aşıq Şəmkirli Hüseynin «Naxçıvan səfəri» («Aşıq Hüseyn və Reyhan»), «Aşıq Alının Türkiyə səfəri» («Aşıq Alı və Əsmər xanım»), Çoban Məhəmmədin «Qars səfəri» («Çoban Məhəmməd və Səlbi Xuraman») dastanları Xəstə Qasımdan xeyli sonrakı dövrlərdə yaranmışdır.**

**XIX əsr sənətkarlarının içərisində Şəmkirli Aşıq Hüseyn yüksək dini təhsil görmüş, 17 il Şamda qalmış azman bir sənətkardır. Aşıq Hüseyn məsail şeirində ifadə olan fikirləri başqa adla qələmə almışdır. Onun məsail səviyyəsində olan «Zəncirləməsi» aşıq poeziyasında ölməz bir abidədir. Heç yerdə çap olunmadığı üçün Şəmkirli Aşıq Hüseynin zəncirləməsini burada bütöv veririk:**

**Çağırram qadir Allahı,
Coşub girəndə meydana.
Yüz on dörd surə oxuram,
Sidqim bağlaram Qurana.**

**Qurandı mənim əzbərim,
Cahari-məsim gövhərim,
Kərimi Kərrari Kərim,
Qulluq eylərəm imana.**

**İmanı verən xaliqdi,
Mətləb diləyən məxluqdu,
Yunisi udan balıqdı,
Düşəndə dərya-ümmana.**

**Ol ümmanda oldu qəvvas,
Bil nə qədər qıldı namaz,
Ərz elədi Xızır İlyas,
Üzün tutdu  asimana.**

**Asimanı yaratdı Kirdigar,
Təyyar oldu Şəmsi-Qəmər,
Neçə gündə belə hünər,
Yayıldı cümlə-cahana.**

**Cahanda gördü obanı,
Zərrəcə seçdi noğdanı,
Şeytan Adəmə verdi buğdanı,
Həsrət qoydu rizvana.**

**Rizvandan çıxdı Adəm,
O nemətdən bir də dadam,
Şükr elədim mən çox şadam,
Qismət oldu Həvva ana.**

**Həvvanı eylədi qəbul,
İşlərisə oldu məqbul,
Qan eylədi Habil, Qabil,
Onlar uymuşlar şeytana.**

**Şeytan eylədi zəlili.
Çağırın Cabbar-Cəlili,
Oda atdılar Xəlili,
Atəş döndü gülüstana.**

**Gülüstanda oxu kərəmullahı,
Oddan xilas oldu dahı,
Bənə qoydu qibləgahı,
İsmayılı gətdi qurbana.**

**Qurbanını qəbul eylədi,
Savabı sail eylədi,
Hünəri fail eylədi,**


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Tikdirdi müsafirxana.**

**Ol müsafirdən ötrü ağladı,
İblisi rey bağladı,
Sinəsin çarpaz dağladı,
Həsrət qaldı o mehmana.**

**Loğman dedi biris birisi,
Həzrət Yəhya, Şıx İdrisi,
Bizim düşmənimiz iblisi,
Rəhmət, nəhlət oxuyana,**

**Nəhlət oxuyan Şıx Əyyub,
Kafərlərin yağın yarıb,
İbni Həsən, İbni Yaqub,
Qurbanam Cəhli sultana.**

**Cəhli bənzər ərənlərə,
Təbi bizə verənlərə,
Rəsulu görənlərə,
Onlar səy eylər Firqana.**

**Firqanını car elədi,
Dinini aşkar elədi,
Hünəri Heydər elədi,
Qılınc vurdu ol düşmana,**

**Düşmanları çəkdi aman,
Sizdən uzaq olsun yaman,
Mənim ağam Sahib Zaman,
Can qurban Şahı-Mərdana.**

**Adəmi Seyfullah,
Nuh Nəbiyyullah,
Şıx Səfiyyullah,
Onlar qərq oldu tufana.**

**Ol tufandan aldı payın,
Cüt götürdü taylı tayın,
Sözə baxmayan oldu xain,
Həkimlik gəldi loğmana.**

**Şah-mərdan açar eyin,
İmamız haqdı bugün,
Mənim adım aşıq Hüseyn,
Sakinəm Şəmkirstana.**

**Bu silsilədən məsailin ruhunu və məzmununu özündə yaşadan «meracnamə»sində Aşıq Ələsgər deyir:**

**Bu nə qurğu, nə fəzilətdi,
Bağışlandı hümmətlərin günahı.
Şad xürrəm olacaq islam pənahı,
Bir aslan gəldi kəsdi irahı,
Məhəmməd görcəyin xətabın atdı.
Yetişdi hicraya əzizi-əzim,
Əli dedi əmioğlu meracım qədim,
Buyurdu almanı etdi təbəssüm,
Dedi ki, hər işin sirri qüdrətdi.**

**Şeirin son misralarını oxuduqda merac evində Allahın rəsulu Məhəmmədlə Həzrət Əlinin görüşləri, alma əhvalatı Aşıq Ələsgərin şeirində öz əksini tapır. Beləliklə Aşıq Ələsgər məclisə daxil olarkən xalqa islami dəyərləri, islam tarixini, islam mədəniyyətini bu yolla çatdırır. Bu mənada aşıq ictimai fikir tariximizdə, mənəviyyatımızın zənginləşməsində misilsiz rol oynamışdır.**

**Müasir dövrdə, yəni XX əsrdə Xəstə Qasımla maraqlanan, onun açılmamış qıfılbəndlərini açmağa səy göstərən Növrəs İman olmuşdur. Xəstə Qasımın qıfılbəndinin bir bəndini misal göstərək:**

**Xəstə Qasım:**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Xəstə Qasım Tikmədaşlı sahibi cümlə xəta,**
**Ümidvaram meracına sənə eylər əta,**
**Bir ismin qul kəfadı, bir ismin əl-əta,**
**Əzmi qaf günahım olsa, əhv eylər rəhman məni.**

**Növrəs İmanın açması:**

**Növrəs İman Göyçə elli sığın şahi Heydərə,**
**Ərş əladan vəhy gəldi, biz yazdıq dəftərə,**
**Xaliq özü şəfayətçidi qoydu bunu məhşərə,**
**Qorxum yoxdur, qurulsa ədalət, divan mənim.**

**Növrəs İman ərəb, fars dilini, Quranı, onun ayələrini yaxşı oxuyub bildiyindən Xəstə Qasımın qıfılbəndlərini açmağa girişir və müvəffəq olur. Növrəs İman folklor yaradıcılığının, aşıq poeziyasının qiymətləndirir.**

**Oyub ciyərimi möhnət alması,**
**Bu xəstə könlümün açılmaz pası,**
**Ələsgər, Xəstə Qasım, Şikəstə Abbası,**
**Ondan qalan aşıq üz gəlib gedib.**

**Xəstə Qasım Azərbaycan aşıq yaradıcılığının, onun poeziyasının, ifaçılıq sənətinin bel sütunudur, onurğa sütunudur. «Məsail, vücudnamə, meracnamə, zəncirləmə və cahannamə» folklor toplusunu təcili çap etdirmək niyyətindəyik. Ona görə ki, bu klassik nümunələri ustad görmüş sənətkarlar bilirlər. Onlarınsa sayı çox az qalmışdır. Ustad sənətkarları isə toy məclislərinə aparmırlar. Biz arxivimizdə saxladığımız həmin nümunələrin sovet dönəmində çap olunmadığını və yayılmadığını nəzərə alaraq, onların işıq üzü görməsinə çalışırıq.**

**Xəstə Qasım dini mövzunu necə poetik bir dillə təsvir və tərənnüm edir. Onun obrazlı təfəkkürü, rəvan dili şeiri necə bəzəyir, ona necə poetik don geyindirir. Məsələn;**

**Əzəl-əzəl bu dünyaya,**
**Adəm Ata maya gəldi.**
**Əmr olundu yaradandan,**
**İnsan üzünə həya gəldi.**

**On dörd dəstədir gülümüz,**
**Kəlmə gətirdi dilimiz,**
**Şahlar-şahıdır pirimiz,**
**Salman ona dayə gəldi.**

**Xəstə Qasım eylər bəsi,**
**Silinsin könlünün pası,**
**Behiştin bir dəst libası,**
**Fatmeyi-Zəhraya gəldi.**

**Biz bu yazının mərkəzində Xəstə Qasımı gördüyümüz üçün onun mövqeyini açıqlamağa çalışmışıq. Əlbəttə, bu böyük tədqiqatın kiçik bir hissəsidir. Yəqin ki, gələcək araşdırmalar daha çox söz deməyə imkan verəcəkdir.**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AZƏRBAYCAN FOLKLORUNDA DƏRVİŞ OBRAZININ POETİK-SEMANTİK STRUKTURUNA DAİR

***Hikmət Quliyev***
***Səfa Qarayev***
***AMEA Folklor İnstitutu***
***Azərbayjan***

Azərbayjan nağıl və dastanlarının strukturunda mühüm rola malik olan və böyük bir kompleks əmələ gətirən obrazlardan biri də dərvişdir. Həm nağıllarda, həm də dastanlarda bu obraz bu və ya digər şəkildə «fəaliyyət» göstərir. Biz bu araşdımamızda dərviş obrazının nağıl və dastanlarda kompleks təşkil etdiyini əsas götürmüş və fikirlərimizi bu kontekstdə əsaslandırmağa çalışmışıq. Tədqiq etdiyimiz mətnlərdən aydın olur ki, genezis baxımından fərqli olan bəzi obrazlar funksiya jəhətdən eyni fəaliyyət semantikasına malikdir. Belə ki, bu obrazları (Dərviş – Xızır – Nurani Qoja – Əli – Şahi-mərdan – Abid – Pirani kişi) eyni semantik sırada birləşdirmək vajibdir. Başqa sözlə, bunlar xalq təfəkküründə fəaliyyət baxımından eyniləşdirilmişdir. Biz də məsələyə funksiya baxımından yanaşdığımız üçün bizdən önjəki tədqiqatlara əsaslanaraq bu obrazları dərviş obrazı kompleksi kimi qəbul edib və funksiyalarını da bu aspektdən müəyyənləşdirməyə çalışmışıq. Bu kompleksə daxil olan hər hansı bir obrazın adının digərləri üçün ortaq götürülməsi yanlış olardı və tam şəkildə kompleksin xüsusiyyətlərini əks etdirməzdi. Bizə görə bu kompleksdə ən ortaq obraz məhz dərvişdir. Belə ki, o özündə həm mənfi, həm də müsbət xüsusiyyətləri birləşdirir və kompleksin mənfi və müsbət keyfiyyətə malik olan obrazlarını ifadə etməklə ortaq bir mövqeyə malik olur. Bu da bizə kompleksə daxil olan obrazların funksiyalarını dərviş adı altında müəyyənləşdirməyə əsas verir. Fikrimizi daha aydın izah etmək üçün aşağıdakı sxemi verməyi əsaslı vasitə hesab edirik.

Dərviş

| Müsbət tipli Obrazlar | Mənfi tipli obrazlar |
|---|---|
| Dərviş | Dərviş |
| **Xızır peyğəmbər** | |
| Xızır Nəbi | Keşiş (çox az rast gəlmişik) |
| Abid | |
| Nurani kişi | |
| Qoja pirani kişi | |
| İmam Əli | |

Sxemdən də göründüyü kimi, bu obrazın təbiətində iki qütb birləşib: müsbət və mənfi. Dərviş obrazı kompleksinin bütün obrazlarının fəaliyyəti xalq təfəkküründə məhz bu qütblər əsasında sıralanmışdır.

Azərbayjan nağıllarında dərviş obrazının funksiyalarını aydınlaşdırarkən müəyyən etdik ki, bəzən bir obraz bir neçə fəaliyyəti, yəni funksiyanı həyata keçirə bilir. Bu fəaliyyətlər ayrı-ayrı mətnlərdə müstəqil və tək halda da özünü göstərdiyi üçün bunları müstəqil funksiyalar kimi götürdük.

Ümumiyyətlə, Azərbaycan nağıllarında dərviş obrazının aşağıdakı funksiyalarını müəyyənləşdirdik:

1. Övladvermə funksiyası;
2. Yolgöstərmə funksiyası;
3. İnformasiyavermə funksiyası;
4. Sehrli vasitəvermə funksiyası;
5. Çevirmə funksiyası;
6. Yalançı dərvişliketmə funksiyası;
7. Advermə funksiyası;
8. Bəxtvermə funksiyası.

Azərbayjan dastanlarında isə dərviş obrazının aşağıdakı funksiyalarını müəyyənləşdirmişik:

1. Advermə funksiyası;
2. Yolgöstərmə funksiyası;
3. Övladvermə funksiyası;
4. Butavermə funksiyası;
5. Xilasetmə funksiyası;
6. Yalançı dərvişliketmə funksiyası;
7. İnformasiyavermə funksiyası;
8. Yalançı dərvişliketmə funksiyası;

Azərbayjan dastanlarında dərviş obrazının funksiyalarını müəyyənləşdirərkən gördük ki, epik təfəkkürün məhsulu olan nağıl və dastanlarda funksiyalar təxminən eynidir. Lakin nağıllarda dərviş obrazının çevirmə, sehrli vasitəvermə və bəxtvermə kimi funksiyalarına dastanlarda rast gəlmədik. Eyni zamanda dərviş obrazının dastanlarda müəyyənləşdirdiyimiz butavermə və xilasetmə funksiyalarına nağıllarda rast gəlmədik. Yerdə qalan digər funksiyalara isə həm nağıllarda, həm də dastanlarda rast gəlinməsinə baxmayaraq bunlar işlənmə tezliyinə görə fərqlənirlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «KOROĞLU» DASTANINDA ANTROPONİMLƏRİN - KİŞİ ŞƏXS ADLARININ TƏDQİQİ

***F.e.n. Sevil Ağabəyli***
***BDU***
***Azərbaycan***

Onomastik leksikanın kompleks şəkildə ardıcıl və əlaqəli tədqiqi çox vacib məsələdir, çünki tarix, coğrafiya və dilçilik elmlərinin qovuşma nöqtəsində öyrənilən onomastik leksika konkret bir regionda yaşayan və tarixi zərurətdən miqrasiyaya uğramış xalqların dili, iqtisadi, siyasi və mədəni həyatı haqqında qiymətli məlumat verir.

Dilin qədimliyini, xalqın tarixinin dünyanın «mədəni yaddaş»ı ilə qırılmaz əlaqəsini, bizcə, şifahi xalq ədəbiyyatının böyük bir qolu olan dastanları tədqiq etməklə öyrənə bilərik. Belə ki, Azərbaycan dilinin leksikasına daxil olan onomastik vahidlərin böyük bir qolunu əhatə edən antroponimlər öz rəngarəng məna çaları, yaranma yolları, işlənmə məqamı və dil mənsubiyyətinə görə dilimizin lüğət tərkibində xüsusi bir lay təşkil edir. Antroponimika insanın adını – şəxs adını, atanın adını, soy adını, titulu, təxəllüsü, ləqəbi öyrənir. Xalqın yaratdığı adlar onun tarixi boyunca təkcə «şifahi yaddaş»la deyil, həm də «mədəni yaddaş»la nəsildən nəslə ötürülür. Araşdırmaya cəlb olunan «Koroğlu» dastanı bu baxımdan, maraqlı, zəngin bir antroponomik mənbədir. Ümumxalq təfəkkürünün ifadəsi olan bu adlar başqa sözlər kimi Azərbaycan dilinin qanunauyğunluqlarına tabedir.

«Koroğlu» dastanının tədqiq olunan variantlarından seçilmiş antroponimlərin dil mənsubiyyəti olduqca rəngarəngdir. Qeyd etməliyik ki, türk, Azərbaycan mənşəli antroponimlər dastanda üstünlük təşkil edir. Azərbaycan dilinin leksikasında milli antroponimlərlə yanaşı, fars, ərəb, monqol mənşəli adlar da işlənir. Azərbaycan dilinin lüğətinə daxil olan hər bir ad «milli süzgəc»dən keçəndən sonra özününküləşdirilmiş və bu dildə «vətəndaşlıq hüququ» qazanmışdır.

Tədqiq olunan antroponimlər, ilk baxışdan, sadə və mürəkkəb quruluşa malikdir. Lakin araşdırmalar göstərdi ki, bu gün istər sadə, istərsə də mürəkkəb quruluşlu adlar kimi qəbul olunan onimlər daha dolğun bir konstruksiyaya malikdir.

Bu məqalədə «Koroğlu» dastanının Azərbaycan, türkmən, türk və gürcü variantlarından seçilib toplanmış, mənası daşlaşmış, sadə, tədqiqat əsərlərində yalnız adı çəkilməklə kifayətlənilmiş, ilk baxışdan anlaşıqlı olan, lakin nədən, nə cür əmələ gəlməsi və ilkin mənası açıqlanmamış antroponimlərin – kişi şəxs adlarının dil mənsubiyyətini, quruluşunu və struktur modelini, qohum dillərlə oxşar və fərqli xüsusiyyətlərini, onların inkişaf yolunu və anlamını geniş işıqlandırmağa çalışmışıq.

**Balı**

1) Nişapurys patişasyna Balybed patyşa diəerdiler [45, c. 3, s. 4];
2) Balı beqis ak otaqı qöründi [34, s. 228];
3) Bu - da qalasını qezip, Balı dien, Süyji dien iki oqlanı bulam alıp qaytdı [34, s. 156].

**Ba** qədim türk dillərində bağlamaq anlamlı fel [35, s. 76], **-lı** isə dilimizin ümumi leksik sistemində məhsuldar söz yaradıcılığı funksiyası daşıyan, onomastik vahidlərin əmələ gəlməsində fəal rol oynayan şəkilçidir. Xüsusi ad yaradan formant kimi həmin şəkilçiyə türk dilləri arealında, xüsusilə arealın cənub-qərb hissəsində daha çox rast gəlinir [24, s. 455-456].

İlk baxışdan sadə görünən, əslində mənası və quruluşu daşlaşmış bu antroponim qədim tarixə malikdir. Balı düzəltmə şəxs adıdır: Ba+lı.

«Koroğlu» dastanının Azərbaycan variantından olan bu nümunəyə diqqət yetirək:

1) Bolu bəy qoşun sərkərdələrindəndi [19, s. 83];
2) Bolu bəy Mehtər Murtuzun fikrini bəyənib, hökm elədi ki, qoşun düşüb düşərgə saldı [20, s. 223].

M.Seyidov yazır: «Bizcə, «Korobolko»-«qorobolko» sözü «qor»+«bolko» tərkib hissəsindən ibarətdir. «Qor» od, «bol» isə bəzi türk dillərində «mərd», «qoçaq», «igid», «cəsarətli» deməkdir. Bəlkə, «Koroğlu» dastanındakı Bolubəy adı da bu «bol»la əlaqədardır» [27, s. 160].

M.Çobanov **Bolu** antroponiminin «bolur» etnonimi ilə əlaqədar olduğunu qeyd edir: «… Dilimizin daxili inkişaf qanunları əsasında «bolur» sözündəki «**r**» səsi düşmüş və həmin ad müasir dilimizdə «**Bolu**» kimi sabitləşmişdir. «**Bolur**» sözü hazırda Türkmənistanın Gerki rayonunda makrotoponim kimi işlənməkdədir» [13, s. 185-186].

Bolur çekir nəslinin arsarlar qəbiləsinin tirəsidir. Dialekt və şivələrdə bolur, ədəbi dildə bolar, bolyar kimi qeyd olunur. Hərfi mənası «olar, var» deməkdir [33, s. 34].

Qeyd etməliyik ki, **a**>**o** keçidi, yəni **a** saitinin labiallaşması başlıca olaraq, Azərbaycan ədəbi dilinə aiddir. **A** səsinin **o** səsinə keçidini Azərbaycan dilinə tat dilinin təsiri kimi də əlaqələndirirlər. Belə bir fikir **a**>**o** keçidinin dialekt və şivələrdə, habelə digər qohum dillərdə mövcudluğu bu hadisənin, ümumiyyətlə türk dillərində labializasiya prosesi ilə əlaqələndirilməsi ehtimalının ortaya çıxmasına səbəb olmuşdur. **O** saitinin **u** saitini izləməsi oğuz qrupu türk dillərindən biri olan Azərbaycan dilində



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

özünü daha bariz göstərir [31, s. 14-15, 69]. Bizcə, **Bolu** sözü «**balı**»nın tarixən fonetik şəklini dəyişmiş variantıdır. Bu da, Azərbaycan dilində yeni sözyaratma prosesinin güclü olmasına daha bir dəlildir.

**Bamaq** felinin mənasını nəzərə alsaq, bizcə, **Balı**//**Bolu** şəxs adı «müəmmalı, qılaflı», «ağzıbütöv, etibarlı» anlamını bildirir.

**Beyrək**

- Beyrək bavamı xanın dədəsi didərgin salıf Qubadan, mən də düşüm didərgin? [29, s. 75].

Beyrək DTS-də: «Bek II – möhkəm, davamlı; Bekrdk – ali, üstün, artıq, çox gözəl, çox yaxşı [35, s. 92, 93]; ŞAL-da: «k. Müharibədə ordunun mərkəzi və yan tərəfləri (sağ və sol cinahları) [2, s. 69]; AŞAİ-EL-də isə: «(t.) – 1. Balaca qurd. 2. Bəylər bəyi, bəylərin yüksəyi. 3. Rəmzi mənası: qüvvət, səadət» [15, s. 32] kimi verilmişdir.

M.Çobanov **Beyrək** adının yaranıb şəxs adı kimi işlənməsini qədimdən XII əsrə qədərki dövrə aid edir [13, s. 71].

Bizcə, Beyrək «iradəli, dözümlü, mərifətli kişi» anlamındadır.

**Böyükkişi**

- Böyükkişi indi işi işdən keçirmisən [20, s. 316].

Öncə, iki komponentli mürəkkəb şəxs adının – **Böyük**+**kişi** – birinci komponenti haqqında olan qeydlərə diqqət yetirək.

**Böyük** «kəmiyyətcə iri, başçı, rəhbər; sifət kimi gücləndirici və s.»; **boy** «bədənin uzunluğunu, qədd, qaməti-böyümək, inkişaf etmək və s.» [4, c. 1, s. 312, 300] anlamı bildirir.

Mirzə Kazımbəyin fikrincə, rus dilində **buydanğ** - «hündür yer» türk dilində çıxışlıq halında olan **buydan** (boydan); rus dilində **buynıy** – «sıx və hündür yetişmiş» (taxıl) tatar dilində **buylıq** «yetişmiş yaxşı məhsul» - **buy-boy** və –**lıq** -əlamət bildirən şəkilçi; rus dilində **buətğ** - «böyümək» türk və tatar dillərində **buyumaq** – böyük olmaq, böyümək anlamlı feli ilə həqiqətən uyğun gəlir [40, s. 34-37].

Tonyukuk Boyla bağa tarqan titulunu daşıyırdı. **Boy** «tayfa, nəsil, insanların bir yerə toplaşması» deməkdir; **-la** isə sifət düzəldən şəkilçidir [35, s. 110, 656].

M.İ.Yusifov **o**>**ö** keçidinin türk, qaqauz və türkmən dillərində daha çox, Azərbaycan dilində isə yalnız dialektlərdə müşahidə olunduğunu, **ö** saitinin **ü** saitini izləməsini oğuz qrupu türk dillərinə xas olduğunu göstərir [31, s. 20, 70].

**O**>**u** keçidinin qıpçaq və oğuz dillərində, xüsusilə tatar və başqırd dillərində daha fəal işlənməsini və müvafiq olaraq, saitlərin **u-ı**, **ö-ü** izlənməsi faktını (buylık) [31, s. 21, 67, 70] da nəzərə alaraq, demək olar ki, (boy>buylık)>böyük türk dillərinin fonetik xüsusiyyətlərini nümayiş etdirən sözlərdən biridir.

XV-XVI əsrlərdə üzü köçürülən «Oğuznamə»də olan bir el məsəli diqqəti cəlb edir: «**Xatun kişilər** üç nəsnədən çökər: bir oğlan toğurmaqdan, bir geyəsi yumaqdan, biri un yoğurmaqdan» [42, s. 97].

«Oğuznamə»də toplanmış atalar sözü və məsəllərin böyük əksəriyyətinin dilinin tarixən əvvəlki dövrlərə (IX-XI əsrlər) aidliyini nəzərə alsaq [42, s. 6], ehtimal etmədən, deyə bilərik ki, bu məsəldə **kişilər** sözü «**qadınlar**» deməkdir.

M.Kaşğari «kişi» sözünün yağma dialektində «kişinin arvadı» və «Kişi al!» «evlənmək» mənasında olduğunu göstərmişdir [35, s. 646].

Ş.Xəlilov yazmışdır: «…kişi-adam …Bu dil faktları «Yusif və Züleyxa» poemasında XIII-XIV əsrlər ədəbi-bədii dilimizin leksik qatının hərtərəfli öyrənilməsi işində əvəzsiz bir mənbədir» [17, s. 38-39].

Böyükkişi onomastik vahidinin ikinci komponenti - **kişi** - aşağıdakı məna çalarına malikdir:

1) insan, insanpərvər; 2) arvadın əri; 3) tarixi: ərin arvadı; 4) məc. mərd, namuslu, qeyrətli; 5) hər kəs, şəxs; 6) hörmət əlaməti olaraq yaşlı kişilərin adlarına əlavə olunur [6, c. 3, s. 77; 35, s. 310, 646; 41, s. 401].

Türk mənşəli Böyükkişi kişi şəxs adı, bizcə, ŞAL-da qeyd olunduğu kimi, «böyük hörmət sahibi, tanınmış adam, hörmətə layiq insan» [2, s. 86] mənasını bildirir.

**Bürcü Sultan**

1) İstambul xotkarının Bürcü Sultan adında bir oğlu var idi [20, s. 38];
2) Bürcü Sultan dönüb əlindəki nizəni Koroğluya atdı [20, s. 39];
3) Emma özünü Kudaly Reyhan diyenin inisi (qardaşı - A.S.) Burjy beg tizden toy edip, şol qyzy aljakmyş - diyip [45, c. 3, s. 184].

Bayatlı Oruc bəy məmlük bürcü sultanı Sultan Bürcünün 1481-1512-ci illərdə Misirdə hökmranlıq etdiyini qeyd edir [38, s. 196].

«İslam ensiklopediyası»nda yazılmışdır: «… Sultan Berkikin dövründən etibarən (784-801=1382-1398) hökmdarlar məmlüklərdən seçilmişlər. Misir taxtına oturan ilk məmlükün Baybars II olması ehtimal olunur. Sonuncusu isə I Səlim tərəfindən 1517(922)-də edam edilən Tuman Baydır» [46, c. 2, s. 805].

**Bürc** süryani «burqus» sözünün ərəbləşmiş şəklidir. Bu söz astronomiyada işlənir [46, c. 2, s. 805].

**Bürc**[1], isim (ə.) - qədim şəhər hasarının üzərində müşahidə və müdafiə qülləsi; qala çıxıntısı; **Burc**[2],



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

isim(ə.) (astr.) - göydə günəş dairəsinin bölündüyü 12 qisimdən hər biri [4, c. 1, s. 339; 35, s. 132] deməkdir.

DTS-də **Bürçüy** şəxs adı kimi də qeyd olunur [35, s. 133].

1-ci və 2-ci nümunədə **Bürcü Bürcü Sultan** ayrı yazılan mürəkkəb şəxs adının birinci komponentidir. 3-cü nümunədə isə sadə şəxs adıdır.

**Soltan** isimdir, ərəb mənşəlidir: «sultan, padşah, hökmdar» [7, c. 4, s. 96] anlamındadır.

Aydın Paşa yazır: «**Sultan**//**soltan**. Bu, «hökumət, hakimiyyət» mənasında işlənir və Abbasilər dövründə yaranmışdır. İlk dəfə Harun ər-Rəşid öz vəziri Cəfər Bərməkiyə fəxri ad kimi «sultan» titulunu vermişdir. Sonralar xilafətə tabe olan əyalət hökmdarlarına da verilən bu titul Sultan Mahmud Qəznəvi dövründə ən yüksək titula çevrilmişdir» [25, s. 191].

I Murad (1361-1389) hakimiyyətdə olan sülalənin qüdrətliliyini xüsusi nəzərə çatdırmaq üçün ölümündən az əvvəl **sultan** titulunu qəbul etmişdi [37, h. 2, s. 76].

ŞAL-da **sultan**: «(ə.) – k.q. Hökmdar, padşah, imperator; qüdrət, qüvvət. Osmanlı imperatorluğu zamanında dövlət başçısının anasına, bacılarına və qızlarına verilən addır. Bir sıra adlarla birləşərək mürəkkəb adlar yaradılır: Sultanağa, Sultanbəy, Sultanbəyim və s. [1, s. 321]; AŞAİ-EL-də isə: «(ə.) - hökmdar, padşah, şah» [15, s. 146] kimi verilmişdir. Qeyd etməliyik ki, pulla oynanılan aşıq oyunu sultan adlanır (Yeravan): Sultan oynuyan gəlsin [3, s. 366].

Bizcə, **Bürcü Sultan** ərəb mənşəli iki sözün birləşməsindən əmələ gəlmişdir.

**Dərviş**

Deyirlər ki, Koroğlunun kimyagər Dərviş adında bir həkim dostu var idi [20, s. 79].

Araşdırmalara görə, aysorların (assurlar) **Baz**//**Bəz** qəbiləsi kürdlərin labüd basqınlarından qorunmaq üçün Atur şəhərindən qaçıb Artum əyalətinin Şivaxale kəndində məskunlaşır. Əsrlərlə burada yaşayan **Baz**//**Bəz** qəbiləsi həmişə Evnan adlı ağsaqqalı hörmətlə yad edirdi. Evnandan sonra Daryavuşun, qısaca, Dərvişin adı ehtiramla çəkilir. Dərviş Mosul yaxınlığında yaşayan Muzul kürd tayfasına qarşı mübarizəyə başçılıq etmişdir [39, s. 21].

Həm antroponim, həm də adi dil vahidi olan **dərviş** mənbələrdə fars mənşəli söz kimi verilir və belə açıqlanır: «Dərviş, is., [fars]. 1. Qapı-qapı gəzərək, yaxud meydançalarda adamları başına yığaraq peyğəmbərə, imamlara və Kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyub, pul yığan adam; 2. Yoxsul, kasıb, fağır, yazıq» [5, c. 2, s. 72]; «Bu adın «Dərviş» biçimi də vardır. Dini təriqətə mənsub olan, sərsəri həyat sürən adam …» [2, s. 119].

H.Həsənov, digər tədqiqatçılardan fərqli olaraq, dərviş sözünün ilkin variantını da qeyd etmişdir. Lakin o, **dəravüş** sözünü «dərvişlər» kimi göstərmişdir. Onun fikrincə, **dərviş** - danışmaq və müxtəlif oyunlar göstərməklə pul qazanan adam; fağır, yoxsul; sufi təriqətlərindən birinə mənsub adam anlamındadır [15, s. 44].

Türkmən dilində **dervüş** – «tərki-dünya, zahid» [41, s. 260] mənasında işlənir.

Bizcə, **Dərviş** qədim tarixə malik antroponimdir.

**Eyvaz**

1) Məni qurtarmağa gəlsə Eyvaz, Dəmirçioğlu Həsən, ya da İsabalı gələr [19, s. 91].

Azərbaycan dilində Eyvaz sözü yoxdur; ADİL-2-də verilməmişdir, **əvəz** isə ərəb mənşəli isim, qarşılıq bir şeyin (adamın) yerini tuta bilən, mükafat, muzd, haqq, qisas, intiqam, öc [5, c. 2, s. 228]; türkmən diliində isə **övez** «dolmaq, doldurmaq, ödəmək»; kişi şəxs adı [41, s. 496] anlamındadır.

**Eyvaz** AŞAİ-EL-də türk mənşəli, kişi şəxs adı, düzülmüş, düzəlmiş, qaydaya salınmış; «ərəbcə əvəz deməkdir» qarşılıq [15, s. 49-50], ŞAL-da Eyvaz kişi adı, ərəbcə «əvəz»in dəyişilmiş biçimi, Türkiyədə başqa millətlərdən olan xidmətçilərə verilən ad [2, s. 135], **əvəz** isə ADİL-2-də olduğu kimi verilmişdir.

«Koroğlu» dastanının Azərbaycan və türk variantında **Eyvaz**ın **Ayvaz** şəklinə də rast gəlirik. Məs.:

1) Ayvaz yavaş-yavaş geridən gəlirdi [22, s. 157];

2) Gel Ayvaz'ım, dolaşalım dağları
Vay elləri, dost elləri [43, s. 10].

A.Nəbiyev «Eyvaz»ın «Ayvaz» kimi verilməsini bu adın rus dilinə tərcümə edilməsi ilə əlaqələndirir [22, s. 180].

**A** saitinin **a** saitini izləməsi prosesi oğuz qrupu dillərində **a** saiti ahənginin güclü olması ilə izah olunur. **A-a** saitlərinin biri-birini izləməsi və bu qanunauyğunluğun möhkəmliyi Azərbaycan dialektlərində də özünü bariz bir şəkildə göstərir [31, s. 52-53]. Dastanın Azərbaycan və türk variantından verilən nümunələrə əsasən, demək olar ki, **Eyvaz** → **Ayvaz** oğuz qrupu türk dillərinin malik olduğu **a** saiti ahənginin dil faktı kimi real nümayişidir.

3) – Öwez jan, ümür-duman asman-pelede çykya, dyzylbaş gelipmika diyyan? [44, c. 2, s. 312].

Dastanın türkmən variantından olan bu nümunədə **ə>ö** və **ə>e** keçidi baş vermişdir. Bu da, dilin qanunauyğunluğu ilə əlaqədardır [31, s. 25].


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4) Koroğlu çun bu sözü Eyvəz balıdan eşitdi, qəzəbdak oldu [23, s. 175].

**a>ə** keçidi qıpcaq dillərində, xüsusən qazax və tatar dillərində daha çox yayılsa da, bu nümunənin gürcü variantı olduğunu nəzərə alaraq, **a>ə** keçidinin Azərbaycan dilinin qərb və şimal dialektləri üçün xarakterik olduğunu qeyd etmək olar [31, s. 23].

5) Dedilər, bu oğlanın adı Eyvaz Balıdı [21, s. 21].

4-cü və 5-ci nümunədə Eyvaz - Eyvəz balı//Eyvaz Balı mürəkkəb kişi şəxs adının birinci komponentidir. **Balı** haqqında isə əvvəldə açıqlama verilmişdir.

**Əvəz** sözünün real açıqlamasını bildiyimizdən, bu sözün şəxs adı kimi belə anlamda işlənməsini ehtimal edə bilərik: «könülə məlhəm, mərd, qoçaq».

**Gülbəngi**

Dağıdar ölkəni, çövürrəm taxtın,
Bularam cəmdəyin qana, Gülbəngi! [19, s. 192].

**Gülbəngi**, bizcə, üç komponentdən ibarətdir: **Gül+bəng+i.**

**Gül** fars mənşəli «**çiçək**» (danışıqda «qızılgül» mənasında da işlənir) anlamlı isim kimi açıqlanır [6, c. 3, s. 206]. ADİL-3-də «gül»ün bir çox çaları qeyd olunmuşdur, lakin araşdırmalar göstərir ki, mürəkkəb kişi və qadın şəxs adlarının komponentlərindən birini məhz çiçək mənalı «**gül**» təşkil edir.

**Bəng** fars dilində «anaşa» mənasına malikdir (xaşxaş bitkisinin şirəsindən alınaraq tiryək kimi çəkilir); **bəngi** (fars) – anaşa çəkən, bəng düşkünü [9, s. 19] deməkdir; **-i** onim şəkilçidir.

Bizcə, **Gülbəngi** «kefcil, həyatı olduğu kimi qəbul edən, bu günü ilə yaşayan, heç nəyi özünə dərd etməyən» anlamlı antroponimdir.

**Qənbər**

1) Yolun bir məqamında gözünü dolandırıf Qənbər xanı yaxında görəndə dilləndi [29, s. 81];
2) Bunlardan birinin adı Məmməd, o birinin adı isə Qənbər idi [21, s. 166];
3) Qalasını qezip, Mirim dien, Qammar dien iki oqlanı xalap alıp qaytdı Köse [34, s. 155].

**Qammar**//**Qəmbər**//**Qənbər** onomastik vahidlərini izah etməzdən öncə, F.Cəlilovun **Qam** teonimi haqqında olan mülahizələrinə diqqət yetirək. O yazır: «Qədim Ön Asiya xalqlarının dilində «müqəddəs» anlamlı **kum** sözü geniş yayılmışdır. Görünür, **Qam** teonimini Şərqə aparan türk etnoslarının Gündoğana köçü lap qədim dövrlərdə olmuşdur, çünki həmin teonim yapon dilində **kami** (tanrı) və **kami-kami** (tanrılar) şəklində mühafizə olunmuşdur. Azərbaycanda **Qam-qam piri**, **Kamo piri** adları «müqəddəs» anlamını bildirsə də, **Qam** teoniminin kahin anlamına çevrilib, indi Azərbaycan dilində qorunmasa da, digər türk dillərində mühafizə olunmuşdur. Həmin teonimin **-an**,**-uq**,-ər morfemləri, yəni etnonim və etnotoponim düzəldən şəkilçilərlə işlənib tayfa adına çevrilməsində özünü göstərir. Eradan əvvəlki minilliyin başlanğıcından tutmuş ta ortalarına qədər Anadolu, Krım, Qafqaz və Ön Asiyada görünən **qamər** (qam-ər, kam-ər) tayfaları müxtəlif dilli mənbələrdə **kimmer** (yunan), **qimirri** (assur), **qomer** (Bibliya), **qamer** (erməni) şəklində verilir. Göründüyü kimi, praazərbaycan tayfaları ilə daha yaxın kontaktda olan ermənilərin dilində (qədim erməni mənbələrində) **qamər** tayfasının adı daha dəqiq (qamer) verilmişdir» [12, s. 97-98].

ASE-5-də verilmiş daha bir məlumat nəzəri cəlb edir: «Kimmerilər, kimmerler (aşşur dilində kimirra, yun. kitterion.) – e.ə.8-7 əsrlərdə Qara dənizin şimal sahillərində məskunlaşmış tayfa birləşməsi. E.ə.7 əsrin 70-ci illərində kimmerlərin bir qrupu Kiçik Asiyanın Kappadokiya vilayətində Qamirra ölkəsini yaratmışlar» [10, c. 5, s. 380].

Bakı dialektində çay daşı anlamında **qəmbər** sözü vardır [3, s. 127].

H.Həsənov **Qənbər** antroponimini həm türk mənşəli – çaydaşı, çaylaq daşı; məc. çox sərt, möhkəm; sadiq xidmətçi; məc. burnunu hər deşiyə soxan adam; həm də ərəb mənşəli - torağay (quş); kölə anlamlı [15, s. 93] söz kimi vermişdir.

Aydın Abi Aydın **Qənbər** kişi şəxs adının hansı dilə mənsub olduğunu göstərmir. Yalnız «torağay» anlamının ərəbcə olduğunu ehtimal edir. O da **Qənbər** onomastik vahidinin çay daşı, çaylaq daşı; bir ailəyə yaxın olan adam, sadiq xidmətçi; məc. burnunu hər işə soxan adam [2, s. 228] anlamına malik olmasını qeyd edir.

Bizcə, türkmən dilində **Qammar**, Azərbaycan dilində **Qəmbər**//**Qənbər** antroponimlərini qədim tarixə malik türk etnoslarının fonetik dəyişikliyə uğramış **Qam** teoniminin yadigarı və «müqəddəs, kahin, ulu» anlamına malik söz kimi qeyd etməliyik.

Yerevan yaxınlığındakı Qəmərli, Azərbaycanda Kəmərli adlı kəndlər həmin qamer etnonimini əks etdirir [12, s. 98].

**Mahmud**

1) Mahmud paşa Koroğludan çoxdan yanığlıydı [19, s. 58];
2) …və yetişdim bir obaya ki, o obanın sahibi Mahmud xan ləzgidür [23, s. 174];
3) Gazadym bar Gandybile,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah ogly Mahmyt jan yörsün! [44, c. 2, s. 262];

4) Qızıb çəkərəm haşanı,
Sən qılarsan tamaşanı,
Bir muy saymaram paşanı,
Qəmər üzlü Məhbub xanım! [20, s. 178].

Bizcə, **Mahmud** üç komponentdən ibarətdir: **Mah**+**mu**+**d**.

Tədqiqatçılar **Mahmud** sözünün bir neçə mənasını qeyd etmişlər: «1) peyğənbərimizin adlarından biri; 2) İbrehenin Kəbəni yıxmaq üçün gətirdiyi filin adı; 3) Mahmud-ülhisal-yaxşı əxlaq sahibi»[47, s. 578-579].

M.H.Təhmasib orta əsr Azərbaycan xalq dastanlarından bəhs edərkən, «Mehr və Mah», «Mah-Mehri» dastanlarını da vurğulamışdır [30, s. 413].

**Mah** fars mənşəli, ay (planet), ay (təqvim); **mu** fars mənşəli, saç, tük, tel anlamlı söz; **d**//**t** samiti isə, «nadir halda olsa da», qədim türk dillərində cəm şəkilçisidir [14, s. 328, 396; 6, c. 3, s. 342; 35, s. 663].

**Mahmud** adı tədqiq olunmuş mənbələrdə ərəb mənşəli, tərifli, təriflənmiş, bəyənilmiş, tanınmış, şöhrətlənmiş, tərifə layiq [15, s. 98; 2, s. 329; 9, s. 106] anlamlı qeyd olunmuşdur.

Bizcə, fars mənşəli **mah**, **mu** sözlərindən və qədim türk mənşəli **-t** cəm şəkilçisindən əmələ gələn **Mahmud** kişi şəxs adının «bəyaz saçlı, nurani» mənası vardır.

XI əsrdə yaşamış, üç cildli tədqiqat əsərinin – Divanu Luqat-ut-türk – müəllifinin adı Mahmud//Mahmut Kaşqaridir.

Qeyd etməliyik ki, Mahmudabad adlı antropooykonimə Ərdəbildə, Əhərdə, Meşkinşəhrdə rast gəlinir.

XVI-XVIII əsrlərdə Van gölünün şərqində yaşamış və sonralar digər tayfalarla qaynayıb-qarışaraq Zaqafqaziyanın və xüsusilə Azərbaycanın müxtəlif zonalarına səpələnmiş Mahmudlu(Mahmudi) adlı tayfa tərəfindən salınmış və onların etnik adı ilə adlandırılmış yaşayış məntəqələri olmuşdur [16, s. 69].

**Mənsur**

1) Düşmən gözün oyum-oyum oyaram,
Mənsur kimi dərisini soyaram [20, s. 86];

2) Mansır tək dərin soydurram,
Bolu, mən səni, mən səni [22, s. 93].

3) Deyilənlərə görə, o, bir dəfə cavanlıqda Alacalar dağında bərk dara düşüb, yeddi gün, yeddi gecə mansırada qalmışdı [20, s. 82].

Bizcə, **Mənsur** ərəb mənşəli mürəkkəb kişi şəxs adıdır: **Mən**+**sur**.

**Mən**[3] – qadağan etmə, qabağını saxlama, buraxmama; **sur** - əhər divarı, qala divarı; **mənsur**[2] isə qələbə çalmış, üstün gəlmiş [14, s. 353, 573, 356] deməkdir.

Y.Seyidov IX əsrin sonu X əsrin əvvəllərində yaşayıb-yaratmış Şərqin böyük sufi şair və filosofu Mənsur Həllacı–Həllac Mənsur Hüseyni Nəsiminin ideya qaynaqlarından birincisi kimi göstərmişdir. Onun fikrincə, Nəsimi belə hesab edir ki, Mənsur öz ölümü ilə də qələbə çalmışdır və o, «**Mənsur**» sözünün lüğəvi mənasından istifadə ilə maraqlı bir təzad yaradır və vəcd ilə yazır:

«Nə qeyrətli ənəlhəqdir bu, yarəb,
Ki, Mənsuri asar darinə Mənsur» [28, s. 13-16].

ADİL-3-də **mənsur** (ə.) nəsrlə yazılmış (mənzum əksi) [6, c. 3, s. 296]; ŞAL-da **Mansur** (ə.) qələbə çalmış üstün gəlmiş, qalib [2, s. 240]; AŞAİ-EL-də **Mansur** (ə.) qalib, müzəffər, qələbə çalmış; üstün gəlmə, kömək olunmuş; nəsr; dağılmış, səpələnmiş; seçilmiş; qazmaçı; **Mənsur** (ə.) dağınıq, pərakəndə; nəsr; qələbə çalma [15, s. 99, 103]; hətta ADDL-də **mansıra** (Noreşen), is.- **mühasirə** (Onda mınnarı mansıraya salmışdılar) [3, s. 315] anlamındadır.

**A** saitinin incələşməsi hadisəsi, yəni **a-ı** ahəng sırası istər oğuz, istərsə də qıpçaq tipli dialektlərdə [31, s. 58] müşahidə olunur. 2-ci nümunədəki **Mansır** və Noraşen dialektindəki **mansıra** bu dil hadisəsini göstərən dəlildir.

Bizcə, dastandan verilən 3-cü nümunədə «**mansıra**» bu gün dialektdə yaşayan və «**mühasirə**» anlamlı bir söz kimi, **Mənsur** onomavahidinin apelyatividir.

Bizcə, **Mənsur** bitişik yazılan, ərəb mənşəli, kişi şəxs adı olub, «qalib, səbrli, dözümlü, mübariz» anlamlı antroponimdir.

**Mirzə**

1) Bir qulum qaçıbdı, adıdı Mirzə [19, s. 167];
2) Buların (çobanların. – A.S.) baştutanına Şax Mürze dier eken [34, s. 108];
3) Kankanoğlu axşamı araya salıb dostu kankan Mirzəlini də götürdü… [20, s. 319];
4) Adım da İmirzədi [20, s. 183].

**Mirzə** fars mənşəli, «**əmirzadə**»nin, **mir** fars mənşəli, lakin ərəbcə «**əmir**» sözünün ixtisarıdır [14,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

s. 388].

Aydın Paşa araşdırmalarında yazır: «Ərəbcə «əmir» və farsca «zadə» sözlərindən düzələn bu titul - Mirzə - «əmir oğlu» mənasında işlənmişdir. İlk dəfə Əmir Teymurun övladlarına verilən bu tituldan sonra digər əmir övladları da istifadə etmişlər. A.Qafurov göstərir ki, sonralar savadlı adamlara da «Mirzə» ləqəbi verilmişdir. «Əmirzadə»lərlə «mirzə»ləri fərqləndirmək üçün ləqəb «mirzə»lər addan əvvəl, əmir oğlanlarını bildirmək üçün onlar addan sonra işlənmişdir» [25, s. 195].

AŞAİ-EL-də və ŞAL-da bu söz fars mənşəli qeyd olunmuşdur [15, s. 106; 2, s. 249].

Burada verilən nümunələrdə **Mirzə** şəxs adıdır. **Mirzə** şəxs adını «**əmirzadə**»nin ixtisarı kimi nəzərə almasaq, 1-ci və 4-cü misalda **Mirzə** sadə şəxs adıdır. 2-ci və 3-cü misalda isə mürəkkəb şəxs adlarının komponentləridir, yəni 2-cidə ikinci komponenti, 3-cüdə isə birinci komponentidir. İkinci nümunədə Şax Mürze ayrı yazılan mürəkkəb şəxs adıdır; türkmən dilinin xüsusiyyətinə əsasən, burada **i**>**ü**, **ə**>**e** keçidi – **Mirzə**>**Mürze** – baş vermişdir. 3-cü nümunədə isə Mirzəli bitişik yazılan mürəkkəb şəxs adıdır: Mirzə + Əli.

Dilimizin qanunauyğunluğuna görə, Mirzə alınma sözünün əvvəlinə dialekt və şivələrdə **i** saiti artırılmışdır: Mirzə>İmirzə.

Bizcə, tarixi-leksik mənası əsilzadə olan bu söz ancaq «əsilzadə, hərəkətləri, sözü ölçülüb-biçilmiş, ağayana» anlamında ola bilər.

**Rüstəm**

«Koroğlu» dastanı qəhrəmanlıq eposu olduğundan, süjet xətti boyu, yeri gəldikcə, Koroğlu və onun dəliləri Şərqin görkəmli şəxsiyyətləri ilə müqayisə edilir, onlara bənzədilir. Belə ki, Şərqin əfsanəvi igidlərindən olan Rüstəm//Rüstəm Zalın adını nümunə göstərmək olar.

1) … Rüstəm kimi igid, Yusif kimi gözəl bir oğlan taparam [20, s. 83];
2) Meydanda Rüstem sıpatı,
3) Pəlvan yiqitleri bardır [34, s. 121].

Dastanda tez-tez adı çəkilən və qəhrəmanlığı hər bir igid üçün örnək olan **Rüstəm** iranlıların xalq deyimlərinin əfsanəvi, sevimli qəhrəmanlarındandır. Bir qrup müəllif **Rüstəm** haqqında maraqlı mülahizələr söyləmişdir.

Circi Zeydanın 1906-cı ildə yazdığı «Əl-Əmin və Əl-Məmun» romanının «Şərhlər» hissəsində qeyd edilir ki, **Rüstəm** e.ə.VI əsrdə yaşamışdır [36, s. 319].

Ə.Bakuvi isə İran tarixində xüsusi yeri, mövqeyi olan, adlarını çəkdiyi 10 nəfərdən 5-cisinin Zal oğlu Rüstəm əş-Şədid olduğunu göstərir. Əş-Şədid ərəbcə «qüdrətli» deməkdir. Müəllif yazır ki, deyilənə görə, onun kimi at sürən olmayıb, həm də o, İran əfsanəsinin qəhrəmanıdır [11, s. 64, 163].

N.Kərəmov Azərbaycanın görkəmli alimi, səyyahı, coğrafiyaşünası, dövrünün ziyalısı H.Z.Şirvaninin həyat və yaradıcılığına həsr etdiyi «Qırx il səyahətdə» adlı əsərində göstərir ki, H.Z.Şirvani tarixçilərin araşdırmalarına əsaslanaraq yazır ki, Nəriman Cəmşid oğlu Kərşasibin qardaşı oğlu idi. Şərq əfsanələrində məşhur olan Rüstəm Zal pəhləvanın nəslindən, onun babasının, atasının və özünün nə cür meydana gəlməsindən, hansı nəslə mənsub olmalarından geniş danışır. Axırda Rüstəm Zalın 60 yaşında vəfat etdiyini göstərir [18, s. 80].

Bunlarla yanaşı, V.İ.Abayevin araşdırmalarında Rüstəm haqqında olan məlumat diqqəti cəlb edir: «Fars-tacik eposunda skif//sak, massaget cərəyanı aydın görünür… …Firdovsinin «Şahnamə» əsərinin sevimli qəhrəmanı, məğlubedilməz bahadır **Rüstəm** Seistandan, skiflərdəndir (Sakastan «sakların dövləti»). O eləcə də adlanır / Sag ir, sagzi, yəni, «saklı».» [32, s. 85-86].

**Rüstəm Zal** haqqında məlumat verən müəlliflərin araşdırmalarına əsasən, bizcə, belə nəticəyə gəlmək olar:

1. Rüstəm e.ə. VI əsrdə yaşamışdır.
2. Rüstəm əş-Şədid Zal oğlu İran tarixində öz yeri olan 10 nəfərdən biri olmuşdur.
3. Rüstəm tarixi şəxsiyyət olub, 60 yaşında vəfat etmişdir.
4. Rüstəm Seistan//Sakastan, yəni saklar dövlətindən, skiflər ailəsindəndir.
5. Rüstəm Ə. Firdovsinin «Şahnamə» əsərinin basılmaz, igid qəhrəmanlarından biridir.

Beqofta berəstəm cəm aməd besər,
Nəhadənd Rostəməş nam pesəp [48, s. 213].
(Dedi: ğəm sona çatdı/Oğlanın adını Rüstəm qoydular).

**Rəst** fars dilində «qurtulma, qurtuluş, xilas oldu» [14, s. 518] deməkdir. Müəllif Zalın çətinliklə dünyaya gələn oğluna ad verilməsini belə təsvir etmişdir. Burada **ə**>**ü** keçidi və I şəxs təkin **-əm** -şəkilçisi ilə «**Rüstəm**», yəni «qurtuldum, xilas oldum» anlamlı yeni ad, antroponim əmələ gəlmişdir.

Doktor Məhəmməd Moin araşdırmalarında qeyd edir ki, orta fars dilində **Rüstəm RWSTAHM** şəklində işlənmiş, dilin sonrakı inkişaf mərhələsində **Rostam** formasına keçmişdir [51, s. 539]. Mehreban Kəştasbpur Parsi isə, «Avesta»da **Rüstəm** sözünün iki komponentdən ibarət olduğunu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

göstərir. Onun fikrincə, burada **rao-zo ROSTƏN** sözünün birinci komponenti olub, bütövlükdə «bitmək, böyümək» anlamındadır. İkinci komponent **təhm** və ya **toxm** sözüdür. Bu da, «nəsil» mənasını bildirir. Beləliklə, **Rüstəm** leksemi «güclü bədən», «güclü», «iricüssəli» kimi açıqlanır [50, s. 118].

Bundan başqa, Mohəmməd Əbbasi [52, s. 80], Fəride Danai [49, s. 123] də öz araşdırmalarında Mehreban Kəştasbpur Parsinin mülahizələrini eynilə təkrar etmiş, A.Paşa da **Rüstəm** adını fars mənşəli, «bədənli, güclü» anlamlı söz kimi açıqlamışdır [25, s. 193].

«Ərəb və fars sözləri lüğəti» adlı kitabda **Zal** sözü belə izah olunur:

Zal$^{1}$ (ə.) - yaşlı adam, ağsaqqal adam;

Zal$^{2}$ (ə.) - ərəb əlifbasında ذ işarəsi ilə yazılan hərfin adı;

Zal$^{3}$ (ə.) - albinos (piqment azlığı nəticəsində dəri və tükləri həddindən artıq ağ olan adam və ya heyvan) [14, s. 208].

**Zal** lekseminin mənası Ə.Firdovsinin «Şahnamə» əsərində belə verilmişdir:

Beçehre cenan bud bər san-e şid,
Vəlikən həme muy budəş sepid [49, s. 145].
(Siması günəşə bənzər, gözəl idi, / lakin bütün saçları ağ idi).

Deməli, Samın doğulan oğlunun tükləri tamam ağ olduğundan ona **Zal** deyirlər. «Zal» adı «Koroğlu» dastanında Rüstəm antroponiminin ikinci komponenti kimi də - Rüstəm Zal - işlədilir. Məsələn:

3) Həm Rustamı-Zalam, həm də Salsalam…
Qənimlər üstündə uluyan mənəm [19, s. 154];

4) Bu qisası Rüstəm Zala qoymaram[20, s. 196].

«Şahnamə» əsərində **Rüstəm Zal** antroponiminə nəzər yetirək:

Əgər çe ke dər rəzm piruzqər
Bodi beh əzu Rostəm-e Zal-e zər [48, s. 219].
(Hərçənd ki, döyüşdə qələbə çalardı, / Rüstəm-i Zal-i Zər ondan yaxşı idi).

«Şahnamə»də işlədilən **Rüstəm-Zal** ifadəsinin izafət birləşməsi olmasını və bu söz tərkibinin Zalın Rüstəmi, yəni Zal oğlu Rüstəm anlamına malik olmasını demək mümkündür.

Azərbaycan klassik poeziyasında təyini söz birləşmələri ilə bərabər ərəb və fars tərkibli izafətlərdən də geniş istifadə edilmişdir: 3-cü nümunədə **Rustamı-Zal**, 4-cü nümunədə isə **Rüstəm Zal** mürəkkəb antroponimi ərəb və fars dillərinin qanunauyğunluğu olan izafət birləşməsinin xüsusiyyətini göstərən faktordur.

4) Bu meydanda bolsun Rüsdem söweşi [44, c. 2, s. 528].

Qeyd etməliyik ki, **Rüstəm** şəxs adı «Koroğlu» dastanının Azərbaycan variantında **Rüstəm**, **Rustam**; **Rüstəm Zal** isə **Rüstəm Zal**, **Rüstəmi-Zal**, **Rustamı-Zal**, türkmən variantında isə, əsasən **Rüstem**, bəzən də **Rüsdem** kimi verilmişdir.

**Rüstəm** «iri bədənli, cüssəli, güclü, yekəpər» [2, s. 296]; **rüs** (boy)+**təm** (güc), «nəhəng boylu, bədənli, cüssəli, enlikürək, şaqqalı, sağlam» [15, s. 131] mənaları ilə açıqlanır. Bizcə, **Rüstəm** «qurtulmuş, azad, güclü» deməkdir.

## ƏDƏBİYYAT

1. Altay xalqları // Y.Mahmudlu və b.Bakı,1996.
2. Aydın Abi Aydın. Şəxs adları lüğəti, Bakı, 2002.
3. Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, 1964.
4. Azərbaycan dilinin izahlı lüğəti. I c., Tərt., Ə.Ə. Orucov, Bakı,1964.
5. Azərbaycan dilinin izahlı lüğəti. II c., Red. Ə.Ə.Orucov, B., 1980.
6. Azərbaycan dilinin izahlı lüğəti. III c., Red. Ə.Ə.Orucov. B., 1983.
7. Azərbaycan dilinin izahlı lüğəti. IV c., Red. Ə.Ə.Orucov, B.1987.
8. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. I c., Bakı, 1967.
9. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti, Tərt. edənlər, A.M.Babayev, C.B.İsmayılzadə, Bakı, 1966.
10. Azərbaycan Sovet Ensiklopediyası, 10 cilddə, V c., Bakı,1981.
11. Bakuvi Ə. Kitab təlxis əl-əsar və əcaib əl-məlik əl-qəhhar, B., 1992.
12. Cəlilov F. Praazərbaycan teonimləri //Azərbaycan tarixi üzrə qaynaqların öyrənilmə problemləri, Bakı,1988.
13. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları, Bakı, 1998.
14. Ərəb və fars sözləri lüğəti, Tərt.ed.:B.T.Abdullayev və b., Bakı, 1966.
15. Həsənov H.Ə. Azərbaycan şəxs adlarının izahlı-etimoloji lüğəti, Bakı, 2002.
16. Həsənova A.B. Cənubi Azərbaycanın türk (Azərbaycan) oykonimləri. ND., Bakı, 1999.
17. Xəlilov Ş.X. Mustafa Zəririn "Yusif və Züleyxa" poemasının dilində türk mənşəli arxaizmlər //



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan dilinin tarixi leksikasına dair tədqiqlər, EƏTM., Bakı, 1988.
18. Kərəmov N. Qırx il səyahətdə, Bakı, 1977.
19. Koroğlu, Toplayanı, H.Əlizadə, Baki, 1941.
20. Koroğlu, Tərt. ed., prof. F.Fərhadov, Bakı, 1975.
21. 84 Koroğlu, Bakı, 1997.(Paris nüsxəsi)
22. Koroğlu,tərt.edəni, Y.İsmayılova, Bakı,1999.(Vəli Xuluflu)
23. Koroğlunun yeddinci məclisi. Koroğlunun Mahmud xanın qızı Ceyran xanımı gətirmək üçün Dağıstana getməsi. «Azərbaycan» jurnalı, 1990.
24. Qurbanov A.M. Azərbaycan dilinin onomalogiyası, Bakı, 1988.
25. Paşayev A. Azərbaycan antroponimiyasının leksik problemləri, Bakı, 1997.
26. Seyidbəyli E.M. Kəngərli elinin mənşəyi haqqında tarixi-etnoqrafik məlumat // Az. SSR EA Respublika Əlyazmalar fondu, Əlyazmalar xəzinəsində, VII c, Bakı, 1986.
27. Seyidov M. Azərbaycan mifik təfəkkürün qaynaqları, Bakı, 1983.
28. Seyidov Y.M. Nəsiminin şerlərində işlənən bir-iki şəxs adı haqqında // Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları, Bakı, 1987.
29. Söz dəyirmandakıdı..., Toplayanı və işləyəni Əli Qurban, Bakı, 1996.
30. Təhmasib M.H.Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, 1972.
31. Yusifov M.İ. Oğuz qrupu türk dillərinin müqayisəli fonetikası, Bakı, 1984.
32. Абаев В.И. Скифо-европейские изоглоссы. Москва,1965.
33. Атаниязов С. Словарь туркменских этнонимов, Ашхабад, 1988.
34. Гёр-оглы, Туркменский героический эпос, Моква, 1983.
35. Древнетюркский словарь, Л., 1969.
36. Зейдан Дж. Аль-Амин и аль-Мамун, роман, Л., 1977.
37. История стран Азии и Африки в средние века, В 2-х ч., Москва, 1987.
38. Книга Орудж бек Баята-Дон-Жуана Персидского, пер. с англ., Баку, 1988.
39. Лалаян Е.А. Айсоры Ванского вилайета. Тифлис, 1914.
40. Мирза А.К. Казембек. Объяснение русских слов, сходных со словами восточных языков // Изв.имп. АН по отд.русского яз. и словесности, т.1, С.-Петербург, 1852.
41. Туркменско-русский словарь, Ок. 40 000 слов, Москва, 1968.
42. Щербак А.М. Огуз-нāме. Мухаббат-нāме, Москва,1959.
43. Enver Uzun. Köroğlu. Trabzon, 1997.
44. Göroğlu, Turkmen Halk Destani, c.2, Ankara, 1996.
45. Göroğlu, Turkmen Halk Destani, c.3, Ankara, 1996.
46. Islam ansiklopedisi, c.2, Istanbul, 1993.
47. Osmanlıca-türkcə ansiklopedik böyük luğat, Istanbul, 1986.
48. Ferdovsi Ə. Şahname, Tehran, 1374, I, II cild.
49. Fəride Danai. Fərhəng-e namha - ye İrani, Tehran, 1355.
50. Mehreban Kəştasbpur Parsi. Gəncine - ye namha - ye İrani, Tehran, 1350.
51. Məhəmməd Moin. Fərhəng-e farsi, celd - e pəncom, Tehran, 1375.
52. Mohəmməd Əbbasi. Fərhəng-e namha - ye İrani, Tehran, 1357.

**Исследование личных мужских имен в эпосе «Кёроглы»**
**Резюме**

В данной выступлении в историко-географо-лингвистическом аспекте исследуются личные мужские имена, которые собраны из эпоса «Кёроглы» с азербайджанской, туркменской и частично турецкого вариантов (Балы, Бейрек, Боюккиши, Дарвиш, Махмуд, Рустам и др.).

Для изучения данного вопроса к исследованию привлекались научно-теоретические труды на азербайджанском, русском, персидском и тюркских языках ученых – историков,географов и лингвистов.

**Personal male names research in "Keroglu" epos**
**Annotation**

Personal male names, collected from "Keroglu" epos, are researched in this speech in historico-geographical and linguistic aspect. The names were taken from Azeri, Turkmenian and partly Turkish versions (Bali, Beyrak, Boyuk kishi, Darvish, Makhmud and etc.).

Scientific-theoretical works of the scholars, historians, geographers and linguists in the Azerbaijani, Russian, Persian and turkic languages are involved to studying of the mentioned problem.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# BAŞINA DOLANMAQ (DÖNMƏK); ƏLİNƏ (GÖZÜNƏ) DÖNMƏK DEYİMLƏRİNİN YOZUMU

***Seyfəddin Altaylı***
***Turkiyə***

Dil, insanlar arasında ünsiyyət vasitəsi olsa da, hər bir kəsin öz dili, öz milli kimliyinin və qan yaddaşının güzgüsüdür.Dil, həmişə tarixlə yanaşı yerimiş və daimi inkişaf prosesində olmuşdur[454]. Dilin özü sosioloji bir varlıq olmaqla yanaşı həm də bir millətin milli mənsubiyətinin bünövrədaşı olaraq qəbul edilən mədəniyyət abidəsidir[455].Türklər, dünyanın ən qədim və ulu xalqlarından biri olduğuna görə dünya mədəniyyətinə əvəzsiz bəhrələr vermişlər. Milli mədəniyyətlərini və onun əsl mənbəi olan dillərini də tarix boyu cilalaya-cilalaya ölməz bir mərtəbəyə yüksəltmişdir.Bugün müxtəlif Türk xalqları müxtəlif ləhcə və şivələrdə danışsalar da bu ləhcə və şivələr Türklüyün əlvan rəngli dil mədəniyyətinin çalarlarıdır. Türk xalqlarının danışdığı ləhcə və şivələrdə ən qədim tariximizdən və mifoloji yaddaşımızdan süzülə-süzülə gəlib bu günə kimi çıxan müxtəlif sözlər və deyimlər vardır. Məruzəmizdə Azərbaycan mədəniyyət dairəsində hər bir kəsin bildiyi iki deyimdən söz açaçağıq. Bəlkə də hər gün işlətdiyimiz **"başına dolanmaq (dönmək)", "gözünə (əlinə) dönmək"** deyimlərinin üzərində dayanıb yozumlamağa çalışacayıq. **Başına dolanmaq (dönmək), gözünə dönmək** deyimləri sevgi, əzizləmə, ululamaq mənasında işlədilir. Həddən artıq dəcəl olan, heç cürə ələ-ovuca yığışmayan və sözə baxmayaraq xata çıxaran uşaqlara ya bir kötək vuran və ya ondan bir burmac alıb ağladanlara, "yaxşı bir iş gördün, əcəb elədin, sağ ol" mənasında **əlinə dönmək** deyimi işlədilir.Türklərin qədim inamında mifoloji obrazlar özünü qabarıq göstərir. Onların içində "dönmək" feli isə özünə məxsus bir yerə malikdir. Lüğətlərdə bu felin bir mənası: Bir şeyin və ya bir şəxsin öz ətrafında fırlanması, hərəkət etməsi, dövr etməsi[456] şəklində təqdim edilir. Ancaq bu dönməyin bir də ən qədim inamlarımızla olan əlaqəsi də vardır.Kaşqarlı Mahmud əvəzsiz əsərinin ilk cildində yazır:"Tanrının dövlət günəşini Türk bürclərində doğdurmuş olduğunu və onların mülkləri (dövlətləri) üstündə göylərin bütün təğrələrini (fələklərini) döndürmüş olduğunu gördüm. Tanrı onlara Türk adını verdi və onları yerüzünün ilbayı qıldı."[457]Qədim Türk inamına görə bir şeyin ətrafında "dönmək" (fırlanmaq) onu ucaltmaq, ululamaq, əzizləmək mənasındadır. Ona görə də Orxun-Yenisey sahillərində tapılan Kül Tigin abidəsinin şərq üzündə deyilir:"Yuxarıdakı Türk Tanrısı və Türklərin müqəddəs yer və suları (ruhları-iyələri) belə ediblər: Türk xalqı yox olmasın deyə, xalq olsun deyə, atam İltəriş Xaqanı və anam İlbilgə Xatını göyün təpəsindən tutub (daha) yüksəyə qaldırıblar"[458].

Yeri gəlmişkən deməliyik ki, su, Türkün mifoloji inamında özəl bir yerə malikdir və **su kimi əziz ol**[459] deyimi də buna görə yaradılıbdır. Əvəzsiz ozanımız Dədə Ələsgər də "Dolanır" adlı şerinin ilk bəndində həmin mövzuya işarə edir:

Axşam-sabah, çeşmə, sənin başına
Bilirsən mi, necə canlar dolanır?!
Billur buxaq, lalə yanaq, ay qabaq
Şahmar zülfü pərişanlar dolanır[460].

Dədə Ələsgər burada çeşmənin, yəni suyun başına dünyada misli mənəndi olmayan gözəllərin dolandığını və onu beləsinə gözəl insanların əzizlədiyini, çeşmənin ruhunun bunu duymasını estetik bir şeir diliylə söyləyir.

Qədim Göytürk anlayışına görə dünya Türk dövlətinin ətrafında soldan sağa, yəni şərqdən qərbə sarı[461], yenə Türklərin mifoloji anlayışına görə göy isə "Dəmir Paz" adlanan Qütb Ulduzunun ətrafında fırlanır[462].

---

[454] Altaylı, Seyfəddin, Boynuna Torba Asmaq Deyiminin yozumu, Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə IV Uluslararası Folklor Konfransının Materialları, Bakı 2006, s. 344
[455] Altaylı, Seyfəddin, açm (adı çəkilən məqalə), s. 344
[456] Türkçə Sözlük, TDK Yayınları, Ankara, 2005, s. 567; Azərbaycan Dilinin İzahlı Lüğəti, c. I, s. 358; Çağbayır, Yaşar, Ötükən Türkçə Sözlük, c. 2, Ötükən yayınevi, İstanbul 2007, s. 1290; Doğan, D. Məhmət, Büyük Türkçə Sözlük, Vadi yayınları, Ankara 2001, s.343
[457] Kaşgarlı Mahmut, (çəv: Bəsim Atalay), TTK Basım evi, Ankara 1992, 3. baskı, I. c. s. 3
[458] Təkin, Talat, Orhon Yazıtları, TTK yayınları, Ankara 2006, s. 27
[459] Altaylı, Seyfəddin, Azərbaycan Türkçəsi Deyimlər Sözlüyü, Prestij matbaası, Ankara 2005, s.479
[460] Aslan, Havər, Azərbaycan Aşık Şiiri, Ədəbiyat Cəphəsi yayınları, İstanbul 1984, s. 69
[461] Ögəl, Bahaəddin, Türklərdə Dövlət Anlayışı, Başbakanlık basım evi, Ankara 1982, s.26


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qədim Hunlarda hər il yaz və payız qurultayları Lunğ Çınğ deyilən yerdə keçirilərdi, ancaq may ayında təşkil olunan qurultay ən möhtəşəm olandı. Bu qurultaylarda bir meşənin və ya yerə sancılmış ağac budaqlarının ətrafında dönmək-firlanmaq şərtilə cıdırlar təşkil olunardı[463]. Bu yarışda qalib gələnlərə mükafatlar verilərdi.

Hunlardan biri dünyasını dəyişdikdə-öldükdə nəş-yas mərasimlə bir çadıra buraxılır, onun ruhu üçün Tanrıya qoyun və at qurban edilir, ölünün çadırı ətrafında atlarla çaparaq dönülür, sonra dayanılır ağlayaraq üzlər biçaqla yazılırdı[464].

Bu cür dönmə ilə ölən şəxsə duyulan sevginin səviyyəsi Tanrıya çatdırılır və Tanrıdan onun ruhunun o biri dünyada şad edilməsi, günahlarının bağışlanması üçün bir növ xahiş edilirdi. Bu dönüşlərdə həmçinin ölənin ruhunu, təmsili olaraq göyün qatlarını birbə bir ötərək Tanrı qatına aparmaq mənası da vardı.

Göytürklərdə də ölən kəsin nəşi bir çadıra qoyulur və çadırın ətrafında yeddi dəfə atlar çaparaq şəkildə dönülür və hər dönüşdə atlar saxlanır üzlər biçaqla yırtılır-cızılır sonra təkrar dönmə işi reallaşırdı[465].

Qədim Türk inamına görə göy doqquz mərtəbə idi. Ancaq şərqdə yaşayan Türklərdə göy doqquz mərtəbə qəbul edilsə də, qərbdə yaşayanlar onun yeddi qat olduğuna inanırdılar[466].

Türklər İslam dinini qəbul etdikdən sonra nəşin ətrafında dönmə mərasimi aparılmasa da, çox sevilən birinin itirilməsi əsnasında üzü dartıb cıraraq qanatma hadisəsi Türk Dünyasının hər bir küncündə müsəlman və ya özgə dindən asılı olmasına baxmayaraq bugün də yaşayır.

Qədim Çin mənbələrinə əsasən Türklərdə biri xaqan olduqda onu bir keçənin üstündə oturdub yuxarı qaldırar, şərqdən qərbə sarı, yəni soldan sağa sarı 9 dəfə döndərərmişlər[467]. Əgər xaqan keçə vəya xalçanın üstünə oturdulub doqquz dəfə şərqdən qərbə döndərilməsə xaqan qəbul edilə bilməzdi və onun xaqanlığı təsdiq olunmamış sayılardı. Xaqanın doqquz dəfə bu cür döndərilməsi, biraz əvvəl də işarə etdiyimiz kimi, Türklərin mifoloji inamına görə göyün doqquz mərtəbədən ibarət olmasından mənbələnirdi.

Qədim Türk inamına görə xaqan Tanrının yer üzündəki nümayəndəsiydi, onun kölgəsiydi. Kül Tigin abidəsinin güney üzündə həkk olunmuş "Təngri təg təngridə bolmış Türük Bilgə kaqan (Tanrı kimi Tanrıdan olmuş Bilgə Xaqan)" ifadəsi də həmin fikri təsdiqləyir. Xaqanın keçənin üstündə doqquz dəfə döndərilməsi, göyün mərtəbələrini birbə bir ötərək Tanrı mərtəbəsinə çataraq ondan xaqanlıq "qut"unu, yəni hökmranlıq hüququnu alması mənasındaydı.

Adananın Fəkə və Kaysərinin Yahyalı qəsəbəsinin bəzi kəndlərində yaşayan **varsaq** Türkmənlərində gəlini qız evindən oğlan evinə apararkən əvvəlcə məçidin ətrafında yeddi dəfə, sonra da qəbristanlığın ətrafında bir dəfə dolandırırlar [468]. Mərsin vilayətində yaşayan Taxtaçı Türkmənlərində gəlin bəy evinə gəldikdə atdan və ya maşından endikdən sonra bəy qabaqda olmaq şərtilə aş bişirmək üçün düzəldilən ocağın ətrafında üç dəfə dolandırıldıqdan sonra evə aparılır[469].

Anadolunun Elazığ vilayətində toy günü gənclər oğlanlı-qızlı, nəlbəkilərə sancılmış və yandırılmış şamları əllərində tutub **çaydaçıra** adlı havanın ritminə uyaraq həm qalanan tonqalın, həm də öz ətraflarında dönərək rəqs edərlər. Anadoluda yaşayan və Taxtaçı adlanan Türkmənlərdə toy axıra çatıb gəlin bəy evinə gəldikdə, bəylə gəlin evə girməzdən əvvəl toy ocağının ətrafında üç dəfə döndükdən sonra evə daxil olarlar[470].

Özümün dəfələrlə şahidi olduğum kimi, Şərqi Anadoluda yaşayan və Kürt dilində danışan Gəlturanlı, Cəlali, Burukanlı (Burakxanlı) tayfalarında gəlin bəy evinə atla gətirildikdən və atdan endirildikdən sonra evin ocağı ətrafında soldan sağa üç dəfə dolandırıldıqdan sonra bəy evinə aparılır.

Sibirdə yaşayan Türk xalqları da Tanrı Ülgənə qurban kəsməzdən əvvəl, şaman əlində bir qayın ağacının budağı ilə heyvanın yanına gələrək budağı onun beli üstündə yellədər, bununla qurbanlıq heyvanın ruhunu Ülgənə sarı sürər[471].

---

[462] Əsin, Əməl, Türk Kozmolojisinə Giriş, Kabalcı yayınları, İstanbul 2001, s. 42
[463] Əbərhard, D. W, (çeviri: Nimət Uluğtuğ), Çin'in Şimal Komşuları, TTK yayınları, Ankara 1942, s. 76
[464] Əbərhard, D. W, açə, s. 86; Roux, Jəan-Paul, Altay Türklərində Ölüm, Kabalcı yayınları, İstanbul 1999, s.245
[465] Ögəl, Bahaəddin, Türklərdə Dövlət Anlayışı, s.101
[466] Ögəl, Bahəddin, Türk Mitolojisi, TTK yayınları, Ankara 1995, c. II, s. 163
[467] Ögəl, Bahaəddin, Türk Kültürünün Gəlişmə Çağları, Türk Dünyası Araştırmaları Vakfı yayını, İstanbul 1988, s. 608
[468] Gökbəl, Ahmət, Anadolu Varsaklarında İnanç və Âdətlər, Atatürk Kültür Mərkəzi Başkanlığı Yayını, Ankara 1998, s. 110
[469] Çıblak, Nilgün, Mərsin Tahtacıları, ürün yayınları, Ankara 2001, s.189
[470] Səlçuk, Ali, Tahtacılar, Yəditəpə yayınları, İstanbul 2004, s 266
[471] Radlof. W, Sibiryadan Seçmələr, (Çəviri: Ahmət Təmir), Kültür Bakanlığı yayınları, İstanbul 1976, s. 239



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yenə şamanın qurban mərasiminin ikinci günündə xüsusi olaraq tikilmiş qurban çadırının ortasına sancılmış qayın ağacından dirəyin ətrafında əlindəki qavalını çalaraq dönməsi[472], edilən nəzirin çadırın ortasına sancılmış qayın ağacı vasitəsilə Tanrıya çatdırılması məqsədilə ona duyulan hörmət və məhəbbətin büruzə verilməsi mənasındadır. Məlumdur ki, Türkün çadırı kainatı, onun ortasındakı dirəyi də göyün dirəyini təmsil edir və şaman bu dirək vasitəsilə ancaq Tanrı qatına yüksələbilir.

Qaradəniz bölgəsində yerləşən Bartın bölgəsində hələ də dünyasını dəyişən şəxsin yaxşı bir insan olduğuna inanılırsa "üstünə yalap yalap (gurul-gurul, parıldayaraq) nur enib, göyə dirək olub" deyilir və bəzi böyüklərin məzarına nur endiyi fikirləşilir[473].

Müqəddəs kitabımız Qurani Kərimin Rəd surəsinin 2-ci ayətində; Allah odur ki, göyləri, görəbiləcəyiniz bir dirək olmadan yüksəltdi, sonra ərş üzərinə istiva etdi (bütün yaratdıqlarını nizamlayıb öz hökmü altına aldı), günəşi və ayı iradəsinə boyun əydirdi[474]; Loğman surəsinin 10-cu ayətində isə; (Allah) göyləri görəbildiyiniz bir dirək olmamış yaratdı, sizi sarsıtmasın deyə yerə də möhkəm dağlar yerləşdirdi.[475] şəklində buyrulur.

Bəşəriyyətə Tanrı tərəfindən yollanmış ən böyük səmavi din olan İslamiyyətin müqəddəs kitabı Quran'da yer tutan ayətlərin tələbini ulu babalarımız hələ İslamdan min illər əvvəl, mifoloji çağlarda həyata keçiriblər. Bunun özü də Türkün yaradılıb dünyaya salınmasından üzübəri Tanrının yolundan heç vaxt yayınmadığını və həmişə düz yolda yeridiğini sübut etmir mi!?

Güney Anadolu toylarında xına gecəsi gəlin bir yastığın üstündə oturdulur və üç dəfə göyə qaldırılır; Rizə bölgəsində bəy, "bəsdir" deyənə kimi dostları onu qollarından və ayaqlarından tutub göyə tullayarlar; Balıkəsir vilayətində yaşayan Türkmən tayfalarında da gəlin astanadan içəri daxil olandan sonra bəyin qardaşı və gəlinin dostları tərəfindən bəzən yeddi, bəzən də doqquz dəfə göyə qaldırılar[476].

Üç, yeddi, doqquz, on yeddi, qırx, yetmiş, yeddi yüz və s. sayların Türklər tərəfindən müqəddəs qəbul edildiyi məlumdur.

Yenə müqəddəs kitabımız Qurani Kərim'in Möminun surəsinin 86-cı ayətində deyilir: Yeddi göyün rəbbi və böyük ərşin rəbbi kimdir? de[477]; Mülk surəsinin 3-cü ayətində: O, yeddi göyü, birbirinin üstündə təbəqə təbəqə yaratdı. [478] ifadələri yer tutmuşdur.

Quran ayətlərində öz əksini tapan göyün qatları və Türkün mifoloji çağlarda yeddi rəqəminə müqəddəs say kimi baxmasının özü də maraqlı deyildir mi!?

Movləvilikdə "səma", özünü unudub Tanrı ilə bütövləşmək məqsədilə movləvi dərvişlərinin toplu halda və hərənin öz ətrafında fırlanaraq müəyyən qayda ilə rəqs etməsi deməkdir[479].

Səmah isə Ələvi-Bəktaşilərin cəm mərasimində həm "dədə" adlanan dini-ruhani rəhbər olan şəxsin, həm də səmahçıların öz ətrafında fırlanaraq dönmələridir[480]. "Dədə" isə mürşidlik səviyyəsinə çatmış, cəm mərasimində on iki xidmət mərtəbəsində ilkin növbədə göstərilən və cəm mərasimini idarə edən şəxsin unvanıdır[481].

Ələvi şairi Pir Sultan Abdal durnalardan Hz. Əlini sual edərkən deyir:

Yəmən ellərindən bəri gələrkən
Durnalar Əlimi görmədiniz mi?
Hava üzərində səma edərkən
Durnalar Əlimi görmədiniz mi?[482]

Ələvi-Bəktaşilər cəm adlanan mərasimdə Şah İsmail Xətainin şeirini sazda çalıb oxuyaraq səmahçıları (pərvanələr) səmaha dəvət edərlər. Səmahçıları səmaha dəvət edərkən oxunan şerilərdən birinin bir bəndi belədir:

Bir üzümü böldü qırxlar

---

[472] Radlof. W, Sibiryadan Seçmələr, s. 255
[473] Altun, Işıl, Kardıra Türkmənlərində Doğum, Evlənmə və Ölüm, Yayıncı yayınları, İzmit, s.321
[474] İsmayılzadə, Rəsul Duzal, Qur'ani Kərim və Azərbaycan Türkcəsinə Tərcüməsi, Qur'ani Kərimin Bütün Dillərə Tərcümə Mərkəzi, Qum s. 249
[475] Kur'an-ı Kərim və Akçıklamalı Məali, s. 410
[476] Altaylı, Seyfəttin, Azərbaycan Türkçəsində Kullanılan İki Deyimin Tarihi və Sosyolojik Karakteri, Türk Dünyası Dil və Ədəbiyat Dərgisi, TDK yayınları, sayı 16, 2003 Ankara, s. 39
[477] Kur'an-ı Kərim və Akçıklamalı Məali, TDV yayınları, Ankara 2000, s.346
[478] Kur'an-ı Kərim və Akçıklamalı Məali, s. 561
[479] Çağbayır, Yaşar, Ötükən Türkçə Sözlük, Ötükən yayınları, İstanbul 2007, c. 4, s. 4135; Korkmaz, Əsat, Ansiklopedik Ələvilik-Bəktaşilik Terimləri Sözlüğü, Kaynak yayınları, İstanbul 2003, s. 377
[480] Korkmaz, Əsat, açə, s. 377
[481] Korkmaz, Əsat, açə, s.112
[482] Pir Sultan Abdal (hazırlayan: Cahit Öztəlli), Özgür yayınları, İstanbul 2001, s. 18


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yiyəmməz özü çürüklər
Allah deyib dönsün çarxlar
Səmahçıya xəbər olsun.

Azərbaycanın görkəmli ozanı Dədə Ələsgər də min illərin içindən süzülə-süzülə gəlmiş və ən qədim mifoloji və tarixi mədəniyyətimizlə əlaqəli olan "dolanmaq" felindən yaradılmış deyimi "Dolanır" adlı şerində bu cür dilə gətirir.

Adım Ələsgərdir Göyçə mahalım
Dolanım başına, dərdini alım.
Hüsnün şöləsinə xəstə xəyalım
Pərvanədir, şəmistanlar dolanır[483].

Movləvilərin səma, Ələvi-Bəktaşilərin səmah rəqsi ilə Elazığ bölgəsinin çaydaçıra rəqsi arasındakı oxşarlığa və Şah İsmail Xətai ilə Dədə Ələsgərin özəl məna kəsb edən şeirlərinə xüsusilə diqqət edilməlidir.

Bəqərə surəsinin 125-ci ayətində Tanrı belə buyurur: Biz Beyt'i (yəni Kəbə'ni) insanlara savab qazanılacaq bir yığıncaq və əmin-amanlıq yeri elədik. Siz də İbrahim'in məqamından özünüzə bir namaz yeri ayırın (orda namaz qılın). İbrahim və İsmail'ə "Tavaf edənlər, ibadət edənlər, rüku və səcdə edənlər üçün Ev'imi təmiz saxlayın!" deyə əmr etmişdik[484].

Yenə Bəqərə surəsinin 158-ci ayətində deyilir: (Ey möminlər!) Həqiqətən, Səfa və Mərvə Allahın əlamətlərindəndir (ibadət nişanələrindəndir). Ev'i (Kəbəni) həcc və ya ümrə yolu ilə (qaydası ilə) ziyarət edən kəs (vacibdən əlavə) könüllü olaraq yaxşı bir iş görərsə, Allah (onun etdiyi yaxşı işdən) razı qalandır (əvəzini verəndir) (onu) biləndir[485].

Ayətlərdə buyurulan "tavaf" isə, ziyarət edilən yerin ətrafında dönmək mənasındadır. Ayətlərdə dilə gətirilən "tavaf" ilə, mifoloji çağlarda ulu babalarımızın qurultaylarda atlarla cıdıra çıxıb meşənin və ya, yerə sancılmış ağac budaqlarının ətrafını dönmələri, xaqan seçilən şəxsin xaqanlığının təsdiqi üçün bir keçənin və ya xalçanın üstündə oturdularaq soldan sağa doqquz dəfə döndərilməsi, İslamdan qabaq Türk atlılarının nəş qoyulmuş çadırın ətrafında yeddi dəfə çaparaq dönmələri və hər dönüşdən sonra dayanıb üzlərini biçaqla yazıb hönkürərək ağlayıb yas saxlamaları, Sibir Türklərində Tanrı Ülgənə nəzir verilən qurbanlıq üçün tikilən xüsusi çadırın ortasına sancılmış, ayətlərdə də buyurulduğu kimi bir növ göyün ortasında olub onun uçmasına mane olan lakin, bizim gözümüzə görünməyən dirəyi təmsil edən qayın ağacının ətrafında qavalını çalaraq dönməsi; Anadolu'nun hər bir küncündəki toylarda gəlinin ocağın ətrafında üç dəfə döndərilməsi, yallılarımızın dairəvi şəkildə dönülərək ifa edilməsi, gəlinin və ya bəyin yeddi və ya doqquz dəfə göyə qaldırılması ya da tullanması arasında minlərlə ildən süzülüb gələn bir əlaqə və bənzərlik yoxdur mu!?

Bütün bu nümunələr və qeydlər aydın edir ki, bir şeyin ətrafında "dönmək" fəli, o şeyə olan məhəbbəti və rəğbəti büruzə verir. **"Başına dolanmaq (dönmək)", "gözünə (əlinə) dönmək"** şəklindəki deyimlər də şübhəsiz ki, ən qədim mifoloji inamları özündə hifz edibdir. Bu deyimlər başın, gözün və ya əlin əzizlənməsidir, onların Tanrı qatına çıxarılmasını arzulamaqdır və münasibətilə deyimin müxatəbi olan şəxsin bir növ tərtəmiz şəkildə Tanrı qatına yüksəlməsini canı könüldən istəməkdir. Bir sözlə, Tanrı-insan vəhdətinin yaranmasını arzulamaqdır. Bu inamlar, ulu babalarımızın mifoloji çağlarda Tanrıya verdikləri nəzirlərin və qurbanların ətrafında ilahi bir əhval-ruhiyyə ilə bir növ rəqs etmələrinin və bu cür bir ritualla Tanrının onların nəzirini qəbul edəcəyi fikrinin indiyə kimi gəlib çıxmış miraslarıdır. Azərbaycan sahəsi də, Türklüyün ən qədim qatlarını özündə hifz edib, onu qan yaddaşında saxladığına görə nə qədər fəxr etsə yenə də azdır.

---

483 Aslan, Havər, açə, s. 69
484 Ataş, Süleyman, Kur'anı Kərim və Yücə Məali, Kılıç kitabəvi, Ankara, s. 18
485 Z. M. Bünyadov, V. M. Məmmədəliyev, Qur'ani-Kərim Məali, Qismət, Bakı 2006, s. 24



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## СОВРЕМЕННЫЕ ВОПРОСЫ ТЕКСТОЛОГИИ ТУВИНСКОГО ЭПОСА

***Д.ф.н., проф.Светлана Орус-оол***
***Институт мировой литературы***
***им. А.М. Горького РАН***
***Россия***

Современный уровень развития фольклористики ставит перед нами новые задачи. Они заключаются в проведении текстологической экспертизы для всесторонней проверки фольклорной подлинности, в более тщательном изучении текстов, предназначенных для публикации. Исходные изустные материалы - единственно правомерные в качестве базовых. Основной принцип практической текстологии – аутентичность текста. Важность такого подхода подчеркнул В.М. Гацак отметивший: «мы …отправляем в будущее единственно возможную «посылку», характеризующую и раскрывающую и творчество, и язык ряда народов… Велика в связи с этим ответственность: ведь всякая фальшь, отсебятина, вольность, которая будет допущена нами сейчас, уже остается неустранимой в историческом времени».[1]

С 1947 года по настоящее время издано около 90 произведений тувинского героического эпоса. Публикации 1940-80-х годов в ряде случаев осуществлялись без специального текстологического изучения и подготовки. Об этом в свое время писал ученый-фольклорист А.К.Калзан: «С популяризацией произведений народного творчества дело обстоит у нас довольно благополучно. Но есть в этой области и немало недостатков. Мы еще не выработали четких требований к текстологической работе фольклористов и критериев обработки произведений, бытующих в устной традиции, для популярных изданий. Нередко в этом причина ошибок субъективного характера при подготовке текстов к печати»[2].

При подготовке текстов к печати некоторые героические сказания издавались в литературной обработке; допускалось сведение вариантов, записанных со слов разных сказителей, в один текст; из идеологических соображений эпические тексты подвергались вынужденной фольклорной обработке, в частности, из них изымались эпизоды с шаманскими и ламаистскими атрибутами. Значительная часть изданий не была снабжена удовлетворительной паспортизацией, вступительными статьями, комментариями и примечаниями.

Şumer yazılarında bir neçə yerdə Aratta (ölkəsi, xalqı, hökmdarı) adı çəkilir[486]. Hətta S.Kramerin «Enmerkar və Aratta hökmdarı» adlandırdığı bir şumer dastanı gəlib çatmışdır. Dastanda Arattanın zəngin, qiymətli daş-qaş, cəvahirat mə'dənləri ilə dolu bir ölkə olması göstərilir. Bu ölkə Şumerin şimalında yerləşir. Şumer tarixinin adlı-sanlı qəhrəman-hökmdarlarından

Enmerkar Arattanı tutmaq, Aratta xalqını özünə tabe etmək istəyir. Aratta böyük sənətkarları ilə də tanınır. Hətta Enmerkar Aratta sənətkarlarına Şumerdə Arattanı qiymətli daşları ilə bəzədilmiş və Aratta daşlarından gözəl bir mə'bəd tikdirmək arzusundadır. Enmerkar Aratta hökmdarına ona tabe olması üçün elçi-xəbərçi göndərir. Rədd cavabı alır. Qüdrətli Aratta üzərinə qalxmaq üçün Enmerkara 10 il hazırlaşmaq lazım gəlir. Prof. Y.Yusifov Arattanı Cənubi Azərbaycan ərazisində ilk mə'lum Azərbaycan dövləti sayır[487]. Müəllif dövlətin adını türkcə «dağlıq ölkə» (Alateye//Alatau – böyük dağ) şəklində etimolojiləşdirir.

E.ə. III minilliyin üç yüzüncü illərində Şumerin şərqindəki dağlarından axın edən qarşısıalınmaz qutilər əvvəl Şumerin paytaxtı Aqadeni, sonra bütün ölkəni yaxıb-yandırıb xarabazara çevirdilər[2].

Kutium (Qutium) e.ə. I-III minilliklərdə Urmiyanın qərbində və cənubunda yerləşən qədim Azərbaycan dövlətidir[488]. Əhalisi kutilərdir (qutilərdir). Azərbaycan ərazisindəki başqa dövlətlər kimi Qutium (Kutium) dövlətini də türk mənşəli sülalələr idarə etmişlər[489].

Şumer mənbələrində Maqan toponimi var. S.Kramer bunu «yeri bilinməyən bir ölkə, bəlkə də Misir» deyə təqdim edir[490]. Ancaq Maqanın İran körfəzi ətrafında yerləşməsi, Şumerlə gəmi vasitəsi ilə ünsiyyətdə olması mö'təbər son fikirdir[491]. Bu Midiya, Manna ərazisidir. Midiyanın şərq mənbələrində Makta göstərilməsi, «mak» sözünün türkcə ilan mə'nası bildirməsi, ilanın Midiyanın totemi olması və Makta adının bilavasitə həmin «mak» sözü ilə bağılığı haqqında elmdə aydın qənaət mövcuddur[492]. Maqan toponimi də həmin məxrəcdə etimolojiləşdirilir: maq//mak+an (türkcə qədim cəm şəkilçisi). Makın (ilanın) Midiyanın totemi olması ilə bağlı Şumercədəki «mah» sözü də diqqəti çəkir. «Mah» sözünü S.Kramer «əsl vəzifəsi bilinməyən rahib» kimi izah edir[493]. Təbii ki, bu

---

[486] Samuel N. Kramer. History begins at Shumer. University of Pennsylvania. Press, 1981, s. 19-29
[487] Azərbaycan tarixi (ali məktəblər üçün dərslik). Bakı, 1994 (redaktorları: Z.Bünyadov, Y.Yusifov), səh. 61-67
[488] S.Kramer. Göstərilən əsəri. səh. 371
[489] Azərbaycan tarixi. Bakı, 1994, səh. 69
[490] Yenə orada. səh. 72
[491] S.Kramer. Göstərilən əsəri. səh. 393
[492] Дьяконов И.М. Языки древний Передней Азии. Москва, 1967, стр. 87
[493] Budaqova Z., Hacıyev T. Azərbaycan dili, Bakı, «Elm», 1992



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sözü *mah – max – mak – maq* tələffüzlərində qəbul etmək normal fonetikadır. Bu halda sözün dini inanc məzmunu «mak»ın dini totem məzmunu ilə asanlıqla bağlanır. Başqa Şumer türk söz uyğunluqları da *mah maq* yaxınlığını mümkün sayır: Şumercə *eren* «döyüşçü» - türkcə *ərən*; yenə həmin məxrəcdə Şumercə *ere* «qul»; Şumercə *eger* «bel, kürək» - türkcə *yəhər*; Şumercə *uru* « icma» - türkcə *uruğ* «nəsil, soy, qohum»; Şumercə *udu* «qoyun» - türkcə *quzu*; Şumercə *giri* «ayaq» - *yeri(mək)*[494]; Şumercə *kur* «dağ» - türkcə *kurqan*; Şumercə *karu* «ölçü» - türkcə *karu/qaru* «qol»[495] və s.

İnannanın əlinə almaq istəyən, ona evlənməyi təklif edən Dumuziyə (Çobana) ilahə Enkidonu (Əkinçini) seçdiyini bildirir. Bu halda Dumuzi öz üstünlüklərini sayır. Əkinçinin hansı məhsulunun müqabilində nə verəcəyini deyərkən dörd dəfə südün adını çəkir:

… O mənə ən yaxşı pivəsini boşaldarsa,
Mən ona Əkinçiyə *sarı südümü* boşaldaram yerinə.
O mənə ən yaxşı pivəsini boşaldarsa,
Mən ona, Əkinçiyə *kisim südümü* boşaldaram yerinə
O mənə sulu pivə boşaldarsa,
Mən ona, Əkinçiyə *bitki südü* boşaldaram.
O mənə yaxşı pay verərsə,
Mən ona, Əkinçiyə *itirda südünü* boşaldaram yerinə…

Yə'qin ki, bunların hərəsi bir növ, ya bir keyfiyyətdə süddür. Hesab edirəm ki, *kisim* «kımız» (qımız) südünün, yaxud «kımız» onun metatezası – transformasiyasıdır. Mətndə «bitki südü» adı çəkilirsə, deməli, o birilərinin də hər biri bir heyvanın məhsulu ola bilər: inək südü, qoyun südü, at südü (dəvə südündən də qımız hazırlanır).

Şumerin ana ilahəsinin adı Ninhursaqdır. Bütün Şumer hökmdarları özlərini Ninhursaqın südü ilə bəslənmiş sayırlar. Ninhursaqın bir adı da *Nintudur*. Nintunun Şumercə lüğəti mə'nası «doğan ana» deməkdir. Nintu=nin+tu götürsək, *tu* türkcə «doğmaq» fe'linin kökündür. Daha başqa gümanlar da yürütmək olar. Məsələn, Şumercə *a* «su» deməkdir. Bu sözü (mə'nanı) bildirmək üçün ilk əvvəl axar su işarəsindən (~) istifadə etmişlər – ola bilər ki, *ax*(maq) fe'linin başlanğıc formasıdır. Yaxud «olar», «mümkündür» mə'nasında işlənən *«ha»* sözü ola bilər ki, *«hə»* təsdiq-təqlidi ilə bağlıdır (Son iki fərziyyəni S.Kramerin «Çiv yazısının başlanğıcını və inkişafını göstərən şəklin şərhi» əsasında söylədik[496]). Şumercə *qarım* və türkcə *arık* (arx) sözünün eyni kökdən olması dəqiq etimolojiləşdirilmişdir[497]. «Qarım» sözü bu gün Cəbrayıl şivəsində alacığın (kümənin) ətrafına, içəri yağış axmasın deyə, nazik şırım şəklində çəkilən arxa deyirlər – Şumerin qonşusundakı Midiya-Azərbaycan türkcəsinin şivələri sözü qədim şumercədəki tələffüzü ilə qoruyub saxlamışdır.

Göründüyü kimi, bu dövlət və yer adları Şumerin birbaşa Azərbaycanla bağlı olmuş olması deməkdir – Azərbaycanın (Aratta, Midiya) Mesopotamiyanın şimal sərhədi olması bu bağlılığı təbii göstərir. Burada maraqlı başqa bir fakt da diqqəti çəkir. «Şumer» adı şumerlərin Mesopotamiyada qazandıqları addır. Onlar öz-özlərinə «qarabaşlılar» demişlər və bu, Şumer yazılarında keçən addır. Bu qarabaşlılar e.ə. dörd mininci illərin sonuncu rübündə, yə'ni təxminən 3250-ci illərdə gəlmişlər. Və bizim üçün maraqlı olan odur ki, qarabaşlılar bu ikinci vətənlərinə Qafqazdan, Xəzər dənizi ətrafından gəlirlər. Bu halda qarabaşlıların bundan əvvəlki və ya ilk vətəni Azərbaycanın e.ə. Albaniya adlanan torpağıdır. Və bu gələn qarabaşlılar «ibtidai və köçəri xalq» kimi qələmə verilirlər[498]. Qarabaşlılar Qafqazdan gəlib, Mesopotamiyanı özlərinə vətən edirlər, buranı öz daimi torpaqları kimi əkib-becərir və onu yurd kimi qoruyurlar. Diqqəti çəkən odur ki, Avropa və dünya tarixçiliyi türkün bu şəkildə və vətən salmasını köçərilik kimi qiymətləndirmiş, köçərilik adına vermişlər. Yə'ni türklərin Balkanlarda, Makedoniya, Volqa boyunda, səlcuqluların Anadoluda vətən salmalarını, dövlət yaratmalarını, Atillanın Sibirdən Dunaya qədər imperiya qurmasını türkün köçəriliyi kimi qiymətləndirmişlər. Qarabaşlıların Mesopotamiyada yurd tutması da eyni modellə köçərilik sayılır. Göründüyü kimi, bu, eynən türkün vətən və dövlət qazanmaq tipidir. Deməli, qarabaşlılar türk olmalıdırlar. Mə'lumdur ki, türklərin tarixən qruplaşmasında, ayrılaraq məskənləşməsində dinastiya və tayfa adlarını daşıma ən'ənələri güclü olmuşdur. Bu mə'nada qarabaşlılar və qarapapaqlar-qaraqalpaqlar arasında hansısa bir sələf-xələflik əlaqəsi güman etmək olar.

---

[494] S.Kramer. Göstərilən əsər. səh. 393
[495] S.Kramer. Göstərilən əsəri. səh. 362
[496]Yenə orada, səh. 382
[497] Osman N. Tuna. Sümer ve türk dillerinin tarixi ilgisi ile türk dilinin yaşı meselesi. Ankara, 1997, səh.
[498] Kramer S. Göstərilən əsər, səh 239



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şumer mətnlərində subarlar (subarians) və onların yaşadığı Şubur ölkəsi verilir (şübhəsiz, eyni söz olmalıdır; hər ikisi *s* ilə işlənə bilər+subarlar və subur, hər ikisi də *ş* ilə gedə bilər+şubarlar və şubur). Şubur ölkəsi və subarlar Şumerin düşmən qonşuları kimi göstərilir[499]. Hesab etmək olar ki, bu, türk etnosu sabirlərdir – sabirlər döyüşkən və narahat tayfa olublar; ona görə də «düşmən qonşu» sayılıblar.

IX əsrin bulqar ədəbi abidəsi «Şan qızı dastanı»nın Şumer mifləri ilə maraqlı səsləşmələri var. Yaradılış haqqında türk-bulqar düşüncəsi şumerlərin mif yaradıcılığındakına uyğundur. Şumerlərin təsəvvürünə görə məxluqat ölümsüz və ölümlülər olaraq yaradılmışdır. Ölümsüzlər tanrılardır. İnsanlar ölümlü tale sahibləridir. Tanrılar onları özlərinə qulluq etmək üçün yaradıblar. Şumerlilərdə böyük və kiçik tanrılar anlayışı var. Bulqar mifində tanrılar üç mərtəbədə yerləşdirilirlər: böyük, kiçik tanrılar və Ulu tanrı[500] . Ulu tanrı Allah

missiyasında qəbul olunur. Bu, dastan müəllifi Mikayıl Baştunun islam missioneri olması ilə bağlıdır və o, dastanında islamı təbliğ edir. Buna görə də müəllif iki mərtəbənin tanrılarını alplar adlandırır. Burada xırda alplar Şumerdəki kiçik tanrıların vəzifəsini yerinə yetirirlər: küləyi, yağışı, məhsulu, heyvanatı və s. himayə edən alplar var. Burada da alplar ölümsüzdürlər. İnsan isə ölümlülük taleyi daşıyır. Bu, Şumer kosmoqonik düşüncəsinin üstündədir; islama qədərki türk mifi Şumerinkindən ayrılmır.

«Tanrı Ninhurtanın qəhrəmanlıqları» adlı Şumer dastanında tanrının məhsul yığıb qaldırdığı yüksəklik dağı *Hursaq* adlanır. Ümumiyyətlə, bu söz «Yüksəklik ölkəsi» «dağlıq əyalət mə'nasındadır». «Şan qızı» bulqar dastanında Günəşin oğlunun adı Xursa (Hursa) verilir. Deyilir ki, *Ural* sözü – dağı bu adın dəyişmiş fonetikasıdır[501]. Bir halda ki, söz dağ adıdır (Ural dağı), deməli, yüksəklik, dağlıq mə'nası bildirir. Və bu halda Hursaq və Hursa (Xursa) mütləq eyni söz olmalıdır – IX əsrin fonetikası, şübhəsiz, şumercəyə daha yaxın olmalıdır. Eyni zamanda Şumer tanrılar panteonunda xüsusi yer tutan Ninhursaq «Yüksək ölkənin kraliçası» kimi tanınır – yə'ni Ninhursaq sözünün mə'nasında da yüksəklik məzmunu var.

Şumer miflərində rastlanan müəyyən adət və mərasimlərə türklərin də davranışlarında təsadüf olunur. Məsələn, İlahə İnanna ilə çoban Damuzi evlənmək üçün qərarlaşandan sonra «Qız sevgilisini anasının evinə gətirir» ifadəsi işlənir. Daha «evlərinə», «öz evlərinə», «evə» yox, məhz «anasının evinə» deyilir. Eyni ifadə tərzinə «Şan qızı dastanı»nda rast gəlirik. Qadın qonağı evə də'vət məqamında «onu ərinin evinə gətirdi» söylənir. Görünür, bu, uyğun ailə quruculuğu ilə, analoji yaşanış tərzi ilə bağlıdır.

Başqa hadisə: böyük tanrılardan biri Enki ölüm yatağına düşdükdə bütün böyük tanrılar toz içində otururlar, özlərini toza bulaşdırırlar. Qədim türk mifindən mə'lum olduğu kimi, ölən kəsin başına kül səpirmişlər. Həmin adət bu gün dilimizdəki «başına kül olsun» qarğışında qalır. Şumer və türk miflərindəki hadisələrin uyğunluğu göz önündədir. Şumerdəki tozla türkdəki «kül»ün anlayışca məxrəc yaxınlığı uyğun frazeoloji ifadələrdə də görünür – bir həqiqəti pərdələmək üçün edilən hərəkətə ingiliscə «gözə toz atmaq» (throw dust ina person's eyes), türkcə «gözə kül üfürmək» deyirlər.

Bilindiyi kimi, 7 (77, 777 və s.) rəqəmi türklər üçün sakral (müqəddəs) sayılır. Eyni hadisəyə Şumer miflərində də rast gəlirik. Gilqamışın 7 sidir ağacı kəsməsi, 7 qəhrəmanla əhatə olunması, 7 dağ keçməsi, böyük Tufanın şumerlərdə 7 gün davam etməsi (ancaq Babil mifində Tufan 6 gün, 7 gecə davam edir, deməli babillilər türü 7-lik sistemindən çıxırlar, deməli, şumer-türk uyğunluğu özünü aşkar nəzərə çatdırır), 7 talent və 7 mina (ölçü vahidləri) ağırlığında balta, yeraltında 7-yə qədər oğlu olan atalara 7 sual verilməsi, İnannaya 7 göy işığının yardımçı olması və s.

Kosmoqonik təsəvvürlər baxımından maraqlı analogiya, hətta heyrətləndirici uyğunluq var. Şumer mifində («Gilqamış, Enkidu və Yeraltı Dünya dastanı») dünyanın və insanın yaranması belə təsvir olunur:

Göy yerdən ayrıldıqdan sonra,
Yer göydən ayrıldıqdan sonra
İnsan adı yarandıqdan sonra
(Göy Tanrısı) An göyü götürüb apardıqdan (qaldırdıqdan) sonra
(Hava Tanrısı) Enlil yeri götürüb apardıqdan (endirdikdən) sonra,

---

[499] Yenə orada, səh. 365-366
[500] T.Hacıyev. Göstərilən əsər, s. 104-105
[501] Bax: T.Hacıyev. Mikayıl Baştunun «Şan qızı dastanı» və poetikası. Bakı, 2005, səh. 105



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Orxon-Yenisey abidələrində («Kül Tiqın dastanı») həmin yaradılış mənzərəsi belə verilir:
Üzə gög tənıri
Aşra yağuz yir qılıntuqda
Əkin ara kişi oğlı qılınmıs.
(Yuxarıda göy tanrı (mavi göy-səma)
Aşağıda boz yer (torpaq) yarandıqda
İkisinin arasında insan oğlu yaranmış)
Bu türkün öz qənaətidir ki, dünya yarananda ilk bəşər sırasında türk yaradılıb:
Kişi oğlınta üzə əçüm-apam
……… qağan olurmış.
Oluran türk budunın, ilin, törisin
Tutu birmiş, iti birmis.
(İnsan oğlu üzərində babalarım
…. Xaqan (taxtında) oturmuşlar.
(taxtda) oturaraq türk xalqın, dövlətin, qanunların
Tutmuş və ucaltmışlar).
Şumer dastanında hökmdarın, qəhrəmanın gücü, qüdrəti belə ifadə olunur:
Mən, kral (ana) qarnından döyüşçüyəm,
Mən, Şulgi doğulduğum (gündən) güclü adamam.
Əjdahadan doğulan vəhşi baxışlı bir aslanam mən,
Dörd bucağın (kainatın) kralıyam mən….

Bunun, bu qüdrətin nəticəsi budur:

… (Belə ki) bütün özgə ölkələri özümə baş əydirdikm,
ölkəni (Şumeri) təhlükəsiz etdim.
Və dünyanın dörd tərəfindəki xalq
əyilmiş başla adımı andı.

Artıq bu, dastan üslubunun faktıdır ki, həmin ifadə qəlibə çevrilir və müxtəlif dastan mətnlərində təkrar olunur.

… Yer tanrıları qorxu ilə əyilirlər önündə,
Göy tanrıları çökərlər önündə.

Həmin üslub, həmin ifadə-gəlib «Kül-Tiqin» dastanında belə verilir:

Gört bulunıdaqu budunuğ
Kop almıs, kop baz kılmıs.
Başlığığ yüküntürmüs,
Tizligig sökürmis.

(Dörd ətrafındakı xalqları
Özünə tabe etmiş, sülhə gətirmiş,
Başlıları baş əydirmiş
Dizliləri diz çökdürmüş).

Deməli, Şumer dastanlarındakı «qəhrəmanın rəqibi baş əydirməsi, diz çökdürməsi» kimi bədii lövhə – trafaret hökmdar gücünün ucalıq, mübahisəsizlik rəmzi kimi qəbul olunur və ən’ənəyə çevrilir. Və türkün Aratta, Manna, Midiya əcdadlarının Şumerlə əlaqəsi nəticəsində mənimsənən bu ən’ənə yaşadılaraq gələcəkdə Orxon dastanlarında da özünü göstərəcəkmiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AZƏRBAYCAN'DA URARTU ZAMANINA AID ABIDƏLƏRLƏ ƏLAQƏLI ƏFSANƏLƏR VƏ INANCLAR

***Dr. Tohid. Məlikzadə***
***Iran***

Azərbaycan"da miladdan öncə yaşayan və hükümət quran Urartular hakimiyyətde olduqları müddet ərzində bəşəriyyətə çoxlu xidmətləri olmuşdur. Onlar ilk dəfə süni suvarma yollarını; kəhriz sistemini, geniş çaplı dəmirçiliyi, müəzzəm malatsız qala tikmə metodunu və son olaraq dağ-daş və təbiətdən faydalanıb xalqın xidmətinə gətirmyi icad etmişlər. Azerbaycan ərazisində yaşayan Urartuların ayrı ve mühüm izilərindən birisi Azərbaycan'da nəhəng qalalar, tapınaqlar ve daş əsərlərin yönub inşa etməsi olmuşdur. Bu əsərlərin bir çoxu hələ də Azərbaycan'ın dörd bucağında özəlliklə Azərbaycan'ın qərb məntəqələrin dim dik qalır və həyatına dəvam edir.

Makı, Salmas, Urmiyə, Sərab ve Meşigində Urartuların inşa etdiği qalalar, qazdığı tapınaqlar və ibadətgahlar və daş işlərilə doludur. Makıda yerləşən Dambat tapınaq yeri indilik Fərhad damı olarak adlanır. Əslində Azərbaycan'da qazılan bütün daş işləri Fərhad'a nisbət verilir. Makı'da Ferhad damı bir Urartu abidəsidir. Maraqlıdır Urmiyə şəhərində də daş abidələrlə əlaqəli hər bir abidə Fərhada nisbət verilir. Azerbaycan'da xususilə Salmas'da olan Urartu abidələri hem folklor-nağıl baxımından həm də memarlıq baxımından taysız bir məntəqədir. Daş qalalarla əlaqədar nağıllar bunlardır:

*1. Salmas'da Qarnı yarıq qalası yaxud üç qardaşlar*
*2. Salmas'da Hödər qalası yaxud oğlan qalası- qız qalası*
*3. Makı'da Fərhad damı*
*4. Urmiyə'də Fərhad daşı*
*5. Urmiyə'də qız qalası*

İndi isə Azərbaycan'da Urartu zamanına aid abidələrlə əlaqəli əfsanələr və inanclar

**1. Salmas'da Qarnı yarıq qalası yaxud Üç Qardaşlar**

Salmas'ın təqribən 15 km cənubqərbində böyük bir dağ var ki bu dağa xalq qarnı yarıq yaxud üç qardaşlar deyirlər. Xalq belə inanır ki günlərin bir gününde üç qardaş varıydı. Bu üç qardaş qəzadan bir qıza vurulmuşlar. Onlar eşqlərini o qıza bildirirlər . Qız o üç qardaşdan ən balaca qardaşı sevirdi ama o bir qardaşlara rəd cavabı vermek də istəmirdi. O qardaşları başından açmaq üçün onlara belə təklif edir ki bəlli bir zamanda bir böyük dağı ( indiki qarnı yarıq dağı ) yarsınlar. Qız qardaşlardan hər birisi tezraq dağı qaza qaza zirvəyə yetişsə mən o adamla evlənəcəyəm dedi. Qardaşlar səhər tezdən işə başladılar və qan tər içində irəli getdilər məyərsə qız dağın başına çıxıb və sevdiyi oğlanın bölümünü qazmaya başlamışdı. Günlər; aylar geçdi və nihayit qardaşlar zirvəyə yaxınlaşdılar. Qız da tələsik sevdiyi oğlanın tərəfini qazırdı. Nəhayət ikisi bir birlərinə qavuşdular. Ama qavuşmaları an o qızın sonu oldu. Çünkü qız yorgun və yaralı bir vəziyətdəydi. Qızın oğlana yetişməsi ilə ölümü bir oldu. İndi də bu dağda bu üç qardaşın adına üç yarıq var ama bu yarıqlardan sadəcə biri başa yetişibdi.

Xalqın inancına görə bu yarıqlar bu üç oğlanın qəbirləridir. Xalq bu yarıq və dəxmələrə görə heç Fərhaddan bəhs etmir. Bu dağın yarıqlarına Urartu zamanına aid dəxmələr və tapınaq yerləri vardır. Səfəvi zamanında bu dağın zirvəsində qarnıyarıq qalası Salmas'ın ən məşhur qalalarından biriydi. Hər hansı şah vəya devlət ona əl tapsaydı Salmas çölü onun olardı.

**2 Salmas'da Hödər qalası yaxud oğlan qalası- qız qalası**

Salmas'ın 20 km şumalında Hödər kəndi yanında 2 qala vardır. birisi Koroğlu qalası yaxud qız qalası və o birisi oğlan qalası. Bu dəxmələr Urartu zamanına aid dəxmələr və qalalardırlar. Rəvayətlərə görə koroğlu xanımlarını burada saxlarmış bu səbəbə görə bu qalaya Koroğlu qalası diyərlər. Salamas'ın başqa abidələrinə tay bu dəxmələrlə əlaqədar Fərhad'dan həç bəhs olmaz.

**2 Makı'da Fərhad damı**

Makı'ın 15 km şumalında yerləşən bu Urartu dəxməsi xalq tərəfindən Dambat yaxud Fərhad damı olaraq tanınır. Xalqın arasında bu abidəyə görə belə bir nağıl vardır ki: məşhur Fərhad Şirin adlı qızı severmiş . Fərhad bu qıza bir dam tikmək fikrindəydi. Bu dağı seçir və onu qazmaya başlayır. Aylar, günlər geçir İş qurtulan zaman ölür və Şirin'ə qavuşanmır.

**3 Urmiyə'də Fərhad daşı**

Urmiyə'də olan bu abidə Xurrəmava kəndində yerləşməktədir. Xalq bu abidələrin qazılmasını Fərhad'a nisbət verməktədir.

**4 Urmiyə'də qız qalası**

Urmiyə'nin Ənzəl mahalının Kərimava kəndində yerləşmişdir. Bu qalanın adı haqqında kendçilərin heç bir fikiri olmamışdır.

**Nəticə**

Azərbaycan'ın qərb məntəqələrində hükümət edən Urartuların 3000 il bundan əvvəldən qalmış əsərləri hələ də durur. Xalqımzın Urartu hakimiyəindən xəberdar olmamsı nəticəsində bu abidələrin kim əliylə tikilməsindən da xəbərdar olmamışlar. Nəticə olaraq bu abidələrin tikilməsiylə əlaqədar nağıllar və əfsanələr yaratmışlar. Bu əfsanələr umumən Fərhad'ın məşhur qaya yarma nağılıyla əlaqədardır. Bəzi yerlərdə də bu abidələri əski Türk inancına dayalı qız qalası olaraq tanımışlar. Qız qalası deməkləri xalqımızın fikirincə əl tapılmayan şeyin simgəsi və səmboludur. Bu qız qalaların ən hündür yerlərdə tikilməsi eləcədə hərbi baxımından mühüm olması bu fikiri subut edir.

**QAYNAQLAR**

Məlikzadə, Tohid, Salmas və Azərbaycan'ın qərb məntəqəsinin on min illik tarixi, Təbriz, 2006
Kavyanpur, Əhməd, Urmiyə Tarixi, Tehran, 2000



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# KAZAKİSTANDA HALK HEKİMLİĞİ UYGULAMALARI

***Tuba Murat***
***Abay Devlet Üniversitesi***
***Kazakistan***

Halk hekimliği veya geleneksel tıp, insanlığın varoluşuyla birlikte doğmuştur. İnsanların tabiat olayları karşısında takındıkları tavırlar ve münasebetlerle gelişen halk hekimliği modern tıptan farklılıklar göstermektedir. Halk arasında yaygın olan kimi hastalıklar; bitkisel, hayvansal ve madensel maddelerle hazırlanan “halk ilâcı” ile tedavi edilmeye çalışılmaktadır. Geniş Kazakistan coğrafyasında derleme metoduyla saptamaya çalıştığımız bu tedavi yöntemlerini, dinsel ve büyüsel nitelikteki tedaviler ile halk hekimliği ve geleneksel sağaltmayla ilgili tedaviler olmak üzere iki grupta inceledik. Bu çalışmada Kazakistan’ın sosyo-ekonomik ve ekonomik özelliklerine bağlı olarak yerini hızla modern tıbba bırakan halk hekimliğine dair tedavi yöntemlerinden bazıları verilmiştir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TÜRKIYE ÂŞIKLIK GELENEĞINDE ÂŞIK KOLLARI VE ŞENLIK KOLU

***Turhan Kaya***
***Turkiye***

**Bildiri Özeti**

"Halk Edebiyatı" terimi, en genel anlamda "halkın edebi verimlerini" karşılar . Âşık edebiyatı, âşık adı verilen bireylerin bağlama, cura, tambura gibi saz eşliğinde veya saz olmadan deyiş söyleyip, ürünler verdikleri bir edebiyat dalıdır. Âşık edebiyatı ürünleri , Tanzimat ve Cumhuriyet'ten sonra "Halk Edebiyatı" genel başlığı altında değerlendirilmeye başlanmıştır. Bu edebiyatın özel bir kısmını kapsayan Âşık Edebiyatı, Doğu Anadolu'da değişik bir çehre ile kendisine mahsus kıymet ve geleneğini koruyarak devam etmektedir.

Âşık tarzında bir geleneğin varlığı da ilk defa Fuat Köprülü tarafından tespit edilmiş, onun bu kanaati daha sonraki yıllarda sahanın değerli elemanları Prof. Pertev Naili Boratav, Prof. İlhan Başgöz ve onların öğrencileri tarafından da benimsenmiş ve kullanılmıştır: "*Türk memleketlerine ve daha eski asırlara kadar genişletecek olursak, Müslümanlığın zuhurundan evvel, Asya'da kurulmuş eski Türk imparatorluklarında bu şair çalgıcılara tesadüf ederiz. İkincisi ise Anadolu'da yetişen ve oldukça mebzul eserleri ve ananeleri zamanımıza kadar devam edip gelen saz şairlerine mahsus şiir tarzıdır*"(Köprülü 1962).

Doğu Anadolu bölgesinin âşık edebiyatımızda önemli bir yeri vardır. Bu bölgede 19.ve 20. yüzyıllarda bu tarzın önemli temsilcileri yetişmiştir. Bunların önde gelenlerinden biri de aşık Şenliktir.

Âşık Şenlik, araştırmacılara göre 1848 veya 1850 yılında Çıldır 'ın Suhara (Yakınsu) köyünde dünyaya gelmiştir. *Karapapak boyuna mensuptur. Atalarının Azerbaycan'ın Borçalı yöresinden geldiği ileri sürülmektedir. Annesinin adı Zeliha, babasının adı Molla Kadir'dir (Aslan, 1975). "Şenlik" Mahlasını şiirlerde kullanan aşığın asıl adı Hasan'dır (Erdener, 1960). Hasta Hasan'ın çırağı Aşık Nuri'nin yanına giden Âşık Şenlik orada saz çalmayı öğrenmiştir (Aslan, 1975).* Şenlik bölgenin en sevilen ve aranan âşıklarından biri olmuştur. Atışmalarıyla, tamamen irticalen söylediği hikaye ve şırleriyle yeteneğini ve gücünü ortaya koymuştur. Şenlik Baba namıyla ün salan âşık günümüze kadar çok sayıda âşık üzerinde etkili olmuştur. Bu yolda devam edenler , onun tarzını sürdürdüklerinden, ekol oluşturmuşlardır.

*1912 yılında Revan'da yapılan bir yarışmada rakipleri tarafından zehirlenen Şenlik en verimli çağında hayata veda etmiştir* (Kırzıoğlu, 1942).

Âşık Edebiyatında çırak yetiştirme geleneği yüzyıllar boyu yaşatılan geleneklerden biridir. Usta âşık saza ve söze kabiliyeti olan bir genci çırak edinir, yanında gezdirir, saz ve söz meclislerine sokar, günü gelince mahlasını verir. Yıllar boyu ustasına hizmet eden ve bu arada âşıklığın vecibelerini öğrenen çırak da zamanı gelince ustanın izniyle şiirlerini çalıp söylemeye başlar. Şiirlerinde, ustasının tekniği, kültürü ve söz dağarcığı açıkça kendini hissettirir. Ustasının ölümünden sonra meclislerde, sohbetlerde onun şiirleriyle söze başlar, çeşitli vesilelerle ustasının ismini zikreder, onun izinden gittiğini hissettirir. Bütün bunlar ustasının adını yaşatmak içindir. Çırağın, ustasından hakim olan tavır, üslup, icraat, kültür ve dile bağlılığı, kendisinin yetiştirdiği çırağına da sirayet eder. Zamanla, bu gelenek zinciri içinde bir âşık kolu ortaya çıkar. XIX. yüzyıldan itibaren, edebiyatımızda önemli kollar olarak zikredebileceğimiz Erzurumlu Emrah, Ruhsatî, Dertli, Sümmanî, Derviş Muhammed, Huzurî ve Şenlik kolları da bu şekilde oluşmuştur. Âşık kolları genellikle, kola ismini veren âşıkla başlatılır.

Âşık edebiyatında kollar önemli fonksiyon icra ederler. Usta- çırak geleneğinin mevcudiyeti, saz ve şiir sanatının, halk hikâyelerinin sistemli olarak yaşamasında, önceki kültür ve bilgilerin aktarılmasında birinci derecede rol oynar.

Kol; çıraklık geleneği içinde, birbiri ardınca yetişen âşıklar tarafından, odak hüviyetindeki usta aşığa bağlılık duyarak, ona ait üslup, dil, ayak, ezgi, konu, hatıralar ve hikâyelerin devam ettirildiği mekteptir. Bir âşık kolunun var olabilmesi yahut yeni bir âşık kolunun ortaya çıkabilmesi için birtakım belirleyici öğelerin var olması gerekir. Bunlar:

*Odak hüviyetindeki usta aşığın dil ve üslubu,
*İşlediği konular,
*Usta âşığın başından geçen ve hafızalardan silinmeyecek izler bırakan çeşitli olaylar,
*Usta âşığın karşılaşmaları,
*Usta âşığın tasnif ettiği hikâyeler,
*Usta âşığın kendisine ait ezgiler,
*Usta âşığa ait ayaklar.

Bu faktörleri daha da artırmak mümkündür. Faktörlerin sayısının artması kollarını tefrikini daha iyi belirler.

Bir kol içerisinde yer alan âşık yukarıda sıraladığımız faktörlere riayet eder, sanatını bu çerçevede icra eder. Saz meclisine ustaya ait bir dîvânla başlar. Fırsatına getirip ustasına ait bir veya birkaç hatırayı yad eder. Sık sık, yaptığı karşılaşmalardan örnekler verir. Şiirlerinde ustaya ait yahut onun kullandığı ezgiler ve kullandığı ayaklara benzer ayaklar açıkça kendilerini hissettirirler. Şayet usta âşık, hikâyeler tasnif etmişse çeşitli vesilelerle o hikâyeleri yahut hikâyelerden bir bölümü anlatır.

Âşık Şenlik yaşadığı dönemde yetiştirdiği çıraklarıyla da nam almıştır. Bala Kişi, İbrahim, Gazeli, Ali, Bala Mehmet, Namaz ,Kasım, Asker, Mevlüt, Süleyman, Gülistan ve Hüseyin onun yolundan giden aşıklardırlar. Ancak, İbrahim, Kasım ve Gülistan'ın yetiştirdiği aşıklar bu kolu devam ettirmişlerdir(KAYA200:17).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AZƏRBAYCAN -TÜRK VƏ ŞIMALI AMERIKA- HINDU FOLKLORU

***Fil.e.n. Ulduz Mürşüdova***
***AMEA Şəki Regional Elm Mərkəzi***
***Azərbaycan***

**Ozet:**

Azərbaycan xalqının şıfahi ədəbiyyatı və adət- ənənəsi onun bütövlükdə Türk şifahi el deyimləri ilə əlaqəsi haqqında elmi araşdırmalar çox aparılmışdır. Azəırbaycan xalqı tarixin müxtəlif dönəmlərində rəngarəng ağız ədəbiyyatı yaratmış və ümumtürk mədəniyyətinə öz töhfəsini vermişdir. Xüsusilə dünyanın yaranması, insanların inam və etiqadları haqqında yaranan miflər, nağıl, əfsanələr diqqət mərkəzində olmuşdur.

Lakin Şifahi hindu ənənəsi və onun bütövlükdə Amerika ədəbiyyatı ilə əlaqəsi, Amerika haqqında yazılmış elmi işlərin ən zəngini və ən az tədqiq olunmuşudur. Hindu şifahi xalq ədəbiyyatı Amerika ədəbiyyatına çox şey vermişdir. Gündəlik işlənən Amerika ingilis dilinə yüzlərlə hindu sözləri keçib. Bunları nəzərə alaraq Şimali Amerikanın hindu cəmiyyətinin torpağa tam bağlılığını təsdiq etmək olar. Onlar təbiətən dini inamlarla yaşayan və əsasən klan və qrup- tayfa şəklində, birlik halında yaşamağa yönəlmiş bir xalqdır. Öz övladlarına toleyrant və daha sərbəst yaşamağa meyllidirlər. Onların yazıları heroqliflərdir. Lakin mədəniyyəti əsasən Hindu şifahi nağıl və mifləridir.

Yerli hindularda totemizim güclü inkişaf etmişdir. Onların inamına görə, miflərində **Klikitat** qəbiləsini Koyot əjdaha – qunduzun ayaqlarından yaratdı və dedi: - Sizin ayaqlarınız iti, özünüz çox hiyləgər olacaqsınız, qaçmaqda və at minməkdə tayınız – bərabəriniz olmayacaq. **Kins** qəbiləsini əjdaha – qunduzun qollarından yaratdı və dedi: - Siz qüdrətli olacaqsınız. Ox, nizə, döyüş dəyənəyi işlətməkdə tayınız – bərabəriniz olmayacaq. **Yakimo** qəbiləsini əjdahanın qabırğasından yaratdı və dedi: - Siz məzlumların himayəndarı olacaqsınız. **Deşik burunlar** qəbiləsinin əjdahanın başından yaratdı və dedi: - Siz ən müdrik qəbilə olacaqsız. Həm ağıllı məsləhətlər verəcək, həm də igid döyüşçülər olacaqsınız. **İlanlı çay hinduları**nı əjdahanın tükləri, qanı və başqa yerdə qalan şeylərində yaradır və deyir :- Sizin qandan və zorakılıqdan xoşunuz gələcək, vəhşi öküz ovlayıb avara - avara dünyanı dolaşacaqsınız. O daş bıçağı ilə hinduların gözlərini və ağızlarını açır. Lakin tələsdiyindən və bıçaq küt olduğundan adamların çoxunun ağzı əyri, bəzilərininki, böyük çıxdı. Elə o zamandan sahil hindularının ağzı eybəcərdir.

Azərbaycan və Simali Amerika miflərinin çoxunda Yaradan və bəşəriyyət arasında və bütün təbii dünya arasında güclü ruhani bağların olduğu vurğulanır. Onlar, həmçinin bəşəriyyətin öz təbii dünyasını qorumaq borcları olduğunu da vurğulayırlar. İnsanlar dünyanın balansını saxlamalı və onu məhv olmaqdan qorumalıdırlar. Bir çox mədəniyyətlər , hər bir ailə qrupları, klanlar və tayfalar inanırlar ki, onları heyvan və yaxud digər obyektlərlə bağlayan güclü bağlar vardır. Ayı tayfasının adamları ayını müqəddəs tutur. Ayı isə öz növbəsində bu tayfanın ruhani qoruyucusuna çevrilir, onlara kömək edir. Ayı klanı öz ayı miflərini qoruyub saxlamağa borcludur və bununla bağlı ciddi məsuliyyət daşıyır. Bu heyvanlar isə totemlər adlanır. Heyvan kultu demək olar ki, bütün xalqların inamlarında əhəmiyyətli yer tutur. Azərbaycan miflərində maral, canavar, ayı, qartal, inək, qaranquş, göyərçin, qarğa, bayquş, it, pişik insanların həyatında mistik qüvvəyə malikdir. Bu heyvan və quşlara toxunmaq yasaqdır, günah hesab edilir. Hətta müəyyən zamanlarda ev ilanları adlanan ilanlar müqəddəs hesab edilib, onları öldürmək günah idi. Bu heyvanların haqqında xalqımızın mifoloji nağıllarıindi müxtəlif, insana xeyirləri dəyən əhvalatlar dolaşmaqdadır. Bu mətinlər yaxın əsrlərdə yazıya alınmışdır, ona görə də mətnlərdə məhz totemiz qalıqları az qalmaqdadır

Amerikanın yerli miflərinin ümumi bir əlaməti də onun trikster olmasıdır. Bu heyvan xarakterlərinin iki tərəfi var. Triksterlər üsyançıdırlar, rəhbərliyə tabe olmurlar, onlar bəzən xaos yaradır və başqalarına əziyyət verirlər. Eyni zamanda onlar ağıllı, hər şeyi bilməyə can atan, maraqlı və yaradıcı adamlardır. Gözlənilmədən müdrik hərəkətlər edirlər. Bir çox miflərdə trikster koyotdur, ravendir (quzğun), yaxud minkdir (su samuru). Miflərin birində koyot anlayır ki, əgər insanlar əbədi yaşayarsa, dünyada sıxlıq olacaq və basabas düşəcək. Ona görə də yerə ölümü gətirir.

Mif və rituallar hər iki xalqın, Milli Azərbaycan və Milli Amerika mədəniyyətinin ən möhtəşəm abidələridir. Bu əvəzsiz deyimlər insanları qanuna əməl etməyə, xəstəliklərin sağaldılmasına, ərzaqla təmin edilməsinə, gənc nəslin ağsaqqallardan örnək götürməsinə və əxlaqi tərbiyə öyrənmələrinə yardım edir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yerli amerikanlılar ən çox təbiət haqqında nağıllar danışırlar və dünyanın, yaxud onun bir hissəsinin necə yarandığı haqqında miflər nağıl edirlər. Belə miflərdən biri "Dünya necə yaranıb" əhvalatıdır. Bu böyük Smoki dağlarının meşəliklərində yaşayan Çeroki tayfasının mifidir. "Səma ağacı" isə böyük gölün ətrafında yaşayan Huron xalqının mifidir.

Hər iki xalqın miflərində maraqlı yaxınlıq vardır. Sadəcə yaşadığı ərazi və onları əhatə edən flora və faunada,onların insan həyatındakı rolu haqqında müxtəlifliklər vardır.

Bu mövzudə araşdırmalar folklorşünaslığımızın inkişafına öz töhvəsini verə bilər, çünki hal- hazırda dünya folklorşünaslarının diqqətini cəlb edən bir məsələ də məhz hinduların hardan gəlib bu ərazidə məskunlaşması və hansı millətlə daha çox qohumluq əlaqələrinin olmasıdır.

**Mətn:**

Bizim eradan 34.000 - 30.000 il əvvəl yer kürəsi buzlaq dövrünü yaşayırdı. Suların üzəri belə buz qatı ilə örtülmüşdür. Nəticədə Berinq dənizi indiki səviyyəsindən yüzlərlə metr aşağı idi və torpaqdan körpü Asiya ilə Şimali Amerikanı birləşdirirdi. Bu torpaq ərazisi təxminən 1.500 km genişlikdə olaraq bitki, heyvanlarla zəngin idi. Qədim insanlar bu heyvanları ovlayır və bitkilərlə qidalanırdılar. İlk insan sürüləri bu torpaq ərazidən hərəkət edərək heç özləri də bilmədən bir qitədən digərinə - Asiyadan Şimalı Amerikaya, yaxud əksinə, Şimali Amerikadan Asiyaya köç etmişlər. Min illər beləcə insanlar bir qitədən digərinə hərəkət edək yurd salardılar. İlk hindu qrupları piramida-maund (torpaq təpəliyi) yaradaraq orada yaşamağa və məskunlaşmağa başladılar. Hal- hazırda həmin ərazi Adenans adlanır. Təxminən bizim eradan 600 il əvvəl bu insanların dəfn yerləri və ətrafları möhkəmləndirilmiş əraziləri indi də durur. Bəzi beləcə hasarlanmış maund-torpaq sahələri dini mərasim və ritualların keçirildiyi yerlər olub ki, hal-hazırda ora quş və ilanların məskənidir. Bu dini yerlərin əsil istifadə edilmə məqsədləri hələ də tam aydın deyil. Adenansda yaşayan tayfalar Hopi xalqının ən qədim əcdadları idi. Bu tayfaların yaşadığı ərazinin mərkəzi Ohayo idi ki, hal- hazırda da onların yaşayış məskənlərinin qalıqları orada durur. Bizim eranın təxminən 500 illiyində Hopi xalqının qədim əcdadları yoxa çıxır, öz yerini böyük tayfa olan Mississipianlara, yaxud kahin mədəniyyətinə verir. Missurinin San Luisin şəhərində 12-ci əsrə kimi bu xalq öz həyatının zirvəsini yaşamışdır. Şəhərin mərkəzində nəhəng maund- torpaq təpəlik ucalır ki, onun hündürlüyü 30 m, ərazisi 37 ha-dır. Təpənin zirvəsi hamarlanıb. Onun ətrafında isə 80 digər maundlar aşkar edilmişdir. Bu şəhərin əhalisi ticarət, ovçuluq, yemək tədarükü ilə məşğul olmuşlar və kənd təsərrüfatı geniş inkşaf etmişdir. Cənub ərazilərdə çiçəklənən bir cəmiyyətin təsiri özünü burada da göstərirdi. Ərazidə iyerarxiya (asılılığın yuxarılara tabe olma qaydası), yəni quldarlıq və insan səkrifaysı (insanların Tanrılara qurban verilməsi) həyata keçirilirdi. Buna görə də ABŞ-ın cənub- qərbi, Anasazi müasir Hopi hindularının əcdadlarının məskəni hesab edilir.

Bunları nəzərə alaraq Şimali Amerikanın hindu cəmiyyətinin torpağa tam bağlılığını təsdiq etmək olar. Onlar təbiətən dini inamlarla yaşayan və əsasən klan və qrup- tayfa şəklində, birlik halında yaşamağa yönəlmiş bir xalqdır. Öz övladlarına toleyrant və daha sərbəst yaşamağa meyllidirlər. Onların yazıları heroqliflərdir. Lakinmədəniyyəti əsasən Hindu şifahi nağıl və mifləridir.

Guya o zamanlar quş, heyvan və balıqlar insan kimi dil bilir və danışırdılar.

"Yer adamları göy adamlarına necə qonaq gedirdilər" əfsanəsində Quzğunun dimdiyindəki iri deşik skat balığının atdığı ox tərəfindən açılmışdır. Oxu gicitkən və küknar ağacından düzəldirdilər.

İldırım quş – Səməndər quşu qanadlarını açanda 2 hərbi qayıqdan 2 dəfə böyük olurdu. Quşun qarmağa bənzər nəhəng dimdiyi, alov kimi işıq saçan gözləri vardır. O Olimp dağlarında yaşayırdı. Yuvasına heç kimin yaxın düşməsinə icazə vermirmiş. Ovçular ildırım – quşdan qorxur. O öz azuqəsini qar və buzla örtülmüş geniş düzənliyin kənarındakı mağarada saxlayır. O, balina əti ilə qidalanırmış.( kvilayut qəbiləsi )

2) Çexeylis qəbiləsinin " Qarla döyüş " əfsanəsində yerə qarı beş Qar qardaşlar göndərirmiş.

Eyni zamanda bu qəbilənin inamına görə suiti, qurbağa və kərtənkələ ilanın xalası qızlarıdır. Lakin qurbağa ilana çəpgöz dediyi üçün, ilan ona düşmən kəsilir və rast gələn kimi onu udur.

Yerli Hindu qəbilələrinin inamına görə Koyot çox ağıllı və dünyagörmüş idi. Qarnında giləmeyvə şəklində yaşayan 3 ağıllı bacıları ilə məsləhətləşirmiş. Bəzi əfsanələrdə bacılar mərcan donunda yaşayırdılar. Onlarda totemizim güclü inkişaf etmişdir. Onların miflərində **Klikitat** qəbiləsini Koyot əjdaha – qunduzun ayaqlarından yaratdı və dedi: - Sizin ayaqlarınız iti, özünüz çox hiyləgər olacaqsınız, qaçmaqda və at minməkdə tayınız – bərabəriniz olmayacaq. **Kins** qəbiləsini əjdaha – qunduzun qollarından yaratdı və dedi: - Siz qüdrətli olacaqsınız. Ox, nizə, döyüş dəyənəyi işlətməkdə tayınız – bərabəriniz olmayacaq. **Yakimo** qəbiləsini əjdahanın qabırğasından yaratdı və dedi: - Siz məzlumların himayəndarı olacaqsınız. **Deşik burunlar** qəbiləsinin əjdahanın başından yaratdı və dedi: - Siz ən müdrik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəbilə olacaqsız. Həm ağıllı məsləhətlər verəcək, həm də igid döyüşçülər olacaqsınız. **İlanlı çay hinduları**nı əjdahanın tükləri, qanı və başqa yerdə qalan şeylərində yaradır və deyir :- Sizin qandan və zorakılıqdan xoşunuz gələcək, vəhşi öküz ovlayıb avara - avara dünyanı dolaşacaqsınız.

O daş bıçağı ilə hinduların gözlərini və ağızlarını açır. Lakin tələsdiyindən və bıçaq küt olduğundan adamların çoxunun ağzı əyri, bəzilərininki, böyük çıxdı. Elə o zamandan sahil hindularının ağzı eybəcərdir. Amerikada yaşayan qəbilələrin adları onların yaşadıqları ərazilərin adlarından götürülmüşdür. Məsələn:

1) kivalyutlar – qəbilələr
2) rexeylis
3) yakimo – Yakim çayı sahilində
4) klikitat – Böyük çaydan şimalda Böyük dağdan axan çay sahilində
5) kius – Böyük çayın sahili boyu
6) deşik burunlar – Kukskiya və Uollova çaylar boyunda yaşayanlar
7) İlanlı çay hinduları –
8) Samış – məkr boğazı dar keçid Pyucet Sound körfərinədək Uidbu və Fidalqo adaları arasında. 1792 – ci ildə kapitan Corc Vinkuver qayalı sahillər arasındakı bu dar keçidin qapalı limana aparmadığını biləndə o yerə bu adı vermişdir.
9) Çinuk
10) Umpkua
11)Klatsop – Böyük çayın mənsəbi.
12) Vabanklar – “ doğan günəşin yanında yaşayanlar ”
4) “ Koyot və Quzğun ” “ Tülkü və qarğa ” eyni sujetlidir.

Hindu tayfalarının qəribə adətləri və özünəməxsus mətbəx mədəniyyəti vardır. Bu adətlərdən biri onların dəfn mərasimidir. Ölmüş adamları Memalus adasına aparır və orada mərasim keçirirdilər Memalus Kolumbiya çayının aşağı axarında yerləşir və uzun illər dəfn üçün hinduların istifadə etdikləri ərazi- ada olmuşdur. Eyni zamanda onların özünəməxsus geyim mədəniyyəti vardır. Kasıblar tozağacı qabığını qoyub, qabıqları iti çubuqla deşib bərk otlarla bir – birinə tikirdilər. Don qaba olur, xış –xış xışıldayırdı, lakin dümağ olurdu. Varlılar isə nazik maral dərisindən don geyinir, başlarına isə maral buynuzundan düzəldilmiş daraq taxırdılar.

Hindular məişət qablarını xüsusi məharətlə hazırlayırdılar. Yemək dəstləri gildən hazırlanmış qablar idi ki, onları hazırlayarkən əvvəl göyrüş zoğlarından səbət hörür, sonra gil palçıqla suvayırvə nəhayət ocaqda bişirirdilər. Qablar hazır olandan sonra onda yemək yeyir, xörək bişirirdilər. Onların mətbəxi də çox eqzotik və rəngarəng idi. Qədim hindu tayfaları kamas soğanağı, ayıdöşəyi, giləmeyvə, qızıl balıq, molyusk, dəniz xərçəngi, ət qaxacı, giləmeyvə və kök qurutmaqla özlərinə ərzaq ehtiyyatı tuturdular. Qış – dərin yuxular ayı adlandırılırdı və ilin bu fəslində ac qalmamaq üçün insanlar çox əziyyət çəkir və çaba göstərirdilər.

Şifahi hindu ənənəsi və onun bütövlükdə Amerika ədəbiyyatı ilə əlaqəsi, Amerika haqqında yazılmış elmi işlərin ən zəngini və ən az tədqiq olunmuşudur. Hindu şifahi xalq ədəbiyyatı Amerika ədəbiyyatına çox şey vermişdir. Gündəlik işlənən Amerika ingilis dilinə yüzlərlə hindu sözləri keçib.

Uzun əsrlər bundan əvvəl Avropalılar Şimali Amerikanın sahillərinə gəlib çıxdılar. Bu zamanlarda Yerli amerikanlar öz mədəniyyətlərini və irsi dəyərlərini inkişaf etdirirdilər. Onların hər birinin öz şifahi ədəbiyyatı və öz adət- ənənələri vardı. Şifahi ədəbiyyat- əhvalatlar, nağıllar, əfsanələr, xalq nəğmələri nəsildən – nəsilə ötürülür, yaxud tayfa məclislərində danışılırdı.

Miflər hər bir xalqın el ədəbiyyatında ən önəmli yeri tutur, xalqın mədəniyyəti, eyni zamanda adət-ənənələri haqqında məlumat verir. Miflərin müəllifi yoxdur. Onlar anonim olaraq yayılır, ənənəvi əhvalatları özündə əks etdirir. Hər bir xalqın mifi onun milli fenomenini izah edir, bəşəriyyətin davranış aspektlərini özündə əks etdirir. Miflər dünyanın niyə məhz belə olduğunu açıqlamağa çalışır, onlar xəyalən insanlara öz dünyasında, öz evində yaşadığını hiss etdirməyə çalışır və onları həssas, qayğıkeş olmağa cəlb edir. **Dünyanın yaranması** ( *creation myths)* ilə bağlı miflər dünya və insanların necə yoxdan var olmasını izah etməyə çalışır. **Başlanğıc miflər** *(origin myths)* ulduzların, ayın, dağların və başqa təbii fenomenlərin necə əmələ gəldiyini, yaxud cəmiyyətdə nə səbəbdən bu qədər çox sayda inamların və adətələrin olduğunu izah edir. Bəzən bir əsatirdə həm dünyanın yaranması, həm də başlanğıc mifləri özündə əks etdirən əhvalat öz əksini tapır. Taos Pueblo əsatirində belə izah edilir: “ O zamanlar dünya gənc idi. Nəhəng divlər yerdə dolaşırdılar. Günlərin birində yeri xəstəlik bürüyür və nəhənglər məhv olurlar. Hamı ölür, yalnız balaca bir oğlan sağ qalır. Bir gün oynayarkən ilan onu sancır və oğlan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bərkdən ağlamağa başlayır. Uşaq o qədər ağlayır ki, ondan qan gəlir. Nəhayət uşaq ölür. Bizim göllər onun göz yaşından yarandı. Onun qanından qırmız gil torpağımız yarandı. Onun bədənindən isə dağlarımız yarandı."

Azərbaycan və Simali Amerika miflərinin çoxunda Yaradan və bəşəriyyət arasında və bütün təbii dünya arasında güclü ruhani bağların olduğu vurğulanır. Onlar, həmçinin bəşəriyyəti öz təbii dünyasını qorumaq borcları olduğunu da vurğulayırlar. İnsanlar dünyanın balansını saxlamalı və onu məhv olmaqdan qorumalıdırlar. Bir çox mədəniyyətlər , hər bir ailə qrupları, klanlar və tayfalar inanırlar ki, onları heyvan və yaxud digər obyektlərlə bağlayan güclü bağlar vardır. Ayı tayfasının adamları ayını müqəddəs tutur. Ayı isə öz növbəsində bu tayfanın ruhani qoruyucusuna çevrilir, onlara kömək edir. Ayı klanı öz ayı miflərini qoruyub saxlamağa borcludur və bununla bağlı ciddi məsuliyyət daşıyır. Bu heyvanlar isə totemlər adlanır. Heyvan kultu demək olar ki, bütün xalqların inamlarında əhəmiyyətli yer tutur. Azərbaycan miflərində maral, canavar, ayı, qartal, inək, qaranquş, göyərçin, qarğa, bayquş, it, pişik insanların həyatında mistik qüvvəyə malikdir. Bu heyvan və quşlara toxunmaq yasaqdır, günah hesab edilir. Hətta müəyyən zamanlarda ev ilanları adlanan ilanlar müqəddəs hesab edilib, onları öldürmək günah idi. Bu heyvanların haqqında xalqımızın mifoloji nağıllarıindi də dolaşmaqdadır. Bu mətinlər hələ yaxın illərdə yazıya alınmışdır, ona görə də mətnlərdə məhz totemiz qalıqları az da olsa qalmaqdadır

Amerikanın yerli miflərinin ümumi  bir əlaməti də onun trikster olmasıdır. Bu heyvan xarakterlərinin iki tərəfi var.Triksterlər üsyançıdırlar, rəhbərliyə tabe olmurlar, onlar bəzən xaos yaradır və başqalarına əziyyət verirlər. Eyni zamanda onlar ağıllı, hər şeyi bilməyə can atan, maraqlı və yaradıcı adamlardır. Gözlənilmədən müdrik hərəkətlər edirlər. Bir çox miflərdə trikster koyotdur, ravendir (quzğun), yaxud minkdir (su samuru). Miflərin birində koyot anlayır ki, əgər insanlar əbədi yaşayarsa, dünyada sıxlıq olacaq və basabas düşəcək. Ona görə də yerə ölümü gətirir.

Mif və rituallar Hər iki xalqın, Milli Azərbaycan və Milli Amerika mədəniyyətinin ən möhtəşəm abidələridir. Bu əvəzsiz deyimlər insanları qanuna əməl etməyə, xəstəliklərin sağaldılmasına, ərzaqla təmin edilməsinə, gənc nəslin ağsaqqallardan örnək götürməsinə və əxlaqi tərbiyə öyrənmələrinə yardım edir.

Haqqında danışacağlmlz iki Şimali Amerika əhvalatı şifahi ənənələrdən yaranmışdır. Heç kəs bilmir ki, onlar haradan qaynaqlanır. Yerli amerikanlar yüz illərdən sonra onları yazıya almışlar. Əhvalatları söyləyənlər çalışırdılar ki, tayfalar öz tarixlərini və adət ənənələrini anlasınlar. Yerli amerikanlar ən çox təbiət haqqında nağıllar danışırlar və dünyanın, yaxud onun bir hissəsinin necə yarandığı haqqında miflər danışırlar. Belə miflərdən biri "Dünya necə yaranıb" əhvalatıdır. Bu böyük Smoki dağlarının meşəliklərində yaşayan Çeroki tayfasının mifidir. "Səma ağacı" isə böyük gölün ətrafında yaşayan Huron xalqının mifidir. "Dünya necə yaranıb" mifində deyilir ki, Yer kürəsi böyük su dənizinin içərisində üzən adadır. Dünya qocalanda insanlar öləcək, yer parçalanacaq və okeanın dibinə batacaq və hər şey suya qərq olacaq. Hindular bundan qorxurdular. Həmin mifdə göstərilir ki, "hər yer su idi və bütün insan və heyvanlar Galun Lati ( go lun (g) lot i) – da yaşayırdılar. Sıxlıq olduğundan onlar yaşamaq üçün yer axtarırdılar. Onlar suya baş vurur və dibində yumşaq palçıqla rastlaşırlar ki, palçıq böyüyür və adaya çevrilir. Onu yer kürəsi adlandırırlar. Lakin bunu kimin etdiyini heç kim xatırlamır. Yer əvvəlcə yumşaq, düz və nəm idi. İnsanlar böyük Buzzardı (quzğun) yenidən yerə göndərirlər. O bütün yer kürəsinin üzərindən uçur və görür ki, torpaq hələ də yumşaqdır. Çeroki ölkəsinə çatanda yorulur, qanadlarını yerə vurur. Orada dağlar əmələ gəlir. Yer quruyandan sonra heyvanlar aşağı düşürlər. Hər yer qaranlıq idi. Onlar günəşi əldə edir və yer adasnda şərqdən qərbə cığır açırlar. Bərk isti olur, Konjər ( cadugər ) günəşi çox yuxarı qaldırır. Bu mifə görə yerin altında başqa bir dünya var ki, heyvanları, bitkiləri və adamları müxtəlif fərqli fəsillərdə yaşayırlar. Dağlardan gələn sel yeraltı dünyanın quyruğudur. Yaz hansı ki, onların başıdır, Biz onun başı vasitəsilə yeraltı dünyaya gedə bilərik. Yeraltı dünyada fəsillər bizdən fərqlidir. Qışda su isti yayda isə soyuq olur. Çoxlu yerli amerikan mədəniyyətində insanlar inanır ki, hər bir bitki, heyvan və insanın təbii ruhu var ki, ona güc verir. Miflərdən birində onlar öz ruhlarına dua edərək yeddi gecə oyaq qalmalıdırlar. Hamı belə edir. Bir neçə gündən sonra bütün heyvanlar yatır, yalnız bayquş panter və bir – iki heyvan oyaq qalır. Onlar mükafatlandırılır və qaranlıqda görmək,  gəzmək gücü verilir. Ağaclardan isə sidr, şam, Kanada küknarı, holi (pırkal) , dəfnə axıra kimi oyaq qaldıqlarına görə onlara güc verilir ki, həmişə yaşıl olsunlar və böyük tibbi əhəmiyyətləri olsun. Başqalarına isə qəzəbləndilər və dedilər: "Axıra kimi dözmədiyinizə görə hər qış saçlarınızı itirəcəksiniz". Heyvan və bitkilərdən sonra insan gəlir. İnsan dözdüyünə görə çoxalmaq imkanı verilməklə mükafatlandırılır. Əvvəlcə yalnız bacı və qardaş var idi. O bacısını balıqla vurur və deyir:"- Çoxal!" Yeddi günə bacının bir uşağı olur. Bundan sonra hər yeddi gündən sonra onlar sürətlə artır və inkişaf edir.Artıq insanlar o qədər


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çoxalır ki, onları dünyanın saxlaya bilməyəcəyi təhlükəsi yaörə də yaradan əmr verir və qadın ildə bir dəfə dünyaya uşaq gətirə bilir.

"Səma ağacı" mifində ( Huron qəbiləsi – şərqi Vudlənd ) mifində yer kürəsi su ilə örtülü idi. Səma ölkəsində yaşayan insanlar ərzağı Skayləndin (Səma ölkəsi) mərkəzində yerləşən böyük ağacdan götürürdülər. Bu torpağın qoca başçısı Ataentsik adlı ( qədim arvad ) arvadı ilə yaşayırdı. Onların uzun evi böyük ağacın yanında idi. Bir gün başçı xəstələnir və heç nə onu sağalda bilmir. O qədər zəifləyir ki, elə bil öləcək. Kişi yuxu görür və arvadına deyir: Mən yuxuda gördüm ki, səma ağacının təpəsindəki meyvəni yesəm sağalcağam. Sən ağacı kəs və meyvəni mənə gətir. Qadın baltanı götürüb ağacı kəsməyə çalışır. Ağac iki bölünür və yıxılarkən, Skaylənddə böyük deşik açılır, ağac oradan düşür. Qadın əhvalatı ərinə danışır. Sonra həmin deşiyin yanına gəlir və özünü deşikdən atır. Aşağıda tısbağa yixilan qadını görür, və dənizdəki bütün heyvanları yanına çağırır. Məsləhətləşirlər ki, suyun dibindən torpaq gətirsinlər və tısbağanın belinə töksünlər. Heyvanlar tez nəm torpağı gətirir, onun belinə tökür və beləliklə, ada yaranır. Qadın yavaşca yerə enir ki, bu bizim indi yaşadığımız yer kürəsidir. Ağac da onunla bərabər düşür və orada kök atır.

Azərbaycan mifoloji obrazlarından biri olan Humay- Umay da Səma ölkəsindən Dünya ağacı ilə yerə enmiş qadındır. Mirəli Seyidova görə Saqlar və türkdilli xalqlar etnik – soy və dil baxımından da qohum olmuşlar. Qohumluğu aydınlaşdıran misallardan biri məhz ana və uşaqların qoruyucusu, Dünya ağacı ilə birgə göydən göyqurşağı ilə gələn Umay anadır. "Umay ilahəsi adına görə dil və mifoloji baxımdan Saqlara bağlılığı qohumluğu göstərən dəlillərdəndir. Umay ana, Ayıhıt ilahələri başlıca olaraq uşaqları qoruyurlar. Ayıhıt, Umay göydə yaşayan Ayı – ı adlı tanrılardandırlar. " Umay//ay " Caq və başqa türkdilli qəbiləbirləşmələrinin, xalqların birgə ilahəsinə, tanrısına çevrilmiş, bu dillərdəki fonetik şəklini, mənasını və mifoloji keyfiyyətlərini saxlamışdır. " Umay "ın söz açımından, yozumundan – etimologiyasından aydınlaşır ki, Saq və başqa türk dillərindən yaranan " Umay " " bacarıqlı ana ", " güclü yaradan ", " bacarıqlı yaxşıistər ", " ilahə " deməkdir. " Umay " həm də " ana " daməkmiş. Bu isə onun Saqların " ai// ai// ay " ana ilahəsi ilə məna və mifoloji, qismən fonetik baxımdan bağlı olduğunu göstərir. " Umay " sözünün türk dillərində " uşaq cifti ", " ana bətinidə uşaq yeri ", " ana bətin " mənaları da vardır. Bu mənalardan aydın olur ki, Umay ana, ana bətin, uşaqla bağlıdır. Bu məna bağlılığı iki səbəbdən yarana bilərdi: Birincisi – Saqlarda və başqa türkdilli qəbilə birləşmələrində dil biriyindən, ikincisi isə - qarşılıqlı təsirdən. Bizcə, daha çox dil qohumluğu özünü göstərir. Bu yaxınlığı üzə çıxaran bir örnəyə də diqqət yetirək: Azərbaycan dilində ananın qardaşına **dayı** ( bir sıra türk dillərində isə ona **tayı – tai** ) deyirlər." "Mələk ana" mifoloji mətni ana ilahənin məhz uşaqların qoruyucusu ideyasını özündə qoruyub saxlamışdır. "Səma ağacı" və "Mələk ana" eyni mövzu və süjet xəttinə malikdir. Lakin Mələk ana- Humay daha məntiqi sonluqla bitir. Onun missiyası var, ana və uşaqları qoruyur.

Deyilənə görə, Hopi hinduları Amerikanın ən qədim tayfalarındandı. Onlar başqa insanlardan çox – çox əvvəl dünyaya gəliblər və indiyə qədər yaşadıqları yerlərdə, ABŞ – ın Cənub – Qərbində məskən salıblar.

Hopilərin qədim miflərində Kainatın atası, Tayova birincı dünyanı yaradır və insanları ora köçürür. Onlar elə rahat, elə azad yaşyırlar ki, tezliklə öz nəcibliklərini unudurlar. Rəzil niyyətlərə düşülər, buna görə də çəkişmələr, davalar başlayır. Birinci Dünyanın natamamlığını görən Tayova torpağı çalxalayıb, odda məhv edir. O, sonra İkinci Dünyanı yardır. İkinci Dünya insanları da insan kimi yaşaya bilmirlər. Tayova torpağı yenidən məhv edir və Üçüncü Dünyanı, daha sonra hopilərin indi də yaşadıqları sonuncu – Dördüncü dünyanı yaradır.

Dördüncü Dünyanı yarathayaratda Tayova üzünü adamlara tutub deyir:

- Bu dünya nə Birinci Dünya kimi qəşəngdi, nə də yaşamağa əlverişlidi: Uca dağları da var, batdaq düzənləri də, bürküsü də var, şaxtası da, gözəlliyi də var, eybəcərliyi də, yoxsulluğu da var, bolluğu da. Siz istədiyinizi seçə bilərsiniz. Atanız kimi mənim sizə verdiyimi həyata keçirmək seçməyinizdən asılıdır.

Boş – boşuna dünyanı yağır edib, özünüzə yurd – yuva axtarmayın. Qoy hər bir tayfa işıqlı dünyanın dörd tərəfinə dörd dəfə səfərə çıxsın, sonra isə dördyol ayrıcında görüşsünlər. Onda həmin səfərin mənası onlara aydın olar.

Tayova sözünü deyib insanları tərk elədi, insanlarsa uzaq səfərə çıxdılar: cənub, şimala şərqə və qərbə üz tutdular. Dördyol ayrıcının iri mərkəzi hopiləri indi yaşadıqları yerə çevrildi.

Şimala gedənlər uca dağa qalxanda özləri ilə Maxu adlı iki cırcırama götürdülər. Maxuların həniri uzun və ağır səfər boyu adamları isidirdi, onlar xırda fleytalarında musiqi çalırdılar. Nəhayət, səyyahlar zirvəyə çatdılar, onlar zirvədə Qartalla qarşılaşdılar. Maxulardan biri adamların adından Qartala deyir ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

icazə versin onun yanında qalsınlar. Qartal əvvəlcə onları sınamaq qərarına gəlir. Gücləri və mərdlikləri varmı. Maxular sınaqdan yaxşı çıxırlar.

Qartal onlara torpağında yaşamağa icazə verdi və dedi:

-. Mən ruhun əzəmətini təmsil edirəm. Göyə hökmüm çatır. Mən sizin duanızı Kainatın atası Tayovaya çatdıra bilərəm, bunun üçün lələklərimdən götürməyə icazə verirəm.

Adamlar Qartalın lələyini müqəddəs tutdular və cırcırama Maxuya sitayiş eləməyə başladılar. Onlar Maxuya Donqar Fleytaçı adını verdilər: axı, o, donqarında gül – çiçək və bitki toxumu daşıyır, onun cırıltısı isə xırda fleyta səsinə çox oxşayır, adamlara rahatlıq və hərarət bəxş edir. Hindunun uşağı xəstələnəndə mahnı oxuyur, çünki musiqinin şirin təsiri ilə xəstəliyi sağaltdığını bilir.

Hər iki Maxunun şərəfinə hopilər iki nəsillərinə onların adını verdilər: Mavi Fleyta nəsli və Boz Fleyta nəsli. Hopilər hara getsələr, oranın qayalığına Kokopeli ruhunun – cırcırama Maxu ruhunun təsvirini həkk edirlər.

Cənuba gedənlərin səfəri də ağır oldu. Onlar humayəndarlarının şərəfinə özlərinə Barsuk nəsli deyirdilər. Barsuk onlara xəstəlikləri sağaltmağın yolunu öyrətmişdi, müalicəvi otları tanıtmışdı. Barsuk nəsli surətlə çoxaldı. Onlar guya dünyanın dörd tərəfinə səfərlərini başa çatdırdıqdan sonra köç salmaq üçün Tayovadan işarə gözlədilər.

Adamlar iri mağarası olan qəşəng bir sıldırımlı dərəni yaşayış yeri seçdilər, yurd saldılar, qarğıdalı saxlamağa anbar tikdilər, mərasimlər keçirməyə məbəd ucaltdılar. Adamlar arasında isə ədavət qalmaqdaydı. Elə bu vaxt qəflətən vəhşi heyvanların izi – tozu qalmadı. Aclıq özünü kəndə çatdırdı. Qoca başçı Salavi camaatı toplayıb dedi:

- Sizin ədavətiniz bizə bədbəxtlik gətirdi. Biz gərək burdan gedək. Ayrı – ayrı yollarla müxtəlif tərəflərə gedin. Axırıncı sözümə qulaq asın. Düz dörd ildən sonra qayıdın, qayıdandan sonra mənim izimi çaylarda, evlərdə, məbəddə axtarın. Əgər sizin ədavətinizdə mənim də suçum varsa, nə məni, nə mənim cənazəmi, nə də haqqımda xatirə tapacaqsınız. Qəlbim təmiz olubsa, siz işarə görəcəksiniz və o işarə sizin sonrakı həyatınıza kömək edəcək.

Adamlar evlərini tərk elədilər, müxtəlif tərəflərə yola düşdülər, dörd ildən sonra geri qayıtdılar. Nə görsələr yaxşıdı? Kəndin girəgəyindəki qurumuş çaya su gəlmişdi, sahildə dörd yaşı tamam olmuş küknar ağacı bitmişdi. Küknar Salavinin adamlar üçün qoyduğu işarəsiydi, axı onun ürəyi təmizdi, ruhu isə əzəmətliydi. O, ölüm ayağında çaya girir, sonra küknara çevrilib sahildə bitir. O vaxtdan Barsuk tayfasında ədavətə son qoyulur: adamlar başa düşürlər ki, bir – birinə dayaq olmasalar yaşaya bilməyəcəklər.

Adamlar dünyanı beləcə gəzib dolaşırlar. Bu uzun səfərlərdə bəzi tayfalar Tayovanın (Hopi tanrısı) tapşırığını qulaq ardına vurmuşdular, dörd səfəri axıra çatdırmamışdılar, buna görə də özlərinin əvvəlki güclərini, dəyanətlərini itirmişdilər. Amma inadla irəli gedənlər, nəhayət, bu səfərlərin böyük əhəmiyyətini başa düşdülər: məqsəd insanı rəzil əməllərdən təmizləmək idi.

Adamlar başa düşdülər ki, insan nə istidən, nə şaxtadan, nə uca dağlardan qorxmalıdırlar. Onlar sadəcə pislikdən, bir- birinə bəslədikləri ədavət və kindən çəkinməlidirlər. Hopilərə baş çəkənlər heyrətə düşürlər: niyə bu xalq yaşamağa belə soyuq, susuz yeri seçiblər? Çünki onları bura Tayovanın özü gətirib. Hopilər əmindilər ki, yaşadıqları torpağa tam haqları çatır. Heç kəs bu torpağı onlardan ala bilməz..

**ƏDƏBIYYAT**

1. American Literature, page 1203, California Edition, Beverly Ann Chin, Denny Üolfe, Jeffrey Copeland, Mary Ann Dubzinski and est.
2. Bəliyev Kamil. Elin yaddaşı dilin yaddaşı, Bakı – 1987
3. Seyidov Mirəli. Xalqımım soykökünü düşünərkən. Bakı-
4. An outline of American history. USA Departament, May-1994



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «AZƏRBAYCAN YURD BİLGİSİ» DƏRGİSİNDƏ «CAVAD XAN» DASTANI

***Ülkər Əliyeva***
***AMEA Folklor İnstitutu***
***Azərbaycan***

XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət xalqın sosial həyatına güclü təsir göstərmişdir. Elmin, mədəniyyətin bütün sahələri rus şovinizminin təsiri altında parçalanaraq məhv olurdu. Milli şüuru və azadlıq hərəkatını boğan rus irticası yüzlərlə Azərbaycan ziyalısının vətəni tərk etməsinə səbəb oldu. Azərbaycanı tərk edən mühacirlər dünyanın harasında olmalarına baxmayaraq, uzaqdan da olsa, burada baş verən geosiyasi vəziyyəti izləyir və mühacirətdə dərc etdikləri qəzet, jurnal və digər mətbu orqanlar vasitəsilə fikir və mülahizələrini bildirirlər. Belə mətbu orqanlardan biri professor Əhməd Cəfəroğlunun (1899-1975) 1932-ci ildə tə'sisçisi və redaktoru olduğu "Azərbaycan Yurd Bilgisi" dərgisidir.

"Azərbaycan Yurd Bilgisi" dərgisi o dövürdə mühacirətdə nəşr olunan "Yeni Kafkasiya", "Odlu yurd", "Azəri türk", "Bildiriş", "Qurtuluş", "İstiqlal", "Azərbaycan" və digər qəzet və jurnallardan fərqli olaraq, sırf elmi araşdır-malarla məşğul idi. Sadaladığımız bu mətbu orqanlar Azərbaycan xalqının siyasi hüquqları uğrunda mübarizə apardıqları dövrdə "Azərbaycan Yurd Bilgisi" dərgisi bu xalqı qədim tarixi, ədəbiyyatı və mədəniyyəti ilə dünyaya tanıdırdı. Bu dərgi ayda bir dəfə, 48 səhifə həcmində çap olunurdu. 1932-1934-cü illər arasında jurnalın 36 nömrəsi işıq üzü görmüşdü.

Qeyd etdiyimiz kimi, «Azərbaycan Yurd Bilgisi» dərgisi siyasətdən uzaq idi. Lakin başda Azərbaycan olmaqla rus irticasına məruz qalan xalqlar arasında bu istilanı özündə əks etdirən elə dastanlar yaranırdı ki, dərgi bunu özündə əks etdirməyə bilməzdi. Rus şovinizmi bu dastanların leytmotivini təşkil etdiyindən, söz yox ki, həmin xalqlar o əsərləri yazılı ədə-biyyata gətirə bilməzdilər. Elə bu səbəbdən də xalqın dilində azadlıq hərə-katına rəhbərlik edən qəhrəmanlar haqqında müxtəlif dastanlar dolaşırdı.

«Azərbaycan Yurd Bilgisi» dərgisi də xalqın Dəli Alı, Cavad xan, Qaçaq Nəbi və başqaları kimi bir çox qəhrəmanları haqqında yaranan dastanları tədqiq və təhlil etmişdir.

«Azərbaycan Yurd Bilgisi» dərgisində Əhməd Cəfəroğlu «Azərbay-can ədəbiyyatında istiqlal mücadiləsi» (1; 2; 3; 4) adlı 4 hissəli iri həcmli məqaləsini məhz xalqın istiqlaliyyəti uğrunda mübarizəsinə həsr etmişdir. Bu məqalədə Azərbaycan xalqının istiqlal mücadiləsi illərində apardığı mübarizədən, qəhrəman oğullarımızın şücaətindən, onların haqqında yaranmış dastanlardan və bu dastanların təhlilindən bəhs olunur.

Məqalənin birinci hissəsində xalqın bu mübarizəsini geniş şəkildə təsvir edən müəllif burada «Cavad xan» dastanının da təhlilinə geniş yer vermişdır. Dastandan ayrı-ayrı parçaları misal gətirən müəllif yazır ki, «Qafqazın və xüsusiylə Azərbaycanın ruslar tərəfindən istilası və milli mücadiləsi qanla yazılmalıdır. Mürəkkəb yerinə istifadə olunan qanın rus tərəfindən malını-pulunu deyil, əksinə milli mövcudiyyətini, varlığını və istiqlalının tacı uğrunda axıdılan Azərbaycan türkünün qanı ilə yazılmalıdır. Hələ əzm, silah və qüvvət qarşısında bir ovuc istiqlalpərvər ordusu ilə «sən mənim ölümü qala divarının üzərindən taparsan» andıyla istiqlalını itirməkdən çox öz ölümünü üstün tutan Cavad xanların və Bakı xanlığının torpağına rusların ayaq basmasına dözməyib rus generalını qətlə yetirən Həmzələrin qanıyla yazılmalıdır ki, həqiqi Azərbaycan tarixi anlaşıla bilsin» (2, səh. 292-293).

Rus tarixçilərinin tarixi təhrif etmələrindən şikayətlənən müəllif Sisyanovun Cavad xana xitabən dediyi «milçəyin qarğa ilə müharibə etməsi mümkündürmü?» sözləri xalqın yaddaşında möhkəmlənərək şifahi xalq ədəbiyyatında özünə yer tapmasını təqdirə layiq hal hesab edir və düşünür ki, bu sözlər xalqın rus işğalçılarına olan nifrətini heç bir zaman azalmağa qoymayacaq.

«Cavad xan» dastanının təhlilini Əblürrəhman Ağa Dilbazın şeirləri əsasında aparan müəllif bu dövrdə yaranan bir çox şifahi xalq ədəbiyyatı nümunələrini də tədqiqata cəlb etmişdir. Qeyd edək ki, Firudin bəy Köçərli də Əbdürrəhman Ağanın Cavad xana yazdığı müxəmməsi o dövrün tədqiqi üçün əhəmiyyətli hesab edir və yazır: «Mərhum Əbdürrəhman Ağanın əsər-lərindən ən əhəmiyyətlisi Gəncə xanı Cavad xan Ziyad oğlunun rus qoşunu ilə 1804-cü ildə etdiyi döyüşün və onun göstərdiyi rəşadət və hünərin, ümu-miyyətlə bütün sərgüzəştləri haqda yazdığı müxəmməsdir…» (5, səh. 233).

Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsinin yetərincə işıqlandırıl-madığından şikayətlənən Ə.Cəfəroğlu özünün bu sahədəki araşdırmalarını aşağıdakı kimi qruplaşdırmışdır:

1. Cavad xanın mücadiləsinə həsr olunan dastanlar və şeirlər;
2. Şimali Qafqazda Şeyx Şamil haqqındakı şeirlər;
3. Qaçaq dastanları və aşıq ədəbiyyatında rus istilasına qarşı yazılan şeirlər;
4. Azərbaycan vətənpərvər şeir məktəbi və milli cərəyan;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

5. Son mühacirət dövrü istiqlal şeirləri.

Cavad xan haqqında ayrı-ayrı dastanlardan və şeirlərdən misallar gətirərək Ə.Cəfəroğlu rus şovinizminin təsiri nəticəsində Azərbaycan ədəbiyyatında bu mövzunun yetərincə dəyərləndirilmədiyini yazır. Bununla bağlı nə isə yazılsa da, ciddi təhlilə yol verilmir. Müəllif Cavad xanın mücadiləsinə həsr olunan dastanlardan və şeirlərdən misallar gətirir. Məsələn, M.Şakirin qələmə aldığı «Qurbaninin üç mənzuməsi»ndən:

Uğradı üstümə əmir hacısı
Dərunumdan çıxmaz yarın acısı
Qarabağda Ziyad xanın bacısı
Verildi mevladan ehsan dedilər (2, səh. 295).

-şeir parçasını, Kərəmin dilindən:

Bir güldüm Ziyad xanın bağında
Bülbüllər oxurdu sağımda, solumda
Qara Məlik gəl eləmə yamanlıq
Bu əhdi-ilqardan dönmək olurmu
Həya eylə, utanginən sozündən
Kəbə beytullahdan dönmək olurmu (2, səh. 295).

-şeiri, Gəncəli Həsənin dilindən:

Görən, bilən, eşidənlər yansunlar
Gör nə yaman oldu halı Gəncənin
Bizə imdat verməz padişahzadə
Məyər tutulubdur yolu Gəncənin.

Baydakları bürc üstündə qurdular
Tifil uşaqları hamu qırdılar
O zaman ki, Cavad xanı vurdular
Sanasan qırıldı beli Gəncənin.

Bayram gecəsində qalanı aldı
Dörd yanın çevirüp qılıçın çaldı
Erkəyi qırılup dişisi qaldı
Al qana boyandı çölü Gəncənin.

Gəncəli Həsənəm ürəyim acı
Mosko[502] fürsət tapıb çaldı qılıncı
Şəmsəddinli, Qazax, Borçalı, Gürcü
Taladı, qalmadı malı Gəncənin (2, səh. 296).

-şeirini misal gətirə bilərik. Qeyd edək ki, Gəncəli Həsənin qələmə al-dığı faciələr o dövrdə yalnız Gəncədə deyil, ruslar tərəfindən Azərbaycanın bütün bölgələrində törədildiyi çox aydın şəkildə təsvir olunmuşdur.

Tarixdən də məlumdur ki, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın daxili və xarici siyasəti çox murəkkəb idi. Bir tərəfdə öz azadlığını qorumağa çalışan xalq, digər tərəfdə nəyin bahasına olursa olsun, Qafqaza hakimlik etmək istəyən Rusiya imperiyası, başqa bir tərəfdə isə Rusiyanın törətdiyi bu qanlı faciələrə Qafqazda digər marağı olan dövlətlə-rin – Qərbi Avropanın, xüsusiylə də Fransanın və İngiltərənin seyirci nəzərlərlə olanları izləməsi bu dövrün mürəkkəb və xaotik olmasından xəbər verir.

1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Qazax və Şəmşəddil sultanlıqları Gürcüstandan asılı olduqlarından Şərqi Gürcüstanla birlikdə onlar da Rusiyaya birləşdirilmişdi. Bununla da Azərbaycanın işğalına başlandı (6, səh. 570).

Bunun ardınca Rus çarı Azərbaycanı ələ keçirmək niyyətində idi. Əvvəlcə 1803-cü ildə hərbi-strateji əhəmiyyətə malik olan Car-Balakəni ələ keçirib viran etdilər. Xalqın qalan hissəsi Rusiyaya tabe oldu. Lakin çox keçmədi ki, xalq öz azadlıqlarını təmin etmək üçün yenidən döyüşə atıldılar. Rus ordusuna başçılıq edən generalı öldürsələr də, Car-Balakən xalqı yenidən məğlub oldu. Bu döyüşə başçılıq edən general Sisyanov Car-Balakəndən sonra Gəncə xanlığını[503] ələ keçirməyi qərara aldı və Gəncə xanı Cavad xana təslim olmaq üçün nota göndərdi. Cavad xandan etiraz cavabı alan general Sisyanov qoşunlarını Gəncə üzərinə yeritdi. 1803-cü ilin dekabrında Cavad xana sonuncu dəfə ultimatom göndərən general Sisyanov ondan «… xam

---

[502] **Gəncəli Həsən burada Moskva şəhərini nəzərdə tutur.**

[503] Hələ XVI əsrdən Gəncə xanlığını Ziyad xanın sülaləsi idarə edirdi. Bu sülalənin son xanı Şahverdi xan oğlu Cavad xan XVIII əsrin təqribən üçüncü rübündən XIX əsrin başlanğıcına – yəni 1804-cü ildə Gəncə-nin ruslar tərəfindən istilasına qədər Gəncə xanlığının müstəqilliyini qoruyub saxlayaraq idarə etmişdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

xəyaldan əl çək. Gəncəyə yalnız meyidlərin üzə-rindən keçə bilərsən. Bildin? Mən öləndən sonra. Özgə cürə yox» (6, səh. 571) – cavabını alır və 1804-cü il qoşunları Gəncəyə yeridir. Bu döyüşdə 250 nəfər gəncəli həlak olur, 500 nəfər isə əsir düşür. Cavad xan isə oğlu Hüseynqulu xan ilə döyüşdə həlak olur. Bundan sonra Qarabağ, Şəki, Şirvan, Bakı və Quba xanlıqları bir-birinin ardınca işğal olunur. Bununla da çarizm Qafqazdakı müstəmləkə siyasətini zor gücünə həyata keçirdi.

Gəncədə baş verən bu qətliyam və rus şovinizmi təbii ki, şifahi xalq ədəbiyyatının yaranmasına və bu kimi qətllərin bu nümunələrdə öz əksini tapmasına mane ola bilmədi. Əbdürrəhman Ağa Dilbaz oğlunun «Gəncə qırğını» adlı şeiri buna misal ola bilər[504]:

Ey qazilər gəldi qəzadan bəla
Bir olmaz müsibət dövran eylədi
Yüz verdi qoqayi dəşt-i Kərbəla
Rus Gəncə şəhrini viran eylədi.

Neyləsin bisahib evdə qalan can
Sübhu şam ah çəküp qan ağlaşan, qan
Gəl yetiş imdadə ya sahib zaman
Kafir islam halin yaman eylədi.

Gəncə xalqı oldu haqla yeksan
Boyandı qalası oldu qızıl qan
Gördü mələklər huriylə qılman
Ərş üzündə ahu-fəğan eylədi.

Cavad xandan oldu mələklər razı
Pozulmaz qəzadan yazılan yazı
Xəbərdar olmadı cəngavər, qazi
Nə bir kömək Şəki, Şirvan eylədi.

Cavad xan ki, zühur etdi anadan
Bir mərd idi əzəl başdan, binadan
Şəhid çıxdı getdi darü-i fənadan
Mənzilin ravzeyi rizvan eylədi.

Qırdılar aləmi, məsum canları
Tökdülər məsçidə seyid qanları
Onların naləsi, ah, əfqanları
Tutdu ərşin üzün, duman eylədi.

Şair[505] onda məzlum olan canların
Xalq eylər divanın, ol yamanların
Mən də heyraniyəm ol zamanların
Görüm Oğurlu xan divan eylədi (5, səh. 105).

Firudin Köçərli göstərir ki, «əsil Gəncə faciəsini, rus ordusunun zülm və hunharlığını, nəhayət Cavad xanın qəhrəmancasına istiqlal müdafiəsini təsvir edən ədəbi parça Əbdürrəhman Ağanın müxəmməs şəklində yazdığı ikinci bir dastandır» (5, səh. 233).

«Azərbaycan Yurd Bilgisi» dərgisində Ə.Cəfəroğlu Əbdürrəhman Ağa Dilbaz oğlunun Cavad xana həsr etdiyi və «natamam nəşr edilmiş 24 müxəmməsi»ni ixtisarlarla tədqiqata cəlb etmişdir:

Bir rəvayət söylə ey dil, çərxi-gəcrəftardan
Ta ədəb ruz-i əzəl bəd mehr-i, bəd girdardan
Çərxi zalim dəhri dun, sahib xəta biardan
Kim yezidin izzətin gör şah-i dil-i əfkardan
Gör Cavad xan macərasın möhnəti məkkardan.

Belədir dövran əzəl insana al eylər cahan
Bir zaman xürrəm qılur, bir dəm məlal eylər cahan
Şah ola, istər gəda aşüftə hal eylər cahan
Aqibət bir gün gedər, hizmət halal eylər cahan
Naxudanı görk eylər ol kəşti-i pür barban.

---

[504] Qeyd edək ki, Ə.Cəfəroğlu bu şeiri «Cavad xan» haqqında yazılmış dastanlardan hesab edib.
[505] Əbdürrəhman Ağa Dilbaz oğlunun təxəllüsüdür.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər zaman dövran salupdur canı canandan cüda
Adəmi Həvvadan ayru bağ-i rizvandan cüda
Xatəmi saldı fələk cah-ı Süleymandan cüda
Ah kim düşdü bu gün dövran Cavad xandan cüda
Əskik olmaz zar-ı bülbül söhbət-i gül hardan.

Şahnamə şərhədəldən ol Cavad xan vəsfini
Mədən-i cud-i səxavət adlı divan vəsfini
Bilmiş Əflatun səmarın əhli meydan vəsfini
Hikməti Loğmandan artıq dərdə dərman vəsfini
Bir müxəmməs nəzmlə inşa qılım əşardan (2, səh. 299-300).

Ə.Cəfəroğlunun misal gətirdiyi bu şeir parçası, bir növ, Gəncəyə, Cavad xana mərsiyə deyir. Ümumiyyətlə, qeyd etməliyik ki, Cavad xanın ölümü və Gəncənin işğalı bütövlükdə Azərbaycanın işğalı demək idi. Çünki həm xalqın əzmkarlığı, həm də Gəncənin strateji əhəmiyyəti Azərbaycanın digər bölgələrinin də özünümüdafiəsinə mənəvi dəstək idi. Müxəmməsin sonrakı bəndlərində Cavad xanın şəxsiyyətindən bəhs edən şair yazır:

Gəncə şəhrində Cavad xan kim nə əyyam var idi
Sahibi lütfü ədalət sadık-ul ikrar idi
Hər şin feilində mahir, akıl-u hüşyar idi
Müxtəsər bir aləm ara imtahan sərdar idi
Gər nələr çəkdi qəzadan dövri bəd ətvardan (2, səh. 300).

Bundan sonra şair Cavad xanın hakimiyyəti dövründə Şəki, Şirvan, Qarabağ və Dağıstana etdiyi yürüşləri və bu müharibədən kimlərin zərər çəkmədiyini və bu yürüşlərdən necə qalib çıxdığını təsvir edir:

Düşdü davası əzəldən ol Şəki, Şirvan ilə
İbrahim xan ittifaq oldu ol əmmə xan ilə
Gəldiləşgər üstünə ol cümlə Dağıstan ilə
Onlar ilə qıldı dava sərbəsər meydan ilə
Çəkmədi hər kəs zərər bir fitneyi əğyardan.

Bir də ondan sonra gəldi vali-i Bağratiyan
Yığdı Gürcüstan tamamen ləşkəri ta vadiyan
Neçə illər qıldı dava çəkmədi ondan ziyan
Vali keçdi gün fənadan etdi tək axır cahan
Gör nə sadiq oldu Görgin xan əğyardan (2, səh. 301).

Müxəmməsin bu bəndləri XVIII əsrin sonu – XX əsrin əvvəllərində Gəncədə baş verən ictimai-siyasi vəziyəti çox aydın şəkildə əks etdirir. Görünür, elə ona görə də rus şovinizminin təsiri altında əzilən Azərbaycanda Firudin bəy Köçərli «bu müxəmməsin çap edilməsinin bəzi səbəblərə görə mümkün olmadığını» (5, səh. 233) yazır. Ə.Cəfəroğlu isə Əbdürrəhman Ağa Dilbaz oğlunun Cavad xanın döyüş səhnələrini əks etdirən bu müxəmməsinin bir hissəsini «Azərbaycan Yurd Bilgisi» dərgisində nəşr etdirmişdir:

Yığdı ləşkər, girdi meydana ədavət qıldılar
Qıldılar adayi ol dəmdə fəraqət qıldılar
Xub doğuşdu Gəncə xalqı bir rəşadət qıldılar
Haq yolunda bəzi kəs oldəm şəhadət qıldılar
Döndü geri, girdilər ol qalaya naçardan.

Ermənistan gördü rusu döndü birdən hər nə var
Şəmsəddinlü xalqı əzəldən çıxup getdi kənar
Neyləsün tənha qalup ol dəm Cavad xan dilfikar
Qalanı qıldı mühəyya, onda möhkəm üstü var
Keçdi ol dəm zövqü dünya mülkü gəncü vardan.

Ta bir ay, qırx gün keçincə anda möhkəm durdular
Sübhü şam dava qılup kiffarə tiyi urdular
Ləşkərani rusi hər dəm bişümaran qıldılar
Döndü Şəmkir anda rusa iqrar verdilər
Ey diriyi çarx saldı qalasın pərgardan.

Bir gecə yol buldular rusilər aşdı qaladan
Su yerinə ol zaman qanlar axardı qaladan
Ol Oğurlu xan ilə xanlar ki qaçdı qaladan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xan görüb onlar salamat çıxdı keçdi qaladan
Bildi ayrı düşdüyün fərzəndi xoş dildardan.

Keçdi onlar qaladan sağü-sələmət keçdilər
Getdilər, hərçənd yüz cövrü məlamət getdilər
Çıxdılar rusun içindən əlamət detdilər
Yüz tutup İran deyü şahı vəlayət getdilər
İstədi haqdan mədət ol Heydəri kərrardan.

Qaldı tənha Cavad xan gör necə ad eylədi
Urdu tiyin sərbəsər küffarə bidad eylədi
İki bürcün soldatın çox qırdı bərbad eylədi
Əhli beytin möhnətin ol dəmdə yad eylədi
Ya ilahi saxla sən, çün intizaram yardan.

Sinəsindən urdular olmuşdu ol dəm biqərar
Bir yanar el kimsəni ol dəmdə qıldı xaküsar
Yerbəyer həmlə edüb tiy urdular məcruhu zar
Yadına düşdü o dəm şah-ı Hüseyni dilfikar
İstədi feyzi şəhadət hakimi cəbbardan (2, səh. 302).

Bu mücadilədə Cavad xanla birgə oğlu Hüseynqulu xan da çiyin-çiyinə vuruşmuşdur. Cavad xan haqqında yaranan dastanlarda onun da adı igid, ərən kimi çəkilir. O, bu döyüşlərdə atasına yaxından dəstək olub. Onun bu qəhrəmanlıqları dastanda belə təsvir olunur:

Ol Hüseynqulu ağa kim gəldi xanın yanına
Layiq idi hər hünərlər şövkətinə, şanına
İstədi qanın qata ol dəmdə xanın qanına
Qoymadı xan göndərüp bir qeyri bürc meydanına
Yəni onun dəhşətin mən görmüyüm didardan.

Qalasın sındı Cavad xan ol zaman viranədən
Çox çalışdı ta ölüncə dərdinə dərmanədən
Feyzi haqdan ta yetincə rəhməti qufranədən
Çıxdı ruhu ol bədəndən rəvzeyi rizvanədən
Ey xoşa buldu şəhadət vahidül-kahhardan

Həm Hüseynqulu ağa buldu şəhadət növcavan
Xalqı ara bu cümlə möhnətdən yaman oldu, yaman
Anası ahlar çəküp şaxsey deyü eylər fəğan
Üz tutub ol barikahə əlvida eylər yaman
Binəva düşdüm cüda fərzəndi gül rüxsardan (2, səh. 303).

Hüseynqulu xan Gəncə uğrunda gedən son döyüşlərdə də atasını yalnız buraxmayıb, son nəfəsinə qədər birlikdə döyüşüb və hər ikisi 1804-cü ildə döyüş meydanında qəhrəmancasına həlak olmuşlar. Misal gətirdiyimiz müxəmməslərin sonunda Gəncə qətliyamı və Cavad xanla Hüseynqulu xanın ölümü təsvir edilmişdir:

Kimləri dövranda beş gün bərqərar etmiş fələk
Kərbəla dəştində şahı dilfikar etmiş fələk
Ol Cavad xakini sahibi intizar etmiş fələk
Ol Huseyin Qulu Ağanı xaküsar etmiş fələk
Ayinə tək cəng olub gül çöhrəsi xunbardan.

Bunların bildi mələklər Hakilən ixlasını
Ərş üzündə ahu-vayla tutarlar yasını
İstedi gərdun necə bu çarxi bipərvasını
Görmüyən görsün bunu ol Kərbəla qoqasını
Bu müsibət məhşər oldu Kərbəla əsərdən.

Gəncəli xalqı şəhadət qıldı haqqa can fəda
Kimi məzlum, kimi azadə qalup endər bəla
Hər biri bir növ ilə yüz dərdə oldu müptəla
Yadına gəlməz məyər məzlumi dəşti Kərbəla
Ey utanmaz çərxi zalim Əhmədi Muxdardan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Min iki yüz dəxi on səkkizdə tarixi zaman
Kim şəhid oldu Cavad xan çıxdı əz darı cahan
Çox perişan oldu halı Gəncənin həddən yaman
Gəl yetiş imdadə ya haq Mehdi-i sahib zaman
İncimezmi xatirin bu dərdü ahu-zardan.

Məqalənin sonunda Ə.Cəfəroğlu rusların istilası zamanı Şəkidə törətdikləri qırğınlar haqda məlumatı da dilə gətirir və qeyd edir ki, «Şəki şəhəri zəbt edildikdən sonra rus ordusunun və idarəsinin şəhər əhalisinə qarşı zülmü o qədər faciəli olmuşdur ki, Şəki şairlərindən Hatəm özünün «Oldu» adlı dastanında öz dövrünü «köç» və «rihlət» dövrünə bənzətmişdir. Əhalinin bəzilərinin gözlərini bağlayaraq ağaclara sarıdıqdan sonra komandanın əmri ilə rus əsgərləri tərəfindən güllələndikləri kafir ruslar əlində islamın əsir olduğu və nəhayət, Rəbbdən nicat diləməsi bu dastanda çox acı şəkildə təsvir edilmişdir» (2, səh. 304):

… Tutmasın kafirə heç kəs ixlası
Kahinə uğrayan tapmaz xilası
Sabredüp qəzaya olmadı asi
Minuda rütbəsi bəlağət oldu.

Məlul baxır hər biri bir diyara
Bir kimsə yoxdur ki, eyləsin çarə
Gözlərin bağlayup çəkdilər dara
Gör ki, nə bidadü nə afət oldu.

Mən ebüp onları ağaclara tənk
Nizama durdular guya nizama edər cənk
Çatladı bir dəfə iki yüz tüfəng
Mətai ömrümüz həsarət oldu.

Kafirlər bunları etdi nişanə
Bulaşdı əndamı al qızıl qanə
Görübən halayıq düşdü əfqanə
Məhşərdən bu da bir əlamət oldu.

Çevirib ətrafın iki səf soldat
Dolanır əlində tiyi komandant
Cəzm oldu bunlara həyatdan məmat
Gan yaşı çöllərə rəvayət oldu… (7, səh. 58-60).

«Cavad xan» dastandan danışarkən qeyd etmək lazımdır ki, Türkiyyat İnstitunun asistenti Əbdülqadir Süleymanın «Türk qövmlərinin xalq ədəbiyyatında rus istilasının inikası» (8; 9; 10; 11; 12) adlı 5 hissəli məqaləsi bütün türk dünyasının rus istilası zamanı yaşadığı faciələrdən bəhs edir. Təbii ki, o da bu istilanın Azərbaycana vurduğu zərbələrdən yan keçməmiş və hətta Cavad xan haqqında Marağalı Əzizin dilindən qələmə aldığı bir parça şeiri də tədqiqata cəlb etmişdir:

Bir yandan qar gəlir, bir yandan sazax
Dörd yanım alıpdır dil bilməz kazak
Urusun böyüyü, naçalniki
Yol verməzdi bir yana qaçax (8, səh. 24).

«Marağalı Əzizin nəql etdiyi dastanın mövzu etibarilə bu dastanın («Cavad xan» dastanının - Ü.Ə.) bir variantı olduğu məlumdursa da, vəzn və dil etibariylə ayrı xüsusiyyətə malikdir» (8, səh. 23) deyərək Ə.Cəfəroğlunun tədqiqata cəlb etdiyi dastandan bir parçanı da misal gətirmişdir. Bu şeir parçasını təhlil edən Ə.Cəfəroğlu onun «Qaçaq Nəbi» dastanına aid olduğunu düşünür. Görünür, o da şeirin dilinə, bölgüsünə, hecalarına görə bu fikrə gəlir.

**ƏDƏBİYYAT**

1. Caferoğlu A. Azeri Edebiyyatında Istiqlal mücadelesi. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 8-9, s. 291-305.
2. Caferoğlu A. Azeri Edebiyyatında İstaklal mücadelesi. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 10, s. 339-348
3. Caferoğlu A. Azeri Edebiyyatında İstiqlal mücadelesi. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 11, s. 361-371.
4. Caferoğlu A. Azeri Edebiyyatında İstaklal mücadelesi. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 12, s. 426-434



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

5. Köçərli F. Azerbaycan Ədəbiyyatı Materialları. I cild, Bakı, 1926
6. Abdulkadir S. Türk kavımlarının halk edebiyyatında Rus istilahının inikası. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 1, s. 22-26
7. Azerbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild, Bakı, 1994, 687 s.
8. Mümtaz S. El şairləri. I cild, Bakı, 1927
9. Abdülkadir Süleyman. Türk kavımlarının Halk edebiyyatında Rus İstilası inikası. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 1, s. 22-26
10. Abdülkadir Süleyman. Türk kavımlarının Halk edebiyyatında Rus İstilası inikası. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 2, s. 49-54
11. Abdülkadir Süleyman. Türk kavımlarının Halk edebiyyatında Rus İstilası inikası. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 3, s. 105-111
12. Abdülkadir Süleyman. Türk kavımlarının Halk edebiyyatında Rus İstilası inikası. Azerbaycan Yurd Bilgisi, İstanbul, 1932, yıl 1, sayı 4-5, s.170-176

## РЕЗЮМЕ

После оккупации Азербайджана Россией в 1920 году многие интеллигенты вынуждены были эмигрировать. В какой бы стране они ни находились, издавали газеты и журналы. Среди многочисленных газет и журналов особо отмечается учреждённый и редактируемый профессором Ахмедом Джафар оглу «Азербайджан юрд билгиси».

Этот журнал знакомил мировую общественность с древней историй, литературой и культурой азербайджанского народа.

Особое внимание привлекает объемистая работа из четырех частей А.Джафароглу «Беседа о борьбе Азербайджанского народа за независимость в литературе».

В этой работе так же речь идет о «Джавад хан дастаны», который создан азербайджанскими мастерами художественного слова. В дастане воспевается и восславляется Гянджинский властелин Джавад хан, который пал смертью храбрый при борьбе с Российскими оккупантами на крепостных стенах Гянджи вместе со своим сыном Гусейнгулу ханом при первом завоевании Гянджи в 1804 г.

## SUMMARY

After the occupation of Azerbaijan by Russia in 1920 many of the intelligents were compelled to emigrate. In all the countries, where ever they lived, they issued newspapers and journals. Among the numerous newspapers and the journals the journal “Azerbaijan Yurd Birligi (Azerbaijan Country Unity) founded and edited by Professor Ahmad Djafar golu is especially notable.

This journal acquainted the population of the world with ancient history, literature and culture of the Azerbaijani people.

Special interest is drawn by the mass of works consisting of four parts named by “Talks on the fight of the Azerbaijani People for the Independence in Literature written by A.Djafaroglu.

In this work it is also spoken of “Djavad Khan dastani (Dastan of Djavad Khan) which was created by art of word of Azerbaijani masters. In the dastan the ruler of Ganja Djavad Khan who died heroically together with his son Husseyngulu in the flight against Russian invaders during the first occupation of Ganja in 1804 is highly praised and glorified



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# «KOROĞLU» DASTANININ TİFLİS VARİANTI

***Ülkər Hacıyeva***
***BDU***
***Azərbaycan***

Türk eposçuluğu qədim və zəngin tarixə malikdir. «Kitabi-Dədə Qorqud» dastanı ilə başlanan bu yol XVII-XVIII əsrlərdə yaranmış məhəbbət dastanları, xanlıqlar dövrü və sonrakı illərin «Molla Nur», «Qaçaq Nəbi», «Qaçaq Kərəm», «Səttarxan», «Qatır Məmməd» kimi qəhrəmanlıq dastanları ilə öz inkişafını davam etdirmiş, Azərbaycan bədii nəsrinin yaranmasına və formalaşmasına çox güclü təkan vermişdir.

Türk dastançılığının ən yüksək zirvəsini «Koroğlu» eposu tutur. Həm mifoloji, həm də tarixi-ictimai motivləri özündə qoruyub saxlayan «Koroğlu» dastanı türk mənəviyyatını özündə geniş şəkildə əks etdirən qüdrətli eposdur. Onun Anadolu-Azərbaycan və Türküstan xalqlarının şifahi ədəbiyyatında müxtəlif versiya və variantları mövcuddur. «Koroğlu»nun A.Xodzko, İ.Şopen, H.Əlizadə, V.Xuluflu, M.Təhmasib, A.Nəbiyev və s. variantları mövcuddur. Bunlar haqqında da bu günə kimi kifayət qədər tədqiqat işləri aparılmışdır.

Lakin dastanın Tiflis variant adlandırılan, bizim isə İsfahan variantı hesab etdiyimiz bir nüsxəsi də mövcuddur ki, bu variant hələ geniş şəkildə tədqiqata cəlb olunmamışdır. Güman ki, bu, dastanın yalnız yaxın zamanlarda tam şəkildə çap olunması ilə əlaqədardır.

Gürcüstan Elmlər Akademiyası K.Kekelidze adına Əlyazmalar İnstitutunun qapalı fondunda saxlanılan Tiflis variantı 768 səhifədən, 28 məclisdən ibarətdir, nəstəliq xəttində yazılmışdır. Nüsxənin orijinal, yaxud köçürmə olduğu məlum olmadığı kimi, informatorçusu, katibi və xəttatı da naməlumdur. Əlyazmanın yazılma tarixi də mətnin üstündə yoxdur.

Variant haqqında ilk məlumatı XX əsrin 70-ci illərində Lia Çlaidze vermişdir. A.Nəbiyevin yazdığına görə o, 80-cı illərin əvvəllərində həmin variantı məşhur folklorşünas Xalıq Koroğlu ilə birlikdə çapa hazırlamaq istəmişdir. X.Koroğlu bu əlyazma mətni haqqındakı yazdığı ön sözü özünün ayrıca nəşr etdirdiyi əsərində geniş şəkildə çap etdirsə də, əlyazma mətni uzun müddət nəşr olunmamışdır.

Azərbaycanda bu variant haqqında ilk məlumatı A.Nəbiyev özünün «Koroğlu» tədqiqatında vermiş və 28 məclisin məzmununu müxtəsər şəkildə xülasə etmişdir. Əlyazmanın nəşrə hazırlanması ilə bağlı təşəbbüs isə Dilarə Əliyevanın adı ilə bağlıdır. O, şair Xəlil Rza Ulutürklə birlikdə bu əlyazmanı çap etdirməyə təşəbbüs göstərmiş, lakin bu iş müəyyən səbəblərlə bağlı yarımçıq qalmışdı.

Variantın transletirasiyası yalnız 2005-ci ildə Dilarə Əliyeva və Elnarə Tofiq qızının oxunuşunda folklorşünas Hüseyn İsmayılovun rəhbərliyi altında AMEA-nın Folklor İnstitutu tərəfindən nəşr olunmuşdur.

Variant haqqında hələlik ətraflı tədqiqat aparılmamışdır. Hələ ki, bu haqda nəşrin tərtibçisi Elnarə Tofiq qızının H.İsmayılovla birlikdə yazdığı geniş müqəddimə və AMEA-nın müxbir üzvü A.Nəbiyevin əsər haqqında geniş resenziyası mövcuddur.

Dastanın bu versiyası haqqında geniş tədqiqat işləri aparılmasa da, hal-hazırda variant üzərində bir neçə istiqamətdə mübahisələr mövcuddur: Hər iki yazıda «Tiflis» variantı ilə bağlı ilkin məlumatlar, əlyazmanın yazıya alınma, oxunma və nəşrə alınma prinsipləri barədə bəhs edilir. Nəşrin müqəddiməsində «Koroğlu» hadisələri tarixinə müxtəsər nəzər yetirilir. «Koroğlu» və tarix, «Koroğlu» və Cəlailər hərəkatı məsələlərinə münasibət bildirilir. Əlyazmanın Təbrizdə yazıya alınması və Təbriz «Koroğlu» xanlarının repertuarında mövcud olduğu göstərilir. Burada, eyni zamanda, görülən işə yekun vurulur, vaxtilə D.Əliyeva tərəfindən Azərbaycana gətirilən əlyazmanın nəşrə hazırlanarkən üzərində aparılan düzəlişlər barədə müxtəsər məlumat verilir.

Nəşrə yazılan resenziyada isə ümumilikdə «Koroğlu» sujetlərinə geniş münasibət bildirilir, Tiflis variantı ilk söyləmələrdən biri kimi təqdim olunur, onun yazıya alınma dövrü, tarixi və yeri barədə maraqlı məlumatlar verilir. Resenziyada, müəllifin fikrincə, bu variant sujetin aşıq repertuarına düşməzdən əvvəlki dövrdə informatorçudan yazıya alınmışdır. Müəllifə görə əlyazmanın yazıya alınması XVIII əsrin əvvəllərinə təsadüf etdiyi kimi, o, eyni zamanda Təbrizdə yox, İsfahanda qələmə alınmışdır. Resenziyada yeni variantın məziyyətləri, «Koroğlu» nəşrləri içərisindəki yeri müəyyənləşdirilməklə yanaşı, eyni zamanda, onun ənənəvi məzmunla uyuşmayan cəhətləri də xatırlanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həm müqəddimədə, həm də resenziyada göründüyü kimi, tədqiqatın hazırki mərhələsində əlyazma mətni ilə bağlı üç mühüm məsələni aydınlaşdırmağa xüsusi ehtiyac vardır:

Birincisi, bu variant eposun ən mükəmməl, yoxsa ən ilkin nümunələrindəndir;

İkincisi, burada baş verən hadisələrin tarixi və yeri sujetin tarixi-coğrafiyasına uyğundurmu;

Üçüncüsü, əlyazma mətninin yazıya alınma tarixi və yeri Azərbaycanda baş verən hadisələrlə səsləşirmi;

Bütün bu kimi məsələlərin aydınlaşdırılması Tiflis variantının «Koroğlu» sujetləri içərisində yerini müəyyənləşdirməklə, variantı ilkin mərhələdə dəyərləndirməyə, şübhəsiz ki, imkan verərdi.

Birinci məsələ ilə bağlı onu demək mümkündür ki, bəzi tədqiqatçılar bu nüxsəni dastanın ən mükəmməl nümunəsi, bəziləri isə ən ilkin hesab edirlər. Biz daha çox ikinci versiyanın üzərində dururuq. Bildiyimiz kimi, hər hansısa bir dastan mükəmməl şəklə gəlib çatana qədər müəyyən inkişaf yolu keçmişdir. Bu nüsxəni isə həmin inkişaf mərhələsinin bir nümunəsi, bəlkə də, başlanğıcı hesab etmək olar. Məclislərdəki sujet oxşarlığı, hadisələrin sadəliyi, bəsitliyi, məclislər arasında əlaqənin gözlənilməməsi və s. xüsusiyyətlər «Koroğlu» eposunun bu əlyazmasının aşıq repertuarından əvvəl yazıya alındığını və şifahi repertuarda kifayət qədər cilalanmadığını sübüt edir.

Dastanın tədqiqində ikinci mühüm problem «Koroğlu» hadisələrinin tarixinin, bu hərəkatın baş verdiyi coğrafi ərazinin adı ilə bağlıdır. Məlumdur ki, eposun bir çox qollarındakı hadisələr ümumi hadisələrin tarixi coğrafiyasından kənarda baş verir. Amma Tiflis variantında bu məsələ özünü birmənalı şəkildə göstərmir. X.H.Koroğlunun dediyi kimi, Tiflis variantında təkə-türkman tayfasından çıxan Koroğlunun göstərdiyi rəşadətlər Cəlailər hərəkatının baş verdiyi ərəfədə, yaxud onun ilk dövrlərində baş verib. Bu isə təxminən XV əsrin sonlarına təsadüf edir. XVI əsrin sonu-XVII əsrin əvvəlləri isə, yəni Şah Təhmasibin hakimiyyəti illəri Cəlailər hərəkatının çiçəkləndiyi və eyni zamanda zəiflədiyi bir dövrdür. Bir sıra tədqiqatçıların göstərdiyi kimi XVIII əsrin ilk rübü yenidən Koroğlunun adı ilə bağlanan qəhrəmanlıq dövrüdür. Hər iki dövrdə Koroğlunun şahlıq idarə üsulu ilə əlaqəsi yox idi. Bu hərəkat sadəcə olaraq, birinci və ikinci mərhələdə Azərbaycanda baş verən qarşıdurmaları, qıtlıqları və türk paşaları arasında gedən ziddiyyətləri daha geniş əks etdirirdi. Tiflis variantından görünür ki, Şah Abbas hakimiyyətə gəldikdən və paytaxtı Təbrizdən İsfahana köçürdükdən sonra Koroğlunun ona tabe olması, şahı vəsf eləməsi və ən nəhayət, bu hərəkatı bir qədər kiçildib öz adı ilə bağlama cəhdlərində olmuşdur. Ona görə də məhz Şah Abbasın tərəfdarları İsfahanda Koroğlu hələ aşıq repertuarına düşməzdən əvvəl onun söyləmələrini kitaba köçürmüş və şahsevən Koroğlu ilk sujetini qələmə aldıra bilmişlər. Ancaq bu əlyazmada da Koroğlunun Şah Abbasa münasibəti birmənalı deyildir. Mən bir sıra mühüm detalların üzərində dayanmadan təkcə o faktı xatırlatmaq istəyirəm ki, hadisələrin sonunda «Koroğlu» Şah Abbası öldürməyə İsfahana yola düşür və Şah Abbasın adamların gözü qarşısında xəstələnib ölür.

Əlyazma ilə bağlı maraq doğuran məsələlərdən biri əlyazma mətninin yazıya alınma yeri və tarixidir. Yuxarıda qeyd etdik ki, paytaxtın Təbrizdən İsfahana köçürülməsi ilə bağlı Şah Abbas dəftərxanası da İsfahana aparılmışdır. Bizə belə gəlir ki, əlyazma şah adamlarının nəzarəti altında dəftərxana katiblərindən biri tərəfindən yazıya alınmışdır. Çünki katib ancaq tarixi faktları təhrif etmiş, Şah Abbasla bağlı olan epizodlara üstünlük vermiş, hadisələrin dastandan çox tərcümeyi-hal və təfərrüat xarakterli əlyazmasını hazırlaya bilmişdir. Burada Koroğlu qəhrəmanlığı kiçildilmiş, onun paşa və xan qızlarının arxasınca gedib Çənlibelə qız gətirmə motivini genişləndirməyə üstünlük verilmişdir. Bir çox məqamlarda Koroğlu cəngavərliyi , qəhrəmanlığı, dəli nərə, Misir qılınc, dağa və suya tapınma kimi etiqadlar əlavə edilməmişdir. Bu və buna bənzər bir sıra başqa bəzi hadisələr «Koroğlu»nun hələ aşıq repertuarına gəlmədiyini təsdiqləyən güclü faktlardır.

Eposun ən mükəmməl variantından olan A.Xodzko variantı ilə İsfahan variantını vərəqləyəndə eposun yarandığı dövr və hadisələr aydın nəzərə çarpır. Bizə belə gəlir ki, bu tarixi faktları dürüstləşdirməkdə X.Koroğlunun və A.Nəbiyevin tədqiqat istiqamətləri davam etdirilməlidir. Məhz bu yolla variantı ilə bağlı tarixi həqiqətlərə yaxınlaşmaq mümkündür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## İLK OĞUZ DASTANLARI VƏ ONLARIN TARİXİ COĞRAFİYASI

**_F.e.n. Ü.A.Nəbiyeva_**
**_BDU_**
**_Azərbaycan_**

«Dədə Qorqud» boylarının coğrafiyası anlayışı geniş və intəhasızdır. Əgər onu nəzərə alsaq ki, bu ümumtürk abidəsində türk xalqları üçün müştərək olan bir sıra yaradıcılıq ənənələri çarpazlaşmışdır, onda onun ümumi səviyyəsi barədə daha ətraflı mülahizələr yürütmək mümkündür. Bizim tədqiqatımızda eposun struktur sxemi üç mərhələdə yaranma və formalaşma prosesi keçmişdir. Hər bir mərhələdə yaranan silsilə dastanlar içərisində ən seçmələri epik yaddaşda möhkəmlənmiş və eposun mühüm boyları kimi ozan repertuarına daxil olmuşdur. Onların kitaba düşməsi isə məhz ozan repertuarındakı məzmunu, oğuz həyat və məişətinin başlıca detallarını, xüsusiyyətlərini əks etdirmə imkanları ilə bağlı olmuşdur. Bütün bu hadisələr isə oğuz elinin müəyyən coğrafi ərazisində baş vermişdir.

«Dədə Qorqud» boylarında coğrafi ərazi, süjetin, yaxud boyun yayılma arealı mühüm göstəricidir. Məhz boyun özündə əks etdirilən coğrafi göstəricilər eposun yarandığı və yayıldığı ərazini, regionu müəyyənləşdirməkdə mühüm keyfiyyət göstərici yüklərinə malikdir. Məsələn, oğuz elinin qədim dövr ailə, övlad, cəngavərlik görüşləri «Dirsə xan oğlu Buğacın boyunu bəyan edir, xanım hey!..»də özünü fəal şəkildə qoruyub saxlamaqdadır. Boyun süjeti dünya eposu üçün ənənəvi olan övladsızlıq motivi üzərində qurulmuşdur. Dirsə xanın övladı olmur. Çünki gününü kefdə, ovda, işrətdə keçirir. Beləliklə, Dirsə xan türk qövmünün xanlıq üçün mühüm bir göstəricisini pozur. Oğuz oğlu, yaxud xanı (xaqanı) dünyaya övlad gətirməklə qövmün, nəslin şərəfini qorumalı idi. Ancaq elə bu tələbə laqeydliyinə görə Dirsə xan xaqanın – xanlar xanı Bayandır xanın qəzəbinə tuş gəlir. Xanın cəzası çox düşündürücüdür. O, düzəltdiyi məclisdə oğlu – qızı olmayanı qara çadırda əyləşdirir, qabağına qara qoyunun ətindən qovurma qoydurur (1, s. 29-42).

Dirsə xan bundan çox qəzəblənir, məclisdən durub gedir. Əslində günahını başa düşür. Xatunu onun köməyinə yetir.

Sonra isə nəzir-niyaz yolu ilə əldə etdiyi oğlu Buğacla arasında ziddiyyət baş verir. Əslində bu, türk eposunda ata-oğul qarşıdurmasının ilk gözə çarpan motividir. Atanın öz övladını arxadan oxlaması nağılvari motiv üzərində qurulmuşdur. Elə süjetin sonrakı mərhələsində nağılçılıq qüvvəsində qalır. Ana hadisədən xəbər tutur. Buğacın gözünə isə Xızır görünür və aldığı yaradan ona ölüm olmadığını söyləyir. Ana oğlunu gəlib tapır, onu ana südü və dağ çiçəyinin məlhəmi ilə sağaldır. Sonra isə oğul düşmən tələsinə düşmüş atası Dirsə xanı, anasının təkidi ilə düşmən əsirliyindən xilas edir. Burada Buğac əsl qəhrəman, cəngavər səviyyəsinə yüksəlsə də onu, eləcə də Dirsə xanı eposun sonrakı epizodlarında görə bilmirik. Şübhəsiz ki, bu boylararası zaman fərqi və oğuz elinin coğrafi müxtəlifliyi ilə bağlıdır (1, s. 29-42). Lakin boydan verilən informatik məlumat oğuz eli, onun ibtidai dövlət quruluşu, xanlara verilən tələblər, ata-oğul münasibətləri barədə ilk məlumatla oxucusunu tanış edə bilir. Bu məlumatlar bütövlükdə oğuz eli barədə mükəmməl informasiyalardır. Ancaq buradakı hadisələrin zamanı kimi, məkanı da qeyri-müəyyəndir. Eyni zamanda burada öküzlə döyüşdə qalib gəlib ada – Buğac adına yiyələnmə, Xızırın qabaqcadan xəbər verməsi diqqəti cəlb edir. X.H.Koroğlu yazır ki, «Buğac xanla bağlı oğuznamə tematik baxımdan «Qorqud Kitabı»nın heç bir boyuna daxil olmur və oğuzların xanı Bayandır xanın adı ilə çox zəif bağlılığı var. «Buğac xan boyu»nun əsas qəhrəmanlarının adı «Qorqud-Kitabı»nın digər oğuznamələrində yoxdur» (2, s. 105-106). Bütün bunlarla yanaşı, qeyd etmək gərəkdir ki, bu boy daha arxaik təsəvvürləri əks etdirmək, oğuz eli barədə «Dədə Qorqud» epik düşüncəsində oğuz həyatı ilə bağlı daha detalları qoruyub saxlamaq baxımından əhəmiyyətlidir. Hadisələr isə qeyri-müəyyən məkanda baş verir. Doğrudur, boyda Şam şəhərinin adına təsadüf olunur. Bu şəhər müxtəlif dövrlərdə işğal və talanlara məruz qalsa da boydakı hadisələrin bunlarla heç bir əlaqəsi yoxdur. Burada eyni zamanda Iç oğız, Dış Oğuz, Qalın Oğuz elləri adlarına da təsadüf edilir. Amma onlar da konkret coğrafi sərhədlər məzmununu tamamlamır. Burada «Ala dağ və Qazlıq dağı» (2, s. ) adları da verilir. Ancaq onların qeyri-müəyyən ərazi vahidi kimi işləndiyi aydın görünür. Bu isə ümumilikdə boyun özünün arxaiklikliyindən və oğuz elinin ilk tarixi coğrafiyasının qeyri-müəyyənliyindən xəbər verir. Arxitektonik sistemin katib tərəfindən həmin boyla başlanması da bizə belə gəlir ki, tərtibçi-katibin (daha ilkin mətni yazıya köçürən katibin) məqsədli seçməsidir. O, oğuz eli barədə bütöv və geniş təsəvvür yaratmaq üçün oğuzların qədim məişət həyatını, ilkin tapınmalarını qoruyub saxlamaq üçün həmin boyu silsilə oğuz hekayətləri içərisindən seçmiş və əlyazma mətnini oğuzun daha arxaik təsəvvürlərini özündə əks etdirən bu mətnlə başlamağı doğru hesab etmişdir. Bizə belə gəlir ki, kitabın bu boyla başlamasını bütün qeyri-müəyyənliklərinə baxmayaraq katibin uğurlu seçimi kimi dəyərləndirmək lazımdır.

Eposun birinci yaradıcılıq mərhələsində qoşulub-düzülən **ikinci boyu** «Qam Börənin oğlu Bamsı Beyrək boyını bəyan edər, xanım, hey»dir!

X.H.Koroğlu yazır ki, bu «oğuznamənin oğuzların yeni vətəni ilə cüzi əlaqəsi vardır. Yeni mühitin yeganə şəksiz elementi Bamsı Beyrəyin və tərəfdarlarının zindana salındığı Bayburd qalasıdır» (2, s. 112). Bu toponinmin eposa soradan əlavə edildiyini ehtimal etmək olar. Bizə belə gəlir ki, əlyazma üzü köçürülərkən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kitabın oğuz eli ilə bağlılığını təsdiqləmək, yaxud möhkəmləndirmək məqsədi ilə hansı mərhələdə isə qeyri-müəyyən, yaxud adsız düşmən qalasına Bayburd adı verilmişdir. Bütün kordinatlarda bu boy kitabın arxitektonikasında ikinci boy kimi diqqəti cəlb edir. Yəni əlyazmanı tərtib edən katibin çoxlu oğuznamələr içərisindən seçdiyi, oğuzların ailə-məişət həyatını Dirsə xan hadisəsindən sonrakı mərhələdə tamamlayan boylardan biri kimi onun mühüm əhəmiyyəti vardır. Oğuz elinin daha qədim dövr həyatını təsdiqləyən faktlar burada da üstünlük təşkil edir. Əvvəla, boy qədim oğuz eli üçün səciyyəvi olan övladsızlıq motivi ilə başlayır. Övladsızlıq türk eposunda yeni motiv deyildi. O, nağıl motivi idi. A.Aarne bu süjeti xüsusi bölgü altında təsnif edir (3, s. 42-46). Burada isə övladsızlıq müstəqil nağıl motivi kimi deyil, dünya eposunda işlək hala düşmüş ənənəvi motiv kimi çıxış edir. Elə övlad əldə etmənin eposda özünü göstərən, islami görüşlərlə bağlanıb daha mükəmməl hala düşmüş «allaha dua etməklə övlad əldə etmə» modeli özünü göstərir (1, s. 29-42). Eposda diqqət çəkən üçüncü, daha mükəmməl motiv isə ərin nişanlısının toyuna gəlib çıxmasıdır. Bu motiv eposda, adı çəkilən boyda mükəmməl şəkildə işlənərək boyun başlıca süjetinə çevrilmişdir (2, s. 52-67). Boyda ondan artıq türk eposu üçün səciyyəvi olan motiv, məsələn, «Ərin nişanlısının toyuna gəlib çıxması» dünyəvi süjeti ilə çarpazlaşıb mükəmməl məzmun formalaşdırmışdır. Bu isə qədim türk eposuna məxsus yaradıcılıq ənənəsidir. Demək olar ki, həmən ənənə eposdan çox-çox əvvəl yaranmış və türk eposunda tez-tez təkrarlanan süjetə çevrilmişdir. Süjetin struktur sxemi göstərir ki, o, epos yaradıcılığının birinci mərhələsində dünya epik ənənəsindən sıx şəkildə bəhrələnmə yolu ilə yaranmış, türk xalqları içərisində geniş yayılmışdır. Əgər belə olmasaydı boydakı hadisələr qədim yunan eposu ilə (4, s. 16-97), yaxud türk eposunun müxtəlif dövrlərdə yaranmış daha qədim nümunələri ilə başlıca məqamlarda səsləşməzdi. «Ərin nişanlısının toyuna gəlib çıxması» süjeti oğuz eposunun epik yaradıcılıq ənənəsi kimi, türk eposuna geniş yayılmışdır. «Kitabi-Dədə Qorqud»dan həm əvvəl, həm də sonrakı dövrün dastan yaradıcılığında özünü oxşar model tərkibində göstərə bilmişdir. Təsadüfi deyildir ki, akademik V.M.Jirmunski boydakı süjetin Orta Asiya xalqlarının eposunda, xüsusilə özbəklərin «Alpamış»ı ilə geniş şəkildə müqayisə edib oxşarlıqlara aydınlıq gətirir (5, s. 27). O göstərir ki: «Bu süjet Sibir, Mərkəzi və Orta Asiya, Volqaboyu və Başqırdıstan ərazisində yaşayan türk xalqlarının eposlarında geniş yayılmışdır» (5, s. 74). V.M.Jirmunski eyni zamanda sonrakı dövrdə yaranan dastan nümunələrində, xüsusilə türkmənlərin «Şahsənəm və Qapir», «Yusup və Əhməd», «Tahir və Zöhrə», eləcə də «Goroğlu» eposunun müxtəlif versiya və variantlarında geniş yayıldığını göstərir. Bütün bunlar isə Bayburd toponiminin qeyri-müəyyən qalaya verilən ad kimi eposun yazıya alınma dövrünün əlavəsi olduğunu göstərir. Bu isə boyun qədim türk məskunlarında yaranmış coğrafiyasının tarixi təhrifidir (6, s. 17-18).

Boydakı hadisələrin baş verdiyi ərazilərin toponimik göstəriciləri də burada bütövlükdə Bayburd istisna edilərsə qeyri-müəyyən, yaxud oğuz elinin yayıldığı ərazi kimi şərtidir: Qara yer, İç Oğuz, Daş Oğuz, Qalın Oğuz, Dana sazı, Qaracıq, Amid və s. «Qaracıq adını lokalizə etmək bir qədər problemdir. Qaracıq adlı dağ, Azərbaycanda, Şərqi Anadoluda bir neçə yerdə var. Kitabda adı çəkilən Qaracıq hadisələrin baş verdiyi bölgədə yerləşən dağlardan biridir» (7, s. 15). Bizə belə gəlir ki, bu boy oğuzların qədim yaşayış məskununda yaşadığı ərazidəki Karaçuq dağıdır.

Mətndəki Bayburd və Dərbənd adları isə mətnə sonrakı əlavələrdir. Eposun birinci yaradıcılıq mərhələsində formalaşan **üçüncü boy** «Qanlı qoca oğlu Qanturalı boyunu bəyan edər, xanım hey!..»dir. Bu boy barədə, onun qədimliyi haqqında qorqudşünaslıqda kifayət qədər fikir müxtəlifliyi vardır. Mətndə o altıncı sıra düzümündədir. Ancaq diqqətli müşahidə göstərir ki, eposun birinci yaradıcılıq mərhələsindəki boylardakı ailə-məişət həyatı məsələləri bu boyda əslində müəyyən mənada davam etdirilir. Burada artıq cəmiyyətin daha sivil bir qaydaya əməl etdiyi görünür. Ailədaxili kəbin normaları pozulmuş, oğuzda başqa eldən qız alıb gətirmə ənənəsi bərqərar olmağa başlamışdır.

Boyda qız axtarma, qız arxasınca getmənin ən arxaik modeli özünü göstərir. Qanlı Qoca adlı kişi oğlunu evləndirmək istəyir. Qanturalı isə istəyir ki, alacağı qız igid, cəngavər olsun (1, s. 85-93). Sübh tezdən yerindən qalxsın, düşmənlə döyüşə girib onu məğlub etsin. Qanlı Qoca oğluna tapşırır ki, istədiyi qızı axtarıb tapsın. Ancaq oğlunun bu işdə aciz qaldığını gördükdə özü qız axtarmağa gedir. Ağsaqqallarla birgə Trabzona – Trapezunda gələn ağsaqqallar burada ölkə təkurunun igid bir qızının olduğunu öyrənirlər. Ancaq qızı almaq üçün qoyulan şərtlər ağır idi. Qızı almaq üçün vəhşi şiri, qara öküzü və qara dəvəni öldürmək gərək idi (1, s. 85-93).

Göründüyü kimi, burada qız alma elçilikdən əvvəlki dövrün, cəngavərlik göstərib qız almanı ən qabarıq şəkildə əks etdirməkdədir. Xaqanlar bu dövrdə öz qızlarını elə igid, qəhrəman, cəngavər igidlərə vermək istəyirdilər ki, qızlarının əri basılmaz igid olsun, döyüşlərdə, qəbilə və tayfa qarşıdurmalarında ayaq altda qalmasın. Özünü, ailəsini və oğuz elini qoruya bilsin. Belə də olur. Qanturalı hər üç heyvanı öldürüb Selcan xatunu atasının razılığı ilə alıb öz elinə gətirir. Doğrudur, təkur sonradan peşiman olub Selcan xatunu geri qaytarmaq istəyir. Ancaq Selcan xatunun qəhrəmanlığı sayəsində qoşun məğlub olub geri qayıdır.

Boyda arxaik qəhrəmanlıq detallarını əks etdirən epizodlar az deyildir. Onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür. Birincisi, Selcan xatunun elçisiz, toysuz şərtlə ərə verilməsidir. Şərtlə ərə verilmə ən qədim ərəgetmə faktıdır. Bu, toysuz, elçisiz, cehizsiz, iki tərəf arasında müəyyən qəhrəmanlıq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şərti əsasında ərə getmədir. Burada görüb-sevmə, aşiq-məşuqluq yoxdur. Xaqan tərbiyəsi almış, hökmdar sarayında böyümüş qızların ərə getmə ənənəsidir. Həm də burada qız tərəfinin ünvanı məlumdur, o, şöhrətli düşmən təkurudur. Qanturalı isə qeyri-müəyyən zaman və məkan daxilində Selcan xatunun arxasınca gəlmiş, yeri-yurdu mücərrəd oğuz eli ilə bağlı qəhrəmandır. Bu izdivacın görünməyən, dərk edilməyən, qeyri-müəyyən, şəxsiyyət kimliyi naməlum bir tərəfidir. Təkur öz qızını tanımadığı, bilmədiyi, yalnız qəhrəmanlığına güvəndiyi adama ərə verir. Bu, əslində ən arxaik ərə getmə tipidir. Ancaq alıb qaçmaqdan xeyli sonrakı mərhələnin hadisəsidir. Burada eyni zamanda atanın qız övladına bir neqativ münasibəti də diqqəti cəlb edir. Təkur qızını hətta razılıqdan sonra kimə verməsi, qızının hansı elə, ailəyə gedəcəyi ilə maraqlanmır. Ona nə cehiz verir, nə də ki, ata doğmalığı göstərir. Bu oğuz elində daha qədim təsəvvürlərdə qız övladına bəslənən münasibətin qalıntılarından biri kimi eposda yaşamaqdadır. Həm də bu münasibət iki tərəflidir. Təkür öz qardaşı oğlunun təşəbbusu ilə Selcan xatunun arxasınca qoşun göndərir. Selcan xatunun geriyə, atasının yanına qayıtma istəyi isə heç bir halda özünü nümayiş etdirmir. Əksinə o, atasının qoşununa qarşı vuruşub onu geri qaytarmağa nail olur. Burada isə Selcan xatun obrazında amazonkalığın izləri nəzərə çarpır.

**İkinci arxaik detal** Selcan xatunun qəhrəmanlığıdır. Bu qəhrəmanlıq soy kökü ilə Ərəb Zəngi qəhrəmanlığı ilə eyni kökdəndir. Yalnız bir dəfə – atasının qoşununa qarşı çıxıb onu məğlub edərək geri qaytardıqdan sonra bu qəhrəmanlıq zəifləməyə başlayır. Qanturalı ilə üz-üzə gəlmədən sonra isə yoxa çıxır. Qanturalının özü kimi, Selcan xatunun qəhrəmanlığı da eposda görünmür. Ehtimal ki, bu boyu əlyazmaya köçürənlər onu birinci dövr yaradıcılıq mərhələsində yaranmış boyların içərisindən seçib mətnə daxil etmişdir.

**Üçüncü detal** döyüş zamanından yuxuya getmədir. Yuxuya getmiş qəhrəmanın ayılmasından sonra epik ənənə də böyük qəhrəmanlıq epizodları gəlir. Ancaq bu boyda yuxudan sonra qəhrəmanın yüksəlişi – yeni cəngavərlik xətti yoxdur. Bu isə süjetin hələ işlənmə mərhələsində ikən boya daxil edildiyini göstərir.

**Dördüncü detal** isə döyüş meydanında sevgili qarşıdurmasıdır. Bu qarşıdurmanın motivi ənənəvi kökə malik deyildir. O, övladsızlıq, ata-oğul, doğmaların döyüş meydanında üz-üzə gəlməsi, öqey ana və s. süjetlərdən xeyli fərqlidir. Burada eqoist türk mənəmliyi üstün mövqedədir. Qanturalı qadının qılıncı ilə onu xilas etməsindən qüssələnir, bunu özünə sıxışdırmır. Ona görə Selcan xatunu öldürmək istəyir. Selcan xatun isə özünün cəngavərlik sucaəti ilə Qanturalını fikrindən döndürür. Döyüş meydanında aralarında anlaşmazlığın yaranmasına baxmayaraq elə döyüş meydanında da barışırlar. Bu məhəlli motivdir, dünya eposu üçün səciyyəvi olmasa da türk eposu üçün diqqət çəkəndir. Axırda onların toyu olur ki, burada da silsilə məhəlli motivlər diqqəti cəlb edir. Yuxarıda deyildiyi kimi, boy haqqında qorqudşünaslıqda müxtəlif mülahizələr mövcuddur. X.Koroğlu yazır ki, «XI əsrdən başlayaraq, türkmən igidlərinin məşhur və qəşəng xristian qızları arasınca gedib özlərinə nişanlı axtarmaq sərgüzəştləri altıncı oğuznamədə əksini tapıbdır» (2, s. 27). Göründüyü kimi, müəllif boyda bəhs edilən hadisələrin XI əsrlə bağlılığı barədəki mülahizələri əslində təsdiq edir. Bu mülahizəni V.M.Jirmunski daha əsaslı şəkildə şərh edir və yazır ki, Ağqoyunlu və Qaraqoyunlu tayfalarından olanların Trapezund elindən qız aparmaq ənənəsi qədim idi: «Yəni Həsən Trapezund şahzadəsi ilə ailə quran sayca üçüncü Ağqoyunlu nümayəndəsi idi» (5, s. 247). O.Cələbi isə qeyd edirdi ki, türkmənlər Kiçik Asiyaya köçürülməsini daha əvvəl qeyd etdiyi oğuzların nəslidir. Onlar özləri ilə qoşub düzdüyü oğuznamələri də köçəri həyat əşyaları kimi möhkəm-möhkəm qoruyub saxlamış, yeni məskənlərdə də dönə-dönə onları çalıb çağırırdılar» (9, s. 47). «Qanturalı» boyundakı bir sıra hadisələr oğuzların qədim məskunları, adət-ənənə, qız alma, qız seçmə və qızgətirmə ilə bağlı olmuşdur. Boyun mətnində bu detallar çox mühafizəkarlıqla qorunub saxlanmışdır. Oğuzların şifahi yaddaşı güclü olmuşdur. Onlar yeni məskunlara köçüb gəldikdən sonra öz arxaik Qanturalı – Selcan düşüncəsini unutmamışlar. Onlar hətta sonrakı mərhələdə – «XI əsrdən başlayaraq, türkmən igidlərinin məşhur və qəşəng xristian qızları arasında özlərinə nişanlı axtarmaq sərgüzəştləri» (2, s. 127) ilə çarpazlaşmışdır. Eposun bir sıra tədqiqatçılarının Qanturalı süjetini XII-XV əsrlərlə bağlamağa cəhd göstərdikləri tədqiqatlarda təəssüf ki, xalqımızın daha qədim qız arxasınca getmə, şərtlə qız alma ənənəsi XIV-XV əsrlərin hadisələri ilə eyniləşdirilmişdir (9, s. 27). X.Q.Koroğlunun o fikri ilə razılaşmaq olmaz ki, «…əvvəlki oğuznamələr kimi, altıncı oğuznamə də yerli əfsanə və rəvayətləri özündə cəmləşdirərək oğuzların yeni vətənində tam formalaşmışdır» (2, s. 128). Bununla belə, yenə X.Q.Koroğlu onu da etiraf edir ki, «Amma boy tipinə görə bahadırlıq nağılını xatırladır» (2, s. 128). İkinci müşahidə daha dürüst görünür. Ancaq «bahadırlıq nağılı» ifadəsini «qədim oğuz hekayəti» kimi başa düşmək daha doğru olardı. Bizə belə gəlir ki, qədim oğuz məkanında formalaşan altıncı boyun yaranmasında oğuzların cəngavərlik və alplıq həyatını əks etdirən cəngavər qızları seçib onlarla ailə qurmaq, eləcə də şərtlə qız alma ənənələri özünü daha çox göstərir. Döyüşdə müəyyən şərtləri yetinə yetirib, qəhrəmanlıqlar göstərib qız alıb gətirmə elmi ədəbiyyatda başqa eldən qız alıb gətirmənin ən arxaik tipidir (10, s. 51-52). Doğrudur, süjetdə ekzoqomiya elementləri də özünü göstərir. Qanturalı və onun atası özünün tayfa və ya qəbilə, ailə birliyində qəhrəmana layiqli bir nişanlı tapa bilmir. Başqa eldən qız gətirmək istəyir. Təbii ki, bu, ailədaxili kəbinin sökülməsi, yeni nigah münasibətlərinin başlanğıc mərhələsi idi. Təsadüf deyildir ki, atası deyir ki, Selcan xatunu gətirmək üçün güc nümayiş etdirmək, «hünər göstərmək gərəkdir». Əgər bunu bacarmasan elə evdəki qızı ala bilərsən» (1, s. 85-93). «Evdəki qızı almaq» mümkünlüyü elə ailədaxili kəbin normalarının hələ tam sökülüb başa çatmadığını, onun ailə, yaxud qəbilə daxilində hələ də mövcud olduğunu göstərir. Yaxud



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«evdəki qız» «əmi qızı», yaxud «xala qızı» da ola bilərdi ki, bütün bunlar da yenə yeni münasibətlərin formalaşdığı bir mərhələdə, türklərin qədim vətənində Qanturalı hadisəsinin baş verdiyini göstərir.

Boydakı «Bayburd» toponimu kimi, «Dərbənd» toponiminin da epik düşüncəyə süjetin **üçüncü yaradıcılıq mərhələsində gəldiyi şübhəsizdir**. Qafqaza və Anadoluya məxsus terminlərin eposların ən qədim əlyazma mətnlərinə yazıya köçürülmə zamanı daxil olması spesifik haldır ki, onunla bağlı eposun kitaba keçməsi problemindən bəhs edərkən ətraflı danışılacaqdır.

Bu boyun coğrafiyası da oğuz elinin coğrafi hüdudlarını müəyyənləşdirməyə elə ciddi bir fakt vermir. Burada da hadisələr «oğuz eli»nin qeyri- müəyyən sərhədləri çərçivəsində baş verir. İşlənən toponimlər isə İç Oğuz, Daş Oğuz, Qaruq, Arqubel, Qalın Oğuz elləri adları ilə təqdim edilir.

Boyda Anadoluya yaxın ərazilərin coğrafi adlarına da təsadüf edilir. Ancaq onlarda müəyyən ardıcıllıq və qəti müəyyənlik yoxdur. Trabzon toponiumu isə maraqlı mülahizələr doğurur. Mətndən görünür ki, Trabzon oğuz elinə bir neçə günlük sərhəddə yerləşir. Bu yer indiki Gürcüstanın qərb, cənub-qərb sərhədlərinin bir neçə günlüyündədir. M.Müseyibovun yazdığı kimi, «Bu torpaqların hamısı isə Qalın oğuzu şimaldan əhatə edir» (7, s. 19). Boydan belə bir cəhət də aydın görünür, o, Qafqaza köçüb gələn oğuzların repertuarında fəal mövqeyə malik olmuşdur. «Oğuz elləri»nin içərisində yaddaşda yaşayan, boy ozanların repertuarında geniş yayılmışdır. Ozan repertuarında sadəcə olaraq X.Koroğlunun dediyi kimi, o, yeni əfsanə və rəvayətlər əsasında işlənilməmiş, sadəcə olaraq yeni repertuar həyatını yaşamışdır. Bu mərhələdə isə təbii ki, ozanlar yeni məskunla bağlı coğrafi adlarla boyu zənginləşdirməkdən çəkinməmişlər. «Qanturalı» boyuna əlavə edilmiş Qafqaz və Anadolu toponimləri güman ki, məhz həmin yaradıcılıq prosesi ilə bağlı mətnə daxil olmuşdur.

Eposun **birinci yaradıcılıq mərhələsində** yaranmış ən mühüm boylardan başqa birisi isə VIII boydur. Bu boy oğuzların ilkin yaşayış məskənində yaratdığı, sonralar isə həm Orta Asiyaya, həm də Qafqaza göçərkən öz yaddaşlarında böyük mühafizəkarlıqla qoruyaraq apardığı oğuznamələrdən biridir. «Başqa oğuznamələrdən fərqli olaraq, səkkizinci oğuznamənin əksər dünya xalqlarının folkloru ilə sıx əlaqəsi var. Bu süjetin oğuzlarla heç bir əlaqəsi olmayan fransızlarda, italyanlarda, almanlarda, skandinav xalqlarında, eyni zamanda finlərdə və slavyan xalqlarında iki yüzdən artıq variantı və versiyası qeydə alınmışdır. Hələ Orta Asiyanın, Qafqazın, Yaxın və Orta Şərqin oğuzlarla genetik qohumluğu və qonşuları olan xalqları demirik» (2, s. 136). Mifin mənşəyi ilə bağlı müxtəlif mülahizələr vardır ki, onların da ən qədimi alman şərqşünası F.Ditsə məxsusdur (11, s. 7-9). Onun mülahizəsinə görə, «Dədə Qorqud» süjetindəki Təpəgöz Qafqaz mənşəlidir» (11, s. 12). Təbii ki, bu, ümumi anlayışdır, bütövlükdə götürdükdə, bu mülahizələr Təpəgöz-Polifem-Sikloplar və onların mənşəyi barədə elə geniş təsəvvür yaratmır. F.Ditsin bu mülahizəsində Təpəgözün tarixi-coğrafi trayektoriyasına da elə bir aydınlıq gətirilmir. Amma bununla belə, Təpəgözün mənşə xüsusiyyətləri barədə ən dəyərli, sonrakı tədqiqatlarda isə həqiqətə yaxınlığı təsdiqlənən mülahizə olaraq hələ də əhəmiyyətini saxlamaqdadır. Bu fenomenal obrazla bağlı mülahizələr həm Avropa (12, s. 171-172), həm də rus (13, s. 127-128) qorqudşünaslığında işlənmişdir. Avropalılar da Təpəgözü qədim mifik obrazlardan hesab edir, onu müxtəlif tiplərə ayırır, hətta əslində insan mənşəli bu obrazların qədimdə daha çox yayıldığını, onlardan şəhərsalma işlərində işçi qüvvəsi kimi istifadə edildiyini də göstərirlər (14, s. 4). Bununla belə, yenə onların qədim vətəni Qafqaz hesab edilir. «Qədim yunanlar, o cümlədən «tarixin atası» Heredot, Qara dəniz ətrafı skiflərini yaxşı bilirdilər (onları sarmat adlandırırdılar) Orta Asiya skiflərini (saklar və b.) farslar vasitəsilə, amma bir qədər qeyri-müəyyənliklə və cüzi təfsilatla tanıyırdılar; saklardan şimalda və şərqdə yaşayanlar haqqında yunan tarixçilərinin məlumatları fantastikdir. Onların əsərlərindən belə çıxır ki, orada nağılvari hipozborelər, daz ağrıpeylər, təkgözlü arimasplar və qızılı qoruyan qrifonlar yaşayırlar. Bununla belə, bu məlumatların bir qismi ehtimal ki, oradakı xalqların miflərinə və əfsanələrinə uyğun gəlir.

Yunanların təkgözlü arimasplarla bağlı mifi, ehtimal ki, qədim yunanların Polifemlə əlaqədar mifinə çevrilmişdir, bunun ilk nümunəsi, görünür, qədim Təpəgözün böyük qardaşı olmuşdur. Polifemlə bağlı mifi e.ə. VII əsrdə Ön Asiyaya yürüş edən skiflər özləri ilə gətirə bilərdilər (2, s. 136). F.Ditsin Polifemin Qafqaz mənşəli olması ilə bağlı mülahizəsi məhz bü mülahizələr qovşağında həqiqətə yaxınlaşır. F.Dits dürüst tarix göstərə bilməsə də süjetin skiflər içərisində mövcud olduğunu, oradan isə onların müxtəlif yürüşləri zamanı Ön Asiyaya, oradan isə Qafqaza, eləcə də Avropaya yayıldığını ehtimal etməkdə haqlı idi. Təpəgözlə bağlı süjet Ön Asiyada yayıldığı kimi, eyni zamanda Qafqaza gəlmiş, burada adıqey və osetinlərin «Nart» eposunda Təpəgözü yaratdıqları kimi, eyni zamanda özünə oğuzların daha mükəmməl süjetli hekayətlərinin birində yer eyləyə bilmişdi (15, s. 13-17). Homerin «Odissey»dəki Polifemi isə daha qədim Təkgözün əsaslı şəkildə yumşalmış prototipidir. Avropa və dünya eposuna səpələnən də məhz həmin obrazın müxtəlif səviyyələrdə işlənmiş variantlarıdır (15, s. 21).

Eposun birinci dövr yaradıcılıq mərhələsində formalaşıb repertuara düşən boylardan sonuncusu «İç oğuza Taş oğuz asi olub Beyrək öldüyü boyu bəyan edər, xanım hey!..»dir (1, s. 123-126). Əvvəla qeyd etmək lazımdır ki, bu boy oğuz məişətini bütöv halda əks etdirən, oğuzların törənişi və yaşayışı, adət-ənənəsi, eyni zamanda onların tarixi taleyini əks etdirən başqa bir boyun davamıdır (1, s. 52-67).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Oğuz elində özünü göstərən ziddiyyətlər, qarşıdurmalar, dövlət daxilindəki qiyam və zorakılıqlar burada özünü aydın əks etdirir. Beyrəyin öldürülməsinin qisası Aruz qocadan alınır, dövlət daxilində baş verən, əgər belə demək olarsa qiyam yatırılır, oğuz elinin idarəçiliyi yenidən davam edir. Bütün bunlar göstərir ki, əslində epos elə Beyrəyin qəhrəmanlığı üzərində qurulmuşdur. Epik ənənəyə uyğun süjetə diqqət yetirsək qəhrəmanın doğuluşu ilə başlayan hekayət onun ölümü, bu ölümün qisası ilə tamamlanır. Bu isə belə bir təəssürat yaradır ki, epos türk eposçuluğu ənənəsində yaranmış, Beyrəyin qəhrəmanlığını vəsf eləyən daha qədim bir oğuz hekayəti silsiləsini təşkil etmişdir. Bu struktur sonralar «Manas»da, «Alpamış»da və b. oxşar strukturda qalmış, oğuz eposunda isə əsaslı rekonstruksiyaya uğramışdır. Beyrək qəhrəmanlığı əslində oğuz hekayətləri içərisində əriyib yoxa çıxmışdır. Onu başqalarının qəhrəmanlıqları ilə bağlı dastanlar üstələmişdir. Bu, eposun sökülüb dağılması, bir qəhrəmanlıq ətrafında daha müxtəlif qəhrəmanlıqların birləşməsidir. Oğuz eposunun tədqiqatçılarından olan V.M.Jirmunski yazırdı ki, türk eposunda vahid epos strukturunun pozulması ənənələrinə tez-tez təsadüf olunur. Bu cəhət «Kitabi-Dədə Qorqud»un strukturu üçün daha səciyyəvidir. Araşdırıcı problemə geniş şərh verməsə də eposun Beyrək qəhrəmanlığına həsr edilməsi, sonradan isə strukturun parçalanıb yenidən işlənmə prosesini yaşamasına aydınca işarə edir. «Beyrək qəhrəmanlığının belə prosesə məruz qaldığı eposda özünü aydın göstərir. Əslində Beyrək süjeti oğuzların o qədər arxaik qəhrəmanı olmuşdur ki, Dədə Qorqud repertuarına o müstəqil dastan kimi düşə bilməmişdir. Məsələn, eposda göstərilir ki, Beyrək «üzü niqablı dörd qəhrəmandan» biridir (1, s. 53). Ancaq Beyrəyin qəhrəmanlığı yalnız bir epizodda boyun əvvəlində özünü göstərir (1, s. 52-67). Sonrakı boyların heç birində onu düşmən üzərinə yeriyən, qılınc çəkib qalib gələn qəhrəman kimi görmürük. Hətta toy gecəsi onun düşmənlə vuruşu, onlarla əlbəyaxa döyüşü gözə dəymir. Beyrək əslində müqavimətsiz düşmənə təslim olur – onu təkurun adamları dustaq eləyib aparırlar (1, s. 54). Yaxud, Aruz qoca onu evinə dəvət edəndə tayfada münasibətlərin kəskinləşməsi Beyrəyə yaxşı məlum idi. Ancaq o, bu görüşə çox eytiyatsız gedir, cəngavər, qəhrəman kimi yox, oğuz elinin adi bir vətəndaşı səviyyəsində görünür. Yaxud Bayburd qalasından Beyrək canını qəhrəmanlıqla xilas etmir. Onu təkurun qızı azad edir (1, s. 57). Maraqlıdır ki, bizə gəlib çatan nüsxələrdəki müəyyən epizodlarda da fərqlər nəzərə çarpır. Məsələn, Drezden nüsxəsində Beyrək təkurun qızına söz verir ki, onu azad etmə müqabilində, hökmən arxasınca gəlib onu oğuz elinə aparacaqdır. Hətta buna «Qılıncıma doğranayım» deyib and içir. Drezden nüsxəsi mətnində Beyrəyin onu dustaqlıqdan azad edən təkur qızının arxasınca gəlməsi yoxdur (1, s. 65). Vatikan nüsxəsində isə Beyrək gəlib təkurun qızını oğuz elinə aparır (16, s. 57-61). Bütün bunların isə hər iki nüsxədə Beyrək qəhrəmanlığının arxaikləşməsi, oğuznamələr mətnində öz bütövlüyünü itirməsi ilə əlaqədar olduğu aydın görünür. Bu, bizcə iki səbəblə bağlı ola bilərdi. **Birincisi**, Beyrək qəhrəmanlığı o qədər arxaiklik mərhələsi keçmişdir ki, o «Dədə Qorqud» silsiləsi yaranana qədər sökülüb dağılmış, yaddaşda yalnız epizodik şəkildə qalmışdır. Oğuznaməni tərtib edənlər isə onun bütün bu arxaikliyini gözləməklə əlyazma mətninə daxil etmişlər. **İkinci səbəb** isə ola bilər ki, arxaik Beyrək süjeti Dədə Qorqud tərəfindən repertuara daxil edilməmiş, yaxud elə iki boyun məzmunu arxaik bir eposun süjeti kimi oğuznamə əlyazmasında əks olunmuşdur. Əlyazmaya Dədə Qorqudun adı ilə bağlı süjetlər əlavə olunmuşdur. Hər halda yazıya alınan Drezden mətninə həm Dədə Qorquddan əvvəl, həm də sonra yaranan oğuznamələr daxil edilmişdir. Daha əzəli əlyazmaların katibləri müstəqil «Beyrək» eposu, onunla bağlı oğuznamələri sonradan Dədə Qorqudun repertuarı kimi qeydə almış, elə əlyazmaya da bütün hekayətlər oğuz qəhrəmanlıqlarından bəhs edən hadisələr kimi daxil edilmişdir. Bu boyun coğrafiyasına baxış da göstərir ki, o, həqiqətən oğuzların qədim vətənində yaranıb, bir sıra arxaik qeyri-müəyyən coğrafi adları özündə əks etdirmişdir. Burada da əslində zaman anlayışı qeyri-müəyyən olduğu kimi, məkan da nisbi, qeyri-müəyyən və şərtidir.

«Kitabi-Dədə Qorqud» eposunun Kiçik Asiya dövründə, yəni **ikinci yaradıcılıq mərhələsində** bizcə iki boy – V boy – «Duxa Qaca oğlu Dəli Domrul boyunu bəyan edər, xanım hey!» və XI – «Salur Qazan tutsaq olub oğlu Uruz çıxardığı boyu bəyan edər, xanım hey!» yaranmışdır.

Bu boyların hər ikisi oğuzların Orta Asiyaya gəlişindən sonrakı məkanında meydana çıxmışdır. Onların birincisində – «Dədi Domrul»da bir sıra qədim görüş və etiqadlar əksini tapsa da ümumilikdə götürdükdə boy «…müsəlmanlığın təzə qəbul edildiyi vaxtlarda yaradılmışdır» (2, s. 124). Boyda ayrı-ayrı süjetlər çarpazlaşıb vahid süjet xətti yaratmışdır. Onlardan birini, türk eposunda tez-tez təsadüf olunan – qəhrəmanın Əzraillə döyüşü, yaxud qarşılaşmasını bir növ ənənəvi süjet kimi də qəbul etmək olar. Çünki VII-XII əsr abidələrində bu süjet tez-tez təkrarlanan, ozan-baxşı repertuarında o, özünü müntəzəm göstərən süjetlərdəndir. Onun ilk nümunələrini oğuzlar ilkin vətənlərində yaratmış, onu sonradan özləri ilə yeni məskənlərinə aparmışlar. Oğuzların qədim süjetləri içərisində insanın canının alınıb-verilməsi, can əvəzinə can əldə edilməsi, nəhayət insanın canının can quşu şəklində olması motivi saklara məxsus idi. Onlardan skiflərə keçmişdi. Mənşə etibarı ilə zərdüştdən əvvəlki görüşlərlə bağlı idi. Zərdüştilik bu ənənələrə qarşı hərb elan etmişdi. Bu isə süjetin oğuzlar arasında kütləviləşməsinə imkan verməsə də onun qalıqları zərdüşt təsəvvürlərində güclü şəkildə mühafizə edilmişdir. Sehirli nağıllarda həmin motivlər daha fəal qorunub saxlana bilmişdir.

Süjetdəki üçüncü motiv ər-arvad arasındakı münasibətdir. Bu bəzən sevgi münasibəti kimi qələmə verilsə də əslində, hadisənin mahiyyətində məhəbbət, və ya ilahi bir sevgi dayanmır. Ailənin, xüsusilə uşaqların gələcəyi bu münasibətləri tənzimləyir. Dəli Domrulun arvadının öz canını ərinə verməyə hazır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olmağında sevgi motivi əsas rol oynamır. Burada ümumilikdə, ailənin gələcəyi də başlıca şərt kimi nəzərə çarpır. Dastanda Dəli Domrul Əzrayilə deyir: «… Həsrətim vardır, buluşayım, - dedi Əzrayil aydır: «Mərə dəli, həsrətin kimdir?» Aydır: «Yad qızı halalım var, andan mənim iki oğlançığım var, əmanətim var, ısmarlaram anlara, andan sonra, mənim canım alarsan» (1, s. 167).

Dəli Domrul sevgilisinin yanına gəlib başına gələn əhvalatı ona söyləyir. Artıq Ərzayilin onun canını almağa hazırlaşdığını bildirir. Eyni zamanda bütün varidatını ona baxışlamaqla «könlü kimi sevərsə, gözü kimi tutarsa - ona getməyini söyləyir ki, «iki oğlancığı öksüz qomağıl» - deyir:

…Qatar-qatar dəvələrim
Sana yüklət olsun!
Ağayildə ağca qoyunum
Sana şülən olsun!
Çözün kimi tutarsa,
Könlün kimi sevərsə!
Sən ana vargil!
İki ağlancığı öksüz qomagil (1, 82-83).

Dəli Domrul sevgilisinə iki oğlanıcığını yetim qoymamağı vəsiyyət edəndə sevgilisi də bir etibarı, bir də övladlarına olan məhəbbəti ilə bağlı öz canını Dəli Domrula fəda etməyə razılaşır.

Əgər Dəli Domrulda övlad məhəbbəti açıq mətndə ifadə edilirsə, onun sevgilisinin müraciətində bu, mətnaltı mənada özünü ifadə edir.

«Dəli Domrul» boyunda hadisələr islamın hələ tam şəkildə qəbul edilmədiyi, Əzrailin can alma funksiyasının hələ təsdiqlənmədiyi dövrün təsəvvürləri, görüş və etiqadları özünü əks etdirir. Elmi tədqiqatlarda da buna münasibətin birmənalı olmadığı məlumdur (1, s. 147-159). Dəli Domrul və islam görüşləri eposda müxtəlif qutblərdə qəbul edilir. Əgər birinci mülahizə islamdan əvvəlki təsəvvürlərə bağlı Dəli Domrul müqayisələrə cəlb edilirsə, ikinci qrup mülahizələrdə Dəli Domrul islam görüşləri ərəfəsi və islam dövrü baxışlarında araşdırılır (18, s. 21-27). Bütün bu tədqiqatlarda isə belə bir ümumi cəhət özünü göstərir ki, «Dəli Domrulla bağlı boydakı hadisələr süjetin başqa boyları ilə heç bir əlaqədə olmadığı kimi, buradakı obrazları, motiv və süjetləri sonrakı hadisələrin yaradıcılıq prosesində, yaxud boyların heç birində görə bilmirik. «Boyun bir çox motivinin oğuz eposu üçün səciyyəvi olmasına baxmayaraq, hər halda, beşinci oğuznamə nə tipinə, nə də mövzusuna görə «Qorqud Kitabı»nın ümumi kompozisiyasına uyuşmur və başqa oğuznamələr arasında yad görünür. Boyu oğuzlarla nə etnik, nə tarixi elementlər, nə də qəhrəmanların tərkibi (burada «Qorqud Kitabı»ndakı çoxsaylı oğuz bəylərindən heç biri yoxdur) bağlayır» (2, s. 126). Amma bütün struktur ziddiyyətlər boyu eposun bizə məlum oğuznamə üslubundan ayırmır. Boy həm dili, üslubu, həm də epik ənənənin qorunub saxlanması baxımından məlum oğuz hekayətləri silsiləsindən ayrılmır. Bu isə onun ozan repertuarında yarandığını, elə bu repertuarda formalaşma mərhələsi keçdiyini göstərir. Bu isə şübhəsiz ki, epos boyları yaradıcılığının oğuzların Kiçik Asiyaya gəldiyi dövrdə başlayan ikinci yaradıcılıq dövründəki epik ənənələri ilə bağlıdır. M.Erginə görə, «bu boy Kiçik Asiyada islam görüşlərinin qəbulu ərəfəsində yaranan yeni mühitin ümumi əhvali-ruhiyyəsini əks etdirməkdə idi» (19, s. 127). Şübhəsiz ki, M.Erginin adlandırdığı «yeni mühit» islamın qəbulu ərəfəsində yazılı abidələrdə islami dəyərlərin önə çəkilməsinə üstünlük verilməsi kimi başa düşülməlidir. V.M.Jirmunskiyə görə bu tipli süjetlər həmən dövrdə Kiçik Asiyada geniş yayılmışdı (5, s. 176). Ancaq onların ayrı-ayrı dastanlarda üzə çıxarılmış nümunələri isə demək olar ki, hələ kifayət qədər açıqlanmamışdır. Şübhəsiz ki, boyla bağlı digər mülahizələr də mövcuddur və onların sistemli şəkildə öyrənilməsinə hələ yeni başlanılmışdır (18, s. ).

Boyda əks olunan bir sıra motiv və süjetlərə türk eposunda bu və ya digər şəkildə təsadüf edilsə də bütövlükdə «Dədə Qorqud» mətnindən kənarda müstəqil oğuznamə təsiri baxışlayır. Eposun arxitektonik quruluşuna uyuşmur. Burada baş verən hadisələr boyda özünü göstərən oğuz həyatının başqa məqamlarında təkrarlanmadığı kimi, boyun obrazları və hadisələri yuxarıda deyildiyi kimi, sonradan süjetin ümumi məzmunu ilə vahid ahəng təşkil etmir.

Burada da coğrafi məkan qeyri-müəyyəndir. «…boyda Rum və Şam adı çəkilir. Lakin bu ölkə adları oğuz elindən kənarda yerləşir» (7, s. 18-19).

Mətndə boyun yarandığı coğrafi region əslində mücərrəddir. Adı çəkilən, ancaq oğuz elinə daxil olmayan Rum və Şamla epik süjetin elə bir əlaqədə olduğunu söyləmək mümkün deyildir. Maraqlıdır ki, bu məsələyə M.F.Qızzıoğlunun münasibəti də birmənalı deyildir. O, İç oğuz, yaxud Kars Eli» (20, s. 39) məqaləsində «Dəli Domrul» boyunu ümumiyyətlə islami dövrün məhsulu olduğunu göstərir. Bir neçə il sonra nəşr etdirdiyi başqa bir qeydində isə boyun «qeyri-müəyyən coğrafi məkanda islamdan əvvəl yarandığını göstərir (21, s. 32).

Bizə görə hər halda «Dəli Domrul» eposun ikinci dövr yaradıcılıq nümunəsi kimi oğuzların Kiçik Asiyaya gəlişindən sonra islamlaşma dövründə yaranan boylardandır.

Eposun ikinci dövr yaradıcılıq mərhələsinə aid etməyin mümkün olduğu boylardan digəri isə «Salur Qazan tutsaq olub, oğlu Uruz çıxardığı boyu bəyan edər, xanım hey!…»dir (1, s. 110-122). Bu, «Kitabi-Dədə Qorqud»un birinci boyudur. Əslində burada oğuzların qismən daha qədim dövr həyatından danışılır. Ova çıxmaq, yuxuya getmək, qonşu tayfa ilə düşmənçilik etmək, torpaq üstündə dava, qisas almaq, dustaq edilmiş qəhrəmanı dustaqlıqdan azad edib elə qaytarmaq, dustaqla müəyyən çərçivə daxilində rəftar etmək və s. oğuzların daha çox diqqət çəkən ənənələrindəndir ki, adı çəkilən boydakı hadisələr bütövlükdə onların üzərində qurulmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Boyda eyni zamanda Kiçik Asiya mühiti, tacir-zadəgan münasibətləri üçün daha ənənəvi olan atalar-oğullar, qonşular-düşmənlər, qonşular dostlar və b. ənənəvi motivlər də diqqəti cəlb edir. Burada Türküstan eposu üçün ənənəvi kütləvi səhnələr, Qazanın dustaq olması epizodunda təkur xanımının onu görməyə gəlməsi, Qazan xanın onunla söyləşməsi, əsir edilmiş qəhrəmanın öldürülməsinə rəva görülməməsi və s. (1, s. 120-122) Kiçik Asiya mühiti üçün ənənəvi epik düşüncə detalları kimi öndədir. Eyni zamanda Qazan xanla bağlı süjetlər oğuzların əfsanəvi qəhrəmanı barədə Kiçik Asiyanın özündə oğuznamələr silsiləsinin mövcudluğundan xəbər verir. Amma onu da qeyd etmək gərəkdir ki, istər bu boyda, istərsə də eposa daxil olan bütün başqa boylarda Qazan bəy barədə kifayət qədər məlumat verilmir. Onun alplıq və cəngavərliyindən daha çox, passiv həyatı, məğlubiyyəti, yurdunun dağıdılması, oğuz elində baş verən qarşıdurmaların səbəbkarı kimi informatik məlumatlar bütövlükdə eposda üstünlük təşkil edir.

İlk baxışda hadisələr oğuz həyatının erkən dövr çağları barədə məlumatla zənginlik təəssüratı yaratsa da, bütövlükdə hadisənin Qafqaz çərçivəsində, oğuzların yeni məkanında qonşuları ilə münasibətlərini əhatə etdiyini aydın görmək olur. Ancaq bununla belə, Kiçik Asiya mühitinin əhvali-ruhiyyəsi də hadisələrin təsvirində yaddaşdan kənarda qalmır. Məsələn, boyun finalındakı qonşulararası münasibətlərin müəyyən məqamlarda Kiçik Asiyada baş verdiyini əks etdirirsə (1, s. 154-155), digər tərəfdən, icmanın atırq kilsəni söküb yerində məscid tikməklə islami dəyərləri qəbul etmək ərəfəsində olduğu da göstərilir (1, s. 157).

Boyda verilən toponiumlər, coğrafi adlar onun yaranma coğrafiyası barədə müəyyən nəticələrə gəlməyə imkan verir. İlk öncə burada da zaman və məkan anlayışı qeyri-müəyyəndir. Bir-birinin ardınca verilən hadisələrin mahiyyətində zamanın uzlaşmaması özünü göstərir. Bir sıra motiv, süjet və hadisələr oğuzların epik düşüncəsində hələ eposun yaranmasının birinci dövr yaradıcılıq mərhələsindən mövcud olduğunu göstərir. Motiv və süjetlərin yayılma arealı genişdir. Qeyri-müəyyən zaman müddətində baş verən hadisələr katibin mətnə daxil etdiyi toponiumlar əhvalatların zaman hüdudunu müəyyənləşdirməyə nəinki imkan verir, əksinə, zaman və məkan hüdudlarının özündə bir xaotiklik yaradır. Təbii ki, bu, boyun çoxvariantlılığı, katibin tərtib zamanı bir neçə eyni məzmunlu boy əsasında əlyazmada mətni sinkretizə etmək təşəbbüsüsü ilə bağlıdır. Ona görə də boydakı toponiumlar sırasının bir başında Trabzon, Tuman Qalası, Əmman (Hind okeanı, yaxud Qara Dəniz mənasında) dayanırsa, o biri qütbündə Sancılan, Qalın Oğuz eli, Baysarın Bayburd hasarı, eləcə də Aya Sofiya coğrafi toponiumları dayanır. Burada eyni zamanda Şimali-Şərqi Anadolu, Qərbi Azərbaycan toponimlərinə da təsadüf edilir. «Dədə Qorqud boylarında hadisələrin və onların baş verdiyi coğrafi məkanın müəyyənləşdirilməsi göstərir ki, həmin hadisələr Ön Asiya yaylalarında, cənubda Mardin və Diyarbəkr bölgəsindən tutmuş, şimalda Qara Dəniz, İmeretiya, Kartliyə, şimal-şərqdə və şərqdə Xəzər dənizi sahillərinə, cənub-şərqdə isə Cənubi Azərbaycanın şimal, şimal-qərb sahillərinə qədər uzanan geniş bir coğrafi məkanda baş vermişdir. Cənubi Qafqazın hər hansı bölgəsində toponiumlərin – kitabda adı çəkilən toponium və şəxs adlarına uyğun gəlməsi bu ümumtürk eposunu hər kəsin öz məhəlləsinə çəkib aparmasına, onu olduqca kiçik bir məkan çərçivəsinə salmağa əsas vermir» (7, s. 26).

Diqqətli müşahidə göstərir ki, bu boy oğuzların epik düşüncəsində hələ əzəldən mövcud olmuş, Kiçik Asiya mühitində yaşamış oğuzların Qafqaza gəlməsindən sonra ozan repertuarında rekonstruksiya edilmişdir.

«Kitabi-Dədə Qorqud»un **üçüncü dövr yaradıcılıq mərhələsi** bizə belə gəlir ki, Qafqazın tarixi coğrafiyası ilə daha sıx bağlıdır. Oğuzların Qafqaza gəlməsindən sonra ozan repertuarında «Dədə Qorqud» süjetlərinin yaradıcılıq prosesi xeyli sürətləndi. Kiçik Asiyada yaşayarkən oğuz eposuna «yad elementlərin» daxil olması, bir sıra hallarda epik-romantik ənənələrin təsiri, eləcə də dünya eposu üçün o qədər də səciyyəvi olmayan motivlərin epik yaddaşda rekonstruksiyası güclü idi. Eyni zamanda Türküstanın həmən dövrdə islamlaşma prosesinə yaxınlaşması oradakı mövcud epik ənənəyə öz təsirini daha güclü şəkildə göstərə bilmişdi. Eposun «Kiçik Asiya dövrü» yaradıcılıq mərhələsi hesab etdiyimiz ikinci dövr törəniş mərhələsində formalaşan «Dəli Domrul» və «Salur Qazan tutsaq olub oğlı Uruz çıxardığı boyı bəyan edər, xanım hey!..» boyların ümumi tarixi coğrafiyası oğuz elinin coğrafi məkanından kənarda olmayıb həmən məkanın genişliyini və intəhasızlığını təsdiq etməkdədir.

«Kitabi-Dədə Qorqud» epik düşüncəsinin üçüncü yüksəliş mərhələsi oğuzların Qafqaza gəlişi və coğrafi cəhətdən bu yeni geniş region daxilindəki epik yaradıcılıqları ilə bağlıdır. Bu dövrdə aşağıdakı boylar yaranıb repertuara daxil olmuşdur: **II boy** – «Salur Qazanın evi yağmalandığı boyu bəyan edər, xanım hey!», **IV boy** – «Qazan bəq oğlu Uruz bəg tutsaq olduğu boyu bəyan edər, xanım hey!..», **VII boy** – «Qazlıq Qoca oğlu Yegnək boyını bəyan edər, xanım hey!..», **X boy** – «Uzun Qoca oğlu Səqrəq boyını bəyan edər, xanım hey!..».

**II boy** – «Salur Qazanın evi yağmalandığı boyu bəyan edər» (1, s. 42-51) yaranış baxımından qədim və əski motivlərlə zəngin olsa da buradakı hadisələr oğuzların Qafqaz qonşuları ilə münasibətləri çevrəsini əhatə edir. Düşmən hücüm edib Qazan xanın evini yağmalayır. İlxılarını, sürülərini aparır, oğlu Uruzu dustaq edir, arvadını, anasını, qırx incəbelli qaravaşını aparır. Qazan xanın yurdunu isə Qaraca Çoban müdafiə edir. Qazan bəy viran olan yurdunu görəndə qəmlənir. Qaraca Çoban əhvalatı ona danışır. Qazan bəyə kömək etmək istəyir. Bəy isə bunu çobanın bütün yaxşılıqlarına baxmayaraq özünə sıxışdırmır. Onu ağaca bağlayıb düşməndən intiqam almağa tək özü gedir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İcmada bir sıra ziddiyyətlərin törəməsinin, oğuz elinin daxili parçalanmasının səbəbkarlarından biri olan Qazan bəyin təbiətindəki ziddiyyətli cəhətlər burada daha aydın üzə çıxır. Əslində Bayandır xandan sonra oğuz elində ikinci şəxs olan Qazan ordu başçısı kimi ayıq, uzaqgörən sərkərdə deyil. Təkəbbürlü, özünü sevən, bir az da arxayındır. Düşmənin gücünü düzgün qiymətləndirə bilmir. Amma eposda təkcə bir epizodda – boyda görünən çoban öz ağasına sadiqdir. Bizə belə gəlir ki, Qaraca Çobanın şəxsində oğuzun yaşadığı cəmiyyət üçün səciyyəvi olan iki xüsusiyyət birləşmişdir. Birincisi, yaşanılan cəmiyyətin ağa-qul münasibətidir. Qaraca Çoban ona görə düşmənin heç bir yağlı vədinə uymur ki, oğuz cəmiyyətində qulun-ağaya sədaqəti hədsiz idi. Qaraca Çoban Qazan bəyə xəyanət edib düşmən tərəfə keçsəydi oğuz eli onu bağışlamazdı. Bu təkcə Qazan bəyə deyil, oğuz elinə olan xəyanət hesab edilərdi. Qaraca Çoban yaxşı başa düşür ki, bu qəbahətini oğuz eli onu baxışlamazdı. İkincisi isə, Qaraca Çobanın itirdiyi iki qardaşının intiqamını düşməndən almaq istəyi ilə bağlıdır.

Boyda ana namusu, oğul sədaqəti, düşmənə qarşı barışmazlıq, vətən və vətən torpağı, mərdliklə döyüşüb düşməndən intiqam almaq başlıca cəhətlərdən biri kimi diqqəti cəlb edir. Burada baş verən hadisələr bütün çalarlarında Qafqazda cərəyan edir. Əvvəlki boylardan fərqli olaraq eposun arxitektonikasında bu boyların həm üslubu və Qafqazda baş verən tarixi hadisələrlə səsləşməsi, həm də yayılma coğrafiyası onların Qafqazdan kənarda yaranmadığını təsdiqləyir. Ümumilikdə, burada Qazan xanla bağlı ziddiyyətlər çox kəskindir. Bir tərəfdən «bahadır yuxusu»na gedərək elinin, obasının yağmalanması faktını ortaya qoymaqla, katibin də həmən faktı eposa daxil etməsi oğuz elinin Qazana bəslənən münasibətinin birmənalı olmadığını əks etdirir. Digər tərəfdən epik yaddaşda qəhrəmanın arvadının əsir alınması özü də qəhrəmanlıq (onun necə azad olmasından asılı olub-olmayaraq) hadisəsindən daha çox neqativ məzmun çalarını əks etdirməkdədir. Boyun Qafqazda formalaşmasına baxmayaraq buradakı hadisələr onun etnik yaddaşda çox əzəldən yarandığını göstərir. Qazan əslində oğuzların icma dövrü dövlətçiliyinin sərkərdəsidir. Bayandır xan dövlətçiliyi oğuzların solmayan yaddaşıdır. Boydakı hadisələrin həqiqətən oğuzların Qafqaza köçdükdən sonra bu coğrafi ərazidə baş verdiyinə bir mənalı yanaşmaq da bizcə mümkün deyildir. Buradakı hadisələr bəlkə də oğuzun əski tarixi taleyidir. Qafqaza gəldikdən sonra ozan yaradıcılığı ənənəsi üçün mövcud münbit şərait onları etnik yaddaşa yenidən qayıtmağa, improvizatorçu sənətkarlar özlərinin əski epik düşüncəsinin silsilə hekayətlərini bərpa etməyə başlamışlar. Bizə belə gəlir ki, oğuz hekayətlərindəki zaman və məkan qeyri-müəyyənliyinin, toponium müxtəlifliyinin başlıca səbəblərini məhz oğuzların üçüncü dövr yaradıcılıq ənənələrində axtarmaq daha doğru olardı. Onu da nəzərə almaq lazımdır ki, bu boy ümumilikdə oğuz eposunun oğuz həyatını daha geniş lövhələrdə əks etdirən hadisələrin məcmusudur. Onun epos yaradıcılığının üçüncü mərhələsində Qafqaz coğrafi ərazisi ilə bağlanması daha mühüm bir ehtimalı da şərtləndirir. Bu da ondan ibarətdir ki, «Dədə Qorqud» epik silsiləsinin yaranıb formalaşmasının son mühüm yaradıcılıq mərhələsi Qafqaz coğrafi məkanında qəti şəkildə formalaşma mərhələsini tamamlamışdır. Boydakı coğrafi toponiumlar Gürcüstan və Şərqi Anadolu əraziləri ilə daha çox əlaqədardır. Burada bir sıra yer və şəxs adları ətrafındakı fikir müxtəlifliyi (1, s. ), eposun coğrafi məkanını təkcə Azərbaycan ərazisi ilə məhdudlaşdırmağa aparan mülahizələrə (22, s.157) də müəyyən əsas verir. Bütün bunlar isə Drezden nüsxəsinin oğuz epik ənənəsini əks etdirən süjetlərin öyrənilmə problemləri ilə bağlıdır ki, bu da hələ mətnin daha mükəmməl şərhə ehtiyac olduğunu bir daha gündəmə gətirir. Bizə belə gəlir ki, M.F.Qırzıoğlunun göstərdiyi kimi, «…Dədə Qorqudun tarixi coğrafiyası oğuz elinin coğrafiyasının və süjet cəbbəxanasının öyrənilmə səviyyəsi ilə sıx vəhdətdədir. Bu coğrafiya bütövlükdə bərpa edildikcə oğuz epik düşüncəsinin nüfuz sərhədləri də aydınlaşacaqdır» (20, s. 43).

**IV boy** - «Qazan bəq oğlu Uruz bəg tutsaq olduğu boyu bəyan edər, xanım hey!..»dir (1, s. 68-78). Boy bütövlükdə oğuz elində yeni qəhrəman nəslin yetişməsi məsələsini əhatə edir. Burada ataların öz övladlarına döyüş sirlərini öyrətməsi, övladın atanın sözündən çıxmaması, tələsik qərar qəbul etmənin zərəri və s. kimi məsələlər öz əksini tapır və oğuz elinin döyüş rəşadətləri əks olunur. «Ata sözündən çıxmaq» burada böyük qəbahət hesab edilərdi. «Ol zamanda oğul ata sözünü iki eləməzdi. İki eləsə, ol oğlunu qəbul eləməzlərdi» (1, s.).

Boyun qısa məzmunu belədir ki, Qazan xanın oğlu Uruz döyüş zamanı düşmən tərəfindən əsir götürülür. Onun başındakı bütün yoldaşları qırılır. Qazan gəlib cəsədlərin içərisində oğlunu tapmır, geri qayıdır. Ancaq Burla xatunun narahatçılığına dözə bilməyib yenidən Uruzu axtarmağa gedir. Ağır döyüşlər keçirir, özü də döyüşdə yaralanır. Burla xatun Qazanın qılıncını və atını götürüb döyüşə girmək istəyəndə oğuz qəhrəmanları özünü onlara yetirib düşmən kafirləri qırıb oğuza qələbə ilə qayıdırlar. Əslində boy «Dədə Qorqud» silsiləsinə daxil hekayətlərlə vahid bir kompleks təşkil edir, həmən silsilənin oğuz – düşmən münasibətləri kompleksini tamamlayır. Boyun «Dədə Qorqud» eposu yaradıcılığının üçüncü mərhələsində yaranmasına baxmayaraq burada oğuzun başına gələn əski hadisələrin yeni məzmunda işlənməsi diqqətə çarpır. Doğrudur, ozan oğuz həyatının ənənəvi düşmən modeli ilə bağlı çevrəni əhatə edə bilməsə də oğuz – düşmən qarşıdırması xəttinə bir sıra arxaik motivləri daxil etməyə cəhd göstərir. Amma ozanın bütün bu ciddi – cəhdləri boydakı hadisələri Qafqaz coğrafiyasından uzaqlaşdıra bilməsə də bir sıra motivləri yenidən işləməklə oğuzların qədim qonşuluq münasibətlərinin müəyyən ştrixlərini boyda əks etdirə bilir. Bu isə oğuznaməyə məxsus struktur modelin qorunub saxlanmasına imkan verir. Boyda özünü göstərən coğrafi toponiumların böyük bir qismi Kur, Araz, Murat, Corux, Ağstafa və Debel çaylarının başlanğıc hissələrini, sahil ətrafını əhatə edir. Buradakı yer adları,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onların aşkarlanması və şərhi müxtəlif mülahizələr doğurmuş, həmən toponiumlarla bağlı fikir müxtəlifliyi yaratmışdır. Bu cəhət M.Erginin, M.F.Kırzıoğlu, H.Araslı, F.Zeynalov və S.Əlizadə, eləcə də Ş.Cəmşidov kimi qorqudşünaslar arasında fərqli münasibətləri ortaya çıxarmışdır (1, s. 256-264; 22, s. ).

**VII boy** - «Qazlıq Qoca oğlu Yegnək boyını bəyan edər, xanım hey!..» (1, s. 94-97). İlk öncə demək lazımdır ki, bu, eposun həcm etibarı ilə ən kiçik boylarından biridir. Burada Qazılıq Qocanın oğlu Yegnək tərəfindən dustaqlıqdan azad edilməsindən danışılır. Mahiyyət etibarı ilə «atalar - oğullar» süjetinin oğuzlar içərisində nağıl motivləri əsasında variantlaşan süjetlərindən biri kimi, süjetin elə qədim tarixi yoxdur (23, s. 111). Oğuz eposunda onun erkən orta əsrlər ərəfəsində yaranıb yayıldığı etiraf edilir. Çox güman ki, «atalar - oğullar» süjetinin bu variantlaşması elə oğuzların Qafqaz mühitindəki improvizatorculuğu ilə eyni dövrə təsadüf edilir (24, s. 217). Amma boyun tarixi coğrafiyası üzərində dayanan X.Koroğluya görə, «boyun epik yaddaşdakı tarixi VII-VIII əsrlərə gedib çıxır. Təkürün zahiri görkəminin və güçünün təsviri (60 arşınlıq qaməti, 60 arşınlıq gürzü və s.) təkbətək görüşdə güclü rəqibə qalib gələn kiçik oğlun üstünlüyü motivi diqqəti cəlb edir» (2, s. 134). Müəllif ona istinad edir ki, qəhrəman Qorquddan öyüd alır, ən başlıcası isə bəzi əfsanə və rəvayətlərə görə Məhəmməd peyğəmbərdən öyüd alan ilk oğuz övladı hesab olunur.

Bükdüz Əmən boyun baş qəhrəmanı Yegnəyin dayısıdır. Elə buna görə də ozan boyun epik tarixini oğuzların Axlata gəldiyi günlə – VII-VIII əsrlə bağlayır (2, s. 134). Bizə belə gəlir ki, epik yaddaş üçün bu tarix o qədər də inandırıcı görünmür. Oğuzların ilk epik yaradıcılıq mərhələsində Yegnək hadisəsi ozan improvizəsi üçün ənənəvi ola bilərdi. Ancaq epik yaddaşın VII-VIII əsrin tarixi faktını bu şəkildə erkən orta əsrlərə, Qafqaz mühitində yeni improvizatorçuluq ənənələrini formalaşdıran ozan yaradıcılığına transilə edilməsi epik yaddaş üçün ənənəvi olmayan hadisədir. Amma tədqiqatçı alimin o fikri vardır ki, «…yeddinci boyun əsas süjeti oğuzların ilkin vətənində formalaşıbdır, sonradan isə Kiçik Asiya və Qafqaz torpaqlarına ilk oğuzların köçməsi ilə bağlı hadisələrə əlavə olunubdur» (2, s. 134). Epik yaddaşda atanın övladı tərəfindən dustaqlıqdan xilas edilməsi yuxarıda qeyd edildiyi kimi, ilk qaynaqda «atalar-oğullar» motivi əsasında yaranmışdır. «Atanın xilas edilməsi» isə eyni kökdən ayrılıb epik yaddaşda xeyli sonralar meydana çıxmışdır. Amma buna baxmayaraq ozan repertuarında boyun belə uzunmüddətli dövrdə qala bilməsi ümumilikdə qeyri-realdır. Boyun tarixi tarixi-coğrafi strukturu onu Qafqaz mühiti ilə daha çox bağlayır. Burada oğuz eli İç Oğuz və Daş (dış) Oğuza bölünür, toponiumlərin böyük əksəriyyəti Qafqaz çevrəsi ətrafındadır. Burada Qars ərazisi, onun yaxınlığındakı hidroniumlar xatırlanır. Düzmurd (Gözmürd), Ayğır gözlü sulu və s. yer adları çəkilir. «Dədə Qorqud» silsiləsinin yarandığı birinci mərhələ ilə bağlılığına işarə verən elementlərə burada demək olar ki, işarələr çox azdır. Ancaq əvvəlki boylarda olduğu kimi, həmən boyda alpan, alban toponiumlarının təkrarlanması hadisələrin qədim albanların yayıldığı ərazidə baş verməsinə işarələr nəzərə çarpır.

**IX boy** – «Bəkil oğlı Əmranın boyını bəyan edər xanım, hey!..»dir (1, s. 116-122). Boydakı hadisələr oğuzların Qafqaza gəlişindən sonra bu ərazidə xeyli möhkəmlənməsi, özlərinə məxsus Bayandır xan dövlətçilik ənənəsini yenidən bərpa etmə hadisəsi ilə başlayır. Bəzi tədqiqatçıların fikrincə boy oğuzların «…köçmələrinin başlanğıc mərhələsində formalaşmışdır» (2, s. 146). Bayandır xan dövləti eposda göründüyü kimi, nə qədər zəif olsa da oğuzların uzun illər ərzində əldə etdiyi nailiyyət idi. Yeni elə köçmüş oğuzlar köçmənin ilk mərhələsində təbii ki, dövlət yarada bilməzdilər. Bunun üçün oğuzlar heç olmazsa bir neçə onilliklər ərzində yeni mühitdə məskunlaşma mərhələsi keçməli idilər. Ona görə də boyun yaranması dövlətin başlanğıc mərhələsi üçün daha səciyyəvi həyatı əhatə edir (1, s. 116-117). Boyda tarixi coğrafiya, eləcə də Qafqaz ərazisində dövlətini yaradan (bəlkə də daha qədim gövlətçiliyini bərpa edən) oğuz xanlığının ərazisi, qonşularla sərhədləri daha dürüst ifadə edilir. Bu ərazi bugünkü Azərbaycanın bütün ərazisi, Gürcüstan və Azərbaycanın geniş bir hissəsini əhatə edən coğrafi ərazidir. Oğuzların düşmənləri isə həmin ərazidə yayılan kafirlərdir. Onları oğuzlardan sərhədlər ayırırdı, bu sərhədlərdə keşikçilər dayanırdı. Əslində, boy bir sıra hadisələri mürəkkəb sxem halında özündə əks etdirir. Əmranı Gürcüstan sərhəddinə keşikçi qoyurlar, ona qılınc və at baxışlayırlar. Ancaq bir məclisdə Bayandır xandan inciyən Əmran evinə gəlir və arvadına gürcülər tərəfinə keçmək istədiyini bildirir (1, s. 118). Ancaq arvadı ona hirsini soyutmaq üçün ova çıxmağı məsləhət bilir. Ov isə Əmrana uğur gətirmir, o atdan yıxılır, ayağı sınır. Bundan xəbər tutan düşmən təkuru onu əsir götürmək istəyir. Ancaq yenidən burada atalar-oğullar süjeti təkrar edilir. Orta əsrin ənənəvi süjetlərindən, islami dəyərləri əks etdirən vasitələrdən bu boyda da istifadə güclüdür. Buradakı hadisələr göstərir ki, artıq oğuzlar islami dəyərlərə kifayət qədər yiyələnmişdi, ona görə də xalq içərisində Allaha və Məhəmməd peyğəmbərə etiqad güclüdür.

Boyda süjetin tərkibindəki ikinci süjet atalar-ogullarla bağlıdırsa, üçüncüsü Əmranın düşmənlə yeni mübarizə xəttidir. Burada eyni zamanda Avropa dastançılığının təsiri də özünü göstərir (2, s. 149). Boy oğuz həyatı üçün yeni bir ənənə olan sərhəd keşikçisi, onun daxili aləmi, həyatı və dünyagörüşü ilə bağlı düşüncələri daha tam şəkildə qoruyub saxlayır. Bütövlükdə isə tərəddüd etmədən onun Qafqaz mühitində baş verən yeni ənənələr, yeni statuslu vəzifələr barədə motivləri ifadə etdiyi aydın görünür. Bu isə özlüyündə onun Qafqaz coğrafi ərazisində yaranıb formalaşdığını əks etdirməkdədir. Boydakı toponiumların Azərbaycanla bağlılığı aydın nəzərə çarpır. Maraqlıdır ki, burada bir neçə yerdə Dərbənd toponiumuna rast gəlinir. Ümumilikdə Dərbənd toponiumu eposda bir neçə variantda işlənir. Əgər onlardan biri Dəmir qapı Dərbənddirsə, ikincisi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gürcüstan ərazisində qeydə alınmış eyni adlı toponiumdur. Üçüncüsü isə Kiçik Asiya coğrafiyasında təkrarlanan yer adıdır. Oğuzların coğrafiyasında onun bir toponim kimi götürülməsi, yaxud oğuzların köçdüyü, məskunlaşdığı ərazilərdə Dərbəndi vətən torpağı hesab edərək müxtəlif şəklə düşməsi adın çoxvariantlığı ilə bağlıdır (2, s.47).«Təvarixi cədid»in əsasında duran «Bəhr əl-ənsab» yeganə mənbədir ki, türklərin Qafqaza erkən gəlməsi tarixindən danışılır. Qalan qaynaqlar daha sonrakı tarixi, VII əsri göstərirlər. «Təvarixi cədid» qərbdə oğuzların islamı qəbul etməsi haqqında məlumat verir. Məhəmməd Məkkədə zühr edəndə o, Bayandır xanın yuxusuna girdi. Bayandır xan Qazan xanı, Dündar xanı və Əmən bəyi peyğəmbərin yanına göndərdi ki, oğuzların Allaha sadiq olduqlarını ona çatdırsınlar. Onların hamısının görkəmi qorxulu idi. Qırxılmamış uzun saqqalları, uzun dırnaqları vardı. Onları görən peyğəmbər qorxdu… O, kəlmeyi-şəhadət söylədi, oğuzlar onu təkrar etdilər. Sonra onlar Məhəmmədin əshablarından Salmani Farsinin müşayəti ilə Dəmir qapı Dərbəndə gəldilər və orada islamı yaymağa başladılar. Dədə Qorqud oğuzların epik şəxsiyyəti, onların şeyxi oldu. Əfsanə yeni deyil. Ondan şərqi oğuzlardan yazan çoxlu müəlliflər bəhs etmişlər. Bu əfsanəni bir az deyişik şəkildə mənşəcə kürd olan Şərəf xan Bitlisi də misal gətirir. O, Bükdüz Əməni kürd adlandırır və onu Bayandır xanın deyil, Oğuz xanın özünün səfiri hesab edir… Şərəf xan başqa farsdilli müəlliflərin, birinci növbədə Rəşidəddinin təsiri ilə Oğuzu ilk müsəlman göstərmək istəmişdir. Bunu sonluq da təsdiqləyir. Sonra Bayandır xan nəslindən Uzun Həsən Əcəmin padişahı oldu və bu ölkələrdə möhkəmlətdi» (2, s. 68-69).

Dərbəndin qərbi oğuzlara məxsusluğu tarixi faktdır, bir çox mühüm və mötəbər mənbələrdə təsdiqlənməkdədir. Bu barədə M.Kazım bəy özünün «Dərbəndnamə»sində də maraqlı məlumat verir ki, bir çox müəlliflər onu mötəbər mənbə hesab edirlər (2, s. 69). M.Kazımbəy Dərbəndlə bağlı ən qədim mənbələrə istinad edərək yazır ki, «…hicri 41 (661) ildə Əmavilər dövründə Dərbəndi tutan xəzərlər Azərbaycan ərazilərinə hücum edib, adamları qırır, var-yoxlarını talan edirdilər… Xəlifə Dərbəndə 4 min nəfərlik qoşun göndərdi. Onda xəzərlər Dərbənddəki Narın qalasını tərk edib yaxınlıqdakı Xəmin qalasında istekam qurdular Çin xaqanı 100 minlik ordu ilə Dərbəndi mühasirəyə götürdü. Səlman Rəbiyə Bəxilinin başçılığı ilə 40 müsəlman döyüşçüsü qəfildən hücum edib xaqan ordusunun 20 min nəfərini qırdı, qanlı döyüşdə özləri də şəhid ordular. Onları Dərbənd ətrafında bir yerdə dəfn elədilər, həmən yerə isə «Qırxlar» adı verdilər» (25, s. 78). M.Kazımbəy elə həmin əsərində göstərirdi ki, ərəblər şəhərdə qalalar salmış, «Qırxlar» qəbirstanlığı ərazisində də iri bir qala uçaltmış, qəbirstanlıq sahəsini isə hasara alıb üstündə yazmışdılar: «Müqəddəs Qırxlar qapısı» (25, s. 90-91). Deməк, Azərbaycanın şimal bölgəsinin son qütbündə yerləşən Dərbənd oğuzların Qafqaza köçüb gəldikləri ilk dövrlərdən onların vətəni olmuşdur. Dərbənd epik yaddaşda oğuzların strateji əhəmiyyətə malik mühüm məskunlarından olmuşdur. Bu ərazidən həm Gürcüstan, həm də Anadolu coğrafi regionlarında məskunlaşmağa başlayan oğuzlar Dərbənd toponiumunu özləri ilə Anadoluya, eləcə də Gürcüstan ərazisinə aparılmışdır. Ona görə də Gürcüstan ərazisində Dərbənd, Qara Dərbənd, və buna yaxın mənalarda nəzərə çarpan toponiumlardan tamamilə fərqlidir. Bəzən iddia edildiyi kimi, heç də düşmən kafirlər Dərbənd ərazisindən deyil, Gürcüstan ərazisindəki tez-tez kafirlər tərəfindən ələ keçirilən Qarvənd // Qara Dərbənddən söhbət gedir. Hər halda oğuz eposunun tarixi coğrafiyasındakı bu toponiumların yerinin dürüstləşdirilməsi, eyni, yaxud oxşar adlı toponiumların eposun strukturundakı yeri və mövqeyini mətnin ümumi kontekstindən çıxış edərək müəyyənləşdirmək daha doğru olardı (26, s.37). Bir daha epos mətninin tarixi coğrafiyasından bəhs edərkən xatırlatmaq lazımdır ki, «Dədə Qorqudun adı ilə bağlanan oğuznamələrdəki coğrafi mühit bir sıra məqamlarda qeyri-müəyyən olduğu kimi, eyni zamanda şərtidir. Çünki ozanlar oğuzların erkən məskunlaşma yerlərində, eləcə də Kiçik Asiya həyatı dövründə epik yaddaşda yaşatdıqlarını yeni məskunda, lap elə Qafqaz mühitində ozan repertuarına gətirərkən sinxron yaradıcılıq ənənələrinin çarpazlaşma prosesi getmişdir. Belə ki, ozanlar yeni improvizə prosesində oğuzların əski epik yaddaşında mövcud olan bütün düşüncə yaddaşını, - onun şəxs adı və toponim göstəricilərini, yer, dağ, çay, qala, səhər adlarını olduğu kimi yeni repertuarda canlandırmışdır. Bu isə nəticədə oğuz həyatının birinci dövr yaşayış tərzinin, ayrı-ayrı qəhrəmanların başına gələn döyüş əhvalatları və etnopsixoloji görüşlərin olduğu kimi yeni coğrafi mühitdə repertuar materialına çevrildiyini göstərir. Bu zaman improvizatorçu sənətkarın repertuarda oğuz həyatını əks etdirən silsilənin formalaşmasının vacibliyi diqqət mərkəzində olduğundan ifaçı özünə məlum üslubda epik ənənəni davam etdirir. Ona görə də boyların həm məzmununda, həm tarixi-xronoloji düzümündə, eləcə də orada iştirak edən qəhrəmanların spesifikasında birmənalı səslənməyən fakt və hadisələr diqqəti cəlb edir. Bu prosesə təsir göstərən ikinci məqam isə ümumilikdə bütün coğrafi məskunlara şifahi şəkildə gəlib çıxan oğuznamələrin Qafqaz coğrafi mühitindəki yaradıcılıq ənənələrinə uyğun yenidən işlənməsi ilə bağlıdır. Məsələn, bizə belə gəlir ki, daha qədim hesab edilən səkkizinci boy özü də yeni coğrafi mühitdə ozan repertuarında əsaslı rekonstruksiya prosesi keçmişdir. Bu isə yaddaşda yaşayıb gələn oğuznamələrin ozan repertuarında yeni təkamül mərhələsiydi. Epik yaddaşda bu və müxtəlif məzmunlu oğuznamələrin sayı qeyri-məhdud idi. Onlar içərisində mükəmməli də vardı, bir məqam məclis yekunlaşdırılanı da az deyildi. Qafqaz mühitindəki yeni ozan repertuarında bütün bu saysız-hesabsız oğuznamələrin milli repertuara qayıtması onların epik düşüncənin yaddaşı kimi yenidən işlənib cilalanmasına imkan verdi. Təsadüfi deyil ki, epik yaddaşda yeni repertuar həyatı keçən on iki boy məlum çoxsaylı oğuznamələr içərisindən seçilib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əlyazma mətninə daxil edilmişdir. «Dədə Qorqud» silsiləsini tərtib edən katib oğuzun məişət və etnik həyatını özündə cəmləşdirən müxtəlif coğrafi ərazilərin düşüncəsi olan, oğuzun bütün cəngavərlik və qəhrəmanlıqlarla dolu həyatını əks etdirən oğuznamələri bir topluya sıxışdıra bildi. Əlyazma mətninə daxil olan hər bir oğuznamə bir tərəfdən bütün oğuz həyatını əks etdirirsə, digər tərəfdən icmanın inkişafını, cəmiyyətin tərəqqiyə dövrü yüksəlişini, bu cəmiyyətdəki ziddiyyət və təbəddulatları təfərrüatı ilə ifadə edirdi.

Oğuz hekayətlərinin belə boylarından sonuncusu Qafqaz coğrafi ərazisində yaranıb formalaşmış onuncu boydur.

**X boy** – «Uşun Qoca oğlu Səqrəq boyın bəyan edər, xanım hey!..»dir (1, s. 110-115). Bu boydakı hadisələr nağıl süjetlərindəki Kiçik qardaş və onun şücaətləri motivi üzərində qurulmuşdur. Mənşə etibarı ilə oğuzlar içərisində Kiçik qardaşın xilaskarlıq funksiyası ilə bağlıdır. Boya bu motiv dünya eposundan gəlmişdir (3, s.47). Oğuzların qəhrəmanlıq həyatı üçün ənənəvi olan motiv dastan ənənəsinə uyğun yenidən işlənmişdir. Həm epik silsilə tələblərinə uyğun olaraq o, oğuz eli ilə bağlanmış, həm də kiçik qardaşın qəhrəmanlığı Uşun ağanın kiçik oğlu Segrək üzərində cəmləşmişdir. Eldə qəhrəmanlığı ilə şöhrətlənən Segrəkdən ata-anası böyük qardaşı Əgrəgin düşmən əsirliyində olmasını gizlədirlər. Ancaq bir təsadüf nəticəsində Səgrək bu məsələdən xəbər tutur, qardaşını azad etmək üçün düşmən üzərinə getmək istəyir. Amma hadisələr haçalaşır. Segrək evlənməli olur, ancaq evlənəndən sonra sevgilisi ilə gərdəyə girmir. Ondan üç il möhlət istəyir ki, gedib qardaşını xilas etsin, sonra gərdəyə girsin. Elə buradaca qeyd etmək lazımdır ki, boyda süjetin təhrifi vardır. Adətən türk eposunda qəhrəman toy edəndən sonra deyil, nişanlanandan sonra möhlət alıb düşmən üstə gedir. Amma burada Segrək sevgilisi ilə hətta arasına qılınc qoyub yatır. Bu isə türk məhəbbət eposunda qismən sonralar yaranmışdır (27, s.64). Həm də öz sevgilisi üçün gedən qəhrəmana mübarizəsinin hansısa mərhələsində (yolda, çətin məqamda, döyüş meydanında) ona kömək etmiş qadın qəhrəmanla epik qəhrəman arasında baş verən hadisənin zəif təkrarıdır. Cəngavər muradına hasil olduqdan (düşmənə qalib gəldikdən, butasına qovuşandan) sonra onun arxasınca gələcəyinə vəd verir. Epik qəhrəman bəzən bu vədinə əməl edir, bəzən də ilqarına vədə xilaf çıxır. Məsələn, «Şah İsmayıl» dastanında Şah İsmayıl Rəmdar Pəriyə və Ərəb Zəngiyə verdiyi vədə xilaf çıxmır, butasına qovuşduqdan sonra gəlib onları özü ilə aparır (28, s. ). Ancaq Bamsı Beyrək onu düşmən əsirliyindən azad edən Təkur qızının arxasınca gəlmir, öz qarğışı bəlkə də elə buna görə Beyrəyi tutur (1, s. 66-67). Onuncu boyda isə hadisə bir qədər başqa zəmində qoyulur. Segrək evlənəndən sonra qardaşının arxasınca gedir ki, bu da türk epik dastançılıq ənənəsinin təhrifidir.

Boyda «yuxuya getmə», döyüş meydanına doğma adamların çıxarılması, bir-birini tanımayan doğmaların (ata-oğulların, qardaşların və s.) qarşı-qarşıya qoyulması və döyüş meydanında onların bir-birini tanıması motivləri ifadə edilir. Burada da iki qardaşın bir-birinin üzərinə gedib özlərini didib-parçalamasından ləzzət alan düşmənin mənəvi dünyası önə çəkilir. Elə buradaca dünya eposundan gəlmə «qəhrəmanların döyüş meydanında bir-birini tanıması» motivi süjetə daxil edilir (1, s. 67). Boyun oğuzların yeni məkanında ozan repertuarında işlənməsi aydın nəzərə çarpır. Müşahidə göstərir ki, epik yaddaşda bu süjet əsasında daha geniş oğuznamə və ya oğuznamə silsiləsi olmuşdur. Bəlkə də təqdim edilən oğuznamə üç hissəli hekayətlər silsiləsi şəklində epik yaddaşda yaşamışdır. Ancaq süjet sonralar şifahi yaddaşda arxaikləşməyə başladıqca bir sıra epizodlar düşüncədən silinmişdir. Ozan repertuarı oğuzların Qafqaz mühitində silsiləni tamamlayarkən həmən boy da rekonstruksiyaya uğramış, əski süjetlər qismən sonrakı dövrün ənənələri ilə çarpazlaşmışdır. Hətta mətnə qardaşların çalıb-çağırdığı qopuz musiqi aləti əlavə edilmişdir. Döyüş epizoduna diqqət yetirək: düşməni qırıb əldən salan Segrək döyüş meydanında yuxuya gedir, ancaq heç biri cəsarət edib ona yaxınlaşa bilmir. Təkur zindandakı Əgrəgi öz qardaşını öldürmək üçün döyüş meydanına çıxardır (1, s. 113). Ozan burada dünya eposu üçün ənənəvi olan «döyüş meydanında doğmaların biri-birini tanıması» motivindən istifadə edir, qardaşlar bir-birlərini tanıyıb düşməni məğlub edirlər (1, s. 113-114). Oğuz eposunda bu elin epik yaddaşındakı milli-mənəvi dəyərlərini dastan yaradıcılığına gətirməklə onların tarixi qəhrəmanlıq ənənələrinin bərpası prosesi baş verir ki, bu da oğuzları düşmən üzərində qələbə çalmasına bir növ kömək edir.

Oğuzların epik yaddaşının onun məskunlaşdığı ilkin tarixi coğrafi məkanda formalaşıb başa çatdığı şəksizdir. Bir az da əvvələ getsək bu epik düşüncənin ayrı-ayrı modern formalarını qədim türk dastanlarında («Alp Ər Tonqa», «Oğuz xaqan», «Ərgənəkon» və b.) geniş epizodlarda görmək mümkündür. İbrətamizi odur ki, b.e. xeyli əvvəl formalaşma mərhələsi keçən milli epik yaddaş uzun tarixi zaman ərzində soluxub sıradan çıxmamışdır. Milli repertuarda daha da şaxələnmiş, genişlənmiş, məişət həyatının geniş çevrəsini əhatə etmişdir. Ozan yaradıcılığı dövrü milli detallardan başlayaraq oğuzların bütün cəngavərlik və alplıq həyatı, onların bir coğrafi məkana sığmayan məişət dünyası bütün inkişaf və tərəqqi qütblərində geniş bir spektr yaratdığı kimi, təzad və ziddiyyətlərin, əksliklərin də dolğun mənzərəsini ifadə edə bilmişdir. Yuxarıda adı çəkilən boylar kimi, onuncu boydakı toponimlər da son variantda onun Qafqaz tarixi-coğrafi regionunda ozan repertuarında, peşəkar ifaçılıqda yaşadığını nəzərə çarpdırır. Burada da həmin coğrafi əraziyə daxil olan yer adları xatırlanır. Onların bir çoxu müasir Azərbaycan ərazisindəki toponiumlarla üst-üstə düşür. Bu cəhətdən Göycə gölü, Əlincə qalası, Dərəşəm suyu, Alalar, Ağrubel və başqa adlar eposda tez-tez xatırlanır. Mətndən görünür ki, Əgrəqi dustaq edən əslində islamı qəbul etməyən kafirin ölkəsinə məxsus coğrafi məkanın özündə də qeyri-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müəyyənliklər yox deyildir. Xüsusilə Ala dağın, Şirakuzun, Qalın Oğuz elinin adlarının xatırlanması coğrafi qeyri-müəyyənliyi bir qədər də mürəkkəbləşdirir. Amma bu, bütövlükdə boyun Qafqazdan kənar mühitdə yaranma ehtimalını irəli çıxarmır. Oğuz elinin epik yaddaşında əski çağlardan döyüş meydanında doğmaların bir-birini tanıma motivi məlum olsa da ehtimal ki, onun müxtəlif söyləmə variantları da mövcud olmuşdur. Ancaq onun ozan repertuarında işlənməsi, həm də oğuznamə məzmunu üslubunda işlənməsi Qafqaz mühitinə məxsus epik yaradıcılıq ənənələri ilə bağlıdır. Oğuznamənin «Dədə Qorqud» hekayətləri silsiləsinə daxil edilməsinin ideyası isə çox işıqlıdır. Boyun mətnaltı məzmununda türk etnik qövmünə məxsus qəhrəmanların biri-birinə qılınc qaldırmaması, türkün türkü tanıyıb düşmənə qarşı birgə vuruşmağa çağırış motivi güclüdür.

Oğuz dastanları oğuzların tarixən yaranıb yayıldığı coğrafi ərazilər barədə müəyyən dərəcədə məlumat verdiyi kimi, eyni zamanda bu ərazilərin oğuz epik təfəkküründə türkün alplıq və cəngavərlik süjetlərinin yaranıb formalaşdığı tarixi-coğrafi məkan kimi əhəmiyyətini də önə çəkir. Bu isə oğuzlara məxsus motiv, süjet və obrazların törəmə spesifikası və ümumtürk eposuna səpələnməsi barədə bəzi mülahizələr söylənməyə imkan verir.

## ƏDƏBİYYAT

1. «Kitabi-Dədə Qorqud», tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir. Nüsxə fərqləri və şərhlərin müəllifi Samət Əlizadə, tarixi-coğrafi qeydlərin müəllifi Süleyman Əliyarov, redaktoru Elməddin Əlizadə, rəyçi Azad Nəbiyevdir.
2. Koroğlu X.H. Oğuz qəhrəmanlıq eposu, Bakı, 1999, 241 s.
3. Andreyev N.P. Ukazatel skazoçnıx syüjetov po sisteme. Aarne, 1929,356 s.
4. Homer Odisseya, M., 1935, s. 122.
5. Жирмунски В.М. Огузский героический епос и Книга Коркута, «Книга моего Деда Коркута». М.-Л., 1962, 567 с.
6. Kırzıoğlu M.F. Dede Korkut oğuznameleri, I kitab, İstanbul, 1952, 361 s.
7. Müseyibov M. «Kitabi-Dədə Qorqud»un coğrafiyası, Bakı, 2000, 29 s.
8. Y.Mahmudov. Orta əsrlərdə Azərbaycana gələn səyyahlar, Bakı, 1987, 142 s.
9. Гарбузова В.С. Сказанийе о Мелике Данешменди, М., 1959, 217 с.
10. Nəbiyeva Ü. «Kitabi-Dədə Qorqud» və folklor ənənələri, Bakı, 2003, 121 s.
11. F.Əlimirzəyeva. «Kitabi-Dədə Qorqud» alman mətbuatında, Bakı, 1989, 248 s.
12. Mindu C.S. Poluphemus und Tepeğaz. – Bülleten of the School of Oriental (and African) Studies (Universitu of London), 1956, VOL, XVII, s. 157.
13. Иностранцев К.А. Коркут в истории и леэенды. ЗВОПАО, XX, 1912, 328 с.
14. Nəbiyev A. Təpəgöz fenomeni haqqında. «Azərbaycan» qəzeti.
15. Şmide Ahmed. «Dede Korkut» alman dilində, «Türk edebiyyatı», 1967, 260 s.
16. Vatikan nüsxəsi, KDQ ensiklopediyası, I c., Bakı, 2000, s. 32-33.
17. Nəbiyev A. «Kitabi-Dədə Qorqud» həqiqətlərinin izi ilə, «Kitabi-Dədə Qorqud» - 1300», 1999, s. 147-159.
18. B.Abdulla. «Kitabi-Dədə Qorqud» və islam, Bakı, 1997.
19. «Dede Korkut Kitabı» I (giriş mətni), Ankara, 1958, s. 127.
20. Karsaklı (Kırzıoglı M.F.) İç oguz yahut Kasr Eli – «Doğuş dergisi», I, 1939, Tesrin.
21. Kırzıoğlu (Celik) M.F. «Dede Korkut Kitabındakı coğrafi isimlər», «Ülki» dergisi, 1941, Temmuz.
22. Ş.Cəmşidov. «Kitabi-Dədə Qorqud». Bakı, 1999, s.
23. Н.П.Андрейев. Указател сказочных сйужетов по системе Аарне, Л., 1979, 254 с.
24. V.M.Jirmunskiy. «Kitabi Korkut»i oguzskaya epiçeskaya traditsiya. – SV, 1998, N 4.
25. Dermend-name, bu Kazimbeq, Kazan, 1848, 363 s.
26. P.Xəlilov. «Kitabi-Dədə Qorqud» intibah abidəsi kimi, Bakı, 1999,
**27.** В.М.Жирмунски, Х.Т.Зарифов. Узбекский народный героический епос, М.-Л., 1947, 569 с.
**28.** Şah İsmayıl və Gülzar xanım» dastanı. «Azərbaycan» jurnalı, Bakı, 2006, N 5.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**OĞUZ MƏNŞƏLİ TOPONİMLƏR DİLİMİZİN TARİXİNİ YAŞADIR**

***Dos. Vaqif İsrafilov***
***ADPU***
***Azərbaycan***

Oğuzlar türk xalqlarının təşəkkülündə, inkişafında böyük rol oynamış ən güclü qollardandır. Ötən yüzilliklər Oğuz tayfalarının vətəni,xalqı,milli istiqlaliyyəti uğrunda mərdanə döyüşlərin şahidləridir. Oğuzların ucaltdığı tarixi abidələr dünyanı valeh etmişdir.

Oğuzlar həm də azərbaycanlıların əcdadıdır. XI əsrdən etibarən həm də türkmən adlandırılan Oğuzların Türkiyə (Anadolu) türkləri ilə Azərbaycan, İraq və Türkmənistan türklərinin əcdadları olduqları bəllidir. Səlcuq və Osmanlı xanədanlarının da onlardan yarandığını çıxdığını xatırlasaq, oğuzların dünya tarixində çox mühüm rol oynamış bir türk qovmü olduğu ortaya çıxır.

Oğuzlar Sır-Dərya sahillərində və onun şimalındakı bozqırlarda məskun olduqları vaxt onların ancaq bir qismi şəhərlərdə yaşayırdı. Onlar 1071-ci ildə Malazgird zəfəri ilə Anadolunu fəth edərək bu ölkədə oturaq həyata keçməyə başladılar. XIII əsrdən etibarən onlar şəhər və kəndlərdə məskunlaşmağa başlamışlar.

Oğuz toponimi dilimizdə həm antroponim, həm toponim, oykonim, həm də etnotoponim şəklində işlənməkdədir. «Oğuz» astionimi haqlı olaraq türkologiya qarşısında ən zəruri problemlərdən hesab olunur. A.N.Kononov bu məsələyə həsr edilmiş məqalələrin elmi biblioqrafiyasını, M.Seyidov onlardan bir qisminin elmi şərhini vermişdir. Həmin əsərdən bilmək olur ki, İ.N.Berezin «Oğuz» sözünün «Uğuz» fonetik variantını qəbul edir və onu «Oğuz»la (ilk südlə) əlaqələndirir. Q.Klansen, A.Şerbak, A.Liqeti, P.Pellis, O.Pritsaq və Y.Nemet «Oğuz»un kökünü «ox» («oq»)-la bağlayır. A.Liqeti «Uğuz» variantını qəbul edir və onun «uz» komponentini cəm şəkilçisi (u) «z» kimi izah edir. İ.Markvart «Oğuz»u «ox» və «uz» hissələrinə ayırıb «ox atan kişilər» kimi şərh edir. A.N.Kononov burada «uz-un «insan» yox, «mahir adam», «usta» mənasını daşıdığını bildirir. A.N.Bednştam «Oğuz»u öküz sözündən yarandığını bildirir, ona görə ki, «Öküz hunlarda totemdir». İ.Biqurin, M.Kazımbəy Oğuzu Hun, Şanyu knyazç, bəy ilə əlaqəli olduğu fikrinə tərəfdar çıxır. M.H.Təhmasib də «Oğuz»un «öküz»lə bağlılığına tərəfdar çıxır. S.P.Tolstov «Türk dillərində «Oğuz» sözünün «çay» və «öküz» mənalarında səsləndiyi fikrinə gəlir. Amu-Dərya çayının e.ə. V əsrdə okuz (göünür OKS) adlandığını yazır. Mahmud Qaşqarlıda «öküz» türk sözü olub, «Ceyhun və Fərat» kimi hər çaya verilən ad kimi qeyd edilib. Ş.Cəmşidov «Oğuz»un «tuz» şəklində «yumru», «dikyer», «təpə» mənasını daşıdığı fikrini söyləyir.

Şübhəsiz ki,bütün bunların «Oğuz» toponiminin etimologiyasının açımı ilə bu və ya digər dərəcədə bağlıdır. Lakin daha dəqiq və elmi fikir irəli sürmək üçün qədimləri araşdırmaq məqsədəuyğundur. Oğuzlar e.ə. V əsrdə təkcə Amu-Dərya çayının ətrafındamı yaşayıblar? M.Qaşqarlı yazır: «Türk ölkələrində olan bir çox sular (çaylar), dəyələr öküz adı ilə adlanır.Qeyd etdiyimiz müəlliflərin ümumi mülahizələrindən belə bir qənaətə gəlmək olur ki, «oğuz» sözünün ulu kökü «AKS»dır. Heredotda «Akes» kimi qeyd olunmuşdur. «Aks» sözünün qədim türk (Azərbaycan) dilində məşhur «9 oğuz»un birincisi, «oks» isə ikincisidir.

Oğuz onomastik vahidindəki «ox» komponentinin aşkar edilməsi də, Oğuzun yer, təpə, ərazi, şəhər adı daşıması da, qəbilə birləşməsinin adı olması da təbiidir, elmi və məntiqi baxımdan inandırıcıdır və əslində bunların məxsus olan toponimlər tarixən müxtəlif dövrlərdə meydana gəlmişdir. Məlumdur ki, həm qədim, həm də müasir toponimlər bilavasitə coğrafiya elmi ilə bağlıdır, lakin onların mənası dilçilik elminin köməyi ilə açılır və məhz bundan sonra həmin adlar tarixi tədqiqatlar üçün əlavə, bəzən də yeganə mötəbər mənbəyə çevrilir. Toponimləri coğrafi obyekt növləri üzrə öyrənmək elmi cəhətdən daha faydalıdır. Çünki Azərbaycanın coğrafi adlar xəritəsi olduqca zəngin və rəngarəngdir. Bu adların bəziləri peşə sənətkarlığını, bəziləri yer adları, bəziləri də bu və ya digər hadisə ilə əlaqədar nəsil və tayfa birləşmələrini bildirir.

Azərbaycan ərazisi də müxtəlif mənşəli toponimlərlə zəngindir. Onların araşdırılması təkcə forma və məzmun xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda xalqın qədim təsəvvürü, dünyagörüşü, məskunlaşması və s. barədə məlumat almağa da imkan yaradır. Azərbaycan ərazisində müxtəlifdilli toponimlərə də təsadüf edilir. Bəzən elə toponimlərə təsadüf etmək olur ki, onların mənşəcə hansı dilə aidliyini müəyyənləşdirmək çətinlik törədir. Belə toponimləri şərti olaraq iki qrupa bölmək olur. Birincisi, eyni köklü, bir-birinə yaxın , formaca da oxşar olan toponimlər**.** Məsələn**; Goran, Gorus, Gurgan (Qorqan), Goranboy** və s.

Bu sözlərin birinci komponentini təşkil edən gor sözü mənşəcə çox güman ki, türk dillərinə aiddir və qor sözünün ümumi semantikası ilə bağlanır. «G» səsinin «q» ilə əvəzlənməsi istər Azərbaycan dialektlərində, istərsə də qohum türk dillərində qanunauyğun haldır. Qeyd etmək lazımdır ki, q samiti



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ancaq alınma sözlərin tərkibində işlənərkən incə saitlərdən qabaq gələ bilər: qüllə, qütb və s. Məsələn, gir, gur kimi formaların qir, qüd variantı yoxdur. **Goranboy** və s. kimi toponimlərin tərkib komponenti olan gor ilə qor leksemlərinin etimoloji əlaqəsindən bəhs edərkən bir məsələni də qeyd etmək lazımdır ki, qədim yazılı abidələrdə qor sözü əks olunmamışdır. Lakin od sözünə təsadüf olunur. Məs.; Turgin xan Süsi Bolçuda otcaborca gəlti (Turgin xanın qoşunu Bolçuya od kimi, boran kimi gəldi). Bəzən aşıq şeirində də bu sözə (qor-a) təsadüf etmək olur.

Əl uzatma köhnə ocaq yerinə,
Bilməzsən, sönməmiş **qor** olar onda.
(A.Hüseyn)

Dialektlərdə qor sözünün fonetik variantı olan gor sözü zəif yanan mənasında işlədilir. Məsələn, ocaq gorun-gorun yanır.

**Qor** sözünün işıq, od məzmunu ifadə etməsini folkloruiuzdan alınan məlumatlar da təsdiq edir. Məşhur Dədə Qorqud adının da ilk komponenti qor sözündən ibarətdir. Qorqud sözünün ikinci komponenti qud sözüdür.

Qud//qut sözü qədim yazılı mənbələrdə daha ətraflı təsvir olunaraq xoşbəxtlik mənasında işlənmişdir. M.Qaşqarlının «Divani-lüğət-it-türk», R.Radlovun «Opıt slovarya tyürkskix nareçiy», «Drevnetörkskiy slovar» və başqa lüğətlərdə də bu sözə təsadüf edirik. Yusif Balasaqunlunun «Qutadqu-bilik» əsərinin adında da bu söz mühafizə edilir.

Goran sözünü təşkil edən gor hissəsi qor formasının fonetik variantıdır. Bir məsələni də qeyd etmək istərdik ki, işıq, od mənasındakı qor kökündən semantik diferensiasiya cəhətdən müxtəlif məzmun kəsb edən başqa sözlər də yarana bilər.

Türk dillərinə aid qədim lüğətlərdə, yazılı mənbələrdə gor sözünə təsadüf edilmir. Deməli, qor sözü ilə bağlı olan gor sözü türkdilli xalqlarda sonralar, yəni Zərdüştlük dininə etiqad edən xalqlarda mədəni və iqtisadi əlaqələrlə bağlı yaranmışdır. Qor sözünə od mənasında əfqan, İran, hind və s. xalqların dillərində təsadüf etmirik. Lakin gor sözü bu dillərin bəzilərində qəbir, məzar mənasında başqa sözlərlə birlikdə işlədilir. Məsələn, fars dilində durəd – qur – qəbir, gor, əfqan dilində durəy qur məzar və s. sözlərlə eyni məna ifadə edir.

Türk dillərində gor sözü qəbir, məzar sözlərinə nisbətən daha çox işlədilir. Bu sözə tuva dilində xoor, uyğur dilində qor, qaraçay-balkar dilində gör və s. formalarda rast gəlirik. Rənglə bağlı olaraq daş apelyativli mürəkkəb onomastik vahidlərin üslubi linqvistik xüsusiyyətlərinə nəzər yetirsək **Qaradaş** oykoniminin yayılma arealları da qismən zəngindir. Qaradaş adlı yaşayış məntəqələri Azərbaycanın Tovuz rayonunda, Gürcüstanın Borçalı mahalının Bolus rayonunda oykonim Qaradaş (Qaraçöplü), Qərbi Azərbaycanın Karvansaray (İcevan) rayonlarında qeyd olunmuşdur. Dağlıq Altay ərazisində də Qaradaş adlı yaşayış məntəqəsi tədqiqatçıların diqqətini cəlb etmişdir (Molçanova O.T. Strukturnıe tipa tyurkskix toponimov Qornoqo Altaya. Saratov, 1982, s.197). Qeyd etmək lazımdır ki, respublikamızın Laçın, Tovuz, Lerik rayonlarında Qaradaş adlı oronimlər də mövcuddur. Bu onomastik vahidlərin hamısında «qara» rəng anlamında izah olunsa daha dəqiq fikir söylənmiş olardı.

Oğuzların, eləcə də türkmənlərin yazılı abidələrində bir neçə türkmən tayfalarının adı çəkilir ki, onlardan karluq, yazır, xalac, salar və qardaşlıları misal göstərmək olar. Bu tayfalar türkmən xalqının etnogenezində fəal iştirak etmişlər. Bizim araşdırmaya cəlb etdiyimiz Qaradaş onomastik vahidinin heç birinin etnonimlə əlaqəsi yoxdur. Araşdırılan oykonim və oronimlərdə «qara» rəng anlamını ifadə edir. Türkmənlərin formalaşmasında iştirak etmiş «qaradaşlı» tayfa adı nəinki türkmən, eləcə də oğuzlar üçün və onların dil tarixlərini öyrənmək baxımından qiymətli tarixi faktlardır.

Oğuz yarımqrupu türk dillərinə məxsus olan toponimlərin müəyyən hissəsinə Orxon-Yenisey abidələrində də rast gəlirik. Ötükən yış, Şandun çölü, İnciçay, Çuqay yış, Tun çölü, Kadırxan meşəsi,Yaşıl çay, Kökmen, Qaraqum, Bolçu, Arkuy, Altun qır və s. qeyd edilmişdir ki, bu toponimlərin araşdırılmasına dair fikir irəli sürülsə, əlbəttə bu toponimlər tam və əhatəli şəkildə linqvistik cəhətdən aydınlaşar və tədqiqatçılar daha maraqlı fikir söyləmiş olarlar.

Abidələrdə bir neçə dəfə Cuğay və Çuqay-quz toponimlərin adı çəkilir.

*KOYLASAR* – (Koylasar). Bu toponim haqqında «SMOMPK»da belə bir qeyd vardır. Koylasar toponimi İrəvan qəzasının Qarnibasar sahəsində yerləşir. Kənd adının mənşəyi barədə müxtəlif fikirlər, müxtəlif fərziyyələr mövcuddur. Bəzi yaşlı sakinlərin dediyinə görə kəndin adı Koylasar yox, Koyula-sardır. Axırıncı sözün iki hissədən kola – qoyula – sar – baş, yəni «başlanğıc qoyula» sözündən ibarət olduğu göstərilir. Daha sonra adın mənşəyi aşağıdakı şəkildə izah edilməyə cəhd göstərilir, Koyla-sar əvvəllər Kolaasar adlandırılmışdır ki, bu da qala hasarı deməkdir. Həqiqətən də keçmişdə və indinin özündə də həmin kənddə hasarla əhatə olunmuş böyük meydan vardır. Kürdlər farsların basqınından qorunmaq üçün bu hasarın içindəki meydana toplaşarmış. Bu sözün yazılışı və izahı barədə başqa bir fikrə də rast gəlirik. Orada qeyd olunur ki, həmin kəndin adı Kuylasar formasında olmuşdur. Mənaca


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«basdırılmış baş» və yaxud «başı basdırılmış» deməkdir. Kəndə belə adın verilməsi yerli şəraitlə əlaqələndirilir. Qeyd olunur ki, burada kənd salınarkən çoxlu bataqlıq var imiş. Daha sonra yuxarıda qeyd olunan mülahizələr qruplaşdırılaraq ikinci izahın daha doğru olduğu, yəni «qala hasarı» kimi qeyd edilir və göstərilir ki, bu kənd burada çoxdan mövcud olmuşdur. Farslardan qabaq həmin kənd və eləcə də bir sıra başqa kəndlər var imiş. Sonra həmin kəndin daha qədim olduğunu sübut etmək üçün orada tatarların (azərbaycanlıların) qəbiristanlığını şahid tuturlar. Farslardan qabaq orada tatarların (azərbaycanlıların) yaşamaları faktlarla təsdiq olunur və qeyd edilir ki, həqiqətən də həmin kənddə Rus-İran müharibəsinə qədər (1827) tatarlar yaşamışlar. Müharibə zamanı ruslar İrana daxil olarkən 100 evə qədər ailə (aysorilər) Rusiyanın kənarlarına köçürmələrini xahiş etdilər. Onlar Rusiyanın kənarlarına köçürüldü. 30-cu illərdə onlar həmişəlik olaraq orada yaşamaq üçün icazə aldılar. Çünki farslar aysoriləri çox incidirdilər. Bu sözün komponentləri barədə dəqiq fikir deyə bilməsək də təxmini mülahizə yürütmək mümkündür.

Söz: goy-goy və sar hissələrindən ibarətdir. Burada olan –la ünsürü və yaxud şəkilçinin də semantik cəhətdən dəyişikliyə uğramışdır.

Sar komponentində vəziyyət başqa cürdür. Sözün tam forması sar, sor şəklində olmalıdır. Buraya sor ünsürü çox güman ki, şəkilçi kimi çıxış edir. Fikrimizi bir qədər dəqiqləşdirmək üçün prof.T.Hacıyevin «Azərbaycan filologiyası məsələləri» toplusunda çap etdirdiyi «Azərbaycanın qədim onomastikasına dair» adlı məqaləsindən oxuyuruq. O yazır: «Axşar /Aksar sözlərinin komponentləri «Ax+şer» hissələrindən ibarətdir. Birinci hissə böyük mənasında ağ sözüdür. İkincisi çoxaltma bildirən, ikişər sayında qalın qədim şəkilçidir. –ullu (daha ulu, lap ulu) mənasına uyğundur. Qədimdə yüksək mənalı sözlərlə adlandırmanın yayılmış olması məlumdur. Şəkilçinin –şər, -ser variantları isə türk dillərindəki ş-s səs uyğunluğunun nəticəsidir. Burada da çox güman ki, kolasar sözündəki –sar, sər, ser formasında olub, yüksəklik, ucalıq, böyüklük bildirir. Həmin söz bütövlükdə şərti də olsa, yüksəklikdə olan baş yaylaq, böyük yer, böyük yaylaq mənasını bildirir.

Oğuz qrupuna məxsus toponimlərdən danışarkən qeyd etmək lazımdır ki, bu toponimlərin paralellərini bütün türkdilli xalqların materiallarında axtarmaq lazımdır. Maraqlı toponimlərdən biri də **Gorusdur.**

Gorus – burada sözün ikinci komponentiini təşkil edən şəkilçinin daha çox izaha ehtiyacı vardır. Şəkilçi hissəsi –us formasından ibarətdir ki, ədəbi dildə, yaxud dialektlərdə belə fonetik tərkibə malik şəkilçi işlədilmir. Gorus adlanan ərazidə əhalinin müəyyən hissəsini vaxtilə ermənilər təşkil etdiyi üçün (hal-hazırda 1990-cı ildən etibarən azərbaycanlılar oradan tam köçürülmüş və əhalinin hamısı ermənilərdir) bəzən yer adlarını tədqiq edənlər –us/-as şəkilçisini, Dırnıs, Nüsnüs adlarındakı (Naxçıvan ərazisində) –**nıs** formasını müstəqil söz, bəzən də bu formaların hamısını Azərbaycan dilinə məxsus qeyri-məhsuldar şəkilçi hesab etmişlər. Qeyd etməliyik ki, sözün kor hissəsini Azərbaycan dilinə məxsus hesab etmək tam yanlışdır. İkincisi Gorus sözündə –us, Dırnıs, Nüsnüs sözlərində –nıs forması mühafizə olunur və bunları qarışdırmaq olmaz. Dır və nüs sözləri Azərbaycan mənşəli olmadığı üçün –nıs formasının da bu dilə aidiyyəti haqqında qəti fikir söyləmək mümkün deyildir. Beləliklə də Dırnıs, Nüsnüs sözlərində Gorus sözünə bəzi oxşarlıq olsa da, bunlar mənşəcə müxtəlifdir.

Gorus sözünün ilk komponentini türk mənşəli hesab etdiyimiz üçün –us formasını da qanuni olaraq türk dilləri materiallarında axtarmalıyıq.

Müasir Azərbaycan dilində –ıs şəkilçisi işlədilmir. Yalnız daşlaşmış formada bu şəkilçiyə sözlə birlikdə rast gəlmək mümkündür. Dilimizdəki kökús sözündə –ıs şəkilçisi mühafizə edilmişdir. Bu söz qədim türk dilində kökús və köküz kimi işlədilmişdir. –ıs forması yalnız –ız yox, həm də –ış şəkilçisi ilə paralel olaraq işlənmişdir. Orxon-Yenisey yazılarında gümüş sözünə həm də gümüs şəklində təsadüf olunur. Bir sıra türk dillərində işlədilən kumıs sözü də bu şəkilçi ilə düzəlmişdir. Ümumiyyətlə, bu şəkilçi fel sonuna qoşqulan –aş şəkilçisi ilə paralel variant təşkil etmişdir, gülüs-gümüş, Orxon-Yenisey abidələrində ş < s (əvəzlənməsinə) təkcə –ası şəkilçisində yox, həm də –mış şəkilçisində təsadüf olunur. Port budunuğ yığmıs, yaymıs, kısmıs. Bu da göstərir ki, Orxon-Yeni sey kitabələrinin dilində oğuz layı güclü olsa da, orada artıq o zaman qədim qıpçaq elementləri və qıpçaq dillərinə məxsus leksik-morfoloji xüsusiyyətlər də var idi.

Gor sözünün fellə əlaqədar olduğunu (qızarmaq) nəzərə alaraq –us şəkilçisinin müasir dilimizdəki –ış şəkilçisinə tarixən paralel və variant olduğu qənaətinə gəlirik. Gorus sözünün tam məzmununu bərpa etdikdə isə bunun vaxtilə qızaran, qızarışan mənasında olduğu haqqında fikir yürütmək imkanı əldə edirik. Zaman keçdikcə, atəşpərəstlik sıxışdırılıb aradan qaldırıldıqca sözün ilkin nominativ mənası da unudulmuş, müəyyənləşdirilməsi geniş axtarışlar , tədqiqatlar tələb edən formaya düşmüşdür. Bütün bunlara görə ilk mənanın bərpa edilməsində bir sıra çətinliklər meydana çıxmışdır və müxtəlif fərziyyələr söylənilmişdir. Hər halda belə sözlərin mənşəyinin müəyyənləşdirilməsi ilə xalqın qədim


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

keçmişi haqqında müəyyən təsəvvür yaratmaq bir sıra tarixi faktların dəqiqləşdirilməsi cəhətdən faydalı və maraqlıdır.

Beləliklə, hər hansı bir ərazidə toponimik adların etimoloji forma və məzmununun araşdırılması, onların ilkin (qədim) tiplərinin müəyyənləşdirilməsi olduqca çətin bir üslubi-elmi linqvistik prosesdir və həmin ərazidə yaşayan xalqların tarixi etnik ünsiyyətləri, dini mənsubiyyəti, mifologiyası və s. ilə sıx əlaqədardır. Yuxarıda adları çəkilən toponimlərin tədqiqi göstərir ki, tarixən qədim toponimlərin mənşəcə hansı dilə məxsusluğu, quruluşca parçalanması, ayrı-ayrı komponentlərin məzmunca açılması və eləcə də həmin komponentlərin tarixi inkişaf prosesində uğradıqları forma semantik dəyişmələrin öyrənilməsi tədqiqatçıdan xüsusi diqqət tələb edir. Çünki, əksər hallarda müəyyən bir ərazidə, qonşuluqda yaşayan ayrı-ayrı xalqlara məxsus müxtəlif sistemli dillərdə işlədilən formaca eyni komponentlərin (sözdüzəldici və sözdəyişdirici şəkilçilərin olması – məs.; türk və fars dillərində olan –an şəkilçiləri, türk mənşəli –üs elementi ilə erməni mənşəli –üs komponenti və s.) eyni bir toponimik etimologiyaca müxtəlif tərzdə izah edilməsinə gətirib çıxarır. Heç şübhəsiz ki, belə hallarda tədqiqatçı öyrənilən komponentlərlə əlaqədar olan leksik-semantik prosesləri bütövlükdə nəzərə almalı (məs.: r < z uyğunluğunda olduğu kimi), dillərin daxili qanunauyğunluqlarını əsas götürməli (məsələn, şəkilçiləri ancaq eyni mənşəli köklərə əlavə oluna bilməsi) və eləcə də müəyyən çərçivə daxilində bu və ya başqa dildə danışan xalqın tarixi, dini, mifoloji xüsusiyyətlərini, adət və ənənələrini nəzərə almalıdır. Yalnız dəqiq dilçilik təhlili və tarixi-etnoqrafik məlumatların vəhdətdə götürülməsi toponimik adların mənşəcə düzgün dəqiqləşdirilib müəyyənləşdirilməsinə gətirib çıxara bilər.

Oğuz qrupu türk dillərinə məxsus olan toponimlər demək olar ki, bütün Qafqaz ərazilərini əhatə etmişdir. Qədim gürcü yazılı mənbələrindən biri olan «Maksevan Karttlisa»da (VIII əsr) yazılır ki, eramızdan əvvəl IV əsrin 30-cu illərində Makedoniyalı İskəndərin İrana və Cənubi Zaqafqaziyaya yürüşləri zamanı Gürcüstan ərazisində Kür çayı sahilində buntürklər (qədim türklər) yaşayırmış. Tarixi sənədlərin verdiyi məlumata görə, « Qarapapaqlar miladdan öncə bu torpaqlara həyat gətirmiş, tarixdə oğuz, qıpçaq, yerük adlarıyla Doğu Anadolunun da sahibləri olaraq tanınmışdır.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

**1.**AOR. Bakı, ADPU. 1986-2006, Konfrans materialları.
2.R.Yüzbaşov, K.Əliyev, Ş.Sədiyev. Azərbaycanın coğrafi adları. Bakı, 1972.

*Rus dilində*

3.Русско-афганской словар. М., 1959.
4.Русско-тувинский словар. М., 1953.
5.Русско-уйгуркий словар. М., 1956.
6.Русско-карачаево-балкарский словар. М., 1965.
7.Древнетйуркский словар. Л., 1969.
8.Молчанова О.Г. Структурного типа тйуркских топонима.
9. Горного Алтайа. Саратов, 1982.

## RESUME

**Oguz origin toponyms immartalzes our language history**

The article is about the history of the toponims. Those toponims reflect the history of «Oguz» tribes. The Oguz, Gurgan, Koylasar, Qaradash are the vivid history of our nation. The ethymology of these toponims prove that the history is never forgotten, toponims reflect the truth.

## РЕЗЮМЕ

**Топонимы огузских источников увековечивают историю нашего языка.**

Эти топонимы увековечивают историю огузских племен. Горусские, Гурганские, Койласарские, Гарадашские топонимы являются живой историей нашего народа. Этимология этих топонимов еще раз доказывает тоб что история никогда не забывается, а топонимы увековечивают истину.

В статье доказаны топонимы отражающие истину нашего языка.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## AZƏRBAYCAN FOLKLORU VƏ QƏDİM SƏNƏT NÜMUNƏLƏRİNDƏKİ MARAL OBRAZININ MİFOLOJİ XÜSUSİYYƏTLƏRİ

*T.e.d.Vəli Baxşəliyev*
*AMEA Naxçıvan Bölməsi*
*Azərbaycan*

Azərbaycanın qədim sənət nümunələrində, o cümlədən Naxçıvanın Tunc dövrü abidələrindən aşkar olunan keramika məmulatı üzərində və Gəmiqayada müəyyən yer tutan təsvirlərin bir qrupu Maral rəsmlərindən ibarətdirdir. Qədim sənət nümunələrindəki Maral obrazının semantik məzmununun açılması onun etnoqrafik və folklor materialları ilə müqayisəli şəkildə tədqiq edilməsini tələb edir.

Gəmiqayada yuxarıya doğru qalxan, qoşa şaxələnmiş buynuzları olan maral rəsmləri olduqca realist üslubda təsviri ilə fərqlənirlər. Onlar bəzən tək, bəzən isə qrup halında təsvir edilmişdir. Gəmiqaya təsvirlərindəki maral rəsmləri ikonoqrafik baxımdan olduqca müxtəlif olmaqla bir-birindən fərqlənirlər. Maral təsvirlərinə həmçinin Orta Tunc dövrünə aid boyalı qablar üzərində də rastlanır. Ümumiyyətlə, maral rəsmləri Yaxın Şərq və Cənubi Qafqazda yayılan Boyalı qablar mədəniyyətinin geniş yayılmış motivlərindəndir. Ərzurum, Qaziantep muzeyində saxlanan boyalı qablar üzərində, Sarıveli yaşayış yerinin keramika məmulatında (2, s. 212, resm 50), Naxçıvanda Yaycı nekropolundan aşkar olunan boyalı küpənin üzərində (3, c. 238), Göytəpə yaşayış yerindən aşkar olunan keramika məmulatında və digər sənət nümunələri üzərində bu tip maral təsvirinə rast gəlinir. Göycə gölü ətrafında aşkar olunan boyalı küpələrdən birinin üzərində dinamik hərəkət vəziyyətində olan maral sürüsü təsvir edilmişdir (7, c. 114). Bu tip boyalı qablar Orta Tunc dövrünün erkən və inkişaf etmiş mərhələsi üçün xarakterik olub e. ə. III-II minilliklərə aid edilir (4, s. 58-60). Arxeoloji araşdırmalar zamanı yaşayış yerlərindən xeyli miqdarda maral sümükləri, maral sümüklərindən hazırlanmış əmək alətləri də aşkar olunmuşdur (3, c. 155). Bu tapıntılar maralın qədim insanların həyatında və təsərrüfatında müəyyən yer tutduğunu göstərir. Boyalı qablar üzərində və Gəmiqayada təsvir edilən maral rəsmləri şübhəsiz ki, qədim insanların inancları ilə bağlı olmuşdur. Bu inanclar Azərbaycan folklorunda geniş şəkildə əks olunmuşdur. Azərbaycan ərazisində "Maral dağı", "Maral qayası", "Maral bulaq", "Maral göl" adlı toponimlərin olması da bu inanclarla bağlıdır (1, s. 77-80).

Azərbaycan folklorunda maral insanların iqtisadi həyatında müəyyən rol oynayan kosmik varlıqdır. Maralın funksiyasını aydınlaşdırmaq üçün bir neçə folklor nümunəsinə nəzər salsaq daha məqsədəuyğun olar. Əfsanəyə görə, Niqoy dağının ətəyində şəfalı bulaq var imiş… Qocanın arvadı eltilərlə bulağa suya gedərmiş… Bir gün qoca arvadını izləməyə başlayır. Görür ki, üç elti su götürüb qayıtdı, onun arvadı isə orada qaldı. Göydən mal-qara, maral sürüləri gəlir. Arvadı adamlarla yuxa yaymağa, halva çalmağa başlayır. Birdən arvad görür ki, əri ağacın dibində onları pusur. Arvad onu gördükdən sonra marala dönüb qeybə çəkilir (1, s. 64-65). Göründüyü kimi, burada maral mifoloji varlıqların əhatəsində təsvir edilmişdir. Mətndə su bulaqla, meşə isə ağacla kodlaşdırılmışdır. Su və meşə türk mifologiyasında xaotik başlanğıcdır, o biri dünyanı təmsil edir. O biri dünya təmsilçilərinin xətərindən qorunmaq üçün insanlar qurban kəsər, müxtəlif mərasimlər icra edərdilər. V.A.Qordlevskinin verdiyi məlumata görə, Qaraqoyunlular müqəddəs ağacın şərəfinə qurban kəsər, qurbanlıq heyvanın sümüklərini isə meşədə basdırarmışlar (6, c. 5-13). Heyvan sümüklərinin meşədə basdırılması sakral anlamda qurban verilməsi mənasında olub, bu dünyadakı insanların həyatını təmin etməli idi. Buna bənzər inanclar digər xalqlarda da olmuşdur (10, c. 41). Suyun xaotik başlanğıc olması ilə bağlı Azərbaycan folklorunda yetərli dəlillər vardır. Aydındır ki, qadının suya, yaxud meşəyə getməsi onun o biri dünyaya getməsi kimi verilmişdir. Mal-qara və maral sürülərinin qeybdən yenməsi bərəkətin Tanrı tərəfindən verildiyini göstərir. Amma bu bərəkət yerin altındadır, o biri dünyadadır. Bu bərəkəti insanlara çatdıran maral-qadındır. Deməli, Maral Göy aləmi ilə də bağlıdır. O, Göy aləmi, insanların yaşadığı mədəni məkan və o biri dünya arasında vasitəçidir-mediatordur. Sibir türklərinin mifologiyasında maral obrazı kosmik dünyanın hər üç qatı ilə bağlıdır (8, c. 45-46). Burada həm də nəhəng maralın Yeraltı dünyada çayın qabağını kəsməsi epizodu saxlanmışdır (8, c. 36).

Araşdırmalar göstərir ki, mifoloji dünyagörüş qədim cəmiyyətlərin idarə edilməsində mühüm rol oynamışdır. Bu dünyagörüşə uyğun olaraq insanlar müəyyən qaydalara, o cümlədən yasaqlara əməl etməli olmuşlar. Tabunun pozulması ictimai həyatdakı sabitliyin pozulması ilə nəticələndiyi üçün cəmiyyətdə təqdir edilməmişdir. Göstərilən nümunədə də yasaq pozulduğu üçün Maral Göyə çəkilir. Ehtimal ki, xalq arasında olan «arvadı güdməzlər» ifadəsi bu inanclarla bağlı olaraq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaranmışdır. Maral Göyə çəkilməzdən əvvəl kişiyə ocaqdan bir ovuc kül verir ki, apar onu saxla. Bu, ocaq olub səni dolandıracaq. Kişi külü evin yanına tökür və həmin yer ocağa çevrilir və kişini dolandırır. Digər bir əfsanəyə görə, qadın gecələr evdən çıxıb gedərmiş. Burada gecə, qaranlıq o biri dünyanın əvəzedicisi kimi verilmişdir. Arvad kişinin onu pusduğunu gördükdə marala dönərək maral sürüsünə qoşulub gedir. Kişi öldükdən sonra onun qəbri üzərində günbəz tikirlər. Maral gəlib günbəzi ziyarət edərmiş. Rəvayətə görə, maral son günlərini günbəzin yanında keçirmiş və orada ölmüşdür (1, s. 64). Bizcə, yuxarıda deyilənlər Şərq mədəniyyətində və Azərbaycanda maral obrazına üstünlük verilməsinin səbəbini göstərir. Lakin Maral obrazının digər aspektlərini araşdırmaq və onunla bağlı məsələlərə aydınlıq gətirmək üçün bir nümunəyə də nəzər salmaq lazımdır.

Əfsanələrdən birində deyilir ki, bir gün ovçular dağın zirvəsində məskən salan iribuynuzlu ana Maralı ovlamaq istəyirlər. Ovçular bütün dağı dövrəyə alırlar, lakin marala yaxınlaşdıqlarında Maral quş kimi atılaraq uçur və əldən çıxır (1, s. 61-62). Bu mifoloji rəvayət Altay türklərində saxlanmış üç maral əfsanəsi ilə yaxından səsləşir. Q.N.Potaninin topladığı materiallara görə (9, c. 124), Bahadır Matır tərəfindən qovulan üç maral bütün yer üzünü dolaşır. Heç yerdə sığınacaq tapa bilməyən marallar göyə çəkilirlər. Bahadır onların arxasınca göyə qalxır, atını şərqdə qoyur və onların ardınca iki dəfə ox atır. Oxların biri ağ, digəri isə qırmızı ulduz olur. Axırıncı ox maralları deşib keçdiyinə və qana boyandığına görə qırmızı olmuşdur. Altay türkləri indi də Maral bürcünü üç mıyqak, tuvalılar isə üç maral adlandırır. Hazırda Mərkəzi Asiya və Altay xalqları Maral bürcünü üç parlaq ulduz kimi təsəvvür edirlər (8, c. 45). Gəmiqaya rəsmlərində rastlanan üç parlaq oval işarələrin (5, s. 57-58) maral bürcü ilə bağlı olma ehtimalı vardır. Lakin bu rəsmlər nəşr edilmədiyindən onlar haqqında dəqiq fikir yürütmək mümkün deyil.

Belə nəticəyə gəlmək olar ki, qədim sənət nümunələrində təsvir edilən Maral rəsmləri insanların məhsuldarlıqla bağlı inanclarını əks etdirmişdir. Araşdırmalara əsasən demək olar ki, istehsal təsərrüfatı formalaşdıqdan sonra da qədim insanlar məhsulun bolluğunu təmin edən təbiətdən və heyvanlardan müəyyən dərəcədə asılı olmuşdur. Məhsuldarlığın təmin edilməsi ilə bağlı icra olunan mərasimlər onların gündəlik həyatının ayrılmaz hissəsi olmuşdur. Azərbaycan folklorunun nəzərdən keçirdiyimiz nümunələrində (1, s. 61-65) qadın şəklinə düşən Maral insanla evləndikdən sonra o biri dünyadan müəyyən məhsullar gətirərək insanların həyatını təmin edir. Hətta yuxarıda göstərilən nümunədə evlilik pozulduqdan sonra Maral ərinə bir ovuc kül verir. Bu kül ocağa çevrilib onları dolandırır (1, s. 65).

Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının mifologiyasında maralın qoruyucu xüsusiyyətləri də vardır. Ana Maral südü ilə ağır xəstələnmiş ər və arvadı sağaldaraq onları xilas edir. Ər və arvad öldükdən sonra «onları aparıb bir dağın başında basdırırlar. Hər gün ana Maral bu dağın başına çıxar, məzarların başına dolanıb gedərmiş» (1, s. 61). Ana Maral obrazı Sibir xalqlarının da mifologiyasında qorunub saxlanmışdır (11, s. 18). Sibir xalqlarında Ana Maral ovçuluqla bağlı mifləri əks etdirir. Maral məhsuldarlığın, ovun uğurlu olmasının əsas təminatçısıdır. Bir çox Sibir xalqlarında hər bir ərazinin öz hami ruhu vadır. Bu hami ruhlar bəzən maral, bəzən isə maral başlı insan obrazında, təsvir edilir. Bu, xüsusilə maralçılıqla məşğul olan xalqlar arasında geniş yayılmışdır. Sibir xalqlarının yaradılış miflərindən birində deyilir: «çayın üzərindəki uçurumdan iki torpaq parçası qopub düşdü. Bu parçalar insana çevrildi. Biri çay boyunca yuxarı getdi... Burada insan altıncı möcüzəni yaratdı, yay düzətdi. O, yayla vəhşi maralları gözləməyə başladı...»(11, s. 17).

Sibir xalqlarının mifologiyasında saxlanan maraqlı süjetlərdən biri maralın həyat ağacı ilə eyniləşdirilməsidir. Sibir xalqlarının inancına görə, Torpaqdan törəyən üç mühüm yaradıcı başlanğıcdan biri ağacdır. İnsanlar ağacdan yeddi möcüzə, girşə və qab-qacaq hazırlamışlar(11, s. 24). Sibir xalqlarının ziyarətgahlarına gətirilən nəzirlər Maral buynuzları ilə yanaşı qoyulurdu. Bu Torpaq, Ağac və Torpağın uşaqları- vəhşi şimal maralları ilə bağlı inancların bir-biri ilə əlaqəli olmasının göstəricisidir (11, s. 25). Sibirdə yaşayan nqanasan tayfası arasında saxlanan rəvayətdə Ağacla Maralın bağlılığı aydın şəkildə ifadə olunmuşdur: «nqanasan girşəyə maral əvəzinə ağac kötüyü qoşur və o, girşəni obaya qədər aparır». Kötüklərin bir qismindən insanlar amulet olaraq istifadə edir. Göründüyü kimi, Sibir xalqlarının səmərəli təsərrüfatçılığı və mifoloji təsəvvürlərinin əks olunduğu bu nümunədə ağacın girşəni dartıb aparması onun mifik xüsusiyyətləri ilə bağlıdır. Şübhəsiz ki, ağacın mifoloji xüsusiyyəti onun dünya ağacı ilə bağlı olduğunu əks etdirir. Maralın həyat ağacı ilə bağlı olmasının özündə də onun dünyanın üç qatı ilə bağlı olması fikri əks olunmuşdur. Klermesdən aşkar olunan skif gümüş qədəhlərindən birinin üzərində ağac budağı aparan kentavr, ağacın üzərində isə maral təsvir olunmuşdur. Tədqiqatçılar (10, s. 96-97) bu təsviri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəhrəmanların yenilməz gücünün simvolu olduğunu qeyd etsələr də, belə hesab edirik ki, onun müəyyən mifoloji məzmunu da olmuşdur. Fikrimizə görə, bu təsvirdə həmçinin maralın həyat ağacı ilə bağlılığı əks olunmuşdur.



Gəmiqayada Maral təsviri

Yuxarıda qeyd etdiyimiz kimi, Maralla bağlı inanclar e.ə. III-II minilliklərdə Yaxın Şərqdə, Azərbaycanda, o cümlədən Naxçıvanda geniş yayılmışdır. Bu baxımdan Anadoluda Alaca höyükdən aşkar olunan bir qəbir abidəsi xüsusilə diqqəti cəlb edir. Tədqiqat zamanı arxeoloqlar hakim sülalə üzvlərindən birinin məzarını aşkar etmişlər. Qəbilə rəhbəri üçün ağacdan hazırlanmış dörd ayaqlı tabut müxtəlif motivli ornamentlə naxışlanmış, tabutun hər bir ayağının yuxarı tərəfinə tunc maral fiquru taxılmışdır. İnanca görə, maral fiqurları mərhumu bəd qüvvələrdən qoruyacaqdı. Tunc fiqurların ikonoqrafik xüsusiyyətləri onların ana Maralı simvolizə etdiyini deməyə imkan verir. Ehtimal ki, ana Maral Anadoluda məskunlaşan qədim tayfaların qoruyucu totemi olmuşdur. Sibir kurqanlarında aparılan qazıntılar zamanı xeyli miqdarda maral fiquru formasında hazırlanmış bəzək əşyalarına rastlanmışdır (12, s. 87-88). Məlum olduğu kimi, sürətlə qaçan maral obrazı Skif heyvani üslubunun da ən sevilən motivlərindən biri olmuşdur.

Qədim sənət əsərlərində əks olunan Maral obrazının folklor nümunələrində indiyədək yaşaması xalqımızın min illər ərzində formalaşan mifoloji düşüncəsinin ifadəsidir. Həm sənət əsərləri, həm də Maralla bağlı folklor nümunələri türk xalqlarının yayıldığı ərazilərdə Maralla bağlı inancları tədqiq etməyə, Maral obrazının mifoloji xüsusiyyətlərini öyrənməyə, bu obrazla bağlı mifoloji təsəvvürləri bərpa etməyə imkan verir. Maralla bağlı folklor nümunələrinin və qədim sənət əsərlərinin müqayisəli araşdırılması göstərir ki, bu nümunələrdə insanların məskunlaşdığı mədəni məkanın nizamlayıcı başlanğıc tərəfindən idarə edilməsi ilə bağlı mifoloji təsəvvürlər əks olunmuşdur. Mədəni məkanın idarə edilməsində isə Maral vasitəçidir. Mifoloji düşüncəyə uyğun olaraq cəmiyyətdə qoyulan yasaqlar xaosun təntənəsinin qarşısını almalı insanların nizamlı həyatının davam etməsini təmin eməli idi. Boyalı qablar üzərindəki Maral təsvirləri qabların içərisindəki məhsulları qorumalı və onun bərəkətini artırmalı idi. Gəmiqaya təsvirlərindəki Maral obrazı həm məhsuldarlığın, həm də ovun uğurlu olmasının təmin olunması ilə bağlı mifoloji təsəvvürləri əks etdirir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Mifoloji Mətnləri. Bakı: Elm, 1988, 196 s.
2. Aynur Özfırat. Doğu Anadolu Yayla Kültürleri. İstanbul: Arkeoloji ve Sanat, 2001, 224 s.
3. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 с.
4. Belli Oktay, Bahşaliyev Veli. Middle and Late Bronze Age Painted Pottery culture of the Nahchivan Region. İstanbul, 2001, 120 s.
5. Əliyev V. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1993, 79 s.
6. Гордлевский В.А. Гарагоюнлу // АТТСЭ, 1927, № 4, с. 5-13.
7. Кушнарева К.Х. Южный Кавказ в IX-II тысячелетиях до н.э. СПб.: Петербургское Востоковедение, 1993, 312 с.
8. Окладникова Е.А. Петроглифы средней Катуни. Новосибирск: Наука, 1984, 112 с.
9. Потанин Г.Н. Очерки Северо-Западной Монголии. СПб., 1883, вып.4,163 с.
10. Раевский Д.С. Модел мира скифской культуры. М.: Наука, 1985, 255 с.
11. Хлобыстина М.Д. Говорящие камни. Новосибирск: Наука, 1987, 128 с.
12. Вадецкая Э.Б. Сказы о древних курганах. Новосибирск: Наука, 1981, 114 с.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# ÜMÜMTÜRK ETNOGENEZİNİN FORMALAŞMASI VƏ REGİONAL MƏSKUNLAŞMALARLA XALQLAR KİMİ TƏŞƏKKÜLÜ

**t.e.n. Xəliyəddin Xəlilli**
**AMEA Folklor Institutu**
**Azərbaycan**

Təsadüfən və ya qəsdən meydana çıxdığını deyə bilmərəm uzun illər və bu gündə qüvvədə olan Altay nəzəriyyəsinə görə türklərin ilkin vətəni Altaylardır, onlar buradan Avrasiyanın digər ərazilərinə miqrasiya etmişlər. Lakin arxeoloji və antropoloji tədqiqatlar bütünlüklə bunun əksini sübut edir.

İnsan öz varlığı, yaranışı və dünyaya yayılması etibarı ilə təbiətdən asılı olmuş, onun təsiri altında dünyanın müəyyən regionlarında meydana çıxmış, yer kürəsinin digər ərazilərinə yayılmışdır. Canlı həyat üçün, yəni bitki və heyvanat aləmi üçün şərait yaradan ilk əsas dövr miosen dövrüdür (e.ə. 7-3,2 milyon illər). Bu dövrdə iqlim dəyişməsi-havanın istiləşməsi, şimali-şərqi Afrika ilə bərabər Qafqazın bitki və heyvanat aləminin yaranması və inkişafında mühüm rol oynayır, insan əcdadının yaranması və inkişafı üçün əsas yaradır. Nəhayət, bu geoloji dövrdən sonra yer kürəsini müasir formaya salan-geologiya elmində dördüncü dövr adlanan mərhələ başlayır, bu mərhələ Azərbaycanda e.ə. 2 milyon ildən 10-cu minilliyə qədər olan dövrü əhatə edir. Onun son dövrü holosen, arxeoloji dövrlə mezolit dövrünə uyğun gəlir.

Miosen dövrünün təbii iqlim şəraitinin nəticəsi olaraq, dördüncü dövrün başlanğıcında, yəni e.ə. 2 milyonuncu ilin əvvəllərində Qafqaz və Yaxın Şərqdə insan əcdadının ilk nümayəndələri Azərbaycanda-Azıx mağarasında görünürlər. Buradan da Türkmənistanın Xəzərsahili vilayətlərinə və Orta Asiyaya yayılır, üst paleolit adamı Homo Sapiens Orta Asiyaya Qafqazdan getmişdir.

Alt paleolitdən mezolit dövrünə qədər Qafqazda baş verən iqlimin soyuqlaşması və istiləşməsi, Xəzərin sularının qalxması bitki və heyvanat aləmini, insan əcdadını bütünlüklə məhv edə bilmir, Azərbaycanın müasir relyefi yaranır, Azıx mağarasında məskunlaşmış insan əcdadlarının nəslini davam etdirməsinə imkan verir. Hətta Azərbaycanın yeni əraziləri də insan əcdadı ilə məskunlaşır. Beləliklə Azərbaycan şimali-şərqi Afrika ilə bərabər bəşəri sivilizasiyanın ilkin ocağı funksiyasını yerinə yetirir. Azığı da əhatə edən Quruçay mədəniyyəti Azərbaycan və Qafqaz paleolit mədəniyyətinin əsasına çevrilir. Tədqiqatçıların qənaətinə görə Quruçay mədəniyyəti orta paleolit dövründə də Yaxın Şərqdə əsas mədəniyyət ocağı olmaqla bütün region mədəniyyətinə təsir etmişdir. Arxeoloji və paleoan tropoloji tədqiqatlar göstərir ki, Orta Asiya mustye mədəniyyəti Yaxın Şərqlə əlaqəli olmuş, Orta paleolit neandertalı Yaxın Şərq neandartalı ilə təmasda ümumi mədəniyyət yaratmışdır (1; 2, 45; 3, 216; 4, 22, 47-49, 57-58).

Alt və Orta paleolit dövrü müddətində insan əcdadı birgəyaşayış daxilində böyük inkişaf sosiallaşma mərhələsi keçmişdir ki, bunun nəticəsi olaraq sürü icması Üst paleolit dövrü – nəsli qəbilə quruluşuna çevrildi. Elə bu müddətdə Ön və Kiçik Asiya, Qafqazda (Azərbaycanda) müasir insan tipinin formalaşması başa çatdı. İlk irqin formalaşması ilə üzvlənən nitqin-dilin təşəkkülüdə baş vermişdir (10, 15). Dil tarixçisi, professor Q.Kazımov yazır: «Beləliklə, məhdud coğrafi ərazidə təşəkkül tapan dil ibtidai insan dəstəsinin ilkin adlandırma və fərdi nitq xüsusiyyətləri ilə fərqlənsə də, tədricən vahid dil kimi ümumiləşmə prosesi keçirmişdir. Biz bu dili ulu dil adlandırırıq» (10, 16). O, sözünə davam edərək yazır: «Yer üzərində yaranmış ulu dildə təqribən e.ə. XII minillikdə böyük bir mərhələ başa çatmış, ulu dilin parçalanması, müxtəlif dialeklərin, müasir dil ailələrinin başında duran protodillərin yaranması prosesi sona yetmişdir (müxtəlif dillərin bir-birindən sonrakı təcrid olunmalarını inkar etmirik). Müxtəlif dil ailələrinin yaranması bundan sonrakı inkişaf prosesinin nəticəsidir».

Tarixdən aldığımız təssürat əsasında deyə bilərik ki, 14 min il əvvəl ulu dil artıq parçalanmışdı və hazırda yer üzərində yaşayan dil ailələrinə aid ilk kök dillər, yəni prahindavropa, protosami, prototürk (pratürk) və s. mövcud idi (10, 16). Dillərin tarixi coğrafiyası ulu dilin türk dialektinin Ön Asiyanın Qafqaz-Xəzər dənizi hüdudunda formalaşdığın göstərir.

Ehtimal ki ulu dilin dialeklərə parçalanması prosesi Ön və Kiçik Asiya, Qafqazda (Azərbaycan) formalaşan toplumun yenidən diferensiallaşmasına səbəb oldu. Ulu dilin dialeklərində danışan, dili bir-biri üçün daha anlaşıqlı olan qəbilələrin birgəyaşayışı və əlaqəli miqrasiyası həmişə gözlənilmişdir. Beləliklə Ön Asiya və Qafqazdan (Azərbaycandan) mezolit dövründə Avrasiyanın müxtəlif ərazilərinə miqrasiyalar başlayır ki, bununla da dünya insanla məskunlaşır.

Mezolit dövrünün iqlim dəyişməsi yer kürəsində iqlimin ümumi qlobal istiləşməsi, Azərbaycanda buzlaqların tam əriməsi, buzlaqların şimala doğru çəkilməsi nəticəsində Qafqazdan ən güclü miqrasiyalardan biri Yaxın Şərqə – İkiçayarasına gedir. Qafqazdan gedən bu miqrasiya prosesində Orta



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Asiya, Türkmənistan və Xəzərin digər sahillərində vahid Xəzərsahili Qafqaz və Ön Asiya mənşəli mədəniyyət yaranır. Kama, Uralboyu və hətta uzaq Şimalda belə yerli paleolitlə əlaqəsi olmayan Orta Asiya (Qafqaz) mənşəli mezolit mdəniyyəti yaranır (4, 60; 5, 51-58; 6, 19; 7, 59-60; 8, 57; 9, 13-14).

Ön Asiya və Qafqazdan qəbilələrin müxtəlif istiqamətli miqrasiyası başlayır. Qəbilələr bölünmələr və parçalanmalarla yeni ərazilərdə məskunlaşırlar. Qəbilənin yeni ərazidə məskunlaşan hissəsi ulu qəbilənin adını yaşatmaqla bərabər yeni ad da alır. Müxtəlif səbəblərdən bəzən bütün qəbilə yurdumu tərk edirdi. Bütün hallarda köçən qəbilə maddi və mənəvi mədəniyyətini, adət-ənənəsini, dilini özü ilə aparırdı. Onlar yeni məskunlaşdıqları ərazilərə, dağlara, dərələrə, yarğanlara, çaylara, bulaqlara keçmişdə onlara məxsus düzlərin, dağların, çayların bulaqların adlarını verirdilər. Beləliklə min kilometrlərlə msafədə etmonim, toponim, hidronimlər yaranırdı. Qəbilələrin, xüsusilə köçərilərin yeni ərazilərdə məskunlaşması zamanı fövqalədə intizam gözlənirdi. Ayrılan, yeni ərazidə məskunlaşan hissə ümumi icmanın struturundan kənarda qalmamalı, etnik yekdilliyi pozmamalı idi. Qəbilə ondan ayrılan hissənin harada, hansı məsafədə, necə şəraitdə məskunlaşması haqqında dəqiq məlumata malik olmalı idi. Onların köçü, yeni ərazilərdə məskunlaşması zamanı hər hansı pərakəndəliyə yol verilmirdi. Qəbilənin yeni ərazilərdə məskunlaşan hissəsi kök qəbilənin nəzarətində, himayəsində olurdu (11; 12; 13). Köç və miqrasiya zamanı gözlənilən bu ciddi intizam, böyük qəbilə birliklərinin gələcək dil ailələrini, millətləri yaradacaq ilkin mədəniyyətləri, mənəvi dəyərləri pozulub dağılmaqdan qoruyur, ulu dilin dialeklərinin, ilkin qəbilə mədəniyyətlərinin milli dil və mədəniyyət kimi inkişafını təmin edirdi.

İnsanlığın bütün tarixi məskunlaşmasında çaylar, göllər və dənizlər başlıca rol oynamışlar. Xəzərsahili vahid etnik mədəniyyətin yaranması da Xəzər dənizi və ona tökülən çaylarla bağlıdır. Ulu dilin türk dialektinin sahillərində formalaşdığı qəbilələr Kür-Araz çayları vasitəsilə xəzərin sahillərinə enir, ona tökülən digər çayların sahillərinə keçib zaman-zaman bütün Xəzər hüdudunda məskunlaşdılar. Yuxarıda gördüyümüz kimi mezolit dövründə artıq vahid Xəzərsahili etnik mədəniyyətini yaratdılar. Orta Asiya və Türkmənistanın mezolit mədəniyyəti Qafqaz mənşəli vahid xəzərsahili mədəniyyət idi (4, 60).

Metolit dövrü əmək alətlərinin təkmilləşməsi, ox və yayın kəşfi, heyvanların əhliləşdirməsi, əkinçiliyə keçid, qayıqdan nəqliyyat vasitəsi kimi istifadə və s. yeniliklər əmək məhsuldarlığını yüksəltdi, əhali artımına səbəb oldu bununlada Xəzərsahili qəbilələr yeni ərazilərdə məskunlaşmanı davam etdirdilər. Mezolit dövrü öz yenilikləri ilə Neolit inqilabı adlanan tarixi mərhələni hazırladı. Neolit inqilabı Xəzərsahili vahid neolit mədəniyyətini yaradır. Bütün Orta Asiyanı əhatə edir. Xəzərsahili mədəniyyət zaman-zaman Zaqafqaziyadan-Azərbaycandan impuls alır. Neolit dövrü Qafqazdan-Azərbaycandan gələn qəbilələr İkiçayarasında və onun Azərbaycan sərhədlərində ən güclü neolit əkinçiliyini yaradırlar (6, 18-19; 14, 38).

Ön Asiya, Qafqaz (Azərbaycan), Xəzərsahili vilayətdə neolit mədəniyyətini eneolit mədəniyyəti əvəs edir. Əkinçiliyin inkişafı ilə əhali məskunlaşması sürətlənir, əvvəlki dövrlərlə müqayisədə yeni arxetukturalı böyük yaşayış məskənləri salınır. Əkinçilik və maldarlıq daha da inkişaf edir. Qəbilələrin mənəvi inkişafında böyük dəyişiklik, yüksəliş baş verir. Xəzərsahili vilayətlərdən Ukrayna çölləri və Sibiri əhatə edən miqrasiya və məskunlaşmalar baş verir, iqtisadi və mənəvi əlaqələr daha da canlanır (4, 93, 126-127; 5, 86-98; 8, 57-74; 9; 15; 16).

Eneolit dövrünün sosial-iqtisadi, etnomənəvi inkişafı e.ə. IV minilliyin sonu III minilliyin əvvəllərində tunc dövrünü hazırladı. Cəmiyyətdə 1-ci ictimai əmək bölgüsü baş verdi, əkinçilik maldarlıqdan ayrıldı, maldar tayfalar yeni-yeni ərazilər tutur, mis mədənlərin ələ keçirir, metallurgiya istehsalına hakim olurlar. Tuncdan hazırlanmış əmək alətləri əvvəlki dövrlərlə müqayisədə əmək məhsuldarlığın qat-qat yüksəldir, əkinçiliyin sürətli inkişafına təkan verir. Yeni, daha mükəmməl silahlarının yaradılması qəbilə və tayfaların döyüş və müdafiə imkanlarını yüksəldir. Bütün bu proses öz növbəsində qəbilələrin böyük tayfa birlikləri halında birləşməsinə şərait yaradır. Böyük tayfa birlikləri, varlı tayfa ağsaqqalları, hərbi rəhbərlər kimi sosial təbəqələr yaranır. Ön Asiya, Xəzərsahili etnomənəvi birliyi təmsil edən Şumer dövləti, ondan bir qədər sonra Azərbaycan ərazisində Aratta, Yublubi, Kuti ilk dövlət qürumları yaranır. Azərbaycanda formalaşan, Kür-Araz mədəniyyəti, onun yaradıcılarının miqrasiyası, bütün Ön Asiya, Xəzərsahili vilayətləri əhatə edir, etnomənəvi, sosial-iqtisadi münasibətlərə inqilabi təsir göstərir, yeni impuls verir (5, 98-104; 7, 104-113). Etnomənəvi, sosial-iqtisadi proseslərin nəticəsi olaraq e.ə.II minillikdə ikinci ictimai əmək bölgüsü baş verdi, sənətkarlıq əkinçilikdən ayrıldı. Bunun nəticəsi olaraq yeni təsərrüfat və sənət sahələri yarandı, sosial təbəqələşmə sürətləndi, kiçik qəbilə və tayfalar birləşərək böyük tayfa ittifaqları yaratdılar. Möhkəm qala divarları ilə əhatə olunmuş ilkin şəhərlər yarandı. Maldarlar isə dağlarda elmdə siklap qalaları adlanan yaşayış məskənləri saldılar. Orta tunc



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dövründə də Zaqafqaziyadan (Azərbaycan) və Ön Asiyadan Xəzərsahili vilayətlərə qərbdən şərqə gedişi, mədəni təsiri davam edir (5, 98-120; 17, 113-124; 18, 181-190; 19, 11-35).

Beləliklə Xəzərsahili vilayətdə paleolit dövründən başlayıb son tunc dövrünə qədər gedən fasiləsiz etnokonsaliolasiya prosesi vahid antropoloji tip və etnik mədəniyyət yaradır. Bu antropoloji tip elmdə əvvəllər «Şərqi Aralıq dənizi» tipi, hazırda «Kaspi» tipi adlanır (9; 20; 21; 22; 23; 24; 25).

Xəzərsahili vilayətdə «Kaspi» anpopoloji ipi kimi formalaşan etnosun etnogenezi mədəniyyət cəhətdəndə yekdil idi. Odur ki, o, tarix səhnəsinə etnos kimi eyni ad altında çıxmada idi. E.ə. II minilliyin ikinci yarısından Xəzərsahili etnomədəni vilayətdə qəbilə və tayfaların konsolidasiyası və sosial təbəqələşməsi sürətlənir, sosial strukturu yeniləşir, müəyyən ərazilərdə böyük tayfa ittifaqları yaranır ki, artıq qəbilə-tayfa təşkilatı ağsaqqallar şurası bu yeni birliyi idarə etməyə qadir olmur. «Qohum tayfalar arasında ittifaqlar bəzi yerlərdə müəyyən ehtiyac olduqda bağlanırdı və bu ehtiyac aradan qalxdıqda, ittifaqlar da pozulurdu. Əvvəllər qohum olub, lakin bir-birindən ayrı düşmüş olan tayfalar isə ayrı-ayrı yerlərdə birləşib uzun müddət ittifaqlar yaradırdılar, beləliklə də, millətlərin yaranması yolunda ilk addımlar atılırdı» (26, 249). «Əhalinin artmaqda olan sıxlığı, adamları istər daxildə, istərsə xarici aləm qarşısında daha sıx birləşməyə məcbur edir. Qohum tayfaların ittifaqı hər yerdə bir zərurət olur, tezliklə də bunların hətta birləşməsi və beləliklə də, tayfaların ayrı-ayrı ərazilərinin bütün xalqın ümumi bir ərazisi halında birləşməsi zəruri olur. Xalqın hərbi rəisi-rex, basilevis, thidans-zəruri, daimi bir vəzifəli şəxs olur. Xalq yığıncağı hələ mövcud olmadığı yerdə meydana gəlir. Hərbi rəis, şura, xalq yığıncağı qəbilə quruluşundan inkişaf edən hərbi demokratiyanın orqanlarını təşkil edir. Ona görə hərbi demokratiya idi ki, indi müharibə və ondan ötrü təşkil olunmaq xalq həyatının daimi vəzifələri olur… irsi kral hakimiyyəti və irsi əyanlar üçün təməl qoyulur» (26, 314). Xəzərsahili etnomədəni vilayətin daşıyıcıları, xalq kimi təşəkkülün ilkin mərhələsi – hərbi demokratiya mərhələsinə daxil olur, endoetnonim yaradır və ekoetnonim qazanırdılar. Xəzərsahili etnomədəni vilayət əhalisinin vahid mədəniyyəti dildə, vətənlərinə və digər obyektlərə verdikləri adlandırmalarda da özünü göstərir. Xəzəri şimal və qərbdən əhatə edən dağlar kimi onu cənubdan əhatə edən dağları da Qafqaz adlandırırdılar. Don, Xəzərə tökülən Volqa Araz, Kiçik Asiyadan başlayıb Azərbaycandan keçib Xəzərə tökülən çaya Araz, Türkmənistanın cənubunda yerləşən Aral gölünə, müəyyən dövrlərdə Xəzər dənizinə tökülən Amurdərya və Sırdərya çaylarına, Mesopotomiyada bir çaya Araz adı vermişdilər (27, 31-126, 191; 28; 29, 25; 30, 67-68). Paleolitdən başlayıb vahid etnik mədəniyyət kimi inkişaf edən Xəzərsahili etnik birlik artıq e.ə.III minillikdə şərqi Avropanı əhatə edir, Asiya qitəsində Çin hüdudunu aşıb keçirdi. E.ə.II minilliyin sonu, I minilliyin başlanğıcında etnogenezinin ilkin təşəkkülünü başa çatdırıb vahid mədəniyyətə malik etnos kimi tarix səhnəsinə çıxan qısa müddətdə Asiya üzərində hakim olan xalq elmdə mövcud olan fikrə görə tarix səhnəsinə Skif-Sak adı ilə çıxmışlar (27; 31; 32; 33). «Qartal kimi şığyan», «böyük yaradıcılıq qüvvəsinə malik» xalq kimi xarakterizə olunur. Mənbə və tədqiqatlardan göründüyü kimi skif-saklar təşkil edən tayfa ittifaqları hərbi demokratiya inkişafı mərhələsində idilər, onların ümumi maddi mədəniyyəti, müharibə qanunları, döyüş qaydaları, adət-ənənələri, inam və etiqadları və s. mövcud idi. Ona görə də yaşadıqları dövrdə vahid xalq kimi tanınırdılar, sonralar bu səbəbdən tarix onları vahid xalq kimi tanıdı.

Hələ «Dədə Qorqud» oğuznamələrinin tədqiqinə başladığım ilk vaxtlardan məndə belə təssürat yarandı ki, «tarixşünaslıqda sak-skif mədəniyyəti kimi tədqiq olunan dövrü folklor materialları bizə oğuz dövrü, mədəniyyəti kimi təqdim edir» (34).

Mənbə və tədqiqatlarda ski-sakların türk olması haqqında kifayət qədər məlumat var. Bizcə bu haqda Z.Həsənovun «Çar skiflər» (B., 2005) adlı monoqrafiyasında məsələ çox əhatəli, elmi-məntiqi əsaslarla həllini tapılır. Z.Həsənov yazır ki, skif sözünün yunan tələffüzündə sikuz kimi səslənməsi, Assur mənbələrində aşquzay və işquzay, həmçinin Bibliyada aşquz kimi qeyd olunması bütün hallarda söz kökünün də kuz, yaxud quz dayanır ki, bu da etnosun özünü adlandırmasıdır. Doğma dilin ifadə formasıdır (32, 128-136).

Elmdə skif-sak adlandırılan toplumun oğuzlar olmasını incəliyinə qədər təsdiq edən mənbələrdən biri «Dədə Qorqud kitabı»dır.

Dastanlarda Xəzərsahili etnomədəni Qafqaz bölgəsində e.ə.II minilliyin sonu I minilliyin başlanğıcında tayfaların oğuz etnonimi adı altında etnokonsolidasiyası hərbi demokratiya etnososial strukturunda ilkin millətləşməsi və dövlətləşməsi bütün incəliyi ilə ifadə olunmuşdur. E.ə.II minilliyin sonunda Qafqazda türk tayfalarının Oğuz etnonimi adı altında millətləşməsini tərənüm edən «Dədə Qorqud» oğuznamələri o qədər canlı, güclü, təsirli olmuşdur ki, e.ə. VIII əsrdə yunan şairi Homerin əsərlərinə təsir göstərmişdir (32; 35; 36; 37; 120; 38, 27). «Dədə Qorqud kitabı» Azərbaycan oğuznamələrindən başqa həmin dövrdə mərkəzi Asiyada türklərin regional



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

millətləşməsi və dövlətləşməsini əks etdirən oğuznamələrdə yaranmışdır (39; 40). Folklor materialı oğuznamələrdən və sonralar bu oğuznamələr əsasında yazılmış F.Rəsidəddinin «Oğuznamə»sindən və Əbdülqazi Bahadır xanın «Şəcərei-tarakimə»sindən göründüyü kimi türklər tarix səhnəsinə bir xalq olaraq oğuz adı ilə çıxırlar. Müəyyən ərazilərdə tam məskunlaşıb, ümumtürk mədəniyyəti zəminində özünəməxsusluq qazandıqca, dövlətlər qurduqca yeni adlar alır, etnonim yaradır. Misal üçün Manna, Alban, Hun, Avar, Xəzər və s.

İlkin türk folklor materialları, arxeoloji və antropoloji tədqiqatlar, qədim dil materialları deməyə əsas verir ki türklər xalq kimi təşəkkülünün ilk mərhələsində oğuz özünü adlandırmasını yaratmış, tarix səhnəsinə bu adla çıxmışdır. Sözün dialektoloji tələffüz formalarının olması təbiidir.

Türk xalqlarının yaratdığı folklor materialları, mənbələr göstərir ki, yeni etnonimə keçmiş türk xalqları da Oğuz etnonomində qalan türklər səviyyədə oğuzluğu tərənnüm etmiş, oğuzlarla bağlı adət-ənənələr, inam və etiqadlar türk xalqlarının ümummilli etiqadı olmuşdur. Oğuz folklor nümunəsi türk xalqlarında başlıca milli tərbiyə vasitəsi olmuşdur (34).

Zaman gedir, hər şey, bütün etnoslar dəyişir və yeniləşirdi. Oğuz qəhrəmanlıq tarixini yaradan toplumlar, hissə-hissə əkinçilik və şəhər həyatına, feodalizmə uyğunlaşırdılar.

Bununlada oğuzlara məxsus azadlıq və döyüş ruhu, qəhrəmanlıq ənənələri unudulurdu.

Oğuz adını və həyat tərzini Orta və Mərkəzi Asiya səhralarındakı köçəri-maldar həyat tərzi keçirən elatlar yaşadırdılar. Təbii- coğrafi şərait və köçəri həyat tərzi onlara ibtidai-icma quruluşundan sinfi cəmiyyətə keçid mərhələsinin etnososial struktur forması olan hərbi demokratiyanı feodalizm cəmiyyətinə uyğunlaşdırmağa imkan verdi. Beləliklə Mərkəzi və Orta Asiyada oğuzlar hərbi demokratiyanın sosial struktur forması olan orda sistemində birləşməklə varlıqların davam etdirir, qəhrəmanlıq ənənələrin yaşadır, hərbi səfərlərdə iştirak etməyən oturaq həyata keçmiş, şəhərlərdə məskunlaşmış oğuzlara həqarətlə baxırdılar (34; 41, 4; 46, 74-78).

Bəzi tədqiqatçılar Mərkəzi və Orta Asiya oğuzlarının VII, bəziləri XI əsrdən türkmən adlandığın yazırlar. Oğuz adı altında türklərin qurduğu son və ən böyük imperiya Səlcuqlar imperiyası oldu. Anadolunu zəbt etdikdən sonra oğuzlar burada oturaq həyata keçdilər. Anadolu türklərinin yaranmasında etnik nüvə rolunu bir toplum olaraq türklərin oğuz etnonimi altında etnososial, siyasi-mənəvi həyatı tədricən başa çatdı.

**ƏDƏBİYYAT**

1. М.М.Гусейнов. Древний палеолит Азербайджана. Б., 1985
2. Ə.Cəfərov. Quruçay dərəsində. B., 1990
3. Ə.Cəfərov. Azərbaycan orta paleoliti (rus dilində). B., 1999
4. Средняя Азия и эпохи камня и бронзы. М., 1978
5. R.B.Göyüşov, A.İ.Martınov. SSRİ arxeologiyası. B., 1990
6. Дж. Мелларг. Древнейщие цивилизации Ближного Востока. М., 1982
7. Azərbaycan tarixi. I cild. B., 1998
8. Ə.Muxtarova. Türk xalqlarının tarixi. B., 1999
9. R.M.Qasımova, Azərbaycan xalqının etnogenezi paleo-antropoloji və antropoloji (somatoloji) materiallar əsasında (doktorluq dissertasiyasının avtoreferatı). B., 1997
10. Q.Kazımov. Azərbaycan dilinin tarixi. B., 2003
11. М.О.Косвин. Очерки истории первобытной культыры. М., 1953
12. А.В.Суперанская. Что такое топономика? М., 1985
13. Материалы по истории древних кочевых народов группы гунху. М., 1984
14. И.Абдиев. История диревнего Востока. М., 1970
15. İ.H.Nərimanov. Qədim Azərbaycan əhalisinin əkinçilik və heyvandarlıq mədəniyyəti (rus dilində). B., 1987
16. Г.Исмаилзаде, Н.Исмаилзаде. Интеррегиональные связы в эпохи древнейшей земледельческой культыры Азербайджана. Türkmanistanyn və gündoğar halklarynyn taruhu-mədəni mirasiü dünya ulqamyında. Aşqabad, 2002
17. V.Əliyev. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. B., 1977
18. V.Əliyev. Azərbaycanın orta tunc dövrü mədəniyyəti. B., 1991
19. Elçibəy. Azərbaycanın başlayan tarix. B., 2003
20. R.Qasımova. Azərbaycan xalqının etnogenezinin paloantropoloji və antropoloji baxımdan öyrənilməsinin yekunları. – Tarix və onun problemləri . №1 (3), B., 1998



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

21. Г.Ф.Дебец. Антропологические исследования в Дагистане. – Антропологический сборник. Нов. сер. Вып I. 1956
22. В.П.Алексеев. Происхождение народов Кавказя. М., 1974
23. С.Ш.Гаджиева. Дагистанские терекеменцы – XIX- naçalo XX v. M., 1990
24. Я.Я.Рочинский, М.Т.Левин. Антропология. М, 1978
25. Т.Ф.Дебец, Й.А.Дурнова. Физические развитие людей эпохи енеолита в южном Тюркмении. Советская Этнография. 1971
26. F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. – K.Marks, F.Engels. Seçilmiş əsərləri, II cild. B., 1953
27. И.В.Кукулина. Этнография скифи по античным источникам. Л., 1985
28. Ə.Haqverdiyev. Araz-Türk dillərinə dair etimoloji tarixi morfoloji tədqiqlər. Elmi əsərlərin tematik məcmuəsi. B., BDU nəşriyyatı, 1987
29. Azərbaycan tarixi. B., 1994
30. B.Ə.Budaqov, Q.Ə.Qeybulayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. B., 1998
31. Степи европейской части СССР в сикифо-сачтатское время. М., 1989
32. Z.Həsənov. Çar skiflər. B., 2005
33. Ə.Haqverdiyev, N.Əsədov. Azərbaycan ərazisində sak-skif padşahlığı. B., 2003
34. X.Xəlilli. Dədə Qorqud oğuznamələrinin yaranma tarixi və digər oğuznamələrlə paralellərinin dövrü və səbəbləri. Kredo qəzeti – 16, 23, 30 sentyabr, 7 oktyabr 2006-cı il
35. Ə.Sultanlı. «Kitabi Dədə Qorqud» və qədim Yunan dastanları. B., 1999
36. Q.Kazımov. Homerin poemaları və Kitabi Dədə Qorqud. B., 2006
37. Anar. Dədə Qorqud dünyası. Azərbaycan jurnalı. 1985
38. E.Əlibəyzadə. Kitabi Dədə Qorqud. B., 1999
39. Oğuznamə. B., 1987
40. Oğuznamələr. B., 1983
41. F.Rəşidəddin. Oğuznamə. B., 1992
42. Əbülqazi Bahadır xan. Şəcəreyi-tərakimə. B., 2002
43. A.Məmmədov. Oğuz səltənəti. B., 1992
44. Kitabi Dədə Qorqud. B., 1988
45. F.Sümər. Oğuzlar. B., 1992
46. Z.Qumilfov. Qədim türklər. B., 1993
47. X.Koroğlu. Oğuz qəhrəmanlıq eposu. B., 1999
48. Ə.Dəmirçizadə. «Kitabi Dədə Qorqud» dastanlarının dili. B., 1999
49. Mahmud Kaşğari. «Divanü lüğat-it-türk», I cild, B., 2006



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## M.SÜLEYMANLININ YARADICILIĞINDA TARİXİLİK

***F.e.d. Xatirə Bəşirli***
***AMEA Ədəbiyyat muzeyi***
***Azərbaycan***

**"Üç yüz ilin başından çıxan Köç" İmirdən də keçib gələcəyə gedirdi.** ("Köç" romanı). 2 Azərbaycan ədəbiyyatının görkəmli yazçısı Mövlud Süleymanlının əsərindən verilmiş bu haşıyə onun bütün irsi üçün şamil edilə bilər. Ötən əsrin 70-ci illərindən başlayaraq O, orijinal yazı manerası, milli düşüncə, etnoqrafik elementlərin bolluğu və heyrət doğuran əlvanlığı ilə seçilən əsərləri çox sürəkli bir şəkildə ədəbi ictimaiyyətin diqqətini cəlb etdi. Nədə idi M.Süleymanlı irsiнин **sehri, möcüzəsi: milli dəyərlərin təəssübkeşi,** öz xalqının soyunu, tarixini, fikri dünyasını özünü tanıdığı kimi tanıyan müəllif qələmini də buna yönəldir. Yaradıcılığı-duyquqları, müşahidə etdiyi, eşıtdikləri, qəribədir ki, yalnız olanların – olmuşların yox, həm də ola biləcəklərin yuvasıdır. Onun yaradıcılığında ən xarakter cəhətlərdən biri ayrı-ayrı hadisə və obrazlardan daha çox bütöv halda bir mahal, bir kənd, bir ailə olanların taleyinin, durumunun ifadə edilməsidir. Bütöv bir əsər bir kəndin, bir xalqın ümumi ovqatının, qəravü-qədərinin meydanı kimi görünə bilir: **"Davadan qayıdan var idi, ona görə camaat bir yerə yığışıb oldu bir adam", "Bir deyəndə kəndi pıçıltı bürüdü".** ("Yel Əhmədin bəyliyi"). Digər tərəfdən M.Süleymanlı irsində ümumi bir xalq obrazı və onun tarixi var. Sanki onun yaradıcığında Tarix, Zaman və Məkan, İnsan obrazları bir-birinin içində biri o birini tamamlayan vahid çevrədir.

Tarixi hadisə, tarixi şəxsiyyətlər onun yaradıcılığında kompozisiya qurmaq, konflikt yaratmaq və ya bədii detal xatirinə işlənmir. O, tarixi həm də bədiiləşdirməyi məqsəd götürmür. M.Süleymanlı tanıdığı, sevdiyi türk insanını minillərin o üzündən də irəli əcdadlarının əmanəti kimi, yaddaşı kimi milli ruhun, ləyaqətin, əxlaqın, tarıx və gələcəyin, qürunun Vaxt, Zaman qabağına bürüyüb təqdim edir.

"Köç" daha çox yadddaşın şəkil-şəkil tərənnümüdür, qanın, şüuraltı mənanın arxaik, milli ifadəsidir: **"Hamı yuxudan oyanmışdı. Cünü yaşamağa başlamışdılar. Yuxusunda qismət görən qalxıb bazarlığına gedirdi, su görən təzə iş başlayırdı; hanaçı hana qururdu, əkinçi əkinə çıxırdı, səpinçı səpinə. Yol görən gedənini gözləyirdi,qan görən qovuşuq gözləyirdi..."** ("Köç") Epik genişlık, Zamanı (Tarix) və Məkan sonsuzluğu "Köç"ün mayasıdır. At üstdə doğulub gündogandan günbatana köç edən türk ərlərinin üç yüzillik bir ömür salnaməsidir "Köç".

Aranlı, dağlı, güneyli, quzeyli, Sibir çöllərindən Balkanlara qədər at oynatdığı ellərin mədəniyyət, etnoqrafiya, tarix, əxlaq aynasıdır «Köç»: **«Bir vaxtlar içlərində bayraqlar yellənirdi. Atların belində olanda rüzgarlar əsib bayraqları yelləndirirdi. Dünyanın boyu uzunu da bayraqların havasına gedirdilər. Bir adam lazım idi bayraq kimi, qabağa çıxaydı» – «Haydı, igidlər» – deyəydi, – «Xan tutaq, xanlıq alaq, bəy vuraq, bəylik yıxaq». Bu səs indi Qarakəllələrin arasında olmuş bir igid adı kimi yaşayırdı. Ondan da keçmiş kimi uzaqlaşdıqca, uzaqlaşırdılar.** («Köç» romanı).

Bu anlamda «Köç» Dədə Qorqud boyları dəyərində hər dəfə öyrəniləsi bir abidədir.

M.Süleymanlının nəşrində yaxın, uzaq tarix də yoxdur. Tarixin, zamanın içində insan aqibəti var. Qəribədir ki, yazıçının obrazlarına, insanlarına Zaman (Tarix) o qədər təsir edə bilmir, onlar sanki zaman və məkana ucadan-gendən baxa bilirlər, «zamana adamı» deyillər.

Demək istəyirəm ki, M.Süleymanlının qəhrəmanları zamana uyub dəyişən, uyan, dönən deyillər, kamil, bütövdürlər. İstər 300 il əvvəlin insanını qələmə alsın («Köç»), istərsə də 1000 ilin, 500 ilin adamını («Fatehlərin divanı») və ya istər bu günün qəhrəmanını («Səs» romanı) yaratsın. Bu obrazlar xarakterсə dəyişməzdir, əqidə, məslək adamlarıdır. Ondan irəli gəlir ki, yazıçının hadisələri, obrazları təbiətlə bir aradadır, əsərlərində insanla təbiət birdir, bir ananın övladlarıdır: yağış da, günəş, külək, gecə, çən-duman da canlıdır, hərəkətdədir, dil açıb səninlə dərdləşə bilir. M.Süleymanlının obrazları sanki ibtidadadır, çirkaba, kinə, paxıllığa, siyasətə qarışmayıblar.

M.Süleymanlının yaradıcılığını izləyərkən eyni zamanda tarixi, tarixdə bulunan insanlarımızı, tarixi şəxsiyyətləri izləyirsən sanki. Azərbaycan-türk adamının min illər boyu, islamdan öncəki tarixi, mədəniyyəti, fəlsəfəsi, dünya duyumunu vərəqləyirsən. Bu irsdə tək tanrıya sitayiş edənlər, dərvişlər, sərkərdələr, şair və hökmdarlar, yeni din yaradanlar, feodalizmdən kapitalizmə keçid dövrünün adamı, yeni şəhər adamları, kəndlərin çəpərlənməsi, pulun mənəviyyata gəlişi və s. və i.a. zaman gəlişmələri, tarixi məqamları görmək mümkündür…

«Ağacan» və «Firəng iti» hekayələri 1988-ci il hadisələrindən əvvəl qələmə alınıb. Onların əsas ideya-məzmun qatı əcdadlarımızın minillər boyu yaşadıqları yurdlarından son bir əsrdə didərgin salınmasıdır. Qarşı tərəfin — ermənilərin ara vermədən zaman-zaman hazırladığı düşünülmüş, məkrli niyyətlərindən o qədər də hali olmayan saf, təmiz qəlbli, süfrəsi kimi ürəyi açıq adamlarsa çaş-baş qalır, nə edəcəklərini kəsdirə bilmirlər, hətta bu vəziyyətin xəcalətini çəkənlər də olur… Bunları M.Süleymanlı qələmə alanda hələ Səksəninci illər idi. Həmin mühitdən çıxan, qanlı-qadalı hadisələrlə böyüyən yazıçı əslində güclü hissetmə duyğusuyla, öncəgörməsi ilə Tarixi-Zamanı qabaqlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycan mədəniyyətində, mənəvi dünyasında tamamilə yeni düşüncə, yeni poetik forma, bədii manera baxımından seçilən «Quru kəllə» əsəri tarix baxımından çox dəyərlidir. Burada ideya-mövzu, əhatə edilən tarixi dövrlər, istifadə edilən mif-poetik struktur, zaman (Tarix) – məkan sonsuzluğunun obrazlaşması, maddiləşməsi, ölçü və vaxtın qeyri-adiliyi, bir anın min ili əvəzləyə bilməsi qüdrətli qələmlə işlənmişdir. Əsərin obrazları Zaman, Məkan, Vaxt, Qurd, Qarı, Adam, Dağdağan ağacı (Torpaq) və başqalarıdır, onlar sonsuz zaman və məkan çevrəsində mövcuddurlar. Zamana-tarixə-məkana məhəl qoymayan biri — Quru kəllə öz işindədir — qarşısına çıxanı qırıb dağıdır, məhv edir, özü irəliləyir, irəlilədikcə tarixləri, insanları, dinləri, mədəniyyətləri tar-mar edir. Ümumiyyətlə, «Quru kəllə»də xalqın azadlıq uğrunda qatlaşdığı uzun ulu Tarix yeni bədii estetik yol-qələmə alınmışdır. Əsər istər məzmunun mifik təfəkkürünün süzgəcindən keçərək təqdimi, istərsə də folklor obrazlarıyla təbiət obrazlarının ümumiləşdirilməsi, əlahiddə poetik dil, təkrarsız manera baxımından milli nəşrimizdə yeni ədəbi — bədii dəyər göstəricisidir.

Yazıçı M.Süleymanlı həm də peşəkar səviyyəsində olmasa da, peşəkar səriştəsi ilə, vətəndaş təəssübkeşliyi ilə tarixi araşdırmağı sevir. Onun Azərbaycanın bir sıra bölgələri, toponimləri, yer-yurd adları, qalalarla bağlı maraq doğuran məqalələri dərc edilmişdir: «Tariximiz haqqında», «Sir xalqı», «İtirdiklərimiz», «Qırx ilin yeddi görüşü»…

«Qırx ilin yeddi görüşü» esse-məqaləsində Azərbaycan, post-sovet məkanındakı digər türk xalqlarının tarixi, gəlişmələri, itirdikləri və uğurları izlənilir. Ümummilli lider H.Əliyev şəxsiyyətinin qüdrətli, millətsevərliyi, uzaqgörənliyi bir çox hadisələrin fonunda açıqlanır. Xalqımızın ən ağır dönəmlərində, taleyüklü hadisələrdə bu böyük insanın iradəsi, milli qeyrəti, xalqının başının üstə olması, onu məhv olmaqdan qoruması yazıçı qələmi ilə bir daha dəyərləndirilir.

Maraqlıdır ki, M.Süleymanlı hansı janrda yazır yazsın, onun baş qəhrəmanı Tarixdir, özü bunun fərqində olmasa da (hər halda mənə belə gəldi — X.B.).

Yaradıcılığa başladığı ilk dövrlərdə və sonralar püxtələşdiyi mərhələlərdə də yazdığı lirik şeirləri Tarixə, Zamana, İnsana ünvanlanır: «Tanrıya şeirlər», «Zamana dediklərim», «İnsanın şeirləri», «Tanrı duaları», «Yarpaqsızlıq», «Ev ruhları» və s. şeirlərində yazıçı-şair lirik qəhrəmanını tarixin girdabında, zamanın sonsuzluğunda görür, tanrıçılıqdan — Allaha qədər və Allahsızlığa qədər keçdiyi tarixi yolu — itirdiklərini, uğurlarını incələyir:

**«Babamın üzüylə üz gətirən,**
**Otu, çiçəyiylə söz gətirən,**
**Suyu, bulağıyla göz gətirən,**
**Kökü içimdən bitən yurdum,**
**Yumdüm gözlərimi, səni gördüm…**
**Səni ellərə verdim, boyuma boz ip ölçəsən,**
**Özümə kəfən yurdum…»  («Ev ruhları»)**

və ya:

**«Tökdüyün qanlarla güclüsən, bil,**
**Hörmə yaralarını,**
**Yarpaq acacaqsan,**
**Yaralarını yaşa, ağrılarında görün!**
**Yoxsa çılpaq qalacaqsan,**
**Yurda bürün!»  («Yarpaqsızlıq»)**

Yazılma tarixini «Ömür boyu» kimi göstərən əsərini M.Süleymanlı minlərlə soydaşımızın didərginliyini, yurd itgisini, bu məsum tarixi məhz bu şəkildə, özünün dediyi kimi «qanlı düşüncə» ilə qələmə alır. Tarixin, tarixi olayların, insan talelərinin bu şəkildə bədii həlli bizim ədəbiyyatda məhz Ona məxsusdur.

Öndə adını çəkdiyim «İtirdiklərimiz» məqaləsində yazır ki: **«Bizim xalqın xasiyyətində köləlik çalarları yoxdur, nifrəti, yalanı bacarmayan xalqıq. İtkilərimiz böyük, qazandıqlarımız az, əli boşuq».**

«İtirdiklərimizin» neçə illər sonra da kökünü, səbəblərini axtaran M.Süleymanlı çox ağır, çox cəsarətli bir yükün altına girdi: Türk xalqlarının taleyində — tarixində həlledici rol oynamış, uğur və uğursuzluqlarımızın birbaşa səbəbkarı olanları məhşər ayağına çəkir. Nə yazıq ki, dörd hissəsindən sonra çəkilişi dayandırılan, bütün türk ellərində böyük küy yaradan «Fatehlərin divanı» pyesi bütövlükdə türkün tarixinə həsr edilib. Əsərdə azman türk ərləri, ərənləri, fatehləri — Gültəkin, Oğuz Xaqan, Atilla, Alp Aslan, Teymurləng, İldırım Bəyazid, Xətai, Uzun Həsən … — divana çəkilir, sorğu-sual edilir, günahlar etiraf edilməklə uğursuzluqların qaynaqları açılır.

Çox maraqlı divan səhnəsi qurulur: etiraf, göz yaşı, peşmançılıq, bəzən qürur, şöhrət kimi insanı hisslər üz-üzə gəlir — böyük fatehlərin dililə, obrazları ilə hadisələrə qiymət verilir və bu müstəvidə hər zaman yazıçı-dramaturq M.Süleymanlının güclü vətəndaş təəssübkeşliyi, istedadı, tarixi gözəl bilməsi qabarıq nəzərə çarpır.

M.Süleymanlının irsində az-çox izlədiyimiz Tarixilik məqamı, fikrimizcə, yazıçının sənətkar və şəxsiyyət kimi bütövlüyündən, düşüncələrinin sərbəstliyindən xəbər verir. Əsərlərində yaddaşı, dünyaduyumunu, öncə görmə fəhmi, **Tarixə** qayıdışı, sabahlara əl uzatmasının başlıca qaynağı da bu səbəbdəndir.

## ƏDƏBİYYAT:

1. M.Süleymanlı. Üç roman. «Azərbaycan» nəşriyyatı, Bakı, 2004.
2. M.Süleymanlı. Seçilmiş əsərləri. «Şərq-Qərb» nəşriyyatı, Bakı, 2006.
3. M.Süleymanlı. «Ev ruhları», «Yarpaqsızlıqlar». «Ulduz jurnalı», 2007, №6.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## «ŞAH İSMAYIL» DASTANININ «ŞAH İSMAYIL VƏ GÜLZAR XANIM» VARİANTI

***Xəzirə Heydərli***
***BDU***
***Azərbaycan***

«Şah İsmayıl və Gülzar xanım» dastanının yeni variantı 70-ci illərdə yazıya alınıb. Bu mətni Aşıq Haşım uzun illər repertuarına daxil etmiş və müxtəlif variantlarda ifa etmişdir. Yazıya alınan variant isə daha mükəmməl olub, aşığın 70-ci illər repertuarından qeydə alınmışdır. Dastan toplayıcısının özünün yazdığı kimi bu variant sonralar onun tərtibatında 1992-ci ildə Türkiyənin «Kosaoğlu» nəşriyyatının çapa hazırladığı «Azərbaycan Ədəbiyyatı Antologiyası»nın I cildinə daxil edilmiş və türk dünyasında böyük marağa səbəb olmuşdur.

«Şah İsmayıl və Gülzar xanım» milli mətbuatımızda isə qismən sonralar «Azərbaycan» jurnalında dərc edilmişdir. Bu dastanı tədqiqatçılar uzun müddət qəhrəmanlıqla məhəbbət hadisəsi əsasında yaranan dastanlar qrupuna daxil etmiş və mənşə etibarı ilə nağıl motivinə söykənən epik nümunə hesab etmişlər. Dastan qəhrəmanı barədə də fikir müxtəlifliyi olmuşdur. Bəzi araşdırıcılar Şah İsmayılı tarixi şah obrazı ilə eyniləşdirmiş, başqaları isə onu gah II Şah İsmayıl hesab etmiş, ya da epik ənənədə nağıl motivi əsasında yaranan qədim dastan nümunəsi olma mülahizəsinə üstünlük vermişlər.Yeni yazıya alınan «Şah İsmayıl və Gülzar xanım» variantı sonuncu mülahizənin həqiqətə yaxınlığını daha çox təsdiqləyir, ənənəvi məhəbbət dastanı süjetinin milli məhəbbət dastanı süjetinə daha uyğun olduğunu təsdiqləyir. Bu variant bizə məlum bütün süjetlərdən fərqlənir, hadisələrin milli həyata uyğun olmayan təhriflərini aradan qaldırır, nağıl motivi əsasında yaranan dastan modelini tamamlayır. Bu məsələnin dastançılıq baxımından müqayisəsi isə hər şeydən əvvəl yeni variantla məlum süjetlər arasındakı fərqli cəhətləri müəyyənləşdirdikdən sonra mümkündür. Bu fərqlər isə ilk növbədə poetik strukturdan başlayır. Belə ki, yeni variantda aşıq ustadnaməni bir demir, iki deyir; iki demir, üç deyir və bunların hər biri məzmun baxımından bir-birindən fərqlənir. Birinci ustadnamədə tövsiyyə edilir ki, ədəb-ərkanını deyil, el demişkən ağır otur, batman gəl, yəni məclisdə yerini tanı, boğazdan yuxarı danışma. Bu, aşığın tərbiyəedicilik funksiyasını açıqlayır, süjetə olan marağı artırır.

İkinci ustadnamədə əməldə dürüst olmaq, başqasına qarşı zor işlətməmək məzmunu önə çəkilir. Aşıq deyir:

Əməlinlə çalış elləri bəzə.
Baxışda aydın ol, söhbətdə təzə,
Qoru, babalardan nə qalmış bizə,
El malına baxır, xor deməsinlər.

Üçüncü ustadnamədə isə ədalət və müdriklik, mənəvi dəyər və ölçü kimi göstərilir. Aşığın qənaətinə görə, elinə rəhbərlik edən şəxsin sözü ilə əməli bir olmalıdır. Mala, pula aludə olan adamın elə, obaya xeyri dəyməz. Burada alilik yüksək mənəvi dəyər kimi diqqəti cəlb edir. Fikrə aydınlıq gətirilərək göstərilir ki, «kişilik deyildir hər kəsin işi, kişi sözü üzə düz deyər, arxada danışmaz». Dastanın önündə verilən hər bir ustadnamə dinləyicini, oxucunu milli dəyər və mənəvi ölçülərimizə yönəldir. Aşağın ustadnamələrdə şeirlə ifadə etdiyi ideya və qayə sonradan bütün dastan boyu inkişaf etdirilir.

Aşıq «Ay ellər, obalar, mübarək qədəm olasınız, daim qapınızı şad xəbər döysün!» deyə dastana sözünü belə başlayır: «Neçə əyyam bundan əvvəl Qəndəhar mahalında bir şah var idi, adına Adil şah deyərdilər».

Adil şah ədalətli və rəhmlidir, ancaq onun övladı olmur. Müdrik söz və hikmət sahiblərinin məsləhəti ilə o, dörd yol ayrıcında ev tikdirir. Ac-yalavacın, yetim-yesirin qarnını doyurur. Adil şahın xarakteri bir gün sarayın qapısına gələn qoca ilə qarşılaşdığı səhnədə açılır. Adil şah insana geyiminə görə yox, ağlı və zəkasına görə qiymət verir. Ağıl və zəka olan yerdə isə ədalət olar, zülm baş tutmaz.

İsmayılın dünyaya gəlməsi, tərbiyəsi və böyüməsi dastana dinamizm gətirir. Burada baş verən sonrakı hadisələrin fövqündə dayanan İsmayılı aşıq baş qəhrəmana çevirir, əvvəlki variantların baş qəhrəmanı Şah İsmayılın prototipi haqqındakı baxışlara diqqət yönəldir. Məlumdur ki, süjetin ilk tədqiqatçılarından olan H.Araslı Şah İsmayılın prototipinin I Şah İsmayıl, M.H.Təhmasibin isə I Şah Təhmasibin oğlu II Şah İsmayılın olması barədəki gətirdiyi faktlar da maraq doğurur. Folklorçu A.Nəbiyevin dediyi kimi bu mülahizələr ümumilikdə H.Araslının dastan qəhrəmanının prototipinin Şah İsmayıl Xətai olması məsələsini bir növ yekunlaşdırır, yeni arqumentlərin ortaya



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxmasını əslində yasaqlayırdı, ancaq bu yasağı yenə M.H.Təhmasib poza bildi: «Əgər bu süjetin prototipini müəyyənləşdirmək üçün mütləq ad eyniyyətinə əsaslanmaq lazımdırsa, onda bizcə bu surət II Şah İsmayıla bənzəyir». M.H.Təhmasib eyni zamanda süjetin adi qəhrəmanlıq süjeti olmasını da ehtimal edir.

A.Nəbiyev isə dastan qəhrəmanının çox qədim nağıllardan gəldiyini ehtimal edir. Doğrudan da Şah İsmayıl nağıllardan gələn obrazdır, yəni dastanın yeni variantının baş qəhrəmanı kimi Şah İsmayılın prototipini axtarmağa ehtiyac yoxdur, çünki dastanın baş qəhrəmanı rəmzi xarakter daşıyır. Onu diqqətlə oxuyanda Şah İsmayılın ağıl, zəka daşıyıcısı olduğu aydın nəzərə çarpır. Buradakı Rəmdar Pəri, Ərəbzəngi obrazları da rəmzi xarakter daşıyır. Yəni Rəmdar Pəri uzaqgörənliyin, Ərəbzəngi isə zorakılığa qarşı mübarizənin – gücün timsalıdır. Burada oxucuya ideya aşılanır ki, ağıl güc və uzaqgörənliklə birləşəndə ibrətamiz gözəllik yaranır, gözəlliyin timsalı isə Gülzar xanımdır.

Məsələyə bu meyarla yanaşsaq, Adil şah da rəmzi obrazdır, ədaləti təmsil edir. Elə məhz bununla da o, əsas variantın mərkəzi obrazı olan Ədil şahdan fərqlənir.

Ədil şah qəddar, zülmkar və qaniçəndir. Dastan söyləyicisi üçüncü ustadnamədə «Qalmasın daş üstə, daşı namərdin» deyə lənətlədiyi personajın Ədil şah olduğuna şübhə qalmır. Onun vəhşi ehtirasını anlamaq üçün adının söz kökünə diqqət yetirmək lazım gəlir; Əd, yəni od! Dastan yaradıcısı oda məxsus yandırmaq, məhv etmək kimi xüsusiyyətləri Ədil şahın üzərində cəmləşdirməklə daha böyük həqiqəti ifadə etmiş olur. Belə ki, su, hava, od, torpaq kimi həyati ünsürlərdən hər hansı biri, eləcə də od təklənəndə fəlakət törədir, aləmi yaxıb, yandırır. Ədil şah da quduzlaşmış odu andırır. Aləmi oda qalayır, qan tökür, öz oğlunun gözünü çıxartdırır. Deməli, dastanın əsas variantının mərkəzi obrazı olan Ədil şah zülmü, yeni variantın mərkəzi obrazı olan Adil şah isə ədaləti təmsil edir. Onun ədalətli siması dastanın son epizodlarında daha aydın nəzər çarpır. Şah İsmayılın üç qızla qayıdıb gəlməsi və oğul toyu ilə bağlı hadisələr fonunda Adil şahın simasında ədalətli şah obrazı tamamlanır. «Mən artıq qocalıb əldən düşmüşəm» deyən şahın vəsiyyəti onun müdriklik və uzaqgörənliyindən bilavasitə xəbər verir. «Vəsiyyət edirəm ki, mənim oğlumun hərəmxanası olmayacaq və camaatdan xərc alınmayacaq. Oğrular, xainlər bu vilayətdən sürgün ediləcəklər, mənim xeyir-duam sizə kömək olsun.» «Şah İsmayıl» süjetinin bütün variantlarında Ədil şah oğlunun sevgilisinə aşiq olur, onun üçün də oğlunun gözlərini çıxartdırır. Bu isə məlum olduğu kimi xalqımızın milli dəyərlərinin deformasiyasıdır. Ənənəvi repertuarın təhrifidir. Təəssüf ki, bu təhrif süjetin bütün variantlarını əhatə etmiş, hətta opera librettosunda da öz əksini tapmışdır. Amma milli yaddaşda qorunub saxlanan motiv də tam unudulub, sıradan çıxmamışdır. Aşıq Haşım variantında o, yenidən repertuara qayıtmışdır. Bu variantda Adil şah oğlunun sevgilisinə aşiq olmur, tarixi deformasiya bərpa edilir. Şah oğlunun gözlərini çıxaran quldurları tutur, gözlərini çıxartdırıb, quyuya salır. Şah İsmayıla böyük toy edir, öz taxt-tacını ona verir. Beləliklə, ənənəvi süjetin kamil variantı bərpa olunur.

Dastanın dili sadə, aydın və obrazlıdır. Fikir yığcam, lakonik ifadə olunur. Məsələn, ata ilə oğulun dialoquna diqqət yetirək:

Adil şaham, yaşım dən-dən,
Yoluna göz dikmişəm mən.
Sən mənim son ümidimsən,
Qapım bağlar qoyub getmə.

İsmayılın, canım ata
İzin ver murada çata
Ömür gün etməsə xata
Billəm, atam səslər məni.

Dastanın yeni variantının sujeti dinamik və rəngarəngdir. Adil şahın dörd yol ayrıcında imarət tikdirməsi və pay verən qoca ilə görüşməsi süjetin bədii müqəddiməsini təşkil edir. Şah İsmayılın ovda ceyranla rastlaşması süjetə dinamizm gətirir, bu dinamizm İsmayılın Rəmdar Pəri və Ərəbzəngi ilə görüş səhnələrində güclənir, dastanı oxunaqlı və maraqlı edir. İsmayılın üç qızla qayıdıb gəlməsi süjetin kuliminasiya nöqtəsidir. Adil şahın son sözü isə dastanın epiloqunu təşkil edir.

Beləliklə, «Şah İsmayıl» dastanı bu vaxta qədər nəşr olunan bütün variantlardan fərqli olaraq orijinal bir sonluqla başa çatır. Xalqımızın milli, mənəvi, əxlaqi dəyərlərinə uyğun dünyagörüşü əks etdirir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# КАРАЧАЕВО-БАЛКАРСКИЙ ПЕСЕННЫЙ ФОЛЬКЛОР О НАШЕСТВИИ АКСАК ТЕМИРА

***Институт гуманитарных исследований правительства КБР и КБНЦ РАН Россия***

Согласно исторической памяти карачаево-балкарского народа, наиболее древний цикл преданий старины и песен относится к периоду нашествия Акъсакъ Темира (Тимура) в степные районы Северного Кавказа и ущелья Кабардино-Балкарии, которые были им совершены в марте 1395 г.

Здесь следует отдать должное известному историку Х.А.Хизриеву, подчеркнувшему, что из народов Северного Кавказа наиболее весомо в устной традиции представлены предания о Тимуре у балкарцев[1].

Ряд записей, сделанных нами в 1979 г. в селениях Безенги, Верхней Балкарии, Булунгу и Хасанье в исполнении замечательных знатоков народных песен и преданий Исмаила Хусайнаева, Хусея Хозаева, Исмаила Сарбашева и Магомеда Шаваева значительно дополнили существующую в карачаево-балкарской этно-фольклористике информацию на данную тему.

Эти предания по своему содержанию носят локальный субэтнический характер и трудно найти в них какую-либо главную объединяющую их сюжетную почву, кроме жестокости завоевателя и учиненного им произвола в различных ущельях Балкарии.

В Чегемском ущелье сохранились топонимы Аксак Темирни Ташы (Камень Аксак Темира), Темирни Къошу (Ставка Аксак Темира), Аксакъ Темирни Атлы Къошу (Конная Ставка Аксак Темира), Аксак Темирни Тохтаучу Жери (Место стоянки Аксак Темира), а у подножья вершины Дыхтенген Акъсакъ Темирни Бодуркъусу – Застава Аксак Темира.

Борьбу против завоевателя возглавляют военачальники Тотур и Таусо, которые погибают в теснине Къапчагъай. У входа в аул Лыгыт вторую волну ополченцев возглавляет местный князь, старейшина общины Дюгербий. Чтобы не попасть в руки полчищам завоевателя, четверо его дочерей поднимаются в гору над аулом, совершают самосожжение и бросаются оттуда. Эта местность по сей день называется Къызла Кюйген Къая (Скала Сгоревших Девушек). Сохранилась и небольшая песня-плач, посвященная этому событию.

В Хуламском ущелье воины Тимура истребляют аул Хурзук, но увидев прячущихся в пещере стариков и детей, они не трогают их.

Полны трагической историей и события в Верхней Балкарии. Согласно многочисленным записям, войдя сюда, он истребляет семнадцать аулов, в живых среди которых оставалось 170 человек. Здесь трудно пришлось завоевателю, так как боевых башен в горах было много и сопротивление было достойное, которое длилось девять дней.

Местность Юштулу до похода Тимура называлась Ынгырай (Долиной Буйволов), новый топоним же связан с легендой, согласно которой в этом месте после бойни оставались в живых трое бездетных женщин. Этим и объясняют название местности Ючтулу, что в интерференции звучит Трое Бездетных.

Этим же периодом песни и предания связывают и этническое самоназвание народа «таулу», увязав это с именем военачальника, объединителя племен во время нашествия Тимура и после этих событий.

Рассмотрим краткий поэтический анализ текстов, содержательные элементы которых непосредственно связаны с событиями указанного периода. Все они носят эмпирический характер: воспевают отдельных героев далекого прошлого, показывают жестокость завоевателя, дается авторская лирическая оценка кое-каким событиям трагического характера.

Так, в Чегемском ущелье сохранилась императивная формула:

Тотур кибик, агъач садакъдан атхын,
Таусо кибик, къаманг бла булгъагъын.
Чтобы ты из арбалета стрелял, как Тотур,
Чтобы ты мечом пользовался, как Таусо!

Небольшая песенка о подвигах четырех сестер, совершивших самосожжение и бросившихся со скалы, чтобы не быть жертвами полчищ Тимура, строится на двустишиях. Глагольная конечная рифма во всех строфах выполняет императивную содержательную роль, подчеркивая их мужество, самоотверженность и нетерпимость к насилию и злу:

[1] Хизриев Х.А.Походы Тимура на Северо-Западный и Центральный Кавказ//Вопросы истории Чечено-Ингушетии. Т.XI, Грозный, 1977.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Быстро к пропасти они добежали,
Все четверо взялись за руки,
Плача и рыдая, глаза свои они завязали.
Выбрали они смерть и честь,
Превратили себя в горящие костры.
Таким поступком смогли себя успокоить.
Никого к себе они не подпустили,
Последние слова они произнесли здесь,
Стоя над пропастью, посмотрели на родное село
И прославили себя таким поступком.

Лиро-драматическими мотивами овеяны сюжетные элементы песни о походе завоевателя в Уллу Малкъар (Большую Балкарию), где он учинил особую жестокость. Монологическая композиция небольшого произведения как бы передает настроение всего народа. Для жителей того периода подобная трагическая ситуация - неожиданное зло, неведомо появившееся в их жизни и судьбе:

Акъсакъ Темир вошел в наш аул,
Учинил больше зла, чем холера,
В степи и горах не оставляет нашу душу,
Нигде он не насытится человеческой душой.
Каждый камень в кровь красную окрашен,
Каждое дерево кровью красной украшено,
Казалось, что все село было истреблено.

В этом небольшом поэтическом тексте ясно видна авторская лирическая позиция патриота своей земли, любящего свою общину и живущего его чаяниями и историей. Песня в основном строится на иносказательных стилевых средствах и императивных формулах повелительного оттенка и небольших повторах..

Внимательное изучение поколенной памяти об этих и других выдающихся представителях карачаево-балкарского народа позднего средневековья дает нам основание сделать кое-какие выводы о времени их жизни, происхождении и подвигах.

В 1978 году в исполнении жителей аула Верхний Чегем Мирзоева Хамзата и Суфьяна Шахмурзаева был записан большой поэтический текст, в котором повествовалось о походе воинов Тимура в Чегемском ущелье. По их рассказам, в прошлом были сказители, которые могли исполнять данное произведение весьма долго.

Песня состоит из следующих сюжетно-повествовательных элементов: народ мирно живет в ущелье и неожиданно получает весть, что появился на свет завоеватель, который захватил многие страны и учинил им большое зло; у него быстрые кони, смелые воины-скалолазы, мастера-лучники и бесчисленное количество воинов. Однажды весной легенда становится былью: бесчисленные полчища завоевателей вторгаются в ущелье, и народ оказывает им сопротивление в теснине Капчагай, где показывает свой героизм и отважность, но, не выдержав натиска, отступает и повторно встречает врага у аула Лыгыт. Сопротивление местных жителей было сломлено, после чего захватчики издеваются над раненными людьми и женщинами; в это время неожиданно в толпе появляется один из старейшин аула по имени Дюгербий, который, обращаясь к захватчикам, обвиняет их в жестокости и безбожии; старцу грубо отвечает один из воинов Тимура, будто он слышал, что у Дюгербия есть красивые дочери и он намерен их забрать с собой и отвезти в шатер своего полководца Акъсакъ Темира, который любит наслаждаться красавицами. Захватчику, который в тексте характеризуется отрицательными эпитетами «къара атлы, маймул санлы, къысыкъ кез» - «черный всадник», «в обезьяньем стане», «узкоглазый», старец молвит, что ему и его друзьям никогда не удастся дотронуться до его дочерей, а если хотят достичь цели, пусть попробуют их поймат. Старца убивают, а за его дочерями устраивают облаву, которая завершается тем, что их не могли настичь; они взбираются на отвесную скалу, совершают самосожжение и бросаются оттуда, чтобы не попасть в руки к врагам.

Остановимся на поэтико-стилевых особенностях песни. На наш взгляд, данное произведение до некоторой степени оправдывает сообщение ученых и путешественников XIX в. о том, что в прошлом у карачаево-балкарцев существовали песни и легенды о Тимуре и Тохтамыше, хотя о последнем нам не удалось зафиксировать какую-либо информацию в устных преданиях или же в других жанрах народного творчества.

Основным композиционно-стилевым методом подачи сюжетных элементов текста является повествование, которое строится на авторском монологе и небольшом диалоге его участников. Сюжетно-содержательную информацию произведения составляет ряд эпизодов, в основе которых лежат этнонравственные противоречия между двумя конфликтующими сторонами.

Вступление как содержательная композиционная категория, состоит из трех микросюжетных элементов: первые две строфы текста, посредством авторской мысли выражают понятие, что таулу мирно живет на своей земле, в весть о надвигающейся страшной силе приходит неожиданно:

| | |
|---|---|
| Кюз аллында элия, | Словно весной молния, |
| Жерни титиретгенча. | Землю заставляла содрогнуться. |
| Чакъгъан терекге уруп, | Словно поразив цветущее дерево |
| Аны эки этгенча. | Его ломала на две части. |



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Затем развитие получает повествование о страшном покорителе, который, имея бесчисленное количество хорошо обученных воинов, завоевал многие страны и народы, учинив им большое зло:

| | |
|---|---|
| Таулу билмей тургъанлай, | Неожиданно для Таулу, |
| Бир аман хапар келди: | Приходит плохая весть: |
| «Бир огъурсуз, бир налат, | «Какая-то неведомая сила |
| Кёп жерлеге жетгенди. | во многих землях побывала. |
| Адамлагъа, халкълагъа, | Людям и народам он, |
| Уллу бушуу бергенди. | Причинил большое зло. |
| Кёп халкъланы, кеп жерлени алгъанды, | Много народов и земель он захватил. |
| Бврына да, къыйынлыкъла салгъанды. | И всем он бедствие принес. |
| Барды аны сансыз болгъан аскери, | Есть у него бесчисленное войско, |
| Сауутлагъа уста болгъан хар бири. | Каждый в нем искусно владеет оружием. |
| Барды анда терк баргъан атла, | Есть у него быстрые кони, |
| Къаялагъа уста чыкъгъан инсанла. | Горы мастерски покоряющие люди, |
| Къама бла таш кесген жашла. | Режущие кинжалами камни ребята, |
| Садакъ бла ат тохтатхан эрле. | Луком сваливающие коня мужчины. |

Вступление завершается третьим сюжетным элементом, который привносит ясность к последующему развитию событий и подталкивает читателей к зачину:

| | |
|---|---|
| Жаз башы кюнлерини биринде, | Однажды в весенние дни, |
| Ачы хапар керти болуп кёрюндю. | Горькие рассказы стали явью. |
| Узакъ болмай ёзенледен | Недалеко от равнин |
| Исси таурухла эштилди. | Горячие вести пришли. |

В каждом из указанных сюжетных элементов употребляются соответствующие их содержанию художественно-выразительные средства.

В первом, где передается реакция народа на весть о нашествии Тимура, словоформа «хапар» - «весть» сравнивается с «элия» - «молнией», от силы которой вздрагивает земля и ломаются деревья.

В следующем композиционном элементе основная содержательная роль отводится передаче силы завоевателя, для чего в контексте употребляется ряд определительных сочетаний «сансыз аскер» - «бесчисленное войско», «терк атла» - «быстрые кони», «къаялагъа уста чыкъгъан» - «мастерски горы покоряющие», «таш кесген жашла» - «камни режущие кинжалами», «ат тохтатхан эрле» - «сваливающие коня мужчины», где опорные словоформы вместе с определяющими словами всецело служат передаче могущества неведомой, злой силы.

Вступление завершается передачей авторской мысли о близости неприятеля, от которого не следует ожидать чего-либо доброго. Для этого в контексте употребляются иносказательные определительные формулы оксюморона «ачы хапарла» - «горячие вести».

Более отчетливо выражены в тексте элементы зачинной поэтики, с указанием участников событий, места действия и ряда топонимов:

| | |
|---|---|
| Сансыз аскер Чегем аузуна кирди, | Бесчисленное войско вошло в Чегемское ущелье. |
| Адам къоймай, аллына салып сюрдю. | Людей всех выгнали впереди себя. |
| Халкъ чыкъгъанет ол аскерни тыяргъа, | Народ весь вышел остановить это войско, |
| Къапчагъайда жаш къалала салыргъа. | В Капчагае строить оборонительные башни. |
| Садакъчыла Шау Камны сакъладыла, | Лучники сторожили Шау Кам, |
| Сюнгючюле Къызыл Ташда турдула, | Метающие копья Кызыл Таш охраняли, |
| Бетлерин, санларын жау таба бурдула. | Свое лицо в сторону врага обращали. |
| Баш жашла болмагъанларын билдирдиле, | Они дали понять, что непростые ребята. |
| Ол кюн жигитликлерин кёргюздюле. | В тот день они показали героизм. |
| Экинчи кюн хорлагъанет, ол мурдар. | В следующий день одолел этот убийца, |
| Къаннга алынды саулайынлай, Чегем тар. | В кровь было обращено Чегемское ущелье. |
| Къарт, сабийни Лыгыт-Элде къырдыла, | Стариков и женщин в Лыгыт-Эль истребили |
| Жаш къызлагъа айыплыкъла салдыла. | Над молодыми девушками надругались. |

Складывается впечатление, что зачин, как композиционная категория, в освещении содержания текста занимает значительное место. Ибо в данной повествовательной формуле обозначены названия местностей и баталий, видов боевого оружия и настроение людей.

Главный сюжетно-повествовательный композиционный элемент произведения состоит в



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

конфликте между местным князем Дюгербий, который хочет приостановить насилие со стороны завоевателей и одним из воевод Тимура – Балтасёз, для которого не существуют элементарные моральные ценности даже на бытовом уровне.

На свою просьбу приостановить истребление мирных жителей князь получает ответ военачальника, что у него красавицы дочери, которых он намерен забрать с собой и отвезти в шатер к своему покровителю Аксак Темиру, который любит наслаждаться красавицами.

Конфликт достигает апогея, когда князь сравнивает пришельца с бездомной собакой и что никогда не завладеть ему его дочерьми и этому никогда не быть. Реакция со стороны завоевателя была мгновенной: моралью не в состоянии словесно тягаться со старцем, воевода совершает физическое насилие над ним и мирным аулом Лыгыт:

Къартны да жанын алайда алдыла,
Къалгъан халкъгъа уллу ачык салдыла.
Таш къалмады къызыл къаннга боялмай,
Кюн ётмеди, къатын, киши сарнамай.
Къан болдула Чегем тарда сабанла,
Къара итлеча айланалла аманла.
Къан ырхыча барды ол кюн Жалауда,
Адам къаннга ёкюрдюле тууарла.

Старика на месте убили тогда,
Другим большое горе принесли,
Не осталось камня, где бы ни было человеческой крови.
Не было дня, чтобы не причитали женщины и мужчины.
В кровь превратились нивы в теснине Чегема,
Бродят словно черные псы нечестивцы.
Струей текла в тот день кров в Жалау.
Быки мычали от (запаха) человеческой крови.

Дальнейшие действия ведут к завязке текста. Погоня завоевателей оказывается безуспешной. Четверо дочерей Дюгербия быстро поднимаются на отвесную скалу, совершают самосожжение и бросаются с утеса вниз. Согласно существующей легенде, после этого случая данная местность была названа Къызла Кюйген Къая – Скалою Сгоревших Девушек.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## ETNOPSİXOLOJİ YADDAŞDA TORPAQ VƏ DƏRVİŞ KULTU

***F.e.n. Xuraman Hümmətova***
***AMEA Ədəbiyyat İnstitutu***
***Azərbaycan***

Yunus Əmrənin yaşadığı çağda Anadolu bölgəsində oturaq mədəniyyət yaranmağa başlamışdı. Bu mədəniyyətin inkişafında hakimiyyətdə olan Osmanlı sülaləsinin də xüsusi marağı vardı. Təbii ki, oturaqlaşmağa başlamış, oturaq mədəniyyətinə keçmiş türklərdə yeni dini-fəlsəfi təfəkkür tərzi də formalaşır, sufi dərvişlər də oturaq mədəniyyəti təbliğ edirdilər.

İslami-irfani dünyagörüşün nəticəsində artıq şeirin, sənətin mövzusu da dəyişməyə başladı. Bu mövzudəyişmənin əsasında oturaq mədəniyyətdən gələn dəyərlər az rol oynamırdı. Təbii ki, Yunus kimi dinc həyatı sevən, insanları bir gözdə görən, onları dininə, dilinə, irqinə görə ayırmayan mütəsəvvüf şair ölkələr fəth edib, qan tökən, din yayan köçəriliyi yaxşı qiymətləndirə bilməzdi. «Divan»ında gedən şeirlərin böyük əksəriyyəti oturaq mədəniyyətə həsr olunmuş Yunus Əmrə yaradıcılığı buna parlaq örnək ola bilər. Deməklazımdır ki, oturaq həyatla bağlı mövzu, Qayğusuz Abdalda, Aşıq Paşada, Hacı Bayram Vəlidə, əsərlərinin əksəriyyətini farsca yazmış Mövlanə Cəlaləddin Rumidə də güclüdür. Bir sözlə oturaq mədəniyyətdən gələn mövzular sufi ədəbiyyatında xüsusi çəkiyə malikdir. Bu mövzu qismən, Xətaidə zəifləyir. Bunun da səbəbi Şah İsmayıl Xətai köçəri tayfalara arxalanaraq qurduğu dövlətdə köçəriliyin geniş vüsət tapmasıdır.

Yunus Əmrənin simasında sufi şeiri artıq yeni bir dövrdə yaşamaqda idi. Bu dövr dediyimiz kimi dini-təsəvvüfi görüşlərə bağlı olub daha çox oturaq həyatdan gələn və rəmzlərlə zəngindir. Məsələn, klassik divan ədəbiyyatından gələn gül-bülbül, bağ-bağça, bağban motivi Yunis Əmrədə təsəvvüf rəmzlərinə çevrilir. M.Kaplanın yazdığı kimi bu rəmzlər Anadoluda əkinçiliklə, bağçılıqla məşğul olan və oturaq həyat keçirən dərviş zümrəsinin dünyagörüşündən irəli gəlirdi.[506] Hətta şair özünün şeir sənətini solmayan gülüstana bənzədirdi:

*Gəl varalım bizim ilə kim giresin bağçalerə,*
*Daim ötər bülbüllərin, gülüstanım solmaz benim.*

Şəhərsalma mədəniyyətinə hələ Orta Asiyada yaxşı bələd olan türklər bağçalıqla, bostançılıqla da məşğul olurdular. Anadolu dərvişləri bağça-bağ salmaq həm özlərində, həm də müridlərində sakitlik, səbirlik aşılamağa çalışırdılar. Bu isə artıq türk dərvişlərinin yeni mühitdə tərbiyə olunması demək idi. Yunus Əmrədə bağ-bağça mövzusu təsadüfi xarakter daşımır. Bu mövzunun arxasında şairin əxlaqi görüşləri, dünyaduyumu, təriqət ideyalarının yayılması durur:

*Bir bağ ki, viran ola, içi dükanlə dola,*
*Artmaq neyləsin od ilə yanmayınca.*
*İssızlaxu yaxanda adın odunu bulunur anda*
*Kavi, taşı çaxmağı bir yerdə olmayınca.*

Yunus Əmrədə bu mövzu özünəməxsus işlənsə də, demək lazımdır ki, ağac, su, torpaq, gül, bağça mövzusu təsəvvüf ədəbiyyatında qaş, göz xətt-xal qədər geniş işlənmiş sufi rəmzləridir. Yunus Əmrədə bir çox ilahilərində bu mövzudan rəmz kimi istifadə etmişdir:

*Sən gülü görürkən digənnə sunma əlini.*

Bir çox ilahilərində şair gülü tikana, bağçanı viranəyə qarşı qoyur. Bu tip şeirlərində Yunus Əmrə təsəvvüf şairindən daha çox xalq aşığını xatırladır. Şair gülü, bağçanı, bağbanı vəsf etdiyi şeirldərində tipik kənd həyatının mənzərəsini yaradır. Bu mənzərədə biz qışın soyuğunu, əsən xəfif küləklərin yazın gəlməsini xəbər verdiyini, təbiətin canlandığını, bülbüllərin ötdüyünü, güllərin açdığını, hər tərəfin laləzar olduğunu, suların belə nəğmə oxuduğunu, şırıltılı bulaqların adamı valeh etdiyini görürük.[507]

Şair bir rəssam kimi gözlərimizin önündə yazın gəlməsini lövhələrlə çəkir və bunları belə anladır:

*Yenə rəhməti bilqiyas, yenə işarət aldı dəm saz,*
*Yenə gəldi bu yeni yaz, qutlu qədəm basdı yenə.*
*Yenə yeni xəzinədən yeni xilat qeydi cihan,*
*Yenə verildi yeni can, ötü ağac susdu yenə,*
*Ölmüş idi, ötü şəcər, dürülbən geri bitər.*
*Müşriklərə püxtə yetər, var itdüdü nəsli yenə.*

Yazın gəlməsi ilə təkcə hər yer, hər şey yaşıl dona bürünmür, həm də yaşamaq üçün yeni

---

[506] Kaplan M. Yunusun gül bağçasında – Yunus Emre. Ankara, 1991, s.176.
[507] Gökyay O.S. Yunus Emreyi və halq şairlərini anlamaq. Tarih və toplum, sayı 40. İstanbul, 1987, s.57-58.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nemətlər bitirən torpaq insanları yedirib içirir. Torpaq təkcə insanları deyil, heyvanları, quşları, cansız olanları da yedirir.

*Nədür bir kişi bəlki cümlə aləm*
*Nəsibini alır, nə büsunə kəm.*

Yunus Əmrə yaradıcılığında «torpaq» anlayışı həm də «yer», «bölgə», «Vətən», «el» mənalarını daşımaqdadır.

Xalq inanclarında göy yeddi qatdan ibarətdir. Bu qatın birincisi torpaqdır ki, orada canlı məxluqat yaşayır. Bundan sonrakı qatlarda isə mələklər, pərilər və qılmanlar yaşayırlar. Yeddinci qat isə ilahi qatdır ki, burada Allah öz taxtı üzərində oturub dünyanı idarə edir. Xalq inanc tərzində belə bir rəvayət də var. Əskidən göy yerə çox yaxın imiş, insanlar bir-birini öldürür və bərəkətin qədrini bilməzlərmiş. Bundan qəzəblənən Tanrı yeri göydən uzaqlaşdırır.[508]

İslami düşüncə tərzində isə maddi varlığı təşkil edən dörd ünsürün biri də torpaqdır. Bu dörd ünsürün insan həyatında və onun xislətinin formalaşmasında böyük rolu var. Klassik şeir ənənəsinə uyğun olaraq Yunus Əmrənin «Risalətün-Nüshiyyə» əsəri Adəmin yaradılması «bismillah» deyib gətirdiyi torpaq deməklə», şair dörd ünsürün (ənasirin) torpaq ilə suyu bünyad eylədi». Onları hərəkətə gətirən «yer gəldi ardınca gətirdi anı», sonra atəşin onlara hərəkət verdiyini deyir. Şair bu ünsürlərin hər birinin özü ilə nə gətirdiyini vurğulayaraq – torpaq ilə gəldi dörd sifət – səbrü, eyü, hütəcəkkül, məkrumət. Məsnəvidən göründüyü kimi, torpaq və su bütün yaxşı keyfiyyətlərin mənbəyidirsə, odla külək isə əksinə, pisliklərin mənbəyidir. Biz Yunus Əmrənin «Risalətül-Nüshiyyə» didaktik məsnəvisində torpağa böyük dayaq verdiyini görürük. Müəllif ilk insan olan Adəmin torpaqdan yaradılmasını, şeytanın Adəmə səcdə etməməsinin səbəbini torpaqdan yaradılmasında görür. Şair bunu risalədə belə açıqlayır:

*Çalab Adəm cismini torpaqdan var eylədi*
*Şeytan gəldi Adəmə tapmağa ar eylədi.*
*Eydur: Ben oddan nurdan ol bir ovuc torpaqdan*
*Bilmədi kim Adəmin için gövhər eylədi.*

Təlmihlər üzərində qurulan bu əsərdəki hadisələr o dövr Anadolusunda – şairin yaşadığı mühitdə oğuz türklərinin həyatında baş verən hadisələrin əksidir. M.Kaplanın dediyi kimi, «Yunusun məsnəvisi o dördə yaşayan türk toplumunun sosial həyatı və insan qruplarının təlimidir.

Torpağa, əkinə-biçinə, gülə-bülbülə, bağ-bağçaya bu qədər geniş yer ayıran Yunus Əmrə ilahilərində heyvanlardan da bəhs edir. Ancaq heyvan mövzusu şairdə mənfi mənalıdır. Belə ki, heyvan nəfsə uymağa, ömrü boşa keçirtməyə sövq edən mənfi obraz kimi daha doğrusu, şeytani hiss yaradan obraz kimi təqdim olunur. Yunus Əmrəyə görə özünü, sözünü bilməyən, Tanrınısı dərk etməyən insan məhz hissiz, düşüncəsiz qaba heyvan kimidir.

*Dost döşəginə keçməz atü qatır, yaxud dəvə,*
*İşsiz adam heyvan olur, heyvan ögüt bilür degil.*

Yunus Əmrə haqqa çatmaq üçün heç bir cəhd göstərməyən insanlardan danışanda da heyvan obrazlarından istifadə edir. Bu obraz onun ilahilərində yardımçı vasitə rolunda çıxış edir:

*İşbu sözün anlamayan aydan sənə nəyə bənzər:*
*Heyvndurur anun kibi tağda yürür sürü-sürü.*

Dediyimiz kimi, Yunus Əmrə poeziyasında bağ-bağçaya, sakit həyata, əkib-becərməyə müsbət münasibət hiss olunmaqdadır. Əksinə, heyvandarlığa, köçəriliyə qarşı bir ikrah duyulur. Bu da şairin oturaq türk zümrəsinə bələdliyi, daha doğrusu, gəncliyində əkinçi olması ilə bağlıdır. Yunus Əmrədə əkinçiliyin, həm də oturaqlığın maldarlığa, köçəriliyə qarşı qoyulması XIII-XIV əsrlər Anadolusunda baş verən ictimai-siyasi dəyişikliklərlə əlaqədardır. Belə ki, köçərilər oturaq əkinçilərə yuxarıdan aşağıya baxırdılarsa, əkinçilər də maldarı öz hissini boğa bilməyən, düşüncəsiz, kobud, qaba adam hesab edirdilər. Yunus Əmrə bu mədəni-kulturoloji ikinci qütbündə durmaqla əkinçiliyə, bağçılığa olan müsbət münasibətini bildirirdi. Məhz buna görə də Yunus Əmrənin poeziyasında döyüşkən, qan tökməyə hazır ərən obrazı yoxdur. Yunus Əmrədə barışçılıq təbliğ etmək artıq qayəyə çevrilmişdir. Yunus Əmrə bütün ruhu ilə barışçı şairdir. Şairin yaradıcılığı başdan-başa iki dünyagörüşün çarpazlanmasından irəli gələn mövzularla zəngindir. Şərti olaraq bu mövzuları iki yerə ayırmaq olar:

1. Milli dünyagörüşlə bağlı köçərilik, maldarlıq motivləri.
2. Oturaqlaşmış əkinçi şüuruna söykənən mövzular.

---

[508] Arif Acalıov. Azərbaycan mifoloji mətnləri. Bakı, 1988.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

-

Özündən əvvəlki təsəvvüf şairləri torpağa hansı münasibət anlamında yanaşıblarsa, onların xələfi olan Yunus Əmrə yaradıcılığında da torpaq mövzusunu həmin münasibət hiss olunmaqdadır. Məsələn Əhməd Yəsəvi torpaq olub ayaqlar altına sərilməyi böyük fəzilət hesab edib «torpaq ol, hamı səni basıb keçsin» deyirdisə, Yunus Əmrə torpağın hər şeyi yetişdirdiyini nəzərə alaraq onu uca tutur:

*Ol dost yüzün gördü gözüm, ərənlərə torpaq yüzüm,*
*Miskin Yunus ərənlərə təkəbbür olma torpaq ol.*

Başqalarının ayağı altında torpaq olmaq əslində insanı didib-parçalayan qüruru, mənliyi öldürmək anlamındadır, çünki könlünü alçaq tutan dərviş haqqın dərgahına çatmaq üçün bütün riyazətlərə dözə bilər, əks-təqdirdə, oda adi insan kimi dünyanın mal-mülkünə tamah salıb, ona bağlanar. Bu mənada dərvişliyin, müridliyin birinci şərti özünü torpaq kimi hamının ayaqları altına sərməkdir.

Təsəvvüf şairinin özünü, könlünü torpaq etməsi ali sadəlik rəmzidir. Dərvişlərin sufiliyi belə bir sadəlik üzərində qurulmuşdur.

Dərvişlik onun yolları, dərviş mədəniyyəti təsəvvüf şairlərinin, təriqət ədəbiyyatının ana mövzularındandır. Bir çox təsəvvüf şairində kamil insan tipi dərvişdir. Dərgahda piri önündə illərlə qulluqda duran, mənəvi ucalıq zirvəsinə çatmaq üçün əzablara dözən, dərvişlik məqamlarını keçən, bədənini ruhuna, əqlini könlünə tabe etdirən dərviş təsəvvüfdə haqqa qovuşan, «haqq ilə haqq olan ərəndir».[509] Yunus Əmrənin ilahilərində məna və dəyər simvolu kimi dərviş uca tutulur. Çünki dərviş səbri, dəyanəti, dözümü simvolizə edən insandır. Dərviş insanları pis işlər görməkdən, insanları pis əməllərə zövq edən, onları heç kimə ziyan vurmamağa səsləyir. Şair dərvişin simasında dostluğu, ədaləti, haqqı təbliğ etməyə çalışır. Dərvişin dili ilə o belə deyir:

*Kimsə bağına girməgil, kimsə gülünü dərməgil,*
*Var kəndü məşukun ilə bağçada ol alış yürü.*

Yunus Əmrəyə görə dərviş öz içinə dönən, öz iç dünyası ilə mübarizə aparan insandır, çünki bütün pisliklər insana öz içindəki nəfsdən gəlir. Öz içindəki nəfsi yenən, içində Tanrısını tapan dərviş mənəvi güc simvolu kimi Yunus Əmrə poeziyasında tərənnüm olunur. Sufilər öz içlərinə qapılıb öz varlıqları ilə döyüşə atılmağa «cihadi-əkbər» adını vermişlər.[510] Öz içindəki «mən»i ilə döyüşən doğrudan da ən ali insandır:

*Dünyadan əlini çəkə, əliylə arpa əkə,*
*Ununa yarı gül qata, günəşdə qurutmaq gərək.*

Dərvişin yeganə varı onun mənəvi zənginliyidir. Yunus Əmrəyə görə, dərvişlərin könül zənginliyi, varlıların könül boşluqları ilə tərs mütənasibdir, çünki mənəvi cəhətdən zəngin olan dərviş heç nədən qorxmaz, onun gözündə aslan da qarışqaya dönər. Əsl dərviş özünü hamıdan aşağı tutan, heç kimdən, heç nədən qorxmayan, çəkinməyən, özünə qapılıb öz içində yaşamağı üstün tutan insandır. Yunus Əmrəyə görə, dərvişin əxlaqı hər şeydən üstündür, bununla da fəxr edir:*Hər kimə kim dərvişlik bağışlana,*

*Qəlbi gündə pak ola gümüşlənə,*
*Nəfsindən müşk ilə ənbər tuta,*
*Budağından ilü şor yemişlənə,*
*Yarpağı dərdli üçün dərman ola.*

Yunus Əmrəyə görə dərviş döyülsə də, söyülsə də cavab verməyən, öz əvvəlki mənəvi ucalığından enməyən, nadanlara qoşulmayan insandır, haqq yolçusudur. Həm də dərviş özünü xalqla bir tutur:

*Dərviş könülsüz gərəkdir,*
*Sögənə dilsüz gərəkdir,*
*Dögənə əlsüz gərəkdir,*
*Xalqa bərabər gərəkməz.*

Şair ilahilərində təsvir etdiyi haqq yolçularının, dərvişliyinin şərtlərini bir-bir sadalayır, dərvişin zahiri aləmi ilə deyil, daxili dünyası ilə dərviş olduğunu bildirir. Şairə görə dərvişlik yolu çətin olduğu üçün əsl ər yoludur:

*Dərvişlik dedikləri xirkayla tac degil,*
*Könlünü dərviş bilən xirkaya möhtac degil.*
*Xirkanın nə suçu var, sən yoluna varmazsan,*

---

[509] Gözəlov F. Haqq ilə haqq olan aşiq. Türkologiya jur. 1995, №1-6, s.72.
[510] Bax: Manakibi Hacı Baktaş Veli – Vilayet-name. Kaydlan, s.157.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Vargil yolunla yürü, ər yolu qalmaz degil.*
*Dersin Seyhun yoluna yalın ayaq, baş açıq,*
*Ər var dirlik dirilmiş, yalın ayaq aç degil.*

Yunus Əmrə dərvişliyi çətin bir peşə kimi təsvir edir. Boynuna dərvişlik düşən adam heç vaxt dünya sevgisinə, xalqın etibarına inanmamalı, dostunu Tanrı, sevgilisini Tanrı, inamını Tanrı bilməlidir:

*Kim dərvişlik istərisə,*
*Diyəm ona nitmək gərək.*
*Şərbəti əlindən qoyub,*
*Ağunu nuş etmək gərək.*

Dərviş, şairə görə, şeyxinin sözünə danışıqsız əməl etməli, onun tapşırıqlarını canla-başla yerinə yetirməlidir:

*Gəlsin gərək tərbiyətə,*
*Cümlə bildiklərin qoya.*
*Mürəbbəsi nə derisə,*
*Bəs ol anı dutmaq gərək,*
*Tuta səbrü-qənaəti*
*Təhəmmül eyləyə qatı,*
*Tərk eyləyə surətini,*
*Bildügün unutmaq gərək.*

Şeyixinin sözünü tutub ona əməl edən dərviş maddi maraqları, dünya ilə bağlılıqları qəlbindən silməlidir. Yunusa görə, dərvişə könlü darlıq yaraşmaz, çünki könlünü, əqlini şeyxinə verən dərvişin həmişə qəlbi geniş olur. Həm də əsil dərvişə dünyanın bütün sirri ayandır. Dünyanın həqiqət sirrini bilən adam könül darlığına qapılmaz. Bu mənada dərviş şəriət xadimləri olan axundlardan, müftilərdən üstün tutulur. Dərviş oxumaq və yazmaq yolu ilə deyil, könlü ilə haqqın sirrinə vaqif olan insandır. Arif olan heç vaxt xudbinliyin xüsusiyyətlərindən olan qürura, həsədə yol verməz:

*Bu dərvişlik baratın oxumadı müftilər,*
*Anlar nə bilsin anı bu bir gizli varaqdır.*
*Yunus, sən arif isən anladum, bildim demə,*
*Tut miskinlik ötəgin, axir sənə gərəkdir.*

Miskinlik ətəyini tutan, az danışan, sözünü, çəkisini bilən dərvişin qalan keyfiyyətləri haqqında Yunus Əmrə söz açaraq bir ilahisində deyir:

*Dərviş olan kişilərin miskinlikdir sərmayəsi,*
*Miskinlikdən özgə bizə malü-mülkü şor gərəkməz,*
*Ər əlini aldınısa, ərə könül verdinisə,*
*İkrar ilə gəldin isə, pəs ərə inkar gərəkməz.*

Yunus Əmrənin ilahilərində işlətdiyi təxəllüslərdən biri də «Miskin Yunus»dur. Deməli, şair də özünü miskinlik yolunu keçib haqqa qovuşan dərviş adlandırır. Miskinlik bir sufilik anlayışı kimi haqq yolçularının mənəvi kamillik ölçüsüdür. «Miskin olan arif»dir, kəlamı təsəvvüfdə əsas anlayışdır.[511]

Yunus Əmrə insanın iç aləminə nüfuz etməyə çalışır, çünki insanın özünün kim olduğunu bilməsi üçün daxilinə nüfuz etməsi lazımdır. Buna görə də, şair öz içindən gələn səsi dinləyir, kənardan gələn səslərə qulaq asmır. Deməli, dərviş öz zahiri sükutu ilə içindəki ilahi səsi dinləyir, az danışır, deməli, ariflik mərtəbəsinə yüksəlir:

*Tışım dərviş, içim boş, dilim tatlı, sözüm xoş,*
*İlla bən itdigümü dinin denşirən etməz,*
*Yunus, əksikliyini Allahına ərz eylə.*
*Anun kərəmi çoxdur, sən etdigin ol etməz.*

Yunus Əmrə tədricən dərvişliyin keyfiyyətlərindən onun fəlsəfi məzmununa keçir. Bu mənada o öz fəlsəfi görüşlərini inkişaf etdirərək dərvişin simasında söz-insan-Tanrı üçlüyünü açmağa çalışır. Yunus dərvişin içində danışan ilahi səsi və bu səsin (əslində sözün) Tanrı mənşəli olduğunu xüsusi olaraq vurğulayır:

*İşbu vücud şehrinə hər dəm girəsim gəlür,*
*İçindəki sultanın yüzün görəsim gəlür,*
*İşidirəm sözünü, görəməzəm yüzünü,*
*Yüzünü görməkligə canım verəsim gəlür.*

---

511 Bax: Köprülü F. Türk edebiyatında ilk mütasavvüflar. Ankara, 1991.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dərvişin sözlərini hikmətə bənzədən Yunus Əmrə, həm də hikmət sahibinin kimliyini öyrənməyə çalışır. Bu ilahi biliyin nə olduğunu şeirlərində aydınlaşdırır. Şair hər bir biliyi bilən, hər bir sözü söyləyən odur deyir, çünki eşidən, görən, göstərən də odur:

*Surət söz kanda suldı, söz issi kaçan oldu,*
*Surətə göndü gəldi, dil hikmətin yoludur.*

Böyük Füzulidən təqribən üç əsr qabaq Yunus Əmrə sözə verdiyi qiymətlə özünə ölməzlik qazanmışdır. Yunusun sözə verdiyi fəlsəfi dəyər belədir:

*Söz karadan akdan degil, yazıb oxumaqdan degil,*
*Bu yürüyən xalqdan degil, xaliq avazından gəlir.*
*Söz var qılır qayğunu şad, söz var eylər bilişi yad,*
*Əgər xarlıq, əgər izzət, hər kişiyə sözdən gəlir.*
*Biz bir bahanə arada, ayrıkda əldən nə gələ,*
*Haqq üçün əmir eylər, cana bu kələçi andan gəlir.*

Yunus Əmrə adi insanın danışığı ilə dərvişin haqq dili ilə söylədiyi sözləri bir-birindən ayırır. Mənasız danışan adam içindən gələn səsi eşitməz, öz «mən»inin səsinə qulaq asar. Ancaq şairə görə Tanrıya qovuşmaq yolunda insanı çalışmağa zövq edən, küfr etməyə qoymayan daxili səs həmişə dinlənilməlidir. Əks-təqdirdə insan susmağı danışmaqdan üstün tutmalıdır.

Deməli, Yunus Əmrə yaradıcılığında torpaq və dərviş kultunun qədim inam sistemində özünəməxsus yeri olmuşdur.

## КУЛЬТЫ ЗЕМЛИ И ДЕРВИША В ЭТНОПСИХОЛОГИЧЕСКОЙ ПАМЯТИ
## РЕЗЮМЕ

Во времена перехода от кочевого образа жизни к культуре оседлого градостроения Юнус Эмре в своем творчестве придающий большое значение как образу миротворца, так и культу затем, призывал людей к братству. Символы имеющее место в классической литературе потерпели нерешены в творчестве поэта. Эти перемены были связаны с мировоззрением начинающего оседлый образ жизни дервиша.

## THE CILT OF LAND AND WANDERER (DERVISH) IN ETHNOPSCHOLOGICAL MEMORY
## SUMMARY

During the transition of the middle urbanic culture of normdic life to sedentary life Yunus Amra who valued the cult of land for a peaceful life besides the role of reconciler in his creation, called people for friendship and equality.

The symbols which had taken place in classic literature, changed their forms. The outlook of the wanderer (dervish) who began sedentary life caused these changes.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# AŞIQ ƏHMƏDİN DASTAN YARADICILIĞINDA AZƏRBAYCAN DASTANCILIQ ƏNƏNƏLƏRININ DAVAMI

***Yaqut Əşrəfova***
***AMEA Ədəbiyyat muzeyi***
***Azərbaycan***

Azərbaycan xalq ədəbiyyatının klassik epik növlərindən biri dastandır. Kökü tarixin dərinliklərinə gedən dastanlar zaman keçdikcə ideya-bədii, mövzu-məzmun etibarilə təbii olaraq dəyişirlər. Cəmiyyətin inkişafı, elmi-texniki tərəqqi şifahi xalq ədəbiyyatı incilərinin toplanması, qorunub saxlanması və təbliği işinə qüvvətli təkan vermişdir. Yeni həyat, yeni mühit dastanın mövzu palitrasının klassik çərçivədə qalmasına baxmayaraq, məzmun baxımından onu zənginləşdirmişdir. Belə ki, ənənəvi məhəbbət mövzulu «Leyli və Məcnun», «Əsli və Kərəm», «Aşıq Qərib», «Tahir və Zöhrə» və b. ilə qəhrəmanlıq dastanı «Koroğlu», «Qaçaq Nəbi» və s. yanaşı yeni məzmunlu, lakin bu qəbildən olan dastanlar yaranmışdır. Beləliklə, xalq yaradıcılığı, folklor əsərlərinin ən önəmli özəlliklərindən biri olan anonimlik şəklini dəyişmiş, xüsusilə aşıq yaradıcılığında isə həm anonim, həm də müəllif əsəri kimi inkişaf etmişdir. Çünki, bir yandan aşıqlar klassik anonim irsi mənimsəyərək repertuarlarına daxil etmiş, onları ifa etmiş, digər tərəfdən ifa zamanı onun müəllifi kimi çıxış etmişlər. Müəlliflik eyni zamanda orijinal dastanlar yaratmaqla da özünü büruzə verir.

Bədii söz və ifaçılıq sənətinin son dərəcə mürəkkəb və sintetik nümunəsi olan aşıq sənəti dastan növünün inkişafında mühüm rol oynayır.Şirvan aşıq məktəbinin böyük sənətkarlarından biri Aşıq Əhmədin yaradıcılığında dastanlar geniş yer tutur.Ustad aşıqlar özlərinəqədərki söz xiridarlarının əsərlərinə sahib durmaqla yanaşı özləri də misilsiz sənət əsərləri və musiqi yaradırlar. Aşıq Əhməd belə söz sərraflarından biridir və təsadüfi deyildir ki, o, 20-dən artıq dastan yaratmışdır. Mövzu və məzmun etibarilə bu dastanlar tariximizi, dünənimizi, bu günümüzü, xalqımızın və vətənimizin həyatında baş verən müxtəlif hadisələri, insanların talelərini, sosial və şəxsi həyatları, sevgiləri uğrunda mübarizələrini əks etdirirlər.«Aşıq Mirzə Bilal», «Şirvan və Fərqanə», «Yasər Xəzri və Səhər Təbrizi» (8) dastanları klassik mövzu və ənənələrlə yanaşı dərin sosial-ictimai problemləri də özündə ehtiva edirlər. Ünlü sənətkar aşıq Bilalın ictimai bərabərsizliklər məngənəsində çəkdiyi maddi və mənəvi sıxıntılar, böyük sənət uğrunda göstərdiyi əzm və dəyanət, «Şirvan və Fərqanə» dastanlarındakı gənc qəhrəmanların sevgisi eyni zamanda iki mühüm pambıqçılıq mərkəzinin- Azərbaycan və Özbəkistanın dostluq tellərinin möhkəmlənməsi və yaxud «Yasər Xəzri və Səhər Təbrizi» dastanında sevgilərinə qovuşmağa can atan iki gəncin simasında Xəzər qoynunda mövcud olan Şimali Azərbaycanla Təbrizli qızı Səhərin- yəni Cənubi Azərbaycanın ayrılıq dərdi böyük ustalıqla «sətir arxası», «eyham», «üstüörtülü» işarələr vasitəsilə verilmişdir. Bu əsərlərin xalq tərəfindən böyük həvəslə, dönə-dönə eşitmək istəyi və sevilməsi əbəs deyildir. Belə gözəl əsərlərin yayılması və öyrənilməsi, tədqiqi və nəşri ədəbiyyatşünaslıq, folklorşünaslıq və sənətşünaslığın ən ümdə problemidir. Sevindirici haldır ki, Aşıq Əhmədin «Aşıq Mirzə Bilal», «Yasər Xəzri və Səhər Təbrizi», «Arif və Qərənfil», «Gəlin-qaynana», «Canbaxış və Qudyal», «Aşıq və falçı» dastanları çap olunub (14, 15, 16, 17, 9, 10).

Söz yox ki, tədqiqatçılar belə bir fikri təsdiq edirlər ki, «epik söyləyicinin əsas vəzifəsi dinləyici üçün tanış, ənənəvi olan hekayəti ona tanış, ənənəvi yolla nəql etməkdir və uğurlu, fasiləsiz ifa üçün ifaçı yaradıcılıq texnikasına, başqa sözlə, ənənəvi dil, ənənəvi tematika, ənənəvi kompozisiya fəndlərinə tam yiyələnməlidir.» (11, s.32). Lakin epos poetikasının və ifaçılıq kanonlarının belə tam təkrarı novatorluq prinsipini aradan qaldıra və tarixi baxımdan, ümumiyyətlə, dastan növünün və onun müxtəlif janr rəngarəngliyinin təkamülünü ləngidə və hətta məhv edə bilər.Dahi sənətkar Aşıq Ələskər məşhur «Ustadnamə»sində «Aşıq olub tərki-vətən olan» hər bir sənətkara qiymətli tövsiyyəsini, nəsihətini verib, dünyanın ən ali və ulu həqiqətlərini bəyan edir. Bu ali həqiqətlər isə dəyişib, inkişaf etməkdə və həyat kitabını yeni-yeni «Süjetlərlə» zənginləşdirməkdədirlər.

Yuxarıda dediyimiz kimi, klassik dastan mövzularını belə özünəməxsus bir biçimdə yaşadan ustadın onlara təsiri iki istiqamətdə özünü büruzə verir. Bu obyektiv və subyektiv səbəblərdir.Bunlardan birincisi sənətkarın mənsub olduğu Şirvan aşıq məktəbinə mənsub olmasıyla bağlıdır.İkinci istiqamət isə Aşıq Əhmədin fərdi subyektiv yaradıcılıq dəst-xətti ilə bədii-yaradıcılıq özəllikləri ilə bağlıdır.Yeni dastan yaradıcısı kimi isə Aşıq Əhmədin novatorluğu daha bariz şəkildə özünü göstərir.Aşıq Əhmədin gözəl bir kəlamı vardır: «Həkim insan əzasının mühəndisi, aşıq isə insanın qəlbinin dilmancıdır. Aşıq yüzlərlə tamaşaçının dilini tapdığı, ürəyini oxuduğu üçün sevilir, alqışlanır.» (8).Bu kəlamdan çıxış edərək deyə bilərik ki, müasir dövrdə əsasən nisbətən qapalı, urbanizasiya mühitindən uzaq mühitdə qorunub yayılmış dastanlar Aşıq Əhmədin sayəsində dar hüdudları aşaraq, ümumxalq rəğbətini qazanmışdır. Bu isə, ustadın fərdi sənətkarlıq bacarığının nəticəsində mümkün olmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mövzu və məzmun rəngarəngliyi Aşıq Əhməd dastanlarında bariz şəkildə özünü göstərir və bunu isbat etməyə lüzum yoxdur. Sənətkarın yaradıcılığında ideya zənginliyi həm klassik irs, həm də yeni dastanlarda təzahür olunmuşdur. Əsil sənətin ölməzliyi, təmiz məhəbətin əbədiliyi, etik, mənəvi zənginliklərin, humanizmin mütləq qələbəsi, zülm və zalimlərin qəhr olması bütün bu yüksək arzular dastan yaradıcılığının əsas ideyasını təşkil edir.

Kompozisiya baxımından ustadın dastanları formaca klassik qəbildən kənara çıxmasa da məzmunca onun əsasını təşkil edən ünsürlər baxımından novatordur.

Məsələn, dastanın klassik kompozisiya qəlibinə ustadnamə daxildir. Əsasən üç hissədən ibarət olan bu ünsür əksər hallarda şeirdə yaranır. «Aşıq Mirzə Bilal» dastanında isə sənətkar əsərini epik «bəyan ilə başlayır». Əzəl gündən aşıq elini, el də öz aşığını sevmişdir. Elə buna görə də saz çalıb oxuyanlara «el aşığı» deyirlər.

Bir də deyirlər: «Aşıq elin anasıdır». Əlbəttə, bu sözün arxasında dağ boyda bir həqiqət dayanıbdır. Çünki hər aşıq öz dövrünün adamlarını pislikdən- yaxşılığa əyrilikdən-düzdüyə, yalançılıqdan-doğruluğa, sərtlikdən-sadəliyə dəvət edir. O həm də bütün yaradıcılığında insanları vətənpərvərliyə, xalqlar dostluğuna çağırır, öz hünər və halal zəhmətinə baş ucalığına yetişməsini, sülh və əmin-amanlıqla ömür sürməsini tərənnüm edir.

Əlbəttə, bu nəsihətamiz sözlər ağıllı ata və anaların öz övladlarına xöşbəxtlik bəxş edən işıqlı sabahının yoludur. Ona görə də «Aşıq el anasıdır» deyən kim isə – yanılmamışdır. (8).

Konflikt baxımından yeni dastanların verdiyi nümunələr rəngarəngdir burada XIX əsrin sonu XX əsrin əvvəllərində Şamaxı-Şirvan həyatının real lövhələrindən başlayaraq Sovet dövrü əmək qəhrəmanlarının quruculuq və yaratmaq əzminə qədər səhnələr öz əksini tapmışdır. Aşıq burada real həyat, gerçəkliklə dastan epikliyi arasında vəhdət yaratmağa müvəffəq olmuşdur. Seyid Əzim Şirvani, Mahmud ağa, İbrahim, Mirzə Bilal, Rəsul Səlim bəy və b. real tarixi şəxsiyyətlərin surəti eyni zamanda epik qəhrəman qəlibinə uyğun səciyyələnmişdir (8).

Şirvan aşıqlarının atası sayılan Aşıq Mirzə Bilalın həyatı, saf məhəbbəti, zəngin mənəvi aləmi, yaşayıb-yaratmaq əzmi və bu mühitdə onu əhatə eləyən insanların davranışı, bütün bunların ifadə tərzi həm bədii-estetik, həm də tərbiyəvi əhəmiyyət daşıyır.

Dil-üslub baxımından sənətkarın fərdi bədii təsvir imkanları və poetika çox genişdir. Nəsr və nəzm təhkiyədə bir-birini əvəz edir. Şeirlərin ölçü, vəzn ağırlığı rəngarəngdir və burada Aşıq Əhməd sözün hərfi, nominal, məcazi məna çalarlarından böyük ustalıqla istifadə etmişdir. Məsələn, sevgilisi Bilala Soltanxanım belə bir məktub yazıb göndərir:

Namə, gedər olsan yarın yanına
Məndən salam yetir, əllərindən öp!
Sarıl qamətinə, dolan boynuna,
Sədəfli sazının tellərindən öp!

Sən yetir ərzimi könül yarına,
Onu dəyişmərəm dünya varına.
Səcdə qıl otağın daş-divarına,
Dolan, pəncərənin millərindən öp!

Sinəmə dağ çəkdi bu hicran qəmi,
Nədən xəstə düşüb könül həmdəmi?
Sığa, Soltanxanım, sonalar kimi,
O tək yaşılbaşın gözlərindən öp! (8)

Burada «namə» sözü tarixi, arxaik və eyni zamanda «yüksək poetik» üsluba daxil olan bir kəlmədir və dastanın sevgi xəttilə eyni «temperatur»- duyğu dalğasındadır. Sənətkar «naməni» şəxsləşdirmiş, ona gənc qadına, qızlara, gəlinlərə, ümumiyyətlə sevgililərə xas olan «vəzifə» həvalə etmişdir. Burada aşıq həm bir-birindən ayrı düşmüş sevgililərin təşnəsini, iztirablarını göstərmiş, həm də bu işi «namə»yə buraxmaqla, pərdələmək vasitəsilə etik Azərbaycan mentalitetini qoruyub saxlamışdır.

Poetika baxımından da şeirin qafiyə-rədif təşkili maraqlıdır:

-birinci dördlük- katren çarpaz qafiyəli olub «abad» sxemi, ikinci dördlük üç həmqafiyə və bir sonluqlu «a a a b» sxemi, üçüncü dördlük yenə də üç həmqafiyə və bir təkrarlanan sonluq- I, II, III katrenləri tamamlayan qafiyədən ibarətdir- «c c c b». Şeir strukturundakı qafiyənin normal vəziyyəti- misranın sounnda rəvangəlməsi çox da asan deyil, lakin misradaxili qafiyə olduqca çətindir və böyük ustalıq tələb edir. Məsələn, yarın (I sətir)- dolan (III sətir); əllərindən (II sətir)- tellərindən (IV sətir) millərindən (VIII sətir)- gözlərindən (XII sətir) «Öp sözü burada təkrarlanaraq həm ümumi qafiyə və ritmi təşkil etmiş, həm də bir «təkrir» kimi yazanın və ünvanlananın duyğularının dərinliklərini göstərmişdir.

Ölçü etibari ilə on bir hecalı bu üç katren kiçicik bir mənzum şeirdə dünyaya sığmayan şair könlünün həm iztirabı, həm də qüdrəti vardır. Soltanxanımın ilahi məhəbbəti dilsiz-ağızsız, cansız əşyaları belə- otağın daş-divarını, pəncərənin millərini- sevgilisini əhatə edən hər şeyi sevgilisinin nuruna qərq edir. Və təəccüblü deyil ki, xəstə Aşıq Mirzə Bilal şəfa tapır, sanki bir qarlı dağın ağırlığından xilas olur. Soltanxanımın vəfası və msilsiz gözəlliyi Bilalın ilhamını cuşa gətirir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Soltanxanım, namən gəldi yetişdi,
İltimas eylərəm, gözlə yar məni!
Yolum bulaq üstə dübarə düşdü,
Çaldın şux baxışla, gözlə, yar məni!

Şux baxanda gözlərimə gözlə sən,
Gözlərini bəd nəzərdən gözlə sən.
Sədaqəti, etibarı gözlə sən.
Sədaqəti, etibarı gözlə sən,
Al qoynunda gizlə, gözlə, yar məni!

Birinci bənddə çarpaz qafiyəli (aba b) «yar məni» rədifli şeir, ikinci bənddə üç həmqafiyə və dördüncü qıfılbənd «yar məni» rədifli misra. Məzmunu lirik-romantik ruhlu bu cavab şeirində Aşıq Əhməd qəhrəmanının dərin psixoloji duyğular aləminə baş vurmuş onun daxili aləmini zərif qəlbiylə duymuş, Aşıq Bilala layiq söz demiş və bədii təsvir vasitələrindən ustalıqla istifadə etmişdir. Şeirə müraciət edək. Birinci dördlükdə verilmiş «yetişdi» (1-ci sətir)- düşdü (3-cü sətir)- natamam misrasonu qafiyə, «məni»- (2-ci sətir) -«məni» (4-cü sətir) tam misrasonu qafiyədir.

İkinci dördlükdə: ilk iki qonşu sətirlər tam iç və dış (xarici, sətir sonu və ya misra sonu) qafiyə, üçüncü misranın qafiyəsi omonimikdir, yəni yazılışı başqa, oxunuşu eyni- fonetik eynilik olduğundan buna omofon qafiyə də demək olar. Dördüncü misra «yar məni» birinci dördlüyün ikinci və dördüncü qafiyəsi ilə həmqafiyədir və tamdır. Səkkiz misralı şeirin ikinci, dördüncü, səkkizinci misralarındakı «gözlə» sözü həm sətirdaxili qapalı tam qafiyə, həm də incə təcnis nümunəsidir. İkinci misrada «gözlə» aşiqin sevgilisinə onu gözləyib unutmamasına («gözləmək» feli) xahişidir. Dördüncü misradakı «gözlə» - sevgilinin yarını gözü ilə tilsimləməsidir və «göz» mənasını verir. İkinci dördlükdə birinci sətirdə «gözlə» - «göz» mənasında, ikinci misradakı «gözlə»- qorumaq, qeydinə qalmaq, üçüncü misrada «əhdə vəfalı olmaq» - felin şərt forması, sonuncu dördüncü misrada isə «gözlə» sözü «keşik çəkmək», yad gözlərdən uzaq tutmaq mənasında işlənmişdir.Burada Aşıq Əhmədin bir şair kimi insan ruhuna, insan psixologiyasına son dərəcə həssaslıqla yanaşmaq istedadının şahidi oluruq və onun söz sərrafı, təşbeh ustası, ana dilmizin dastan yaradıcılığının mahir bilicisi olduğunun şahidi oluruq. Burada ədəbi dillə xalq danışıq dilinin, müasir sözlərlə klassik ədəbiyyat kəlmələrinin ahəngini görürük: «namə», «yar», «ərz», «səcdə qıl», «həmdəm», «könül», «hicran», «sona», «yaşılbaş» yazılı ədəbiyyat, klassik şeir leksikası ilə yanaşı «sarıl», «yetir», «əl», «öp», «dolan», «tel», «dünya, «pəncərə», «mil», «dağ çəkmək», «xəstə» və s. kimi ümumişlək sözlər işlədilmiş və bu harmoniyadan iki sevən qəlbli insanın möhtəşəm portreti yaranmışdır.«Yasər Xəzri və Səhər Təbrizi» əsərinin mövzusu klassik məhəbbət dastanıdır və iki gəncin sevgisindən bəhs edir. Lakin, əsərin məzmunu bu çərçivəni geniş miqyasda aşaraq, siyasi-ictimai tarixi mövzularla səsləşir. Aşıq Əhməd klassik realist sənət prinsiplərindən çıxış edərək dastanın başlığında ana fikri lakonik formada aşkar etmiş bir növ «danışan» isimlər, adlar vasitəsilə xarakteroloji obrazlar silsiləsi yaratmış və bunların yardımıyla geniş simvollar sistemi ilə eyhamını vurmuşdur. Sovet totalitar sisteminin tuğyan etdiyi dövrdə Aşıq Əhməd şəffaf eyhamla işarəsini vermiş tarixi haqsızlığı- bir xalqın Araz qılıncıyla ikiyə parçalanmasını üsyan etmişdir. Müdrik kövsər ananın dili ilə bədbinlik dumanını- çənini qovub iki gəncin vüsalından arzusunun çin olmasına ümidinin – o tay- bu tay Azərbaycanın qovuşması üçün dua etmişdir:

*a* Yeri, göyü, ərşi, kürsü yaradan,
*b* Haqqı-haqqdan şəri-şərdən ayrımaq!
*c* Ağıllı fikri, xoş əməlləri,
*b* Yaratdığın heç bəşərdən ayırma!

*a* Çəkilsin səmadan tüstü, çən, duman,
*a* Yer üzündə nə zülm olsun, nə də qan!
*a* Günəşi gündüzdən, ayı axşamdan,
*b* Dan ulduzun üfüqündən ayırma!

*d* Ya Rəbb, bu alqışı eşit Kövsərdən,
*d* Zəfər ilə gəlsin oğlum səfərdən!
*d* Xan Arazı Kürdən, Kürü Xəzərdən,
*b* Yasəri də o Səhərdən ayırma! (8)

Səhər gələcək-müstəqbəl qayınanasının xeyir-duasını oxuyub fərəhdən sanki qanadlanır, xəyalı onu Təbrizdən Bakıya gəlin köçürür. Bakı-Təbriz arasındakı tikanlı məftil, dəmir pərdə sökülüb, şimal-cənub ayrılığı bitib. Bu gün, əlçatmaz arzuların, edilən duaların müstəcəb olduğu bir zamanda Aşıq Əhmədin müdrik qəlbinin və uzaqgörənliyinin şahidi oluruq- əlçatmaz arzular artıq çin olmuşdur.

Aşıq Əhməd 20-dən çox dastanı mükəmməl bilməklə, yarım əsrdən çox bir müddətdə hafizəsində Azərbaycan dastanlarının Şirvan aşıq mühitinə xas olan variantlarını qoruyub saxlamaqla öz ifasında təkmilləşdirmiş, təravətləndirmişdir. Bunlardan «Tufarqanlı Abbas», «Zəncanlı Qurbani», «Koroğlunun Bağdad səfəri», «Koroğlunun Tovqat səfəri» onun çox sevdiyi, söyləməkdən doymadığı dastanlardır. Bunların ifasında Aşıq Əhmədin dastançılıq məharəti ilə «meydangirlik» - səhnə mədəniyyəti – natiqlik, aktyorluq, rəqqaslıq, xanəndəlik istedadı birləşərək, sənət əsəri zirvəsinə ucalırlar. Koroğludan bəhs edərkən aşıq qoç Koroğluya dönür, Kərəmdən danışanda eşq atəşində yanan gəncə çevrilir, Leylidən, Əslidən söz edəndə incə, zərif qadın obrazına

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

girərdi. Keçəl Həmzənin o qədər komik, alçaldıcı göstərirmiş ki, məclisdəkilərin gülməkdən barmağını kəssən xəbərləri olmazmış. Əslinin atası Qara Keşişin qəddarlığını elə inandırıcı oynayarmış ki, dinləyicilər, tamaşaçılar ona qarğış, nifrət yağdırarmış. Hər ifasında yeni vurduğu bəzəklər, xallar, çalarlar, rənglər vurarmış ki, xalq çalğıçılar belə heyran-heyran yeni dastan dinləyirmiş kimi ona qulaq asarmışlar. Aşığın özünün dediyi kimi o, xalqının ürəyini oxumağı bacardığı üçün xalq tərəfindən sevilir və yaradıcılığı belə uca zirvəyə layiqdir. Aşıq Əhmədin dastan yaradıcılığı genişdir və onun tam şəkildə öyrənilməsi, tədqiq edilməsi vacibdir.

## ƏDƏBİYYAT:

1. Abbasov İ. Ön söz. Azərbaycan ədəbiyyatı inciləri: Dastanlar. Bakı, Yazıçı, 1987, 17s.
2. Abdullayev T. Ziyalılar fəxrimizdir. Bakı, Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 1998, 230 s.
3. Abdullayev T. Onlar xatirələrdə yaşayır. Bakı, Çaşıoğlu, 2001, 262s.
4. Araslı H. Aşıq yaradıcılığı. Bakı, Birləşmiş nəşriyyat, 1960.
5. Aşıq Əhməd. Sazımın telləri. Bakı, Azərnəşr, 1965.
6. Aşıq Əhməd. Əlləriniz yorulmasın. Bakı, Yazıçı, 1980, 43 s.
7. Aşıq Əhməd. İtən sazım. Şur nəşriyyatı, 1995, 144 s.
8. Aşıq Əhməd. «Şirvan və Fərqanə», «Yasər Xəzri və Səhər Təblizi», «Rəhniyə və Fərmayıl», «Arif və Qərənfil», «Kasənasda Qiyafət», «Canbaxış və Qudyal», «Elşən və Gülşən», «Aytən və Zöhrab», «Hövcət və Məşəqqət», «Aşıq Mirzə Bilal» dastanları şəxsi arxivimizdədir.
9. Azərbaycan dastanları. 5 cilddə. Tərtib edənləri Ə.Axundov, M.N.Təhmasib. c.1, Bakı, Az. SSR EA nəşriyyatı, 1965; c.2, 1966; c.3, 1967; c.4, 1969; c.5, 1969.
10. Azərbaycan dastanları. Topl. nəşrə hazırlayanı A.Nəbiyev, Bakı, 1977.
11. Гриндер П. Древнеиндийский эпос. Москва, Наука, 1974, 419 стр.
12. Жирмунский В.М. Тюркский героический эпос. Ленинград, Наука, 1974, 727 стр.

**РЕЗЮМЕ**

**Эпическое творчество Ашуга Ахмеда**

В статье говорится о дастанном творчестве известного азербайджанского ашуга Ширванской школы - Ашуга Ахмеда. В работе исследуется специфика, идейно-художественные особенности, поэтика дастанов мастера, анализуруются оригинальные дастаны, созданные Ашугом Ахмедом – «Ашуг Мирза Билале», «Ясер Хазри и Сехер Тебризи» и др., а также его исполнительское мастерство.

**SUMMARY**

**The epic (dastan) activity of Ashug Akhmad**

In the given article the author touches upon the dastan activity of the famaous ashug of the Shirven school of azerbaijan Ashug Akhmad, researches the specifics, idea-artistic peculiarities of the masters dastans. She also analizas the orijinal dastans, created by ashug Akhmed such as “Ashug Mirza Bilal”, “Yasar Khazri and Sahar Tabrizi” and etc., his performing skill.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# TURK KULTUR COGRAFYASINDA Hz. HIZIR ILE ILGILI INANCLAR

***Dr. Yasar Kalafat***
***Turkiye***

***Her Geceyi Kadir***
***Her geleni Hizir bil***

**GİRİŞ;**

Konuya Türk Kültür Coğrafyası'nın tanımı ile girmek istiyoruz. Şüphesiz Türklük bir kültürel vetiredir. Bu coğrafya ise, Türk kültürlü halkların varisi ve yapıcısı oldukları kültürün yaşan alanıdır. Biz bu coğrafya da Hızır inancını halk inançlarından hareketle incelemeye çalışacağız. Bu coğrafyada diğer birçok yer gibi Uluğ Türkistan, Kafkasya, Balkanlar, Orta Doğu'da Hızır inancı yaşamaktadır. Bizim çalışmamızın özünü ise, Doğu Anadolu'nun Alevi inançlı Zazalar'nın inançlarında daha bariz olarak görünen Hz. Hızır, Güney Anadolu Alevi inançlı Nuseyriler'inde farklı boyutta görünen Hz. Hızır ve Azerbaycan'da Dağlılar olarak bilinen kesimde ön plana çıkan Hz. Hızır inancı arasındaki benzerlikler ve farklılar oluşturacaktır.

Hızır, bir tespitte Peygamber, bir tespitte Evliya Ullahtan bir kimse ve başka bir tespitte de efsanevi kahraman olan bir kimsedir.

Hz. Ali (r.a.) Hz. Muhammed'e Hızır (a.s.) ı rüyasında gördüğünden bahisle, savaşı kazanması için kendisine bir dua öğretmesini istemesi üzerine, Hz. Muhammed Hz. Ali'ye 'İsm-i a'zam'ın ne kadar okunur ise o derece faziletli olacağından bahisle önerir.

**METİN;**

Anadolu Türk kültür coğrafyasında Hızır kültü etrafında birçok inanç motifi bir araya gelerek adeta bir yumak oluşturmuştur.

Erzincan Tercan'ın Komlar köyünde 13–14 ve 15 Şubat'ta **Hızır Cemi** yapılır Cemi **Peykçi** yönetir ceme küsler katılamazlar. Cemde meydana dökülenleri oniki makamdan birisi olan **Süpürgeci** temizler.

Tunceli Pülümür'ün Dere Köy'ünde Şubat'tan Mayıs'a kadar **Hızır Cem**'i yapılır. 5 gün **Hızır Orucu** tutulur. Kesilen kurbandan herkes yemek zorundadır. Dedenin üflediği ve bu nedenle de kutsal olduğuna inanılan bir tas sudan herkes içer. Semah'tan sonra Hızır Cem'i biter. (Öcal Oğuz, **Türkiye'de 2005 Yılında Yaşayan Geleneksel Kutlamalar**, Gazi Üniversitesi, THBMER yayını, Ankara 2005 Sf. 11)

Ankara Bağla'nın Afşar kasabasında her 'Kuzu Bucağa Dayanınca' yani Mayıs ayında 'Düt Dede Şenlikler' yapılır. Bu şenliklerin halk dilindeki adı Hıdrellez'dir. **Düt Dede** XIII. Yy.da bastonu ile vurduğu yerde bir Dut ağacı çıkar ve ismini buradan alır. Bu dutun meyvesini bir ordu yese bitiremez, ziyaretinde yüzlerce kurban kesilir, ağaçlara kurdele bağlanır, dileklerinin olacağına inanılır. Dönüşlerinde taşların altında canlı bir karıncanın görünmesi dileklerinin kabul gördüğüne yorumlanır. Kutlamaların sonunda o yıl çok yağmur yağdı ise "**Şükür Duası**" na az yağdı ise " **Yağmur Duası**" çıkılır. Bir orduya yetecek kadar meyvesi olabilmek Evliya sırrıdır. İfşa edildiğinde sırlar hikmetlerini yitirirler.

Yozgat'ın Divan'lı köyünde her yıl 6 Mayısta Hıdrellez kutlamaları yapılır. Yağmurlu geçen bu günler Hıdır ile İlyas'ın buluşma günleri olarak kabul edilir. Burada Hıdrellez'in adı **Eğrice**dir. Kelime, Hıdrellez'den evvel ekilen ekinlerin eğri çıkacağı inancından çıkarılmıştır. Hıdrellezde gül ağacının dibine yapma bebek konur veya sembolik beşikler yapılır bununla bebek talebinde bulunulmuş olunur. Mani çömleğinden başı tülbent ile örtülü çocuğa mani çektirilir. Kısmetlerinin açılması için kızların başında kilit açılır. **Kilit Açma'**nın çeşitli şekilleri vardır**.(a.g.e)**

Tokat'ın Akyamaç köyünde her yıl 6 Mayıs'ta Hıdrellez **Evrüce Günü** olarak kutlanır. Bu kutlamalar **Atay Dede'**den beri devam etmektedir. Burada Hıdrellez'den evvel doğacak çocukların sakat olacağına inanılır. Köydeki **Orhan Ulusoy'**un türbesi ziyaret edilir burada '**lokma**' dağıtılır. Buradaki kurban merasimi anlatan Ali Şen'in şirinde;

'Layık olanlara verir lokmasın
Pişmiş lokma yiyen çıra bakmasın
Rızada müminler dışa çıkmasın
Kurbanınız kabul olsun erenler' demektedir.

Hıdrellez'de ikramı yapılan yemeğin adı '**Bad**' dır. Burada hıdrellez'in kutlandığı yerlere **hamile kadın** getirilmez.

Adıyaman'da 6 Mayıs'ta kutlanan Hıdrellez inancında, Hz. Ali'nin doğum günü olduğu inancı vardır. Burada da benzerlerinde olduğu gibi yakılan ateşlerin üzerinden atlanır.

Afyonkarahisar'da her yıl 6 Mayıs'ta Hıdrellez kutlanır. Sabah namazından sonra taliplerle birlikte evlenme zamanı gelmiş genç kızlar yanlarına bir **asma kilit** alır evli veya yaşlı bir kadınla **Karahisar Kale**sine çıkarlar. Kadınlar kilitleri kızların başında açarak kısmetlerinin açmasını sağlarmış olurlar. Kalenin yanındaki **Kız -Kulesi'**nden;



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bahtım bahtım
Altın tahtın
Evlenecek vaktim derler. Kaleye çıkanlar eş değil de çocuk beklentisi içinde iseler,
Çocuğum olacak vaktım vak
Okul bitirecek vaktin, deler.

Burada kutlamaların yapıldığı yere **'Hıdırlık Dağı'** denir.

Afyon Dinar'da 6 Mayıs'taki Hıdrellez için 5 Mayıs'ta dilekler dilenir ağaçlara çaputlar bağlanır. Ertesi gün erkenden bu dilekler suya söylenir. Hıdrellezde en çok yenilen yemek **Piş**'tir**(a.g.e**)

Aksaray'ın Tekke İlçesinde Hıdrellez'de ambarların ve çuvalların ağzı açık bırakılması bereketin artacağına inanılır.

Ankara Bala'nın Keklice köyünde **soğan bahçesi**nin yanına dilekler çizilerek istekte bulunulur. Ertesi gün çizilen şekiller bozulmuşlarsa bu şekillere Hızır bastığı için bozulduğunu böylece dileklerinin kabul olacağına inanılır. 6 Mayıs Hıdrellez'de kadınlar **tandır**da toplanır ve hamur işi yaparlar. Böylece bereketin atacağına inanırlar. Bereketin celbi adına yapılan yemekler komşulara dağıtılır. Bu gün sağılan süt evin dışına konur akşama kadar bu **süt** mayalanır ise Hızır'ın geldiğine inanılır. Burada kız evine oğlan evinden süslenmiş koyun gönderilir. Bu hayvan günün kutlamalarında kesilip yenilir. Hıdrellezde yeşilliğe çıkan hasta çocukların şifa bulacağına inanılır.

Ankara Çubuk Aşağı Emirler Köyünde, küçükler Hıdrellez **Ateş**inin üzerinden atlarlarken büyükler etrafında halay çekerler. Ateş sönerken herkes birbirlerinin yüzüne **kara** sürer

Ankara Çubuk Dumlupınar köyünde Hıdrellez Ateşinin üzerinden atlayanların günahlarının döküleceğine inanılır. Manilerin çekileceği küp için iki kız çocuğu çiçek toplarlar, okunacak manileri çekecek kızın adı '**gelin**'dir. Hıdrellezde **salıncak**lara da bilinir.

Ankara Mamak'ta Hüseyin Gazi Hıdrellez Kutlamaları'nda **Hüseyin Gazi Dağı**nın etrafında 3 defa **tavaf** dercesine dolanılıp dilekte bulunulur. Hüseyin Gazi'ye ait **gürs**ün deliğinden başını uzatan kimsenin baş ağrının geçeceğine inanılır.

Antalya Kumluca Yazır köyünde 6 Mayıs **Hızır** ile İlyas'ın buluştukları gün olarak kabul edilir. Yemekler **Olympos Dağı**ndaki ulu bir **ağac**ın altında yenir kaplar oradaki **çeşme**de değil bereketli olması için **dere**de yıkanırlar Burada Hıdrellez'de muhakkak salıncağa bilinir. Bugün ulu bir ağaca kurulmuş tek kişilik salıncağa binenlerin sallanırlarken günahlarının döküleceğine inanılır ve ne kadar yukarılara sallanabilirlerse o gün o derece Allah'a yakın olacaklarına inanırlar. Bu itibarla yüksek dallar seçilir ve küçük büyük herkes **salıncağ**a biner. (**a.g.e.)**

Burada akşamdan dilekler bir kâğıda yazılıp gün doğmadan ağacın dibine konup sabahleyin yine kimse görmeden oradan alınırlar. Burada ağaçlara bağlanan **adak bezler**inin giysilerden kesildiği, yırtıldığı da olur. Ayrıca adak bezi ne kadar yüksel dala asılır ise mesajın daha yakın zamanda alınacağı inancı vardır. Buradaki bir diğer uygulama şekli de belli miktarda **zeytin tanesi**nin üzerine dua okuttuktan sonra onların **deniz**e Hıdrellez'de atılmalarıdır. Geçmişte, **mayasız süt** kaynatılıp üstü örtülüp yoğurt olması beklenirdi. Süt yoğurt olur ise, dileğin olacağına inanılırdı.

Antalya'nın Korkuteli ilçesinde 6 Mayıs günü Hızır'ın gelip gelmediğini anlamak için **un** elenir unun üzerinde Hızır'ın izleri var ise gelmiş olduğuna hükmedilir. Burada da dilekler kâğıda yazılıp **gül ağacı**na asılır veya toprağa çizilerek mesaj verilir. Bir diğer uygulama şekli de aynı uzunluktaki iki **soğan yaprağı**nın birisine **ak** diğerine **kara** iplik bağlanır. Ertesi gün tekrar boyları ölçülür ak iplikli soğan uzamışsa o yılın bolluk ve mutluluk kara iplikli soğan uzanır ise o yılın kıtlık ve üzüntü yılı olduğuna inanılır. Antalyalılar bu ilçede otların üzerindeki çiğilden **süt**e maya yaparlar süt maya tutarsa Hızır'ın uğradığına o yılın bereketli geçeceğine yorumlanır. Bu günde tabiattan enerji ve güç alınmak istenir. Yeşil bitkilerle temas kurulur, boyunun uzamasını isteyenler kavak ağaçlarına asılırlar. Herkes **salıncağ**a binmek ister. Bütün bunlara ilaveten Hıdrellez'de bulunacak olan **dört yapraklı yonca**nın hikmetine inanılır.

Balıkesir'de Hıdrellezde Hızır izlerini tespit için **un** serilir, **mani güveci** için çiçek toplanır. Yiyecek Çuvallarının ve para cüzdanlarının ağzı içine bereket girsin diye açık bırakılır. Hızır'ın pis olan eve girmeyeceği inancından hareketle evler temizlenir. Pis ev bırakılmak istenmez. Dilek tutularak eşit uzunluktaki **soğan**lara ak ve kara iplik bağlayarak hangisinin uzayacağını takip ederek yorumlama inancı burada da vardır. Halk arasında Hızır'ın geç uyananları sevmeyeceği inancı vardır. O gün şık giyinmiş halk köy meydanında büyük bir kazanın başında **mayasız süt**ün Hızır tarafından mayalanmasını bekler. İlginç olan bir inanç o gün yapılan piknikte yenilen yemeklerden **çalma**nın bereketi artıracağı şeklindedir. Mani güvecine yüzük atmak burada '**Dağara Yüzük Atma'** olarak bilinir. **Salıncağ**a binmenin hikmetine burada da inanılır. Ancak **kel** olan kimse binmemelidir inancı vardır. Hıdrellezde günahların dökülmesi için **ateş**ten atlanmalı ve salıncağa bilinmelidir, salıncağa binmeyenin başının kel olacağı inancı vardır.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hıdrellez ateşinden atlayanın ahirette **cehennem ateşi**nde yanmayacağına inanılır. Hıdrellezde muhakkak **küs**ler barışmalıdır, mezarlıklar ziyaret edilip yazı ve maketlerle Hızır'a dilekler iletilmelidir. Burada Hıdrellezde en çok ziyaret edilen yatır **Ayak Dedesi**'dir. (**a.g.e**.)

Balıkesir'in Zeytinlisi'nde de ağaçların dibinde şekil çizilerek, dallara ipler bağlanılarak talep iletilmek istenir ve merasimler için Han Meydanı'nda toplanılır. En fazla hazırlanan yemek **keşkek**'tir.

Bilecik'in Pazaryeri ilçesinde her yıl Mayıs'ın 6 sında Hızır ile İlyas'ın **atlı** olarak buluştuklarına inanılır. Atlarının ağızlarından çıkan **köpük**lerin patlangaç/mürver veya gül ağacına bulaşmış olduğu inancı vardır. Bu köpüklerin bereket getirici olduğuna inanılır ve temin edilebilmesi halinde bu köpüklerin ev ve ambarlara sürülmesine çalışılır. Hıdrellez günü yaprağın dahi kıpırdamadığı durgun havada pınar ve derelerden alınmış su ile mayalanılacak **süt**ün yoğurt olacağına inanılır. Gül ağaçları dibinde şekil ve yazı ile talep duyurma uygulaması burada da vardır. **Hıdrellez Pilavı'**nın pişirileceği meydana giderken **mani kazanı**ndan maniler çekilmeden evvel herkes kapısına yeşil bir dal veya çiçek asar. Genç kızlar camide Kur'an okur geçmişlerin ruhuna bağışlar bereket için dua ederler. Eğlencelerde yumurta oyunları oynanır.

Çanakkale Lâpseki Üçtaşlar köyü Hıdrellez kutlamalarında Hızır baharın müjdecisi olarak bilinir ve çeşitli çiçeklerden örülmüş cüppesi ve **al yemeni**si ile bastığı yerlerde güllerin açtığına inanılır. Burada **Hızır Ateşi'**nin yakılmasını, oyunların düzenlenmesini, dilek ağacına dileklerin yapılması ve Niyet Çömleğinde Manilerin okunması, nohutlu **Hızır Pilavı**nın hazırlanmasını **Çeribaşı** iye bilinen seçilmiş kimse yönetir. Burada dilek ağcının dibinde olduğu gibi deniz kumsalında da şekiller çizilerek dilekte bulunulur.

Çorum'da Hıdrellez yemeği olarak **Hedik** bilinir. Burada dualar için **Kereb-i Gazi Türbesi**'ne gelinir. Çorum'da Hıdrellez eğlenceleri ve **niyet küpün**den mani çekmek de vardır.

Çorum Osmancık'ta dua için **Arafat Tepesi**ndeki **Koyun Baba Türbesi**ne gidilir.

Gaziantep'te 5 Mayıs günü başlayan Hıdrellez kutlamaları 6 Mayısta tamamlanır **Niyet Ağacı**na gidilmede 2 rekât namaz kılınır. Ağaçtan alınan niyet yazıları Alleben nehrine atılır. Şeker niyet edilir ve ertesi yıl Hıdrellezde dağıtılır. Söğüt ağacından koparılan dallara 40 Fatiha, 40 İhlâs okunduktan sonra dilek dilenerek nehre atılır. Buradaki ünlü bir söze göre, 'Getir bana Hıdrellezi göstereyim sana yazı' denir

Isparta'nın Keçiborlu ilçesinde Hıdrellezde kır sofraları hazırlanır, ağaçlara dilek çaputları bağlanır, genç kızlar bir araya gelip kendi aralarında kilitler açar, **kilit** açmaya rağmen kısmeti açılmayanın inancında samimi olmadığına inanılır.(**a.g.e.)**

Karabük-Safranbolu'nun Çelikli köyünde kıtlığın yaşanması **Hızır Baba'**nın köye gelmeyişi ile izah edilir. Hızır Baba gelsin kıtlık olmasın diye Hıdrellez kutlanır. Bunun için **Kurt Tepe'ye** çıkılır. 3 gün evvelinden kutlamalar başlar ve **7 Boy Yufka** Açılır. Halk erkenden kalkar köyün yakınındaki türbeye gider, türbenin etrafında 3 defa **tavaf** edercesine döndükten sonra toplu halde namaz kılınır. Adaklılar da Ogün pişirilmek kaydıyla adadığı pirinç, bulgur gibi şeylerle tavaf yapar yemekleri erkekler hazırlarlar daha sonra türbeye gidilip dua edilir. Türbede bulunan asırlık çınarın kozaları toplanıp bolluk ve bereket getireceği inancı ile evlerde saklanılır.

Karaman'da Hıdır ile İlyas'ın Büyük İskender'in Ölümsüzlük Suyu'nu aramaya çıkmış iki askeri olduklarına inanılır. Bunlar yemek yerlerken sofralarındaki kuru balığa deniz suyu sıçrar ve balık canlanır. Bu esnada bir melek gelir Hızır ve İlyas'ın kıyamete kadar yaşayacaklarını ancak Hızır'ın karada İlyas'ın ise sürekli denizde olacağını, senede bir gün bir araya gelebileceklerini söyler. 6 Mayıs'ın yağmurlu geçmesi bu buluşma ile izah edilmektedir. Havadaki bulut ise sevinçleri sonucu ağlamaları olarak yorumlanmaktadır. Gül ağacının dibinde yapılan Hıdrellez uygulamaları burada da vardır. Karamanın bazı ilçelerinde gül ağacının dibine 5 Mayıs'ta konulan ağzı kilitli sandık ertesi gün sabahleyin açılması ile evin kızının kısmetinin açılacağına inanılır.

Kars Susuzun Ermişler köyünde Hıdrellez Ocak ayının sonu ile Şubat ayının başı arasında kutlanırdı. Halen burada Hıdrellez 5 Mayıs'ta başlamakta, o gece halk oruç tutmakta, ertesi gün evvelce serilmiş olan **un**un üzerinde **Hızır'ın Atı'**nın ayak izlerini aramaktadır. Yapılan ekmekten bütün köye eşit olarak dağıtılarak kıtlığın önleneceğine inanılır. Hızır'ın atının yiyip içmesi için su ve arpa hazırlanır. Dilek Taşları'nın altına dilekler konur. Ertesi gün hangi taşın altında uğur böceği görünür ise, sahibinin dileğinin olacağına inanılır. Gençler kısmetlerini tahmin edebilmek için **Tuzlu Kavurga** yiyip gördükleri rüyayı yorumlarlar. 6 Mayıs günü mereklerin kapıları Hızır bereket getirsin diye açık bırakılır. Pencere ve kapıların kilitleri açık bırakılır. Gül ağacı ve niyet çekme uygulaması bu şehrimizde de vardır. Arıca 6 Mayıs günü sabahtan akşama kadar **süpürge**ye el vurulmaz ev süpürülmez ki Hızır'ın getirdiği bereket gitmesin. Bu günün bilinen ünlü yemeği **Haşıl**'dır. Bugün Kur'an okunur ve 'Hızır'ın yüzü suyu hürmetine' diye bereket dilenilir. Yemeğin ardından bütün köy için **Hızır Duası** yapılır bu duada sağlık ve bereket dilenilir. (**a.g.e.)**

Kırıkkale Balışehir kasabası Bey Obası köyünde Hızır'ın temiz olmayan köye gelmeyeceği inancı vardır. O gün iş yapılması uğursuzluk getirir, güneş doğmadan kalkılır. Gül ağacı ile ilgili inançlar burada da vardır. Ateşten nazardan ve hastalıklardan korunmak için atlanılır ve Hızır'ın yeşillikleri sevdiğinden



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hareketle o gün piknik için yeşil yerler seçililer. Kızların kısmetlerinin açılması için başlarında **kilit** açılması uygulaması burada da vardır. Bugün küsler barıştırılır ve gençlerin tanışmalar sağlanılır.

Kırıkkale'nin Yaylayurt köyünde bereket getirmesi için yeni evli gelinlerin başında getiren yemek tepsisinden yemekler paylaşılır.

Kırıkkale'nin Kavaklı ilçesinde Hıdrellez kutlamaları **Hıdırlık** diye bilinen yerde yapılır. Hıdrelleze bir gün kala 5 Mayıs'ta kadınlar ellerine **kına** yakarlar ve ertesi gün ateşten atlanır, Gül ağacı uygulamalarına geçilir. 5 Mayıs'ta kırlardan 41 çeşit ot toplanır bu otlar bir küp veya kazana su ile birlikte konur. 6 Mayıs günü erkenden kalkarak genç ve zinde kalmak için bu su ile yıkanılır. Erken saatlerde dere kenarlarında ateşler yakılıp yemekler yenir. Bereketli olsun diye cüzdan ve ambarların kapıları burada da açık tutulur. 'Söğüt Dalı Asma' diye bilinen bir uygulama ile evlerin kapılarına söğüt dalları asılır ve böylece sağlık ve bereketin celbedildiğine inanılır.

Kırşehir Kaman ilçesi Değirmenözü köyünde Hıdrellez günü için '**Katkurma** ' diye bilinen bir yiyecek hazırlar. Bu gün '**Hıdrellez Suyu'** ile mutfakların kap kaçakları yıkanır. Birtakım çiçekler kaynatılarak şifa vereceği inancı ile suları içilir. Burada da yiyecek kapları ve cüzdanların, Hızır geldiği zaman dokunsun bereket bıraksın diye ağızları açık bırakılır. **Hıdrellez Günü** eğlence ve **Hıdrellez Gecesi** ibadet gecesidir.**(a.g.e.)**

культ героя в контексте шаманизма, приходит к выводу, что культ шаманов является формой культа этнических героев широко распространенного среди сибирских народов и народов региона Волги [20, 149,150]. В соответствии с Дж. Пентикайненом, в шаманистических культурах именно мифические герои часто рассматриваются как первые шаманы [22, 98]. В якутских мифах первые шаманы представляются как сыновья бога Неба. В бурятских мифах первый шаман порождается от женщины земного происхождения и орла, который расценивается как посланник богов. Во многих мифах алтайских народов первые шаманы имеют божественное происхождение [20, 150-151].

Если сопоставить все эти наблюдения с информацией о Геракле, то мы увидим, что обожествление Геракла проходит в рамках мифологии алтайцев и якутов. В приведенных выше античных источниках Геракл отождествляется с богом Неба (Зевсом), он вместе с женщиной «земного происхождения» (полудева-полузмея, рожденная Землей) порождает сына, оставляя ему шаманские атрибуты (лук, пояс и чашу). Если сопоставить миф о происхождении скифов от Геракла с мифологией народов Сибири, в которой, как правило, первый шаман рождается от бога и женщины земного происхождения, то приходим к выводу о том, что образ Скифа, рожденного от Геракла, является ни чем иным кроме как образом перво-шамана.

Что касается описания Геродотом ступни Геракла размером в два локтя, то этот сюжет имеет прямую параллель в эпосе «Кёроглу», где герой эпоса, опускаясь в подземное царство, предстает в образе героя великана [4, 27]. Объяснение данному сюжету мы опять-таки находим в мифологии тюркских народов Сибири, в которой, как мы уже указывали, объекты «небесного» и «подземного» миров моделируются по принципу либо гиперболизации, либо утверждения качеств противоположных качествам «среднего» мира [6, 16,28].

Разумеется, причину постепенного изменения и искажения образа Геракла надо объяснять формулой А. Хульткранца о тенденции культа героя к преувеличению и наделению его особыми качествами [20, 150]. Но с другой стороны, наблюдение М. Элиаде, установившего, что «экстатический опыт» шамана подвержен искажениям в большей степени, чем какой-либо другой религиозный опыт [13, 11], также должно быть рассмотрено как фактор, способствующий изменению с течением времени образа Геракла.

Подытожив отметим, что на основе вышеприведенного анализа нам удалось установить следующее:

- миф о происхождении скифов от Геракла является одним из самых древних, имеющихся у нас в наличии образцов мифологии шаманизма;
- данный миф зародился на самых первых этапах развития шаманизма;
- данный миф повествует о передаче Гераклом шаманского могущества и атрибутов шамана своему сыну;
- Геракл в этом мифе представлен в образе предка перво-шамана (позднее его образ трансформируется в образ бога);
- Сын Геракла в этом мифе представлен в образе перво-шамана;
- Наиболее полно образ «скифского» Геракла как и сюжет мифа, повествующего о нем, отражен в тюркском эпосе «Кёроглу», который также является одним из наиболее полных эпосов, связанных с шаманизмом.

1. Алексеев Н. А. Шаманизм тюркоязычных народов Сибири (Опыт ареального сравнительного исследования). Новосибирск, «Наука». 1984.
2. Гёр-оглы, Туркменский героический эпос. (Ред. Каррыев Б. А.). Москва, «Наука». 1983.
3. Деревня Огруджа, замок разбойника Урушана – Кероглы, его история, рассказ об Эриванском Сардаре. – Газета «Тифлисские Ведомости», 1830, № 68.
4. Каррыев Б. А. Туркменский героический эпос «Гёр-оглы» – Предисловие к книге «Гёр-оглы, Туркменский Героический Эпос». Москва, «Наука». 1983.
5. Короглу. (Ред. И. Аббаслы). Баку, «Сада». 2000.
6. Львова Э. Л., Октябрьская И. В., Сагалаев А. М., Усманова М. С. Традиционное мировоззрение тюрков Южной Сибири. Новосибирск, «Наука». 1988.
7. Парцингер Г. Германский Археологический институт: задачи и перспективы археологического изучения Евразии. – Российская Археология, 2002, №3, сс. 59-78.
8. Попов А. А. Тавгийцы. – Материалы по этнографии авамских и ведеевских тавгийцев, Труды Института антропологии и этнографии, I, 5, Москва–Ленинград, 1936.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

9. Раевский Д. С. Очерки идеологии скифо-сакских племен (Опыт реконструкции скифской мифологии). Москва, «Наука». 1977.

10. Balzer, Marjorie Mandelstam. “Shamanism and the Politics of Culture: An Anthropological View of the 1992 International Conference on Shamanism, Yakutsk, the Sakha Republic.” – Shaman 1: 2. 1993, pp. 71-96.

11. Chodzko A. Specimens of the Popular Poetry of Persia as Found in the Adventures and Improvisations of Kurroglou, the Bandit-minstrel of Northern Persia and in the Songs of the People Inhabiting the Shores of the Caspian Sea. New York. “Lenox Hill Publishers & Dist”. 1842.

12. Diodorus Siculus. Library of History, Volume II, Books 2.35-4.58 Translated by C. H. Oldfather. Loeb Classical Library. Harvard University Press, 1935.

13. Eliade, Mircea. Shamanism: Archaic Techniques of Ecstasy. Princeton. “Princeton University Press”. 1972.

14. Hasanov, Zaur. Historical and mythological parallels between the Legend of Herodotus about Cimmerians and “sons of blind slaves” and epos “Koroglu”. – 2006. The 1st New International Silk Road Cultural & Academic Conference (Myth, Nation, Literature). Baku. 2006, pp. 93-96.

15. Heinze, Ruth-Inge. “Symbol and Signs, Myths and Archetypes: A Cross-cultural Survey of the Serpent.” Shaman 10: 1-2. 2002, pp. 33-57.

16. Herodotus. Books III-IV, Translation and Commentary by A. D. Goodley. Loeb Classical Library, Harvard University Press, 1921.

17. Hoppál, Mihály. “Cosmic Symbolism in Siberian Shamanhood.” In J. Pentikainen (ed.) Shamanhood, Symbolism and Epic. Bibliotheca Shamanistica 9. Budapest. “Akademiai Kiado”. 2001, pp. 75-87.

18. Hoppál, Mihály. “Traces of Shamanism in Hungarian Folk Beliefs.” In Mihály Hoppál (ed.) Shamanism in Eurasia. Göttingen. “Herodot”. 1984, pp. 430-449.

19. Hultkrantz, Ake. “Shamanism: Some Recent Findings from a comparative Perspective.” In J. Pentikainen (ed.) Shamanhood, Symbolism and Epic. Bibliotheca Shamanistica 9. Budapest, “Akademiai Kiado”, 2001, pp. 1-9.

20. Hultkrantz, Ake. “The Shaman in Myth and Tales.” In Tae-gon Kim and Mihály Hoppál (eds.) Shamanism in Performing Arts. Bibliotheca Shamanistica 1. Budapest, Akademiai Kiado, 1995, pp. 145-158.

21. Levi-Strauss, Claude. “The Structural Study of Myth.” Journal of American Folklore, 1955. LXVIII, pp. 428-444.

22. Pentikainen, Juha. “The Shamanistic Poems of the Kalevala and their Northern Eurasian Background.” In Mihály Hoppál and Otto van Sadovszky (eds). Shamanism Past and Present. Part 1. Budapest: Ethnographic Institute Hungarian Academy of Sciences, Los Angeles/Fullerton International Society for Trans-Oceanic Research. 1989, pp. 97-102.

23. Revunenkova E. V. “Shamanism and Poetry”. In Mihály Hoppál and Otto van Sadovszky (eds). Shamanism Past and Present. Part 2. Budapest: Ethnographic Institute Hungarian Academy of Sciences, Los Angeles/Fullerton International Society for Trans-Oceanic Research. 1989, pp. 393-398.

24. Siikala, Anna-Leena. “Shamanistic Themes in Finish Poetry”. In I. Lehtinen (ed) Trances of the Central Asian Culture in the North. Helsinki. 1986.

25. Van Deusen, Kira. “Book Review: Mongush B. Kenin-Lopsan Shamanic songs and Myths of Tuva”. Shaman 1998. 6: 1, pp. 63-72.

## FROM SHAMANIC MYTHOLOGY TO THE TURKIC EPIC KEROGLU (AND MYTH OF THE SCYTHIANS’ DESCENDENCE FROM HERACLES)

The article examines and compares similar themes in the variations of the Turkic peoples’ epic “Keroglu,” on the one hand, and in several versions of the myth of the Scythians’ descendence from Heracles, on the other. The research has concluded that the Keroglu epic addresses the same set of images and symbols present in the “Scythian” Heracles myth, both the epic and the myth providing powerful examples of ancient shamanic mythology.

In order to trace the shamanic legacy in the epic and the myth, we used a method consisting in “breaking down” myths or legends to their smallest “constituent units”, analyzing each individual unit, and comparing them. The recurrent themes that will “seep to the surface” in the course of comparison will reveal the archetypal layers of the myth (Levi-Strauss 1955: 428-444).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# LƏTİFİ TƏZKİRƏSİNDƏ LƏTİFƏ VƏ RƏVAYƏTLƏR

***fil.e.n. Vüsalə Musali***

***Azərbaycan***

Təzkirələr orta əsrlərdən etibarən İslam Şərqində geniş yayılmış, ədəbiyyatçı və tarixçilər tərəfindən yazılan və uzun müddət əlyazma şəklində yayılan bio-biblioqrafik mənbələrdir. Dövlətşah Səmərqəndi və Əlişir Nəvai təzkirələrinin qazandığı şöhrət səbəbi ilə XVI əsrdən etibarən bu klassik nümunələrin təsiri altında Osmanlı ədəbiyyatında da təzkirələr yazılmağa başladı. Osmanlı ədəbiyyatında bizə məlum olan ilk təzkirəni 1538-ci ildə Səhi bəy qələmə almışdır. Səhi bəydən sonra Lətifi, Aşıq Çələbi, Qınalızadə, Bəyani bir-birindən dəyərli əsərlər yazmışlar. Lətifi təzkirəsini h. 953/1546-cı ildə tamamlayıb Qanuni Sultan Süleymana təqdim etmişdir. Əsər giriş, iki fəsil və xatimədən ibarətdir. Birinci fəsildə 13 şeyx şair, ikinci fəsildə 334 nəfər şair haqqında məlumat verilmişdir. Təzkirəni araşdırdıqda məlum olur ki, Lətifi əsəri yazmaq üçün başlıca üç qaynaqdan yararlanmışdır. Bunlardan birincisi daha əvvəl yazılmış təzkirələr, ikincisi məcmuə, divan, risalə və başqalarıdır. Üçüncü mənbələrə gəlincə bunlar şairlərlə bağlı nəql olunmuş rəvayət və lətifələrdir. Xüsusilə, İstanbul, Bursa, Ədirnə, Üsküp və başqa şəhərlərdə qurulan şeir məclisləri bu rəvayət və lətifələrin ocağı idi.

Şifahi xalq poetik yaradıcılığında hekayət səciyyəsi daşıyan rəvayətlər keçmişdə baş vermiş hadisələr və real şəxslər haqqında məlumatların məcmusundan ibarətdir. Lətifi təzkirəsində Əhmədi Rumi, Əhmədi, Kamalpaşazadə Əhməd Çələbi, Əhməd Paşa, Əndəlibi, Arifi Hüseyn Çələbi, Bəsiri, Cakəri, Dürri, Qəzali, Həyati, Heyrəti, Lamiyi, Lütfi, Məsihi, Rəvani, Sədi, Sağəri, Sayi, Mövlana Şəmi, Üsuli, Valehi kimi şairlərdən bəhs edərkən onlar haqqında eşitdiyi rəvayət və lətifələri vermişdir. Belə ki, Lətifi təzkirəsində Çakəridən bəhs edərkən dövründə lətifə və məzəli sözlərə dəyər verilmədiyini yazır: "...məgər o zamanda (Sultan Bayəzid – V.M.) məzəli söz və lətifəyə rəğbət, məzəli adamlara və söz ustalarına maraq varmış. Bir gözəl zarafat, məzəli söz bir məqamın verilməsinə səbəb olurdu. Bir lətifə ilə bir məqam və mərtəbəyə ucalmaq olurmuş. Çağımızda minlərcə məzəli söz və lətifə söyləsən, yüz cild kitab ortaya qoysan dövlət adamlarından biri dinləməz. Bunun qarşılığında nə isə verəcəklərini nəzərə alıb qulaq asmazlar" (3, 206).

Lətifi əsərində şairlər haqqinda eşitdiklərini nəql edərkən "mütayəbə", "lətifə" və "rəvayət edirlər ki" ifadələrindən istifadə edirdi. Məqalədə Lətifi təzkirəsində yer almış maraqlı rəvayət və lətifələri təqdim edirik.

Lətifi təzkirəsində Sultan Murad Xandan bəhs edərkən yazır: "Rəvayət edirlər ki, həftədə iki gün şair və bilginləri toplayıb diqqət və iltifatla əvvəldən sona qədər dinləyər, mübahisəyə başlamaq üçün hər həftə müvafiq adamlar təyin edirmiş. İstedadlıları digərlərindən üstün tuturmuş. Kimdə kiçik bir hünər sezsə onlarla maraqlanarmış. Məzəli adam yerində bir zarafat edərsə və ya bilikli biri çözümü çətin olan məsələni həll edərsə, onu daha uca məqama ucaldarmış. Qısacası bütün istedadlılara maraq göstərər, şeiri və şairi sevərmiş" (3, 138).

Təzkirəçi Əhmədi Rumini xatırlayarkən yazır: "İrfan sultanlarından biri, o şeir və nəsr ölkəsi valisinə yəni mərhum Əhməd Paşaya təxəllüs olaraq siz də Əhmədini götürmüsünüz və şeirlərinizdə adınızı təxəllüs edirsiniz. Bu vəziyyətdə xalq sizin gözəl sözlərinizi, şeirlərinizi Gelibolulu Əhmədini şeirləri ilə qarışdırarlar. Bunun cavabında Əhməd Paşa deyir: "Mənin gözəl sözlərimi ona istinad etmələri qəm deyil, yetər ki, onun boş sözlərini mənə istinad etməsinlər" (3, 169).

Iştirak eyləməyə gəl qeyri ilə məxləsdə,
Mühmələtını sənə itmiyələr ta istinad.
Yüri var ləfz-i münasib bulubən məxləs idün,
Məxləsindən çü bilür şairi əksər ustad.

Lətifi Kamalpaşazadə Əhməd Çələbi haqqında eşitdiyi lətifə nəql edir: " O, müftilik məqamında ikən arsız bir əsrarçı ona bu sualı verir: "Zeyd ramazanda yalançı sübh aydınlığı sırasında əsrarla iftar etsə nə lazımdır? "Cavab verib savaba girin, lütfən" demiş. O da zarafatyana cavab verir: "Kaba quşluqda qan heyran olmaq gərəkdir" (3, 162).

Məhəllində lətif olur lətifə,
Lətif olmasa lakin lütfi yoxdur.

Təzkirədə Əhmədi haqqında maraqlı rəvayətə rast gəlirik: "Rəvayət edirlər ki, Əhmədi "İsgəndərnamə"ni yazdıqdan sonra çağın tanınmışlarına təqdim olunmuş və bəyənilməmişdir. Bu tərz şeirlə dolu kitabdansa, bir qəsidə daha yaxşıdır demişlər. Həmin vaxt Şeyxi ilə eyni otağı paylaşan yaxın dost idi. Olanları Şeyxiyə danışır. Şeyxi həmin gecə Əhmədinin adından şeir yazır. Ertəsi gün Əhmədi şeiri həmin adamlara təqdim edir. Onlar şeiri yaxşıca nəzərdən keçirilər. Əhmədiyə bildirirlər ki, əgər bu qəsidə sənindirsə o kitab sənin deyil, əgər kitab sənindirsə qəsidə sənin deyil. Beləliklə iki şairin şeirini bir-birindən ayırmışlar" (3, 163).

Lətifi Əndəlibidən bəhs edərkən yazır: " Əndəlibi dövrünün tanınmışlarından birinin yanına iş üçün günlərcə gedib-gəlirmiş. Demə bu adam rüşvətlə iş görürmüş. Məlum olur ki, qapıda duranlar hədiyə ilə gələnlərə buyur, hədiyəsi olmayanlara əfəndim yatır deyirlər. Əndəlibi də sonunda bir baş şəkər, arı şanı və iki altun basıb onun utanmaz surətini utandırmışdır" (3, 405).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlünə zər alub varsan, əfəndi buyur dirlər,
Əgər dəstün təhi varsan, əfəndiyi uyur dirlər.

Təzkirədə Bəsiri haqqında aşağıdakı lətifə yer almışdır: "Bəsiri gözəl danışan, şirin dilli, gülər üzlü biri idi. Cüng və məcmuələrdə toplanmış rəngli lətifələri və lətifələrlə bağlı geniş bilgisi var idi. Bəsiri bir gün Rəvaninin yanına getmiş və qəsidə təqdim edərək qarşılığını gözləmişdir. Rəvani bəy də əlinin açıqlığını göstərmək üçün bir neçə axça yollamışdır. Göndərilən axçanın miqdarı onmuş, onun da beşi mis, beşi qurğuşunmuş. Bəsiri bundan çox incimiş və bir neçə beyt yazmışdır" (3, 190-191).

Lətifinin haqqında rəvayət nəql etdiyi şairlərdən biri də Çakəridir: "Rəvayət edirlər ki, onun gəncliyində zökəm xəstəliyindən saqqalı erkən ağarmışdı. Ona görə Çakəri saqqalını boyayırdı. Bir gün Sultan Bayəzid nədən ağ saqqalını qaraya boyayırsan deyə sual etmiş. Çakəri cavabında deyir: "Mən yaşımı bilirəm, saqqal yalan söyləyir. Görünüşdə güvənilir kimi durur, amma təmamilə yalan söyləyir. Bu səbəblə mən üzümə qara çəkib ondan intiqam aldım". Bu məzəli cavab padşahın xoşuna gəlmişdi" (3, 206).

Təzkirədə haqqında lətifə verilmiş şairlərdən biri də Həyatidir. "Həyati Posti adlı bir şairlə dostluq edərmiş və tez-tez zarafat edərmişlər. Bir gün Həyati lətifə yazıb Postiyə göndərir: "İt dərisi, donuz dərisi aşılanmaqla pak olar, ya olmaz". Posti də cavabında yazır: "həyatı da murdar, özü də" (3, 239).

Lətifi əsərində Heyrəti haqqında yazır: "Rəvayət edirlər ki, kor olmamışdan əvvəl bir gözələ vurulubmuş. Gözləri görməyincə dostlarından xahiş edir ki, gözəlin əlindən öpmək üçün ona şərait yaratsınlar. Mürvətsiz biri başqa bir qızı onun yanına gətirmiş və onun sevdiyi olduğunu söyləmişdir. Sonra bu rəzil işini hər yerdə qəh-qəhələrlə danışmışdır. Heyrəti bundan çox narahat olmuş və Allahdan ölüm istəmişdir. Həmin həftə də dünyadan köçmüşdür" (3, 240-241).

Təzkirədə Lütfi haqqında da lətifə verilmişdir: "Yaşlı bilginlərdən və səhn müdərrislərindən, Sultan Bayəzid dövrü dəftərdarı Leys Çələbinin eşiyi məmurlara sığınılacaq, baş vurulacaq yer idi. Günlərin birində bilginlərlə imtahana hazır olduğunu bildirdikdə Lütfi, Leys Çələbini nəzərdə tutaraq deyir: "Sənini adın naqis fellərdən, felin də elə. Sən bu mübahisəyə daxil deyilsən, var get amillərin ilə hesabını gör (3, 483). Sonra bu beyti söyləyir:

Görənlər, eşidənlər hep bəyəndi,
Əfəndim elmi ilə amil olmuş.

Lətifi Sağəri haqqında yazır: "Lətifə edirlər ki, könül əhli adamların toplanma yeri olan Ədirnə, qış mövsümündə yağış və qarın çoxluğu səbəbi ilə su ilə dolu olurmuş. Şairlərdən biri Ədirnəni bu beytlərlə tənqid etmişdir" (3, 294):

Ilahi lütf edib qurtar bizi bu şəhr-i batildən,
Kişi anı ne seyr etsin geçilmez ab ile gildən.

Ədirnə şairləri bu beyti eşidəndə hirslənmiş və hər biri bir beyt ilə cavab vermişlər. Amma ən çox Sağərinin cavabı bəyənilmişdir:

Şu kim şeytan gibi eyler şikayət ab ilə gildən,
Yüzünə yellən anın əsli oddur həzz edər yeldən.

Şair Sədi haqqında rəvayət belədir: "Sultan Cəmin müsahibi və nişançısı idi. Rəvayət edirlər ki, libasını dəyişdirib İstanbula gəlmiş və Sultan Cəmin ağzından bəzi adamlara məktub gətirib xəbər toplamışdır. Dövlət məmurları bunu öyrənib Sədini dənizə atmışdılar" (3, 334).

Təzkirədə şair Şəmi haqqinda nəql olunan rəvayət də maraqlıdır: "Rəvayət edirlər ki, Məsihi ilə Şəmi Qalatada seyr üçün kilsəyə getmişlər. Buradakı dilbərlər və gül üzlüləri seyr etməyə başlamışlar. Təsadüfən məzəli bir şair bunları kilsədə xristiyanlar arasında görüb, ikisinin bir yerdə olmasını şeirləşdirmişdir":

Qalatada Məsihi dəyrə varub,
Məgər Şəmi anənla belə getmiş.
Eşidənlər qələt edib dedilər,
Məsihi kilisəyə mum ilətmiş.

Lətifi təzkirəsindən üzə çıxardığımız rəvayətlər və lətifələr şairlərin həyat və yaradıcılığını öyrənmək baxımından maraqlıdır.

**ƏDƏBİYYAT:**

4. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998, 240 s.
5. Musalı V. XV-XVII əsrlər türk təzkirəçiliyi. Bakı: Nurlan, 2007, 270 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**İRAQ-TÜRKMAN FOLKLORUNUN JANRLAR SİSTEMİ**
**PROF. QƏZƏNFƏR PAŞAYEVİN DÜŞÜNCƏ SİSTEMİNDƏ**

***F.e.n. Seyfəddin Rzasoy***
***AMEA Folklor İnstitutu***

*(Konfrans günlərində Prof. Dr. Qəzənfər Paşayevin 70 illiyinə həsr olunmuş toplantıda məruzə edilmək üçün hazırlanmışdır)*

Filologiya elmləri doktoru, professor, folklorşünaslığa, dilçiliyə dair neçə-neçə əsərlər müəllifi Qəzənfər Paşayevin təkcə Azərbaycan folklroşünaslığı tarixində deyil, ümumiyyətlə, Azərbaycan ziyalılığı tarixində, bu millət və xalq qarşısında özünə məxsus xidmətləri olan vətəndaş ziyalıdır. Bu, Ulu Tanrının ona bəxş etdiyi tale payıdır. Allahı onun taleyinə uzun yollar yolçusu olmaq kimi əzablı və şərəfli yol yazmış, o da öz alın yazısının ardınca düşüb onun adını xalqının tarixinə yazmış, ilahi yolçuluq etmişdir. Yollar yorğunu, illər yorğunu Qəzənfər Paşayev İlahi nəzərindən iraq düşməmiş, ruhunu bu millətin ruhuna qatmış, canını cana, millətini millətinə, ulusunu ulusuna qovuşdurmuş, bizləri canımızın bir parçası olan Kərkük türklərinin vüsalına çatdırmış, özü də xalqının sevgisinə uğramışdır.

Hər bir insanını taleyində Tanrı naxışı var. Gərək naxışın gətirə. Tanrı prof. Qəzənfər Paşayevin taleyinə Kərkük-Türkman yolçuluğunu yazdı. Və bizlərdən hər kəs onu buna görə tanıdıq. Doğrudur, Allahı ona hər şey vermiş, yeməyə – çörəyini, içməyə – suyunu, gəzməyə – ayağını, oxumağa – gözünü, düşünməyə – beynini əsirgəməmişdir. Heç kəsdən geri qalmamış, ali məktəb, aspirantura qurtarmış, əcnəbi dillər öyrənmiş, namizədlik, doktorluq dissertasiyaları hazırlamış, alimlik dərəcəsi, dosent, professor adlarını almışdır. Və bütün bunlar Azərbaycan elminin tarixində qalmaq üçün ona bol-bol kifayət edərdi. Ancaq Tanrının yazısını pozmaq olmaz: onun adı təkcə Azərbaycan folklorşünaslığının, dilçiliyinin yaddaşına yox, həm də bu millətin şərəf kitabına yazılmalıydı. Bu da bir həqiqətdir ki, bizlər onu bir dilçi, folklorşünas alim kimi çox-çox sonralar tanıdıq. Xalqı onu ilk dəfə «Altı il Dəclə-Fərat sahillərində» kitabından tanıdı. Və bizlərdən hər kəsin yaddaşına gedib əlçatmaz yerləri görən, müqəddəs ziyarətgahlarda övliyalarımızın ətrini sinəsinə çəkib, nurunu ruhuna çiləyən Qəzənfər Paşayev adlı bir insanın adı yazıldı. Və bu yolçuluğun əsli niyyəti və mahiyyəti İraq türkmanlarının – canı canımızdan, qanı qanı qanımızdan olan millətdaşlarımızın folklorundan mətbuatda zərrə-zərrə, misra-misra, bənd-bənd çap olunanda aşkara çıxdı. Bizlərdən hər kəs ruhumuzun bir parçasının İraqda olduğundan çox gec xəbər tutduq. Allahın Qəzənfər adlı bəndəsinin, millətin Qəzənfər Paşayev adlı oğlunun ən ali və munis, uca və qüdsi əməli bizləri – bizlərə, bizləri canımızın bir parçası olan İraq türkmanların qovuşdurmaq oldu.

Azərbaycan türklüyünün bir parçası olan İraq türkmanları zəngin ənənəvi mədəniyyət xəzinəsinə sahibdir. Prof. Qəzənfər Paşayev onlar haqqında çox yazdı, ancaq bütün fikrini və zikrini, zehnini və düşüncəsini, felini və əməlini İraq türkmanlarının folklorunun toplanmasına və Azərbaycanda təbliğinə həsr etdi. O, bu yolu təsadüfi seçmədi: folklora sığınmağın, folklora tapınmağın ən ulu yol olduğunu müqəddəs həqiqət kimi dərk edib bu yolun yolçuluğuna uğradı.

Folklor yolu isə hər kəsin gedə biləcəyi adi bir yol deyil. Bu, uluların, böyüklərin, həqiqəti dərk edib, onu öz içindən, işindən və gücündən, tənindən və bədənindən, canından və ruhundan keçirə bilənlərin yoludur. Mən indiyə qədər iki belə kişi tanıdım: bunlardan biri Yaşar Qarayev, biri Hüseyn İsmayılovdur.

Bu kişilərdən birincisi folkloru düşüncəsinin və ruhunun məbədgahına çevirdi: ikincisi isə ruhunun və əməlinin məbədgahı etdi. Birincisi folklor məbədini düşüncəsində qurdu və onun feyzi ilə yaşadı: ikincisi bu məbədi həyatda qurdu və onun əzabının feyzi ilə yaşamaqdadır. Üçüncü kişinin – prof. Qəzənfər Paşayevin taleyinə bizim qəlbimizdə İraq türkmanlarının sevgi məbədini tikmək düşdü. O, bu məbədin palçığını-kərpicini, suyunu-şirəsini folklordan aldı, xeyrini-bərəkətini folklordan aldı. Və özünü millətin tarixi ilə təsdiq edən tarixi addım atdı. Çünki prof. Qəzənfər Paşayevə görə, «xalqın ən böyük milli sərvəti folklordur, folklor sözün həqiqi mənasında xalqın ruhu, psixologiyası, tarixidir. Onun istək və arzularının, təsəvvür və təfəkkürünün, mənəvi aləminin güzgüsü, tükənməz incilər xəzinəsidir» (Q.Paşayev. İraq-Türkman folkloru. B., Yazfıçı», 1992, s. 5).

Prof. Q.Paşayev İraq türkmanlarının varlığını, ruhunu anlamaq və bizlərə anlatmaq üçün böyük alim və vətəndaş, millətdaş əzablarına qatlaşdı. Bu əzabların şahidi olmuş Əbdüllətif Bəndəroğlu yazır: «Qardaşımız Qəzənfər Paşayev İraqda yaşadığı uzun illər boyunca həm İraq xalqını yaxından tanıdı, həm də İraqda yaşayan, qonuşduqları dilin Azərbaycan dilindən fərqi olmayan İraq türkmanlarının ədəbiyyat və folkloru üzrə tədqiqatını davam etdirdi. İraq türkmanlarının folklorunu azərbaycanlı qardaşlarımıza çatdırmaq üçün tədqiqatçı alim, folklorşünas Qəzənfər Paşayev böyük çətinliklərə qatlandı. Yorğunluq bilmədən yaradıcılığını sürdürdü. Gözəl və unudulmayan əsərlər ortaya atdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qəzənfər Paşayevin İraq türkmanları ilə əlaqəli çap etdirdiyi qiymətli folklor kitabları Oğuz kökündən və soyundan olan azərbaycanlılarla İraq türkmanlarının nə qədər bir-birlərinə dil və folklor baxımından bağlı olduqlarını, yüzillər boyunca zamanın qopartdığı qanlı və dumanlı qasırğalara baxmayaraq, genə də dədə mirasına, Dədə Qorquda, əzabkeş Nəsimiyə, Kərbəlanın müqəddəs torpağında uyuyan böyük Füzuliyə olan bağlılıqlarını göstərmək üçün ölümsüz bir tarixdir. Bu gerçək tarixi bizdən sonra gələn nəsillər oxuduqca öz xalqlarına, dillərinə, tarixlərinə, adət-ənənələrinə, milli miraslarına, doğma torpağın müqəddəsliyinə sayğılarını artıracaqdır» (Göst. kitab, s. 3).

Prof. Qəzənfər Paşayev İraq türkmanlarına aid apardığı tədqiqatlar, gördüyü işlər vasitəsi ilə artıq zəngin və dəyərli bir biblioqrafiya yaratmışdır. Bu xəzinənin hər bir kitabı, hər bir məqaləsi dəyərlidir, qiymətlidir. Fəqət bu əsərlər içərisində alimin «İraq-Türkman folkloru» kitabının xüsusi yeri vardır.

Alimin «İraq-Türkman folkloru» kitabı bənzərsiz bir əsərdir. Bizdə Azərbaycanın folklor mühitləri haqqında çox dəyərli əsərlər yazılmışdır. Lakin «İraq-Türkman folkloru» monoqrafiyası təkcə bir əsər olmayıb, Azərbaycan tarixinin monumental İraq-Türkman səhifəsi, yaddaş tariximizin şərəfinə qoyulmuş abidədir.

Elmin tarixində həmişə iz qoyan, yol açan, örnək verən əsərlər olur. Azərbaycan folklorşünaslığında belə əsərlər zaman-zaman meydana çıxmışdır. Necə ki, H.İsmayılovun «Göyçə aşıq mühiti» monoqrafyası. Bu əsər təkcə Göyçənin yaddaş kitabı olmadı, Azərbaycan mədəniyyət tarixinə güzgü tutub, onun əsli mahiyyətini bizlər üçün aşkarladı. Prof. Qəzənfər Paşayevin də «İraq-Türkman folkloru» kitabı belə yol açan, iz qoyan, adı elmin tarixinə yazılan olsun. Bu əsərin dəyərini anlamaq üçün insanın içərisində gərək millət, xalq yanğısı olsun, türkman sevgisi alovlansın. Bu baxımdan, Əbdüllətif Bəndəroğlunun əsər haqqındakı sözlərini həyəcansız oxumaq olmur. O yazır: «Qəzənfər Paşayevin «İraq-Türkman folkloru» kitabına bənzər bir kitab indiyə qədər nə İraq türkmanları tərəfindən, nə də İraq türkmanlarının folkloru ilə məşğul olan xarici alim və tədqiqatçılar tərəfindən yazılmışdır. Qəzənfərin yazdığı bu əsər bizim üçün, yəni İraq türkmanları üçün sevgi və sevinc doğuran, könüllərdə yaşayıb-unudulmayan, işıqlarla dolu bir əsər kimi qalacaqdır... Ağlasığmayan yorğunluqların məhsulu olan bu misilsiz əsəri İraq türkmanları arasında folklor sərçivəsində bir şah əsər kimi qiymətləndirmək daha doğrudur» (Göst kitab, s. 3-4).

Qeyd edək ki, prof. Qəzənfər Paşayevin bu kitabının elmi məziyyətləri zəngindir. Burada onların hamısından danışmaq imkansızdır. Biz diqqəti İraq-Türkman folklorunun janrlar sisteminin monoqrafiyada necə modelləşdirilməsinə yönəltmək isəyirik. Şübhəsiz ki, bu işin özü böyük bir tədqiqatın mövzusudur. Odur ki, biz burada mövzunu tezislər şəklində ifadə etməyə çalışacağıq.

1. Prof. Qəzənfər Paşayev İraq türkmanlarının folklorunu janr sistemi baxımından təsvirini və təhlilni verərkən təhlil modeli kimi iki çıxış nöqtəsini əsas götürmüşdür:

Birincisi, hər hansı folklor mühitinin öyrənilməsinin mövcud təcrübəsi. Belə ki, Azərbaycan folklorşünaslığında və türkologiyada ayrı-ayrı folklor mühitlərinin öyrənilməsinin nəzəri-metodoloji təcrübəsi mövcuddur.

İkincisi, İraq-Türkman folklorunun janr özünəməxsusluğu. Belə ki, hər bir folklor mühitini digər mühitlərlə birləşdirən ortaq cəhətlər olduğu kimi, onu digər mühitlərdən fərqləndirən əlamətlər sistemi də mövcuddur.

Təqdirəlayiqir ki, prof. Qəzənfər Paşayev İraq-Türkman folklor muhitini janrlar sistemi baxımından təsvir edərkən hər iki cəhəti uğurla nəzərə almışdır.

2. Monoqrafiyada İraq türkmanlarının folkloru aşağıdakı baxış səviyyələrində əhatə olunmuşdur:

- Tarixi-diaxronik səviyyədə;
- Növlər səviyyəsində;
- Janrlar səviyyəsində.

Əsərdə bu yanaşma istiqamətlərinin hamısı sona qədər, bitkin şəkildə reallaşdırılmışdır. Bu da tədqiqatın sistemliliyini təmin etmişdir. Qeyd etmək istərdik ki, bu yanaşma istiqamətlərinin müvaziliyi və mütənasibliyini təmin etmək o qədər də asan məsələ deyildir. Çünki folklorun tarixi-diaxron strukturu ilə onun sinxron struktur qatları olan növ və janrların mütənasibliyini təmin etmək çətin məsələdir. Belə ki, bunlar fərqli baxış müstəviləridir və həmin baxış müstəvilərini vahid baxış kontekstinə gətirmək üçün folklorun tarixi inkişafı ilə onun müasir durumunun kəsişdiyi konteksti tapa bilmək lazımdır. Təqdirəlayiqdir ki, prof. Q.Paşayev İraq-Türkman folklorunun tarixi inkişaf dinamikası ilə çağdaş həyat ritmlərini vahid tədqiqat müstəvisində modelləşdirməyə nail olmuşdur.

3. Monoqrafiyanın arxaik janrlardan bəhs edən hissəsi inanc, yeamind, dua və bəddua, fal janrlarını əhatə edir. Prof. Qəzənfər Paşayev nəinki bu janrların poetik strukturunu təsvir etmiş, eyni zamanda onlarda donmuş zamanı, daşlaşmış düşüncəni onun funksional sxem və formulları səviyyəsində aşkarlaya bilmişdir.

4. Tədqiqatın xalq mərasim və nəğmələrindən, yas və toy mərasimləri, onların poetik mətn fondundan bəhs edən fəslində İraq-Türkman folklor dünya modelinin söz kodu dinamika-hərəkət


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müstəvisində tədqiq olunmuşdur. Başqa sözlə, alim sözlə jestin, danışıqla hərəkətin sxemləşdiyi, etnosun davranış sisteminin formulları səviyyəsinə çatdığı məqamı düşüncə hədəfinə çevirərək Azərbaycan-türk folklor düşüncəsinin İraq türkmanlarının yaddaşında yaşayan prinsip və qanunauyğunluqlarını rekonstruksiya etmişdir.

5. Tədqiqatın İraq-Türkman folklorunun lirik növündən bəhs edən fəslində xoyratlar, manilər, xalq mahnıları, aşıq havaları, beşik nəğmələri, bayatı-tapmacalar öyrənilmişdir. Prof. Qəzənfər Paşayev bu janrların hər birinin özünəməxsus poetikasını təsvir və təhlil etməklə yanaşı, həmin janrları İraq_türkmanlarının folklor düşüncəsnin lirik kodunu hərəkətə gətirən, onun məzmununu və formasını təşkil edən paradiqmatik vahidlər kimi bərpa etməyə nail olmuşdur.

6. Kitabın İraq-Türkman folklorunun epos sistemindən bəhs edən fəslində dastanlar, nağıllar, atalar sözləri və məsəllər, tapmacalar və lətifələr tədqiq olunmuşdur. Prof. Qəzənfər Paşayevin bütöv kitabda və bu fəsildə apardığı araşdırmanın özəlliyi ondadır ki, o, folklorun janrlarını bütün hallarda bir sistem daxilində öyrənməyə və onların sistem xarakterini aşkarlamağa çalışmışdır. Biz bunu bu fəsildə də müşahidə edirik. Alim burada hər bir janrı ayrıca öyrənməklə yanaşı, bu janrların düzümündən yaranan, hasilə gələn epos sistemini bərpa etməyə çalışmışdır. Başqa sözlə, janrlar janrdaxili müstəvidə öyrənildiyi kimi, janrlararası müstəvidə də tədqiq olunmuş və bununla da epik sistem üçün xarakterik olan prinsip və qanunauyğunluqlar tədqiqat müstəvisinə daxil edilmişdir.

Sonda bildirmək istəyirik ki, prof. Qəzənfər Paşayevin bu əsəri sistemli bir tədqiqat olduğu kimi, onun «türkmanşünaslıq» sahəsindəki fəaliyyətinin özü də bitkin bir sistemdir. Bu baxımdan, alimin İraq-Türkman folklorunun janrlar sistemindən bəhs edən monoqrafiyasının öyrənilməsi sistemə daxil olan başqa çalışmaları da tədqiqə cəlb etməyi tələb edir. Belə hesab edirik ki, özünün İraq-Türkman çalışmaları ilə Azərbaycan folklorşünaslığı və filologiyasında böyük bir yol açmış prof. Q.Kazımovun uğurla davam edən türkmanşünaslıq araşdırmaları xüsusi bir monoqrafiyanın mövzusu olmağa layiqdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# M Ü N D Ə R İ C A T

**Mahmud Kərimov.** «Ortaq Türk keçmişindən Ortaq Türk gələcəyinə» Uluslararası Folklor Konfransında açılış nitqi ……………………………………………………………….3
**Hüseyn İsmayılov.** Konfrans iştirakçılarına müraciəti …………………………………………...5
**Azad Nəbiyev.** Ağiz ədəbiyyatinda folklor ənənələri (Azərbaycan türklərinin şifahi ədəbiyyat materiallari əsasinda)……………………………………………………………………..10
**Abbasqulu Nəcəfzadə.** Dədə Qorqudun məzar yeri haqqında Əlihüseyn Dağlının «Ozan qaravəli» əsərində mülahizələr………………………………………………………...14
**Abbas Hüseynli.** «Dədə Qorqud» dastanında insan haqları………………………………………..17
**Adil Cəmil.** Ortaq türk keçmişi və «Manas»……………………………………………………….20
**Ağaverdi Xəlil. Arxaik ritualın janra transformasiyasında motiv səviyyəsi** (“Kitabi-Dədə Qorqud” eposunun materialları əsasında)………………………………………………………...23
**Ataş Əhmədli.** Şirvan folklorunun coğrafi, tarixi və etnoqrafik əsasları…………………………..26
**Акамов А.Т.** Общетюркские художественные традиции в духовной литературе кумыков (на примере творчества Абдурахмана из Какашуры)……………………………29
**А.М.Аджиев, М.А. Аджиев.** К вопросу о культурно-исторических взаимосвязях Азербайджана и Дагестана…………………………………………………………………...32
**Əli Bərazəndə.** Təbrizdə qorxu götürmə dəblərində şaman izləri……………………………………35

**Anar Niftəliyev.** «Kitabi Dədə Qorqud» şaman abidəsi kimi at ağuzlu Aruz Qoca…………...…47
**Aynurə Səfərova.** Azərbaycan folklorşünaslığında adqoyma motivinin tədqiq tarixinə dair (M.Seyidovun araşdırmaları əsasında)……………………………………………..57
**Алие Ясыба/Ятсы.** Национальная музыка крымских татар. Ономастикон в крымско-татарском народном песенном творчестве………………………………………….60
**Araznepes Mammetjumayew**. Zühre ile Tahir süjesine göre türkmen edebiyatindaki masallar, rivayetler, halk dastanlari……………………………………………………………62
**Ахмет Сулейманов.** К вопросу фольклоризации литературных эпических сюжетов…………67
**Ağalar Mirzə.** Şirvanda ilkin aşıq mühitlərinin tipoloji və regional xüsusiyyətləri (Dərbənd-Şabran)……………………………………………………………………………...72
**Atif İslamzadə**. Oğuz epik ənənəsində folklor missiya daşıyıcılığı…………………………………82

**Almaz Həsənqızı.** Azərbaycan mühacirət folklorşünaslığının əsas istiqamətləri..........................90
**А.М.Казиева.** Архаичные формы фольклора в хронотопе балкарской прозы конца XX века…93
**Avtandil Ağbaba.** Ağbaba-Çıldır aşıq mühitində Aşıq Nəsibin yeri………………………………99
**Бакытгул Кулжанова.** Роль устного народного творчества казахов в воспитании подрастающего поколения и его взаимосвязь с «Кутадгу Билиг» **(XI в.) Юсуфа Баласугуни** ……………..106
**Bilgehan Atsız Gökdağ.** İran’da türkçenin çalarları (varyantlar) ve başlıca çalışmalar…………….115
**Борис Тетуев.** К проблеме становления карачаево-балкарской авторской историко-героической поэзии XIX – начала XX века……………………………………….122
**Бурхан Берберов.** Два «Манаса»: интертекстуальный диалог…………………………………..132
**Behrooz Imani.** Türkəmən türklərində toy-duyun ənənəsi………………………………………..135
**Cemal Ayrumlu.** «Heydər bəy» dastanı haqqinda bəzi mülahizələr və qeydlər……………………137
**Əbdüləli Mücazi.** Azərbaycan və Güney məntəqəsinin folklorindan örnək……………………...139
**Əkrəm Hüseynzadə.** Xalqımızın ulu dastanında tayfa və yer adları…………………………...143
**Ələs Qasımov.** Mövsüm mərasimi oyunlarının poetik xüsusiyyətləri …………………………...145
**Eflatun Neimetzade.** Geleneksel türk tiyatrosu ve karagöz oyununda sosyo- kültürel özellikler…..151
**Əli Şamil.** Sözdə birincilərdən olan Aşiq Qarani…………………………………………………152
**Enver Uzun.** Mitolojik unsurlariyla yagmur duasi ve yagis rituelleri……………………………….159
Türk dünyasi âşiklik geleneğinin geleceğe taşinmasi….. ……………………………….166
**Esmira Gözəlova.** Laylalar…………………………………………………………………………..173
**Əzizxan Tanrıverdi.** «Dədə Qorqud Kitabı»nda dilin funksiyaları…………………………...179
**Əfzələddin Əsgər.** Oğuznamələr və Rəşidəddin oğuznaməsi……………………………………...186
**Əli Kərimbəyli.** Türk folklorunda mifik süd simvolunun kosmoloji semantikasi…………………..194
**Elnarə Tofiq qızı.** «Koroğlu» dastanının Azərbaycan tədqiqatı……………………………………204
**Emin Ağayev.** Professor M.Seyidovun Azərbaycan mifik təfəkkürünün qaynaqlarina baxışları…...217



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Э.Н.Гаджиев.** О проблеме функционально-семантического поля аспектуальности в тюркских языках ……………………………………………………………………….222
**А.Т.Сибгатуллина.** Запрещенная полицией книга о Наврузе…………………………………..225
**Ф.М. Ибрагимова.** Влияние азербайджанских «байаты» на песенную лирику народов южного Дагестан (рутулов, агулов, цахуров)……………………………………228
**Ф.А.Муратчаева.** Фольклорный текст как объект лингвистического исследования кумыкского языка…………………………………………………………..229
**Fuzuli Bayat.** Ev iyesi ve ya damdabacalarin sosyo-kültürel dokusu……………………….231
**Fərəh Cəlil.** Türk etnomədəni düçüncəsində saç faktoru və onun folklorda təzahürü (Sari Gəlin mahnısının mətni əsasında)…………………………………………………236
**Fidan Qasımova.** Türk mifologiyasinda ilkin əcdad kultlari və onlarin tarixi-mifoloji mənşəyi…...239
**Fikret Türkmen.** Oğuz-name'nin Kazan yazmasinda Cengiz han'la ilgili rivayetler ve Cengiz han'in türk illerine isim vermesi…………………………………………………..243
**Harid Fedai.** Sabr u Sebat'taki deyimler ve atasözleri……………………………………………249
**Hüseyn Mohəmmədxani.** Dədə Qorqud kitabının dresden nüsxəsi də köçürülmədir……………250
**Hikmət Quliyev.** Azərbaycan məhəbbət dastanları süjetinin tam şəkildə yazıya keçirildiyi ilk mənbə: «Şəhriyar» dastanı…………………………………………………………………**254**
**Gülbəniz Babaxanova.** Türk xalqlarının ortaq ənənələrini yaşadan şair………………………..263

**İbadət Rüstəmov.** Keşlər……………………………………………………………………….270
**İbrahim Bahadır.** Anadolu'da kadin evliyalar…………………………………………………...272
**Halil İbrahim Şahin.** Behlül Danende fikralarinin modern mizah teorilerine göre tahlili………….279
**Ilham Abbasov.** "Bayati" sözünün mənşəyi qədim janrın adı haqqında yeni mülahizə………….284
**Империат Халипаева.** «Слово о полку Игореве» и кумыкский героический эпос – взаимовлияние культур………………………………………………………………..288
**Islam Sadiq.** "Koroğlu eposunun nəşrləri ilə bağli təhriflər və onlarin təshihi……………………..293
**İsmayıl Vəliyev.** Quar mifik obrazı və onun funksional xüsusiyyətləri……………………………301
**İsmet Çetin.** Türk dünyasinda folklor çalişmalari, problemler ve çözüm yollari……………………303
**Kamilə Dadaşzadə.** Epik əsərlərin musiqi hermenevtikasi problemlərinə dair……………………..312
**Kəmalə İslamzadə.** Hisslərin tərcümanı – xalq mahnıları………………………………………315
**Kamil Hüseynoğlu.** Dədə Qorqud tarixi şəxsiyyət kimi……………………………………………...322
**Kazım Əbbasi.** Xatirələrdir nağıllar; tarixin izləri nağıllarımızda ……………………………….327
**Kemal Üçüncü.** Türk dünyasi destancilik geleneği ve bu gelenek içerisinde Alpamiş destani……..329
**Kübra Əliyeva.** Azərbaycanda islama qədərki dini inamlar və onların ədəbiyyat və incəsənətdəki prototipləri………………………………………………………………….330
**Könül Nəsirova.** Mürsəl Həkimov Azərbaycan folklorşünaslığının tədqiqatcısı kimi…………..336
**Kemale Yilmaz.** Türk aile terbiyesinde masallarin rolü………………………………………..339
**Ləman Süleymanova.** Folklor məclisləri…………………………………………………………341
**Лена Мамедова.** К Вопросу о достоверности древнебулгарского памятника «Сказание о дочери Шана» Микаиля Башту………………………………………………348
**Lətafət Ələkbərova.** Azərbaycan xalq nəğmələrinin toplanması və nəşrində SMOMPK məcmuəsinin rolu…………………………………………………………………354
**Luiza Rukhadze, Nanuli Katcharava.** Birkaç alinti kelimenin tahlili……………………………**356**
**М.Ч.Чеерчиев.** Азербайджанские лексические заимствования в Закатальском диалекте аварского языка…………………………………………………………………...358
**Maarifə Hacıyeva.** Novruz Azərbaycan və Türk salnaməsində………………………………...360
**Mahmud Allahmanlı.** Qədim türk dastanlarında zaman və məkan problemi……………………365
**Mesut Çapa.** Türkiye'de folklor çalişmalari üzerine bir deneme (1923-1950)……………………...374
**Möhsün Nağısoylu.** XV-XVI əsrlər Azərbaycan tərcümə əsərlərində xalq deyimləri və atalar sözləri……………………………………………………………………………375
**Marzena Godzińska.** The story about unimportant treasure………………………………………...379
**Малик Гусейнов.** Современные интерпретации прозы Ю.Гереева……………………………382
**Məhəbbət Paşayeva.** Azərbaycanda balla bağli inanclar…………………………………………..384



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Məhərrəm Cəfərli.** Naxçıvan miflərinin poetikasına dair……………………………………………388
**Məhsəti İsmayıl.** Əfsanələrdə əjdaha motivi……………………………………………………..392

**Minara Aliyeva Esen.** Türkiye'ye göç eden ahiska türklerinin evlilik adetlerinde görülen kültür değişmeleri……………………………………………………………………………….395
**Mübariz Xəlilov.** İlk orta əsrlərdə Azərbaycanda dəfn ayinləri…………………………………398
**Mustafa Vüqar Öməroğlu.** Uyğurlarda Novruz ənənələri…………………………………………403
**Mehmet Okur.** Tatürk dönemi Türkiye'de folklor araştırmaları…………………………………408
**Neslihan Durak.** İlhanlı devleti'nin kuruluşuna kadar geçen sürede Azerbaycan'da moğollar……..409
**Nahide Şimşir.** Kazak ve Anadolu türklerinde evlenme adetleri karşılaştırma denemesi…………414
**Nailə Əskər.** Unudulmuş aşıq: Aşıq Nəsib…………………………………………………………422
**Nargül Bayramova,** Kızlar Aşırova. Azerbaycan ve Türkmen manılerınde kültürümüzün ortaklıklar……………………………………………………………………...425
**Nazilə Məmmədova.** Qaçaq Kərəm…………………………………………………………………426
**Nəbi Əsgərov.** Ulaşlı etnonimi areal türk onomastikasında……………………………………432
**Nizami Məmmədov.** Qaqauzların toy-düyün mərasimləri…………………………………………434
**Ömer Aslan.** Türklerde hoşgörü örnekleri……………………………………………………...438
**Oraz Yagmur.** Türkmen folklorunda Azerbeycan teması…………………………………………...441
**Oruc Əliyev.** Nağılda adaxlı seçmə ……………………………………………………………443
**Osman Fikri Sertkaya.** Kitab Dede Korkut'ta basat okunan isim üzerine yeni görüşler………449
**Pərvanə Bayram.** Seyid Nigarinin çaynamə məsnəvisi……………………………………………..454
**Pərvanə Məmmədli.** «Varlıq» jurnalının səhifələrində folklor materialları………………………461
**Qalibə Hacıyeva.** Folklor nümunələri dialekt və şivələrin ana qaynağıdır………………………465
**Qara Namazov.** Türk əsilli "erməni" aşıqları……………………………………………………..469
**Qasım Hacıyev.** Qədim türk diyarı Bərdə…………………………………………………………472
**Qəzənfər Paşayev.** Ortaq türk dəyərlərimiz və Mikayıl Azaflı……………………………………473
**Qüdrət Umudov.** «Koroğlu»: epik ənənə və qəhrəman tipologiyası………………………………477
**Qumru Şəhriyar.** Mehmet Fuad Köprülüzadə və onun «Dədə Qorqud» araşdırmaları……………485
**Rafiq İmrani.** XIV-XV əsrlərdə Azərbaycan və Türk musiqi janrlarının bərpası …………………494
**Osman Sezgin.** Türk millî kültürünün oluşumunun dinamikleri ve küreselleşme…………………..501
**Ramiz Əskər.** «Divanü lüğat-it-türk»ün tədqiqi tarixi………………………………………………509
**Рена Мамедова.** О музыкальной тюркологии……………………………………………………519
**Rövşən Əlizadə.** Türk epos ənənəsində əcdad kultu………………………………………………..524
**Roza Eyvazova.** İran Türk ləhcələrində folklor nümunələri………………………………………532
**Ruhi Ersoy.** Ortak gelecek oluşturma bağlaminda türk dünyasi folkloru'nu uygulamali çalişmak üzerine bazi görüş ve düşünceler……………………………………………………...536
**Rüstəm Rəsulov.** " Dədə d": və ə ə
**ettin Gömeç.** Bir başka türk dünyası…………………………………………………………………544
**Şakir Albalıyev.** Hal – div-əzrayıl obrazlarının səciyyəsi……………………………………………..547
**Самиля Хурдамиева.** К вопросу об этноспецифике паремий дагестанских азербайджанцев……...556
**Шахидат Курмангулова.** К вопросу об этнохудожественной основе ногайской литературы: проблемы истоков…………………………………………………………………572
**Sebahattin Şimşir.** Ahmet baytrusunoğlu ve kazak dili'ne dair çalışmaları………………………..575
**Гаджиева Сабина.** Погребальный обряд древних египтян (на материале «Книги мертвых»)………………………………………………………………………...577
**Səbinə İsayeva.** Aşıq Şəmşir yaradıcılığında dini motivlər………………………………………..581
**Sədaqət Həsənova.** «Füyuzat» jurnalının leksikasında ümumtürk dili vahidləri…………………..587
**Sədnik Paşa Pirsultanlı.** Tikmədaşlı Xəstə Qasımın sələfləri və xələfləri………………………...593
**Hikmət Quliyev, Səfa Qarayev.** Azərbaycan folklorunda dərviş obrazının poetik-semantik strukturuna dair...........................................................................................601
**Sevil Ağabəyli.** «Koroğlu» dastanında antroponimlərin - kişi şəxs adlarının tədqiqi……………….602
**Seyfəddin Altaylı.** Başina dolanmaq (dönmək); əlinə (gözünə) dönmək deyimlərinin yozumu……610
**Светлана Орус-оол.** Современные вопросы текстологии тувинского эпоса…………………...614
**Tacir Səmimi.** Məhəbbət dastanlarımızda ölüb-dirilmə motivi…………………………………..619



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Тамара Хапчаева.** Значение фольклора в сохранении миноритарных языков………………..622
**Татьяна Хапчаева.** Образ легендарного предводителя племен северного
Кавказа къарчи в фольклоре …………………………………………………………….624
**Tofiq Hacıyev.** Şumer mifi və Azərbaycan tarixi…………………………………………………626
**Tohid Məlikzadə.** Azərbaycan'da urartu zamanina aid abidələrlə əlaqəli əfsanələr və inanclar…….630
**Tuba Murat.** Kazakistanda halk hekimliği uygulamalari…………………………………………...631
**Turhan Kaya.** Türkiye âşiklik geleneğinde âşik kollari ve şenlik kolu…………………………….632
**Ulduz Mürşüdova.** Azərbaycan-Türk və Şimali Amerika - Hindu folkloru……………………….633
**Ülkər Əliyeva.** «Azərbaycan yurd bilgisi» dərgisində «Cavad xan» dastanı……………………….639
**Ülkər Hacıyeva.** «Koroğlu» dastanının Tiflis variantı……………………………………………646
**Ü.A.Nəbiyeva.** İlk oğuz dastanları və onların tarixi coğrafiyası………………………………648
**Vaqif İsrafilov.** Oğuz mənşəli toponimlər dilimizin tarixini yaşadır………………………………..660
**Vəli Baxşəliyev.** Azərbaycan folkloru və qədim sənət nümunələrindəki maral obrazının mifoloji
xüsusiyyətləri……………………………………………………………………….664
**Xəliyəddin Xəlilli.** Ümümtürk etnogenezinin formalaşması və regional məskunlaşmalarla
xalqlar kimi təşəkkülü………………………………………………………………….667
**Xatirə Bəşirli.** M.Süleymanlının yaradıcılığında tarixilik…………………………………………...672
**Xəzirə Heydərli.** «Şah İsmayıl» dastanının «Şah İsmayıl və Gülzar xanım» variantı……………...674
**Хамид Малкондуев.** Карачаево-балкарский песенный фольклор о нашествии
Аксак Темира…………………………………………………………………………...676
**Xuraman Hümmətova.** Etnopsixoloji yaddaşda torpaq və dərviş kultu…………………………680
**Yaqut Əşrəfova.** Aşıq Əhmədin dastan yaradıcılığında Azərbaycan dastançılıq
ənənələrinin davamı……………………………………………………………………685
**Yasar Kalafat.** Turk kultur cografyasinda Hz. Hizir ile ilgili inanclar…………………………...689
**Yaşar Qasımov.** Qədim türk etno-mədəni sistemi və «Alpamış» eposu (əsas tezislər)…………….696
**Zeki Kaymaz.** Ahmet Baytursinuli'nin eserindeki atasözleri ve deyimler üzerine………………….699
**Zümrüd Səmədova.** Aşıq Valehin həyat və sənətkarlıq irsinə dair (Zaqatala
aşıq mühitinin nümayəndəsi kimi)……………………………………………………...701
**Гасанов Заур.** Элементы шаманизма в эпосе «Кёроглу» и в мифе о происхождении
скифов от Геракла……………………………………………………………………...706
**Vüsalə Musali.** Lətifi təzkirəsində lətifə və rəvayətlər……………………………………………716



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com